Azərbaycan Respublikası
Xarici İşlər Nazirliyi

AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ

5631

Sənədlər məcmuəsi

2007

II hissə

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı
2009

Redaksiya kollegiyasının sədri:
Xarici işlər naziri Elmar M. Məmmədyarov

Redaksiya kollegiyasının məsul katibi:

XİN-in idarə rəisi Bayram K. Həsənov

Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi. 2007. İkinci hissə.
Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi.
Bakı, "GARİSMA" MMC, 2009-cu il. - 1040 səh.

ISBN 978-9952-8129-9-2

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycanın xarici siyasəti" adlı sənədlər məcmuəsinin silsilə nəşrini davam edir. Məcmuənin yeddinci buraxılışı 2007-ci ildə Azərbaycan diplomatiyası və xarici siyasətinin ən vacib sənədlərini əhatə edir. Sənədlər məcmuəsi iki hissədən ibarətdir.

Məcmuənin ikinci hissəsini lAzərbaycan Respublikasının qanunvericilik toplusu»nda, lAzərbaycan Respublikası Milli Məclisinin Məlumatı»nda, lAzərbaycan Respublikasının normativ aktlarının bülleteni»ndə və digər mənbələrdə nəşr edilmiş xarici siyasətə dair Azərbaycan Respublikasının normativ hüquqi aktları təşkil edir. Onların bir nəşrdə cəmləşdirilməsi Azərbaycanın bu dövrdəki xarici siyasətini daha dolğun göstərməyə imkan verir.

Bir sıra materiallar ilk dəfə olaraq təqdim edilir. Sənədlər xronoloji ardıcıllıqla nəşr edilmişdir.

Məcmuə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Tarix-Arxiv İdarəsinin əməkdaşları tərəfindən hazırlanmışdır.

Beynəlxalq münasibətlər sahəsində praktiki və elmi işçilər, həmçinin diplomatiya, xarici siyasət və beynəlxalq hüquq tarixi ilə maraqlanan şəxslər üçün.

© Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi

MÜQƏDDİMƏ

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycanın xarici siyasəti" adlı sənədlər məcmuəsinin silsilə nəşrini davam edir. Məcmuənin yeddinci buraxılışı 2007-ci ildə xarici siyasət və beynəlxalq münasibətlərə dair Azərbaycan Respublikasının normativ hüquqi aktlarının rəsmi mətnlərini əhatə edir.

2007-ci ildə Azərbaycan Respublikası milli maraqlarının təmin edilməsinə, dövlətin davamlı inkişafı və vətəndaşların hüquqlarının müdafiəsi üçün əlverişli şəraitin yaradılmasına yönəlmiş ardıcıl fəaliyyətini həyata keçirməkdə davam etmişdir. Dövlətin beynəlxalq arenada nüfuzunun möhkəmləndirilməsinə xüsusi diqqət ayrılmışdır.

Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün bərpası və etnik təmizləməyə məruz qalmış məcburi köçkünlərin öz torpaqlarına qaytarılması ölkə xarici siyasətində prioritet məsələ kimi qalmışdır.

Ermənistan və Azərbaycan arasında silahlı münaqişənin tənzimlənməsi üzrə iki dövlətin prezidentləri və xarici işlər nazirləri səviyyəsində "Praqa prosesi" çərçivəsində danışıqların gedişində Azərbaycan danışıqlar prosesinin irəli aparılması üçün bütün imkanlardan maksimal dərəcədə yararlanmağa çalışmışdır.

Eyni zamanda, beynəlxalq ictimaiyyətin, Azərbaycanın ərazi bütövlüyünü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını dəstəkləmək və ərazilərinin işğalını və etnik təmizləməni pisləmək mövqeyinin daha da möhkəmləndirilməsi yönündə səylər davam etdirilmişdir.

Azərbaycan terrorizmə, transmilli mütəşəkkil cinayətkarlığa, narkotik maddələrin qeyri-qanuni dövriyyəsinə, insan alveri və digər qeyri-hüquqi fəaliyyətə qarşı beynəlxalq mübarizədə fəal iştirak etmişdir. Tərəfdaşlarla qarşılıqlı əlaqələrin bütün mümkün ikitərəfli, qlobal və regional formaları istifadə olunmuş, müvafiq milli strukturların inkişafı üçün beynəlxalq yardımın cəlb olunması davam etdirilmişdir.

Xarici siyasətin Avropa və Avro-Atlantik istiqaməti çərçivəsində Azərbaycanın NATO və Avropa İttifaqı ilə inteqrasiya əlaqələrinin inkişafı və tərəfdaşlığının möhkəmləndirilməsi üçün irəliləyən proses davam etmişdir. Azərbaycan Avropa və beynəlxalq təhlükəsizliyə öz töhfəsini verməkdə davam etmiş, tərəfdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi və əsaslarının möhkəmləndirilməsi təşəbbüslərini fəal həyata keçirmişdir. 2007-ci ilin mayında NATO Şurası Azərbaycanın 2005-2007-ci illər üçün Fərdi Tərəfdaşlıq planının həyata keçirilməsində əldə etdiyi tərəqqini yüksək qiymətləndirmişdir. Avropa İttifaqı ilə tərəfdaşlığın inkişafı kontekstində, Azərbaycanın xüsusi çəkisi artmış və onun qlobal enerji təhlükəsizliyin təminatında rolu güclənmiş. İl ərzində Avropa Qonşuluq Siyasəti çərçivəsində fəaliyyət planının yerinə yetirilməsinə xüsusi diqqət verilmişdir.

Avropa istiqaməti ilə yanaşı, Azərbaycan, islam dünyasının bir hissəsi olmaqla, İslam Konfransı Təşkilatı ilə sıx əməkdaşlığı davam etdirmişdir. 2006-2007-ci illərdə İKT sədri vəzifəsini yerinə yetirərək, Azərbaycan Təşkilatın siyasi rolunun artırılması, beynəlxalq problemlərin həllində onun təsiri və iştirakının gücləndirilməsi, beynəlxalq ictimaiyyətdə, və ilk növbədə Avropada islamın, onun mədəniyyət, dəyərlər və fəlsəfə-

sinin düzgün dərk edilməsi məqsədilə fəal səylər göstərmişdir.

Azərbaycan insan haqları sahəsində beynəlxalq səviyyədə fəal qarşılıqlı əlaqələri davam etdirmiş, bərabərhüquqlu tərəfdaş kimi, beynəlxalq hüquqi müdafiə əməkdaşlığı sisteminin möhkəmlənməsinə öz töhfəsini vermişdir.

Azərbaycanın xarici siyasət fəaliyyətinin regional istiqamətinin vacib tərkib hissələrindən biri "Demokratiya və iqtisadi inkişaf naminə-GUAM" təşkilatının üzv dövlətləri ilə əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi olmuşdur. Bakıda GUAM-ın iyun sammiti, bu sammit zamanı isə sədrlik Azərbaycana keçmişdir, Vilnyusda GUAM-ın on illiyinə həsr olunmuş oktyabr sammiti ilk dəfə olaraq, tərəfdaş və digər maraqlı dövlətlərin ali rəhbərlərinin, həmçinin beynəlxalq və regional strukturların yüksək nümayəndələrinin iştirakı ilə geniş formatda keçmişdir.

2007-ci il ərzində GUAM növbəti dəfə sübut etmişdir ki, üzv dövlətlərin təhlükəsizliyinə risk və təhlükələrə qarşı razılaşdırılmış şəkildə fəaliyyət göstərən və öz səylərinin beynəlxalq ictimaiyyət tərəfindən səfərbər olunmasına çalışan səmərəli bir qurumdur. Ölkələr ərazisində olan münaqişələrin tənzimlənməsi məsələlərində eyni yanaşma əsasında GUAM BMT-nin Baş Assambleyasının 62-ci sessiyasının müzakirəsinə "GUAM ərazisində uzadılmış münaqişələr və onların beynəlxalq sülh, təhlükəsizlik və inkişafa təsiri" adlı qətnamə layihəsini təqdim etmişdir.

2007-ci il ərzində Azərbaycan Ümumdünya Ticarət Təşkilatına üzvlük məsələsi ilə bağlı danışıqları davam etdirmişdir. Azərbaycan qanunvericiliyinin ÜTT standartlarına uyğun şəkildə təkmilləşdirilməsi planının yerinə yetirilməsi məsələsi diqqət mərkəzində olmuşdur.

Regional xarici iqtisadi təşəbbüslərin, o cümlədən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və İqtisadi Əməkdaşlıq Təşkilatının fəal üzvü kimi, Azərbaycan tərəfdaş-dövlətlərin diqqətini regional əməkdaşlıq yolunda əngəl təşkil edən regionda mövcud olan uzadılmış münaqişələrə yönəltmiş, bundan əlavə regional qurumların fəaliyyətinin səmərəliliyinin artırılması və qarşılıqlı əlaqələrinin artırılması istiqamətində aparılmış müzakirələrdə fəal iştirak etmişdir.

2007-ci il Azərbaycan regional və qlobal səviyyədə enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə öz töhfəsini verməyə davam etmişdir. Avropa İttifaqı ilə bu sahədə mövcud olan əməkdaşlıqdan başqa, ötən il eyni zamanda ABŞ-la da enerji sahəsində dialoq yaradılmışdır. Xəzər dənizi və Aralıq dəniz hövzələrini birləşdirən səmərəli və təhlükəsiz nəqliyyat dəhlizlərinin təmin olunması üçün trans-regional boru kəməri infrastrukturunun yaradılması sahəsində inkişaf əldə olunmuşdur. 2007-ci ildə Türkiyə və Yunanıstanı birləşdirən qaz boru kəmərinin istismara verilməsi Azərbaycan qazının Avropa bazarlarına çıxarılması üçün əlavə imkanlar yaradır.

Xəzər regionunda "Şərq-Qərb" nəqliyyat dəhlizinin inkişafı çərçivəsində ötən il strateji əhəmiyyətli Bakı-Tbilisi-Qars dəmiryolu layihəsinin tikintisi üzrə ciddi praktiki tədbirlər həyata keçirilmişdir.

Azərbaycanın diaspor təşkilatlarının təşkilatlanması ilə bağlı iş davam etdirilmişdir. Azərbaycan və türk diaspor təşkilatları arasında əməkdaşlığın möhkəmləndirilməsinə və fəaliyyətin əlaqələndirilməsinə xüsusi diqqət yetirilmişdir. Bu və digər məsələlər

Bakıda keçirilmiş Azərbaycan və türk diaspor təşkilatlarının rəhbərlərinin birinci forumu və türk dövlət və icmalarının 11-ci toplantısında diqqət mərkəzində olmuşdur.

2007-ci il eyni zamanda ikitərəfli əlaqələrin möhkəmləndirilməsi ilə də yadda qalmışdır. Bu proses çərçivəsində Almaniya, Gürcüstan, Misir, İordaniya, Qazaxıstan, Koreya Respublikası, Litva, Rusiya, Rumıniya, Tacikistan, Fransa və İsveçrəyə edilən ən yüksək səviyyəli səfərlər xüsusi rol oynamışdır. Azərbaycanın xarici siyasət idarəsinin rəhbərliyi səviyyəsində dünyanın müxtəlif ölkələrində aparılmış danışıqlar, müxtəlif səviyyələrdə çoxsaylı qarşılıqlı səfərlər, birgə hökumətlərarası komissiyaların və işçi qruplarının iclasları, o cümlədən qonşu dövlətlərlə sərhədlərin delimitasiyası məsələləri, eyni zamanda müqavilə-hüquq bazasının genişləndirilməsi ikitərəfli əməkdaşlığın dərinləşdirilməsini təmin etmişdir. Ötən il ərzində Xəzər dənizinin hüquqi statusu ilə bağlı Konvensiya layihəsinin razılaşdırılması ilə bağlı danışıqlar prosesi davam etdirilmiş, Tehranda yüksək səviyyədə Xəzəryanı dövlət başçılarının ikinci zirvə sammiti keçirilmiş və yekunda bəyannamə qəbul olunmuşdur.

Bundan başqa, Azərbaycanın diplomatik nümayəndəliklərinin əhatə dairəsi genişlənmiş və 2007-ci il ərzində Azərbaycan Qətər, Qırğızıstan, Litva, Niderland, Tacikistan, Çexiya və İsveçdə öz səfirliklərini, Kuba və Meksikada isə ofislərini açmışdır. Eyni zamanda cari il ərzində Belçika, İordaniya, Qətər, Kuba, Litva və İsveçrə Azərbaycanda öz diplomatik nümayəndəliklərini açmışlar.

Birləşmiş Millətlər Təşkilatının Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması üzrə Komitəsinin 37-ci sessiyasında Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Birləşmiş Millətlər Təşkilatının Qadınlara münasibətdə ayn-seçkiliyin bütün formalarının ləğv olunması üzrə Komitəsinin 37-ci sessiyasında Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyası üzrə Azərbaycan Respublikası Hökumətinin ikinci və üçüncü dövri məruzələrinin təqdimatında Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyəti aşağıdakı tərkibdə təsdiq edilsin:

Nümayəndə heyətinin başçısı:

Hüseynova Hicran - Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri

Nümayəndə heyətinin üzvləri:

Hüseynova İradə - Azərbaycan Respublikası təhsil nazirinin müavini

Quliyeva Təranə - Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini

Mehdiyev Aqşin - Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı yanında daimi nümayəndəsi

Nəcəfov Murad - Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Beynəlxalq hüquq və müqavilələr idarəsinin rəisi

Zalov Oruc - Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 yanvar 2007-ci il

№1889

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin və Almaniya Federativ Respublikasının Qida, Kənd Təsərrüfatı və İstehlakçıların Hüquqlarının Qorunması Nazirliyinin Almaniya Federativ Respublikasının Qida, Kənd Təsərrüfatı və İstehlakçıların Hüquqlarının Qorunması Federal Nazirliyi tərəfindən Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinə Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olması prosesinin bir hissəsi kimi Azərbaycan Respublikasının Sanitar və Fitosanitar Tədbirlər Sisteminin Sanitar və Fitosanitar Tədbirlərinin tətbiqi üzrə 15 aprel 1994-cü il tarixli ÜTT Sazişinin tələblərinə cavab verməsinə nail olmaq məqsədilə onun təkmilləşdirilməsinə yönəldilmiş dəstəyə dair Birgə Bəyanatı" imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin və Almaniya Federativ Respublikasının Qida, Kənd Təsərrüfatı və İstehlakçıların Hüquqlarının Qorunması Nazirliyinin Almaniya Federativ Respublikasının Qida, Kənd Təsərrüfatı və İstehlakçıların Hüquqlarının Qorunması Federal Nazirliyi tərəfindən Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinə Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olması prosesinin bir hissəsi kimi Azərbaycan Respublikasının Sanitar və Fitosanitar Tədbirlər Sisteminin Sanitar və Fitosanitar Tədbirlərinin tətbiqi üzrə 15 aprel 1994-cü il tarixli ÜTT Sazişinin tələblərinə cavab verməsinə nail olmaq məqsədilə onun təkmilləşdirilməsinə yönəldilmiş dəstəyə dair Birgə Bəyanatı" imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilməsi barədə Almaniya Federativ Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 yanvar 2007-ci il

№1891

"Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında mülki müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq və yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında mülki müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq və yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Fəttah oğlu Heydərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq

səlahiyyətinin Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə Fransa Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 yanvar 2007-ci il

№1918

"Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Fransa Respublikası Mədəniyyət və Kommunikasiya Nazirliyi arasında muzey işi sahəsində əməkdaşlığa dair Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Fransa Respublikası Mədəniyyət və Kommunikasiya Nazirliyi arasında muzey işi sahəsində əməkdaşlığa dair Protokol"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Fransa Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Tarik İsmayıl oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Fransa Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Tarik İsmayıl oğlu Əliyevə verilməsi barədə Fransa Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 yanvar 2007-ci il

№1919

"Azərbaycan Milli Elmlər Akademiyası (Azərbaycan) və Milli Elmi Araşdırmalar Mərkəzi (Fransa) arasında elmi əməkdaşlıq Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Milli Elmlər Akademiyası (Azərbaycan) və Milli Elmi Araşdırmalar Mərkəzi (Fransa) arasında elmi əməkdaşlıq Sazişi "ni imzalamaq səlahiyyəti Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərim oğlu Kərimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərim oğlu Kərimova verilməsi barədə Fransa Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 yanvar 2007-ci il

№1920

"Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Fransa Respublikası Əmək, Sosial Bərabərlik və Yaşayış Nazirliyi arasında əməkdaşlıq haqqında İnzibati Razılaşma"nı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Fransa Respublikası Əmək, Sosial Bərabərlik və Yaşayış Nazirliyi arasında əməkdaşlıq haqqında İnzibati Razılaşma"nı imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Kamran qızı Hüseynovaya verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Kamran qızı Hüseynovaya verilməsi barədə Fransa Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 yanvar 2007-ci il

№1921

Jak Şirakın "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Fransa ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsindəki xüsusi xidmətlərinə görə Fransa Respublikasının Prezidenti Jak Şirak "Heydər Əliyev" ordeni ilə təltif edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 yanvar 2007-ci il

№1922

"Türkdilli Ölkələrin Dövlət Başçılarının VIII Zirvə Toplantısının Antalya Bəyannaməsi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2006-cı il noyabrın 17-də Antalya şəhərində imzalanmış "Türkdilli Ölkələrin Dövlət Başçılarının VIII Zirvə Toplantısının Antalya Bəyannaməsi" təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 fevral 2007-ci il

№231-IIIQ

Türkdilli Ölkələrin Dövlət Başçılarının VIII Zirvə Toplantısının Antalya Bəyannaməsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Qazaxıstan Respublikasının

Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Respublikasının Prezidenti Kurmanbek Bakiyev və Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər 2006-cı il 17 noyabr tarixində Antalyada Türkdilli Ölkələrin Dövlət Başçılarının VIII Zirvə Toplantısında iştirak etdilər.

Dövlət başçıları

müstəqilliklərinin on beşinci ildönümünü qeyd edən Azərbaycan, Qazaxıstan və Qırğızıstanın müstəqil dövlətlər kimi beynəlxalq aləmdə mövqelərini möhkəmləndirdiklərini, siyasət, iqtisadiyyat, hüquq və digər sahələrdə həyata keçirdikləri dəyişikliklərlə dünyada gedən proseslər istiqamətində irəliləyiş nümayiş etdirdiklərini təsdiq edərək,

türkdilli ölkələr arasında birgə tarix, mənşə, mədəniyyət və dil yaxınlığına, dostluq, bərabərlik və qarşılıqlı faydaya əsaslanan, hər sahədə mövcud olan yüksək səviyyəli əlaqələrin və əməkdaşlığın əhəmiyyətini qeyd edərək,

türkdilli ölkələrin dövlət başçıları arasında keçirilən Zirvə Toplantılarının faydasına əsaslanan və əvvəllər keçirilmiş Zirvə Toplantılarında qəbul edilmiş Bəyannamələri təsdiq edərək,

türkdilli ölkələr arasında ikitərəfli və çoxtərəfli əlaqələrin və mövcud həmrəyliyin genişləndirilməsinin Avrasiya bölgəsindəki əməkdaşlıq mühitini gücləndirdiyinə əmin olaraq;

Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin məqsəd və prinsiplərinə, Helsinki Yekun Aktı başda olmaqla, ATƏT-in normalarına, prinsiplərinə və öhdəliklərinə bağlı olduqlarını ifadə edərək,

barəsində fikir mübadiləsi aparılmış məsələlərə dair aşağıdakıları açıqladılar:

1. Qlobal və regional sülh, təhlükəsizlik, sabitlik və rifahın qorunması istiqamətində ikitərəfli və çoxtərəfli fəaliyyətlərə dəstək verdiklərini bir daha təsdiq edərək, mübahisələrin sülh yolu ilə həll edilməsi öhdəliklərinə bağlılıqlarını vurğuladılar.

2. İctimai asayişi və sülhü qoruyub saxlamadan rifah və sabitliyin mümkün olmamasına əmin olaraq, hüququn aliliyi və insan hüquqlarına hörmətlə yanaşma əsasında demokratik və dünyəvi dövlət quruluşuna bağlılıqlarını təsdiqlədilər və bu istiqamətdə hər növ təşəbbüsü dəstəklədiklərini bildirdilər.

3. Avrasiya ərazisində terrorizm, separatizm, radikal hərəkətlər, kütləvi qırğın silahlarının yayılması, narkotik vasitələr və silah qaçaqmalçılığı və insan alveri daxil olmaqla, hər növ mütəşəkkil cinayətkarlığın yaratdığı böyük təhdidlərə qarşı birgə mübarizənin əhəmiyyətini vurğuladılar, bu məqsədlə öz aralarında və beynəlxalq təşkilatlarla yaxın əlaqə və əməkdaşlıq şəraitində olmaq niyyətlərini bir daha təsdiqlədilər.

4. Avrasiya regionuna da təsir edən terrorizmin bütün bəşəriyyəti və ümumi dəyərləri hədəfə aldığını təsdiq edərək, qlobal bir təhdid yaradan terrorizmlə aparılacaq mübarizənin də qlobal olmasının vacibliyini qeyd etdilər, terrorizmin heç bir din, etnik qrup və

ya coğrafi bölgə ilə əlaqələndirilməyəcəyin və buna heç cür haqq qazandırmağın mümkün olmadığını bildirdilər.

5. Türkdilli ölkələrə yaxın olan bölgələrdə davam edən problemlərə və xüsusilə 11 sentyabr 2001-ci ildən sonra başda Əfqanıstan olmaqla, İraq, Fələstin və Livanda baş verən proseslərə diqqət yetirərək, davamlı sülh və sabitlik mühitinin yaradılması istiqamətində fəaliyyətlərinin davam etdirilməsini və bu çərçivədə beynəlxalq birlik tərəfindən həyata keçirilən fəaliyyətin dəstəklənməsinin vacibliyini qeyd etdilər.

6. İraqın suverenliyinin, ərazi bütövlüyünün qorunmasına, İraqda yaşayan bütün xalqların və bunlardan biri olan türk soylu xalqın əsas hüquq və azadlıqlarının təmin edilməsinin vacibliyinə diqqət yetirdilər.

7. Aralarındakı ortaq tarix, dil yaxınlığı və mədəniyyətdən yaranan xüsusi əlaqələri, qardaşlıq, əməkdaşlıq və həmrəylik anlayışını, mövcud olan münasibətləri və əməkdaşlığı müstəqillik, suverenlik, ərazi bütövlüyünə hörmət, bərabərlik, qarşılıqlı maraq əsasında davam etdirmək niyyətlərini bir daha təsdiqlədilər; ikitərəfli, regional və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi məsələsində ümumi fikirdə olduqlarını, hər sahədəki danışıqların davam etdirilməsi və mövcud əməkdaşlığın genişləndirilməsi məsələsində qətiyyətli olduqlarını vurğuladılar.

8. Müasir ikitərəfli və beynəlxalq münasibətlərin və əməkdaşlığın ən mühüm hissəsini iqtisadi və ticarət sahələrindəki əməkdaşlığın təşkil etdiyinə əsaslanaraq, türkdilli ölkələr arasında iqtisadi və ticarət əlaqələrinin daha da inkişaf etdirilməsi və xüsusilə sənaye, kənd təsərrüfatı, nəqliyyat, rabitə və turizm sahələrində ikitərəfli və çoxtərəfli birgə layihələrin sürətləndirilməsinin vacibliyini vurğuladılar, iqtisadi və ticarət sahələrində əməkdaşlığın inkişaf etdirilməsində özəl sektorun iştirakını xüsusilə qeyd etdilər.

9. Dünya enerji bazarındakı son inkişafı və türkdilli ölkələrin iqtisadi müstəqilliklərinin inkişaf etdirilməsinin vacibliyini nəzərə alaraq, enerji resurslarının istehlakçı ölkələrə çatdırılması yollarının müxtəlifliyinin vacibliyini bəyan etdilər və enerji sahəsində əməkdaşlığın artırılmasının bölgənin siyasi və iqtisadi sabitliyinə birbaşa təkan verəcəyini vurğuladılar.

10. Xəzər hövzəsindəki enerji ehtiyatlarının Avropa enerji təhlükəsizliyinin təmin edilməsində artan əhəmiyyətini qeyd edərək, Bakı-Tbilisi-Ceyhan neft boru xəttinin fəaliyyətə başlamasının və Bakı-Tbilisi-Ərzurum qaz boru xəttinin inşasının tamamlanmasının beynəlxalq strateji vacibliyini vurğuladılar.Bununla bağlı, göstərilən boru xətlərinə Transxəzər layihələrinin bağlanmasının vacibliyini ifadə etdilər.

11. Asiya ilə Avropa arasında sürətli yol və yük daşımalarına yönəlmiş Qars-Ahalkalaki-Tbilisi-Bakı dəmir yolu layihəsi və İstanbul-Almatı dəmir yolu xəttinə Bişkekin əlavə edilməsini əsas götürərək, Türkiyə və türkdilli ölkələr arasında beynəlxalq nəqliyyatın inkişaf etdirilməsinin yeni imkanlar yaradacağı və region ölkələrinin iqtisadi inkişafına təkan verəcəyi məsələlərini vurğuladılar.

12. Türkdilli ölkələr arasındakı tarix, dil və mədəniyyət əlaqələrinin möhkəmlənməsinə istiqamətlənən fəaliyyətin və bu əlaqələri gücləndirəcək fəaliyyət və təşəbbüslərin vacibliyini ifadə etdilər, TÜRKSOY-un mədəniyyət sahəsinə müsbət töhfələrini qeyd etdilər, bu istiqamətdə səylərin təşviqinin davam etdirilməsinin vacibliyini bildirdilər.

13. Çoxəsrlik tarixi olan və Tərəflər arasındakı əlaqələri möhkəmləndirən ümumi mədəni irsin qorunması və gələcək nəsillərə verilməsi və ən geniş şəkildə tanıdılmasında sıx əməkdaşlıq edəcəklərini bildirdilər.

14. Türkdilli xalqlar arasındakı dostluğu daha da möhkəmləndirmək, bir-birinə daha yaxın nəsillər yetişdirmək və peşəkar kadrlar hazırlamaq məqsədilə təhsil sahəsindəki əməkdaşlığın əhəmiyyətini bir daha vurğuladılar.

15. XXI əsrdə sosial və iqtisadi tərəqqinin elm və texnologiyanın inkişafına əsaslandığına əmin olaraq, elmi təşkilatlar və elm xadimləri arasında əlaqələri və bu sahədəki konkret layihələri dəstəklədiklərini qeyd etdilər.

16. Türkdilli ölkələr arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın möhkəmləndirilməsi baxımından bu ölkələrin xalqları arasındakı ictimai əlaqələrin inkişaf etdirilməsinin vacibliyinə inanaraq, parlamentlər, mərkəzi və yerli hakimiyyət və mətbuat orqanları ilə ixtisaslaşdırılmış təşkilatlar arasında münasibətlərin inkişaf etdirilməsini dəstəklədiklərini ifadə etdilər.

17. Tərəflər arasında münasibətlərin hər sahədəki inkişafının ən əsas şərtlərindən birinin insanlar arasında təmasların artmasından ibarət olduğunu rəhbər tutaraq, vətəndaşların bir-birinin ölkəsinə səfərlərini asanlaşdırmaq və təşviq etmək məqsədilə viza prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi istiqamətində səy göstərməyə hazır olduqlarını bildirdilər.

18. XXI əsrdə bəşəriyyətin yaşadığı sürətli inkişafın yaratdığı mənfi təsiri nəzərə alaraq, ətraf mühitin qorunması və su mənbələrindən səmərəli istifadə mövzusunda beynəlxalq əməkdaşlığa və həmrəyliyə verdikləri əhəmiyyəti vurğuladılar; bu çərçivədə Aral dənizi hövzəsindəki və Qazaxıstanın Semey bölgəsindəki ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması ilə Qırğızıstandakı radioaktiv tullantılar probleminin həll edilməsinə istiqamətlənən beynəlxalq ictimaiyyətə müraciətlərini təkrar etdilər.

19. Əsasən Birləşmiş Millətlər Təşkilatında və onun müxtəlif alt qurumlarında və ATƏT-də, üzvü və ya iştirakçısı olduqları beynəlxalq qurumlarda və iclaslarda onları maraqlandıran mövzulara dair səmərəli məsləhətləşmə və həmrəyliyin təmin edilməsinin davamının vacibliyini qeyd etdilər; bundan başqa, bütün beynəlxalq qurumlardakı namizədlik məsələlərində mümkün olduğu qədər həmrəy hərəkət edəcəklərini bildirdilər.

20. ATƏT-in dövri sədrliyinə 2009-cu ildə Qazaxıstanın namizədliyini məmnuniyyətlə qarşıladılar və ATƏT-in Orta Asiya və Qafqaz regionlarında fəaliyyətinin səmərəliliyinin artırılmasını təmin edən bu namizədliyi dəstəklədiklərini bildirdilər.

21. Türkiyənin Aİ-yə üzvlük istiqamətindəki irəliləyişindən duyduqları məmnunluğu ifadə etdilər; eyni zamanda, Avrasiya coğrafiyasının da vacib ölkəsi olan Türkiyənin Aİ-yə üzv olmasının regionun siyasi, iqtisadi və sosial inkişafını sürətləndirəcəyinə və region ilə Aİ arasında əlaqələri möhkəmləndirəcəyinə inandıqlarını bildirdilər.

22. BMT-nin parametrləri və BMT-nin hərtərəfli həlletmə planı əsasında Kipr probleminin hərtərəfli həllinin axtarışlarına dəstək verdiklərini təkrarladılar. Kipr türk xalqının beynəlxalq təcridinə dərhal son qoyulmasına dair BMT-nin çağırışlarını dəstəklədilər.

23. Cənubi Qafqazda davamlı sabitliyin və regional əməkdaşlığın maneələrindən biri olan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində sülh yolu ilə həll edilməsinin vacibliyini qeyd etdilər; Dağlıq Qarabağ münaqişəsinin həllinin Avrasiya coğrafiyasında sülh, sabitlik və rifahın təmin edilməsi istiqamətində əhəmiyyətli irəliləyiş olacağına əmin olduqlarını təkrar etdilər.

24. Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Quruculuğu Tədbirləri üzə Müşavirənin (AQFEQTM) Asiyada sülh və sabitliyə təkan verəcəyinə əmin olduqlarını bir daha qeyd etdilər. Bu çərçivədə 17 iyun 2006-cı il tarixində keçirilmiş AQFEQTM-in Dövlət və Hökumət Başçılarının İkinci Zirvə Görüşündə AQFEQTM-in Katibliyinin Əsasnaməsinin imzalanmasını AQFEQTMin təşkilatlanması istiqamətində böyük addım kimi məmnunluqla qeyd etdilər. AQFEQTM-in Etimad Quruculuğu Tədbirlər Kataloqunun tam və bütöv anlayışla həyata keçirilməsi istiqamətindəki səylərini möhkəmləndirməyə və bu məqsədlə AQFEQTM Katibliyinə lazımi dəstəyi təmin etməyə dair niyyətlərini bəyan etdilər.

25. Çoxtərəfli əməkdaşlığın möhkəmləndirilməsi çərçivəsində İslam Konfransı Təşkilatı çərçivəsindəki əməkdaşlığın artırılması və bu təşkilatın daha səmərəli vəziyyətə gətirilməsi istiqamətində birgə fəaliyyətin vacibliyini vurğuladılar.

26. Türkiyənin 2009 - 2010-cu illər, Qazaxıstanın 2010 - 2011-ci illər və Qırğızıstanın 2012 -2013-cü illərdə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına namizədliklərinə verdikləri dəstəyi təkrarladılar.

27. Türkdilli ölkələr arasında ikitərəfli və çoxtərəfli əlaqələrin müsbət istiqamətində inkişaf etdiyini məmnunluqla qeyd edərək, Antalya Zirvə Toplantısının aralarındakı münasibətləri və əməkdaşlığı möhkəmləndirəcəyinə, regional sülh, tərəqqi, sabitlik, təhlükəsizliyə və bu ölkələrin xalqlarının iqtisadi inkişaf və rifahına təkan verəcəyinə əmin olduqlarını ifadə etdilər.

Qonaq heyətlər onlara göstərilən səmimi qəbul və qonaqpərvərliyə görə türk xalqına və Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərə təşəkkürlərini bildirdilər.

2006-cı il 17 noyabr tarixində Antalyada, hər biri eyni qüvvəyə malik olmaqla hər bir nüsxəsi Azərbaycan, qazax, qırğız və türk dillərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

İLHAM ƏLİYEV

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ

KURMANBEK BAKİYEV

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ

NURSULTAN NAZARBAYEV

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ

ƏHMƏD NECDƏT SEZƏR

"Bitki Karantini və Mühafizəsi üzrə Avropa və Aralıq Dənizi Təşkilatının yaradılması haqqında" Konvensiyaya qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası "Bitki Karantini və Mühafizəsi üzrə Avropa və Aralıq Dənizi Təşkilatının yaradılması haqqında" Konvensiyaya Azərbaycan Respublikasının ona dair bəyanatı ilə (bəyanatın mətni əlavə olunur) qoşulsun.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 fevral 2007-ci il

№232-IIIQ

"Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasportlara malik olan vətəndaşların vizasız gediş gəlişi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasportlara malik olan vətəndaşların vizasız gediş-gəlişi haqqında" 2006-cı il sentyabrın 29-da Havana şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 fevral 2007-ci il

№233-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasportlara malik olan vətəndaşların vizasız gediş-gəlişi haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq, Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti, iki dövlət arasında dostluq münasibətlərinin inkişafını təşviq etmək və hər iki dövlətin xidməti və diplomatik pasportlara malik vətəndaşlarının giriş, çıxış və tranzit qaydalarının təkmilləşdirilməsini arzulayaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

1. Diplomatik, rəsmi və xidməti pasportlara malik Azərbaycan Respublikası vətəndaşları və Kuba Respublikası vətəndaşları Razılığa gələn Tərəfin dövlətinin ərazisinə 90

(doxsan) təqvim günündən artıq olmamaqla vizasız gələ, orada qala və digər dövlətin ərazisinə tranzit keçə bilərlər.

2. Razılığa gələn Tərəflərin dövlətlərinin vətəndaşlarının qalma müddəti viza tələb olunmayan 90 (doxsan) təqvim gününü keçdiyi təqdirdə, onlar bu müddət ərzində razılığın alınması məqsədilə Razılığa gələn Tərəflərin müvafiq orqanlarına rəsmi müraciət etməlidirlər.

Maddə 2

1. Razılığa gələn bir Tərəfin dövlətinin ərazisinə daxil olan və etibarlı diplomatik rəsmi və xidməti pasportlara malik olan, Razılığa gələn bir Tərəfin dövlətinin vətəndaşları müvafiq diplomatik missiyada, konsulluq müəssisəsində və ya beynəlxalq təşkilat yanında akkreditə edilmiş daimi missiyada öz vəzifələrini yerinə yetirmək üçün qəbul edən ölkənin Xarici İşlər Nazirliyində akkreditə edilir.

2. Bu maddənin birinci bəndinin müddəaları həmçinin diplomatik və xidməti pasportlara malik olan şəxslərin yaxın ailə üzvlərinə münasibətdə də tətbiq edilir.

3. Razılığa gələn Tərəflərdən birinin etibarlı diplomatik, rəsmi və xidməti pasportlara malik Razılığa gələn digər Dövlətin ərazisinə səyahət edən vətəndaşları müvafiq diplomatik missiyada, konsulluq müəssisəsində və ya Razılığa gələn digər Tərəfin ərazisində yerləşən beynəlxalq təşkilat yanında akkreditə edilmiş daimi missiyada çalışarkən qəbul edən Tərəfin Xarici İşlər Nazirliyində akkreditə olunmalı və Razılığa gələn Tərəfin ərazisinə daxil ola, qala, tranzit keçə, tərk edə və bütün missiya ərzində viza tələbi olmadan qala bilər.

4. Bu maddənin 1-ci bəndinin müddəaları diplomatik, rəsmi və xidməti pasportlara malik olan şəxslərin ailə üzvlərinə də şamil olunur.

5. Təyin etmə, gəliş, gediş və funksiyaları başa vurma 1-ci və 2-ci bəndlərdə göstərilən şəxslərin əvvəlcədən qəbul edən Tərəfin Xarici İşlər Nazirliyinə bildirilməlidir.

6. Bu Sazişin 2-ci maddəsinin 1-ci və 2-ci bəndlərində göstərilənlər istisna olunmaqla, viza tələblərindən azad olunma o demək deyil ki, bu Sazişdə göstərilən pasportların sahiblərinə Razılığa gələn digər Tərəfin ərazisində işləmək hüququ verilir. 90 (doxsan) təqvim günündən artıq işləmək, ixtisasartırma, təhsil və qalma məqsədilə gələn vətəndaşlar əvvəlcədən viza üçün müraciət qaydalarına əməl etməlidirlər.

Maddə 3

Diplomatik, rəsmi və xidməti pasportlara malik Razılığa gələn Tərəflərin vətəndaşları Razılığa gələn digər Tərəfin səmişinlərinin gəlmə , tranzit və qalma qanun və qaydalarının tələblərinə əməl etməklə, Razılığa gələn digər Tərəfin ərazisinə beynəlxalq səmişin yolları üçün açıq olan istənilən sərhəd buraxılış məntəqələrindən daxil ola və oradan gedə bilərlər.

Maddə 4

1. Razılığa gələn Tərəfin etibarlı diplomatik, rəsmi və xidməti pasportlara malik vətəndaşları Razılığa gələn digər Tərəfin ərazisində pasportlarını itirdikdə, onun sahibi bu barədə Razılığa gələn həmin Tərəfin müvafiq orqanlarını bu halın təsdiq olunması və müvafiq sənəd verilməsi üçün məlumatlandırır.

2. Bu maddənin 1-ci bəndində göstərilən hal baş verdikdə, bu şəxsin mənsub olduğu dövlətin diplomatik missiyası və ya konsulluğu öz vətəndaşlarını Razılığa gələn digər Tərəfin ərazisini tərk etmək üçün müvəqqəti səyahət sənədi ilə təmin edir.

Maddə 5

Razılığa gələn bir Tərəfin dövlətinin diplomatik, rəsmi və xidməti pasportlara malik vətəndaşları Razılığa gələn digər Tərəfin dövlətinin ərazisinə daxil olarkən, orada qalarkən, tranzit keçərkən və onun ərazisini tərk edərkən qüvvədə olan qanun və qaydalara riayət etməlidirlər.

Maddə 6

Razılığa gələn Tərəflərin milli təhlükəsizliyinin təmin edilməsi, ictimai asayişin qorunması üçün və ya vətəndaşların sağlamlığına təhlükə olduqda, bu Sazişin və ya onun hər hansı maddələrinin qüvvəsini müvəqqəti, tamamilə və ya qismən dayandıra bilərlər. Bu Sazişin müddəalarını tətbiqinin qismən və ya tam dayandırılmasını bildirən Razılığa gələn Tərəf dərhal Razılığa gələn digər Tərəfə belə bildiriş alındığı tarixdən 30 gün sonra qüvvəyə minən notanı dərhal diplomatik kanallar vasitəsilə göndərməlidir.

Maddə 7

1. Razılığa gələn Tərəflər bu Sazişdən yararlanaraq, daxili təhlükəsizliyi, ictimai asayişi, sağlamlığı təmin etmək məqsədilə və ya arzuolunmaz şəxs elan olunduqda, onun Razılığa gələn digər Tərəfin ərazisinə girişinə etiraz edə, öz ərazisində qalma müddətini məhdudlaşdıra və ya bitirə bilərlər.

2. Razılığa gələn Tərəflər digər Tərəfin dövlətinin ərazisindəki keçmə və qalmağa dair hüquqi tələblərə və qaydalara riayət etməyən vətəndaşların hər hansı birinin xüsusi rəsmiyyət olmadan ölkəyə yenidən qəbuluna icazə verə bilər.

Maddə 8

1. Razılığa gələn Tərəflər bu Saziş qüvvəyə mindikdən sonra 30 gün ərzində diplomatik kanallar vasitəsilə Sazişdə göstərilən etibarlı pasportların nümunələrinin mübadiləsini aparmalıdırlar.

2. Diplomatik kanallar vasitəsilə bu müqavilədə göstərilən pasport formatına dəyişikliklər haqqında hər iki tərəf qısa müddət ərzində və müvafiq qaydada məlumatlandırılmalıdır, bu halda yeni nümunələr digər Tərəfə göndərilməlidir.

Maddə 9

Bu müqavilənin icrası, təfsiri və tətbiqi zamanı hər hansı bir mübahisə və fikir ayrılığı yaranarsa, Razılığa gələn Tərəflər arasında diplomatik kanallar vasitəsilə danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilməlidir.

Maddə 10

Bu Sazişə Razılığa gələn Tərəflərin hər hansı dəyişiklikləri Sazişin ayrılmaz tərkib hissəsi olan əlavə protokollarla rəsmiləşdirilir və digər Tərəfin razılığı barədə bildiriş alındığı tarixdən qüvvəyə minir.

Maddə 11

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Razılığa gələn Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirdikləri barədə bir-birlərinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən 30 (otuz) gün sonra qüvvəyə minir.

Razılığa gələn Tərəflərdən biri bu Sazişin qüvvəsini ləğv etmək niyyətində olduqda, bu barədə digər Tərəfə diplomatik kanallarla, yazılı şəkildə bildirir. Saziş belə bildirişin alındığı tarixdən 30 (otuz) gün sonra qüvvədən düşür.

Bu Saziş Havana şəhərində 2006-cı il 29 sentyabr tarixində Azərbaycan, ispan və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər autentikdir. Bu Sazişin təfsiri zamanı fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	KUBA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*FELİPE PERES ROKE*
Xarici işlər naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində çalışan işçilərin aylıq əməkhaqlarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlardakı diplomatik nümayəndəliklərində çalışan işçilərin əməkhaqqı sistemini təkmilləşdirmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlardakı diplomatik nümayəndəliklərinin rəhbərlərinin aylıq əməkhaqları bu Sərəncamın əlavəsinə uyğun olaraq müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlardakı diplomatik nümayəndəliklərində və konsulluqlarında çalışan digər işçilərin aylıq əməkhaqlarını qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiq etsin.

3. "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində çalışan işçilərinin əməkhaqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 568 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 12, maddə 1056; 2005-ci il, № 8, maddə 778, № 9, maddə 830; 2006-cı il, № 2, maddə 168) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

4. Bu Sərəncam 2007-ci il yanvarın 1-dən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 fevral 2007-ci il

№1923

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Azərbaycan Respublikası Prezidentinin
2007-ci il 1 fevral tarixli 1923 nömrəli Sərəncamına

ƏLAVƏ

Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlardakı diplomatik nümayəndəliklərinin rəhbərlərinin aylıq əməkhaqları

Qrup	Diplomatik nümayəndəliyin fəaliyyət göstərdiyi ölkənin Məbləğ və ya akkreditə olunduğu beynəlxalq təşkilatın adı	
1	2	3
A	Amerika Birləşmiş Ştatları, Kanada, Koreya Respublikası, Rusiya Federasiyası; Birləşmiş Millətlər Təşkilatı	4500 ABŞ dolları
B	Birləşmiş Ərəb Əmirlikləri, Çin Xalq Respublikası	3700 ABŞ dolları
C	Argentina Respublikası, Hindistan Respublikası, İndoneziya Respublikası, İordaniya Haşimilər Krallığı, İran İslam Respublikası, Küveyt Dövləti, Qətər Dövləti, Qazaxıstan, Malayziya, Meksika Birləşmiş Ştatları, Mərakeş Krallığı, Misir Ərəb Respublikası, Pakistan İslam Respublikası, Səudiyyə Ərəbistanı Krallığı, Suriya Ərəb Respublikası, Tailand Krallığı, Ukrayna	3500 ABŞ dolları
Ç	Belarus Respublikası, Gürcüstan, Moldova Respublikası	3400 ABŞ dolları
D	Qırğızıstan, Özbəkistan Respublikası, Tacikistan, Türkmənistan	2800 ABŞ dolları
E	Almaniya Federativ Respublikası, Avstriya Respublikası, Belçika Krallığı, Fransa Respublikası, İsveç Krallığı, İsveçrə Konfederasiyası, İtaliya Respublikası, Niderland Krallığı; Avropa Şurası, Birləşmiş Millətlər Təşkilatının Cenevrə şəhərində Bölməsi, NATO, YUNESKO	3700 Avro
Ə	İspaniya Krallığı, Macarıstan Respublikası, Polşa Respublikası, Xorvatiya Respublikası, Yunanıstan Respublikası	3600 Avro
F	Bolqarıstan Respublikası, Çex Respublikası, Latviya Respublikası, Litva Respublikası, Rumıniya, Türkiyə Respublikası	3525 Avro
G	Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı	2575 İngiltərə funt sterlinqi
Ğ	Yaponiya	587400 Yen

Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarında Fövqəladə və Səlahiyyətli Səfiri Y. T. Əliyevin Azərbaycan Respublikasının Amerika Dövlətləri Təşkilatı yanında daimi müşahidəçisi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarında Fövqəladə və Səlahiyyətli Səfiri Yaşar Teymur oğlu Əliyev Azərbaycan Respublikasının Amerika Dövlətləri Təşkilatı yanında daimi müşahidəçisi təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 fevral 2007-ci il

№1935

Azərbaycan Respublikasının Avropa İttifaqı yanında daimi nümayəndəsi E. Y. Eyyubovun eyni zamanda Azərbaycan Respublikasının Belçika Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Avropa İttifaqı yanında daimi nümayəndəsi Emin Yaqub oğlu Eyyubov eyni zamanda Azərbaycan Respublikasının Belçika Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 fevral 2007-ci il

№1936

Azərbaycan Respublikasının Mərakeş Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri S. M. Ağabəyovun iqamətgahı Rabat şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Tunis Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Mərakeş Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri Sabir Məmməd oğlu Ağabəyov iqamətgahı Rabat şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Tunis Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 fevral 2007-ci il

№1937

"Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Misir Ərəb Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Faiq Nüsrət oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Misir Ərəb Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Faiq Nüsrət oğlu Bağırova verilməsi barədə Misir Ərəb Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 fevral 2007-ci il

№1938

2006-cı il avqustun 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası və İordaniya Haşimiyyə Krallığı hökumətləri arasında ikitərəfli əməkdaşlığa dair Çərçivə Sazişi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2006-cı il avqustun 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası və İordaniya Haşimiyyə Krallığı hökumətləri arasında ikitərəfli əməkdaşlığa dair Çərçivə Sazişi" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1-ci bəndində göstərilən Çərçivə Sazişinin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 fevral 2007-ci il

№1943

Azərbaycan Respublikası və İordaniya Haşimiyyə Krallığı Hökumətləri arasında ikitərəfli əməkdaşlığa dair Çərçivə Sazişi

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimiyyə Krallığı Hökuməti,

iki ölkə arasında əməkdaşlığın gücləndirilməsi və təşviq etdirilməsinin vacibliyini qəbul edərək,

iki xalq arasında bütün sahələrdə əməkdaşlığın dostluq və anlaşma əlaqələrini gücləndirəcəyini anlayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

1. Razılığa gələn Tərəflər iki ölkə arasında dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi və qarşılıqlı razılaşdırılmış sahələr üzrə ikitərəfli əməkdaşlığın təşviq edilməsi üçün lazımi tədbirlər görəcəklər.

2. Həmin məqsədlərə nail olunmasını asanlaşdırmaqdan ötrü, Razılığa gələn Tərəflər onlar üçün maraq kəsb edən məsələlərin irəliləməsi və əməkdaşlığın təşviq olunması məqsədilə mütəmadi fikir mübadiləsinə yönəlmiş üsulları birgə inkişaf etdirəcəklər.

Maddə 2

1-ci maddənin 2-ci bəndində istinad edilmiş üsullara Razılığa gələn Tərəflərin, tarixi və səviyyəsi qarşılıqlı surətdə razılaşdırılacaq Məsləhətləşmələrinin keçirilməsi də daxildir.

Maddə 3

Razılığa gələn Tərəflər Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi çərçivəsindəki öhdəliklər də daxil olmaqla, beynəlxalq öhdəliklərinə, habelə ÜTT və digər beynəlxalq və regional təşkilatlar kontekstində götürdükləri ikitərəfli və çoxtərəfli öhdəliklərinə tam sadiqliyini bir daha vurğulayaraq, gələcəkdə qarşılıqlı surətdə razılaşdırılacaq münasib üsullar vasitəsilə aşağıda sadalanan, lakin bunlarla məhdudlaşmayan müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığın təşviq etdirilməsinə dair öhdəlik götürürlər:

a) iqtisadi əməkdaşlıq və iki Tərəf arasında ikitərəfli ticarətin təşviqi;

b) hər iki Tərəfin birgə maraqlarının irəliləməsi üçün münasib və uyğun siyasi əməkdaşlıq və koordinasiya;

c) Razılığa gələn hər iki Tərəfin elmi institutları arasında elmi və texnoloji əməkdaşlıq;

d) Razılığa gələn Tərəflər arasında investisiyaların təşviqi və investisiya axımının həvəsləndirilməsi və bu məqsədlə Razılığa gələn hər iki Tərəfin faydası üçün qarşılıqlı investisiya axınını təşviq edəcək və asanlaşdıracaq vasitə, üsul və çərçivələrin razılaşdırılması;

e) mədəni əməkdaşlıq və mübadilənin təşviqi;

f) hər iki ölkədə tələbə mübadiləsini tənzimləyən qüvvədə olan milli qanun və qaydalara uyğun olaraq, Razılığa gələn Tərəflərin təhsil müəssisələri arasında tələbə mübadiləsinin mümkünlüyünün öyrənilməsi də daxil olmaqla, təhsil sahəsində əməkdaşlığın təşviqi;

g) Razılığa gələn Tərəflər arasında turizmin təşviqi və turist axınının həvəsləndirilməsi;

h) səhiyyə və tibb sahəsində əməkdaşlığın və mübadilənin təşviqi.

Maddə 4

Bu Çərçivə Sazişinə Razılığa gələn hər iki Tərəfin qarşılıqlı razılığı ilə dəyişiklik və ya əlavələr edilə bilər.

Maddə 5

Bu Çərçivə Sazişi imzalandığı tarixdən qüvvəyə minir və üç il ərzində qüvvədə qalacaqdır. Razılığa gələn Tərəflərdən biri üç il müddətinin başa çatmasına 3 ay qalmış Razılığa gələn digər Tərəfə bu Sazişi ləğv etmək niyyəti barədə yazılı şəkildə məlumat verməzsə, Saziş avtomatik olaraq həmin müddətə uzadılır.

Bu Saziş 2006-cı il 23 avqust tarixində Bakı şəhərində hər biri Azərbaycan və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İORDANİYA HAŞİMİYYƏ KRALLIĞI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*ABDULİLAH ƏL-XATİB*
Xarici işlər naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında 2006-cı il oktyabrın 4-də Riqa şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında 2006-cı il oktyabrın 4-də Riqa şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında rabitə sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş;

1.3. Azərbaycan Respublikası Maliyyə Nazirliyi və Latviya Respublikası Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş;

1.4. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Latviya Respublikası Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş;

1.5. Azərbaycan Respublikası Təhsil Nazirliyi və Latviya Respublikası Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.5-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.3-cü bəndlərində göstərilən sazişlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Latviya Respublikası Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 fevral 2007-ci il

№1944

Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında rabitə sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti,

hər iki dövlətdə rabitə sahəsində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək, şəbəkələrin, telekommunikasiya və poçt rabitəsi vasitələrinin fasiləsiz fəaliyyətini təmin etmək, həmçinin bu sahədə hüquqi tənzimləməni təkmilləşdirmək niyyəti ilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

1. Tərəflər rabitə sahəsində öz əlaqələrini beynəlxalq hüququn hamılıqla tanınmış norma və prinsipləri, Ümumdünya Poçt İttifaqı aktlarının müddəaları və Beynəlxalq Telekommunikasiya İttifaqının tövsiyələri əsasında, həmçinin Latviya Respublikasının Avropa İttifaqında üzv-dövlət statusunu nəzərə alaraq qururlar.

2. Bu Sazişlə, həmçinin Azərbaycan Respublikasının və Latviya Respublikasının iştirakçısı olduğu digər beynəlxalq sazişlərlə tənzimlənməyən məsələlər hər iki dövlətin qanunvericiliyinə müvafiq olaraq, qarşılıqlı razılıq əsasında həll olunur.

Maddə 2

Tərəflər öz dövlət ərazilərində bütün növ poçt göndərişlərinin və sənədlərə əsaslanan məlumatın fasiləsiz qəbulunu, emalını, daşınmasını və ünvanlara çatdırılmasını təmin edirlər, həmçinin müəyyən qaydada qeydə alınmış dövri nəşrlərin yayılması üzrə qarşılıqlı xidmətlər göstərirlər.

Maddə 3

Tərəflər poçt administrasiyaları arasında xüsusi razılaşma əsasında Azərbaycan Respublikasının və Latviya Respublikasının fiziki və hüquqi şəxsləri arasında poçt baratları ilə mübadiləni təmin edirlər.

Maddə 4

Tərəflər qarşılıqlı faydalı şərtlər əsasında telekommunikasiyanın bütün növlərinin, poçt göndərişlərinin, xüsusi rabitənin, televiziya proqramlarının və radioverilişlərin öz ölkələrinin ərazisindən sərbəst şəkildə ötürülməsinə zəmanət verirlər.

Maddə 5

Bu Sazişin yerinə yetirilməsindən irəli gələn hesablaşmalar və ödənişlər Tərəflərin rabitə administrasiyaları arasında qüvvədə olan razılaşmalar əsasında həyata keçirilir.

Maddə 6

Tərəflər rabitə müəssisələrində dövlətlərarası bildiriş və məlumatların ötürülməsinin texnoloji proseslərində yerli qeydiyyat-hesabat vaxtını tətbiq edirlər.

Maddə 7

Tərəflər qarşılıqlı faydalı şərtlər əsasında dövlət telekommunikasiya və poçt rabitəsi şəbəkələrindən istifadə və onların idarə olunması sahəsində əməkdaşlıq edirlər.

Maddə 8

Fövqəladə vəziyyətlərdə Tərəflər əvvəlcədən lazımi yardımın göstərilməsi və/və ya alınması şərtləri haqda razılaşaraq, fəlakətlərin nəticəsinin yüngülləşdirilməsi və yardım göstərilməsi üzrə əməliyyatların həyata keçirilməsi sahəsində əməkdaşlıq edirlər.

Göstərilən yardımın səmərəli şəkildə əlaqələndirilməsi üçün Tərəflər bir-birini fövqəladə vəziyyət və/və ya təbii fəlakət barədə dəqiq və vaxtlı-vaxtında verilən informasiya ilə təmin edirlər.

Maddə 9

Tərəflərdən hər biri telekommunikasiya və poçt rabitəsinin təşkilinə, həmçinin göstərilmiş xidmətlər üzrə qarşılıqlı hesablaşma qaydalarına güman olunan hər hansı dəyişikliklərdən üç ay əvvəl digər Tərəfi məlumatlandırır.

Maddə 10

Tərəflər qarşılıqlı xidmətlərin istiqamətlərinin və həmçinin, eləcə də qarşılıqlı hesablaşma qaydasının müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi üçün Azərbaycan Respublikası və Latviya Respublikasının rabitə administrasiyaları və müəssisələri arasında birbaşa əlaqələrin yaradılmasına kömək edirlər.

Maddə 11

Tərəflər razılığa gəlmişlər ki, xidmətlərin göstərilməsində iştirak edən bütün rabitə müəssisələri istehlakçı qarşısında vaxtlı-vaxtında və keyfiyyətli xidmət göstərilməsi üçün bərabər şəkildə məsuliyyət daşıyırlar və Ümumdünya Poçt İttifaqının və Beynəlxalq Telekommunikasiya İttifaqının normativ aktlarına müvafiq olaraq, beynəlxalq rabitənin keyfiyyətsiz işinə dair şikayətlərə baxılması qaydasının təyin olunmasının zəruriliyini etiraf edirlər.

Maddə 12

Bu Saziş Tərəflərin bağladıqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.

Maddə 13

1. Tərəflərin rabitə administrasiyaları və müəssisələri xidməti məlumatların mübadiləsi üçün ingilis və ya rus dillərindən istifadə edirlər.

2. Tərəflərin dövlətləri arasında ötürülən poçt göndərişlərinin və teleqramların ünvanları ingilis, rus və ya fransız dillərində tərtib olunur. Teleqramların ünvanları və mətnləri latın hərfləri ilə qəbul oluna və ötürülə bilər.

Maddə 14

1. Tərəflər bu Sazişin təfsiri və tətbiqi ilə əlaqədar meydana çıxa bilən bütün mübahisəli məsələləri onların rabitə administrasiyaları arasında birbaşa danışıqlar və məsləhətləşmələr yolu ilə həll edirlər.

2. Tərəflər öz nümayəndələrindən ibarət olan və bu Sazişlə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsi zamanı yaranan fikir ayrılıqlarını nəzərdən keçirən birgə komissiya yarada bilərlər.

Maddə 15

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirdikləri barədə diplomatik kanallar vasitəsilə bir-birlərinə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir və Tərəflərdən biri digər Tərəfə diplomatik kanallar vasitəsilə Sazişin qüvvəsinin ləğv edilməsi niyyəti haqda yazılı bildiriş göndərdiyi gündən etibarən 90 gün müddətində etibarlı hesab olunur.

Bu Saziş 2006-cı il 4 oktyabr tarixində Riqa şəhərində hər biri Azərbaycan, latış və rus dillərində iki əsl nüsxədə imzalanmışdır, mətnlər autentikdir.

Bu Sazişin ayrı-ayrı müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, rus dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	LATVİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*KRİŞVANİS PETERS*
Xarici işlər naziri	*Nəqliyyat naziri*

Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti,

hər iki ölkənin sosial və iqtisadi inkişafı çərçivəsində informasiya və kommunikasiya texnologiyaları (bundan sonra "İKT" adlandırılacaq) sahəsində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək və möhkəmləndirməyi arzu edərək,

hər iki ölkədə əhaliyə səmərəli və dayanıqlı xidmətlərin yerinə yetirilməsi ilə əlaqədar eyni məqsəd və maraqları bölüşərək,

Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında 2005-ci il 3 oktyabr tarixində imzalanmış iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq haqqında Saziş çərçivəsində informasiya və kommunikasiya texnologiyaları sahəsində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək və möhkəmləndirməyi arzu edərək,

Latviyanın Avropa Birliyinə üzv dövlət olduğunu nəzərə alaraq,

İKT sahəsində aparılan əməkdaşlığın hazırkı səviyyəsinin təkmilləşdirilməsinin və

ümumi maraq kəsb edən sahələrdə ideya, məlumat, bilik və təcrübə mübadiləsinin Tərəflər üçün faydalı olacağını nəzərə alaraq,

Tərəflər arasında İKT sahəsində kommersiya əlaqələrinin möhkəmləndirilməsində mövcud olan potensialı və mövcud imkanlardan tam istifadə olunması zərurətini dərk edərək,

Tərəflərin İKT sahəsində sərmayələri, birgə müəssisələri, ümumi maraqları, texnoloji inkişafı və ticarəti inkişaf etdirmək arzusunda olduqlarını nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər qarşılıqlı fayda əsasında, öz milli qanunvericiliklərinə və beynəlxalq hüququn müvafiq norma və prinsiplərinə və bu Sazişin müddəalarına uyğun olaraq, İKT üzrə əməkdaşlığı inkişaf etdirəcək və təkmilləşdirəcəklər.

Maddə 2

Tərəflər arasında İKT sahəsində əməkdaşlıq aşağıdakıları əhatə edir:

1. İKT sahəsində tənzimlənmə məsələlərinə dair məlumat mübadiləsi;

2. E-hökumətin tətbiqi sahəsində əməkdaşlıq;

3. hər iki ölkənin İKT sahəsində sərmayə qoyuluşlarının təşviq etdirilməsi;

4. hər iki ölkədə və ya qarşılıqlı məqbul şərtlərlə üçüncü ölkələrdə layihələr vasitəsilə informasiya və kommunikasiya texnologiyaları sahəsində birgə müəssisələrin yaradılmasının təşviq etdirilməsi;

5. İKT sahəsində kommersiya və tənzimləyici qurumlar arasında əlaqələrin təşviq etdirilməsi;

6. şirkətlər arasında İKT sahəsində kommersiya əlaqələrinin təşviq etdirilməsi;

7. Latviya Respublikasının İKT qurumlarında Azərbaycan Respublikasının mütəxəssisləri üçün təlim kurslarının təşkili;

8. birgə seminar, konfrans, forum və sərgilərin keçirilməsi;

9. beynəlxalq təşkilatlarda hər iki ölkənin milli maraqları üst-üstə düşdüyü təqdirdə bir-birini dəstəkləməsi;

10. hər iki Tərəfin nümayəndə heyətlərinin təcrübə mübadiləsi məqsədilə qarşılıqlı səfərlərinin təşkili;

11. qarşılıqlı razılaşma əsasında digər məsələlər.

Maddə 3

Tərəflər İKT sahəsində görülmüş işlərin daha da təkmilləşdirilməsi, əməkdaşlığın inkişaf etdirilməsi, yeni texnologiyaların qəbul edilməsi və birgə müəssisələrin yaradılması məqsədilə hər iki ölkənin aidiyyəti orqanları, təşkilat və müəssisələri arasında bu sahədə sıx əlaqələrin yaradılması və məlumat mübadiləsinin təkmilləşdirilməsi, eləcə də xüsusi proqramların və layihələrin yerinə yetirilməsi sahəsində əməkdaşlığı təşviq edəcəklər.

Tərəflər İKT xidmətlərinin inkişafı sahəsində Azərbaycan Respublikasının və Latviya Respublikasının təcrübələrinin tətbiqi üçün hər iki Tərəfin mütəxəssislərinin birgə iş aparmasını təmin edəcəklər.

Maddə 4

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.

Maddə 5

Tərəflər əməkdaşlıq çərçivəsində mübadilə etdikləri konfidensial informasiyanın öz milli qanunvericiliklərinə uyğun surətdə qorunması üçün zəruri tədbirlər görmək, həmçinin belə informasiyanı təqdim etmiş Tərəfin yazılı icazəsi olmadan bu informasiyanı üçüncü Tərəfə aşkarlamamaq və yaymamaq öhdəliyini götürürlər. Həmin müddəa bu Saziş qüvvədən düşdükdən sonra da qüvvədə qalır.

Maddə 6

Tərəflər bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı mübahisələr yarandığı təqdirdə, onları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

Maddə 7

Bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə məsul səlahiyyətli orqanlar:

Azərbaycan Respublikası Hökuməti adından - Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi;

Latviya Respublikası Hökuməti adından - Latviya Respublikasının Elektron Hökumət Məsələləri üzrə Nazirinin Xüsusi Təyinatlı İşlər üzrə Katibliyi.

Bu Sazişdən irəli gələn məsələlərin həyata keçirilməsi üzrə səlahiyyətli orqanların qarşılıqlı fəaliyyəti zamanı işçi dil ingilis dili olacaqdır.

Tərəflər, əməkdaşlığın xüsusiyyətlərindən asılı olaraq, bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə məsul olan digər dövlət hakimiyyəti orqanlarını təyin edə bilərlər və bu barədə onlar diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandıracaqlar.

Maddə 8

Tərəflərin yazılı razılığına əsasən bu Sazişə onun ayrılmaz hissəsi olan və 9-cu maddəsinə uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavələr edilə bilər.

Maddə 9

Bu Saziş iki il müddətinə bağlanılır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirdikləri barədə diplomatik kanallar vasitəsilə bir-birlərinə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən biri bu müddətin başa çatmasına altı ay qalmış onun qüvvəsini ləğv etmək niyyətini digər Tərəfə diplomatik kanallar vasitəsilə bildirməzsə, bu Sazişin qüvvəsi növbəti ikiillik müddətə uzadılır.

Bu Saziş 2006-cı il 4 oktyabr tarixində Riqa şəhərində iki əsl nüsxədə Azərbaycan, latış və ingilis dillərində imzalanmışdır, mətnlər autentikdir.

Bu Sazişin təfsiri zamanı fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

LATVİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

İNA QUDELE
İnformasiya və kommunikasiya texnologiyaları naziri

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Latviya Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Latviya Respublikasının Maliyyə Nazirliyi,

maliyyə, vergi, monetar və beynəlxalq bazarın tələbinə və təcrübəsinə cavab verən digər iqtisadi sahələrdə əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə və genişləndirməyə səy göstərərək,

Azərbaycan Respublikasının və Latviya Respublikasının iqtisadiyyatını dünya maliyyə sisteminə tədricən inteqrasiya etdirməyə səy göstərərək,

Azərbaycan Respublikasının və Latviya Respublikasının iqtisadiyyatında baş verən dəyişiklikləri və qarşıya çıxan məsələlərin səmərəli şəkildə həll edilməsində qarşılıqlı maraqları nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz dövlətlərinin qanunvericiliklərinə uyğun olaraq və səlahiyyətləri daxilində aşağıdakı məsələlər üzrə əməkdaşlığın dərinləşməsinə, məsləhətləşmələrin keçirilməsinə və maliyyə-kredit münasibətləri sahəsində təcrübə mübadiləsinə kömək göstərəcəklər:

iqtisadi müstəqillik və bazar münasibətlərinə keçid şəraitində maliyyə orqanlarının təşkilati strukturu;

vergi, ödəniş və yığımların (birbaşa və vasitəli vergilər) effektiv sisteminin yaradılmasının əsas prinsip və metodları;

vergi və yığımlardan daxilolmalara effektiv nəzarətin təmin edilməsi üçün məlumat bankının yaradılması;

iqtisadiyyatın strukturunun yenidən qurulmasında xarici investisiyalardan istifadə olunmasının prinsipləri və metodları;

bazar iqtisadiyyatı şəraitində əhalinin sosial müdafiəsinin səmərəli mexanizminin və onun maliyyə mənbələrinin formalaşdırılması;

əməkhaqqı və qiymətlərin dövlət tənzimlənməsinin iqtisadi vasitələri.

Maddə 2

Sahibkarlıq fəaliyyəti üçün əlverişli şəraitin yaradılması məqsədilə Tərəflər Azərbaycan Respublikasının Hökuməti və Latviya Respublikasının Hökuməti arasında gəlir və əmlak vergilərinə münasibətdə ikiqat vergitutmanın və vergilərdən yayınmanın qarşısının alınmasına dair Konvensiyanın müddəalarının həyata keçirilməsinə kömək göstərəcəklər.

Maddə 3

Tərəflər zəruri olan hallarda hər iki Tərəf üçün ümumi maraq kəsb edən yuxarıda qeyd olunan məsələlərin öyrənilməsi və elmi tədqiqatların aparılması məqsədilə birgə sahələrarası komissiyalar yarada bilərlər.

Maddə 4

Tərəflər öz dövlətlərinin qanunvericiliklərinə uyğun olaraq Azərbaycan Respublikasının və Latviya Respublikasının maliyyə və iqtisadi inkişafı məsələləri üzrə daimi məlumat mübadiləsində maraqlı olduqlarını bəyan edirlər.

Maddə 5

Tərəflər səlahiyyətlərinə aid olan yuxarıda qeyd olunan məsələlər üzrə təcrübə mübadiləsi, o cümlədən müvafiq mütəxəssislərin təcrübə keçməsi, elmi-praktiki konfrans və seminarların keçirilməsi üçün əlverişli şəraitin yaradılması haqqında razılığa gəlirlər.

Maddə 6

Sazişin təfsiri və tətbiqi ilə əlaqədar yaranan fikir ayrılıqları Tərəflər arasında qarşılıqlı danışıqlar və məsləhətləşmələr yolu ilə dostcasına həll edilir.

Maddə 7

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən hər biri istənilən vaxt bu Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallarla yazılı bildiriş göndərməklə onu ləğv edə bilər. Saziş qeyd olunmuş yazılı bildirişin alındığı tarixdən 3 ay sonra ləğv olunmuş hesab edilir.

Saziş 2006-cı il 4 oktyabr tarixində Riqa şəhərində Azərbaycan, ingilis və latış dillərində iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər autentikdir.

Bu Sazişin təfsiri və tətbiqi zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİ ADINDAN

SAMİR ŞƏRİFOV
Maliyyə naziri

LATVİYA RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİ ADINDAN

OSKAR SPURDZİNS
Maliyyə naziri

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Latviya Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Latviya Respublikasının Səhiyyə Nazirliyi,

hər iki ölkənin suverenliyinə və hüquq bərabərliyinə əsaslanan səhiyyə və tibb elmi sahəsində ənənəvi əlaqələrin inkişaf etdirilməsi və möhkəmləndirilməsini qərara alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər bu Sazişə əsasən hər bir ölkənin mövcud qanun və qaydalarına əsaslanaraq, beynəlxalq öhdəliklər əsasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq əlaqələrini inkişaf etdirəcəklər.

Əməkdaşlığın spesifik sahələri qarşılıqlı olaraq Razılığa gələn Tərəflərin maraqları nəzərə alınaraq təyin olunacaqdır.

Maddə 2

Razılığa gələn Tərəflər özlərinin bütün imkanlarından istifadə edərək, ikitərəfli əməkdaşlıq çərçivəsində aşağıdakıların həyata keçirilməsinə nail olacaqlar:

Razılığa gələn Tərəflərin maraqlarını əks etdirən səhiyyə sahəsində məlumat-informasiya mübadiləsi;

səhiyyə sahəsində elmi tədqiqatların aparılması üzrə mütəxəssis mübadiləsi;

tibb institutları, tibbi mərkəzlər və digər əlaqədar qurumlar arasındakı birbaşa əlaqələr;

səhiyyə və əczaçılıq sahəsində yeni texnologiyalar və innovasiyalar barədə məlumat mübadiləsi;

hər iki ölkədə səhiyyənin vəziyyəti və monitorinq haqqında məlumat mübadiləsi, habelə təhlükəli infeksiyalara qarşı müştərək mübarizənin aparılması;

yeni dərman maddələri, onların effektivliyi, əlavə təsirləri, habelə farmasiyada qeydiyyat, nəzarət və keyfiyyət göstəricilərinə dair məlumat mübadiləsi;

bağlanmış sazişlər əsasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq.

Maddə 3

Razılığa gələn Tərəflər hər iki ölkədə tədris seminarları təşkil edəcək və hər bir ölkənin səhiyyəsinin prioritetlərinə əsaslanaraq, əlaqədar sahələrin mütəxəssis ekspertlərinin digər ölkəyə səfərini təşkil edəcəklər.

Razılığa gələn Tərəflər hər iki ölkədə səhiyyənin prioritetlərinə əsaslanaraq, keçiriləcək konfranslar, simpoziumlar və digər beynəlxalq tədbirlər haqqında məlumat mübadiləsi edəcəklər.

Maddə 4

Razılığa gələn Tərəflər hər iki ölkənin tibb universitetləri və institutları arasında birbaşa

əlaqələri inkişaf etdirəcəklər. Buraya aşağıdakılar daxildir:

bağlanılmış sazişlərə uyğun olaraq mütəxəssislərin mübadiləsi;

elmi tədqiqat materiallarının, elmi sənədlərin, tədqiqat proqramlarının, tibbi tədris filmlərinin, iş metodlarının yazılı və vizual mübadiləsi.

Maddə 5

Razılığa gələn Tərəflər bu Sazişin icrası və fəaliyyət planı hazırlanması üçün səhiyyə və tibb elmi sahəsində müştərək komissiya yaradacaqlar.

Maddə 6

Mütəxəssislərin, ekspertlərin və dövlət nümayəndələrinin səfərləri zamanı yol xərclərini göndərən tərəf ödəyəcəkdir.

Maddə 7

Fəaliyyət planının həyata keçirilməsinə nəzarət və ikitərəfli əməkdaşlıq çərçivəsində digər tədbirlərin monitorinqi üçün Razılığa gələn Tərəflər hər iki ölkədə işçi qrupu yaradacaqlar. Bu qruplar razılığa əsasən iki ildə bir dəfədən çox olmayaraq görüş keçirəcəklər. Görüşdə komissiyaların dəvət etdiyi ekspertlər də iştirak edə bilərlər.

Maddə 8

Tərəflər qarşılıqlı rəsmi razılıq əsasında Sazişə əlavələr və dəyişikliklər edə bilərlər. Həmin əlavələr və dəyişikliklər rəsmiləşdirilərək, bu Sazişin ayrılmaz hissəsi olacaqdır.

Maddə 9

Bu Sazişin təfsiri və tətbiqinə dair Razılığa gələn Tərəflər arasında yaranacaq hər hansı mübahisələr danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilməlidir.

Maddə 10

Bu Saziş imzalandığı gündən qüvvəyə minir və 5 il müddətinə qüvvədə qalır.

Razılığa gələn Tərəflərdən bir diplomatik kanallar vasitəsilə 5 il müddət bitməmişdən 6 ay əvvəl yazılı bildiriş təqdim edərək, bu Sazişin qüvvəsini ləğv etməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

2006-cı il 4 oktyabr tarixində Riqa şəhərində hər biri Azərbaycan, latış və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər autentikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandıqda, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRLİYİ ADINDAN

OQTAY ŞİRƏLİYEV
Səhiyyə naziri

LATVİYA RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRLİYİ ADINDAN

QUNDARS BERZİNŞ
Səhiyyə naziri

Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Latviya Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Latviya Respublikasının Təhsil Nazirliyi,

dövlətlərin suveren hüquq bərabərliyi prinsipindən irəli gələn, hər iki dövlətin təhsil sisteminin bütövlüyü prinsipi əsasında gələcək əməkdaşlığı möhkəmləndirməkdə və inkişaf etdirməkdə qarşılıqlı maraqlarını ifadə edərək,

təhsilə xüsusi əhəmiyyət verməklə, təhsil alanların vətəndaşlığı və etnik mənsubiyyətindən asılı olmayaraq, hər iki ölkənin vətəndaşlarının təhsil və mədəni ehtiyaclarını ödəmək istəyilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər hər iki ölkənin universitetləri və digər ali təhsil müəssisələri arasında birbaşa əlaqələrin qurulmasına imkan yaradacaqlar.

Maddə 2

Tərəflər razılaşdırılmış sahələrdə birgə elmi tədqiqatların aparılmasına şərait yaradacaq, ölkələrində keçirilən elmi konfrans və simpoziumlarda iştirak etmək üçün hər iki tərəfin mütəxəssislərinə dəvətlər göndərəcək, hər iki ölkənin təhsil sahəsindəki təcrübə mübadiləsi məqsədilə mütəxəssisləri dəvət edəcəklər.

Maddə 3

Tərəflər elmi məcmuələr, metodik vəsaitlər və dövri mətbuat mübadiləsi aparacaq, ölkələrinin alimlərinin elmi əsərlərinin qarşı Tərəfin elmi məcmuələrində çap olunmasına şərait yaradacaqlar.

Maddə 4

Tərəflər elmi dərəcələrin, elmi adların və ali təhsil diplomlarının qarşılıqlı tanınması məqsədilə öz ölkələrində qəbul edilmiş qanunlar haqqında məlumat mübadiləsi aparacaqlar.

Maddə 5

Təhsil sisteminin inkişafı və təkmilləşdirilməsi məsələlərini öyrənmək və təcrübə mübadiləsi məqsədilə Tərəflər nazirlik, təhsili idarəetmə orqanları və tədris müəssisələri işçiləri səviyyəsində nümayəndə heyətlərinin qarşılıqlı mübadiləsini aparacaqlar.

Maddə 6

Tərəflər humanitar sahədə əməkdaşlığa geniş yer verəcək, bu istiqamətdə qarşılıqlı yaradıcılıq müsabiqələri, idman yarışları və ali məktəblərin incəsənət qruplarının qarşılıqlı mübadiləsini təşkil edəcəklər.

Maddə 7

Tərəflər hər il öz universitetlərində təhsil almaq üçün hər iki ölkənin vətəndaşlarına qarşılıqlı şəkildə təqaüdlər ayıracaqlar.

İxtisaslar Tərəflərin ehtiyac duyduğu sahələri əhatə edəcəkdir.

Maddə 8

Tərəflərin qarşılıqlı yazılı razılığına əsasən bu Sazişə, onun ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilən və bu Sazişin 10-cu maddəsinə uyğun olaraq qüvvəyə minən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 9

Bu Sazişin icrası zamanı yaranmış mübahisələr danışıqlar və məsləhətləşmələr yolu ilə həll olunacaqdır.

Maddə 10

Bu Saziş imzalandığı gündən qüvvəyə minir və 31 dekabr 2010-cu ilə qədər qüvvədə qalacaqdır.

Tərəflərdən biri bu müddətin başa çatmasına altı ay qalmış onun qüvvəsini ləğv etmək niyyətini digər Tərəfə diplomatik kanallar vasitəsilə bildirməzsə, bu Sazişin qüvvəsi növbəti bir il müddətinə uzadılır.

Bu Saziş 2006-cı il 4 oktyabr tarixində Riqa şəhərində Azərbaycan, latış və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər autentikdir.

Bu Sazişin təfsiri zamanı fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ ADINDAN	LATVİYA RESPUBLİKASININ TƏHSİL VƏ ELM NAZİRLİYİ ADINDAN
MİSİR MƏRDANOV	*BAYBA RİVJA*
Təhsil naziri	*Təhsil və elm naziri*

Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında 2006-cı il oktyabrın 17-də Minsk şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında 2006-cı il oktyabrın 17-də Minsk şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Belarus Respublikasının İqtisadiyyat Nazirliyi arasında kiçik sahibkarlıq sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Belarus Respublikasının Turizm Nazirliyi arasında bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq haqqında Saziş;

1.3. Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Belarus Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş;

1.4. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Belarus Respubli-

kasının Fövqəladə Hallar Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş;

1.5. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında aqrar-sənaye kompleksi sahəsində iqtisadi və elmi-texniki əməkdaşlıq barədə Saziş;

1.6. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Belarus Respublikasının Nəqliyyat və Kommunikasiya Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Memorandum;

1.7. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Belarus Respublikası Milli Dövlət Teleradio Şirkəti arasında Əməkdaşlıq Sazişi.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.7-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 fevral 2007-ci il

№1945

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Belarus Respublikasının İqtisadiyyat Nazirliyi arasında kiçik sahibkarlıq sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə Belarus Respublikasının İqtisadiyyat Nazirliyi,

MDB-nin üzvü olan dövlətlərdə kiçik sahibkarlığa dəstək və onun inkişaf etdirilməsi haqqında Moskva şəhərində 1997-ci il yanvarın 17-də imzalanmış Sazişi rəhbər tutaraq, Azərbaycan Respublikası və Belarus Respublikası arasında kiçik sahibkarlıq sahəsində ikitərəfli əməkdaşlığı canlandırmaq və kiçik sahibkarlığa dəstək və onun inkişafı məsələləri üzrə Razılığa gələn Tərəflər arasında qarşılıqlı əlaqənin ümumi çərçivələrini müəyyən etmək niyyətində olaraq,

Azərbaycan Respublikasının və Belarus Respublikasının kiçik sahibkarlıq subyektləri arasında xarici iqtisadi münasibətlərin genişləndirilməsinə kömək etməyə çalışaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Razılığa gələn Tərəflər arasında əməkdaşlıq Azərbaycan Respublikası və Belarus Respublikası arasında ikitərəfli saziş və hər iki dövlətin milli qanunlarına müvafiq olaraq uzunmüddətli tərəfdaşlıq, hüquq bərabərliyi, qarşılıqlı fayda və xoş məram prinsipləri əsasında həyata keçirilir.

Maddə 2

Razılığa gələn Tərəflər öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasında və

Belarus Respublikasında kiçik sahibkarlığa dəstək sistemləri haqqında məlumat mübadiləsini həyata keçirir, habelə kiçik sahibkarlığın inkişafının layihə və proqramlarının birgə işlənib hazırlanması və maliyyələşdirilməsini tətbiq edirlər.

Maddə 3

Razılığa gələn Tərəflər Azərbaycan Respublikasının və Belarus Respublikasının kiçik sahibkarlığa dair xüsusi məlumat bazalarının formalaşdırılması, yeniləşdirilməsi və mübadiləsi üzrə işləri həyata keçirirlər.

Maddə 4

Razılığa gələn Tərəflər aşağıdakı istiqamətlər üzrə təcrübə mübadiləsini həyata keçirir və qarşılıqlı dəstəyi təmin edirlər:

kiçik sahibkarlığa maliyyə-kredit dəstəyi sisteminin inkişafı;

kiçik sahibkarlığa dəstək infrastrukturunun formalaşdırılması;

kiçik sahibkarlıq məsələləri ilə məşğul olan sahibkarların və dövlət qulluqçularının mübadiləsi, təlim kursları və peşəkar hazırlanması proqramlarının həyata keçirilməsi;

habelə Azərbaycan Respublikasının və Belarus Respublikasının mövcud qanunlarına zidd olmayan əməkdaşlığın digər istiqamətlərinin reallaşdırılması.

Maddə 5

Razılığa gələn Tərəflər Azərbaycan Respublikasının və Belarus Respublikasının sahibkarları, həmçinin sahibkarların ictimai və digər mənfəət gətirməyən təşkilatları arasında işgüzar əlaqələrin qurulmasına imkan yaradacaqlar, Azərbaycan Respublikasının və Belarus Respublikasının kiçik sahibkarlıq subyektləri arasında ticarət və digər iqtisadi əlaqələrin inkişafı və genişləndirilməsi məqsədilə işgüzar dairələrin nümayəndə heyətlərinin səfərlərinin təşkili və keçirilməsində yardım göstərirlər.

Maddə 6

Razılığa gələn Tərəflər kiçik sahibkarlığın subyektləri arasında xarici iqtisadi əməkdaşlığın möhkəmləndirilməsinə kömək edən sərgi, yarmarka, konfrans, seminar və digər tədbirlərin keçirilmə planları haqqında məlumat mübadiləsini həyata keçirir və maraq göstərən tədbir iştirakçılarının cəlb edilməsində yardım göstərirlər.

Maddə 7

Bu Sazişin müddəalarının həyata keçirilməsi, əməkdaşlıq formalarının və şərtlərinin konkretləşdirilməsi məqsədilə Razılığa gələn Tərəflər Azərbaycan Respublikasının və Belarus Respublikasının qanunlarına müvafiq olaraq ikitərəfli əlaqələrin müxtəlif istiqamətləri üzrə ayrıca sazişlər (müqavilələr, protokollar) imzalaya bilərlər.

Maddə 8

Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişin ayrılmaz hissəsi olan ayrıca protokolların tərtib edilməsi vasitəsilə bu Sazişə dəyişiklik və əlavələr edilə bilər.

Maddə 9

Bu Sazişin maddələrinin və yaxud müddəalarının təfsiri və tətbiqinə dair bütün mübahi-

səli məsələlər, proseduru Razılığa gələn Tərəflərin razılığı ilə müəyyən ediləcək danışıqlar və məsləhətləşmələr vasitəsilə həll ediləcəkdir.

Maddə 10

Bu Saziş Razılığa gələn Tərəflərin onu imzaladığı gündən qüvvəyə minir və beş il ərzində qüvvədə qalacaqdır. Razılığa gələn Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə altı ay qalmış onu ləğv etmək niyyəti barədə Razılığa gələn digər Tərəfə yazılı şəkildə məlumat verməzsə, bu Sazişin qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılacaqdır.

Bu Saziş 2006-cı il 17 oktyabr tarixində Minsk şəhərində hər biri Azərbaycan, Belarus və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, rus dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF NAZİRLİYİ ADINDAN	BELARUS RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*NİKOLAY ZAYÇENKO*
Xarici işlər naziri	*İqtisadiyyat naziri*

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Belarus Respublikasının İdman və Turizm Nazirliyi arasında bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Belarus Respublikasının İdman və Turizm Nazirliyi,

hər iki ölkənin xalqları arasında dostluq əlaqələrinin inkişafı və möhkəmləndirilməsi üçün bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığın mühüm və vacib elementlərdən biri olduğunu nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər beynəlxalq idman əməkdaşlığını inkişaf etdirmək və möhkəmləndirmək məqsədilə öz fəaliyyətlərini təcrübə və informasiya mübadiləsi üçün keçiriləcək görüş və məsləhətləşmələr yolu ilə koordinasiya edəcəklər.

Tərəflər idman əlaqələrinin möhkəmləndirilməsi məqsədilə hər iki ölkədə keçirilən beynəlxalq idman tədbirlərində və yarışlarında Azərbaycan və Belarus idmançılarının, məşqçilərin, idman hərəkatı təşkilatçılarının iştirakına kömək göstərəcəklər.

Tərəflər idmançıların hazırlığının və idman ustalıqlarının səviyyəsini artırmaq məqsədilə müxtəlif idman növləri üzrə yığma və klub komandalarının hər iki Tərəfin dövlətinin idman bazalarında təlim-məşq toplanışlarının və birgə məşqlərinin keçirilməsini təşviq edəcəklər.

Maddə 2

Tərəflər kütləvi idman tədbirlərinin təşkili üzrə təcrübə mübadiləsinə, əhalinin bədən tərbiyəsi ilə müntəzəm məşğul olmağa cəlb edilməsinə dəstək verəcəklər.

Tərəflər əhalinin bədən tərbiyəsi və idman vasitəsilə sağlamlığı üzrə elmi-metodik məlumatları mübadilə edəcəklər.

Maddə 3

Tərəflər məşqçilərin və elmi-pedaqoji kadrların hazırlığı, yenidən hazırlığı və onların mübadiləsi sahəsində əməkdaşlıq edəcəklər.

Tərəflər hər iki dövlət tərəfindən təşkil edilən idmanla bağlı elmi konqreslər, simpozium və seminarlarda Azərbaycan və Belarus alimlərinin və mütəxəssislərinin iştirakına kömək edəcəklər.

Tərəflər yüksək səviyyəli idmançıların hazırlanması üçün elmi işlərin, yüksək idman nailiyyətləri sahəsində sonuncu nəticələrin, idman diaqnostikası, tibbi-bioloji təminat metodları və müasir elmi avadanlığın istifadəsi barədə məlumatların mübadiləsinə kömək edəcəklər.

Maddə 4

Tərəflər ədalətli oyun prinsiplərinə sədaqətlərini təsdiq edirlər, yarışlarda və idmançıların hazırlığı zamanı qadağan olunmuş vasitə və metodların istifadəsi ilə mübarizədə birgə fəaliyyət göstərəcəklər.

Maddə 5

Tərəflər idman qurğularının tikintisi, istismarı və idman avadanlığının istehsalı sahələrində təcrübə mübadiləsi aparacaqlar.

Maddə 6

Tərəflər hər iki dövlətdə idmanın inkişafı məqsədilə idman növləri üzrə federasiyalar, olimpiya hazırlıq mərkəzləri, idman ixtisaslı elm və tədris ocaqları arasında birbaşa əlaqələr qurulmasını dəstəkləyəcəklər.

Tərəflər müəyyən edirlər ki, bu Sazişin müddəalarında öz əksini tapmış bədən tərbiyəsi və idman sahələrindəki əməkdaşlığın formaları qarşılıqlı hörmət, bərabərlik, Tərəflərin digər beynəlxalq sazişlərdən irəli gələn hüquq və öhdəliklərini azaltmama şəraitində həyata keçiriləcəkdir. Sazişin həyata keçirilməsinin formasını, proqramını və maliyyə şərtlərini Tərəflər hər bir konkret hal üçün məsləhətləşmələr yolu ilə müəyyən edəcəklər.

Maddə 7

Bu Saziş imzalandığı gündən qüvvədədir və 4 (dörd) il müddətinə qüvvədə olacaqdır. Tərəflərdən hər hansı biri onun qüvvəsini ləğv etmək niyyəti barədə bu müddətin bitməsinə altı ay qalmış yazılı olaraq diplomatik kanallarla digər Tərəfə bildirməzsə, Sazişin qüvvəsi avtomatik olaraq növbəti dördillik müddətə uzadılacaqdır.

Bu Sazişin qüvvəsinin ləğv edilməsi, Tərəflər arasında digər razılıq olmadığı təqdirdə, bu Sazişin qüvvədə olduğu müddətdə başlanılan layihə və proqramlara təsir etmir.

2006-cı il 17 oktyabr tarixində Azərbaycan və rus dillərində, Minsk şəhərində iki əsl nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ GƏNCLƏR VƏ TURİZM NAZİRLİYİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

BELARUS RESPUBLİKASININ İDMAN VƏ TURİZM NAZİRLİYİ ADINDAN

ALEKSANDR QRİQOROV
İdman və turizm naziri

Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Belarus Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Belarus Respublikasının Təhsil Nazirliyi,

Tərəflərin dövlətlərinin təhsil sistemlərinin hüquq bərabərliyi, müstəqillik və bütövlük prinsipləri əsasında faydalı əməkdaşlığın möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə qarşılıqlı səylərini bildirərək,

maarifçilik siyasəti sahəsində qarşılıqlı münasibətlərdə ümumbəşəri dəyərlərin, İnsan hüquqları haqqında Ümumi Bəyannamənin, Uşaq hüquqları haqqında Konvensiyanın prinsiplərinin, beynəlxalq hüquq normalarının şərtsiz üstünlüklərini qəbul edərək və onların əməli həyata keçirilməsinə çalışaraq,

təhsil sahəsində elmiliyin və dünyəviliyin, humanizm və demokratiyanın təmin olunmasına, hər iki dövlətdə yaşayan xalqların, təhsil alanların vətəndaşlığından, etnik mənsubiyyətindən asılı olmayaraq, mədəni-təhsil tələbatının ödənilməsinə xüsusi əhəmiyyət verərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər ümumi təhsil, texniki-peşə, orta ixtisas və ali, eləcə də diplomdan sonrakı təhsil, həmçinin elmi tədqiqatların aparılması sahəsində əməkdaşlığı inkişaf etdirəcəklər.

Maddə 2

Sazişin məqsədi aşağıdakılardır:

uyğun sahələrin ali və orta ixtisas təhsili məktəbləri, eləcə də ixtisasartırma təhsil müəssisələri və elmi təşkilatlar arasında birbaşa əlaqələrin bərqərar olunması və onların qarşılıqlı faydalı əməkdaşlığı üçün lazımi şəraitin yaradılması;

qarşılıqlı maraq kəsb edən mövzular üzrə birgə elmi tədqiqatların aparılması, tədris-metodiki ədəbiyyatın tərtib edilməsi;

ali və orta ixtisas təhsili məktəblərində, o cümlədən ixtisasartırma təhsili müəssisələrində mühazirələrin oxunması üçün uzun və qısamüddətli əsaslarla elmi və müəllim kadrlarının mübadiləsi.

Maddə 3

Tərəflər aşağıdakılara səy göstərəcəklər:

təhsil və elmi məsələlər üzrə beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsində bir-birinə kömək göstərilməsi;

qarşılıqlı maraq kəsb edən sahələr üzrə mütəxəssislərin hazırlanması üçün Tərəflərin qarşılıqlı bərabərlik əsasında ali və orta ixtisas məktəblərində yerlərin ayrılması;

hər iki Tərəfin alimlərinin elmi əsərlərinin ali məktəblərin elmi məcmuələrinin dövri mətbuatında dərc olunmasına kömək göstərilməsi;

Tərəflərin milli dillərinin öyrənilməsi üzrə xüsusi kursların təşkil olunması;

dərslik və dərs vəsaitləri daxil olmaqla ədəbiyyat mübadiləsi;

ümumtəhsil məktəbləri müəllimlərinin ixtisasartırması və təkmilləşdirilməsi sahəsində qarşılıqlı əməkdaşlıq.

Tərəflər Belarus Respublikasında yaşayan milliyyətcə azərbaycanlı olan uşaqlara və Azərbaycan Respublikasında yaşayan milliyyətcə belarus olan uşaqlara ana dillərində təhsil almaq, öz xalqlarının mədəniyyəti, tarixi və adət-ənənələri ilə tanış olmaq üçün əlverişli şərait yaradacaqlar.

Maddə 4

Tərəflər Azərbaycan Respublikası və Belarus Respublikasının ali təhsil müəssisələri arasında birbaşa əməkdaşlığın inkişafına, həmçinin hər iki ölkənin ali təhsil və müvafiq elmi tədqiqat müəssisələri ilə əməkdaşlığın qurulmasına, təhsil sahəsində beynəlxalq proqram və layihələr çərçivəsində əməkdaşlıq aparılmasına, ali məktəb alimlərinin əsərlərinin qarşılıqlı olaraq öz elmi məcmuələrində çap olunmasına şərait yaradırlar.

Maddə 5

Tərəflər kontrakt əsasında digər Tərəfin vətəndaşlarının öz təhsil müəssisələrinə bərabər səviyyədə qəbul olunmalarını təmin edirlər.

Maddə 6

Tərəflər dünya standartlarına istiqamətləndirilmiş vahid tələbatı təmin etmək məqsədilə təhsil müəssisələri üzrə normativ hüquqi sənədlərin mübadiləsini həyata keçirir, təhsilin dövlət standartlarına dair qanunvericilik və digər normativ aktların, elmi-pedaqoji tədqiqatlar haqqında məlumatların alınmasına və mübadiləsinə, təhsil problemləri üzrə birgə elmi proqramların işlənilməsinə kömək göstərirlər.

Maddə 7

Tərəflər öz dövlətlərinin ərazilərində adekvat şəkildə mövcud olan ehtiyaclara uyğun olaraq digər Tərəfin dövlətinin dilində ümumi təhsil müəssisələrinin, o cümlədən məktəblərin, siniflərin, qrup və dərnəklərin açılmasına yardım edəcək, onlara dövlət təşkilati-pedaqoji və tədris-metodiki kömək göstərəcəklər.

Maddə 8

Tərəflər təhsil sənədlərinin qarşılıqlı tanınması haqqında müqavilənin imzalanması məsələsinə baxacaqlar.

Maddə 9

Tərəflər humanitar sahələrdə birgə sosioloji tədqiqatların aparılması, şagirdlərin və müəllimlərin birgə əməyinin və istirahətinin təşkilinə kömək göstərilməsi və idman yarışlarının təşkili sahəsində əməkdaşlıq edəcəklər.

Maddə 10

Təhsil sisteminin inkişafı və təkmilləşdirilməsi, təhsili idarəetmə kadrlarının hazırlanması, müəllimlərin attestasiyası məsələlərinin öyrənilməsi və qabaqcıl təcrübə mübadiləsinin aparılması məqsədilə Tərəflər nazirlik, təhsili idarəetmə orqanları və tədris müəssisələri işçiləri səviyyəsində nümayəndə heyətlərinin qarşılıqlı mübadiləsini aparacaq, habelə birgə nəzəri, elmi-praktik konfranslar, seminarlar, müşavirələr və digər tədbirlər keçirəcəklər.

Maddə 11

Bu Sazişin müddəalarından irəli gələn konkret tədbirlər, onların həyata keçirilməsi tarixləri və şərtləri hər il tərtib olunan protokollarla müəyyən olunur.

Bu Sazişin müddəalarının həyata keçirilməsi ilə əlaqədar Tərəflər arasında əlaqələri və qarşılıqlı münasibətləri tənzimləmək məqsədilə İşçi qrupu təşkil olunur. İşçi qrupu Tərəflərdən birinin xahişi ilə ildə bir dəfə Bakıda və Minskdə görüşəcəkdir.

İşçi qrupuna hər bir Tərəfdən nazir müavini başçılıq edəcəkdir.

Maddə 12

Bu Saziş imzalandığı gündən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanır və Tərəflərdən biri yuxarıda göstərilən müddətin bitməsinə ən azı 6 (altı) ay qalmış digər Tərəfi onun qüvvəsini ləğv etmək niyyəti barədə xəbərdar etməzsə, bu Saziş avtomatik olaraq növbəti 5 (beş) illik müddətlərə uzadılır.

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı əsasında Sazişdə nəzərdə tutulmuş qaydada qüvvəyə minən və onun ayrılmaz hissəsi olan ayrıca protokollarla tərtib olunan dəyişiklik və əlavələr edilə bilər.

Bu Saziş 2006-cı il 17 oktyabr tarixində Minsk şəhərində hər biri Azərbaycan və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər autentikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, rus dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL NAZİRLİYİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

BELARUS RESPUBLİKASININ
TƏHSİL NAZİRLİYİ ADINDAN

ALEKSANDR RADKOV
Təhsil naziri

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Belarus Respublikasının Fövqəladə Hallar Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Belarus Respublikasının Fövqəladə Hallar Nazirliyi,

hər iki ölkə arasında mövcud dostluq münasibətlərinin möhkəmləndirilməsi və inkişaf etdirilməsi fikrini rəhbər tutaraq,

qarşılıqlı mənafe, hörmət, suverenlik və bərabərlik prinsiplərinə əsaslanaraq, təbii və texnogen mənşəli fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində ikitərəfli əməkdaşlığın gücləndirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər milli qanunvericiliyə uyğun olaraq və Tərəflərin səlahiyyətləri çərçivəsində aşağıdakı istiqamətlərdə əməkdaşlıq edəcəklər:

informasiya, dövri mətbuat, metodiki və elmi-texniki ədəbiyyat, elmi tədqiqat işlərinin nəticələri, video, foto və digər materialların mübadiləsi;

birgə işçi müşavirələrinin, seminarların, konfransların, tədris kurslarının, məşqlərin, təlimlərin, elmi tədqiqat layihələrinin, idman və digər tədbirlərin planlaşdırılması, işlənməsi və həyata keçirilməsi;

Tərəflərin tədris müəssisələrində mütəxəssislərin hazırlığının təşkil edilməsi, təcrübə keçənlərin, müəllimlərin, alimlərin, mütəxəssislərin və digər əməkdaşların mübadiləsi;

Tərəflərin fəaliyyətinə aid olan gənclər, könüllülər, idman və digər ictimai hərəkatlar sahəsində əməkdaşlığın inkişafı;

Tərəflərin səlahiyyətinə daxil olan məsələlər üzrə qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin işlənib hazırlanması;

texniki, sosial və humanitar əməkdaşlıq üzrə birgə layihələrin hazırlanması və həyata keçirilməsi;

zərurət yarandıqda, təbii və texnogen mənşəli fövqəladə halların nəticələrinin aradan qaldırılması üzrə qarşılıqlı yardımın və ya üçüncü ölkələrə birgə yardımın göstərilməsinin təşkili;

Tərəflərin səlahiyyətlərinə daxil olan digər fəaliyyətin həyata keçirilməsi.

Maddə 2

Bu Saziş icra edilməsi üçün tədbirlərin həyata keçirilməsi məqsədilə Tərəflər qarşılıqlı əməkdaşlıq üzrə Birgə işçi qrupu yaradaraq (bundan sonra - Birgə işçi qrupu) qrup üzvlərinin sayını, tərkibini, funksiyalarını və iş qaydalarını müəyyən edirlər.

Bu Saziş qüvvəyə mindikdən sonra Birgə işçi qrupu Tərəflər arasında əməkdaşlıq üzrə Kompleks plan işləyib hazırlayır və müəyyən olunmuş qaydada təsdiq edirlər.

Maddə 3

Bu Sazişin 1-ci və 2-ci maddələri ilə nəzərdə tutulmuş şərtlərin həyata keçirilməsi hər bir konkret hal üçün ayrıca olaraq müəyyən edilir.

Maddə 4

Bu Saziş Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə toxunmur.

Maddə 5

Tərəflər bu Sazişin həyata keçirilməsi və təfsiri ilə əlaqədar yarana biləcək mübahisəli məsələləri məsləhətləşmələr və danışıqlar yolu ilə həll edəcəklər.

Maddə 6

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə düzəlişlər və əlavələr edilə bilər. Həmin düzəlişlər və əlavələr 7-ci maddədə nəzərdə tutulmuş şərtlər əsasında qüvvəyə minən və bu Sazişin ayrılmaz hissəsi olan protokollarla rəsmiləşdiriləcəkdir.

Maddə 7

Bu Saziş imzalandığı gündən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən hər hansı biri onun qüvvəsini ləğv etmək niyyəti barədə bu müddətin bitməsinə altı ay qalmış diplomatik kanallar vasitəsilə digər Tərəfə yazılı bildiriş göndərməzsə, Sazişin qüvvəsi növbəti beşillik müddətə uzadılacaqdır.

Bu Saziş 2006-cı il 17 oktyabr tarixində Minsk şəhərində hər biri Azərbaycan və rus dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, rus dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ ADINDAN	BELARUS RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ ADINDAN
KƏMALƏDDİN HEYDƏROV	*ƏNVƏR BARİYEV*
Fövqəladə hallar naziri	*Fövqəladə hallar naziri*

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında aqrar-sənaye kompleksi sahəsində iqtisadi və elmi-texniki əməkdaşlıq barədə Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi,

aqrar-sənaye kompleksi sahəsində bərabərlik və qarşılıqlı faydalı prinsipləri əsasında iqtisadi və elmi-texniki əməkdaşlığı inkişaf etdirmək təşəbbüslərinə əsaslanaraq,

Azərbaycan Respublikası və Belarus Respublikası arasında iqtisadi və elmi-texniki sa-

hələrdə yaranmış tarixi əlaqələri nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

İqtisadi və elmi-texniki əməkdaşlıq Tərəf olan ölkələrin qanunvericiliyinə uyğun həyata keçiriləcəkdir.

Maddə 2

Əməkdaşlıq aşağıdakı əsas istiqamətlər üzrə aparılacaqdır:

bitkiçilik, o cümlədən kənd təsərrüfatı bitkilərinin toxumçuluğu;

heyvandarlıq, o cümlədən damazlıq işləri;

yeyinti və emal sahələri;

aqrar-sənaye kompleksində təsərrüfatçılıq metodlarının inkişaf etdirilməsi və təkmilləşdirilməsi;

iqtisadiyyat və aqrar siyasət, kənd təsərrüfatı və emal sənayesi sahələrində ticarət əməliyyatlarının həyata keçirilməsi zamanı hesablaşmaların aparılmasında qarşılıqlı əlverişli iqtisadi münasibətlər;

aqrar təhsil, aqrar-sənaye kompleksi təşkilatlarının rəhbər və mütəxəssislərinin hazırlanması və təkmilləşdirilməsi sahəsində əməkdaşlıq.

Sazişin 9-cu maddəsinə uyğun olaraq, əməkdaşlığın digər istiqamətləri də bu Sazişə daxil edilə bilər.

Maddə 3

Tərəflər öz səlahiyyətləri daxilində dövlətlərinin qanunvericiliyinə uyğun olaraq hər bir Tərəfdən iqtisadi və elmi-texniki əməkdaşlığın bilavasitə iştirakçılarına yardım və kömək göstərəcək, Tərəflərin dövlətlərində aparılan iqtisadi islahatlar şəraitində aqrar-sənaye kompleksi sahəsində qarşılıqlı fayda əsasında əməkdaşlığı təmin edəcəklər.

Tərəflər kənd təsərrüfatı məhsullarının, materialların, avadanlığın, kənd təsərrüfatı məhsullarının emalı və qablaşdırılması üçün texnoloji xətlərin qarşılıqlı əlverişli ticarətinin aparılmasına və inkişaf etdirilməsinə yardımçı olacaqlar.

Maddə 4

Əməkdaşlıq bu Saziş çərçivəsində aşağıdakı formalarda həyata keçiriləcəkdir:

elmi-texniki və iqtisadi informasiyanın, elmi tədqiqatların nəticələrinin mübadiləsi, seminarların, simpoziumların, sərgilərin keçirilməsi;

toxum nümunələri, kənd təsərrüfatı heyvanları və əkin materiallarının mübadiləsi;

qarşılıqlı maraq doğuran problemlər üzrə birgə tədqiqat və araşdırmaların aparılması;

təcrübə keçən mütəxəssislərin mübadiləsi.

Bu Sazişin 9-cu maddəsinə uyğun qaydada Sazişə digər əməkdaşlıq formaları da daxil edilə bilər.

Maddə 5

Tərəflər heyvan və heyvan mənşəli məhsulların idxalı və ixracında baytarlıq tələbləri məsələlərində qüvvədə olan beynəlxalq konvensiyalardan və sazişlərdən irəli gələn öhdəliklərini təsdiq edirlər.

Maddə 6

Tərəflər karantin və bitkilərin mühafizəsi məsələləri üzrə iştirakçıları olduqları qüvvədə olan beynəlxalq konvensiyalar və sazişlərdən irəli gələn öhdəliklərinə əməl edərək, kənd təsərrüfatı bitkilərinin alaqları və xəstəlikləri ilə mübarizə üsullarının işlənib hazırlanması və tətbiqi sahəsində əməkdaşlıq edəcəklər.

Maddə 7

Tərəflər bu Sazişdən irəli gələn müddəaları maraqlı sahəvi təşkilatlar vasitəsilə həyata keçirəcəklər.

Tərəflərin qarşılıqlı fəaliyyətinin koordinasiyası ticarət-iqtisadi əməkdaşlıq komissiyası çərçivəsində aparılacaqdır.

Maddə 8

Bu Saziş imzalandığı andan qüvvəyə minir və 5 il müddətində qüvvədə olacaqdır. Əgər Tərəflərdən biri beşillik müddətin bitməsinə altı ay qalmış Sazişin qüvvəsinin ləğv edilməsi niyyəti barədə digər Tərəfə yazılı şəkildə bildiriş göndərməzsə, Sazişin qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətə uzadılır.

Maddə 9

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı əsasında dəyişiklik və əlavələr edilə bilər. Aparılmış dəyişiklik və əlavələr bu Sazişin ayrılmaz tərkib hissəsi olan ayrıca protokollarla rəsmiləşdiriləcəkdir.

Saziş 2006-cı il 17 oktyabr tarixində Minsk şəhərində hər biri Azərbaycan və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ ADINDAN	BELARUS RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI VƏ ƏRZAQ NAZİRLİYİ ADINDAN
İSMƏT ABASOV *Kənd təsərrüfatı naziri*	*LEONİD RUSAK* *Kənd təsərrüfatı və ərzaq naziri*

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Belarus Respublikasının Nəqliyyat və Kommunikasiya Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Memorandum

İki ölkə arasında nəqliyyat sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin və Belarus Respublikası Nəqliyyat və Kommunikasiya Nazirliyinin rəhbərləri (bundan sonra - Tərəflər) arasında danışıqlar aparılmışdır.

Tərəflər mövcud nəqliyyat əlaqələrini müsbət qiymətləndirərək, iki ölkə arasında nəqliyyat sahəsində problemlərin aradan qaldırılması məqsədilə, nəqliyyat kommunikasiyalarının və infrastrukturunun təkmilləşdirilməsi istiqamətində qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsinin və mütəmadi görüşlərin keçirilməsinin vacibliyini vurğuladılar. Hər iki dövlətin beynəlxalq nəqliyyat dəhlizlərinə əlavə yük axınlarının cəlb edilməsi məqsədilə:

iki ölkə arasında daşımalar zamanı yaranacaq maneələrin aradan qaldırılması, nəqliyyat prosedurlarının sadələşdirilməsi və nəqliyyat sahəsində milli qanunvericiliklərin beynəlxalq standartlara uyğunlaşdırılmasının;

razılaşdırılmış çevik tarif siyasətinin həyata keçirilməsinin;

daşımaların təşkili və koordinasiyası üzrə yeni nəqliyyat texnologiyalarının tətbiqinin və nəqliyyat-məlumat logistik mərkəzlərinin yaradılmasının;

tranzit daşımaların inkişaf etdirilməsinin və bu proses istiqamətində Tərəflərin səylərinin artırılmasının vacibliyini qeyd etdilər.

1. Tərəflər "Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında kombinə edilmiş beynəlxalq yük daşımaları haqqında Saziş"in imzalanması barədə razılığa gəldilər.

2. Avtomobil nəqliyyatı sahəsində əməkdaşlıq

Tərəflər iki ölkə arasında 1993-cü il aprelin 20-də Minsk şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş"in müvafiq müddəalarının icrasını təmin etmək məqsədilə, 2005-ci il üçün universal "İcazə"lərin mübadilə sayının 150 ədəd həddində saxlanılmasını məqsədəuyğun hesab etdilər.

Belarus tərəfi, Belarus beynəlxalq avtomobil daşıyıcılarında Azərbaycanın üçüncü ölkəyə/üçüncü ölkədən icazələrinə tələbat yarandığını qeyd edərək, bu daşımaların həyata keçirilməsi üçün 100 ədəd kvotanın müəyyən edilməsini təklif etdi.

Azərbaycan tərəfi bu məsələyə avtomobil nəqliyyatı üzrə Belarus-Azərbaycan Qarışıq Komissiyasının iclasında baxılacağını bildirdi.

Tərəflər gələcəkdə Bakı-Minsk müntəzəm beynəlxalq avtobus marşrutunun açılması imkanlarına baxılmasını qərara aldılar.

3. Hava nəqliyyatı sahəsində əməkdaşlıq

Tərəflər iki ölkə arasında birbaşa hava əlaqələrinin yaradılması məqsədilə, Azərbaycan aviaşirkətlərinin Qərbi Avropaya uçuşları zamanı Belarusun tranzit potensialından istifadə edilməsi və Belarus aviaşirkətlərinin Cənub-Şərqi Asiya istiqamətində uçuşları zamanı Azərbaycanın tranzit potensialından istifadə edilməsi barədə razılığa gəldilər.

Bu Memorandum 2006-cı il 17 oktyabr tarixində Minsk şəhərində hər biri Azərbaycan və rus dillərində olmaqla, iki nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ
NƏQLİYYAT
NAZİRLİYİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

BELARUS RESPUBLİKASININ
NƏQLİYYAT VƏ KOMMUNİKASİYALAR
NAZİRLİYİ ADINDAN

VLADİMİR SOSNOVSKİ
Nəqliyyat və kommunikasiyalar naziri

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Belarus Respublikasının Milli Dövlət Teleradio Şirkəti arasında Əməkdaşlıq Sazişi

Bundan sonra "Tərəflər" adlandırılacaq "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Belarus Respublikasının Milli Dövlət Teleradio Şirkəti (Belteleradioşirkət),

Azərbaycan və Belarus ərazilərində televiziya və radio proqramlarının yayımlanması üçün əlverişli şərait yaradılmasına dair qarşılıqlı marağı rəhbər tutaraq,

Azərbaycan və Belarus xalqları arasında tarixən yaranan sosial-mədəni və elmi əlaqələrin inkişaf etdirilməsində teleradio yayımının ümumsiyasi əhəmiyyətinə əsaslanaraq,

Tərəflər arasında dostluq və işgüzar əlaqələrin möhkəmlənməsinə böyük əhəmiyyət verərək,

teleradio yayımı sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz dövlətlərinin, xalqlarının iqtisadi, mədəni və sosial inkişafını, qazandıqları nailiyyətləri əks etdirən sənədli və xronikal proqramların, habelə musiqi, elmi-populyar verilişlərin mübadiləsini həyata keçirəcək, o cümlədən öz ölkələrinin milli bayramlarını və əlamətdar hadisələrini işıqlandıracaqlar.

Tərəflərin heç biri əldə olunan materialları üçüncü tərəfə vermək və ya satmaq hüququna malik deyildir. Tərəflər bu Sazişə əsasən aldıqları proqramlardan, yaxud informasiya və arxiv materiallarından yalnız özləri istifadə edə bilərlər.

Materialı alan Tərəf proqramda dəyişiklik və ya ixtisar edərsə, bu halda proqramın mahiyyətinə, məzmununa xələl gəlməməli və təhrif olunmamalıdır.

Teleradio məhsulu əvəzi ödənilmədən verilə bilər və yaxud haqqı hər bir konkret halda razılaşmaya uyğun ödənilə bilər. Proqramın və materialların göndərilməsi haqqını onları alan Tərəf ödəyir.

Maddə 2

Saziş çərçivəsində göndərilən proqramların müəlliflik hüququnun qorunmasını müəlliflik hüququ sahəsindəki milli və beynəlxalq qanunvericilik tələblərini nəzərə almaqla, göndərən Tərəf təmin edir. Əgər proqramı alan müəlliflik mülkiyyəti hüququna görə müəyyən vergi ödəməyə borcludursa, proqramı göndərən bu barədə alan Tərəfi əvvəlcədən xəbərdar edir və yalnız müəlliflik hüquqları ilə əlaqədar bütün vergilərin ödənilməsini öz üzərinə götürür.

Maddə 3

Tərəflər qarşılıqlı razılaşmaya əsasən, öz işçilərini digər Tərəfin struktur bölmələrinə ezamiyyətə göndərəcək və belə səfərlərin təşkilində bir-birinə kömək göstərəcəklər.

Göndərən Tərəf nümayəndə heyətinin tərkibi və işçilərin tutduğu vəzifə barədə qəbul edən Tərəfi vaxtında xəbərdar etməlidir ki, digər Tərəf görüşün təşkili üçün lazımi tədbirlər görə bilsin.

Qarşılayan Tərəf xidməti ezamiyyətdə olan işçilərə aldıqları jurnalist tapşırıqlarının və çəkilişlərin yerinə yetirilməsində lazımi kömək (informasiya verilməsi, təşkilati və texniki xidmət) göstərir.

Əlavə razılaşma olmadığı halda nəqliyyat və yaşayış xərcləri də daxil olmaqla, səfərlə bağlı bütün xərcləri əməkdaşları göndərən Tərəf ödəyir.

Tərəflər göstərilən xidmətlərə görə bir-birinə hesab təqdim edirlər. Xidmətlərin dəyəri və ödəniş müddəti hər iki Tərəfin razılaşdırdığı standartlara uyğun olaraq əvvəlcədən müəyyənləşdirilir.

Maddə 4

Tərəflər Böyük Vətən müharibəsində Qələbə gününə həsr olunmuş materiallar da daxil olmaqla, müxtəlif mövzulu audio-video məhsulların birgə istehsalı və mübadiləsi, "Vitebskdə Slavyan bazarı" beynəlxalq incəsənət festivalı tədbirlərinin birgə işıqlandırılması layihələrinin və onları maraqlandıran digər layihələrin hazırlanması və həyata keçirilməsi sahəsində əməkdaşlığı inkişaf etdirəcəklər.

Tərəflər müştərək proqramların hazırlanmasında hər bir konkret proqramın mövzusunu, məzmununu, davamiyyət müddətini, iştirakçıların sayını, proqramın dəyərini və s. öncədən razılaşdırırlar.

Tərəflər həmçinin öz mövqelərini əlaqələndirəcək və bir tərəfin beynəlxalq təşkilatlar çərçivəsində (Avropa Yayım Birliyi və s.) irəli sürdüyü təşəbbüslərin həyata keçirilməsi məqsədilə birgə fəaliyyətlərini müəyyən olunmuş qaydada razılaşdıracaqlar.

Maddə 5

Tərəflər mövcud Sazişə uyğun olaraq qarşılıqlı surətdə mütəxəssisləri tədrisə və təkmilləşməyə cəlb edə bilərlər. Tədrisin təşkilinin konkret məsələləri ayrı-ayrı protokollarla nizamlanır.

Maddə 6

Tərəflər televiziya və radionun inkişafı üçün əhəmiyyətli olan informasiyaların, o cümlədən sorğuların və tədqiqatların nəticələrinin, idarəetmə, hüquqi baza, proqram cədvəllərinin tərtibi, texniki problemlər və s. haqqında informasiyaların ötürülməsini və ya mübadiləsini öhdələrinə götürürlər.

Maddə 7

Mövcud Saziş çərçivəsində əməkdaşlığı bilavasitə Tərəflər və yaxud onların müvəkkilləri - konkret tədbirləri, müddətləri, maliyyə və digər şərtləri nəzərə alan ayrı-ayrı fə-

aliyyət istiqamətləri üzrə əməkdaşlıq haqda birgə protokollar imzalaya bilən struktur bölmələri həyata keçirirlər.

Maddə 8

Tərəflər mövcud Saziş əsasında əməkdaşlığın həyata keçirilməsində rus dilindən istifadə edirlər.

Maddə 9

Mövcud Sazişin anlaşılması və ya onun müddəalarının tətbiqi ilə əlaqədar fikir ayrılığı məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

Maddə 10

Bu Saziş imzalandığı gündən qüvvəyə minir və beş il müddətində qüvvədədir. Əgər Tərəflərdən biri həmin müddətin bitməsinə ən azı altı ay qalmış Sazişin qüvvəsini ləğv etmək niyyətini digər Tərəfə yazılı formada bildirməsə, Sazişin qüvvəsi avtomatik olaraq daha beş il müddətinə uzadılır.

Hər iki Tərəfin razılığı ilə bu Sazişə əlavə və dəyişikliklər edilə bilər.

Bu Saziş 2006-cı il 17 oktyabr tarixində Minsk şəhərində hər biri Azərbaycan və rus dillərində olmaqla, iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu müddəaların təfsirində fikir ayrılığı yarandığı təqdirdə, rus dilindəki mətndən istifadə ediləcəkdir.

"AZƏRBAYCAN TELEVİZİYA VƏ RADİO VERİŞLƏRİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ ADINDAN

ARİF ALIŞANOV
Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin sədri

BELARUS MİLLİ DÖVLƏT TELERADİO ŞİRKƏTİ ADINDAN

ALEKSANDR ZİNOVSKİ
Belarus Milli Dövlət Teleradio Şirkətinin sədri

"Bütün şəxslərin zorakı itkin düşmələrdən müdafiəsi üzrə Beynəlxalq Konvensiya"nı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2006-cı il 20 dekabr tarixində BMT-nin Baş Assambleyasının 61-ci sessiyası çərçivəsində qəbul edilmiş "Bütün şəxslərin zorakı itkin düşmələrdən müdafiəsi üzrə Beynəlxalq Konvensiya"nı Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Fransa Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Tarik İsmayıl oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Konvensiyanı Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Fransa Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Tarik İsmayıl oğlu Əliyevə verilməsi barədə BMT-yə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 fevral 2007-ci il

№1951

"Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti layihəsinin Marabda-Türkiyə Respublikası sərhədinə qədər dəmir yolu sahəsinin maliyyələşdirilməsinin şərtləri haqqında Kredit Müqaviləsi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti layihəsinin Marabda-Türkiyə Respublikası sərhədinə qədər dəmir yolu sahəsinin maliyyələşdirilməsinin şərtləri haqqında Kredit Müqaviləsi"ni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova və Azərbaycan Beynəlxalq Bankı İdarə Heyətinin sədri Cahangir Fövzi oğlu Hacıyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Kredit Müqaviləsini Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova və Azərbaycan Beynəlxalq Bankı İdarə Heyətinin sədri Cahangir Fövzi oğlu Hacıyevə verilməsi barədə Gürcüstan tərəfinə bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 fevral 2007-ci il

№1952

"Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda-Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiya-rekonstruksiyası və istismarının prinsip və şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda-Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiyarekonstruksiyası və istismarının prinsip və şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq

səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Gürcüstan Hökumətinə bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 fevral 2007-ci il

№1953

"Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Gürcüstan və Türkiyə tərəfinə bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 fevral 2007-ci il

№1954

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında" 2006-cı il oktyabrın 17-də Minsk şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 fevral 2007-ci il

№241-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti,

beynəlxalq yük daşımalarının həyata keçirilməsini asanlaşdırmaq istəyini rəhbər tutaraq,

ticarət münasibətlərinin inkişafında effektiv beynəlxalq yük daşımalarının mühüm şərt olmasını nəzərə alaraq,

avtomobil yük daşımalarına iqtisadi, sosial və ekoloji cəhətdən əlverişli alternativlərin təşkil edilməsi məqsədilə, eləcə də ətraf mühitin qorunmasını nəzərə alaraq, dəmir yolu və su nəqliyyatının müasir nəqliyyat sisteminin inkişafının zəruriliyini etiraf edərək,

beynəlxalq yük daşımalarının həyata keçirilməsinin asanlaşdırılmasında kombinə edilmiş yük daşımaları sisteminin yüksək potensiala malik olmasına əmin olaraq,beynəlxalq yük daşımalarını tənzimləyən beynəlxalq müqavilələrə istinad edərək, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tətbiq edilmə dairəsi

1. Bu Saziş Razılığa gələn Tərəflərdən birinin dövlətinin ərazisində qeydiyyata alınan daşıyıcılar tərəfindən yola düşmə və ya təyinat məntəqələri ərazilərində yerləşən Razılığa gələn Tərəflərin Dövlətləri arasında və onların Dövlətlərinin ərazilərindən tranzitlə dəmir yolu, su və avtomobil nəqliyyatından qismən istifadə etməklə beynəlxalq kombinə edilmiş yük daşımaları sahəsində tətbiq edilir.

2. Bu Saziş Razılığa gələn Tərəflərin iştirak etdikləri digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə toxunmur.

Maddə 2

Təriflər

Bu Sazişin məqsədləri üçün göstərilən terminlər aşağıdakı mənaları daşıyır:

1. İntermodal yük daşımaları - ardıcıl olaraq iki və daha artıq nəqliyyat növündən istifadə etməklə və yüklərin özlərini əməliyyata cəlb etmədən eyni bir intermodal vahidində və ya avtonəqliyyat vasitəsində yüklərin daşınmasıdır.

2. Beynəlxalq kombinə edilmiş yük daşımaları - avtomobil daşımalarının başlanğıc və son mərhələləri maksimum qısa olmaq şərtilə dəmir yolu və su nəqliyyatından istifadəyə üstünlük verilən intermodal yük daşımalarıdır.

3. Yol nəqliyyat vasitəsi - yüklərin daşınması üçün quraşdırılmış və ya uyğunlaşdırılmış və Razılığa gələn Tərəflərdən birinin dövlətinin ərazisində qeydiyyata alınan hər hansı bir mühərrikli avtonəqliyyat vasitəsidir. Avtomobil və ya dartıcısı Razılığa gələn Tərəflərdən birinin dövlətinin ərazisində qeydiyyata alınan qoşqulu avtomobil və ya yarımqoşqu ilə dartıcı, yəni "birləşdirilmiş yol nəqliyyat vasitəsi" də yol nəqliyyat vasitəsi hesab olunur.

4. İntermodal nəqliyyat vahidi - intermodal nəqliyyatına uyğun gələn istənilən növ konteyner (uzunluğu 20 futdan az olmamaqla), dəyişdirilən ban, yarımqoşqu və ya qoşqu, yük avtomobili və ya vaqondur.

5. İntermodal terminal - daşıma üsulunun əvəz olunduğu dəmir yolu şəbəkəsi və ya daxili su yolu/dəniz limanı sahəsidir.

6. İntermodal terminala/terminaldan nəql edilmə - dövlət sərhəd-keçid məntəqəsindən və ya yükləmə məntəqəsindən yükün hərəkət marşrutu üzrə yerləşən ən yaxın dəmir yolu terminalına və ya limana qədər və dəmir yolu terminalından və ya limandan yükün hərəkət marşrutu üzrə yerləşən ən yaxın dövlət sərhəd-keçid məntəqəsinə və ya təyinat məntəqəsinə qədər intermodal nəqliyyat vahidinin avtomobil ilə daşınmasıdır.

7. Müşayiətlə nəql edilmə - sürücü tərəfindən müşayiət edilən yol nəqliyyat vasitələri qatarının avtomobil daşımalarından fərqlənən digər nəqliyyat vasitələri ilə daşınılmasıdır.

8. Müşayiətsiz nəql edilmə - sürücü tərəfindən müşayiət edilməyən yol nəqliyyat vasitələri qatarının avtomobil daşımalarından fərqlənən digər nəqliyyat vasitələri ilə daşınılmasıdır.

9. Razılığa gələn Tərəfin dövlətinin ərazisi - Belarus Respublikasının ərazisi və müvafiq olaraq Azərbaycan Respublikasının ərazisidir.

10. Birgə komissiya - bu Sazişin 8-ci maddəsinə müvafiq olaraq təsis edilmiş beynəlxalq kombinə edilmiş nəqliyyat üzrə komissiyadır.

11. Daşıyıcı - Razılığa gələn Tərəflərdən birinin ərazisində qeydiyyata alınmış və qeydiyyata alındığı ölkədə qüvvədə olan milli qanunvericiliyə və qaydalara müvafiq olaraq beynəlxalq sərnişin və yük daşımaları həyata keçirmək hüququna malik olan hər hansı fiziki və ya hüquqi şəxs.

12. Kombinə edilmiş daşımalar üzrə operator - yüklərin daşınmasına cavabdeh olan hər hansı fiziki və hüquqi şəxs.

13. İcazə - Tərəflərdən birinin avtonəqliyyat vasitəsinə o biri Tərəfin ərazisindən/ərazisinə daxil olmaqla, çıxmaq və ya Tərəflərin ərazisindən tranzitlə keçmək hüququ verən sənəd.

14. Xüsusi icazə - böyük ölçülü, ağır çəkili nəqliyyat vasitələrində daşımaları yerinə yetirməyə, həmçinin ərazisində daşımanın həyata keçirildiyi Tərəfin milli qanunvericiliyinə uyğun olaraq təhlükəli yükün daşınmasına hüquq verən sənəd.

15. Nəqliyyat vasitələrinin maksimal kütləsi - nəqliyyat vasitələrinin yüklə və ya yüksüz kütləsi.

Maddə 3

Səlahiyyətli orqanlar

Bu Sazişdə Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları aşağıdakılardır:

Azərbaycan tərəfindən - Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi;

Belarus tərəfindən - Belarus Respublikasının Nəqliyyat və Kommunikasiya Nazirliyi.

Maddə 4

Müşayiət olunmaqla yüklərin kombinə edilmiş daşımaları

1. Razılığa gələn Tərəflərdən hər hansı birinin ərazisində qeydiyyata alınan nəqliyyat vasitələri ilə, dövlət sərhəd-keçid məntəqəsindən və ya Razılığa gələn bir Tərəfin dövlətinin ərazisində yerləşən yüklənmə məntəqəsindən başlayaraq hərəkət marşrutu üzrə Razılığa gələn digər Tərəfin ərazisində yerləşən intermodal terminala qədər yüklərin daşınması Razılığa gələn Tərəflərin səlahiyyətli orqanlarının verdiyi xüsusi icazə əsasında həyata keçirilir və kombinə edilmiş daşımalarda istifadə edilir.

2. Dəmir yolu platformalarına yüklənmiş avtonəqliyyat vasitələrinin daşınmasını həyata keçirərək, Razılığa gələn Tərəflər dəmir yolu qatarlarının sərhəd buraxılış məntəqələrində saxlanılma müddətlərinin beynəlxalq praktikada müəyyən olunmuş normalara uyğunlaşdırılmasına cəhd edəcəklər.

Maddə 5

Müşayiət olunmadan nəqletmə (daşıma)

1. İntermodal nəqliyyat vahidinin Razılığa gələn Tərəflərdən birinin ərazisində yerləşən intermodal terminaldan/terminala daşınması yalnız Razılığa gələn müvafiq Tərəfin ərazisində qeydiyyatda olan yol nəqliyyat vasitələri tərəfindən həyata keçirilir.

2. Daşıyıcı, yükgöndərən və ya kombinə edilmiş daşımalar üzrə şirkət tərəfindən müvəkkil olduğu təqdirdə terminaldan//terminala müşayiətsiz nəqletmə zamanı daşımanı həyata keçirə bilər.

3. Bu cür nəqliyyat üçün istifadə oluna biləcək intermodal terminallar Birgə Komissiyanın toplantılarında müəyyən edilir.

Maddə 6

Sərhədlərdən keçid - dövlət sərhədini keçmə

1. Beynəlxalq yüklərin kombinə edilmiş nəqliyyatla daşınmaları zamanı, dəmir yolu nəqliyyat vasitələrinə və ya gəmiyə yüklənmiş yol nəqliyyat vasitəsində, qüvvədə olan beynəlxalq təlimatlara müvafiq olaraq tələb edilən digər sənədlərlə birgə kombinə edilmiş nəqliyyatla yüklərin daşınmasına da icazə olmalıdır.

Kombinə edilmiş yük daşınmasını həyata keçirmək hüququnu təsdiq edən sənədlər hər gediş zamanı nəqliyyat vasitəsində saxlanılmalı və Razılığa gələn Tərəfin səlahiyyətli orqanlarının tələbi ilə təqdim olunmalıdır.

Bu cür sənədin olmadığı təqdirdə nəqliyyat vasitəsi icazəsiz hesab olunur və sərhəddən buraxılmır.

İcazəyə hər hansı bir dəyişiklik və ya reqlamentdən kənar düzəliş onun ləğv olunması ilə nəticələnir. Belə icazələr müvafiq sənəd verilməklə müsadirə olunmalıdır.

2. Yüklərin müşayiət olunmaqla kombinə edilmiş nəqliyyatla daşınması zamanı dövlət sərhədlərinin keçid məntəqələrində səlahiyyətli orqanlar daşıyıcıya və ya xidmət operatoruna, 4-cü maddənin 1-ci bəndinin müddəalarına riayət edildiyi təqdirdə, Razılığa gələn hər hansı Tərəfin ərazisinə daxil olan zaman yüklərin kombinə edilmiş daşınma-

sını həyata keçirmək hüququnu təsdiq edən nəqliyyat sənədini təqdim edirlər. Razılığa gələn hər hansı Tərəfin ərazisindən çıxan zaman, yüklərin kombinə edilmiş daşınmasının həyata keçirilməsini təsdiq edən Razılığa gələn Tərəflərin təqdir etdikləri müvafiq sənədlərin (CİM-UİRR nəqliyyat sənədi, qaimə və ya digər sənəd) istifadə olunacaq nəqliyyatın hər növü üçün bir ədəd olması zəruridir.

3. Razılığa gələn Tərəflərdən birinin ərazisinə daxil olduğu və ya ərazisindən çıxdığı zaman yüklərin kombinə edilmiş daşınmasını həyata keçirən şəxslər və nəqliyyat vasitələri daşınan yüklərlə bərabər, Razılığa gələn Tərəflərin milli qanunvericiliyinə uyğun olaraq, nəzarətdən keçirilməlidir.

4. Daşıyıcı və ya kombinə edilmiş daşımalar üzrə operator, eləcə də onların işçiləri Razılığa gələn Tərəflərin dövlətlərinin qüvvədə olan milli qanunvericiliyinə və qaydalarına riayət etməlidirlər.

Maddə 7

Yüklərin kombinə edilmiş nəqliyyatla daşınmasının dəstəklənməsi və həvəsləndirilməsi

1. Razılığa gələn Tərəflər, onların dəmir yolu administrasiyaları, limanları, gəmiçilik şirkətləri, avtonəqliyyat firmaları və kombinə edilmiş nəqliyyatın operatorları həmin nəqliyyat növünün üstünlüklərini nəzərə alaraq, kombinə edilmiş yükdaşımaların dəstəklənməsinə aid təxirəsalınmaz tədbirlər barədə razılığa gəlmələri üçün bütün lazımi tədbirlər görürlər.

2. Razılığa gələn Tərəflər kombinə edilmiş nəqliyyatın infrastrukturunun inkişaf etdirilməsində özlərinin dəmir yolu və avtomobil şirkətlərinə, eləcə də limanlarına dəstək və kömək göstərirlər.

3. Razılığa gələn Tərəflər kombinə edilmiş ikitərəfli daşımaların intermodal terminallara//terminallardan həyata keçirildiyi zaman şənbə, bazar və rəsmi bayram günlərində tətbiq olunan nəqliyyat məhdudiyyətlərinin aradan götürülməsi üçün lazımi tədbirlər görürlər.

4. Razılığa gələn Tərəflər kombinə edilmiş daşımalar çərçivəsində gömrük rəsmiləşdirilməsi prosesinin və yüklər üzrə nəzarətin sadələşdirilməsi və sürətləndirilməsi üçün cəhd göstərəcəklər.

5. Razılığa gələn Tərəflər qarşılıqlı əməkdaşlıq edir və kombinə edilmiş daşımalara əlverişli şəraitin yaradılması üçün bir-birinə kömək göstərir, eləcə də ümumi istifadədə olan marşrutların inkişafı üçün tədbirlər görürlər.

Maddə 8

Əməkdaşlıq və Birgə Komissiya

1. Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları bu Sazişin icrasına və tətbiqinə, xüsusən kombinə edilmiş daşımalarla əlaqədar müvafiq müvəkkil edilmiş orqanların səlahiyyətlərinə dair milli qanunvericiliyə dəyişikliklərlə bağlı istənilən faydalı məlumatın qarşılıqlı mübadiləsinə kömək göstərirlər.

2. 1-ci bəndin tələblərinin həyata keçirilməsi üçün Razılığa gələn hər bir Tərəfin nümayəndələrindən ibarət Birgə Komissiya yaradılır.

3. Birgə Komissiyanın toplantıları Razılığa gələn Tərəflərdən birinin təklifi ilə keçirilir.

Maddə 9

Pozuntular

1. Daşıyıcı, operator və ya onların işçiləri tərəfindən Razılığa gələn Tərəfin ərazisində qüvvədə olan milli qanunvericiliyin, eləcə də bu Sazişin müddəalarının pozulmasına yol verildiyi təqdirdə, ərazisində müvafiq pozuntunun baş verdiyi Razılığa gələn Tərəfin səlahiyyətli orqanlarının tələbi ilə Razılığa gələn digər Tərəfin səlahiyyətli orqanları aşağıdakı tədbirləri görmək hüququna malikdirlər:

a) pozuntuya yol vermiş daşıyıcıya qüvvədə olan qaydalara riayət edilməsinin vacibliyi haqqında xəbərdarlıq etmək;

b) bu daşıyıcıya icazələrin verilməsini dayandırmaq və ya əvvəlcədən verilmiş icazələri, Razılığa gələn digər Tərəfin səlahiyyətli orqanı həmin daşıyıcıya daşımaların həyata keçirilməsini qadağan etdiyi dövrdə ləğv etmək;

c) daşıyıcı və ya xidmət operatoru tərəfindən xüsusilə ciddi pozuntuya yol verilərsə, nəqliyyat lisenziyası müsadirə edilə və ya bu fəaliyyətin həyata keçirilməsinə müvafiq qaydada qadağa qoyula bilər.

2. Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları bu istiqamətdə görülən tədbirlər haqqında məlumatların mübadiləsini aparırlar.

3. 1-ci və 2-ci bəndlərin müddəaları, ərazisində müvafiq pozuntu baş vermiş Razılığa gələn Tərəfin dövlətinin milli qanunvericiliyinin tətbiq edilməsini istisna etmir.

Maddə 10

Məlumatların qorunması

1. Razılığa gələn Tərəflər, rəsmi statistik məlumat və hesabatlar istisna olmaqla, göstəricilərin və məlumatların üçüncü ölkələrdə qanunsuz yayılmaqdan qorunacağını bəyan edirlər.

2. Zərurət yaranarsa, cinayət işinin istintaqı ilə əlaqədar bu qəbildən olan dəlil və məlumatlar dövlət hakimiyyət orqanlarına, prokurorluğa və məhkəməyə təqdim oluna bilər. İstənilən digər məlumatların yayılması Razılığa gələn Tərəfin müvafiq səlahiyyətli orqanının yazılı icazəsini qabaqcadan aldıqdan sonra həyata keçirilə bilər.

Maddə 11

Fövqəladə hallar

Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları, fövqəladə hallarda, yaxud kombinə edilmiş yük daşımalarında 12 saatdan artıq fasilə yarandıqda, hər hansı təxirəsalınmaz birgə tədbirlər görmək üçün qərar qəbul edirlər.

Maddə 12

Milli qanunvericiliyə riayət edilməsi

Daşıyıcılar və nəqliyyat vasitələrinin heyətləri Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində daşımaları həyata keçirərkən bu dövlətin milli qanunvericiliyinə riayət etməlidirlər.

Bu Sazişin müddəaları Razılığa gələn Tərəflərin dövlətlərinin milli təhlükəsizliyinə xələl gətirə biləcək tranzit daşımalarına məhdudiyyət tədbirlərinin tətbiq edilməsinə mane olmur.

Maddə 13

Sazişə dəyişikliklərin edilməsi

Bu Sazişə əlavə və dəyişikliklər Razılığa gələn Tərəflərin yazılı razılaşmasına əsasən edilir və bu Sazişin 14-cü maddəsinə müvafiq olaraq qüvvəyə minəcək ayrıca protokollarla rəsmiləşdirilərək, Sazişin ayrılmaz hissəsini təşkil edir.

Maddə 14

Qüvvəyə minmə

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Razılığa gələn Tərəflərin diplomatik kanallarla sonuncu yazılı bildirişi aldıqları tarixdən 30 (otuz) gün sonra qüvvəyə minir.

Maddə 15

Qüvvədə olma müddəti

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır. Razılığa gələn Tərəflərdən birinin bu Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə bildirişini Razılığa gələn digər Tərəfin diplomatik kanallarla aldığı tarixdən 6 (altı) ay sonra bu Saziş qüvvədən düşür.

Minsk şəhərində 2006-cı il 17 oktyabr tarixində hər biri Azərbaycan və rus dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*VLADİMİR SOSNOVSKİ*
Xarici işlər naziri	*Nəqliyyat və kommunikasiyalar naziri*

Azərbaycan Respublikası Prezidentinin və Latviya Respublikası Prezidentinin Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası Prezidentinin və Latviya Respublikası Prezidentinin 2006-cı il oktyabrın 4-də Riqa şəhərində imzalanmış Birgə Bəyannaməsi təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 fevral 2007-ci il

№242-IIIQ

Azərbaycan Respublikası Prezidentinin və Latviya Respublikası Prezidentinin Birgə Bəyannaməsi

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Latviya Respublikasının Prezidenti xanım Vayra Vike-Frayberqanın dəvəti ilə 4-5 oktyabr 2006-cı il tarixində Latviya Respublikasına rəsmi səfər etmişdir.

Tərəflər Latviya Respublikasının Prezidenti xanım Vayra Vike-Frayberqanın 2-4 oktyabr 2005-ci il tarixində Azərbaycan Respublikasına və Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 4-5 oktyabr 2006-cı il tarixli Latviya Respublikasına rəsmi səfərlərinin iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi üçün geniş normativ hüquqi bazanın yaradılmasından məmnun olduqlarını və iki dost dövlət arasında münasibətlərin yeni səviyyədə inkişafına xüsusi təkan verəcəyini qeyd etdilər. Latviya Respublikasının Prezidenti xanım Vaira Vike-Frayberqanın 2005-ci ildəki səfəri zamanı bir çox mühüm sahələrdə, o cümlədən iqtisadi əməkdaşlıq, vergiqoyma, investisiyaların təşviqi və qorunması, həmçinin gömrük əməkdaşlığı sazişləri imzalanmışdır.

Azərbaycan Respublikası Prezidentinin Latviya Respublikasına səfəri zamanı hava daşımaları, rabitə, informasiya və kommunikasiya texnologiyaları, təhsil, maliyyə, həmçinin səhiyyə və tibb elmi sahələrində sazişlər imzalanmışdır.

Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında 3 oktyabr 2005-ci il tarixli Saziş Hökumətlərarası Komissiyanın yaradılmasını nəzərdə tutmuşdur. Tərəflər iki ölkə arasında qarşılıqlı əlaqələrin, xüsusilə iqtisadi və ticarət əməkdaşlığının təşviq edilməsində, kiçik və orta müəssisələr arasında əməkdaşlığın genişləndirilməsində Hökumətlərarası Komissiyanın qarşısında mühüm vəzifə olduğunu qeyd etdilər.

Tərəflər əlaqələrin qanunun aliliyi, demokratiya, insan hüquqları və bazar iqtisadiyyatı kimi dəyərlər əsasında inkişaf etdirilməsində qətiyyətli olduqlarını vurğuladılar. Bununla əlaqədar, Latviya tərəfi Azərbaycanda davam edən demokratikləşmənin gücləndirilməsinə, vətəndaş cəmiyyəti və bazar iqtisadiyyatı prinsiplərinin təşviq edilməsinə yönəlmiş səyləri alqışladı.

Tərəflər yüksək səviyyələrdə siyasi dialoqun inkişaf etdirilməsi, iki dövlətin qanunvericilik və icra hakimiyyəti orqanları arasında əməkdaşlığın genişləndirilməsinin vacibliyini qeyd etdilər.

Tərəflər parlamentlərarası əlaqələrin, o cümlədən Avropa Şurası Parlament Assambleyası çərçivəsində olan əməkdaşlığın vacibliyini bir daha təsdiq etdilər.

Tərəflər ticari, iqtisadi, sərmayə və texniki əməkdaşlığın səviyyəsinin artırılmasının əhəmiyyətini qeyd etdilər.

Tərəflər humanitar sahədə-mədəniyyət, təhsil, səhiyyə, kütləvi informasiya vasitələri və digər istiqamətlərdə əməkdaşlığın genişləndirilməsi üçün əlavə tədbirlərin görülməsinin vacibliyini bildirdilər. Onlar turizm, gənclər və tələbə təşkilatları, habelə həmkarlar ittifaqları və qeyri-hökumət təşkilatları arasında əlaqələrin yaradılması və genişləndirilməsini alqışladılar.

Tərəflər iki xalqın müstəqilliyinin əldə olunması prosesinin tarixi oxşarlığını etiraf edərək, birgə elmi və arxiv araşdırmaları sahəsində əlaqələrin inkişaf etdirilməsinin vacibliyini vurğuladılar. Bununla əlaqədar, onlar 28 may 1918-ci il tarixində Azərbaycan Demokratik Respublikasının və 18 noyabr 1918-ci il tarixində Latviya Respublikasının müstəqilliyinin elan edilməsi tarixinə həsr edilmiş tədqiqat işlərinin aparılmasının vacibliyini qeyd etdilər.

Tərəflər iki ölkənin təhlükəsizlik maraqlarının təmin olunmasına cavab verən və beynəlxalq öhdəliklərə zidd olmayan ikitərəfli hərbi və hərbi-texniki əməkdaşlığı möhkəmləndirəcəklərini təsdiq etdilər.

Tərəflər BMT Nizamnaməsinin prinsiplərini, ATƏT-in əsas sənədlərini tam dəstəkləyərək və onları rəhbər tutaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn hamılıqla tanınmış prinsipləri və normaları əsasında, xüsusilə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığına hörmət və riayət edilməsi əsasında sülh yolu ilə həll edilməsinin vacibliyini vurğuladılar.

Tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində ATƏT çərçivəsində davam edən səylərə, Minsk Qrupunun fəaliyyətinə istinad edərək bu istiqamətdə daha təsirli və qətiyyətli addımların atılmasının vacibliyini bir daha qeyd etdilər.

Tərəflər BMT, ATƏT və digər beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əməkdaşlığın səmərəliliyinin artırılması üçün göstərilən səylərin davam etdirilməsini öhdələrinə götürdülər. Tərəflər BMT islahatları ilə əlaqədar inanırlar ki, əsas diqqət təşkilatın beynəlxalq məsələlərdə mərkəzi rolunun gücləndirilməsinə, təşəkkül tapmış dünya qaydalarına yeni təhlükə və çağırışlar qarşısında onun potensialından səmərəli istifadə edilməsinin artırılmasına yetirilməlidir. BMT-nin idarə edilməsi üzrə islahatlar ümumi razılıq prinsipinə əsaslanmalı və təşkilatın üzv dövlətlərinin birgə maraqlarını tam əks etdirməlidir.

Tərəflər BMT-nin Baş katibinin qarşıdan gələn seçkilərini müzakirə etdilər və Azərbaycan tərəfi Latviya Respublikasının Prezidenti Zati-aliləri Vayra Vike-Frayberqanın BMT Baş katibi vəzifəsinə bu universal təşkilatın tarixində ilk qadın namizəd kimi alqışlayır və qiymətləndirir. Azərbaycan tərəfi qeyd etmişdir ki, Zati-aliləri Vayra Vike-Frayberqanın BMT-nin islahatları prosesi üçün şəxsi öhdəliyi və peşəkarlığı BMT islahatlarının həyata keçirilməsinə töhfə verəcəkdir.

Tərəflər Avro-Atlantik Tərəfdaşlıq Şurası, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramı və Azərbaycanın təqdim etdiyi "Fərdi tərəfdaşlıq üzrə fəaliyyət planı" çərçivəsində sıx əməkdaşlığı dəstəklədiklərini bildirdilər.

Tərəflər Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələrinin genişlənməsi üçün

məsləhətləşmələr keçirəcək və birgə səylərin göstərilməsini davam etdirəcəklər. Bu məqsədlə, Latviya Avropa və Avro-Atlantik strukturlara inteqrasiyası prosesində öz dövlət təsisatlarının qazandıqları təcrübəni Azərbaycanla bölüşməyə hazır olduğunu ifadə etdi.

Hər iki tərəf Azərbaycan Respublikasının Avropa İttifaqına yaxınlaşmasında Avropa Qonşuluq Siyasətinin müsbət təsirini məmnuniyyətlə qeyd etdilər və Avropa Qonşuluq Siyasətinin Cənubi Qafqazda sabitlik və təhlükəsizliyin bərpa olunmasına töhfə verəcəyini vurğuladılar. Bu kontekstdə, Latviya tərəfi Azərbaycan Respublikasının Fəaliyyət Planını dəstəklədiyini bildirdi.

Latviya tərəfi Azərbaycanda keçirilən iqtisadi islahatların əhəmiyyətini vurğuladı və Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına qəbul olunması prosesinə dəstəyini ifadə etdi.

Tərəflər Avropa enerji təhlükəsizliyinin artan önəmliliyini vurğuladılar və bununla əlaqədar Xəzər dənizi regionunun enerji ehtiyatlarının Avropanın enerji tələbatının təmin edilməsində böyüyən rolunu qeyd etdilər. Avropa İttifaqı və Xəzər regionu arasında enerji əməkdaşlığı sahəsində əlaqələrin möhkəmləndirilməsi zəruridir. Bu kontekstdə Tərəflər Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin açılması və istismara verilməsinin, habelə Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri və Bakı-Tbilisi-Ahalkalaki-Qars dəmir yolu layihələrinin

həyata keçirilməsinin beynəlxalq əhəmiyyətini vurğuladılar. Tərəflər hər iki ölkənin tranzit imkanlarından istifadə etməklə, nəqliyyat dəhlizlərinin inkişafı üzrə daha sıx əməkdaşlıqda maraqlı olduqlarını ifadə etdilər.

Tərəflər Baltik dənizi regionunun Avropa və qlobal səviyyədə artan təsirini qeyd etdilər. Bu kontekstdə, Azərbaycan tərəfi Baltik dənizi regionunda qarşılıqlı fayda əsasında müxtəlif layihələrin həyata keçirilməsində qarşılıqlı əməkdaşlığın vacibliyini bəyan etdi.

Tərəflər dinlər və sivilizasiyalar arasında dialoqun vacibliyi ilə razılaşdılar və sülhün, azadlığın, hüquqların və ədalətin ahəngi üçün daha yaxşı şərait yaradılması məqsədilə Xristianlıq, İslam və digər mədəniyyətlər və sivilizasiyalar arasında əlaqələrin və anlaşmanın genişləndirilməsinin zəruriliyini vurğuladılar.

Bu Birgə Bəyannamə Riqa şəhərində 2006-cı il 4 oktyabr tarixində iki əsl nüsxədə olmaqla, hər biri Azərbaycan, latış və ingilis dillərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	LATVİYA RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*VAYRA VİKE-FRAYBERQA*

"Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında" 2006-cı il oktyabrın 4-də Riqa şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 fevral 2007-ci il

№243-IIIQ

Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti, 1944-cü il dekabrın 7-də Çikaqoda imzalamaq üçün açılmış Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyanın iştirakçıları olaraq, onların dövlətlərinin müvafiq əraziləri arasında və kənarda müntəzəm hava əlaqəsi yaratmaq məqsədilə, qeyd olunan Konvensiyaya uyğun surətdə və əlavə olaraq Saziş imzalamaq arzusunda olaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Təriflər

1. Bu Sazişin məqsədlərini təfsir edən terminlər, kontekstdə başqa hallar nəzərdə tutulduğu hallar istisna edilməklə, aşağıdakı mənaları ifadə edir:

a) "Konvensiya" termini 1944-cü il dekabrın 7-də Çikaqo şəhərində imzalamaq üçün açılmış Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyanı ifadə edir və ona bu Konvensiyanın 90-cı maddəsinə əsasən qəbul edilmiş hər hansı Əlavə, həmçinin Konvensiyanın 90 və 94-cü maddələrinə əsasən Əlavələrdə və Konvensiyada istənilən düzəlişlər Razılığa gələn hər iki Tərəfin qəbul və ya ratifikasiya etdiyi dərəcədə aiddir;

b) "Aviasiya hakimiyyət orqanları" termini Azərbaycan Respublikasına münasibətdə - "Azərbaycan Hava Yolları" Dövlət Konsernini, Latviya Respublikasına münasibətdə - Nəqliyyat Nazirliyi və ya hər iki halda hazırda qeyd edilən aviasiya hakimiyyət orqanları tərəfindən yerinə yetirilən funksiyaları icra etmək üçün vəkil edilmiş hər hansı şəxs və ya təşkilat deməkdir;

c) "təyin edilmiş aviasiya şirkəti" termini bu Sazişin 4-cü maddəsinə uyğun olaraq təyin və vəkil edilmiş aviasiya şirkəti deməkdir;

d) "ərazi" termini Razılığa gələn Tərəflərə münasibətdə Konvensiyanın 2- ci maddəsi ilə müəyyən edilmiş mənaları daşıyır;

c) "hava əlaqəsi", "beynəlxalq hava əlaqəsi", "aviasiya şirkəti" və "qeyrikommersiya məqsədləri ilə dayanacaq" terminləri Konvensiyanın 96-cı maddəsi ilə müəyyən edilmiş mənaları daşıyır;

f) "tarif" termini sərnişin, baqaj və ya yük (poçt istisna edilməklə) daşımaları ilə əlaqədar təqdim edilən və ya mövcud olan hər hansı əhəmiyyətli əlavə güzəştlər daxil olmaqla, həmin daşımalar üçün ödənilən haqq, habelə şəxslərin daşınması üçün biletlərin satışına görə və ya müvafiq müqavilələrə uyğun surətdə yükün daşınmasına görə ödənilən komisyon haqları deməkdir.

Bu anlayışa həmçinin daşımalara tətbiq edilən qiymətləri və ya komisyon haqlarının ödənilməsini tənzimləyən şərtlər daxildir;

g) "Əlavə" termini bu Sazişə Əlavəni və ya Sazişin 20-ci maddəsinin müddəalarına uyğun şəkildə dəyişdirilmiş əlavəni bildirir. Əlavə Sazişin ayrılmaz hissəsini təşkil edir və bu Sazişə bütün istinadlara, başqa hal nəzərdə tutulmadığı təqdirdə, Əlavələrə istinadlar da daxildir.

2. Sazişin maddələrinin başlıqları yalnız istinad məqsədilə verilmişdir.

3. Bu Sazişdə Latviya Respublikasının vətəndaşlarına istinadlar Avropa İttifaqının üzvü olan dövlətlərin vətəndaşlarına istinad kimi başa düşülməlidir.

Bu Sazişdə Latviya Respublikasının aviaşirkətinə və ya aviaşirkətlərinə istinadlar Latviya Respublikasının təyin etdiyi aviaşirkətə və ya aviaşirkətlərə istinad kimi başa düşülməlidir.

4. Bu Sazişdə Azərbaycan Respublikasının aviaşirkətinə və ya aviaşirkətlərinə istinadlar Azərbaycan Respublikasının təyin etdiyi aviaşirkətə və ya aviaşirkətlərə istinad kimi başa düşülməlidir.

Maddə 2

Daşıma hüquqlarının verilməsi

1. Razılığa gələn hər bir Tərəf beynəlxalq hava daşımalarını yerinə yetirmək üçün Razılığa gələn digər Tərəfə aşağıdakı hüquqları verir:

a) yerə enmədən, öz ərazisi üzərindən birbaşa uçuş yerinə yetirmək;

b) qeyri-kommersiya məqsədləri üçün öz ərazisinə enmək.

2. Razılığa gələn hər bir Tərəf bu Sazişə Əlavədə müəyyən edilmiş marşrutlar üzrə beynəlxalq hava daşımalarını yerinə yetirmək məqsədilə bu Sazişdə göstərilmiş hüquqları Razılığa gələn digər Tərəfə verir. Bu daşımalar və marşrutlar bundan sonra müvafiq olaraq "razılaşdırılmış xidmətlər" və "müəyyən edilmiş marşrutlar" adlanacaqdır. Müəyyən edilmiş marşrutlar üzrə razılaşdırılmış xidmətlər həyata keçirilərkən Razılığa gələn hər bir Tərəfin təyin etdiyi aviaşirkət və ya aviaşirkətlər bu maddənin 1-ci bəndində qeyd edilən hüquqlardan əlavə, sərnişinləri, baqajı, yükü və poçtu birlikdə və ya ayrı-ayrılıqda kommersiya əsasında yükləmək və boşaltmaq məqsədilə Razılığa gələn digər Tərəfin ərazisində, Əlavədə bu marşrut boyu müəyyən edilmiş məntəqələrdə enmək hüququndan istifadə edəcəklər.

3. Bu maddənin 2-ci bəndinin müddəaları Razılığa gələn hər hansı bir Tərəfin təyin edilmiş aviaşirkətinə sərnişinləri, yükü və poçtu Razılığa gələn digər Tərəfin ərazisində bir məntəqədən digərinə haqq müqabilində və ya muzdla daşımaq üçün gəmiyə götürmək (kabotaj) hüququ vermir.

4. Əgər hərbi münaqişələr, siyasi iğtişaşlar və ya hadisələr, yaxud xüsusi və qeyri-adi hallarda Razılığa gələn bir Tərəfin təyin edilmiş aviasiya şirkəti adi marşrutu üzrə uçuş yerinə yetirmək imkanına malik deyildirsə, Razılığa gələn digər Tərəf bu uçuşun müvəqqəti olaraq dəyişdirilmiş müvafiq marşrut üzrə davam etdirilməsinə kömək etmək üçün səy göstərməlidir.

Maddə 3

Sertifikat və lisenziyaların tanınması

1. Razılığa gələn Tərəflərdən birinin verdiyi və ya etibarlı hesab etdiyi uçuş yararlığı sertifikatı, ixtisas sertifikatları və lisenziyaları qüvvədə olduqları müddət ərzində Razılığa gələn digər Tərəf onları etibarlı hesab edəcəkdir, bu şərtlə ki, onların verilməsi və ya etibarlı hesab edilməsi üçün tələblər Konvensiyanın müəyyən edə bildiyi minimal standartlara bərabər və ya bu standartlardan yuxarı olsun.

2. Buna baxmayaraq, Razılığa gələn hər bir Tərəf öz ərazisi üzərindən uçub keçərkən Razılığa gələn digər Tərəfin və ya başqa istənilən dövlətin verdiyi və ya onun vətəndaşları üçün qanuni hesab etdiyi ixtisas sertifikatlarını və lisenziyaları etibarlı hesab etməmək hüququna malikdir.

Maddə 4

Aviaşirkətlərin təyin edilməsi və istismar səlahiyyətlərinin verilməsi

1. Razılığa gələn hər bir Tərəf müəyyən olunmuş marşrutlar üzrə razılaşdırılmış xidmətləri yerinə yetirmək məqsədilə Razılığa gələn digər Tərəfə yazılı surətdə bildirərək, bir və ya bir neçə aviasiya şirkətini təyin etmək hüququna malik olacaqdır.

2. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfə yazılı bildiriş göndərməklə, həmin təyinatı ləğv edə və ya dəyişdirə bilər.

3. Razılığa gələn digər Tərəf belə təyinatı aldıqdan sonra, aşağıdakı hallarda, minimal gecikmələrə yol verməklə lazımi səlahiyyət və icazələri verəcəkdir:

a) Latviya Respublikasının təyin edilmiş aviaşirkətinə münasibətdə:

i) Latviya Respublikasının ərazisində Avropa Birliyi təsis edən Müqaviləyə əsasən təsis edilmişdirsə və Avropa Birliyinin qanununa müvafiq olaraq qüvvədə olan İstismar Lisenziyasına malikdirsə; və

ii) aviaşirkət üzərində effektiv tənzimləyici nəzarət Avropa Birliyinə üzv olan, Hava Nəqliyyatı İstismarçısı Sertifikatını vermək səlahiyyətinə malik olan Dövlət tərəfindən həyata keçirilir və davam etdirilirsə və təyinatda müvafiq aviasiya hakimiyyəti orqanı aydın şəkildə qeyd edilmişdirsə.

b) Azərbaycan Respublikası Hökumətinin təyin etdiyi aviaşirkətə münasibətdə:

i) Azərbaycan Respublikasının ərazisində təsis edilmişdirsə və Azərbaycan

Respublikasının tətbiq edilən qanunvericiliyinə müvafiq olaraq icazə verilmişdirsə; və

ii) aviaşirkət üzərində effektiv tənzimləyici nəzarət Hava Nəqliyyatı İstismarçısı Sertifikatını vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikası tərəfindən həyata keçirilir və davam etdirilirsə və təyinatda müvafiq aviasiya hakimiyyəti orqanı aydın şəkildə qeyd edilmişdirsə.

c) Razılığa gələn bir Tərəfin aviasiya hakimiyyəti orqanı Razılığa gələn digər Tərəfin təyin edilmiş aviaşirkətindən Konvensiyanın müddəalarına uyğun olaraq belə aviasiya orqanı tərəfindən beynəlxalq hava əlaqəsi yerinə yetirilərkən normal qaydada və məntiqi surətdə tətbiq edilən qanun və qaydalara əsasən tətbiq edilən şərtləri yerinə yetirmək səlahiyyətinə malik olduğunu sübut etməsini tələb edə bilər.

4. Bu qayda ilə təyin və vəkil edilmiş aviasiya şirkəti, bu Sazişin müddəalarına, o cümlədən tariflər haqqında müddəalara riayət etmək şərtilə, istənilən vaxt razılaşdırılmış xidmətləri yerinə yetirməyə başlaya bilər.

Maddə 5

İstismar səlahiyyətlərinin verilməsindən imtina, onların ləğv edilməsi və ya dayandırılması

1. Razılığa gələn hər bir Tərəf aşağıdakı hallarda Razılığa gələn digər Tərəfin təyin edilmiş aviaşirkətinin istismar səlahiyyətini və ya texniki icazələri ləğv edə, müvəqqəti dayandıra və ya məhdudlaşdıra bilər:

a) Latviya Respublikasının təyin edilmiş aviaşirkətinə münasibətdə:

i) Latviya Respublikasının ərazisində Avropa Birliyi təsis edən Müqaviləyə əsasən təsis edilmişdirsə və Avropa Birliyinin qanununa müvafiq olaraq qüvvədə olan İstismar Lisenziyasına malik deyilsə; və ya

ii) aviaşirkət üzərində effektiv tənzimləyici nəzarət Avropa Birliyinə üzv olan, Hava Nəqliyyatı İstismarçısı Sertifikatını vermək səlahiyyətinə malik olan Dövlət tərəfindən həyata keçirilmir və davam etdirilmirsə və ya təyinatda müvafiq aviasiya hakimiyyəti orqanı aydın şəkildə qeyd edilməmişdirsə.

b) Azərbaycan Respublikasının təyin edilmiş aviaşirkətinə münasibətdə:

i) Azərbaycan Respublikasının ərazisində təsis edilməmişdirsə və ya Azərbaycan Respublikasının tətbiq edilən qanunvericiliyinə müvafiq olaraq icazə verilməmişdirsə; və ya

ii) aviaşirkət üzərində effektiv tənzimləyici nəzarət Hava Nəqliyyatı İstismarçısı Sertifikatını vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikası tərəfindən həyata keçirilmir və davam etdirilmirsə və ya təyinatda müvafiq aviasiya hakimiyyəti orqanı aydın şəkildə qeyd edilməmişdirsə.

c) həmin aviaşirkət bu hüquqları verən Razılığa gələn Tərəfin qanun və qaydalarına riayət edə bilmədikdə, və ya

d) həmin aviaşirkət bu Sazişdə müəyyən edilən şərtlərə əsasən razılaşdırılmış xidmətləri digər qaydada yerinə yetirə bilmədiyi hər hansı halda;

e) Razılığa gələn digər Tərəf bu Sazişin 15 və 16-cı maddələrinə uyğun olaraq, Aviasiya Təhlükəsizliyi və Uçuşların Təhlükəsizliyi standartlarına riayət edə və ya onları tətbiq edə bilmədikdə.

2. Əgər bu maddənin 1-ci bəndində irəli sürülmüş şərtlərin dərhal ləğv edilməsi, dayandırılması və ya məhdudlaşdırılması qanunvericiliyin və/və ya qaydaların sonrakı pozuntularının qarşısını almaq üçün zəruridirsə, o zaman bu hüquq yalnız Razılığa gələn digər Tərəflə məsləhətləşmələr keçirildikdən sonra istifadə ediləcəkdir. Bu cür məsləhətləşmələr, məsləhətləşmə üçün yazılı sorğu alındığı tarixdən başlayaraq otuz (30) gün ərzində keçiriləcəkdir.

Maddə 6

Yığımlara münasibətdə diskriminasiyadan imtina

1. Razılığa gələn Tərəflərdən birinin hər hansı təyin edilmiş aviasiya şirkətinin hava gəmisi tərəfindən Razılığa gələn digər Tərəfin ərazisində hava limanlarından və digər aviasiya vasitələrindən istifadəyə görə tutulan haqlar analoji beynəlxalq hava əlaqəsini həyata keçirən milli aviasiya şirkətinin hava gəmisi üçün müəyyən edilən yığımlardan artıq olmamalıdır.

2. Hava limanlarından və ya digər aviasiya xidmətlərindən və vasitələrdən istifadəyə görə yığımlar və ya beynəlxalq hava əlaqəsinin yerinə yetirilməsi ilə əlaqədar hər hansı yığım və ya rüsumlar dəyər əsasında qiymətləndirilməlidir;

müvafiq sübutların təqdim olunması tələb edilə bilər. Bu, yalnız bir yerüstü xidmət şirkətinin fəaliyyət göstərdiyi hava limanlarında sərnişinlərə, baqaj və yüklərə xidmətə görə və hava gəmilərinə xidmətə görə yığımlara aid edilir.

3. Yığım və rüsumlar milli valyutada göstərilməli və ödənilməlidir.

Maddə 7

Vergilərdən, gömrük rüsumlarından və digər yığımlardan azad etmə

1. Razılığa gələn Tərəflərdən birinin təyin etdiyi aviasiya şirkətinin beynəlxalq hava daşımalarını yerinə yetirən hava gəmisi, habelə gəmidə yerləşən adi gəmi avadanlığı, ehtiyat hissələri, yanacaq və sürtkü yağları ehtiyatı, gəmi ehtiyatları (o cümlədən ərzaq, içkilər və tütün məmulatları) Razılığa gələn digər Tərəfin ərazisinə gətirildikdə, geri qaytarılanadək və ya həmin ərazi üzərindən uçuşlar zamanı həmin hava gəmisi tərəfindən istifadə edilənədək hava gəmisində qalmaq şərtilə, bütün vergilərdən, gömrük rüsumlarından, yoxlama haqlarından və digər ödənişlərdən azad ediləcəkdir.

2. Xidmət müqabilində yığımlar istisna olunmaqla, aşağıdakı əşyalar da maddənin 1-ci bəndində qeyd edilən rüsum, vergi və yığımlardan azad ediləcəkdir:

a) Razılığa gələn Tərəflərdən birinin ərazisində məntiqə uyğun limit çərçivəsində gəmiyə götürülmüş və Razılığa gələn digər Tərəfin təyin edilmiş aviasiya şirkətinin beynəlxalq hava daşımalarını yerinə yetirən hava gəmisində istifadə üçün nəzərdə tutulmuş gəmi ehtiyatları;

b) Razılığa gələn Tərəflərdən birinin təyin etdiyi aviasiya şirkətinin beynəlxalq hava daşımalarında istifadə edilən hava gəmisini təmir etmək və ya texniki xidməti

həyata keçirmək məqsədilə Razılığa gələn digər Tərəfin ərazisinə gətirilən ehtiyat hissələri, o cümlədən mühərriklər;

c) Razılığa gələn Tərəflərdən birinin ərazisində gəmiyə götürülən və Razılığa gələn digər Tərəfin təyin etdiyi aviasiya şirkətinin beynəlxalq hava daşımalarını yerinə yetirən hava gəmisi üçün nəzərdə tutulan yanacaq, sürtkü yağları və istifadə edilən texniki materiallar, ərazisində gəmiyə götürüldüyü Razılığa gələn Tərəfin ərazisi üzərindən keçən marşrutun bir hissəsində istifadə üçün nəzərdə tutulduğu hallarda belə rüsum və vergilərdən azad edilir.

3. Bu maddənin 1-ci və 2-ci bəndlərində qeyd edilən materiallar tələb əsasında gömrük müşahidəsi və ya nəzarəti altına alınmalıdır.

4. Razılığa gələn Tərəflərdən birinin təyin etdiyi aviasiya şirkəti tərəfindən istismar edilən hava gəmisində saxlanılan adi gəmi avadanlığı, habelə materiallar, ehtiyatlar və ehtiyat hissələri yalnız Razılığa gələn digər Tərəfin gömrük orqanının icazəsi ilə həmin ərazidə boşaldıla bilər. Bu halda onlar geri qaytarılanadək və ya gömrük qaydalarına uyğun surətdə istifadə edilənədək qeyd edilən orqanın müşahidəsi altında saxlanıla bilər.

5. Razılığa gələn bir Tərəfin təyin edilmiş aviasiya şirkəti tərəfindən istifadə üçün nəzərdə tutulan və Razılığa gələn digər Tərəfin ərazisinə gətirilən zəruri sənədlər, yəni cədvəllər, təyyarə biletləri və yük qaimələri həmin ərazidə gömrük rüsumlarından və digər yığımlardan azad edilməlidir.

6. Razılığa gələn bir Tərəfin ərazisindən birbaşa tranzitlə keçirilən baqaj və yük uçub gəlmə və uçub getmə zamanı göstərilən xidmətlərin dəyərinə əsaslanmayan gömrük rüsumlarından, yığımlardan və digər oxşar vergilərdən azad edilir.

7. Bu Sazişdə qeyd edilənlərin heç biri Latviya Respublikasına, Latviya Respublikasının ərazisindəki məntəqə ilə Latviya Respublikasının ərazisindəki digər məntəqə və ya Avropa Birliyinin üzvü olan digər Dövlətin ərazisindəki digər məntəqə arasında istismar edilən Azərbaycan Respublikasının təyin edilmiş aviadaşıyıcısına məxsus hava gəmisində istifadə etmək üçün onun ərazisində təchiz edilən yanacağa, diskriminasiya əsasında vergi, yığım və rüsumları tətbiq etmək hüququ vermir.

8. Bu Sazişdə qeyd edilənlərin heç biri Azərbaycan Respublikasına, Avropa Birliyinin üzvü olan digər Dövlətin Latviya Respublikası tərəfindən təyin edilmiş aviadaşıyıcısına məxsus olan, Azərbaycan Respublikasının ərazisindəki məntəqə ilə Azərbaycan Respublikasının ərazisindəki digər məntəqə və ya Avropa Birliyinin üzvü olan digər Dövlətin ərazisindəki digər məntəqə arasında istismar edilən hava gəmisində istifadə etmək üçün onun ərazisində təchiz edilən yanacağa, diskriminasiya əsasında vergi, yığım və rüsumları tətbiq etmək hüququ vermir.

Maddə 8

Tutum müddəaları

1. Razılığa gələn Tərəflərin təyin edilmiş aviasiya şirkətlərinə Sazişin Əlavəsində müəyyən edilmiş istənilən marşrut üzrə razılaşdırılmış xidmətləri yerinə yetirmək üçün ədalətli və bərabər imkanlar veriləcəkdir.

2. Razılaşdırılmış xidmətləri həyata keçirərkən Razılığa gələn hər bir Tərəfin təyin

edilmiş aviasiya şirkəti və ya şirkətləri eyni marşrut boyu və ya onun bir hissəsində xidmət göstərən Razılığa gələn digər Tərəfin təyin edilmiş aviasiya şirkətinə və ya şirkətlərinə zərər vurmamaq üçün onun mənafeyini nəzərə almalıdır.

3. Razılığa gələn Tərəflərin təyin edilmiş aviasiya şirkətlərinin həyata keçirdikləri razılaşdırılmış xidmətlərin əsas vəzifəsi səmərəli yükləmə əmsalı tətbiq etməklə, aviasiya şirkətini və ya aviasiya şirkətlərini təyin etmiş Razılığa gələn Tərəfin ərazisindən və ya ərazisinə sərnişin, yük, o cümlədən poçt daşımalarına mövcud və səmərəli tələbata cavab verən tutum təmin etməkdir.

4. Razılaşdırılmış xidmətlər yerinə yetirilərkən üçüncü dövlətlərin ərazisinə və ya ərazisindən daşınan sərnişinlərin və yükün Sazişə Əlavədə müəyyən edilən marşrutlar üzrə məntəqədə və ya məntəqələrdə boşaldılması və yüklənməsi hüququndan beynəlxalq hava nəqliyyatının zəruri inkişafının ümumi prinsipinə uyğun surətdə istifadə edilməlidir və bu hüququn əsaslandığı prinsipə əsasən tutum:

a) ərazisindən daşımanın başlandığı ölkə ilə son təyinat ölkələri arasında daşımalara olan tələbatdan;

b) aviasiya şirkətləri tərəfindən birbaşa uçuşların yerinə yetirilməsi ilə əlaqədar tələblərdən, habelə

c) yerli və regional xidmətlər nəzərə alındıqdan sonra aviasiya şirkətinin keçdiyi regionun daşımalara olan tələbatından asılı olacaqdır.

Maddə 9

Hava hərəkəti proqramının təsdiq edilməsi

1. Razılığa gələn bir Tərəfin təyin etdiyi aviasiya şirkəti və ya aviasiya şirkətləri uçuşlara başlamazdan ən azı otuz (30) gün əvvəl Razılığa gələn digər Tərəfin aviasiya orqanları tərəfindən təsdiq edilmək üçün hava hərəkətinin proqramlarını (yay və qış mövsümləri üçün) təqdim etməlidir.

Proqramda, əsasən, cədvəllər, uçuşların həftədə neçə dəfə yerinə yetirilməsi və istifadə edilən hava gəmilərinin növləri qeyd edilməlidir. Aviasiya orqanları aviasiya şirkətinin proqramı təqdim etdiyi gündən başlayaraq iyirmi (20) gün ərzində həmin proqramlar üzrə qərarını bildirəcəkdir.

2. Hava hərəkətinin proqramında edilən hər hansı dəyişiklik, habelə əlavə uçuşları yerinə yetirmək üçün icazənin verilməsi haqqında sorğular Razılığa gələn bir Tərəfin təyin etdiyi aviasiya şirkəti və ya şirkətləri tərəfindən Razılığa gələn digər Tərəfin aviasiya orqanlarına təsdiq üçün təqdim edilməlidir.

Dəyişikliklər edilməsi və ya əlavə uçuşların yerinə yetirilməsi haqqında belə sorğular aviasiya orqanları tərəfindən təxirə salınmadan müzakirə ediləcəkdir.

Maddə 10

İnformasiya və statistika

Razılığa gələn bir Tərəfin aviasiya hakimiyyəti orqanı Razılığa gələn digər Tərəfin aviasiya hakimiyyəti orqanına, onun xahişi ilə, adətən hazırladıqları və öz aviasiya hakimiyyəti orqanlarına təqdim etdikləri qaydada, Razılığa gələn birinci Tərəfin təyin edil-

miş aviasiya şirkəti və ya şirkətləri tərəfindən Razılığa gələn digər Tərəfin ərazisinə və ərazisindən daşımalara dair informasiyanı və statistik məlumatları təqdim edəcəkdir. Daşımalarla əlaqədar Razılığa gələn bir Tərəfin aviasiya hakimiyyəti orqanının tələb edə biləcəyi əlavə statistik məlumatlar Razılığa gələn hər iki Tərəfin aviasiya hakimiyyəti orqanları arasında qarşılıqlı müzakirə və razılaşma mövzusu olacaqdır.

Maddə 11

Tariflər

1. Tariflər bütün müvafiq amillər, o cümlədən istismar xərcləri, məntiqəuyğun mənfəət, xidmətlərin xüsusiyyətləri (sürət standartları və sərnişin yerlərinin sayı), istehlakçıların maraqları və müəyyən edilən marşrutun hər hansı hissəsində uçuşları həyata keçirən digər aviaşirkətlərin tarifləri nəzərə alınmaqla, münasib səviyyədə və bu maddənin aşağıdakı müddəalarına uyğun surətdə müəyyən ediləcəkdir.

2. Hər hansı tarif qüvvəyə minəcəyi tarixdən otuz (30) gün əvvəl (və ya Razılığa gələn Tərəflərin aviasiya hakimiyyəti orqanları arasında əldə edilən razılığa əsasən daha qısa müddət ərzində) Razılığa gələn hər iki Tərəfin aviasiya hakimiyyət orqanlarına təqdim edilməlidir.

3. Təklif edilən hər hansı tarif Razılığa gələn Tərəflərin aviasiya hakimiyyəti orqanları tərəfindən istənilən vaxt təsdiq edilə bilər. Belə təsdiq olmadığı təqdirdə, əgər iyirmi (20) gün ərzində Razılığa gələn bir Tərəfin aviasiya hakimiyyəti orqanları təklif edilən tariflə əlaqədar narazılıqlarını yazılı surətdə Razılığa gələn birinci Tərəfə bildirməzlərsə, Razılığa gələn həmin Tərəf bu tarifi təsdiq edilmiş hesab edəcəkdir. Lakin əgər Razılığa gələn bir Tərəfin aviasiya hakimiyyəti orqanları tariflə əlaqədar narazılıqlarını yazılı surətdə bildirərlərsə, aviasiya hakimiyyəti orqanları razılaşma yolu ilə tarif müəyyən etməyə çalışacaqlar.

4. Əgər Razılığa gələn hər iki Tərəfin aviasiya hakimiyyəti orqanları bu maddənin 3-cü bəndinin müddəalarına uyğun surətdə tarif müəyyən edə bilmirlərsə, Razılığa gələn hər hansı Tərəfin aviasiya hakimiyyəti orqanlarının tələbi ilə Sazişin 19-cu maddəsinin müddəalarına uyğun surətdə müzakirə keçirilə bilər.

5. Bu maddənin müddəalarına uyğun surətdə müəyyən edilən hər hansı ta rif həmin maddənin müddəalarına uyğun olaraq müəyyən edilmiş yeni tariflə əvəz edilənədək qüvvədə qalacaqdır. Razılığa gələn Tərəflərin aviasiya hakimiyyəti orqanlarının başqa qayda ilə razılığa gəldiyi hallar istisna edilməklə, tarif qüvvədən düşdüyü tarixdən 12 (on iki) aydan çox müddət ərzində qüvvədə qalmayacaqdır.

6. 11-ci maddənin müddəalarına baxmayaraq, Azərbaycan Respublikasının təyin edilmiş aviaşirkəti və ya aviaşirkətləri tərəfindən ümumilikdə Avropa Birliyi daxilində daşıma üçün ödənilməli olan tariflər Avropa Birliyinin qanununa tabe olacaqdır.

Maddə 12

Doğru rəqabət

1. Razılığa gələn hər iki Tərəfin təyin edilmiş aviasiya şirkətləri üçün Sazişlə nəzərdə tutulmuş beynəlxalq hava daşınmasında iştirak etmək məqsədilə ədalətli və bərabər imkanlar yaradılmalıdır.

2. Zəruri olduqda, Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin təyin edilmiş aviasiya şirkətlərinin rəqabət qabiliyyətinə qeyri-əlverişli təsir göstərən bütün diskriminasiya formalarının və ya qeyri-doğru rəqabət şəraitinin aradan qaldırılması üçün öz səlahiyyətləri çərçivəsində bütün müvafiq tədbirləri görəcəkdir.

Maddə 13

Kommersiya fəaliyyəti

1. Razılığa gələn hər bir Tərəfin təyin edilmiş aviasiya şirkəti və ya şirkətləri burada qüvvədə olan qanun və qaydalar çərçivəsində, təyin edilmiş müvafiq aviaşirkətin tələbatını ödəmək üçün Razılığa gələn digər Tərəfin ərazisində ofislər açmaq və inzibati, kommersiya və texniki heyət saxlamaq hüququna malik olacaqdır.

2. 1-ci bənddə qeyd edilən ofisin açılması və heyətin seçilməsi Razılığa gələn müvafiq Tərəfin ərazisində qüvvədə olan xarici vətəndaşların buraxılması və Razılığa gələn bu və ya digər Tərəfin ərazisində qalması ilə bağlı qanun və qaydalara uyğun surətdə həyata keçiriləcəkdir. 1-ci bəndə əsasən ofislərdə işləmək üçün seçilmiş heyətə, əmək bazarının genişlənməsindən və vəziyyətdən asılı olmayaraq, anketlərə əsasən iş üçün icazə verilməlidir.

3. Razılığa gələn Tərəflərin təyin edilmiş aviasiya şirkətləri Razılığa gələn hər iki Tərəfin ərazisində özünəməxsus nəqliyyat sənədləri üzrə bilavasitə və ya agentlər vasitəsilə, yerli və ya istənilən digər sərbəst dövriyyəli valyutada hava nəqliyyatı xidmətlərinin satışı ilə məşğul olmaq hüququna malik olacaqdır. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin təyin edilmiş aviasiya şirkətinin bu daşımanı satmaq və hər hansı şəxsin bu daşımanı almaq hüququnu məhdudlaşdırmayacaqdır.

4. Razılığa gələn hər bir Tərəf qüvvədə olan yerli qaydalardan asılı olaraq, qarşılıqlı əsasda Razılığa gələn digər Tərəfin təyin edilmiş aviasiya şirkəti və ya digər aviasiya şirkətləri üçün sərnişinlərə, baqaj, yük və poçta xidmət hüququ verəcəkdir.

Maddə 14

Gəlirin köçürülməsi

1. Razılığa gələn hər iki Tərəfin təyin edilmiş aviasiya şirkətləri satışdan əldə etdikləri və məsrəflərdən əlavə pul mədaxilini öz ölkəsinə köçürmək hüququna malik olacaqdır.

2. Bu köçürmələr rəsmi mübadilə məzənnəsi ilə sərbəst dövriyyəli valyutada həyata keçirilməlidir və banklar tərəfindən tutulan adi haqlar və prosedurlar istisna edilməklə, heç bir yığım, tutum, məhdudiyyət və möhlət tətbiq edilməyəcəkdir.

3. Razılığa gələn Tərəflər arasında ödənişin xüsusi sazişlə tənzimləndiyi halda bu Sazişin müddəaları tətbiq edilməlidir.

Maddə 15

Aviasiya təhlükəsizliyi

1. Razılığa gələn Tərəflər beynəlxalq hüquqdan irəli gələn hüquq və öhdəliklərinə uyğun olaraq, mülki aviasiyanın təhlükəsizliyinin qanunsuz müdaxilə aktlarından müdafiəsi üçün bir-birlərinə münasibətdə götürdükləri öhdəliklərinin bu Sazişin ayrılmaz hissəsini təşkil etdiyini təsdiq edirlər. Razılığa gələn hər bir Tərəf öz hüquq və öhdəlikləri-

rini məhdudlaşdırmadan, əsasən 1963-cü il sentyabrın 14-də Tokioda imzalanmış "Hava gəmilərində törədilən cinayətlər və bəzi başqa hərəkətlər haqqında" Konvensiyaya, 1970-ci il dekabrın 16-da Haaqada imzalanmış "Hava gəmilərinin qanunsuz ələ keçirilməsinə qarşı mübarizə haqqında" Konvensiyaya, 1971-ci il sentyabrın 23-də Monrealda imzalanmış "Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəldilən qanunsuz hərəkətlərlə mübarizə haqqında" Konvensiyaya və 1988-ci il fevralın 24-də Monrealda imzalanmış "Beynəlxalq hava limanlarında qanunsuz zorakılıq hərəkətlərinə qarşı mübarizə haqqında" Protokola və ya Razılığa gələn hər iki Tərəfin qoşula biləcəyi aviasiya təhlükəsizliyinə dair digər konvensiyalara uyğun fəaliyyət göstərir.

2. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin xahişi ilə mülki hava gəmisinin qanunsuz ələ keçirilməsinin və belə hava gəmisinin, onun sərnişinlərinin və ekipajlarının, hava limanlarının və aeronaviqasiya vasitələrinin təhlükəsizliyinə qarşı yönəldilən başqa qanunsuz hərəkətlərin, habelə mülki aviasiyanın təhlükəsizliyi üçün qorxu törədən hər hansı başqa hərəkətin qarşısının alınması üçün bütün lazımi yardım göstərir.

3. Razılığa gələn Tərəflər qarşılıqlı fəaliyyət göstərərkən Beynəlxalq Mülki Aviasiya Təşkilatının müəyyən etdiyi və Konvensiyaya Əlavə kimi qəbul edilmiş aviasiya təhlükəsizliyi üzrə müddəalara və texniki tələblərə uyğun surətdə, həmin müddəaların və tələblərin Razılığa gələn Tərəflərə münasibətdə tətbiq edildiyi dərəcədə hərəkət edirlər; Razılığa gələn hər bir Tərəf qeydiyyata aldıqları hava gəmilərinin istismarçılarının və ya əsas fəaliyyət yeri və ya daimi yeri onların ərazisində olan hava gəmilərinin istismarçılarının aviasiya təhlükəsizliyi üzrə belə müddəalara müvafiq surətdə fəaliyyət göstərmələrini tələb edəcəkdir.

4. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin bu maddənin 3-cü bəndində göstərilən və öz ərazisinə gəlmək, oradan getmək və orada qalmaq üçün nəzərdə tutduğu aviasiya təhlükəsizliyi müddəalarına riayət olunmasını hava gəmiləri istismarçılarından tələb edə bilməsi ilə razılaşır.

Razılığa gələn hər bir Tərəf öz ərazisi daxilində hava gəmilərinin müdafiəsi və sərnişinlərin, ekipajın, əl yükünün, baqajın, yükün və gəmi ehtiyatlarının enmə və ya yükvurma zamanı və ya əvvəl yoxlanması üçün lazımi tədbirlərin görülməsini təmin edəcəkdir. Razılığa gələn hər bir Tərəf konkret təhlükə ilə əlaqədar xüsusi təhlükəsizlik tədbirləri görülməsi barədə Razılığa gələn digər Tərəfin xahişini də xeyirxahlıqla müzakirə edəcək.

5. Mülki hava gəmilərinin qanunsuz ələ keçirilməsi və ya hava gəmilərinin, onların sərnişinlərinin və ekipajının, hava limanlarının və ya aeronaviqasiya vasitələrinin təhlükəsizliyinə qarşı yönəldilən başqa qanunsuz hərəkətlərlə bağlı münaqişə və ya təhlükə yarandıqda, Razılığa gələn Tərəflər belə münaqişəni və ya təhlükəni tez və təhlükəsiz aradan qaldırmaq məqsədi daşıyan müvafiq tədbirlər görməklə və rabitəni asanlaşdırmaqla bir-birlərinə kömək göstərəcəklər.

6. Əgər Razılığa gələn Tərəf bu maddənin aviasiya təhlükəsizliyi müddəalarından imtina edirsə, Razılığa gələn digər Tərəfin aviasiya hakimiyyəti orqanları Razılığa gələn birinci Tərəfin aviasiya hakimiyyəti orqanları ilə təcili məsləhətləşmələr aparılmasını tələb edə bilər. Bu bildirişin təqdim edildiyi tarixdən bir ay ərzində qənaətbəxş razılıq əl-

də edə bilməmək Razılığa gələn birinci Tərəfin aviasiya şirkətinin və şirkətlərinin istismar icazəsini dayandırmaq, ləğv etmək, məhdudlaşdırmaq və ya müəyyən şərtlər irəli sürmək üçün əsas olacaqdır. Ciddi fövqəladə hal meydana çıxdıqda, Razılığa gələn hər hansı Tərəf bir aylıq müddət başa çatanadək daxili tədbir görə bilər.

Maddə 16

Uçuşların təhlükəsizliyi

1. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin qəbul etdiyi, ekipaja, hava gəmilərinə və ya onların istismarına aid istənilən sahədə təhlükəsizlik standartları ilə əlaqədar məsləhətləşmələr keçirilməsini tələb edə bilər.

Bu cür məsləhətləşmələr sorğu alındığı gündən 30 (otuz) gün ərzində keçiriləcəkdir.

2. Əgər bu cür məsləhətləşmələrdən sonra Razılığa gələn bir Tərəf Razılığa gələn digər Tərəfin istənilən belə sahədə Konvensiyaya əsasən müəyyən edilmiş və minimum standartlara bərabər tutulan təhlükəsizlik standartlarına səmərəli şəkildə riayət və onları tətbiq etmədiyini aşkar edərsə, bu zaman Razılığa gələn birinci Tərəf müəyyən edilən faktlar və həmin minimal standartlara riayət etmək üçün zəruri saydığı gələcək tədbirlər barədə Razılığa gələn digər Tərəfə xəbər verəcək, Razılığa gələn digər Tərəf isə yaranmış vəziyyətin aradan qaldırılması üçün zəruri tədbirlər görəcəkdir. Razılığa gələn digər Tərəfin 15 (on beş) gün ərzində və ya daha artıq müddət ərzində müvafiq tədbirlər görmək iqtidarında olmaması bu Sazişin 4-cü maddəsinin tətbiq edilməsi üçün əsas olacaqdır.

3. Konvensiyanın 33-cü maddəsində qeyd edilən öhdəliklərə baxmayaraq, Razılığa gələn bir Tərəfin aviasiya şirkəti/şirkətləri tərəfindən və ya icarə şərtilə onun//onların adından Razılığa gələn digər Tərəfin ərazisinə hava daşımalarını həyata keçirmək üçün istismar edilən hər hansı hava gəmisi Razılığa gələn digər Tərəfin ərazisində olarkən, əsassız ləngiməyə gətirib çıxarmayacağını nəzərə alaraq, hava gəmisinin və onun ekipajının sənədlərinin etibarlı olmasının, hava gəmisinin və onun avadanlığının vəziyyətinin yoxlanması məqsədilə həmin Tərəfin səlahiyyətli nümayəndələri tərəfindən gəmi və perron yoxlamasının (bu maddədə yoxlama "perronda yoxlama" adlanır) həyata keçiriləcəyi barədə Tərəflər razılıq əldə etdilər.

4. Əgər perronda aparılan yoxlamalardan hər hansı biri və ya bir neçəsi a) hava gəmisinin və ya onun istismarının Konvensiyaya əsasən müəyyən edilmiş minimal standartlara cavab verməməsi ilə əlaqədar ciddi təhlükə, və ya b) Konvensiyaya əsasən müəyyən edilmiş təhlükəsizlik standartlarına kifayət qədər səmərəli riayət edilməməsi və rəhbər tutulmaması ilə əlaqədar ciddi təhlükə yarandığını aşkar edirsə, yoxlamanı həyata keçirən Razılığa gələn Tərəf Konvensiyanın 33-cü maddəsinin müddəalarına riayət etmək məqsədilə, həmin hava gəmisinə və ya onun ekipajına verilən və ya etibarlı sayılan sertifikat və ya lisenziyalarla əlaqədar tələblərin və ya hava gəmisinin istismarı ilə əlaqədar tələblərin Konvensiyaya əsasən müəyyən edilmiş minimal standartlara bərabər və ya yuxarı olmaması haqqında nəticə çıxara bilər.

5. Razılığa gələn bir Tərəfin aviasiya şirkətinin nümayəndəsi həmin Tərəfin aviasiya şirkəti tərəfindən və ya onun adından istismar edilən hava gəmisinin bu maddənin 3-cü bəndinə uyğun surətdə perronda yoxlanılmasına icazə vermədiyi halda, Razılığa gələn digər Tərəf 4-cü bənddə qeyd edilən ciddi təhlükənin mövcud olması və həmin bənddə

qeyd edilən hallara səbəb olması barədə nəticə çıxara bilər.

6. Əgər Razılığa gələn bir Tərəf perronda aparılan bir və ya bir neçə yoxlama, perronda yoxlamanın keçirilməsindən imtina, məsləhətləşmələr nəticəsində və ya hər hansı digər səbəbdən təxirəsalınmaz tədbirlərin aviasiya şirkətinin uçuşlarının təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olduğu barədə qərar qəbul edərsə, Razılığa gələn digər Tərəfin aviasiya şirkətinin istismar səlahiyyətlərini təxirə salınmadan dayandırmaq və ya dəyişmək hüququna malikdir.

7. Razılığa gələn bir Tərəfin yuxarıda qeyd edilən 2-ci və 6-cı bəndlərə uyğun şəkildə hər hansı hərəkəti onun həyata keçirilməsi üçün əsas mövcud olmadığı halda dayandırılmalıdır.

Maddə 17

Qanun və qaydaların tətbiqi

1. Razılığa gələn bir Tərəfin onun ərazisinə beynəlxalq hava əlaqələrində istifadə edilən hava gəmisinin gəlməsini və ərazisini tərk etməsini tənzimləyən və ya onun ərazisində olduğu müddətdə bu hava gəmisinin uçuşları və naviqasiya ilə əlaqədar qanun və qaydaları Razılığa gələn digər Tərəfin təyin edilmiş aviasiya şirkətinə və ya şirkətlərinə şamil ediləcəkdir.

2. Razılığa gələn Tərəfin sərnişinlərin, ekipajın, yükün və ya poçtun onun ərazisinə daxil olması, ərazidə qalması və ya aparılmasını tənzimləyən, gəliş, gediş, emiqrasiya və immiqrasiya, gömrük və karantin, habelə sağlamlığa nəzarət tədbirləri ilə əlaqədar qanun və qaydaları Razılığa gələn digər Tərəfin təyin edilmiş aviasiya müəssisəsi tərəfindən hava gəmisində həmin əraziyə gətirilən sərnişinlərə, ekipaja, yükə və poçta şamil ediləcəkdir.

3. Razılığa gələn Tərəflərdən birinin ərazisindən birbaşa tranzitlə keçən və hava limanında bu məqsədlə ayrılmış ərazini tərk etməyən sərnişinlər, baqaj və yük, zorakılıq aktlarına və ya hava piratlığına, habelə narkotik maddələrin kontrabandasına qarşı təhlükəsizlik tədbirləri istisna edilməklə, yalnız sadələşdirilmiş nəzarətdən keçəcəkdir.

4. Daşınan sərnişin Razılığa gələn digər Tərəfin ölkəsinə daxil olmaq üçün qanun və qaydalara riayət etmirsə, aviaşirkət onu aviaşirkətin hesabına geri qaytarmağa məcburidir.

Maddə 18

Məsləhətləşmələr

Razılığa gələn Tərəflərin aviasiya hakimiyyəti orqanları sıx əməkdaşlıq edərək, bu Sazişin və onun Əlavəsinin müddəalarının yerinə yetirilməsi və bunlara qənaətbəxş riayət edilməsinə zəmanət məqsədilə istənilən vaxt məsləhətləşmələr keçirə bilər.

Maddə 19

Mübahisələrin həlli

1. Razılığa gələn Tərəflər arasında bu Sazişin təfsiri və ya tətbiqi ilə əlaqədar mübahisəli məsələ meydana çıxarsa, Razılığa gələn Tərəflər ilk növbədə bu mübahisəli məsələni danışıqlar vasitəsilə həll etməyə çalışacaqlar.

2. Əgər Razılığa gələn Tərəflər mübahisəli məsələni danışıqlar yolu ilə həll edə bilmirlərsə, mübahisəli məsələnin müvafiq şəxs və ya orqan tərəfindən həll edilmək üçün göndərilməsi barədə razılığa gələ bilərlər; əgər razılıq əldə edilməsə, mübahisəli məsələ Razılığa gələn Tərəflərdən birinin xahişi ilə arbitraj məhkəməsinə təqdim ediləcək. Bu məhkəmə üç münsifdən ibarətdir, onlardan ikisini Razılığa gələn hər bir Tərəf təyin etməlidir, üçüncüsü isə bu yolla təyin edilmiş münsif tərəfindən müəyyən edilməlidir. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfdən diplomatik kanallarla mübahisəli məsələnin müzakirəsini arbitraj məhkəməsi yolu ilə həll etmək haqqında bildiriş aldığı tarixdən sonra 60 (altmış) gün müddətində münsif təyin edir, üçüncü münsif isə sonrakı 60 (altmış) gün müddətində təyin edilir.

Əgər Razılığa gələn hər hansı Tərəf qeyd edilən müddətdə münsif təyin etmək iqtidarında deyilsə, Beynəlxalq Mülki Aviasiya Təşkilatı Şurasının Prezidenti Razılığa gələn hər hansı Tərəfin xahişi ilə münsif və ya münsiflər təyin edə bilər. Hər halda üçüncü münsif üçüncü dövlətin vətəndaşı olmalı və arbitraj məhkəməsinin sədri vəzifəsini yerinə yetirməlidir. Arbitraj məhkəməsi səs çoxluğuna əsasən qərar qəbul edəcəkdir. Bütün digər məsələlərlə əlaqədar arbitraj məhkəməsi özünəməxsus prosedurlar müəyyən edir.

3. Razılığa gələn Tərəflər bu maddənin 2-ci bəndinə uyğun olaraq qəbul edilən qərara tabe olmağı öhdələrinə götürürlər.

4. Əgər Razılığa gələn hər hansı Tərəf bu maddənin 2-ci bəndinə əsasən qəbul edilən qərara riayət etmirsə, Razılığa gələn digər Tərəf bu Sazişə əsasən verdiyi hər hansı hüquq və güzəştləri məhdudlaşdırmaq, təxirə salmaq və ya ləğv etmək hüququna malikdir.

5. Razılığa gələn hər bir Tərəf münsif təyin etməsi ilə əlaqədar zəruri məsrəfləri ödəməlidir; üçüncü münsifin, habelə məhkəmənin fəaliyyəti ilə əlaqədar məsrəflər Razılığa gələn Tərəflər arasında bərabər surətdə bölünəcəkdir.

Maddə 20

Düzəlişlər

1. Əgər Razılığa gələn hər hansı Tərəf, Əlavə də daxil olmaqla, bu Sazişin hər hansı müddəasında düzəliş etməyi qərara alarsa, düzəliş bu Sazişin 18-ci maddəsinə uyğun məsləhətləşmədən sonra mümkün olacaqdır.

2. Bu Sazişdə düzəlişlər və əlavələr Razılığa gələn hər iki Tərəfin qarşılıqlı razılığı əsasında ediləcək. Belə dəyişiklik və əlavələr bu Sazişin ayrılmaz hissəsi olan ayrı-ayrı protokollarla rəsmiləşdirilə və bu Sazişin 23-cü maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minə bilər.

3. Düzəliş yalnız bu Sazişə Əlavənin müddəalarına aiddirsə, bilavasitə Razılığa gələn Tərəflərin aviasiya hakimiyyəti orqanları arasında razılaşdırılacaq və onların şərtləşdikləri gündən qüvvəyə minəcəkdir.

Maddə 21

İKAO-da qeydiyyat

Bu Saziş və istənilən düzəlişlər Beynəlxalq Mülki Aviasiya Təşkilatında qeydə alınmalıdır.

Maddə 22

Ləğv etmə

Razılığa gələn hər bir Tərəf bu Sazişi ləğv etmək qərarı barədə Razılığa gələn digər Tərəfə istənilən vaxt yazılı bildiriş göndərə bilər. Belə bildiriş eyni zamanda Beynəlxalq Mülki Aviasiya Təşkilatına təqdim edilməlidir. Bu Saziş gecə yarısı (bildirişi alan Razılığa gələn Tərəfin yerli vaxtı ilə) Razılığa gələn digər Tərəfin bildirişi aldığı tarixdən 12 ay başa çatdıqdan sonra qüvvədən düşəcək, bildirişin həmin dövr başa çatmazdan əvvəl geri götürüldüyü hal istisna təşkil edir. Razılığa gələn digər Tərəf bildiriş aldığını təsdiq etməzsə, bildiriş Beynəlxalq Mülki Aviasiya Təşkilatı tərəfindən alındıqdan 14 gün sonra alınmış hesab edilir.

Maddə 23

Qüvvəyə minmə

Bu Saziş Razılığa gələn iki Tərəfin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları tam yerinə yetirdikləri barədə sonuncu yazılı bildirişin diplomatik kanallarla alındığı tarixdən qüvvəyə minir.

Riqa şəhərində 2006-cı il 4 oktyabr tarixində Azərbaycan, latış və ingilis dillərində, hər biri iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir. Mətnlərin təfsirində fikir ayrılığı olduğu təqdirdə, ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

CAHANGİR ƏSGƏROV
"Azərbaycan Hava Yolları"
Dövlət Konserninin baş direktoru

LATVİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

KRİŞVANİS PETERS
Nəqliyyat naziri

Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Sazişə Əlavə

MARŞRUTLARIN CƏDVƏLİ

1. Latviya Respublikasının təyin etdiyi aviasiya şirkəti və ya şirkətləri tərəfindən istismar ediləcək marşrutlar:

Yola düşmə məntəqələri	Aralıq məntəqələr	Təyinat məntəqələri	Kənar məntəqələr
Latviya Respublikasında məntəqələr	İstənilən məntəqələr	Azərbaycan Respublikasında məntəqələr	İstənilən məntəqələr
İstənilən məntəqələr		İstənilən məntəqələr	

Qeyd:

1. Aralıq məntəqələr xidmətlərin Latviya Respublikasında başlanılması və ya bitməsi şərtilə bəzi uçuşlarda buraxıla bilər.

2. Razılığa gələn Tərəflərin aviasiya hakimiyyəti orqanları tərəfindən vaxtaşırı razılaşdırıla bilinməsi istisna olmaqla, aralıq məntəqələrdən və ya kənar məntəqələrdən Azərbaycan Respublikasının ərazisinə və əksinə nəzərdə tutulan daşımalar götürülə bilməz. Bu məhdudiyyət həmçinin tranzit daşımaların bütün formalarına tətbiq edilir.

2. Azərbaycan Respublikasının təyin etdiyi aviaşirkət və ya aviaşirkətlər tərəfindən istismar ediləcək marşrutlar:

Yola düşmə məntəqələri	Aralıq məntəqələr	Təyinat məntəqələri	Kənar məntəqələr
Latviya Respublikasında məntəqələr	İstənilən məntəqələr	Azərbaycan Respublikasında məntəqələr	İstənilən məntəqələr
İstənilən məntəqələr		İstənilən məntəqələr	

Qeyd:

1. Aralıq məntəqələr xidmətlərin Azərbaycan Respublikasında başlanılması və ya bitməsi şərtilə bəzi uçuşlarda buraxıla bilər.

2. Razılığa gələn Tərəflərin aviasiya hakimiyyəti orqanları tərəfindən vaxtaşırı razılaşdırıla bilinməsi istisna olmaqla, aralıq məntəqələrdən və ya kənar məntəqələrdən Latviya Respublikasının ərazisinə və əksinə nəzərdə tutulan daşımalar götürülə bilməz. Bu məhdudiyyət həmçinin tranzit daşımaların bütün formalarına tətbiq edilir.

"Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə İsrail Dövləti Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 fevral 2007-ci il

№1969

2006-cı il avqustun 17-də Batumi şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Gürcüstanın Azərbaycan Respublikası qarşısında olan borc öhdəliyinin restrukturizasiyası haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2006-cı il avqustun 17-də Batumi şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Gürcüstanın Azərbaycan Respublikası qarşısında olan borc öhdəliyinin restrukturizasiyası haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Gürcüstan Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 fevral 2007-ci il

№1970

Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Gürcüstanın Azərbaycan Respublikası qarşısında olan borc öhdəliyinin restrukturizasiyası haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti,

Gürcüstan Hökumətinin nümayəndələri və Paris Klubunun kreditor-dövlətləri hökumətlərinin nümayəndələri tərəfindən 2004-cü il 21 iyul tarixində Paris şəhərində imzalanmış Gürcüstanın borcunun konsolidasiyası haqqında Razılaşdırılmış Protokolun (bundan sonra "Razılaşdırılmış Protokol" adlandırılacaq) şərtlərini nəzərə alaraq,

iki ölkə arasında dostluq münasibətlərinin gələcək inkişafı və möhkəmləndirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Sazişin əhatə etdiyi sahələr

Bu Sazişin müddəaları 2003-cü il 7 oktyabr tarixli "1997-ci il 18 fevral tarixli "Gürcüstan Hökumətinin Azərbaycan Respublikası Hökumətinə olan borcunun restrukturizasi-

yası haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Sazişə" üzrə Gürcüstanın Azərbaycan Respublikası qarşısında olan borcunun tənzimlənməsi haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Sazişə" (bundan sonra "2003-cü il 7 oktyabr Sazişi" adlandırılacaq), üzrə Gürcüstanın Azərbaycan Respublikası qarşısında olan öhdəliyinin konsolidasiya edilməyən məbləğinə tətbiq ediləcəkdir.

Bu Sazişin müddəaları 2003-cü il 7 oktyabr tarixli Saziş üzrə Gürcüstanın Azərbaycan Respublikası qarşısında olan öhdəliyinin konsolidasiya edilən məbləğinə tətbiq edilməyəcəkdir (bundan sonra "Konsolidasiya edilən məbləğ" adlandırılacaq). Konsolidasiya edilən məbləğə xidmət 2003-cü il 7 oktyabr tarixli Sazişin şərtləri üzrə həyata keçiriləcəkdir.

Maddə 2

Konsolidasiya

1. 2003-cü il 7 oktyabr Sazişi üzrə Gürcüstanın Azərbaycan Respublikası qarşısında olan öhdəliyinin konsolidasiya edilməyən məbləğinin (bundan sonra "Konsolidasiya edilməyən məbləğ" adlandırılacaq) növbəti dərəcəsi (kateqoriyası) bu Sazişə əsasən konsolidasiya ediləcəkdir:

a) Razılaşdırılmış Protokolun imzalanma tarixinədək ödənilməyən və eyni zamanda 2004-cü il 31 may tarixinə olan vəziyyət üzrə ödənilməli olan, konsolidasiya edilməyən məbləğin faizləri və əsas borc üzrə öhdəliyin yüz faizi;

b) Razılaşdırılmış Protokolun imzalanma tarixinədək ödənilməyən və eyni zamanda 2004-cü il 1 iyun tarixindən başlayaraq 2006-cı il 31 dekabr tarixinədək ödənilməli olan, konsolidasiya edilməyən məbləğin faizləri və əsas borc üzrə öhdəliyin yüz faizi.

2. Konsolidasiya edilməyən məbləğ üzrə öhdəlik, bu maddənin 1-ci bəndinə müvafiq konsolidasiya edilən (bundan sonra "Restrukturizasiya edilən məbləğlər" adlandırılacaq) məbləğ bu Sazişin ayrılmaz hissəsi olan 1 nömrəli Əlavədə nəzərdə tutulmuş cədvələ uyğun olaraq ödəniləcəkdir.

Maddə 3

Restrukturizasiya edilən məbləğlərin ödənişi

1. Bu Sazişin 2-ci maddəsinin 1-ci bəndinin "a" yarımbəndində qeyd edilən restrukturizasiya edilən məbləğin əlli faizi bu Sazişin ayrılmaz hissəsi olan 2 nömrəli Əlavədə nəzərdə tutulan cədvəl üzrə ABŞ dolları ilə ödəniləcəkdir.

2. Bu Sazişin "a" yarımbəndində qeyd edilən restrukturizasiya edilən məbləğin qalan əlli faizi, o cümlədən 2-ci maddənin 1-ci bəndinin "b" yarımbəndində qeyd edilən məbləğ bu Sazişin ayrılmaz hissəsi olan 3 nömrəli Əlavədə nəzərdə tutulan cədvəl üzrə ABŞ dolları ilə ödəniləcəkdir.

Maddə 4

Faizlərin hesablanması və ödənilməsi

1. Bu Sazişin 2-ci maddəsinin 1-ci bəndinin "a" yarımbəndində qeyd edilən restrukturi-

zasiya edilən məbləğə 2004-cü il 1 iyun tarixindən başlayaraq illik 3 (üç) faiz dərəcəsi ilə faizlər hesablanacaqdır.

2. Bu Sazişin 2-ci maddəsinin 1-ci bəndinin "b" yarımbəndində qeyd edilən restrukturizasiya edilən məbləğə 2003-cü il 7 oktyabr tarixli Saziş üzrə nəzərdə tutulan müvafiq ödəniş tarixindən başlayaraq illik 3 (üç) faiz dərəcəsi ilə faizlər hesablanacaqdır.

3. Faizlər hər altı aydan bir ildə 365 gün hesabı ilə müvafiq yarımildə olan faktiki günlərin sayı ilə hesablanacaqdır və növbəti müddətlərə ABŞ dolları ilə ödəniləcəkdir:

a) bu Sazişin 3-cü maddəsinin 1-ci bəndinə müvafiq olaraq restrukturizasiya edilən məbləğə hesablanacaq faizlərin ödənişi müvafiq restrukturizasiya edilən məbləğin ödənişi ilə eyni vaxtda həyata keçiriləcəkdir;

b) bu Sazişin 3-cü maddəsinin 2-ci bəndinə müvafiq olaraq restrukturizasiya edilən məbləğə hesablanacaq faizlərin ödənişi hər ilin 1 mart və 1 sentyabr tarixlərində həyata keçiriləcəkdir, belə ki, faizlər üzrə 1-ci ödəniş 2004- cü il 1 sentyabr tarixində, sonuncu ödəniş isə müvafiq restrukturizasiya edilən məbləğin ödənişi ilə eyni vaxtda həyata keçiriləcəkdir.

Maddə 5

Vaxtı keçmiş borcun üzərinə cərimə faizləri

Bu Sazişin 3-cü və 4-cü maddələrinə müvafiq olaraq restrukturizasiya edilən məbləğ və ona hesablanmış faizlər üzrə ödənişlər vaxtında aparılmadığı təqdirdə, vaxtı keçmiş elan olunur və borcun bu hissəsi tam ödənilənədək üzərinə illik 3,5 faiz dərəcəsi ilə 365 gün hesabı ilə müvafiq yarımildə olan faktiki gecikdirilmiş günlərin sayı üzrə faiz hesablanacaqdır.

Maddə 6

Borcun ödəniş növləri

Tərəflərin razılığı ilə, restrukturizasiya edilən məbləğin və ya ona hesablanmış faizlərin qaytarılması, əmtəə təchizatı və xidmətlərin göstərilməsi, o cümlədən "borc əvəzi mülkiyyət" prinsipi ilə də həyata keçirilə bilər.

Maddə 7

Agent və prosedurlar

Tərəflərin müvəkkil banklarına bu Sazişin şərtlərindən irəli gələn hesabların aparılması və hesablaşmaların həyata keçirilməsinin texniki qaydalarını bir ay müddətində razılaşdırmaq həvalə edilir. Ödənişin yerinə yetirildiyi gün vəsaitin Azərbaycan tərəfinin Müvəkkil Bankının hesabına daxil olduğu gün sayılır.

Maddə 8

Qüvvəyə minmə

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan müvafiq dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir və Tərəflər bu Sazişdən irəli gələn öhdəlikləri tam yerinə yetirənədək qüvvədə qalır.

2006-cı il 17 avqust tarixində Batumi şəhərində hər biri Azərbaycan, gürcü və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir.

Tərəflər bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yaranacağı təqdirdə, rus dilində olan mətnə müraciət edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

SAMİR ŞƏRİFOV
Maliyyə naziri

GÜRCÜSTAN
HÖKUMƏTİ ADINDAN

ALEKSİ ALEKSİŞVİLİ
Maliyyə naziri

ƏLAVƏ 1

Konsolidasiya cədvəli

(Maddə 2, bənd 1-a, Maddə 3, bənd 1)

ABŞ dolları ilə

Konsolidasiya tarixi	Konsolidasiya edilən məbləğ	Balans
01.06.04	2,071,239.63	2,071,239.63
Cəmi: 2,071,239.63		

Konsolidasiya cədvəli

(Maddə 2, bənd 1-b, Maddə 3 b, bənd 2)

ABŞ dolları ilə

Konsolidasiya tarixi	Konsolidasiya edilən məbləğ	Balans
01.06.04	2,071,239.63	2,071,239.63
30.06.04	876,077.67	2,947,317.30
30.09.04	870,688.54	3,818,005.84
31.12.04	864,567.55	4,682,573.39
31.03.05	857,382.04	5,539,955.43
30.06.05	851,859.85	6,391,815.28
30.09.05	846,204.59	7,238,019.87
31.12.05	840,083.60	8,078,103.47

31.03.06	833,430.35	8,911,533.82
30.06.06	827,642.02	9,739,175.84
30.09.06	821,720.63	10,560,896.47
31.12.06	815,599.64	11,376,496.11
Cəmi:	11,376,496.11	

ƏLAVƏ 2

Restrukturizasiya edilən məbləğin ödəniş cədvəli

(Maddə 4, bənd 3-a)

ABŞ dolları ilə

Ödəniş tarixi	Faiz	Əsas borc	Faiz borcu	Cəmi ödəniş
12/1/2004	11%	455,672.72	31,153.71	486,826.43
6/1/2005	10.50%	434,960.32	24,167.11	459,127.43
12/1/2005	10.50%	434,960.32	17,757.62	452,717.94
6/1/2006	9%	372,823.13	11,154.05	383,977.18
12/1/2006	9%	372,823.13	5,607.67	378,430.80
Cəmi:	50%	2,071,239.63	89,840.16	2,161,079.79

ƏLAVƏ 3

Restrukturizasiya olunan məbləğin ödəniş cədvəli

(Maddə 4, bənd 3-b)

ABŞ dolları ilə

Ödəniş tarixi	Faiz	Əsas borc	Faiz borcu	Cəmi ödəniş
9/1/2004			20,198.38	20,198.38
3/1/2005			58,987.66	58,987.66
9/1/2005			86,079.25	86,079.25
3/1/2006			109,803.84	109,803.84

9/1/2006			137,002.25	137,002.25
3/1/2007			159,174.93	159,174.93
9/1/2007			172,050.02	172,050.02
3/1/2008			170,179.91	170,179.91
9/1/2008			172,050.02	172,050.02
3/1/2009			169,244.86	169,244.86
9/1/2009			172,050.02	172,050.02
3/1/2010			169,244.86	169,244.86
9/1/2010			172,050.02	172,050.02
3/1/2011	2.00%	227,529.92	169,244.86	396,774.78
9/1/2011	2.07%	235,493.47	168,609.02	404,102.49
3/1/2012	2.10%	238,906.42	163,253.59	402,160.01
9/1/2012	2.21%	251,420.56	161,434.54	412,855.10
3/1/2013	2.28%	259,384.11	155,062.14	414,446.25
9/1/2013	2.33%	265,072.36	153,709.49	418,781.85
3/1/2014	2.43%	276,448.86	147,259.95	423,708.81
9/1/2014	2.51%	285,550.05	145,519.91	431,069.96
3/1/2015	2.60%	295,788.90	138,899.26	434,688.16
9/1/2015	2.68%	304,890.10	136,728.15	441,618.25
3/1/2016	2.77%	315,128.94	130,681.16	445,810.10
9/1/2016	2.85%	324,230.14	127,351.43	451,581.57
3/1/2017	2.95%	335,606.64	120,451.57	456,058.20
9/1/2017	3.05%	346,983.13	117,372.53	464,355.66
3/1/2018	3.16%	359,497.28	110,296.88	469,794.15
9/1/2018	3.26%	370,873.77	106,688.22	477,561.99
3/1/2019	3.37%	383,387.92	99,431.36	482,819.27
9/1/2019	3.48%	395,902.06	95,281.30	491,183.37

3/1/2020	3.59%	408,416.21	88,323.38	496,739.59
9/1/2020	3.71%	422,068.01	83,117.37	505,185.37
3/1/2021	3.84%	436,857.45	75,483.21	512,340.66
9/1/2021	3.96%	450,509.25	70,127.59	520,636.84
3/1/2022	4.09%	465,298.69	62,282.11	527,580.80
9/1/2022	4.23%	481,225.79	56,277.56	537,503.35
3/1/2023	4.37%	497,152.88	48,200.94	545,353.82
9/1/2023	4.51%	513,079.97	41,481.26	554,561.24
3/1/2024	4.66%	530,144.72	33,355.26	563,499.98
9/1/2024	4.82%	548,347.11	25,704.27	574,051.39
3/1/2025	4.98%	566,549.51	17,127.58	583,677.09
9/1/2025	5.14%	584,751.90	8,843.37	593,595.27
Cəmi:	100.00%	11,376,496.11	4,825,715.27	16,202,211.38

"Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişə 2 saylı Düzəliş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişə 2 saylı Düzəliş"i Azərbaycan Respublikası Nazirlər Kabineti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişə 2 saylı Düzəlişi Azərbaycan Respublikasının Nazirlər Kabineti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Amerika Birləşmiş Ştatlarına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 fevral 2007-ci il

№1976

"Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının ayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 4 saylı Düzəliş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 4 saylı Düzəliş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi Elçin İsaağa oğlu Quliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən 4 saylı Düzəlişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi Elçin İsaağa oğlu Quliyevə verilməsi barədə Amerika Birləşmiş Ştatlarına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 fevral 2007-ci il

№1977

2006-cı il dekabrın 5-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi Protokolu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2006-cı il dekabrın 5-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi Protokolu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Türkiyə Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 fevral 2007-ci il

№1978

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi Protokolu

2006-cı il 14 iyul tarixli "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Təmənnasız Hərbi Yardım haqqında Saziş"ə istinadən, Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı (bundan sonra "Tərəflər" adlandırılacaqdır) aşağıdakı məsələlər barədə razılığa gəldilər:

Maddə 1

Məqsəd

Bu Protokolun məqsədi 2006-cı il 14 iyul tarixli "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Təmənnasız Hərbi Yardım haqqında Saziş" çərçivəsində Azərbaycan Respublikası Müdafiə Nazirliyi üçün həyata keçiriləcək 2006-cı ilin maddi-texniki təminat yardımı layihələrinin müəyyənləşdirilməsidir.

Maddə 2

Əhatə dairəsi

Bu Protokol Azərbaycan Respublikası Müdafiə Nazirliyini və Türkiyə Respublikası Baş Qərargahını əhatə edir.

Maddə 3

2006-cı ilin maddi-texniki təminat layihələri

1. 2006-cı il 14 iyul tarixli "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Təmənnasız Hərbi Yardım haqqında Saziş"lə Türkiyə Respublikası tərəfindən Azərbaycan Respublikasına 3.400.000 (üç milyon dörd yüz min) Yeni Türk Lirəsi həcmində hərbi avadanlıq yardımı göstərilməsi planlaşdırılmışdır.

2. Bu vəsaitlə, Azərbaycan Respublikası Müdafiə Nazirliyinə aşağıdakı layihələr üçün avadanlıq yardımı göstəriləcəkdir:

a. Müdafiə Nazirliyinin komanda-nəzarət qabiliyyətinin artırılması üçün avadanlığın təmin edilməsi,

b. təlim keçirilən hərbi hissə və/və ya hərbi təhsil müəssisələri üçün avadanlığın təmin edilməsi.

Maddə 4

Ümumi əsaslar

1. Layihələrin həyata keçirilməsi üçün təmin ediləcək avadanlığın növü və miqdarını Tərəflər birgə müzakirə edərək müəyyənləşdirəcəklər.

2. Hərbi hissənin döyüş qabiliyyətinə bilavasitə təsir edən əsas avadanlıq Türkiyə Respublikası Baş Qərargahı tərəfindən Türkiyədən təmin ediləcəkdir.

3. Bu vəsaitlə, məcburi hallar istisna olmaqla, inşaat və təmir işləri aparılmayacaq və istehlak malları tədarük edilməyəcəkdir. Bu çərçivədəki fəaliyyətlər Azərbaycan Respublikası Müdafiə Nazirliyinin cavabdehliyindədir.

4. Türkiyə Respublikası Baş Qərargahı tərəfindən təmin ediləcək avadanlıq müəyyən-

ləşdirildikdən sonra Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə bildiriləcəkdir. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin səlahiyyətli orqanları öz təminat planlarını tərtib edəcəklər.

5. Təmin ediləcək avadanlıq aidiyyəti olan layihə üçün istifadə olunacaq, başqa məqsədlər üçün istifadə olunmayacaqdır. Təmin edilən istənilən növ silah və avadanlığın üçüncü bir ölkəyə, quruma və ya təşkilata ötürülməsi və avadanlığın xidmətdən kənara çıxarılması Türkiyə Respublikası Baş Qərargahının icazəsindən asılı olacaqdır.

6. Yardım çərçivəsində verilən avadanlığın Azərbaycan Respublikası gömrüyündən girişi ilə bağlı bütün prosedurların həyata keçirilməsində Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən lazımi yardım göstəriləcəkdir. Bu prosedurlar Türkiyə Respublikasına hər hansı bir maliyyə məsuliyyəti gətirməyəcəkdir.

7. Verilən avadanlığa qulluq, onun istismarı və saxlanılması Azərbaycan Respublikası Müdafiə Nazirliyinin cavabdehliyində olacaqdır.

Maddə 5

Mətn və imza

1. Bu Protokol 2006-cı il 14 iyul tarixli "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Təmənnasız Hərbi Yardım haqqında Saziş"ə istinadən hazırlanmışdır.

2. Bu Protokol, hər biri eyni qüvvəyə malik olmaqla, Azərbaycan, türk və ingilis dillərində iki nüsxədə hazırlanmışdır. Mətnlər arasında uyğunsuzluq olduğu halda ingilis dilində olan mətn əsas götürüləcəkdir.

3. Bu Protokol 2006-cı il 5 dekabr tarixində Ankara şəhərində imzalanmışdır və Tərəflərin öz hüquq qaydalarına uyğun olaraq təsdiqləndiyini bildirən notaların mübadilə edildiyi tarixdən qüvvəyə minəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRLİYİ ADINDAN	TÜRKİYƏ RESPUBLİKASININ BAŞ QƏRARGAHI ADINDAN
FAZİL AŞUMOV	*ZAFER ÇAMLƏCA*
General-mayor	*Diviziya generalı*
Silahlı Qüvvələrin Rabitə rəisi,	*Baş Qərargahın Maddi-Texniki*
Baş Qərargah rəisinin müavini	*Təminat İdarəsinin rəisi*

"Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Fizuli Həsən oğlu Ələkbərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının

əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Həsən oğlu Ələkbərova verilməsi barədə Moldova Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 fevral 2007-ci il

№1987

"Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında Ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında Ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Moldova Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 fevral 2007-ci il

№1988

"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Moldova Respublikasının Səhiyyə Nazirliyi arasında Səhiyyə və Tibb Elmi Sahəsində Əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Moldova Respublikasının Səhiyyə Nazirliyi arasında Səhiyyə və Tibb Elmi Sahəsində Əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının səhiyyə naziri Oqtay Kazım oğlu Şirəliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının səhiyyə naziri Oqtay Kazım oğlu Şirəliyevə verilməsi barədə Moldova Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 fevral 2007-ci il

№1989

"Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Moldova Respublikasının Maliyyə Nazirliyi arasında Dövlət Maliyyələşdirilməsi sahəsində Əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Moldova Respublikasının Maliyyə Nazirliyi arasında Dövlət Maliyyələşdirilməsi sahəsində Əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilməsi barədə Moldova Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 fevral 2007-ci il

№1990

"Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Moldova Respublikasının Milli Statistika Bürosu arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Moldova Respublikasının Milli Statistika Bürosu arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Arif Mikayıl oğlu Vəliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Arif Mikayıl oğlu Vəliyevə verilməsi barədə Moldova Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 fevral 2007-ci il

№1991

"Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Fərmandan irəli

gələn məsələləri öz səlahiyyətləri daxilində həll etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 fevral 2007-ci il

№532

Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamə

I. Ümumi müddəalar

1. Azərbaycan Respublikasının Konsulluğu (bundan sonra - Konsulluq) qəbul edən dövlətin ərazisindəki müvafiq konsul dairəsi hüdudlarında Azərbaycan Respublikası adından konsul funksiyalarını yerinə yetirən Azərbaycan Respublikasının dövlət orqanıdır. Konsulluq Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (bundan sonra - Nazirlik) rəhbərlik etdiyi diplomatik xidmət orqanlarının vahid sisteminə daxildir.

2. Konsulluqlar Azərbaycan Respublikasının baş konsulluqlarından, konsulluqlarından, vitse-konsulluqlarından, konsul agentliklərindən ibarətdir.

3. Konsulluqlar Azərbaycan Respublikası xarici işlər nazirinin təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsis edilir.

4. Konsulluqlar Azərbaycan Respublikasının qəbul edən dövlətdəki diplomatik nümayəndəliyinin (olduğu halda) başçısının ümumi siyasi rəhbərliyi altında fəaliyyət göstərir.

5. Konsulluq öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Konsulluq əlaqələri haqqında Vyana Konvensiyasını və Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər müvafiq beynəlxalq müqavilələri, eləcə də beynəlxalq hüququn digər tətbiq edilə bilən normalarını, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnaməni, Azərbaycan Respublikasının Konsul Nizamnaməsini, bu Əsasnaməni, Nazirliyin əmr, sərəncam və göstərişlərini rəhbər tutur və qəbul edən dövlətin qanunvericiliyini nəzərə alır.

6. Konsulluğun yeri, dərəcəsi və konsul dairəsi qəbul edən dövlətlə razılıq əsasında müəyyənləşdirilir.

7. Konsulluğun binasında və ya onun ərazisində, konsulluğun başçısının iqamətgahında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasının Dövlət bayrağı qaldırılır. Konsulluğun binasında və ya onun ərazisində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və Azərbaycan dilində və qəbul edən dövlətin dövlət dilində (dövlət dillərində) Konsulluğun adı olan lövhə vurulur. Konsulluğun başçısının nəqliyyat vasitəsi üzərində Azərbaycan Respublikasının Dövlət bayrağı yerləşdirilir. Azərbaycan Respublikasının dövlət rəmzləri qəbul edən dövlətin protokol təcrübəsi nəzərə alınaraq istifadə olunur.

8. Konsulluq, Konsulluğun işçiləri və onlarla birlikdə yaşayan ailə üzvləri qəbul edən dövlətdə beynəlxalq hüquq normalarına və qəbul edən dövlətin qanunvericiliyinə uy-

ğun olaraq immunitet və imtiyazlardan istifadə edir. Konsulluğun işçiləri və onlarla birlikdə yaşayan ailə üzvləri qəbul edən dövlətin qanunvericiliyinə, adət və ənənələrinə hörmət etməli, qəbul edən dövlətin daxili işlərinə qarışmaqdan və daxili işlərinə qarışmaq kimi təfsir oluna bilən hərəkətlərdən çəkinməlidir.

9. Konsulluq Nazirlik tərəfindən təsdiq edilmiş Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, ştamplara, blanklara və bank hesablarına malikdir.

10. Konsulluğun Azərbaycan Respublikasının mülkiyyəti olan torpaq sahələri, binaları, qurğuları və digər əmlakı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada Konsulluğa təhkim olunur.

11. Konsulluq ona təhkim olunmuş əmlak üzərində sahiblik, istifadə və sərəncam hüququnu Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada həyata keçirir.

12. Bu Əsasnamə fəxri (ştatdankənar) konsullara şamil edilmir.

II. Konsulluğun əsas vəzifələri

13. Konsulluğun əsas vəzifələri aşağıdakılardır:

13.1. Azərbaycan Respublikası ilə qəbul edən dövlət arasında dostluq münasibətlərinin inkişafına, iqtisadi, elmi-texniki, mədəniyyət, ticarət, idman, turizm və digər sahələrdə əlaqələrin genişlənməsinə yardım göstərmək;

13.2. qəbul edən dövlətdə Azərbaycan Respublikasının, onun vətəndaşlarının və hüquqi şəxslərinin hüquq və maraqlarını öz səlahiyyətləri daxilində müdafiə etmək;

13.3. qəbul edən dövlətdə Azərbaycan Respublikasının diplomatik və konsul əlaqələrini qanunvericiliklə nəzərdə tutulmuş qaydada həyata keçirmək;

13.4. qəbul edən dövlətə rəsmi nümayəndə heyətlərinin səfərlərinin hazırlanmasına və həyata keçirilməsinə öz səlahiyyətləri daxilində kömək etmək.

III. Konsulluğun funksiyaları

14. Konsulluq bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:

14.1. müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Prezidentini, Azərbaycan Respublikasının Nazirlər Kabinetini və Nazirliyi konsul dairəsi çərçivəsində qəbul edən dövlətin iqtisadi, elmi-texniki, mədəni, ticarət, idman, turizm və digər məsələləri üzrə məlumatlandırır;

14.2. konsul dairəsində Azərbaycan Respublikasının xarici və daxili siyasəti, ölkənin iqtisadi, sosial və mədəni həyatı haqqında rəsmi məlumatın yayılmasını təmin edir;

14.3. dövlət orqanlarına və zəruri hallarda Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına (ictimai birliklərinə və fondlarına) və işgüzar dairələrinin nümayəndələrinə həmin dövlətin qeyri-hökumət təşkilatları və işgüzar dairələrinin nümayəndələri ilə əlaqələr qurmasına öz səlahiyyətləri daxilində kömək göstərir;

14.4. qəbul edən dövlətdə yaşayan azərbaycanlılarla əlaqələrin qurulmasına və əməkdaşlığın inkişafına öz səlahiyyətləri daxilində yardım edir;

14.5. Azərbaycan Respublikasının qəbul edən dövlət ilə beynəlxalq müqavilələrinin layihələrinin hazırlanmasında öz səlahiyyətləri daxilində iştirak edir;

14.6. Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Nazirliyin tapşırıqlarını yerinə yetirir, həmçinin Azərbaycan Respublikasının digər dövlət hakimiyyəti orqanlarının Nazirliklə razılaşdırılmış müraciətlərinə baxır;

14.7. Azərbaycan Respublikasının yerli icra hakimiyyəti və özünüidarəetmə orqanlarının, idarə, təşkilat və müəssisələrinin müraciətlərinə baxır;

14.8. qəbul edən dövlətin əvvəlcədən razılığı olduğu təqdirdə, qəbul edən dövlətdə akkreditə olunmamış üçüncü dövlətin xahişi ilə həmin üçüncü dövlətin və onun vətəndaşlarının maraqlarını beynəlxalq razılaşmalar əsasında müdafiə edir;

14.9. öz səlahiyyətləri daxilində qəbul edən dövlətin qanunvericiliyinə riayət etməklə, Azərbaycan Respublikası vətəndaşlarına mülki, ailə və cinayət işlərinə dair hüquqi yardım göstərir;

14.10. qanunvericiliklə müəyyən olunmuş qaydada konsul dairəsində yaşayan Azərbaycan Respublikası vətəndaşlarının uçotunu aparır;

14.11. konsul dairəsində itkin düşmüş Azərbaycan Respublikası vətəndaşlarının axtarışı üzrə lazımi tədbirlər görür;

14.12. konsul dairəsində yaşayan və (və ya) müvəqqəti olan Azərbaycan Respublikası vətəndaşlarına seçki hüquqlarını həyata keçirmələrinə köməklik göstərir;

14.13. öz səlahiyyətləri daxilində notariat əməliyyatlarını, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını, vətəndaşlıq məsələləri üzrə funksiyalarını, sənədlərin leqallaşdırılması və digər arayışların verilməsi, vərəsəlik məsələləri, qəyyumluqla, himayəliklə və övladlığa götürülməklə bağlı tədbirləri qəbul edən dövlətin qanunvericiliyinə riayət etməklə yerinə yetirir;

14.14. Azərbaycan Respublikasının vətəndaşları özləri olmadıqda və öz işlərinin aparılmasını digər şəxsə tapşırmadıqda, yaxud başqa səbəblərə görə öz maraqlarını müdafiə edə bilmədikdə, qəbul edən dövlətin məhkəmə və digər dövlət hakimiyyəti orqanlarında qəbul edən dövlətin qanunvericiliyinə riayət etməklə onları müəyyən olunmuş qaydada təmsil edir və ya müvafiq təmsilçiliyini təşkil edir;

14.15. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq pasport-viza xidmətlərini həyata keçirir;

14.16. Azərbaycan Respublikasının qanunvericiliyinə və müəyyən olunmuş qaydaya uyğun olaraq Azərbaycan Respublikasının vətəndaşlarına pasport verir və onlara xüsusi qeydlər edir;

14.17. Azərbaycan Respublikasının qanunvericiliyinə və müəyyən olunmuş qaydaya uyğun olaraq konsul dairəsində yaşayan Azərbaycan Respublikası vətəndaşlarının şəxsiyyətini müəyyənləşdirir və onlara müvafiq sənədlər verir;

14.18. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasının vətəndaşlarına qayıdış şəhadətnaməsi verir;

14.19. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasına qayıtmaq üçün müvafiq sənəd verir;

14.20. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasına gəlmək istəyən şəxslərə viza və digər müvafiq sənədlər verir;

14.21. konsul dairəsində yerləşən və Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən dəniz və çay gəmiləri, Azərbaycan Respublikasının hərbi gəmiləri və köməkçi hərbi gəmiləri, Azərbaycan Respublikasında qeydiyyata alınmış hava gəmiləri və onların heyəti ilə bağlı qanunla müəyyən edilmiş funksiyaları həyata keçirir, belə gəmilərə və onların heyətinə qəbul edən dövlətin qanunvericiliyinə riayət etməklə yardım göstərir;

14.22. qəbul edən dövlətin razılığı ilə konsul dairəsində yerləşən Azərbaycan hərbi və mülki məzarlarının, qəbirüstü abidələrin, abidə nişanlarının və memorial (xatirə) tikililərin uçotu, mühafizəsi və abadlığı üzrə tədbirlər görür;

14.23. konsulluq əməliyyatları üçün alınan dövlət rüsumunu "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və müddətdə Azərbaycan Respublikasının dövlət büdcəsinə köçürülməsini təmin edir;

14.24. qəbul edən dövlətin qanunvericiliyi ilə qadağan olunmayan və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq digər funksiyaları həyata keçirir.

IV. Konsulluğun hüquqları

15. Konsulluq öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

15.1. öz səlahiyyətləri daxilində rəsmi nümayəndə heyətlərinin səfərlərinə dair Nazirliyə təkliflər vermək;

15.2. qəbul edən dövlətin dövlət və yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları (ictimai birlikləri və fondları), elmi, mədəni və işgüzar dairələri, kütləvi informasiya vasitələri, qəbul edən dövlətdə fəaliyyət göstərən diplomatik nümayəndəlik, konsulluq və beynəlxalq və regional təşkilatlar ilə işgüzar əlaqələr qurmaq və inkişaf etdirmək;

15.3. Konsulluğun səlahiyyətinə aid olan məsələlərin həll olunması üçün Azərbaycan Respublikasının dövlət orqanlarından, eləcə də yerli icra hakimiyyəti və özünüidarəetmə orqanlarından, idarə, təşkilat və müəssisələrindən müəyyən olunmuş qaydada sənədləri, məlumat və digər xarakterli materialları almaq;

15.4. öz səlahiyyətləri daxilində qəbul edən dövlətdə Azərbaycan Respublikasının

fəxri konsullarının təyin edilməsi barədə təkliflərini Nazirliyə təqdim etmək;

15.5. öz səlahiyyətləri daxilində konfranslar, görüşlər və digər tədbirlər təşkil etmək;

15.5-1. qanunvericilikdə nəzərdə tutulmuş müvafiq inzibati xətalar haqqında işlərə baxmaq; [1]

15.6. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

V. Konsulluğun fəaliyyətinin təşkili

16. Baş konsulluğa, konsulluğa, vitse-konsulluğa və konsul agentliyinə müvafiq olaraq baş konsul, konsul, vitse-konsul və konsul agenti başçılıq edir.

17. Baş konsul Azərbaycan Respublikası xarici işlər nazirinin təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən, konsul, vitse-konsul və konsul agenti Azərbaycan Respublikasının xarici işlər naziri tərəfindən təyin edilir və geri çağırılır.

18. Ali təhsilli və üzərinə qoyulmuş vəzifələri yerinə yetirmək üçün işgüzar, mənəvi, peşəkar keyfiyyətlərə və sağlamlıq vəziyyətinə malik olan Azərbaycan Respublikasının vətəndaşı Konsulluğun başçısı təyin edilə bilər.

19. Baş konsul təyin olunmuş şəxsin xaricdə fasiləsiz iş müddəti, bir qayda olaraq, dörd ildir. Bu müddət Azərbaycan Respublikasının Prezidenti tərəfindən uzadıla bilər.

Konsul, vitse-konsul və konsul agenti təyin olunmuş şəxsin xaricdə fasiləsiz iş müddəti, bir qayda olaraq, üç ildir. Bu müddət Azərbaycan Respublikasının xarici işlər naziri tərəfindən bir ildən artıq olmayan müddətə uzadıla bilər.

20. Konsulluğun başçısı və ya Konsulluğun digər işçiləri Azərbaycan Respublikasının və ya qəbul edən dövlətin qanunvericiliyinə görə məsuliyyət doğuran əməllər törətməkdə təqsirli bilindikdə, habelə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hallarda vaxtından əvvəl geri çağırıla bilərlər.

Konsulluğun başçısının və ya Konsulluğun digər işçilərinin vaxtından əvvəl geri çağırılmasına onlarla birlikdə yaşayan ailə üzvlərinin yuxarıda göstərilən əməllərin törədilməsində təqsirli bilinməsi də əsas ola bilər.

21. Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində konsulluq funksiyalarını diplomatik nümayəndəliyin rəhbəri tərəfindən müəyyən edilmiş nümayəndəliyin əməkdaşı həyata keçirir.

22. Konsulluğa qanunvericiliklə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının digər dövlət orqanlarının nümayəndələri ezam oluna bilərlər. Konsulluğa ezam olunmuş Azərbaycan Respublikasının digər dövlət orqanlarının nümayəndələri öz qərarlarını və hərəkətlərini Konsulluğun başçısı ilə razılaşdırmalıdırlar.

23. Konsulluğun başçısı konsulluğa həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi üçün şəxsən məsuliyyət daşıyır, göstəriş və tapşırıqların yerinə yetirilməsinə görə Nazirlik qarşısında hesabat verir.

24. Konsulluğun başçısı:

24.1. Konsulluğun fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

24.2. dövlət sirrinin və qanunla mühafizə edilən digər sirlərin qorunmasını öz səlahiyyətləri daxilində təşkil edir;

24.3. Konsulluğa ayrılan dövlət vəsaitinin səmərəli sərf olunması və maliyyə intizamına riayət olunması üzərində nəzarəti öz səlahiyyətləri daxilində həyata keçirir;

24.4. öz səlahiyyətləri daxilində Konsulluğun fəaliyyətinə dair icrası məcburi olan əmrlər, sərəncamlar, göstərişlər verir;

24.5. öz səlahiyyətləri daxilində Konsulluqda Azərbaycan Respublikasının normativ hüquqi aktlarının və Nazirliyin əmr, sərəncam və göstərişlərinin icrasını təşkil edir və onların yerinə yetirilməsi üzərində nəzarəti həyata keçirir;

24.6. Konsulluğun işçilərini lazımi iş şəraiti ilə təmin edir, müəyyən olunmuş qaydada Konsulluğun fəaliyyəti ilə bağlı Nazirliyə təkliflər verir;

24.7. Nazirliyin razılığı ilə xidməti ezamiyyətlərə gedir;

24.8. Konsulluğun xüsusi fərqlənmiş işçilərini Azərbaycan Respublikasının dövlət təltifləri ilə təltif edilməsi üçün, habelə Konsulluğun işçiləri barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Nazirliyə təqdimat verir;

24.9. Konsulluğun işçilərinin rütbədə və vəzifədə yüksəldilməsi, Konsulluğun işçilərinin xaricdəki iş müddətinin "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq uzadılması haqqında Nazirliyə müəyyən olunmuş qaydada təklif verir;

24.10. Konsulluğun işçilərinin məzuniyyətləri və ezamiyyətləri barədə əmrlər verir;

24.11. Konsulluğun ştatdankənar vəzifələrinə Nazirlik ilə razılaşdıraraq işə qəbul edir və işdən azad edir, ştatdankənar vəzifələrdə çalışan işçilərin məzuniyyətləri və ezamiyyətləri barədə əmrlər verir;

24.12. Konsulluğun işçilərinin və onlarla birlikdə yaşayan ailə üzvlərinin Azərbaycan Respublikasına və digər ölkələrə səfərləri ilə bağlı məsələləri öz səlahiyyətləri daxilində həll edir;

24.13. öz səlahiyyətləri daxilində Konsulluğun, onun işçilərinin və onlarla birlikdə yaşayan ailə üzvlərinin təhlükəsizliyinin təmin edilməsi üçün lazımi tədbirlər görür, fövqəladə vəziyyət şəraitində konsul dairəsi hüdudlarında Azərbaycan Respublikasının vətəndaşlarının hərəkətlərini Azərbaycan Respublikasının həmin dövlətdəki Səfirliyi ilə (olduğu halda) əlaqələndirməklə müəyyən olunmuş qaydada təşkil edir və onun üzərində rəhbərliyi öz səlahiyyətləri daxilində həyata keçirir;

24.14. beynəlxalq hüquqa və qəbul edən dövlətin qanunvericiliyinə görə Konsulluğa, onun işçilərinə və ailə üzvlərinə, konsul valizinə və onu daşıyan şəxslərə, həmçinin immunitet və imtiyazlara hüququ olan Azərbaycan Respublikasının digər vətəndaşlarına verilən immunitet və imtiyazların təmin olunması məqsədilə öz səlahiyyətləri daxilində lazımi tədbirlər görür;

24.15. Konsulluğun və konsul dairəsində yerləşən Azərbaycan Respublikasının digər qurumlarının heyətinə qəbul edən dövlətdə Azərbaycan Respublikasının maraqlarını layiqli təmsil etmələri, onun qanunvericiliyinə, adət və ənənələrinə hörmət etmələri üçün tövsiyələr verir;

24.16. qəbul edən dövlətlə danışıqlar aparır, beynəlxalq konfranslarda və görüşlərdə iştirak edir;

24.17. Azərbaycan Respublikasının dövlət orqanlarının nümayəndə heyətlərinin və mütəxəssis qruplarının qərarları və hərəkətləri Azərbaycan Respublikasının maraqlarına cavab vermədiyi halda Nazirliyə məlumat verir və Nazirlik bu məlumat əsasında həmin dövlət orqanlarının nümayəndə heyətlərinin və mütəxəssis qruplarının işinə vaxtından əvvəl xitam verilməsi məsələsi ilə bağlı həmin dövlət orqanları qarşısında məsələ qaldırır;

24.18. qəbul edən dövlətin qanunvericiliyini nəzərə almaqla Azərbaycan Respublikasının qanunvericiliyinə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, beynəlxalq hüququn digər tətbiq edilə bilən normalarına uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

25. Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi olmadığı və üçüncü dövlətin diplomatik nümayəndəliyi vasitəsilə təmsil olunmadığı bir dövlətdə Konsulluğun başçısına və (və ya) Konsulluğun digər işçilərinə qəbul edən dövlətin razılığı ilə onların konsul statusuna təsir göstərmədən diplomatik funksiyaların həyata keçirilməsi həvalə oluna bilər. Konsulluğun başçısı və (və ya) Konsulluğun digər işçiləri tərəfindən bu funksiyaların yerinə yetirilməsi onlara diplomatik imtiyaz və immunitetlərə iddia etmək hüququ vermir.

26. Konsulluğun başçısı vəzifəsi vakant olduqda və ya Konsulluğun başçısı öz vəzifəsini icra etmək iqtidarında olmadıqda, onun funksiyalarını müvəqqəti olaraq Azərbaycan Respublikasının xarici işlər naziri tərəfindən təyin olunan Konsulluğun başçısı vəzifəsini icra edən şəxs yerinə yetirir.

Konsulluğun başçısı vəzifəsini icra edən şəxsin adı Azərbaycan Respublikasının həmin ölkədəki Səfirliyi tərəfindən, Azərbaycan Respublikasının həmin ölkədə Səfirliyi olmadığı halda Konsulluğun başçısı tərəfindən, Konsulluğun başçısı bunu etmək iqtidarında olmadıqda isə Nazirlik tərəfindən qəbul edən dövlətin Xarici İşlər Nazirliyinə bildirilir.

27. Konsulluğun strukturu və ştat cədvəli Nazirlik tərəfindən təsdiq edilir.

28. Konsulluğun maddi-texniki təminatı Nazirlik tərəfindən həyata keçirilir.

29. Konsulluğun işçilərinin hüquq və vəzifələri Azərbaycan Respublikasının qanunvericiliyi, Nazirliyin normativ aktları və vəzifə təlimatları ilə müəyyən olunur. Konsulluq işçiləri Konsulluğun başçısına, Konsulluğun başçısı olmadığı halda isə Konsulluğun başçısı vəzifəsini icra edən şəxsə tabedirlər və onun əmr və göstərişlərini yerinə yetirməyə borcludurlar.

30. Konsulluğun işi müəyyən olunmuş qaydada Nazirlik tərəfindən təsdiq edilmiş illik iş planı əsasında təşkil olunur.

31. Konsulluq qəbul edən dövlətin ərazisində aparılan konsul əməliyyatları üçün Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq dövlət rüsumu tutur. Göstərilmiş əməliyyatların aparılması ilə başlı faktiki xərclər də ödənilməlidir.

32. Konsulluqda Azərbaycan Respublikasının və qəbul edən dövlətin qanunvericiliyinə uyğun olaraq ümumtəhsil məktəbi və məktəbəqədər müəssisə fəaliyyət göstərə bilər.

33. Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq, həmkarlar ittifaqı istisna olmaqla, Konsulluqda siyasi partiyaların, dini təşkilatların və qeyri-hökumət təşkilatlarının (ictimai birliklərin və fondların) bölmələri yaradıla bilməz.

Fərmana edilmiş dəyişiklik və əlavələrin siyahısı

[1] 6 fevral 2009-cu il tarixli 46 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ("Azərbaycan" qəzeti 10 fevral 2009-cu il, № 31, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №02, maddə 59) ilə "Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamə"yə yeni məzmunda 15.5-1-ci bənd əlavə edilmişdir.

2005-ci il noyabrın 25-də Moskva şəhərində imzalanmış "Məhsul və xidmətlərin keyfiyyəti sahəsində nailiyyətlərə görə Müstəqil Dövlətlər Birliyinin Mükafatına təqdimat müsabiqəsi barədə Qərar"ın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2005-ci il noyabrın 25-də Moskva şəhərində imzalanmış "Məhsul və xidmətlərin keyfiyyəti sahəsində nailiyyətlərə görə Müstəqil Dövlətlər Birliyinin Mükafatına təqdimat müsabiqəsi barədə Qərar" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 fevral 2007-ci il

№2005

"GUAM-ın iştirakçısı olan dövlətlərin Xarici İşlər Nazirlikləri arasında diplomatik nümayəndələrin hazırlanması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "GUAM-ın iştirakçısı olan dövlətlərin Xarici İşlər Nazirlikləri arasında diplomatik nümayəndələrin hazırlanması haqqında" 2006-cı il mayın 22-də Kiyev şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 mart 2007-ci il

№257-IIIQ

GUAM-ın iştirakçısı olan dövlətlərin Xarici İşlər Nazirlikləri arasında diplomatik nümayəndələrin hazırlanması haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Gürcüstanın Xarici İşlər Nazirliyi, Moldova Respublikasının Xarici İşlər Nazirliyi və Ukraynanın Xarici İşlər Nazirliyi,

ölkələri və xalqları arasında ənənəvi əməkdaşlıq və dostluq münasibətlərindən çıxış edərək, gələcək inkişafa meyilli olduqlarını qeyd edərək,

GUAM-ın iştirakçısı olan dövlətlər arasında çoxtərəfli qarşılıqlı münasibətlərin inkişafını yüksək qiymətləndirərək,

xarici münasibətlər sahəsində praktik təcrübə və elmi informasiya mübadiləsinin Tərəflər üçün səmərəli olduğunu nəzərə alaraq,

qarşılıqlı hörmət, inam əsasında və Tərəflərin maraqlarını nəzərə almaqla diplomatik əməkdaşların hazırlanmasında əməkdaşlığın vacib rolunu qəbul edərək,

milli və regional səviyyədə yuxarıda göstərilən sahələrdə əməkdaşlıq və əlaqə mexanizminin inkişafının vacibliyini təsdiq edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər Dövlətlərin diplomatik xidmətlərinin tələblərini rəhbər tutaraq, bu Saziş və ona Əlavə edilmiş Protokolda (bundan sonra - əlavə protokollar) müəyyən edilmiş şərtlərə müvafiq olaraq, Tərəflərin təhsil müəssisələrində diplomatik nümayəndələr (bundan sonra - dinləyicilər) hazırlanması məqsədilə razılaşdırılmış fəaliyyət həyata keçirəcəklər.

Maddə 2

Dinləyicilərin təhsili prosesi, dinləyicilərin hazırlıq səviyyəsi də nəzərə alınmaqla, Tərəflərin təhsil müəssisələrində qəbul edilmiş plan və proqramlar əsasında dövlət dilində keçiriləcəkdir.

Lazım gələrsə, təhsil planı və proqramı Tərəflər arasında razılaşdırılacaqdır.

Tərəflər dinləyicilərdən onların tədris müəssisəsindəki təhsili ilə əlaqədar olmayan və dinləyici kimi onların vəzifələrinə aid olmayan tapşırıqların yerinə yetirilməsini tələb etməyəcəklər.

Dinləyicilər təhsil planına müvafiq olaraq illik məzuniyyətə çıxacaqlar.

Maddə 3

Tərəflər arasında əlavə protokollar növbəti tədris ilinə (gün, ay) qədər imzalanmalıdır.

Protokollar imzalandığı gündən qüvvəyə minir və bu Sazişin ayrılmaz tərkib hissəsi hesab edilir.

Əlavə protokollarda qeyd olunur:

tədris müəssisələrinin adı;

tam tədris müddəti və qısamüddətli kurslardakı dinləyicilərin ayrı-ayrılıqda sayı;

ixtisas və təhsilin ixtisaslaşdırılması;

dinləyicilərin vəzifəsi, adı və soyadı, diplomatik rütbəsi və təhsil səviyyəsi;

mənzillə təmin olunma şərtləri;

təhsil müddəti;

xüsusi terminologiya da daxil olmaqla, dil kurslarının keçirilməsinin vacibliyi;

Tərəflərin maliyyə hesabatının şərtləri.

Maddə 4

Tədris müəssisəsinə gəldikdə dinləyicilərin üzərlərində aşağıdakı sənədlər olmalıdır:

tərcümeyi-hal;

sənədlərin əslinə uyğun surəti (ali təhsil haqqında);

xarici pasport;

iki ay müddətindən gec olmayaraq, sağlamlıq haqqında arayış;

QİÇS-in neqativ müayinəsi barədə sənəd;

təcili tibbi yardımın göstərilməsi üçün polis (sığorta vəsiqəsi);

doğum haqqında şəhadətnamənin əslinə uyğun surəti;

6 ədəd fotoşəkil (40x60 mm);

vətənə qayıtmaq üçün bir il müddətində açıq olan getmək və qayıtmaq bileti.

Əgər hər hansı bir dinləyici dərsin başlanmasından sonra 15 gün ərzində üzrlü səbəb olmadan tədris müəssisəsinə gəlmirsə, bu barədə dinləyicini göndərən Tərəfə məlumat verilir və dinləyici tədris müəssisəsindən xaric edilir.

Dinləyicilər getdiyi ölkənin qanunvericiliyinə riayət etməli, onun xalqının adət və ənənələrinə hörmətlə yanaşmalıdırlar.

Maddə 5

Dinləyiciləri qəbul edən Tərəf onları aşağıdakılarla təmin edir:

müəllim heyəti və köməkçi personalla;

dərsliklər, dərs vəsaitləri, laboratoriya və sinif avadanlıqları, həmçinin praktik dərslər üçün nəzərdə tutulmuş digər vasitələr, eləcə də tədris planı və proqramında nəzərdə tutulmuş tədris prosesində vacib olan digər avadanlıqlarla;

təhsil prosesində zəruri olan kitabxanalardan, oxucu zallarından, idman zalları və digər zallardan istifadə imkanı ilə;

müvafiq dərəcəli mütəxəssislər üçün nəzərdə tutulmuş normalara uyğun olaraq yaşayış yeri ilə (əgər əlavə protokolda başqa qayda nəzərdə tutulmayıbsa).

Maddə 6

Dinləyicini göndərən Tərəf onu aşağıdakılarla təmin edir:

dinləyicinin tədris müəssisəsinə vaxtında çatması, dinləyicilərin köçməsi, onların baqajının tədris yerinə və geri çatdırılması, həmçinin bilet və yol xərcləri ilə;

dinləyicilərin məzuniyyətə çıxma qaydalarının təyini, əlavə protokollarda müəyyən edilmiş müddətdə məzuniyyət yerinə dinləyicilərin çatdırılması və vaxtında geri qayıtması;

dinləyicilərə pul təminatının verilməsi (maaş, təqaüd).

Tədrislə bağlı olmayan bütün başqa hallarda yol xərcləri dinləyicilər tərəfindən ödənilir.

Dinləyici göndərən Tərəf öz dinləyicilərinin tədris müəssisəsində təhsil aldıqları müddətdə müəllimlərin bütün tövsiyələrini yerinə yetirmələrini təmin etmək üçün tədbirlər görür.

Maddə 7

Təhsil aldıqları müddətdə qanunu pozan dinləyicilər qaldıqları ölkənin mövcud qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

Yerləşdikləri ölkənin qanunvericiliyini pozan, ictimai və tədris müəssisəsinin daxili nizam-intizamına riayət etməyən, tədris proqramının tələblərini yerinə yetirməyən, həmçinin səhhəti ilə əlaqədar təhsilin davam etdirilməsi üçün yararsız sayılan dinləyicilərin sənədlərini onları qəbul edən Tərəf həmin dinləyicilərin tədris müəssisəsindən azad edilməsi və vətənə geri çağırışı barədə qərar qəbul etmək üçün dinləyiciləri göndərən Tərəfə təqdim edir.

Maddə 8

Dinləyiciləri qəbul edən Tərəf, Tərəflərin milli qanunvericiliyinə müvafiq olaraq, dinləyiciləri tibbi yardımla, zəruri hallarda isə onların xəstəxanaya yerləşdirilməsini təmin edir.

Maddə 9

Dinləyici qəbul edən Tərəfə çatdıqdan sonra ölərsə, təhsil almaq üçün göndərən Tərəf öz hesabına mərhumun vətənə göndərilməsi ilə bağlı tədbirlərin görülməsini təmin etməlidir.

Dinləyicini qəbul edən Tərəf göndərən Tərəfə dərhal onun ölümü haqda məlumat verir, ölümün səbəbi isə səlahiyyətli orqanlar tərəfindən müəyyən edilir. Qəbul edən Tərəf dinləyicini göndərən Tərəfə ölümlə bağlı sənədlərin surətini təqdim edir.

Maddə 10

Tədris proqramını mənimsəmiş, imtahandan keçmiş və diplom işini (layihə, tapşırıq) müdafiə etmiş dinləyicilərə öz ixtisasına müvafiq olaraq ixtisas dərəcəsi verilir, diplom və dövlət nümunəli döş nişanı təqdim edilir.

Qısamüddətli kursu bitirən dinləyiciyə şəhadətnamə verilir.

Maddə 11

Dinləyicilərin elmi və diplom işləri, magistrlik dissertasiyaları tədris müddətinin başa çatmasından sonra bir il müddətində, dinləyiciləri qəbul edən Tərəfin qanunvericiliyinə müvafiq olaraq, onları göndərən Tərəfə təqdim oluna bilər.

Maddə 12

Bu Sazişin həyata keçirilməsi üçün Tərəflər səlahiyyət verirlər:

a) Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi tərəfindən - Kadrlar və İxtisasartırma İdarəsinə;

b) Gürcüstan Xarici İşlər Nazirliyi tərəfindən - İnsan resurslarının idarə olunması üzrə departamentə;

c) Moldova Respublikası Xarici İşlər və Avropaya İnteqrasiya Nazirliyi tərəfindən - Kadrlar idarəsinə;

d) Ukrayna Xarici İşlər Nazirliyi tərəfindən - Kadrlar departamentinə.

Maddə 13

Bu Saziş imzalandığı tarixdən qüvvəyə minir. Lakin daxili qanunvericiliyi dövlətdaxili prosedurların həyata keçirilməsini tələb edən dövlətlərdə bu Saziş, Tərəfin onun qüvvəyə minməsi üçün lazım olan bütün dövlətdaxili prosedurları həyata keçirməsi barədə sonuncu yazılı bildirişin diplomatik kanallar vasitəsilə depozitari tərəfindən qəbul edildiyi tarixdən etibarən qüvvəyə minir.

Bu Sazişə Tərəflərin qarşılıqlı yazılı razılığı ilə dəyişikliklər və əlavələr edilə bilər. Bu dəyişikliklər və əlavələr ayrıca protokollarla rəsmiləşdirilir, Protokollar Sazişin ayrılmaz tərkib hissəsi sayılır və 13-cü maddədə göstərilən yolla qüvvəyə minir.

Bu Saziş qeyri-müəyyən müddətə bağlanır. Digər Tərəfləri ən azı altı ay əvvəl yazılı xəbərdarlıq etdikdən sonra hər hansı bir Tərəf bu Sazişin fəaliyyətini dayandıra bilər.

Sazişin fəaliyyəti dayandırıldığı halda onun müddəaları bu Saziş çərçivəsində hazırlıq keçən, hazırlıq proqramını və qısamüddətli kursu bitirməmiş dinləyicilərə tətbiq edilə-cəkdir.

2006-cı il mayın 22-də Kiyev şəhərində rus və ingilis dillərində olmaqla, bir əsl nüsxədə imzalanmışdır, hər iki mətn əsli ilə düzdür.

Bu Sazişin şərhi və müddəalarının tətbiqi zamanı fikir ayrılığı yaranarsa, o zaman ingilis dilində olan mətn tətbiq edilir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ TƏRƏFİNDƏN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

MOLDOVA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ TƏRƏFİNDƏN

VALERİU OSTALEP
Xarici işlər nazirinin müavini

GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRLİYİ TƏRƏFİNDƏN

GELA BEJUAŞVİLİ
Xarici işlər naziri

UKRAYNANIN XARİCİ İŞLƏR NAZİRLİYİ TƏRƏFİNDƏN

BORİS TARASYUK
Xarici işlər naziri

"Demokratiya və İqtisadi İnkişaf Təşkilatı - GUAMın Prosedur Qaydalarının, Katibliyinin Əsasnaməsinin və Maliyyə Əsasnaməsinin təsdiq olunması haqqında" Qərarın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Demokratiya və İqtisadi İnkişaf Təşkilatı - GUAM-ın Prosedur Qaydalarının, Katibliyinin Əsasnaməsinin və Maliyyə Əsasnaməsinin təsdiq olunması haqqında" 2006-cı il mayın 23-də Kiyev şəhərində imzalanmış Qərar təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 mart 2007-ci il

№258-IIIQ

Demokratiya və İqtisadi İnkişaf Təşkilatı - GUAM-ın Prosedur Qaydalarının, Katibliyinin Əsasnaməsinin və Maliyyə Əsasnaməsinin təsdiq olunması haqqında Qərar

Demokratiya və İqtisadi İnkişaf Təşkilatı - GUAM-ın Nazirlər Şurası Demokratiya və İqtisadi İnkişaf Təşkilatı - GUAM-ın Nizamnaməsini əldə rəhbər tutaraq təsdiq edir:

1. Demokratiya və İqtisadi İnkişaf Təşkilatı - GUAM-ın Maliyyə Əsasnaməsini;

2. Demokratiya və İqtisadi İnkişaf Təşkilatı - GUAM-ın Prosedur Qaydalarını;

3. Demokratiya və İqtisadi İnkişaf Təşkilatı - GUAM-ın Katibliyinin Əsasnaməsini.

2006-cı il mayın 23-də Kiyev şəhərində bir əsl nüsxədə rus dilində qəbul edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ TƏRƏFİNDƏN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

MOLDOVA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ TƏRƏFİNDƏN

VALERİU OSTALEP
Xarici işlər nazirinin müavini

GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRLİYİ TƏRƏFİNDƏN

GELA BEJUAŞVİLİ
Xarici işlər naziri

UKRAYNANIN XARİCİ İŞLƏR NAZİRLİYİ TƏRƏFİNDƏN

BORİS TARASYUK
Xarici işlər naziri

Demokratiya və İqtisadi İnkişaf Təşkilatı - GUAM-ın Maliyyə Əsasnaməsi

Maddə 1

Tətbiq

Bu maliyyə Əsasnaməsi GUAM - Demokratiya və İqtisadi İnkişaf Təşkilatının (bundan sonra GUAM adlandırılacaq) maliyyə vəsaitlərindən istifadə qaydalarını müəyyən edir.

Maddə 2

Şərh

1. "Büdcə" - GUAM-ın konkret məqsədlərinə çatmaq məqsədilə tərtib edilmiş illik maliyyə planıdır və maliyyə vəsaiti xərclər smetasından ibarətdir.

2. "Maliyyə vəsaiti" - üzv dövlətlərin ödəmələri və digər maliyyə gəlirlərindən əldə olunan vəsaitdir.

3. "Xərclər smetası" - GUAM-ın xərclərinin istiqamətlərini müəyyənləşdirən sənəddir.

4. "Maliyyə dövrü" yanvarın 1-də başlanıb dekabrın 31-də sona çatan təqvim ilinə bərabərdir.

Maddə 3

Büdcə

1. Büdcə layihəsi ABŞ dolları ilə tərtib edilir, bölmə və maddələrdən ibarət olur, müvafiq izahlı əlavələrlə və digər lazımi sənədlərlə müşayiət olunur.

2. Büdcə layihəsi Baş katib tərəfindən hazırlanır və növbəti maliyyə ilinin başlanmasından ən azı doqquz ay əvvəl üzv dövlətlərə paylanmalıdır.

3. Razılaşdırılmış büdcə layihəsi növbəti maliyyə dövrünün başlanmasından ən azı altı ay əvvəl XİNŞ-in təsdiqinə verilməlidir.

Maddə 4

Maliyyə vəsaiti

1. Üzv dövlətlərin ödəmələri GUAM Katibliyinin bank hesabına daxil olur.

2. Ümumi razılıq əsasında digər maliyyə gəlirləri GUAM Katibliyinin müvafiq hesabına/əlavə hesabına daxil edilir.

3. GUAM-ın büdcə vəsaiti Baş katibin təqdimatı ilə Şura tərəfindən müəyyən edilmiş bank və ya banklarda saxlanılır.

Maddə 5

Ödəmələr

1. GUAM-ın büdcəsinə üzv dövlətlərin ödəmələri ABŞ dolları ilə bərabər payda daxil edilir.

2. Büdcənin təsdiqindən sonra Baş katib üzv dövlətlərə ödəmələrin məbləği barədə məlumat verir.

3. Rəsmi xəbərdarlıq aldıqdan sonra GUAM-ın üzv dövlətlərinin ödəmələri tam şəkildə olmalıdır. Tərəflər məbləğin 50%-ni birinci kvartalın sonunadək, qalan hissəni isə cari maliyyə dövrünün sonunadək ödəyə bilərlər.

4. Baş katib XİNŞ-in növbəti iclasında üzvlük haqlarının ödənilməsi barədə hesabat təqdim edir.

5. GUAM-a yeni üzv olan hər bir dövlət cari maliyyə dövrü üçün nəzərdə tutulmuş ödəmə məbləğini GUAM-da üzv olacağı müddəti hesablamaqla GUAM-a daxil olduğu tarixdən ödəməlidir.

Maddə 6

Digər gəlirlər

1. Digər maliyyə gəlirləri üzv dövlətlərin qarşılıqlı razılığı ilə digər dövlətlər, təşkilatlar, fondlar, hüquqi və fiziki şəxslər tərəfindən təqdim olunan maliyyə gəlirləridir və GUAM-ın məqsədlərinə çatmaq üçün yönəldilir.

2. Digər maliyyə gəlirlərinə həmçinin GUAM-ın bank müəssisələrində yerləşən maliyyə vəsaitləri üzərinə gələn faizlər daxildir.

Maddə 7

Büdcədən istifadə

1. Təsdiq edilmiş büdcə öhdəliklərin götürülməsi və Baş katib tərəfindən təsdiq edilmiş məxaric smetasına əsasən ödəmələrin həyata keçirilməsi üçün vasitədir.

2. Büdcə vəsaitindən aid olduğu maliyyə dövrünün öhdəliklərini yerinə yetirmək üçün istifadə olunur.

3. Cari maliyyə dövrünün məxaric smetasına müvafiq şəkildə qəbul edilmiş və bu dövr ərzində yerinə yetirilməmiş maliyyə öhdəlikləri növbəti maliyyə dövrünün məxaric smetasına əlavə olunur.

4. Cari maliyyə dövrünün sonuna qədər məxaric smetasına müvafiq olaraq, istifadə olunmamış büdcə vəsaitindən Baş katibin təklifi ilə, üzv dövlətlərin ümumi razılığı əsasında, növbəti maliyyə dövründə istifadə edilir.

5. Təsdiq edilmiş büdcə çərçivəsi daxilində bir maddədən digərinə keçirilmə Baş katibin təqdimatı, cari maliyyə dövrü üçün yeni müəyyənləşdirilmiş məxaric smetasının təsdiqi yolu ilə XİNŞ-in qərarı əsasında baş verir.

6. Baş katib XİNŞ-in tapşırığı, yeni dövlətin GUAM-a daxil olması hallarında və ya digər müstəsna hallarda öz təşəbbüsü ilə büdcənin yenidən müzakirə edilməsi təklifini üzv dövlətlərin təsdiqinə təqdim edə bilər.

7. Büdcənin yenidən müzakirə edilməsi təklifi zəruri hesablama və əsaslara söykənməlidir, həmçinin qəbul edilmiş büdcənin strukturuna müvafiq olmalıdır.

Maddə 8

Daxili nəzarət

1. Baş katib GUAM-ın maliyyə fəaliyyətinə daim nəzarət etməlidir.

Bu məqsədlə o, aşağıdakıları icra etməlidir:

a. Səmərəli idarəetməni təmin edən və qənaət rejiminə riayət olunan lazımi maliyyə prosedurları və qaydalarını işləyib hazırlamalı, XİNŞ-in təsdiqinə verməlidir.

b. Təsdiqedici və digər zəruri sənədlər əsasında lazımi ödəmələrin həyata keçirilməsinə nəzarət etməlidir.

c. Mühasibat hesabını aparmaqda səriştəsi olan əməkdaşları təyin etməli, pul vəsaitini almalı və ödəmələri həyata keçirməlidir.

d. GUAM-ın maliyyə vəsaiti və aktivlərinin alınması, saxlanılması və xərclənməsinin düzgünlüyünü təmin etmək məqsədilə daxili maliyyə nəzarətini həyata keçirməlidir.

2. Daxil edilmiş təkliflərlə qiymətin təyin edilməsi, tenderin və başqa prosedurların keçirilməsi əsasında zəruri malların və xidmətlərin əldə edilməsi haqqında Qərar Baş katib tərəfindən qəbul olunur.

Maddə 9

Hesabat

1. Baş katib GUAM qarşısında fəaliyyətin maliyyə aspektlərinə cavabdehdir və onun maliyyə vəsaitinin bu Əsasnaməyə müvafiq olaraq səmərəli və lazımi şəkildə istifadə edilməsi haqda XİNŞ-ə hesabat verir.

2. Baş katib maliyyə fəaliyyətinin təmin edilməsi səlahiyyətini yazılı şəkildə beynəlxalq heyətin hər hansı bir əməkdaşına ötürə bilər.

3. Baş katib Şuraya cari maliyyə dövrünə aid kvartallıq və illik hesabat təqdim edir.

4. Baş katib cari maliyyə ili üçün GUAM-ın maliyyə fəaliyyəti haqqında hesabatı artıq hesabatı verilmiş maliyyə ilindən sonra fevralın 15-dən gec olmayaraq xarici auditorun müzakirəsinə təqdim etməlidir.

5. Hər hansı üzv dövlətin tələbi ilə Baş katib GUAM-ın maliyyə fəaliyyəti barədə istənilən əlavə məlumatı verir.

6. İllik hesabat auditorun müvafiq rəyi ilə birgə XİNŞ-in növbəti dəfə təsdiq etməsi üçün maliyyə hesabatı dövründən sonra gələn ilin mart ayının 31- nə qədər üzv dövlətlərin müzakirəsinə verilməlidir.

Maddə 10

Xarici audit

1. GUAM-ın maliyyə fəaliyyətinin yoxlanılması məqsədilə hesabatı verilmiş maliyyə dövrü üçün xarici audit həyata keçirilir.

2. Xarici audit növbəti maliyyə ili üçün GUAM-ın büdcəsinin təsdiqi barədə XİNŞ-in qərarı ilə təyin olunan, GUAM-a üzv olan ən azı üç dövlətin nümayəndələrindən təşkil olunmuş auditorlar qrupu tərəfindən həyata keçirilir.

3. Auditor qruplarının işinin maliyyə təminatı GUAM-ın büdcəsi hesabına öz nümayəndələrini bu qrupa göndərən üzv dövlətlər tərəfindən həyata keçirilir.

4. Xarici audit aşağıdakı məqsədlərlə həyata keçirilir:

a) GUAM-ın büdcəsinin lazımi istiqamətdə istifadəsinə nəzarəti həyata keçirmək;

b) maliyyə hesabatlarının GUAM-ın mühasibat kitabları və sənədləri ilə uyğunluğunu yoxlamaq;

c) maliyyə əməliyyatlarının müəyyən edilmiş qayda və prosedurlara uyğunluğunu təyin etmək;

d) GUAM-ın maliyyə fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələrin işlənib hazırlanması və təqdim olunması.

e) auditor xülasələrinin hazırlanması.

5. Auditor qrupları fəaliyyətlərini həyata keçirmək üçün lazım olan bütün mühasibat kitabları və sənədlərindən sərbəst istifadə hüququna malikdirlər.

6. Auditor qrupları əldə olunmuş xüsusi və məxfi xaraktеrə malik məlumatlardan yalnız xarici auditin həyata keçirilməsi üçün istifadə edirlər.

7. Auditor qrupları GUAM-ın maliyyə fəaliyyəti barədə aşağıdakı əsas elementlərə malik auditor xülasəsini tərtib edir və imzalayırlar:

a) auditin predmeti olan maliyyə sənədlərinin siyahısı;

b) auditor yoxlamasına tətbiq edilən standartlar;

c) görülmüş işlərin təsviri;

d) nəticə və tövsiyələr.

Maddə 11

Maliyyə ekspertləri

GUAM üçün əhəmiyyətli maliyyə nəticəsinə malik olan qərarları qəbul etməzdən əvvəl Şura GUAM-a üzv dövlətlərin maliyyə ekspertlərindən məsləhət xarakterli kömək tələb edir.

Maddə 12

Qüvvəyə minmə

Bu Maliyyə Əsasnaməsi XİNŞ tərəfindən təsdiq edildiyi gündən qüvvəyə minir.

Maddə 13

Əlavə və dəyişikliklər edilməsi

1. Bu Maliyyə Əsasnaməsinin şərhi və tətbiqi zamanı fikir ayrılığı olarsa, Baş katib dövlət üzvləri ilə məsləhətləşmədən sonra onları XİNŞ-in müzakirəsinə verir.

2. XİNŞ bu Maliyyə Əsasnaməsinə əlavə və dəyişikliklər edə bilər.

Demokratiya və İqtisadi İnkişaf Təşkilatı - GUAM-ın Prosedur Qaydaları

Bu prosedur qaydaları Demokratiya və İqtisadi İnkişaf Təşkilatı - GUAMın (bundan sonra GUAM adlandırılacaq) orqanlarının işini nizama salır.

Maddə 1

Şuranın növbəti iclası

1. GUAM-ın Nizamnaməsi Şura iclasının müntəzəm keçirilməsini və onun səlahiyyətini bütün səviyyələrdə müəyyənləşdirir.

2. Şuranın növbəti iclasının keçirilmə yeri və tarixi, bir qayda olaraq, hər bir iclasın sonunda müəyyən edilir. Əgər növbəti iclasın keçirilmə yeri və tarixi müəyyən edilməyibsə, bu, Katiblik vasitəsilə, sədrlik edən Tərəflə razılaşdırılır.

3. Dövlət Başçıları Şurasının (DBŞ) iclasının keçirilmə yeri və tarixi, bir qayda olaraq, 60 gün, Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) iclası 30 gün, Milli Əlaqələndirici Şurasının (MƏŞ) iclası isə 15 gün əvvəldən müəyyən edilir.

Daimi Nümayəndələr Şurasının (DNŞ) iclası isə zəruri hallarda keçirilir.

Maddə 2

Şuranın növbədənkənar iclası

1. Zəruri hallarda GUAM-a üzv bir və yaxud bir neçə dövlətin təklifi və konsensusu əsasında sədrlik edən Tərəf Katiblik vasitəsilə Şuranın növbədənkənar iclasını çağırır.

2. DBŞ-nin növbədənkənar iclasının keçirilmə yeri və tarixi, bir qayda olaraq, 30 gün, XİNŞ - 15 gün, MƏŞ - 10 gün əvvəl müəyyən edilir.

3. Növbədənkənar iclasın keçirilmə yeri və vaxtı haqqında məlumat üzv dövlətlərə Katiblik vasitəsilə göndərilir.

Maddə 3

İclasın gündəliyi

1. Sədrlik edən Tərəf Şuranın növbəti və növbədənkənar iclasının gündəliyinin layihəsini Şuranın qərarlarına müvafiq olaraq hazırlayır. Katiblik gündəliyi rəsmi şəkildə hazırlayır və onu üzv dövlətlərə göndərir.

2. Növbəti iclasın gündəliyinin layihəsinə dəyişikliklər etmək barədə təklif iclasın keçirilmə tarixindən ən azı beş 5 gün əvvəl sədrlik edən Tərəfə göndərilməlidir.

3. Şura iclasında gündəliyin layihəsinə baxış zamanı tərəflərdən hər biri ona yeni bəndin əlavə edilməsini təklif edə bilər.

4. Şura iclasının keçirilməsindən sonra 3 iş günü ərzində Katiblik üzv dövlətlərə bu Şurada qəbul edilmiş sənədləri göndərir.

Maddə 4

Sədrlik

1. GUAM-a sədrliyi GUAM Nizamnaməsinin 10-cu maddəsinə müvafiq olaraq Tərəflərdən biri edir.

2. Sədrliyin ötürülməsi DBŞ-nin növbəti iclasında həyata keçirilir.

Maddə 5

Sədrlik edən Tərəfin vəzifələri

1. Sədrlik edən Tərəfin iclasda vəzifələri aşağıdakılardır:

iclası açmaq, aparmaq və bağlamaq;

iclasın əvvəlində gündəliyin layihəsini və iş proqramını razılaşdırmaq və təsdiq edilmək üçün təqdim etmək;

çıxışların sırasını təyin etmək və çıxışçılara söz vermək;

Katiblikdən lazımi məlumatları almaq;

gündəlikdə nəzərdə tutulan təklif və sənəd layihələrini razılaşdırmaq və onları Şuranın təsdiqi üçün təqdim etmək.

2. Sədrlik edən Tərəfin təklifi ilə müvafiq orqan iclasa, növbəti dövrdə sədrlik edəcək digər Tərəfin nümayəndəsinin rəhbərlik etməsi barədə qərar qəbul edə bilər.

Maddə 6

İclas

1. Şuranın və GUAM-ın digər orqanlarının iclasında üzv dövlətlərin nümayəndələri iştirak edirlər.

2. Bütün Tərəflərin razılığı ilə iclasda başqa dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələri də iştirak edə bilərlər.

Maddə 7

Əməkdaşlıq münasibətləri və müşahidəçi statusu

1. Əməkdaşlıq münasibətlərinin qurulması və ya maraqlı dövlətlərə, beynəlxalq təşkilatlara GUAM-da müşahidəsi statusunun verilməsi barədə qərar GUAM Nizamnaməsinin 14-cü maddəsinə müvafiq olaraq DBŞ tərəfindən qəbul edilir.

2. Maraqlı dövlətlərin və beynəlxalq təşkilatların əməkdaşlıq münasibətlərinin qurulması və GUAM-da müşahidəçi statusunun verilməsi haqda müraciətlər sədrlik edən Tərəfə göndərilir.

3. Sədrlik edən Tərəf GUAM-ın üzv dövlətlərlə müvafiq məsləhətləşmələr apardıqdan sonra onların ümumi razılığı ilə bu məsələni Şuranın müzakirəsinə çıxarır.

Maddə 8

Tədbirlərdə iştirak xərcləri

GUAM-ın tədbirlərində üzv dövlətlərin nümayəndələrinin iştirakı ilə bağlı xərcləri bu nümayəndələri göndərən Tərəf ödəyir.

Maddə 9

Qüvvəyə minmə

Bu prosedur qaydaları və onların qüvvəyə minməsi XİNŞ-in qərarı ilə təsdiq edilir.

Maddə 10

Dəyişikliklər və əlavələr

XİNŞ-in qərarı ilə bu prosedur qaydalarına dəyişikliklər və əlavələr edilə bilər.

Demokratiya və İqtisadi İnkişaf Təşkilatı – GUAM-ın katibliyinin Əsasnaməsi

Maddə 1

Tətbiq sahəsi

Bu Əsasnamə GUAM-ın Katibliyinin (bundan sonra "Katiblik" adlandırılacaq) fəaliyyət qaydaları, həmçinin onun heyətinin təyin edilmə qaydalarını və prinsiplərini müəyyənləşdirir.

Maddə 2

Vəzifə və fəaliyyətlər

1. Katiblik öz fəaliyyətində GUAM-ın Nizamnaməsini, Prosedur Qaydalarını, Maliyyə Əsasnaməsini və bu Əsasnaməni rəhbər tutur.

2. Katibliyin vəzifəsi GUAM-ın fəaliyyətinin təşkilati-texniki cəhətdən təmin olunmasıdır.

3. Katibliyin fəaliyyətinə aşağıdakılar daxildir:

a) Şuranın qərarlarına və fəaliyyətdə olan Sədrin tapşırıqlarına əsasən GUAM-ın sənədlərinin layihələrini hazırlamaq və təqdim etmək;

b) GUAM dövlətlərindən qəbul edilmiş sənədlərin paylanmasını həyata keçirmək;

c) Katibliyin fəaliyyətinə aid yazışmalar aparmaq;

d) GUAM-ın arxiv işlərini həyata keçirmək və GUAM-ın İnternet səhifəsinə aid xidmətləri yerinə yetirmək;

e) GUAM-ın tədbirlərinə təşkilati-texniki cəhətdən dəstək vermək və bu tədbirlərdə iştirak etmək;

f) zəruri hallarda üzv dövlətlərə, həmçinin digər dövlət və təşkilatlara GUAM-ın fəaliyyəti haqqında məlumat vermək;

g) Şuraya öz fəaliyyəti haqqında ildə iki dəfə hesabat vermək;

h) GUAM əməkdaşlığı proqramları və layihələrinin işlənib hazırlanması və həyata keçirilməsinə yardım etmək;

i) GUAM-ın üzvü olan dövlətlər, əməkdaşlar, müşahidəçilər, Parlament Assambleyası və İşçi Şurası, həmçinin GUAM-ın tədbirlərində iştirak edən qeyri-hökumət təşkilatları ilə müvafiq məsləhətləşmələr aparmaq;

j) Şuranın tapşırığı ilə digər ölkələr və beynəlxalq təşkilatlarla dialoqlar aparmaq;

k) Şuranın tapşırığı ilə digər fəaliyyətləri həyata keçirmək.

4. Katiblik GUAM dövlətlərinin siyasi məsələlərinə müdaxilə etmir. Katiblik öz tapşı-

rıq və funksiyalarını yerinə yetirərkən GUAM dövlətləri ona təzyiq göstərmirlər.

5. Katibliyin fəaliyyəti, eləcə də beynəlxalq vəzifəli şəxslərin vəzifəyə təyin olunması, büdcənin təsdiqi, Katibliyin hesabatı ilə bağlı bütün məsələlər haqqında Qərar XİNŞ tərəfindən qəbul olunur.

6. Katibliyin Şuranın üzvləri ilə məktublaşması, Təşkilatın fəaliyyəti ilə əlaqədar korrespondensiyaların və digər materialların göndərilməsi GUAM dövlətlərinin daimi nümayəndələri tərəfindən həyata keçirilir.

Maddə 3

Katibliyin heyəti

1. Katibliyin heyəti beynəlxalq vəzifəli şəxslər və inzibati-texniki işçilərdən ibarətdir.

2. Beynəlxalq vəzifəli şəxslərə Baş katib və üç proqram koordinatoru daxildir.

Baş katib və proqram koordinatorları rotasiya üsulu ilə müvafiq olaraq dördillik və üçillik müddətə təyin edilirlər.

3. Baş katib olmadığı zaman onun funksiyasını müvəqqəti olaraq Baş katib tərəfindən müəyyən edilmiş proqram koordinatorlarından biri yerinə yetirir.

4. Katibliyin Baş katib tərəfindən təyin olunan inzibati-texniki işçilərinə katib-referent, informasiya texnologiyaları üzrə mütəxəssis - internet səhifələrinin inzibatçısı, mühasib, sürücü-intendant aiddir.

Maddə 4

Vəzifələr

1. Beynəlxalq vəzifəli şəxslər GUAM-ın məqsədlərinə çatmaq tələbatına uyğun fəaliyyət göstərirlər.

2. Beynəlxalq vəzifəli şəxslər öz işlərini Baş katibin rəhbərliyi altında görürlər və ona öz vəzifələrinin yerinə yetirilməsi barədə hesabat verirlər.

GUAM dövlətlərindən hər biri bu vəzifələrin beynəlxalq statusuna hörmətlə yanaşmalı və vəzifə başında olan Katiblik nümayəndəsinə təsir etməməlidir.

3. Öz dövlətləri tərəfindən təyin edilən beynəlxalq vəzifəli şəxslərin fəaliyyətləri heç bir vəchlə təyinat müddətinin başa çatmasından sonra öz ölkələrində onların professional statusu və karyerasına mənfi təsir göstərməməlidir.

4. Katibliyin heyəti iş gününün sonunadək Baş katibin səlahiyyətindədir.

Baş katib bir həftədəki iş günlərinin sayını və bir gündəki iş saatlarının miqdarını təyin edir. Bir qayda olaraq, işçilər üçün iş həftəsi hər gün səkkiz saatlıq iş rejimi olmaqla, bazar ertəsindən cümə gününə qədər - beş iş günündən ibarət olmalıdır. Zərurət yaranarsa, Baş katib əməkdaşları əlavə gün/saatda işə cəlb edə bilər.

Maddə 5

Vəzifələrin bölüşdürülməsi

1. Katibliyin işinin səmərəli şəkildə yerinə yetirilməsi üçün Baş katib heyətin vəzifələ-

rini əməkdaşların təhsilini, bacarığını və digər cəhətlərini nəzərə almaqla bölüşdürə və yenidən paylaşdıra bilər.

2. Şuranın qərarı ilə yeni vəzifələr təyin edilə və köhnə vəzifələr ləğv edilə bilər. Vəzifənin ləğv edilməsi yalnız bu vəzifədə çalışan beynəlxalq vəzifəli şəxsin təyinat müddətinin başa çatmasından sonra həyata keçirilə bilər.

Maddə 6

Beynəlxalq heyətin vəzifə borcları

1. Baş katib 2-ci maddədə nəzərdə tutulduğu kimi, Katibliyin funksiya və vəzifələrinin yerinə yetirilməsinə cavabdeh olan əsas inzibati işçidir.

2. Baş katibin vəzifələrinə həmçinin aşağıdakılar daxildir:

a. Katibliyin əməkdaşlarının vəzifələrini bölüşdürmək və bu vəzifələrin yerinə yetirilməsinə nəzarət etmək;

b. təsdiq olunmuş büdcə çərçivəsində Katibliyin maliyyə-təsərrüfat fəaliyyəti, vasitələrin və digər mülkiyyətlərin operativ idarə olunmasına nəzarəti həyata keçirmək;

c. bu fəaliyyət haqqında Şuraya hesabat vermək;

3. Proqram koordinatorları Katibliyin vəzifələrinin bölüşdürülməsinə müvafiq olaraq GUAM-ın fəaliyyətinin istiqamətinə nəzarət edirlər.

4. Baş katib və digər beynəlxalq işçilər Şuranın iclaslarında səsvermə hüququ olmadan iştirak edirlər.

Maddə 7

Təyinat

1. Katiblikdə vəzifəyə namizədlər yalnız GUAM dövlətlərinin vətəndaşları olmalıdırlar.

2. Beynəlxalq heyətin nümayəndəsi vəzifəsinə təyin edərkən namizədin peşəkarlığı, rotasiya prinsipi əsasında Katiblikdə ölkələrin ədalətli şəkildə təmsil olunması prinsiplərı nəzərə alınmalıdır.

3. Beynəlxalq vəzifəli şəxsləri Katiblikdə vəzifəyə təyin edərkən aşağıdakı prosedur tətbiq olunur:

a. Katiblik müvafiq heyət üzvünün təyin edilməsi müddətinin bitməsinə ən azı on iki ay əvvəl vakansiya haqqında məlumat verir.

b. GUAM dövlətlərinin öz nümayəndələrini irəli sürməsi barədə xəbərdarlıq məktubunu Katiblik GUAM dövlətləri arasında yayır.

c. Namizədlərin təyinatı barədə Qərar XİNŞ tərəfindən qəbul edilir.

4. İnzibati-texniki heyətin nümayəndəsinin vəzifəyə təyin edilməsi zamanı aşağıdakı prosedur tətbiq olunur:

a. Baş katib vakansiyanın doldurulması barədə müsabiqə barədə məlumat verir;

b. Namizəd müvafiq sənədi doldurur və onu Katibliyə təqdim edir.

c. Bütün namizədlərin keyfiyyət və təcrübələrini qiymətləndirərək, Baş katib beynəlxalq heyətlə məsləhətləşmələr aparır və müvafiq işçinin işə təyin edilməsi haqqında qərar qəbul edir, onunla iki il müddətinə müqavilə bağlayır.

Müqavilənin müddəti bitdikdən sonra o, daha iki il müddətinə uzadıla bilər.

Maddə 8

Maliyyələşmə

Katibliyin və heyətin fəaliyyətinin maliyyələşdirilməsi GUAM-ın Maliyyə haqqında qanunları əsasında təsdiq edilmiş məxaric smetası və donor gəlirlərinə müvafiq olaraq, büdcə vəsaitləri hesabına həyata keçirilir.

Maddə 9

Akkreditasiya. İmtiyaz və toxunulmazlıq hüququ

1. Ukrayna, Katiblik və onun əməkdaşlarını - Ukrayna Xarici İşlər Nazirliyindəki Ukrayna vətəndaşı olmayanları akkreditasiya ilə təmin edir və onun həyata keçirilməsi üçün lazım olan imtiyaz və toxunulmazlıq hüququnu katibliyə verir, bu, adətən beynəlxalq təşkilatların Ukraynadakı nümayəndəliklərinə təqdim olunur. Bu imtiyaz və toxunulmazlıq hüququnun həcmi ayrıca beynəlxalq müqavilə ilə müəyyən olunur.

2. Katiblik müstəqil balansa, bank idarələrində hesaba və möhürə malikdir.

Maddə 10

Katibliyin yerləşdirilməsi

Ukrayna ayrıca beynəlxalq müqavilələrə müvafiq olaraq, Katibliyin büdcə vəsaitləri hesabına Kiyev şəhərində Katibliyi lazımi yerlə təmin edir.

Maddə 11

Katibliyin əsasnaməsi, həmçinin ona edilən əlavə və dəyişikliklər XİNŞ tərəfindən təsdiq edilir.

Azərbaycan Respublikası Hökuməti ilə Yunanıstan Respublikası Hökuməti arasında iqtisadi, sənaye və texnoloji sahələrdə əməkdaşlıq üzrə birgə komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Hökuməti ilə Yunanıstan Respublikası Hökuməti arasında iqtisadi, sənaye və texnoloji sahələrdə əməkdaşlıq üzrə birgə komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi aşağıdakı heyətdə təsdiq edilsin: [1]

Komissiyanın həmsədri

Natiq Əliyev - Azərbaycan Respublikasının sənaye və energetika naziri

Komissiyanın üzvləri:

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

İsgəndər İsgəndərov	- Azərbaycan Respublikası təhsil nazirinin müavini
Musa Pənahov	- Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini
Teymur Mehdiyev	- Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinin müavini
Bəhram Əliyev	- Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini
Gülməmməd Cavadov	- Azərbaycan Respublikası sənaye və energetika nazirinin müavini
İltimas Məmmədov	- Azərbaycan Respublikası rabitə və informasiya texnologiyaları nazirinin müavini
Sənan Kərimov	- Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Səfər Mehdiyev	- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini
Vadim Xubanov	- Azərbaycan Respublikası Milli Bankının İdarə Heyəti sədrinin müavini
Rəfael Rəhmanov	- Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi rəisinin birinci müavini
Mir-Həmzə Əfəndiyev	- Azərbaycan Respublikasının Yunanıstan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri
İlqar İsayev	- Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Sosial təyinatlı layihələrin maliyyəsi şöbəsinin müdiri

2. "Azərbaycan Respublikası Hökuməti ilə Yunanıstan Respublikası Hökuməti arasında iqtisadi, sənaye və texnoloji sahələrdə əməkdaşlıq üzrə birgə komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 7 aprel tarixli 1192 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 4, maddə 183; 2005-ci il, № 10, maddə 968) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası Hökuməti ilə Yunanıstan Respublikası Hökuməti arasında iqtisadi,sənaye və texnoloji sahələrdə əməkdaşlıq üzrə birgə komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi barədə Yunanıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 mart 2007-ci il

№2015

Sərəncama edilmiş dəyişiklik və əlavələrin siyahısı

[1] 27 noyabr 2008-ci il tarixli 72 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ("Azərbaycan" qəzeti 28 noyabr 2008-ci il, № 267, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 11, maddə 1030) ilə 1-ci bəndində "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Natiq Əliyev - Azərbaycan Respublikasının sənaye və energetika naziri" sözləri ilə əvəz edilmişdir, "Gülməmməd Cavadov - Azərbaycan Respublikası sənaye və energetika nazirinin müavini" sözləri çıxarılmışdır, "Ülvi Seyidzadə - Azərbaycan Respublikası Maliyyə Nazirliyinin beynəlxalq əlaqələr şöbəsinin müdiri" sözləri "İlqar İsayev - Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Sosial təyinatlı layihələrin maliyyəsi şöbəsinin müdiri" sözləri ilə əvəz edilmişdir.

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

Komissiyanın həmsədri

Abid Şərifov	- Azərbaycan Respublikası Baş nazirinin müavini

Komissiyanın üzvləri:

Yavər Camalov	- Azərbaycan Respublikasının müdafiə sənayesi naziri
Natiq Əliyev	- Azərbaycan Respublikasının sənaye və energetika naziri
Ziya Məmmədov	- Azərbaycan Respublikasının nəqliyyat naziri
İsmət Abasov	- Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri
Əbülfəs Qarayev	- Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri
Misir Mərdanov	- Azərbaycan Respublikasının təhsil naziri
Əli Abbasov	- Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri
Azad Rəhimov	- Azərbaycan Respublikasının gənclər və idman naziri
Ələvsət Baxşiyev	- Naxçıvan Muxtar Respublikasının Baş naziri
Elman Rüstəmov	- Azərbaycan Respublikası Milli Bankının İdarə Heyətinin sədri
İlqar Fətizadə	- Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini
Niyazi Səfərov	- Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini
Xələf Xələfov	- Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Natiq Qasımov	- Azərbaycan Respublikası vergilər nazirinin müavini

Aydın Əliyev	- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri
Nazim İbrahimov	- Azərbaycan Respublikası Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri
Zakir Həşimov	- Azərbaycan Respublikasının Türkiyə Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri
Ağadayı Ağayev	- Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının xarici iqtisadi əlaqələr şöbəsinin müdiri (məsul katib)
Süleyman Tatlıyev	- Azərbaycan Respublikası Ticarət və Sənaye Palatasının prezidenti

2. "Türkiyə Respublikası ilə iqtisadi əməkdaşlıq məsələləri üzrə Azərbaycan Respublikasının daimi fəaliyyət göstərəcək hökumətlərarası Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 12 aprel tarixli 295 nömrəli Sərəncamının 2-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi barədə Türkiyə Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 mart 2007-ci il

№2016

2006-cı il fevralın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İsveçrə Federal Şurası adından çıxış edən Federal Xarici İşlər Departamenti arasında miqrasiya üzrə Birgə Bəyanat"ın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2006-cı il fevralın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İsveçrə Federal Şurası adından çıxış edən Federal Xarici İşlər Departamenti arasında miqrasiya üzrə Birgə Bəyanat" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci bəndində göstərilən Birgə Bəyanatın həyata keçirilməsi üçün zəruri olan tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 mart 2007-ci il

№2033

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İsveçrənin Federal Şurası adından çıxış edən Federal Xarici İşlər Departamenti arasında miqrasiya üzrə Birgə Bəyanat

23 fevral 2006-cı il tarixində Bakıya edilən rəsmi səfər zamanı İsveçrənin federal xarici işlər naziri, xanım Mişelin Kalmi-Reyin başçılıq etdiyi İsveçrə nümayəndə heyəti və Azərbaycan Respublikasının xarici işlər naziri cənab Elmar Məmmədyarovun başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti miqrasiyaya aid olan məsələlər də daxil olmaqla, siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi imkanlarını müzakirə etdilər.

Bu müzakirələr nümayəndə heyətləri arasında müxtəlif miqrasiya məsələlərinə dair səmimi və konstruktiv fikir mübadiləsinə və ümumi maraqların müəyyən edilməsinə imkan verən müsbət mühitdə keçirilmişdir. Hər iki nümayəndə heyəti bu sahədə iki ölkə arasında əməkdaşlığın dərinləşməsinin vacibliyini xüsusi vurğuladılar.

İmza edən hər iki Tərəf öz hökumətlərinin müvafiq rəsmi orqanlarına müraciət etdilər. Onlar qeyri-qanuni miqrasiya ilə bağlı məlumat mübadiləsinin aparılmasını, ölkə daxilində qeyri-qanuni qalan vətəndaşların aşkar edilməsi və readmissiyasının texniki aspektləri üzrə inzibati və əməli əməkdaşlığın daha da inkişaf etdirilməsini, Claster Prosesi çərçivəsində müəyyən edilmiş birgə məqsədlərə doğru dialoqun və tərəfdaşlığın gücləndirilməsini arzulayırlar.

Hər iki Tərəf həmçinin miqrasiyaya aid olan əməkdaşlığın mümkün sahələrini müəyyən etmək və miqrasiya sahəsində birgə fəaliyyət üzrə möhkəm və daimi əsasın qurulması üçün Readmissiya Sazişi üzrə danışıqlara başlamaq niyyətində olduqlarını bildirdi.

Səfər zamanı iki ölkə arasında Miqrasiyaya dair bu Bəyanatla birgə, Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya, Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş, Azərbaycan Respublikası Hökuməti və İsveçrə Konfederasiyası Hökuməti arasında texniki, maliyyə və humanitar əməkdaşlıq haqqında Saziş imzalanmışdır.

Hər iki Tərəf müzakirələrin uğurlu nəticəsinə və iki ölkə arasında dostluq və əməkdaşlıq əlaqələrinin güclənməsinə kömək edən Azərbaycan Respublikası və İsveçrə arasındakı əlaqələrin mükəmməlliyinə görə məmnunluqlarını ifadə etdilər.

Bakıda 2006-cı il fevral ayının 23-də iki əsl nüsxədə Azərbaycan, alman və ingilis dillərində imzalanmışdır, hər üç mətn autentiktir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ TƏRƏFİNDƏN	İSVEÇRƏNİN FEDERAL ŞURASI ADINDAN ÇIXIŞ EDƏN FEDERAL XARİCİ İŞLƏR DEPARTAMENTİ TƏRƏFİNDƏN
ELMAR MƏMMƏDYAROV	*MİŞELİN KALMİ-REY*
Xarici işlər naziri	*Federal xarici işlər naziri*

2006-cı il martın 27-də Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Rusiya Federasiyasının Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması üzrə Nazirliyi arasında əməkdaşlığın fəallaşdırılması haqqında Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2006-cı il martın 27-də Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Rusiya Federasiyasının Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması üzrə Nazirliyi arasında əməkdaşlığın fəallaşdırılması haqqında Protokol" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 mart 2007-ci il

№2034

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Rusiya Federasiyasının Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması üzrə Nazirliyi arasında əməkdaşlığın fəallaşdırılması haqqında Protokol

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi (bundan sonra - Azərbaycan FHN) və Rusiya Federasiyasının Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması üzrə Nazirliyi (bundan sonra - Rusiya FHN) 9 yanvar 2001-ci il tarixli, Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında təbii və texnogen xarakterli fövqəladə hallar, onların nəticələrinin aradan qaldırılması və xəbərdarlıq sahəsində əməkdaşlıq haqqında Sazişin həyata keçirilməsi üzrə səlahiyyətli orqanlar olaraq, təbii və texnogen xarakterli fövqəladə hallar və onların nəticələrinin aradan qaldırılmasına dair xəbərdarlıq məsələlərində ikitərəfli əməkdaşlığın genişləndirilməsi üçün maraqlı olduqlarını təsdiq edir və aşağıdakı niyyətlərini bildirirlər:

1. Təbii fəlakətlər və sənaye qəzaları və onların nəticələrinin aradan qaldırılması, göstərilən sahədə təşəbbüs irəli sürmək və birgə tədbirlər planlaşdırma məsələləri üzrə Azərbaycan və Rusiyanın əməkdaşlığını fəallaşdırmaq.

2. Azərbaycan FHN və Rusiya FHN-nin mütəmadi olaraq fövqəladə hallarda xəbərdarlıq və onların aradan qaldırılmasında qarşılıqlı yardım üzrə səylərini əlaqələndirmək, habelə, zərurət yarandıqda, o cümlədən üçüncü ölkələrin, maraqlı olduqda belə, göstərilən sahədə layihələrinin hazırlanması və həyata keçirilməsini yerinə yetirmək.

3. Azərbaycan və Rusiyanın xilasetmə və yanğınsöndürmə xidmətlərinin müvafiq avadanlıq, texnika və ləvazimat, qabaqcıl texnologiyaların tətbiqi ilə təchiz edilməsi sahəsində birgə fəaliyyət təşkil etmək.

4. Müntəzəm olaraq birgə seminarların, həmçinin Azərbaycan və Rusiyanın xilasetmə və yanğınsöndürmə xidmətlərinə təlimlərin keçilməsi.

5. Fövqəladə hallara dair xəbərdarlıq və onların aradan qaldırılması sahəsində normativ hüquqi aktların hazırlanması üzrə əməkdaşlığın həyata keçirilməsi.

6. Müntəzəm olaraq əhalinin və ərazilərin, həmçinin sərhədyanı ərazilərin təbii fəlakət, texnogen qəza və yanğınlardan mühafizəsi sahəsində təcrübə mübadiləsi məqsədilə görüşlər və geniş məsləhətləşmələr keçirmək, o cümlədən fövqəladə hallara münasibət məsələlərinə vahid yanaşmanın hazırlanması.

7. Azərbaycan FHN-nin kadrlarının hazırlığının artırılması və yenidən hazırlanması imkanları haqqında məsələləri Rusiya FHN-nin ali təhsil müəssisələrində hər iki tərəfə münasib şəraitdə öyrənmək.

8. Fövqəladə hallar və müvafiq beynəlxalq təşkilatlar üzrə Dövlətlərarası Şura çərçivəsində qarşılıqlı fəaliyyəti həyata keçirmək.

9. Azərbaycan FHN və Rusiya FHN-nin informasiya-idarəetmə mərkəzləri və əməliyyat xidmətləri arasında birbaşa əlaqələr yaratmaq.

10. Azərbaycan FHN və Rusiya FHN-nin müvafiq orqanlarına (regional mərkəzlərinə) fövqəladə halların aradan qaldırılması və xəbərdarlıq sahəsində sərhədyanı əməkdaşlığı inkişaf etdirməyi tapşırmaq.

Bu Protokol imzalandığı gündən qüvvəyə minir.

Bu Protokol 27 mart 2006-cı il tarixində Moskva şəhərində, iki əsl nüsxədə, Azərbaycan və rus dillərində imzalanmışdır və hər iki mətn autentikdir. Bu Protokolun müddəalarının şərhində fikir ayrılığı yarandıqda, rus dilində olan mətn tətbiq ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ ADINDAN	RUSİYA FEDERASİYASININ FÖVQƏLADƏ HALLAR VƏ TƏBİİ FƏLAKƏTLƏRİN NƏTİCƏLƏRİNİN QALDIRMASI ÜZRƏ NAZİRLİYİ ADINDAN
KƏMALƏDDİN HEYDƏROV	*SERGEY ŞOYQU*

2006-cı il aprelin 3-də Buenos Ayres şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Argentina Respublikasının Xarici İşlər, Beynəlxalq Ticarət və Etiqad Nazirliyi arasında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2006-cı il aprelin 3-də Buenos Ayres şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Argentina Respublikasının Xarici İşlər, Beynəlxalq Ticarət və Etiqad Nazirliyi arasında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsi üçün zəruri

tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 mart 2007-ci il

№2035

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Argentina Respublikasının Xarici İşlər, Beynəlxalq Ticarət və Etiqad Nazirliyi arasında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Argentina Respublikasının Xarici İşlər, Beynəlxalq Ticarət və Etiqad Nazirliyi,

iki ölkə arasında dostluq münasibətlərinin və qarşılıqlı anlaşmanın inkişafına töhfə verməyi arzu edərək,

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin və beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsiplərinə bağlı olduqlarını xatırlayaraq,

ikitərəfli əməkdaşlığa və qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlərə dair dialoqu inkişaf etdirmək niyyətlərini yenidən təsdiq edərək,

hər iki Nazirlik arasında davamlı əməkdaşlığın və müxtəlif səviyyələrdə dialoqun əhəmiyyətini etiraf edərək,

aşağıdakı məsələlər üzrə siyasi məsləhətləşmələr sisteminin yaradılmasına dair razılığa gəldilər:

Maddə 1

a) siyasi və iqtisadi əməkdaşlığın genişlənməsi və dərinləşməsi və ikitərəfli sazişlərə nail olunması;

b) qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə əməkdaşlığın müqavilə-hüquq bazasının təkmilləşdirilməsi;

c) Birləşmiş Millətlər Təşkilatında və digər beynəlxalq təşkilatlarda iki ölkə arasında əməkdaşlıq;

d) qarşılıqlı maraq doğuran və ikitərəfli əməkdaşlığın təşviq edilməsi ilə bağlı olan digər məsələlər.

Maddə 2

Tərəflər hər iki ölkənin tədqiqat institutları arasında beynəlxalq münasibətlərlə bağlı məlumat mübadiləsinə yardım edəcəklər və mədəni və akademik əməkdaşlığı, arxiv materiallarının və ikitərəfli münasibətlərə dair digər sənədlərin mübadiləsini həvəsləndirəcəklər, həmçinin özlərinin diplomatik akademiyaları arasında əməkdaşlığı dəstəkləyəcəklər.

Maddə 3

Tərəflər beynəlxalq təşkilatlar yanındakı nümayəndəlikləri arasında məsləhətləşmələrin

keçirilməsini, həmçinin hər iki Nazirliyin rəsmilərinin səfərlərinin mübadiləsini həvəsləndirəcəklər. Səfərlərin tarixləri və digər detalları lazımi qaydada diplomatik kanallar vasitəsilə həyata keçirilən notalar mübadiləsi vasitəsilə təsdiq olunacaqdır.

Maddə 4

Tərəflər öz səfərlərinin xərclərini ödəyəcəklər.

Maddə 5

1. Bu Anlaşma Memorandumu imzalandığı andan qüvvəyə minir və qeyri- müəyyən müddətə qüvvədə qalacaqdır.

2. Tərəflər altı ay əvvəlcədən diplomatik kanallar vasitəsilə yazılı bildiriş verməklə bu Anlaşma Memorandumunu istənilən vaxt ləğv edə bilərlər.

Buenos Ayres şəhərində 2006-cı il 3 aprel tarixində hər biri Azərbaycan, ispan və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, hər ikisi autentikdir. Təfsir zamanı fikir ayrılığı meydana çıxdıqda, ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN	ARGENTİNA RESPUBLİKASININ XARİCİ İŞLƏR, BEYNƏLXALQ VƏ ETİQAD NAZİRLİYİ ADINDAN
(imza)	*(imza)*

2006-cı il aprelin 4-də Braziliya şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Braziliya Federativ Respublikasının Xarici Əlaqələr Nazirliyi arasında ikitərəfli siyasi məsləhətləşmələrə dair Protokol"un nəzərə alınması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2006-cı il aprelin 4-də Braziliya şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Braziliya Federativ Respublikasının Xarici Əlaqələr Nazirliyi arasında ikitərəfli siyasi məsləhətləşmələrə dair Protokol" nəzərə alınsın.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 mart 2007-ci il

№2036

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Braziliya Federativ Respublikasının Xarici Əlaqələr Nazirliyi arasında ikitərəfli siyasi məsləhətləşmələrə dair Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Braziliya Federativ Respublikasının Xarici Əlaqələr Nazirliyi,

BMT Nizamnaməsinə uyğun olaraq suverenlik, bərabərlik, daxili işlərə qarışmamaq prinsiplərini rəhbər tutaraq,

qarşılıqlı maraq kəsb edən ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlərə dair müxtəlif səviyyələrdə məsləhətləşmələr və fikir mübadiləsinin aparılmasının hər iki Tərəf üçün əhəmiyyətini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər ümumi razılıq əsasında müntəzəm olaraq siyasi məsləhətləşmələr üçün görüşəcəklər.

Maddə 2

Məsləhətləşmələr növbə ilə Bakıda və Braziliyada keçiriləcəkdir. Nümayəndə heyətinin səviyyəsi, hər bir görüşün tarixi və gündəliyi diplomatik kanallarla müəyyən ediləcəkdir.

Maddə 3

Tərəflər qarşılıqlı razılıq əsasında xüsusi məsələləri nəzərdən keçirmək üçün ekspert və ya işçi qrupları yarada bilərlər. Onlar, zərurət olduqda, bu qruplarda iştirak etmək üçün digər hökumət və qeyri-hökumət təşkilatlarından və ya üçüncü tərəflərdən nümayəndələr dəvət edə bilərlər.

Maddə 4

Tərəflər beynəlxalq aləmdə və təşkilatlarda öz nümayəndələri arasında əməkdaşlığı təşviq edəcəklər.

Maddə 5

1. Bu Protokol imzalandığı tarixdən qüvvəyə minir və 5 (beş) il müddətində qüvvədə qalacaqdır və hər bir müddətin sonunda avtomatik olaraq 1 (bir) il müddətinə uzadılacaqdır.

2. Tərəflərdən hər biri digər Tərəfə yazılı bildiriş göndərməklə, bu Protokolu istənilən vaxt ləğv edə bilər. Protokol bu cür bildiriş alındıqdan altı ay sonra ləğv ediləcəkdir.

Braziliya şəhərində, 2006-cı il 4 aprel tarixində, hər biri Azərbaycan, portəgiz və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər autentikdir. Təfsir zamanı fikir ayrılığı meydana gəldikdə, ingilis dilində olan mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN	BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ XARİCİ ƏLAQƏLƏR NAZİRLİYİ ADINDAN
(imza)	*(imza)*

2005-ci il aprelin 22-də Kişinyov şəhərində GUÖAM-ın Zirvə Toplantısı çərçivəsində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2005-ci il aprelin 22-də Kişinyov şəhərində GUÖAM-ın Zirvə Toplantısı çərçivəsində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. GUÖAM-ın iştirakçı dövlətlərinin Səhiyyə Nazirlikləri arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. GUÖAM-ın iştirakçı dövlətlərinin Ticarət-Sənaye Palataları arasında sərgi-yarmarka fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1.1-ci və 1.2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Gürcüstan Xarici İşlər Nazirliyinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 mart 2007-ci il

№2037

GUÖAM-ın iştirakçı dövlətlərinin səhiyyə nazirlikləri arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Gürcüstanın Əmək, Səhiyyə və Sosial Təminat Nazirliyi, Moldova Respublikasının Səhiyyə və Sosial Müdafiə Nazirliyi, Ukraynanın Səhiyyə Nazirliyi,

səhiyyə sisteminin bütövlüyü və müstəqilliyi prinsipinə əsaslanıb, səhiyyə sahəsində gələcəkdə məhsuldar əməkdaşlığın möhkəmləndirilməsi və inkişaf etdirilməsi arzusunu ifadə edərək,

GUÖAM-ın iştirakçısı olan dövlətlər arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi məqsədilə səhiyyə sahəsində gələcəkdə məhsuldar əməkdaşlığı möhkəmləndirmək və inkişaf etdirmək arzusunu ifadə edərək,

GUÖAM çərçivəsində əməkdaşlığın yeni forma və istiqamətlərinin müəyyən edilməsi və səhiyyə sahəsində qabaqcıl təcrübədən istifadə olunması məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər milli səhiyyə sistemlərinin gələcəkdə təkmilləşməsi məqsədilə əməkdaşlığı inkişaf etdirəcəklər.

Maddə 2

Tərəflər səhiyyənin və tibb elminin aşağıdakı sahələrində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirəcəklər:

səhiyyənin təşkili və xəstəliklərin profilaktikası;

epidemioloji vəziyyət barədə operativ məlumat mübadiləsi;

böyüklərə və uşaqlara yardımın göstərilməsi;

tibbi və elmi kadrların hazırlanması;

əczaçılıq və tibbi texnika;

elmi tədqiqatların birgə işlənib hazırlanması;

GUÖAM çərçivəsində yaradılan dövlətlərarası analitik informasiya sistemi (DAİS) bazasında səhiyyə sahəsində məlumat mübadiləsi;

səhiyyə və tibb elminin iqtisadiyyatı;

sanatoriya-kurort müalicəsi;

qarşılıqlı maraq kəsb edən digər əməkdaşlıq sahələri.

Maddə 3

Səhiyyə sahəsində əməkdaşlıq edən təşkilatlar arasında əlaqə birbaşa razılaşmalar əsasında həyata keçirilir ki, bu razılaşmalar bütün dövlətlərin qanunvericiliyinə uyğun olmalı və Tərəflərlə razılaşdırılmalıdır.

Maddə 4

Tibb elmi sahəsində təcrübə və əczaçılıq məhsullarına, tibbi avadanlıqlara və yeni ixtiralara dair məlumat mübadiləsi məqsədilə Tərəflər elmi tədqiqat institutları, ali və orta tibbi təhsil müəssisələri və səhiyyə təşkilatları arasında birbaşa əməkdaşlığın inkişafına yardım edəcəklər.

Maddə 5

Tərəflər öz ölkələrində keçirilməsi planlaşdırılan beynəlxalq elmi simpoziumlar, konfranslar, konqreslər və seminarlar barədə biri-birinə məlumat verəcəklər.

Maddə 6

Gələcəkdə əməkdaşlığın inkişafı məsələlərinin öyrənilməsi, əlaqələrin möhkəmləndirilməsi və iş təcrübəsinin mübadiləsi məqsədilə Tərəflər səhiyyə nazirlikləri, səhiyyə idarəetmə orqanları və tibbi təhsil müəssisələri səviyyəsində nümayəndə heyəti mübadiləsi aparacaq və həmçinin birgə nəzəri, elmi-praktik konfranslar, seminarlar və simpoziumlar keçirəcəklər.

Maddə 7

Tərəflərin müvafiq orqanları tibbi ədəbiyyat siyahılarının, səhiyyəyə dair filmlərin və

həmçinin tibb məsələləri ilə bağlı digər yazılı, audio və ya video materialların mübadiləsini həyata keçirəcəklər.

Maddə 8

Bu Sazişin müddəalarından irəli gələn konkret tədbirlər, onların həyata keçirilmə müddətləri və şərtləri hər il tərtib olunan və bu Sazişin ayrılmaz tərkib hissəsi olan ayrıca protokollar vasitəsilə müəyyən edilir.

Bu Sazişin həyata keçirilməsi üçün Tərəflərin birgə fəaliyyətini və işinin koordinasiyasını təmin etmək məqsədilə bərabər əsaslarla Daimi Komissiya təşkil olunur və lazım gəldikdə Tərəflərdən birinin müraciəti ilə, lakin ildə bir dəfədən az olmayaraq çağırılır.

Maddə 9

Tərəflər öz dövlətlərinin sanitar-epidemioloji xidmətləri arasında birbaşa əlaqə yaradacaqlar.

Maddə 10

Bu Saziş, Tərəflərin dövlətinin iştirakçısı olduğu digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 11

Bu Saziş 5 (beş) il müddətinə bağlanır və Tərəflərin bütün zəruri dövlətdaxili prosedurların yerinə yetirildiyini bildirən ikinci bildirişi depozitariyə təqdim etdiyi tarixdən qüvvəyə minir. Həmin tarixdən sonra bildiriş təqdim edən Tərəflər üçün bu Saziş qeyd olunan bildirişin depozitari tərəfindən alındığı tarixdən qüvvəyə minir.

Bu Sazişin depozitarisi qismində Gürcüstanın Xarici İşlər Nazirliyi çıxış edir.

Saziş avtomatik olaraq növbəti beş il müddətinə uzadılır və istənilən Tərəf müvafiq müddətin bitməsinə ən azı 6 (altı) ay qalmış depozitariyə Sazişdən çıxmaq istəyi barədə yazılı bildiriş təqdim etməklə Sazişdə öz iştirakını dayandıra bilər.

Tərəflərin qarşılıqlı razılığına əsasən, bu Sazişə, onun ayrılmaz hissəsini təşkil edən, ayrıca protokollar şəklində rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Protokollar bu Sazişin 8-ci və 11-ci maddələrində göstərilən qaydada qüvvəyə minir.

2005-ci il aprelin 22-də Kişineu şəhərində rus dilində bir əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ ADINDAN	MOLDOVA RESPUBLİKASININ SƏHİYYƏ VƏ SOSİAL MÜDAFİƏ NAZİRLİYİ ADINDAN
(imza)	*(imza)*
GÜRCÜSTANIN ƏMƏK, SƏHİYYƏ VƏ SOSİAL TƏMİNAT NAZİRLİYİ ADINDAN	UKRAYNANIN SƏHİYYƏ NAZİRLİYİ ADINDAN
(imza)	*(imza)*

GUÖAM-ın iştirakçı dövlətlərinin ticarət-sənaye palataları arasında sərgi-yarmarka fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq GUÖAM-ın iştirakçısı olan dövlətlərin ticarət-sənaye palataları,

GUÖAM-ın iştirakçısı olan dövlətlər arasında ticarət, iqtisadi və elmi-texniki əməkdaşlığın inkişafına mühüm əhəmiyyət verərək,

GUÖAM-ın iştirakçısı olan dövlətlərin işgüzar dairələrinin sərbəst ticarət zonasının fəaliyyəti kriteriyalarına əsaslanan prinsiplər üzərində sahibkarlıq fəaliyyəti üçün münasib şəraitin yaradılması təşəbbüsünü rəhbər tutaraq,

GUÖAM-ın iştirakçısı olan dövlətlərin işgüzar dairələrini iqtisadi mövzuda sərgilərin mübadiləsi vasitəsilə ikitərəfli və çoxtərəfli əsasda qarşılıqlı faydalı əməkdaşlıq imkanları ilə tanış etməyə yönəldilmiş tədbirlərin həyata keçirilməsi vacibliyindən çıxış edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişin həyata keçirilməsi məqsədilə Tərəflər:

sərgi-yarmarka fəaliyyətini nizamlayan qanunvericilik və digər normativ aktların, eyni zamanda bu sahədə metodik və analitik materialların mübadiləsini həyata keçirəcəklər;

bu Sazişin iştirakçısı olan dövlətlərin ərazisində sərgi-yarmarka fəaliyyətinin inkişafının problemli məsələlərinin (o cümlədən gömrük) həllində bir-birlərinə yardım edəcəklər;

sərgi-yarmarka fəaliyyəti ilə məşğul olan mütəxəssislərin hazırlanmasına və ixtisaslarının artırılmasına yardım edəcək, sərgi fəaliyyəti ilə bağlı birgə seminarların, konfransların keçirilməsini təcrübədən keçirəcəklər;

bu Sazişin iştirakçısı olan dövlətlərdə keçirilən sərgi və yarmarkalar haqqında məlumatın operativ qarşılıqlı mübadiləsini həyata keçirəcək, öz internet səhifələrində Tərəflərin internet səhifələrinə istinad yerləşdirəcəklər;

sərgi və yarmarkaların keçirilməsi zamanı Tərəflərin təşkil etdiyi sahibkarların işgüzar missiyalarına yardım göstərəcəklər.

Maddə 2

Hər il Tərəflər, konsensus əsasında qəbul olunan razılaşdırılmış plana müvafiq olaraq, Razılığa gələn Tərəflərdən birinin ərazisində GUÖAM-ın iştirakçısı olan dövlətlərin imtiyazlı şərtlər əsasında ticarət-sənaye sərgi-yarmarkalarının təşkilini təmin edəcəklər.

Maddə 3

Tərəflərdən hər biri bu Sazişin 1-ci maddəsində qeyd olunan sərgi tədbirlərində öz iştirakı ilə bağlı xərcləri Tərəflər arasında əvvəlcədən razılaşdırılmış şərtlər əsasında müstəqil şəkildə ödəyəcəklər.

Maddə 4

Sərgi-yarmarkaların mövzusu, keçirilmə müddəti və yeri bu tədbirlərin açılışının planlaşdırılmış tarixindən bir ildən gec olmayaraq Tərəflər arasında razılaşdırılacaqdır.

Maddə 5

Bu Sazişin həyata keçirilməsi üzrə praktiki fəaliyyətin əlaqələndirilməsi və konkret tədbirlərin hazırlanması üçün Tərəflər işçi qrupu yaradır və müntəzəm olaraq, ildə bir dəfədən az olmayaraq (növbə ilə Tərəflərin hər birinin dövlətində), Tərəflərin sərgi-yarmarka fəaliyyəti ilə məşğul olan bölmələri arasında məsləhətlər və işgüzar görüşlər keçirəcəklər.

Bu cür görüşlərin və məsləhətləşmələrin keçirilmə yeri və tarixi Tərəflər arasında əvvəlcədən razılaşdırılacaqdır.

Maddə 6

Bu Saziş çərçivəsində Tərəflər bu Sazişin ayrılmaz hissəsini təşkil edən və onun mahiyyətinə aid olan ayrı-ayrı sazişlər, müqavilələr, protokollar və memorandumlar imzalaya bilərlər.

Maddə 7

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və bütün Tərəflərin imzaladığı tarixdən qüvvəyə minir.

Bu Sazişin depozitarisi onun əsl nüsxəsinin saxlanılmasını təmin edən Ukraynanın Ticarət-Sənaye Palatasıdır. Depozitari bu Sazişin təsdiq edilmiş surətini imzalayan Tərəflərin hər birinə göndərəcəkdir.

Tərəflərdən hər biri öz iştirakını dayandırmaq niyyəti barədə 3 aydan gec olmayaraq depozitariyə yazılı bildiriş göndərməklə bu Sazişdə öz iştirakını dayandıra bilər.

2005-ci il aprelin 22-də Kişineu şəhərində rus dilində bir əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ
TİCARƏT-SƏNAYE PALATASI
ADINDAN

(imza)

MOLDOVA RESPUBLİKASININ
TİCARƏT-SƏNAYE PALATASI
ADINDAN

(imza)

GÜRCÜSTANIN
TİCARƏT-SƏNAYE PALATASI
ADINDAN

(imza)

UKRAYNANIN
TİCARƏT-SƏNAYE PALATASI
ADINDAN

(imza)

Azərbaycan Respublikası ilə Ukrayna arasında 2006-cı il sentyabrın 7-də Bakı şəhərində imzalanmış sənədlər barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Ukrayna arasında 2006-cı il sentyabrın 7-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş;

1.2. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Ukraynanın Nüvə Tənzimlənməsi üzrə Dövlət Komitəsi arasında radiasiya təhlükəsizliyi sahəsində əməkdaşlığa dair Saziş;

1.3. Əməkdaşlıq prinsipləri haqqında Saziş.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1.1-1.3-cü bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki,bu Sərəncamın 1.1-ci və 1.2-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Ukrayna tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 mart 2007-ci il

№2038

Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Hökuməti arasında ətraf təbii mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Ukrayna Hökuməti,

iki ölkə xalqları arasında dostluq əlaqələrini möhkəmləndirmək və ətraf təbii mühiti mühafizə etmək məqsədilə əməkdaşlığı inkişaf etdirmək niyyətində olduqlarını ifadə edərək,

Azərbaycan və Ukraynanın iştirakçıları olduqları beynəlxalq müqavilələrdən irəli gələn beynəlxalq öhdəliklərin yerinə yetirilməsi üçün ətraf təbii mühit sahəsində ikitərəfli əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətini qeyd edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflərin səlahiyyətli orqanları aşağıdakılardır:

Azərbaycan tərəfindən - Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi;

Ukrayna tərəfindən - Ukraynanın Ətraf Təbii Mühitin Mühafizəsi Nazirliyi.

Maddə 2

Ətraf təbii mühitin çirklənməsinin qarşısının alınması və mühafizəsi sahəsində qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi xüsusi proqramlar və planlar vasitəsilə təmin ediləcəkdir.

Maddə 3

Tərəflər arasında ətraf təbii mühit üzrə əməkdaşlığın əsas sahələri aşağıdakılar olacaqdır:

Təbiətin mühafizəsi;

bioloji müxtəlifliyin qorunması və səmərəli istifadə edilməsi;

canlı su ehtiyatlarının idarə olunması və tarazlaşdırılmış istifadəsi, ovçuluq təsərrüfatının idarə olunması;

dəniz mühitinin mühafizəsi üzrə təcrübə mübadiləsi;

ətraf təbii mühitə təsirin qiymətləndirilməsi;

tullantıların (o cümlədən təhlükəli tullantıların) idarə olunması;

transsərhəd çayları vasitəsilə radioaktiv çirklənmənin nəqlinin öyrənilməsi;

atmosfer havasının mühafizəsi və iqlim dəyişmələri nəticələrinin azaldılması;

meşələrin idarə olunması;

meşəsalma;

Tərəflərin birgə maraq obyekti olan bu və ya digər sahə.

Maddə 4

Sazişin 3-cü maddəsində sadalanan sahələrdə əməkdaşlıq aşağıdakı şəkildə aparılacaqdır:

birgə elmi-texniki tədqiqatlar/proqramlar;

əməkdaşlıq layihələrinin hazırlanması;

tədqiqatlar, inkişaf və ətraf mühit üzrə fəaliyyətin ən yaxşı idarəçilik təcrübələrinə dair elmi-texniki məlumatların və sənədlərin mübadiləsi;

elmi yanaşma tələb edən və enerjiyə qənaət edən texnologiyalar mübadiləsi;

ekspertlər, rəsmi nümayəndələr və qeyri-hökumət təşkilatları üzvləri səviyyəsində mütəxəssis mübadiləsi;

təhsil proqramları, iclaslar, konfranslar və simpoziumların təşkili;

Tərəflərin zəruri hesab etdikləri hər hansı digər əməkdaşlıq formaları.

Maddə 5

Tərəflər ətraf təbii mühitin mühafizəsi sahəsində çalışan hökumət və qeyri-hökumət təşkilatları nümayəndələrinin əməkdaşlığına yardım göstərəcəklər.

Maddə 6

Bu Sazişin təfsiri və ya həyata keçirilməsi zamanı ortaya çıxan bütün fikir ayrılıqları Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 7

Bu Sazişin müddəaları Tərəflərin dövlətlərinin iştirakçıları olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə toxunmur.

Maddə 8

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi sayılan və 9-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrı-ayrı protokollarda rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 9

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirmələri haqqında diplomatik kanallar vasitəsilə sonuncu yazılı xəbərdarlığın alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanır. Əgər Tərəflərdən heç biri bu Sazişin qüvvədə qalma müddətinin bitməsinə ən azı altı ay qalmış ona xitam vermək niyyəti ilə yazılı formada xəbərdarlıq etməzsə, onun qüvvəsi növbəti beşillik müddətə uzadılacaqdır.

Maddə 10

Bu Sazişin qüvvəsinin ləğv edilməsi Sazişə uyğun olaraq razılaşdırılmış və onun qüvvədə olduğu zaman başlanmış işlərin davam etdirilməsinə təsir göstərməyəcəkdir.

Bakı şəhərində 2006-cı il sentyabrın 7-də iki əsl nüsxədə, hər biri Azərbaycan, Ukrayna və rus dillərində olmaqla imzalanmışdır. Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yaranacağı təqdirdə, rus dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	UKRAYNA HÖKUMƏTİ ADINDAN
HÜSEYQULU BAĞIROV	*BORİS TARASYUK*
Ekologiya və təbii sərvətlər naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Ukraynanın Nüvə Tənzimlənməsi üzrə Dövlət Komitəsi arasında radiasiya təhlükəsizliyi sahəsində əməkdaşlığa dair Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Ukraynanın Nüvə Tənzimlənməsi üzrə Dövlət Komitəsi,

Azərbaycan Respublikası ilə Ukrayna arasında 16 mart 2000-ci il tarixində imzalanmış Dostluq, Əməkdaşlıq və Tərəfdaşlıq haqqında Müqavilənin prinsiplərini rəhbər tutaraq,

müasir nüvə və radiasiya texnologiyalarının dinc məqsədlərlə istifadəsi təhlükəsizliyinin artırılması sahəsində ikitərəfli elmi-texniki əməkdaşlığı inkişaf etdirməklə,

Tərəflərin dövlətlərinin Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) üzvləri olduğunu nəzərə alaraq,

radioaktiv mənbələrin təhlükəsizliyi və qorunub saxlanmasının təmin edilməsi üzrə Davranış Kodeksinin prinsiplərinə tərəfdar olduqlarını təsdiq edərək,radiasiya təhlükəsizliyinin təmin olunması sahəsində Azərbaycan Respublikasının və Ukraynanın milli qanunvericiliyinə əsaslanaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz səlahiyyətləri çərçivəsində, radiasiya baxımından təhlükəli olan obyektlərin təhlükəsizlik vəziyyətinin tənzimlənməsi məsələləri daxil olmaqla əhali və ətraf mühitin radiasiya təhlükəsizliyinin artırılması məqsədilə əməkdaşlığın inkişafına kömək göstərəcəklər.

Maddə 2

Əməkdaşlığın əsas istiqamətləri aşağıdakılardır:

ionlaşdırıcı şüalanma mənbələrinin təhlükəsiz istifadəsinə tənzimləyici nəzarət və lisenziyalaşdırma;

radioaktiv materialların qorunması və hərəkətinə nəzarət;

radioaktiv materialların və radioaktiv tullantıların nəqlinin təhlükəsizliyi;

emal və basdırma texnologiyalarının təhlükəsizliyinin qiymətləndirilməsi daxil olmaqla radioaktiv tullantılarla davranış təhlükəsizliyi;

radionuklidlərlə çirklənmiş ərazilərin bərpası;

radioaktiv materialların qeyri-qanuni dövriyyəsi ilə mübarizə;

əhali və ətraf mühitin radiasiya mühafizəsi;

ətraf mühitin radiasiya monitorinqi;

radiasiya texnologiyalarının istifadəsi və radioaktiv materiallar və radioaktiv tullantılarla davranış prosesində əhali və ətraf mühitin təhlükəsizliyinin artırılması istiqamətində tədqiqatların aparılması;

kadrların hazırlanması və heyətin təlimi;

ictimaiyyətin məlumatlandırılması;

Tərəflər üçün qarşılıqlı maraq kəsb edən digər istiqamətlər.

Maddə 3

Maddə 2-də nəzərdə tutulan istiqamətlər üzrə əməkdaşlıq aşağıdakı yollarla həyata keçirilə bilər:

informasiya mübadiləsi;

konfransların, seminarların, ekspert müşavirələrinin və işgüzar görüşlərin keçirilməsi;

İnternet vasitələrindən istifadə etməklə, məlumat bazalarının yaradılması və dəstəklənməsi;

məsləhət və ekspert xidmətlərinin göstərilməsi;

beynəlxalq texniki yardım ehtiyatlarından istifadə etməklə, Tərəflərin nümayəndələrinin AEBA-nin regional layihələrində və digər beynəlxalq proqramlardan birgə iştirakı;

radiasiya təhlükəsizliyinin artırılması məsələləri üzrə birgə tədqiqat layihələrinin həyata keçirilməsi;

Tərəflərin dövlətlərinin səlahiyyətli və maraqlı təşkilatları arasında əməkdaşlıq haqqında birbaşa müqavilələrin bağlanması;

əməkdaşlığın digər məqbul formalarının tətbiq edilməsi.

Maddə 4

Bu Saziş çərçivəsində informasiyanın ötürülməsi məxfilik, əqli mülkiyyətin qorunması və informasiya ehtiyatlarının kommersiya cəhətdən istifadəsi məsələləri daxil olmaqla, Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə müvafiq olaraq həyata keçirilir.

Maddə 5

Bu Sazişin qüvvəyə mindiyi andan etibarən bir ay müddətində Tərəflər məsul əlaqələndirici şəxsləri təyin edir və onların əlaqə ünvanlarını bir-birinə bildirirlər.

Zərurət yarandıqda və ya Tərəflərin qarşılıqlı razılığı əsasında ərz olunan əməkdaşlıq məqsədlərinə nail olmaq üçün üçüncü tərəfin və ya digər təşkilatların iştirakı ilə müvafiq əməkdaşlıq proqramları işlənib hazırlana bilər.

Maddə 6

Bu Saziş Tərəflərin iştirakçısı olduqları beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Tərəflər onların təşkilatları arasında bağlanmış saziş və müqavilələrə görə məsuliyyət daşımırlar.

Maddə 7

Bu Sazişin müddəalarının təfsiri zamanı yarana biləcək mübahisələr məsləhətləşmə və danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 8

Mütəxəssislərin ezamiyyətlərinin maliyyələşdirilməsi göndərən Tərəfin vəsaitləri hesabına ödənilir.

Müqavilələrin bağlanması zamanı ezamiyyət şərtləri həmin müqavilələrdə göstərilir.

Maddə 9

Tərəflərin qarşılıqlı razılığı ilə edilən əlavələr və dəyişikliklər Sazişin ayrılmaz hissəsi olan ayrı-ayrı protokollar vasitəsilə bu Sazişə daxil edilə bilər. Bu protokollar Sazişin 10-cu maddəsinə əsasən qüvvəyə minir.

Maddə 10

Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan bütün dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin verdiyi sonuncu yazılı bildirişin diplomatik kanallar vasitəsilə alındığı tarixdən etibarən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanır. Tərəflər bu Sazişə xitam verilməsi barədə niyyətləri ilə bağlı onun müddətinin bitməsindən altı ay əvvəl yazılı bildiriş verm ədikdə Sazişin müddəti sonrakı beş ilə uzadılır.

Bakı şəhərində 2006-cı il 7 sentyabr tarixində Azərbaycan, Ukrayna və rus dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandıqda, rus dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ ADINDAN	UKRAYNANIN NÜVƏ TƏNZİMLƏNMƏSİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ ADINDAN
KƏMALƏDDİN HEYDƏROV	*STEPAN VOLKOVETSKİ*
Fövqəladə hallar naziri	*Ukraynanın Azərbaycandakı səfiri*

Əməkdaşlıq prinsipləri haqqında Saziş

Bakı şəhəri 7 sentyabr 2006-cı il

Şirkətin Nizamnaməsi əsasında fəaliyyət göstərən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (bundan sonra "ARDNŞ" adlandırılacaq) prezidenti Rövnəq Abdullayevin şəxsində bir tərəf,

Cəmiyyətin Nizamnaməsi əsasında fəaliyyət göstərən "Naftoqaz Ukrainı" Milli Səhmdar Cəmiyyətinin (bundan sonra "Naftoqaz" adlandırılacaq) idarə heyətinin sədri Vladimir Şeludçenkonun şəxsində digər tərəfdən,

məzmundan asılı olaraq birlikdə "Tərəflər", ayrılıqda isə "Tərəf adlandırılırlar.

Tərəflər karbohidrogen yataqlarının işlənməsi sahəsində hüquqa malik olan, ixtisaslaşmış dövlət şirkətləri və neft və neft məhsullarının dünya bazarının iştirakçıları olduqlarını,

uzunmüddətli və sabit iqtisadi əməkdaşlığın sonrakı inkişafının təmin olunmasında maraqlı olduqlarını nəzərə alaraq,

bu Sazişi aşağıdakılar barədə bağladılar:

1. Sazişin mövzusu

1.1. Tərəflər səlahiyyətləri çərçivəsində qarşılıqlı əməkdaşlığı inkişaf etdirəcəklər və aşağıda verilən sahələrdə əlverişli şəraitin yaradılmasına kömək edəcəklər:

Azərbaycan Respublikası və Ukrayna ərazilərində karbohidrogenlərlə əlaqədar işlərin yerinə yetirilməsinə Tərəflərin cəlb olunmasına;

neft və neft məhsullarının və həmçinin ixtisaslaşdırılmış avadanlıqların əldə olunması və satışı üzrə keçirilən tender və marketinq sorğularına Tərəflərin qarşılıqlı cəlb olunması ilə ticarət əməliyyatlarının həyata keçirilməsinə;

Tərəflərin, o cümlədən üçüncü tərəflərin iştirakı ilə mövcud imkanların istifadə olunmasına və sonrakı inkişafına.

2. Tərəflərin qarşılıqlı münasibətləri

2.1. Tərəflər qəbul edirlər ki, bu Sazişdə əməkdaşlığın həyata keçirilməsi üçün ümumi prinsiplər əks olunur. Bu Sazişin 1-ci maddəsində göstərilən əməkdaşlıq istiqamətində konkret layihələrin həyata keçirilməsi üçün Tərəflər və ya bu Sazişin 2.4-cü maddəsinə əməl olunmaqla səlahiyyət verilmiş digər hüquqi şəxslər neft-qaz fəaliyyəti sahəsində beynəlxalq təcrübədə qəbul olunmuş prosedura əsasən ayrıca sazişlər bağlayacaqlar.

2.2. Bu Saziş üzrə əməkdaşlığın səmərəli inkişafı məqsədilə Tərəflər sərəncamlarında olan, qarşılıqlı maraq kəsb edən məlumatların bölüşdürülməsi, ümumi seminar və məsləhətləşmələrin keçirilməsi, 3-cü şəxslərlə elmi-texniki və maliyyə-kommersiya əlaqələrinin yaradılması və belə əlaqələrin nəticələri barədə bir-birlərini məlumatlandıracaqlar.

2.3. Tərəflər qarşılıqlı mənfəət, qarşılıqlı yardım və bir-birinə iqtisadi zərər vura biləcək fəaliyyətin yolverilməzliyi prinsiplərini rəhbər tutaraq Sazişin mövzusunu təşkil edən sahələrdə əməkdaşlıq edirlər.

2.4. Heç bir Tərəf öz qanuni varisi istisna olmaqla, digər Tərəfin yazılı razılığı olmadan üçüncü tərəfə bu Saziş üzrə hüquq və öhdəliklərini vermək hüququna malik deyildir.

2.5. Sazişin şərhinə və qəbuluna dair Tərəflər arasında mümkün anlaşılmazlıqlar qarşılıqlı məsləhətləşmələr və danışıqlar yolu ilə həll olunacaqdır.

3. Fəaliyyət müddəti və Sazişin dayandırılması

3.1. Bu Saziş Tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən imzalandıqdan sonra qüvvəyə minir.

3.2. Sazişin müddəalarını bütünlüklə və ya ayrıca hissələrini dəyişmək və həmçinin bu Sazişin qüvvəsini dayandırmaq istəyən Tərəf 30 təqvim günü ərzində dayandırılma və ya dəyişikliklər barədə əks Tərəfi xəbərdar etməlidir.

4. Məxfilik

4.1. Bu Sazişin məqsədi üçün məxfi hesab olunan məlumat-bu Sazişin həyata keçirilməsi ilə əlaqədar bir Tərəfin digər Tərəfə verdiyi, yayılma nəticəsində Tərəflərə zərər vura biləcək və "Məxfi məlumat" kimi hesab olunan məlumatdır.

4.2. Tərəflər bir-birinə açıqladıqları və bu Sazişin 4.1-ci maddəsinə uyğun olaraq məxfi hesab olunan informasiyanın yayılmaması üçün müvafiq tədbir görülməsi barədə razılığa gəlirlər. Hər bir Tərəf məxfi xarakter daşıyan məlumatın yayılma faktı ilə əlaqədar istənilən pozuntuya görə məsuliyyət daşıyır.

4.3. Bu Sazişin qüvvəyə minməsi tarixinə qədər məlum olan və yaxud bu Sazişin qüvvəyə minməsi tarixindən sonra, Sazişin 4.1 və yaxud 4.2-ci maddələrinin tələblərinin hər hansı Tərəfin istənilən pozuntusu nəticəsində olmayan və yaxud müvafiq Tərəflərin qanunvericilik tələblərinə uyğun olaraq açıqlanmış informasiya "Məxfi məlumat" hesab olunmur.

5. Digər şərtlər

5.1. Bu Sazişə edilən bütün əlavə və dəyişikliklər Tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən müvafiq şəkildə, yazılı formada qeydə alındıqdan və imzalandıqdan sonra etibarlı hesab olunur.

5.2. Saziş hər bir Tərəf üçün biri nəzərdə tutulmaqla iki eyni qüvvəyə malik nüsxədə Azərbaycan, Ukrayna və rus dillərində imzalanmışdır. Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, rus dilində olan mətndən istifadə ediləcəkdir.

5.3. Bu Sazişin ayrıca hissələrinin həqiqiliyi və ya hüquqi qüvvəsi itirildiyi təqdirdə, Sazişin qalan digər şərtləri etibarlı sayılır, Tərəflər isə hüquqi qüvvəsini itirmiş bu Saziş hissələrinə, müvafiq qanunvericiliyə uyğun olaraq, müvafiq dəyişikliklər daxil etməklə bütün lazımi tədbirləri görməlidirlər.

5.4. Tərəflər razılaşırlar ki, bu Sazişin 4-cü maddəsi istisna olmaqla, Saziş Tərəflər üçün hüquqi məcburiliyə malik deyil və Tərəflərin hüquq və öhdəliklərinin yerinə yetirilməsində məcburiliyin yaradılmasına yönəldilməmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİNİN ADINDAN	"NAFTOQAZ UKRAYNI" MİLLİ SƏHMDAR CƏMİYYƏTİNİN ADINDAN
RÖVNƏQ ABDULLAYEV	*VLADİMİR ŞELUDÇENKO*
ARDNŞ-nin prezidenti	*İdarə heyətinin sədri*

Azərbaycan Respublikası və Rumıniya arasında 2006-cı il oktyabrın 11-də Bakı şəhərində imzalanmış sənədlər barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Rumıniya arasında 2006-cı il oktyabrın 11-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Rumıniyanın Mədəniyyət və Dini İşlər Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və Rumıniya Kiçik və Orta Müəssisələr və Kooperativlər Milli Agentliyi arasında əməkdaşlıq Memorandumu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1.1-ci və 1.2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-ci və 1.2-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Rumıniya tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 mart 2007-ci il

№2039

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Rumıniyanın Mədəniyyət və Dini İşlər Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Rumıniyanın Mədəniyyət və Dini İşlər Nazirliyi, iki ölkə arasında mövcud dostluq əlaqələrini inkişaf etdirmək və gücləndirmək niyyətində olaraq, həmçinin mədəniyyət sahəsində əməkdaşlığı genişləndirmək məqsədilə, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Razılığa gələn Tərəflər hər iki Dövlətin daxili qanunvericiliyinə müvafiq olaraq qarşılıqlı maraq göstərilən sahələrdə, xüsusilə teatr, bədii və folklor qrupların, habelə fərdi ifaçıların mübadiləsini, rəsm əsərlərindən ibarət sərgilərin keçirilməsini, filmlərin nümayişini və yaxud digər tərəfin təşkil etdiyi beynəlxalq film festivallarında iştirak etməsini və müştərək filmlərin çəkilməsi ilə kino sahəsində əməkdaşlığı inkişaf etdirəcəklər.

Maddə 2

Razılığa gələn Tərəflər hər iki ölkənin muzeyləri, kitabxanaları arasında məlumat mübadiləsi aparacaq, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası ilə Rumıniya Milli Kitabxanası arasında əlaqələr yaradacaq və qarşılıqlı kitab sərgilərinin təşkilinə səy göstərəcəklər.

Maddə 3

Razılığa gələn Tərəflər Rumıniyada Azərbaycan Mədəniyyəti Mərkəzinin və Azərbaycanda Rumıniya Mədəniyyət Mərkəzinin yaradılması istiqamətində əməkdaşlıq edəcəklər.

Maddə 4

Razılığa gələn Tərəflər müvafiq ictimai və ixtisaslaşmış institutların ekspertlərinin və mədəni irsin qorunması ilə bağlı problemlərin öyrənilməsi üzrə mütəxəssislərin iştirakı ilə ikitərəfli görüşlər, seminar və simpoziumlar təşkil edəcəklər.

Maddə 5

Razılığa gələn Tərəflər təşkil etdikləri beynəlxalq konfranslar, müsabiqələr və mədəniyyət məsələləri ilə bağlı görüşlərdə nümayəndələrin iştirakına şərait yaradacaqlar.

Maddə 6

Razılığa gələn Tərəflər mədəniyyətin müxtəlif sahələrində əldə edilmiş son nailiyyətlər haqqında bilik və təcrübə mübadiləsini təşviq edəcəklər.

Maddə 7

Razılığa gələn Tərəflər qarşılıqlı surətdə xalça və xalq tətbiqi sənəti, milli geyim, musiqi alətləri və milli mətbəx nümunələrindən ibarət sərgilərin təşkilini öhdələrinə götürəcəklər.

Maddə 8

Razılığa gələn Tərəflər hər iki Dövlətin sənətkarları arasında görüşləri, incəsənət ustalarının iştirakı ilə konsert proqramlarının mübadiləsini, habelə incəsənət üzrə təhsil sahəsində mütəxəssis və təcrübə mübadiləsini təşviq edəcəklər.

Maddə 9

Razılığa gələn Tərəflər hər iki ölkədə Mədəniyyət Günlərinin keçirilməsi məqsədilə müvafiq hazırlıq işlərinin aparılmasına və Mədəniyyət Günləri çərçivəsində Azərbaycanda Rumıniya filmlərini və Rumıniyada Azərbaycan filmlərini nümayiş etdirəcəklər.

Maddə 10

Razılığa gələn Tərəflərin yazılı razılığı ilə bu Sazişə əlavələr və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olan ayrı-ayrı protokollar formasında rəsmiləşdiriləcək və bu Sazişin 11-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minəcəkdir.

Maddə 11

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Razılığa gələn Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır və Razılığa gələn Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 5 (beş) il müddətinə uzadılacaqdır.

Bu Saziş Bakı şəhərində 11 oktyabr 2006-cı ildə iki əsl nüsxədə, hər biri Azərbaycan, rumın və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsiri və tətbiqi zamanı fikir ayrılığı olduqda, ingilis dilindəki mətnə istinad ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ ADINDAN	RUMİNİYANIN MƏDƏNİYYƏT VƏ DİNİ İŞLƏR NAZİRLİYİ ADINDAN
ƏBÜLFƏS QARAYEV	*ADRİAN LEMENİ*
Mədəniyyət və turizm naziri	*Mədəniyyət və dini işlər nazirliyinin dövlət katibi*

Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və Rumıniya Kiçik və Orta Müəssisələr və Kooperativlər Milli Agentliyi arasında əməkdaşlıq Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və Rumıniya Kiçik və Orta Müəssisələr və Kooperativlər Milli Agentliyi Azərbaycan - Rumıniya Hökumətlərarası Komissiyasının ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə birinci konfransının 2004-cü il 8 oktyabr tarixli Protokoluna

uyğun olaraq:

sahibkarlığın inkişafı sahəsində Azərbaycan Respublikası və Rumıniya arasında institusional əməkdaşlığın təsis edilməsi, sahibkarlığın inkişafı sahəsində Tərəflər arasında, o cümlədən Azərbaycan Respublikası və Rumıniya sahibkarları arasında əməkdaşlığın inkişafı və dəstəklənməsi məqsədilə, Tərəflər arasında əməkdaşlığın inkişafının aşağıdakı ümumi istiqamətlərini razılaşdırmışlar:

Maddə 1

Azərbaycan Respublikası və Rumıniyanın qanunvericiliyinə əsasən və sərbəst resurslardan istifadənin mümkünlüyünü nəzərə alaraq, Tərəflər aşağıdakı aspektlərdə birgə səy göstərəcəklər:

sahibkarlığın inkişafı və dəstəklənməsi sahəsində peşəkarlıq və təcrübə mübadiləsi;

sahibkarlığın dəstəklənməsi üçün qanunvericilik təşəbbüslərinin inkişafı;

informasiya və tədqiqat mübadiləsi, Azərbaycan Respublikası və Rumıniyanın iş adamlarının əməkdaşlığının genişləndirilməsinin təbliği;

sahibkarlığın dəstəklənməsi infrastrukturunun yaradılmasının təmin edilməsi;

sahibkarlığın inkişafına şərait yaradan iqtisadi mexanizm və proqramların təsis edilməsinə dair məsləhət və təkliflərin verilməsi;

sahibkarlığın maliyyə və investisiya təminatına aid birgə proqramların yaradılması;

Milli dövlət və kommersiya bankları, fondlar və digər maliyyə-kredit institutları vasitəsilə sahibkarlara kömək;

Azərbaycan Respublikası və Rumıniya arasında cari və gələcək investisiya və innovasiya layihələrinə sahibkarların cəlb edilməsi;

seminarların, sərgilərin, dəyirmi masaların təşkili ilə sahibkarlığın qadınlar və gənclər arasında yayılmasının təşviqi və bu qəbildən proqramların yaradılması;

Azərbaycan Respublikası və Rumıniya arasında proqram və layihələrin inkişafı və yerinə yetirilməsinə kömək göstərilməsi, həmçinin hər iki ölkənin hökumətlərinə ünvanlanmış birgə təkliflərin və proqramların hazırlanması;

cari və gələcək biznesin dəstəklənməsi proqramlarının effektivliyini qaldırmaq məqsədilə birgə tədbirlərin görülməsi;

Azərbaycan və Rumıniya sahibkarları arasında birgə müəssisələrin yaradılmasının dəstəklənməsi;

Azərbaycan Respublikası və Rumıniya bazarlarında reklam və sərgilər vasitəsilə hər iki ölkə müəssisələrinin istehsal etdiyi məhsulların təbliğinə kömək göstərilməsi;

sahibkarlığın inkişafında rolu olan iş adamları və məmurların professional səviyyələrinin inkişafı məqsədilə təhsil, treyninq, mübadilə proqramlarının həyata keçirilməsi;

Azərbaycan və Rumıniya investorlarının dəstəklənməsi məqsədilə milli, yerli və ya regional səviyyədə biznes imkanları haqda məlumatlar bazası vasitəsilə qarşılıqlı maraqların və informasiya mübadiləsinin asanlaşdırılması;

sahibkarlığın inkişafı üçün sənədlərin birgə nəşri;

hər iki ölkə müəssisələri arasında ticari-iqtisadi əlaqələrin genişləndirilməsi və inkişafı;

müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət, sosial və digər biznesi dəstəkləyən təşkilatlar arasında informasiya mübadiləsi üçün müvafiq məlumatlar bazasının yaradılmasına yardım göstərilməsi.

Maddə 2

Tərəflər arasında əsas əməkdaşlıq formaları aşağıdakılardır:

Azərbaycan Respublikası və Rumıniyanın Ticarət və Sənaye Palataları tərəfindən təşkil edilmiş beynəlxalq yarmarka, sərgi, iqtisadi missiyalar və təbliğat fəaliyyətlərində Azərbaycan və Rumıniya KOS-larının iştirakının təmin edilməsi;

ikitərəfli biznes-forumların, iclasların, seminar və simpoziumların təşkili;

biznesin inkişafı və dəstəklənməsində müştərək planların, elmi tədqiqatlar və proqnozların inkişaf etdirilməsi;

müştərək proqram və layihələrin yerinə yetirilməsi çərçivəsində material və avadanlıqların tədarükünə kömək göstərilməsi;

iş adamları və məmurların treyninqi üçün proqramların hazırlanması və birgə yerinə yetirilməsi;

bu Memorandumun icrasında iştirak etmək marağında olan təşkilatların cəlb edilməsi və fəaliyyətlərinin koordinasiyası.

Tərəflərin fəaliyyəti əməkdaşlığın yuxarıda qeyd edilən formaları ilə məhdudlaşmır və sahibkarlığın inkişafının digər istiqamətləri ilə genişləndirilə bilər.

Maddə 3

Tərəflər bu fəaliyyətləri birgə koordinasiya etmək üçün qarşılıqlı razılaşma yolu ilə 6 ayda ən azı bir dəfə keçirilən iclaslara rəhbərlik edir. İş planları, müştərək proqramlar və məsləhətlər iclaslarda təsdiq ediləcək və Protokolda qeyd olunacaqdır.

Maddə 4

İclasların rəsmi dili ingilis dilidir.

Maddə 5

Tərəflər, qarşılıqlı razılaşmaya əsasən, Memorandum haqda əlavə və dəyişiklikləri ayrıca protokollarda qeyd edə bilərlər.

Bu Protokollar Memorandumun ayrılmaz hissəsi olacaq və müvafiq dövlətin qanunları çərçivəsində, Protokolların daxili prosedurlarını yerinə yetirərək, qarşılıqlı əlaqələri özündə ehtiva edən son bildiriş tarixindən sonra qüvvəyə minir.

Maddə 6

Bu Memorandum müvafiq dövlətin qanunları çərçivəsində, diplomatik yollarla (yazışma ilə), daxili prosedurları yerinə yetirərək, qarşılıqlı əlaqələri özündə ehtiva edən son bildiriş tarixindən sonra qüvvəyə minir.

Memorandum müddətsiz imzalanmışdır və diplomatik yollarla Tərəflərin hər hansı biri

tərəfindən istənilən vaxt ləğv edilə bilər.

Memorandum Tərəflərdən birinin digərinə yazılı bildirişindən altı ay sonra ləğv edilir.

Memorandumun ləğvi Tərəflərin bu sənəddən irəli gələn razılaşmaların və işlərin icrasına heç bir əngəl törətmir.

Bakı şəhərində 2006-cı il 11 oktyabr tarixində Azərbaycan, rumın və ingilis dillərində, eyni qüvvəyə malik 2 nüsxədən ibarət olmaqla, imzalanmışdır.

Mətnin təfsirində fikir ayrılığı meydana gələrsə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF NAZİRLİYİ ADINDAN	RUMINİYANIN KİÇİK VƏ ORTA MÜƏSSİSƏLƏR VƏ KOOPERATİVLƏR MİLLİ AGENTLİYİ ADINDAN
HEYDƏR BABAYEV	*İOAN KODRUTS ŞEREŞ*
İqtisadi inkişaf naziri	*İqtisadiyyat və ticarət naziri*

2006-cı il noyabrın 20-də Abu-Dabi şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2006-cı il noyabrın 20-də Abu-Dabi şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 mart 2007-ci il

№2040

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin Ədliyyə Nazirliyi, hüquq və məhkəmə sahələrində əməkdaşlığın bərqərar olunmasına, inkişafına və möhkəmlənməsinə mühüm əhəmiyyət verərək, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Əməkdaşlığa nail olmaq üçün Tərəflər aşağıdakı istiqamətlərə üstünlük verəcəklər:

1) tətbiq edilən qanunların, nəşrlərin, ədəbiyyatın, ədliyyə və hüquq sahələrində elmi

tədqiqatların, hüquqi jurnalların, o cümlədən hər iki Tərəfin ədliyyə sistemi haqqında məlumatların mübadiləsi;

2) hər iki Tərəfdə təşkil olunan hüquq və ədliyyə sahələrinə aid olan konfrans, simpozium və seminarlarda iştirak;

3) qanunvericilik və ədliyyə sahələrində yeniliklərin öyrənilməsi məqsədilə ədliyyə nümayəndə heyətlərinin səfərlərinin təşviqi;

4) hər iki Tərəfdə təşkil olunan təcrübi məşğələlərdə iştirak.

Maddə 2

Bu Anlaşma Memorandumu Tərəflər arasında əməkdaşlığı təşviq etmək üçün ədliyyə sahəsində əməkdaşlıq haqqında digər sazişlərin bağlanmasına mane olmur.

Maddə 3

Yazışma və əlaqələr sorğu edən Tərəfin dilində həyata keçirilir və ingilis dilində olan tərcümə ilə müşayiət olunur.

Maddə 4

Hər bir Tərəf digər Tərəfə göndərilə bilən öz nümayəndə heyətinin mehmanxana və yol xərclərini ödəyir.

Maddə 5

Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qüvvəyə minir və üç il müddətinə qüvvədə qalır və hər bir Tərəf istənilən vaxt yazılı şəkildə diplomatik kanallar vasitəsilə üç ay əvvəlcədən bildiriş göndərməklə onu ləğv etməzsə, avtomatik olaraq həmin müddətə və ya müddətlərə uzadılır. Lakin bu Anlaşma Memorandumunun ləğvi onun qüvvədən düşməsindən əvvəl başlanılmış işlərə təsir göstərmir.

Bunun təsdiqi olaraq, aşağıda imza edənlər, onların hökumətləri tərəfindən lazımi qaydada səlahiyyətləndirilərək bu Memorandumu imzaladılar.

Abu Dabi şəhərində 2006-cı il 20 noyabr tarixində Azərbaycan, ərəb və ingilis dillərində olan nüsxələrdə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Memorandumun təfsiri ilə bağlı fikir ayrılığı yarandıqda, ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN	BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN
FİKRƏT MƏMMƏDOV	*MOHAMMED BİN NAKHİRA AL DHAHERİ*
Ədliyyə naziri	*Ədliyyə naziri*

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2006-cı il dekabrın 4-də Bakı şəhərində imzalanmış sənədlər barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2006-cı il dekabrın 4-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında fiziki şəxslərin poçt pul baratlarının mübadiləsi sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında ikitərəfli hərbi-texniki əməkdaşlığın gedişində istifadə edilən və əldə edilmiş əqli fəaliyyətin nəticələrinə hüquqların qarşılıqlı mühafizəsi haqqında Saziş;

1.3. Azərbaycan Respublikasının Milli Bankı və Rusiya Federasiyasının Mərkəzi Bankı (Rusiya Bankı) arasında Kredit təşkilatlarının fəaliyyətinə bank nəzarəti sahəsində əməkdaşlıq haqqında Saziş.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1.1-1.3- cü bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.3-cü bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 mart 2007-ci il

№2041

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında fiziki şəxslərin poçt pul baratlarının mübadiləsi sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti, mehriban qonşuluq ənənələrinə əsaslanıb onların gələcək inkişafına çalışaraq, Ümumdünya Poçt İttifaqı aktlarının müddəalarını nəzərə alaraq, həmçinin poçt rabitəsi sahəsində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək və dərinləşdirmək niyyətini rəhbər tutaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəf dövlətlərin qanunvericiliyinə, Ümumdünya Poçt İttifaqı aktlarının müddəalarına, həmçinin Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında bağlanmış beynəlxalq müqavilələrə uyğun olaraq, qəbul olunmuş beynəlxalq hüquq prinsipləri və normalarına əsaslanaraq, Tərəflər poçt sahəsində əməkdaşlığı genişləndirməyi davam etdirirlər.

Maddə 2

Tərəf dövlətlərin qanunvericiliyinə əsasən səlahiyyət verilmiş poçt müəssisələri (təşkilatları) vasitəsilə fiziki şəxslərin (qeyri-ticarət xarakterli) poçt pul baratlarının mübadiləsinin həyata keçirilməsini Tərəflər təmin edirlər.

Maddə 3

Pulun qəbulu və ödənişi Azərbaycan Respublikasında Azərbaycan milli valyutası ilə, Rusiya Federasiyasında isə rus milli valyutası ilə aparılır.

Tərəflər bu məqsədlə Tərəf dövlətlər arasında imzalanmış beynəlxalq müqavilədə müəyyən edilmiş qaydada milli valyutaların tam və vaxtında qarşılıqlı konvertasiyasını təmin edirlər.

Maddə 4

Fiziki şəxslərin poçt pul baratlarının mübadiləsinin səlahiyyətli bank vasitəsilə həyata keçirilməsi mexanizmi və şərtləri Tərəf dövlətlərin qanunvericiliyinə əsasən bunun üçün səlahiyyət verilmiş poçt müəssisələri (təşkilatları) arasında imzalanmış ayrıca müqavilə ilə müəyyən edilir.

Maddə 5

Fiziki şəxslərin hər bir poçt baratının mübadiləsinin maksimal məbləği bu cür köçürmə olan ərazinin səlahiyyətli poçt müəssisələri (təşkilatları) tərəfindən Tərəf dövlətin qanunvericiliyinə uyğun olaraq müəyyən edilir.

Maddə 6

Bu Sazişin müddəaları Tərəflərin Azərbaycan Respublikası və ya Rusiya Federasiyasının iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 7

Bu Sazişin şərhi və tətbiqi ilə əlaqədar Tərəflər arasındakı mübahisəli məsələlər danışıqlar və qarşılıqlı məsləhətləşmələr yolu ilə həll edilir.

Maddə 8

Əgər Tərəflər başqa cür razılığa gəlməsələr, hər iki Tərəfin razılığı ilə bu Sazişin qüvvəyə minməsi üçün nəzərdə tutulmuş qaydada Sazişə dəyişikliklər edilə bilər. Həmin dəyişikliklər ayrıca protokollar ilə rəsmiləşdirilərək qüvvəyə minəcəkdir.

Maddə 9

Bu Saziş, onun qüvvəyə minməsi üçün vacib olan hökumətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin sonuncu yazılı bildirişi alması tarixindən qüvvəyə minir və qeyri-müəyyən müddətə bağlanılır.

Bu Saziş Tərəflərdən birinin müqavilənin fəaliyyətini dayandırmaq haqqında digər Tərəfdən yazılı bildiriş alması tarixindən altı ay sonra öz fəaliyyətini dayandırır.

Bu Saziş Bakı şəhərində 2006-cı il 4 dekabr tarixində hər biri Azərbaycan və rus dillərində olmaqla, 2 nüsxədə imzalanmışdır. Hər iki dildə olan mətnlər eyni qüvvəyə ma-

likdir. Təfsirində fikir ayrılığı olduğu tədqirdə rus dilindəki mətndən istifadə olunacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	RUSİYA FEDERASİYASI HÖKUMƏTİ ADINDAN
ƏLİ ABBASOV	*LEONİD REYMAN*
Rabitə və informasiya texnologiyaları naziri	*İnformasiya texnologiyaları və rabitə naziri*

Azərbaycan Respublikasının Milli Bankı və Rusiya Federasiyasının Mərkəzi Bankı (Rusiya Bankı) arasında Kredit təşkilatlarının fəaliyyətinə bank nəzarəti sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Bank nəzarəti orqanları" adlandırılacaq Azərbaycan Respublikasının Milli Bankı və Rusiya Federasiyasının Mərkəzi Bankı (Rusiya Bankı) bank nəzarəti sahəsində ikitərəfli əlaqələrin yaradılmasına və inkişaf etdirilməsinə qarşılıqlı maraq göstərərək, bank fəaliyyətinin tənzimlənməsi və kredit təşkilatlarının fəaliyyətinə bank nəzarəti sahəsində birgə fəaliyyət məsələləri üzrə qarşılıqlı anlaşmaya nail olmaq məqsədilə aşağıdakılar barədə razılığa gəlmişlər:

Maddə 1

Bank nəzarəti orqanlarının səlahiyyətləri

1.1. Azərbaycan Respublikası

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Bankı bank tənzimləməsi və nəzarəti orqanıdır. Azərbaycan Respublikasının Milli bankı bank qanunvericiliyinə, Azərbaycan Respublikası Milli Bankının normativ aktlarına, Azərbaycan Respublikası Milli Bankının müəyyən etdiyi məcburi normativlərə kredit təşkilatları tərəfindən əməl olunmasına daim nəzarət edir. Bank tənzimlənməsi və nəzarəti funksiyalarını həyata keçirmək üçün Azərbaycan Respublikasının Milli Bankı kredit təşkilatlarında (onların filiallarında, nümayəndəliklərində, o cümlədən xarici bankların filial və nümayəndəliklərində, habelə törəmə təsərrüfat cəmiyyətlərində) yoxlamalar aparır, onların fəaliyyətində aşkara çıxarılmış pozuntuların aradan qaldırılması barədə onlara icra üçün məcburi göstərişlər göndərir və "Azərbaycan Respublikasının Milli Bankı haqqında" və "Banklar haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş tədbirlər görür. Bankların və onların törəmə təsərrüfat cəmiyyətlərinin fəaliyyətini yoxlayarkən Azərbaycan Respublikasının Milli Bankı bankda mühüm iştirak payı olan şəxslərin, habelə banka aidiyyəti olan bütün digər şəxslərin idarəetmə və cari fəaliyyəti barədə istənilən məlumatı tələb etmək hüququna malikdir.

1.2. Rusiya Federasiyası

Rusiya Federasiyasının qanunvericiliyinə uyğun olaraq, Rusiya Federasiyasının Mərkəzi bankı (Rusiya Bankı) bank tənzimləməsi və nəzarəti orqanıdır. Rusiya Bankı kredit təşkilatları və bank qrupları (bank holdinqlər) tərəfindən bank qanunvericiliyinə, Rusiya Bankının normativ aktlarına, Rusiya Bankının müəyyən etdiyi məcburi normativlərə əməl olunmasına daim nəzarət edir. Bank tənzimləməsi və nəzarəti funksiyalarını həyata keçirmək üçün Rusiya Bankı kredit təşkilatlarında (onların filiallarında) yoxlamalar aparır, onların fəaliyyətində aşkara çıxarılmış pozuntuların aradan qaldırılması barədə onlara icra üçün məcburi göstərişlər göndərir və kredit təşkilatlarına qarşı "Rusiya Federasiyasının Mərkəzi Bankı (Rusiya Bankı) haqqında" Federal qanunda nəzərdə tutulmuş tədbirlər görür. Rusiya Bankı kredit təşkilatlarından onların fəaliyyəti barədə lazımi məlumatı tələb etmək və almaq, alınmış informasiya barədə izahat tələb etmək hüququna malikdir.

Maddə 2

Bu Sazişin məqsədləri üçün istifadə olunan anlayışlar

2.1. Kredit təşkilatı

2.1.1. Azərbaycan Respublikasında:

bank - fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsini, öz adından və öz hesabına kreditlərin verilməsini, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirən hüquqi şəxsdir;

bank olmayan kredit təşkilatı - öz vəsaiti və / yaxud cəlb olunmuş vəsait (depozitlərdən başqa) hesabına pul formasında kreditlər verən hüquqi şəxsdir.

2.1.2. Rusiya Federasiyasında:

Rusiya Bankının xüsusi icazəsi (lisenziyası) əsasında öz fəaliyyətinin əsas məqsədi kimi mənfəət götürmək üçün "Banklar və bank fəaliyyəti haqqında" Federal qanunda nəzərdə tutulmuş bank əməliyyatlarını həyata keçirmək hüququ olan hüquqi şəxsdir. Kredit təşkilatı istənilən mülkiyyət forması əsasında təsərrüfat cəmiyyəti kimi təşkil edilir;

bank - aşağıdakı bank əməliyyatlarını məcmu halda həyata keçirmək üçün müstəsna hüququ olan kredit təşkilatıdır: fiziki və hüquqi şəxslərin pul vəsaitlərinin əmanətlərə cəlb edilməsi, göstərilən vəsaitlərin geri qaytarılmaq, ödənişli və müddətli olmaq şərtləri ilə öz adından və öz hesabına yerləşdirilməsi, fiziki və hüquqi şəxslərin bank hesablarının açılması və aparılması;

bank olmayan kredit təşkilatı - "Banklar və bank fəaliyyəti haqqında" Federal qanunda nəzərdə tutulmuş ayrı-ayrı bank əməliyyatlarını həyata keçirmək hüququ olan kredit təşkilatıdır. Bank olmayan kredit təşkilatları üçün icazə verilən bank əməliyyatları Rusiya Bankı tərəfindən müəyyənləşdirilir.

2.2. Transsərhəd təşkilatları

2.2.1. Azərbaycan Respublikasının ərazisində xarici kredit təşkilatları kredit təşkilatlarının nizamnamə kapitallarında iştirak edə, o cümlədən fəaliyyəti Azərbaycan Respublikası qanunlarının tələblərinə uyğun olaraq lisenziyalaşdırılan və fəaliyyətinə icazə verilən törəmə kredit təşkilatları, habelə filiallar və nümayəndəliklər yarada bilərlər.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq:

törəmə bank - nizamnamə kapitalında səsvermə hüququ verən səhmlərin əllidən

çox faizi təsisçi banka və ya bank holdinq şirkətinə məxsus olan bankdır, yaxud elə bankdır ki, onunla təsisçi bank və ya bank holdinq şirkəti arasında bağlanmış müqaviləyə əsasən təsisçi banka və ya bank holdinq şirkətinə onun qərarlarının qəbul edilməsinə mühüm təsir göstərmək imkanı verilir.

Bank filialı - hüquqi şəxs olmayan, bankın olduğu yerdən kənarda yerləşən, öhdəlikləri üçün bankın özünün məsuliyyət daşıdığı, banka icazə verilmiş bank fəaliyyətinin hamısını və ya bir hissəsini həyata keçirə bilən bankın ayrıca bölməsidir.

Bank nümayəndəliyi - hüquqi şəxs olmayan, bankın olduğu yerdən kənarda yerləşən, bank fəaliyyəti ilə məşğul olmağa hüququ olmayan, yalnız onun mənafelərini təmsil və müdafiə edən bankın ayrıca bölməsidir.

2.2.2. Rusiya Federasiyasının ərazisində xarici kredit təşkilatları kredit təşkilatlarının nizamnamə kapitallarında iştirak edə, o cümlədən fəaliyyəti Rusiya Federasiyası qanunvericiliyinin tələblərinə uyğun olaraq lisenziyalaşdırılan törəmə kredit təşkilatları yarada, habelə nümayəndəliklər açа bilər.

Rusiya Federasiyasının qanunvericiliyinə uyğun olaraq:

kredit təşkilatının nümayəndəliyi onun kredit təşkilatından kənarda yerləşən, onun mənafeyini təmsil edən və qoruyan xüsusi bölməsidir. Kredit təşkilatının nümayəndəliyi bank əməliyyatları aparmaq hüququna malik deyildir.

Kredit təşkilatının nümayəndəliyi hüquqi şəxs deyildir və öz fəaliyyətini onu yaratmış kredit təşkilatı tərəfindən təsdiq olunan əsasnamə əsasında həyata keçirir;

törəmə kredit təşkilatı elə bir hüquqi şəxsdir ki, orada əsas kredit təşkilatı nizamnamə kapitalında üstün iştirakına görə, yaxud onların arasında bağlanmış müqaviləyə uyğun olaraq və ya başqa şəkildə törəmə kredit təşkilatının qəbul etdiyi qərarları müəyyənləşdirmək imkanına malikdir.

2.3. Əsas kredit təşkilatı - transsərhəd təşkilatı (törəmə kredit təşkilatı, filialı, nümayəndəliyi) olan hüquqi şəxsdir.

2.4. Mənşə ölkə - ərazisində əsas kredit təşkilatının qeydə alındığı ölkədir.

2.5. Yerləşmə ölkəsi - ərazisində transsərhəd təşkilatının qeydə alındığı ölkədir.

Maddə 3

İnformasiya mübadiləsi

3.1. Azərbaycan Respublikasının və Rusiya Federasiyasının milli bank sistemlərinin sabitliyini qorumaq, onları inkişaf etdirmək və möhkəmləndirmək məqsədilə bank nəzarəti orqanları öz milli qanunvericiliklərinin tələblərinə əməl etməklə bu Saziş əsasında əsas kredit təşkilatlarının və onların transsərhəd təşkilatlarının fəaliyyətinə bank nəzarəti sahəsində əməkdaşlığı həyata keçirirlər.

Bank nəzarəti orqanları bank sektorunun vəziyyəti və inkişafı, bank nəzarəti sahəsində milli qanunvericiliyin əsas tələbləri və onlarda edilən dəyişikliklər barədə informasiyanı mübadilə edirlər.

3.2. Azərbaycan Respublikasında xarici dövlətlərin bank nəzarəti orqanları ilə in-

formasiya mübadiləsi, o cümlədən informasiyanın məxfiliyinin təmin edilməsi məsələləri "Azərbaycan Respublikasının Milli Bankı haqqında" və "Banklar haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir.

Həmin qanunlara görə, Azərbaycan Respublikasının Milli Bankı Rusiya Bankından nəzarət funksiyalarının icrası gedişində kredit təşkilatlarından alınmış informasiyanı və ya sənədləri sorgu əsasında əldə etmək, habelə Rusiya Bankına tərkibində kredit təşkilatlarının və onların müştərilərinin əməliyyatları barədə məlumatlar olmayan informasiyanı və ya sənədləri vermək hüququna malikdir, bu şərtlə ki, Rusiya Bankı tərəfindən Azərbaycan Respublikasının Milli Bankı qarşısında Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş informasiya mühafizəsinin təmin edilməsi tələblərinə uyğun olan informasiyanın mühafizə rejimi təmin ediləcəkdir.

Rusiya Bankından alınmış informasiya və sənədlər barəsində Azərbaycan Respublikasının Milli Bankı informasiyanın açıqlanması və sənədlərin təqdim edilməsi üzrə Rusiya Federasiyası qanunvericiliyinin müəyyən etdiyi tələbləri nəzərə almaqla Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş tələblərə əməl etməlidir.

3.3. Rusiya Federasiyasında xarici dövlətlərin bank nəzarəti orqanları ilə informasiya mübadiləsi, o cümlədən informasiyanın məxfiliyinin təmin edilməsi məsələləri "Rusiya Federasiyasının Mərkəzi Bankı (Rusiya Bankı) haqqında" Federal qanunla tənzimlənir. "Rusiya Federasiyasının Mərkəzi Bankı (Rusiya Bankı) haqqında" Federal qanunun 51-ci maddəsinə uyğun olaraq Rusiya Bankı Azərbaycan Respublikasının Milli Bankından nəzarət funksiyalarının icrası gedişində kredit təşkilatlarından alınmış informasiyanı və ya sənədləri əldə etmək, habelə Azərbaycan Respublikasının Milli Bankına tərkibində kredit təşkilatlarının və onların müştərilərinin əməliyyatları barədə məlumatlar olmayan informasiyanı və ya sənədləri vermək hüququna malikdir, bu şərtlə ki, Azərbaycan Respublikasının Milli Bankı informasiya mühafizəsinin təmin edilməsi üzrə Rusiya Federasiyası qanunvericiliyinin Rusiya Bankı qarşısında qoyduğu tələblərə uyğun olan informasiyanın mühafizə rejimini təmin edəcəkdir.

Azərbaycan Respublikasının Milli Bankından alınmış informasiya və sənədlər barəsində Rusiya Bankı informasiyanın açıqlanması və sənədlərin təqdim edilməsi üzrə Azərbaycan Respublikası qanunvericiliyinin müəyyən etdiyi tələbləri nəzərə almaqla Rusiya Federasiyasının qanunvericiliyi ilə müəyyən olunmuş tələblərə əməl etməlidir.

3.4. Bank nəzarəti orqanları zəruri hallarda qarşılıqlı maraq doğuran məsələləri, habelə əsas kredit təşkilatlarının və onların transsərhəd təşkilatlarının fəaliyyətinə bank nəzarətinin təkmilləşdirilməsi məsələlərini müzakirə etmək üçün görüşlər keçirirlər.

3.5. Bu Saziş çərçivəsində əməkdaşlıq bank nəzarəti orqanlarından birinin təşəbbüsü ilə bank nəzarətinin həyata keçirilməsinə yardım göstərilməsi barədə onun sorğusu əsasında həyata keçirilir.

3.6. Yardım göstərilməsi barədə sorğu yazılı şəkildə göndərilir. Sorğunun ötürülməsi üçün istənilən rabitə vasitələrindən istifadə edilə bilər.

3.7. Əgər sorğu alan bank nəzarəti orqanı sorğunun yerinə yetirilməsini onun milli qanunvericiliyinə zidd olduğunu hesab edərsə, bu Saziş çərçivəsində yardım göstərilməsindən tam və ya qismən imtina edilə bilər.

3.8. Hər bir bank nəzarəti orqanı digər bank nəzarəti orqanının sorğusuna tez və mümkün qədər tam cavab verilməsini təmin etmək üçün hər cür lazımi tədbirlər görür və ya onu sorğunun icrasına mane olan, yaxud onu ləngidən səbəblər barədə məlumatlandırır.

3.9. Əgər başqa qayda razılaşdırılmayıbsa, hər bir bank nəzarəti orqanı bu Sazişin həyata keçirilməsi gedişində meydana çıxa biləcək xərcləri özü çəkir.

Maddə 4

İnformasiyanın konfidensiallığının təmin edilməsi

4.1. Bank nəzarəti orqanları informasiyanın saxlanılması, istifadə edilməsi və hər hansı rabitə vasitələrinin köməyi ilə bir-birinə ötürülməsi zamanı informasiyanın və ya sənədlərin konfidensiallığının təmin edilməsi üçün müvafiq tədbirlər görürlər.

4.2. Bank nəzarəti orqanları nəzarət sahəsində bu şərtlə informasiya mübadiləsi edə bilərlər ki, həmin informasiyadan yalnız nəzarət məqsədləri ilə istifadə edilsin və milli qanunvericilikdə belə vəzifənin nəzərdə tutulduğu hallar istisna olmaqla, informasiyanı vermiş bank nəzarəti orqanının razılığı olmadan həmin informasiya üçüncü şəxslərə ötürülməsin.

Maddə 5

Transsərhəd təşkilatlarının fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaların (icazələrin) verilməsi zamanı əməkdaşlıq

5.1. Mənşə ölkədə qeydə alınmış kredit təşkilatının transsərhəd təşkilatı açmaq üçün lisenziya (icazə) verilməsi barədə yerləşmə ölkəsinin bank nəzarəti orqanına müraciətinə milli qanunvericiliyin tələblərinə müvafiq surətdə və nəzərdə tutulmuş müddətlərdə baxılır.

5.2. Bu Sazişin 5.1-ci bəndində göstərilən müraciəti almış yerləşmə ölkəsinin bank nəzarəti orqanı mənşə ölkənin bank nəzarəti orqanına göndərilən müraciətin məzmunu barədə məlumat verir.

5.3. 5.1-ci bənddə göstərilmiş müraciət üzrə qərar qəbul etmək üçün kredit təşkilatının mənşə ölkəsinin bank nəzarəti orqanı yerləşmə ölkəsinin bank nəzarəti orqanının sorğusuna əsasən milli qanunvericilik çərçivəsində kredit təşkilatı barədə aşağıdakı informasiyanı verir:

dövlət qeydiyyatının tarixi barədə;

bank əməliyyatlarının həyata keçirilməsi üçün lisenziyada nəzərdə tutulmuş fəaliyyət barədə;

əsas kredit təşkilatının idarəetmə orqanlarının tərkibi, habelə səhmdarlar (iştirakçılar), törəmə təsərrüfat cəmiyyətləri, filiallar, nümayəndəliklər və aidiyyəti şəxslər barədə məlumat;

idarəetmə strukturu və daxili nəzarət sistemi, o cümlədən cinayətkar yolla əldə edilmiş gəlirlərin leqallaşdırılmasına (yuyulmasına) və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə məqsədilə daxili nəzarət sistemi haqqında məlumat;

transsərhəd təşkilatının açılması barədə qərar qəbul etmək üçün lazım olan və bu Saziş çərçivəsində təqdim edilə bilən digər informasiya.

5.4. Bank nəzarəti orqanları transsərhəd təşkilatlarının açılması üçün lisenziyaların (icazələrin) verilməsi məsələsinə dair qəbul olunmuş qərar barədə bir-birinə yazılı məlumat verirlər.

Maddə 6

Kredit təşkilatlarının səhmlərinin (paylarının) alınmasına razılıq verilməsi barədə qərar qəbul edilməsi zamanı əməkdaşlıq

6.1. Bank nəzarəti orqanları hüquqi və ya fiziki şəxs, yaxud bir hüquqi və (və ya) fiziki şəxs tərəfindən başqa ölkədə qeydə alınmış kredit təşkilatının səhmlərinin (paylarının) alınmasının razılaşdırılması barədə qərar qəbul edərkən əməkdaşlıq edirlər.

6.2. Azərbaycan Respublikasının ərazisində və ya Rusiya Federasiyasının ərazisində qeydə alınmış kredit təşkilatının səhmlərinin (paylarının) alınması dedikdə, müvafiq ölkənin milli qanunvericiliyinə uyğun olaraq bank nəzarəti orqanı ilə qabaqcadan razılaşdırılması tələb olunan əqd nəzərdə tutulur.

Maddə 7

Transsərhəd təşkilatlarının cari fəaliyyətinə nəzarət sahəsində əməkdaşlıq

7.1. Yerləşmə ölkəsinin bank nəzarəti orqanı milli qanunvericiliyə uyğun olaraq transsərhəd təşkilatlarının fəaliyyətinə bank nəzarətini həyata keçirir.

7.2. Yerləşmə ölkəsinin bank nəzarəti orqanı əsas kredit təşkilatının transsərhəd təşkilatları tərəfindən kredit təşkilatlarının fəaliyyətinə konsolidə nəzarətin həyata keçirilməsi və mənşə ölkədə müəyyən olunmuş formalar üzrə konsolidə hesabatın tərtib edilməsi üçün lazım olan informasiyanın və hesabatın verilməsinə manc olmayacaqdır.

7.3. Mənşə ölkənin bank nəzarəti orqanı əsas kredit təşkilatları barəsində və yerləşmə ölkəsinin bank nəzarəti orqanı transsərhəd təşkilatları barəsində müvafiq sorğular əsasında qarşılıqlı zəmində milli qanunvericiliyə görə, məxfi olmayan aşağıdakı informasiyanı təqdim edirlər:

əsas kredit təşkilatlarının və onların transsərhəd təşkilatlarının maliyyə vəziyyətini səciyyələndirən göstəricilər barədə;

bank qanunvericiliyinin, o cümlədən cinayətkar yolla əldə edilmiş gəlirlərin leqallaşdırılmasına (yuyulmasına) və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin əsas kredit təşkilatları və onların transsərhəd təşkilatları tərəfindən yol verilmiş mühüm pozuntuları barədə;

əsas kredit təşkilatı və ya onun transsərhəd təşkilatları barəsində bank nəzarəti

orqanları tərəfindən tətbiq olunmuş tədbirlər barədə.

Maddə 8

Bank nəzarəti orqanları tərəfindən yoxlamalar aparılarkən əməkdaşlıq

8.1. Mənşə ölkənin bank nəzarəti orqanı öz müvəkkil nümayəndələrinin yoxlama aparmasına yol verilməsi məsələləri üzrə transsərhəd təşkilatları ilə münasibətləri müstəqil surətdə nizama salır.

8.2. Mənşə ölkənin bank nəzarəti orqanı yoxlamanın nəzərdə tutulan başlanma tarixinə ən azı 25 (iyirmi beş) iş günü qalmış transsərhəd təşkilatının adını, yoxlama dövrünü, məsələlərini və yoxlamanın keçirilməsi müddətlərini, yoxlayanları, yoxlamanın nəticələri barədə informasiyanın yerləşmə ölkəsinin bank nəzarəti orqanına təqdim edilməsi qaydasını göstərməklə yerləşmə ölkəsinin bank nəzarəti orqanına məlumat verir.

Maddə 9

Cinayətkar yolla əldə edilmiş gəlirlərin leqallaşdırılmasına (yuyulmasına) və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə məsələləri üzrə əməkdaşlıq

9.1. Nəzarət funksiyalarını həyata keçirmək məqsədilə bank nəzarəti orqanları aşağıdakılar barədə informasiyanı mübadilə edirlər:

cinayətkar yolla əldə edilmiş gəlirlərin leqallaşdırılmasına (yuyulmasına) və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində qanunvericilik aktlarının və digər aktların tələbləri barədə;

müştərilərin və mənfəət götürənlərin eyniləşdirilməsi və öyrənilməsi, cinayətkar yolla əldə edilmiş gəlirlərin leqallaşdırılması (yuyulması) və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqədar əməliyyatların aşkar edilməsi praktikası barədə;

cinayətkar yolla əldə edilmiş gəlirlərin leqallaşdırılmasına (yuyulmasına) və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyə əsas kredit təşkilatları və onların transsərhəd təşkilatları tərəfindən əməl olunması barədə.

Maddə 10

Digər müddəalar

10.1. Razılığa gələn Tərəflərin yazılı razılaşması əsasında bu Sazişdə dəyişikliklər və əlavələr qəbul edilə bilər.

10.2. Bu Sazişin müddəalarına əməl olunması ilə əlaqədar meydana çıxan fikir ayrılıqları məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

10.3. Bu Saziş Azərbaycan Respublikasının Milli Bankı üçün - zəruri dövlətdaxili prosedurları başa çatdıqdan sonra;

Rusiya Bankı üçün - Azərbaycan Respublikası Milli Bankının bu Sazişin qüvvəyə minməsi lazım olan bütün dövlətdaxili prosedurların başa çatdığı barədə Rusiya Bankını lazımi və dəqiq şəkildə xəbərdar etdiyi gün qüvvəyə minir.

Bu Saziş bank nəzarəti orqanlarından birinin Sazişdə iştirak etmək istəmədiyini digər bank nəzarəti orqanına qabaqcadan yazılı şəkildə bildirdiyi vaxtadək qüvvədədir. Bu zaman Saziş bildirişin alındığı tarixdən başlayaraq 30 gün ərzində qüvvədə olur. Belə bildirişin tarixinədək yardım göstərilməsi barədə göndərilmiş sorğulara bu Sazişin şərtlərinə uyğun olaraq bank nəzarəti orqanları tərəfindən baxılmalıdır.

10.4. Azərbaycan Respublikasının Milli Bankı haqqında, Azərbaycan Respublikasının ərazisində qeydə alınmış kredit təşkilatları haqqında informasiya İnternet şəbəkəsində Azərbaycan Respublikası Milli Bankının saytında yerləşdirilir: www.nba.az.

Rusiya Bankı haqqında, Rusiya Federasiyasının ərazisində qeydə alınmış kredit təşkilatları haqqında informasiya və normativ hüquqi baza Rusiya Bankının "Vestnik Banka Rossii" adlı rəsmi nəşrində, habelə İnternet şəbəkəsində Rusiya Bankının saytında yerləşdirilir: www.cbr.ru.

Azərbaycan Respublikasının Milli Bankı və Rusiya Bankı bu Sazişin öz İnternet saytlarında açıq şəkildə yerləşdirilməsinə etiraz etmirlər.

10.5. Bu Saziş qüvvədən düşdükdə, Saziş çərçivəsində alınmış nəzarət məlumatı konfidensial qalmalıdır.

10.6. Bu Saziş Bakı şəhərində 2006-cı il 4 dekabr tarixində eyni hüquqi qüvvəyə malik olan dörd nüsxədə - iki nüsxə Azərbaycan, iki nüsxə rus dilində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ BANKI ADINDAN	RUSİYA FEDERASİYASININ MƏRKƏZİ BANKI ADINDAN
ELMAN RÜSTƏMOV	*OLEQ MOJAYSKİ*
Milli bankının sədri	*Mərkəzi bankı sədrinin müavini*

2007-ci il yanvarın 21-də Əl-Küveyt şəhərində imzalanmış "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Küveyt Dövləti Xarici İşlər Nazirliyi arasında ikitərəfli məsləhətləşmələrə dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il yanvarın 21-də Əl-Küveyt şəhərində imzalanmış "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Küveyt Dövləti Xarici İşlər Nazirliyi arasında ikitərəfli məsləhətləşmələrə dair Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 mart 2007-ci il

№2042

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Küveyt Dövləti Xarici İşlər Nazirliyi arasında ikitərəfli məsləhətləşmələrə dair Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Küveyt Dövləti Xarici İşlər Nazirliyi, iki ölkə arasında mövcud olan dostluq münasibətləri və əməkdaşlığı təşviq etmək niyyətilə,

1961-ci il Diplomatik əlaqələr haqqında Vyana konvensiyasını rəhbər tutaraq,

Beynəlxalq məsələlər və iki dövlət arasındakı ikitərəfli münasibətlərin bütün aspektləri üzrə konstruktiv dialoqun əhəmiyyətini təsdiq edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər ümumi maraqlar kəsb edən beynəlxalq məsələlər, eləcə də Tərəflər arasında əməkdaşlığı genişləndirmək və dərinləşdirmək imkanlarını müzakirə etmək məqsədilə mütəmadi surətdə yüksək səviyyəli rəsmi məsləhətləşmələr keçirəcəklər.

Maddə 2

1. Məsləhətləşmələr Beynəlxalq Təşkilatlar yanında daimi nümayəndəliklər arasında və ya Beynəlxalq Konfranslar çərçivəsində, eləcə də alternativ olaraq Azərbaycan və ya Küveytdə ildə bir dəfə və ya zərurət olduğu təqdirdə daha tez-tez keçiriləcəkdir.

2. Hər bir məsləhətləşmə və ya görüşün gündəliyi diplomatik kanallar vasitəsilə müəyyənləşdiriləcəkdir.

Maddə 3

Tərəflərin razılığı olduğu təqdirdə məsləhətləşmələrin nəticəsi ictimaiyyətə açıqlanacaqdır.

Maddə 4

Tərəflər ümumi maraqlar kəsb edən məsələlərin spesifik sahələrini müzakirə etmək məqsədilə işçi qrup və ya ekspert görüşləri təşkil edə bilərlər.

Maddə 5

Tərəflərin qarşılıqlı razılığı əsasında Anlaşma Memorandumuna əlavələr edilə bilər.

Maddə 6

1. Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qüvvəyə minir.

2. Bu Anlaşma Memorandumu 2 (iki) il ərzində qüvvədə qalır və hər iki Tərəfdən biri iki illik müddətinin başa çatmasına ən azı 3(üç) ay qalmış digər Tərəfə onun qüvvəsini ləğv etmək niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Saziş avtomatik olaraq növbəti iki illik müddətə uzadılır.

Bu Memorandum bütün mətnlər eyni qüvvəyə malik olmaqla, iki əsl nüsxədə Azərbaycan, ərəb və ingilis dillərində 2007-ci il 21 yanvar tarixində ƏlKüveyt şəhərində imzalanmışdır. Mətnlərin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN	KÜVEYT DÖVLƏTİ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN
ELMAR MƏMMƏDYAROV *Xarici işlər naziri*	*MƏHƏMMƏD SABAH ƏL-SƏLİM ƏL-SABAH* *Baş nazirinin müavini, xarici işlər naziri*

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında mədəniyyət və incəsənət sahələrində əməkdaşlığa dair Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında mədəniyyət və incəsənət sahələrində əməkdaşlığa dair Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilməsi barədə Tacikistan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 mart 2007-ci il

№2047

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Mürsəl oğlu Qarayevə verilməsi barədə Tacikistan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 mart 2007-ci il

№2048

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında dəmir yolu nəqliyyatı sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında dəmir yolu nəqliyyatı sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Tacikistan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 mart 2007-ci il

№2049

"Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Tacikistan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 mart 2007-ci il

№2050

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Tacikistan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 mart 2007-ci il

№2051

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Tacikistan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 mart 2007-ci il

№2052

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və akkreditasiya sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və akkreditasiya sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin Baş direktoru Ramiz Ayvaz oğlu Həsənova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin Baş direktoru Ramiz Ayvaz oğlu Həsənova verilməsi barədə Tacikistan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 mart 2007-ci il

№2053

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əli oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əli oğlu Əliyevə verilməsi barədə Tacikistan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 mart 2007-ci il

№2054

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilməsi barədə Tacikistan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 mart 2007-ci il

№2055

"Toxuculuq sahəsində ikitərəfli Sazişin qüvvədən düşməsini nəzərə alaraq "Bir tərəfdən Avropa Birliyi və onun üzvü olan Dövlətlər və digər tərəfdən Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi"nin müddəalarının toxuculuq üzrə ikitərəfli ticarətə tətbiq olunması ilə bağlı Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinə Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Toxuculuq sahəsində ikitərəfli Sazişin qüvvədən düşməsini nəzərə alaraq "Bir tərəfdən Avropa Birliyi və onun üzvü olan Dövlətlər və digər tərəfdən Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi"nin müddəalarının toxuculuq üzrə ikitərəfli ticarətə tətbiq olunması ilə bağlı Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinə Protokol"u Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Avropa Birliyi yanında nümayəndəliyinin başçısı Emin Yaqub oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Avropa Birliyi yanında nümayəndəliyinin başçısı Emin Yaqub oğlu Eyyubova verilməsi barədə Avropa Birliyi tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 mart 2007-ci il

№2056

"Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Macarıstan Respublikasının Maliyyə Nazirliyi arasında Əməkdaşlığa dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Macarıstan Respublikasının Maliyyə Nazirliyi arasında Əməkdaşlığa dair Anlaşma Memorandumu" nu Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən *Anlaşma Memorandumunu* Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilməsi barədə Macarıstan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 mart 2007-ci il

№2057

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin və Almaniya Federativ Respublikasının Qida, Kənd Təsərrüfatı və İstehlakçıların Hüquqlarının Qorunması Federal Nazirliyinin Almaniya Federativ Respublikasının Qida, Kənd Təsərrüfatı və İstehlakçıların Hüquqlarının Qorunması Federal Nazirliyi tərəfindən Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinə Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olması prosesinin bir hissəsi kimi Azərbaycan Respublikasının Sanitar və Fitosanitar Tədbirlər sisteminin Sanitar və Fitosanitar Tədbirlərinin tətbiqi üzrə 1994- cü il 15 aprel tarixli ÜTT Sazişinin tələblərinə cavab verməsinə nail olmaq məqsədilə onun təkmilləşdirilməsinə yönəldilmiş dəstəyə dair Birgə Bəyanatı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il yanvarın 19-da Berlin şəhərində imzalanmış "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin və Almaniya Federativ Respublikasının Qida, Kənd Təsərrüfatı və İstehlakçıların Hüquqlarının Qorunması Federal Nazirliyinin Almaniya Federativ Respublikasının Qida, Kənd Təsərrüfatı və İstehlakçıların Hüquqlarının Qorunması Federal Nazirliyi tərəfindən Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinə Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olması prosesinin bir hissəsi kimi Azərbaycan Respublikasının Sanitar və Fitosanitar Tədbirlər sisteminin Sanitar və Fitosanitar Tədbirlərinin tətbiqi üzrə 1994-cü il 15 aprel tarixli ÜTT Sazişinin tələblərinə cavab verməsinə nail olmaq məqsədilə onun təkmilləşdirilməsinə yönəldilmiş dəstəyə dair Birgə Bəyanatı" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prose-

durların yerinə yetirilməsi barədə Almaniya Federativ Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 mart 2007-ci il

№2059

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin və Almaniya Federativ Respublikasının Qida, Kənd Təsərrüfatı və İstehlakçıların Hüquqlarının Qorunması Federal Nazirliyinin Almaniya Federativ Respublikasının Qida, Kənd Təsərrüfatı və İstehlakçıların Hüquqlarının Qorunması Federal Nazirliyi tərəfindən Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinə Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olması prosesinin bir hissəsi kimi Azərbaycan Respublikasının Sanitar və Fitosanitar Tədbirlər sisteminin Sanitar və Fitosanitar Tədbirlərinin tətbiqi üzrə 1994-cü il 15 aprel tarixli ÜTT Sazişinin tələblərinə cavab verməsinə nail olmaq məqsədilə onun təkmilləşdirilməsinə yönəldilmiş dəstəyə dair Birgə Bəyanatı

I

1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Almaniya Federativ Respublikasının Qida, Kənd Təsərrüfatı və İstehlakçıların Hüquqlarının Qorunması Nazirliyi qeyd edirlər ki:

a) Azərbaycan Respublikası 1997-ci ilin iyun ayında Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olmaq üçün müraciət etmişdir;

b) Azərbaycan Respublikası öz Sanitar və Fitosanitar Sistemini (SFS) Sanitar və Fitosanitar Tədbirlərinin tətbiqi üzrə 1994-cü il 15 aprel tarixli ÜTT Sazişinə (SFS Sazişi) uyğunlaşdırmaq niyyətindədir;

c) Azərbaycan Respublikası SFS Sazişi ilə əlaqədar müvafiq qanunvericiliyin siyahısını və qanunvericiliyin SFS Sazişinə uyğunluq dərəcəsinə dair təhlilləri təqdim etmişdir;

d) AB - TACIS (Technical Assistance for the Commonwealth of Independent States) "AB və Azərbaycan arasında Tərəfdaşlıq və əməkdaşlıq haqqında 2004-cü il 16 yanvar tarixli Sazişin (TƏS) həyata keçirilməsində dəstəyin göstərilməsi" layihəsi çərçivəsində SFS Sazişi üzrə vacib olan qanunvericilik də daxil olmaqla Azərbaycan Respublikasının qanunvericilik sahəsindəki islahatlarına dəstək verən bir sıra layihələr həyata keçirir;

e) Azərbaycan mütəxəssis kadrlarının praktiki təlimi qanunvericilik sahəsindəki islahat işlərini tamamlamalıdır;

və

2. Beləliklə, bəyan edirlər ki:

a) onlar Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin milli notifikasiya və sorğu mərkəzinin hazırlanması və fəaliyyətinin həyata keçirilməsi üçün (NNA/ENQ), həmçinin bitki sağlamlığı, heyvan sağlamlığı üzrə Nazirliyin kadrları üçün praktiki təlimlərin keçirilməsində əməkdaşlıq etmək istəyirlər, eləcə də Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin qida məhsullarının təhlükəsizliyi məsələləri üzrə müvafiq mütəxəssislər dəvət olunacaqdır;

b) təlimlər interval təlimi şəklində planlaşdırılmalıdır və hər rübdə alman və ehtiyac olduğu halda, digər ölkələrdən olan mütəxəssislər tərəfindən 5-10 günlük təkmilləşmə təlimlərinin keçirilməsi nəzərdə tutulmalıdır;

c) milli qurumlar təlim proqramlararası iş planında göstərilən fəaliyyətləri müstəqil şəkildə davam etdirməlidirlər; və d) təlimlər ən geci 31 dekabr 2007-ci il tarixində başa çatdırılmalıdır.

II

Azərbaycan tərəfi

1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin milli notifikasiya idarəsinin (NNA) və sorğu mərkəzinin (ENQ) kadrlarını təyin etməyə və öz xərci hesabına lazımi sayda kompyuter, sürətli internet birləşməsi (tələb olunduğu halda peyk vasitəsilə), elektron poçt, faks və telefon ilə təchiz etməyə (yerli mənbələr kifayət etmədiyi təqdirdə bu cür kompyuter stansiyalarının təşkilinə texniki dəstək almaq üçün digər beynəlxalq donorlar dəvət edilə bilərlər);

2. Alman tərəfinin təklif etdiyi layihə rəhbəri ilə sıx əlaqədə razılaşdırılan fəaliyyətlərin planlaşdırılmasında və idarə edilməsində iştirak edəcək və layihə rəhbərinə mütəmadi şəkildə hesabat verəcək koordinatoru təyin etməyə;

3. gələcəkdə NNA və/və yaxud ENQ-də çalışacaq bütün təlim iştirakçılarına pulsuz ingilis dili kursunda (işgüzar ingilis dili) iştirak üçün imkan yaratmağa;

4. təlimlərdə iştirak edəcək Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin milli notifikasiya və sorğu mərkəzi (NNA//ENQ), eləcə də bitki sağlamlığı, heyvan sağlamlığı üzrə şöbələrin mütəxəssis kadrlarının adlarının bildirilməsinə və ehtiyac duyulduğu müddətdə iş yerindən icazə verməyə, həmçinin layihənin fəaliyyətində iştirak etmək üçün Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin qida məhsulları təhlükəsizliyi üzrə əməkdaşlarını dəvət etməyə;

5. layihə rəhbərinin iştirakçı idarələrə buraxılışını yüngülləşdirməyə və danışıqların təşkil edilməsinə öhdəlik götürür.

III

Alman tərəfi

1. layihəyə yerində rəhbərlik etməyə və təlim proqramlarını təyin edilən vaxtda keçirməyə;

2. Azərbaycan tərəfindən olan koordinator və Azərbaycan Respublikasının kənd təsərrüfatı və səhiyyə nazirliklərinin texniki şöbələrinin mütəxəssisləri ilə birgə 2007-ci il üçün iş planının tərtib edilməsinə;

3. iş planında qeyd edilən xüsusi fəaliyyətlərə, iş qaydalarını və şərtlərini tərtib etməyə, mütəxəssislərin tapşırıqlarının nəticələrini qiymətləndirməyə Almaniyadan və yaxud ehtiyac olduğu halda, digər ölkələrdən təcrübəli mütəxəssisləri cəlb etməyə;

4. Azərbaycanın mütəxəssis kadrlarına təlim proqramının tərtib edilməsində və yaxud uyğunlaşdırılmasında məsləhət verməyə;

5. nümunəvi şəkildə və AB-TACİS-lə sıx əməkdaşlıqda Azərbaycan qanunvericiliyini təhlil etməyə və onun təkmilləşdirilməsi üçün tövsiyələr hazırlamağa;

6. təlimlərdənkənar vaxtda sorğuları elektron poçt və yaxud telefon vasitəsilə cavablandırmağa;

7. Azərbaycan Respublikasının kənd təsərrüfatı və səhiyyə nazirliklərinə hər rüb layihənin gedişatı haqqında hesabat verməyə və yekun hesabatı təqdim etməyə öhdəlik götürür.

IV

Tərəflər aşağıdakılar barədə eyni fikirdədirlər:

1. onların məqsədi aşağıdakılardan ibarətdir:

a) təlimin başa çatmasından sonra Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin milli notifikasiya idarəsi və sorğu mərkəzi fəaliyyət qabiliyyətində olsun və bunun üçün aşağıdakılar vacib meyar kimi qəbul edilməlidir:

Azərbaycan Respublikası tərəfindən qəbul edilən milli qaydalar barədə məlumatların Ümumdünya Ticarət Təşkilatına daxil olması;

aidiyyəti Azərbaycan idarələrinin digər ÜTT üzvlərinin SFS tədbirləri haqqında mütəmadi şəkildə məlumatlandırılması;

daxil olan sorğuların işlənilməsi;

ticarət tərəfdaşları tərəfindən SFS tədbirlərinə dair mütəxəssis rəyi;

SFS sahəsinə aid seçilmiş qanunvericiliyin ÜTT tələblərinə tam uyğun olması;

b) təlimlərin başa çatmasından sonra Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin bitki sağlamlığı, heyvan sağlamlığı və Səhiyyə Nazirliyinin qida məhsulları təhlükəsizliyi üzrə mütəxəssis şöbələri öz sahələri üzrə Azərbaycan qanunvericiliyinin ÜTT-nin SFS Sazişinin müvafiq tələblərinə uyğunlaşdırılmasına dair töhfələrini verməyə qadir olsunlar;

2. təlim çərçivəsində alman nümayəndələri tərəfindən tərtib edilən bütün materiallara alman tərəfinin çıxış hüququnun olması;

3. ikitərəfli razılıq əsasında əhəmiyyətli iş nəticələrini və yenilikləri maraq göstərən digər hökumətlər, xüsusilə də BMT-nın Mərkəzi Asiya Ölkələri üzrə Xüsusi Proqramının üzvü olan ölkələr (Əfqanıstan, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan) əldə edə bilsinlər;

4. bu Birgə Bəyanat əsasında əməkdaşlığın üsul və qaydası ilə bağlı fikir ayrılığı yaranarsa, məsələ ikitərəfli razılıq əsasında həll edilsin;

5. bu Birgə Bəyanat ikitərəfli razılıq əsasında yazılı şəkildə dəyişdirilə və yaxud ona

əlavə edilə bilsin.

Berlin şəhərində 2007-ci il yanvarın 19-da iki əsl nüsxədə, hər biri Azərbaycan, alman və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni dərəcədə autentikdir. Mətndə uyğunsuzluq və ya təfsirdə fikir ayrılığı yarandığı təqdirdə ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ ADINDAN	ALMANİYA FEDERATİV RESPUBLİKASININ QİDA, KƏND TƏSƏRRÜFATI VƏ İSTEHLAKÇILARIN HÜQUQLARININ QORUNMASI NAZİRLİYİ ADINDAN
(imza)	*(imza)*

"Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakta uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsi ilə bağlı üçüncü dövri hesabatın hazırlanması və təqdim olunması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakta Azərbaycan Respublikasının qoşulmasını nəzərə alaraq və həmin Paktın müddəalarına uyğun olaraq Azərbaycan Respublikasının öz öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı həyata keçirdiyi tədbirlər barədə üçüncü dövri hesabatın hazırlanmasını təmin etmək və Azərbaycan Respublikasının adından Birləşmiş Millətlər Təşkilatına təqdim olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakta uyğun Azərbaycan Respublikasının öz öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı keçirdiyi tədbirlər barədə üçüncü dövri hesabatın hazırlanması üçün aşağıdakı tərkibdə İşçi qrupu yaradılsın:

İşçi qrupunun rəhbəri

Xələf Xələfov	- Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

İşçi qrupunun üzvləri:

Oruc Zalov	- Azərbaycan Respublikası daxili işlər nazirinin müavini
Əli Şəfiyev	- Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini
Toğrul Musayev	- Azərbaycan Respublikası ədliyyə nazirinin müavini
Rüstəm Usubov	- Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini
İntiqam Babayev	- Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini
İlqar Rəhimov	- Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini
Sədaqət Qəhrəmanova	- Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini

2. İşçi qrupuna tapşırılsın ki, dörd ay müddətində bu Sərəncamın 1-ci bəndində göstərilən hesabatın layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən üçüncü dövri hesabatın hazırlanıb baxıldıqdan sonra Birləşmiş Millətlər Təşkilatına təqdim olunmasını təmin etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 mart 2007-ci il

№2068

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası üzrə yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarətiqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası üzrə yeni tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:[1]

Komissiyanın sədri

Yaqub Eyyubov	- Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Komissiyanın üzvləri:

Xələf Xələfov	- Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Niyazi Səfərov	- Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini
Gülməmməd Cavadov	- Azərbaycan Respublikası sənaye və energetika nazirinin müavini
Azər Bayramov	- Azərbaycan Respublikası maliyyə nazirinin müavini
Musa Pənahov	- Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini
Bəhram Əliyev	- Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini
Elmar Qasımov	- Azərbaycan Respublikasının təhsil nazirinin müavini
Teymur Mehdiyev	- Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini
Nazim İbrahimov	- Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri
Səfər Mehdiyev	- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədrinin birinci müavini
Ramiz Həsənov	- Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya

və Patent üzrə Dövlət Komitəsinin sədri

Elşad Nəsirov - Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti

Sabir İlyasov - "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti

Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının MDB ölkələri ilə iqtisadi əlaqələr şöbəsinin müdiri

Lətif Qəndilov - Azərbaycan Respublikasının Qazaxıstan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri

2. "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası üzrə tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 5 fevral tarixli 68 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu, № 2, maddə 103) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası üzrə yeni tərkibi barədə Qazaxıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 mart 2007-ci il

№2070

Sərəncama edilmiş dəyişiklik və əlavələrin siyahısı

[1] 16 yanvar 2009-cu il tarixli 117 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ("Azərbaycan" qəzeti 17 yanvar 2009-cu il, № 12, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №01, maddə 17) ilə 1-ci bəndində "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini" sözləri ilə, "Ramiz Həsənov - Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin Baş direktoru" sözləri "Ramiz Həsənov - Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri" sözləri ilə, "Sabir İlyasov - "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktorunun birinci müavini" sözləri "Sabir İlyasov - "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti" sözləri ilə, "Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının regionlararası iqtisadi əlaqələr şöbəsinin müdiri" sözləri "Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının MDB ölkələri ilə iqtisadi əlaqələr şöbəsinin müdiri" sözləri ilə əvəz edilmişdir, "Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini" sözlərindən sonra "Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini" sözləri, "Teymur Mehdiyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin

müavini" sözlərindən sonra "Nazim İbrahimov - Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri" sözləri və "Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının MDB ölkələri ilə iqtisadi əlaqələr şöbəsinin müdiri" sözlərindən sonra "Lətif Qəndilov - Azərbaycan Respublikasının Qazaxıstan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri" sözləri əlavə edilmişdir.

"Azərbaycan Respublikası Hökuməti ilə Yaponiyanın Mitsubişi Korporasiyası arasında "Bakı şəhərində tullantılardan alınan metan qazının yığılması üzrə Təmiz İnkişaf Mexanizmi layihəsi" haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Yaponiyanın Mitsubişi Korporasiyası arasında "Bakı şəhərində tullantılardan alınan metan qazının yığılması üzrə Təmiz İnkişaf Mexanizmi layihəsi" haqqında Anlaşma Memorandumu" nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Yaponiyanın Mitsubişi Korporasiyasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 mart 2007-ci il

№2072

"Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının imtiyaz və immunitetləri haqqında" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının imtiyaz və immunitetləri haqqında" 2003-cü il oktyabrın 31-də Bakı şəhərində imzalanmış Protokol təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 mart 2007-ci il

№264-IIIQ

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının imtiyaz və immunitetləri haqqında Protokol

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlər - Albaniya Respublikası, Azərbaycan Respublikası, Bolqarıstan Respublikası, Ermənistan Respublikası, Gürcüstan, Moldova Respublikası, Rumıniya, Rusiya Federasiyası, Türkiyə Respublikası, Ukrayna və Yunanıstan Respublikası,

İstanbul şəhərində imzalanmış 15 iyun 1992-ci il tarixli "Qara Dəniz İqtisadi Əməkdaşlığı üzrə Zirvə Toplantısının Bəyanatı"nın, növbəti Zirvə Toplantısının qərarlarının, o cümlədən 26 fevral 1993-cü ildə İstanbulda qəbul olunmuş "Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının təsis edilməsi haqqında Bəyanat"ın prinsipləri əsasında QDİƏT-in məqsədlərini dəstəkləmək üçün QDİƏTPA-nın məşvərətçi əsasda QDİƏT ilə sıx əməkdaşlığının üzv dövlətlərin Milli Parlamentlərini təmsil edən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının Qara Dəniz əməkdaşlıq prosesinə davamlı dəstək verməsini təmin edən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Nizamnaməsinin 20-ci maddəsini nəzərə alaraq,

QDİƏT-in Parlament Assambleyasının əməkdaşlıq və qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi, regionda sabitlik və sülhün dəstəklənməsi və Qara Dəniz İqtisadi Əməkdaşlığının prinsip və məqsədlərinin həyata keçirilməsinin asanlaşdırılması işində ictimai dəstəyi səfərbər etmək sahəsində mühüm rol oynaya biləcəyini nəzərə alaraq,

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının İmtiyaz və İmmunitetləri haqqında Protokolun imzalanmasının QDİƏT-in prinsip və məqsədlərinə uyğun olaraq Assambleyanın funksiyalarını asanlaşdıracağına əmin olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

I fəsil

ANLAYIŞLAR

Maddə 1

Bu Protokolun məqsədləri üçün:

a) "Nizamnamə" 5 iyun 1998-ci ildə Yaltada imzalanmış Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Nizamnaməsi deməkdir.

b) "Şura" QDİƏT-in Xarici İşlər Nazirləri Şurası deməkdir.

c) "Üzv dövlətlər" 1998-ci il iyunun 5-də Yaltada imzalanmış Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Nizamnaməsinin və bu Protokolun iştirakçısı olan Dövlətlər deməkdir.

d) "QDİƏTPA" Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası deməkdir.

e) "Üzv dövlətlərin Parlamentlərinin Nümayəndələri" müvafiq milli parlamentlər tərəfindən təyin olunmuş nümayəndə heyətləri, o cümlədən QDİƏTPA- nın və onun orqanlarının işində iştirak edən alternativ nümayəndələr, məsləhətçilər, texniki ekspertlər və nümayəndə heyətlərinin katibliklərı deməkdir.

f) "QDİƏT-in DBK"-sı Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Daimi Beynəlxalq Katibliyi deməkdir.

g) "Beynəlxalq Katibliyin Heyəti" QDİƏTPA-nın Beynəlxalq Katibliyinin rəhbər, peşəkar və texniki heyəti deməkdir.

h) "QDİƏTPA-nın Əmlakı" fondlar və QDİƏTPA-nın yerinə yetirdiyi rəsmi vəzifələrə uyğun olaraq QDİƏTPA-ya məxsus olan və ya onun tərəfindən idarə edilən digər mülkiyyət də daxil olmaqla, bütün əmlak deməkdir.

i) "Daşınmaz Əmlak" mülkiyyət hüququndan asılı olmayaraq QDİƏTPAnın məqsədləri üçün istifadə edilən binalar və əlavə torpaq sahəsi də daxil olmaqla, binaların hissələri deməkdir.

j) "Arxiv" sənədlər, yazışmalar, mühasibat uçotu və digər maliyyə sənədləri, əlyazmalar, daşınar və daşınmaz şəkil və filmlər, fonoqram, kompyuter proqramları, yazılı materiallar, videolentlər və disklər QDİƏTPA-ya məxsus olan və ya onun tərəfindən aparılan məlumatları özündə saxlayan disk və lentlər deməkdir.

II fəsil

ƏMLAK

Maddə 2

QDİƏTPA onun əmlakının harada yerləşməsindən və kimə məxsus olmasından asılı olmayaraq, Şuranın öz qərarı ilə bu immuniteti ləğv etməyə imkan verən xüsusi bir hal istisna olmaqla, məhkəmə prosesinin istənilən formasında immunitetdən istifadə edir. Bununla belə, immunitetin ləğv edilməsi əmlakın üzərinə həbs qoyulması və ya istənilən qətimkan tədbirlərinə şamil olunmayan hal kimi başa düşülməlidir.

Maddə 3

QDİƏTPA-nın daşınmaz əmlakı toxunulmazdır.

Maddə 4

Harada yerləşməsindən asılı olmayaraq, QDİƏTPA-nın arxivi və ümumiyyətlə, QDİƏTPA-ya məxsus olan və onun tərəfindən saxlanılan bütün sənədlər toxunulmazdır.

III fəsil

ÜZV DÖVLƏTLƏRİN PARLAMENT NÜMAYƏNDƏLƏRİ

Maddə 5

Üzv dövlətlərin Parlament Nümayəndələri QDİƏTPA-nın iclaslarında funksiyalarını yerinə yetirərkən, bu iclasların keçirildiyi yerə gedərkən və oradan qayıdarkən aşağıdakı imtiyaz və immunitetlərdən istifadə edirlər:

a) həbs, saxlanma və şəxsi yükün saxlanmasına qarşı immunitet və nümayəndə kimi səlahiyyətlərindən irəli gələcək dediyi və ya yazdığı sözlərə və etdiyi hərəkətlərə görə istənilən növ məhkəmə proseslərinə cəlb olunmağa qarşı immunitet;

b) sənədlərin, o cümlədən onlara aid olan, məlumat saxlayan kompyuter proqramları, videolentlər və disklərin toxunulmazlığı;

c) kodlardan istifadə və kuryer və ya üzv dövlətin diplomatik missiyaları vasitəsilə möhürlənmiş qutularda sənəd və ya məktub almaq hüququ;

d) funksiyalarını yerinə yetirmək üçün səfər etdikləri və ya ərazisindən keçdikləri QDİƏT-ə üzv dövlətlərdə onların özlərinin və həyat yoldaşlarının immiqrasiya məhdudiyyətləri, xaricilərin qeydiyyatı və ya hərbi mükəlləfiyyətdən azad edilməsi;

e) gömrük və valyuta nəzarəti sahəsində aşağıdakılar verilməlidir:

- öz hökuməti tərəfindən müvəqqəti rəsmi vəzifə üçün xaricə səfər edən yüksək səviyyəli rəsmilərə verilən eyni imtiyazlar;

- digər üzv dövlətlərin hökumətləri tərəfindən müvəqqəti rəsmi vəzifə üçün xarici hökumətin nümayəndələrinə verilən eyni imtiyazlar.

Maddə 6

Üzv dövlətlərin parlament nümayəndələrinin vəzifələrini yerinə yetirən zaman söz azadlığı və müstəqilliklərinin təmin edilməsi məqsədilə həmin şəxslərin artıq bu vəzifələri yerinə yetirilməməsindən asılı olmayaraq, vəzifələrini yerinə yetirən zaman dediyi və ya yazdığı sözlərə və etdiyi hərəkətlərə görə istənilən növ məcburetmə tədbirlərinə qarşı immunitetlə təmin edilməlidirlər.

Maddə 7

Üzv dövlətlərin parlament nümayəndələrinə imtiyaz və immunitetlər şəxsi faydaları üçün yox, QDİƏTPA ilə bağlı funksiyalarının müstəqil yerinə yetirilməsini təmin etmək üçün verilir. Bu səbəbdən, əgər üzv dövlət bu immunitetin ədalət mühakiməsinin yerinə yetirilməsinə mane olduğunu hesab edirsə və bu immunitet verilmə məqsədinə xələl gətirilmədən ləğv edilə bilərsə, üzv dövlət öz parlament nümayəndəsinin immunitetini ləğv etmək hüququna malikdir.

Maddə 8

5, 6 və 7-ci maddələrin müddəaları üzv dövlətin parlamentinin nümayəndəsi ilə bu Dövlət arasında münasibətlərə tətbiq edilmir.

IV fəsil

BEYNƏLXALQ KATİBLİYİN HEYƏTİ

Maddə 9

5, 6, 7 və 8-ci maddələrin müddəaları Beynəlxalq Katibliyin heyətinə QDİƏTPA-nın iclaslarında funksiyalarını yerinə yetirərkən, bu iclasların keçiriləcəyi yerə gedərkən və oradan qayıdarkən tətbiq edilir.

V fəsil

MÜBAHİSƏLƏRİN HƏLLİ

Maddə 10

Bu Protokolun təfsiri və ya tətbiqi ilə bağlı olaraq, üzv dövlətlər arasında yaranan mübahisələr məsləhətləşmələr yolu ilə həll edilməlidir və əgər razılıq əldə olunmazsa, ələ-

qədar tərəflər bu mübahisəni müzakirə edilmək və beynəlxalq hüquqa uyğun müvafiq tədbirlər görmək üçün Şuraya çıxarırlar.

VI fəsil

YEKUN MÜDDƏALAR

Maddə 11

Bu Protokolun heç bir müddəası Nizamnamənin 20-ci maddəsinə müvafiq olaraq QDİƏTPA-nın QDİƏT ilə bağlı orqan kimi statusunun nə bilvasitə, nə də bilavasitə dəyişdirməsi kimi təfsir edilə bilməz.

Maddə 12

1. Bu Protokol Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan bütün dövlətlər tərəfindən imzalanmaq və qoşulmaq üçün açıq olacaqdır.

2. Bu Protokol ratifikasiya, qəbul və təsdiq edilməlidir.

3. Ratifikasiya, təsdiqetmə, qəbuletmə və ya qoşulma haqqında sənədlər QDİƏT-in DBK-sına saxlanca verilməlidir.

Maddə 13

8 və 9-cu maddələrin müddəaları istisna olmaqla, bu Protokola heç bir qeyd-şərt edilə bilməz.

Maddə 14

1. Bu Protokol onu imzalamış doqquz Dövlətin ratifikasiya, təsdiqetmə, və qəbuletmə haqqında sənədlərinin saxlanca verilməsi tarixindən sonra gələn ayın birinci günü qüvvəyə minir.

2. Bu Protokolun qüvvəyə minməsindən sonra bu Protokolu ratifikasiya, təsdiq, qəbul edən və ya ona qoşulan Dövlətə münasibətdə bu Protokol müvafiq sənədin saxlanca verilməsi tarixindən qüvvəyə minir.

Maddə 15

1. İstənilən üzv dövlət bu Protokola dəyişiklik edilməsini təklif edə bilər.

2. Təklif edilən dəyişikliyin mətni QDİƏT-in DBK-sı vasitəsilə Təşkilatın üzvü olan dövlətlərə göndərilməli, nəzərdən keçirilmək və təsdiq olunmaq üçün Şuraya təqdim edilməlidir.

3. Yuxarıdakı 2-ci bəndə müvafiq olaraq təsdiq olunmuş dəyişiklik üzv dövlətlər tərəfindən ratifikasiya, qəbul və təsdiq edilməli və 14-cü maddədə göstərilən prosedurlara uyğun olaraq qüvvəyə minməlidir.

Maddə 16

Protokolun ingilis dilində bir nüsxədə olan əsli Depozitariyə saxlanca verilir.

Bunun təsdiq olaraq, öz hökumətləri tərəfindən lazımi qaydada səlahiyyətləndirilmiş aşağıda imza edənlər bu Protokolu imzaladılar.

2003-cü il oktyabrın 31-də Bakı şəhərində imzalanmışdır.

ALBANİYA RESPUBLİKASI
ADINDAN

(imza)

AZƏRBAYCAN RESPUBLİKASI
ADINDAN

(imza)

BOLQARISTAN RESPUBLİKASI
ADINDAN

(imza)

ERMƏNİSTAN RESPUBLİKASI
ADINDAN

(imza)

GÜRCÜSTAN
ADINDAN

(imza)

MOLDOVA RESPUBLİKASI
ADINDAN

(imza)

RUMINİYA
ADINDAN

(imza)

RUSİYA FEDERASİYASI
ADINDAN

(imza)

TÜRKİYƏ RESPUBLİKASI
ADINDAN

(imza)

UKRAYNA
ADINDAN

(imza)

YUNANISTAN RESPUBLİKASI
ADINDAN

(imza)

"Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Ali Təhsil Nazirliyi arasında elm və təhsil sahəsində əməkdaşlıq haqqında" Memorandumun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Ali Təhsil Nazirliyi arasında elm və təhsil sahəsində əməkdaşlıq haqqında" 2007-ci il yanvarın 15-də Bakı şəhərində imzalanmış Memorandum təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 mart 2007-ci il

№265-IIIQ

Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Ali Təhsil Nazirliyi arasında elm və təhsil sahəsində əməkdaşlıq haqqında Memorandum

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Təhsil Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Ali Təhsil Nazirliyi iki ölkə arasında mövcud olan dostluq əlaqələrini möhkəmləndirmək, elm və təhsil sahəsində əməkdaşlıq səviyyəsini yüksəltmək niyyətini əsas tutaraq və iki öl-kənin mövcud qanunvericiliyinə və qüvvədə olan qanunlara uyğun olaraq ölkələr arasında əməkdaşlığın dərinləşdirilməsinin hər bir ölkə üçün faydalı olacağını təsdiq edərək və 02.02.1415-ci il Hicri tarixində, 10.07.1994-cü il Miladi tarixində iqtisadi, ticarət, investisiya, texniki, mədəniyyət və idman sahələrində əməkdaşlıq haqqında Azərbaycan Respublikasının və Səudiyyə Ərəbistanı Krallığının Hökumətləri tərəfindən imzalanmış Sazişi əsas tutaraq aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər ali təhsilə cavabdeh olan yüksəkvəzifəli məmurların, eləcə də müəllim heyətinin bir qrup nümayəndəsinin və tədqiqatçıların qarşılıqlı mübadiləsi üçün şərait yaradacaq, Tərəflər arasında razılaşdırılmış sahələrdə əməkdaşlıq edəcək, elm və təhsil sahələrində nümayəndə heyətlərinin qarşılıqlı mübadiləsini təşviq edəcəklər.

Maddə 2

Tərəflər hər iki ölkənin akademik və tədqiqat institutları arasında birbaşa elmi və təhsil əlaqələrinin qurulmasına imkan yaradılması üçün birgə səy göstərəcəklər, imkan daxilində müəllim heyətinin və tədqiqatçıların mübadiləsinə şərait yaradacaqlar.

Maddə 3

Tərəflər iki ölkənin ali təhsil müəssisələrinin, universitetlərinin və tədqiqat mərkəzlərinin elmi, texnoloji və administrativ sahələrdə əldə etdikləri qabaqcıl təcrübə və ekspertlərin mübadiləsini təşkil edəcəklər.

Maddə 4

Tərəflər ümumilikdə və xüsusilə tətbiqi fənlər sahəsində elmi tədqiqatların aparılmasına şərait yaradacaqlar. Onlar birgə tədqiqat qrupları təşkil edəcək və aparılmış tədqiqat və araşdırmalardan əldə olunmuş nəticələrin mübadiləsi üçün şərait yaradacaqlar.

Maddə 5

Tərəflər iki ölkənin ali təhsil müəssisələrinin kadrlarının xüsusilə texnika, tibb və texnologiya sahələrində ixtisaslarının artırılması üçün şəraitin yaxşılaşdırılması istiqamətində fəaliyyət göstərəcəklər.

Maddə 6

Tərəflər iki ölkənin universitetləri arasında tədris sahəsində əməkdaşlığın gücləndirilməsi, elmi dərəcələrin və ali təhsil diplomlarının qarşılıqlı tanınması məqsədilə məlumat mübadiləsi aparacaqlar. Onlar həmçinin təhsil sistemləri haqqında məlumat mübadiləsi aparacaqlar.

Maddə 7

Tərəflər imkan daxilində akademik təqaüdlərin ayrılması imkanlarını öyrənəcək və tələbələrin qarşılıqlı səfərləri üçün şərait yaradacaqlar.

Maddə 8

Tərəflər iki ölkənin ali təhsil müəssisələrində elmi və mədəni mərasimlər üçün xüsusi günlər və həftələr təşkil edəcəklər. Həmin günlərdə mühazirələr, seminarlar və kitab sərgiləri təşkil olunacaqdır.

Maddə 9

Tərəflər kitablar, elmi məcmuələr, dövri mətbuat, sənədlər, kompyuter proqramları, filmlər, ali təhsilə, elmi tədqiqatlara aid olan başqa mənbələrin də mübadiləsini aparacaqlar.

Maddə 10

Tərəflər əvvəlcədən tədbirlər haqqında məlumat vermək şərtilə ölkə və ya beynəlxalq səviyyədə təşkil olunan konfranslarda, simpoziumlarda və seminarlarda öz ölkələrinin mütəxəssislərinin iştirakını təşviq edəcəklər.

Maddə 11

Tərəflər tarixi əlyazmaların, arxivlərin (fondların) və sənədlərin istifadə-si prosesinin təmin edilməsi üçün səy göstərəcək, bu sahədə mütəxəssis mübadiləsi aparacaqlar.

Maddə 12

Tərəflər qarşılıqlı olaraq öz ölkələrində Azərbaycan və ərəb dillərinin tədrisini dəstəkləyəcəklər.

Maddə 13

Tərəflər bir-birinin tanınmış elmi və ədəbi əsərlərinin tərcümə və nəşr olunmasını təşviq edəcəklər.

Maddə 14

Tərəflər öz aralarında mübadilə olunan məlumatlan istifadə və manipulyasiya etməyəcəkləri, razılaşdırılmış məqsədlər istisna olmaqla, onlardan istifadə etməyəcəkləri barədə razılığa gəldilər.

Tərəflər əldə olunmuş məlumatı (və ya məlumatın bir hissəsini) üçüncü tərəfə tərəfdaş ölkənin yazılı razılığı olmadan təqdim etməyəcəklərini təsdiqlədilər.

Maddə 15

Bu Memorandum beş il müddətinə bağlanılır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən biri müvafiq müddətin bitməsinə ən azı altı ay qalmış bu Memorandumu ləğv etmək niyyəti barədə digər Tərəfi yazılı şəkildə xəbərdar etmədiyi təqdirdə, Memorandumun qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılır. Memorandum

ləğv olunduğu təqdirdə onun əsasında həyata keçirilən və ya tamamlanmayan proqramlar və layihələr üzrə işlər onlar tamamlanana qədər davam etdirilir.

Bu Memorandum Bakı şəhərində 25 Zilhiccə 1426-cı il Hicri tarixində, 15 yanvar 2007-ci il Miladi tarixində üç əsl nüsxədə, hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır. Bu Memorandumun təfsirində fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ ADINDAN	SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ ALİ TƏHSİL NAZİRLİYİ ADINDAN
MİSİR MƏRDANOV	*XALİD MƏHƏMMƏD ƏL ANQARİ*
Təhsil naziri	*Ali təhsil naziri*

E. N. Səlimovun Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Eldar Nadir oğlu Səlimov Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 aprel 2007-ci il

№2082

E. N. Səlimovun Azərbaycan Respublikasının Qətər Dövlətində Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Eldar Nadir oğlu Səlimov Azərbaycan Respublikasının Qətər Dövlətində Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 aprel 2007-ci il

№2083

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Mərakeş Krallığının Kənd Təsərrüfatı, Kəndin İnkişafı və Dəniz Balıqçılığı Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Mərakeş Krallığının Kənd Təsərrüfatı, Kəndin İnkişafı və Dəniz Balıqçılığı Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İsmət Dursun oğlu Abasova verilməsi barədə Mərakeş Krallığı tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 aprel 2007-ci il

№2084

Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№267-IIIQ

Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamə

1. Xarici ölkədə pasportunu itirmiş, pasportu oğurlanmış və ya yararsız hala düşmüş, pasportunun etibarlılıq müddəti bitmiş Azərbaycan Respublikası vətəndaşının və onunla birgə Azərbaycan Respublikasına qayıdan 18 yaşına çatmayan və ya xarici dövlətdə 18 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşının, habelə Azərbaycan Respublikasında qanuni əsaslarla daimi yaşayan vətəndaşlığı olmayan şəxsin və onunla birgə Azərbaycan Respublikasına qayıdan 18 yaşına çatmayan və ya xarici dövlətdə 18 yaşına çatmış Azərbaycan Respublikasında daimi yaşayan uşağının Azərbaycan Respublikasına qayıtmaq hüququ Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsi əsasında həyata keçirilir.

Bu Əsasnamə Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin (bundan sonra

"Şəhadətnamə" adlandırılacaq) verilməsi qaydasını müəyyən edir.

2. Bu Əsasnamədə "pasport" dedikdə, Azərbaycan Respublikasının ümumvətəndaş, xidməti, diplomatik pasportu, dənizçi pasportu, habelə Azərbaycan Respublikasının hüdudlarından kənara getməsi üçün Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi nəzərdə tutulur.[1]

3. Şəhadətnamə - Azərbaycan Respublikası vətəndaşının və Azərbaycan Respublikasında qanuni əsaslarla daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən rəsmi sənəddir.

4. Şəhadətnamə Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi və ya konsulluğu tərəfindən verilir. Şəhadətnamə ciddi hesabat sənədi kimi tətbiq edilir. Şəhadətnamə blanklarının ciddi hesabat sənədi kimi uçotu qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. İki cür olan Şəhadətnamə blankları bu Əsasnaməyə əlavə olunmuş nümunələr (Əlavələr №1, №2) və müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən spesifikasiya əsasında hazırlanır.

5. Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi və ya konsulluğu olmayan xarici ölkədə pasportunu itirmiş, pasportu oğurlanmış və ya yararsız hala düşmüş, pasportunun etibarlılıq müddəti bitmiş Azərbaycan Respublikası vətəndaşının və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin Şəhadətnamə ilə təmin edilməsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən bu ölkədə Azərbaycan Respublikasının mənafeyini ikitərəfli və ya çoxtərəfli beynəlxalq müqavilələrlə müəyyən edilmiş qaydada təmsil edən digər dövlətin diplomatik nümayəndəliyi və ya konsulluğu vasitəsilə həyata keçirilir.

6. Şəhadətnamənin alınması üçün bu Əsasnaməyə əlavə olunmuş forma üzrə doldurulmuş ərizə-anket (Əlavələr №3, № 4) Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinə və ya konsulluğuna təqdim edilir.

7. Şəhadətnamənin verilməsi haqqında ərizə-anketə aşağıdakı sənədlər və ya onların surətləri əlavə edilməlidir:

7.1. pasport yararsız hala düşdükdə və ya onun etibarlılıq müddəti bitdikdə - pasportun özü;

7.2. 2 ədəd rəngli fotoşəkil (3x4 sm ölçüdə);

7.3. üzərində fotoşəkil olan aşağıdakı sənədlərdən biri - Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi, Azərbaycan Respublikası tərəfindən verilmiş hərbi bilet, Azərbaycan Respublikası tərəfindən verilmiş sürücülük vəsiqəsi və ya şəxsiyyətini və ya vətəndaşlığını müəyyənləşdirən digər rəsmi sənədi;

7.4. Azərbaycan Respublikasının vətəndaşı ilə birgə gedən 18 yaşına çatmayan və ya xarici dövlətdə 18 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşının doğum haqqında şəhadətnaməsi və ya şəxsiyyət vəsiqəsi;

7.5. Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsə Azərbaycan Respublikası tərəfindən verilmiş şəxsiyyətini təsdiq edən digər rəsmi sənəd;

7.6. Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslə birgə gedən 18 yaşına çatmayan və ya xarici dövlətdə 18 yaşına çatmış uşağının do-

ğum haqqında şəhadətnaməsi və ya Azərbaycan Respublikası tərəfindən verilmiş şəxsiyyətini təsdiq edən rəsmi sənəd ;

7.7. dövlət rüsumunun ödənilməsi haqqında sənəd.

8. Şəhadətnamənin verilməsi haqqında ərizə-anket Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya konsulluğunda qeydiyyata alınır.

9. Azərbaycan Respublikasının vətəndaşı və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxs tərəfindən bu Əsasnamənin 7- ci bəndində göstərilən sənədlər təqdim edildikdən sonra Şəhadətnamə ərizə-anket qeydiyyata alındığı vaxtdan ən geci 3 təqvim günü müddətində verilir.

10. Azərbaycan Respublikası vətəndaşının və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən müvafiq sənədlər mövcud olmadıqda, Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi və ya konsulluğu onun özü barəsində təqdim etdiyi məlumatların düzgünlüyünün yoxlanılması məqsədilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı vasitəsilə, müstəsna hallarda isə birbaşa Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına sorğu göndərir.

11. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı qısa müddət ərzində (3 iş günündən çox olmamaq şərtilə) sorğunun icrası ilə bağlı müvafiq yoxlamalar aparır və əldə olunmuş nəticələr barədə məlumatları Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinə və ya konsulluğuna bildirir.

12. Azərbaycan Respublikası vətəndaşının və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin özləri barəsində təqdim etdikləri məlumatların düzgünlüyü təsdiq edildikdə, onlara bu Əsasnamənin 9-cu bəndində göstərilən müddətdə Şəhadətnamə verilir.

13. Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsə Şəhadətnamə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının razılığı ilə verilir.

14. Verilmiş Şəhadətnamələr barədə məlumatlar Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi və ya konsulluğu tərəfindən qaytanlanmış, nömrələnmiş və möhürlə təsdiqlənmiş xüsusi kitabda qeyd edilir.

14-1. Qayıdış şəhadətnamələrinin verilməsi "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi vasitəsilə həyata keçirilir.

Verilmiş şəhadətnamələr, habelə onların aktiv statusunun dəyişdirilməsi barədə məlumatlar "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə daxil edilir. [2]

15. Azərbaycan Respublikasının vətəndaşı və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxs Şəhadətnaməni Azərbaycan Respublikasının ərazisinə qayıtdığı vaxtdan 20 gün müddətində ona pasport verən dövlət orqanına təhvil verməlidir.

16. Azərbaycan Respublikasının vətəndaşı və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxs özü, habelə onunla birgə Azərbaycan Respublikasına qayıdan 18 yaşına çatmayan və ya xarici dövlətdə 18 yaşına çatmış şəxs barəsində bilə-

rəkdən yanlış məlumat verərsə, ona Şəhadətnamə verilməsindən imtina olunur və bu barədə yazılı cavab verilir. İmtina haqqında qərardan qanunvericiliklə müəyyən edilmiş qaydada şikayət verilə bilər.

17. Şəhadətnamənin itirilməsində və ya qəsdən korlanmasında, habelə bu Əsasnamənin tələblərinə zidd olaraq Şəhadətnamənin verilməsindən əsassız imtina edilməsində, Şəhadətnamənin verilməsi üçün nəzərdə tutulmayan əlavə sənədlər tələb edilməsində və ya onun verilməsində süründürməçiliyə yol verilməsində təqsirkar şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Qanuna edilmiş dəyişiklik və əlavələrin siyahısı

[1] 1 fevral 2008-ci il tarixli 542-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №3, maddə 158) ilə "Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamə"nin 2-ci bənddən "dənizçi pasportu" sözləri çıxarılmışdır.

[2] 2 oktyabr 2008-ci il tarixli 694-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti, 31 oktyabr 2008-ci il, №243, Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2008-ci il, №10, maddə 886) ilə "Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamə"yə 14-1-ci maddə əlavə edilmişdir.

"Regional əməkdaşlığa ümumi baxış haqqında" Tbilisi Bəyannaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Regional əməkdaşlığa ümumi baxış haqqında" 2007-ci il fevralın 7-də Tbilisi şəhərində imzalanmış Bəyannamə təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№268-IIIQ

Regional əməkdaşlığa ümumi baxış haqqında Tbilisi Bəyannaməsi

Biz, Azərbaycan Respublikasının Prezidenti, Gürcüstan Prezidenti və Türkiyə Respublikasının Baş naziri, dövlətlərimiz arasında sürətlənən əməkdaşlığın yeni mərhələsini qeyd etmək üçün bir araya gəldik.

Xalqımızın və bütün regionun ümumi maraqları baxımından bu görüşün vacibliyini tanıyaraq,

bugünkü iştirakımızın çoxtərəfli əməkdaşlıq yolu ilə regionda və bütövlükdə Avropada iqtisadi artım, demokratikləşmə və təhlükəsizliyə yardım etmək niyyətimizi nümayiş

etdirdiyini anlayaraq,

Avropa Enerji Xartiyasının müddəalarına və prinsiplərinə olan öhdəliklərimizi bir daha təsdiq edərək,

bizim regionun Avrasiyada önəmli mövqedə yerləşməsi vacibliyini nəzərə alaraq,

mehriban qonşuluğa, suverenliyə, ərazi bütövlüyünə və beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığına riayət olunmasına əsaslanan bütün qonşularla sıx əməkdaşlıq etməklə bağlı ümumi niyyətimizi və hazırlığımızı təsdiq edərək,

bizim əməkdaşlıq və səylərimiz vasitəsilə qarşıya çıxan problemlərin həllində bir-birimizə yardım etmək qabiliyyətimiz və əminliyimizi artıq nümayiş etdirdiyimizi dərk edərək,

dünyanın müsbət istiqamətdə inkişafında regional təşəbbüslərin rolunun artdığını nəzərə alaraq,

möhkəmlənmiş regional əməkdaşlıq və iqtisadi artımın regiondakı münaqişələrin sülh yolu ilə həllinə, stabilliyə, xalqlarımızın demokratik inkişafı və rifahına mühüm töhfə verdiyini bölüşərək,

müxtəlif sahələrdə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı istiqamətində daha sıx çalışmaq niyyətini vurğulayaraq,

region ilə Aİ arasında daha da genişlənəcək əməkdaşlıq sahəsində Türkiyənin Aİ ilə danışıqlar aparan ölkə kimi vacib rol oynadığını təsdiqləyərək,

Azərbaycanın Avropa Qonşuluq Siyasəti üzrə Fəaliyyət Planını və Gürcüstanın Avropa Qonşuluq Siyasəti üzrə Fəaliyyət Planını müvəffəqiyyətlə həyata keçirmələrinin region üçün Aİ ilə daha da yaxınlaşmasının vacibliyini vurğulayaraq,

regional əməkdaşlığın əsası kimi Şərq-Qərb Enerji və Nəqliyyat Dəhlizinin daha da inkişaf etdirilməsini nəzərə alaraq,

aşağıdakıları bəyan etdilər:

1. Biz bu gün geostrateji cəhətdən önəmli olan Bakı-Tbilisi-Qars "İpək yolu" dəmir yolu layihəsinin həyata keçirilməsinə başlanmasını təntənəli qeyd edirik. Bu layihənin həyata keçirilməsi bizim gələcək əməkdaşlığımızın sürətləndirilməsi və genişlənməsi istiqamətində yeni bir addım olaraq, həmçinin bu istiqamətdə yeni qlobal imkanlar açır. Bununla, biz Avropa ilə Asiya arasında yüklərin və sərnişinlərin daha tez və təhlükəsiz daşınmasına töhfə verir və mövcud olan nəqliyyat bağlantılarına əlavə edirik.

2. Bizim əməkdaşlığımız, Bakı-Supsa ixrac neft boru kəməri, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan ixrac neft boru kəməri (BTC) və Cənubi Qafqaz qaz boru kəməri (Bakı-Tbilisi-Ərzurum) kimi üç uğurlu enerji infrastrukturu layihəsi ilə Qara dəniz və Xəzər dənizi regionlarının rolunun artması və Avropa və geniş qlobal enerji təhlükəsizliyinə töhfə verməkdə mühüm rol etibar edərək, Avropa üçün yeni həyati və təhlükəsiz enerji mənbəyinin əsasını qoydu.

3. Biz birlikdə hər üç xalqın etibarlı, məqsədəuyğun və qeyd edilən qaz və elektrik enerjisi inkfrastrukturu layihələrində göstərilən kommersiyaya əsaslanan müddəalar vasitəsilə enerji təhlükəsizliyinə təminat verən uzunmüddətli və proqnozlaşdırılan mexa-

nizmlərin əsasını qoymaq barədə razılaşırıq. Ölkələrimizin enerji tələbatını nəzərə alaraq, biz Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Şahdəniz qaz kondensatı yatağının istismara başlamasını qiymətləndiririk. Bununla əlaqədar, müvafiq tədbirlərin görülməsini lazım bilirik. Biz qarşılıqlı ehtiyaclarımızı ödəyən etibarlı və davamlı qaz təchizatında əməkdaşlığımızın davam etdirilməsi haqqında razılığa gəldik.

4. Biz Azərbaycan Respublikasının ərazisindən Gürcüstan və Türkiyə Respublikasının ərazisinə qədər olan yeni elektrik xəttinin, həmçinin gələcəkdə Tərəflər arasında elektrik enerjisinin mübadiləsini genişləndirəcək digər müvafiq layihələrin tikintisinə yardım etmək barədə razılaşırıq.

5. Biz maraqlı ölkələrlə işləməklə yanaşı, əməkdaşlığımızın genişlənərək Qara dəniz və Xəzər dənizini əhatə edəcəyinə əminik. Biz inanırıq ki, bu yanaşma regionda enerji təhlükəsizliyini daha da möhkəmləndirəcək və daha yüksək rifaha töhfə verəcəkdir.

6. Biz inanırıq ki, bu, eləcə də gələcəkdə həyata keçiriləcək bu layihələr regionun iqtisadi artımı və uzunmüddətli təhlükəsizliyi üçün infrastruktur yaradacaqdır.

7. Biz təchizat mənbələrinin, tranzit yollarının və alıcı bazarlarının müxtəlifliyi bazasından çıxış edərək, bərabər şərait təmin edəcək çoxtərəfli əməkdaşlığın yaradılmasını gələcəkdə də dəstəkləməyə hazır olduğumuzu ifadə edirik.

8. Biz regionda və bütövlüklə Avropada sülh, sabitlik və rifahı təşviq və inkişaf etdirən beynəlxalq təşkilatlar və layihələr çərçivəsində çoxtərəfli fəal əməkdaşlığı dəstəkləyirik.

9. Biz regional əməkdaşlığı sürətləndirəcək, həmçinin Avropa ilə əlaqələrin gücləndirilməsinə töhfə verəcək, insanların, malların, kapitalın və xidmətlərin daşınmasını asanlaşdıracaq sonrakı addımlara önəm veririk.

10. İrəliyə baxaraq, biz regiondakı stabilliyin və təhlükəsizliyin təşviq olunması üçün azad bazar iqtisadiyyatının prinsiplərinə və ümumi Avropa dəyərləri və təcrübəsinə əsaslanan real və kommersiya baxımından davamlı əməkdaşlıqla bağlı öhdəliyi bölüşürük.

11. Biz bu qəbildən olan sürətli əməkdaşlığın ölkələrimizin regiondakı təhlükəsizliyinin gücləndirilməsi imkanlarını artıracağına və bunun, öz növbəsində, Avropaya da müsbət təsir edəcəyinə olan inamımızı ifadə edirik.

12. Biz yeni sərmayə və fəaliyyətlərlə əməkdaşlığı daha da dərinləşdirməyə davam edəcəyik. Bununla əlaqədar, biz, gələcək fəaliyyətlə bağlı araşdırmalar aparmaq və tövsiyələr vermək məqsədilə birgə İşçi Qrupu yaratdıq.

13. Bu fəaliyyət təşviq etmək məqsədilə, biz qonşularımızı bizim bu səylərə qoşulmaq haqqında düşünməyə dəvət edirik.

14. Biz Gürcüstan Hökumətinə və xalqına isti qonaqpərvərliyə və bu görüşün möhtəşəm təşkilinə görə minnətdarlığımızı bildiririk.

15. 2007-ci il fevralın 7-də, Tbilisi şəhərində bütün mətnləri autentik olmaqla, ingilis dilində üç nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	GÜRCÜSTAN PREZİDENTİ	TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
İLHAM ƏLİYEV	*MİXAİL SAAKAŞVİLİ*	*RƏCƏB TAYYİB ƏRDOĞAN*

"Bakı - Tbilisi - Qars yeni dəmir yolu xətti haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Bakı - Tbilisi - Qars yeni dəmir yolu xətti haqqında" 2007-ci il fevralın 7-də Tbilisi şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№269-IIIQ

"Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti, Gürcüstan Hökuməti və Türkiyə Respublikası Hökuməti,

öz aralarında dostluq münasibətlərini və əməkdaşlığı dəstəkləməyi, inkişaf etdirməyi və möhkəmləndirməyi arzu edərək,

Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası Prezidentlərinin Bakı şəhərində 2005-ci il mayın 25-də imzaladığı Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında Bəyannaməyə əsaslanaraq,

regional və qlobal perspektivdə ölkələr arasında artmaqda olan əməkdaşlığın vacibliyini dərk edərək,

bu layihələrin sosial-iqtisadi faydasını və onun Tərəflərin regionlarının/ əyalət rayonlarının inkişafına verəcəyi töhfəni nəzərə alaraq;

xarici iqtisadi əlaqələrin genişlənməsinə və səmərəliliyinin artırılmasına böyük əhəmiyyət verərək,

beynəlxalq ticarət və Dövlətlərin iqtisadi inkişafının sürətləndirilməsi üçün tranzit daşımalar haqqında mövcud sazişlərin əhəmiyyətini etiraf edərək,

öz aralarında, eləcə də digər dövlətlərə və digər dövlətlərdən yüklərin fasiləsiz, vaxtında və səmərəli hərəkətinin inkişafına tərəfdar olduqlarını qeyd edərək,

mövcud təcrübə əsasında, eləcə də beynəlxalq konvensiya və standartlara uyğun olaraq özlərinin sərnişin və yüklərin tranzit daşınması üzrə rejimlərini gələcəkdə də təkmilləşdirməyə cəhd edərək,

"Bakı-Tbilisi-Qars yeni dəmir yolu bağlantısı" layihəsinin həyata keçirilməsi, fəaliyyət göstərməsi və onun gələcək istismarı üçün hər cür səy göstərərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Anlayışlar

Bu Sazişin məqsədləri üçün aşağıda qeyd olunan terminlər göstərilən mənaları ifadə edir:

1.1. Nəqliyyat növləri - sərnişin və yüklərin dəmir yolu ilə daşınmasını təmin edən nəqliyyat infrastrukturu və nəqliyyat vasitələridir.

1.2. Yüklərin daşınması - fiziki-kimyəvi xüsusiyyətləri və kütləsi şərtləndirilmiş hədlərdə saxlanılmaqla, yüklərin yerləşdirilməsi üzrə nəqliyyat xidməti növüdür.

1.3. Konteyner - daşınma üçün təyin edilmiş, aşağıdakı tələblərə cavab verən bütün vasitələr (böyük konteynerlər, sistemlər, dəyişdirilə bilən korpus və s.):

a) çoxdəfəli istifadə edilmək üçün kifayət qədər davamlıdır;

b) xüsusi olaraq malların gəmilərlə, yaxud bir və ya bir neçə yerüstü nəqliyyat vasitəsi vahidinin köməyi ilə, yükləri yenidən yükləmədən daşınmasını asanlaşdırmaq üçün quraşdırılmışdır;

c) yükləmə, boşaltma və bir yerdən başqa yerə yükləməni asanlaşdıran avadanlıqla təchiz edilmişdir.

1.4. Daşıyıcı - Tərəflərin dövlətdaxili qanunvericiliklərinə uyğun, əməli olaraq yükləri daşıyan, yaxud yüklərin, sərnişinlərin və onların baqajının beynəlxalq daşınmasını həyata keçirən nəqliyyat vasitəsindən istifadəyə görə cavabdeh olan hüquqi və ya fiziki şəxsdir.

1.5. Yük - vaqonlarda, konteynerlərdə daşınan bütün növ yüklər.

1.6. Yüklərin beynəlxalq tranziti - göndərilmə və təyinat məntəqələri Tərəf dövlətin ərazisinin hüdudlarından kənarda yerləşən yüklərin gömrük nəzarəti altında həmin dövlətin ərazisindən daşınmasıdır.

1.7. Beynəlxalq daşıma - bu Sazişin ən azı iki Tərəfinin dövlət ərazisi ilə dəmir yolu vasitəsilə həyata keçirilən sərnişin və yük yerdəyişməsidir.

1.8. Dəmir yolu xətti - Tərəflər arasında sərnişin və yüklərin daşınmasını təmin edən nəqliyyat sistemləri şəbəkəsidir (həm mövcud, həm də tikiləcək).

1.9. Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti - Qars (Türkiyə) stansiyasından Ahalkalaki (Gürcüstan) stansiyasına qədər dəmir yolunun, eləcə də müvafiq infrastruktur obyektlərinin tikilməsi, Ahalkalaki stansiyasından Marabda (Gürcüstan) stansiyasına qədər mövcud olan dəmir yolunun və daimi qurğuların reabilitasiya və rekonstruksiyası və adıçəkilən dəmir yolu bağlantısı xəttinin Bakıya (Azərbaycan) qədər, eləcə də əks istiqamətdə istismarıdır.

1.10. Sərnişin - daşınma müqaviləsi bağlamış, fiziki şəxsin dəmir yolu nəqliyyatı

vasitəsilə yerdəyişməsi ilə bağlı nəqliyyat xidmətləri istehlakçısıdır.

1.11. Sərnişinlərin daşınması - fiziki şəxslərin (sərnişinlərin) dəmir yolu nəqliyyatı ilə yerdəyişməsi üzrə nəqliyyat xidmətinin növüdür.

1.12. Müvafiq obyektlər - mövcud, yaxud tikilməli olan yeni dəmir yolu bağlantısı çərçivəsində, bu bağlantı boyu beynəlxalq nəqliyyat üçün böyük əhəmiyyət kəsb edən sərhəd keçid məntəqələri, gömrük məntəqəsi, vaqon qruplarının dəyişdirilmə stansiyaları, yükləmə-boşaltma və arabacıqların dəyişdirilməsi stansiyalarıdır.

1.13. Personal - beynəlxalq sərnişin və ya yük daşımalarını həyata keçirən qatarların şəxsi heyətidir.

1.14. Nəqliyyat xidmətləri - daşınmaya görə əsas ödəmələr istisna olmaqla, yoladüşmə məntəqəsindən təyinat məntəqəsinə qədər sərnişin və yüklərin yerdəyişməsi ilə bağlı olan bütün xidmət növləridir.

Maddə 2

Sazişin məqsədləri

2.1. "Bakı-Tbilisi-Qars yeni dəmir yolu bağlantısı" layihəsinin (bundan sonra "Yeni dəmir yolu bağlantısı") həyata keçirilməsi üçün bu Sazişin məqsədləri aşağıdakılardan ibarətdir:

a) nəqliyyat əlaqələrinin səmərəliliyinin artırılması;

b) bu Saziş Tərəflərinin beynəlxalq dəmir yolu nəqliyyatı xidmətləri bazarına çıxışının təmin edilməsinə şərait yaradılması;

c) Trans-Avropa və Trans-Asiya dəmir yolu dəhlizlərinin birləşdirilməsinin təmin edilməsi;

ç) beynəlxalq sərnişin və yük daşımalarının həcminin artırlmasına şərait yaradılması;

d) beynəlxalq standartlara uyğun olaraq nəqliyyat vasitələrinin təhlükəsizliyinin, malların saxlanılmasının, eləcə də ətraf mühitin mühafizəsinin təmin edilməsi;

f) bu Sazişin həyata keçirilməsi məqsədilə nəqliyyat siyasətinin, həmçinin nəqliyyat sahəsində hüquqi tənzimlənmənin uzlaşdırılması;

j) yeni dəmir yolu bağlantısı çərçivəsində Tərəflərin ərazilərindən, onların öz aralarında sərnişin və yüklərin daşınması ilə bağlı nəqliyyat xidmətləri üçün bərabər şəraitin yaradılması.

2.2. Tərəflər bu Sazişin 2.1-ci bəndində göstərilən məqsədlərə müvafiq olaraq, aşağıdakıların təmin edilməsinə yönəldilmiş bütün səyləri göstərirlər:

a) öz ərazilərindən sərnişin və yüklərin tranzit daşınması müddətinin azaldılması;

b) tranzit daşımaların səmərəliliyinin artırılması və dəyərinin azaldılması;

c) qəbul edilmiş beynəlxalq saziş və standartlara uyğun olaraq onların ərazilərindən sərnişin və yüklərin tranzit daşınmasına aid olan inzibati sənədlərin və prosedurların (gömrük prosedurları daxil olmaqla) sadələşdirilməsi və unifikasiyası.

Maddə 3

Ümumi müddəalar

3.1. Bu Saziş yeni dəmir yolu bağlantısının həyata keçirilməsi və fəaliyyət göstərməsi, eləcə də müəyyən edilmiş marşrut üzrə dəmir yolu nəqliyyatı vasitəsilə Tərəflərin ərazisindən həyata keçirilən beynəlxalq və tranzit sərnişin və yük daşımaları ilə bağlı olan təşkilati və hüquqi məsələləri tənzimləyir.

3.2. Bu Sazişin məqsədlərinə nail olmaq üçün Tərəflərin səlahiyyətli orqanları aşağıdakılardır:

Azərbaycan Respublikası tərəfindən - Nəqliyyat Nazirliyi;

Gürcüstan tərəfindən - İqtisadi İnkişaf Nazirliyi;

Türkiyə Respublikası tərəfindən - Nəqliyyat Nazirliyi.

Tərəflərin səlahiyyətli orqanları icraçı orqanlar təyin edən bilərlər.

3.3. Bu Saziş Tərəflərin iştirak etdikləri digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə xələl gətirmir.

Maddə 4

Beynəlxalq sərnişin və yük daşımaları üçün şəraitin yaradılması

4.1. Hər bir Tərəf bu Sazişdə nəzərdə tutulmuş şərtlər daxilində digər Tərəflərə öz dövlətinin ərazisindən sərnişin və yüklərin beynəlxalq tranzit daşınması hüququnu verir.

4.2. Bu Sazişin Tərəfləri onların milli mənafelərinə, xarici və daxili təhlükəsizliyinə zidd olmadığı təqdirdə, öz dövlətlərinin ərazisindən yüklərin beynəlxalq tranzit daşınması üçün şərait yaradılmasını təmin edirlər.

4.3. Bu Sazişin məqsədlərinə nail olmaq üçün Tərəflər qarşılıqlı faydalı tarif siyasətini həyata keçirəcəklər.

4.4. Tərəflər, beynəlxalq tranzit sərnişin və yük daşımalarına cəlb olunmuş personala hər bir uyğun Tərəf dövlətin qanunvericiliyi ilə müəyyənləşdirilmiş prosedurlara uyğun olaraq, çoxdəfəli giriş və çıxış vizası verirlər.

Maddə 5

Vergilər, rüsumlar və digər ödəmələr

5.1. Beynəlxalq daşımalara münasibətdə daşıma ilə bağlı nəqliyyat xidmətlərinə görə xərclərin ödənilməsi istisna olunmaqla, vergi, rüsum və digər ödənişlər tətbiq olunmayacaqdır.

5.2. Tərəflər onların ölkəsinin ərazisində tranzit rejimində olan yüklərə gömrük rəsmiləşdirilməsi, saxlanma və digər müvafiq xidmətlərə görə alınan rüsumlar istisna olunmaqla, müvafiq yığımlar tətbiq etməyəcəklər.

Maddə 6

Koordinasiya Şurası

6.1. Tərəflər bu Sazişin həyata keçirilməsi və onun şərtlərinin tətbiq edilməsi üzrə məsələlərin tənzimlənməsi məqsədilə Koordinasiya Şurası təsis edirlər.

6.2. Bu Saziş Tərəflərinin nümayəndələrindən ibarət olan Koordinasiya Şurası Sazişin qüvvəyə mindiyi gündən etibarən üç ay ərzində keçirilməli olan ilk iclasında öz fəaliyyətinin qayda və prosedurlarını müəyyənləşdirəcəkdir.

6.3. Koordinasiya Şurası ildə bir dəfədən az olmayaraq və ya bu Sazişin Tərəflərinin hər hansı birinin müraciəti ilə toplanır.

Maddə 7

Mübahisələrin həll edilməsi

7.1. Bu Sazişin tətbiq edilməsi, təfsiri və ya pozulması ilə bağlı yaranmış mübahisələr baxılmaq və həll edilmək üçün Koordinasiya Şurasına təqdim edilir.

7.2. Koordinasiya Şurası tərəfindən həll edilə bilməyən istənilən mübahisə, fikir ayrılığı və ya iddia Tərəflər arasında məsləhətləşmə və danışıqlar yolu ilə həll edilir.

Maddə 8

Depozitari

8.1. Türkiyə Respublikasının Hökuməti bu Sazişin Depozitarisidir (bundan sonra "Depozitari Dövlət" adlandırılacaq). Depozitari bütün Tərəflərə bu Sazişin təsdiq edilmiş surətlərini göndərir.

8.2. Depozitari Dövlət bu Sazişi ratifikasiya edən Tərəfləri digər dövlətlərin bu Sazişə qoşulması haqqında məlumatlandırır.

Maddə 9

Təsdiqetmə

Bu Saziş Tərəflərin milli qanunvericiliklərinə müvafiq olaraq təsdiq edilməlidir. Təsdiqnamə saxlanılmaq üçün Depozitari Dövlətə təqdim edilir.

Maddə 10

Sazişə qoşulma

10.1. Bu Saziş yalnız onu ilkin olaraq imzalamış bütün Tərəflərin razılığı ilə digər dövlətlərin qoşulması üçün açıqdır.

10.2. Bu Saziş qoşulan dövlətə münasibətdə, onun qoşulma haqqında sənədini Depozitari Dövlətə təqdim etdiyi tarixdən 30 gün sonra qüvvəyə minir. Qoşulan Dövlət Depozitari Dövləti öz səlahiyyətli orqanı/orqanları haqqında yazılı surətdə məlumatlandırdıqdan sonra Depozitari Dövlət öz növbəsində bu barədə digər Tərəfləri məlumatlandırır.

Maddə 11

Düzəliş və əlavələr

Bu Sazişə istənilən düzəliş və əlavələr Tərəflərin qarşılıqlı razılığı ilə edilə bilər. Bu cür əlavə və düzəlişlər bu Sazişin ayrılmaz tərkib hissəsi olan və bu Sazişin 12-ci maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minən ayrıca protokollar şəklində edilə bilər.

Maddə 12

Qüvvəyə minmə

Bu Saziş Tərəflərin ratifikasiya haqqında son üçüncü sənədinin saxlanılmaq üçün depozitariyə təqdim edilmə tarixindən 30 gün sonra qüvvəyə minir.

Tbilisi şəhərində 2007-ci il fevralın 7-də, bütün mətnləri autentik olmaqla, ingilis və bu Sazişi ilkin olaraq imzalamış bütün Tərəflərin dövlət dillərində bir əsl nüsxədə imzalanmışdır. Bu Sazişin müddəalarının təfsiri ilə bağlı fikir ayrılığı yaranarsa, ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

Bunun təsdiqi olaraq, müvafiq qaydada səlahiyyət verilmiş, aşağıda imza edən Tərəflərin nümayəndələri bu Sazişi imzalamışlar.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ TƏRƏFİNDƏN	GÜRCÜSTAN HÖKUMƏTİ TƏRƏFİNDƏN	TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ TƏRƏFİNDƏN
ZİYA MƏMMƏDOV	*GEORGİ ARVELADZE*	*BİNALİ YILDIRIM*

"Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin hökumətləri arasında cinayətkarlığa, xüsusən onun mütəşəkkil formalarına qarşı mübarizədə əməkdaşlıq haqqında" Sazişə "Terrorçuluğa qarşı mübarizə haqqında" Əlavə Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin hökumətləri arasında cinayətkarlığa, xüsusən onun mütəşəkkil formalarına qarşı mübarizədə əməkdaşlıq haqqında" Sazişə 2004-cü il dekabrın 3-də Afina şəhərində imzalanmış "Terrorçuluğa qarşı mübarizə haqqında" Əlavə Protokol Azərbaycan Respublikasının ona dair qeyd-şərti ilə (qeyd-şərtin mətni əlavə olunur) təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№270-IIIQ

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin hökumətləri arasında cinayətkarlığa, xüsusən onun mütəşəkkil formalarına qarşı mübarizədə əməkdaşlıq haqqında Sazişə terrorçuluğa qarşı mübarizə haqqında Əlavə Protokol

PREAMBULA

Bundan sonra "Tərəflər" adlandırılacaq Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) üzvü olan dövlətlərin hökumətləri: Albaniya Respublikası, Azərbaycan Respublikası, Bolqarıstan Respublikası, Ermənistan Respublikası, Gürcüstan, Moldova Respublikası, Rumıniya, Rusiya Federasiyası, Serbiya və Çernoqoriya, Türkiyə Respublikası, Ukrayna və Yunanıstan Respublikası:

1998-ci il oktyabrın 2-də Kerkira şəhərində imzalanmış, qısaca olaraq "QDİƏT Sazişi" adlanan Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin hökumətləri arasında cinayatkarlığa, xüsusən onun mütəşəkkil formalarına qarşı mübarizədə əməkdaşlıq haqqında Sazişin Tərəfləri olaraq,

Beynəlxalq terrorçuluğu sülh və təhlükəsizlik üçün qlobal təhlükə kimi pisləyən QDİƏT-in üzvü olan dövlətlərin Xarici İşlər Nazirləri Şurasının QDİƏT-in təhlükəsizlik və sabitliyə yardım haqqında 2004-cü il 25 iyun tarixli Bəyannaməsinə, QDİƏT-in Nizamnaməsinin müddəalarına, İstanbul Sammitinin Onillik Bəyannaməsinə, QDİƏT-in üzvü olan dövlətlərin Xarici İşlər Nazirləri Şurasının birinci iclasının 2001-ci il 26 oktyabr tarixli Bəyannaməsinə riayət edərək,

Terrorçuluğun bütün forma və təzahürlərinin beynəlxalq sülh və təhlükəsizliyi, Tərəflərin siyasi, iqtisadi və sosial sabitliyini, QDİƏT-in üzvü olan dövlətlərin ərazi bütövlüyünü və təhlükəsizliyini, o cümlədən Qara dəniz regionu dövlətləri arasında dostluq və mehriban qonşuluq əlaqələrini, ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafını təhlükə altında qoyduğunu anlayaraq,

BMT-nin terrorizmə qarşı müddəalarını nəzərə alaraq və bu sahədə Təhlükəsizlik Şurasının qətnamələrini, xüsusilə də 1373 saylı qətnaməsini tam dəstəkləyərək,

Terrorçuluğa qarşı mübarizənin hüquq normalarına və insan hüquqlarına tam uyğun olaraq aparılmasını vurğulayaraq,

Beynəlxalq hüququn ümumi prinsiplərinə birmənalı dəstəklərini təsdiq edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Əlavə Protokolun məqsədlərinə müvafiq olaraq terrorçuluq BMT-nin terrorçuluğa qarşı mübarizəyə dair Konvensiyası və Protokollarında göstərilən cinayətləri nəzərdə tutur.

Maddə 2

Tərəflər QDİƏT-in Sazişi və bu Əlavə Protokol əsasında və daxili qanunvericiliklərinə, o cümlədən dövlətlərin beynəlxalq öhdəliklərinə uyğun olaraq terrorçuluq aktlarının qarşısının alınması, aşkar edilməsi, ləğvi, ifşa olunması və araşdırılması sahəsində əməkdaşlıq edirlər.

Maddə 3

1. Tərəflər birbaşa əlaqə yarada biləcəkləri səlahiyyətli dövlət orqanını (orqanlarını) və/və ya əlaqə məntəqəsini (məntəqələrini) müəyyən edirlər.

2. Bu Əlavə Protokolun Tərəfə münasibətdə qüvvəyə minməsindən sonra iki ay müddətində Tərəf səlahiyyətli dövlət orqanının (orqanlarının) və/və ya əlaqə məntəqəsinin (məntəqələrinin) adlarını və koordinatlarının siyahısını depozitariyə təqdim edir. Tərəflər siyahıda edilmiş dəyişikliklər barədə depozitariyə məlumat verirlər.

Maddə 4

1. Tərəflər Əlavə Protokolu yerinə yetirmək üçün QDİƏT Sazişinin 5-ci maddəsinə və QDİƏT Sazişinə 2002-ci il martın 15-də Kiyev şəhərində imzalanmış Əlavə Protokola uyğun qarşılıqlı fəaliyyət göstərirlər.

2. Zəruri hallarda Tərəflər təcili olaraq əlaqələr yaradır, fövqəladə iclas və məsləhətləşmələr keçirirlər.

Maddə 5

Tərəflər QDİƏT Sazişi və bu Əlavə Protokol çərçivəsində xüsusilə aşağıdakılarla bağlı qarşılıqlı maraq doğuran məsələlərdə məlumat mübadiləsi aparırlar:

a) dövlət rəhbərliyinə, beynəlxalq mühafizə altında olan şəxslərə, diplomatik nümayəndə və konsulluqların üzvlərinə, beynəlxalq hökumətlərarası təşkilatların vəzifəli şəxslərinə, rəsmi səfərlərin, o cümlədən milli/beynəlxalq tədbirlərin iştirakçılarına, digər vəzifəli və mülki şəxslərə qarşı planlaşdırılmış və yönəlmiş terror aktları;

b) dövlətlərinin təhlükəsizliyini hədələyən terror təşkilatları, qrupları və terrorçular, o cümlədən terror təşkilatları, qrupları və terrorçular arasında əlaqələr;

c) Tərəflərin suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş terror qəsdləri və aktları;

d) dövlətin ərazisində onun iqtisadi, texniki və ekoloji bölmələrinə və mühüm əhəmiyyətli binalarına qarşı terror aktları və belə aktların törədilmə təhlükəsi;

e) Tərəflərin ərazisində fəaliyyət göstərən terror təşkilatları və qrupları, onların taktika və metodları, rəhbərləri, üzvləri, o cümlədən belə qrup və təşkilatlarda fəaliyyətə cəlb olunmuş və/və ya onları dəstəkləyən şəxslər;

f) terrorçuluğu, onun mexanizmi, genişləndirilməsini və ona yardımı dəstəkləyən təşkilat və müəssisələr;

g) mütəşəkkil cinayətkar qruplar və şəxslər tərəfindən qanunsuz olaraq silah, o cümlədən döyüş sursatı, partlayıcı maddələr və qurğular, nüvə və radioaktiv maddə və mənbələr, kimyəvi və bioloji silahlar və onların komponentlərinin alveri, Tərəflərin ərazisində qanunsuz alver üçün istifadə olunan kanallar;

h) terror təşkilatlarına, qruplarına maliyyə, maddi-texniki və digər növ vəsaitlərlə yardım göstərən aşkar və güman edilən mənbə və kanallar;

i) terrorçuluğa qarşı mübarizə təcrübəsi və qanunvericiliyi.

Maddə 6

Tərəflər aşağıdakıları həyata keçirmək üçün sıx əməkdaşlıq edirlər:

a) terror aktlarının hazırlanması və törədilməsi, o cümlədən maliyyə yardımı da daxil olmaqla, terrorçuların dəstəklənməsinin istənilən formasının qarşısının alınması;

b) terror aktlarını maliyyələşdirən, planlaşdıran, dəstəkləyən və ya törədən şəxslərə sığınacaq verməkdən imtina edilməsi;

c) terrorçuların təlimi, terror aktlarının planlaşdırılması və hazırlanması yerləri barədə konkret sübutlar varsa, həmin yerlərin aşkarlanması və bunların qarşısının alınması;

d) terrorçuların və terrorçu qrupların hərəkətinin və hərəkət marşrutlarının qarşısının alınması;

e) öz fəaliyyətlərini gizlətmək üçün terrorçu qrup və təşkilatların istifadə etdikləri strukturların aşkarlanması və tanınması;

f) maliyyə yardımı, silahla, döyüş sursatı ilə, partlayıcı vasitə və qurğularla, nüvə və radioaktiv maddə və mənbələri, kimyəvi və bioloji silah və onların komponentləri ilə təchiz etmənin, o cümlədən terror aktlarını planlaşdırmaq, hazırlamaq və törətmək üçün hər hansı şəxsə və təşkilata yardım göstərilməsinin qarşısının alınması, aşkarlanması və ləğv edilməsi.

Tərəflər birgə fəaliyyətin nəticələri barədə bir-birlərinə məlumat verirlər.

Maddə 7

Tərəflər digər Tərəfin ərazisində törədilməli olan terror aktlarının öz ərazilərində hazırlanmasının qarşısının alınması, o cümlədən terror aktlarını planlaşdıran, dəstəkləyən və ya bunlarda iştirak edən şəxslərə sığınacaq verilməməsi sahəsində tədbirlər görməlidirlər.

Maddə 8

Tərəflər bu Əlavə Protokolun aşağıdakı formalarda icrasının genişləndirməsi sahəsində əməkdaşlıq edə bilərlər:

a) heyətin təhsili, təlimi və səriştəsinin artırılması;

b) cinayət təhqiqatlarında elmi-texniki metodlardan istifadə ilə bağlı məlumat və təcrübə mübadiləsi;

c) birgə təlim, seminar, məsləhətləşmə və elmi tədqiqatların aparılması;

d) müvafiq daxili qanunvericiliyin, analitik və statistik məlumatın mübadiləsi;

e) QDİƏT Sazişində nəzərdə tutulan digər formalar.

Maddə 9

1. Müraciət edən Tərəf bu Əlavə Protokolla əldə etdiyi məlumat və sənədlərin məxfiliyini müraciət edilən Tərəfdə olduğu dərəcədə saxlamalıdır.

2. Bu Əlavə Protokolla əldə edilən məlumat və sənədlər, o cümlədən xüsusi cihaz və/və ya materialların tətbiqi ilə bağlı tədqiqat metodları və taktika barədə məlumat bu məlumatı verən Tərəfin razılığı olmadan üçüncü tərəfə verilə bilməz.

3. Bu Əlavə Protokol əsasında əldə olunmuş məlumat və müraciətin nəticələri məlumatı verən Tərəfin yazılı razılığı olmadan müraciət edilmə və verilmə məqsədindən əlavə, digər məqsədlər üçün istifadə edilə bilməz.

4. Tərəflər məxfi məlumatın verilməsi və qorunması milli qanunvericiliklərinə və/və ya müvafiq beynəlxalq sazişlərə uyğun həyata keçirirlər.

5. Bu Əlavə Protokola uyğun alınmış şəxsi məlumat, QDİƏT Sazişi və bu Əlavə Protokola tərəfdar olan QDİƏT-in üzvü olan dövlətlərin müvafiq beynəlxalq öhdəliklərinə uyğun olaraq, ən azı, həmin məlumatı verən Tərəfdə olduğu səviyyədə qorunacaqdır.

Maddə 10

Tərəflər başqa cür razılaşmayıblarsa, onda bu Əlavə Protokolun həyata keçirilməsi zamanı ortaya çıxan hər bir məsələ üzrə xərcləri müstəqil olaraq özləri ödəyirlər.

Maddə 11

Tərəflər qarşılıqlı şəkildə başqa cür razılaşmazlarsa, bu Əlavə Protokol çərçivəsində əməkdaşlıq edərkən yazılı prosedurlar zamanı ingilis, şifahi prosedurlar zamanı isə ingilis və rus dillərindən istifadə edirlər.

Maddə 12

1. Bu Əlavə Protokol Tərəfin qanunvericiliyinə əsasən icra edilməlidir.

2. Bu Əlavə Protokol Tərəflərin digər beynəlxalq öhdəliklərinin icrasına mane olmamalıdır.

3. Bu Əlavə Protokolun şərhi və icrası ilə bağlı ortaya çıxan mübahisəli məsələlər beynəlxalq hüquq normalarına müvafiq olaraq əlaqədar Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll olunmalıdır.

Maddə 13

1. QDİƏT-in Daimi Beynəlxalq Katibliyi (DBK) bu Əlavə Protokolun Depozitarisidir.

2. Bu Əlavə Protokolun ingilis dilindəki yeganə orijinal nüsxəsi QDİƏTin DBK-sında saxlanılır və QDİƏT-in DBK-sı bu Əlavə Protokolun təsdiq olunmuş nüsxələrini Tərəflərə göndərir.

3. QDİƏT-in DBK-sı aşağıdakılar barədə QDİƏT-in üzvü olan dövlətlərə məlumat verir:

a) hər bir imzalama aktı;

b) ratifikasiya, qəbuletmə, təsdiqləmə və qoşulma haqqında hər bir sənədin verilməsi;

c) bu Əlavə Protokolun 15-ci maddəsinə müvafiq olaraq bu Əlavə Protokolun hər bir dövlətdə qüvvəyə minmə tarixi;

d) bu Əlavə Protokolla bağlı istənilən bildiriş aktı və ya sənədi.

Maddə 14

1. Bu Əlavə Protokol QDİƏT-in üzvü olan dövlətlər tərəfindən imzalanmaq üçün açıqdır.

2. Bu Əlavə Protokolu imzalayan, lakin QDİƏT Sazişinə tərəfdar olmayan Tərəf bu Əlavə Protokola tərəfdar ola bilməz.

3. Bu Əlavə Protokol ratifikasiya, qəbul, təsdiq edilə bilər və ona qoşulmaq olar.

4. Ratifikasiya, qəbuletmə, təsdiqləmə və qoşulma haqqında fərman Depozitariyə saxlanca verilir.

Maddə 15

1. Bu Əlavə Protokol ratifikasiya, qəbuletmə, təsdiqləmə və qoşulma haqqında üçüncü fərmanın QDİƏT-in DBK-sına daxil olmasından otuz gün sonra qüvvəyə minir.

2. Bu Əlavə Protokolu ratifikasiya, qəbul, təsdiq edən və ya ona qoşulan Tərəflərə münasibətdə isə həmin Əlavə Protokol Tərəfin müvafiq sənədi Depozitariyə verdiyi tarixdən otuz gün sonra qüvvəyə minir.

Maddə 16

1. Tərəflər bu Əlavə Protokola düzəlişlər təklif edə bilərlər.

2. Belə düzəlişlər Tərəflərin ümumi razılığı ilə qəbul olunur və bu Əlavə Protokolun 14-cü maddəsinin 3, 4-cü bəndlərinə və 15-ci maddəsinə uyğun olaraq qüvvəyə minir.

Maddə 17

Tərəflər QDİƏT-in DBK-sına rəsmi bildiriş təqdim etməklə bu Əlavə Protokoldan çıxa və ya onu ləğv edə bilərlər. Çıxma və ləğvetmə QDİƏT-in DBK-sından çıxma və ləğvetmə haqqında bildirişi almasından üç ay sonra qüvvəyə minəcəkdir.

Hökumətləri tərəfindən bunun üçün lazımi qaydada təyin edilmiş aşağıda imza edən səlahiyyətli şəxslər bu Əlavə Protokolun doğru olduğunu öz imzaları ilə təsdiq edirlər.

Yunanıstan Respublikasının Afina şəhərində 2004-cü il dekabr ayının 3-də ingilis dilində yeganə nüsxədə hazırlanmışdır.

ALBANİYA RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza)

RUMINİYA
HÖKUMƏTİ ADINDAN

(imza)

AZƏRBAYCAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza)

RUSİYA FEDERASİYASI
HÖKUMƏTİ ADINDAN

(imza)

BOLQARISTAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza)

SERBİYA VƏ ÇERNOQORİYA
HÖKUMƏTİ ADINDAN

(imza)

ERMƏNİSTAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza)

TÜRKİYƏ RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza)

GÜRCÜSTAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza)

UKRAYNA
HÖKUMƏTİ ADINDAN

(imza)

MOLDOVA RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza)

YUNANISTAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

(imza)

"Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin hökumətləri arasında cinayətkarlığa, xüsusən onun mütəşəkkil formalarına qarşı mübarizədə əməkdaşlıq haqqında Sazişə terrorçuluğa qarşı mübarizə haqqında Əlavə Protokol"a dair Azərbaycan Respublikasının qeyd-şərti

Azərbaycan Respublikası bəyan edir ki, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərdə həmin ərazilər işğaldan azad edilməyənə qədər bu Protokolun müddəalarının tətbiqi təmin edilməyəcəkdir.

Azərbaycan Respublikası bəyan edir ki, bu Protokolda öz əksini tapan hüquqlardan, vəzifələrdən və müddəalardan heç biri Azərbaycan Respublikası tərəfindən Ermənistan Respublikasına münasibətdə tətbiq edilməyəcəkdir.

"Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında mülki müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq və yardım haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında mülki müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq və yardım haqqında" 2007-ci il yanvarın 30-da Paris şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№271-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında Mülki Müdafiə və Təhlükəsizlik sahəsində əməkdaşlıq və yardım haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti,

təbii və texnogen mənşəli fövqəladə halların Tərəflər üçün törədə biləcəyi təhlükəni dərk edərək,

mülki müdafiə əməkdaşlarının təlimi, mülki müdafiə və təhlükəsizlik sahəsində Tərəflərin səlahiyyətli qurumlan arasında məlumat mübadiləsini və əməkdaşlığı möhkəmləndirməyin vacibliyinə əmin olaraq,

iki dövlət arasındakı əlaqələri şərtləndirən dostluq və əməkdaşlıq münasibətlərini nəzərə alaraq,

20 dekabr 1993-cü il tarixində Paris şəhərində Azərbaycan və Fransa Respublikaları arasında imzalanmış "Dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Saziş"ə əsaslanaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

SAZİŞİN MƏQSƏDİ, ƏHATƏ DAİRƏSİ VƏ ƏSAS ANLAYIŞLAR

Maddə 1

Sazişin məqsədi

Bu Saziş təbii fəlakət və ya texnogen qəza zamanı, diplomatik yolla və ya bu Sazişin 4-cü maddəsinin 2-ci bəndində Tərəfləri təmsil edən adıçəkilən səlahiyyətli orqanlar vasitəsilə müraciət edilərkən, könüllü qarşılıqlı yardımı həyata keçirmək şərtlərini müəyyən edir.

Bu yardım xilasedici qrupların göndərilməsindən, avadanlıqlarla təchizatdan və informasiya verilməsindən ibarətdir.

Maddə 2

Sazişin əhatə dairəsi

Bu Sazişdə müəyyən edilən əsaslar, Tərəflərin dövlət sərhədləri ilə müəyyən olunan ərazilərində baş verə biləcək təbii fəlakətlər və texnogen qəzalar, həmçinin fövqəladə halların idarə edilməsi sisteminin mərhələləri Tərəf dövlətlərin səlahiyyətli orqanları arasında müəyyənləşdirilmişdir. Tərəflər bu Sazişin əhatə dairəsini, həmçinin əməkdaşlığın həyata keçirilmə şərtlərini əlavə protokollar vasitəsilə dəyişdirə və ya genişləndirə bilərlər.

Maddə 3

Əsas anlayışlar

Bu Sazişin məqsədləri üçün:

"Müraciət edən Tərəf mütəxəssislərin, xilasedicilərin və ya xilasetmə avadanlıqlarının göndərilməsi barədə digər Tərəfin yardımı üçün müraciət edən Tərəfdir;

"Müraciət edilən Tərəf yardım üçün müraciəti alan Tərəfdir;

"Xilasetmə qrupu" müraciət edən Tərəfin müraciəti əsasında hadisə yeri-nə təcili ezam edilən xilasedicilər qrupunun üzvləri və ya mütəxəssislərdir;

"Fövqəladə hal" ciddi insan itkisi ilə nəticələnə bilən və ya əhaliyə və ətraf mühitə ciddi zərərli təsiri ola bilən təbii və ya texnogen mənşəli fəlakətin baş verməsidir;

"Xilasetmə vasitələri" xilasetmə qruplarının istifadəsi üçün nəzərdə tutulan və hər bir tapşırıq üçün gətirilən avadanlıq, vasitələr və digər mallardır;

"Təchizat əşyaları" xilasetmə qruplarının istifadəsi üçün nəzərdə tutulan materiallar, maşınlar və fərdi təchizat əşyaları;

"İstismar avadanlıqları" təchizat əşyalarının istifadəsi və xilasetmə qruplarının fəaliyyətinin təmin olunması üçün nəzərdə tutulan mallardır.

SAZİŞİN HƏYATA KEÇİRİLMƏSİ, ƏMƏKDAŞLIQ SAHƏLƏRİ, QARŞILIQLI ƏMƏKDAŞLIQ VƏ YARDIMIN FORMALARI

Maddə 4

Sazişin həyata keçirilməsi

Bu Sazişin həyata keçirilməsi üçün aşağıdakılar Tərəflərin səlahiyyətli orqanları kimi təyin edilirlər:

Azərbaycan Respublikası Hökuməti adından - Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi;

Fransa Respublikası Hökuməti adından - Fransa Respublikası Daxili İşlər və Ərazilərin Abadlaşdırılması Nazirliyi.

Tərəflər səlahiyyətli orqanların təyin edilməsi ilə bağlı bütün dəyişikliklər barədə bir-birlərinə diplomatik kanallar vasitəsilə məlumat verməlidirlər.

Yardım üçün müraciət şifahi şəkildə ifadə olunduğu təqdirdə, həmin müraciət ən qısa zaman ərzində yazılı olaraq təsdiq edilməlidir.

Maddə 5

Əməkdaşlıq sahələri

Tərəflər aşağıdakı sahələr üzrə əməkdaşlıq edəcəklər:

təbii və texnogen mənşəli fövqəladə halların xəbərdar edilməsi və qarşı-sının alınması;

təbii (zəlzələ, daşqın, tufan, meşə yanğınları və s.) və ya texnogen (sənaye qurğularında və müəssisələrində yanğınlar və partlayışlar, təhlükəli maddələr daşıyan dəmir yolu, hava, dəniz və quru nəqliyyat vasitələrinin qəzası və s.) mənşəli fövqəladə hal təhlükəsi ilə üzləşən insanların, əmlakın və ətraf mühitin müdafiəsi və onlara dəyən ziyanın aradan qaldırılması;

Fransa Tərəfi Fransa Respublikasının Daxili İşlər və Ərazi Abadlaşdırma Nazirliyi və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi arasında əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi üçün:

a) Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə qurumlarının işinin təkmilləşdirilməsi məqsədilə fəaliyyət planının işlənib hazırlanmasına yardım edir;

b)Azərbaycan tərəfinə fövqəladə halların xəbərdar edilməsi və fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı müvafiq texniki material və avadanlığın alınması üçün istehsalçıların seçilməsində yardım edir;

c) Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidməti və Dövlət Yanğın Nəzarəti Xidmətinin maddi texniki bazalarının gücləndirilməsi istiqamətində əməkdaşlıq edir və sözügedən strukturların fəaliyyətinin təkmilləşdirilməsi sahəsində birgə tədbirlər planının işlənməsində iştirak edir;

d) neft dağılmaları nəticəsində yaranmış fövqəladə halların aradan qaldırılması ilə bağlı tədbirlər planının işlənib hazırlanmasında iştirak edir və onun həyata keçirilməsi barədə təkliflər verir;

e) mülki müdafiə sahəsində müasir tədqiqat laboratoriyasının yaradılması barədə təkliflər verir;

f) Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin işinin təşkili, o cümlədən əməliyyat zalının yaradılması sahəsində əməkdaşlıq edir;

g) *çimərliklərdə və açıq dənizdə insanlara yardım göstərilməsi də daxil olmaqla*, Xəzər dənizində xilasetmə işinin təşkili sahəsində əməkdaşlıq;

h) fövqəladə hallar zamanı qarşılıqlı humanitar yardımın göstərilməsinin təşkili;

Tərəflərin birgə razılığı əsasında digər sahələrdə əməkdaşlıq münasibətlərinin qurulmasının təmin edilməsi.

Bu əməkdaşlıq Tərəflərin hər birinin büdcə imkanları və ehtiyatlan çərçivəsində həyata keçirilir.

Maddə 6

Qarşılıqlı əməkdaşlıq və yardımın formaları

Bu Saziş çərçivəsində əməkdaşlığın formaları aşağıdakıları əhatə edir:

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə qurumlarının əməkdaşlarının ümumi və ixtisas üzrə hazırlıq səviyyəsinin artırılması məqsədilə birgə tədbirlərin həyata keçirilməsi;

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunlarının zabit heyətinin hazırlıq səviyyəsinin artırılması ilə bağlı birgə tədbirlərin həyata keçirilməsi;

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidməti və Dövlət Yanğına Nəzarət Xidməti əməkdaşlarının peşə hazırlığı səviyyəsinin təkmilləşdirilməsi məqsədilə birgə tədbirlərin görülməsi, mübadilə proqramlarının həyata keçirilməsi;

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin digər əməkdaşlarının təhsil və təlimi, onların qarşılıqlı mübadiləsi ilə bağlı tədbirlərin həyata keçirilməsi;

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin Elm-Tədris Mərkəzi nəzdində Fransa təcrübəsinə əsasən tədris müəssisəsinin təşkil olunması məqsədilə lazımi tədbirlərin həyata keçirilməsi;

birgə texniki seminarlarda, sərgilərdə və ekspozisiyalarda iştirak etmək;

hər iki Tərəfin qarşılıqlı olaraq razılaşdırdığı əməkdaşlığın digər formalarını həyata keçirmək;

Tərəflər təbii və texnogen mənşəli fövqəladə hallar zamanı qarşılıqlı yardımı aşağıdakı qaydalara əsasən həyata keçirirlər:

1. fövqəladə hal zamanı hər bir Tərəf digər Tərəfin rəsmi müraciəti əsasında bütün mümkün yardımı həyata keçirir. Yardım haqqında müraciət ənənəvi diplomatik kanallar vasitəsilə bildirilməlidir. Bu müraciətə fəlakətin forması, onun miqyası, ciddiliyi və yardım ehtiyacları barədə ilkin hesablamalar daxil edilməlidir;

2. yardım müraciəti texniki ekspertiza, yaxud əlavə xilasetmə vasitələrinin təminatı barədə ola bilər;

3. yardım haqqında müraciətin alınması müraciət edilən Tərəfin dərhal müsbət cavab verməsini şərtləndirmir. Tərəflərdən hər biri ona yardım üçün müraciət edilən zaman yardım edib-etməmək barədə qərar qəbul etmə müstəqilliyini tam özündə saxlayır və onun öz ərazisində mümkün təhlükələri, apardığı xilasetmə işlərini və xilasetmə qruplarının məşğulluq dərəcəsini nəzərə alaraq qərar verir;

4. müraciət edilən Tərəf ən qısa zamanda müraciət edən Tərəfə onun müraciətinə verəcəyi cavab barədə məlumat verir. Həmin cavabda müraciət edilən Tərəf müraciət edən Tərəfə ediləcək yardımın nədən ibarət olacağı, xilasetmə qruplarının tərkibi, ekspertlərin ixtisas səviyyəsi, təchizat əşyaları, çatdırılacaq istismar avadanlıqları barədə dəqiqləşdirilmiş məlumat verir. O, həmçinin hadisə yerinə getmək üçün istifadə olunan nəqliyyat vasitəsini də göstərməli və nəzərdə tutulan sərhəd keçid məntəqəsini bildirməlidir.

TƏRƏFLƏRİN ÖHDƏLİKLƏRİ VƏ SAZİŞLƏ BAĞLI BAŞLICA ŞƏRTLƏR

Maddə 7

Tərəflərin öhdəlikləri

1. Yardım göstərilməsi üçün hava nəqliyyatı vasitəsinin verilməsi ilə bağlı müraciət niyyəti müraciət edilən Tərəfin səlahiyyətli orqanlarına vaxt itirmədən bildirilməlidir. Bu barədə razılığa gəldikdə, müraciət edilən Tərəf hava nəqliyyatı vasitəsinin növü və markası, onun ekipajının tərkibi və yükü, yola düşmə saatı, nəzərdə tutulan uçuş planı və enmə yeri barədə dəqiq məlumat verməlidir.

2. Yardım göstərilməsi üçün hava nəqliyyatı vasitəsinin verilməsi hər iki Tərəfin hava nəqliyyatı ilə bağlı qanunvericiliyi əsasında həyata keçirilməli və hava nəqliyyatına nəzarət edən səlahiyyətli orqanlara uçuşlar barədə məlumat verilməlidir.

3. Müraciət edilən Tərəfin axtarış-xilasetmə qrupuna bütün lazımi təlimatlan vermək və

axtarış-xilasetmə əməliyyatlarını idarə etmək müraciət edən Tərəfin səlahiyyətli qurumlarının üzərinə düşür.

4. Müraciət edilən Tərəfin axtarış-xilasetmə qrupunun üzvləri onların müdaxiləsini tələb edən bütün yerlərə müraciət edən Tərəfin onlara tapşırdığı zonanın sərhədləri çərçivəsində sərbəst girib-çıxa bilərlər.

5. Ehtiyac olduğu təqdirdə, müraciət edilən Tərəf müraciət edən Tərəfin xilasetmə qruplarını tərcüməçi və axtarış-xilasetmə əməliyyatlarının baş qərargahı ilə əlaqə saxlamaq üçün ötürücü vasitələrlə təmin edir.

6. Müdaxilələrin səmərəliliyini və sürətliliyini təmin etmək məqsədilə hər bir Tərəf sərhəddə keçid prosedurlarını sadələşdirməlidir.

7. Bunun üçün müraciət edilən Tərəfin axtarış-xilasetmə qrupunun hər bir üzvünün etibarlılığı qüvvədə olan şəxsiyyəti təsdiq edən sənədləri olmalıdır. Xilasetmə qrupunun üzvləri missiya müddəti ərzində müraciət edən Tərəfin ərazisində vizasız və ona bərabər digər icazə olmadan qala bilərlər. Onlar həmin tərəfin ərazisində mövcud olan qanunlara və qaydalara riayət və hörmət etməlidirlər.

Maddə 8

Sazişlə bağlı başlıca şərtlər

1. Müraciət edilən Tərəfin axtarış-xilasetmə qrupunun rəhbəri xilasetmə missiyasını təsdiq edən sənədə, habelə bu qrupun tərkibindəki birləşmələrin növü və üzvlərinin sayı haqqında məlumatı əks etdirən sənədə malik olmalıdır. Bu sənəd xilasetmə qrupunun təhkim olunduğu idarə tərəfindən verilməlidir.

2. Müraciət edilən Tərəfin axtarış-xilasetmə qrupunun üzvləri müraciət edən Tərəfin ərazisində xilasetmə işləri apararkən öz uniformalarını geyə bilərlər

3. Müraciət edilən Tərəfin axtarış-xilasetmə qrupunun üzvləri tərəfindən müraciət edən Tərəfin ərazisinə heç bir silah, sursat və ya partlayıcı maddə gətirilə bilməz.

4. Fövqəladə hallar istisna olmaqla, müraciət edilən Tərəfin hər bir xilasetmə qrupunun rəhbəri təchizat əşyaları, xilasetmə vasitələri və istismar avadanlıqlarının ümumi siyahısına malik olmalıdır. Bu siyahı həmin qrupların təhkim olunduqları rəhbərlik tərəfindən təsdiq edilməlidir. Xilasetmə qrupları ancaq missiyanın yerinə yetirilməsi üçün vacib olan təchizat əşyaları, xilasetmə vasitələri və istismar avadanlıqları daşıya bilərlər.

5. Xilasetmə missiyaları zamanı istifadə olunmayan təchizat əşyaları, xilasetmə vasitələri və istismar avadanlıqları müraciət edilən Tərəfin hesabına onun ərazisinə geri göndərilməlidir. Əgər yaranmış xüsusi hallarda buna imkan yoxdursa, müraciət edilən Tərəfin xilasetmə missiyasının rəhbər qurumu, habelə müraciət edən Tərəfin gömrük qurumları bu barədə xəbərdar edilməlidir.

6. Müraciət edilən Tərəfin tibbi xilasetmə dəstələri özlərinin lazımi avadanlıqları ilə fəaliyyət göstərirlər. Təcili tibbi yardım həyata keçirən tibbi xilasetmə dəstələrinin avadanlıqları sırasına xüsusilə təcili tibbi yardımlar üçün nəzərdə tutulan narkotik və psixotrop maddələr kimi təsnif edilən dərmanlar da daxildir. Bu dərmanlar yalnız ixtisaslaşmış tibbi personal tərəfindən müraciət edən Tərəfin hüquqi və qanunverici normalarına müvafiq şəkildə istifadə edilə bilər. Müraciət edən Tərəf bu prosesə yerində nəzarət etmək imkanını özündə saxlayır.

7. Müraciət edən Tərəf müraciət edilən Tərəfin axtarış-xilasetmə qruplarını öz xilasetmə missiyalarını yerinə yetirdikləri müddətdə qida və yaşayış yeri ilə, zərurət yarandıqda isə hava nəqliyyatı vasitələrini yanacaqla təmin etməlidir. Xilasetmə qrupları, zərurət yarandıqda, lazımi tibbi yardımla da təmin edilməlidirlər.

8. Müraciət edən Tərəf istənilən vaxt yardım üçün etdiyi müraciəti ləğv edə bilər. Bu halda, müraciət edilən Tərəf sərf etdiyi məsrəflərin ona qaytarılmasını tələb edə bilər. Məsrəflərin qaytarılması bu barədə müraciət tərtib edilib çatdırıldıqdan dərhal sonra həyata keçirilir.

9. Müraciət edilən Tərəf göndərdiyi xilasetmə qruplarının üzvlərini tibbi sığorta ilə təmin etməlidir.

10. Müraciət edən Tərəf, yardım missiyası zamanı baş verə biləcək qəzadan irəli gələn müraciət edilən Tərəfin zərərçəkmiş xilasedicilərinə və onun ailə üzvlərinə təzminatla bağlı xərcləri ödəyir. Bu təzminat xilasedicilərin ölkəsinin qanunvericiliyinə uyğun olaraq qiymətləndirilir. Xilasetmə əməliyyatları zamanı zərər vuran hər hansı üçüncü tərəf olduğu təqdirdə bu razılaşma eyni qüvvəyə malikdir.

11. Əgər yardım missiyası zamanı müraciət edən Tərəfin ərazisində müraciət edilən Tərəfin axtarış-xilasetmə qrupunun üzvlərindən biri və ya bir neçəsi hər hansı bir hüquqi və ya fiziki şəxsə hər hansı zərər yetirərsə, müraciət edən Tərəf zərərçəkmiş şəxsə dəymiş ziyanın əvəzini ödəməli və bu ödəniş müraciət edən Tərəfin qanunvericiliyinə müvafiq şəkildə həyata keçirilməlidir.

12. Müraciət edən Tərəf fövqəladə hal zamanı yardım missiyasını həyata keçirərkən müraciət edilən Tərəfin avadanlıqlarına dəymiş zərərin araşdırılması üçün hüquqi yardımın həyata keçirilməsinə kömək edəcəkdir.

13. Müraciət edən Tərəf müraciət edilən Tərəfin hər hansı üzvünün öz missiyasının həyata keçirilməsi zamanı bilərəkdən vurduğu əsassız zərərin əvəzinin ödənilməsini müraciət edilən Tərəfdən tələb edə bilər.

ƏLAVƏ MÜDDƏALAR

Maddə 9

Yardımın sonu

Bu Saziş çərçivəsində istifadəyə verilmiş vasitələrdən imtina prosedurları aşağıdakı kimi həyata keçirilir:

1. Missiya başa çatdıqdan sonra müraciət edən Tərəf müraciət edilən Tərəfin istifadə üçün ona verdiyi vasitələri geri qaytararkən, müraciət edən Tərəf bu barədə həm istifadə edilən vasitələrə cavabdeh olan rəhbər şəxsə, həmdə müraciət edilən Tərəfin səlahiyyətli qurumlarına məlumat verməlidir.

2. Əgər missiya ərzində müraciət edilən Tərəf öz vasitələrinin verilməsindən imtina etməyi qərara alırsa, o, bu barədə müraciət edən Tərəfə məlumat verməli və sonuncu bu məlumatı sözügedən vasitələrə cavabdeh olan rəhbər şəxsə dərhal ötürməlidir.

3. Müraciət edilən Tərəfin qərarı gecikdirilmədən həyata keçirilməli və müzakirə predmeti olmamalıdır.

4. Missiya başa çatdıqdan sonra müraciət edən Tərəf müraciət edilən Tərəfə fəlakətin miqyası və dərəcəsi barədə, həmçinin xilasetmə əməliyyatlarının gedişi ilə bağlı hesabat verməlidir.

5. Müraciət edilən Tərəf ekspertiza missiyasını yerinə yetirdiyi təqdirdə, həyata keçirdiyi missiya barədə ekspertiza hesabatını ən qısa zamanda müraciət edən Tərəfə ünvanlanmalıdır.

Maddə 10

Müştərək Komissiya

1. Bu Saziş çərçivəsində Tərəflər mülki müdafiə və təhlükəsizlik sahəsində müştərək komissiya yaradırlar. Tərəflər komissiyanın iclasından əvvəl onun tərkibi barədə bir-birinə məlumat verməlidirlər.

2. Komissiyanın tərkibi hər iki Tərəfin səlahiyyətli orqanları, nazirləri tərəfindən müəyyən edilir. Komissiyanın vəzifəsi hər iki Tərəfin nazirlərinə müvafiq qurumların xəbərdarlıq, müdafiə və axtarış-xilasetmə xidmətləri arasında əməkdaşlığı möhkəmləndirməklə bağlı təkliflər verməkdir.

3. Tərəflər arasında əməkdaşlıq fəaliyyəti bu komissiya çərçivəsində qərara alınır və həyata keçirilir.

4. Komissiya Tərəflərdən biri və ya digəri vasitəsilə ona verilən məsələlərlə bağlı rəy bildirməli və Tərəflər arasında məlumat və təcrübə mübadiləsi üçün şərait yaratmalıdır.

5. Komissiya mütəmadi olaraq iclaslar keçirir. Həmçinin komissiya iclasları Tərəflərdən birinin yazılı müraciəti ilə də çağırıla bilər.

Maddə 11

Əlaqələndirmə

Fəlakət və ya qəza zamanı xəbərdarlıq, qabaqlayıcı tədbirlər və qarşılıqlı yardımı inkişaf etdirmək məqsədilə, Tərəflər bütün lazımi məlumat mübadiləsini aparmaq üçün mütəmadi olaraq bir-biri ilə əlaqə saxlamalı və dövri iclasların təşkili barədə razılığa gəlməlidirlər.

Maddə 12

Məxfiliklə bağlı öhdəlik

Müraciət edən Tərəfin qanunvericiliyinin və qaydalarının açıqlanmaq üçün nəzərdə tutulmayan və ya açıqlanmasına icazə verilməyən informasiya istisna olmaqla, bu Saziş çərçivəsində yerinə yetirilən missiyalar zamanı əldə olunmuş məlumatlar hər iki dövlətin qanunvericiliyinə zidd olmamaq şərtilə dərc oluna bilər.

Maddə 13

Maliyyələşdirmə

1. Tərəflərin birgə razılığı ilə qəbul edilmiş qərarlar istisna olunmaqla, müraciət edən Tərəf bu Sazişin 5 və 6-cı maddələrində sadalanan əməkdaşlıq sahələri üzrə xərcləri özünün büdcə imkanları daxilində maliyyələşdirməlidir.

2. 7-ci və 8-ci maddələrdə sadalanan yardımla bağlı hallara tətbiq olunan maliyyələşdirmə qaydaları Tərəflərin birgə razılığı ilə, onların büdcə imkanları çərçivəsində, hər bir hal üçün ayrıca qərara alınır.

Maddə 14

Beynəlxalq sazişlərlə tənzimlənən münasibətlər

Bu Saziş Tərəflərin qoşulduğu digər beynəlxalq sazişlərdən irəli gələn hüquq və öhdəliklərə təsir etmir.

Maddə 15

Mübahisələrin həlli

Bu Sazişin təfsiri və tətbiqi ilə bağlı yaranan bütün mübahisələr Tərəflər arasında məsləhətləşmələr və danışıqlar vasitəsilə həll edilməlidir.

Maddə 16

Sazişin qüvvəyə minməsi, qüvvədə olma müddəti və Sazişdən çıxma

1. Bu Saziş, onun qüvvəyə minməsi və bununla bağlı dövlətdaxili prosedurların tamamlanmasına dair hər iki Tərəfin diplomatik kanallar vasitəsilə bir-birinə verdiyi sonuncu bildirişdən sonra, gələn ikinci ayın birinci günündən etibarən qüvvəyə minir.

2. Bu Saziş beş il müddətində qüvvədədir və bu müddət bitdikdən sonra yenidən beş il müddətinə uzadıla bilər.

3. Tərəflərdən hər biri istənilən anda digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı formada bildiriş verməklə bu Sazişin qüvvəsini ləğv edə bilər. Bu ləğvetmə, bu barədə bildiriş alındıqdan altı ay sonra qüvvəyə minir. Tərəflər əks qərar qəbul etmədiyi təqdirdə, bu Sazişin ləğvi, icrası davam etməkdə olan fəaliyyətlərə təsir etmir.

Bu Saziş Paris şəhərində 30 yanvar 2007-ci il tarixində hər biri Azərbaycan və fransız dillərində olmaqla, 2 nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	FRANSA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
KƏMALƏDDİN HEYDƏROV	*KRİSTİAN ESTROZİ*
Fövqəladə hallar naziri	*Ərazilərin abadlaşdırılması məsələləri naziri*

Azərbaycan Respublikası Hökuməti və Braziliya Federativ Respublikası Hökuməti arasında viza tələblərinin qismən aradan qaldırılması haqqında Sazişə dair Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Braziliya Federativ Respublikasının Xarici Əlaqələr Nazirliyi arasında notalar mübadiləsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası Hökuməti və Braziliya Federativ Respublikası Hökuməti arasında viza tələblərinin qismən aradan qaldırılması haqqında Sazişə dair Azərbaycan

Respublikasının Xarici İşlər Nazirliyi və Braziliya Federativ Respublikasının Xarici Əlaqələr Nazirliyi arasında notalar mübadiləsi təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№272-IIIQ

Dim/da/00 l/pain-bras-azer
Braziliya, 4 aprel 2006-cı il

Cənab nazir,

Sizə bildirməkdən şərəf duyuram ki, Braziliya Federativ Respublikası Hökuməti hər iki ölkə vətəndaşlarının səfərlərini asanlaşdırmaq məqsədilə Azərbaycan Respublikası Hökuməti ilə aşağıdakı şərtlərlə ifadə olunan Viza tələblərinin qismən ləğvinə dair Saziş bağlamaq arzusundadır:

1. Hər bir Tərəfin etibarlı diplomatik, rəsmi və xidməti pasportlara malik olan vətəndaşları vizasız, 90 (doxsan) gündən çox olmayan müddətə digər Tərəfin dövlətinin ərazisinə daxil ola, tranzitlə keçə və oranı tərk edə bilərlər.

2. Qalma müddətinin uzadılması akkreditə edilmiş dövlətin diplomatik missiyası və ya konsulluğu tərəfindən edilən yazılı müraciət əsasında qəbul edən dövlətin səlahiyyətli orqanları tərəfindən həyata keçiriləcəkdir.

3. Tərəflərin diplomatik missiyası və ya konsulluğu olmadığı təqdirdə, diplomatik, rəsmi və xidməti pasportlara malik olan vətəndaşlar akkreditə edən dövlətin Xarici İşlər Nazirliyinin Konsulluq İdarəsinə müraciət edəcəklər.

4. Diplomatik, rəsmi və ya xidməti pasportlara malik olan Braziliya Federativ Respublikasının vətəndaşları Azərbaycan Respublikasına istənilən beynəlxalq sərhəd məntəqəsindən daxil olacaqlar. Diplomatik, rəsmi və ya xidməti pasportlara malik olan Azərbaycan Respublikasının vətəndaşları Braziliyaya istənilən beynəlxalq sərhəd məntəqəsindən daxil olacaqlar.

5. Hər bir Tərəfin diplomatik, rəsmi və ya xidməti pasportlara malik olan və diplomatik missiyanın, konsulluğun və ya beynəlxalq təşkilatların rəsmi nümayəndələri olan vətəndaşları, həmçinin onlarla birlikdə yaşayan və etibarlı diplomatik, rəsmi və ya xidməti pasportlara malik olan ailə üzvləri vəzifələrini yerinə yetirdikləri müddət ərzində digər Tərəfin dövlətinin ərazisinə vizasız daxil ola, orada qala və oranı tərk edə bilərlər.

6. Hər bir Tərəfin vətəndaşları qəbul edən dövlətin ərazisində olduqları müddət ərzində qüvvədə olan qanunlara və qaydalara əməl edəcəklər.

7. Tərəflər əcnəbilərin ölkəyə daxil olması, tranzitlə keçməsi və qalması ilə bağlı müvafiq qanunlarında və qaydalarında baş vermiş dəyişikliklər barədə bir-birinə məlumat verəcəklər.

8. Bu Saziş, heç bir Tərəfin digər Tərəfin arzuolunmaz hesab olunan vətəndaşlarının ölkəyə gəlməsinin qarşısını almaq və ya ölkədə qalma müddətini qısaltmaq hüququnu məhdudlaşdırmır.

9. Tərəflər bu Sazişdə qeyd olunan etibarlı diplomatik, rəsmi və ya xidməti pasportların nümunələrini bu Sazişin imzalanmasından ən azı 30 (otuz) gün sonra diplomatik kanallarla mübadilə edəcəklər.

10. Yeni diplomatik, rəsmi və ya xidməti pasportlar dövriyyəyə buraxıldıqda və ya mövcud pasportlarda dəyişikliklər baş verdikdə Tərəflər bu cür pasportların nüsxələrini onların tətbiq olunmasından ən azı 30 (otuz) gün əvvəl diplomatik kanallar vasitəsilə bir-birinə göndərəcəklər.

11. Tərəflərdən hər biri diplomatik kanallar vasitəsilə istənilən vaxt bu Sazişi ləğv edə bilər. Ləğvetmə bildirişin alınmasından 90 (doxsan) gün sonra qüvvəyə minəcəkdir.

12. Bu razılaşmalar Azərbaycan Respublikası Hökuməti üçün məqbul hesab olunduğu təqdirdə, bu nota və Zati-Alilərinizin cavabı bizim iki Hökumət arasında Saziş təşkil edəcək və bu Sazişin qüvvəyə minməsi üçün tələb olunan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin ikinci diplomatik notasının alındığı tarixdən 30 (otuz) gün sonra qüvvəyə minəcəkdir.

Fürsətdən istifadə edərək Zati-Alilərinizə bir daha ən dərin ehtiramımı izhar edirəm.

Selso AMORİM

Braziliya Federativ Respublikasının
xarici əlaqələr naziri

5/11-512/03

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Braziliya Federativ Respublikasının Xarici Əlaqələr Nazirliyinə öz ehtiramını bildirir və sonuncunun DİM/DA/001/PA-İN-BRAS-AZER nömrəli, 4 aprel 2006-cı il tarixli notasına istinad edərək Azərbaycan tərəfinin aşağıdakı şərtlərə razı olduğunu bildirməkdən şərəf duyur:

1. Hər bir Tərəfin etibarlı diplomatik, rəsmi və xidməti pasportlara malik olan vətəndaşları vizasız, 90 (doxsan) gündən çox olmayan müddətə digər Tərəfin dövlətinin ərazisinə daxil ola, tranzitlə keçə və oranı tərk edə bilərlər.

2. Qalma müddətinin uzadılması akkreditə edilmiş dövlətin diplomatik missiyası və ya konsulluğu tərəfindən edilən yazılı müraciət əsasında qəbul edən dövlətin səlahiyyətli orqanları tərəfindən həyata keçiriləcəkdir. Tərəflərin diplomatik missiyası və ya konsulluğu olmadığı təqdirdə, diplomatik, rəsmi və xidməti pasportlara malik olan vətəndaşlar akkreditə edən dövlətin Xarici İşlər Nazirliyinin Konsulluq İdarəsinə müraciət edəcəklər.

3. Diplomatik, rəsmi və ya xidməti pasportlara malik olan Azərbaycan Respublikasının vətəndaşları Braziliyaya istənilən beynəlxalq sərhəd məntəqəsindən daxil olacaqlar. Diplomatik, rəsmi və ya xidməti pasportlara malik olan Braziliya Federativ Respublikasının vətəndaşları Azərbaycan Respublikasına istənilən beynəlxalq sərhəd məntəqəsindən daxil olacaqlar.

4. Hər bir Tərəfin diplomatik, rəsmi və ya xidməti pasportlara malik olan və diplomatik missiyanın, konsulluğun və ya beynəlxalq təşkilatların rəsmi nümayəndələri olan vətəndaşları, həmçinin onlarla birlikdə yaşayan və etibarlı diplomatik, rəsmi və ya xidməti pasportlara malik olan ailə üzvləri vəzifələrini yerinə yetirdikləri müddət ərzində digər Tərəfin dövlətinin ərazisinə vizasız daxil ola, orada qala və oranı tərk edə bilərlər.

5. Hər bir Tərəfin vətəndaşları qəbul edən dövlətin ərazisində olduqları müddət ərzində qüvvədə olan qanunlara və qaydalara əməl edəcəklər.

6. Tərəflər əcnəbilərin ölkəyə daxil olması, tranzitlə keçməsi və qalması ilə bağlı müvafiq qanunlarında və qaydalarında baş vermiş dəyişikliklər barədə bir-birinə məlumat verəcəklər.

7. Bu Saziş, heç bir Tərəfin digər Tərəfin arzuolunmaz hesab olunan vətəndaşlarının ölkəyə gəlməsinin qarşısını almaq və ya ölkədə qalma müddətini qısaltmaq hüququnu məhdudlaşdırmır.

8. Tərəflər bu Sazişdə qeyd olunan etibarlı diplomatik, rəsmi və ya xidməti pasportların nümunələrini bu Sazişin imzalanmasından ən azı 30 (otuz) gün sonra diplomatik kanallarla mübadilə edəcəklər.

9. Yeni diplomatik, rəsmi və ya xidməti pasportlar dövriyyəyə buraxıldıqda və ya mövcud pasportlarda dəyişikliklər baş verdikdə Tərəflər bu cür pasportların nüsxələrini onların tətbiq olunmasından ən azı 30 (otuz) gün əvvəl diplomatik kanallar vasitəsilə bir-birinə göndərəcəklər.

10. Tərəflərdən hər biri diplomatik kanallar vasitəsilə istənilən vaxt bu Sazişi ləğv edə bilər. Ləğvetmə bildirişin alınmasından 90 (doxsan) gün sonra qüvvəyə minəcəkdir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bildirir ki, bu təsdiqləyici verbal nota və Braziliya Federativ Respublikasının Xarici Əlaqələr Nazirliyinin verbal notası Azərbaycan Respublikası Hökuməti və Braziliya Federativ Respublikası Hökuməti arasında diplomatik, rəsmi və ya xidməti pas-portlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında saziş təşkil edəcəkdir. Bu Saziş, onun qüvvəyə minməsi üçün tələb olunan dövlətdaxili prosedurların tamamlanması barədə Tərəflərin ikinci diplomatik notasının alındığı tarixdən 30 (otuz) gün sonra qüvvəyə minəcəkdir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi fürsətdən istifadə edərək bir daha Braziliya Federativ Respublikasının Xarici Əlaqələr Nazirliyinə dərin ehtiramını bildirir.

"Azərbaycan Respublikası Hökuməti və Argentina Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Argentina Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında" 2006-cı il aprelin 3-də Buenos-Ayres şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№ 273-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Argentina Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Argentina Respublikası Hökuməti,

iki dövlət arasında dostluq münasibətlərini daha da inkişaf etdirmək,

etibarlı diplomatik, rəsmi və xidməti pasportlara malik olan vətəndaşlarının iki dövlət arasında gediş-gəlişini və yerdəyişməsini asanlaşdırmaq arzu-sunda olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

1. Etibarlı diplomatik, rəsmi və xidməti pasportlara malik olan Azərbaycan Respublikası və Argentina Respublikası vətəndaşları, habelə adları onların pasportlarında qeyd olunan yetkinlik yaşına çatmamış şəxslər Razılığa gələn digər Tərəfin dövlətinin ərazisinə 1 (bir) ay ərzində vizasız daxil ola, orada qala, oradan gedə və tranzit qaydada həmin ərazidən keçə bilərlər.

2. Tərəflərin dövlətlərinin vətəndaşlarının qalma müddətinin uzadılması, qəbul edən dövlətin səlahiyyətli orqanlarının icazəsindən asılı olaraq, göndərən dövlətin qəbul edən dövlətdəki səfirliyinin müraciəti əsasında həyata keçirilir.

Maddə 2

1. Bir Tərəfin dövlətinin ərazisinə daxil olan və etibarlı diplomatik, rəsmi və xidməti pasportlara malik olan, bir Tərəfin dövlətinin vətəndaşları müvafiq diplomatik missiyada, konsulluq müəssisəsində və ya beynəlxalq təşkilat yanında akkreditə edilmiş daimi missiyada öz vəzifələrini yerinə yetirmək üçün qəbul edən ölkənin Xarici İşlər Nazirliyində akkreditə edilir.

2. Bu maddənin birinci bəndinin müddəaları həmçinin diplomatik, rəsmi və xidməti pasportlara malik olan şəxslərin yaxın ailə üzvlərinə münasibətdə də tətbiq edilir.

Maddə 3

Etibarlı diplomatik, rəsmi və xidməti pasportlara malik olan, hər iki Tərəfin dövlətinin vətəndaşları digər Tərəfin dövlətinin ərazisinə istənilən beynəlxalq sərhəd-buraxılış məntəqələrindən daxil ola və oradan gedə bilərlər.

Maddə 4

1. Bir Tərəfin dövlətinin vətəndaşına məxsus diplomatik, rəsmi və ya xidməti pasport digər Tərəfin dövlətinin ərazisində itirildikdə və ya korlandıq-da, pasport sahibi bu ba-

rədə digər Tərəfin Xarici İşlər Nazirliyini məlumatlandırmalıdır.

2. İtirilmiş və ya korlanmış diplomatik, rəsmi və ya xidməti pasport əvəzinə pasport sahibinin vətəndaşlığı mənsub olan dövlətin diplomatik nümayəndəliyi və ya konsulluq müəssisəsi tərəfindən həmin şəxsə yeni keçid sənədi verilir. Keçid sənədi əsasında çıxışa qəbul edən dövlətin Xarici İşlər Nazirliyinin müvafiq icazəsindən sonra yol verilir.

Maddə 5

Etibarlı diplomatik, rəsmi və xidməti pasportlara malik olan bir Tərəfin dövlətinin vətəndaşları digər Tərəfin dövlətinin ərazisində qüvvədə olan qanunlara, qaydalara və normativ aktlara əməl etməlidirlər.

Maddə 6

Tərəflər milli təhlükəsizliyin təmin edilməsi, ictimai asayişin qorunması üçün və ya vətəndaşların sağlamlığına təhlükə olduqda, bu Sazişin tətbiqini müvəqqəti, tamamilə və ya qismən dayandırmaq hüququnu özündə saxlayırlar. Tərəflər bu Sazişin tətbiqinin dayandırılması və onun yenidən qüvvəyə minməsi haqqında qərar barədə dərhal, 48 saatdan gec olmayaraq, diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandırırlar.

Maddə 7

Hər bir Tərəf digər Tərəfin "persona non grata" və ya arzuolunmaz sayılan şəxslərinə öz dövlətinin ərazisinə giriş vizasını verməkdən imtina etmək və ya həmin şəxslərin burada qalmaq müddətini dayandırmaq hüququnu özündə saxlayır.

Maddə 8

1. Tərəflərin xarici işlər nazirlikləri bu Sazişin qüvvəyə minməsindən sonra 30 gün müddətində diplomatik kanallar vasitəsilə Sazişin şamil edildiyi pasportların nümunələrini mübadilə edirlər.

2. Tərəflər dövriyyəyə yeni diplomatik, rəsmi və ya xidməti pasportlar buraxdıqları halda, onların qüvvəyə minməsindən ən azı 30 gün əvvəl diplomatik kanallar vasitəsilə bu pasportların nümunələrini mübadilə edirlər.

Maddə 9

Bu Sazişin müddəalarının yerinə yetirilməsi və tətbiq edilməsində yarana bilən hər hansı anlaşılmazlıq və mübahisə Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 10

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə əlavələr və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olaraq ayrı-ayrı protokollar formasında rəsmiləşdirilir və bu Sazişin 11-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minir.

Maddə 11

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirdikləri barədə bir-birlərinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən 30 gün sonra qüvvəyə minir.

Tərəflərdən biri bu Sazişin qüvvəsini ləğv etmək niyyətində olduqda, istənilən vaxt bu barədə digər Tərəfə diplomatik kanallarla yazılı şəkildə bildirir. Saziş belə bildirişin alındığı tarixdən 90 (doxsan) gün sonra qüvvədən düşür.

Bu Saziş Buenos-Ayres şəhərində 3 aprel 2006-cı ildə, iki əsl nüsxədə Azərbaycan, ispan və ingilis dillərində imzalanmışdır və bütün mətnlər autentikdir. Bu Sazişin təfsiri zamanı fikir ayrılığı yarandıqda ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	ARGENTİNA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

"2007-2009-cu illər üzrə humanitar sahədə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında əməkdaşlıq Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2006-cı il dekabrın 4-də Bakı şəhərində imzalanmış "2007-2009-cu illər üzrə humanitar sahədə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında əməkdaşlıq Proqramı" təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№275-IIIQ

"Təsdiq edirəm"	"Təsdiq edirəm"
Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini	Rusiya Federasiyası Xarici İşlər Nazirinin müavini, Stats-Katib
X.A.XƏLƏFOV	Q.B.KARASİN
4 dekabr 2006-cı il	4 dekabr 2006-cı il

2007-2009-cu illər üzrə humanitar sahədə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında əməkdaşlıq Proqramı

№	Tədbir	İcra müddəti	İcraçılar	
			Rusiya Federasiyasından	Azərbaycan Respublikasından
1.	**Mədəniyyət sahəsində**			

1.1.	Azərbaycan Respublikasında Rusiya Federasiyasının Mədəniyyət günləri və Rusiya Federasiyasında Azərbaycan Respublikasının Mədəniyyət günləri	2007-ci ildə Rusiyada, 2008-ci ildə Azərbaycanda, 2009-cu ildə Rusiyada	Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi	Mədəniyyət və Turizm Nazirliyi, XİN, Xarici ölkələrdə yaşayan azərbaycanlılar üzrə dövlət komitəsi
1.2.	Moskvada Bakı Evi və Bakıda Moskva Evi açılması	Bütün müddət ərzində	Moskva şəhərin hökuməti	Bakı şəhəri İcra hakimiyyəti
1.3.	Bakıda Moskva şəhərin Günləri və Moskvada Bakı şəhərin Günləri	2007-ci il 2008-ci il	Mədəniyyət nazirliyi, Moskva şəhərin hökuməti	Mədəniyyət və Turizm Nazirliyi, Bakı şəhəri İcra hakimiyyəti
1.4.	Bədii kollektivlərin və ayrı-ayrı ifaçıların qastrol səfərləri, həmçinin müasir rəssamların sərgiləri. Uşaq incəsənət kollektivlərinin qastrol səfərlərinin təşkili	Hər il	Mədəniyyət Nazirliyi	Mədəniyyət və Turizm Nazirliyi, Ailə, qadın və uşaq problemləri üzrə Dövlət komitəsi
1.5.	Xalq yaradıcılığı, tətbiqi-dekorativ və müasir incəsənət sərgiləri Uşaq və foto sərgiləri	Ayrıca qrafiklə bütün müddət üzrə	Mədəniyyət Nazirliyi, Roszarubejsentr, yaradıcılıq ittifaqları	Mədəniyyət və Turizm Nazirliyi, Xarici ölkələrdə yaşayan azərbaycanlılar üzrə dövlət komitəsi Ailə, qadın və uşaq problemləri üzrə Dövlət komitəsi
1.6.	"Rusiya hərəkətdə" fotosərgisi	2007-ci il, Bakı şəhəri	"RİA Novosti"	Mədəniyyət və Turizm Nazirliyi
1.7.	"Rus dahisi", A.S.Puşkinin 210 illiyinə həsr edilmiş sərgi	2009-cu il, Bakı şəhəri	"RİA Novosti"	Mədəniyyət və Turizm Nazirliyi
1.8.	Rusiya və Azərbaycan muzeylərinin eksponatlarının mübadiləsi sərgiləri. Milli muzeylərin MDB çərçivəsində keçirilən birgə aksiyalarda iştirakı. "Azərbaycanın klassik xalçaçılıq məktəbləri" Azərbaycan dövlət xalça muzeyinin eksponatlarının Rusiyanın xaricdəki mədəniyyət və elm mərkəzlərində sərgisi. Moskva, Sankt-Peterburq və Bakıda "Azərbaycanın süjet xalçalarının" mübadilə sərgilərinin təşkili	Hər il ayrıca plan üzrə	Mədəniyyət Nazirliyi, Roszarubejsentr, "RİA Novosti", yaradıcılıq ittifaqları	Mədəniyyət və Turizm Nazirliyi, XİN
1.9.	"Rusiya muzeyləri xəzinəsi" sərgisi	2008-ci il Bakı şəhəri	"RİA Novosti"	Mədəniyyət və Turizm Nazirliyi

1.10.	Rusiyada və Azərbaycanda keçirilən kinofestivallarda rus və Azərbaycan kinematoqrafçılarının iştirakı	Hər il ayrıca qrafik üzrə	Mədəniyyət Nazirliyi, Kinematoqrafçılar İttifaqı	Mədəniyyət və Turizm Nazirliyi
1.11.	Rusiya Federasiyası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında məlumat-mədəniyyət mərkəzlərinin təsis edilməsi və şərtləri haqqında 1997-ci il 3 iyul tarixli Sazişin həyata keçirilməsi məsələsinin müzakirəsi	2008-ci il	XİN, Maliyyə Nazirliyi, Roszarubejsentr	Mədəniyyət və Turizm Nazirliyi, XİN, Xarici ölkələrdə yaşayan azərbaycanlılar üzrə dövlət komitəsi
1.12.	İki ölkənin kitabxanaları arasında əməkdaşlığın inkişafı, kitabxanaların məlumatlandırılması sahəsində birgə fəaliyyət, Rusiya Federasiyasının tanınmış kitabxanaçıları, həmçinin incəsənət, mədəniyyət və turizm sahəsində təkmilləşdirmə Akademiyasının müəllimlərinin dəvət edilməsi, təcrübə mübadiləsinin aparılması	Bütün müddət ərzində	Mədəniyyət nazirliyi	Mədəniyyət və Turizm Nazirliyi
2.	**İnformasiya sahəsində**			
2.1.	Rusiya Federasiyası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında Rusiya televiziya və radio verilişləri təşkilatlarının proqramlarının Azərbaycan Respublikasının ərazisində yayımlanması qaydaları və şərtləri haqqında 1997-ci il 7 oktyabr tarixli Sazişin həyata keçirilməsinin davam etdirilməsi	Bütün müddət ərzində	İnformasiya və Rabitə Nazirliyi, VQTRK, XİN	Rabitə və İnformasiya texnologiyaları Nazirliyi, Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti, XİN, maraqlı təşkilatlar, Milli Televiziya və Radio Şurası
2.2.	Televiziya və radio verilişləri sahəsində, o cümlədən səriştəli kadrlar hazırlığı sahəsində əlaqələrin genişləndirilməsi	Bütün müddət ərzində	İnformasiya və Rabitə Nazirliyi, Rospeçat, XİN	Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti
2.3.	Azərbaycan KİV-in jurnalistləri üçün "RİA-Novosti"nin PEN-klubunda staj təcrübəsi (4 nəfər)	Hər il	İnformasiya və Rabitə Nazirliyi, "RİA Novosti	Milli Televiziya və Radio Şurası, Mətbuat Şurası, Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti

2.4.	Rusiya və Azərbaycanda keçirilən kitab festivallarında və yarmarkalarında iştirak	Bütün müddət ərzində	İnformasiya və Rabitə Nazirliyi, XİN	Mədəniyyət və Turizm Nazirliyi, XİN
2.5.	Peşəkar jurnalist birlikləri arasında əməkdaşlığın yaradılması: birgə konfrans və işçi seminarların keçirilməsi, tanışlıq səfərlərinin mübadiləsi, yubiley və xatirə günləri ilə bağlı birgə nəşrlərin hazırlanması	Tərəflərin razılığı əsasında bütün müddət ərzində	Jurnalistlər ittifaqı, Jurnalist ittifaqlarının beynəlxalq konfederasiyası, Mediasoyuz	Jurnalistlər ittifaqı, Mədəniyyət və Turizm Nazirliyi
2.6.	Rusiya haqqında "RİA Novosti"nin əlavəsinin mərkəzi qəzetlərdən birində Azərbaycan dilində nəşr edilməsi	Bütün müddət ərzində	"RİA Novosti"	Jurnalistlər ittifaqı, Mədəniyyət və Turizm Nazirliyi
2.7.	Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında ümumi təyinatlı informasiya resurslarının birgə hazırlanması və konkret sahələrin müəyyənləşdirilməsi üzrə məsləhətləşmələrin keçirilməsi. Humanitar sahədə informasiya texnologiyalarının istifadəsi üzrə qarşılıqlı faydalı əməkdaşlığın yaradılması, o cümlədən: - Rusiya və Azərbaycan elektron informasiya resurslarının vahid sisteminin yaradılmasına dair təkliflərin işlənib hazırlanması, habelə məlumat bazaları, elektron nəşrlər və kitabxanalar; əhalinin qeydə alınması prosesinin avtomatlaşdırılmasının sosial-texniki aspektləri üzrə təcrübə mübadiləsi; məsafəli təhsil və teletəbabət texnologiyalarının yayılması üzrə təkliflərin hazırlanması, informasiya texnologiyalarının təhsil və səhiyyə sahələrində (məsafəli təhsil, teletəbabət və s.) tətbiqi üzrə təcrübə mübadiləsinin aparılması	Bütün müddət ərzində	İnformasiya və Rabitə Nazirliyi, Təhsil və Elm Nazirliyi	Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Dövlət Statistika Komitəsi, Ədliyyə Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
2.8.	Bakı şəhərində İnnovasiya fəaliyyəti üzrə mütəxəssislərin hazırlığı üzrə Azərbaycan-Rusiya birgə Mərkəzin yaradılması	Bütün müddət ərzində	İqtisadi İnkişaf Nazirliyi	İqtisadi İnkişaf Nazirliyi
3.	**Təhsil sahəsində**			

3.1.	Azərbaycanda yaşayan rus və digər rusdilli milli azlıqların uşaqlarının və Rusiyada yaşayan Azərbaycan milli azlığının uşaqlarının öz doğma dillərində təhsil almaları, öz xalqının mədəniyyəti, tarixi və adət-ənənələri ilə tanışlığı üçün şəraitin aradılmasına yardımçı olmaq, Azərbaycan məktəblərinin rus dili və ədəbiyyatı müəllimləri üçün Rusiyanın ali təhsil ocaqlarının bazasında illik staj təcrübəsi və təkmilləşdirmə kurslarının təşkili praktikasının davam etdirilməsi	Bütün müddət ərzində	Təhsil və Elm Nazirliyi	Təhsil Nazirliyi, Xarici ölkələrdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət komitəsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
3.2.	Azərbaycan vətəndaşlarının, Azərbaycan Respublikası üçün maraq kəsb edən ixtisaslar üzrə Rusiyanın ali məktəblərinə tam təhsil kurslarına (tələbələr, magistrantlar, aspirantlar və stajçılar) qəbulunun davam etdirilməsi	Azərbaycan tərəfinin müraciətinə əsasən hər il	Təhsil və Elm Nazirliyi	Təhsil Nazirliyi, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası
3.3.	Azərbaycandakı rus dili təhsilli Azərbaycan məktəblərinin və Rusiyadakı Azərbaycan bazar günü məktəblərinin zəruri tədris materialları və digər ləvazimatlarla, xüsusilə də IX-XI siniflər üçün ədəbiyyat dərsliyi və I-XI siniflər üçün dərsliklərlə təchiz edilməsi	Hər il	Xaricdəki həmvətənlərlə iş üzrə hökumət komissiyası, XİN, Rusiya Federasiyasının Azərbaycandakı səfirliyi	Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, XİN, Azərbaycan Respublikasının Rusiyadakı səfirliyi
3.4	Hər bir dövlətin ərazisində rus və Azərbaycan xalqlarının doğma dillərində tədris-tərbiyə prosesinin həyata keçirilməsində təhsil müəssisələrinə metodiki yardım göstərilməsi və bu məqsədlə dil və ədəbiyyat üzrə birgə seminarlar, treninq və olimpiadaların keçirilməsində ümumtəhsil məktəblərinin müəllimlərinə tədris-metodiki yardım göstərmək	Bütün müddət ərzində	Təhsil və Elm Nazirliyi, Mədəniyyət Nazirliyi	Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
4.	**Elm sahəsində**			
4.1.	Elmi əməkdaşlığın istiqamətləri və tematikasının razılaşdırılması	2007-ci il	Rusiya Elmlər Akademiyası	Azərbaycan Milli Elmlər Akademiyası
4.2.	Tarixçilərin ikitərəfli komissiyasının işinin aktivləşdirilməsi	Bütün müddət ərzində	Rusiya Elmlər Akademiyası	Azərbaycan Milli Elmlər Akademiyası

4.3.	Tarix, ədəbiyyat, rus və Azərbaycan dilləri üzrə məktəb və ali təhsil müəssisələrinin dərsliklərinin saxlanılması məsələləri üzrə ikitərəfli komissiyaların yaradılması	2007-ci il	Rusiya Elmlər Akademiyası, Təhsil və elm nazirliyi	Azərbaycan Milli Elmlər Akademiyası, Təhsil nazirliyi
4.4.	Tarix elminin aktual problemləri üzrə, o cümlədən "Rusiya-Azərbaycan: humanitar əməkdaşlığın təcrübəsi və yeni ölçüləri" mövzusunda, həmçinin digər qarşılıqlı maraq kəsb edən mövzularda birgə elmi konfranslar	Bütün müddət ərzində	Rusiya Elmlər Akademiyası	Azərbaycan Milli Elmlər Akademiyası
4.5.	"XVII-XIX əsrlərdə Azərbaycanın Rusiyanın tərkibinə daxil edilməsi mərhələləri və formaları. Müasir baxış" mövzusunda birgə iş	Bütün müddət ərzində	Rusiya Elmlər Akademiyası	Azərbaycan Milli Elmlər Akademiyası
4.6.	"Avropa və Asiya xalqlarının eposu"nun Azərbaycan cildlərinin seriyasının hazırlanması üzrə birgə iş	Bütün müddət ərzində	Rusiya Elmlər Akademiyası	Azərbaycan Milli Elmlər Akademiyası
4.7.	Ümumi tarix, arxeologiya və etnoqrafiya sahələrində elmi müəssisələrin əməkdaşlıq forma və metodlarının birgə işlənib hazırlanması (kadr hazırlığında yardım, birgə ekspedisiya və konfranslar, işlərin birgə nəşri)	Bütün müddət ərzində	Rusiya Elmlər Akademiyası	Azərbaycan Milli Elmlər Akademiyası
4.8.	Azərbaycan və Rusiya məcmuələrindəki ərəb, fars və türk əlyazmalarının arxeoloji tədqiqi üzrə mütəxəssislərin mübadiləsi	Hər il	Rusiya Elmlər Akademiyası	Azərbaycan Milli Elmlər Akademiyası
4.9.	Aşağıdakı problemlər və mövzular üzrə elmi əməkdaşlığının təşkil edilməsi: Qafqazda İslam və Xristianlıq (Qafqazda İslam və Xristianlığın tədqiqi üzrə müştərək işçi qrupun yaradılması); Qafqazdakı çoxmillətli (polietnik) cəmiyyətlərin etnososial strukturu; müasir dövrdə cəmiyyətin sosial strukturunun inkişafı; Xəzəryanı dövlətlərin müasir tarixi, iqtisadi, siyasi və digər problemləri; Neft amili; Qafqaz və Xəzər dənizinin ekoloji problemləri; Azərbaycan və Rusiya arasında əhalinin əmək miqrasiyası (vəziyyət və problemlər) İkitərəfli iqtisadi əməkdaşlıq (vəziyyət və perspektivlər)	Bütün müddət ərzində	Rusiya Elmlər Akademiyası	Azərbaycan Milli Elmlər Akademiyası, Maraqlı olan nazirlik və təşkilatlarla birlikdə

4.10.	Aspirant təhsili və staj təcrübəsi formasında elmi kadrların hazırlanması	Bütün müddət ərzində	Rusiya Elmlər Akademiyası	Azərbaycan Milli Elmlər Akademiyası
4.11.	Hər iki ölkədə keçirilən elmi konfrans, seminar və simpoziumlarda iştirak	Bütün müddət ərzində	Rusiya Elmlər Akademiyası	Azərbaycan Milli Elmlər Akademiyası
5.	**Gənclər siyasəti və idman sahəsində**			
5.1.	Rusiya Federasiyasının gənclərlə iş üzrə Dövlət komitəsi və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi arasında gənclər əməkdaşlığına dair 1998-ci il Protokolunun müddəalarının həyata keçirilməsi və Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında gənclər siyasəti sahəsində əməkdaşlığa dair Saziş layihəsinin imzalanmaya hazırlanmasına baxılması və Azərbaycan Respublikasının gənclər və idman nazirliyi ilə Rusiya Federasiyasının bədən tərbiyəsi və idman üzrə Federal Agentliyi arasında Saziş layihəsinin işlənib imzalanmaya hazırlanması	Bütün müddət ərzində	Rossport, Təhsil və Elm Nazirliyi	Gənclər və İdman Nazirliyi
5.2.	Qarşılıqlı şəkildə razılaşdırılmış müddətlərdə 4 nəfərdən ibarət gənclər və idman heyətlərinin 5 günlük mübadiləsi Hər iki ölkədə keçirilən və gənclər siyasətinə həsr olunmuş elmi-praktik konfranslar, simpozium, treninq-kurslar və seminarlarda iştirak	Hər il	Rossport Təhsil və Elm Nazirliyi	Gənclər və İdman Nazirliyi
5.3.	Rusiya və Azərbaycanın uşaqlar və gənclər düşərgələrində istirahət üçün uşaq və gənclər qruplarının mübadiləsi	Hər il	Xaricdəki həmvətənlərlə iş üzrə hökumət komissiyası, XİN, Təhsil və elm nazirliyi	Gənclər və İdman Nazirliyi, Xarici ölkələrdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət komitəsi, XİN, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
5.4.	Uşaq və yeniyetmə idmanının inkişafında təcrübə mübadiləsi üzrə seminarlar	Hər il	Rossport	Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

5.5.	Rusiya və Azərbaycanın icra hakimiyyətlərinin bədən tərbiyəsi və idman sahələri üzrə orqanlarının təcrübə mübadiləsinin təşkili, o cümlədən qarşılıqlı səfərlər təşkil etməklə. Yüksək dərəcəli idmançıların hazırlanması üzrə təcrübə mübadiləsi üçün seminar-müşavirələr.	Hər il	Rossport	Gənclər və İdman Nazirliyi
5.6.	Rusiya və Azərbaycan idmançıları arasında kompleks idman yarışlarının keçirilməsi üzrə birgə təqvim planının hazırlanması	Hər il	Rossport	Gənclər və İdman Nazirliyi
5.7.	Rusiya və Azərbaycanın əlil-idmançıları arasında idman növləri üzrə yarışların keçirilməsi	Hər il	Rossport, Səhiyyə və Sosial İnkişaf Nazirliyi	Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Paraolimpiya komitəsi
5.8.	Təhsil alan gənclər arasında idmanın müxtəlif növləri üzrə yoldaşlıq görüşlərinin keçirilməsi	Hər il	Rossport	Gənclər və İdman Nazirliyi
5.9.	Bədən tərbiyəsi və idman sahəsində çap məsullarının və dövri nəşriyyatın mübadiləsi	Hər il	Rossport	Gənclər və İdman Nazirliyi
6.	**Səhiyyə sahəsində**			
6.1.	Rusiya və Azərbaycanın səhiyyə müəssisələri arasında birbaşa əlaqələrin genişləndirilməsinin təşviq edilməsi	Bütün müddət ərzində	Səhiyyə və Sosial İnkişaf Nazirliyi	Səhiyyə Nazirliyi
6.2.	İnfeksion xəstəliklərin və vərəmin qarşısının alınmasına yönəlmiş, birgə müalicəvi-profilaktik və epidemiya əleyhinə tədbirlərin görülməsi	Bütün müddət ərzində (zərurət yarananda)	Səhiyyə və Sosial İnkişaf Nazirliyi	Səhiyyə Nazirliyi
6.3.	Tibbi texnika və dərman istehsalı sahəsində əməkdaşlığın səmərəliliyinin artırılması məqsədilə tədbirlərin işlənib hazırlanması, o cümlədən zəruri tibbi təyinatlı məmulatların istehsalı üzrə birgə müəssisələrin yaradılması yolu ilə	Bütün müddət ərzində	Sənaye və Energetika Nazirliyi, Səhiyyə və Sosial İnkişaf Nazirliyi	Səhiyyə Nazirliyi

6.4.	Böyük Vətən müharibəsi və əmək veteranlarının tibbi reabilitasiyasının təşkili	Hər il tərəflərin razılaşması əsasında	Səhiyyə və Sosial İnkişaf Nazirliyi	Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
6.5.	Səhiyyə sisteminin işçiləri üçün birgə seminarların keçirilməsi	Hər il tərəflərin razılaşması əsasında	Səhiyyə və Sosial İnkişaf Nazirliyi	Səhiyyə Nazirliyi
7.	**İnsan hüquqlarına riayət olunması sahəsində**			
7.1.	Rusiya Federasiyası və Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilliklərı xətti ilə iki ölkənin ombudsmanlarının fəaliyyətlərinin təşmilləşdirilməsi sahəsində əməkdaşlıq	Bütün müddət ərzində	İnsan hüquqları üzrə müvəkkilin aparatı	İnsan hüquqları üzrə müvəkkilin aparatı
7.2.	Rusiya və Azərbaycanın qadın, uşaq hüquqlarının müdafiəsi, gənclər hərəkatının inkişafı sahəsində qeyri-hökumət təşkilatları arasında əməkdaşlığın inkişafı. Uşaqlar arasında millətlərarası, milli və dini dözümlülüyün inkişafı üzrə birgə fəaliyyət	Bütün müddət ərzində	Səhiyyə və Sosial İnkişaf Nazirliyi	Ailə, Qadın Və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dini qurumlarla iş üzrə Dövlət komitəsi
7.3.	Azərbaycan və Rusiyada qüvvədə olan pensiya qanunvericiliyi və dəyişikliklərlə bağlı qarşılıqlı məlumat mübadiləsi	Bütün müddət ərzində	Səhiyyə və Sosial İnkişaf Nazirliyi, Ədliyyə Nazirliyi, XİN	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu, Ədliyyə Nazirliyi, XİN
7.4.	Rusiya Federasiyası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında pensiya təminatı sahəsində vətəndaşların hüquqlarının qarantiyasına dair 5 noyabr 1999-cu il tarixli Sazişə dəyişikliklərin razılaşdırılması	2007-ci il	Səhiyyə və sosial inkişaf nazirliyi, Ədliyyə Nazirliyi, XİN	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu, Ədliyyə Nazirliyi, XİN
7.5.	Rusiya Federasiyası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında tərəflərin və üçüncü ölkə vətəndaşlarının alınıb-verilməsinə (Readmissiyaya dair Saziş) dair Sazişin imzalanmaya hazırlanması	2007-ci il	XİN, DİN	DİN, Ədliyyə Nazirliyi, XİN

7.6.	Rusiya Federasiyası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında işçi miqrasiya sahəsində əməkdaşlığa dair Sazişin imzalanmaya hazırlanması	2007-ci il	Federal Miqrasiya Xidməti, Səhiyyə və Sosial İnkişaf Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, XİN, Rostrud	Əmək və Sosial Müdafiə Nazirliyi, DİN, XİN
7.7.	Rusiya Federasiyası və Azərbaycan Respublikasının ailə, qadın və uşaq sahəsində siyasəti həyata keçirən dövlət orqanları arasında əməkdaşlığın inkişafı. Qadınların imkanlarının genişləndirilməsi, qadınlara münasibətdə diskriminasiyanın bütün formalarının aradan qaldırılması, qadın hüquqlarının müdafiəsi sahəsində birgə əməkdaşlığın inkişafı	Bütün müddət ərzində	Səhiyyə və Sosial İnkişaf Nazirliyi	Ailə, Qadın Və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
7.8.	Uşaqların cinayətlərə cəlb olunmasının qarşısının alınması, insan alveri, uşaq əməyinin qeyri-qanuni istismarı, yuvenal ədliyyə, uşaq evləri, internatların fəaliyyətinin təşkili sahəsində əməkdaşlığın inkişafı və təcrübə mübadiləsi	Bütün müddət ərzində	Ədliyyə Nazirliyi, DİN, Səhiyyə və Sosial İnkişaf Nazirliyi	Ailə, Qadın Və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, DİN, Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi
7.9.	Tənha insanların, kimsəsiz uşaqların, xüsusi qayğıya ehtiyacı olan uşaqların, məhbus qadınların, yetkinlik yaşına çatmayanların, məhbusların ailələrinin problemlərinin həlli üzrə əməkdaşlığın inkişafı və təcrübə mübadiləsi. Övladlığa götürmə, hamilik və qəyyumluq sahəsində dəyişikliklər, ailə siyasətinin formalaşdırılması, ailələrin sosial müdafiəsinin gücləndirilməsi, uşaqların rifahının yaxşılaşdırılması sferasında təcrübə mübadiləsi	Bütün müddət ərzində	Ədliyyə Nazirliyi	Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, DİN, Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

Azərbaycan Respublikası Prezidentinin və Litva Respublikası Prezidentinin Birgə Bəyanatının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası Prezidentinin və Litva Respublikası Prezidentinin 2006-cı il iyunun 8-də Bakı şəhərində imzalanmış Birgə Bəyanatı təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№276-IIIQ

Azərbaycan Respublikası Prezidentinin və Litva Respublikası Prezidentinin Birgə Bəyanatı

Litva Respublikasının Prezidenti Zati-aliləri Valdas Adamkus Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevin dəvəti ilə 2006-cı ilin iyun ayının 8 - 9-da Azərbaycan Respublikasında rəsmi səfərdə olmuşdur.

Azərbaycan Respublikası və Litva Respublikası arasında siyasi, iqtisadi və sosial əlaqələrin genişləndirilməsi məqsədilə,

Azərbaycanın Avropa İttifaqı və NATO ilə gələcək əməkdaşlığının daha da inkişafı niyyəti ilə,

Litva Respublikasının Prezidenti cənab Valdas Adamkusun Azərbaycana hazırkı səfərini iki ölkə arasında gələcək dostluq və tərəfdaşlığa təkan verəcəyindən əminliklərini qeyd edərək,

aşağıdakıları bəyan etdilər:

1. Litva Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Prezidenti ikitərəfli siyasi, iqtisadi və mədəni əlaqələri gələcəkdə inkişaf etdirəcəklərini təsdiq etdilər.

2. Prezidentlər əlaqələrin qanunun aliliyi, demokratiya, insan hüquqları və bazar iqtisadiyyatı kimi dəyərlər əsasında inkişaf etdirilməsində qətiyyətli olduqlarını qeyd etdilər. Bununla əlaqədar, Litva tərəfi Azərbaycanda davam edən demokratikləşmə, vətəndaş cəmiyyəti və bazar iqtisadiyyatı prinsiplərinin gücləndirilməsinə yönəldilmiş səyləri alqışladı.

3. Prezidentlər iki ölkə arasında ticarət, iqtisadi, turizm, səhiyyə, elm, təhsil, mədəniyyət və texniki əməkdaşlıq səviyyəsinin onların dinamik surətdə inkişaf edən bazar iqtisadiyyatının potensial imkanlarına tam şəkildə uyğun gəlməsi üçün əlavə tədbirlər həyata keçirilməsini dəstəklədilər.

4. Dövlət başçıları, iki ölkə arasında səmərəli iqtisadi layihələrin həyata keçirilməsi, dövlət və özəl müəssisələr arasında əməkdaşlıq üçün əlverişli şəraitin təmin edilməsi və onların birliklərinin yaradılması, maliyyə və bank strukturları arasında əlaqələrin inkişaf etdirilməsinə köməklik göstərməyə hazır olduqlarını ifadə etdilər.

5. Onlar, Azərbaycan Respublikasının Avropa İttifaqına yaxınlaşmasında Avropa Qonşuluq Siyasətinin pozitiv təsirini məmnuniyyətlə qeyd etdilər və Fəaliyyət Planının yekunlaşmasında maraqlı olduqlarını bəyan etdilər.

6. Tərəflər, Azərbaycan Respublikasının Avropa və Avro-Atlantik inteqrasiyaya yardım üçün istiqamətlənmiş əlaqələri inkişaf etdirəcəklər. Bu məqsədlə Litva Respublikasının Prezidenti aşağıdakı sahələrdə Litvanın dövlət institutlarının Azərbaycan Respublikasının Avropa və Avro-Atlantik strukturlara inteqrasiyası yolunda öz təcrübələri ilə paylaşmağa hazır olduqlarını təsdiq etdi:

- inzibati strukturun gücləndirilməsi, islahat prosesində təcrübə mübadiləsi, mülki qulluqçuların Avropaya inteqrasiya məsələlərində treninqi;
- Avropaya inteqrasiya məsələlərinə dair birgə məsləhətləşmələrin, konfransların və digər fəaliyyətlərin həyata keçirilməsi;

qanunvericiliyin Avropa İttifaqına uyğunlaşdırılması sahəsində təcrübə mübadiləsi;

cəmiyyətin Avropa İttifaqı haqqında məlumatlandırılması üçün kommunikasiya strategiyasının inkişafına dair təcrübə mübadiləsi və islahat üçün ictimai dəstəyin artırılması;

Azərbaycan Respublikası ilə NATO arasında Fərdi Tərəfdaşlıq Fəaliyyət Planının müvəffəqiyyətlə həyata keçirilməsi;

birgə görüşlər, məsləhətləşmələr və treninqlər yolu ilə hərbi islahatlara dair təcrübə mübadiləsi;

təhlükəsizlik sahəsində milli qanunvericiliyin qəbulu və NATO prinsip və tələblərinin müdafiəsi;

müvafiq qeyri-hökumət təşkilatları arasında əməkdaşlığı həvəsləndirmək.

7. Litva tərəfi Azərbaycan Respublikasında aparılan iqtisadi islahatların vacibliyini vurğulayaraq, Azərbaycanın ÜTT-yə üzv olmaq təşəbbüsünü dəstəklədiyini bəyan etdi.

8. Tərəflər BMT Nizamnaməsinin prinsiplərini və ATƏT-in Lissabon Sammitində qəbul edilmiş üç prinsipi tam dəstəkləyərək və onları rəhbər tutaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normaları əsasında, xüsusilə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və dövlətlərin sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında sülh yolu ilə həll edilməsinin vacibliyini vurğuladılar.

9. Tərəflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində ATƏT çərçivəsində davam edən səylərə, Minsk Qrupunun fəaliyyətinə istinad edərək bu istiqamətdə daha təsirli və qətiyyətli addımlar atılmasının vacibliyini bir daha qeyd etdilər.

10. Tərəflər mütəşəkkil cinayətkarlıq, korrupsiya, qanunsuz miqrasiya, insan alveri, çirkli pulların yuyulması, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların, zəhərli kimyəvi maddələrin, silahların, partlayıcı vasitələrin qanunsuz dövriyyəsi, habelə hava quldurluğu və qaçaqmalçılıqla mübarizədə əməkdaşlığın zəruri olduğunu bir daha qeyd etdilər.

11. Tərəflər Avropa enerji təhlükəsizliyinin artan önəmliliyini qeyd etdilər və eyni zamanda Xəzər dənizi regionunun enerji ehtiyatlarının Avropa enerji şəbəkəsi ilə birləşdirən enerji nəqliyyat layihələrinin inkişafına öz dəstəklərini bəyan etdilər. Bu kontekstdə Tərəflər Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri, habelə Bakı-Tbilisi-Axalkalaki-Qars dəmir yolu layihələrinin həyata keçirilməsinin beynəlxalq əhəmiyyətini qeyd etdilər.

12. Azərbaycan Respublikası və Litva Respublikasının Prezidentləri əminliklərini bildirdilər ki, ikitərəfli və beynəlxalq əməkdaşlıq sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edir. Bununla əlaqədar olaraq, Tərəflər Baltikyanı dövlətlər və Cənubi Qafqaz ölkələri arasında regional əməkdaşlığın intensivləşdirilməsini xüsusi vurğulayaraq Baltik və Xəzər dənizi regionları arasında regional əməkdaşlığı təşviq edəcəklər.

Bu Birgə Bəyannamə Bakı şəhərində, 8 iyun 2006-cı il tarixdə iki əsl nüsxədə, ingilis dilində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	LİTVA RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*VALDAS ADAMKUS*

"Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qorunması haqqında" 2006-cı il iyunun 8-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№277-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qorunması haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti,

qarşılıqlı əlverişli şəraitdə onlar arasında iqtisadi əməkdaşlığı inkişaf etdirməyi arzu edərək,

Razılığa gələn bir Tərəfin sərmayəçilərinin Razılığa gələn digər Tərəfin ərazisindəki sərmayələri üçün əlverişli şərait yaratmaq niyyətində olaraq,

sərmayələrin təşviqi və qorunmasının özəl biznes təşəbbüsünün yaranmasına təkan verəcəyini və hər iki ölkənin çiçəklənməsinin inkişafını etiraf edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Təriflər

Bu Sazişin məqsədi üçün:

1. "Sərmayə" termini Razılığa gələn bir Tərəfin sərmayəçisinin Razılığa gələn digər Tərəfin ərazisində Razılığa gələn digər Tərəfin qanunlarına və qaydalarına müvafiq olaraq sərmayəçi tərəfindən sərmayə qoyulduğunu nəzərdə tutaraq, xüsusi halda aşağıdakılar daxil olmaqla, lakin istisna olmamaqla, əmlakın hər növü deməkdir:

a) daşınar və daşınmaz əmlak, habelə ipotekalar, girov hüquqları, girovlar və oxşar hüquqlar kimi hər hansı digər əlaqəli hüquqlar;

b) paylar, səhmlər və ya şirkətdə iştirakın digər formaları;

c) pul tələbi və ya iqtisadi dəyərə malik olan icra etmək hüquqları;

d) əqli mülkiyyət hüquqları, xüsusilə müəlliflik hüquqları, sənaye mülkiyyəti hüquqları (belə ki, patentlər, sənaye dizaynı və modellər, ticarət nişanlan, ticarət adlan) və nou-hau;

e) işgüzar nüfuz;

f) təbii ehtiyatların kəşfiyyatı, çıxarılması və istismarı üzrə konsessiyalar da daxil olmaqla, iqtisadi fəaliyyəti həyata keçirmək üçün qanun və ya kontrakt əsasında verilən hər hansı hüquqlar.

Əmlakın sərmayə formasında edilən hər hansı bir dəyişiklik onun sərmayə kimi xarakterinə təsir etmir, belə dəyişikliyin qəbul edən Razılığa gələn Tərəfin qanun və qaydalarına uyğun olaraq həyata keçirilməsini nəzərdə tutur.

2. "Sərmayəçi" termini Razılığa gələn hər bir Tərəfə münasibətdə:

a) Razılığa gələn Tərəfin qanun və qaydalarına uyğun olaraq onun vətəndaşı olan fiziki şəxslər və Razılığa gələn həmin Tərəfin ərazisində daimi yaşayan vətəndaşlığı olmayan şəxslər;

b) Razılığa gələn həmin Tərəfin qanun və qaydalarına uyğun olaraq yaradılmış hər hansı müəssisə.

3. "Gəlir" termini sərmayələrdən əldə edilən bütün məbləğlər və xüsusi halda, lakin istisna olmamaqla, mənfəət, kapital artımı, faizlər, dividendlər, royaltilər və gəlirlər deməkdir.

4. "Ərazi" termini Razılığa gələn hər bir Tərəfə münasibətdə onun Dövlətinin suverenliyi altında olan ərazini və Razılığa gələn Tərəfin Dövlətinin beynəlxalq hüquqa uyğun olaraq suveren hüquqlarını və yurisdiksiyasını həyata keçirdiyi digər əraziləri nəzərdə tutur.

5. "Qanun və qaydalar" termini Razılığa gələn hər bir Tərəfə münasibətdə Razılığa gələn həmin Tərəfin ərazisində qüvvədə olan qanun və qaydaları nəzərdə tutur.

Maddə 2

Sərmayələrin təşviqi

Razılığa gələn hər bir Tərəf öz ərazisində Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayə qoyuluşunu genişləndirəcək və öz qanun və qaydalarına uyğun olaraq belə sərmayələri qəbul edəcəkdir.

Maddə 3

Sərmayələrin qorunması və rejimi

1. Razılığa gələn hər bir Tərəf hər zaman Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrinin tam təhlükəsizliyi və qorunması üçün onlara ədalətli və bərabər rejim tətbiq edəcəkdir.

2. Razılığa gələn Tərəflərdən heç biri Razılığa gələn digər Tərəfin sərmayəçilərinin

sərmayələrinin idarə edilməsinə, saxlanmasına, istifadəsinə, onlardan faydalanmasına, əldə edilməsinə və ya satışına əsassız və ya ayrı-seçkilik yolu ilə qarışmayacaqdır.

3. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrinə öz sərmayəçilərinin və ya üçüncü dövlətin sərmayəçilərinin sərmayələrinə yaratdığı rejimdən az əlverişli olmayan rejim tətbiq edəcəkdir.

4. Bu Sazişin müddəaları Razılığa gələn bir Tərəfin Razılığa gələn digər Tərəfin sərmayəçilərinə hər hansı üçüncü dövlətin sərmayəçilərinə tətbiq edilən hər hansı rejimdən irəli gələn fayda, imtiyaz və ya güzəştin aid edilməsi öhdəliyi kimi izah olunmayacaqdır:

a) Razılığa gələn Tərəfin üzv olduğu və ya üzv ola biləcəyi mövcud və ya hər hansı gələcəkdə mövcud olacaq gömrük ittifaqı, ümumi bazar, sərbəst ticarət zonası, regional iqtisadi əməkdaşlığın digər formaları və ya oxşar beynəlxalq müqavilələrə qoşulma;

b) ikiqat vergiqoymanın aradan qaldırılmasına dair hər hansı mövcud və ya gələcəkdə mövcud olacaq razılaşma və ya vergilərə aid hər hansı digər razılaşma.

Maddə 4

Ekspropriasiya

1. Razılığa gələn Tərəflərdən heç biri Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrini ekspropriasiya edilməyə, milliləşdirməyə (bundan sonra "ekspropriasiya" adlanır) və ya bərabər təsirə malik olan hər hansı digər tədbirlərə məruz qoymayacaqdır, belə ki:

a) belə ekspropriasiya ictimai mənafenin tələb etdiyi və qanunun tələblərinə uyğun olaraq;

b) belə ekspropriasiya ayrı-seçkiliyə yol vermədən həyata keçirilir;

c) dərhal, adekvat və səmərəli kompensasiya ödənildikdə.

2. Bu maddənin 1-ci bəndinin (c) altbəndində qeyd edilən kompensasiya ekspropriasiya baş verdiyi vaxtdan bilavasitə əvvəl mövcud olan və ya gözlənilən ekspropriasiyanın ictimaiyyətə bəlli olduğundan əvvəl bunlardan hansı daha tez baş verərsə, mövcud olan bazar dəyərinə bərabər olacaqdır və əsassız gecikdirmə olmadan ödəniləcəkdir. Kompensasiya ekspropriasiya tarixindən tam ödənilmə tarixinə qədər olan faizi özünə daxil edəcəkdir və LİBOR əsasında hesablanacaqdır.

3. Əmlakı ekspropriasiya edilmiş sərmayəçinin bu Sazişin 8-ci maddəsi ilə nəzərdə tutulmuş hüquqlara xələl gətirmədən bu maddənin prinsiplərinə və ekspropriasiya edən Razılığa gələn Tərəfin qanun və qaydalarına uyğun olaraq bu cür ekspropriasiya və ya hər hansı müvafiq kompensasiya razılaşmalarını müəyyən etmək üçün ekspropriasiya edən Razılığa gələn Tərəfin məhkəmə və digər səlahiyyətli və müstəqil orqanları tərəfindən yenidən dər-hal baxmaq hüququ olacaqdır.

Maddə 5

Zərərə görə kompensasiya

1. Razılığa gələn bir Tərəfin sərmayəçilərinin sərmayələri Razılığa gələn digər Tərəfin ərazisində baş verən müharibə və ya başqa silahlı münaqişə, fövqəladə vəziyyət, qiyam və ya hər hansı oxşar hallar nəticəsində ziyan çəkirsə, Razılığa gələn sonuncu Tərəfin öz sərmayəçilərinə və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinə yaratdığı rejimdən, sərmayəçi üçün hansı daha əlverişlidirsə, az əlverişli olmayanı tətbiq ediləcəkdir.

2. Bu maddənin 1-ci bəndinə xələl gətirmədən, Razılığa gələn bir Tərəfin sərmayəçisi Razılığa gələn digər Tərəfin ərazisində aşağıdakılar nəticəsində ziyan çəkirsə:

a) Razılığa gələn sonuncu Tərəfin silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onun sərmayəsinin və ya onun bir hissəsinin müsadirəsi və ya

b) Razılığa gələn sonuncu Tərəfin silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onun sərmayəsinin və ya bir hissəsinin vəziyyətin zəruriliyi tələb olunmadan məhv edilməsi, dərhal, adekvat və səmərəli restitusiya və ya kompensasiya tətbiq ediləcəkdir.

Maddə 6

Köçürmələr

1. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin sərmayəçilərinə, sərmayəsi ilə bağlı ödəmələrin öz ərazisinə və ərazisindən sərbəst köçürülməsini təmin edəcək, xüsusi halda:

a) sərmayənin qorunması və ya genişləndirilməsi üçün ilkin kapital və əlavə məbləğlər;

b) sərmayənin tam və ya bir hissəsinin ləğvindən əldə edilən vəsaitlər;

c) sərmayə ilə birbaşa əlaqədar olan borcların ödənilməsi üçün vəsaitlər;

d) 4-cü və 5-ci maddədə nəzərdə tutulmuş kompensasiya;

e) 7-ci maddədə istinad olunan qarantiya və ya sığorta müqavilələrinə aid ödəmələr;

g) ərazisində sərmayə ilə bağlı işləyən, xaricdən cəlb olunmuş heyətin gəlirləri.

2. Avropa Birliyi tərəfindən qəbul olunmuş meyarlara xələl gətirmədən köçürmələr ilkin sərmayənin həyata keçirildiyi valyutada və ya sərmayəçilər tərəfindən razılaşdırılmış hər hansı digər sərbəst dönərli valyutada köçürmə günü üstünlük təşkil edən və tətbiq edilən bazar məzənnəsi ilə əsassız gecikdirmə olmadan həyata keçiriləcəkdir.

3. Razılığa gələn Tərəflər bu maddənin 1-ci və 2-ci bəndində göstərilən köçürmələrə münasibətdə hər hansı üçüncü dövlətin sərmayəçilərinin qoyduğu sərmayələrlə əlaqədar köçürmələrə münasibətdə tətbiq edilən rejimdən az əlverişli olmayan rejim tətbiq edəcəklər.

4. Bu maddənin yuxanda göstərilən müddəalarına baxmayaraq, Razılığa gələn hər hansı Tərəf vergiqoyma, kreditorların hüquqlarının müdafiəsi və ya qanun və qaydaların uyğunluğunun təmin edilməsi istiqamətində bərabər, ayrı-seçkilik qoymadan və ədalətli

qaydada tədbirlər həyata keçirə bilər. Lakin bu müddəa bu maddədə nəzərdə tutulan köçürmələrin həyata keçirilməsinə səbəbsiz qadağa qoyulmasının mümkünlüyü kimi şərh olunmamalıdır.

Maddə 7

Subroqasiya

Əgər Razılığa gələn bir Tərəf və ya onun təyin etdiyi agentlik (Razılığa gələn birinci Tərəf) Razılığa gələn digər Tərəfin ərazisində sərmayəyə münasibətdə qarantiya və ya sığorta müqaviləsinə uyğun ödəmə həyata keçirərsə, Razılığa gələn ikinci Tərəf aşağıdakıları tanıyacaq:

a) Razılığa gələn birinci Tərəfə qanun və ya hüquqi müqavilə əsasında kompensasiya ödənilmiş tərəfin hüquq və iddialarının verilməsini və;

b) subroqasiya əsasında kompensasiya ödənilmiş Tərəfin etdiyi dərəcədə Razılığa gələn birinci Tərəfin belə hüquqları həyata keçirmək və belə tələbləri irəli sürmək hüququnda olmasını.

Maddə 8

Sərmayə mübahisələrinin həlli

1. Razılığa gələn Tərəf və Razılığa gələn digər Tərəfin sərmayəçisi arasında, Razılığa gələn sonuncu Tərəfin ərazisindəki sərmayə ilə bağlı mübahisə əgər mümkündürsə, dostcasına tənzimlənəcəkdir. Mübahisə olduğu təqdirdə ərazisində sərmayə qoyulmuş Razılığa gələn Tərəf yazılı surətdə, informasiyanı təfərrüatı ilə daxil etməklə sərmayəçini xəbərdar etməlidir.

2. Əgər mübahisə 1-ci bənddə nəzərdə tutulduğu yazılı xəbərdarlıq tarixindən 6 ay müddətində dostcasına tənzimlənə bilmirsə və bütün daxili hüquqi və inzibati tədbirlər artıq bitmişsə, Razılığa gələn Tərəf və ya sərmayəçi mübahisənin həllini aşağıdakılara vermək hüququna malikdir:

Dövlətlər və digər dövlətlərin vətəndaşları arasındakı investisiya mübahisələrinin həlli üzrə Konvensiyaya uyğun olaraq barışdırma və arbitraja dair təsis olunmuş İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəzə (İMHBM), əgər Razılığa gələn Tərəflərdən hər ikisi İMHBM-in Arbitraj Prosesinə dair Prosedur Qaydalarına qoşulmuşdursa və ya

Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyasının ("UNCITRAL") Arbitraj qaydalarına müvafiq olaraq təsis edilmiş "ad hoc" arbitraj məhkəməsinə və ya tətbiq olunan arbitraj qaydalarına uyğun olaraq Razılığa gələn Tərəflərin milli ticarət arbitraj təsisatları tərəfindən həyata keçirilən məhkəməyə mübahisənin tərəfləri bu Qaydaların dəyişdirilməsi barədə yazılı razılığa gələ bilərlər.

3. Məhkəmənin qərarı mübahisə tərəfləri üçün son və məcburi olacaqdır. Razılığa gələn Tərəfin müvafiq qayda və qanunlarının tanınmasına əsasən Razılığa gələn hər bir Tərəf hər hansı bir gecikdirmə olmadan, belə qərarı yerinə yetirəcək və öz ərazisində belə qərarların səmərəli tətbiqini nəzərdə tutacaqdır.

4. Razılığa gələn Tərəflərdən heç biri özünü müdafiə məqsədilə göstərilən zərərə görə

əvəzin ödənilməsi və ya digər kompensasiyanın tam və ya qismən ödənilməsi və ya qarantiya, yaxud sığorta müqaviləsinə müvafiq olaraq ödəniləcəyini israr etməyəcəkdir.

Maddə 9

Razılığa gələn Tərəflər arasında mübahisələrin həlli

1. Əgər mümkün olarsa, bu Sazişin təfsiri və tətbiqi ilə bağlı Razılığa gələn Tərəflər arasında hər hansı mübahisələr diplomatik kanallar vasitəsilə tənzimlənəcəkdir.

2. Əgər Razılığa gələn Tərəflər mübahisənin başlandığı tarixdən altı ay müddətinə razılıq əldə edə bilməzlərsə, sonuncu, Razılığa gələn hər bir Tərəfin müraciəti ilə Arbitraj Məhkəməsinə verilə bilər.

3. Bu cür Arbitraj Məhkəməsi hər bir iş üçün aşağıdakı yolla təsis olunacaqdır. Razılığa gələn hər bir Tərəf arbitraj haqqında Razılığa gələn digər Tərəfin müraciətini aldığı tarixdən etibarən iki ay ərzində bir hakim təyin edəcəkdir. Sonra bu iki arbitr sonrakı iki ay ərzində Məhkəmənin Sədri kimi təyin olunacaq üçüncü dövlətin vətəndaşını seçəcəkdir. Üçüncü arbitr Razılığa gələn hər iki Tərəfin razılığı əsasında, Arbitraj Məhkəməsinin Sədri kimi təyin olunacaqdır.

4. Əgər bu maddənin 3-cü bəndində göstərilən müddətlər ərzində arbitraj məhkəməsi təsis olunmazsa, hər hansı digər razılığın olmadığı təqdirdə, Razılığa gələn hər hansı bir Tərəf Beynəlxalq Məhkəmənin Sədrini hər hansı zəruri təyinatların həyata keçirilməsinə dəvət edə bilər. Əgər Sədr Razılığa gələn hər hansı bir Tərəfin vətəndaşıdırsa və ya hər hansı səbəbdən bu

funksiyanı yerinə yetirə bilmirsə, Sədr müavini zəruri təyinatların həyata keçirilməsinə dəvət edilə bilər. Əgər Sədr müavini Razılığa gələn hər hansı bir Tərəfin vətəndaşıdırsa və ya hər hansı səbəbdən göstərilən funksiyanı yerinə yetirə bilmirsə, Razılığa gələn Tərəflərdən heç birinin vətəndaşı olmayan Beynəlxalq Məhkəmənin rütbəcə sonra gələn üzvü zəruri təyinatların həyata keçirilməsinə dəvət ediləcəkdir.

5. Arbitraj Məhkəməsi özünün prosedur qaydalarını müəyyən edəcəkdir. Arbitraj məhkəməsi öz qərarlarını səs çoxluğu ilə qəbul edəcəkdir. Məhkəmənin qərarları Razılığa gələn hər iki Tərəf üçün son və məcburi olacaqdır.

6. Razılığa gələn hər bir Tərəf özünün təyin etdiyi üzvünün və özünün məhkəmə prosesində təmsil edilməsi ilə bağlı xərclərini ödəyəcəkdir. Razılığa gələn Tərəflər bərabər hissədə Sədrin xərcini və digər xərcləri öz üzəri-ərinə götürəcəklər. Arbitraj Məhkəməsi yüksək məbləğli xərclərin Razılığa gələn Tərəflərdən ikisindən biri tərəfindən ödənilməsi haqqında qərar qəbul edə bilər və belə qərar Razılığa gələn hər iki Tərəf üçün məcburi olacaqdır.

Maddə 10

Daha əlverişli müddəalar

Əgər Razılığa gələn hər hansı Tərəfin Dövlətinin milli hüququ və ya beynəlxalq hüquqa uyğun öhdəlikləri hal-hazırda mövcud olan və yaradılmış Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrinə bu Sazişlə daha əlverişli rejim nəzərdə tutursa, belə daha əlverişli rejim üstünlük təşkil edəcəkdir.

Maddə 11

Məsləhətləşmələr

Razılığa gələn hər bir Tərəfin sorğusu ilə Razılığa gələn digər Tərəf bu Sazişin tətbiqi və təfsiri ilə bağlı təxirə salınmadan məsləhətləşmələr keçirmək barədə razılığa gələ bilərlər.

Maddə 12

Sazişin tətbiqi

1. Bu Saziş Razılığa gələn Tərəflərdən birinin ərazisində onun qanun və qaydalarına uyğun olaraq Razılığa gələn digər Tərəfin üstün olduğu, habelə bu Sazişin qüvvəyə minməsindən sonra qoyulan sərmayələrə tətbiq olunacaq, lakin onun qüvvəyə minməsindən əvvəl sərmayələrlə bağlı meydana çıxmış və ya meydana çıxa bilən hər hansı mübahisələrə və ya hər hansı həll olunmuş iddialara tətbiq olunmayacaqdır.

2. Bu Saziş ərazinin əldə olunması, istifadəsi, istismarı və ya qaydaya salınması ilə əlaqədar məsələlərə tətbiq olunmayacaqdır. Bu məsələlər Razılığa gələn hər bir Tərəfin qanun və qaydalarına uyğun olaraq tənzimlənir.

Maddə 13

Əlavələr

Bu Sazişin qüvvəyə mindiyi vaxtda və ya hər hansı bir vaxtda bu Sazişin müddəaları Razılığa gələn Tərəflər arasında yazılı formada razılaşdırıldıqdan sonra belə bir tərzdə əlavələr edilə bilər. Belə əlavələr onun qüvvəyə minməsi üçün onların bütün müvafiq daxili prosedurları tamamladıqdan sonra Razılığa gələn Tərəflərin bir-birlərini yazılı xəbərdar etdikdən sonra qüvvəyə minəcəkdir.

Maddə 14

Qüvvəyə minmə, qüvvədə qalma və qüvvədən düşmə

1. Bu Saziş, Razılığa gələn Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə bir-birlərinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

2. Saziş 15 (on beş) il müddətinə bağlanılır. Bundan sonra onun qüvvəsi Razılığa gələn bir Tərəfin Razılığa gələn digər Tərəfi bu Sazişin qüvvəsinin dayandırılması niyyəti barədə cari müddətin bitməsindən ən azı (12) on iki ay əvvəl məlumatlandırmayana qədər növbəti (15) on beş illik müddətlərə uzadılacaqdır.

3. Bu Sazişin ləğv edilməsi vaxtından əvvəl qoyulmuş sərmayələrə münasibətdə onun 1-12-ci maddələrinin müddəaları həmin tarixdən növbəti (10) on il müddətinə qədər qüvvədə qalacaqdır.

Bakı şəhərində 8 iyun 2006-cı il tarixində, hər biri Azərbaycan, Litva və ingilis dillərində olmaqla, əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirdə hər hansı fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

HEYDƏR BABAYEV
İqtisadi inkişaf naziri

LİTVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ALBİNAS YANUŞKA
Xarici işlər nazirinin müavini

"Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında iqtisadi və texniki əməkdaşlıq üzrə" Sazişin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında iqtisadi və texniki əməkdaşlıq üzrə" 2006-cı il noyabrın 7-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№278-IIIQ

Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında iqtisadi və texniki əməkdaşlıq üzrə Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti,

iqtisadi və texniki əməkdaşlığın ikitərəfli əlaqələrin uzunmüddətli inkişafının, habelə Razılığa gələn Tərəflər və onların xalqları arasında qarşılıqlı etimadın əsas və ayrılmaz bir hissəsi olmasını etiraf edərək,

iqtisadi artımın sabitliyinin təmin olunması, vətəndaşların həyat səviyyəsinin yaxşılaşması, öz təbii ehtiyatlarından və əmək qüvvəsindən səmərəli istifadə olunması məqsədlərini rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Razılığa gələn Tərəflər müvafiq tədbirlər həyata keçirmək vasitəsilə aralarında olan iqtisadi və texniki əməkdaşlığı təşviq etməlidirlər.

Maddə 2

Bu Sazişdə adı çəkilən əməkdaşlıq sahələrinə aşağıdakılar daxil edilir, lakin onlar ilə məhdudlaşmır:

iki ölkə arasında iqtisadi, maliyyə, bank, sənaye, nəqliyyat, turizm, xidmətlər və texniki inkişaf layihələrinin təşviq olunması,

texniki tədqiqatlara aid olan məlumatların mübadiləsinin təşviq olunması,

xüsusi əməkdaşlıq proqramları üçün tələb olunan mütəxəssislərin təlim və mübadiləsinin təşviq olunması.

Maddə 3

Razılığa gələn Tərəflər onların müvafiq təsisatları, o cümlədən hüquqi şəxslər arasında iqtisadi və texniki əməkdaşlığı gücləndirəcək və müxtəlif sahələrdə müştərək müəssisələr və şirkətlərin yaradılmasını təşviq edəcəklər.

Maddə 4

Razılığa gələn Tərəflər Ümumdünya Ticarət Təşkilatının qaydalarına və onların bu təşkilat qarşısındakı öhdəliklərindən irəli gələn sazişlərə riayət edəcəklər.

Maddə 5

Razılığa gələn Tərəflər öz qüvvədə olan qanunvericiliklərinə uyğun olaraq ölkələri arasında sərmayələrin, kapitalın, əmtəə və xidmətlərin axınını təşviq edəcəklər.

Maddə 6

Razılığa gələn Tərəflər öz qüvvədə olan qanunvericiliklərinə uyğun olaraq, iqtisadi və texniki sahələrin nümayəndələrinin və nümayəndə heyətlərinin mübadiləsini, habelə ikitərəfli iqtisadi və texniki əməkdaşlığın gücləndirilməsi üçün sərgilərin keçirilməsini təşviq edəcəklər.

Maddə 7

Zərurət yarandığı təqdirdə, Razılığa gələn Tərəflər yuxanda qeyd edilən əməkdaşlıq sahələri və Razılığa gələn Tərəflər arasında razılaşdırıla bilən digər xüsusi layihələr üzrə bu Sazişə əsaslanaraq konkret müqavilələr imzalaya bilərlər.

Maddə 8

1. Bu Sazişin və Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında Ticarət Sazişinin həyata keçirilməsinin təmin edilməsi məqsədilə Razılığa gələn hər iki Tərəfin nümayəndələrindən ibarət Birgə Komissiya yaradılacaqdır. Komissiya Razılığa gələn Tərəflərdən birinin xahişi əsasında növbə ilə Razılığa gələn Tərəflərin paytaxtlarında Razılığa gələn hər hansı bir Tərəfin müraciəti ilə iclas keçirəcəkdir.

2. Birgə Komissiyanın səlahiyyətlərinə digər məsələlər ilə bərabər aşağıdakılar daxildir:

(a) Razılığa gələn Tərəflər arasında iqtisadi və texniki əməkdaşlığın təşviq olunması və əlaqələndirilməsi;

(b) iki ölkə arasında ticarət əlaqələrinin genişləndirilməsinə yönəlmiş tədbirlər təklif etmək;

(c) bu maddənin 1-ci bəndində göstərilən sazişlərin həyata keçirilməsi məqsədilə təkliflərin irəli sürülməsi və baxılması;

(d) bu maddənin 1-ci bəndində göstərilən sazişlərdən irəli gələn hər hansı müqavi-

lənin və layihənin həyata keçirilməsi qarşısında olan əngəllərin aradan qaldırılması məqsədilə tövsiyələrin hazırlanması;

(e) bu maddənin 1-ci bəndində göstərilən sazişlərin istənilən maddəsinə dəyişikliklər və əlavələr təklif olunması.

Maddə 9

Razılığa gələn Tərəflər arasında bu Sazişin şərh olunması və həyata keçirilməsi ilə bağlı yaranan hər hansı bir mübahisə dostcasına məsləhətləşmələr və danışıqlar yolu ilə həll olunacaqdır.

Maddə 10

Bu Sazişə hər hansı əlavələr və dəyişikliklər Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə edilə bilər. Bu əlavələr və dəyişikliklər bu Sazişin tərkib hissəsi olan ayrıca protokollar şəklində ediləcəkdir və bu Sazişin 11-ci maddəsinə uyğun qüvvəyə minəcəkdir.

Maddə 11

Bu Saziş Razılığa gələn Tərəflərin bu Sazişin qüvvəyə minməsi üçün zəruri olan onların daxili prosedurlarının bitməsini təsdiqləyən sonuncu yazılı bildirişlərin alınması tarixində qüvvəyə minəcəkdir.

Bu Saziş (5) beş il müddətində qüvvədə qalacaqdır və Razılığa gələn bir Tərəf yazılı şəkildə bu Sazişin qüvvəsinin bitməsindən (6) altı ay əvvəl onu ləğv etmək niyyəti barədə digərini məlumatlandırmayana qədər avtomatik olaraq eyni müddətə və ya müddətlərə uzadılacaqdır.

Bu Sazişin qüvvəsinin ləğv edilməsi bu Saziş əsasında olan hər hansı xüsusi müqavilə və ya layihələr və ya fəaliyyətlərin icrasına onların bitməsinə qədər təsir etməyəcəkdir.

Bu Saziş Azərbaycan və ingilis dillərində olmaqla 7 noyabr 2006-cı il tarixində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətndən istifadə olunacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İORDANİYA HAŞİMİLƏR KRALLIĞI HÖKUMƏTİ ADINDAN
HEYDƏR BABAYEV	*ŞƏRİF ƏLİ ƏL-ZUBİ*
İqtisadi inkişaf naziri	*Sənaye və ticarət naziri*

Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında Ticarət Sazişinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında 2006-cı il noyabrın 7-də Bakı şəhərində imzalanmış Ticarət Sazişi təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№279-IIIQ

Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında Ticarət Sazişi

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti iki ölkə arasında ticarət əlaqələrinin inkişaf etdirilməsi arzusunu ifadə edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Razılığa gələn Tərəflər hər iki ölkədə qüvvədə olan qanunvericiliyə müvafiq olaraq iki ölkə arasında ticarət əlaqələrinin inkişaf etdirilməsi və diversifikasiya edilməsində qarşılıqlı maraqlarını bəyan etdilər.

Maddə 2

İki ölkə arasında malların göndərilməsi ölkələrin qüvvədə olan qanunvericiliklərinə müvafiq olaraq, idxal və ixrac əməliyyatlarını həyata keçirmək səlahiyyəti verilmiş hüquqi və/və ya fiziki şəxslər arasında müqavilələr əsasında həyata keçirilir.

Maddə 3

Sazişə uyğun olaraq gətirilən mallar üzrə qiymətlər imzalanacaq müqavilələr çərçivəsində hər iki ölkənin hüquqi və/və ya fiziki şəxsləri ilə razılaşdırılmalı və tətbiq edilməlidir və eyni mallar üzrə beynəlxalq bazarlarda mövcud olan sərbəst dönərli valyuta ilə qiymətlərə əsaslanmalıdır.

Maddə 4

Razılığa gələn Tərəflər öz ərazilərində keçiriləcək beynəlxalq sərgi və yar-markalarda onlardan hər birinin təmsil olunmasını asanlaşdıracaq və təşviq edəcəkdir, habelə hər iki ölkədə fərdi sərgilərin keçirilməsinə şərait yaradacaqdır.

Maddə 5

Razılığa gələn Tərəflər ölkələrinin qüvvədə olan qanunvericiliyinə uyğun olaraq aşağıdakı malların gömrük, vergi və digər rüsumlardan azad olunmaqla idxalına və ixracına icazə verir:

Sifarişlər etmək üçün malların nümunələri və publisistik nəşrlər (kataloq, broşür, şəkillər və s.).

Sərgi və yarmarkalar üçün nəzərdə tutulan mallar və materiallar, bu şərtlə ki, onlar yenidən ixrac ediləcəkdir.

Maddə 6

Tərəflər aşağıdakı şərtlərə əsasən malların idxal, ixracına məhdudiyyət qoya bilərlər:

1. Sağlamlığı, mənəviyyatı və təhlükəsizliyi təmin etmək üçün;
2. Heyvan və bitkilərin xəstəliklərdən və ziyanvericilərdən qorunması üçün;
3. Milli tarixi və mədəni dəyərlərin qorunması üçün;
4. Xarici maliyyə vəziyyətinin və ödəniş balansının qorunması üçün, bu şərtlə ki, bu tədbirlər məcburi və ayrı-seçkilik yolları ilə həyata keçirilməsin.

Maddə 7

İki ölkə arasında bütün ödənişlər istənilən sərbəst mübadilə olan valyuta hesabına həyata keçirilməlidir. Buna baxmayaraq, hər iki ölkənin səlahiyyətli təşkilatları, şirkətləri və ya firmaları öz aralarında hesablaşmalar aparmaq üçün razılaşdırılmış digər ödəniş vasitələrindən istifadə edə bilərlər.

Maddə 8

Razılığa gələn Tərəflər hər iki ölkənin nümayəndələrindən ibarət Birgə Komissiya yaradılması barədə razılığa gəlirlər. Birgə Komissiyanın fəaliyyəti ilə bağlı müddəalar Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında iqtisadi və texniki əməkdaşlıq üzrə Sazişin 8-ci maddəsində əks olunmuşdur.

Maddə 9

Bu Saziş digər beynəlxalq müqavilə əsasında Razılığa gələn hər hansı bir Tərəfin üzərinə götürdüyü öhdəliyin qüvvədə olmasına təsir etməyəcəkdir.

Maddə 10

Bu Sazişə istənilən dəyişikliklər və əlavələr Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Sazişin tərkib hissəsi olan ayrı-ayrı protokollar şəklində ediləcəkdir və bu Sazişin 11-ci maddəsinə uyğun qüvvəyə minəcəkdir.

Maddə 11

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tərəflərin bir-birinə göndərdikləri son bildirişin tarixindən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətində qüvvədə qalacaqdır və müvafiq müddətin və ya müddətlərin başa çatmasına 6 (altı) ay qalmış Razılığa gələn bir Tərəf bu Sazişə xitam verilməsi niyyəti barədə digərini yazılı şəkildə məlumatlandırmayana qədər növbəti müddətdə və ya müddətlərdə qüvvədə qalacaqdır.

Bu Sazişin müddəaları onun qüvvədə olduğu müddətdə imzalanmış, lakin onun qüvvəsinin ləğv edilməsi tarixində icrası başa çatmamış müqavilələrə şamil ediləcəkdir.

Bakı şəhərində 7 noyabr 2006-cı il tarixində Azərbaycan və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

HEYDƏR BABAYEV
İqtisadi inkişaf naziri

İORDANİYA HAŞİMİLƏR KRALLIĞI HÖKUMƏTİ ADINDAN

ŞƏRİF ƏLİ ƏL-ZUBİ
Sənaye və ticarət naziri

"Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında" 2006-cı il noyabrın 7-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№280-IIIQ

Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti,

bərabərlik və qarşılıqlı mənfəət əsasında iki ölkə arasında turist münasibətlərini inkişaf etdirməyə can ataraq,

Sazişin tərəfləri arasında qarşılılıq əsasında turizm sahəsində əməkdaşlığa başlamaq niyyətilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Razılığa gələn Tərəflər hər iki xalqın tarixi və mədəniyyətini daha yaxşı anlamaq üçün turizm sahəsində əməkdaşlığı inkişaf etdirməyə və möhkəmləndirməyə çalışacaqlar. Bu məqsədlə Razılığa gələn Tərəflər turizm sahəsində əməkdaşlığı bu Sazişin müddəalarına və milli qanunvericiliyə uyğun şəkildə həyata keçirəcəklər.

Maddə 2

Razılığa gələn Tərəflər turizm sahəsində fəaliyyət göstərən müvafiq şirkətlər və təşkilatlar arasında sıx əməkdaşlığı təşviq edərək, bütün mümkün imkanlardan istifadə edib Azərbaycan və İordaniya arasında turizm axınının inkişaf etdirilməsinə yardım edəcəklər. Razılığa gələn Tərəflər hər iki ölkədə qarşılılıq əsasında turist nəşriyyatının və reklam materiallarının yayılması, eləcə də bütün mümkün texniki və inzibati imkanlardan

istifadə edərək, "turist əlaqələrinin" həvəsləndirilməsini və dəstəklənməsini təşviq edəcəklər.

Maddə 3

Razılığa gələn Tərəflər turist mübadiləsində özəl sektorun müstəsna rolunu qeyd edirlər və özəl turizm şirkətlərinə onların proqramlarının həyata keçirilməsində müvafiq şəraiti yaradacaqlar.

Maddə 4

Razılığa gələn Tərəflər beynəlxalq standartlara uyğun olaraq, hər bir tərəfin dövlətini ziyarət edən turistlərin qarşılıqlı təhlükəsizliyini təmin etmək üçün lazımi tədbirlər görəcəklər.

Maddə 5

Razılığa gələn Tərəflər hər bir dövlətdə mövcud qanun və qaydalara uyğun olaraq turizm fəaliyyəti və layihələri ilə bağlı təcrübə və məlumat mübadiləsi edəcəklər.

Maddə 6

Razılığa gələn Tərəflər hər iki dövlətdə müalicəvi turizm və sağlamlıq mərkəzləri sahələrində əməkdaşlığı təşviq edəcəklər.

Maddə 7

Razılığa gələn Tərəflər hər iki dövlətdə dini turizm sahəsində əməkdaşlığı təşviq edəcəklər.

Maddə 8

Razılığa gələn Tərəflər hər iki dövlətdə turizm sahəsində investisiya imkanları ilə bağlı məlumat mübadiləsinə yardım edəcəklər.

Maddə 9

Bu Saziş Razılığa gələn Tərəflərin diplomatik kanallar vasitəsilə Sazişin qüvvəyə minməsi üçün bütün dövlətdaxili prosedurların bitməsi barədə göndərdiyi sonuncu yazılı bildirişin tarixindən qüvvəyə minir.

Maddə 10

Bu Saziş 5 (beş) il müddətinə qüvvədədir və Razılığa gələn Tərəflərdən biri bu Sazişin qüvvəsinin bitməsinə 6 (altı) ay qalmış Sazişin qüvvəsinin ləğv edilməsi barədə digər tərəfə yazılı bildiriş göndərməzsə, onun qüvvəsi hər dəfə qarşılıqlı razılaşma əsasında növbəti beşillik müddətə uzadılacaqdır. Sazişin qüvvədən düşməsi, Razılığa gələn Tərəflərin başqa qərarı olmayana qədər, tamamlanmayan layihə, proqram və ya digər müvafiq işlərin icrasına təsir etməyəcəkdir.

Bu Saziş Bakı şəhərində 7 noyabr 2006-cı il tarixində Azərbaycan və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

HEYDƏR BABAYEV
İqtisadi inkişaf naziri

İORDANİYA HAŞİMİLƏR KRALLIĞI HÖKUMƏTİ ADINDAN

SUHAYİR ƏL ƏLİ
Planlaşdırma naziri

Azərbaycan Respublikası Prezidentinin və Rumıniya Prezidentinin Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası Prezidentinin və Rumıniya Prezidentinin 2006-cı il oktyabrın 11-də Bakı şəhərində imzalanmış Birgə Bəyannaməsi təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№281-IIIQ

Azərbaycan Respublikası Prezidentinin və Rumıniya Prezidentinin Birgə Bəyannaməsi

Azərbaycan Respublikasının Prezidenti və Rumıniyanın Prezidenti,

Beynəlxalq münasibətlərin hazırkı inkişafı kontekstində ikitərəfli siyasi dialoqun əhəmiyyətini qiymətləndirərək,

Azərbaycan Respublikası və Rumıniya arasında ənənəvi dostluq münasibətləri naminə öhdəliklərini bir daha təsdiq edərək və bu münasibətləri 27 mart 1996-cı ildə imzalanmış Azərbaycan Respublikası və Rumıniya arasın-da dostluq münasibətləri və əməkdaşlıq haqqında Müqavilə, 30 iyun 1998-ci ildə imzalanmış Azərbaycan Respublikası və Rumıniya arasında dostluq münasibətləri və tərəfdaşlığın inkişafı haqqında Bəyannamə, 29 oktyabr 2002-ci ildə imzalanmış Azərbaycan Respublikası və Rumıniya arasında tərəfdaşlıq haqqında Bəyannamə və 11 oktyabr 2004-cü ildə imzalanmış Birgə Bəyannamə əsasında gələcəkdə daha da möhkəmləndirmək əzmini bildirərək,

Azərbaycan Respublikası və Rumıniya arasında ənənəvi dostluq münasibətlərinin hərtərəfli əməkdaşlıq, etimad və onların maraqlarına qarşılıqlı hörmət əsasında inkişaf etdirilməsini dəstəkləyərək,

genişləndirilmiş Qara Dəniz regionunda demokratik və davamlı inkişafım təmin edilməsinin əsas ilkin şərti kimi, regional sabitlik və təhlükəsizliyin qorunması səylərini bölüşərək və Azərbaycan-Rumıniya tərəfdaşlıq münasibətlərinin daha da genişlənməsi və dərinləşməsinin regionda sülhün və sabitliyin möhkəmləndirilməsinə töhfə verəcəyini qəbul edərək,

iki ölkə arasında bütün sahələrdə iqtisadi əməkdaşlığın dərinləşdirilməsi və genişləndirilməsi prosesində Azərbaycan-Rumıniya ticarət mübadiləsinin artırılması və diversifi-

kasiyasının aparıcı faktor kimi əhəmiyyətini qeyd edərək,

müxtəlif beynəlxalq və regional təşkilatlar, qurumlar və layihələrdə iki ölkə arasında əməkdaşlığın əhəmiyyətini vurğulayaraq,

suverenlik, müstəqillik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və dövlətlərin suveren bərabərliyi prinsiplərinə hörmət, zor tətbiq etmək və ya zorla hədələməkdən çəkinmək də daxil olmaqla Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsəd və prinsiplərinə və beynəlxalq hüququn digər ümumtanınmış prinsip və normalarına sadiqliklərini təsdiq edərək,

yeni fəaliyyət sahələrinə dair ikitərəfli hüquqi çərçivəni genişləndirmək məqsədilə səylərini davam etdirərək,

Azərbaycan-Rumıniya dostluq və tərəfdaşlıq münasibətlərindəki müsbət meyli alqışlayır və parlamentlərarası dostluq qrupları arasında əməkdaşlıq da daxil olmaqla qanunvericilik orqanları, o cümlədən yerli hakimiyyət orqanları, iki ölkənin icraedici hakimiyyəti arasında ikitərəfli siyasi dialoqun inkişafına bundan sonra da töhfə verəcəklərinə və qanunvericilik sahəsində təcrübə mübadiləsinin intensivləşdirilməsini təşviq edəcəklərinə dair öhdəlik götürürlər;

ikitərəfli əlaqələrin qanunun aliliyi, demokratiya, insan hüquqları və bazar iqtisadiyyatı kimi dəyərlər əsasında inkişaf etdirilməsində qətiyyətli olduqlarını vurğulayırlar; bununla əlaqədar, Rumıniya tərəfi Azərbaycanda davam edən demokratikləşmə, vətəndaş cəmiyyəti və bazar iqtisadiyyatı prinsiplərinin gücləndirilməsi sahəsində əldə edilmiş nailiyyətləri alqışlayır;

Azərbaycan Respublikası və Rumıniya arasında ikitərəfli münasibətlərin təşviq edilməsi üçün çevik və müasir çərçivə təmin etmək məqsədilə hazırkı hüquqi çərçivənin möhkəmləndirilməsinin zəruriliyini vurğulayırlar;

5 iyun 2006-cı ildə Buxarest şəhərində qəbul olunmuş Qara Dəniz Forumu Birgə Bəyannaməsinin vacibliyini bir daha təsdiq edir və onun vəzifələrinin tam həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası və Rumıniya hökumətlərini Qara Dəniz regionu boyunca regional sabitlik və demokratik inkişafın möhkəmləndirilməsinə xidmət edəcək Qara Dəniz Forumu çərçivəsində birgə layihələrə başlamasına təşviq edirlər;

ikitərəfli siyasi dialoqun hazırkı yüksək səviyyəsini alqışlayırlar; ikitərəfli mübadilənin artırılması, iki ölkənin biznes dairələri arasında birbaşa əlaqələrin qurulması və hərtərəfli iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi üçün əlverişli şərait yaradılması yolu ilə iqtisadi sahədə də eyni səviyyəyə nail ol-maq üçün əlavə tədbirlərin görülməsinin zəruri olduğunu, habelə Azərbaycan-Rumıniya Hökumətlərarası Birgə Komissiyanın fəaliyyətinin intensivləş-dirilməsini vacib hesab edirlər;

iki ölkə arasında iqtisadiyyat, ticarət, kommunikasiya, turizm, səhiyyə, elm, təhsil, mədəniyyət, ətraf mühitin mühafizəsi, humanitar sahələrdə əlaqələrin və texniki əməkdaşlığın onların potensialına və imkanlarına uyğun şəkildə inkişafının təmin edilməsi üçün tədbirlərin həyata keçirilməsini dəstəkləyirlər;

Azərbaycan Respublikasında aparılan iqtisadi islahatların vacibliyini vurğulayırlar və Rumıniya Azərbaycanın ÜTT-yə üzvlüyünü dəstəklədiyini bəyan edir;

enerji sahəsində əməkdaşlığın genişlənməsi, enerji təhlükəsizliyinin və dəhlizlərin diversifikasiyasının dəstəklənməsinə hazır olduqlarını ifadə edirlər; bu kontekstdə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin bir hissəsi olan, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri kimi enerji layihələrinin, habelə infrastruktur layihələrin artan əhəmiyyətini vurğulayırlar; bunlar regionda əməkdaşlığı, onun enerji təhlükəsizliyini təkmilləşdirəcək, xarici investorların marağını artıracaq və region ölkələrinin davamlı iqtisadi artımının səviyyəsini saxlayacaq;

bölgədə demokratik və davamlı inkişafın təşviq edilməsi və asanlaşdırılmasında regional əməkdaşlığın mühüm rolunu vurğulayaraq, genişləndirilmiş Qara Dəniz regionunda sabitlik və təhlükəsizliyin təmin olunmasına və möhkəmləndirilməsinə böyük əhəmiyyət verirlər;

beynəlxalq hüququn prinsiplərinə riayət, suverenliyə, ərazi bütövlüyünə və dövlətlərin sərhədlərinin toxunulmazlığına hörmət edilməsinə əsaslanaraq, Dağlıq Qarabağ münaqişəsinin Birləşmiş Millətlər Təşkilatının müvafiq qət-namələrinə və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının qərarlarına uyğun olaraq sülh yolu ilə həll olunmasını dəstəkləyirlər;

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində ATƏT çərçivəsində davam edən səylərə, habelə Minsk Qrupunun fəaliyyətinə istinad edərək, bu istiqamətdə daha təsirli və qətiyyətli addımlar atılmasının vacibliyini bir daha qeyd edirlər;

təşkilatların, qrupların və ayrı-ayrı şəxslərin hər iki dövlətin suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəldilmiş fəaliyyətinin öz ərazisində qarşısının alınması və qadağan edilməsi üçün müvafiq tədbirlər görəcəklərini bildirirlər;

Beynəlxalq terrorizm, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq, insan və silah alveri, kütləvi qırğın silahlarının yayılması və qanunsuz silah ixracı, ayrı-seçkiliyin, ekstremizmin bütün növləri və separatizm kimi dünyada təhlükəsizlik və sabitliyə təhlükə törədən ümumi təhdidləri pisləyirlər və onlara qarşı eyni cəbhədə mübarizə apardıqlarını bir daha bəyan edirlər;

Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqının Qonşuluq Siyasəti, NATO-nun "Sülh naminə Tərəfdaşlıq" və Avro-Atlantika Tərəfdaşlıq Şurası, Avropa Şurası və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığı yüksək qiymətləndirirlər və bu çərçivədə əlaqələrin və birgə fəaliyyətin intensivləşdirilmə-si məqsədilə tədbirlərin görülməsinə dair qətiyyətlərini bildirirlər;

Avro-Atlantik Tərəfdaşlığının möhkəmləndirilməsi məqsədilə siyasi dialoq və əməkdaşlığın, habelə Fərdi Tərəfdaşlıq Fəaliyyət Planı da daxil olmaqla Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığının və siyasi dialoqunun dərinləşməsində maraqlı olduqlarını ifadə edirlər;

Avropa dəyərlərinə və prinsiplərinə bağlılıqlarını, Rumıniyanın 2007-ci il yanvarın 1-dən Avropa İttifaqına daxil olması ilə yanaşı, Avropa Qonşuluq Siyasəti (AQS) çərçivəsində Aİ-Azərbaycan Fəaliyyət Planının qəbul edilməsinin Rumıniya-Azərbaycan

ikitərəfli əlaqələrinin genişləndirilməsi və möhkəmləndirilməsi üçün çərçivə olacağını bildirirlər;

Azərbaycan Respublikasının AQS-də iştirakı imkanlarından faydalanmaqla, AQS-nin məqsədlərinin həyata keçirilməsini dəstəkləyəcəkləri ilə razılaşdılar;

Azərbaycan Respublikasının Avropa və Avro-Atlantik strukturlara inteqrasiyası prosesində, Rumıniyanın müdafiə və təhlükəsizlik sektorundakı islahatlar təcrübəsi də daxil olmaqla, Rumıniyanın dövlət təşkilatlarının təcrübələrini bölüşməyə hazır olduqlarını təsdiqlədilər;

Dinlər və sivilizasiyalar arasında dialoqun vacibliyi ilə razılaşdılar və sülhün, azadlığın, hüquqların və ədalətin ahəngi üçün daha yaxşı şərait yaradılması məqsədilə Xristianlıq, İslam və digər mədəniyyətlər və sivilizasiyalar arasında əlaqələrin və anlaşmanın genişləndirilməsinə ehtiyac olduğunu vurğuladılar;

Bu Birgə Bəyannamənin Azərbaycan-Rumıniya əlaqələrinin gələcək inkişafının intensivləşdirilməsinə xidmət edəcəyinə əminliklərini ifadə edirlər.

Bakı şəhərində 11 oktyabr 2006-cı il tarixində hər biri iki əsl nüsxədə, Azərbaycan, rumın və ingilis dillərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	RUMİNİYANIN PREZİDENTİ
İLHAM ƏLİYEV	*TRAYAN BASESKU*

"Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq haqqında" 1995-ci il iyulun 2-də Buxarest şəhərində imzalanmış Sazişə dəyişikliklər edilməsi barədə" Əlavə Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasmm Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq haqqında" 1995-ci il iyulun 2-də Buxarest şəhərində imzalanmış Sazişə dəyişikliklər edilməsi barədə" 2006-cı il oktyabrın 11-də Bakı şəhərində imzalanmış Əlavə Protokol təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№ 282-IIIQ

1995-ci il iyulun 2-də Buxarest şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələri və elmi-texniki əməkdaşlıq haqqında Saziş"ə dəyişikliklər edilməsi barədə Əlavə Protokol

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti,

2007-ci ilin yanvar ayından Rumıniyanın Avropa İttifaqının üzvü olacağını və Ümumi Ticarət Siyasətinə qoşulacağını qeyd edərək,

hər iki dövlətin xeyri naminə iqtisadi əlaqələri inkişaf etdirmək və genişləndirmək məqsədilə zəruri tədbirlərin müəyyənləşdirilməsi və həyata keçirilməsinə imkan yaradacaq Razılığa gələn Tərəflər arasındakı davamlı dialoq üçün müvafiq çərçivə yaratmaq niyyətində olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Sazişin adı aşağıdakı kimi olacaq:

"Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq haqqında Saziş".

Maddə 2

Sazişin 1-ci maddəsi aşağıdakı redaksiyada olacaq:

"Razılığa gələn Tərəflər öz aralarında iqtisadi, elmi-texniki əlaqələri inkişaf etdirmək üçün bütün lazımi tədbirləri görəcəklər".

Maddə 3

8-ci maddənin 2-ci cümləsi aşağıdakı redaksiyada olacaq: "Belə əməkdaşlıq istiqamətləri birbaşa istehsal münasibətlərinin, istehsal əməkdaşlığının, birgə şirkətlərin, ikitərəfli ittifaqlar və təşkilatların yaradılması və inkişafını, beynəlxalq iqtisadi əlaqələr iştirakçılarının filiallarının açılmasını və beynəlxalq iqtisadi təcrübədə qəbul olunmuş müasir əməkdaşlıq formalarının tətbiqini əhatə edəcəkdir".

Maddə 4

11-ci maddəyə aşağıdakı məzmunda iki yeni hissə əlavə edilməklə düzəliş ediləcəkdir:

"Bu Sazişin müddəaları Razılığa gələn Tərəflərin beynəlxalq öhdəliklərinə xələl gətirməyəcəkdir. Saziş Rumıniyanın Avropa İttifaqında üzvlüyündən irəli gələn öhdəliklərinə xələl gətirmədən tətbiq olunacaqdır.

Bu Saziş bir tərəfdən Avropa İttifaqı və ya Avropa İttifaqı və onun üzv dövlətləri, digər tərəfdən isə Azərbaycan Respublikasının imzaladığı hər hansı Sazişdən yaranan öhdəlikləri ləğv edən və ya bu öhdəliklərə digər qayda-da təsir edən kimi şərh və ya tətbiq edilə bilməz".

Maddə 5

2-ci, 3-cü, 5-ci və 9-cu maddələr qüvvədən düşür.

Maddə 6

Bu Əlavə Protokol Sazişin tərkib hissəsini təşkil edəcəkdir.

Bu Əlavə Protokol zəruri dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Razılığa gələn Tərəflərin bir-birinə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdə qüvvəyə minəcəkdir və Saziş qüvvədə olan müddətdə qüvvədə olacaqdır.

Bunun təsdiqi olaraq, Hökumətlərindən lazımi surətdə səlahiyyətlər almış aşağıda imza qoyanlar bu Əlavə Protokolu imzaladılar.

Bakı şəhərində 11 oktyabr 2006-cı il tarixində hər biri Azərbaycan, rumın və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirdə hər hansı fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	RUMİNİYA HÖKUMƏTİ ADINDAN
HEYDƏR BABAYEV	*İOAN KODRUTS ŞEREŞ*
İqtisadi inkişaf naziri	*İqtisadiyyat və ticarət naziri*

"Azərbaycan Respublikası Hökuməti ilə Rumıniya Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında" 2002-ci il oktyabrın 29-da Bakı şəhərində imzalanmış Sazişə dəyişikliklər edilməsi barədə" Əlavə Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti ilə Rumıniya Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında" 2002-ci il oktyabrın 29-da Bakı şəhərində imzalanmış Sazişə dəyişikliklər edilməsi barədə" 2006-cı il oktyabrın 11-də Bakı şəhərində imzalanmış Əlavə Protokol təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№283-IIIQ

2002-ci il oktyabrın 29-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"ə dəyişikliklər edilməsi barədə Əlavə Protokol

Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökumətlərinin nümayəndələri,

Avropa İttifaqının gələcək Üzv Dövləti kimi öhdəliklərini yerinə yetirmək məqsədilə 2002-ci il oktyabrın 29-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Rumıniya Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması

haqqında Saziş"ə (bundan sonra "Saziş" adlandırılacaq) düzəlişlər edilməsinin Rumıniya üçün vacibliyini nəzərə alaraq,

Rumıniyanın, Avropa Birliyinin yaradılması haqqında Müqavilənin 307-ci maddəsinin və Rumıniyanın Avropa İttifaqına Qoşulma haqqında gələcək Aktına dair gedən danışıqların şərtlərinə əsasən, qoşulma prosesini tamamlamaq məqsədilə Birlik hüququ və bu Saziş də daxil olmaqla onun digər beynəlxalq müqavilələri arasındakı uyğunsuzluqları aradan qaldırmaq üçün bütün müvafiq addımlar atmaq öhdəliyində olmasını qəbul edərək,

belə uyğunsuzluqları aradan qaldırmaq üçün bu Sazişə müvafiq düzəlişlər edilməsinin vacibliyi ilə razılaşaraq,

Azərbaycan investisiyaları üçün Rumıniyadan hüquqi rejim yaratmaq məqsədilə onun Birlik hüququ ilə uyğunluğunu təmin etməkdən ötrü Əlavə Protokolu imzalamaq haqqında qərara gəldilər; və

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Protokolun məqsədi Rumıniyanın Avropa İttifaqında üzvlüyündən irəli gələn öhdəlikləri ilə uyğunluq yaratmaqdan ötrü bu Sazişə düzəlişlər etməkdən ibarətdir.

Maddə 2

3-cü maddədə aşağıdakı dəyişikliklər ediləcəkdir:

1. 1-ci bəndə eyni ifadə əlavə olunmaqla həmin bənd aşağıdakı kimi oxunacaq:

(1) Avropa İttifaqı tərəfindən qəbul olunmuş meyarlara heç bir xələl gətirmədən Razılığa gələn hər bir Tərəf (...)"

2. 3-cü bəndin Sazişdə göstərilən əvvəlki mətni aşağıdakı mətn ilə əvəz edilir:

"3. Bu Sazişin ayrı-seçkilik etməmə rejimi, milli rejim və ən əlverişli rejimə aid müddəalarının Razılığa gələn Tərəflərdən hər hansı birinin Avropa İttifaqı kimi gömrük, iqtisadi və ya valyuta birliyində, ümumi bazarda və ya azad ticarət zonasında üzvlüyü və ya iştirakı əsasında həmin Tərəfin özünün, belə birliyin, ümumi bazarın və ya azad ticarət zonasının üzv dövlətlərinin və ya hər hansı digər üçüncü dövlətin investorlarına verdiyi güzəşt və imtiyazlara aidiyyəti yoxdur. Bu rejimin, həmçinin Razılığa gələn Tərəflərdən hər hansı birinin ikitərəfli əsasda ikiqat vergiqoyma sazişi və ya vergi məsələlərinə dair digər sazişlərə müvafiq olaraq üçüncü dövlətin investorlarına verdiyi imtiyazlara aidiyyəti yoxdur".

Maddə 3

4-cü maddənin 1-ci bəndi dəyişilərək aşağıdakı redaksiyada veriləcəkdir:

"1. Avropa İttifaqının qəbul etdiyi meyarlara xələl gətirmədən Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin investorlarına investisiyaların və gəlirlərin və xüsusilə, lakin bunlarla məhdudlaşmayaraq, aşağıdakıların məhdudiyyətsiz köçürülməsinə icazə verəcəkdir".

Maddə 4

11-ci maddəyə aşağıdakı ifadə formasına malik olan yeni "3-cü" bənd əla-və olunmaqla düzəlişlər ediləcəkdir:

"(3) Rumıniyanın Avropa İttifaqına daxil olduğu təqdirdə bu Sazişə, onun müddəalarının Rumıniyanın Avropa İttifaqında üzvlüyü statusundan irəli gələn öhdəliklərinə uyğunluğunu təmin etmək üçün zəruri hallarda Tərəflərin qarşılıqlı razılığına əsasən düzəlişlər ediləcəkdir.

Əgər belə razılıq əldə olunmazsa, Rumıniyanın birtərəfli qaydada bu Sazişi denonsasiya etmək hüququ var. Sazişin tətbiqi Avropa İttifaqına daxil olmanın qüvvəyə minməsi tarixində, denonsasiyanın daxil olma tarixindən sonra baş verdiyi təqdirdə isə denonsasiya barədə bildiriş alındığı tarixdən üç ay sonra dayandırılacaqdır".

Maddə 5

Bu Əlavə Protokol Sazişin tərkib hissəsini təşkil edəcəkdir.

Bu Əlavə Protokol, onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Razılığa gələn Tərəflərin bir-birinə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdə qüvvəyə minəcək və bu Sazişin qüvvədə olduğu müddətdə qüvvədə qalacaqdır.

Bunun təsdiqi olaraq, Hökumətlərindən lazımi surətdə səlahiyyətlər almış aşağıda imza qoyanlar bu Əlavə Protokolu imzaladılar.

Bakı şəhərində 11 oktyabr 2006-cı il tarixində hər biri Azərbaycan, rumın və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirdə fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	RUMİNİYA HÖKUMƏTİ ADINDAN
HEYDƏR BABAYEV	*MİXAY REZVAN UNQURYANU*
İqtisadi inkişaf naziri	*Xarici işlər naziri*

"Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında" 2006-cı il fevralın 23-də Bakı şəhərində imzalanmış Konvensiya təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№284-IIIQ

Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya

Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya bağlamaq arzusunda olaraq aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Əhatə edilən şəxslər

Bu Konvensiya Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olan şəxslərə tətbiq edilir.

Maddə 2

Əhatə edilən vergilər

1. Bu Konvensiya, vergitutma üsulundan asılı olmayaraq, Razılığa gələn Dövlət və ya onun siyasi və ya inzibati ərazi bölmələri, yaxud yerli hakimiyyət orqanları tərəfindən gəlirlərə və əmlaka görə tutulan vergilərə tətbiq edilir.

2. Gəlirlərə və əmlaka görə vergilərə - gəlirin ümumi məbləğindən, əmlakın ümumi dəyərindən və ya gəlirin, yaxud əmlakın elementlərindən, o cümlədən daşınar və ya daşınmaz əmlakın özgəninkiləşdirilməsindən gəlirlərdən, müəssisələrin ödədikləri əməkhaqqının və ya maaşın ümumi məbləğindən, həmçinin əmlakın dəyərinin artımından tutulan bütün vergilər aiddir.

3. Konvensiyanın tətbiq edildiyi mövcud vergilər xüsusilə aşağıdakılardır:

a) Azərbaycan Respublikasında:

(i) hüquqi şəxslərin mənfəət vergisi;

(ii) fiziki şəxslərin gəlir vergisi;

(iii) əmlak vergisi; və

(iv) torpaq vergisi

(bundan sonra "Azərbaycan Respublikası vergiləri" adlanacaq);

b) İsveçrədə:

Federal, kantonal və kommunal

(i) gəlir vergiləri (tam gəlir, qazanılmış gəlir, əmlakdan gəlir, sənaye və kommersiya mənfəəti, əmlakın dəyərinin artımı və gəlirin digər elementləri); və

(ii) əmlak vergiləri (məcmu əmlak, daşınar və daşınmaz əmlak, kommersiya aktivləri, dəyəri ödənilmiş əmlak və ehtiyatlar və əmlakın digər elementləri) (bundan sonra "İsveçrə vergiləri" adlanacaq).

4. Bu Konvensiya həmçinin onun imzalandığı tarixdən sonra mövcud vergilərə əlavə olaraq və ya onların əvəzinə tutulan eyni və ya mahiyyətcə oxşar vergilərə də tətbiq edilir. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları öz müvafiq vergi qanunvericiliklərində baş verən hər bir əhəmiyyətli dəyişiklik barədə bir-birinə məlumat verməlidirlər.

Maddə 3

Ümumi anlayışlar

1. Kontekstdən başqa məna alınmırsa, bu Konvensiyanın məqsədləri üçün:

a) "Azərbaycan Respublikası" termini - Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektoru, Azərbaycan Respublikasının üzərindəki hava məkanı da daxil olmaqla yerin təki, dənizin dibi və təbii sərvətlərə münasibətdə Azərbaycan Respublikasının suveren hüquqlarının və yurisdiksiyasının tətbiq olunduğu Azərbaycan Respublikasının ərazisini, habelə beynəlxalq hüquqa və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müəyyən edilən və gələcəkdə müəyyən edilə bilən istənilən başqa ərazini bildirir;

b) "İsveçrə" termini - İsveçrə Konfederasiyasını bildirir;

c) "Razılığa gələn Dövlət" və "Razılığa gələn digər Dövlət" terminləri - kontekstdən asılı olaraq, Azərbaycan Respublikasını və ya İsveçrəni bildirir;

d) "şəxs" termini - fiziki şəxsi, şirkəti və şəxslərin hər hansı digər birliklərini bildirir;

e) "şirkət" termini - istənilən korporativ qurumu və ya vergi məqsədləri üçün korporativ qurum kimi baxılan istənilən təşkilatı bildirir;

f) "Razılığa gələn Dövlətin müəssisəsi" və "Razılığa gələn digər Dövlətin müəssisəsi" terminləri - müvafiq olaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən idarə olunan müəssisəni və Razılığa gələn digər Dövlətin rezidenti tərəfindən idarə olunan müəssisəni bildirir;

g) "beynəlxalq daşıma" termini - dəniz və ya hava gəmisinin müstəsna olaraq Razılığa gələn digər Dövlətin məntəqələri arasında istismarı istisna olmaqla, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən istismar edilən dəniz və ya hava gəmiləri vasitəsilə yerinə yetirilən istənilən daşımaları bildirir;

h) "milli şəxs" termini:

(i) Razılığa gələn Dövlətin vətəndaşı olan istənilən fiziki şəxsi;

(ii) özünün müvafiq statusunu Razılığa gələn Dövlətin mövcud qanunvericiliyinə əsasən almış istənilən hüquqi şəxsi, tərəfdaşlığı və ya assosiasiyanı bildirir;

i) "səlahiyyətli orqan" termini:

(i) Azərbaycan Respublikasına münasibətdə - Maliyyə Nazirliyi və Vergilər Nazirliyini;

(ii) İsveçrəyə münasibətdə - Federal Vergi Administrasiyasının direktoru və ya onun səlahiyyətli nümayəndəsini bildirir.

2. Razılığa gələn Dövlət tərəfindən bu Konvensiyanın istənilən vaxt tətbiqi zamanı, burada müəyyən edilməyən hər hansı termin, kontekstdən başqa məna alınmırsa, Konvensiyanın tətbiq olunduğu vergilərə münasibətdə həmin vaxt həmin Dövlətin qanunvericiliyində nəzərdə tutulan mənanı daşıyır, həmin Dövlətin qüvvədə olan vergi qanunvericiliyində nəzərdə tutulmuş hər hansı bir məna həmin terminə həmin Dövlətin digər qanunlarına müvafiq olaraq verilən mənadan üstün tutulur.

Maddə 4

Rezident

1. Bu Konvensiyanın məqsədləri üçün "Razılığa gələn Dövlətin rezidenti" termini həmin Dövlətin qanunvericiliyinə müvafiq olaraq yaşayış yerinə, daimi olduğu yerə, qeydiyyat yerinə, idarəetmə yerinə, yaxud hər hansı digər oxşar meyara əsasən orada vergiyə cəlb edilən istənilən şəxsi, habelə həmin Dövləti və onun hər hansı siyasi və ya inzibati ərazi bölməsini, yaxud yerli hakimiyyət orqanını bildirir. Bununla belə, bu termin yalnız həmin Dövlətdəki mənbələrdən gəlirlərə və ya orada yerləşən əmlaka münasibətdə orada vergiyə cəlb edilən şəxsi əhatə etmir.

2. Əgər 1-ci bəndin müddəalarına müvafiq olaraq, fiziki şəxs Razılığa gələn hər iki Dövlətin rezidentidirsə, bu halda onun statusu aşağıdakı qaydada müəyyən edilir:

a) o, yalnız daimi yaşayış yerinə malik olduğu Dövlətin rezidenti hesab edilir; əgər onun hər iki Dövlətdə daimi yaşayış yeri varsa, bu halda o, yalnız şəxsi və iqtisadi əlaqələrinin daha sıx olduğu Dövlətin (həyati mənafelərin mərkəzi) rezidenti hesab edilir;

b) əgər onun həyati mənafelərinin mərkəzinin hansı Dövlətdə olduğunu müəyyən etmək mümkün deyildirsə və ya onun bu Dövlətlərin heç birində daimi yaşayış yeri yoxdursa, o, yalnız adətən yaşadığı Dövlətin rezidenti hesab edilir;

c) əgər o, adətən hər iki Dövlətdə yaşayırsa və ya onların heç birində yaşamırsa, o, yalnız milli şəxsi olduğu Dövlətin rezidenti hesab edilir;

d) əgər o, hər iki Dövlətin milli şəxsidirsə və ya onlardan heç birinin milli şəxsi deyildirsə, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu məsələni qarşılıqlı razılaşma yolu ilə həll edirlər.

3. Əgər fiziki olmayan şəxs 1-ci bəndin müddəalarına görə Razılığa gələn hər iki Dövlətin rezidentidirsə, o, yalnız qeydiyyatdan keçdiyi və faktiki idarəetmə yerinin yerləşdiyi Dövlətin rezidenti hesab edilir. Əgər qeydiyyat yeri və faktiki idarəetmə yeri Razılığa gələn eyni Dövlətdə yerləşmirsə, bu halda Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları məsələni qarşılıqlı razılaşma yolu ilə həll etməyə çalışacaqlar.

Maddə 5

Daimi nümayəndəlik

1. Bu Konvensiyanın məqsədləri üçün "daimi nümayəndəlik" termini müəssisənin sahibkarlıq fəaliyyətinin tamamilə və ya qismən həyata keçirildiyi daimi fəaliyyət yerini bildirir.

2. "Daimi nümayəndəlik" terminə xüsusilə aşağıdakılar daxildir:

a) idarəetmə yeri;

b) bölmə;

c) ofis;

d) fabrik;

e) emalatxana; və

f) yataq, neft və ya qaz quyusu, karxana, gəmi, yaxud təbii ehtiyatların kəşfiyyatı, işlənilməsi və/və ya hasil olunması üçün istifadə olunan hər hansı başqa yer.

3. "Daimi nümayəndəlik" terminə həmçinin aşağıdakılar aid edilir:

a) tikinti meydançası və ya quraşdırma, yaxud yığma layihəsi və ya bunlarla bağlı nəzarət fəaliyyəti, yalnız həmin meydança, layihə və ya fəaliyyət on iki aydan artıq dövr ərzində davam etdikdə;

b) müəssisə tərəfindən, məsləhət xidmətləri də daxil olmaqla, müəssisənin öz işçiləri və ya bu məqsədlə cəlb edilmiş digər heyət vasitəsilə xidmətlərin göstərilməsi, yalnız bu xarakterli fəaliyyət (eyni və ya onunla bağlı layihə üçün) Razılığa gələn Dövlətdə istənilən on iki aylıq dövr ərzində altı aydan artıq bir dövr və ya dövrlər ərzində davam etdikdə.

4. Bu maddənin əvvəlki müddəalarına baxmayaraq, "daimi nümayəndəlik" terminə aşağıdakılar aid edilmir:

a) müəssisəyə məxsus olan malların və ya məmulatların yalnız saxlanılması, nümayiş etdirilməsi, yaxud çatdırılması məqsədi üçün qurğulardan istifadə olunması;

b) müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarının yalnız saxlanma, nümayiş etdirilmə, yaxud çatdırılma məqsədilə saxlanması;

c) müəssisəyə məxsus olan mal, yaxud məmulat ehtiyatlarının yalnız başqa müəssisə tərəfindən emal edilməsi məqsədilə saxlanması;

d) daimi fəaliyyət yerinin müəssisə üçün yalnız mal və məmulatların satın alınması, yaxud informasiya toplanması məqsədilə saxlanması;

e) daimi fəaliyyət yerinin müəssisə üçün yalnız hazırlıq, yaxud yardımçı xarakterli istənilən digər fəaliyyətin göstərilməsi məqsədilə saxlanması;

f) daimi fəaliyyət yerinin yalnız a) - e) yarımbəndlərində sadalanmış fəaliyyət növlərinin istənilən kombinasiyada həyata keçirilməsi üçün saxlanılması - bir şərtlə ki, daimi fəaliyyət yerinin bu kombinasiya nəticəsində yaranan məcmu fəaliyyəti hazırlıq, yaxud yardımçı xarakter daşısın.

5. 1-ci və 2-ci bəndlərin müddəalarına baxmayaraq, əgər 6-cı bəndin şamil edildiyi müstəqil statuslu agentdən fərqli şəxs müəssisənin adından fəaliyyət göstərirsə və Razılığa gələn Dövlətdə müəssisənin adından müqavilə bağlamaq səlahiyyətlərinə malikdirsə və adətən bu səlahiyyətlərdən istifadə edirsə, həmin müəssisə şəxsin onun üçün həyata keçirdiyi istənilən fəaliyyətlə bağlı (həmin şəxsin 4-cü bənddə nəzərdə tutulmuş fəaliyyətlə məhdudlaşan fəaliyyəti istisna olmaqla, belə ki, həmin fəaliyyət daimi fəaliyyət yeri vasitəsilə həyata keçirilməsinə baxmayaraq, həmin bəndin müddəalarına əsasən

daimi nümayəndəlik yaratmır) həmin Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilir.

6. Müəssisə Razılığa gələn Dövlətdə sadəcə olaraq broker, baş komisyon agenti və ya müstəqil statuslu hər hansı digər agent vasitəsilə kommersiya fəaliyyətini həyata keçirdiyinə görə həmin Dövlətdə daimi nümayəndəliyi olan müəssisə hesab edilmir, bir şərtlə ki, bu cür şəxslər adi fəaliyyətləri çərçivəsində fəaliyyət göstərsinlər. Lakin əgər bu agentin fəaliyyəti tamamilə və ya əsasən həmin müəssisə üçün həyata keçirilirsə, həmin agent bu bəndin məqsədləri üçün müstəqil statuslu agent hesab edilmir.

7. Razılığa gələn Dövlətin rezidenti olan şirkətin Razılığa gələn digər Dövlətin rezidenti olan və ya həmin digər Dövlətdə sahibkarlıq fəaliyyətini həyata keçirən (daimi nümayəndəlik vasitəsilə, yaxud başqa tərzdə) şirkətə nəzarət etməsi və ya onun nəzarətində olması faktı özlüyündə bu şirkətlərdən birini digərinin daimi nümayəndəliyinə çevirmir.

Maddə 6

Daşınmaz əmlakdan gəlirlər

1. Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan əldə etdiyi gəlirlər (kənd və meşə təsərrüfatından gəlirlər də daxil olmaqla) həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. "Daşınmaz əmlak" termini həmin əmlakın yerləşdiyi Razılığa gələn Dövlətin qanunvericiliyi ilə müəyyən edilmiş mənanı daşıyır. Bu termin istənilən halda daşınmaz əmlaka münasibətdə yardımçı əmlakı, kənd və meşə təsərrüfatında istifadə edilən mal-qara və avadanlığı, torpaq mülkiyyəti barədə ümumi qanunvericiliyin müddəalarının tətbiq edildiyi hüquqları, daşınmaz əmlakın uzufruktunu və mineral ehtiyatların, mənbələrin və digər təbii resursların işlənməsi, yaxud işlənmə hüququna görə kompensasiya kimi ödənilən dəyişkən və ya təsbit olunmuş ödənişlərə olan hüquqları əhatə edir; dəniz və hava gəmilərinə daşınmaz əmlak kimi baxılmır.

3. 1-ci bəndin müddəaları daşınmaz əmlakın bilavasitə istifadəsindən, icarəyə verilməsindən, yaxud hər hansı digər formada istifadəsindən əldə edilən gəlirlərə tətbiq edilir.

4. 1-ci və 3-cü bəndlərin müddəaları həmçinin müəssisənin daşınmaz əmlakından gəlirlərə və müstəqil fərdi xidmətlərin göstərilməsi üçün istifadə olunan daşınmaz əmlakdan əldə olunan gəlirlərə də tətbiq edilir.

Maddə 7

Sahibkarlıq fəaliyyətindən əldə olunan mənfəət

1. Razılığa gələn Dövlətin müəssisəsinin mənfəəti, əgər həmin müəssisə Razılığa gələn digər Dövlətdə, orada yerləşən daimi nümayəndəlik vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirmirsə, yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb edilir. Əgər müəssisə sahibkarlıq fəaliyyətini yuxarıda göstərilən tərzdə həyata keçirirsə, yaxud keçiribsə, bu halda onun mənfəəti yalnız həmin daimi nümayəndəliyə aid edilən hissədə digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. 3-cü bəndin müddəaları nəzərə alınmaqla, əgər Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətdəki daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyəti-

ni həyata keçirirsə, Razılığa gələn Dövlətlərin hər birində həmin daimi nümayəndəliyin mənfəətinə, onun eyni və ya oxşar şəraitdə, eyni və ya oxşar fəaliyyətlə məşğul olan müstəqil və ayrıca müəssisə

olduğu və daimi nümayəndəliyi olduğu müəssisədən tamamilə asılı olmadan fəaliyyət göstərdiyi halda əldə edə biləcəyi mənfəət aid edilir.

3. Daimi nümayəndəliyin mənfəəti müəyyən edilərkən, daimi nümayəndəliyin yerləşdiyi Dövlətdə və ya hər hansı digər yerdə çəkilməsindən asılı olmayaraq, daimi nümayəndəliyin məqsədləri üçün çəkilmiş xərclərin, o cümlədən idarəetmə və ümumi inzibati xərclərin çıxılmasına yol verilir.

4. Əgər Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə aid olan mənfəət adətən müəssisənin ümumi mənfəətinin onun hissələri arasında bölüşdürülməsi əsasında müəyyən edilirsə, 2-ci bəndin müddəaları vergiyə cəlb edilən mənfəəti bu cür bölgü əsasında müəyyənləşdirməkdə Razılığa gələn Dövlətə heç bir manea yaratmır; lakin seçilmiş bölgü metodu bu maddədə nəzərdə tutulan prinsiplərə müvafiq nəticələr verməlidir.

5. Sadəcə olaraq öz müəssisəsi üçün mal və ya məmulat aldığına görə daimi nümayəndəliyə heç bir mənfəət aid edilmir.

6. Əvvəlki bəndlərin məqsədləri üçün daimi nümayəndəliyə aid edilən mənfəət hər il eyni metodla müəyyən edilir, bu şərtlə ki, bunun əksi üçün tutarlı və kifayət qədər əsaslı səbəb olmasın.

7. Əgər mənfəətə bu Konvensiyanın digər maddələrində ayrıca nəzərdə tutulmuş gəlir növləri daxildirsə, bu maddənin müddəaları həmin maddələrin müddəalarına təsir göstərmir.

Maddə 8

Dəniz və hava nəqliyyatı

1. Razılığa gələn Dövlətin müəssisəsinin dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarından əldə etdiyi mənfəət yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2. Bu maddənin məqsədləri üçün dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarından əldə olunan mənfəətə:

a) beynəlxalq daşımalarda dəniz və ya hava gəmilərinin qeyri-müntəzəm olaraq, heyətsiz icarəyə verilməsindən;

b) beynəlxalq daşımalarda konteynerlərin (o cümlədən konteynerlərin daşınması üçün treylerlərin və əlaqədar avadanlıqların) istifadəsi, saxlanması, yaxud icarəyə verilməsindən əldə edilən mənfəət aiddir, bir şərtlə ki, bu cür fəaliyyət növləri dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarına münasibətdə təsadüfi xarakter daşısın.

3. 1-ci bəndin müddəaları, həmçinin pulda ("pool"), müştərək müəssisə və ya beynəlxalq əməliyyat təşkilatında iştirakdan əldə olunan mənfəətə də tətbiq edilir.

Maddə 9

Qarşılıqlı əlaqəli müəssisələr

1. Əgər:

a) Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, nəzarət olunmasında və ya kapitalında birbaşa və ya dolayısı ilə iştirak edirsə, və ya

b) eyni şəxslər Razılığa gələn Dövlətin müəssisəsinin və Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, nəzarət olunmasında və ya kapitalında birbaşa və ya dolayısı ilə iştirak edirsə,

və hər bir halda bu müəssisələrin qarşılıqlı kommersiya və maliyyə əlaqələrində iki müstəqil müəssisə arasında mövcud ola biləcək şərtlərdən fərqli şərtlər yaradıldıqda, yaxud müəyyən edildikdə, onlardan birinə hesablana bilən, lakin bu şərtlərin olduğuna görə hesablanmamış mənfəət həmin müəssisənin mənfəətinə daxil edilə və müvafiq olaraq vergiyə cəlb edilə bilər.

2. Əgər Razılığa gələn Dövlət həmin Dövlətin müəssisəsinin mənfəətinə Razılığa gələn digər Dövlətin müəssisəsinin həmin digər Dövlətdə vergiyə cəlb edilmiş mənfəətini daxil edib və müvafiq olaraq, vergiyə cəlb edirsə və bu tərzdə daxil edilmiş mənfəət, əgər bu müəssisələr arasında münasibətlər müstəqil müəssisələr arasındakı münasibətlər kimi olduğu halda adı birinci çəkilən Dövlətin müəssisəsinə hesablana bilən mənfəətdirsə, bu halda, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları Razılığa gələn hər iki Dövlətdə mənfəətlərə düzəlişlər edilməsi üzrə razılığa gəlmək məqsədilə bir-biri ilə məsləhətləşmələr apara bilərlər.

3. Razılığa gələn Dövlət, 1-ci bənddə göstərilən şərtlər olduqda, öz daxili qanunlarında nəzərdə tutulmuş vaxt məhdudiyyətləri bitdikdən sonra və istənilən halda, dəyişikliklərə məruz qalacaq mənfəətin həmin Dövlətin müəssisəsinə hesablandığı ilin sonundan 5 il keçdikdən sonra dəyişikliklər edə bilməz. Bu bənd dələduzluq və bilərəkdən pozuntu hallarında tətbiq edilməyəcəkdir.

Maddə 10

Dividendlər

1. Razılığa gələn Dövlətin rezidenti olan şirkət tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən dividendlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür dividendlər həmçinin həmin dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn Dövlətdə də onun qanunvericiliyinə müvafiq olaraq vergiyə cəlb edilə bilər, lakin dividendlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi aşağıdakılardan artıq olmamalıdır:

a) dividendlərin ümumi məbləğinin 5 faizindən - əgər dividendlərin faktiki sahibi dividendləri ödəyən .şirkətin əmlakının ən azı 20 faizinə birbaşa sahib olan şirkətdirsə (tərəfdaşlıq istisna olmaqla) və adı birinci çəkilən Dövlətdə ən azı iki yüz min (200 000) ABŞ dolları və ya bu məbləğin istənilən digər valyutada ekvivalentinə bərabər investisiyaya malikdirsə;

b) dividendlərin ümumi məbləğinin 15 faizindən - bütün digər hallarda.

Bu bənd dividendlər ödənilən mənfəətə münasibətdə şirkətin vergiyə cəlb olunmasına aid edilmir.

3. Bu maddədə istifadə olunan "dividendlər" termini səhmlərdən, "jouissance" səhmlərindən, yaxud "jouissance" hüquqlarından, dağ-mədən sənayesinin səhmlərindən, təsisçilərin səhmlərindən və ya borc tələbləri olmayan, mənfəətin bölgüsündə iştirak etmək hüququ verən digər hüquqlardan, həmçinin gəlirləri bölüşdürən şirkətin rezidenti olduğu Dövlətin qanunvericiliyinə müvafiq olaraq səhmlərdən gəlirlər kimi eyni qaydada vergitutmaya cəlb edilən digər korporativ hüquqlardan əldə edilən gəlirləri ifadə edir.

4. Əgər dividendlərin faktiki sahibi Razılığa gələn Dövlətin rezidenti olmaqla, dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn digər Dövlətdə, orada yerləşən daimi nümayəndəlik vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirirsə və ya həmin digər Dövlətdə yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərirsə və dividendlərin ödənildiyi holdinq bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəlidirsə, 1-ci və 2-ci bəndlərin müddəaları tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Əgər Razılığa gələn Dövlətin rezidenti olan şirkət Razılığa gələn digər Dövlətdən mənfəət və ya gəlir əldə edirsə, həmin digər Dövlət dividendlərin həmin digər Dövlətin rezidentinə ödənildiyi və ya dividendlər ödənilən holdinqin həmin digər Dövlətdə yerləşən daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu hallar istisna edilməklə, şirkətin ödədiyi dividendlər və bölüşdürülməmiş mənfəətdən, hətta bu dividendlərin və ya bölüşdürülməmiş mənfəətin tamamilə və ya qismən həmin digər Dövlətdə yaranan mənfəət və ya gəlirdən ibarət olduğu halda, vergi tuta bilməz.

Maddə 11

Faizlər

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür faizlər həmçinin onların yarandığı Razılığa gələn Dövlətdə də onun qanunvericiliyinə müvafiq olaraq vergiyə cəlb edilə bilər, lakin faizlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi faizlərin ümumi məbləğinin 10 faizindən artıq olmamalıdır.

3. 2-ci bəndin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər; əgər həmin rezident bu faizlərin faktiki sahibidirsə,

a) yarandığı Dövlətdə vergidən azaddır, əgər bu faizlər:

(i) Razılığa gələn digər Dövlətin Hökumətinə, onun hər hansı siyasi və ya inzibati ərazi bölməsinə, yaxud yerli hakimiyyət orqanına, yaxud həmin digər Dövlətin Mərkəzi Bankına ödənilirsə; və ya

(ii) Razılığa gələn digər Dövlətin Hökuməti, həmin digər Dövlətin Mərkəzi Bankı, yaxud həmin Hökumətə məxsus olan və ya onun nəzarəti altında

olan istənilən agentlik, yaxud təşkilat (maliyyə qurumu da daxil olmaqla) tərəfindən zəmanət verilmiş və ya sığortalanmış borclara münasibətdə ödənilirsə; yaxud

(iii) istənilən sənaye, kommersiya və ya elmi avadanlığın kreditlə satışı ilə bağlı ödənilirsə;

b) yarandığı Razılığa gələn Dövlətdə 5 faizdən artıq olmayan dərəcə ilə vergiyə cəlb edilir, əgər bu faizlər:

(i) bir müəssisəsinin digər müəssisəyə hər hansı malı kreditlə satması ilə bağlı ödənilirsə; və ya

(ii) bank tərəfindən təqdim edilmiş istənilən növlü kreditə münasibətdə ödənilirsə.

4. Bu maddədə istifadə olunan "faizlər" termini ipoteka təminatından və borcluların mənfəətində iştirak hüququ verib-verməməsindən asılı olmayaraq, istənilən borc tələbindən olan gəlirləri və xüsusilə hökumətin istiqrazlarından, qiymətli kağızlardan və ya borc öhdəliklərindən, həmin istiqrazlar, qiymətli kağızlar və ya borc öhdəlikləri üzrə mükafatlar və uduşlar daxil olmaqla, əldə olunan gəlirləri ifadə edir. Vaxtında aparılmayan ödənişlərə görə tətbiq edilən cərimələr bu maddənin məqsədləri üçün faizlər hesab edilmir.

5. Əgər faizlərin faktiki sahibi Razılığa gələn Dövlətin rezidenti olmaqla, faizlərin yarandığı Razılığa gələn digər Dövlətdə, orada yerləşən daimi nümayəndəlik vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirirsə və ya həmin digər Dövlətdə yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərirsə və faizlərin ödənildiyi borc tələbnaməsi bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəlidirsə, 1-ci, 2-ci və 3-cü bəndlərin müddəaları tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

6. Əgər faizlərin ödəyicisi Razılığa gələn Dövlətin rezidentidirsə, faizlər həmin Dövlətdə yaranmış hesab edilir. Lakin əgər faizləri ödəyən şəxs, Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə və ya daimi bazaya sahibdirsə və faizlər ödənilən borc həmin daimi nümayəndəlik və ya daimi baza ilə bağlı yaranırsa və bu faizlərin ödənilməsi üzrə xərclər həmin daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkilirsə, bu cür faizlər həmin daimi nümayəndəliyin və ya daimi bazanın yerləşdiyi Dövlətdə yaranmış hesab edilir.

7. Əgər faizlərin ödəyicisi və faktiki sahibi arasında və ya onların hər ikisi və hər hansı digər şəxs arasında mövcud olan xüsusi münasibətlər səbəbindən borc tələbi ilə əlaqədar ödənilən faizlərin məbləği, bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla bilən məbləğdən artıq olarsa, bu maddənin müddəaları yalnız adı sonuncu çəkilən məbləğə tətbiq edilir. Bu halda, ödənişin artıq hissəsi bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilir.

Maddə 12

Royaltilər

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən royaltilər həmin digər Dövlətdə vergiyə cəlb olunur.

2. Bununla belə, bu cür royaltilər, həmçinin onların yarandığı Razılığa gələn Dövlətdə də onun qanunvericiliyinə müvafiq olaraq vergiyə cəlb edilə bilər, lakin royaltilər faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi aşağıdakılardan artıq olmamalıdır:

a) royaltilərin ümumi məbləğinin 5 faizindən - əgər bu royaltilər hər hansı patent, dizayn, yaxud model, plan, məxfi düstur və ya proses, yaxud sənaye, kommersiya və ya elmi təcrübəyə dair informasiyaya münasibətdə ödənilirsə,

b) royaltilərin ümumi məbləğinin 10 faizindən - bütün digər hallarda.

3. Bu maddədə istifadə olunan "royaltilər" termini istənilən ədəbiyyat, incəsənət və ya elm əsərlərinə, 0 cümlədən kinofilmlərə, istənilən patentə, ticarət markasına, dizayna, yaxud modelə, plana, məxfi düstura, yaxud prosesə dair müəllif hüquqlarının istifadəsi və ya istifadə hüququna görə və ya sənaye, kommersiya, yaxud elmi təcrübəyə dair informasiyaya (know-how) görə mükafat kimi alınan istənilən növ ödənişləri bildirir.

4. Əgər royaltilərin faktiki sahibi Razılığa gələn Dövlətin rezidenti olmaqla, royaltilərin yarandığı Razılığa gələn digər Dövlətdə, orada yerləşən daimi nümayəndəlik vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirirsə və ya həmin digər Dövlətdə yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərirsə və royaltilər ödənilən hüquq və ya əmlak bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəlidirsə, 1-ci və 2-ci bəndlərin müddəaları tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Əgər royaltilərin ödəyicisi Razılığa gələn Dövlətin rezidentidirsə, royaltilər həmin Dövlətdə yaranmış hesab edilir. Lakin royaltiləri ödəyən şəxs, Razılığa gələn Dövlətin rezidenti olub-olmamasmdan asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə və ya daimi bazaya sahibdirsə və royaltiləri ödəmək öhdəliyi həmin daimi nümayəndəlik və ya daimi baza ilə bağlı yaranırsa və royaltilərin ödənilməsi üzrə xərclər həmin daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkilirsə, royaltilər həmin daimi nümayəndəliyin və ya daimi bazanın yerləşdiyi Dövlətdə yaranmış hesab edilir.

6. Əgər royaltinin ödəyicisi və faktiki sahibi arasında və ya onların hər ikisi və hər hansı digər şəxs arasında mövcud olan xüsusi münasibətlər səbəbindən istifadəyə, hüquqa və ya informasiyaya görə ödənilən royaltilərin məbləği bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla bilən royalti məbləğindən artıq olarsa, bu maddənin müddəaları yalnız adı sonuncu çəkilən məbləğə tətbiq edilir. Bu halda, ödənişlərin artıq hissəsi bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilir.

Maddə 13

Əmlakın dəyərinin artımı

1. Razılığa gələn Dövlətin rezidentinin, 6-cı maddədə müəyyən edilmiş və Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakın özgəninkiləşdirilməsindən əldə etdiyi gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsi olan daşınar əmlakın və ya Razılığa gələn Dövlətin rezidentinin müstəqil fərdi xidmətlər göstərmək üçün Razılığa gələn digər Dövlətdə sərəncamında olan daimi bazasına aid olan daşınar əmlakın, o cümlədən bu cür daimi nümayəndəliyin (aynlıqda və ya bütün müəssisə ilə birlikdə) və ya daimi bazanın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Razılığa gələn Dövlətin rezidentinin beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmilərinin, yaxud onların istismarı ilə bağlı olan daşınar əmlakın özgəninkiləşdirilməsindən əldə etdiyi gəlirlər yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

4. Razılığa gələn Dövlətin rezidentinin, aktivləri əsasən Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan bilavasitə və ya dolayısı ilə ibarət olan şirkətin səhmdar kapitalının səhmlərinin və ya digər korporativ hüquqlarının özgəninkiləşdirilməsindən əldə etdiyi gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

5. 1-ci, 2-ci, 3-cü və 4-cü bəndlərində qeyd olunanlar istisna edilməklə, istənilən əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər yalnız əmlakı özgəninkiləşdirən şəxsin rezident olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb edilir.

Maddə 14

Müstəqil fərdi xidmətlər

1. Razılığa gələn Dövlətin rezidenti olan fiziki şəxsin peşəkar xidmətlər göstərməsindən və ya müstəqil xarakterli digər fəaliyyətlərdən əldə etdiyi gəlirlər, bu cür gəlirlərin həmçinin Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilə biləcəyi aşağıdakı hallar istisna olmaqla, yalnız adı birinci çəkilən digər Dövlətdə vergiyə cəlb edilir:

a) əgər onun Razılığa gələn digər Dövlətdə öz fəaliyyətini həyata keçirmək üçün müntəzəm istifadə etdiyi daimi bazası vardırsa, bu halda gəlirin yalnız göstərilən bazaya aid edilən hissəsi həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər; və ya

b) əgər o, cari vergi ilində başlayan və ya başa çatan istənilən 12 aylıq dövr ərzində ümumilikdə 183 günə bərabər və ya ondan artıq bir dövrdə və ya dövrlərdə Razılığa gələn digər Dövlətdə olmuşdursa; bu halda gəlirin yalnız həmin digər Dövlətdə həyata keçirilən fəaliyyətlə bağlı əldə edilən hissəsi həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. "Peşəkar xidmətlər" terminə əsasən müstəqil elmi, ədəbi, artistlik, təhsil və ya müəllimlik fəaliyyəti, habelə həkimlərin, vəkillərin, mühəndislərin, memarların, stomatoloqların və mühasiblərin müstəqil fəaliyyəti daxildir.

Maddə 15

Qeyri-müstəqil fərdi xidmətlər

1. 16-cı, 18-ci və 19-cu maddələrin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidenti tərəfindən muzdlu işlə bağlı əldə edilən maaş, əməkhaqqı və digər oxşar mükafatlar, əgər muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilmirsə, yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb edilir. Əgər muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilirsə, bununla bağlı oradan əldə edilən bu cür mükafatlar həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. 1-ci bəndin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə muzdlu işlə bağlı əldə etdiyi mükafatlar yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb edilir, əgər:

a) mükafatı alan şəxs cari vergi ilində başlayan və ya başa çatan istənilən 12 aylıq dövr ərzində ümumilikdə 183 gündən artıq olmayan bir dövrdə və ya dövrlərdə digər Dövlətdə olursa, mükafat digər Dövlətin rezidenti olmayan işəgötürən tərəfindən və ya onun adından ödənilirsə, və

b) mükafatların verilməsi üzrə xərclər işəgötürənin digər Dövlətdəki daimi nümayəndəliyi və ya daimi bazası tərəfindən çəkilmirsə.

3. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmisinin göyərtəsində muzdlu işlə bağlı əldə edilən mükafatlar həmin Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 16

Direktorların qonorarları

Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətin rezidenti olan şirkətin direktorlar şurasının, yaxud digər oxşar orqanının üzvü qismində əldə etdiyi qonorarlar və digər oxşar ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 17

İncəsənət işçiləri və idmançılar

1. 14-cü və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidentinin incəsənət işçisi, o cümlədən teatr, kino, radio və ya televiziya artisti və ya musiqiçi, yaxud idmançı qismində Razılığa gələn digər Dövlətdə həyata keçirdiyi fərdi fəaliyyətdən əldə etdiyi gəlir həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Əgər incəsənət işçisinin və ya idmançının bu cür şəxs kimi fərdi fəaliyyətindən əldə etdikləri gəlir onların özünə deyil, digər şəxsə hesablanırsa, həmin gəlir 7-ci, 14-cü və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, incəsənət işçisinin və ya idmançının fəaliyyətinin həyata keçirildiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb edilə bilər. Əgər nə incəsənət işçisi, nə idmançının özünün, nə də onlarla bağlı şəxsin bilavasitə bu cür şəxsin mənfəətində iştirak etmədiyi aşkarlanarsa, bu halda bu bəndin müddəaları tətbiq edilməyəcəkdir.

3. İdmançı və ya incəsənət işçisi tərəfindən həyata keçirilən fəaliyyətdən əldə olunan

gəlirlərin əsas hissəsi birbaşa və ya dolayısı ilə Razılığa gələn digər Dövlətin dövlət fondları, siyasi və ya inzibati ərazi bölməsi, yaxud yerli hakimiyyət orqanı tərəfindən ödənildiyi halda 1-ci və 2-ci bəndlərin müddəaları bu gəlirlərə tətbiq olunmayacaqdır.

Maddə 18

Təqaüdlər

19-cu maddənin 2-ci bəndinin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidentinə keçmişdə muzdla işləməsi ilə əlaqədar ödənilən təqaüdlər və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

Maddə 19

Dövlət qulluğu

1. a) Razılığa gələn Dövlət və ya onun siyasi və ya inzibati bölməsi, yaxud yerli hakimiyyət orqanı tərəfindən fiziki şəxsə həmin Dövlətə və ya bölməyə, yaxud hakimiyyət orqanına göstərdiyi xidmətlərə görə ödənilən təqaüd olmayan maaş, əməkhaqqı və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

b) Bununla belə, əgər xidmət Razılığa gələn digər Dövlətdə göstərilirsə və fiziki şəxs həmin Dövlətin rezidentdirsə və o:

(i) həmin Dövlətin milli şəxsidirsə; və ya

(ii) yalnız həmin xidmətləri göstərmək məqsədilə həmin Dövlətin rezidenti olmamışdırsa, bu cür maaş, əməkhaqqı və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2. a) Razılığa gələn Dövlət və ya onun siyasi və ya inzibati ərazi bölməsi, yaxud yerli hakimiyyət orqanı tərəfindən və ya onların yaratdıqları fondlardan fiziki şəxsə, həmin Dövlətə və ya bölməyə, yaxud hakimiyyət orqanına göstərdiyi xidmətlərə görə ödənilən istənilən təqaüd yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

b) Bununla belə, fiziki şəxs Razılığa gələn digər Dövlətin rezidenti və milli şəxsi olduğu halda bu təqaüd yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

3. 15-ci, 16-cı, 17-ci və 18-ci maddələrin müddəaları Razılığa gələn Dövlətin və ya onun siyasi və ya inzibati ərazi bölməsinin, yaxud yerli hakimiyyət orqanının sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan xidmətlərə görə ödənilən maaşa, əməkhaqqına və digər mükafatlara, habelə təqaüdlərə tətbiq olunur.

Maddə 20

Tələbələr

Razılığa gələn Dövlətin rezidenti olan və ya Razılığa gələn digər Dövlətə gəlməzdən bilavasitə əvvəl adı birinci çəkilən Dövlətin rezidenti olmuş və həmin digər Dövlətdə yalnız təhsil və ya təlim almaq məqsədilə olan tələbələrin və ya təcrübə keçən şəxslərin yaşamaq, təhsil və ya təlim almaq üçün aldıqları ödənişlərin mənbəyi həmin digər Dövlətdən kənarda yerləşdiyi hal-da, bu cür ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilmir.

Maddə 21

Digər gəlirlər

1. Razılığa gələn Dövlətin rezidentinin bu Konvensiyanın əvvəlki maddələrində göstərilməyən gəlir növləri, yaranma mənbəyindən asılı olmayaraq, yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2. 1-ci bəndin müddəaları, 6-cı maddənin 2-ci bəndinə əsasən müəyyən edilən daşınmaz əmlakdan əldə olunan gəlirlərdən fərqli olan gəlirlərə, bu gəlirləri əldə edən şəxs Razılığa gələn Dövlətin rezidenti olmaqla Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəlik vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirdiyi və ya həmin digər Dövlətdə yerləşən daimi baza-dan müstəqil fərdi xidmətlər göstərdiyi və gəlirin ödənilməsi ilə bağlı olan hüquq və ya əmlak bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

3. Bu Konvensiya uduşlu oyunlar və lotereyalar üzrə uduşlardan mənbədə tutulan vergilərə tətbiq edilmir.

Maddə 22

Əmlak

1. 6-cı maddədə göstərilmiş, Razılığa gələn Dövlətin rezidentinə məxsus olan və Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakla təmsil olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsini təşkil edən daşınar əmlakla və ya Razılığa gələn Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdə müstəqil fərdi xidmətlər göstərmək üçün sərəncamında olan daimi bazaya aid olan daşınar əmlakla təmsil olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmiləri, yaxud bu dəniz və ya hava gəmilərinin istismarı ilə bağlı olan daşınar əmlakla təmsil olunmuş əmlak yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

4. Razılığa gələn Dövlətin rezidentinin əmlakının bütün digər elementləri yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

Maddə 23

İkiqat vergitutmanın aradan qaldırılması

1. Azərbaycan Respublikasına münasibətdə ikiqat vergitutmanın qarşısı aşağıdakı kimi alınır:

Əgər Azərbaycan Respublikasının rezidenti bu Konvensiyanın müddəalarına müvafiq olaraq İsveçrədə vergiyə cəlb edilə bilən gəlir əldə edirsə və ya əmlaka sahibdirsə, bu gəlirə və ya əmlaka görə İsveçrədə ödənilmiş vergi bu şəxsdən həmin gəlir və əmlakla bağlı Azərbaycan Respublikasında tutulan vergidən çıxılacaqdır. Lakin bu cür çıxılma Azərbaycan Respublikasının qanunvericiliyinə və vergitutma qaydalarına müvafiq olaraq bu cür gəlirə və ya əmlaka hesablanmış verginin məbləğindən çox olmamalıdır.

2. İsveçrəyə münasibətdə ikiqat vergitutmanın qarşısı aşağıdakı kimi alınır:

a) Əgər İsveçrənin rezidenti bu Konvensiyanın müddəalarına müvafiq olaraq Azərbaycan Respublikasında vergiyə cəlb edilə bilən gəlir əldə edirsə, yaxud əmlaka malikdirsə, İsveçrə b) altbəndinin müddəaları nəzərə alınmaqla, bu cür gəlir və ya əmlakı vergidən azad edəcək, lakin gəlirin, yaxud əmlakın qalan hissəsinə vergi hesablayarkən vergidən azad olunan hissənin azad olunmadığı halda tətbiq ediləcək vergi dərəcəsi tətbiq elə bilər. Buna baxmayaraq, bu cür azadolma 13-cü maddənin 4-cü bəndində göstərilmiş gəlirlərə yalnız o halda tətbiq ediləcəkdir ki, bu gəlirlərin Azərbaycan Respublikasında həqiqətən vergiyə cəlb edildiyi göstərilsin.

b) Əgər İsveçrənin rezidenti 10-cu, 11-ci, yaxud 12-ci maddələrin müddəalarına müvafiq olaraq Azərbaycan Respublikasında vergiyə cəlb edilə bilən dividend, faiz yaxud royaltilər əldə edirsə, bu halda, İsveçrə müraciət əsasında bu cür rezidentə güzəştlər verəcəkdir. Güzəşt aşağıdakı formalarda ola bilər:

(i) həmin rezidentin gəlir vergisindən 10-cu, 11-ci və ya 12-ci maddələrin müddəalarına müvafiq olaraq Azərbaycan Respublikasında tutulmuş verginin məbləğinə bərabər verginin çıxılması; lakin bu cür çıxılma Azərbaycan Respublikasında vergiyə cəlb edilə bilən gəlirə müvafiq İsveçrə vergisinin bu cür çıxılma tətbiq edilməzdən əvvəl hesablanmış məbləğindən artıq olmamalıdır; və ya

(ii) İsveçrə vergisinin tam məbləğdə azaldılması; və ya

(iii) bu cür dividend, faiz və ya royaltilərin bir hissəsinin İsveçrə vergisindən azad edilməsi; və istənilən halda ən azı həmin dividend, faiz və ya royaltilərin ümumi məbləğinin Azərbaycanda tutulmuş vergi məbləği qədər azaldılması.

İsveçrə tətbiq oluna bilən güzəşti müəyyən edir və proseduru İsveçrə Konfederasiyasının ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq konvensiyalarının tətbiqi ilə bağlı İsveçrə müddəalarına müvafiq olaraq tənzimləyəcəkdir.

c) İsveçrənin rezidenti olmaqla Azərbaycan Respublikasının rezidenti olan şirkətdən dividend alan şirkət, İsveçrə vergisinin məqsədləri üçün bu dividendlərə münasibətdə dividendləri ödəyən şirkətin İsveçrə rezidenti olduğu halda istifadə edə biləcəyi güzəştlərdən istifadə edəcəkdir.

Maddə 24

Ayrı-seçkiliyə yol verilməməsi

1. Razılığa gələn Dövlətin milli şəxsləri Razılığa gələn digər Dövlətdə həmin digər Dövlətin milli şəxslərinin eyni şəraitdə, o cümlədən rezidentliyə münasibətdə cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutmadan və ya bununla bağlı olan öhdəliklərdən fərqlənən və ya daha ağır olan vergitutmaya və ya bununla bağlı olan öhdəliklərə cəlb edilməməlidirlər. Bu müddəa, 1-ci maddənin müddəalarına baxmayaraq, həmçinin Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olmayan şəxslərə də tətbiq edilir.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə yerləşən daimi nümayəndəliyinin vergiyə cəlb edilməsi həmin digər Dövlətdə həmin digər Dövlətin eyni fəaliyyətlə məşğul olan müəssisələrinin vergiyə cəlb edilməsindən ağır olmamalıdır. Bu müddəa Razılığa gələn Dövlətin vergitutma məqsədləri üçün öz rezidentlərinə mülki status və ya ailə öhdəlikləri əsasında verdiyi hər hansı şəxsi imtiyazların, güzəştlərin və çıxılmaların Razılığa gələn digər Dövlətin rezidentlərinə də verilməsi məcburiyyəti kimi təfsir olunmamalıdır.

3. 9-cu maddənin 1-ci bəndinin, 11-ci maddənin 7-ci bəndinin və ya 12-ci maddənin 6-cı bəndinin müddəalarının tətbiq edildiyi hallar istisna olmaqla, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər, royalti və digər ödənişlər, bu müəssisənin vergiyə cəlb edilən mənfəəti müəyyən edilərkən, adı birinci çəkilən Dövlətin rezidentinə ödənildiyi halda tətbiq edilən şərtlər əsasında çıxılmalıdır. Müvafiq olaraq, Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətin rezidentinə olan hər hansı bir borcu, həmin müəssisənin vergiyə cəlb edilən əmlakı müəyyən edilərkən adı birinci çəkilən Dövlətin rezidentinə olan borcu kimi eyni şərtlər əsasında çıxılmalıdır.

4. Razılığa gələn Dövlətin, əmlakı tamamilə və ya qismən Razılığa gələn digər Dövlətin rezidentinə və ya rezidentlərinə məxsus olan və ya onların birbaşa və ya dolayı nəzarəti altında olan müəssisəsi adı birinci çəkilən Dövlətdə həmin Dövlətin oxşar müəssisələrinin cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutmadan və ya onunla bağlı öhdəliklərdən fərqlənən və ya daha ağır olan şərtlərlə vergitutmaya və onunla bağlı öhdəliklərə cəlb edilə bilməz.

5. 2-ci maddənin müddəalarına baxmayaraq, bu maddənin müddəaları istənilən qəbildən və növdən olan vergilərə şamil edilir.

Maddə 25

Qarşılıqlı razılaşma proseduru

1. Əgər hər hansı şəxs hesab edirsə ki, Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin hərəkətləri onun bu Konvensiyanın müddəalarına uyğun olmayan tərzdə vergiyə cəlb edilməsinə gətirib çıxarır və ya gətirib çıxara bilər, bu halda həmin şəxs, həmin Dövlətlərin milli qanunvericiliklərində nəzərdə tutulmuş müdafiə vasitələrindən asılı olmayaraq, işini rezident olduğu Dövlətin, yaxud bu hal 24-cü maddənin 1-ci bəndinin əhatə dairəsinə aiddirsə, milli şəxsi olduğu Razılığa gələn Dövlətin səlahiyyətli orqanlarına təqdim edə bilər. Ərizə, bu Konvensiyanın müddəalarına uyğun gəlməyən vergitutmaya səbəb olmuş hərəkətlər haqqında ilk məlumatın tarixindən etibarən 3 il ərzində təqdim edilməlidir.

2. Səlahiyyətli orqan ərizəni əsaslandırılmış hesab edərək, eyni zamanda, qənaətbəxş qərara gələ bilmirsə, bu Konvensiyanın müddəalarına uyğun gəlməyən vergitutmanın qarşısının alınması məqsədilə məsələni Razılığa gələn digər Dövlətin səlahiyyətli orqanı ilə qarşılıqlı razılıq əsasında həll etməyə çalışmalıdır.

3. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Konvensiyanın təfsiri və ya tətbiqi zamanı qarşıya çıxan bütün çətinlikləri və ya anlaşılmazlıqları qarşılıqlı razılaşma əsasında həll etməyə səy göstərməlidirlər. Onlar həmçinin bu Konvensiyada nəzərdə

tutulmamış hallarda ikiqat vergitutmanın aradan qaldırılması üçün bir-biri ilə məsləhətləşə bilərlər.

4. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları əvvəlki bəndlərin məqsədləri üçün razılığın əldə edilməsi məqsədilə, o cümlədən onlar özləri və ya onların nümayəndələrindən ibarət olan birgə komissiya vasitəsilə bir biri ilə birbaşa əlaqələr yarada bilərlər.

Maddə 26

İnformasiya mübadiləsi

1. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Konvensiyanın müddəalarının yerinə yetirilməsi üçün zəruri olan informasiya (bir şərtlə ki, bu informasiya onların müvafiq vergi qanunvericiliyinə müvafiq olaraq normal inzibatçılıq qaydasında onların sərəncamında olsun) mübadiləsi aparırlar. Bu cür mübadilə edilmiş informasiya məxfi hesab edilir və bu Konvensiyanın tətbiq olunduğu vergilərin hesablanması və yığılması ilə bağlı olan şəxslər

istisna olmaqla, heç bir şəxsə açıqlana bilməz. Hər hansı ticarət, kommersiya, bank, sənaye, yaxud peşə sirri və ya ticarət prosesini açıqlaya biləcək informasiyanın yuxarıda göstərilən qaydada mübadiləsinə yol verilmir.

2. Heç bir halda, bu maddənin müddəaları Razılığa gələn Dövlətlərdən hər hansı birinin üzərinə Razılığa gələn bu və ya digər Dövlətin qaydalarına və təcrübəsindən fərqli və ya onun suverenliyinə, təhlükəsizliyinə, yaxud dövlət siyasətinə (ordre public) zidd olan inzibati tədbirlər görmək, yaxud müraciət edən Dövlətin öz qanunvericiliyi ilə əldə oluna bilməyən xüsusi məlumatlar vermək öhdəliyinin qoyulması kimi şərh edilməməlidir.

Maddə 27

Diplomatik nümayəndəliklərin və konsulluq idarələrinin üzvləri

Bu Konvensiyanın heç bir müddəası diplomatik nümayəndəliklər və ya konsulluq idarələri üzvlərinin beynəlxalq hüququn ümumi normaları, yaxud xüsusi razılaşmalara əsasən müəyyən edilmiş vergi imtiyazlarına toxunmur.

Maddə 28

Qüvvəyə minmə

1. Razılığa gələn Dövlətlərin hər biri digərini bu Konvensiyanın qüvvəyə minməsi üçün öz qanunvericiliyinin tələb etdiyi prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallarla xəbərdar edir.

2. Konvensiya bu bildirişlərdən sonuncusunun alındığı tarixdən 30 gün sonra qüvvəyə minir və onun müddəaları Razılığa gələn hər iki Dövlətdə tətbiq edilir:

a) mənbədə tutulan vergilərə münasibətdə - Konvensiyanın qüvvəyə mindiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində və ya ondan sonra ödənilən və ya kreditləşən məbləğlərə;

b) digər vergilər üzrə - Konvensiyanın qüvvəyə mindiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində və ya ondan sonra başlanan vergi illəri üzrə hesablanan vergi məbləğlərinə.

Maddə 29

Ləğvetmə

Bu Konvensiya Razılığa gələn Dövlətlərdən biri tərəfindən qüvvəsi ləğv edilənədək qüvvədə qalacaqdır. Razılığa gələn Dövlətlərdən hər biri istənilən təqvim ilinin başa çatmasına ən azı 6 ay qalmış diplomatik kanallarla Konvensiyanın qüvvəsinin ləğv edilməsi haqqında bildiriş göndərməklə, onun qüvvəsini ləğv edə bilər. Bu halda Konvensiyanın qüvvəsi ləğv edilir:

a) mənbədə tutulan vergilər üzrə - bildirişin verildiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində və ya ondan sonra ödənilən və ya kreditləşən məbləğlərə;

b) digər vergilər üzrə - bildirişin verildiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində və ya ondan sonra başlanan vergi illəri üzrə hesablanan vergi məbləğlərinə.

Bunun təsdiqi olaraq, müvafiq qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Konvensiyanı imzaladılar.

Bakı şəhərində 2006-cı il fevral ayının 23-də, iki əsl nüsxədə Azərbaycan, alman və ingilis dillərində imzalanmışdır, bütün mətnlər autentikdir. Mətnlərin təfsirində ziddiyyət olduqda, ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İSVEÇRƏ FEDERAL ŞURASI ADINDAN
FAZİL MƏMMƏDOV	*MİŞELİN KALMİ-REY*
Vergilər naziri	*Federal xarici işlər naziri*

Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında 2006-cı il fevralın 23-də Bakı şəhərində imzalanmış Protokol təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№285-IIIQ

Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında Protokol

Bakı şəhərində 2006-cı il fevral ayının 23-də, iki Dövlət arasında Gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya imzalanan zaman, bu Konvensiyanın tərkib hissəsini təşkil edən aşağıdakı müddəalar barədə razılığa gəldilər:

1. "Siyasi bölmə" və "siyasi bölmələr" anlayışları İsveçrəyə, "inzibati ərazi bölməsi" və "inzibati ərazi bölmələri" anlayışları isə Azərbaycan Respublikasına aiddir.

2. 3-cü maddənin 1-ci bəndinin d) altbəndinə əlavə

Belə başa düşülür ki, "şəxslərin hər hansı digər birliyi" ifadəsi tərəfdaşlıq və birgə müəssisələri əhatə edir.

3. 3-cü maddənin 1-ci bəndinin i) altbəndinə əlavə

Belə başa düşülür ki, Azərbaycana münasibətdə, bu Konvensiyanın tətbiq dairəsinə aid olan istənilən məsələ ilə əlaqədar eyni qaydada həm Maliyyə Nazirliyi, həm də Vergilər Nazirliyinə müraciət edilə bilər.

4. 5-ci maddənin 5-ci bəndinə əlavə

Müəssisə üçün öhdəlik yaratmaqla, müqavilənin bütün elementlərini və təfsilatını razılaşdırmaq səlahiyyətlərinə malik olan şəxs, hətta müqavilə baş-qa şəxs tərəfindən müəssisənin yerləşdiyi Razılığa gələn digər Dövlətdə imzalansa belə, Razılığa gələn Dövlətdə öz səlahiyyətlərindən istifadə edən hesab edilə bilər.

5. 7-ci və 12-ci maddələrə əlavə

Belə başa düşülür ki, sənaye, kommersiya və ya elmi avadanlığın istifa-dəsi, yaxud istifadə hüququna görə alınan ödəmələr 7-ci maddə ilə əhatə olunmuş sahibkarlıq fəaliyyətindən mənfəətə aid edilir.

6. 18-ci və 19-cu maddələrə əlavə

Belə başa düşülür ki, müvafiq olaraq 18-ci və 19-cu maddələrdə istifadə olunan "təqaüdlər" və "təqaüd" anlayışları yalnız müntəzəm ödəmələri deyil, həm də birdəfəlik ödənişləri əhatə edir.

Bakı şəhərində 2006-cı il fevral ayının 23-də, iki əsl nüsxədə Azərbaycan, alman və ingilis dillərində imzalanmışdır, bütün mətnlər autentikdir. Mətnlərin təfsirində ziddiyyət olduqda, ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İSVEÇRƏ FEDERAL ŞURASI ADINDAN
(imza)	*(imza)*

"Azərbaycan Respublikası Hökuməti və İsveçrə Konfederasiyası Hökuməti arasında texniki, maliyyə və humanitar əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və İsveçrə Konfederasiyası Hökuməti arasında texniki, maliyyə və humanitar əməkdaşlıq haqqında" 2006-cı il fevralın 23-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№286-IIIQ

Azərbaycan Respublikası Hökuməti və İsveçrə Konfederasiyası Hökuməti arasında texniki, maliyyə və humanitar əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti (bundan sonra "Azərbaycan" adlandırılacaq) və İsveçrə Konfederasiyası Hökuməti (bundan sonra "İsveçrə" adlandırılacaq),

iki ölkə arasında dostluq əlaqələrini daha da möhkəmləndirmək niyyətində olaraq,

bu ölkələr arasında həmin münasibətləri möhkəmləndirməyi arzulayaraq və məhsuldar texniki, maliyyə və humanitar əməkdaşlığı inkişaf etdirməyi zəruri sayaraq,

belə texniki, maliyyə və humanitar əməkdaşlığın davamlı iqtisadi, sosial və ekoloji inkişafa nail olunmasına, Azərbaycanda hal-hazırda həyata keçirilən islahatlar prosesinə və iqtisadi, sosial və ekoloji tənzimləmə xərclərinin azaldılmasına, həmçinin demokratiyanın və insan hüquqlarının inkişaf etdirilməsinə töhvə verəcəyini nəzərə alaraq,

Azərbaycan Respublikası Hökumətinin demokratik mühit şəraitində bazar iqtisadiyyatını qurmaq məqsədilə islahatların həyata keçirilməsini davam etdirmək qətiyyətində olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Əməkdaşlığın əsası

Ümumdünya İnsan Hüquqları Bəyannaməsində xüsusi olaraq göstərilən demokratik prinsiplərə və əsas insan hüquqlarına hörmət hər iki tərəfin daxili və xarici siyasətinin əsasını təşkil edir və bu Sazişin məqsədləri daxilində əsas element kimi çıxış edir.

Maddə 2

Sazişin əhatə dairəsi

Saziş Azərbaycan Respublikası Hökuməti və İsveçrə Hökuməti arasında əməkdaşlığın bütün formalarının inkişafı üçün ümumi şərtləri müəyyən edir.

Bu şərtlər 5-ci maddəyə uyğun olaraq Tərəflər arasında razılaşdırılan inkişaf əməkdaşlığı üzrə layihələrə/proqramlara tətbiq ediləcəkdir.

Tərəflər öz müvafiq milli qanunvericiliyi çərçivəsində Azərbaycanda əməkdaşlıq layihələrinin/proqramlarının həyata keçirilməsini təşviq edəcəklər. Bu layihələr/proqramlar Azərbaycanın özünün inkişaf səylərinə yardımçı olacaqdır.

Bu Sazişə dəqiq istinad olunması şərtilə, Azərbaycan həmçinin bu şərtləri İsveçrə tərəfindən maliyyələşdirilən regional inkişaf layihələrindən/proqramlarından və ya İsveçrə tərəfindən çoxtərəfli təsisatlar vasitəsilə maliyyələşdirilən layihələrdən/proqramlardan

irəli gələn milli fəaliyyətə tətbiq edəcəkdir.

Bu Sazişin məqsədi bu layihələrin/proqramların idarə olunması və həyata keçirilməsi üçün qaydalar və prosedurların çərçivəsini yaratmaqdır.

Digər donorlar tərəfindən maliyyələşdirilən layihələrlə/proqramlarla təkrarlanmanın və üst-üstə düşmənin aradan qaldırılması və layihələrin/proqramların mümkün olan maksimal səmərəliliyinin təmin edilməsi məqsədilə, Tərəflər səmərəli əlaqələndirmə üçün zəruri olan hər bir məlumatı təmin edəcək və onunla bölüşəcəklər.

Maddə 3

Anlayışlar

Bu Sazişə əsasən xüsusi layihələr/proqramlar və digər birgə fəaliyyət bundan sonra "Layihələr" adlandırılacaqdır.

Bu Sazişin məqsədləri üçün "İcraçı Agentliklər" ifadəsi hər hansı dövlət orqanını və dövlət və ya özəl korporasiyanı, həmçinin hər iki Tərəfin qəbul etdiyi və aşağıdakı 8.1-ci maddədə istinad olunan xüsusi Layihələri yerinə yetirmək üçün İsveçrə tərəfindən səlahiyyətlər almış hər hansı dövlət və ya özəl təşkilatı nəzərdə tutacaqdır.

İsveçrə tərəfindən qısa və ya uzunmüddətli missiyalara və ya Layihələrin icrası həvalə edilmiş İcraçı Agentliklər tərəfindən təyin edilmiş Ekspertlər və ya Məsləhətçilər bundan sonra "İşçi Heyəti" adlandırılacaqlar.

Bu Sazişin məqsədləri üçün "Mallar" ifadəsi bu Sazişə əsasən Layihələr üçün İsveçrə tərəfindən və ya İcraçı Agentliklər tərəfindən təqdim olunmuş malları, materialları, nəqliyyat vasitələrini, maşınları, avadanlığı və digər malları və ya aşağıdakı 5.1-ci maddədə istinad olunan Layihələrlə bağlı xüsusi Sazişlərə əsasən Azərbaycana göndərilən digər bütün malları nəzərdə tutacaqdır.

Maddə 4

Əməkdaşlığın formaları

Bölmə 1 - Formalar

4.1. Əməkdaşlıq, bir və ya bir neçə formalar eyni zamanda tətbiq olunma şərtilə, Texniki, Maliyyə və İqtisadi Yardım, həmçinin Humanitar Yardım və Fəlakətlər zamanı Humanitar Yardım formasında həyata keçiriləcəkdir.

4.2. Əməkdaşlıq qrantların (xidmətlər və ya maliyyə vasitələrinin naturada) təqdim olunması və ya güzəştli kreditlər və ya pay iştirakı vasitəsilə həyata keçiriləcəkdir.

4.3. Əməkdaşlıq ikitərəfli əsasda və ya digər donorlarla və ya çoxtərəfli təşkilatlarla əməkdaşlıqda həyata keçirilə bilər.

4.4. Yardım milli, beynəlxalq və ya çoxtərəfli olan, özəl və ya dövlət təşkilatları vasitəsilə göstərilə bilər.

Bölmə 2 - Texniki Yardım

4.5. Texniki Yardım Layihələri onların keçirilməsi üçün zəruri olan təlim və məsləhətçi xidmətlər vasitəsilə nou-haunun ötürülməsi formasında və ya xidmət-

lərin göstərilməsi və ya materialın və avadanlığın təchiz formasında təmin ediləcəkdir.

4.6. Texniki Yardım aşağıdakı formalarda həyata keçirilə bilər:

a) qrant formasında yardımlar;

b) malların və xidmətlərin təchizi;

c) yerli və ya xarici işçi heyətinin təchizi;

d) Azərbaycanda, İsveçrədə və ya hər hansı üçüncü ölkədə təhsil və ya təlim üçün təqaüdlər;

və ya:

e) hər iki Tərəf arasında qarşılıqlı razılaşdırıldığı kimi, hər hansı digər forma.

4.7. Texniki Yardım Layihələri bütövlükdə aşağıdakılara yönələcəkdir:

i) ekoloji cəhətdən məqsədəuyğun və davamlı inkişafın dəstəklənməsinə; və

ii) açıq bazar iqtisadiyyatının formalaşmasına yönəlmiş struktur islahatlar prosesinin dəstəklənməsinə.

4.8. Texniki Yardım Layihələri, onların iqtisadi fəaliyyətlə bağlı olduğu hallar istisna olmaqla, ümumiyyətlə, geri qaytarılmamaq əsasında təmin ediləcəkdir.

Bölmə 3 - Maliyyə və İqtisadi Yardım

4.9. Maliyyə və İqtisadi Yardım prioritet inkişaf layihələri üçün nəzərdə tutulmuş İsveçrə mənşəli malların və xidmətlərin maliyyələşdirilməsi formasını və ya maliyyə vasitəçilərinin kapitalına töhfələr formasını qəbul edəcəkdir. Alternativ formalara konkret hallara uyğun olaraq baxılacaqdır.

4.10. Maliyyə və İqtisadi Yardım, vəziyyətdən asılı olaraq, iki Tərəfin qarşılıqlı razılaşdığı kimi qrantlar, kreditlər və ya onların kombinasiyası formasında təmin ediləcəkdir.

4.1.1. Xüsusi diqqət iqtisadiyyatın yaranmaqda olan özəl sektorunun inkişafını dəstəkləyən layihələrə veriləcəkdir.

Maddə 5

Tətbiq

5.1. Bu Sazişin şərtləri aşağıdakılara tətbiq ediləcəkdir:

a) hər iki Tərəfin razılaşdırdığı Layihələrə;

b) 6-cı maddənin müddəalarının müvafiq düzəlişlərə tətbiq edilməsini iki Tərəfin və ya onların səlahiyyətləndirilmiş nümayəndələrinin qarşılıqlı razılaşdırdığı, hər iki ölkənin ümumi və ya xüsusi hüquq korporasiyalarla və ya təsisatlarla Layihələrə;

c) bu Sazişin qüvvəyə minməsindən əvvəl mövcud olan layihələrə və ya hazırlıq mərhələsində olan Layihələrə.

5.2. İsveçrə tərəfi öz öhdəliklərinin yerinə yetirilməsini İcraçı Agentliyə həvalə

edə bilər.

5.3. Bu Sazişin müddəaları, insanların əziyyət çəkdiyi hallar zamanı Azərbaycanda İsveçrə fövqəladə və humanitar yardım əməliyyatlarına bərabər şəkildə tətbiq ediləcəkdir. xidmətlərin göstərilməsi və ya materialın və avadanlığın təchiz formasında təmin ediləcəkdir.

Maddə 6

Vəzifələr

6.1. Hər hansı bir əməkdaşlıq layihəsinin icrasına şərait yaratmaq məqsədilə Azərbaycan Respublikası, İsveçrə tərəfinin qrantları əsasında maliyyələşdirilən bütün avadanlıqları, xidmətləri, nəqliyyat vasitələri və materialları, həmçinin bu Saziş çərçivəsində layihələrin icra olunması məqsədilə müvəqqəti olaraq idxal edilən avadanlıqları vergilərdən, gömrük rüsumlarından, digər məcburi ödəmələrdən azad edəcək və eyni şərtlər daxilində onların yenidən geri qaytarılmasına icazə verəcəkdir.

6.2. Azərbaycan bu Saziş çərçivəsində layihələrin həyata keçirilməsi məqsədilə lazım olan avadanlıqların müvəqqəti idxalı üçün lazım olan icazəni verəcəkdir.

6.3. Azərbaycan, layihələrin icrasına məsul olan İcraçı Agentlikləri hər bir gəlir, mənfəət və əmlak vergisindən və ya layihə razılaşmasından irəli gələn ödənişlər və daxil olan vəsaitlər üzrə vergilərdən azad edəcəkdir.

6.4. Azərbaycan razılaşır ki, maliyyə yardımı layihələri ilə bağlı ödəniş prosedurları üçün müvafiq Azərbaycan layihələri üzrə tərəfdaşlar adından fəaliyyət göstərən maliyyə agentləri hər bir layihə üzrə tərəfdaşlar arasında razılaşma əsasında təyin edilə bilər. Yerli valyutada ödəmələr və/və ya qarşı tərəfin fondları üçün Azərbaycan qanunvericiliyinə uyğun olaraq bu maliyyə agentləri tərəfindən xüsusi hesablar açıla bilər. Bu depozit edilmiş fondların istifadəsi layihə üzrə tərəfdaşlar arasında müəyyənləşdiriləcəkdir.

6.5. Azərbaycan layihələrdən irəli gələn və xarici heyət tərəfindən həyata keçirilən xarici valyutanın beynəlxalq köçürmələrlə bağlı proseduru asanlaşdıracaqdır.

6.6. Bu Saziş çərçivəsində layihələrin icrası üçün işə götürülmüş işçilər və onların ailələri hər bir gəlir və əmlak vergisindən, digər vergi növlərindən, həmçinin şəxsi əşyaları üçün gömrük rüsumlarından, digər məcburi ödəniş formalarından azad ediləcəklər. Onlara öz şəxsi mallarını (ev avadanlıqları, maşın, həm iş üçün lazım olan, həm şəxsi avadanlıqlar) idxal etmək və işləri başa çatdıqdan sonra yenidən geri qaytarmaq səlahiyyəti veriləcəkdir.

Azərbaycan Respublikası heyəti və onların ailələrini, hüquqi şəkildə tələb edilə bilən yaşayış yeri haqqında sənədlər və iş üçün buraxılış vərəqələri ilə təmin edəcəkdir.

6.7. Azərbaycan işçilərin, həmçinin onların ailələrinin təhlükəsizliyini təmin edəcək və onları geri qayıtmaları üçün şərait yaradacaqdır.

6.8. Azərbaycan milli qanunvericilik çərçivəsində işçilər və onların ailələri üçün ölkəyə giriş vizalarını pulsuz və ləngimədən təmin edəcəkdir.

6.9. Azərbaycan işçilərin öz vəzifələrini yerinə yetirmələrinə yardım edəcək və onları lazım olan bütün sənədlər və məlumatlarla təmin edəcəkdir.

Maddə 7

Korrupsiyaya qarşı mübarizə

Tərəflər yaxşı idarəetməyə və inkişaf üçün zəruri olan ehtiyatların düzgün istifadəsinə təhlükə yaradan və əlavə olaraq, qiymət və keyfiyyətə əsaslanan ədalətli və açıq rəqabəti təhlükəyə məruz qoyan, korrupsiyaya qarşı mübarizədə ümumi marağı bölüşürlər. Buna görə onlar korrupsiyaya qarşı mübarizə etmək üçün öz səylərinin birləşdirilməsinə dair öz niyyətlərini bəyan edirlər və xüsusilə bəyan edirlər ki, bu Sazişin bağlanılması və ya icrası baxımından hər hansı bir şəxsə birbaşa və ya dolayısı qeyri-qanuni hərəkət və ya korrupsiya təcrübəsi kimi hesab edilən hər hansı təklif, hədiyyə, yardım, mükafat və ya hər hansı bir fayda edilməmiş və edilməyəcəkdir. Hər hansı belə hərəkət bu Sazişin ləğv edilməsini, mükafatın alınması və ya əldə olunmasını doğrultmaq üçün və ya tətbiq olunan qanunvericiliyin nəzərdə tutduğu hər hansı digər düzəldici tədbirlərin görülməsi üçün kifayət qədər əsaslar təşkil edir.

Maddə 8

Əlaqələndirmə və prosedur

8.1. Bu Saziş əsasında hər bir Layihə üçün Layihənin hər iki tərəfdaşının malik olacağı hüquqları və öhdəlikləri ətraflı şərtləndirən və müəyyən edən, Layihənin tərəfdaşları arasında xüsusi layihə sazişi lazım olacaqdır. Layihənin tərəfdaşları həyata keçirilmə zamanı bu Sazişə əsasən maliyyələşdirilən Layihələrin inkişafı üzrə texniki səviyyədə mütəmadi fasilələrlə fikir mübadiləsi aparacaqlar.

8.2. Tərəflər bu Sazişə əsasən həyata keçirilən Layihələr barədə bir-birinə məlumat verəcəklər.

8.3. Azərbaycan tərəfindən ümumi əlaqələndirmə Azərbaycan Respublikası Hökuməti adından fəaliyyət göstərən İqtisadi İnkişaf Nazirliyi tərəfindən həyata keçiriləcəkdir.

8.4. Bu Sazişin tətbiqi üçün İsveçrə tərəfini aşağıdakılar təmsil edirlər:

a) İsveçrənin Xarici İşlər Federal Departamentinin İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi (İİƏA);

b) İsveçrənin Dövlət İqtisadiyyatı üzrə Federal Departamentinin İqtisadi Məsələlər üzrə Dövlət Katibliyi.

8.5. İİƏA-nın Tiflisdəki Əlaqələndirici Nümayəndəliyi və ya Bakıda hər hansı səlahiyyətləndirilmiş bölməsi Layihələrin əlaqələndirilməsi, həyata keçirilməsi və müşahidəsi üçün Azərbaycanın hakimiyyət orqanları ilə əlaqə saxlayacaqlar.

Maddə 9

Yekun müddəalar

9.1. Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların hər iki Hökumət tərəfindən yerinə yetirilməsini təsdiq edən son bildirişlərin mübadiləsi tarixində qüvvəyə minəcəkdir. Bu Saziş imzalandığı vaxtdan, iki ölkənin daxili qanunvericiliyinə uyğun olaraq, müvəqqəti əsasda tətbiq ediləcəkdir. Saziş 5 il müddətinə qüvvədə qalacaqdır. Bu müddətdən sonra onun qüvvəsi avtomatik olaraq hər il uzadılacaqdır. Saziş istənilən vaxtda iki Hökumətdən biri tərəfindən, 6 ay əvvəl yazılı bildiriş təqdim etməklə ləğv edilə bilər.

Ləğv edildiyi təqdirdə, bu Sazişin müddəalarının onun ləğvindən əvvəl razılaşdırılmış bütün Layihələrə tətbiq edilməsi davam edəcəkdir.

9.2. 1-ci maddədə göstərilən əsas müddəalara riayət olunmadığı təqdirdə Tərəflərdən biri və ya hər ikisi müvafiq tədbirlər görə bilər. Bunu etməzdən əvvəl, xüsusi təxirəsalınmaz hallar istisna olmaqla, tədbirlər görən tərəf digər tərəfi məsələnin həlli məqsədilə vəziyyətin hərtərəfli araşdırılması üçün zəruri olan bütün məlumatla təmin edəcəkdir.

Tədbirlərin seçilməsində üstünlük bu Sazişin fəaliyyətinə ən az maneçilik törədənlərə verilməlidir. Belə tədbirlər barədə dərhal digər tərəfə məlumat veriləcəkdir.

Bu Sazişin düzgün təfsiri və praktiki tətbiqi məqsədləri üçün Tərəflər razılaşırlar ki, 9.2-ci maddənin 1-ci bəndində "xüsusi təxirəsalınmaz hallar" dedikdə, 1-ci maddədə istinad olunan Sazişin hər hansı əsas elementinin və ya məqsədinin Tərəflərin biri tərəfindən ciddi pozulması başa düşülür.

9.3. Tərəflər bu Sazişin tətbiqi nəticəsində yarana bilən hər hansı mübahisəni diplomatik vasitələrlə həll etməyə razılaşırlar.

9.4. Bu Sazişə hər hansı dəyişiklik və ya düzəliş hər iki Hökumətin razılığı ilə yazılı surətdə ediləcəkdir.

Bakı şəhərində 23 fevral 2006-cı il tarixində iki əsl nüsxədə hər biri Azərbaycan və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Mübahisə və ya təfsirdə fikir ayrılığı yarandıqda, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İSVEÇRƏ FEDERAL ŞURASI ADINDAN
(imza)	*(imza)*

"Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında" 2006-cı il fevralın 23-də Bakı şəhərində

imzalanmış Saziş təsdiq edilsin.

II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№287-IIIQ

Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş

PREAMBULA

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası,

hər iki Dövlətin qarşılıqlı faydalanması üçün iqtisadi əməkdaşlığın gücləndirilməsini arzu edərək,

Razılığa gələn bir Tərəfin investorları üçün Razılığa gələn digər Tərəfin ərazisində əlverişli şəraitin yaradılması və saxlanılması niyyətində olaraq,

hər iki Dövlətin iqtisadi rifahının yüksəldilməsi məqsədilə xarici investisiyaların təşviqi və qorunması üçün ehtiyac duyulduğunu bildirərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Anlayışlar

Bu Sazişin məqsədi üçün:

1. "İnvestisiya" dedikdə, hər növ əmlakı və tətbiq edilən qanuna müvafiq olaraq əlaqədar hüquqları, həmçinin xüsusi olaraq, lakin istisna olmamaqla, aşağıdakılar başa düşülür:

a) daşınar və daşınmaz əmlak, habelə ipoteka, girov, uzufrukt kimi istənilən digər əşya hüquqları;

b) səhmlər, paylar və şirkətlərdə iştirakın istənilən digər forması;

c) pul tələbi və ya sazişə uyğun olaraq iqtisadi dəyərə malik olan icra etmək hüquqları;

d) əqli mülkiyyət hüquqları (müəlliflik hüquqları, patentlər, sənaye nümunələri və ya modelləri, ticarət və ya xidmət nişanları, ticarət adları mənşə göstəriciləri kimi), "nou-hau" və "işgüzar nüfuz";

e) iqtisadi fəaliyyətin həyata keçirilməsi, o cümlədən təbii ehtiyatların kəşfiyyatı, hasilatı və ya istismarı üçün qanunla, müqavilə və ya lisenziyalar əsasında müəyyən edilmiş hər hansı hüququ və ya qanuna müvafiq olaraq verilən icazələr.

2. "İnvestor" dedikdə, Razılığa gələn Tərəflərdən hər hansı birinə münasibətdə aşağıdakılar başa düşülür:

a) Razılığa gələn həmin Tərəfin vətəndaşlığına malik fiziki şəxslər;

b) Razılığa gələn həmin Tərəfin qanunvericiliyinə müvafiq olaraq təsis edilmiş hüquqi şəxslər.

3. "Gəlirlər" dedikdə, investisiya qoyuluşu nəticəsində əldə edilən vəsait, xüsusilə mənfəət, faizlər, kapitaldan əldə olunan gəlirlər, dividendlər, royaltilər, idarəetmə, texniki yardım və ya digər xidmətlərlə bağlı qonorarlar və natura şəklində ödəmələr başa düşülür.

4. "Ərazi" dedikdə aşağıdakılar başa düşülür:

a) İsveçrə Konfederasiyasına münasibətdə: İsveçrə Konfederasiyasının milli qanunvericilik və beynəlxalq hüquqa müvafiq olaraq üzərində suveren hüquqlar və yurisdiksiya həyata keçirdiyi ərazi;

b) Azərbaycan Respublikasına münasibətdə: Xəzər dənizinin müvafiq sektoru da daxil olmaqla, Azərbaycan Respublikasının öz milli qanunvericiliyi və beynəlxalq hüquqa uyğun olaraq, üzərində suveren hüquqlar və yurisdiksiyanı həyata keçirdiyi ərazi.

Maddə 2

Tətbiq dairəsi

Bu Saziş Razılığa gələn bir Tərəf ərazisində Razılığa gələn digər Tərəfin investorlarının birbaşa və ya dolayı olaraq sahib olduqları və ya nəzarət etdikləri investisiyalara tətbiq edilir. Saziş həmçinin qüvvəyə minməzdən əvvəl qoyulmuş investisiyalara da tətbiq edilir, lakin həmin tarixdən əvvəl yaranmış mübahisəli məsələlərə tətbiq edilmir.

Maddə 3

Təşviq və qəbul

1. Razılığa gələn hər bir Tərəf öz ərazisində Razılığa gələn digər Tərəfin investorlarının investisiyalarını mümkün dərəcədə təşviq edəcək və bu investisiyaları özünün qanun və normativ hüquqi aktlarına uyğun qəbul edəcəkdir.

2. Razılığa gələn hər bir Tərəf öz qanun və normativ hüquqi aktlarına müvafiq olaraq investisiya qoyuluşu ilə bağlı lazımi icazələrin, o cümlədən lisenziyalaşma üzrə razılaşmaların və texniki, ticarət və ya inzibati yardımın göstərilməsi üzrə kontraktların həyata keçirilməsi üçün icazələrin, habelə məsləhətçilərin və ekspertlərin fəaliyyəti üçün tələb edilən icazələrin verilməsini asanlaşdıracaqdır.

Maddə 4

Müdafiə və rejim

1. Razılığa gələn hər bir Tərəfin investorlarının investisiyalarına və gəlirlərinə münasibətdə Razılığa gələn digər Tərəfin ərazisində hər zaman ədalətli və bərabərhüquqlu rejim tətbiq ediləcəkdir və onların tam qorunması və təhlükəsizliyi təmin ediləcəkdir. Razılığa gələn Tərəflərdən heç biri əsassız olaraq və ya ayrı-seçkilik tədbirlərilə bu cür investisiyaların idarə edilməsi, saxlanılması, istifadəsi, üzərində sahibliyə, artırılması və ya yerləşdirilməsinə maneçilik törətməyəcəkdir.

2. Razılığa gələn hər bir Tərəf öz ərazisində Razılığa gələn digər Tərəfin investorlarının investisiyalarına və gəlirlərinə münasibətdə öz investorlarının investisiyalarına və gəlirlərinə və ya hər hansı üçüncü dövlətin investorlarının investisiyalarına və gəlirlərinə münasibətdə tətbiq etdiyi rejimdən az əlverişli olmayan, müvafiq investor üçün daha əlverişli olan rejim tətbiq

edəcəkdir.

3. Razılığa gələn hər bir Tərəf öz ərazisində Razılığa gələn digər Tərəfin investorlarına münasibətdə onların investisiyalarının idarə edilməsi, saxlanılması, istifadəsi, üzərində sahiblik və ya yerləşdirilməsi ilə əlaqədar, öz investorlarına və ya hər hansı üçüncü dövlətin investorlarına münasibətdə tətbiq etdiyi rejimdən az əlverişli olmayan, müvafiq investor üçün daha əlverişli olan rejim tətbiq edəcəkdir.

4. Əgər Razılığa gələn Tərəf hər hansı üçüncü dövlətin investorlarına azad ticarət zonası, gömrük ittifaqı və ya ümumi bazarın yaradılması, yaxud ikiqat vergitutmanın aradan qaldırılması haqqında Sazişə müvafiq olaraq xüsusi güzəştlər verirsə, o, bu cür güzəştlərin Razılığa gələn digər Tərəfin investorlarına verilməsi öhdəliyini daşımayacaqdır.

Maddə 5

Köçürmələr

1. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin investorları üçün investisiya ilə əlaqədar ödənişlərin, xüsusilə aşağıdakıların gecikdirilmədən sərbəst dönərli valyutada köçürülməsini təmin edəcəkdir:

a) gəlirlər;

b)investisiya qoyuluşu üçün götürülmüş kreditlər və ya kontrakt üzrə götürülmüş öhdəliklərlə bağlı olan digər ödənişlər;

c) investisiyanın tam və ya qismən satışı və ya ləğv edilməsindən, o cümlədən dəyərin mümkün artmasından əldə edilən gəlirlər;

d) investisiya qoyuluşu ilə əlaqədar xaricdən cəlb edilmiş işçilərin qazancları və digər mükafatlar;

e) investisiyaların saxlanılması və ya artırılması üçün ilkin kapital və əlavə vəsaitlər.

2. Köçürmələr ərazisində investisiya qoyulan Razılığa gələn Tərəfin valyuta qaydalarına müvafiq olaraq köçürmə günü tətbiq edilən valyuta məzənnəsi ilə həyata keçiriləcəkdir.

Maddə 6

Mülkiyyətdən məhrumetmə, kompensasiya

1. İctimai mənafe baxımından, ayrı-seçkiliyə yol vermədən, qanunun tələblərinə müvafiq olaraq və effektiv, adekvat kompensasiyanın təmin edilməsi şərtilə edilən məhrumetmələr istisna olmaqla, Razılığa-gələn Tərəflərdən heç biri Razılığa gələn digər Tərəfin investorlarının qoyduğu investisiyalara qarşı birbaşa və ya dolayı yolla ekspropriasiya, milliləşdirmə və ya eyni xarakterə malik, yaxud eyni nəticə verən digər tədbirləri

həyata keçirməyəcəkdir. Belə kompensasiya ekspropriasiya tədbirinin həyata keçirilməsindən və ya ictimaiyyətə bəlli olduğundan əvvəl, bunlardan hansı daha tez baş verərsə, ekspropriasiya edilmiş investisiyanın bazar dəyərinə bərabər olacaqdır. Kompensasiyanın məbləği, faiz daxil olmaqla, sərbəst dönərli valyutada müəyyən ediləcək və müvafiq şəxsə, onun müvəqqəti və ya daimi yaşayış yerindən asılı olmayaraq gecikdirilmədən ödəniləcəkdir.

2. Razılığa gələn bir Tərəfin investorlarının investisiyaları Razılığa gələn digər Tərəfin ərazisində bu ərazidə baş vermiş müharibə və ya hər hansı digər silahlı münaqişə, inqilab, fövqəladə vəziyyət və ya üsyan nəticəsində itkilərə məruz qaldıqda, həmin investorlar bu Sazişin 4-cü maddəsinə uyğun olaraq Razılığa gələn sonuncu Tərəfdən pozulmuş hüququn bərpası, dəymiş zərərin əvəzinin ödənilməsi, kompensasiya və ya digər həll vasitələrilə bağ-lı rejimdən istifadə etmək hüququna malikdirlər.

Maddə 7

Subroqasiya prinsipi

Razılığa gələn Tərəflərdən biri öz investorlarından birinin Razılığa gələn digər Tərəfin ərazisində investisiya qoyuluşuna münasibətdə qeyri-kommersiya risklərinə qarşı hər hansı maliyyə zəmanəti verdikdə Razılığa gələn sonuncu Tərəf belə zəmanətə uyğun olaraq ödəniş etdikdə, investorun hüquqlarına münasibətdə subroqasiya prinsipi vasitəsilə Razılığa gələn birinci Tərəfin hüquqlarını tanıyacaqdır.

Maddə 8

Razılığa gələn bir Tərəf ilə Razılığa gələn digər Tərəfin investoru arasında yaranan mübahisələr

1. Razılığa gələn bir Tərəf ilə Razılığa gələn digər Tərəfin investoru arasında yaranan investisiyalara dair mübahisələrin həlli məqsədilə, aidiyyəti tərəflər arasında məsələnin dostcasına həll edilməsi üçün məsləhətləşmələr həyata keçiriləcəkdir.

2. Məsləhətləşmələrin başlanması haqqında müraciət edildiyi tarixdən etibarən 6 ay ərzində mübahisənin həllinə nail olunmadıqda, investor mübahisəni ərazisində investisiya qoyulmuş Razılığa gələn Tərəfin milli yurisdiksiyasına və ya beynəlxalq arbitraja təqdim edə bilər. Sonuncu halda investor aşağıdakılardan hər hansı birini seçə bilər:

a) Tərəflər arasında digər razılığın olmadığı təqdirdə Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyasının (UNCİTRAL) arbitraj qaydalarına müvafiq olaraq yaradılacaq "ad hoc" arbitraj məhkəməsinə; və ya

b) 1965-ci il 18 mart tarixində Vaşinqtonda imzalanmaq üçün açıq olan Dövlətlər və digər dövlətlərin vətəndaşları arasında investisiya mübahisələrinin tənzimlənməsi haqqında Konvensiya əsasında yaradılan İnvestisiya Mübahisələrinin Tənzimlənməsi üzrə Beynəlxalq Mərkəzə (İCSİD).

3. Razılığa gələn hər iki Tərəf mübahisəni 2-ci bəndə müvafiq olaraq arbitraja verilməsi haqqında razılığını bəyan edir.

4. Razılığa gələn bir Tərəfin ərazisində qüvvədə olan qanunvericiliyə əsasən təsis edilmiş və ya yaradılmış və mübahisənin yaranmasından əvvəl Razılığa gələn digər Tərəfin investorlarının nəzarəti altında olmuş şirkət, Vaşinqton Konvensiyasının 25-ci maddəsi-

nin 2-ci bəndinin "b" yarımbəndinə müvafiq olaraq Razılığa gələn digər Tərəfin şirkəti kimi hesab ediləcəkdir.

5. Mübahisə tərəfi olan Razılığa gələn Tərəf prosedurlar zamanı müdafiə üçün öz immunitetinə və ya dəymiş ziyanı və ya baş vermiş itkini tamamilə və ya qismən əhatə edən sığorta müqaviləsi əsasında investorun kompensasiya alması faktına istinad edə bilməz.

6. Razılığa gələn bir Tərəf arbitraj məhkəməsinin qərarını yerinə yetirmirsə və ya ona əməl etməkdən çəkinirsə, Razılığa gələn digər Tərəf beynəlxalq arbitraja verilmiş mübahisənin diplomatik kanallar vasitəsilə həll edilməsinə çalışmayacaqdır.

7. Arbitraj məhkəməsinin qərarı mübahisə edən tərəflər üçün qəti və məcburi olacaqdır və milli qanunvericiliyə müvafiq olaraq yerinə yetiriləcəkdir.

Maddə 9

Razılığa gələn Tərəflər arasında yaranan mübahisələr

1. Bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi ilə əlaqədar Razılığa gələn Tərəflər arasında yaranan mübahisələr diplomatik kanallar vasitəsilə həll olunacaqdır.

2. Mübahisənin yarandığı vaxtdan etibarən 6 ay ərzində Razılığa gələn Tərəflər arasında razılıq əldə edilmədikdə, mübahisə Razılığa gələn Tərəflərdən birinin xahişi ilə üç üzvdən ibarət olan arbitraj məhkəməsinə təqdim ediləcəkdir. Razılığa gələn hər bir Tərəf bir hakim təyin edir və həmin iki hakim üçüncü dövlətin vətəndaşı olan sədri seçir.

3. Razılığa gələn Tərəflərdən biri hakim təyin etməzsə və Razılığa gələn ikinci Tərəfin bu təyinatı iki ay müddətinə həyata keçirmək dəvəti ilə razılaşmazsa, hakim Razılığa gələn bu Tərəfin tələbi ilə Beynəlxalq Ədalət Məhkəməsinin Sədri tərəfindən təyin ediləcəkdir.

4. Hər iki hakim təyin olunduqdan sonra iki ay ərzində sədrin seçilməsi ilə bağlı razılığa gələ bilmədikdə, sədr Razılığa gələn Tərəflərdən birinin xahişi ilə Beynəlxalq Ədalət Məhkəməsinin Sədri tərəfindən təyin ediləcəkdir.

5. Bu maddənin 3-cü və 4-cü bəndlərində göstərilən hallarda Beynəlxalq Ədalət Məhkəməsinin Sədri göstərilən funksiyanı yerinə yetirə bilmirsə və ya o, Razılığa gələn Tərəflərdən birinin vətəndaşıdırsa, təyinat Sədrin müavini tərəfindən həyata keçiriləcəkdir və sonuncu da göstərilən funksiyaları yerinə yetirə bilmirsə və ya Razılığa gələn Tərəflərdən birinin vətəndaşıdırsa, təyinat Razılığa gələn Tərəflərin vətəndaşı olmayan Məhkəmənin daha

yaşlı hakimi tərəfindən həyata keçiriləcəkdir.

6. Razılığa gələn Tərəflərin digər razılaşmalarına əsasən, məhkəmə öz prosedur qaydalarını müəyyən edir.

7. Məhkəmənin qərarları Razılığa gələn hər bir Tərəf üçün qəti və məcburidir.

Maddə 10

Digər öhdəliklər

1. Bu Sazişdə nəzərdə tutulandan fərqli olaraq, Razılığa gələn Tərəflərdən birinin qa-

nunvericiliyinin müddəaları və ya beynəlxalq hüququn normaları Razılığa gələn digər Tərəfin investorlarının investisiya qoyuluşlarına münasibətdə daha əlverişli rejimin tətbiq edilməsini nəzərdə tutursa, həmin müddəalar bu Sazişdə nəzərdə tutulan rejimdən daha əlverişli olan həcmdə tətbiq edilir.

2. Razılığa gələn hər bir Tərəf öz ərazisində Razılığa gələn digər Tərəfin investorlarının investisiyaları ilə bağlı üzərinə götürdüyü hər hansı öhdəliyi yerinə yetirəcəkdir.

Maddə 11

Yekun müddəalar

1. Bu Saziş Razılığa gələn hər iki Tərəfin beynəlxalq razılaşmaların qüvvəyə minməsi üçün hüquqi prosedurları yerinə yetirdikləri barədə bir-birini məlumatlandırdığı gündən qüvvəyə minəcəkdir.

2. Bu Saziş on il müddətində qüvvədə qalacaqdır. Bu müddətin başa çatmasına ən azı 6 ay qalmış ləğvetmə haqqında yazılı bildiriş təqdim edilmədikdə, Saziş eyni şərtlərlə yenidən 2 il müddətinə və eyni qaydada növbəti müddətlərə uzadılmış hesab edilir.

3. Bu Sazişin qüvvəsinin ləğv edilməsinə dair rəsmi bildiriş olduğu təqdirdə, rəsmi bildirişin təqdim edilməsindən əvvəl qoyulmuş investisiyalara münasibətdə onun 1-10-cu maddələrinin müddəaları növbəti 10 illik müddətdə qüvvədə qalacaqdır.

Bunun təsdiqi olaraq, müvafiq qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Sazişi imzaladılar.

Bu Saziş Bakı şəhərində 23 fevral 2006-cı il tarixində hər biri Azərbaycan, fransız və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər autentikdir. Təfsirdə hər hansı fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İSVEÇRƏ FEDERAL ŞURASI ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikası və Ukrayna arasında Birgə Bəyannamənin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası və Ukrayna arasında 2006-cı il sentyabrın 7-də Bakı şəhərində imzalanmış Birgə Bəyannamə təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№ 288-IIIQ

Azərbaycan Respublikası və Ukrayna arasında Birgə Bəyannamə

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası və Ukrayna Azərbaycan və Ukrayna xalqları arasında illər boyu davam edən dostluq və mehriban qonşuluq münasibətlərinə, ikitərəfli əlaqələrin fəallaşmasına yönəldilən qarşılıqlı səylərə arxalanaraq, 24 mart 1997-ci il tarixli Azərbaycan Respublikası və Ukrayna arasında tərəfdaşlıq münasibətlərinin dərinləşdiril-məsi haqqında Bəyannaməyə, 16 mart 2000-ci il tarixli Azərbaycan Respublikası və Ukrayna arasında dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında Müqaviləyə və 3 iyun 2004-cü il tarixli Azərbaycan Respublikası və Ukrayna arasında Birgə Bəyannaməyə yenilməz sadiqliklərini təsdiq edərək, qarşılıqlı maraq kəsb edən mühüm aktual beynəlxalq məsələlərdə eyni mövqedən, Avropa dəyərlərinə, demokratiya, qanunun aliliyi, insan hüquq və azadlıqlarına hörmət olunması prinsiplərindən çıxış edərək aşağıdakıları bəyan edirlər:

Tərəflər yüksək səviyyədə məsləhətləşmələr mexanizminin, Azərbaycan Respublikası və Ukrayna Prezidentləri Şurasının təsis edilməsi, həmçinin hər il dövlət başçılarının görüşlərinin keçirilməsi, müntəzəm olaraq qarşılıqlı maraq doğuran məsələlərə dair ikitərəfli siyasi məsləhətləşmələrin aparılması vasitəsilə dövlətlərarası münasibətlərin yeni, daha yüksək strateji tərəfdaşlıq səviyyəsinə qaldırılmasına dair niyyətlərini ifadə edirlər.

Tərəflər bütün digər səviyyələrdə qarşılıqlı fəaliyyətin və əlaqələrin dərinləşdirilməsi və genişləndirilməsinə, parlamentlərarası qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsinə, hər iki ölkənin icra hakimiyyəti orqanları arasında təcrübə mübadiləsinə tərəfdar çıxdıqlarını bildirirlər.

Tərəflər hər iki ölkə arasında ticarət dövriyyəsinin artırılmasına tərəfdar çıxırlar və bu kontekstdə iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası komissiyanın mühüm rolunu qeyd edirlər.

Tərəflər təşəbbüskarı olduqları enerji və nəqliyyat layihələrinin iqtisadi inkişaf, regional sabitlik və beynəlxalq enerji təhlükəsizliyinin təmin olunmasında vacib strateji rolunu qeyd edirlər.

Tərəflər Azərbaycan və Ukraynanın Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin həyata keçirilməsində daha sıx əməkdaşlığın zəruriliyinə, yanacaq-energetika kompleksində qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinə, hər iki ölkənin mövcud neft nəql edən infrastrukturlarından və potensialından istifadə edərək birgə enerji proqram və layihələrinin həyata keçirilməsinə tərəfdar çıxdıqlarını bildirirlər.

Tərəflər strateji tərəfdaşlığın mühüm amili kimi, hərbi və hərbi-texniki əməkdaşlığın möhkəmləndirilməsi və genişləndirilməsinin zəruriliyini qeyd edirlər.

Tərəflər terrorizmi, təcavüzkar separatizmi və ekstremizmi qətiyyətlə pisləyirlər, onların təzahürlərinin bütün formalarına qarşı mübarizədə əməkdaş-lığı möhkəmləndirməyə hazır olduqlarını ifadə edirlər.

Tərəflər beynəlxalq tanınmış sərhədlərin zorla dəyişdirilməsinin yolverilməz və qəbuledilməz olmasına dair öz mövqelərini təsdiq edirlər və təcavüz aktlarına və dövlətlərin suverenliyi və ərazi bütövlüyünə təhlükəyə qarşı beynəlxalq birliyin səylərinin birləşdirilməsinin vacibliyini qeyd edirlər.

Tərəflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn ümumtanınmış norma və prinsipləri, suverenlik, ərazi bütövlüyü, dövlətlərin beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığı və BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin və ATƏT-in qərarlarının yerinə yetirilməsi əsasında tezliklə sülh yolu ilə həll olunmasına tərəfdar olduqlarını bildirirlər.

Tərəflər yeni qlobal çağırış və təhdidlərə, o cümlədən beynəlxalq terrorizmə, narkotiklərin qanunsuz dövriyyəsinə, transsərhəd mütəşəkkil cinayət-karlığa, insan alverinə, qanunsuz silah dövriyyəsinə, həmçinin vətəndaş cəmiyyəti, beynəlxalq sabitlik və təhlükəsizlik üçün təhlükə yaradan digər təhdidlərə qarşı mübarizə aparılması sahəsində ikitərəfli və çoxtərəfli əməkdaş-lığın davam etdirilməsinin zəruriliyini qeyd edirlər. Bu kontekstdə Tərəflər beynəlxalq terrorizmlə mübarizədə dünya birliyinin səylərinin dəstəklənməsinin davam etdirilməsinin zəruriliyinə tərəfdar çıxırlar.

Tərəflər Avropa Birliyi ilə münasibətlərin dərinləşdirilməsinə mühüm əhəmiyyət verir və ümid edirlər ki, Avropa qonşuluq siyasəti Avropaya inteqrasiyaya, regionda sülhün və sabitliyin bərqərar olunmasına, o cümlədən Avropa Birliyinin mövcud münaqişələrin həll edilməsi və nəqliyyat və enerji layihələrinin həyata keçirilməsində daha fəal iştirak etməsinə imkan yaradacaqdır.

Tərəflər Avroatlantik Tərəfdaşlıq Şurası, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramları çərçivəsində əməkdaşlığa böyük əhəmiyyət verirlər.

Tərəflər daimi əsasda məsləhətləşmələr və bir-birinə hərtərəfli qarşılıqlı dəstək verilməsi də daxil olmaqla, beynəlxalq təşkilatlar və regional qurumlar, xüsusilə BMT, ATƏT, Avropa Şurası, QDİƏT, GUAM, MDB çərçivəsində qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsinin əhəmiyyətini qeyd edirlər.

Tərəflər Ümumdünya Ticarət Təşkilatına daxil olmaq üçün bir-birinə hər-tərəfli dəstək verməyə hazır olduqlarını bəyan edirlər.

Tərəflər Demokratiya və İqtisadi İnkişaf Təşkilatının - GUAM üzv dövlətlərinin Avropa inteqrasiyasının dərinləşdirilməsi prosesi, ümumi təhlükəsizlik məkanının yaradılması, həmçinin Aİ-GUAM regionunda iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsi vacibliyindən çıxış edərək, onun prioritet inkişafına tərəfdar çıxırlar. Onlar bu təşkilatın beynəlxalq aləmdə nüfuzunun yüksəldilməsinə yönələn birgə addımların atılması barədə razılığa gəldilər.

Tərəflər gənclər və tələbə mübadiləsinin, informasiya, təhsil, mədəniyyət və səhiyyə sahələrində əməkdaşlığın genişləndirilməsi yolu ilə humanitar sahədə əməkdaşlığın inkişaf etdirilməsinə dəstək verəcəklərini qeyd edirlər.

Tərəflər Azərbaycan Respublikasında Ukrayna diasporunun və Ukraynada Azərbaycan diasporunun Azərbaycan-Ukrayna münasibətlərinin inkişaf etdirilməsi prosesinə cəlb edilməsi məqsədilə zəruri şəraitin yaradılmasına tərəfdar çıxdıqlarını bildirdilər.

Tərəflər 2007-ci ildə Ukraynada Azərbaycan Respublikası Mədəniyyəti Günlərinin və 2008-ci ildə Azərbaycan Respublikasında Ukrayna Mədəniyyəti Günlərinin keçirilməsinin mühüm əhəmiyyətini qeyd edirlər.

Bakı şəhərində, 7 sentyabr 2006-cı il tarixində iki əsl nüsxədə olmaqla hər biri Azərbaycan, Ukrayna və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

İLHAM ƏLİYEV

UKRAYNANIN PREZİDENTİ

VİKTOR YUŞENKO

"Azərbaycan Respublikasının Hökuməti və Ukraynanın Nazirlər Kabineti arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikasının Hökuməti və Ukraynanın Nazirlər Kabineti arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında" 2006-cı il sentyabrın 7-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№289-IIIQ

Azərbaycan Respublikasının Hökuməti və Ukraynanın Nazirlər Kabineti arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Ukraynanın Nazirlər Kabineti,

iki dövlət arasında beynəlxalq kombinə edilmiş yük daşımalarının inkişaf etdirilməsini arzulayaraq,

beynəlxalq kombinə edilmiş yük daşımalarının beynəlxalq ticarətin inkişafında mühüm əhəmiyyət kəsb etdiyini etiraf edərək,

nəqliyyat xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılmasında, yük daşımalarının təhlükəsizliyinin yüksəldilməsində və ətraf mühitə vurulan zərərin qarşısının alınmasında beynəlxalq kombinə edilmiş daşımaların əhəmiyyətli rolunu vurğulayaraq,

razılaşdırılmış beynəlxalq parametrlər və standartlar əsasında kombinə edilmiş daşımaların və infrastrukturun inkişafı məsələlərində hüquqi tənzim-ləmə mexanizmlərinin müəyyən edilməsinin kombinə edilmiş daşımaların effektivliyinin yüksəldilməsində həlledici əhəmiyyət kəsb edəcəyinə əmin olduqlarını ifadə edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tətbiq dairəsi

1. Bu Saziş Razılığa gələn Tərəflərin dövlətlərinin əraziləri arasında və ya Razılığa gələn hər iki Tərəfin dövlətlərinin və ya onlardan birinin ərazisindən tranzitlə dəmiryol

və/və ya su nəqliyyatı və yük avtomobil nəqliyyatı vasitələrilə avtomobil yolları ilə terminaldan/terminala həyata keçirilən yüklərin beynəlxalq kombinə edilmiş daşımalarına şamil edilir.

2. Bu Saziş Razılığa gələn Tərəflərin iştirakçısı olduğu digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 2

Terminlər

Bu Sazişdə istifadə edilən terminlər aşağıdakı mənalan ifadə edirlər:

a) "yük avtomobil nəqliyyatı vasitəsi" - qoşqu ilə və ya qoşqusuz yüklərin daşınması üçün istifadə edilən avtonəqliyyat vasitəsidir və ya qoşquya malik olan və ya qoşqusuz yedəkdir;

b) "kombinə edilmiş daşımalar" - yüklərin iki və daha artıq nəqliyyat növü vasitəsilə, kombinə edilmiş daşımaların eyni bir nəqliyyat vahidindən istifadə etməklə daşınmasıdır;

c) "müşayiətli kombinə edilmiş daşımalar" - yük avtomobil nəqliyyatı vasitəsinin sürücünün müşayiəti ilə xüsusiləşdirilmiş dəmiryol vaqonundan və ya gəmidən istifadə etməklə daşınmasıdır;

d) "müşayiətsiz kombinə edilmiş daşımalar" - kombinə edilmiş daşımaların nəqliyyat vahidinin xüsusiləşdirilmiş dəmiryol vaqonundan və ya gəmidən istifadə etməklə daşınmasıdır;

e) "kombinə edilmiş daşımalar terminalından/terminalına daşıma" - kombinə edilmiş daşımaların nəqliyyat vahidinin yük avtomobil nəqliyyatı vasitəsilə yüklənmə məntəqəsindən yaxınlıqdakı kombinə edilmiş daşımalar terminalına və ya limana qədər, həmçinin kombinə edilmiş daşımalar terminalından və ya limandan boşaltma məntəqəsinə qədər daşınmasıdır;

f) daşıyıcı - daşıma müqaviləsinə əsasən yüklərin, o cümlədən gömrük nəzarəti altında olan yüklərin təyinat məntəqəsinə çatdırılmasına görə öz üzərinə öhdəliklər götürən və məsuliyyət daşıyan, yüklərin daşınmasını və onların daşıma müqaviləsində göstərilmiş yükalana və ya digər şəxsə təhvil verilməsini (ötürülməsini) həyata keçirən, Razılığa gələn Tərəfin dövlətinin ərazisində qeydiyyata alınmış hüquqi və ya fiziki şəxsdir;

g) "kombinə edilmiş daşımalar terminalı" - kombinə edilmiş daşımaların nəqliyyat vahidləri və yük avtomobil nəqliyyatı vasitələri üçün yükləmə, eləcə də nəqliyyat növlərini dəyişmə məntəqələrində onların qısamüddətli saxlanılması, həmçinin Razılığa gələn Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq gömrük və digər nəzarət növlərinin həyata keçirilməsini və malların, o cümlədən nəqliyyat vasitələrinin yenidən qeydiyyatının aparılması, avadanlıqla təchiz edilmiş və üzərində nəqliyyat növlərinin dəyişdiril-məsi üçün Razılığa gələn Tərəflərdən birinin dövlətinin ərazisində yerləşdirilmiş məhdud sahədir;

h) "kombinə edilmiş daşımaların nəqliyyat vahidi" - uzunluğu 20 fut və daha artıq olan konteyner, yarımqoşqu, qoşqu və ya çıxarılıb-taxıla bilən kuzov.

Maddə 3

Sazişin yerinə yetirilməsi

Bu Sazişin şərtlərinin yerinə yetirilməsi üçün Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları aşağıdakılardır:

Azərbaycan Respublikasının Hökuməti tərəfindən - Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi;

Ukraynanın Nazirlər Kabineti tərəfindən - Ukraynanın Nəqliyyat və Rabitə Nazirliyi.

Maddə 4

Müşayiətli kombinə edilmiş daşımalar

1. Yük avtomobil nəqliyyatı vasitəsilə yüklərin sərhəd-keçid məntəqəsindən və ya yüklənmə yerindən, Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları tərəfindən bu Sazişin 8-ci maddəsinə uyğun olaraq təyin edilmiş, Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində yerləşən kombinə edilmiş daşımalar üçün nəzərdə tutulmuş yaxınlıqdakı terminala qədər, xüsusiləşdirilmiş vaqonlardan və ya gəmilərdən istifadə etmək məqsədilə daşınması Razılığa gələn Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinə və Razılığa gələn Tərəflərin iştirakçısı olduqları beynəlxalq müqavilələrə uyğun olaraq həyata keçiriləcəkdir.

2. Xüsusiləşdirilmiş vaqonlardan və gəmilərdən istifadə etməklə yük avtomobil nəqliyyatı vasitələrinin daşınması ilə əlaqədar olan qərarlar, Razılığa gələn hər iki Tərəfin imkanlarına və tələblərinə uyğun olaraq kombinə edilmiş daşımalar üzrə Qarışıq Komissiya çərçivəsində razılaşdırılacaqdır.

3. Razılığa gələn Tərəflər özlərinin milli qanunvericiliklərinə uyğun olaraq, müşayiətli kombinə edilmiş daşımaların həyata keçirilməsi zamanı, Razılığa gələn hər bir Tərəfin dövlətinin ərazisində sərhədlərin keçirilməsi zamanı gömrük və digər nəzarət növlərinin aparılmasına sərf olunan zamanın ixtisar edilməsi üçün səylər göstərəcəklər.

Maddə 5

Müşayiətsiz kombinə edilmiş daşımalar

1. Razılığa gələn Tərəflər öz milli qanunvericilikləri çərçivəsində, kombinə edilmiş daşımaları həyata keçirən daşıyıcılar üçün Razılığa gələn Tərəflərin dövlətləri arasında, həmçinin onların ərazilərindən tranzitlə kombinə edilmiş nəqliyyatdan istifadə etməklə həyata keçirilən nəqliyyat daşımalarının artırılması üçün onların stimullaşdırılması (həvəsləndirilməsi) məqsədilə şəraitin yaradılmasına kömək göstərəcəklər.

2. Kombinə edilmiş daşımalar üçün təyin edilmiş terminallarda yüklərin işlənilməsinin sadələşdirilməsi məqsədilə yenidən yükləmələr zamanı Razılığa gələn hər iki Tərəf, dəmiryol daşımalarının həyata keçirilməsi zamanı kombinə edilmiş daşımalar üçün terminalın Razılığa gələn hər iki Tərəfin dövlətlərinin dəmir yollan üçün "tarif məntəqəsi" olmasına kömək göstərəcəklər.

3. Kombinə edilmiş daşımalar üçün terminalların və dəmir yollarının istifadəsi zamanı şərtlərin müəyyən edilməsi ilə əlaqədar olan qaydalar Razılığa gələn Tərəflərin qanunvericiliklərinin və Razılığa gələn hər iki Tərəfin iştirakçısı olduğu beynəlxalq sazişlər

nəzərə alınmaqla kombinə edilmiş daşımalar üzrə Qarışıq Komissiya çərçivəsində razılaşdırılacaqdır.

Maddə 6

Kombinə edilmiş daşımaların dəstəklənməsi və stimullaşdırılması

1. Razılığa gələn Tərəflər yük daşımalarının keyfiyyət standartlarının və təhlükəsizliyinin yüksəldilməsi, daşıma müddətinin ixtisar edilməsi və kombinə edilmiş daşımaların iqtisadi effektivliyinin artmasına istiqamətlənmiş tarif siyasətinin həyata keçirilməsi məqsədilə bərabərlik və azad rəqabət prinsipləri əsasında kombinə edilmiş daşımaların inkişafına yardım edəcəklər.

2. Öz dövlətlərinin milli qanunvericilikləri çərçivəsində, Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları kombinə edilmiş daşımaların həcminin artırılması üçün səy göstərəcəklər.

3. Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları bir-birilərini kombinə edilmiş daşımaların keyfiyyət standartlarının və təhlükəsizliyinin yüksəldilməsi üzrə qəbul edilmiş tədbirlər barədə, həmçinin kombinə edilmiş daşımaların həyata keçirilməsini tənzimləyən milli qanunvericiliklərində baş vermiş dəyişikliklər barədə məlumatlandıracaqlar.

Maddə 7

Fövqəladə hallar

1. Əgər Razılığa gələn Tərəflərdən birinin ərazisində, onun fəaliyyəti çərçivəsində planlaşdırılmış tədbirlərlə əlaqədar olaraq yüklərin daşınmasına manea törədən hallar meydana gəldikdə, Razılığa gələn bu Tərəf belə planlaşdırılmış fəaliyyətin başlanmasına ən azı 7 gün qalmış Razılığa gələn digər Tərəfi bu hallar barədə məlumatlandırmağa borcludur.

2. Kombinə edilmiş daşımaların həyata keçirilməsi zamanı fövqəladə vəziyyətlərin yarandığı təqdirdə, Razılığa gələn Tərəflər öz dövlətlərinin milli qanunvericilikləri çərçivəsində beynəlxalq yük daşımalarının sərbəst saxlanılması istiqamətində tədbirlər görəcəklər.

3. Razılığa gələn hər iki Tərəf belə fövqəladə halların yaranması barədə dərhal bir-birilərini məlumatlandırırlar.

Maddə 8

Kombinə edilmiş daşımalar üzrə qarışıq komissiya

1. Bu Sazişin həyata keçirilməsinin təmin edilməsi məqsədilə Razılığa gələn Tərəflər səlahiyyətli orqanlarının nümayəndələrinin daxil tərkibinə Razılığa gələn Tərəflərin səlahiyyətli orqanlarının nümayəndələrinin daxil olacağı kombinə edilmiş daşımalar üzrə Qarışıq Komissiyam (bundan sonra - "Qarışıq Komissiya") yaradırlar.

2. Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları Qarışıq Komissiyanın iclaslarında iştirak etmək üçün digər mütəxəssisləri cəlb etmək hüququna malikdirlər.

3. Qarışıq Komissiya, kombinə edilmiş daşımalar üçün terminalların yaradılmasına və onların fəaliyyət zonalarının müəyyən edilməsinə dair təkliflərini baxılmaq üçün səla-

hiyyətli orqanlara təqdim etmək hüququna malikdir.

4. Qarışıq Komissiyanın iclasları Razılığa gələn Tərəflərdən birinin səlahiyyətli orqanının təklifi ilə Razılığa gələn Tərəflərin dövlətlərinin ərazisində növbəli şəkildə keçirilir.

5. Qarışıq Komissiya bu Sazişə əlavə və dəyişikliklərin edilməsinə dair təkliflərini səlahiyyətli orqanlara baxılmaq üçün təqdim etmək hüququna malikdir.

6. Bu Sazişin tətbiqi və ya təfsiri ilə əlaqədar meydana gələn bütün mübahisələr Qarışıq Komissiyanın iclaslarında həll ediləcəkdir.

7. Əgər Qarışıq Komissiya razılığa gələ bilməsə, mübahisə diplomatik kanallar vasitəsilə həll ediləcəkdir.

Maddə 9

Sazişin müddəalarının pozulması

1. Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları öz dövlətlərinin milli qanunvericilikləri çərçivəsində Razılığa gələn Tərəflərin dövlətlərinin daşıyıcıları tərəfindən bu Sazişin müddəalarına riayət edilməsinə nəzarət edəcəklər.

2. Razılığa gələn Tərəflərin dövlətlərinin daşıyıcıları tərəfindən bu Sazişin müddəalarının pozulduğu təqdirdə, belə pozuntulara, ərazisində pozuntuya yol verilmiş Razılığa gələn Tərəfin dövlətinin müvafiq orqanları tərəfindən baxılacaqdır. Razılığa gələn digər Tərəfin dövlətinin daşıyıcısına gəldikdə isə ərazisində pozuntunun baş verdiyi Razılığa gələn Tərəfin dövlətinin istintaq orqanları Razılığa gələn digər Tərəfin dövlətinin orqanlarını onlar tərəfindən qəbul edilən tədbirlər barədə məlumatlandırmalıdırlar.

Maddə 10

Verilənlərin mühafizəsi

1. Razılığa gələn Tərəflər bəyan edirlər ki, rəsmi statistik məlumatlar və hesabatlar istisna olmaqla, bu Sazişlə əlaqəsi olan istənilən məlumatlar və informasiyalar üçüncü tərəfə qanunsuz ötürülmədən mühafizə edilməlidir. Bütün digər məlumatların ötürülməsi yalnız Razılığa gələn Tərəfin səlahiyyətli orqanından əvvəlcədən alınmış icazə əsasında mümkün olacaqdır.

2. Bu maddəyə uyğun olaraq, məlumatlar və informasiyalar yalnız nəzər-də tutulmuş dövr ərzində Razılığa gələn digər Tərəfin dövlətinin məhkəmə və prokurorluq orqanlarının tələbi əsasında təqdim edilə bilər.

Maddə 11

Milli qanunvericiliyə uyğunluq

Razılığa gələn Tərəflərin ərazilərində daşımaları həyata keçirilən nəqliyyat vasitələrini müşayiət edən daşıyıcılar və şəxslər həmin ölkənin qanunvericiliyinə riayət etməlidirlər.

Bu Sazişin müddəaları, Razılığa gələn Tərəflərin dövlətlərinin milli təhlükəsizliyi üçün təhdid törədə bilən tranzit daşımalara, məhdudlaşdırıcı tədbirlərin tətbiqinə mane olmur.

Maddə 12

Əlavə və dəyişikliklərin edilməsi

Bu Sazişə əlavə və dəyişikliklərin edilməsi Razılığa gələn Tərəflərin razılığı əsasında bu Sazişin ayrılmaz hissəsi hesab edilən və onun 13-cü maddəsinin müddəalarına əsasən qüvvəyə minən protokol formasında həyata keçirilir.

Maddə 13

Sazişin qüvvəyə minməsi və qüvvədəolma müddəti

Bu Saziş Razılığa gələn Tərəflərin Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurlardan keçməsi barədə yazılı bildirişin diploma-tik kanallar vasitəsilə alındığı tarixdən etibarən 60 (altmış) gün sonra qüvvəyə minir.

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır. Razılığa gələn Tərəflərdən hər biri, diplomatik kanallar vasitəsilə Razılığa gələn digər Tərəfə yazılı bildiriş verməklə, Sazişin qüvvəsini ləğv edə bilər. Bu halda, Saziş belə bildirişin alındığı tarixdən etibarən 90 (doxsan) gün sonra öz qüvvəsini itirir.

Bakı şəhərində 7 sentyabr 2006-cı il tarixində hər biri Ukrayna, Azərbaycan və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər autentikdir. Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə rus dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	UKRAYNA NAZİRLƏR KABİNETİ ADINDAN
ZİYA MƏMMƏDOV	*NİKOLAY RUDKOVSKİ*
Nəqliyyat naziri	*Nəqliyyat və rabitə naziri*

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Ukrayna Xarici İşlər Nazirliyi arasında diplomatik əməkdaşların hazırlanması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Ukrayna Xarici İşlər Nazirliyi arasında diplomatik əməkdaşların hazırlanması haqqında" 2006-cı il sentyabrın 7-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№290-IIIQ

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Ukrayna Xarici İşlər Nazirliyi arasında diplomatik əməkdaşların hazırlanması haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Ukraynanın Xarici İşlər Nazirliyi,

qarşılıqlı hörmət, etimad və hər bir Tərəfin maraqlarının nəzərə alınmasına əsaslanan diplomatik əməkdaşların hazırlanmasının vacib rolunu müəyyən edərək,

diplomatik əməkdaşların hazırlanması sahəsində qarşılıqlı fəaliyyətin vacibliyini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Məqsəd

Dövlətlərin diplomatik xidmətlərinin ehtiyaclarından çıxış edərək, Tərəflər öz diplomatik əməkdaşlarının (bundan sonra - Dinləyicilərin) bu Sazişin və onun Protokolunun (bundan sonra - Əlavə Protokol) müddəalarına uyğun Tərəflərin təhsil müəssisələrində hazırlanması istiqamətində razılaşdırılmış fəaliyyət göstərəcəklər.

Maddə 2

Əməkdaşlığın təşkili

2.1. Dinləyicilərin təhsili Tərəflərin təhsil müəssisələrində qəbul olunmuş plan və proqramlara və dinləyicilərin səviyyəsinə uyğun olaraq Ukraynada Ukrayna dilində, Azərbaycanda - Azərbaycan dilində aparılacaqdır.

Lazım olduğu təqdirdə tədris plan və proqramları Tərəflər arasında razılaşdırılacaqdır.

2.2. Tərəflər dinləyicilərdən təhsil müəssisələrində tədrislə bağlı olmayan və dinləyici kimi öhdəliklərinin yerinə yetirilməsindən kənara çıxan vəzifələrin yerinə yetirilməsini tələb etməyəcəklər.

2.3. Dinləyicilər tədris planına uyğun tarixlərdə hər il məzuniyyət alırlar.

Maddə 3

Əlavə Protokollar

3.1. Əlavə Protokollar Tərəflər arasında təhsil müddətinin başlanmasına qədər 10 noyabr tarixinədək bağlanacaqdır.

3.2. Əlavə Protokollarda aşağıdakılar göstərilir:

tədris müəssisəsinin adı;

ayrıca tam müddətli təhsil alan və qısamüddətli kurslarda iştirak edən dinləyicilərin sayı;

ixtisas və tədrisin ixtisaslaşması;

dinləyicilərin vəzifəsi, adı və soyadı, diplomatik ranqı və təhsilinin səviyyəsi;

yaşayışla təmin edilmə şəraiti;

təhsil müddəti;

xüsusi terminologiyanın tətbiqini nəzərdə tutan dil hazırlıq kurslarının keçirilməsinin zəruriliyi;

Tərəflərin maliyyə hesablama vəziyyəti.

Maddə 4

Tərəflərin öhdəlikləri

4.1. Dinləyicilərin təhsil müəssisəsinə gəldikdə özləri ilə aşağıdakı sənədləri olmalıdır:

tərcümeyi-hal;

təhsil haqqında sənədlərin təsdiqlənmiş surəti;

xaricə getmək üçün pasport;

müddəti iki aydan çox olmayan verilmiş sağlamlıq haqqında arayış;

AİDS müayinəsindən mənfi nəticə haqqında sənəd;

təxirəsalınmaz tibbi yardım göstərilməsi üçün sığorta vəsiqəsi;

doğum haqqında şəhadətnamənin təsdiqlənmiş surəti;

6 fotoşəkil (40x60 mm);

bir il müddətə qədər vətənə qayıdış üçün açıq tarixli bilet.

4.2. Əgər dinləyici üzürsüz səbəblərə-görə tədris müəssisəsinə təhsil almaq üçün tədris müddətinin başlanmasından 15 gün ərzində gəlməzsə, o, tədris müəssisəsindən çıxarılır və bu barədə göndərən Tərəfə məlumat verilir.

4.3. Dinləyicilər olduqları dövlətin qanunvericiliyinə riayət etməli, xalqın adət və ənənələrinə hörmət etməlidirlər.

Maddə 5

Qəbul edən Tərəfin öhdəlikləri

Dinləyiciləri təhsil üçün qəbul edən Tərəf onları aşağıdakılarla təmin edir:

müəllim heyəti və yardımçı personal ilə;

dərsliklərlə, vəsaitlərlə, siniflərin və laboratoriyaların təchizatı və praktiki məşğələlər üçün digər vasitələr, həmçinin tədris planları və proqramları üzrə lazım olan digər təchizat və materiallar;

kitabxana, oxu zalları, idman zalları və tədris prosesində lazım olan digər binalardan istifadə imkanları;

müvafiq kateqoriyalı mütəxəssislər üçün qoyulmuş normalara uyğun ya-şayış yerləri (əgər Əlavə Protokolla digər qayda nəzərdə tutulmayıbsa).

Maddə 6

Göndərən Tərəfin öhdəlikləri

6.1. Dinləyiciləri təhsil almağa göndərən Tərəf aşağıdakıları təmin edir:

dinləyicilərin zamanında təhsil üçün təhsil müəssisəsinə gəlişi, həmçinin dinləyicilərin keçidi, onların baqajının təhsil yerlərinə və geriyə çatdırılması, həmçinin dinləyicilərin keçid zamanı biletlərlə və yaşayış yeri ilə təmin edilməsi;

dinləyicilərin məzuniyyətlərinin keçirilməsi qaydasının müəyyən edilmə-si, məzuniyyətin keçirilməsi yerinə gediş və Əlavə Protokollarda müəyyən edilmiş tarixdə geriyə dönüş;

dinləyicilərin maddi təminatı (əməkhaqqı və ya təqaüd).

Bütün digər hallarda təhsillə bağlı olmayan xərclər dinləyicilərin öz hesabına ödənilir.

6.2. Göndərən Tərəf öz dinləyiciləri tərəfindən onların tədris müəssisəsində təhsil aldıqları müddətdə müəllimlərin bütün tövsiyələrinin yerinə yetirilməsinin təmin edilməsi üçün müvafiq tədbirlər görür.

Maddə 7

Dinləyicilərin məsuliyyəti

7.1. Təhsil müddəti zamanı qanun pozuntusuna yol vermiş dinləyicilər qalma dövlətinin qanunvericiliyinə əsasən məsuliyyət daşıyırlar.

7.2. Əgər dinləyici olduğu dövlətin qanunvericiliyini pozursa, ictimai asayiş və tədris müəssisəsinin daxili nizam qaydalarına riayət etmirsə, tədris proqramının tələblərini yerinə yetirmirsə, həmçinin sağlamlıq vəziyyətinə görə təhsilini davam etdirə bilmirsə, qəbul edən Tərəfdən həmin şəxsin tədris müəssisəsindən çıxarılması və vətənə geri qaytarılmasına dair qərar qəbul edilməsi məqsədilə sənədləri göndərən Tərəfə təqdim edir.

Maddə 8

Tibbi təminat

Qəbul edən Tərəf dinləyiciləri tibbi yardımla, lazım olduqda isə Tərəflərin dövlətlərinin qanunvericiliyinə uyğun olaraq xəstəxanaya yerləşdirməni təmin edir.

Maddə 9

Faciəli hallar

9.1. Qəbul edən Tərəfin dövlətinin ərazisində dinləyici vəfat edərsə, göndərən Tərəf öz hesabına vəfat edənin öz vətəninə göndərilməsi ilə bağlı bütün məsələləri həll edəcəkdir.

9.2. Dinləyicinin vəfatı ilə bağlı qəbul edən Tərəf göndərən Tərəfi dərhal məlumatlandırır, ölüm səbəbləri isə müvafiq orqanlar tərəfindən araşdırılacaqdır. Qəbul edən Tərəf dinləyicinin vəfatı ilə bağlı bütün sənədlərin surətini göndərən Tərəfə təqdim edəcəkdir.

Maddə 10

Təhsilin bitməsi

10.1. Tədris proqramını mənimsəmiş, imtahanı vermiş və diplom işini (layihə, tapşırıq) müdafiə etmiş dinləyiciyə ixtisasına uyğun ixtisaslaşdırılma verilir və diplomla və dövlət nümunəli döş nişanı ilə təltif edilir.

10.2. Qısa müddətli kursları bitirmiş dinləyiciyə şəhadətnamə verilir.

Maddə 11

Tədris vəsaitlərinin verilməsi

Dinləyicilərin elmi və diplom işləri, magistr işləri qəbul edən Tərəfin qanunvericiliyinə əsasən onlar təhsillərini başa vurduqdan sonra bir il müddət ərzində göndərən Tərəfə verilə bilər.

Maddə 12

Digər müddəalar

Tərəflərdən heç biri digər Tərəfin yazılı razılığı olmadan öz hüquq və öhdəliklərini üçüncü tərəfə verə bilməz.

Maddə 13

Məsul orqanlar

Bu Sazişin həyata keçirilməsi məqsədilə aşağıdakı orqanlar məsuldur:

a) Ukrayna Xarici İşlər Nazirliyi adından - Ukrayna Xarici İşlər Nazirliyinin Kadrlar Departamenti;

b) Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi adından - Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Kadrlar və İxtisasartırma İdarəsi.

Maddə 14

Yekun müddəalar

14.1. Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

14.2. Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan və

ayrı-ayrı protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər. Protokollar Sazişin 14-cü maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minir.

14.3. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır. Tərəflərdən hər biri bu Sazişi ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə altı ay əvvəl məlumat verməklə onu ləğv edə bilər.

14.4. Bu Sazişə xitam verildiyi təqdirdə o, bu Saziş çərçivəsində tam tədris proqramına əsasən təhsilini və ya qısa müddətli kursu başa vurmayan dinləyicilərə tətbiq edilməyə davam edəcəkdir.

Bakı şəhərində 7 sentyabr 2006-cı il tarixində hər biri Azərbaycan və Ukrayna dillərin-

də olmaqla iki əsl nüsxədə imzalanmışdır, hər iki mətn autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN	UKRAYNANIN XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*BORİS TARASYUK*
Xarici işlər naziri	*Xarici işlər naziri*

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Ukraynanın Aqrar Siyasəti Nazirliyi arasında bitki sortlarının dövlət sınağı və mühafizəsi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Ukraynanın Aqrar Siyasəti Nazirliyi arasında bitki sortlarının dövlət sınağı və mühafizəsi sahəsində əməkdaşlıq haqqında" 2006-cı il sentyabrın 7-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№291-IIIQ

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Ukraynanın Aqrar Siyasəti Nazirliyi arasında bitki sortlarının dövlət sınağı və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Ukraynanın Aqrar Siyasəti Nazirliyi,

bitki sortlarının dövlət sınağı və mühafizəsi sahəsində ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi, genetik materialların və sort ehtiyatlarının mübadilə-si, ticarətin yaxşılaşdırılması istiqamətində səy göstərərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Razılığa gələn Tərəflər bitki sortlarının dövlət sınağı və mühafizəsi sahəsində əməkdaşlığı həyata keçirir, dəstəkləyir və daim inkişaf etdirirlər.

Maddə 2

Bu Saziş çərçivəsində əməkdaşlıq Razılığa gələn Tərəflərin dövlətlərinin qanunvericiliklərinə uyğun olaraq həyata keçiriləcəkdir.

Maddə 3

Razılığa gələn Tərəflər bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsini təmin edəcək səlahiyyətli orqanlarını müəyyən edəcəklər.

Maddə 4

Bitki sortlarının sınağı və seleksionerlərin hüquqlarının qorunması sahəsində davamlı əməkdaşlığın aparılması məqsədilə Razılığa gələn Tərəflər səlahiyyətli orqanlar tərəfindən aparılmış sort sınaqlarının fərqlilik, eynilik və stabillik şərtləri baxımından nəticələrini tanımağı və razılaşma əsasında onların mübadiləsini öz öhdələrinə götürürlər.

Razılığa gələn hər bir Tərəf bitki sortları üzrə hüquqların qorunması sahəsində öz hüquqi və fiziki şəxslərinə tətbiq etdiyi eyni hüquqi rejimi Razılığa gələn Tərəfin hüquqi və fiziki şəxslərinə tətbiq edir.

Maddə 5

Razılığa gələn Tərəflər qüvvədə olan öz milli qanunvericilikləri çərçivəsində:

bitki sortlarının dövlət sınağı və mühafizəsi sahəsində elmi-texniki nailiyyətlər barədə məlumat mübadiləsini, həmçinin ixtisaslaşmış jurnal və kitabçaların mübadiləsini qarşılıqlı olaraq həyata keçirirlər;

bitki sortlarının dövlət sınağı və mühafizəsi üzrə normativ sənədlərin nümunələri ilə mübadilə edirlər;

bitki sortlarının dövlət sınağı və mühafizəsi məsələləri üzrə qarşılıqlı razılaşma əsasında mütəxəssislər üçün ixtisasartırma və təlim tədbirlərinin keçirilməsini təmin edirlər.

Maddə 6

Razılığa gələn Tərəflər bitki sortlarının dövlət sınağı və mühafizəsi üzrə elmi və praktiki məsələlərin müzakirəsi və qərarların qəbul edilməsi məqsədilə müvafiq olaraq razılaşma əsasında birgə müşavirə və seminarlar keçirə bilərlər.

Belə müşavirə və ya seminarlar növbə ilə Azərbaycan Respublikasında və Ukraynada keçirilir. Müşavirə və seminarların tarixi və yeri qarşılıqlı razılaşma əsasında müəyyən edilir.

Maddə 7

Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları bu Sazişin müddəalarının həyata keçirilməsi ilə bağlı məsələlərin həlli üçün birbaşa əlaqələr yarada bilərlər.

Maddə 8

Bu Sazişin müddəaları Razılığa gələn Tərəflərin iştirak etdiyi digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.

Maddə 9

Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan ayrı-ayn protokollarla müvafiq qaydada rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər. Həmin Protokollar bu Sazişin 11-ci maddəsi ilə nəzərdə tutulan qaydaya uy-

gün olaraq qüvvəyə minir.

Maddə 10

Bu Sazişin təfsiri və həyata keçirilməsi zamanı yarana biləcək mübahisələr Razılığa gələn Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 11

Bu Saziş onun qüvvəyə minməsi üçün Razılığa gələn Tərəflərin dövlət-daxili prosedurlarının yerinə yetirilməsi barədə diplomatik kanallarla sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir və qeyri-müəyyən müddətə bağlanılır.

Razılığa gələn hər bir Tərəf bu Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə Razılığa gələn digər Tərəfə diplomatik kanallarla yazılı bildiriş göndərməklə Sazişin qüvvəsini ləğv edə bilər. Bu təqdirdə bildirişin alındığı tarix-dən 6 (altı) ay sonra Saziş Öz qüvvəsini itirmiş hesab edilir.

Bakı şəhərində 7 sentyabr 2006-cı il tarixində hər biri Azərbaycan, Ukrayna və rus dillərində olan iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, rus dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ ADINDAN	UKRAYNANIN AQRAR SİYASƏT NAZİRLİYİ ADINDAN
İSMƏT ABASOV *Kənd təsərrüfatı naziri*	*YURİ MELNİK* *Aqrar siyasət naziri*

"Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında ekstradisiya haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında ekstradisiya haqqında" 2006-cı il noyabrın 20-də Abu-Dabi şəhərində imzalanmış Müqavilə təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№292-IIIQ

Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında ekstradisiya haqqında Müqavilə

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri,

ikitərəfli dostluq əlaqələrini nəzərə alaraq,

ekstradisiya sahəsində hüquqi əməkdaşlığın möhkəmləndirilməsi niyyəti ilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Ekstradisiya ilə bağlı öhdəlik

Tərəflər sorğuya əsasən və bu Müqavilənin müddəalarına uyğun olaraq barələrində cinayət təqibinin başlanması və ya cəzanın icrası üçün Tərəflərin ərazilərində aşkar edilən şəxslərin bir-birinə təslim edilməsini öhdələrinə götürürlər.

Maddə 2

Ekstradisiya üçün əsas olan cinayətlər

1. Əgər ekstradisiyaya səbəb olan əməl hər iki Tərəfin qanunvericiliyinə uyğun olaraq cinayət hesab edilirsə, onda ekstradisiya həyata keçirilir.

2. Şəxsə qarşı cinayət təqibinin həyata keçirilməsi ilə əlaqədar sorğu edilən ekstradisiya hər iki Tərəfin qanunları ilə ən azı bir il müddətinə azadlıqdan məhrumetmə ilə və ya daha ciddi cəza ilə cəzalandırılan cinayətlərə görə həyata keçirilir.

3. Cəzanın çəkilməsi ilə əlaqədar sorğu edilən ekstradisiya təslim edilməli şəxsin cəza müddətinin bitməsinə ekstradisiya sorğusunun alındığı anda ən azı altı aylıq müddət qaldıqda həyata keçirilir.

4. Bu maddənin 1-ci bəndinə uyğun olaraq hər iki Tərəfin qanunvericiliyinə əsasən əməlin cəzalandırılan əməl olub-olmaması məsələsi həll edilərkən hər iki Tərəfin qanunvericiliklərinin cinayət sayılan əməli eyni cinayətlər kateqoriyasına daxil etmələri və ya cinayəti eyni terminlə adlandırmaları əhəmiyyət kəsb etməyəcəkdir.

5. Əgər ekstradisiya haqqında sorğu bir neçə əməllərlə bağlı verilirsə və onlardan bir neçəsi bu maddənin 1-3-cü bəndlərində göstərilən şərtlərə cavab vermirsə, ekstradisiya ancaq bu şərtlərə cavab verən əməllərə görə həyata keçirilə bilər.

Maddə 3

Ekstradisiyadan imtina

1. Ekstradisiyadan imtina edilir:

   a) əgər ekstradisiyaya səbəb olan cinayət siyasi xarakterli cinayət sayılırsa;

   b) əgər adi cinayət işi ilə bağlı ekstradisiya haqqında sorğunun şəxsin irqi, dini, vətəndaşlığı və ya siyasi düşüncəsinə görə təqib olunması və ya cəzalandırılması məqsədilə verildiyini ehtimal etməyə sorğu edilən Tərəfin kifayət qədər əsaslan varsa və ya belə səbəblərdən biri həmin şəxsin vəziyyətinə zərər gətirə bilərsə;

c) əgər ekstradisiyaya səbəb olan cinayət sorğu edilən Tərəfin qanunvericiliyinə görə hərbi xidmət əleyhinə olan cinayət sayılırsa;

d) əgər ekstradisiyası tələb olunan şəxsə sorğu edilən Tərəfin ərazisində sığınacaq hüququ verilibsə;

e) əgər ekstradisiyası tələb olunan şəxs sorğu edilən Tərəfin vətəndaşıdırsa;

f) əgər sorğu edilən Tərəf ekstradisiyaya səbəb olan cinayət ilə bağlı ekstradisiyası tələb olunan şəxsə qarşı qəti hökm çıxarmışsa;

g) əgər sorğu edən Tərəf ekstradisiya haqqında sorğunu təqsirləndirilən şəxsin iştirakı olmadan qəbul olunmuş hökmə müvafiq olaraq veribsə və sorğu edən Tərəf ekstradisiyadan sonra işin yenidən məhkəmədə baxılmasına zəmanət vermirsə;

h) əgər ekstradisiyası tələb olunan şəxs sorğu edən və ya sorğu edilən Tərəfin qanunvericiliyinə uyğun olaraq müddətin bitməsi və ya digər hüquqi əsaslara görə cinayət təqibindən və ya cəzanın çəkilməsindən toxunulmazlıq hüququ əldə edibsə;

i) əgər sorğu edilən Tərəfin ərazisində ekstradisiyası tələb olunan şəxs əfv olunubsa və ya ekstradisiyaya səbəb olan cinayət barəsində amnistiya aktı qəbul edilibsə.

2. Ekstradisiyadan imtina edilə bilər, əgər:

a) ekstradisiyaya səbəb olan cinayət tam və ya qismən sorğu edilən Tərəfin ərazisində törədilibsə;

b) əgər ekstradisiyaya səbəb olan cinayət sorğu edilən Tərəfin milli qanunvericiliyinə əsasən onun yurisdiksiyasına aiddirsə.

3. Bu Müqavilənin tətbiqi zamanı aşağıdakılar siyasi xarakterli cinayət sayılmır:

a) hər iki Tərəfin Prezidentinə və ya hökumət başçısına və ya onların hər hansı ailə üzvünə və ya Birləşmiş Ərəb Əmirliklərinin Ali Şurasının hər hansı üzvünə və ya onun hər hansı ailə üzvünə qarşı sui-qəsd;

b) terror cinayətləri;

c) hər iki Tərəfin iştirakçısı olduğu cinayət təqibi və ya ekstradisiyanın təmini üçün Tərəflər qarşısında öhdəlik qoyan beynəlxalq müqavilədə müəyyən edilən hər hansı cinayət.

Maddə 4

Əgər ekstradisiyası tələb olunan şəxs törətdiyi cinayətə görə sorğu edən Tərəfin qanunvericiliyinə uyğun olaraq ölümlə cəzalandırılırsa, ekstradisiya haqqında sorğunu qəbul və ya ondan imtina etməzdən əvvəl Tərəflər arasında məsləhətləşmələr aparılır.

Maddə 5

Əgər bu Müqavilənin 3-cü maddəsinin 1-ci bəndinin e) yarımbəndinə və ya 4-cü maddəsinə müvafiq olaraq ekstradisiyadan imtina edilirsə, sorğu edilən Tərəf ekstradisiyaya səbəb olan bütün və ya hər hansı cinayətə görə şəxsin cinayət məsuliyyətinə cəlb olunması üçün işi öz səlahiyyətli orqanına təqdim edir. Sorğu edilən Tərəf görülən hər hansı

tədbir və ya məhkəmə işinin nəticəsi barədə sorğu edən Tərəfi məlumatlandırır. Vətəndaşlıq ekstradisiya sorğusunun verildiyi an müəyyən edilir.

Bu məqsədlə sorğu edilən Tərəf sorğu edən Tərəfi işə aidiyyəti olan sənədlər və sübutlarla təmin edir.

Maddə 6

Əlaqələr

Bu Müqavilənin məqsədləri üçün Tərəflər bir-biri ilə mərkəzi orqanlar vasitəsilə diplomatik kanallar yolu ilə əlaqə yaradırlar:

Azərbaycan Respublikası tərəfindən mərkəzi orqan Ədliyyə Nazirliyidir; Birləşmiş Ərəb Əmirlikləri tərəfindən mərkəzi orqan Ədliyyə Nazirliyidir.

Maddə 7

Sorğu və aidiyyəti sənədlər

1. Ekstradisiya haqqında sorğu yazılı formada verilməli və aşağıdakı sənədlərlə müşayiət olunmalıdır:

a) sorğu edən orqanın adı;

b) sorğu edilən orqanın adı;

c) ekstradisiyası tələb olunan şəxsin soyadı, adı, yaşı, cinsi, vətəndaşlığı, vəzifəsi, yaşadığı və ya olduğu yer və onun şəxsiyyətini müəyyən etməyə yardım edə bilən digər məlumat;

d) işin məzmunu, o cümlədən törədilən cinayətin faktlarının göstərilməsi və onun nəticələri;

e) işi, nəzərdə tutulan cəzanı, cinayət təqibini və ya hökmün icrası ilə bağlı vaxt məhdudiyyətini əks etdirən qanunun müvafiq müddəalarının mətni;

f) əgər mümkündürsə, ekstradisiya haqqında sorğu ekstradisiyası tələb olunan şəxsin görünüşünün təsviri, onun fotoşəkli və barmaq izləri ilə müşayiət olunur;

g) ekstradisiyası tələb olunan şəxsə qarşı cinayət təqibinin həyata keçirilməsi məqsədilə verilən ekstradisiya haqqında sorğu sorğu edən Tərəfin səlahiyyətli orqanı tərəfindən verilmiş həbs qərarının təsdiq olunmuş surəti ilə müşayiət olunmalıdır;

h) hökmün icrası məqsədilə verilən ekstradisiya haqqında sorğu hökmün qüvvəyə minməsini göstərən və cəzanın çəkilmiş hissəsini müəyyən edən hökmün təsdiq olunmuş surəti ilə müşayiət olunmalıdır.

2. Ekstradisiya haqqında sorğu və aidiyyəti sənədlər sorğu edən Tərəfin səlahiyyətli şəxsi tərəfindən imzalanmalı və səlahiyyətli orqanı tərəfindən rəsmi möhürlə təsdiq olunmalıdır.

3. Yuxanda göstərilən bütün sənədlər rəsmi qaydada sorğu edilən Tərəfin dilinə və ya ingilis dilinə tərcümə edilməlidir.

Maddə 8

1. Sorğu edilən Tərəf ekstradisiya haqqında sorğuya öz qanunvericiliyinə uyğun olaraq baxır və öz qərarı barədə sorğu edən Tərəfi dərhal məlumatlandırır.

2. Ekstradisiyadan imtina edildikdə, sorğu edilən Tərəf imtinanın səbəbləri barədə sorğu edən Tərəfi məlumatlandırır.

3. Sorğu edən Tərəf təslim edilmiş şəxsə qarşı həyata keçirilən cinayət təqibinin nəticəsi barədə sorğu edilən Tərəfi məlumatlandırır. Azadlıqdan məhrumetmə cəzası tətbiq olunduqda, sorğu edən Tərəf sorğu edilən Tərəfi təsdiq olunmuş qəti hökm ilə təmin edir.

Maddə 9

Əlavə məlumatlar

Əgər sorğu edilən Tərəfin fikrincə, ekstradisiya haqqında sorğuda təqdim olunan məlumatlar bu Müqaviləyə müvafiq olaraq qərar qəbul etmək üçün kifayət etmirsə, o, otuz gün ərzində təqdim olunmalı əlavə məlumatlan sorğu edə bilər. Əsaslandırıcı səbəblər olduqda bu müddət sorğu edən Tərəfin müvafiq müraciəti əsasında on beş günə qədər uzadıla bilər. Sorğu edən Tərəf göstərilən müddətdə əlavə məlumatlan təqdim edə bilmədikdə sorğu edilən Tərəf bunu sorğudan imtina kimi qiymətləndirəcək. Lakin bu, sorğu edən Tərəfə eyni cinayətə görə yeni ekstradisiya haqqında sorğu verməyə mane olmur.

Maddə 10

Ekstradisiya haqqında sorğunu aldıqdan sonra sorğu edilən Tərəfin ekstradisiya haqqında sorğuya dair qərarı qəbul edilənədək sorğu edilən Tərəf öz qanunvericiliyinə uyğun olaraq tələb olunan şəxsi həbs edir.

Maddə 11

Müvəqqəti həbs

1. Təxirə salınmayan hallarda ekstradisiya haqqında sorğunun bu Müqavilənin 7-ci maddəsində göstərilən sənədlərlə birlikdə qəbul edilməsindən əvvəl ekstradisiyası tələb olunan şəxs sorğu edən Tərəfin səlahiyyətli orqanının müraciəti əsasında müvəqqəti həbs edilə bilər. Belə müraciət faks və ya Beynəlxalq Cinayət Polis Təşkilatının (İNTERPOL) Milli Mərkəzi Bürosu vasitəsilə və ya Tərəflərin səlahiyyətli orqanları arasında razılaşdırılmış digər kanallar vasitəsilə göndərilə bilər.

2. Həmin müraciət bu Müqavilənin 7-ci maddəsinin 1-ci bəndində göstərilən məlumatı, sorğu edən Tərəfin səlahiyyətli orqanı tərəfindən çıxarılmış həbs qərarının və ya qüvvəyə minmiş hökmün mövcudluğu haqqında məlumatı və ekstradisiyası tələb olunan şəxsin təslim edilməsi haqqında rəsmi sorğunun əlavə olaraq göndəriləcəyi barədə qeydi əks etdirməlidir.

3. Sorğu edilən Tərəf sorğuya baxılmanın nəticəsi barədə sorğu edən Tərəfi təxirə salınmadan məlumatlandırır.

4. Əgər sorğu edilən Tərəfin səlahiyyətli orqanı şəxsin həbsindən sonra 40 gün ərzində onun ekstradisiyası haqqında sorğunu almazsa, müvəqqəti həbs olunan şəxs azadlığa

buraxılır. Əgər müddətin bitməsindən əvvəl müvafiq sorğu sorğu edən Tərəfin səlahiyyətli orqanından alınmışdırsa, bu müddət 15 günə qədər uzadıla bilər.

Əgər şəxsin ekstradisiyası haqqında sorğu sonradan alınmışdırsa, bu maddənin 4-cü bəndində göstərilən müddətin bitməsi şəxsin ekstradisiyasına mane olmur.

Maddə 12

Əgər ekstradisiya haqqında sorğu təmin olunubsa, sorğu edilən Tərəfin ərazisində çəkilən həbsdə saxlama müddəti ekstradisiyası tələb olunan şəxsə qarşı sorğu edən Tərəfdə hər hansı hökm çıxarılarkən nəzərə alınmalıdır.

Maddə 13

Kolliziyalı sorğular

Əgər bir neçə dövlət eyni şəxsin eyni və ya fərqli cinayətlərə görə ekstradisiyasını tələb edirsə, sorğu edilən Tərəf cinayətin və ya cinayətlərin bütün hallarını, xüsusilə müvafiq ağırlıq dərəcəsini, cinayətin törədildiyi yeri, sorğuların müvafiq tarixlərini, ekstradisiyası tələb olunan şəxsin vətəndaşlığını və onun sonradan digər dövlətə ekstradisiya olunma ehtimalını nəzərə alaraq şəxsin həmin dövlətlərin hansına ekstradisiya edilməsi barədə qərar çıxarır.

Maddə 14

Xüsusi qayda

Aşağıda göstərilən hallar istisna olmaqla, ekstradisiya olunan şəxs onun təslim edilməsinə qədər törədilmiş və ekstradisiyaya səbəb olan cinayətdən başqa, hər hansı digər cinayətə görə sorğu edən Tərəfin ərazisində cinayət təqibinə və ya cəzaya məruz qalmır və üçüncü dövlətə təslim edilmir:

a) əgər sorğu edilən Tərəf razılıq verirsə, bu razılığın məqsədləri üçün sorğu edilən Tərəf bu Müqavilənin 7-ci maddəsində göstərilən sənədlərin və məlumatların, həmçinin həmin cinayət üzrə təslim edilən şəxsin mülahizələrinin təqdim edilməsini xahiş edə bilər;

b) əgər təslim edilən şəxs bəraət qazandıqdan sonra otuz gün müddətində sorğu edən Tərəfin ərazisini tərk etməmişsə, bu müddətə şəxsin özündən asılı olmayan səbəblərə görə sorğu edən Tərəfin ərazisini tərk edə bilmədiyi müddət daxil edilmir,

c) əgər həmin şəxs sorğu edən Tərəfin ərazisini tərk etdikdən sonra həmin əraziyə könüllü olaraq qayıtdıqda.

Maddə 15

Əmlakın verilməsi

1. Sorğu edilən tərəf sorğu edən Tərəfin sorğusu əsasında və öz qanunvericiliyi imkan verdiyi həcmdə dəlil kimi istifadə oluna bilən və sorğu edilən Tərəfin ərazisində aşkar edilən cinayət yolu ilə əldə olunmuş gəlirləri, vasitələri və digər əmlakı müsadirə edə bilər və əgər ekstradisiya həyata keçirilmişsə, həmin əmlakı sorğu edən Tərəfə təhvil verə bilər.

2. Bu maddənin 1-ci bəndində qeyd olunan əmlak şəxsin vəfatı, itkin düşməsi və ya qaçması nəticəsində ekstradisiyası tələb olunan şəxsin təslim edilməsi mümkün olmadığı təqdirdə də təhvil verilə bilər.

3. Sorğu edilən Tərəf hər hansı digər cinayət işi ilə əlaqədar prosessual hərəkətlərin həyata keçirilməsi məqsədilə həmin hərəkətlərin başa çatmasına qədər yuxarıda qeyd olunan əmlakın təhvil verilməsini təxirə sala bilər və ya qaytarmaq şərtilə onu müvəqqəti olaraq sorğu edən Tərəfə verə bilər.

4. Bu maddənin müddəaları sorğu edilən Tərəfin və ya üçüncü tərəflərin həmin əmlaka dair hüquqlarına xələl gətirmir. Prosessual hərəkətlərin başa çatmasından sonra sorğu edən Tərəf heç bir ödəmə olmadan dərhal bu əmlakı sorğu edilən Tərəfin onu geri götürməkdən imtina etmədiyi halda sonuncu Tərəfə qaytarır.

Maddə 16

Ekstradisiyası tələb olunan şəxsin verilməsi

1. Əgər ekstradisiya həyata keçirilirsə, Tərəflər ekstradisiyası tələb olunan şəxsin verilmə tarixini, yerini, vaxtını və ekstradisiya haqqında sorğunun icrası ilə əlaqədar digər məsələləri razılaşdırır. Sorğu edilən Tərəf ekstradisiyası tələb olunan şəxsin ekstradisiyadan əvvəl həbsdə saxlandığı müddət barədə sorğu edən Tərəfi məlumatlandırır.

2. Əgər sorğu edən Tərəf ekstradisiyası tələb olunan şəxsi təhvil verilmə tarixindən sonra on beş gün müddətində qəbul etməmişsə, sorğu edilən Tərəf həmin şəxsi dərhal azad edir və bu maddənin 3-cü bəndində nəzərdə tutulan hallar olmadıqda, həmin cinayətə görə bu şəxsin ekstradisiyasına dair sorğu edən Tərəfin yeni sorğusundan imtina edə bilər.

3. Əgər Tərəflərdən biri ekstradisiyası tələb olunan şəxsin verilməsini və ya qəbul edilməsini ondan asılı olmayan səbəblərə görə həyata keçirə bilinirsə, digər Tərəf bu barədə dərhal məlumatlandırılır. Belə halda Tərəflər ekstradisiya haqqında sorğunun yerinə yetirilməsinə dair müvafiq məsələləri bir daha razılaşdırır və bu maddənin 2-ci bəndinin müddəaları tətbiq olunur.

Maddə 17

Təxirə salınmış və ya şərti verilmə

1. Əgər ekstradisiyası tələb olunan şəxs ekstradisiyaya səbəb olan cinayətdən başqa digər cinayətə görə sorğu edilən Tərəfin ərazisində cinayət təqibinə məruz qalırsa və ya cəza çəkirsə, həmin Tərəf cinayət təqibinin və ya cəza çəkmənin bitməsinə və ya şəxsin cinayət məsuliyyətindən azad olunmasına qədər onun ekstradisiyasını təxirə sala bilər. Sorğu edilən Tərəf ekstradisiyanın təxirə salınması barədə sorğu edən Tərəfi məlumatlandırır.

2. Əgər bu maddənin 1-ci bəndində göstərilən ekstradisiyanın təxirə salınması ekstradisiyaya səbəb olan cinayət barədə cinayət təqibinin müddətinin bitməsinə səbəb ola bilərsə və ya cinayət təqibinin həyata keçirilməsinə mane olarsa, sorğu edilən Tərəf razılaşdırılmış şərtlərə uyğun olaraq ekstradisiyası tələb olunan şəxsi müvəqqəti olaraq sorğu edən Tərəfə verə bilər. Müvəqqəti verilən şəxs müvafiq prosedurların başa çatmasından sonra sorğu edilən Tərəfə qaytarılır.

Maddə 18

Tranzit

1. Əgər Tərəflərdən biri şəxsi üçüncü dövlətdən digər Tərəfin ərazisi vasitəsilə təslim edirsə, birincisi sonuncudan belə tranzit üçün icazə istəyir.

2. Sorğu edilən Tərəf öz qanunvericiliyinə zidd olmamaq və bu Müqavilənin 3-cü maddəsinin 1-ci bəndinin e) yarımbəndinə xələl gətirməmək şərtilə sorğu edən Tərəfin təqdim etdiyi tranzit haqqında sorğuya icazə verir.

3. Təyyarədən istifadə olunduqda və enmə planlaşdırılmadıqda, belə icazə tələb olunmur.

4. Planlaşdırılmamış enmə baş verərsə, tranzit üçün icazə verilməsi barədə sorğu edilən Tərəf müşayiət edən əməkdaşın xahişi əsasında tranzit olunan şəxsi bu maddənin 1-ci və 2-ci bəndlərinə uyğun olaraq təqdim olunan tranzit sorğusu alınanadək 48 saat müddətində həbsdə saxlaya bilər.

Maddə 19

Xərclər

Ekstradisiya ilə əlaqədar bütün xərcləri, ərazisində belə xərclərin əmələ gəldiyi Tərəf ödəyir. Tranzit ilə bağlı əmələ gələn xərcləri sorğu edən Tərəf ödəyir. Əgər həmin xərclər fövqəladə xarakter daşıyırsa, Tərəflər onların ödənilməsi üçün məsləhətləşmələr aparırlar.

Maddə 20

Bu Müqavilənin müddəaları Tərəflərin iştirakçısı olduğu digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 21

Bu Müqavilənin icrası və ya təfsiri ilə əlaqədar meydana çıxan hər hansı mübahisələr məsləhətləşmələr yolu ilə diplomatik kanallar vasitəsilə həll edilir.

Maddə 22

Ratifikasiya və ləğv etmə

1. Bu Müqavilə ratifikasiya edilir və ratifikasiya haqqında sənədlər mübadilə edilir. Bu Müqavilə ratifikasiya haqqında sənədlərin mübadiləsi tarixindən otuz gün sonra qüvvəyə minir.

2. Hər iki Tərəf bildiriş yolu ilə yazılı şəkildə diplomatik kanallar vasitəsilə istənilən vaxt bu Müqaviləni ləğv edə bilər. Müqavilə belə bildirişin verildiyi tarixdən altı ay sonra ləğv edilir. Lakin artıq başlanılmış işlərin bu Müqavilə ilə tənzimlənməsi onların bitməsinə qədər davam etdirilir.

Bunun təsdiqi olaraq aşağıda imza edənlər, onların hökumətləri tərəfindən lazımi qaydada səlahiyyətləndirilərək bu Müqaviləni imzaladılar.

Abu-Dabi şəhərində 20 noyabr 2006-cı il tarixində hər biri Azərbaycan, ərəb və ingilis dillərində olan nüsxələrdə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu

Müqavilənin təfsiri ilə bağlı fikir ayrılığı yarandıqda ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN	BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ ADINDAN
FİKRƏT MƏMMƏDOV	*NAHİR ƏL-ZAHİRİ*
Ədliyyə naziri	*Ədliyyə naziri*

"Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan Respublikası arasında mülki və ticarət işləri üzrə hüquqi və məhkəmə yardımı haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan Respublikası arasında mülki və ticarət işləri üzrə hüquqi və məhkəmə yardımı haqqında" 2006-cı il noyabrın 20-də Abu-Dabi şəhərində imzalanmış Müqavilə təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№293-IIIQ

Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında mülki və ticarət işləri üzrə hüquqi və məhkəmə yardımı haqqında Müqavilə

Bundan sonra "Tərəflər" adlandırılacaq Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan Respublikası,

iki ölkə arasında suverenlik və qarşılıqlı maraq, qarşılıqlı hörmət əsasında dostluq əlaqələrini möhkəmləndirmək arzusunda olaraq və ədliyyə və hüquqi sahələrdə faydalı yardımı təşviq edərək,

mülki və ticarət işləri üzrə hüquqi yardımın ən geniş tədbirlərini asanlaşdırmaq ehtiyacını dərk edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

1. Tərəflərin birinin vətəndaşları digər Tərəfin ərazisində həmin Tərəfin vətəndaşları kimi eyni hüquqi müdafiədən istifadə edirlər və digər Tərəfin ədliyyə orqanlarına həmin Tərəfin öz vətəndaşları kimi eyni şərtlərlə müraciət etmək hüququna malikdirlər.

2. Bu maddənin əvvəlki bəndinin müddəaları hər iki Tərəfin ərazisində yerləşən və onların milli qanunvericiliklərinə müvafiq olaraq təsis edilən hüquqi şəxslərə də şamil olunur.

Maddə 2

Bir Tərəfin vətəndaşları digər Tərəfin ərazisində sonuncunun qanun və prosedurlarına uyğun olaraq həmin Tərəfin öz vətəndaşları kimi eyni şərtlərlə və həcmdə məhkəmə icraatı ilə bağlı xərclərini azaltmaq və ya onlardan azad olunmaq hüququna malikdirlər.

Maddə 3

Tərəflər bu Müqavilənin icrası ilə bağlı öz ölkələrində qüvvədə olan qanunlar və məhkəmə təcrübəsi barədə məlumat mübadiləsini həyata keçirə bilərlər.

Maddə 4

1. Tərəflər bu Müqaviləyə müvafiq olaraq öz milli qanunvericiliklərinə əsasən mülki və ticarət işləri üzrə bir-birilərinə ən geniş şəkildə qarşılıqlı hüquqi yardım göstərirlər.

2. Bu Müqaviləyə əsasən hüquqi yardım aşağıdakı sahələrə tətbiq olunur:

a. məhkəmə çağırışları və digər məhkəmə sənədlərinin təqdim edilməsi;

b. yazılı vəsatət və ya tapşırıq vasitəsilə dəlillərin götürülməsi;

c. qərar və barışıq sazişlərinin tanınması və icrası.

Maddə 5

1. Hər bir Tərəfin mərkəzi orqanı bu Müqaviləyə müvafiq olaraq sorğuları göndərir və qəbul edir:

Birləşmiş Ərəb Əmirlikləri tərəfindən mərkəzi orqan Ədliyyə Nazirliyidir.

Azərbaycan Respublikası tərəfindən mərkəzi orqan Ədliyyə Nazirliyidir.

2. Bu Müqavilənin məqsədləri üçün mərkəzi orqanlar bir-biriləri ilə diplomatik kanallar vasitəsilə əlaqə saxlayırlar.

Maddə 6

1. Əgər digər hal nəzərdə tutulmayıbsa, hüquqi yardım ilə bağlı bütün rəsmi sənədlər məhkəmə və ya digər səlahiyyətli orqan tərəfindən möhürlənir və hüquqi yardım haqqında sorğu sorğu edən Tərəfin mərkəzi orqanı tərəfindən təsdiq olunur.

2. Bütün sorğular və aidiyyəti sənədlər sorğu edilən Tərəfin rəsmi dilində və ya ingilis dilində olan tərcümə ilə müşayiət olunur.

3. Əgər sorğu edilən Tərəf hesab edirsə ki, sorğu edən Tərəfin təqdim etdiyi məlumat sorğunu bu Müqaviləyə uyğun olaraq icra etmək üçün kifayət etmir, onda o, sorğu edən Tərəfdən əlavə məlumat tələb edə bilər.

Maddə 7

1. Məhkəmə çağırışları və digər məhkəmə sənədlərinin təqdim olunması sorğu edilən Tərəfin qanunvericiliyində nəzərdə tutulan prosedurlara uyğun olaraq həyata keçirilir.

2. Bu Müqaviləyə müvafiq olaraq təqdim olunan məhkəmə çağırışları və digər məhkəmə sənədləri sorğu edən Tərəfin ərazisində təqdim olunmuş kimi hesab olunur.

3. Bu Müqavilənin 5-ci maddəsi hər hansı məcburi tədbirlər tətbiq edilmədən bir Tərəfin ərazisində yaşayan digər Tərəfin vətəndaşlarına məhkəmə çağırışlarının və digər

məhkəmə sənədlərinin onun diplomatik və ya konsulluq nümayəndələri vasitəsilə Tərəflərin təqdimetməni həyata keçirmək hüququna mane olmur. Belə hallarda icra hərəkətləri təqdimetmənin həyata keçirildiyi Tərəf üçün heç bir məsuliyyət yaratmır.

Maddə 8

Məhkəmə çağırışları və digər məhkəmə sənədlərinin təqdim edilməsi haqqında sorğuda ünvan sahibinin adı, vəzifəsi, yaşadığı və ya işlədiyi yer haqqında bütün məlumatlar, həmçinin həmin şəxsə təqdim olunmalı sənədlərin və materialların siyahısı göstərilir. Əgər təqdimetmənin hər hansı bir xüsusi qaydada həyata keçirilməsi arzu olunarsa, bu barədə sorğuda qeyd olunmalıdır.

Maddə 9

1. Əgər sorğu edilən Tərəf sorğunun icrasının onun suverenliyinə, təhlükəsizliyinə və ya ictimai asayişinə xələl gətirə biləcəyini hesab etmirsə, bu Müqavilənin müddəalarına uyğun olan məhkəmə çağırışları və digər məhkəmə sənədlərinin təqdim edilməsi haqqında sorğunun icrasından imtina edilə bilməz.

2. Sorğuda işin mahiyyətini kifayət qədər təsdiq edən hüquqi əsasların göstərilmədiyi səbəbindən təqdimetmədən imtina edilə bilməz.

3. Hər bir halda təqdimetmə həyata keçirilmədiyi təqdirdə sorğu edilən Tərəf bunun səbəbləri barədə sorğu edən Tərəfi məlumatlandırır.

Maddə 10

1. Sorğu edilən Tərəfin səlahiyyətli orqanı həmin sənədləri və materialları qüvvədə olan öz qanunvericiliyi və qaydalarına uyğun olaraq təqdim edir. Belə təqdimetmənin həyata keçirilməsi üçün heç bir ödəniş və xərclər tutula bilməz.

2. Təqdimetmə sorğu edən Tərəfin göstərdiyi xüsusi qayda və şəkildə həyata keçirilə bilər, o şərtlə ki, bu, sorğu edilən Tərəfin qanunvericiliyinə zidd olmasın və belə xüsusi təqdimetmə qaydası əlavə xərclərin ödənilməsinə səbəb olmasın.

Maddə 11

1. Sorğu edilən Tərəfin səlahiyyətli orqanının vəzifəsi məhkəmə sənədlərini və materialları ünvan sahibinə təqdim etməklə bitir.

2. Təqdimetmə ünvan sahibinin imzası və ünvan sahibinin adını, təqdimetmənin tarixi və qaydasını və əgər təqdimetmənin həyata keçirilməsi mümkün olmamışsa, bunun səbəblərini əks etdirən səlahiyyətli orqan tərəfindən verilən rəsmi sənəd ilə təsdiq olunur.

3. Təqdimetməni təsdiq edən rəsmi sənəddə əks olunan ünvan sahibinin imzasının surəti mərkəzi orqan vasitəsilə sorğu edən Tərəfə göndərilir.

Maddə 12

1. Bir Tərəfin ədliyyə orqanı həmin Tərəfin qanunvericiliyinin müddəalarına uyğun olaraq digər Tərəfin səlahiyyətli ədliyyə orqanına yazılı vəsatət göndərmək yolu ilə mülki və ticarət işləri üzrə dəlillərin götürülməsini xahiş edə bilər.

2. Bu Müqavilənin məqsədləri üçün dəlillərin götürülməsi aşağıdakıları əhatə edir:

a. izahatların götürülməsi;

b. sorğu edilən sənədlərin, sənəd nümunələrinin tərtib edilməsi, eyniləşdirilməsi və ya yoxlanılması.

3. Yazılı vəsatətdə aşağıdakılar göstərilir:

a. dəlili sorğu edən ədliyyə və ya digər səlahiyyətli orqan;

b. tələb olunan sübutlar ilə əlaqədar məhkəmə işinin mahiyyəti və ona aid olan bütün zəruri məlumatlar;

c. məhkəmə prosesinin iştirakçısı olan tərəflərin adlan və ünvanlan;

d. əldə olunması tələb olunan dəlil;

e. dindirilməsi tələb olunan şəxslərin adlan və ünvanlan.

4. Əgər zərurət yaranarsa, yazılı vəsatət şahid və ya aidiyyəti olan digər şəxslərə verilməsi tələb olunan sualların siyahısı ilə və ya barəsində sual veriləcək məsələnin mahiyyətini göstərən izahatla və belə sübutlara və ya izahata aid olan sənədlərlə müşayiət olunur.

Maddə 13

Bu Müqavilənin müddəalarına uyğun olaraq sübutların götürülməsi məqsədilə həyata keçirilmiş məhkəmə hərəkətləri onları sorğu edən Tərəfin səlahiyyətli orqanı tərəfindən həyata keçirilmiş məhkəmə hərəkətləri kimi eyni hüquqi qüvvəyə malikdir.

Maddə 14

1. Sorğu edilən Tərəfin səlahiyyətli orqanı yazılı vəsatətləri öz qanunvericiliyinin müddəalarına uyğun olaraq icra edir və öz qanunvericiliyi ilə müəyyən edilən üsul və prosedurları, o cümlədən müvafiq məcburetmə üsullarını tətbiq etməklə tələb olunan sübutları əldə edir.

2. Sorğu edilən Tərəf özünün qanunvericilik və təcrübəsinə zidd olmamaq şərtilə yazılı vəsatətdə aydın şəkildə göstərilən hər hansı bir xüsusi üsul və proseduru tətbiq edir.

3. Yazılı vəsatətlər mümkün qədər qısa müddət ərzində icra edilir.

4. Aidiyyəti tərəflərin və onların nümayəndələrinin iştirak edə bilmələri üçün sorğu edən Tərəf, arzu etdikdə, məhkəmə iclasının tarixi və yeri barədə məlumatlandırılır. Əgər sorğu edən Tərəf bu barədə xahiş edirsə, həmin məlumat sorğu edilən Tərəfin ərazisində məlum olan tərəflərə və ya onların nümayəndələrinə göndərilir.

5. Əgər yazılı vəsatət icra olunubsa, onda icranı təsdiq edən zəruri sənədlər və hər hansı aidiyyəti sübutlar sorğu edən Tərəfə göndərilir.

6. Yazılı vəsatətin tam və ya qismən icra olunmadığı hər bir halda bunun səbəbləri barədə sorğu edən Tərəfə dərhal məlumat verilir.

Maddə 15

1. Sorğu edilən Tərəf yazılı vəsatətin icrasından aşağıdakı səbəblərə görə imtina edə bilər:

a. vəsatətin icrası məhkəmə hakimiyyətinin səlahiyyətinə aid olmadıqda;

b. vəsatətin icrası onun suverenliyinə, təhlükəsizliyinə və ya ictimai asayişinə xələl gətirdikdə.

2. Əgər sorğu edilən Tərəf onun daxili qanunvericiliyinə əsasən işin mahiyyəti üzrə müstəsna yurisdiksiyanın olduğunu və ya onun milli qanunvericiliyində işə dair müvafiq hərəkətlər həyata keçirmək hüququnun olmadığını bəyan edirsə, onda bu səbəblərə görə icradan imtina edilə bilməz.

Maddə 16

1. Əgər sorğu edilən Tərəf yazılı vəsatətlərin icrasını və dəlillərin götürülməsini təmin etmişsə, bu, istənilən halda sorğu edən Tərəfin hər hansı ödəniş, xərc və ya məsrəfləri ödəməsinə səbəb olmur. Lakin sorğu edilən Tərəf aşağıdakıların ödənilməsini tələb etmək hüququna malikdir:

a. şahidlərə, ekspertlərə və ya tərcüməçilərə ödənilən hər hansı xərc və ödənişlər;

b. sorğunu icra edərkən xüsusi prosedurun istifadə edilməsi nəticəsində əmələ gələn hər hansı xərc və ödənişlər.

2. Əgər sorğunun icrası üçün fövqəladə xarakterli xərclərin tələb olunduğu müəyyən edilərsə, Tərəflər sorğunun hansı şərtlər əsasında yerinə yetiril-məsi barədə məsləhətləşmələr aparır.

Maddə 17

1. Hər bir Tərəf öz qanunvericiliyinə uyğun olaraq digər Tərəfin məhkəmələri tərəfindən mülki, ticarət və şəxsi işlər üzrə, o cümlədən cinayət işlərindən irəli gələn mülki tələblər üzrə çıxarılmış qərarları tanıyır və icra edir.

2. Bu Müqavilədə istifadə olunan "qərar" termini, onun təyinatından asılı olmayaraq Tərəflərin səlahiyyətli məhkəməsi tərəfindən məhkəmə iclasında qəbul edilmiş hər hansı qərar mənasını daşıyır.

3. Bu Müqavilə, xərclərlə bağlı məsələlər istisna olmaqla, məhkəmə tərəfindən çıxarılmış aralıq və ya müvəqqəti tədbirlərə şamil edilmir.

Maddə 18

Daşınmaz əmlakın yerləşdiyi yer üzrə Tərəfin məhkəmələri həmin əm-lakla bağlı hüquqların müəyyən edilməsi səlahiyyətinə malikdir.

Maddə 19

Daşınmaz əmlaka aid olan işlərdən başqa, Tərəflərin məhkəmələri aşağıdakı hallarda yurisdiksiyaya malikdir:

a. əgər iddianın verildiyi anda cavabdeh həmin Tərəfin ərazisində yaşayırsa;

b. və ya iddianın verildiyi anda həmin Tərəfin ərazisində cavabdehin sahibliyində sənaye və ya ticarət obyekti və ya onun nümayəndəliyi varsa və ya o, orada gəlir qazanmaq üçün işləyirsə və iddia belə fəaliyyətə aiddirsə;

c. və ya iddiaçı ilə cavabdeh arasında hər hansı formada mövcud olan sazişə əsasən

məhkəmə mübahisəsinə səbəb olan əqd üzrə öhdəliklər həmin Tərəfin ərazisində icra edilməlidir;

d. və ya əqddən irəli gəlməyən məsuliyyət olduğu təqdirdə qanunsuz hərəkət həmin Tərəfin ərazisində törədilmişsə;

e. cavabdeh hər hansı formada məhkəmənin yurisdiksiyasını qəbul etmişsə;

f. və ya müvəqqəti tədbirlər üzrə hər hansı iddianı qəbul etmişsə, o şərtlə ki, bu Müqavilənin müddəalarına uyğun olaraq həmin Tərəfin məhkəmələri əsas mübahisəyə baxmaq səlahiyyətinə malik olsunlar.

Maddə 20

Bu Müqavilənin müddəalarına əsasən, qərarı tanımağa və ya icra etməyə sorğu edilmiş Tərəfin məhkəməsi digər Tərəfin məhkəmələrinin yurisdiksiyasının əsaslarını nəzərdən keçirərkən, həmin qərarda əks olunan faktları və onun hansı yurisdiksiyada olmasını özü üçün məcburi hesab edir, o şərtlə ki, adıçəkilən qərar qiyabi şəkildə qəbul olunmasın.

Maddə 21

Qərar aşağıdakı hallarda tanınmır və ya icra edilmir:

a. əgər yekun deyilsə;

b. əgər icrası mümkün sayılmırsa;

c. və ya səlahiyyətli məhkəmə tərəfindən çıxarılmamışsa;

d. və ya sorğu edilən Tərəfin qüvvədə olan hər hansı qanununu pozan tələbləri təsbit edirsə və ya onun konstitusion qaydaları, suverenliyi, təhlükəsizliyi və ya ictimai asayiş prinsipləri ilə ziddiyyət yaradırsa;

e. və ya sorğu edilən Tərəfdə fəaliyyət qabiliyyətsizliyindən əzab çəkən şəxslərin hüquqi təmsil olunmalarına dair qaydalarla ziddiyyət yaradırsa;

f. və ya qərar qiyabi şəkildə çıxarılıbsa və iştirak etməyən tərəf öz ölkəsində tətbiq edilən qaydalara uyğun olaraq vaxtında məhkəməyə çağırılmayıbsa;

g. və ya barəsində qərar çıxarılmış mübahisə eyni tərəflər arasında və eyni əsaslarla Tərəfin hər hansı məhkəməsində iddia olaraq baxılmaqdadır və bu iddia sonuncu Tərəfin məhkəməsi qarşısında həmin mübahisənin digər Tərəfin qərar çıxarmış məhkəməsində baxılmasından əvvəl qaldırılmış və qarşısında iddia qaldırılan məhkəmənin onu araşdırmaq və onun barəsində qərar çıxarmaq səlahiyyəti olsun və ya qərar eyni tərəflər arasında və eyni məsələyə dair üçüncü dövlətin məhkəməsi tərəfindən çıxarıldıqda və sorğu edilən Tərəfdə tanındıqda.

Maddə 22

Qərarın tanınması və ya icrası ilə bağlı prosedurlar sorğu edilən Tərəfin qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

Maddə 23

1. Sorğu edilən Tərəfdə qərarı tanımalı və ya icra etməli olan səlahiyyətli ədliyyə orqanı işin mahiyyətini nəzərdən keçirmədən qərarın bu Müqavilədə nəzərdə tutulan şərtlərə uyğunluğunu yoxlamaqla öz səlahiyyətini məhdudlaşdırır.

2. Sorğu edilən Tərəfin səlahiyyətli ədliyyə orqanı, əgər onun qanunvericiliyi bunu tələb edirsə, qərarı icra edərkən bu barədə maraqlı şəxsin məlumatlandırılması məqsədilə öz ərazisində çıxarılan qərar üçün tətbiq olunan qaydada zəruri tədbirlər görür.

3. İcra haqqında qərarlar qərarın tam və ya bir hissəsi üzrə qəbul oluna bilər, o şərtlə ki, qərarın bu hissəsinin icrası ayrılıqda mümkün olsun.

Maddə 24

Qərarın tanınması və ya icrası haqqında sorğuya aşağıdakılar əlavə olunur:

a. qərarın rəsmi qaydada təsdiq olunmuş surəti;

b. qərarın özündə bu barədə məlumat göstərilmədikdə, həmin qərarın yekun olduğunu və icraya yönələ bilməsini təsdiq edən rəsmi sənəd;

c. qiyabi şəkildə qərar çıxarıldıqda, məhkəmə çağırışlarının təsdiqlənmiş surəti və ya cavabdehin məhkəməyə vaxtında çağırılmasını əks etdirən hər hansı digər sənəd;

d. fəaliyyət qabiliyyətsizliyi olan tərəfin müvafiq qaydada təmsil olunmasını təsdiq edən sənəd.

Maddə 25

1. Tərəflər arasında əldə edilmiş və Tərəflərdən birinin səlahiyyətli məhkəməsi tərəfindən onun milli qanunvericiliyinə əsasən təsdiq edilmiş barışıq sazişi onun sorğu edilən Tərəfin qüvvədə olan qanunlarına, konstitusion qaydalarına, suverenliyinə, təhlükəsizliyinə və ya ictimai asayişinə uyğunluğunun yoxlanılmasından sonra digər Tərəfin ərazisində tanınır və icra olunur.

2. Barışıq sazişinin tanınmasını və ya icrasını xahiş edən Tərəf barışıq sazişinin hansı dərəcədə təmin olunduğunu əks etdirən məhkəmə tərəfindən verilmiş sənədin rəsmiləşdirilmiş surətini və müvafiq şəhadətnaməni təqdim etməlidir.

Maddə 26

Məhkəmə qərarlarının və barışıq sazişlərinin tanınması və icrası haqqında ərizələr işdə iştirak edən Tərəfdən sorğu edilən Tərəfin səlahiyyətli məhkəməsinə birbaşa təqdim edilə bilər.

Maddə 27

Tanınmış və ya icraya yönəldilmiş məhkəmə qərarları sorğu edilən Tərəfin ərazisində onun məhkəmələri tərəfindən çıxarılan qərarlar kimi eyni qüvvəyə malikdir.

Maddə 28

Bu Müqavilə Tərəflərin iştirakçı olduqları digər müqavilə və sazişlərlə üzərilərinə düşən hüquq və öhdəliklərinə toxunmur.

Maddə 29

Tərəflərin mərkəzi orqanları öz aralarında razılığa gələ bilmədiyi təqdirdə bu Müqavilənin təfsirindən və icrasından irəli gələn hər hansı mübahisələr məsləhətləşmələr yolu ilə diplomatik kanallar vasitəsilə həll edilir.

Maddə 30

1. Bu Müqavilə ratifikasiya edilir və ratifikasiya haqqında sənədlər mübadilə edilir. Bu Müqavilə ratifikasiya haqqında sənədlərin mübadiləsi tarixindən otuz gün sonra qüvvəyə minir.

2. Hər bir Tərəf bildiriş yolu ilə yazılı şəkildə diplomatik kanallar vasitəsilə istənilən vaxt bu Müqaviləni ləğv edə bilər. Müqavilə belə bildirişin verildiyi tarixdən altı ay sonra ləğv edilir. Lakin artıq başlanılmış işlərin bu Müqavilə ilə tənzimlənməsi onların bitməsinə qədər davam etdirilir.

Bunun təsdiqi olaraq aşağıda imza edənlər, onların hökumətləri tərəfindən lazımi qaydada səlahiyyətləndirilərək bu Müqaviləni imzaladılar.

Abu-Dabi şəhərində 20 noyabr 2006-cı il tarixində ərəb, Azərbaycan və ingilis dillərində olan nüsxələrdə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Müqavilənin təfsiri ilə bağlı fikir ayrılığı yarandıqda ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

FİKRƏT MƏMMƏDOV
Ədliyyə naziri

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ ADINDAN

NAHİR ƏL-ZAHİRİ
Ədliyyə naziri

"Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında" 2006-cı il noyabrın 20-də Abu-Dabi şəhərində imzalanmış Müqavilə təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№294-IIIQ

Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında Müqavilə

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri,

iki ölkə arasında mövcud olan dostluq əlaqələrindən çıxış edərək,

cinayət işləri üzrə yardımın ən geniş tədbirlərini sadələşdirmək ehtiyacını dərk edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Ümumi müddəalar

Maddə 1

Bu Müqaviləyə uyğun olaraq Tərəflər bir-birinə cinayət işləri üzrə ən geniş formada hüquqi yardım göstərirlər.

Bu Müqaviləyə uyğun olaraq Tərəflərin mərkəzi orqanları sorğuları göndərir və qəbul edir:

Azərbaycan Respublikasında mərkəzi orqan Ədliyyə Nazirliyidir.

Birləşmiş Ərəb Əmirliklərində mərkəzi orqan Ədliyyə Nazirliyidir.

Bu Müqavilənin məqsədləri üçün Tərəflərin mərkəzi orqanları bir-biri ilə diplomatik kanallar vasitəsilə əlaqə yaradırlar.

Əgər Tərəflər digər razılıq əldə etməyiblərsə, bütün sorğular və aidiyyəti sənədlər sorğu edilən Tərəfin dilinə və ya ingilis dilində olan tərcümə ilə müşayiət olunur və səlahiyyətli orqan tərəfindən rəsmi qaydada imzalanır və möhürlənir.

Maddə 2

Tərəflər öz dövlətlərində qüvvədə olan və bu Müqavilənin icrasına aidiyyəti olan qanunlar və məhkəmə təcrübəsi barədə məlumat mübadiləsi apara bilərlər.

Maddə 3

Yardımın həcmi

1. Bu Müqavilənin müddəalarına uyğun olaraq Tərəflər bir-birinə istintaq, cinayət təqibi, cinayətin qarşısının alınması və cinayət işlərinə aid olan məhkəmə icraatı üzrə qarşılıqlı yardım göstərirlər.

2. Yardım aşağıdakıları əhatə edir:

a) şəxslərdən ifadələrin və ya izahatların alınması;

b) sənəd, materiallar və əşyaların verilməsi;

c) şəxslərin və ya əşyaların yerinin müəyyən edilməsi və eyniləşdirilməsi;

d) məhkəmə sənədlərinin təqdim olunması;

e) həbsdə olan şəxslərin ifadə vermələri üçün müvəqqəti verilməsi;

f) axtarış və müsadirə haqqında sorğuların icrası;

g) cinayət fəaliyyətindən əldə olunmuş gəlirlərin və cinayətin törədilməsində istifadə olunan alətlərin götürülməsi;

h) sorğu edilən Tərəfin qanunvericiliyi ilə ziddiyyət yaratmamaq şərtilə bu Müqavilə çərçivəsində əməkdaşlığın hər hansı digər forması.

Maddə 4

Yardımdan imtina

1. Sorğu edilən Tərəfin mərkəzi orqanı yardım göstərməkdən imtina edə bilər, əgər:

a) sorğuya səbəb olan cinayət hərbi hüquqa müvafiq olaraq cinayət sayılırsa, lakin adi cinayət hüququna görə cinayət sayılmırsa;

b) sorğunun icrası onun suverenliyinə, təhlükəsizliyinə, ictimai asayişinə və ya digər əsas maraqlarına xələl gətirəcəksə;

c) sorğu siyasi xarakterli cinayətə aiddirsə;

d) sorğu bu Müqavilənin müddəalarına uyğun olaraq tərtib olunmamışsa;

e) sorğu sorğu edilən Tərəfdə onun öz yurisdiksiyasına əsasən istintaq edilən və ya məhkəmə icraatında olan cinayətə aiddirsə və ya həmin cinayətə dair qəti hökm çıxarılmışsa.

2. Bu maddənin müddəalarına əsasən yardım göstərməkdən imtina etməzdən əvvəl sorğu edilən Tərəfin mərkəzi orqanı yardımı onun zəruri hesab etdiyi şərtlər əsasında yerinə yetirilmək imkanı barədə sorğu edən Tərəfin mərkəzi orqanı ilə məsləhətləşmələr aparır. Əgər sorğu edən Tərəf yardımı bu şərtlər əsasında qəbul edirsə, onda o, bu şərtlərə əməl etməlidir.

Əgər sorğu edilən Tərəfin mərkəzi orqanı bu maddənin müddəalarına əsasən yardım göstərməkdən imtina edirsə, o, sorğu edən Tərəfin mərkəzi orqanını imtinanın səbəbləri barədə məlumatlandırır.

Maddə 5

Sorğuların forması və məzmunu

1. Yardım haqqında sorğu yazılı formada verilir, lakin istisna olaraq, təxirə salınmayan hallarda sorğu edilən Tərəfin mərkəzi orqanı sorğunu digər formada da qəbul edə bilər. Sorğu yazılı formada verilməmişsə, Tərəflər digər razılıq əldə etmədiyi halda, verildiyi tarixdən sonra on gün müddətində yazılı formada təsdiq olunmalıdır.

2. Sorğuya aşağıdakılar daxil edilməlidir:

a) sorğuya aid olan istintaq, cinayət təqibi və ya məhkəmə icraatını həyata keçirən orqanın adı;

b) istintaq, cinayət təqibi və ya məhkəmə icraatının, o cümlədən aidiyyəti cinayətlərin məzmununun və mahiyyətinin təsviri;

c) sorğu edilən sübutların, məlumatın və ya digər yardımın təsviri;

d) sübut, məlumat və ya digər yardım ilə bağlı sorğunun məqsədinin təsviri.

3. Mümkün olduğu təqdirdə və zərurət olarsa, sorğuya aşağıdakılar daxil edilir:

a) ifadə verməli olan şəxsin şəxsiyyəti və olduğu yer barədə məlumat;

b) barəsində sənədlər təqdim olunmalı şəxsin şəxsiyyəti və olduğu yer barədə, həmin şəxsin cinayət işi ilə bağlantısı və təqdim etmənin həyata keçirilmə qaydası barədə məlumat;

c) şəxsin və ya əşyanın xüsusiyyətləri və olduqları ehtimal edilən yer barədə məlumat;

d) axtarılan şəxsin və müsadirəsi tələb olunan əşyaların olduqları yerin dəqiq təsviri;

e) ifadənin və ya izahatın alınması və yazılması qaydasının təsviri;

f) alınması tələb olunan ifadənin və ya izahatın təsviri, o cümlədən şəxsə verilməsi tələb olunan sualların siyahısı;

g) sorğu edilən Tərəfin qanunvericiliyi ilə ziddiyyət yaratmamaq şərtilə sorğunun icrasında tətbiq edilməli olan hər hansı xüsusi prosedurun təsviri;

h) sorğu edilən Tərəfdə məhkəmə qarşısında çıxış etməli olan şəxsə ödənilməli olan müavinət və xərclər barədə məlumat;

i) sorğunun icrasını sürətləndirmək üçün sorğu edilən Tərəfin diqqətinə çatdırıla bilən hər hansı digər məlumat.

Maddə 6

Sorğuların icrası

1. Sorğu edilən Tərəfin mərkəzi orqanı sorğunu icra etmək üçün onu səlahiyyətli orqana göndərir. Həmin orqan sorğunu icra etmək üçün mümkün olan bütün tədbirləri həyata keçirir. Sorğu edilən Tərəfin məhkəmə orqanı sorğunu icra etmək üçün məhkəmə çağırış vərəqələri, axtarış haqqında order və ya digər qərarları qəbul etmək səlahiyyətinə malik olmalıdır.

2. Sorğular sorğu edilən Tərəfin qanunvericiliyinə uyğun olaraq icra edilir, sorğuda göstərilən prosedurlar sorğu edilən Tərəfin qanunvericiliyində nəzərdə tutulan prosedurlarla ziddiyyət yaratmamaq şərtilə tətbiq olunur. Əgər nə bu Müqavilənin müddəaları, nə də sorğu xüsusi prosedurları müəyyən etmirsə, onda sorğu sorğu edilən Tərəfin müəyyən etdiyi prosedurlara uyğun olaraq icra olunur.

3. Əgər sorğu edilən Tərəfin mərkəzi orqanı sorğunun icrasının həmin Tərəfdə həyata keçirilən istintaq, cinayət təqibi və ya məhkəmə icraatına müdaxilə edəcəyini müəyyən edirsə və ya icranı zəruri hesab edilən şərtlər əsasında həyata keçirirsə, onda sorğu edilən Tərəfin mərkəzi orqanı sorğu edən Tərəfin mərkəzi orqanı ilə məsləhətləşmələr aparır. Əgər sorğu edən Tərəf yardımı sorğu edilən Tərəfin müəyyən etdiyi şərtlər əsasında qəbul edirsə, o, həmin şərtlərə əməl etməlidir.

4. Əgər sorğu edən Tərəfin mərkəzi orqanı bunu tələb edərsə, sorğu edilən Tərəf sorğunu və onun məzmununu məxfi saxlamaq üçün mümkün olan bütün tədbirləri həyata keçirir. Əgər sorğunun icrası belə məxfiliyi pozmadan mümkün deyilsə, sorğu edilən Tərəfin mərkəzi orqanı bu barədə sorğu edən Tərəfin mərkəzi orqanını məlumatlandırır və sonuncu sorğunun bundan asılı, olmayaraq icra olunub-olunmamasını müəyyən edir.

5. Sorğu edilən Tərəfin mərkəzi orqanı sorğunun icra vəziyyəti barədə sorğu edən Tərəfin mərkəzi orqanının müvafiq sorğusunu cavablandırır.

6. Sorğu edilən Tərəfin mərkəzi orqanı sorğunun icrasının nəticəsi barədə sorğu edən Tərəfin mərkəzi orqanını məlumatlandırır. Əgər sorğunun icrasından imtina edilirsə, icrası dayandırılırsa və ya təxirə salınırsa, onda sorğu edilən Tərəfin mərkəzi orqanı imtinanın, dayandırılmanın və ya təxirə salınmanın səbəbləri barədə sorğu edən Tərəfin mərkəzi orqanını məlumatlandırır.

Maddə 7

Xərclər

1. Sorğu edilən Tərəf sorğunun icrası ilə bağlı bütün xərcləri ödəyir və sorğu edən Tərəf ekspert xərclərini, tərcümə və stenoqram xərclərini və sorğu edən Tərəfin rahatlığı üçün və ya bu Müqavilənin 11-ci və 12-ci maddələrinin müddəalarına uyğun olaraq sorğu edilən Tərəfdən gələn şəxslərin gündəlik və yol xərclərini ödəyir.

2. Əgər sorğunun icrası zamanı müəyyən edilərsə ki, sorğunun icrası fövqəladə xarakterli xərclərə səbəb olacaq, mərkəzi orqanlar icranın hansı qayda və şərtlər əsasında davam etdirilməsinin müəyyən edilməsi üçün məsləhətləşmələr aparır.

Maddə 8

İstifadənin məhdudlaşdırılması

1. Sorğu edilən Tərəfin mərkəzi orqanı sorğu edən Tərəfdən xahiş edə bilər ki, bu Müqaviləyə əsasən əldə olunmuş hər hansı məlumat və ya sübutlardan sorğu edilən Tərəfin mərkəzi orqanının əvvəlcədən razılığı olmadan sorğuda göstərilməyən hər hansı istintaq, cinayət təqibi və ya məhkəmə icraatında istifadə edilməsin. Əgər sorğu edilən Tərəf bu barədə xahiş edirsə, onda sorğu edən Tərəf həmin şərtlərə əməl etməlidir.

2. Sorğu edilən Tərəfin mərkəzi orqanı bu Müqaviləyə əsasən təqdim edilmiş məlumat və ya sübutların məxfi saxlanılmasını və ya ancaq onun müəyyən etdiyi qayda və şərtlər əsasında istifadə edilməsini xahiş edə bilər. Əgər sorğu edilən Tərəf bu barədə xahiş edirsə, onda sorğu edən Tərəf həmin şərtlərə əməl etməlidir.

3. Bu maddənin 1-ci və 2-ci bəndlərində göstərilən qaydada sorğu edən Tərəfdə ictimaiyyət üçün açıq elan edilmiş məlumat və ya sübutlardan bundan sonra istənilən məqsəd üçün istifadə oluna bilər.

Maddə 9

Sorğu edilən Tərəfdə şahid ifadələrinin və ya sübutların götürülməsi

1. Bu Müqavilənin müddəalarına müvafiq olaraq sorğu edilən Tərəfdə ifadə verməli olan şəxs, əgər zərurət yaranarsa, məhkəməyə gəlmək, ifadə vermək və ya əşyaları, o cümlədən sənəd və materialları təqdim etmək üçün məcbur edilir.

2. Sorğu edilən Tərəfin qanunvericiliyində müəyyən edilmiş qaydada müvafiq olaraq sorğu edilən Tərəf sorğuda göstərilən şəxslərin sorğunun icrasında iştirak etmək üçün icazə verə bilər.

3. Əgər bu maddənin 1-ci bəndində qeyd olunan şəxs sorğu edən Tərəfin milli qanunvericiliyinə əsasən sübutları təqdim etməmək və ya ifadə verməmək hüququnu bəyan

edirsə, ifadə və ya sübutlar bundan asılı olmayaraq götürülə bilər və belə bəyanat məsələnin həmin Tərəfin orqanları tərəfindən həll olunması üçün sorğu edən Tərəfin mərkəzi orqanına bildirilir.

4. Sorğu edilən Tərəfdə əldə olunan sübutlar və ya bu maddəyə əsasən sorğu edən Tərəfin sorğusu ilə əlaqədar alınan ifadələr sorğu edilən Tərəfin hüquqi prosedurlarına müvafiq olaraq təsdiq olunur.

Maddə 10

Sənəd və materialların verilməsi

1. Sorğu edilən Tərəf ictimaiyyət üçün açıq olan sənəd və materialların sürətlərini təqdim edir.

2. Sorğu edilən Tərəf sorğu edən Tərəfi bu maddənin 1-ci bəndində göstərilməyən hər hansı digər sənəd və materialların surətləri ilə də təmin edə bilər, o şərtlə ki, həmin sənəd və materiallar milli təhlükəsizlik məsələlərinə aid olmasın.

Maddə 11

Sorğu edilən Tərəfdən xaricdə götürülən şahid ifadələri

1. Əgər sorğu edən Tərəf sorğu edilən Tərəfdə olan şəxsin sorğu edən Tərəfə gəlməsini xahiş edirsə, onda sorğu edilən Tərəf şəxsi onun razılığı ilə ifadə vermək üçün dəvət edir. Sorğu edilən Tərəfin mərkəzi orqanı sorğu edən Tərəfin mərkəzi orqanını görülmüş tədbirlər barədə məlumatlandırır.

2. Sorğu edən Tərəf şəxsə ödənilməli olan xərclərin hansı məbləğdə ödəniləcəyini göstərir. Gəlməyə razılıq verən şəxs xərclərin ödənilməsi üçün sorğu edən Tərəfdən pul avansının ödənilməsini xahiş edə bilər. Həmin avans sorğu edən Tərəfin Səfirliyi və ya Konsulluğu vasitəsilə ödənilə bilər.

3. Sorğu edən Tərəfin mərkəzi orqanı bu maddənin müddəalarına uyğun olaraq onun ərazisinə gələn şəxsi sorğu edilən Tərəfi tərk etməmişdən əvvəl törədilmiş hər hansı əməl və ya ittiham hökmü səbəbindən ona müvafiq məhkəmə sənədlərini təqdim etmir, həbs etmir və ya o, azadlığın digər növ məhdudlaşdırılmasına, o cümlədən verdiyi ifadəyə görə cinayət təqibinə məruz qalmır, həbs edilmir və ya cəzalandırılmır.

4. Əgər sorğu edən Tərəfə gələn şəxs azadlıqdadırsa və sorğu edən Tərəfi tərk etmək imkanı olduğu halda, onun orada olmasının daha tələb olunmadığı barədə rəsmi qaydada məlumatlandırıldıqdan sonra otuz ardıcıl gün ərzində oranı tərk etməmişsə və ya şəxs oranı tərk etdikdən sonra öz niyyətilə geri dönmüşsə, o, digər cinayətlərə görə cinayət məsuliyyətinə cəlb oluna bilər. Şəxsin özündən asılı olmayan səbəblərə görə ərazini tərk edə bilmədiyi müddət bura daxil edilmir.

Maddə 12

Həbsdə olan şəxslərin verilməsi

1. Sorğu edilən Tərəfdə həbsdə saxlanılan şəxs bu Müqaviləyə əsasən ifadə verməklə yardım göstərmək üçün, verilməsi tələb olunan şəxsin və Tərəflərin mərkəzi orqanlarının bu barədə razılığı olduğu təqdirdə müvəqqəti olaraq sorğu edən Tərəfin nəzarəti altında həbsə verilə bilər.

2. Bu maddənin məqsədləri üçün:

a) göndərən Tərəf başqa qərar qəbul etməzsə, qəbul edən Tərəf verilən şəxsi həbsdə saxlayır;

b) qəbul edən Tərəf verilən şəxsi onun verilməsindən sonra bir ay ərzində göndərən Tərəfin nəzarəti altında həbsə geri qaytarır;

c) verilən şəxsin qəbul edən Tərəfdə həbsdə saxlanıldığı müddətin göndərən Tərəfdə ona təyin olunmuş cəzaçəkmə müddətinə daxil edilməsi barədə zəmanət verilir.

Maddə 13

Həbsdə olan şəxslərin tranziti

1. Sorğu edilən Tərəf sorğu edən Tərəfdə məhkəmədə iştirak etməsi tələb olunan həbsdə saxlanılan şəxsin onun ərazisi vasitəsilə sorğu edən Tərəfə tranziti üçün icazə verə bilər.

2. Sorğu edilən Tərəf tranzit zamanı şəxsi həbsdə saxlamaq səlahiyyətinə malikdir.

Maddə 14

Şəxslərin və ya əşyaların yerinin müəyyən edilməsi və ya eyniləşdirilməsi

Əgər sorğu edən Tərəf sorğu edilən Tərəfdə şəxslərin və ya əşyaların yerinin müəyyən edilməsini və ya onların eyniləşdirilməsini xahiş edirsə, sorğu edilən Tərəf onların yerinin müəyyən edilməsi və ya onların eyniləşdirilmə-si üçün öz qanunvericiliyinə uyğun olaraq mümkün olan bütün tədbirləri həyata keçirir.

Maddə 15

Sənədlərin təqdim edilməsi

1. Sorğu edilən Tərəf sorğu edən Tərəfin bu Müqavilənin müddəalarına uyğun olaraq verdiyi hər hansı yardım haqqında sorğusuna tam və ya qismən aid olan sənədi təqdim etmək üçün mümkün olan bütün tədbirləri həyata keçirir.

2. Sorğu edən Tərəf şəxsin sorğu edən Tərəfin orqanı qarşısında çıxış etməsini tələb edən sənədin təqdim olunması barədə hər hansı sorğunu ağlabatan müddətdə nəzərdə tutulan həmin çıxışdan əvvəl təqdim edir.

3. Sorğu edilən Tərəf sənədin təqdim olunması barədə təsdiqnaməni sorğuda göstərilən qaydada geri qaytarır.

Maddə 16

Axtarış və müsadirə

1. Sorğu edilən Tərəf öz qanunvericiliyinə uyğun olaraq, əgər onun saxlanılması sorğu edilən Tərəfdə hüquq pozuntusu yaratmırsa, sorğu edən Tərəfdə istintaqı aparılan cinayətə aid olan hər hansı əşyanın axtarışı, müsadirəsi və ya verilməsi haqqında sorğunu icra edir.

2. Müsadirə edilmiş əmlaka cavabdeh olan hər bir rəsmi şəxs, əgər mümkündürsə, əşyanın eyniliyini və vəziyyətini, onun təfsirini, kəmiyyətini, çəkisini və sayını təsdiq et-

mək üçün sorğu edilən Tərəfin müəyyən etdiyi hüquqi prosedurlara əsasən müvafiq anketi doldurur.

3. Sorğu edilən Tərəfin mərkəzi orqanı verilməsi tələb olunan əşya ilə bağlı üçüncü şəxslərin maraqlarını müdafiə etmək üçün zəruri olan qayda və şərtlərə dair sorğu edən Tərəfin razılığını tələb edə bilər.

Maddə 17

Əşyaların geri qaytarılması

Əgər sorğu edilən Tərəfin mərkəzi orqanı bunu tələb edirsə, sorğu edən Tərəfin mərkəzi orqanı bu Müqaviləyə əsasən verilən sorğunun icrası ilə əlaqədar ona təqdim olunmuş hər hansı əşyam, o cümlədən sənədləri və materialları geri qaytarır.

Maddə 18

Götürmə ilə bağlı prosessual hərəkətlərin həyata keçirilməsində yardım

1. Əgər bir Tərəfin mərkəzi orqanı digər Tərəfdə yerləşən və həmin Tərəfin qanunvericiliyinə müvafiq olaraq götürməyə və ya müsadirəyə məruz qala bilən cinayət yolu ilə əldə olunmuş gəlir və ya cinayətin törədilməsində istifadə olunan alətlər haqqında məlumat əldə edirsə, o, bu barədə digər Tərəfin səlahiyyətli orqanını məlumatlandıra bilər. Əgər həmin Tərəf iş ilə əlaqədar yurisdiksiyaya malikdirsə, o, məsələ ilə əlaqədar hər hansı qərarın qəbul olunması üçün bu məlumatı öz orqanlarına təqdim edə bilər və həmin orqanlar qərarlarını öz qanunvericiliklərinə əsasən qəbul edir və digər Tərəfə görülmüş tədbirlər barədə məlumat verir.

2. Hər bir Tərəf öz qanunvericiliyi imkan verdiyi həcmdə cinayət yolu ilə əldə olunmuş gəlir və cinayətin törədilməsində istifadə olunan alətlərin götürülməsi, zərərçəkmişlərə vurulmuş ziyanın ödənilməsi və onların müdafiəsi ilə bağlı prosessual hərəkətlərin yerinə yetirilməsində digərinə yardım göstərir.

3. Cinayət yolu ilə əldə olunmuş gəlir və ya cinayətin törədilməsində istifadə olunan alətlərə məsul olan Tərəf onlardan öz qanunvericiliyinə uyğun olaraq istifadə edir. Hər bir Tərəf təqdim edən Tərəfin qanunvericiliyi imkan verdiyi həcmdə və onun zəruri hesab etdiyi qaydalar əsasında həmin əmlakı və ya onun satışından əldə olunan gəlirləri digər Tərəfə tam və ya qismən verə bilər.

Maddə 19

Bu Müqavilədə müəyyən edilən yardım və prosedurlar hər bir Tərəfi qüvvədə olan digər beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərdən azad etmir.

Maddə 20

Əgər Tərəflərin mərkəzi orqanları razılıq əldə etmək iqtidarında deyillərsə, bu Müqavilənin icrası və təfsiri ilə əlaqədar meydana çıxan hər hansı mübahisə məsləhətləşmələr yolu ilə diplomatik kanallar vasitəsilə həll edilir.

Maddə 21

Ratifikasiya və ləğv etmə

1. Bu Müqavilə ratifikasiya edilir və ratifikasiya haqqında sənədlər mübadilə edilir. Bu

Müqavilə ratifikasiya haqqında sənədlərin mübadiləsi tarixindən otuz gün sonra qüvvəyə minir.

2. Hər bir Tərəf bildiriş yolu ilə yazılı şəkildə diplomatik kanallar vasitəsilə istənilən vaxt bu Müqaviləni ləğv edə bilər. Müqavilə belə bildirişin verildiyi tarixdən altı ay sonra ləğv edilir. Lakin artıq başlanmış işlərin bu Müqavilə ilə tənzimlənməsi onların bitməsinə qədər davam etdirilir.

Bunun təsdiqi olaraq aşağıda imza edənlər, onların hökumətləri tərəfin-dən lazımi qaydada səlahiyyətləndirilərək bu Müqaviləni imzaladılar.

Abu-Dabi şəhərində 20 noyabr 2006-cı il tarixində Azərbaycan, ərəb və ingilis dillərində olan nüsxələrdə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Müqavilənin təfsiri ilə bağlı fikir ayrılığı yarandıqda ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN	BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ ADINDAN
FİKRƏT MƏMMƏDOV	*NAHİR ƏL-ZAHİRİ*
Ədliyyə naziri	*Ədliyyə naziri*

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında" 2006-cı il noyabrın 20-də Abu-Dabi şəhərində imzalanmış Konvensiya təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№295-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya

Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya bağlamaq məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Fəsil I

KONVENSİYANIN ƏHATƏ DAİRƏSİ

Maddə 1

Əhatə olunan şəxslər

Bu Konvensiya Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olan şəxslərə tətbiq edilir.

Maddə 2

Əhatə olunan vergilər

1. Bu Konvensiya, vergitutma üsulundan asılı olmayaraq, Razılığa gələn Dövlət və ya onun inzibati ərazi bölmələri və ya yerli hakimiyyət orqanları, yaxud yerli hökumətləri tərəfindən gəlirlərə və əmlaka görə tutulan vergilərə tətbiq edilir.

2. Gəlirlərə və əmlaka görə vergilərə - gəlirin ümumi məbləğindən, əmlakın ümumi dəyərindən və ya gəlirin və ya əmlakın elementlərindən tutulan bütün vergilər, o cümlədən daşınar və ya daşınmaz əmlakın özgəninkiləşdirilməsindən gəlirlərdən vergilər, müəssisələr tərəfindən ödənilən əməkhaqqı və ya maaşların ümumi məbləğlərindən vergilər, həmçinin əmlakın dəyərinin artımından vergilər aiddir.

Konvensiyanın tətbiq edildiyi mövcud vergilər xüsusilə aşağıdakılardır:

a) Azərbaycan Respublikasında:

(i) hüquqi şəxslərin mənfəət vergisi;

(ii) fiziki şəxslərin gəlir vergisi;

(iii) əmlak vergisi;

(bundan sonra "Azərbaycan vergisi" adlanır);

b) Birləşmiş Ərəb Əmirliklərində:

(i) gəlir vergisi;

(ii) korporativ vergi;

(bundan sonra "Birləşmiş Ərəb Əmirlikləri vergisi" adlanır).

4. Bu Konvensiya həmçinin onun imzalandığı tarixdən sonra mövcud vergilərə əlavə olaraq və ya onların əvəzinə tətbiq edilən istənilən eyni və ya mahiyyətcə oxşar vergilərə də tətbiq edilir. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları öz müvafiq vergi qanunvericiliklərində baş verən hər bir əhəmiyyətli dəyişiklik barədə bir-birini xəbərdar edirlər.

Fəsil II

ANLAYIŞLAR

Maddə 3

Ümumi anlayışlar

1. Kontekstdən başqa məna ahnmırsa, bu Konvensiyanın məqsədləri üçün:

a) "Azərbaycan" termini - Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına

mənsub olan sektoru və Azərbaycan Respublikasının üzərindəki hava məkanı da daxil olmaqla, yerin təki, dənizin dibi və təbii sərvətlərə münasibətdə Azərbaycan Respublikasının suveren hüquqlarının və yurisdiksiyasının tətbiq edildiyi Azərbaycan Respublikası ərazisini, habelə beynəlxalq hüquqa və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq müəyyən edilmiş və gələcəkdə müəyyən edilə bilən istənilən digər ərazini bildirir;

b) "Birləşmiş Ərəb Əmirlikləri" termini - Birləşmiş Ərəb Əmirliklərini bildirir və coğrafi mənada ərazi dənizi və dənizaltı ərazilər də daxil olmaqla, Birləşmiş Ərəb Əmirliklərinin ərazisi və adalarını, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin özünün daxili qanunvericiliyi və dəniz sularında olan təbii, bioloji və mineral resursların kəşfiyyatı və işlənməsinə dair beynəlxalq hüquqa müvafiq olaraq öz suveren hüquqlarını tətbiq etdiyi eksklüziv iqtisadi zona və kontinental şelfi ifadə edir;

c) "Razılığa gələn Dövlət" və "Razılığa gələn digər Dövlət" terminləri - kontekstdən asılı olaraq Azərbaycanı və ya Birləşmiş Ərəb Əmirliklərini bildirir;

d) "şəxs" termini - fiziki şəxsi, şirkəti və şəxslərin hər hansı digər birliklərini bildirir;

e) "şirkət" termini - hər hansı korporativ qurumu və ya vergi məqsədləri üçün korporativ qurum kimi baxılan hər hansı təşkilatı bildirir;

f) "Razılığa gələn Dövlətin müəssisəsi" və "Razılığa gələn digər Dövlətin müəssisəsi" terminləri - müvafiq olaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən idarə edilən müəssisəni və Razılığa gələn digər Dövlətin rezidenti tərəfindən idarə edilən müəssisəni bildirir;

g) "beynəlxalq daşıma" termini - Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən istismar edilən dəniz və ya hava gəmiləri vasitəsilə yerinə yetirilən istənilən daşımaları (dəniz və ya hava gəmisinin müstəsna olaraq Razılığa gələn digər Dövlətin məntəqələri arasında istismar edilməsi hallan istisna olmaqla) bildirir;

(h) "milli şəxs" termini:

(i) Razılığa gələn Dövlətin vətəndaşı olan istənilən fiziki şəxsi;

(ii) özünün müvafiq statusunu Razılığa gələn Dövlətdə qüvvədə olan qanunvericiliyə müvafiq olaraq almış istənilən hüquqi şəxsi, tərəfdaşlığı və ya assosiasiyanı bildirir.

i) "səlahiyyətli orqan" termini:

Azərbaycanda - Vergilər Nazirliyi və Maliyyə Nazirliyini; Birləşmiş Ərəb Əmirliklərində - maliyyə və sənaye naziri və ya onun səlahiyyətli nümayəndəsini bildirir.

2. Razılığa gələn Dövlət tərəfindən bu Konvensiyanın istənilən vaxt tətbiqi zamanı burada müəyyən edilməmiş hər hansı termin, kontekst başqa cür tələb etmirsə, Konvensiyanın tətbiq edildiyi vergilərə münasibətdə həmin vaxt həmin Dövlətin qanunvericiliyində nəzərdə tutulmuş mənanı daşıyır.

Maddə 4

Rezident

1. Bu Konvensiyanın məqsədləri üçün "Razılığa gələn Dövlətin rezidenti" termini:

(a) Azərbaycana münasibətdə: həmin Dövlətin qanunvericiliyinə müvafiq olaraq yaşayış yerinə, daimi olduğu yerə, qeydiyyat yerinə, idarəetmə yerinə və ya oxşar xarakterli digər meyarlara əsasən orada vergiyə cəlb edilə bilən şəxsi;

(b) Birləşmiş Ərəb Əmirliklərinə münasibətdə: Birləşmiş Ərəb Əmirliklərində yaşayış yerinə malik olan və Birləşmiş Ərəb Əmirliklərinin milli şəxsi olan fiziki şəxsi və Birləşmiş Ərəb Əmirliklərində inkorporasiya edilmiş şirkəti bildirir.

2. 1-ci bəndin məqsədləri üçün Razılığa gələn Dövlətin rezidenti anlayışına aşağıdakılar aid edilir:

a) Razılığa gələn həmin Dövlətin Hökuməti və ya onun inzibati ərazi və ya siyasi bölmələri və ya yerli hakimiyyət orqanları;

b) Razılığa gələn Dövlətdə dövlət qanununa əsasən yaradılmış istənilən hökumət institutu, məsələn, Mərkəzi Bank, korporasiya, fond, orqan, təşkilat, agentlik və ya digər oxşar qurum;

c) Razılığa gələn həmin Dövlətdə yaradılmış və kapitalında Razılığa gələn Dövlətin digər Dövlətlərlə birgə iştirak etdiyi istənilən qurum.

3. Əgər 1-ci bəndin müddəalarına müvafiq olaraq, fiziki şəxs Razılığa gələn Dövlətlərdən hər ikisinin rezidentdirsə, bu halda onun statusu aşağıdakı kimi müəyyən edilir:

a) o, yalnız daimi yaşayış yerinə malik olduğu Dövlətin rezidenti hesab edilir; əgər onun hər iki Dövlətdə daimi yaşayış yeri vardırsa, o, yalnız şəxsi və iqtisadi əlaqələrinin daha sıx olduğu (həyati mənafelərin mərkəzi) Dövlətin rezidenti hesab edilir;

b) əgər onun həyati mənafelərinin mərkəzinin yerləşdiyi Dövləti müəyyən etmək mümkün deyildirsə və ya onun bu Dövlətlərdən heç birində daimi yaşayış yeri yoxdursa, bu halda o, yalnız adətən yaşadığı Dövlətin rezidenti hesab edilir;

c) əgər o, adətən hər iki Dövlətdə yaşayırsa və ya onlardan heç birində yaşamırsa, o, yalnız milli şəxsi olduğu Dövlətin rezidenti hesab edilir;

d) əgər o, hər iki Dövlətin milli şəxsidirsə və ya onlardan heç birinin milli şəxsi deyildirsə, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları məsələni qarşılıqlı razılaşma yolu ilə həll edirlər.

4. Əgər 1-ci bəndin müddəalarına görə, fiziki şəxs olmayan şəxs Razılığa gələn Dövlətlərdən hər ikisinin rezidentdirsə, o, yalnız faktiki idarəetmə yerinin yerləşdiyi Dövlətin rezidenti hesab edilir.

Maddə 5

Təbii resurslar

Neft fəaliyyəti də daxil olmaqla, təbii resursların kəşfiyyatı və ya çıxarılması, yaxud işlənməsi ilə əlaqədar olan bütün fəaliyyət, o cümlədən bu fəaliyyət növləri ilə bağlı xid-

mətlərin göstərilməsi, ərazisində bu fəaliyyətin hə-yata keçirildiyi Razılığa gələn Dövlətin qanun və qaydalarına müvafiq olaraq tənzimlənəcəkdir.

Maddə 6

Daimi nümayəndəlik

1. Bu Konvensiyanın məqsədləri üçün "daimi nümayəndəlik" termini, müəssisənin sahibkarlıq fəaliyyətinin tamamilə və ya qismən həyata keçirildiyi daimi fəaliyyət yerini bildirir.

2. "Daimi nümayəndəlik" termini xüsusilə aşağıdakıları əhatə edir:

a) idarəetmə yeri;

b) bölmə;

c) ofis;

d) fabrik;

e) emalatxana;

f) qurğu, tikili və ya gəmi, yaxud təbii ehtiyatların kəşfiyyatı üçün istifadə edilən hər hansı digər yer;

g) yataq, neft və ya qaz quyusu, karxana və ya təbii ehtiyatların hasil olunduğu hər hansı digər yer;

h) ferma və ya plantasiya.

3. "Daimi nümayəndəlik" terminə həmçinin aşağıdakılar aid edilir:

a) tikinti meydançası, quraşdırma və ya yığma layihəsi və ya bunlarla bağlı nəzarət və ya məsləhət fəaliyyəti - yalnız bu cür meydança, layihə və ya fəaliyyət 6 (altı) aydan artıq davam etdikdə;

b) məsləhət xidmətləri də daxil olmaqla, müəssisə tərəfindən öz işçiləri və ya bu cür məqsədlər üçün cəlb edilmiş digər heyət vasitəsilə xidmətlərin göstərilməsi - yalnız bu xarakterli fəaliyyət Razılığa gələn digər Dövlətin ərazisində (eyni və ya əlaqəli layihə üçün) istənilən 12 (on iki) aylıq dövr ərzində ümumilikdə 6 (altı) aydan artıq bir dövr və ya dövrlər ərzində davam etdikdə.

4. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, "daimi nümayəndəlik" terminə aşağıdakılar aid edilmir:

a) qurğulardan müəssisəyə məxsus olan malların və ya məmulatların müstəsna olaraq saxlanılması və ya nümayiş etdirilməsi məqsədi üçün istifadə edilməsi;

b) müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarının müstəsna olaraq saxlanılma və ya nümayiş etdirilmə məqsədi üçün saxlanılması;

c) müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarının müstəsna olaraq başqa müəssisə tərəfindən emal edilmək məqsədi üçün saxlanılması;

d) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq müəssisə üçün mal və ya məmulatların satın alınması və ya informasiya toplanılması məqsədi üçün saxlanılması;

e) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq müəssisə üçün hazırlıq və ya yardımçı xarakterli istənilən digər fəaliyyətin göstərilməsi məqsədi üçün saxlanılması;

f) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq (a) - (e) yarımbəndlərində sadalanmış fəaliyyət növlərinin istənilən kombinasiyası üçün saxlanılması - bir şərtlə ki, daimi sahibkarlıq fəaliyyəti yerinin bu kombinasiyanın nəticəsi olan məcmu fəaliyyəti hazırlıq və ya yardımçı xarakter daşısın.

5. 1-ci və 2-ci bəndlərin müddəalarından asılı olmayaraq, əgər 7-ci bəndin tətbiq edildiyi müstəqil statuslu agentdən fərqli şəxs Razılığa gələn Dövlətdə Razılığa gələn digər Dövlətin müəssisəsinin adından fəaliyyət göstərirsə, həmin müəssisə həmin şəxsin onun üçün həyata keçirildiyi hər hansı fəaliyyətə münasibətdə adı birinci çəkilən Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilir, əgər bu cür şəxs:

a) müəssisənin adından müqavilə bağlamaq səlahiyyətlərinə malikdirsə və adətən adı birinci çəkilən Dövlətdə bu səlahiyyətlərdən istifadə edirsə, bir şərtlə ki, həmin şəxsin fəaliyyəti 4-cü bənddə göstərilmiş fəaliyyətlə məhdudlaşmasın, belə ki, həmin fəaliyyət, hətta daimi sahibkarlıq fəaliyyəti yeri vasitəsilə həyata keçirilsə belə, həmin bəndin müddəalarına əsasən bu cür daimi sahibkarlıq fəaliyyəti yerini daimi nümayəndəliyə çevirmir, və ya

b) bu cür səlahiyyətlərə malik olmadan, adətən adı birinci çəkilən Dövlətdə bu cür müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlan saxlayırsa və oradan müntəzəm olaraq həmin müəssisənin adından mal və ya məmulatlar çatdırırsa.

6. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin sığorta müəssisəsi, təkrarsığorta istisna olmaqla, Razılığa gələn digər Dövlətin ərazisində 7-ci bəndin tətbiq edildiyi müstəqil statuslu agentdən fərqli şəxs vasitəsilə sığorta mükafatlan yığırsa və ya orada yerləşən riskləri sığorta edirsə, həmin digər Dövlətin ərazisində daimi nümayəndəliyə malik olan müəssisə hesab edilir.

7. Müəssisə Razılığa gələn Dövlətdə sadəcə olaraq broker, baş komisyon agenti və ya müstəqil statuslu hər hansı digər agent vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirdiyinə görə həmin Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilmir, bir şərtlə ki, bu cür şəxslər adi fəaliyyətləri çərçivəsində fəaliyyət göstərsinlər.

8. Razılığa gələn Dövlətin rezidenti olan şirkətin Razılığa gələn digər Dövlətin rezidenti olan və ya həmin digər Dövlətdə sahibkarlıq fəaliyyətini həyata keçirən (daimi nümayəndəlik vasitəsilə və ya başqa tərzdə) şirkətə nəzarət etməsi və ya onun nəzarətində olması faktı özlüyündə bu şirkətlərdən heç birini digərinin daimi nümayəndəliyinə çevirmir.

Fəsil III

GƏLİRİN VERGİYƏ CƏLB EDİLMƏSİ

Maddə 7

Daşınmaz əmlakdan gəlirlər

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan əldə edilən gəlirlər (kənd və ya meşə təsərrüfatından gəlirlər də da-

xil olmaqla) həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. "Daşınmaz əmlak" termini həmin əmlakın yerləşdiyi Razılığa gələn Dövlətin qanunvericiliyinə əsasən malik olduğu mənanı daşıyır. Bu termin istənilən halda, daşınmaz əmlaka münasibətdə yardımçı əmlakı, kənd və meşə təsərrüfatında istifadə edilən mal-qara və avadanlığı, torpaq mülkiyyəti barədə ümumi qanunvericiliyin müddəalarının tətbiq edildiyi hüquqları, daşınmaz əmlakın uzufruktunu və mineral ehtiyatların, mənbələrin və digər təbii resursların işlənməsi və ya işlənmə hüququ əvəzində ödənilən dəyişkən və ya təsbit olunmuş ödənişlərə olan hüquqları əhatə edir; dəniz və hava gəmiləri daşınmaz əmlak hesab edilmir.

3. 1-ci bəndin müddəaları daşınmaz əmlakın birbaşa istifadəsindən, icarəyə verilməsindən və ya hər hansı digər formada istifadəsindən əldə edilən gəlirlərə tətbiq edilir.

4. 1-ci və 3-cü bəndlərin müddəaları, həmçinin müəssisənin daşınmaz əmlakından gəlirlərə və müstəqil fərdi xidmətlərin göstərilməsi üçün istifadə edilən daşınmaz əmlakdan gəlirlərə də tətbiq edilir.

Maddə 8

Sahibkarlıq fəaliyyətindən mənfəət

1. Razılığa gələn Dövlətin müəssisəsinin mənfəəti yalnız həmin Dövlətdə vergiyə cəlb edilir, bir şərtlə ki, həmin müəssisə sahibkarlıq fəaliyyətini Razılığa gələn digər Dövlətdə, orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirməsin. Əgər müəssisə sahibkarlıq fəaliyyətini yuxanda göstərilən tərzdə həyata keçirirsə, bu halda onun mənfəətinin yalnız həmin daimi nümayəndəliyə aid edilə bilən hissəsi həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. 3-cü bəndin müddəaları nəzərə alınmaqla, əgər Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirirsə, Razılığa gələn Dövlətlərin hər birində bu daimi nümayəndəliyin mənfəətinə, onun eyni və ya oxşar şəraitdə, eyni və ya oxşar fəaliyyətlə məşğul olan müstəqil və ayrıca müəssisə olduğu və daimi nümayəndəliyi olduğu müəssisədən tamamilə asılı olmadan fəaliyyət göstərdiyi halda əldə edə biləcəyi mənfəət aid edilir.

3. Daimi nümayəndəliyin mənfəəti müəyyən edilərkən, daimi nümayəndəliyin yerləşdiyi Razılığa gələn Dövlətdə və ya hər hansı digər yerdə çəkilməsindən asılı olmayaraq, daimi nümayəndəliyin məqsədləri üçün çəkilmiş xərclərin, o cümlədən idarəetmə və ümumi inzibati xərclərin çıxılmasına yol verilir.

4. Əgər Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə aid olan mənfəət adətən müəssisənin ümumi mənfəətinin onun ayn-ayn hissələri arasında bölüşdürülməsi əsasında müəyyən edilirsə, bu maddənin 2-ci bəndinin müddəaları, vergiyə cəlb edilməli olan mənfəətin bu cür bölgü vasitəsilə müəyyənləşdirilməsində Razılığa gələn Dövlətə heç bir maneə yaratmır; bununla belə, tətbiq edilən bölgü metodu elə olmalıdır ki, nəticə bu maddədə nəzərdə tutulan prinsiplərə müvafiq olsun.

5. Daimi nümayəndəlik tərəfindən sadəcə olaraq öz müəssisəsi üçün mal və ya məmulat alınmasına görə həmin daimi nümayəndəliyə heç bir mənfəət aid edilmir.

6. Əvvəlki bəndlərin məqsədləri üçün, daimi nümayəndəliyə aid edilə bilən mənfəət hər il eyni metodla müəyyən edilir, bir şərtlə ki, bunun əksi üçün tutarlı və kifayət qədər əsaslı səbəb olmasın.

7. Əgər mənfəətə, barəsində bu Konvensiyanın digər maddələrində ayrıca söhbət açılan gəlir növləri daxildirsə, bu halda bu maddənin müddəaları həmin maddələrin müddəalarına təsir göstərmir.

Maddə 9

Dəniz və hava nəqliyyatı

1. Razılığa gələn Dövlətin müəssisəsinin dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarından mənfəəti yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2. Bu maddənin məqsədləri üçün dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarından əldə olunan mənfəətə aşağıdakılar aiddir:

a) dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda təsadüfi əsasda heyətsiz icarəyə verilməsindən mənfəət;

b) konteynerlərin (konteynerlərin daşınması üçün treylerlər və əlaqədar avadanlıq da daxil olmaqla) beynəlxalq daşımalarda istifadəsi, saxlanılması və ya icarəyə verilməsindən mənfəət;

c) digər Tərəfə göstərilən texniki mühəndislik xidmətlərindən mənfəət, bir şərtlə ki, bu fəaliyyət növləri dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarına münasibətdə tamamlayıcı və ya qeyri-müntəzəm xarakter daşısın;

d) bilavasitə dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarından əldə olunmuş məbləğlərə hesablanan və bu cür istismara münasibətdə qeyri-müntəzəm xarakter daşıyan faizlər.

3.1-ci və 2-ci bəndlərin müddəaları həmçinin pulda (pool), birgə sahibkarlıq fəaliyyəti və ya beynəlxalq əməliyyat təşkilatında iştirakdan mənfəətədə tətbiq edilir.

Maddə 10

Qarşılıqlı əlaqəli müəssisələr

1. Əgər:

a) Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, ona nəzarətdə və ya onun kapitalında birbaşa və ya dolayısı ilə iştirak edirsə və ya

b) eyni şəxslər Razılığa gələn Dövlətin müəssisəsinin və Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, onlara nəzarətdə və ya onların kapitalında birbaşa və ya dolayısı ilə iştirak edirlərsə,

və hər bir halda bu iki müəssisənin qarşılıqlı kommersiya və ya maliyyə münasibətlərində onlar arasında yaradılmış və ya müəyyən edilmiş şərtlər müstəqil müəssisələr arasında mövcud ola biləcək şərtlərdən fərqlidirsə, bu halda onlardan birinə hesablana "biləcək, lakin bu şərtlər səbəbindən hesablanmamış hər hansı mənfəət, həmin müəssisənin mənfəətinə daxil edilə və müvafiq qaydada vergiyə cəlb edilə bilər.

2. Əgər Razılığa gələn Dövlət həmin Dövlətin müəssisəsinin mənfəətinə Razılığa gələn digər Dövlətin müəssisəsinin həmin digər Dövlətdə vergiyə cəlb edilmiş mənfəətini daxil edirsə və müvafiq qaydada vergiyə cəlb edirsə və bu tərzdə daxil edilmiş mənfəət, bu müəssisələr arasındakı münasibətlər müstəqil müəssisələr arasında ola biləcək münasibətlər olduğu halda adı birinci çəkilən Dövlətin müəssisəsinə hesablana biləcək mənfəətdirsə, bu hal-da həmin digər Dövlət orada bu mənfəətdən hesablanan verginin məbləğinə müvafiq düzəliş edir. Bu cür düzəlişin müəyyən edilməsində bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınır və Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları zəruri olduqda bir-biri ilə məsləhətləşmələr aparırlar.

Maddə 11

Dividendlər

1. Razılığa gələn Dövlətin rezidenti olan şirkət tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən dividendlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür dividendlər həmçinin həmin dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin dividendlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi aşağıdakılardan artıq olmamalıdır:

a) dividendlərin ümumi məbləğinin 5 faizindən - əgər dividendlərin faktiki sahibi 4-cü maddənin 2-ci bəndinin (a) və (b) yarımbəndlərində göstərilmiş qurumdursa;

b) dividendlərin ümumi məbləğinin 10 faizindən - bütün digər hallarda.

Bu bənd dividendlər ödənilən mənfəətə münasibətdə şirkətin vergiyə cəlb edilməsinə təsir etmir.

3. Bu maddədə istifadə edilən "dividendlər" termini səhmlərdən, təsisçilərin səhmlərindən və ya borc tələbləri olmayan, mənfəətdə iştirak hüququ verən digər hüquqlardan gəlirləri, o cümlədən gəlirləri bölüşdürən şirkətin rezident olduğu Dövlətin qanunvericiliyinə müvafiq olaraq, səhmlərdən gəlirlərin cəlb edildiyi eyni qaydada vergitutmaya cəlb edilən digər korporativ hüquqlardan əldə edilən gəlirləri bildirir.

4. 1-ci və 2-ci bəndlərin müddəaları, dividendlərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və dividendlərin ödənilməsi ilə bağlı olan holdinqin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Əgər Razılığa gələn Dövlətin rezidenti olan şirkət Razılığa gələn digər Dövlətdən mənfəət və ya gəlir əldə edirsə, həmin digər Dövlət, hətta şirkət tərəfindən ödənilən dividendlər və ya onun bölüşdürülməmiş mənfəəti tamamilə və ya qismən həmin digər Dövlətdə yaranan mənfəət və ya gəlirdən ibarət olduğu halda belə, dividendlərin həmin digər Dövlətin rezidentinə ödənildiyi və ya dividendlərin ödənilməsi ilə bağlı olan holdinqin həmin digər Dövlətdə yerləşən daimi nümayəndəlik və ya daimi baza ilə faktiki

olaraq əlaqəli olduğu hallar istisna edilməklə, nə şirkət tərəfindən ödənilən dividendlərə hər hansı vergi tətbiq edə, nə də şirkətin bölüşdürülməmiş mənfəətini şirkətin bölüşdürülməmiş mənfəəti üzrə vergiyə cəlb edə bilər.

Maddə 12

Faizlər

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür faizlər həmçinin onların yarandığı Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin faizlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi faizlərin ümumi məbləğinin 7 faizindən artıq olmamalıdır.

3. Bu maddədə istifadə edilən "faizlər" termini ipoteka təminatının olub-olmamasından və borcluların mənfəətində iştirak hüququ verib-verməməsindən asılı olmayaraq, istənilən növ borc tələblərindən gəlirləri və xüsusilə hökumətin qiymətli kağızlarından gəlirləri və istiqrazlardan və ya borc öhdəliklərindən gəlirləri, o cümlədən bu cür qiymətli kağızlar, istiqrazlar və ya borc öhdəlikləri üzrə mükafatlar və uduşları bildirir. Gecikdirilmiş ödənişlərə görə cərimələr bu maddənin məqsədi üçün faizlər hesab edilmir.

4. 1-ci və 2-ci bəndlərin müddəaları, faizlərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, faizlərin yarandığı Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitə silə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və faizlərin ödənilməsi ilə bağlı olan borc öhdəliyinin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Faizlərin ödəyicisi Razılığa gələn Dövlətin rezidenti olduğu halda, faizlər həmin Dövlətdə yaranmış hesab edilir. Bununla belə, faizləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə və ya daimi bazaya sahib olduğu və faizlər ödənilən borcun bu cür daimi nümayəndəlik və ya daimi baza ilə bağlı yarandığı və bu faizlərin ödənilməsi üzrə xərclərin bu cür daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkildiyi halda, bu cür faizlər daimi nümayəndəliyin və ya daimi bazanın yerləşdiyi Dövlətdə yaranmış hesab edilir.

6. Əgər ödəyici və faktiki sahib arasında və ya onların hər ikisi ilə hər hansı digər şəxs arasındakı xüsusi münasibətlər səbəbindən, borc tələbi ilə əlaqədar ödənilən faizlərin məbləği, bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla biləcək məbləğdən artıqdırsa, bu maddənin müddəaları yalnız adı sonuncu çəkilən məbləğə tətbiq edilir. Bu halda, ödənişlərin artıq hissəsi, bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilir.

7. Faizlərin ödənilməsi ilə bağlı olan borc tələbinin yaradılması və ya müəyyən edilməsi ilə əlaqədar olan hər hansı bir şəxsin əsas məqsədi və ya əsas məqsədlərindən biri bu cür yaradılma və ya müəyyən etmə yolu ilə bu maddənin üstünlüklərindən yaranmaq olduğu halda, bu maddənin müddəaları tətbiq edilmir.

8. Bu maddənin 2-ci bəndinin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətdə yaranan və aşağıdakılar tərəfindən əldə edilən və ya ödənilən faizlər həmin Dövlətdə vergidən azad edilir:

a) Razılığa gələn Dövlətin Hökuməti, onun inzibati ərazi bölməsi və ya yerli hakimiyyət orqanı, yaxud Mərkəzi Bankı və ya maliyyə institutu, xüsusilə:

(i) Azərbaycan Respublikasına münasibətdə - Dövlət Neft Fondu;

(ii) Birləşmiş Ərəb Əmirliklərinə münasibətdə - Abu-Dabi İnvestisiya Orqanı və ya Abu-Dabi İqtisadi İnkişaf Fondu;

b) tamamilə Razılığa gələn Dövlətlərin Hökumətlərinə məxsus olan və vaxtaşırı Razılığa gələn Dövlətlər arasında razılaşdırıla bilən istənilən digər maliyyə institutu.

9. Bu maddənin 2-ci bəndinin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin onların faktiki sahibi olan rezidentinə, adı birinci çəkilən Dövlətin Hökuməti adından həmin Hökumətin səlahiyyət verilmiş orqanı tərəfindən zəmanət verilmiş borca münasibətdə ödənilən faizlər adı birinci çəkilən Dövlətdə vergidən azad edilir.

10. Əgər Razılığa gələn Dövlətin Hökuməti dolayısı ilə agent vasitəsilə və ya başqa tərzdə borcda iştirak edirsə, 8-ci maddə həmin Hökumətin bu cür borcda iştirakına proporsional qaydada tətbiq ediləcəkdir. İştirak Razılığa gələn Dövlətin səlahiyyətli orqanı tərəfindən bu barədə arayışla təsdiq ediləcəkdir.

Maddə 13

Royaltilər

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən royaltilər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür royaltilər həmçinin onların yarandığı Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin royaltilərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentdirsə, tutulan vergi aşağıdakılardan artıq olmamalıdır:

a) royaltilərin ümumi məbləğinin 5 faizindən - royaltilər hər hansı kompyuter proqram təminatı və ya hər hansı patentin istifadəsi və ya istifadə hüququnun verilməsinə görə və ya sənaye, kommersiya, yaxud elmi təcrübəyə dair informasiyaya görə ödənilirsə; və

b) royaltilərin ümumi məbləğinin 10 faizindən - bütün digər hallarda.

3. Bu maddədə istifadə olunan "royaltilər" termini hər hansı ədəbiyyat, incəsənət və ya elm əsərləri, o cümlədən kinofilmlər üzrə müəlliflik hüquqlarının, kompyuter proqramları, hər hansı patent, ticarət markası, dizayn və ya model, plan, məxfi düstur və ya prosesin istifadəsi və ya istifadə hüququ əvəzində və ya sənaye, kommersiya və ya elmi avadanlığın istifadəsi və ya istifadə hüququ əvəzində, yaxud sənaye, kommersiya və ya elmi təcrübəyə (know-how) dair informasiya əvəzində alınan istənilən növ ödənişləri bildirir.

4. 1-ci və 2-ci bəndlərin müddəaları, royaltilərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, royaltilərin yarandığı Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və royaltilərin ödənilməsi ilə bağlı olan hüquq və ya əmlakın bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Royaltilərin ödəyicisi Razılığa gələn Dövlətin rezidenti olduğu halda, royaltilər həmin Dövlətdə yaranmış hesab edilir. Bununla belə, royaltiləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə və ya daimi bazaya sahib olduğu və royaltiləri ödəmək öhdəliyinin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə bağlı yarandığı və bu royaltilərin ödənilməsi üzrə xərclərin bu cür daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkildiyi halda, bu cür royaltilər daimi nümayəndəliyin və ya daimi bazanın yerləşdiyi Dövlətdə yaranmış hesab edilir.

6. Əgər ödəyici və faktiki sahib arasında və ya onların hər ikisi ilə hər hansı digər şəxs arasındakı xüsusi münasibətlər səbəbindən istifadə, hüquq və ya informasiya ilə əlaqədar ödənilən royaltilərin məbləği, bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla biləcək məbləğdən artıqdırsa, bu maddənin müddəaları yalnız adı sonuncu çəkilən məbləğə tətbiq edilir. Bu halda ödənişlərin artıq hissəsi bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilir.

Maddə 14

Əmlakın dəyərinin artımı

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən, 6-cı maddədə qeyd edilmiş və Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Razılığa gələn Dövlətin rezidenti tərəfindən:

a) öz dəyərini və ya dəyərinin çox hissəsini bilavasitə və ya dolayısı ilə Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan alan səhmlərin;

və ya

b) aktivləri əsasən Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlak və ya (a) yarımbəndində göstərilmiş səhmlərdən ibarət olan tərəfdaşlıqdakı iştirak payının özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

3. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsini təşkil edən daşınar əmlakın və ya Razılığa gələn Dövlətin rezidentinin müstəqil fərdi xidmətlər göstərmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə sərəncamında olan daimi bazaya aid daşınar əmlakın özgəninkiləşdirilməsindən gəlirlər, bu cür daimi nümayəndəliyin (aynlıqda və ya bütün müəssisə ilə birlikdə) və ya bu cür daimi bazanın özgəninkiləşdirilməsindən

gəlirlər də daxil olmaqla həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

4. Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmilərinin və ya bu cür dəniz və ya hava gəmilərinin istismarı ilə bağlı olan daşınar əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

5. 1-ci, 2-ci, 3-cü və 4-cü bəndlərdə qeyd edilənlər istisna edilməklə, hər hansı əmlakın özgəninkiləşdirilməsindən gəlirlər yalnız əmlakı özgəninkiləşdirən şəxsin rezident olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb edilir.

Maddə 15

Müstəqil fərdi xidmətlər

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən peşəkar xidmətlərdən və ya müstəqil xarakterli digər fəaliyyətlərdən əldə edilən gəlirlər onun öz fəaliyyətini həyata keçirmək üçün Razılığa gələn digər Dövlətdə müntəzəm istifadə etdiyi daimi bazaya sahib olduğu hallar istisna edilməklə, yalnız həmin Dövlətdə vergiyə cəlb edilə bilər.

2. "Peşəkar xidmətlər" terminində xüsusilə müstəqil elmi, ədəbi, artistlik, təhsil və ya tədris fəaliyyəti, o cümlədən həkimlərin, hüquqşünasların, mühəndislərin, memarların, stomatoloqların, mühasiblərin və auditorların müstəqil fəaliyyəti daxildir.

3. 1-ci bəndin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən peşəkar xidmətlərdən və ya müstəqil xarakterli digər fəaliyyətlərdən əldə edilən gəlirlər, əgər o, cari vergi ilində başlayan və ya başa çatan istənilən on iki aylıq dövr ərzində ümumilikdə 183 günə bərabər və ya ondan artıq bir dövr və ya dövrlər ərzində Razılığa gələn digər Dövlətdə olursa, Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 16

Qeyri-müstəqil fərdi xidmətlər

1. 16-cı, 18-ci və 19-cu maddələrin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidenti tərəfindən muzdlu işlə bağlı əldə edilən maaş, əməkhaqqı və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir, bir şərtlə ki, muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilməsin. Əgər muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilirsə,

onunla bağlı orada əldə edilən bu cür mükafatlar həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. 1-ci bəndin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətdə həyata keçirilən muzdlu işlə bağlı əldə edilən mükafat yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb edilir, əgər:

a) resipient cari təqvim ilində başlayan və ya başa çatan istənilən 12 (on iki) aylıq dövr ərzində ümumilikdə 183 (yüz səksən üç) gündən artıq olmayan bir dövr və ya dövrlər ərzində digər Dövlətdə qalırsa, və

b) mükafat digər Dövlətin rezidenti olmayan işəgötürən tərəfindən və ya onun adından ödənilirsə, və

c) mükafatların ödənilməsi üzrə xərclər işəgötürənin digər Dövlətdə sahib olduğu daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkilmirsə.

3. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmisinin göyərtəsində həyata keçirilən muzdlu işlə bağlı əldə edilən mükafatlar yalnız həmin şirkətin rezident olduğu Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 17

Direktorların qonorarları

Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətin rezidenti olan şirkətin direktorlar şurasının və ya nəzarət şurasının, yaxud digər oxşar orqanının üzvü qismində əldə edilən qonorarlar və digər oxşar ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 18

İncəsənət işçiləri və idmançılar

1. 14-cü və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən teatr, kino, estrada, radio və ya televiziya artisti və ya musiqiçi qismində incəsənət işçisi kimi və ya idmançı kimi Razılığa gələn digər Dövlətdə həyata keçirilən bu cür şəxs kimi fərdi fəaliyyətdən əldə edilən gəlir həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Əgər incəsənət işçisi və ya idmançının bu cür şəxs kimi fərdi fəaliyyəti ilə bağlı gəlir incəsənət işçisi və ya idmançının özünə deyil, digər şəxsə hesablanırsa, həmin gəlir, 7-ci, 14-cü və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, incəsənət işçisi və ya idmançının fəaliyyətinin həyata keçirildiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 19

Təqaüdlər

19-cu maddənin 2-ci bəndinin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidentinə keçmişdəki muzdlu işlə bağlı ödənilən təqaüdlər və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

Maddə 20

Dövlət qulluğu

1. a) Razılığa gələn Dövlət və ya onun inzibati ərazi bölməsi və ya yerli hakimiyyət orqanı, yaxud yerli hökumətləri tərəfindən fiziki şəxsə, həmin Dövlətə və ya bölməyə, yaxud hakimiyyət orqanına və ya hökumətə göstərilən xidmətlərlə bağlı ödənilən maaş, əmlak-haqqı və təqaüdlər istisna olmaqla, digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

b) Bununla belə, əgər xidmətlər Razılığa gələn digər Dövlətdə göstərilirsə və fiziki şəxs həmin Dövlətin rezidentidirsə və o:

(i) həmin Dövlətin milli şəxsidirsə; və ya

(ii) yalnız qulluq göstərmək məqsədi üçün həmin Dövlətin rezidenti olmamışdırsa,

bu cür maaş, əməkhaqqı və digər oxşar mükafatlar yalnız Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilir.

2. Razılığa gələn Dövlət və ya onun inzibati ərazi bölməsi və ya yerli hakimiyyət orqanı, yaxud yerli hökumətləri tərəfindən və ya onlar tərəfindən yaradılmış fondlardan fiziki şəxsə, həmin Dövlətə və ya bölməyə, yaxud hakimiyyət orqanına və ya hökumətə göstərilən xidmətlərlə bağlı ödənilən hər hansı təqaüd yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

3. Bununla belə, əgər fiziki şəxs Razılığa gələn digər Dövlətin rezidenti və milli şəxsidirsə, bu cür təqaüd yalnız həmin digər Dövlətdə vergiyə cəlb edilir.

4. 15-ci, 16-cı, 17-ci və 18-ci maddələrin müddəaları Razılığa gələn Dövlətin və ya onun inzibati ərazi bölməsinin və ya yerli hakimiyyət orqanının, yaxud yerli hökumətlərinin sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı göstərilən xidmətlərlə əlaqədar ödənilən mükafat və təqaüdlərə tətbiq edilir.

5. Bu maddənin 1-ci bəndinin müddəaları həmçinin tamamilə hökumətə məxsus olan qurumlar tərəfindən ödənilən maaş, əməkhaqqı və digər oxşar mükafatlara və təqaüdlərə də tətbiq edilir.

Maddə 21

Tələbələr

Razılığa gələn Dövlətin rezidenti olan və ya Razılığa gələn digər Dövlətə gəlməzdən bilavasitə əvvəl adı birinci çəkilən Dövlətin rezidenti olmuş və həmin digər Dövlətdə yalnız təhsil və ya təlim almaq məqsədilə olan tələbələrin və ya təcrübə keçən şəxslərin yaşamaq, təhsil və ya təlim almaq məqsədilə aldıqları ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilmir, bir şərtlə ki, bu cür ödənişlərin mənbəyi həmin digər Dövlətdən kənarda olsun.

Maddə 22

Digər gəlirlər

1. Razılığa gələn Dövlətin rezidentinin, barəsində bu Konvensiyanın əvvəlki maddələrində söhbət açılmayan gəlir növləri, yaranma mənbəyindən asılı olmayaraq yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2. 1-ci bəndin müddəaları, 6-cı maddənin 2-ci bəndinə əsasən müəyyən edilmiş daşınmaz əmlakdan əldə olunan gəlirlərdən fərqli olan digər gəlirlərə, bu gəlirlərin resipienti Razılığa gələn Dövlətin rezidenti olmaqla sahibkarlıq fəaliyyətini Razılığa gələn digər Dövlətdə orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və gəlirin ödənilməsi ilə bağlı olan hüquq və ya əmlakın bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

3. 1-ci və 2-ci bəndlərin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezi-

dentinin, barəsində bu Konvensiyanın əvvəlki maddələrində söhbət açılmayan və Razılığa gələn digər Dövlətdə yaranan gəlir növləri həm-çinin həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

Fəsil IV

ƏMLAKIN VERGİYƏ CƏLB EDİLMƏSİ

Maddə 23

Əmlak

1. 6-cı maddədə qeyd edilmiş, Razılığa gələn Dövlətin rezidentinə məxsus olan və Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakla ifadən olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsini təşkil edən daşınar əmlakla və ya Razılığa gələn Dövlətin rezidentinin müstəqil fərdi xidmətlər göstərmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə sərəncamında olan daimi bazaya aid daşınar əmlakla ifadə olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmiləri və ya bu cür dəniz və ya hava gəmilərinin istismarı ilə bağlı olan daşınar əmlakla təmsil olunmuş əmlak yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

4. Razılığa gələn Dövlətin rezidentinin bütün digər əmlak elementləri yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

Fəsil V

İKİQAT VERGİTUTMANIN ARADAN QALDIRILMASI METODU

Maddə 24

İkiqat vergitutmanın aradan qaldırılması

1. Azərbaycanda ikiqat vergitutmanın qarşısı aşağıdakı kimi alınır: Əgər Azərbaycanın rezidenti, bu Konvensiyanın müddəalarına müvafiq olaraq Birləşmiş Ərəb Əmirliklərində vergiyə cəlb edilə bilən gəlir əldə edirsə və ya əmlaka sahibdirsə, həmin şəxs tərəfindən bu cür gəlirə və ya əmlaka görə Birləşmiş Ərəb Əmirliklərində ödənilmiş vergi məbləği həmin şəxsdən həmin gəlir və ya əmlaka münasibətdə Azərbaycanda hesablanan verginin məbləğindən çıxılmalıdır.

Bununla belə, bu cür çıxılma Azərbaycanın qanunvericiliyinə və vergitutma qaydalarına müvafiq olaraq bu cür gəlirə və ya əmlaka hesablanmış verginin məbləğindən artıq olmamalıdır.

2. Birləşmiş Ərəb Əmirliklərinə münasibətdə ikiqat vergitutmanın qarşısı aşağıdakı kimi alınır:

Əgər Birləşmiş Ərəb Əmirliklərinin rezidenti bu Konvensiyanın müddəalarına müvafiq olaraq Azərbaycanda vergiyə cəlb edilə bilər gəlir əldə edirsə, Birləşmiş Ərəb Əmirlikləri həmin şəxsin gəlir vergisindən Azərbaycanda ödənilmiş gəlir vergisinə bərabər

məbləğin çıxılmasına yol verəcəkdir. Bununla belə, bu cür çıxılma, çıxılma verilməzdən əvvəl hesablanmış və gəlir vergisinin Birləşmiş Ərəb Əmirliklərində vergiyə cəlb edilə bilən gəlirə aid edilən hissəsindən artıq olmamalıdır.

Fəsil VI

XÜSUSİ MÜDDƏALAR

Maddə 25

Ayrı-seçkiliyə yol verilməməsi

1. Razılığa gələn Dövlətin milli şəxsləri Razılığa gələn digər Dövlətdə həmin digər Dövlətin milli şəxslərinin eyni şəraitdə, o cümlədən rezidentliyə münasibətdə cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdəliklərə cəlb edilməməlidir. Bu müddəa, 1-ci maddənin müddəalarından asılı olmayaraq, həmçinin Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olmayan şəxslərə də tətbiq edilir.

2. Razılığa gələn Dövlətin rezidenti olan vətəndaşlığı olmayan şəxslər Razılığa gələn Dövlətlərdən heç birində həmin Dövlətin milli şəxslərinin eyni şəraitdə, o cümlədən rezidentliyə münasibətdə cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdəliklərə cəlb edilməməlidir.

3. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyinin vergiyə cəlb edilməsi həmin digər Dövlətdə həmin digər Dövlətin eyni fəaliyyətlə məşğul olan müəssisələrinin vergiyə cəlb edilməsindən az əlverişli olmamalıdır. Bu müddəa, Razılığa gələn Dövlətin üzərinə onun, mülki status və ya ailə öhdəlikləri nəzərə alınmaqla öz rezidentlərinə verdiyi vergitutma məqsədləri üçün hər hansı şəxsi imtiyazların, güzəştlərin və çıxılmaların Razılığa gələn digər Dövlətin rezidentlərinə də verilməsi öhdəliyinin qoyulması kimi təfsir edilməməlidir.

4. 10-cu maddənin 1-ci bəndinin, 12-ci maddənin 6-cı bəndinin və ya 13-cü maddənin 6-cı bəndinin müddəalarının tətbiq edildiyi hallar istisna edilməklə, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər, royaltilər və digər ödənişlər, bu cür müəssisənin vergiyə cəlb edilməli olan mənfəətinin müəyyən edilməsi məqsədilə, adı birinci çəkilən Dövlətin rezidentinə ödənildiyi halda tətbiq olunan eyni şərtlər əsasında çıxılmalıdır. Eynilə Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətin rezidentinə olan hər hansı bir borcu həmin müəssisənin vergiyə cəlb edilməli olan kapitalının müəyyən edilməsi məqsədilə adı birinci çəkilən Dövlətin rezidentinə olan borc kimi eyni şərtlər əsasında çıxılmalıdır.

5. Razılığa gələn Dövlətin, əmlakı tamamilə və ya qismən Razılığa gələn digər Dövlətin rezidentinə və ya rezidentlərinə məxsus olan və ya onların birbaşa və ya dolayı nəzarəti altında olan müəssisəsi adı birinci çəkilən Dövlətdə həmin Dövlətin digər oxşar müəssisələrinin cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdəliklərə cəlb edilə bilməz.

6. Bu maddədə "vergitutma" termini bu Konvensiyanın mövzusu olan istənilən növlü və xarakterli vergiləri bildirir.

Maddə 26

Qarşılıqlı razılaşma proseduru

1. Əgər hər hansı şəxs Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin hərəkətlərinin onun bu Konvensiyanın müddəalarına uyğun olmayan tərzdə vergiyə cəlb edilməsinə gətirib çıxardığını və ya gətirib çıxara biləcəyini zənn edirsə, həmin şəxs həmin Dövlətlərin daxili qanunvericiliklərində nəzərdə tutulmuş müdafiə vasitələrindən asılı olmayaraq, bu işlə bağlı rezident olduğu Dövlətin və ya bu hal 25-ci maddənin 1-ci bəndinin əhatə dairəsinə aiddirsə, milli şəxsi olduğu Razılığa gələn Dövlətin səlahiyyətli orqanlarına müraciət edə bilər. Müraciət bu Konvensiyanın müddəalarına uyğun olmayan vergitutmaya gətirib çıxaran hərəkətlər haqqında ilk məlumat tarixindən etibarən üç il ərzində təqdim edilməlidir.

2. Əgər səlahiyyətli orqan etirazı əsaslandırılmış hesab edərək, eyni zamanda, qənaətbəxş qərara gələ bilmirsə, bu Konvensiyanın müddəalarına uyğun olmayan vergitutmanın qarşısının alınması məqsədilə məsələni Razılığa gələn digər Dövlətin səlahiyyətli orqanı ilə qarşılıqlı razılıq yolu ilə həll etməyə səy göstərir. Əldə edilmiş hər hansı bir razılıq Razılığa gələn Dövlətin daxili qanunvericiliyində nəzərdə tutulmuş hər hansı zaman məhdudiyyətlərindən asılı olmayaraq həyata keçirilməlidir.

3. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Konvensiyanın təfsiri və ya tətbiqi ilə bağlı meydana çıxan bütün çətinlikləri və ya şübhələri qarşılıqlı razılıq yolu ilə həll etməyə səy göstərməlidirlər. Onlar həmçinin bu Konvensiyada nəzərdə tutulmamış hallarda ikiqat vergitutmanın aradan qaldırılması üçün bir-biri ilə məsləhətləşmələr apara bilərlər.

4. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları, əvvəlki bəndlərin anlaşılmasında razılığın əldə edilməsi məqsədilə birbaşa olaraq, o cümlədən onların özləri və ya nümayəndələrindən ibarət olan birgə komissiya vasitəsilə bir-biri ilə birbaşa əlaqələr yarada bilərlər.

Maddə 27

İnformasiya mübadiləsi

1. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Konvensiyanın və ya Razılığa gələn Dövlətlərin Razılığa gələn Dövlətlər və ya onların inzibati ərazi bölmələri və ya yerli hakimiyyət orqanları tərəfindən tutulan istənilən növlü və xarakterli vergilərlə bağlı daxili qanunvericiliklərinin müddəalarının yerinə yetirilməsi üçün zəruri olan informasiya mübadiləsi həyata keçirirlər, bir şərtlə ki, həmin qanunvericilikdə nəzərdə tutulmuş vergitutma bu Konvensiyaya zidd olmasın. İnformasiya mübadiləsi 1-ci və 2-ci maddələrlə məhdudlaşmır.

Razılığa gələn Dövlət tərəfindən əldə edilmiş hər hansı informasiya həmin Dövlətin daxili qanunvericiliyi əsasında əldə edilmiş informasiyaya tətbiq edilən eyni qayda əsasında məxfi hesab edilir və yalnız birinci cümlədə göstərilən vergilərin hesablanması və ya toplanması, məcburi alınması və ya prosessual qaydada təqib edilməsi, yaxud həmin vergilərlə bağlı şikayətlərə baxılması ilə məşğul olan şəxslərə və ya orqanlara (o cümlədən məhkəmələrə və inzibati orqanlara) açıqlanır. Bu şəxslər və ya orqanlar həmin informasiyadan yalnız bu cür məqsədlər üçün istifadə edirlər. Onlar bu informasiyanı açıq

məhkəmə istintaqı və ya məhkəmə qərarlarında açıqlaya bilərlər.

2. Heç bir halda, 1-ci bəndin müddəaları Razılığa gələn Dövlətlərin üzərinə aşağıdakı öhdəliklərin qoyulması kimi şərh edilməməlidir:

3. Razılığa gələn bu və ya digər Dövlətin qanunvericiliyində və inzibati təcrübəsində nəzərdə tutulmuş tədbirlərdən fərqli olan inzibati tədbirlər həyata keçirmək;

4. Razılığa gələn bu və ya digər Dövlətin qanunvericiliyi və ya adi inzibatçılığı əsasında əldə edilməsi mümkün olmayan informasiya vermək;

5. hər hansı ticarət, sahibkarlıq, sənaye, kommersiya və ya peşə sirrini, yaxud ticarət prosesini açа biləcək informasiya və ya açılması dövlət siyasətinə (ordre public) zidd olan informasiya vermək.

Maddə 28

Diplomatik nümayəndəliklərin və konsulluq idarələrinin üzvləri

Bu Konvensiyanın heç bir müddəası diplomatik nümayəndəliklərin və ya konsulluq idarələrinin üzvlərinin beynəlxalq hüququn ümumi qaydalarına və ya xüsusi razılaşmalara əsasən müəyyən edilmiş vergi imtiyazlarına toxunmur.

Fəsil VII

YEKUN MÜDDƏALAR

Maddə 29

Qüvvəyə minmə

1. Razılığa gələn Dövlətlərin hər biri digərini zəruri dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə diplomatik kanallarla yazılı xəbərdar edir.

2. Bu Konvensiya sonuncu bildirişin alındığı tarixdən qüvvəyə minir və onun müddəaları Razılığa gələn hər iki Dövlətdə tətbiq edilir:

a) mənbədə tutulan vergilərə münasibətdə - Konvensiyanın qüvvəyə mindiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində və ya ondan sonra ödənilən və ya kreditləşən məbləğlərə.

b) digər vergilərə münasibətdə - Konvensiyanın qüvvəyə mindiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixindən başlanan dövr üzrə tutulan vergi məbləğlərinə.

Maddə 30

Qüvvədən düşmə

Bu Konvensiya qeyri-müəyyən müddətə bağlanır, lakin Razılığa gələn Dövlətlərdən hər biri bu Konvensiya qüvvəyə mindikdən sonrakı 5 təqvim ilindən sonra istənilən təqvim ilinin başa çatmasına ən azı altı ay qalmış diplomatik kanallarla qüvvədən düşmə haqqında yazılı bildiriş təqdim etməklə, Konvensiyanın qüvvəsini ləğv edə bilər.

Bu halda Konvensiyanın qüvvəsi ləğv edilir:

a) mənbədə tutulan vergilərə münasibətdə - Konvensiyanın qüvvədən düşməsi haqqında bildirişin verildiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində və ya ondan sonra ödənilən və ya kreditləşən məbləğlərə;

b) digər vergilərə münasibətdə - Konvensiyanın qüvvədən düşməsi haqqında bildirişin verildiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixindən başlanan dövr üzrə tutulan vergi məbləğlərinə.

Bunun təsdiqi olaraq, müvafiq qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Konvensiyanı imzaladılar.

Abu-Dabi şəhərində 20 noyabr 2006-cı il tarixində Azərbaycan, ərəb və ingilis dillərinin hər birində iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Mətnlər arasında ziddiyyət olduqda, ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*MƏHƏMMƏD ABDULLA AL QƏRQAVİ*
Xarici işlər naziri	*Kabinet işləri üzrə dövlət naziri*

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında" Konvensiyanın Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında" Konvensiyanın 2006-cı il noyabrın 20-də Abu-Dabi şəhərində imzalanmış Protokolu təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№ 296-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiyanın Protokolu

Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya imzalanan zaman aşağıda imza edənlər Konvensiyanın tərkib hissəsi sayılan aşağıdakı müddəalar barədə razılığa gəldilər:

I. 5-ci maddənin 5-ci bəndinə əlavə

Müəssisə üçün öhdəlik yaratmaqla, müqavilənin bütün elementlərini və təfsilatlarını razılaşdırmaq səlahiyyətləri olan şəxs, hətta müqavilə digər şəxs tərəfindən müəssisənin yerləşdiyi Razılığa gələn digər Dövlətdə imzalansa belə, Razılığa gələn Dövlətdə öz

səlahiyyətlərindən istifadə edən hesab edilə bilər.

II. 2-ci maddənin 3-cü bəndinə əlavə

Belə başa düşülür ki, əgər gələcəkdə Birləşmiş Ərəb Əmirlikləri əmlak vergisi tətbiq edərsə, bu halda bu cür əmlak vergisi avtomatik olaraq 2-ci maddədə göstərilmiş vergilərin siyahısına əlavə ediləcəkdir.

III. Bütün Konvensiyaya münasibətdə belə başa düşülür ki, əgər Razılığa gələn Dövlətlərdən birinə vergi dərəcəsi bu Konvensiyada göstərilən dərəcədən daha aşağı dərəcəyə dəyişərsə, bu daha aşağı dərəcə, əgər daha sərfəlidirsə, avtomatik olaraq Razılığa gələn digər Dövlətin rezidentinə münasibətdə tətbiq ediləcəkdir.

IV. 12-ci maddənin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlət, onun inzibati ərazi bölmələri, siyasi bölmələri, yerli hökumətləri və ya maliyyə institutları və holdinq şirkətləri, inkişaf fondları və orqanları tərəfindən əldə edilən, Razılığa gələn digər Dövlətlərdəki mənbələrdən yaranan istənilən gəlir yalnız rezidentlik Dövlətində vergiyə cəlb edilir.

Razılığa gələn Dövlətlər bu maddənin birinci cümləsində göstərilmiş üstünlüklərin tətbiq edildiyi sektor və layihələri müəyyən edəcəklər.

Bunun təsdiqi olaraq, müvafiq qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Protokolu imzaladılar.

Abu-Dabi şəhərində 20 noyabr 2006-cı il tarixində Azərbaycan, ərəb və ingilis dillərinin hər birində iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Mətnlər arasında ziddiyyət olduqda, ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*MƏHƏMMƏD ABDULLA AL QƏRQAVİ*
Xarici işlər naziri	*Kabinet işləri üzrə dövlət naziri*

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında" 2006-cı il noyabrın 20-də Abu-Dabi şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№297-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti (bundan sonra birlikdə "Razılığa gələn Tərəflər" adlandırılacaq və hər biri ayn-aynlıqda "Razılığa gələn Tərəf" adlandırılacaq)

iki ölkənin qarşılıqlı faydası üçün iqtisadi əməkdaşlığın sürətləndirilməsi və Razılığa gələn bir Tərəfin investorlarının Razılığa gələn digər Tərəfin ərazisindəki investisiyaları üçün bərabər və ədalətli şəraiti saxlamaq niyyətində olaraq,

bu Saziş əsasında investisiyaların təşviqi və qorunmasının işgüzar təşəbbüsləri yaranmasına təkan verəcəyini etiraf edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Anlayışlar

Bu Sazişin məqsədi üçün:

1. "İnvestisiya" termini - Razılığa gələn bir Tərəfin hüquqi və fiziki şəxsləri və Hökuməti tərəfindən Razılığa gələn digər Tərəfin ərazisində sonuncunun qanunvericiliyinə müvafiq olaraq təsis etdiyi və ya investisiya kimi qoyduğu, xüsusi halda aşağıdakılar daxil olmaqla, lakin müstəsna olmamaqla, əmlakın hər növü deməkdir:

a) daşınar və daşınmaz əmlak və ya ipotekalar, girov hüquqları, girovlar, lizinqlər, uzufrukt və oxşar hüquqlar kimi hər hansı mülkiyyət hüquqları;

b) paylar, səhmlər, istiqrazlar və ya şirkətdə iştirakın digər forması;

c) investisiya ilə bilavasitə əlaqədar olan pul tələbi və ya iddialar və ya iqtisadi dəyərə malik olan fəaliyyət hüquqları;

d) patentlər, müəlliflik hüquqları, texniki proseslər, ticarət nişanlan, sənaye nümunələri, firma adları "nou-hau" və "qudvtf" kimi əqli mülkiyyət hüquqları.

Bu Sazişin müddəalarına baxmayaraq, təbii ehtiyatların kəşfiyyatı, işlənməsi, çıxarılması və ya istismarı üzrə konsessiyalar da daxil olmaqla, qanun, inzibati akt və ya kontrakt əsasında səlahiyyətli hakimiyyət orqanı, yerli hökumət tərəfindən verilən konsessiyalar yalnız ərazisində investisiya qoyulan Razılığa gələn Tərəfin qanunvericiliyi, eləcə də kontraktın şərtləri ilə tənzimlənəcəkdir.

Əvvəlki müddəanın şərtlərinə baxmayaraq, bu Sazişin şərtləri karbohidrogen və təbii resurslara şamil edilmir.

Əmlakın investisiya və ya reinvestisiya kimi qoyulması formasında edilən hər hansı bir dəyişiklik onun investisiya kimi xarakterinə təsir etmir, bu şərtlə ki, belə dəyişiklik ərazisində investisiya qoyulan Razılığa gələn Tərəfin daxili qanunvericiliyinə müvafiq olaraq həyata keçirilsin.

2. "Gəlir" termini - investisiyalardan əldə edilən məbləğlər və xüsusi halda, lakin istisna olmamaqla, mənfəət, dividendlər, faizlər, royaltilər, kapital artımı və ya investisiyalara aid bu cür istənilən ödəmələr deməkdir.

Gəlirlərə qarşı ilkin investisiyalara aid olan eyni rejim tətbiq ediləcəkdir.

3. "İnvestor" termini:

a) Razılığa gələn Tərəfin Hökuməti, onun siyasi struktur bölmələri, yerli hökumətlər və yerli orqanlar;

b) Razılığa gələn hər bir Tərəfin qanunlarına uyğun olaraq onun dövlətinin vətəndaşı olan hər hansı fiziki şəxs; və ya

c) Razılığa gələn Tərəfin qanunvericiliyinə müvafiq olaraq yaradılmış və Razılığa gələn həmin Tərəfin ərazisində yerləşən şirkət, korporasiya, firma, işgüzar assosiasiya, institut və ya digər təşkilat kimi hər hansı hüquqi şəxs deməkdir.

4. "Ərazi" - termini:

a) Azərbaycan Respublikasına münasibətdə Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektoru və Azərbaycan Respublikasının üzərindəki hava məkanı da daxil olmaqla, yerin təki, dənizin dibi və təbii sərvətlərə münasibətdə Azərbaycan Respublikasının suveren hüquqlarının və yurisdiksiyasının tətbiq edildiyi Azərbaycan Respublikası ərazisini, habelə beynəlxalq hüquqa və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq müəyyən edilmiş və gələcəkdə müəyyən edilə bilən istənilən digər ərazini bildirir;

b) Birləşmiş Ərəb Əmirliklərinə münasibətdə onun suverenliyi çərçivə-sində olan ərazi, habelə Birləşmiş Ərəb Əmirlikləri tərəfindən beynəlxalq hüquqa və Birləşmiş Ərəb Əmirliklərinin qanunvericiliyinə uyğun olaraq üzə-rində suveren hüquqlar tətbiq edilən ərazi dənizi, hava məkanı, sualtı ərazilər, o cümlədən təbii ehtiyatların kəşfiyyatı və istismarı ilə bağlı hər hansı fəaliyyətə münasibətdə yurisdiksiyası çərçivəsində olan əsas ərazi və adalar.

5. "İstifadə edilən valyuta" termini beynəlxalq əməliyyatlar üzrə ödənişlər üçün geniş istifadə edilən və əsas valyuta bazarlarında hazır alıcıları olan Amerika Birləşmiş Ştatları Dolları, Funt Sterlinq, Avro, Yaponiya Yeni və ya digər valyuta deməkdir.

Maddə 2

İnvestisiyaların təşviqi və qorunması

1. Razılığa gələn hər bir Tərəf öz ərazisində Razılığa gələn digər Tərəfin investorlarının investisiyalarını təşviq edəcək və əlverişli şərait yaradacaq və öz qanunvericiliyinin verdiyi hüquqlar əsasında bu cür investisiyaları qəbul edəcəkdir.

2. Razılığa gələn hər bir Tərəf hər zaman öz ərazisində Razılığa gələn digər Tərəfin investorlarının investisiyalarına beynəlxalq hüquqa uyğun olaraq ədalətli və bərabər rejim tətbiq edəcək və onların tam müdafiə və təhlükəsizliyini təmin edəcəkdir.

3. Razılığa gələn heç bir Tərəf öz ərazisində Razılığa gələn digər Tərəfin investorlarının investisiyalarının idarə edilməsinə, saxlanmasına, istifadəsinə, onlardan faydalanmasına, əldə edilməsinə və ya satışına səbəbsiz, əsassız və ya ayrı-seçkilik yolu ilə qarışmayacaqdır.

4. Razılığa gələn heç bir Tərəf Razılığa gələn digər Tərəfin investorlarına materialların, istehsal vasitələrinin alınması, onların məhsullarının hazırlanması, nəql edilməsi, məh-

sulların daxildə və xaricdə marketinqi ilə bağlı məcburi tədbirlər tətbiq etməyəcək və ya ayrı-seçkiliyə səbəb olacaq digər oxşar tədbirlər həyata keçirməyəcəkdir.

5. Razılığa gələn hər bir Tərəf, imkan daxilində, öz milli qanunvericiliyi çərçivəsində, investorun seçimi ilə rəhbər işçilərin, menecerlərin, mütəxəssislərin və texniki heyətin işə qəbul edilməsi barədə icazələr daxil olmaqla, onun ərazisində investisiyalarla bağlı zəruri icazələrin alınması üçün ediləcək müraciətlərə diqqətlə baxacaqdır.

Maddə 3

Şəffaflıq

Razılığa gələn hər bir Tərəf, imkan daxilində, öz ərazisində Razılığa gələn digər Tərəfin investorlarının investisiyalarına təsir edə biləcək ümumi tətbiq xarakterli normativ hüquqi aktların, prosedurların, inzibati qaydaların və məhkəmə qərarlarının, həmçinin qüvvəyə mindikdən sonra beynəlxalq müqavilələrin əldə edilməsini təmin edəcəkdir.

Maddə 4

İnvestisiyalara münasibətdə rejim

1. Razılığa gələn bir Tərəfin investorları tərəfindən Razılığa gələn digər Tərəfin ərazisində qoyulmuş investisiyalara və ya onlarla bağlı gəlirlərə münasibətdə, qəbul edən Razılığa gələn Tərəfin öz investorları və ya hər hansı üçüncü dövlətin investorları tərəfindən qoyulmuş investisiyalara və gəlirlərə münasibətdə tətbiq etdiyi rejimdən, investor üçün hansı daha əlverişlidirsə, az əlverişli olmayan rejim tətbiq ediləcəkdir.

2. Razılığa gələn bir Tərəfin investorlarına münasibətdə Razılığa gələn digər Tərəfdən, onların investisiyalarının idarə edilməsi, saxlanılması, istifadə edilməsi, onlardan faydalanması və satışı ilə bağlı Razılığa gələn sonuncu Tərəfin öz investorlarına və ya hər hansı üçüncü dövlətin investorlarına münasibətdə tətbiq etdiyi rejimdən, investor üçün hansı daha əlverişlidirsə, az əlverişli olmayan rejim tətbiq ediləcəkdir.

3. 1-ci və 2-ci bəndlərin müddəaları hər hansı prosessual və ya məhkəmə məsələsinə şamil edilmir.

Maddə 5

İstisnalar

Bu Sazişin müddəaları Razılığa gələn bir Tərəfin Razılığa gələn digər Tərəfin investorlarına aşağıda qeyd edilənlər əsasında hər hansı rejimin, imtiyaz və ya güzəştin faydasını şamil etmək öhdəliyində olması kimi şərh edilməyəcəkdir:

a) Razılığa gələn Tərəflərdən birinin qoşulduğu və ya qoşula biləcəyi hər hansı mövcud və ya gələcəkdə mövcud olacaq azad ticarət zonası, gömrük ittifaqı, ümumi bazar və ya regional əmək bazan ilə bağlı razılaşmalar,

b) tam və ya əsasən vergitutmaya aid olan hər hansı beynəlxalq müqavilə və ya razılaşma və ya vergitutmaya aid olan hər hansı daxili qanunvericilik, və ya

c) Razılığa gələn Tərəflərdən birinin qoşulduğu və ya qoşula biləcəyi, investisiyalarla əlaqədar hər hansı çoxtərəfli konvensiya və ya müqavilə.

Bu maddənin şərtlərinə baxmayaraq, Razılığa gələn Tərəf yuxanda qeyd edilən faydanı

Razılığa gələn digər Tərəfin investoruna münasibətdə tətbiq edə bilər, əgər o müəyyən etsə ki, bu, onun öz iqtisadi siyasəti üçün zəruridir.

Maddə 6

Ekspropriasiya

1. Razılığa gələn bir Tərəfin investorlarının investisiyaları Razılığa gələn digər Tərəfin ərazisində, dövlət mənafeyinin tələb etdiyi, ayrı-seçkiliyə yol vermədən, qanunun tələblərinə uyğun olaraq və dərhal, adekvat və effektiv kompensasiyanın ödənilməsilə həyata keçirilən hallar istisna olmaqla, ekspropriasiyaya, milliləşdirməyə, dondurulmaya və ya birbaşa, yaxud dolayısı ekspropriasiyaya və ya milliləşdirməyə (bundan sonra "ekspropriasiya" adlanır) bərabər təsirə malik olan hər hansı digər tədbirlərə məruz qalmayacaqdır.

2. Bu cür kompensasiya milliləşdirmə və ya ekspropriasiya haqqında qərarın elan edilməsindən və ya ictimaiyyətə bəlli olduğundan bilavasitə əvvəlki vaxtda investisiyanın ədalətli bazar dəyəri əsasında hesablanacaqdır və bazar dəyəri kimi ümumi qəbul edilmiş qiymətləndirmə prinsiplərinə müvafiq olaraq müəyyən ediləcəkdir, bazar dəyərinin müəyyən edilməsinin dərhal mümkün olmadığı təqdirdə, kompensasiya investisiya kimi qoyulmuş kapitalın qiymətinin düşməsi, artıq geri qaytarılmış kapital, bərpa dəyəri, "qudvil" və digər əlaqədar faktorlar nəzərə alınaraq, ədalətli prinsiplərə müvafiq müəyyən ediləcəkdir.

3. Bu cür ədalətli bazar dəyəri sərbəst dönərli valyutada, bu maddənin 2-ci bəndində göstərilmiş vaxtda bu valyuta üçün mövcud olan bazar mübadilə kursu əsasında ifadə ediləcəkdir. Kompensasiya, həmçinin ekspropriasiya vaxtından real ödəniş vaxtına qədər bu valyuta üçün bazar əsasında müəyyən edilən kommersiya dərəcəsi üzrə faizi də daxil edəcəkdir.

4. Əgər Razılığa gələn Tərəf öz ərazisində qüvvədə olan qanunvericiliyə müvafiq olaraq təsis edilmiş və ya lisenziya verilmiş və Razılığa gələn digər Tərəfin və ya onun investorlarından hər hansı birinin burada paylar, səhmlər, istiqrazlar və ya digər maraq hüquqları əldə etdiyi hüquqi şəxsin investisiyasını ekspropriasiya edirsə və ya milliləşdirirsə, o, dərhal adekvat və effektiv kompensasiyanın alınacağını və onun repatriasiyasını təmin edəcəkdir.

Bu cür kompensasiya bu maddənin 2-ci bəndinin şərtlərinə müvafiq olaraq müəyyən ediləcək və ödəniləcəkdir.

5. Bu maddənin 1-ci bəndinin şərtləri həmçinin investisiyadan əldə edilən gəlirlərə, habelə ləğv edilmənin baş verdiyi təqdirdə ləğvetmədən əldə edilən gəlirlərə şamil ediləcəkdir.

6. İnvestisiyaları ekspropriasiya edilmiş investor, onun işinə və bu maddədə ifadə olunmuş prinsiplərə müvafiq olaraq onun investisiyalarının qiymətləndirilməsinə qəbul edən Razılığa gələn Tərəfin məhkəmə və ya digər səlahiyyətli orqanı tərəfindən təxirə salınmadan yenidən baxılması hüququna malik olacaqdır.

Maddə 7

Zərərə görə kompensasiya

1. Razılığa gələn bir Tərəfin investorlarının Razılığa gələn digər Tərəfin ərazisindəki investisiyaları Razılığa gələn sonuncu Tərəfin ərazisində baş verən müharibə və ya başqa silahlı münaqişə, fövqəladə vəziyyət, üsyan, qiyam və ya ixtişaş nəticəsində ziyan çəkirsə, bu investorlara münasibətdə restitusiya, əvəz ödəmə, kompensasiya və ya hər hansı başqa ödənişlərlə əlaqədar Razılığa gələn sonuncu Tərəfin öz investorlarına və ya hər hansı üçüncü dövlətin investorlarına tətbiq etdiyi rejimdən, investor üçün hansı daha əlverişlidirsə, az əlverişli olmayan rejim Razılığa gələn sonuncu Tərəfdən tətbiq ediləcəkdir. Yekun ödəmələr effektiv qaydada həyata keçirilməli, sərbəst dönərli valyuta ilə və təxirə salınmadan köçürülməlidir.

2. Bu maddənin 1-ci bəndi nəzərə alınmaqla, Razılığa gələn bir Tərəfin investoruna, o, bu bənddə göstərilən hər hansı bir vəziyyətdə, Razılığa gələn digər Tərəfin ərazisində aşağıdakılar nəticəsində ziyan çəkirsə:

a) Razılığa gələn sonuncu Tərəfin silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onun investisiyasının və ya investisiyanın bir hissəsinin rekvizisiyası, və ya

b) Razılığa gələn sonuncu Tərəfin silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onun investisiyasının və ya investisiyanın bir hissəsinin, yaranmış vəziyyətdə belə zərurət olmadan məhv edilməsi, dərhal, adekvat və effektiv restitusiya və ya kompensasiya ödəniləcəkdir.

Maddə 8

Sərbəst köçürmə

1. Razılığa gələn hər bir Tərəf öz qanunvericiliyi çərçivəsində Razılığa gələn digər Tərəfin investorlarına, investisiya ilə bağlı ödəmələrin öz ərazi-sinə və ərazisindən sərbəst köçürülməsini təmin edəcəkdir. Belə ödəmələrə xüsusi halda, lakin müstəsna olmamaqla:

a) investisiyanın saxlanılması, inkişaf etdirilməsi və ya artırılması üçün əsas və əlavə məbləğlər;

b) gəlirlər;

c) investisiyanın tam və ya qismən satışı və ya özgəninkiləşdirilməsindən əldə edilən vəsaitlər;

d) royaltilər və lisenziya ödəmələri və ya digər oxşar xərclərin ödənilməsi kimi, investisiyanın fəaliyyətindən yaranan xərclərin ödənilməsi üçün tələb olunan məbləğlər;

e) 6-cı və 7-ci maddələrə uyğun olaraq ödənilməli olan kompensasiya;

f) idarəetmə xərcləri ilə əlaqədar ödəmələr;

g) Razılığa gələn iki Tərəfin razılaşması əsasında mübahisənin tənzimlənməsindən yaranan ödəmələr;

h) borc sazişləri daxil olmaqla, kontraktlarla bağlı ödəmələr;

i) investisiya ilə bağlı işləyən, xaricdən cəlb olunmuş heyətin xalis gəlirləri və digər mükafatlar daxildir.

2. Bu maddənin 1-ci bəndində göstərilən köçürmələr dərhal hər hansı bir məhdudiyyət və ya gecikdirmə olmadan, sərbəst dönərli valyutada və köçürmə həyata keçirilən valyutanın köçürmə tarixində üstünlük təşkil edən bazar mübadilə məzənnəsi ilə həyata keçiriləcəkdir. Əgər bazar məzənnəsi mövcud deyilsə, tətbiq edilən mübadilə məzənnəsi Beynəlxalq Valyuta Fondunun (BVF) müəyyən etdiyi kimi valyutaların SDR-ə çevrilməsi üçün ən son mübadilə məzənnəsi olacaqdır.

Maddə 9

Subroqasiya

Razılığa gələn bir Tərəf və ya onun təyin etdiyi agentlik (zəmanət verən) Razılığa gələn digər Tərəfin ərazisindəki investisiyanın qeyri-kommersiya risklərinə görə verilən zəmanət əsasında ödəniş həyata keçirərsə, qəbul edən Razılığa gələn Tərəf bu investisiya ilə bağlı bütün hüquq və tələblərin zəmanət verənə keçməsini və zəmanət verənin bu hüquq və tələbləri ilkin investor qədər həyata keçirmək hüququna malik olmasını tanıyacaqdır.

Bu maddənin əvvəlki bəndinin şərtlərinə baxmayaraq, subroqasiya yalnız qəbul edən Razılığa gələn Tərəfin təsdiqindən sonra həyata keçirilə bilər.

Maddə 10

Məsləhətləşmələr

Razılığa gələn Tərəflər, onlardan hər hansı birinin müraciəti əsasında, bu Sazişlə əlaqədar istənilən mübahisənin həll edilməsi və ya bu Sazişin icrası və ya tətbiq edilməsi ilə bağlı hər hansı bir məsələnin nəzərdən keçirilməsi və ya investisiya ilə bağlı mübahisənin birgə həll edilməsi daxil olmaqla bu Sazişdən irəli gələ biləcək hər hansı digər problemin öyrənilməsi üçün təxirə salınmadan məsləhətləşmələr keçirməyə razılaşırlar. Belə məsləhətləşmələr Razılığa gələn Tərəflər arasında diplomatik kanallar vasitəsilə razılaşdırılmış yerdə və vaxtda Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları arasında həyata keçiriləcəkdir.

Maddə 11

İnvestor və Razılığa gələn Tərəf arasında mübahisələr

1. Razılığa gələn bir Tərəfin investoru və Razılığa gələn digər Tərəf arasında, Razılığa gələn sonuncu Tərəfin ərazisindəki investisiya ilə bağlı hər hansı mübahisə dostcasına tənzimlənəcəkdir.

2. Əgər dostcasına tənzimlənməyə dair müraciətin daxil olduğu tarixdən altı ay müddətində mübahisə dostcasına tənzimlənmirsə, investor aşağıdakılara müraciət edəcəkdir:

a) ərazisində investisiya qoyulmuş Razılığa gələn Tərəfin səlahiyyətli məhkəməsinə; əgər işin məhkəməyə verilməsindən on beş ay ərzində mübahisə həll edilməzsə, onda:

b) əgər mübahisə tərəfləri arasında başqa razılaşma yoxdursa, Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyasının ("UNCİTRAL") Arbitraj qaydalarına müvafiq olaraq təsis ediləcək ad hoc arbitraj məhkəməsinə,

Razılığa gələn Tərəflər investisiyalarla bağlı bütün mübahisələrin yerli məhkəməyə və ya digər yerli arbitraj proseduruna verilməsinə öz son razılığını verirlər.

3. Mübahisə tərəfi olan Razılığa gələn Tərəflərdən heç biri arbitraj prosedurunun və ya arbitraj qərarının yerinə yetirilməsinin hər hansı bir mərhələsində, mübahisədə qarşı tərəf olan investorun sığorta vasitəsilə onun itkilərinin tam və ya bir hissəsini ödəyən kompensasiya alması ilə əlaqədar etiraz edə bilməz.

4. Bu qərar mübahisə tərəfləri üçün son və məcburi olacaq və milli qanunvericiliyə uyğun icra ediləcəkdir.

5. İnvestisiya mübahisəsi ilə bağlı işin dinlənilməsinin hər hansı mərhələsində Razılığa gələn hər iki Tərəf məhkəmənin son qərarından əvvəl işi dostcasına həll edilməsi üçün geri götürmək hüququna malikdir.

Maddə 12

Razılığa gələn Tərəflər arasında mübahisələr

1. Bu Sazişin təfsiri və tətbiqi ilə bağlı Razılığa gələn Tərəflər arasında mübahisələr, imkan daxilində, diplomatik kanallar vasitəsilə həll ediləcəkdir.

2. Əgər mübahisə Razılığa gələn hər hansı bir Tərəfin belə danışıqların aparılması haqqında müraciət etdiyi tarixdən etibarən altı ay ərzində bu cür həll edilməzsə, o, Razılığa gələn hər iki Tərəfin hökumət orqanları və iş adamlarından ibarət təşkil ediləcək Birgə Komissiyaya veriləcəkdir.

Maddə 13

Digər qaydaların tətbiqi

Əgər bu Sazişə əlavə olaraq, Razılığa gələn hər hansı Tərəfin qanunu və ya Razılığa gələn Tərəflər arasında beynəlxalq hüquq əsasında mövcud olan və ya gələcəkdə qəbul ediləcək öhdəliklər Razılığa gələn digər Tərəfin investorları tərəfindən qoyulmuş investisiyalar üçün bu Sazişlə təmin edilən rejimdən daha əlverişli rejimin tətbiq edilməsi haqqında ümumi və ya xüsusi qayda müəyyən edərsə, həmin müddəalar, onların investor üçün daha əlverişli olduğu dərəcədə, bu Sazişə nisbətən üstünlük təşkil edəcəkdir.

Maddə 14

Sazişin tətbiqi

Bu Saziş onun qüvvəyə mindiyi tarixdə mövcud olan, həmçinin sonra təsis ediləcək və ya əldə ediləcək investisiyalara şamil edilir, lakin bu Sazişin qüvvəyə mindiyi tarixdən əvvəl investisiyalarla əlaqədar yaranmış mübahisələrə şamil edilmir.

Maddə 15

İmtiyazların verilməsindən imtina

Əgər Razılığa gələn Tərəf və ya investor Razılığa gələn digər Tərəfin ərazisində əhəmiyyətli biznes fəaliyyətini həyata keçirmirsə, Razılığa gələn Tərəf, məsləhətləşmələrin keçirilməsi şərtilə, bu Sazişin imtiyazlarının Razılığa gələn digər Tərəfin investorlarına və ya investisiyalarına verilməsindən imtina edə bilər.

Maddə 16

Xüsusi müddəa

Bu Sazişin heç bir müddəası Razılığa gələn hər hansı Tərəfin ictimai asayiş, dövlət marağı, ətraf mühit və təhlükəsizliyin qorunması üçün öz qanunvericiliyinə uyğun olaraq müvafiq tədbirləri görmək hüququnu məhdudlaşdırmır.

Maddə 17

Qüvvəyə minmə, qüvvədə qalma və qüvvədən düşmə

1. Razılığa gələn Tərəflər bu Sazişin qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə bir-birini məlumatlandıracaqlar. Saziş, sonuncu bildirişin alındığı tarixdən sonra otuzuncu gün qüvvəyə minəcəkdir.

2. Bu Saziş on il müddətində qüvvədə qalacaqdır və Razılığa gələn Tərəflərdən hər hansı biri digərinə on iki ay ərzində Sazişin ləğv edilməsi barədə niyyəti haqqında yazılı surətdə məlumat verməzsə, o, eyni şərtlər əsasında qüvvədə qalacaqdır.

3. Bu Sazişin qüvvəsinin dayandırılması tarixindən əvvəl qoyulmuş investisiyalara münasibətdə onun 1-14-cü maddələrinin şərtləri bu investisiyaların icrasının sona çatmasına qədər qüvvədə qalacaqdır.

Bunun təsdiqi olaraq, bunun üçün lazımi surətdə səlahiyyətlər almış aşağıda imza qoyan təmsilçilər bu Sazişi imzaladılar.

Abu-Dabi şəhərində 20 noyabr 2006-cı il tarixində, iki əsl nüsxədə Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirdə fikir ayrılığının yarandığı təqdirdə ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ HÖKUMƏTİ ADINDAN
HEYDƏR BABAYEV	*MƏHƏMMƏD ABDULLA AL QƏRQAVİ*
İqtisadi inkişaf naziri	*Kabinet işləri üzrə dövlət naziri*

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında ali təhsil sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında ali təhsil sahəsində əməkdaşlıq haqqında" 2006-cı il noyabrın 20-də Abu-Dabi şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№298-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında ali təhsil sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti iki ölkə arasında mövcud olan dostluğun möhkəmləndirilməsi, iki xalq arasında əlaqələrin dəstəklənməsi, millətlər arasında əməkdaşlığın inkişaf etdirilməsi istəyilə və hər iki ölkədə mövcud olan qayda və qanunlar çərçivəsində həyata keçirilən sıx əməkdaşlığın nəticəsi kimi əldə olunacaq faydanı anlayaraq aşağıdakılar barədə razılığa gəldilər.

Maddə 1

Tərəflər ali təhsil sahəsində məsul şəxslərin, o cümlədən tədris heyəti üzvləri və tədqiqatçıların mübadiləsini, onlar arasında qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığı, həmçinin elm sahəsində nümayəndə heyətlərinin mübadiləsini təşviq edəcəklər.

Maddə 2

Tərəflər hər iki ölkənin təhsil və elmi tədqiqat müəssisələri arasında bir-başa əlaqələri dəstəkləyəcək, o cümlədən mövcud imkanlar daxilində tədris heyəti üzvləri və tədqiqatçıların mübadiləsini və qarşılıqlı ezamiyyəsini təşviq edəcəklər.

Maddə 3

Tərəflər hər iki ölkənin ali təhsil müəssisələri və elmi tədqiqat mərkəzləri arasında elm və idarəetmə sahəsində təcrübə mübadiləsi aparacaqlar.

Maddə 4

Tərəflər ümumiyyətlə elmi tədqiqatlar sahəsində, xüsusilə də tətbiqi elmlər sahəsində əməkdaşlığı, o cümlədən müştərək tədqiqat qruplarının yaradılmasını təşviq edəcək, elmi tədqiqatlar və araşdırmaların nəticələrinin mübadiləsini aparacaqlar.

Maddə 5

Tərəflər hər iki ölkənin ali təhsil və elmi tədqiqat müəssisələrində, xüsusilə texniki, tibb və texnologiya elmləri sahəsində kadr hazırlanması imkanlarının artırılmasına çalışacaqlar.

Maddə 6

Tərəflər hər iki ölkədə qüvvədə olan qaydalara əsasən öz ölkələrinin universitetləri tərəfindən verilmiş diplomları və ali təhsildən sonrakı akademik dərəcələri qarşılıqlı şəkildə tanıyacaq, həmçinin təhsil sistemləri haqqında məlumat mübadiləsi aparacaqlar.

Maddə 7

Tərəflər mövcud imkanlar daxilində və hər iki ölkədə qüvvədə olan qanunlara əsasən təhsil təqaüdləri və yerlərinin mübadiləsini aparmaq üçün çalışacaq, həmçinin tələbələrin qarşılıqlı səfərlərinin mübadiləsini aparacaqlar.

Maddə 8

Tərəflər hər iki ölkənin ali təhsil müəssisələrində mühazirələr, simpoziumlar və kitab sərgilərini əhatə edən elm günləri və həftələrinin keçirilməsini təşviq edəcəklər.

Maddə 9

Tərəflər kitabların, nəşrlərin, dövri mətbuatın, kompyuter proqramlarının, filmlərin, həmçinin hər iki ölkədə elmi tədqiqat və mədəniyyətlə əlaqəsi olan bütün mənbələrin mübadiləsini təşviq edəcəklər.

Maddə 10

Tərəflər bir-birini əvvəlcədən xəbərdar etmək şərtilə yerli və beynəlxalq əhəmiyyətli elmi və mədəni görüşlərdə, konfranslarda, forumlarda və seminarlarda birgə iştirakı təşviq edəcəklər.

Maddə 11

Tərəflər əlyazmaları, arxivlər və tarixi sənədlərlə tanış olmaq və onlar-dan istifadə etmək üçün sadələşdirilmiş şərait yaradacaq, hər iki ölkənin tarixi abidələrini və irsini öyrənməkdə əməkdaşlıq edəcək, bu sahənin mütəxəssislərinin mübadiləsini aparacaqlar.

Maddə 12

Tərəflər hər iki ölkədə ərəb dilinin və islami biliklərin öyrənilməsini dəstəkləyəcək və təşviq edəcəklər.

Maddə 13

Tərəflər digər tərəfə məxsus xüsusilə seçilmiş elmi və ədəbi əsərlərin tərcüməsi və nəşrini təşviq edəcək, bu işdə elektron nəşr texnologiyasından istifadə edəcəklər.

Maddə 14

Tərəflər ancaq öz aralarında qarşılıqlı razılaşdırılmış qaydada və xüsusi məqsədlər üçün lazım olan məlumat mübadiləsi aparmaq haqqında razılığa gəlir və digər tərəfin yazılı razılığı olmadan öz aralarında aparılmış məlumat mübadiləsindən hər hansı bir informasiyanın üçüncü tərəfə ötürülməməsi haqqında razılığa gəldilər.

Maddə 15

Bu Saziş 5 il müddətinə bağlanılır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirdikləri barədə diplomatik kanallar vasitəsilə bir-birlərinə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən biri bu müddətin başa çatmasına altı ay qalmış onun müddətinin uzadılması barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə bildiriş göndərməzsə, bu Sazişin qüvvəsi avtomatik olaraq növbəti birillik müddətlərə uzadılır. Sazişin qüvvəsi ləğv edildiyi təqdirdə orada nəzərdə tutulmuş və icrası başa çatdırılmamış proqram və layihələr başa çatdırılanadək davam etdiriləcəkdir. Bu Saziş Abu-Dabi şəhərində 20 noyabr 2006-cı il tarixində iki əsl nüsxədə hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir və onun müddəalarının təfsirində fikir

aynlığı yarandıqda ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*HƏNİF HƏSƏN*
Xarici işlər naziri	*Təhsil naziri*

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq haqqında" 2006-cı il noyabrın 20-də Abu-Dabi şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№299-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq haqqında Saziş

Preambula

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti,

iki ölkə arasında bərabərlik və qarşılıqlı fayda əsasında dostluq münasibətlərinin möhkəmləndirilməsini və iqtisadi, ticarət və texniki əməkdaşlığın inkişaf etdirilməsini arzulayaraq,

aşağıdakılar barəsində razılığa gəldilər:

Maddə 1

1. Razılığa gələn Tərəflər hər iki ölkədə qüvvədə olan qanunvericiliyə uyğun olaraq, ölkələr arasında iqtisadi, ticarət və texniki əməkdaşlığın inkişaf etdirilməsi və gücləndirilməsi üçün çalışacaqlar.

2. Əməkdaşlığa aşağıda göstərilən, lakin bununla məhdudlaşmayan sahələr daxildir:

a) sənaye;

b) kənd təsərrüfatı;

c) nəqliyyat;

d) telekommunikasiya;

e) yanacaq-energetika kompleksi;

f) neft-kimya və neft maşınqayırması sənayesi;

g) investisiya qoyuluşu;

h) turizm;

i) ticarət;

j) gömrük işi;

k) təhsil;

l) elmi tədqiqat;

m) texnologiya;

n) bank işi və sığorta xidməti.

Maddə 2

Bu Sazişə əsasən iqtisadi, ticarət və texniki əməkdaşlığı təşviq etmək məqsədilə Razılığa gələn Tərəflər layihələrin icrası və maliyyələşdirilməsinin mümkünlüyünün araşdırılmasına çalışacaqlar.

Maddə 3

1. Razılığa gələn Tərəflər hər iki ölkənin ticarət və texniki əməkdaşlığının inkişafına səy göstərəcəklər.

2. Razılığa gələn Tərəflər hər iki ölkədə layihələrin həyata keçirilməsinə birgə nail olmaq üçün iqtisadi əməkdaşlığı təşviq edəcəklər.

3. Razılığa gələn Tərəflər müvafiq sahələr üzrə tələbə, stajor, ekspert və alimlərin mübadiləsi üçün lazımi tədbirlər görəcəklər.

Maddə 4

1. Razılığa gələn Tərəflər ölkələrin fiziki və hüquqi şəxslərinin hər iki ölkənin ərazisində keçiriləcək beynəlxalq yarmarka və sərgilərdə iştirakını təşviq edəcəklər.

2. Razılığa gələn Tərəflər hər iki ölkədə qüvvədə olan qanunvericiliyə uyğun kömək edərək, kommersiya nümayəndə heyətlərinin səfər mübadiləsini də dəstəkləyəcəklər.

Maddə 5

Bu Saziş çərçivəsində həyata keçirilən sövdələşmələrdən irəli gələn, hər iki ölkənin fiziki və hüquqi şəxsləri arasındakı bütün hesablaşmalar Razılığa gələn Tərəflərin qanunvericiliyinə uyğun olaraq sərbəst dönərli valyutada aparılacaqdır.

Maddə 6

Razılığa gələn Tərəflər öz ölkələrinin qüvvədə olan qanunvericiliyinə uyğun olaraq malların daşınması, təkrar ixracı və müvəqqəti saxlanması üçün bütün mümkün vasitələri təmin edəcəklər.

Maddə 7

1. Razılığa gələn Tərəflər arasında iqtisadi və ticarət əməkdaşlığını əlaqələndirmək və təşviq etmək üçün Razılığa gələn hər iki Tərəfin nümayəndələrindən ibarət olan Birgə Komissiya təsis edilir ki:

a) bu Sazişin icrasına nəzarət etsin;

b) bu Sazişin müddəalarının tətbiqini qiymətləndirsin və buna dair təkliflər versin;

c) bu Sazişdə nəzərdə tutulan və ya Razılığa gələn Tərəflər arasında sonradan digər qaydada razılaşdırılmış sahələrdə əməkdaşlığı inkişaf etdirsin.

2. Birgə Komissiya hər iki ölkədə növbə ilə ildə bir dəfə və ya Razılığa gələn bir Tərəfin müraciətinə və digər Tərəfin həmin müraciəti qəbul etməsinə əsasən iclas keçirir.

3. Bu Sazişin tətbiqi üçün Birgə Komissiyanın tövsiyə etdiyi razılaşmalar Razılığa gələn Tərəflərin beynəlxalq sazişlərin bağlanmasına dair olan müvafiq dövlətdaxili tələblərinə uyğun olaraq bağlanılır.

Maddə 8

Bu Saziş Azərbaycan Respublikasının və ya Birləşmiş Ərəb Əmirliklərinin üçüncü tərəflər və ya regional və/və ya beynəlxalq iqtisadi təşkilatlarla bağladığı və qüvvədə olan sazişlərindən irəli gələn hüquq və öhdəliklərə təsir etmir.

Maddə 9

Bu Sazişin təfsirindən və ya icrasından irəli gələn hər hansı mübahisə Razılığa gələn Tərəflər arasında məsləhətləşmələr və danışıqlar vasitəsilə dostcasına həll edilir.

Maddə 10

Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə əlavələr və düzəlişlər edilə bilər. Bu əlavələr və düzəlişlər bu Sazişin tərkib hissəsi olan ayn-ayn protokollarla rəsmiləşdiriləcəkdir və Sazişin 11-ci maddəsinin şərtlərinə uyğun qaydada qüvvəyə minəcəkdir.

Maddə 11

1. Razılığa gələn hər bir Tərəf bu Sazişin qüvvəyə minməsi üçün tələb edilən daxili prosedurların başa çatması barədə Razılığa gələn digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş göndərəcəkdir. Saziş həmin bildirişlərdən sonuncusunun tarixində qüvvəyə minir.

2. Bu Saziş beş il müddətinə qüvvədədir və Razılığa gələn Tərəflərdən biri Sazişin qüvvədən düşməsinə ən azı altı ay qalmış, yazılı şəkildə diplomatik kanallar vasitəsilə onu ləğv etmək niyyəti barədə Razılığa gələn digər Tərəfə bildiriş göndərməzsə, avtomatik olaraq növbəti dəfə eyni müddətə uzadılır.

3. Bu Sazişin ləğv edilməsi haqqında bildiriş verildiyi təqdirdə onun müddəalarına əsasən bağlanmış müqavilələrdən irəli gələn və başa çatdırılmamış öhdəliklər bu müqavilələr tam şəkildə yerinə yetirilməyincə qüvvədə qalır.

Bunun təsdiqi olaraq, lazımi səlahiyyət almış aşağıda imza edən şəxslər bu Sazişi imzaladılar.

Abu-Dabi şəhərində 20 noyabr 2006-cı il tarixində, iki əsl nüsxədə Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirdə fikir ayrılığının yarandığı təqdirdə ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ HÖKUMƏTİ ADINDAN
HEYDƏR BABAYEV	*LUBNA AL QASİMİ*
İqtisadi inkişaf naziri	*Planlaşdırma naziri*

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında hərbi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında hərbi əməkdaşlıq haqqında" 2006-cı il noyabrın 20-də Abu-Dabi şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№300-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında hərbi əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Müdafiə Nazirliyi ilə təmsil olunan Azərbaycan Respublikası Hökuməti və Silahlı Qüvvələrin Baş Qərargahı ilə təmsil olunan Birləşmiş Ərəb Əmirlikləri Hökuməti,

iki ölkə arasında mövcud dostluq və əməkdaşlıq münasibətlərini nəzərə alaraq,

hər iki ölkənin müstəqilliyi, suverenliyi, qarşılıqlı faydası və daxili işlərinə qarışmama prinsipləri əsasında hərbi əməkdaşlıq vasitəsilə mövcud ikitərəfli münasibətləri möhkəmləndirməyi və gücləndirməyi, eləcə də iki ölkə arasında müdafiə sahəsində birgə fəaliyyətləri inkişaf etdirməyi arzulayaraq,

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə müvafiq öhdəliklərini təsdiq edərək,

özlərinin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə tam hörmət prinsipinə sadiq qalaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər hər birinin milli qanunları və beynəlxalq öhdəliklərinə müvafiq olaraq öz ara-

larında müdafiə sahəsində əməkdaşlığı qarşılıqlı fayda əsasında təşviq etmək, asanlaşdırmaq və inkişaf etdirmək üçün fəaliyyət göstərəcəklər.

Maddə 2

Tərəflər Sazişin həyata keçirilməsi üçün müvafiq mexanizmləri quracaq və öz aralarında tədbirləri tələb olunduğu qaydada təşkil etmək üçün əlaqələndirici şəxsləri müəyyənləşdirəcək nümayəndələrindən ibarət olan Birgə Hərbi Əməkdaşlıq Komitəsi vasitəsilə həyata keçirəcəklər. Birgə Hərbi Əməkdaşlıq Komitəsi müntəzəm olaraq növbə ilə hər bir ölkədə iclas keçirəcəkdir.

Maddə 3

1. Tərəflər arasında əməkdaşlıq aşağıdakı sahələri ehtiva edəcəkdir:

a) təhlükəsizlik və müdafiə siyasəti;

b) hərbi əməkdaşlıq prosedurlarının inkişaf etdirilməsi;

c) silah idxalı və ixracı;

d) hərbi hazırlıq;

e) hərbi qanunvericilik;

f) hərbi sənaye və elmi tədqiqatlar;

g) hərbi tibbi xidmətlər;

h) humanitar və sülhməramlı əməliyyatlar;

i) hərbi mədəni və idman tədbirləri;

j) ətraf mühit məsələləri və hərbi müəssisələrin törətdiyi çirklənmə;

k) daha sonra razılaşdırılacaq digər sahələr.

2. Bu Sazişdə nəzərdə tutulan sahələrdə əməkdaşlığa nail olmaq üçün, zəruri olduqda, müəyyən sahənin təşkilini razılaşdırmaq məqsədilə xüsusi protokollar, anlaşma memorandumları və ya kontraktlar hazırlana bilər.

Maddə 4

Tərəflər arasında əməkdaşlıq aşağıdakılar vasitəsilə həyata keçiriləcəkdir.

1. Rəsmi səfərlər və ikitərəfli görüşlər.

2. Şəxsi heyətin səfərləri.

3. Hərbi təcrübə mübadiləsi.

4. Hərbi kurslar, hərbi hazırlıq və hərbi təlimlərdə iştirak.

5. Tərəflərin təşkil etdiyi digər rəsmi tədbirlərdə iştirak.

Maddə 5

1. Hər iki Tərəf, mübadilə etdikləri konfidensial və məxfi məlumatı, bu Sazişin həyata keçirilməsi zamanı, eləcə də onun ləğvindən sonra mühafizə etməyi öz üzərinə götürür.

2. Tərəflər bu Saziş çərçivəsində birgə tədbirlər zamanı mühüm və məxfi məlumat mü-

badiləsi üzrə müfəssəl işlərin təşkilinə, eləcə də ayrıca anlaşma memorandumu və ya protokol vasitəsilə onun istifadəsinin və mübadilə edilən məxfi məlumatın mühafizə vasitələrinin təşkilinə razıdırlar.

3. Tərəflər əməkdaşlıq nəticəsində əldə edilmiş məlumatın, bu məlumatı təqdim edən Tərəfin əvvəlcədən yazılı razılığı olmadan üçüncü tərəfə verilməməsini öhdələrinə götürürlər.

Maddə 6

Başqa şəkildə razılaşdırılmazsa, səfər edən hər bir Tərəf qəbul edən Tərəfin ərazisində olarkən bu Sazişin və ya ondan irəli gələn hər hansı digər tədbirin həyata keçirilməsi ilə bağlı öz xərclərini özü ödəyəcəkdir. Uzunmüddətli tədris proqramlarına gəldikdə isə Tərəflər onun maliyyə bölgüsünü, ehtiyac olduqda, sonra razılaşdıra bilərlər.

Maddə 7

1. Qəbul edən ölkənin ərazisində olduğu müddət ərzində göndərən Tərəfin şəxsi heyəti qəbul edən ölkənin qanun və qaydalarına riayət edəcəkdir. Onlar qəbul edən ölkənin təhlükəsizliyi və ərazi bütövlüyünə zərər vura biləcək tərzdə hərəkət etməyəcəklər.

2. Qəbul edən ölkənin ərazisində olduğu müddət ərzində göndərən ölkənin şəxsi heyəti qəbul edən ölkənin qanun və qaydalarına tabe olacaqdır.

3. Qəbul edən ölkənin ərazisində olduğu müddət ərzində göndərən Tərəfin şəxsi heyəti hərbi nizam-intizamı pozarsa, göndərən Tərəfin hakimiyyət orqanları öz hərbi qanun və qaydalarına müvafiq tədbirlər görəcəklər.

Maddə 8

Bu Sazişin təfsiri və ya həyata keçirilməsi ilə bağlı Tərəflər arasında yaranan hər hansı mübahisə hər iki Tərəfin nümayəndələri arasında dostcasına birbaşa məsləhətləşmələr və ya danışıqlar yolu ilə və lazım gələrsə, diplomatik kanallar vasitəsilə həll ediləcəkdir.

Maddə 9

Bu Sazişin müddəaları Tərəflərin iştirak etdikləri digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 10

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan ayrı-ayrı protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər. Həmin protokollar bu Sazişin 11-ci maddəsinin 1-ci bəndində nəzərdə tutulan qaydada qüvvəyə minir.

Maddə 11

1. Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin bir-birinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

2. Bu Sazişin müddəti 5 (beş) ildir və avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

3. Hər bir Tərəf digər Tərəfə yazılı bildiriş verməklə istənilən zaman bu Sazişi ləğv etmək hüququna malikdir. Bu Sazişin ləğv edilməsi bildirişin verildiyi tarixdən 6 (altı) ay sonra qüvvəyə minir.

4. Bu Saziş ləğv edilərsə və ya müddəti uzadılmazsa, hər bir Tərəf ondan irəli gələn öhdəliklərini yerinə yetirməyə məcburdur.

Bu Saziş Abu-Dabi şəhərində 20 noyabr 2006-cı ildə iki əsl nüsxədə, Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır. Mətnlərin təfsirində fikir ayrılığı yarandığı təqdirdə ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

Bunun təsdiqi kimi, aşağıda imza edən nümayəndələr, öz müvafiq hökumətlərindən lazımi səlahiyyət alaraq, bu Sazişi imzaladılar.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ HÖKUMƏTİ ADINDAN
SƏFƏR ƏBİYEV	*MƏHƏMMƏD HİLAL BİN SÜRUR ƏL-KƏBİ*
Müdafiə naziri	*Baş qərargah rəisinin müavini*

"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında" 2006-cı il noyabrın 20-də Abu-Dabi şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№301-IIIQ

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin Səhiyyə Nazirliyi iki ölkə arasında səhiyyə və tibb elmi sahəsində əlaqələrin inkişaf etdirilməsi və möhkəmləndirilməsini qərara alaraq aşağıdakı müddəalar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər bu Sazişə müvafiq olaraq və hər bir ölkənin qanunvericiliyinə əsaslanaraq onların səhiyyə və tibb institutları, tibbi mərkəzləri və digər qurumlan arasında əməkdaş-

lığın inkişaf etdirilməsində bir-birini dəstəkləyəcəklər.

Maddə 2

Tərəflər hər iki ölkənin səhiyyə sistemlərinin daha yaxından qarşılıqlı öyrənilməsi və səhiyyə və elmi tədqiqat sahəsində daha geniş əməkdaşlıq məqsədilə özlərinin ekspertlərindən ibarət nümayəndə heyətlərinin prioritet hesab edilən və göndərən tərəfin təklif etdiyi mövzular üzrə tədris səfərlərini təşkil edəcəklər.

Tərəflər bir-birinə ekspertlərin adlan, vəzifələri və ixtisaslan, həmçinin təcrübə mübadiləsi üçün təklif edilmiş mövzular haqqında qarşılıqlı razılaşdırılmış tarixdən ən azı 30 gün əvvəl məlumat verməlidirlər.

Göndərən tərəf qəbul edən tərəfə səfərin başlanılma tarixi və marşrut barəsində ən azı 15 gün əvvəl məlumat verməlidir.

Göndərən tərəf göndərilən ekspertlərin 2 paytaxt arasında gediş-gəliş xərclərini ödəməlidir.

Qəbul edən tərəf səfər müddətində yerli nəqliyyat və mehmanxana xərclərini ödəməlidir.

Maddə 3

Tibb elmi sahələri üzrə əməkdaşlığın inkişafı məqsədilə Tərəflərin tibbi cəmiyyətləri keçiriləcək elmi tədbirlərin cədvəli barədə hər il dekabr ayının 15-nə qədər məlumat verməlidirlər. Onlar həmçinin bu tədbirlər üzrə təşkilati məlumatlan da təqdim etməlidirlər.

Maddə 4

Tərəflər tibbi və elmi tədqiqat institutları arasında birbaşa əməkdaşlığı dəstəkləyəcəklər.

İnstitutlar arasında birbaşa əməkdaşlıq elmi materialların və texniki sənədlərin mübadiləsi, həmçinin birgə iş planlan və metodologiya əsasında qarşılıqlı maraq kəsb edən birgə tədqiqat proqramları vasitəsilə, göndərən tərəfin xərci hesabına hər iki dövlətdə təcrübi kurslar və elmi konfranslarda iştirak yolu ilə həyata keçirilir.

İnstitutların rəhbərlərinin imzaladığı planlar hər iki dövlətin səlahiyyətli orqanları tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.

Tərəflər birbaşa anlaşma yolu ilə xəstəxanalar arasında olan əlaqələri dəstəkləyəcəklər.

Maddə 5

Tərəflər tibbi jurnalların, səhiyyə təhsili üzrə materialların və posterlərin mübadiləsini qarşılıqlı əsasda inkişaf etdirəcəklər.

Tərəflər tibbi nəşriyyat sahəsində əməkdaşlığı inkişaf etdirəcəklər.

Maddə 6

Tərəflər qarşılılıq əsasında digər tərəfin vətəndaşlarına, həmçinin rəsmi məqsədlər üçün onların ərazisində müvəqqəti qalan bu cür şəxslərə, o cümlədən diplomatik və konsulluq əməkdaşlarına Tərəflərin qanunvericiliyinə müvafiq olaraq tibbi xidmət göstərilməsini təmin edəcəklər.

Turistin digər tərəfin ərazisində müvəqqəti qalması zamanı təcili cərrahiyyə əməliyya-

tına ehtiyac yarandığı halda, qəbul edən tərəf xəstənin vəziyyətinin onun fəsadlar təhlükəsi olmadan transportasiya olunmasına imkan verənə qədər xəstəyə mövcud qaydalara əsasən tibbi xidmət göstərilməsini təmin etməlidir.

Bir tərəfin ərazisində epidemiya və ya yoluxucu xəstəliklər mövcud olduğu təqdirdə, digər tərəfin bu ölkədə müvəqqəti qalan turistlərinə pulsuz tibbi yardım göstəriləcəkdir.

Tərəflər hər bir xüsusi halda qarşılıqlı razılığa əsasən, xərclərin göndərən tərəfdən ödənilməsi şərtilə, müalicə və diaqnostika üçün digər tərəfə xəstələri göndərə bilərlər.

Bir tərəfin vətəndaşı digər tərəfin ərazisində vəfat etdiyi təqdirdə, Tərəflər qarşılılıq əsasında müvafiq xidmətlərin, o cümlədən balzamlaşdırma və ya cənazənin konservasiyası üzrə digər tədbirlərin görülməsini təmin edəcəkdir. Cənazənin daşınması üzrə xərclər vəfat etmiş şəxsin ailəsi tərəfindən ödəniləcəkdir.

Maddə 7

Tərəflər hər tərəfdən üç nəfər olmaqla əməkdaşlığın həyata keçirilməsini təmin edəcək əlaqələndirici qrup yaradacaqlar. Qrup Bakıda və Abu-Dabi-də mütəmadi iclaslar keçirəcəklər.

Maddə 8

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə edilməsi təklif olunmuş dəyişikliklər və əlavələr bu Sazişin tərkib hissələri hesab edilən ayrıca protokollarla rəsmiləşdirilir. Yuxanda göstərilən protokollar bu Sazişin 9-cu maddəsində nəzərdə tutulmuş qaydada qüvvəyə minir.

Maddə 9

Bu Saziş Tərəflərin bütün prosedurların dövlətdaxili qanunvericiliyə müvafiq olaraq bitməsi haqqında bir-birinə diplomatik kanallarla qarşılıqlı bildiriş verdiyi tarixdən qüvvəyə minir və beş il müddətinə qüvvədədir.

Tərəflərdən biri bu Sazişin qüvvədən düşməsindən altı ay əvvəl diplomatik kanallarla onun qüvvəsi ləğv etmək istəyi barədə yazılı bildiriş təqdim etmədiyi halda, bu Sazişin qüvvəsi avtomatik olaraq daha beş il müddətinə uzadılacaqdır.

Bu Saziş onun qüvvəsi ləğv edildiyi təqdirdə, ona uyğun olaraq həyata keçirilən və başa çatdırılmamış əməkdaşlıq üzrə hər hansı proqram başa çatdırılana qədər davam etdiriləcəkdir.

Bu Saziş hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirdə fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətnə üstünlük verilir.

Saziş Abu-Dabi şəhərində 20 noyabr 2006-cı il tarixində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ HÖKUMƏTİ ADINDAN

FOMEİD MƏHƏMMƏD ƏL-KİTAMİ
Səhiyyə naziri

Azərbaycan Respublikasının Latviya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri T.N. Zülfüqarovun iqamətgahı Riqa şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Estoniya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Latviya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Tofiq Nadir oğlu Zülfüqarov iqamətgahı Riqa şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Estoniya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 2007-ci il

№2085

"Azərbaycan Respublikasının Hökuməti və Rusiya Federasiyası Kurqan Vilayətinin Administrasiyası (Hökuməti) arasında ticarət-iqtisadi, elmi və mədəni əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Hökuməti və Rusiya Federasiyası Kurqan vilayətinin Administrasiyası (Hökuməti) arasında ticarət-iqtisadi, elmi və mədəni əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubova verilməsi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 aprel 2007-ci il

№2086

2007-ci il fevralın 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı arasında Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasının keçirilməsinə dair Vəzifə Təlimatı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il fevralın 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı arasında Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasının keçirilməsinə dair Vəzifə Təlimatı" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Vəzifə Təlimatının həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 aprel 2007-ci il

№2088

Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı arasında Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasının keçirilməsinə dair Vəzifə Təlimatı

Giriş

Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı (bundan sonra "Tərəflər" adlandırılacaqdır) iki ölkə arasında mövcud olan əlaqələri daha da inkişaf etdirmək arzusuzla, 10 iyun 1996-cı il tarixdə imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi təlim, texniki və elmi sahələrdə əməkdaşlıq haqqında Saziş"ə müvafiq olaraq Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasının keçirilməsinə dair aşağıdakı vəzifə təlimatını bu şəkildə təsdiq edirlər:

Maddə 1

Məqsəd

Bu Vəzifə Təlimatının məqsədi qarşılıqlı maraqları təşviq etmək və Tərəflər arasındakı hərbi əlaqələri daha da inkişaf etdirmək üçün Tərəflərin müştərək maraq sahələrini araşdırmaq, müzakirə etmək, əməkdaşlıq tədbirləri görmək və bu məqsədlə qəbul edilən müştərək qərarları icra etməkdir.

Maddə 2

Əhatə dairəsi

1. Tərəflər, bu Vəzifə Təlimatının birlikdə imzalanmasından sonrakı mərhələdə, aşağıda təfərrüatları göstərilən Yüksək Səviyyəli Hərbi Dialoq İclasını və Yardımçı İşçi Qruplarının iclaslarını keçirəcəklər.

2. Yüksək Səviyyəli Hərbi Dialoq İclasının gündəliyinin əsas məsələləri, Tərəflər arasında fərqli bir şəkildə tərtib olunmadığı təqdirdə, aşağıda olduğu kimidir:

a) Tərəflərdən hər birinə, regional və qlobal məsələlərə dair siyasi-hərbi və təhlükəsizlik mövzuları,

b) Tərəflər arasında hərbi təhsil, hərbi maddi-texniki təminat yardımı və müdafiə sənayesi üzrə əməkdaşlıq məsələləri və proqramları,

c) regional və qlobal sülhün təmin edilməsi və humanitar yardım fəaliyyətlərində əməkdaşlıq,

d) əvvəlcədən keçiriləcək məsləhətləşmələrlə müəyyənləşdirilən digər məsələlər.

Maddə 3

Təşkilati struktur

1. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - müdafiə nazirinin birinci müavini və Türkiyə Respublikası Baş Qərargahının II rəisi Yüksək Səviyyəli Hərbi Dialoq İclasına birgə sədrlik edəcəklər.

2. Yüksək Səviyyəli Hərbi Dialoq İclasında Tərəflərdən hər biri, sədr və gündəliyin əvvəlcədən müəyyənləşdirilmiş məsələlərinə aidiyyəti olan mövzulara cavabdeh olan zabitlər daxil olmaqla, 10 nümayəndədən artıq olmayan bir heyət yaradacaqdır.

3. Yüksək Səviyyəli Hərbi Dialoq İclaslarında Tərəflərin cavabdeh orqanları:

a) Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - müdafiə nazirinin birinci müavini,

b) Türkiyə Respublikası Baş Qərargahının II rəisidir.

4. Yüksək Səviyyəli Hərbi Dialoq İclasını birgə aparacaq heyət sədrlərinin birgə nəzarət və istiqamətləndirilməsi ilə Yüksək Səviyyəli Hərbi Dialoq İclasında birgə qəbul edilən qərarlar istiqamətində iş görmək üçün:

a) siyasi-hərbi məsələlər, regional və qlobal təhlükəsizlik məsələləri və hərbi təhsil üzrə əməkdaşlıq məsələləri üçün Siyasi-Hərbi Yardımçı İşçi Qrupu,

b) müdafiə sənayesi üzrə əməkdaşlıq sahəsindəki məsələlər üçün Müdafiə Sənayesində Əməkdaşlıq üzrə Yardımçı İşçi Qrupu,

c) hərbi maddi-texniki təminat yardımı məsələləri üçün Maddi-Texniki Təminat üzrə Yardımçı İşçi Qrupu təşkil ediləcəkdir.

5. Yuxarıda göstərilən yardımçı işçi qrupları:

a) yüksək Səviyyəli Hərbi Dialoq İclaslarının proqramlarından asılı olmadan, öz səviyyələrində razılaşdırılaraq, müstəqil iclas keçirəcəklər,

b) lazım gəldikdə, Yüksək Səviyyəli Hərbi Dialoq İclasları ilə eyni zamanda da iclas keçirə biləcəklər,

c) gördükləri işləri, iclaslarda nail olduqları nəticələri, öz vəzifə sahələrinə aid rəylərini və təkliflərini öz iclaslarından sonrakı ilk Yüksək Səviyyəli Hərbi Dialoq İclasında Tərəflər arasında razılaşdıraraq məruzə edəcəklər,

d) yüksək Səviyyəli Hərbi Dialoq İclasında birgə qəbul edilən qərarlar və verilən direktivlər istiqamətində işlərinə davam edəcəklər.

6. Tərəflərin yardımçı işçi qrupları üçün təyin edəcəkləri işçi qruplarının həmsədrləri aşağıda göstərilmişdir:

a) Siyasi-Hərbi Yardımçı İşçi Qrupu üçün:

(i) Azərbaycan Respublikası Müdafiə Nazirliyindən - idarə rəisi,

(ii) Türkiyə Respublikası Baş Qərargahından - idarə rəisi.

b) Müdafiə Sənayesində Əməkdaşlıq üzrə Yardımçı İşçi Qrupu üçün:

(i) Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyindən - şöbə müdiri,

(ii) Türkiyə Respublikası Müdafiə Nazirliyi - Baş Qərargahından - idarə rəisi

c) Maddi-Texniki Təminat üzrə Yardımçı İşçi Qrupu üçün:

(i) Azərbaycan Respublikası Müdafiə Nazirliyindən - Silahlı Qüvvələrin Arxa Cəbhə rəisi,

(ii) Türkiyə Respublikası Baş Qərargahından - idarə rəisi.

d) Tərəflərin daxili şərtlərinin tələb etdiyi halda, yuxarıda göstərilən yardımçı işçi qruplarının həmsədrlərinin təyin olunmasında dəyişiklik edilməsi mümkündür.

7. Yüksək Səviyyəli Hərbi Dialoq İclaslarının hazırlanması və razılaşdırılması, Tərəflərin digər ölkədə olan silahlı qüvvələr və hərbi attaşelikləri vasitəsilə həyata keçiriləcəkdir.

Maddə 4

Vəzifələr və fəaliyyət

1. İlk Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclası 2007-ci ildə keçiriləcəkdir. Yardımçı işçi qruplarının fəaliyyəti ilk Yüksək Səviyyəli Hərbi Dialoq İclasında veriləcək direktivlər əsasında başlanacaq, növbəti mərhələdə keçiriləcək yardımçı işçi qruplarının iclasları ilə davam ediriləcəkdir.

2. Yüksək Səviyyəli Hərbi Dialoq İclası, prinsip etibarilə, ildə bir dəfə və qarşılıqlı şəkildə razılaşdırılacaq bir tarixdə keçiriləcəkdir. Qarşılılıq əsasında, Tərəflərdən hər biri növbə ilə iclaslara ev sahibliyi edəcəkdir.

3. Tərəflər, iclasların gündəliyi üzrə iclasdan kifayət qədər əvvəl (ən azı 45 gün əvvəl) razılaşma aparacaq və Tərəflərin hazırlanması üçün vaxt veriləcəkdir.

4. İclaslarda Tərəflər növbəti ilin proqramını da müzakirə edəcək və növbəti iclasın keçiriləcəyi tarixi müəyyənləşdirməyə səy göstərəcəklər. Buna görə, növbəti iclasa ev sahibliyi edəcək Tərəf, razılaşdırılan növbəti iclas tarixindən 3 ay əvvəl ziyarətçi Tərəfə rəsmi dəvət göndərəcəkdir.

5. Ev sahibi olan Tərəf ziyarətçi Tərəf üçün ümumi bir ziyarət və iclas proqramı hazırlayacaq, ziyarət üçün inzibati dəstəyi təmin edəcəkdir.

Maddə 5

Maliyyə tənzimləmələri

1. Ev sahibi olan Tərəf, ziyarətçi Tərəfdən göndərilən heyətin iclasın keçiriləcəyi şəhərədək nəqliyyat xərcləri xaricində, bütün xərclərini və yerləşdirmə xərclərini (yemək və yaşayış) ödəyəcəkdir.

2. Ev sahibi olan Tərəf, iclasa ev sahibliyi ilə bağlı xərclərə (ekskursiya, araşdırma və tədqiqat məqsədli ölkədaxili nəqliyyat xərcləri daxil olmaqla) görə cavabdeh olacaqdır.

3. Tərəflər yuxarıda göstərilən xərclər xaricində qalan maliyyə xərcləri üçün qarşılılıq əsasında hərəkət edəcəklər.

Maddə 6

Təhlükəsizlik

İclas əsnasında Tərəflərin təqdim etdiyi, mübadilə etdiyi ya da təmin etdiyi məlumat və ləvazimat digər Tərəfin əvvəlcədən yazılı təsdiqi olmadan üçüncü tərəflərin Silahlı Qüvvələri, Hökuməti ya da başqa təşkilatlarına verilməyəcək və bu Vəzifə Təlimatının məqsədi xaricində olan başqa məqsədlər üçün istifadə olunmayacaqdır.

Maddə 7

Fikir ayrılıqlarının aradan qaldırılması

Bu Vəzifə Təlimatının təfsirindən ya da tətbiqindən irəli gələn hər növ fikir ayrılığı Tərəflər arasında danışıqlar yolu ilə həll ediləcək və məsələ həll üçün hər hansı bir məhkəmə ya da təşkilata ötürülməyəcəkdir.

Maddə 8

Qüvvəyə minmə, qüvvədə olma müddəti və düzəliş

1. Bu Vəzifə Təlimatı Tərəflərin onu imzalamasından sonra qüvvəyə minəcəkdir.

2. Bu Vəzifə Təlimatı 2 il müddətində qüvvədə olacaq və hər hansı Tərəf digər Tərəfə qüvvədə olma müddətinin bitməsindən 60 gün əvvəl bu Vəzifə Təlimatını ləğv etdirmək niyyətində olduğunu bildirmədiyi təqdirdə, qüvvədə olma müddəti növbəti 2 illik müddət üçün avtomatik olaraq uzadılacaqdır.

3. Bu Vəzifə Təlimatı Tərəflərin yazılı icazəsi ilə dəyişdirilə bilər.

Maddə 9

Ləğv olunma

1. Bu Vəzifə Təlimatının ləğv olunması 10 iyun 1996-cı il tarixdə imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi təlim, texniki və elmi sahələrdə əməkdaşlıq haqqında Saziş" in ləğv olunması tarixi ilə eyni zamanda olacaqdır.

2. Tərəflərdən hər biri, digər Tərəfin bu Vəzifə Təlimatını yerinə yetirmədiyi ya da yerinə yetirə bilmədiyinə inanmaq üçün səbəbləri olduğu təqdirdə, digər Tərəfə danışıqlar üçün yazılı təkliflə müraciət edə bilər.

Maddə 10

Hazırlıq və imza

1. Bu Vəzifə Təlimatı 26 fevral 2007-ci il tarixdə Bakı şəhərində, 2 əsl nüsxədə, Azərbaycan və türk dillərində imzalanmışdır və hər iki mətn eyni hüquqi qüvvəyə malikdir.

2. Bütün bunların təsdiqi olaraq, dövlətləri tərəfindən müvafiq qaydada səlahiyyətləndirilmiş aşağıdakı şəxslər bu Vəzifə Təlimatını imzaladılar.

AZƏRBAYCAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRLİYİ ADINDAN	TÜRKİYƏ RESPUBLİKASININ BAŞ QƏRARGAHI ADINDAN
SƏFƏR ƏBİYEV	*ERGİN SAYGUN*
Müdafiə naziri	*Baş qərargahının II rəisi*

"Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisindən tranzit keçidi qaydaları haqqında Əsasnamə"yə əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının *Milli Məclisi* qərara alır :

I. Azərbaycan Respublikasının 2002-ci il 27 dekabr tarixli 414-IIQ nömrəli *Qanunu* ilə təsdiq edilmiş "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisindən tranzit keçidi qaydaları haqqında Əsasnamə"yə (*Azərbaycan Respublikasının* Qanunvericilik Toplusu, 2003-cü il, № 2, maddə 80) aşağıdakı məzmunda 7-1-ci və 7-2-ci bəndlər əlavə edilsin:

"7-1. Azərbaycan Respublikasının dövlət sərhədindən keçmək üçün etibarlı sənədlərə malik olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər qanunvericilikdə nəzərdə tutulmuş əsaslar mövcud olduqda Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılmaya bilərlər.

7-2. Azərbaycan Respublikasının ərazisindən dəmiryol nəqliyyatı və avtonəqliyyat vasitəsi ilə tranzitlə keçən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sərhədboyu zonada dayanması qadağandır.".

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 17 aprel 2007-ci il

№318-IIIQD

2007-ci il fevralın 7-də Tbilisi şəhərində imzalanmış "Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda-Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiya-rekonstruksiyası və istismarının prinsip və şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il fevralın 7-də Tbilisi şəhərində imzalanmış "Bakı-TbilisiQars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda-Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiya-rekonstruksiyası və istismarının prinsip və şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki:

2.1. bu Sərəncamın 1-ci bəndi ilə təsdiq edilən Sazişdə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan barədə təkliflərini 15 gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. öz səlahiyyətləri daxilində bu Sərəncamın 1-ci bəndi ilə təsdiq edilən Sazişin həyata keçirilməsi ilə əlaqədar zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Gürcüstan Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 aprel 2007-ci il

№2101

"Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda -Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiya-rekonstruksiyası və istismarının prinsip və şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti,

2007-ci il fevralın 7-də Tbilisi şəhərində imzalanmış "Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti haqqında" Sazişi, Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası Prezidentlərinin Bakı şəhərində 2005-ci il mayın 25-də imzaladıqları Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında Bəyannaməni rəhbər tutaraq,

Cənubi Qafqaz, eləcə də bütövlükdə Avrasiyada davamlı inkişaf və təhlükəsizliyin təmin olunmasına yönəldilmiş ticarət-iqtisadi münasibətlər sahəsində sıx əməkdaşlıq

üçün regional nəqliyyat şəbəkəsinin yaradılmasının vacibliyini qeyd edərək,

Tarixi İpək Yolunun bərpası əsasında nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi üçün Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafına dair qarşılıqlı maraqlarını ifadə edərək,

regionda iqtisadi artıma, sabitlik və rifahın yüksəldilməsinə yardım edəcək "Bakı-Tbilisi-Qars yeni dəmir yolu bağlantısı" layihəsinin "Şərq-Qərb" enerji-nəqliyyat dəhlizinin əsas tərkib hissəsi olduğunu dərk edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişin predmeti "Bakı-Tbilisi-Qars yeni dəmir yolu bağlantısı" layihəsinin (bundan sonra - "Layihə") həyata keçirilməsi çərçivəsində Marabda- Axalkalaki sahəsinin reabilitasiya-rekonstruksiyasını, Axalkalakidən Türkiyə Respublikası sərhədinə qədər olan sahənin, həmçinin müvafiq infrastruktur obyektlərinin tikintisini nəzərdə tutan, Marabda - Türkiyə Respublikasının sərhədinə qədər olan dəmir yolu sahəsini bundan sonra (bundan sonra - "Sahə") maliyyələşdirilməsi, layihələndirilməsi, tikintisi, reabilitasiya - rekonstruksiyası, həmçinin istismarının prinsip və şərtlərindən ibarətdir.

Maddə 2

Tərəflər bu Sazişin və Layihənin icra edilməsi ilə bağlı bütün digər sazişlərin müddəalarının tam həyata keçirilməsini, həmçinin bu sazişlərlə nəzərdə tutulmuş fəaliyyət və işlərin həyata keçirilməsinə icazə verilməsini öz öhdələrinə götürürlər.

Tərəflər həmçinin öz səlahiyyətləri çərçivəsində Layihənin həyata keçirilməsi üçün zəruri olan müvafiq normativ bazanın yaradılmasının təmin olunmasına imkan yaradacaqlar.

Maddə 3

Gürcüstan Tərəfi Sahənin və müvafiq infrastruktur obyektlərinin layihələndirilməsi, inşası, reabilitasiya-rekonstruksiyası və istismarı üçün bütün lazımi şəraiti, eləcə də:

strateji obyekt olan və Layihənin başa çatmasına və kreditin tam ödənilməsinə qədər özəlləşdirilməyəcək və ləğv olunmayacaq "Marabda-Kartsaxi Dəmir Yolu" MMC-yə (bundan sonra - "Borcalan") Layihənin həyata keçirilməsi səlahiyyətlərinin verilməsini; "Marabda-Kartsaxi Dəmir Yolu" MMCnin 100 faizlik sahibi dövlətdir;

dəmir yolu xəttinin və müvafiq kommunikasiyaların inşası üçün torpaq sahələrinin verilməsini;

inşa, reabilitasiya-rekonstruksiya və istismar işlərinin təhlükəsizliyinin təmin olunması üçün tədbirlərin görülməsini;

Layihə çərçivəsində Sahədə aparılan reabilitasiya-rekonstruksiya, inşa və təmir işlərinin Borcalan tərəfindən həyata keçirilməsini;

ekoloji təhlükəsizliklə bağlı məsələlərin həllini;

inşa və reabilitasiya-rekonstruksiya işlərinin vaxtında başa çatdırılmasını birbaşa və ya dolayı yol ilə ləngidən maneələrin aradan qaldırılmasını;

Layihə çərçivəsində inşa və reabilitasiya-rekonstruksiya işləri başa çatdıqdan sonra Sahənin fasiləsiz və təhlükəsiz istismarını təmin edəcəkdir.

Gürcüstan Tərəfi öz səlahiyyətləri çərçivəsində Borcalanın öz öhdəliklərini yerinə yetirməsinə yardım edəcəkdir.

Azərbaycan Tərəfi Sahənin Layihələndirilməsinin, inşasının, reabilitasiya-rekonstruksiyasının həyata keçirilməsi və həmçinin müvafiq infrastruktur obyektlərinin tikintisi üçün lazım olan tam maliyyələşdirilməni təmin edəcəkdir.

Yuxarıda qeyd olunan maliyyələşdirilmənin təmin edilməsi məqsədilə Azərbaycan Tərəfi "Azərbaycan Beynəlxalq Bankı" ASC (bundan sonra - "Agent-Bank") vasitəsilə Sahənin layihələndirilmə, inşa və reabilitasiya-rekonstruksiya işlərinin, həmçinin müvafiq infrastruktur obyektlərinin tikintisinin tam həyata keçirilməsi üçün Borcalana kredit xətti ayırır.

Maddə 4

Sahənin inşası və reabilitasiya-rekonstruksiyası Borcalan tərəfindən beynəlxalq standartlara (UİC) və Gürcüstan qanunvericiliyinə uyğun olaraq həyata keçiriləcəkdir.

Tərəflər bu Saziş qüvvəyə mindikdən sonra Gürcüstan qanunvericiliyində mümkün olan dəyişikliklərin Sahənin və müvafiq infrastruktur obyektlərinin istismara verilməsinədək onların layihələndirilməsi, inşası və reabilitasiya-rekonstruksiyası, həmçinin tikinti işlərinin dəyərinin artmasına gətirib çıxarmayacağı barədə razılığa gəldilər.

Maddə 5

Sahənin layihələndirilmə, inşa, reabilitasiya-rekonstruksiya işlərinin, həmçinin müvafiq infrastruktur obyektlərinin tikintisinin maliyyələşdirilməsi Azərbaycan Tərəfindən Agent-Bank vasitəsilə Borcalana illik dərəcəsi 1 faiz olmaqla, uzadılma imkanı ilə 25 il müddətinə 200 milyon ABŞ dolları həcmində ayrılmış kredit xətti hesabına həyata keçiriləcəkdir. Layihələndirmə başa çatdıqdan və Tərəflər arasında onun nəticələri razılaşdırıldıqdan sonra məbləğ dəyişdirilə bilər.

Tərəflər razılığa gəldilər ki, maliyyələşdirmə üçün ayrılmış bütün məbləğ yalnız Sahənin layihələndirilməsi, inşası və reabilitasiya-rekonstruksiyası, həmçinin müvafiq infrastruktur obyektlərinin tikintisinin həyata keçirilməsi üçün sərf olunacaqdır.

Sərbəst pul vəsaitləri əldə edilən gəlirlər və çəkilən xərclər (cari, istismar, əsaslı və vergi xərclərini də daxil etməklə) arasında olan fərqdən ibarətdir. Bütün sərbəst pul vəsaitləri kreditin tam qaytarılmasına qədər onun ödənilməsinə yönəldiləcəkdir. Bu məqsədlə Borcalan, Sahənin istismarı və idarə olunmasının ayrıca maliyyə hesabatını aparır.

Tərəflər kredit xətti vasitəsilə ayrılmış maliyyə vəsaitlərinin təminatının yeganə mənbəyi Sahənin istismarından əldə edilən sərbəst pul vəsaitləri olacağını təsdiqləyirlər.

Borcalan, Sahənin layihəsinin hazırlanmasına və inşasına görə məsuliyyət daşıyır. Reabilitasiya-rekonstruksiya və inşa işləri başa çatdıqdan sonra Sahənin istismarını "Gürcüstan Dəmir Yolu" MMC həyata keçirəcəkdir.

Maddə 6

Tərəflər, bu Sazişin qüvvədə olduğu müddətdə, onun həyata keçirilməsinə və müddəalarının tətbiq edilməsinə aid olan məsələlərin nizama salınması məqsədilə paritet əsasında Koordinasiya Şurası yaradırlar.

Büdcənin təsdiq edilməsi yolu ilə kredit resurslarından istifadəyə nəzarət və kreditin tam ödənilməsinə qədər ona əməl olunması Koordinasiya Şurasının müstəsna səlahiyyətindədir. Əvvəlki ilin 1 dekabr tarixinə kimi büdcə təsdiq edilmədiyi təqdirdə Borcalan, vəsaitlərin səmərəli istifadəsini və xərclənməsini davam etdirmək hüququna malikdir. Bu halda Koordinasiya Şurası 3 gün ərzində Tərəflərin Səlahiyyətli Orqanlarını xəbərdar etməlidir.

Bu Sazişin Tərəflərinin təyin olunmuş təmsilçilərindən ibarət olan Koordinasiya Şurası, Sazişin qüvvəyə mindiyi gündən etibarən 3 ay ərzində keçirəcəyi ilk iclasında öz fəaliyyətinin qayda və prosedurlarını müəyyən edən Əsasnaməni təsdiq edir.

Koordinasiya Şurasının toplantıları hər rübdə və yaxud bu Sazişin hər hansı bir Tərəfinin xahişi ilə çağırılır.

Koordinasiya Şurası Tərəflərin Səlahiyyətli Orqanlarına hesabat verir.

Maddə 7

Tərəflərin qarşılıqlı yazılı razılığı əsasında bu Sazişə düzəliş və dəyişikliklər ayrıca protokollarla rəsmiləşdirilərək, Sazişin ayrılmaz tərkib hissəsi olmaqla, Sazişin 11-ci maddəsinin tələblərinə uyğun olaraq qüvvəyə minir.

Maddə 8

Bu Saziş Tərəflərin iştirakçısı olduqda digər beynəlxalq müqavilələr üzrə hüquq və öhdəliklərinə xələl gətirməyəcəkdir.

Maddə 9

Bu Sazişin təfsiri və tətbiqi ilə əlaqədar Tərəflər arasında yaranmış mübahisə və fikir ayrılıqları diplomatik kanallar vasitəsilə məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

Maddə 10

Bu Saziş kreditin tam ödənilməsinə qədər qüvvədə qalacaqdır.

Maddə 11

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən etibarən qüvvəyə minir.

Bu Saziş Tbilisi şəhərində 2007-ci il 7 fevral tarixində hər biri Azərbaycan, gürcü və rus dillərində olmaqla, iki nüsxədə imzalanmışdır, mübahisələr yarandıqda rus dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	GÜRCÜSTAN HÖKUMƏTİ ADINDAN
ZİYA MƏMMƏDOV	*GEORGİ ARVELADZE*
Nəqliyyat naziri	*İqtisadi inkişaf naziri*

"Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi və Koreya Nəqliyyat İnstitutu arasında elmi-texniki əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi və Koreya Nəqliyyat İnstitutu arasında elmi-texniki əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Koreya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2007-ci il

№2107

"Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi və Koreya Respublikası Nəqliyyat və Tikinti Nazirliyi arasında dəmir yolu sahəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi və Koreya Respublikası Nəqliyyat və Tikinti Nazirliyi arasında dəmir yolu sahəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Koreya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2007-ci il

№2108

"Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi və Koreya Respublikası Nəqliyyat və Tikinti Nazirliyi arasında şəhər nəqliyyatı əməliyyatlarının intellektual idarəetmə sisteminin yaradılması sahəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi və Koreya Respublikası Nəqliyyat və Tikinti Nazirliyi arasında şəhər nəqliyyatı əməliyyatlarının intellektual idarəetmə sisteminin yaradılması sahəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Koreya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2007-ci il

№2109

"Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi və Koreya Respublikası Tikinti və Nəqliyyat Nazirliyi arasında Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaradılması haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi və Koreya Respublikası Tikinti və Nəqliyyat Nazirliyi arasında Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaradılması haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Koreya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2007-ci il

№2110

"Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Koreya Respublikası Milli Fövqəladə Halların İdarə Olunması Agentliyi arasında fövqəladə halların idarə olunması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Koreya Respublikası Milli Fövqəladə Halların idarə olunması Agentliyi arasında fövqəladə halların idarə olunması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Fəttah oğlu Heydərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə Koreya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2007-ci il

№2111

"Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Koreya Respublikası İnformasiya və Rabitə Nazirliyi arasında Elektron Hökumətin formalaşdırılması üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Koreya Respublikası İnformasiya və Rabitə Nazirliyi arasında Elektron Hökumətin formalaşdırılması üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilməsi barədə Koreya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2007-ci il

№2112

"Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və Koreya Respublikası Elektrik Enerjisi Korporasiyası (KEPSO) arasında Azərbaycanda müstəqil elektrik stansiyasının tikintisi üzrə əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və Koreya Respublikası Elektrik Enerjisi Korporasiyası (KEPSO) arasında Azərbaycanda müstəqil elektrik stansiyasının tikintisi üzrə əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Koreya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2007-ci il

№2113

"Azərbaycan Respublikası Hökuməti ilə Koreya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Koreya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Koreya Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2007-ci il

№2114

"Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Koreya Respublikası STX şirkəti arasında külək enerji stansiyasının tikintisi üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Koreya Respublikası STX şirkəti arasında külək enerji stansiyasının tikintisi üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının sənaye və energetika naziri Natiq Ağaəmi oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının sənaye və energetika naziri Natiq Ağaəmi oğlu Əliyevə verilməsi barədə Koreya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2007-ci il

№2115

"Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında Hava əlaqələri haqqında Sazişə dair Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında Hava əlaqələri haqqında Sazişə dair Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilməsi barədə Koreya Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2007-ci il

№2116

2007-ci il martın 22-də Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Xəzər Regionunda Enerji Təhlükəsizliyi üzrə Dialoqa dair Anlaşma Memorandumu" nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il martın 22-də Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Xəzər Regionunda Enerji

Təhlükəsizliyi üzrə Dialoqa dair Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 aprel 2007-ci il

№2118

Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Xəzər Regionunda Enerji Təhlükəsizliyi üzrə Dialoqa dair Anlaşma Memorandumu

Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti:

enerji resurslarının beynəlxalq bazarlara təhlükəsiz və etibarlı çıxışını və enerji əməkdaşlığını təşviq etməkdə möhkəm qarşılıqlı maraqları dəstəkləyərək,

enerji mənbələri və tranzit yollarının diversifikasiyasının və təhlükəsizliyinin əhəmiyyətini vurğulayaraq,

Azərbaycanın enerji istehsalçısı və Şərq-Qərb enerji dəhlizində əlaqələndirici kimi mühüm rolunu təsdiqləyərək və Xəzər regionunda növbəti onillikdə sürətlə genişlənən qaz və neft istehsalını, eləcə də Bakı-Tbilisi-Ərzurum boru kəməri və digər marşrutlar vasitəsilə tranzitdən istifadə etməklə Avropaya qaz ixracatını qabaqcadan görərək,

Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin istismara verilməsini alqışlayaraq və "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Bakı-Tbilisi-Ceyhan sistemi vasitəsilə Azərbaycan Respublikasının ərazisi ilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında Müqavilə"nin əhəmiyyətini vurğulayaraq,

Xəzər regionundan təbii qazın, Avropa da daxil olmaqla, Qərb bazarlarına ixracında Azərbaycanın mühüm tranzit ölkə kimi böyük dəyərini nəzərə alaraq,

xüsusilə neft və təbii qaz istehsalı və ixracının nəticəsi olaraq Azərbaycanda baş verən sürətli iqtisadi və sosial inkişaf kontekstində Azərbaycanın Emal Sənayesində Şəffaflıq Təşəbbüsünün həyata keçirilməsini qeyd edərək,

Xəzər regionunda enerji təhlükəsizliyi məsələləri üzrə yüksək səviyyəli dialoq sahəsində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti vasitəsilə əməkdaşlıq etmək niyyətlərini ifadə edirlər.

Enerji təhlükəsizliyi məsələləri üzrə yüksək səviyyəli dialoqun məqsəd və xüsusiyyətləri aşağıdakılar olacaqdır:

Enerji təhlükəsizliyi məsələləri üzrə yüksək səviyyəli dialoq, Azərbaycanın enerji ehtiyatlarının inkişafı və təhlükəsiz nəqlində artıq mövcud olan güclü ikitərəfli əməkdaşlığın dərinləşməsinə həsr edilir.

Enerji təhlükəsizliyi məsələləri üzrə yüksək səviyyəli dialoq qlobal enerji ehtiyatlarının diversifikasiyası və bazara iqtisadi cəhətdən əlverişli çoxtərəfli çıxışın təşviqi ilə bağlı siyasi, ticari və iqtisadi problemlərin müzakirəsi və həlli üçün forum kimi xidmət edir.

Enerji təhlükəsizliyi məsələləri üzrə yüksək səviyyəli dialoq Azərbaycan Tərəfindən Xarici İşlər Nazirliyi, Amerika Birləşmiş Ştatları tərəfindən isə Dövlət Departamenti məsul olacaqlar.

Enerji təhlükəsizliyi məsələləri üzrə yüksək səviyyəli dialoqun rəsmi iclası ildə bir dəfə müvafiq olaraq Vaşinqtonda və Bakıda keçirilir. Nəzərdə tutulan növbəti müntəzəm iclasdan əvvəl istənilən tərəf, diqqət tələb edən prioritet məsələlərin müzakirəsi üçün xüsusi iclasın keçirilməsi barədə müraciət edə bilər.

Enerji təhlükəsizliyi məsələləri üzrə yüksək səviyyəli dialoqda, aşağıda qeyd olunanlar da daxil olmaqla, müvafiq əməkdaşlıq sahələrinə diqqət yetiriləcəkdir:

qəbul edən Hökumət Sazişinin tamamlanmasının tezləşdirilməsi, Şimali Xəzər xam neftinin Xəzərdən keçməklə Azərbaycana çatdırılmasına və Bakı-Tbilisi-Ceyhan kəmərinə qoşulmasına yardım haqqında Hökumətlərarası Sazişin icrası;

müvafiq hökumətlər və sərmayəçilərlə işləməklə, Azərbaycanın təbii qaz və neft ehtiyatlarının istehsalını artırmaq üçün üsulların araşdırılması, Türkiyə-Yunanıstan-İtaliya, potensial olaraq Nabukko və digər boru xətləri də daxil olmaqla, təbii qaz və neftin boru kəmərləri ilə Cənubi və Mərkəzi Avropaya iqtisadi səmərəlilik əsasında çatdırılmasının təmin edilməsi, həmçinin hər iki Hökumət Avropaya əlavə qaz nəqli imkanlarını araşdırmaq məqsədilə Mərkəzi Asiya qaz istehsalçıları ilə də işləmək niyyətindədir;

ABŞ-ın Ticarət və İnkişaf Agentliyinin mümkün texniki yardımı ilə mövcud Bakı-Tbilisi-Ərzurum boru kəməri əsasında yeni tranzit yolları və regional sazişlər üzrə və Xəzər qaz resurslarının Avropaya daşınmasının yeni imkanlarının araşdırılması məqsədilə təvsiyələrin hazırlanması;

bərpa olunan enerji ehtiyatlarının inkişafının təşviqi üzrə əməkdaşlıq yollarının araşdırılması, eləcə də Azərbaycanda enerji sahəsinin səmərəliliyinin artırılması;

Azərbaycanın tranzit və ixrac boru kəməri şəbəkəsinin təhlükəsizliyinin inkişafının yeni üsullarının öyrənilməsi;

Azərbaycana, xüsusilə təbii qaz sahəsində, onun enerji təhlükəsizliyinin təmin edilməsində yardım göstərilməsi.

Bu Memorandum 2007-ci il martın 22-də Vaşinqton şəhərində, Azərbaycan və ingilis dillərində eyni qüvvəyə malik olan iki əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI HÖKUMƏTİ ADINDAN

KONDOLİZA RAYS
Dövlət katibi

"Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

"Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. həmin Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamənin 4-cü bəndində nəzərdə tutulmuş Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin blanklarının ciddi hesabat sənədi kimi uçotu qaydalarını müəyyən etsin, şəhadətnamə blanklarının spesifikasiyasını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. öz səlahiyyətləri daxilində "Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamənin 4-cü bəndinin ikinci və üçüncü cümlələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.2. həmin Əsasnamənin 5-ci bəndində və 10-cu bəndində (birinci halda) nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həyata keçirir;

2.3. həmin Əsasnamənin 10-cu bəndində (ikinci halda) və 11-ci bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;

2.4. həmin Əsasnamənin 13-cü bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirir;

2.5. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti fəaliyyətə başlayanadək bu Fərmanın 2.4-cü bəndində onun səlahiyyətinə aid edilmiş vəzifələri Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.

3. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 aprel 2007-ci il

№566

"Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Gürcüstanın Baş Prokurorluğu arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Gürcüstanın Baş Prokurorluğu arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Baş prokuroru Zakir Bəkir oğlu Qaralova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Baş prokuroru Zakir Bəkir oğlu Qaralova verilməsi barədə Gürcüstan tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 aprel 2007-ci il

№2122

"Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin hökumətləri arasında cinayətkarlığa, xüsusən onun mütəşəkkil formalarına qarşı mübarizədə əməkdaşlıq haqqında" Sazişə "Terrorçuluğa qarşı mübarizə haqqında" Əlavə Protokolun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin hökumətləri arasında cinayətkarlığa, xüsusən onun mütəşəkkil formalarına qarşı mübarizədə əməkdaşlıq haqqında" Sazişə "Terrorçuluğa qarşı mübarizə haqqında" Əlavə Protokolun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə qərara alıram:

1. "Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin hökumətləri arasında cinayətkarlığa, xüsusən onun mütəşəkkil formalarına qarşı mübarizədə əməkdaşlıq haqqında" Sazişə "Terrorçuluğa qarşı mübarizə haqqında" Əlavə Protokolun 3-cü

maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi həmin Protokol üzrə səlahiyyətli orqan təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin "Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin hökumətləri arasında cinayətkarlığa, xüsusən onun mütəşəkkil formalarına qarşı mübarizədə əməkdaşlıq haqqında" Sazişə "Terrorçuluğa qarşı mübarizə haqqında" Əlavə Protokol üzrə səlahiyyətli orqan təyin edilməsi barədə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Daimi Beynəlxalq Katibliyinə müvafiq bildiriş göndərsin.

3. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 aprel 2007-ci il

№2123

"Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 29 noyabr tarixli 928 nömrəli qərarı ilə təsdiq edilmiş "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"yə dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 29 noyabr tarixli 928 nömrəli qərarı ilə təsdiq edilmiş "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"yə dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 29 noyabr tarixli 928 nömrəli qərarı ilə təsdiq edilmiş "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"yə dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində "Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 29 noyabr tarixli 928 nömrəli qərarı ilə təsdiq edilmiş "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"yə dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 aprel 2007-ci il

№2124

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının ərazisində müvəqqəti işləyən Belarus Respublikası vətəndaşlarının və Belarus Respublikasının ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının ərazisində müvəqqəti işləyən Belarus Respublikası vətəndaşlarının və Belarus Respublikasının ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilməsi barədə Belarus Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 may 2007-ci il

№2130

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Eldar Əhməd oğlu Mahmudova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Eldar Əhməd oğlu Mahmudova verilməsi barədə Belarus Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 may 2007-ci il

№2131

"Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi və Belarus Respublikasının Standartlaşdırma üzrə Dövlət Komitəsi arasında standartlaşdırma, metrologiya, uyğunluq qiymətləndirilməsi və akkreditasiya sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi və Belarus Respublikasının Standartlaşdırma üzrə Dövlət Komitəsi arasında standartlaşdırma, metrologiya, uyğunluq qiymətləndirilməsi və akkreditasiya sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin Baş direktoru Ramiz Ayvaz oğlu Həsənova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin Baş direktoru Ramiz Ayvaz oğlu Həsənova verilməsi barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 may 2007-ci il

№2134

"Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi və Belarus Respublikasının Dövlət Əmlak Komitəsi arasında dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi sahəsində əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi və Belarus Respublikasının Dövlət Əmlak Komitəsi arasında dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi sahəsində əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinin sədri Kərəm Əvəz oğlu Həsənova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinin sədri Kərəm Əvəz oğlu Həsənova verilməsi barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 may 2007-ci il

№2135

"Azərbaycan Respublikasının Milli Bankı və Belarus Respublikasının Milli Bankı arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Milli Bankı və Belarus Respublikasının Milli Bankı arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Milli Bankının İdarə Heyətinin sədri Elman Sirac oğlu Rüstəmova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Milli Bankının İdarə Heyətinin sədri Elman Sirac oğlu Rüstəmova verilməsi barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 may 2007-ci il

№2136

"Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Belarus Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Belarus Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Gündüz Qəzənfər oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Gündüz Qəzənfər oğlu Məmmədova verilməsi barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 may 2007-ci il

№2137

"Azərbaycan Milli Elmlər Akademiyası və Belarus Milli Elmlər Akademiyası arasında 2007-2010-cu illər üzrə elmi əməkdaşlıq Proqramı"nı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Milli Elmlər Akademiyası və Belarus Milli Elmlər Akademiyası arasında 2007-2010-cu illər üzrə elmi əməkdaşlıq Proqramı"nı imzalamaq səlahiyyəti Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərim oğlu Kərimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərim oğlu Kərimova verilməsi barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 may 2007-ci il

№2138

2007-ci il martın 6-da Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişə 2 saylı Düzəliş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il martın 6-da Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişə 2 saylı Düzəliş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişə 2 saylı Düzəlişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişə 2 saylı Düzəlişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Amerika Birləşmiş Ştatları Müdafiə Departamentini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 may 2007-ci il

№2139

Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişə 2 saylı Düzəliş

Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlığa dair 2005-ci il 6 iyun tarixində imzalanmış, 2006-cı il 23 iyun tarixində düzəlişlər edilmiş Sazişin (bundan sonra "Saziş" adlandırılacaq) VII maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti həmin Sazişin III maddəsinin 1-ci bəndindəki "on [10] milyon ABŞ dolları " ifadəsinin "iyirmi [20] milyon ABŞ dolları" ifadəsi ilə əvəz edilməsinə dair razılığa gəldilər.

Bu Düzəliş imzalandığı andan qüvvəyə minir və Sazişin tətbiq edildiyi müddət ərzində qüvvədə qalır.

Bunun təsdiqi olaraq, öz hökumətləri tərəfindən müvafiq qaydada səlahiyyətləndirilmiş aşağıdakı şəxslər bu Düzəlişi imzaladılar.

Bakı şəhərində 2007-ci il fevral ayının 28-i günündə və Vaşinqton şəhərində 2007-ci il mart ayının 6-sı günündə Azərbaycan və ingilis dillərində mətnləri eyni dərəcədə autentik olan iki nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİ ADINDAN	AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI MÜDAFİƏ DEPARTAMENTİ ADINDAN
(imza)	*(imza)*

"Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə Birləşmiş Ərəb Əmirlikləri Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 may 2007-ci il

№2140

"Təsdiq edirəm"	"Razılaşdırılmışdır"	"Dövlət qeydiyyatına alınmışdır"
Azərbaycan Respublikasının	Azərbaycan Respublikasının	Azərbaycan Respublikasının
Dövlət Gömrük Komitəsi	Xarici İşlər Nazirliyi	Ədliyyə Nazirliyi Qeydiyyat
Əmr №043		№ 3304
01 may 2007-ci il	01 may 2007-ci il	08 may 2007-ci il
Sədr	Nazir	Nazir
Aydın Əliyev	Elmar Məmmədyarov	Fikrət Məmmədov

"Diplomatik poçtun və konsul valizinin, həmçinin xarici şəxslərin ayrı-ayrı kateqoriyaları tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən güzəştli qaydada keçirilən mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti" Qaydaları

1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə, "Diplomatik münasibətlər haqqında" 18.04.1961-ci il tarixli Vyana Konvensiyasına, "Konsulluq münasibətləri haqqında" 24.04.1963-cü il tarixli Vyana Konvensiyasına və Azərbaycan Respublikasının digər normativ-hüquqi aktlarına uyğun olaraq diplomatik poçtun və konsul valizinin, həmçinin gömrük güzəştlərindən istifadə edən xarici şəxslərin ayrı-ayrı kateqoriyaları (bundan sonra güzəştlərdən istifadə edən şəxslər) tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti qaydalarını müəyyən edir.

1.2. Bu Qaydalarda aşağıdakı anlayışlardan istifadə olunmuşdur:

Diplomatik poçt - yalnız rəsmi istifadə üçün nəzərdə tutulan diplomatik sənədlər və mallar;

Konsul valizi - konsul nümayəndəliklərinə və onların funksiyalarına aid korrespondensiyalar və yalnız rəsmi istifadə üçün nəzərdə tutulan sənədlər və mallar;

Güzəştlərdən istifadə edən şəxslər:

- xarici dövlətlərin diplomatik və konsulluq nümayəndəlikləri;
- xarici dövlətlərin diplomatik nümayəndəliklərinin başçıları və xarici dövlətlərin nümayəndəliklərinin diplomatik heyətinin üzvləri və onlarla birlikdə yaşayan ailə üzvləri;
- xarici dövlətlərin konsulluq nümayəndəliklərinin başçıları, konsulluğun vəzifəli şəxsləri, konsulluq xidməti heyəti və onların ailə üzvləri;
- daimi olaraq Azərbaycan Respublikasında yaşamayan xarici dövlətin diplomatik nümayəndəliyinin inzibati-texniki heyətinin əməkdaşları və onlarla birlikdə yaşayan ailə üzvləri;
- daimi olaraq Azərbaycan Respubilkasında yaşamayan xarici dövlətin diplomatik və konsulluq nümayəndəliyinin xidmət heyətinin əməkdaşları və onlarin ailə üzvləri;

- xarici diplomatik və konsulluq kuryerləri;
- dövlətlərarası danışıqlarda, beynəlxalq konfrans və müşavirələrdə iştirak etmək üçün və digər rəsmi tapşırıqla Azərbaycan Respublikasına gələn xarici dövlət nümayəndələri, parlament və hökumət nümayəndə heyəti üzvləri, xarici dövlətlərin nümayəndə heyəti əməkdaşları və onları müşayiət edən ailə üzvləri;
- beynəlxalq hökumətlərarası təşkilatlar, onların nəzdindəki xarici dövlət nümayəndəlikləri, habelə onların şəxsi heyəti və ailə üzvləri.
- Azərbaycan Respublikasının gömrük ərazisindən tranzit qaydada keçən xarici dövlətlərin diplomatik heyətinin üzvləri və konsulluqların vəzifəli şəxsləri və onların ailə üzvləri, xarici dövlət nümayəndələri, parlament və hökumət nümayəndə heyəti üzvləri, xarici dövlətlərin nümayəndə heyətlərinin əməkdaşları və onları müşayiət edən ailə üzvləri.

2. Diplomatik poçtun və konsul valizinin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti

2.1. Diplomatik poçtun və konsul valizinin gömrük rəsmiləşdirilməsi aşağıdakı xüsusiyyətlər əsasında həyata keçirilir:

- diplomatik poçtdakı və konsul valizindəki yerlərin sayının siyahısını özündə əks etdirən rəsmi sənəd;
- diplomatik poçtun və konsul valizinin xarici fərqləndirici nişanları (yarlıqlar, surquc möhürlər, plomblar və s.);
- poçt-nəqliyyat qaiməsi;
- Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində və Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş digər sənəd və məlumatlar.

2.2. Diplomatik poçt və konsul valizi Azərbaycan Respublikasının gömrük sərhədindən keçirildikdə bütün vasitələrdən, o cümlədən diplomatik və konsul kuryerlərindən istifadə edilə bilər.

2.3. Diplomatik poçt və konsul valizi kuryerlər tərəfindən keçirildiyi halda gömrük orqanına aşağıdakı sənədlər təqdim edilir:

- səlahiyyətli nümayəndənin imzası və diplomatik poçtu və konsul valizini göndərən müəssisənin möhürü ilə təsdiq edilmiş rəsmi sənəd (kuryer vərəqi). Kuryer vərəqində kuryerin soyadı, adı, atasının adı, onun statusu, diplomatik poçtun və konsul valizinin yerlərinin sayı göstərilir;
- diplomatik kuryerin şəxsiyyətini təsdiq edən rəsmi sənəd.

2.4. Diplomatik poçtun və konsul valizinin təsdiq edilmiş rəsmi sənəd əsasında (yerlərin sayı göstərilməklə) çatdırılması mülki hava gəmisinin komandirinə həvalə edilə bilər.

Mülki hava gəmisinin komandiri diplomatik poçtun və konsul valizinin yerlərinin sayına dair gömrük orqanına rəsmi sənəd təqdim edir. Sənəd səlahiyyətli nümayəndənin imzası və diplomatik poçtu və konsul valizini göndərən müəssisənin möhürü ilə təsdiq edilir. Diplomatik poçt və ya konsul valizi diplomatik nümayəndəliyin əməkdaşı tərəfindən Azərbaycan Respublikasında maneəsiz və bilavasitə təhvil alınmalıdır.

Həmçinin, konsul valizinin çatdırılması gəmi kapitanına həvalə edilə bilər. Bu halda gəmi kapitanı yuxarıda qeyd edilən qaydada gömrük orqanına rəsmi sənəd təqdim edir.

Mülki hava gəmisinin komandiri və gəmi kapitanı diplomatik (konsulluq) kuryer hesab olunmur.

2.5. Diplomatik poçt və konsul valizi xarici dövlətin nəqliyyat vasitəsi ilə birbaşa Azərbaycan Respublikasının gömrük ərazisinə gətirildikdə, diplomatik poçt və konsul valizi sərhəd gömrük orqanından nümayəndəliyin fəaliyyət göstərdiyi ərazi gömrük orqanına gömrük nəzarəti altında çatdırılması normativ-hüquqi aktlara uyğun həyata keçirilir.

2.6. Diplomatik poçta və konsul valizinə gömrük nəzarəti aşağıdakı qaydalara əsasən aparılır:

- gömrük məqsədləri üçün lazım olan sənədlərin və məlumatların yoxlanılması;
- diplomatik poçt və konsul valizlərinə vizual baxış;
- konsul valizinin açılmasının Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində və Azərbaycan Respublikasının gömrük qanunvericiliyində nəzərdə tutulduğu hallarda;
- diplomatik poçtun və konsul valizinin uçotu;
- Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində və Azərbaycan Respublikasının gömrük qanunvericiliyində nəzərdə tutulmuş digər formalarda.

Gömrük nəzarəti həyata keçirilərkən, insanların həyat və sağlamlığına, heyvanlar və bitkilər üçün təhlükəsiz olan, həmçinin mal və nəqliyyat vasitələrinə ?zərər vurmayan texniki nəzarət vasitələri tətbiq edilə bilər.

2.7. Konsul valizində rəsmi yazışma və sənədlərin, yaxud da rəsmi istifadə üçün nəzərdə tutulan mallardan başqa digər əşyaların olması haqqında kifayət qədər əsaslar olduqda Azərbaycan Respublikası gömrük orqanının vəzifəli şəxslərinin iştirakı ilə təmsil edilən xarici dövlətin səlahiyyətli nümayəndələri tərəfindən konsul valizinin açılması tələb edilə bilər. Bu tələbin yerinə yetirilməsindən imtina edildikdə, konsul valizi açılmadan göndərildiyi yerə qaytarılır. Digər hallarda gömrük sərhədindən keçirilən (o cümlədən tranzit) konsul valizini (çantasını) açmaq və gecikdirmək olmaz.

2.8. Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən (o cümlədən tranzit) diplomatik poçt və konsul valizlərinin uçotu üçün gömrük orqanında "Aparılan, gətirilən və tranzit keçirilən diplomatik poçtun və konsul valizinin uçot jurnalı" tərtib olunur (1 №-li əlavə).

3. Xarici şəxslərin ayrı-ayrı kateqoriyalarına tətbiq olunan gömrük güzəştləri

3.1. Xarici dövlətlərin diplomatik nümayəndəlikləri.

Şəxslərin bu kateqoriyasına aşağıdakı güzəştlər verilir:

- Saxlanca görə ödənişlər və Azərbaycan Respublikası gömrük orqanlarına müəyyən edilmiş iş yerlərindən kənarda və ya iş vaxtından kənar vaxtda malların gömrük rəsmiləşdirilməsi və buna bənzər digər xidmətlər göstərilməsinə görə ödənişlər istisna edilməklə, Azərbaycan Respublikasının gömrük sərhədindən nümayəndəliklərin rəsmi istifadəsi üçün keçirilən mal və nəqliyyat vasitələrinin gömrük rüsumları, vergilər və digər gömrük ödənişlərindən azad edilməsi.

3.2. Xarici dövlətlərin diplomatik nümayəndəliyinin başçıları və onlarla birlikdə yaşayan ailə üzvləri.

Şəxslərin bu kateqoriyasına aşağıdakı güzəştlər verilir:

a) Saxlanca görə ödənişlər və Azərbaycan Respublikası gömrük orqanlarının müəyyən edilmiş iş yerlərindən kənarda və ya iş vaxtından kənar vaxtda malların gömrük rəsmiləşdirilməsi və buna bənzər digər xidmətlər göstərilməsinə görə ödənişlər istisna edilməklə, Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mal və nəqliyyat vasitələrinin gömrük rüsumları, vergilər və digər gömrük ödənişlərindən azad edilməsi;

b) şəxsi baqajın gömrük yoxlamasından azad edilməsi.

3.3. Xarici dövlətin nümayəndəliyinin diplomatik heyətinin üzvləri və onlarla birlikdə yaşayan ailə üzvləri.

Şəxslərin bu kateqoriyasına bu Qaydaların 3.2. bəndində nəzərdə tutulmuş güzəştlər verilir.

3.4. Xarici dövlətin diplomatik nümayəndəliyinin inzibati-texniki heyətinin əməkdaşları və onlarla birlikdə yaşayan ailə üzvləri (əgər həmin əməkdaşlar və onların ailə üzvləri daimi olaraq Azərbaycan Respublikasında yaşamırlarsa) tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən ilkin təsərrüfat ləvazimatı olan mallarına bu Qaydaların 3.2. bəndinin a) yarımbəndində nəzərdə tutulmuş güzəştlər tətbiq edilir.

Xarici dövlətlə bağlanan xüsusi Sazişə əsasən hər bir dövlətlə ayrıca və qarşılıqlı olmaq şərti ilə bu kateqoriyalı şəxslərə 3.2. bəndinin b) yarımbəndində nəzərdə tutulan güzəştlər şamil edilə bilər.

3.5. Daimi olaraq Azərbaycan Respublikasında yaşamayan xarici dövlətin diplomatik nümayəndəliyinin xidmət heyətinin əməkdaşlarına və onların ailə üzvlərinə xarici dövlətlə bağlanan xüsusi Sazişə əsasən hər bir dövlətlə ayrıca və qarşılıqlı olmaq şərti ilə güzəştlər verilə bilər.

3.6. Xarici dövlətlərin konsulluq nümayəndəlikləri.

Şəxslərin bu kateqoriyasına xarici dövlətlərin diplomatik nümayəndəlikləri üçün 3.1. bəndində nəzərdə tutulan güzəştlər verilir.

3.7. Xarici dövlətlərin konsulluq nümayəndəliklərinin başçıları, konsulluğun vəzifəli şəxsləri, konsulluğun qulluqçuları və onların ailə üzvləri.

Şəxslərin bu kateqoriyasına diplomatik nümayəndəliyin müvafiq heyəti üçün 3.2.-3.4. bəndlərində nəzərdə tutulmuş güzəştlər verilir.

3.8. Xarici dövlətlərin konsulluq nümayəndəliklərinin Azərbaycan Respublikasında daimi yaşamayan xidmətçi heyəti işçiləri və onların ailə üzvləri.

Şəxslərin bu kateqoriyasına xarici dövlətlə bağlanan xüsusi Sazişə əsasən hər bir dövlətlə ayrıca və qarşılıqlı olmaq şərti ilə güzəştlər verilə bilər.

3.9. Xarici diplomatik və konsulluq kuryerləri.

Saxlanca görə ödənişlər və Azərbaycan Respublikası gömrük orqanlarının müəyyən edilmiş iş yerlərindən kənarda və ya iş vaxtından kənar vaxtda malların gömrük rəsmiləşdirilməsi və buna bənzər digər xidmətlər göstərilməsinə görə ödənişlər istisna edilməklə, şəxslərin bu kateqoriyası gömrük baxışından və gömrük ödənişlərindən qarşılıqlı olaraq azadetmə əsasında şəxsi istifadə üçün nəzərdə tutulan malları Azərbaycan Respublikasının gömrük sərhədindən keçirə bilərlər.

3.10. Dövlətlərarası danışıqlarda, beynəlxalq konfrans və müşavirələrdə iştirak etmək üçün və digər rəsmi tapşırıqla Azərbaycan Respublikasına gələn xarici dövlət nümayəndələrinə, parlament və hökumət nümayəndə heyəti üzvlərinə 3.2. bəndinin a) və b) yarımbəndlərində nəzərdə tutulan güzəştlər verilir. Bu güzəştlər onları müşayiət edən ailə üzvlərinə də şamil edilir.

3.11. Xarici dövlətlərin nümayəndə heyəti əməkdaşları və onları müşayiət edən ailə üzvləri.

Şəxslərin bu kateqoriyasına qarşılıqlı prinsip əsasında 3.2. bəndinin a) və b) yarımbəndlərində nəzərdə tutulan güzəştlər verilir.

3.12. Beynəlxalq hökumətlərarası təşkilatlar, onların nəzdindəki xarici dövlət nümayəndəlikləri, habelə onların şəxsi heyəti və ailə üzvləri.

Şəxslərin bu kateqoriyasına güzəştlər Azərbaycan Respublikasının müvafiq beynəlxalq müqavilələri ilə müəyyən edilir.

3.13. Azərbaycan Respublikasının gömrük ərazisindən tranzit qaydada keçən xarici dövlətlərin diplomatik heyətinin üzvləri və konsulluqların vəzifəli şəxsləri və onların ailə üzvləri, eləcə də 3.10. və 3.11. bəndlərində göstərilmiş şəxslərə bu Qaydaların 3.2. bəndinin a) və b) yarımbəndlərində nəzərdə tutulmuş güzəştlər verilir.

3.14. Gömrük güzəştləri aşağıdakı şərtlərlə tətbiq olunur:

a) Azərbaycan Respublikasının gömrük sərhədindən mal və nəqliyyat vasitələrinin keçirilməsinin müəyyən olunmuş qaydasına riayət olunması ilə;

b) xarici dövlətlərin diplomatik və konsulluq nümayəndəliklərinə, həmçinin hökumətlərarası beynəlxalq təşkilatlar, onların nəzdindəki xarici dövlət nümayəndəliklərinə məxsus mal və nəqliyyat vasitələrinin rəsmi istifadə üçün nəzərdə tutulması şərti ilə;

c) bu bəndin b) yarımbəndində qeyd edilən təşkilatların əməkdaşlarına, güzəştlərdən istifadə edən digər şəxslərə və onların ailə üzvlərinə məxsus mal və nəqliyyat vasitələrinin şəxsi istifadə üçün nəzərdə tutulması şərti ilə;

ç) güzəştlərdən istifadə edən şəxslərin şəxsi istifadə məqsədi ilə kommersiya fəaliyyəti ilə məşğul olmaması şərti ilə.

4. Güzəştlərdən istifadə edən şəxslərə məxsus mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti

4.1. Güzəştlərdən istifadə edən şəxslərə məxsus mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi onların statusuna uyğun həyata keçirilir.

Güzəştlərdən istifadə edən şəxslərin statusu aşağıdakı əsaslarla müəyyən edilir:

- Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin məktubu. Məktubda göstərilir: diplomatik (konsulluq) nümayəndəliyin, beynəlxalq təşkilatın və s. adı, əməkdaşların soyadı, adı, atasının adı, tutduğu vəzifə, ailə üzvlərinin soyadı, adı, atasının adı, vətəndaşlığı, daimi yaşadığı yer və onların qaldığı müddət;

- şəxsiyyəti təsdiq edən sənəd (pasport və s.);

- viza (viza rejimi tətbiq edilməyən hallar istisna olmaqla);

- Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində və Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş digər sənədlər və məlumatlar;

4.2. Xarici dövlətlə bağlanan xüsusi Sazişə əsasən bu Qaydaların 3-cü bəndində göstərilən şəxslərə əlavə olaraq güzəştlər verildiyi halda, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi bu barədə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsini məlumatlandırır.

4.3. Güzəştlərdən istifadə edən şəxslərə mal və nəqliyyat vasitələrinin məxsusluğu aşağıdakı əsaslarla müəyyən edilir:

- Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin məktubu. Məktubda bunlar göstərilir: nümayəndəliyin, beynəlxalq təşkilatın və s. adı, mal və nəqliyyat vasitələrinin sahiblərinin soyadı, adı, atasının adı, Azərbaycan Respublikasının gömrük sərhədini keçmə tarixi və yeri, mal və nəqliyyat vasitələrinin keçirilmə üsulu, mal və nəqliyyat vasitələrinin sayı və onlar haqqında məlumatlar;

- yol-nəqliyyat müşayiət sənədləri;

- Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində və Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş digər sənədlər və məlumatlar.

4.4. Gömrük rəsmiləşdirilməsi gömrük orqanının fəaliyyət zonasında bu iş üçün müəyyən edilmiş yerlərdə və Azərbaycan Respublikası gömrük orqanlarının iş vaxtında həyata keçirilir:

- xarici dövlətlərin diplomatik və konsul nümayəndəliyinin, həmçinin hökumətlərarası beynəlxalq təşkilatların, onların nəzdindəki xarici dövlət nümayəndəliklərinin mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi müvafiq nümayəndəliklərin fəaliyyət göstərdiyi ərazidə yerləşən Azərbaycan Respublikası gömrük orqanında;

- yuxarıda qeyd edilən təşkilatların, güzəştlərdən istifadə edən digər şəxslər və onların ailə üzvləri tərəfindən əl yükləri və müşayiət olunan baqajlar Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilərkən sərhəd gömrük buraxılış məntəqəsində;

- qeyd edilən şəxslərin əməkdaşlarına və onların ailə üzvlərinə məxsus müşayiət olunmayan baqajlar (mal və nəqliyyat vasitələri) nümayəndəliyin üzvləri və onların ailə üzvlərinin yaşadıqları ərazidə yerləşən gömrük orqanında;

- beynəlxalq poçt göndərişləri ilə göndərilən mallar Beynəlxalq Poçt Mübadiləsi Yerində;

- güzəştlərdən istifadə edən şəxslərin mal və nəqliyyat vasitələri Azərbaycan Respublikasının gömrük sərhədindən tranzit keçirilərkən gömrük rəsmiləşdirilməsi sərhəd giriş gömrük məntəqəsində həyata keçirilir və çıxış sərhəd gömrük orqanı rəsmi qaydada məlumatlandırılır və nəzarətdən çıxarılması üçün çıxış sərhəd gömrük orqanı giriş sərhəd gömrük orqanını bu barədə məlumatlandırır.

4.5. Azərbaycan Respublikası gömrük orqanının razılığı ilə mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi gömrük orqanlarının müəyyən edilmiş iş yerlərindən kənarda və ya iş vaxtlarından kənar vaxtda həyata keçirilə bilər.

4.6. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan hallarda malların (o cümlədən silahların, bədii, tarixi, elmi və digər əhəmiyyət kəsb edən mədəni sərvətlərin və s.) gömrük rəsmiləşdirilməsi Azərbaycan Respublikasının müvafiq dövlət orqanının icazə sənədi gömrük orqanına təqdim edildikdən sonra başa çatmış hesab edilə bilər.

4.7. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində və Azərbaycan Respublikasının qüvvədə olan qanunvericilik aktlarında nəzərdə tutulan hallar istisna olmaqla, gömrük rəsmiləşdirilməsi Azərbaycan dilində aparılır.

4.8. Güzəştlərdən istifadə edən şəxslər və yaxud onların səlahiyyətli nümayəndələri gömrük rəsmiləşdirilməsinin aparılmasında Azərbaycan Respublikasının gömrük orqanlarının vəzifəli şəxslərinə kömək etməlidirlər (gömrük və mal müşayiət sənədlərinin doldurulması və rəsmiləşdirilməsi, Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulduğu hallarda mallara dair müvafiq dövlət orqanlarının icazə sənədlərinin təqdim edilməsi və s).

4.9. Güzəştlərdən istifadə edən şəxslərin mal və nəqliyyat vasitələrinə gömrük nəzarəti aşağıdakı qaydalara əsasən aparılır:

- gömrük məqsədləri üçün lazım olan sənədlərin və məlumatların yoxlanılması;

- Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulduğu hallarda diplomatik və konsul nümayəndəliklərinə, beynəlxalq hökumətlərarası təşkilatlara, onların nəzdindəki xarici dövlət nümayəndəliklərinə məxsus mal və nəqliyyat vasitələrinə (o cümlədən, beynəlxalq poçt göndərişlərinə) gömrük baxışı;

- mal və nəqliyyat vasitələrinin uçotu;

Gömrük nəzarəti həyata keçirilərkən, insanların həyat və sağlamlığına, heyvanlar və bitkilər üçün təhlükəsiz olan, həmçinin mal və nəqliyyat vasitələrinə zərər vurmayan texniki nəzarət vasitələri tətbiq edilə bilər.

4.10. Gömrük məqsədləri üçün lazım olan sənədlərin və məlumatların Azərbaycan Respublikası gömrük orqanlarına təqdim edilməsi Azərbaycan Respublikasının gömrük qanunvericiliyi ilə müəyyən edilmiş ümumi qaydalara uyğun olaraq həyata keçirilir.

4.11. Diplomatik və konsul nümayəndəliklərinə, həmçinin beynəlxalq hökumətlərarası təşkilatlara, onların nəzdindəki xarici dövlət nümayəndəliklərinə məxsus mal və nəqliyyat vasitələrinin bəyan olunması Azərbaycan Respublikasının normativ-hüquqi aktlarına uyğun olaraq yük gömrük bəyannaməsi əsasında həyata keçirilir.

4.12. Bu Qaydaların 4.11. bəndində qeyd edilən təşkilatlar, güzəştlərdən istifadə edən digər şəxslər və onların ailə üzvləri tərəfindən mal və nəqliyyat vasitələrinin bəyan olunması Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq aparılır. Qeyd edilən şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə müvəqqəti gətirilən və Azərbaycan Respublikasının gömrük ərazisindən müvəqqəti aparılan mal və nəqliyyat vasitələrinin geri qaytarılacağı barədə müəyyən edilmiş qaydaya uyğun olaraq öhdəlik sənədi gömrük orqanına təqdim edilməlidir. Malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük ərazisinə müvəqqəti gətirilməsi ilə bağlı öhdəliyin müddəti gömrük orqanları tərəfindən güzəştlərdən istifadə edən şəxslərin Azərbaycan Respublikasında akkreditasiya müddətinə uyğun müəyyən edilir.

4.13. Xarici dövlətin diplomatik (konsulluq) nümayəndəliyinin başçısının, diplomatik (konsulluq) heyətinin üzvlərinin və onlarla birlikdə yaşayan ailə üzvlərinin şəxsi baqajlarında şəxsi istifadə üçün nəzərdə tutulmayan, həmçinin Azərbaycan Respublikasının beynəlxalq müqavilələri və Azərbaycan Respublikasının qanunvericiliyi ilə aparılması və ya gətirilməsi qadağan edilən, digər xüsusi qaydalarla tənzimlənən mallar olması haqqında kifayət qədər əsaslar olduqda, gömrük yoxlaması qeyd edilən şəxslərin və ya onların səlahiyyətli nümayəndəsinin iştirakı ilə həyata keçirilir.

4.14. Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, gömrük orqanları aşağıdakı hallarda güzəştlərdən istifadə edən şəxslər, eləcə də onların səlahiyyətli nümayəndələri olmadıqda mal və nəqliyyat vasitələrinə gömrük baxışı keçirmək hüququna malikdir:

- göstərilən şəxslər mal və nəqliyyat vasitələrinin təqdim edilməsindən on gün keçdikdən sonra gəlmədikdə;

- dövlət təhlükəsizliyinə, ictimai asayişə, insanın həyat və sağlamlığına, heyvanlara və bitkilərə, ətraf mühitin qorunmasına, Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvətləri üçün təhlükə mövcud olduqda və digər təxirəsalınmaz hallarda;

- mallar beynəlxalq poçt göndərişləri ilə göndərilərkən Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan hallarda;

- Azərbaycan Respublikasının gömrük ərazisində mal və nəqliyyat vasitələri ilə bağlı gömrük qaydalarının pozulması halları olduqda.

4.15. Güzəştlərdən istifadə edən şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mal və nəqliyyat vasitələrinin (o cümlədən beynəlxalq poçt göndərişləri ilə) uçotu Azərbaycan Respublikasının gömrük qanunvericiliyində nəzərdə tutulmuş ümumi qaydalara uyğun olaraq həyata keçirilir.

4.16. Güzəştlərdən istifadə edən şəxslər tərəfindən ayrı-ayrı mal və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından aparılması dövlət təhlükəsizliyi, ictimai asayişin, əhalinin mənəviyyatının, insanların həyat və sağlamlığının mühafizəsi, heyvan və bitkilərin qorunması, ətraf mühitin mühafizəsi, Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji irsinin qorunması, o cümlədən intellektual mülkiyyət obyektləri üzərində mülkiyyət hüququnun müdafiəsi əsas götürülməklə Azərbaycan Respublikasının beynəlxalq müqavilələri və Azərbaycan Respublikasının qanunvericiliyi əsasında qadağan oluna bilər.

4.17. Azərbaycan Respublikası ərazisində yaşamış diplomatik, yaxud konsulluq nümayəndəliyinin əməkdaşı və ya onunla birlikdə yaşamış ailə üzvü vəfat etdiyi halda onlara məxsus olan əmlak Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müvafiq rəsmi sənədi gömrük orqanına təqdim edilməklə Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparıla bilər.

5. Gömrük rəsmiləşdirilməsinin və gömrük nəzarətinin icrası qaydasının pozulmasına görə məsuliyyət

5.1. Güzəştlərə malik olan şəxslər Azərbaycan Respublikasının qanunlarına hörmətlə yanaşmağa borcludur.

5.2. Gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti həyata keçirilərkən Azərbaycan Respublikası gömrük orqanının vəzifəli şəxsinə gömrük müayinəsinin və Azərbaycan Respublikasının qanunvericiliyində və Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş digər prosessual hərəkətlərin həyata keçirilməsində maneçilik törədilməsi Azərbaycan Respublikasının qanunvericiliyinə və beynəlxalq müqavilələrinə müvafiq surətdə məsuliyyət doğurur.

5.3. Gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti həyata keçirilərkən hüquqazidd qərarlara, hərəkətlərə, yaxud hərəkətsizliyə görə Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə məsuliyyət daşıyırlar.

Diplomatik poçtun və konsul valizinin, həmçinin xarici şəxslərin ayrı-ayrı kateqoriyaları tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən güzəştli qaydada keçirilən mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti Qaydalarının

1 №-li Əlavəsi

Aparılan, gətirilən və tranzit keçirilən diplomatik poçtun və konsul valizinin uçot jurnalı

Sıra №-si	Gömrük nəzarətinə təqdim etmə tarixi		Nümayəndəliyin adı	Poçt-nəqliyyat qaiməsinin nömrəsi	Yerlərin sayı	Kuryer vərəqinin, yaxud digər sənədin nömrəsi	Poçtun açılması haqqında aktın nömrəsi	Poçtun təyinat üzrə buraxılış tarixi	Rəsmiləşdirməni həyata keçirmiş vəzifəli şəxsin S.A.A və imzası	Qeyd
	göndərən	alan								
1	2	3	4	5	6	7	8	9	10	11

2007-ci il fevralın 7-də Bakı şəhərində Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında imzalanmış sənədlərin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il fevralın 7-də Bakı şəhərində Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Azərbaycan-Birləşmiş Ştatlar İqtisadi Əməkdaşlıq Komissiyasının yaradılması haqqında Əməkdaşlıq Memorandumu;

1.2. Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Dövlət İnvestisiya Siyasəti barədə Anlaşma Memorandumu;

1.3. Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında İlkin Səhiyyə Xidmətlərinin Səviyyəsinin Yüksəldilməsinə dair Anlaşma Memorandumu;

1.4. Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Xəzinədarlıq üzrə İnformasiyanı İdarəetmə Sistemi layihəsi üzrə Anlaşma Memorandumu;

1.5. Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Təxirəsalınmaz Tibbi Yardım barədə Anlaşma Memorandumu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki,bu Sərəncamın 1.1-1.5-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 may 2007-ci il

№2143

Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Azərbaycan - Birləşmiş Ştatlar İqtisadi Əməkdaşlıq Komissiyasının yaradılması haqqında Əməkdaşlıq Memorandumu

Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti, özlərinin möhkəmlənməkdə olan qarşılıqlı maraqlarını və kommersiya və iqtisadi məsələlərdə dialoqunun dərinləşdirilməsini və Azərbaycanın davamlı, sabit inkişafının təmin edilməsini, onun enerji ehtiyatlarından səmərəli istifadəsini, bazar iqtisadiyyatına uğurlu keçidini, Avrasiya enerji təhlükəsizliyi və cənub enerji dəhlizində aparıcı rolunu və regionda iqtisadi lider kimi inkişafını qəbul edərək, mövcud qarşılıqlı iqtisadi əməkdaşlıq çərçivəsi, İqtisadi İslahatlar, Bazara Yardım və Əməkdaşlıq üzrə ABŞ - Azərbaycan İşçi Qrupunu inkişaf etdirərək daha yüksək səviyyəli Amerika Birləşmiş Ştatları - Azərbaycan İqtisadi Əməkdaşlıq Komissiyası (İƏK) yaratmaq niyyətlərini bildirirlər.

İƏK-in məqsədləri və xüsusiyyətləri aşağıdakılardır:

İƏK ikitərəfli iqtisadi və kommersiya əməkdaşlığını dərinləşdirməyə, Azərbaycanda iqtisadi artımı, hərtərəfli və daimi inkişafı genişləndirməyə və ABŞ-ın Azərbaycana yardım proqramının səmərəliliyini artırmağa həsr edilir;

İƏK Azərbaycanın çiçəklənən demokratik ölkə kimi inkişafının təmin edilməsi üçün ən yaxşı vasitə olan Azərbaycanda əlverişli, şəffaf, proqnozlaşdırıla bilən hüquqi və qanunverici mühiti inkişaf etdirmək və Azərbaycanın bazaryönümlü islahatlara öhdəliyini təmin edir;

İƏK iqtisadi və bazar islahatlarına aid və iki Hökumət arasında ikitərəfli yardıma dair mövzuların gündəliyə çıxarılması, müzakirə və həll olunması, əməkdaşlığa təsir edən bürokratik maneələrin azaldılması və vacib məsələlərin gecikmədən həll olunması məqsədilə səmərəli mexanizmin yaradılması üçün bir forum kimi fəaliyyət göstərir;

İƏK-ə ABŞ tərəfindən ABŞ Dövlət Departamenti, Dövlət Katibinin İqtisadiyyat, Enerji və Biznes İşləri üzrə köməkçisi və ya onun təyin etdiyi nümayəndə, Azərbaycan tərəfindən isə maliyyə naziri və ya onun təyin etdiyi nümayəndə sədrlik edəcəkdir. Hər iki tərəf İƏK-in iclaslarında müvafiq nümayəndələrin iştirakını təmin edəcək və bu barədə digər həmsədri yazılı şəkildə məlumatlandıracaqdır. İƏK-in gündəliyində spesifik məsələlərin müzakirəsi zamanı yaranan ehtiyac əsasında, İƏK-in iclaslarında əlavə nümayəndələr iştirak edə bilər;

İƏK-in rəsmi görüşləri Bakı və Vaşinqtonda olmaqla, hər təqvim ilində bir dəfə keçirilir. Ehtiyac duyularsa, əlavə xüsusi sessiyalar və ya işçi qruplarının görüşləri keçirilə bilər. Hər iki tərəf üstün sahələrdə təcili məsələlərlə əlaqədar nəzərdə tutulmuş növbəti sessiyadan əvvəl xüsusi sessiya keçirilməsi barədə müraciət edə bilər.

İƏK-in o cümlədən aşağıdakı əməkdaşlıq sahələrini əhatə edəcəyi gözlənilir:

davamlı inkişaf üçün enerji gəlirlərindən səmərəli istifadə;

struktur dəyişiklikləri və özəl sektorun inkişafı;

ticarət və investisiya mühiti;

Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxil olması;

qanunun aliliyi və şəffaflığın dəstəklənməsi;

antikorrupsiya tədbirləri;

Azərbaycanın qeyri-enerji sahələrinin inkişafı;

kommersiya əlaqələrinin gücləndirilməsi;

qlobal enerji təhlükəsizliyi və texniki məsələlər daxil olmaqla, enerji əməkdaşlığı; inkişafa yardım üzrə əməkdaşlıq.

İƏK öz fəaliyyəti üzrə mütəmadi olaraq ABŞ-ın vitse-prezidentinə və Azərbaycanın Baş nazirinə razılaşdırılacaq formatda hesabat təqdim edəcəkdir.

İƏK təhlükəsizlik və ya müdafiə məsələləri kimi qeyri-iqtisadi məsələlərlə məşğul olmayacaqdır.

Bu Memorandum 7 fevral 2007-ci ildə Azərbaycanda, Bakı şəhərində Azərbaycan və ingilis dillərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI HÖKUMƏTİ ADINDAN
HEYDƏR BABAYEV	*DUQLAS MENARÇİK*
İqtisadi inkişaf naziri	*ABŞ Beynəlxalq İnkişaf Agentliyi Administratorunun Avropa və Avrasiya üzrə müavini vəzifəsini icra edən*

Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Dövlət İnvestisiya Siyasəti barədə Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Hökuməti adından Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi (bundan sonra - İqtisadi İnkişaf Nazirliyi) və Amerika Birləşmiş Ştatlarının Hökuməti adından Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi (bundan sonra - USAİD) birgə səy göstərərək (a) uzunmüddətli milli və sektor inkişafı və siyasətin planlaşdırılması, (b) kapital büdcənin hazırlanması və (c) investisiya layihələrinin hazırlanması, qiymətləndirilməsi, monitorinq və təhlili üzrə Azərbaycan Respublikası Hökumətinin institusional potensialının gücləndirilməsinə nail olmaq istiqamətində əməkdaşlıq etmək arzusundadır. USAİD və İqtisadi İnkişaf Nazirliyi bu məqsədə nail olmaq üçün tərəfdaş kimi birgə çalışmaq niyyətindədir.

Qeyd olunan məqsədlə Tərəflər üzərlərinə götürdükləri öhdəliklər barədə qarşılıqlı anlaşmanı təsbit etmək üçün bu Anlaşma Memorandumunu (bundan sonra - Memorandum) imzalamışlar. Bu Memorandum USAİD və ya İqtisadi İnkişaf Nazirliyi tərəfindən maliyyə vəsaitlərinin ayrılması üzrə öhdəlik götürülməsi kimi qiymətləndirilməməlidir.

Maddə 1

Tərəflərin öhdəlikləri

1.1. Maliyyə vəsaiti və Tərəflər arasında birgə fəaliyyəti davam etdirmək barədə razılaşma olduğu halda ABŞ Hökuməti USAİD vasitəsilə 2007-ci il dekabrın 31-nə kimi və ya bundan sonra Tərəflərin yazılı formada razılaşdıracağı digər tarixdə İqtisadi İnkişaf Nazirliyinə aşağıdakı texniki yardım və təlim imkanları təqdim etmək niyyətindədir:

a) dövlət investisiya siyasəti və proqramlaşdırılması sahəsində, eləcə də investisiya layihələri dövründə İqtisadi İnkişaf Nazirliyinin və Nazirliyin tabe strukturlarının inzibati, texniki, institusional və kadr potensialının artırılmasına texniki yardım;

b) İqtisadi İnkişaf Nazirliyinin Azərbaycan Respublikası Hökumətinin Dövlət İnvestisiya Proqramının hazırlanmasına nəzarət etmək imkanlarını artırmaq, inkişaf planlaşdırma, büdcə prosesi və investisiya proqramlaşdırma ardıcıllığı və daxili əlaqələrin gücləndirilməsi üçün texniki yardım və təlim imkanlarının təqdim edilməsi.

USAİD yuxanda qeyd olunan yardımı hal-hazırda həyata keçirən Dövlət İnvestisiya Siyasəti Layihəsi vasitəsilə təqdim edəcəkdir.

1.2. Yuxarıda qeyd olunan məqsədlərə nail olmaq üçün İqtisadi İnkişaf Nazirliyi aşağıdakıları etmək niyyətindədir:

a) layihənin texniki işçi heyətini İqtisadi İnkişaf Nazirliyinin binasında münasib iş yeri, telefon və internetə çıxışla təchiz etmək;

b) qarşılıqlı surətdə razılaşdırılmış iş planı üzrə texniki tapşırıqların birgə icrası üçün İqtisadi İnkişaf Nazirliyinin peşəkar işçi heyətini təyin etmək;

c) yeni dövlət investisiya layihələri üçün birgə işlənib hazırlanmış müvafiq təlim kitabçasına uyğun Layihə (dəyər-səmərə) Təhlilinə dair tələblər daxil olmaqla, Azərbaycan Respublikası Hökumətinin Dövlət İnvestisiya Proqramının hazırlanıb idarə olunmasında yeni prinsip və metodologiyaları hazırlayıb mərhələlərlə tətbiq etmək.

1.3. Yuxarıda göstərilən məqsədlərə nail olmaq üçün ABŞ Hökuməti, maliyyə vəsaitlərinin mövcudluğundan asılı olaraq, indiyə kimi layihəyə ayrılmış məbləği 5 200 000 ABŞ dollarına çatdırmaqla, ona 2007-ci təqvim ilində təxminən 250 000 ABŞ dolları məbləğinə kimi töhfə əlavə etmək arzusundadır. ABŞ Hökumətinin bu maliyyə töhfəsi maliyyə vəsaitlərinin ayrılması üzrə öhdəlik götürülməsi kimi qiymətləndirilməməlidir. 2007-ci təqvim ilində İqtisadi İnkişaf Nazirliyinin naturada maliyyə töhfəsi USAİD-nin texniki məsləhətçilərinə iş otaqlarının ayrılması, İqtisadi İnkişaf Nazirliyinin nəzdində dövlət investisiya şöbəsinin yaradılması və Layihənin icrası ilə məşğul olan İqtisadi İnkişaf Nazirliyinin işçilərinə maaşların ödənilməsindən ibarət olacaqdır. Əlavə olaraq, İqtisadi İnkişaf Nazirliyi Layihə çərçivəsində yaradılmış metodoloji yanaşmanı mərhələli şəkildə dövlət investisiya layihələrinə tətbiq etməyi öz öhdəsinə götürür.

ABŞ Hökuməti Azərbaycan Respublikası Hökumətinin sosial, iqtisadi və siyasi inkişaf məqsədlərinə və məramlarına nail olmaq üçün bu yardımla və növbəti illərdə əlaqəli yardımla bağlı xərclərin getdikcə daha böyük hissəsini öz üzərinə götürmək istəyini alqışlayır. Bu məqsədlə Tərəflər Azərbaycan Respublikası Hökuməti tərəfindən layihə xərclərinin faiz artımı, icra müddəti mexanizmlərini müəyyən edən Birgə Maliyyələşdirmə üzrə daimi İşçi Qrupu yaratmaq barədə razılığa gəlirlər. Birgə Maliyyələşdirmə üzrə İşçi Qrupu 2007-ci il iyunun 30-dan gec olmayaraq Tərəflərə öz tövsiyələrini verəcəkdir. Azərbaycan Respublikası Hökuməti birgə maliyyələşdirmə payını növbəti illik dövlət büdcəsinə ayrıca məxaric maddəsi kimi daxil etməyə öz razılığını bildirir.

Maddə 2

Ümumi müddəalar

2.1. İkitərəfli Çərçivə Sazişinə münasibət: Bu Memorandum əsasında USAİD tərəfindən naturada təqdim oluna biləcək yardım Amerika Birləşmiş Ştatlarının Hökuməti ilə Azərbaycan Respublikasının Hökuməti arasındakı İkitərəfli Saziş (2000-ci il 11 may tarixli "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatlarının Hökuməti arasında yardım göstərilməsini asanlaşdırmaq üzrə əməkdaşlıq haqqında Saziş") çərçivəsində Amerika Birləşmiş Ştatlarının yardımı hesab edilir və vergi və gömrük öhdəliklərindən azad olunmanı nəzərdə tutan müddəalar da daxil olmaqla, həmin Sazişin müddəa və şərtlərinə tabe olur.

2.2. Üçüncü Tərəfin sənədləri və maliyyə vəsaitlərinin mövcudluğu: Yuxanda qeyd olunmuş naturada yardımı göstərmək üçün USAİD özünün uyğun hesab etdiyi dövlət və özəl tərəflərlə sazişlər və digər razılaşmalar imzalaya bilər. Amerika Birləşmiş Ştatlarının Memorandum ilə üzərinə götürdüyü bütün öhdəliklər maliyyə vəsaitinin mövcudluğuna və USAİD ilə belə dövlət və özəl tərəflər arasında, naturada yardımın təqdim olunmasına dair razılaşmalarla bağlı olacaqdır. B Memorandum USAİD tərəfindən maliyyə vəsaitlərinin ayrılmasına dair öhdəlik təsbit etmək məqsədi daşımır.

2.3. Amerika Birləşmiş Ştatlarının qanun və qaydalarına tabe olmaq: USAİD yalnız Amerika Birləşmiş Ştatlarının müvafiq qanun və qaydalarına əsasən maliyyə vəsaitləri ayırır, onları istiqamətləndirir, xərcləyir və Memorandumdan irəli gələn digər əməliyyatları həyata keçirir.

2.4. Əmlak üzərində sahiblik və ondan istifadə: USAİD tərəfindən başqa hal nəzərdə tutulmayıbsa, kompyuter proqramları və müvafiq lisenziyalar istisna olmaqla, USAİD tərəfindən təqdim olunmuş bütün əmlak üzərində mülkiyyət hüququ USAİD-də qalacaqdır. USAİD tərəfindən təqdim oluna biləcək istənilən əmlak yuxanda təsvir edilmiş məqsəd üçün səmərəli şəkildə istifadə edilməlidir və yardımın müddəti bitdikdən sonra onun məqsədlərinin davam etdirilməsi üçün istifadə olunmalıdır.

USAİD tərəfindən təqdim olunmuş əmlakdan, kompyuter proqramları və müvafiq lisenziyalar istisna olmaqla, Tərəflərin razılaşdırdıqları məqsədlərdən kənar məqsədlər üçün istifadə olunarsa və əgər İqtisadi İnkişaf Nazirliyinin müvafiq hərəkətləri ilə həmin halların müvafiq qaydada qarşısının alınması mümkün olduğu halda, belə hərəkətlərin qar-

şısı alınmamışdırsa, İqtisadi İnkişaf Nazirliyi USAİD-in xahişi və seçimi ilə həmin əmlakı qaytarmalı və ya həmin əmlak üçün xərclənmiş vəsaiti ABŞ dolları ilə ödəməlidir.

2.5. Sənədlər, yoxlama və təftiş: İqtisadi İnkişaf Nazirliyi Memoranduma uyğun olaraq göstərilmiş yardımın qəbulunu və istifadəsini göstərmək üçün zəruri olan, yardımla əlaqədar olaraq birbaşa müvafiq sənədləşdirmə aparmalı və ya aparılmasına dair müvafiq göstəriş verməlidir. Sənədlər yardımın təqdim edildiyi vaxtdan etibarən Azərbaycan Respublikasının milli qanunvericiliyinə əsasən müəyyən edilmiş müddətdə saxlanılmalıdır. İqtisadi İnkişaf Nazirliyi USAİD-in səlahiyyətli nümayəndələrinə və ya onların təyin etdiyi şəxslərə istənilən münasib vaxtda yardımın göstərildiyi yer və yardımla əlaqədar sənədləri yoxlamaq üçün imkan yaratmalıdır.

2.6. Mübadilə məzənnəsi: USAİD və ya digər dövlət və ya özəl təşkilat tərəfindən USAİD-in bu Memorandumda qeyd olunan öhdəliklərinin həyata keçirilməsi məqsədilə Azərbaycana maliyyə vəsaiti daxil olarsa, İqtisadi İnkişaf Nazirliyi bu maliyyə vəsaitinin Azərbaycan manatına, valyutanın konvertasiyasının həyata keçirildiyi vaxtda mövcud olan, ölkə qanunvericiliyinə zidd olmayan ən yüksək məzənnə ilə çevrilməsi üçün lazım ola biləcək zəruri tədbir görəcəkdir.

2.7. Aşkarlıq: İqtisadi İnkişaf Nazirliyi ABŞ Hökumətinin töhfə verdiyi proqram qismində təqdim olunmuş yardım barədə ictimaiyyətə məlumat verəcəkdir.

2.8. Məlumat və icra məktubları: İqtisadi İnkişaf Nazirliyi USAİD-i və bir-birini yardımın göstərilməsini asanlaşdırmaq və bu yardımın səmərəliliyini qiymətləndirmək üçün lazım ola biləcək məlumatlarla təchiz etməlidir. Bundan əlavə, USAİD vaxtaşırı bu Memorandumda qeyd edilmiş məsələlər barəsində əlavə məlumat vermək üçün icranın vəziyyəti haqqında məktublar təqdim edə bilər. Tərəflər həmçinin bu Memorandumun icrası ilə əlaqədar olaraq qarşılıqlı anlaşmalarını təsdiq edən birgə razılaşdırılmış məktublardan istifadə edə bilərlər. İcra məktublarından bu Memorandumun mətninə dəyişiklik edilməsi üçün istifadə edilməməlidir.

2.9. Səlahiyyətli nümayəndələr: Tərəflər bu Memorandumu imzalayan şəxslərin rəhbərlik etdiyi idarələrdə işləyən və ya fəaliyyət göstərən şəxslər tərəfindən təmsil olunurlar. Hər bir tərəf digər tərəfə yazılı bildiriş göndərməklə, həmin Tərəfi, bu Memoranduma rəsmi düzəlişlər edilməsinin təsdiqlənməsi istisna olmaqla, istənilən məsələdə təmsil edəcək əlavə nümayəndələr təyin edə bilər. Hər bir tərəf qarşı tərəfi öz səlahiyyətli nümayəndələri ilə bağlı dəyişikliklərlə yazılı surətdə tanış etməlidir.

2.10. Əlavə və dəyişikliklər: Bu Memoranduma əlavə və dəyişikliklər Tərəflərin yazılı razılığı əsasında edilə bilər.

2.11. Dayandırılma və xitam:

A. Dayandırma.

(i) İqtisadi İnkişaf Nazirliyi bu Memorandumun hər hansı bir müddəasına riayət etməzsə;

(ii) USAİD bu Memorandumun məqsədinin əldə edilməsini və ya İqtisadi İnkişaf Nazirliyinin bu Memorandumun müddəalarına əməl etmə imkanını qeyri-mümkün edən fövqəladə vəziyyətin yaranmasını müəyyən edərsə;

(iii) USAİD bu yardımın təqdim edilməsinin ABŞ Hökumətinin qanun və ya qaydalarının pozulmasına səbəb olacağını müəyyən edərsə, USAİD, seçiminə müvafiq olaraq, bu Memorandumda nəzərdə tutulmuş yardımın təqdim edilməsini tam və ya qismən dayandırmaq üçün tədbir görə və bu barədə İqtisadi İnkişaf Nazirliyinə yazılı bildiriş təqdim edə bilər. Qismən dayandırma zamanı qeyd olunan bildirişdə, dayandırmanın nəticəsinin şamil edildiyi fəaliyyət növü göstərilməlidir. Əgər belə bildirişin təqdim edilməsindən altmış (60) gün keçmiş USAİD dayandırmanın səbəbinin və ya səbəblərinin aradan qaldırılmadığını müəyyən edərsə, USAİD yardım təqdim edilməsinə xitam verə və bu barədə İqtisadi İnkişaf Nazirliyinə yazılı bildiriş təqdim edə bilər.

B. Xitam.

İstənilən Tərəf digər Tərəfə otuz (30) gün əvvəl yazılı bildiriş təqdim etməklə bu Memoranduma tam və ya qismən xitam verə bilər. Qismən xitam vermə zamanı belə bildirişdə xitamın nəticəsinin şamil ediləcəyi fəaliyyətlər qeyd edilməlidir, Bu Memoranduma xitam verilməsi Tərəflərin bu fəaliyyət üçün hər hansı maliyyə və ya digər resursların təqdim edilməsi üzrə hər hansı məsuliyyətinə, bu Memorandumun xitamına qədər üçüncü tərəflə saziş bağlayaraq üzərilərinə götürdükləri ləğvolunmaz öhdəliklərdən irəli gələn ödənişlər istisna olmaqla, xitam verəcəkdir. İqtisadi İnkişaf Nazirliyinin bu Memoranduma əsasən təqdim olunmuş əmlakdan istifadəyə dair yuxarıda - 2.4-cü bənddə qeyd olunmuş öhdəlikləri Memorandumun xitamından sonra da qüvvədə qalacaqdır. Bundan əlavə, belə bir xitamdan sonra USAİD öz hesabına bu Memoranduma əsasən ayrılmış əmlakın üzərində mülkiyyət hüququnu, əgər həmin əmlak Azərbaycandan kənarda olan mənbədəndirsə, daşınılan durumdadırsa və Azərbaycana giriş limanlarına boşaldılmamışdırsa, USAİD-ə keçirə bilər.

2.12. İddia hüququnun keçməsi: İqtisadi İnkişaf Nazirliyi, xahiş olunduqda bu Memorandumla əlaqədar USAİD tərəfindən maliyyələşdirilən və USAİD ilə imzalanmış kontraktın Tərəfinin kontraktdan irəli gələn əməli və ya öhdəliyi pozmasından və ya bununla əlaqədar yaranmış hər hansı iddia vermək hüququnun ABŞ dolları dəyərində birbaşa USAİD-ə keçməsinə razılaşır.

2.13. Müdafiə vasitəsindən imtina edilməməsi: Bu Memorandum ilə bağlı Tərəflərdən birinin malik olduğu hər hansı hüququn və ya müdafiə vasitəsinin həyata keçirilməsində yol verilmiş ləngimə bu hüquq və ya vasitədən istifadə edilməsindən imtina kimi yozulmamalıdır.

2.14. Dil: Bu Memorandum Azərbaycan və ingilis dillərində hazırlanmışdır. İki dildə olan mətnlər arasında hər hansı bir anlaşılmazlıq və ya ziddiyyət olduğu təqdirdə ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

2.15. Qüvvəyə minmə tarixi: Bu Memorandum hər iki Tərəfin Memorandumu imzaladığı tarixdən qüvvəyə minir.

Bütün bunların təsdiqi olaraq, Tərəflərin hər biri müvafiq şəkildə səlahiyyətləndirilmiş nümayəndəsi vasitəsilə bu Memorandumu 2007-ci il 7 fevral tarixində imzalamışlar.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI HÖKUMƏTİ ADINDAN
HEYDƏR BABAYEV	*DUQLAS MENARÇİK*
İqtisadi inkişaf naziri	*ABŞ Beynəlxalq İnkişaf Agentliyi Administratorunun Avropa və Avrasiya üzrə müavini vəzifəsini icra edən*

Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında İlkin Səhiyyə Xidmətlərinin Səviyyəsinin Yüksəldilməsinə dair Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Hökuməti adından Səhiyyə Nazirliyi və Amerika Birləşmiş Ştatlarının Hökuməti adından Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi ("USAİD") birgə beş pilot rayonunda və daha sonrakı etapda bütün ölkə üzrə İlkin Səhiyyə Xidmətinin keyfiyyətinin yaxşılaşdırılması, xərclər baxımından səmərəliliyə nail olmaq istiqamətində əməkdaşlıq etmək arzusundadır.

Qeyd olunan məqsəd naminə Tərəflər üzərlərinə götürdükləri öhdəliklər barədə bu Anlaşma Memorandumunu (bundan sonra - Memorandum) imzalayır. Bu Memorandum USAİD və ya Səhiyyə Nazirliyi tərəfindən maliyyə vəsaitlərinin ayrılması üzrə öhdəlik götürülməsi kimi qiymətləndirilməməlidir.

Maddə 1

Tərəflərin öhdəlikləri

1.1. Maliyyə vəsaiti olduqda ABŞ Hökuməti USAİD vasitəsilə 2007-ci il sentyabr ayının 1-dən 2010-cu il avqust ayının 31-nə qədər Səhiyyə Nazirliyinə aşağıdakı sahələrdə yardım təqdim etmək niyyətindədir:

a) Səhiyyə Nazirliyinin İlkin Səhiyyə Xidmətləri sahəsində islahat təşəbbüslərini və onun müddəalarını həyata keçirmək üçün lazım olan hüquqi və siyasi əsasın yaradılması istiqamətində texniki yardım göstərmək;

b) İlkin Səhiyyə Xidmətlərinin gücləndirilməsi məqsədilə İlkin Səhiyyə Xidmətinin yeni modellərini yaratmaq, səhiyyə işçilərini təlimatlandırmaq, səhiyyə informasiya idarəsi sahələrini möhkəmləndirmək;

c) sağlam həyat tərzini təbliğ etməklə, fərdlərin və ailələrin öz səhiyyə xidməti ehtiyaclarını ödəmək üçün şəxsi məsuliyyət hissinin artmasını təmin etmək.

1.2. Yuxarıda qeyd olunan yardıma nail olmaq üçün Səhiyyə Nazirliyi aşağıdakıları etmək niyyətindədir:

a) ölkədə yeni İlkin Səhiyyə Xidmətləri modellərinin uğurlu fəaliyyətinin təmin olunması üçün ilkin səhiyyə xidmətlərini möhkəmləndirən hüquqi və tənzimləyici islahatları həyata keçirmək;

b) səhiyyə sisteminə və xüsusilə İlkin Səhiyyə Xidmətlərinə sosial büdcədən ayrılan maliyyə vəsaitini artırmaq;

c) İlkin Səhiyyə Xidmətlərinin fəaliyyəti üçün zəruri ləvazimatlarla təchiz edən və onların çatdırılmasını təmin edən maliyyə islahatlarını həyata keçirmək;

d) tibb mütəxəssislərini təlimatlandırmaq məqsədilə "Ailə həkimi" və digər təhsil proqramlarının hazırlanmasını dəstəkləmək;

e) tibb işçilərini və əhalini islahatlar proqramı və yeni ilkin səhiyyə sistemi (xidmətlər və maliyyələşdirmə sahəsində) haqqında təlimatlandırmaq məqsədi daşıyan məlumat yayımı kampaniyalarını həyata keçirmək;

f) insan resursları ilə təmin etmək və inzibati dəstək göstərmək, konfransların keçirilməsi üçün şərait yaratmaq və zəruri hallarda İlkin Səhiyyə Xidmətlərinin Möhkəmləndirilməsi Layihəsinin məsləhətçiləri və işçiləri üçün iş şəraiti yaratmaq;

g) İlkin Səhiyyə Sisteminin islahatlarının uğurla həyata keçirilməsi üçün zəruri hökumət vəzifələrinin açılmasını və bu vəzifələrə mütəxəssislərin işə qəbul olunmasını təmin etmək.

1.3. Yuxanda göstərilən məqsədlərə nail olmaq üçün, ABŞ Hökuməti maliyyə vəsaitinin mövcudluğuna əsaslanaraq, 2007-ci ildə 1,500,000 ABŞ dolları məbləğində maliyyə vəsaitini bu məqsəd üçün ayırmaq niyyətindədir. Bu razılaşma ABŞ Hökuməti tərəfindən təxmini nəzərdə tutulmuş bu maliyyə vəsaitlərinin ayrılması üzrə öhdəlik götürülməsi kimi qiymətləndirilməməlidir. Səhiyyə Nazirliyi tərəfindən maliyyə vəsaitinin təxminən 28,750,000 ABŞ dolları məbləğində olması nəzərdə tutulur.

ABŞ Hökuməti Azərbaycan Hökumətinin sosial, iqtisadi və siyasi inkişaf məqsədlərinə və məramlarına nail olmaq üçün bu yardımla və növbəti illərdə əlaqəli yardımla bağlı xərclərin getdikcə daha böyük hissəsini öz üzərinə götürmək istəyini alqışlayır. Bu məqsədlə Tərəflər Azərbaycan Hökumətinin layihə xərclərinin faiz artımı, icra müddəti, mexanizmlərini müəyyən edən Birgə Maliyyələşdirmə üzrə daimi İşçi Qrupu yaratmaq barədə razılığa gəlirlər. Birgə Maliyyələşdirmə üzrə İşçi Qrupu 2007-ci il iyunun 30-dan gec olmayaraq Tərəflərə öz tövsiyələrini verəcəkdir. Azərbaycan Hökuməti birgə maliyyələşdirmə payını növbəti illik dövlət büdcəsinə ayrıca məxaric maddəsi kimi daxil etməyə öz razılığını bildirir.

Maddə 2

Ümumi müddəalar

2.1. İkitərəfli Çərçivə Sazişinə münasibət: Bu Memorandum əsasında USAİD tərəfindən naturada təqdim oluna biləcək yardım Amerika Birləşmiş Ştatlarının Hökuməti ilə Azərbaycan Respublikasının Hökuməti arasındakı İkitərəfli Saziş (2000-ci il 11 may tarixli "Azərbaycan Respublikası Hökuməti ilə Amerika

Birləşmiş Ştatları Hökuməti arasında yardım göstərilməsini asanlaşdırmaq üzrə əməkdaşlıq haqqında Saziş") çərçivəsində Amerika Birləşmiş Ştatlarının yardımı hesab edilir, vergi və gömrük öhdəliklərindən azad olunmanı nəzərdə tutan müddəalar da daxil olmaqla, həmin Sazişin müddəa və şərtlərinə tabe olur.

2.2. Üçüncü Tərəfin sənədləri və maliyyə vəsaitlərinin mövcudluğu: Yuxarıda qeyd olunmuş yardımı göstərmək üçün USAİD özünün uyğun hesab etdiyi dövlət və özəl tərəflərlə kontraktlar və digər razılaşmalar imzalaya bilər. Amerika Birləşmiş Ştatlarının Memorandum ilə üzərinə götürdüyü bütün öhdəliklər maliyyə vəsaitinin mövcudluğuna və USAİD ilə belə dövlət və özəl tərəflər arasında, naturada yardımın təqdim olunmasına dair razılaşmalarla bağlı olacaqdır. Bu Memorandum USAİD tərəfindən maliyyə vəsaitlərinin ayrılmasına dair öhdəlik təsbit etmək məqsədi daşımır.

2.3. Amerika Birləşmiş Ştatlarının qanun və qaydalarına tabe olmaq: USAİD yalnız Amerika Birləşmiş Ştatlarının müvafiq qanun və qaydalarına əsasən maliyyə vəsaitləri ayırır, onları istiqamətləndirir, xərcləyir və Memorandumdan irəli gələn digər əməliyyatları həyata keçirir.

2.4. Əmlak üzərində mülkiyyət hüququ və ondan istifadə: USAİD tərəfindən başqa hal nəzərdə tutulmayıbsa, kompyuter proqramları və müvafiq lisenziyalar istisna olmaqla,USAİD tərəfindən təqdim olunmuş bütün əmlak üzərində mülkiyyət hüququ USAİD-də qalacaqdır. USAİD tərəfindən təqdim oluna biləcək istənilən əmlak yuxarıda təsvir edilmiş məqsəd üçün səmərəli şəkildə istifadə edilməlidir və yardımın müddəti bitdikdən sonra onun məqsədlərinin davam etdirilməsi üçün istifadə olunmalıdır. USAİD tərəfindən təqdim olunmuş əmlakdan, kompyuter proqramları və müvafiq lisenziyalar istisna olmaqla, Tərəflərin razılaşdırdıqları məqsədlərdən kənar məqsədlər üçün istifadə olunarsa və əgər Səhiyyə Nazirliyinin müvafiq hərəkətləri ilə həmin halların müvafiq qaydada qarşısının alınması mümkün olduğu halda, belə hərəkətlərin qarşısı alınmamışdırsa, Səhiyyə Nazirliyi USAİD-in xahişi və seçimi ilə həmin əmlakı qaytarmalı və ya həmin əmlak üçün xərclənmiş vəsaiti ABŞ dolları ilə ödəməlidir.

2.5. Sənədlər, yoxlama və təftiş: Səhiyyə Nazirliyi Memoranduma uyğun olaraq göstərilmiş yardımın qəbulunu və istifadəsini göstərmək üçün zəruri olan, yardımla əlaqədar müvafiq sənədləşdirmə aparmalı və ya aparılmasına dair göstəriş verməlidir. Sənədlər yardımın təqdim edildiyi vaxtdan etibarən Azərbaycan Respublikasının milli qanunvericiliyinə əsasən müəyyən edilmiş müddətdə saxlanmalıdır. Səhiyyə Nazirliyi USAİD-in səlahiyyətli nümayəndələrinə və ya onların təyin etdiyi şəxslərə istənilən münasib vaxtda yardımın göstərildiyi yer və yardımla əlaqədar sənədləri yoxlamaq üçün imkan yaratmalıdır.

2.6. Mübadilə məzənnəsi: USAİD və ya digər dövlət və ya özəl təşkilat tərəfindən USAİD-in bu Memorandumda qeyd olunan öhdəliklərinin həyata keçirilməsi məqsədilə Azərbaycana maliyyə vəsaiti daxil olarsa, Səhiyyə Nazirliyi bu maliyyə vəsaitinin Azərbaycan manatına, valyutanın konvertasiyasının həyata

keçirildiyi vaxtda mövcud olan, ölkə qanunvericiliyinə zidd olmayan ən yüksək məzənnə ilə çevrilməsi üçün lazım ola biləcək zəruri tədbir görəcəkdir.

2.7. Aşkarlıq: Səhiyyə Nazirliyi ABŞ Hökumətinin töhfə verdiyi proqram qismində təqdim olunmuş yardım barədə ictimaiyyətə məlumat verəcəkdir.

2.8. Məlumat və icra məktubları: Səhiyyə Nazirliyi USAİD-i və bir-birini yardımın göstərilməsini asanlaşdırmaq üçün və bu yardımın effektivliyini qiymətləndirmək üçün lazım ola biləcək məlumatlarla təchiz etməlidir. Bundan əlavə, USAİD vaxtaşırı bu Memorandumda qeyd edilmiş məsələlər barəsində əlavə məlumat vermək üçün icranın vəziyyəti haqqında məktublar təqdim edə bilər. Tərəflər həmçinin bu Memorandumun icrası ilə əlaqədar olaraq qarşılıqlı anlaşmalarını təsdiq edən birgə razılaşdırılmış məktublardan istifadə edə bilərlər. İcra məktublarından bu Memorandumun mətninə dəyişiklik edilməsi üçün istifadə edilməməlidir.

2.9. Səlahiyyətli nümayəndələr: Tərəflər bu Memorandumu imzalayan şəxslərin rəhbərlik etdiyi idarələrdə işləyən və ya fəaliyyət göstərən şəxslər tərəfindən təmsil olunurlar. Hər bir Tərəf digər Tərəfə yazılı bildiriş göndərməklə, həmin Tərəfi, bu Memoranduma rəsmi düzəlişlər edilməsinin təsdiqlənməsi istisna olmaqla, istənilən məsələdə təmsil edəcək əlavə nümayəndələr təyin edə bilər. Hər bir Tərəf qarşı Tərəfi öz səlahiyyətli nümayəndələri ilə bağlı dəyişikliklərlə tanış etməlidir.

2.10. Əlavə və dəyişikliklər: Bu Memoranduma əlavə və dəyişikliklər Tərəflərin yazılı razılığı əsasında edilə bilər.

2.11. Dayandırılma və xitam:

A. Dayandırma.

Aşağıdakı hallarda USAİD, seçiminə müvafiq olaraq, bu Memorandumda nəzərdə tutulmuş yardımın təqdim edilməsini tam və ya qismən dayandırmaq üçün tədbir görə və bu barədə Səhiyyə Nazirliyinə yazılı bildiriş təqdim edə bilər. Qismən dayandırma zamanı qeyd olunan bildirişdə dayandırmanın nəticəsinin şamil edildiyi fəaliyyət növü göstərilməlidir. Əgər belə bildirişin təqdim edilməsindən altmış (60) gün keçmiş USAİD dayandırmanın səbəbinin və ya səbəblərinin aradan qaldırılmadığını müəyyən edərsə, USAİD yardım təqdim edilməsinə xitam verə və bu barədə Səhiyyə Nazirliyinə yazılı bildiriş təqdim edə bilər:

(i) Səhiyyə Nazirliyi bu Memorandumun hər hansı bir müddəasına riayət etməzsə;

(ii) USAİD bu Memorandumun məqsədinin əldə edilməsini və ya Səhiyyə Nazirliyinin bu Memorandumun müddəalarına əməl etmə imkanını qeyri-mümkün edən fövqəladə vəziyyətin yaranmasını müəyyən edərsə;

(iii) USAİD bu yardımın təqdim edilməsinin ABŞ Hökumətinin qanun və ya qaydalarının pozulmasına səbəb olacağım müəyyən edərsə.

B. Xitam.

İstənilən Tərəf digər Tərəfə otuz (30) gün əvvəl yazılı bildiriş təqdim etməklə, bu Me-

moranduma tam və ya qismən xitam verə bilər. Qismən xitamvermə zamanı belə bildirişdə xitamın nəticəsinin şamil ediləcəyi fəaliyyətlər qeyd edilməlidir. Bu Memoranduma xitam verilməsi Tərəflərin bu fəaliyyət üçün hər hansı maliyyə və ya digər resursların təqdim edilməsi üzrə hər hansı məsuliyyətinə, amma bu Memorandumun xitamına qədər üçüncü tərəflə saziş bağlayaraq üzərlərinə götürdükləri ləğvolunmaz öhdəliklərdən irəli gələn ödənişlər istisna olmaqla, xitam verəcəkdir. Azərbaycan Hökumətinin və ya Səhiyyə Nazirliyinin bu Memoranduma əsasən təqdim olunmuş əmlakdan istifadəyə dair yuxarıda - 2.4-cü bənddə qeyd olunmuş öhdəlikləri Memorandumun xitamından sonra da qüvvədə qalacaqdır. Bundan əlavə, belə bir xitamdan sonra USAİD öz hesabına bu Memoranduma əsasən ayrılmış əmlakın üzərində mülkiyyət hüququnu, əgər həmin əmlak Azərbaycandan kənarda olan mənbədəndirsə, daşınılan durumdadırsa və Azərbaycana giriş limanlarına boşaldılmamışdırsa, USAİD-ə keçirə bilər.

2.12. İddia hüququnun keçməsi: Azərbaycan Hökuməti və Səhiyyə Nazirliyi xahiş olunduqda bu Memorandumla əlaqədar USAİD tərəfindən maliyyələşdirilən və USAİD ilə imzalanmış kontraktın Tərəfinin kontraktdan irəli gələn əməli və ya öhdəliyi pozmasından və ya bununla əlaqədar yaranmış hər hansı iddia vermək *hüququnun USAİD-ə keçməsinə razılaşır.*

2.13. Müdafiə vasitəsindən imtina edilməməsi: Bu Memorandum ilə bağlı Tərəflərdən birinin malik olduğu hər hansı hüququn və ya müdafiə *vasitəsinin həyata* keçirilməsində yol verilmiş ləngimə bu hüquq və ya vasitədən istifadə edilməsindən imtina kimi yozulmamalıdır.

2.14. Dil: Bu Memorandum Azərbaycan və ingilis dillərində hazırlanmışdır. İki dildə olan mətnlər arasında hər hansı bir anlaşılmazlıq və ya ziddiyyət olduğu təqdirdə ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

2.15. Qüvvəyə minmə tarixi: Bu Memorandum hər iki Tərəfin Memorandumu imzaladığı tarixdən qüvvəyə minir.

Bütün bunların təsdiqi olaraq, Tərəflərin hər biri müvafiq şəkildə səlahiyyətləndirilmiş nümayəndəsi vasitəsilə bu Memorandumu 2007-ci il 7 fevral tarixində imzalamışlar.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI HÖKUMƏTİ ADINDAN
OQTAY ŞİRƏLİYEV	*DUQLAS MENARÇİK*
Səhiyyə naziri	*ABŞ Beynəlxalq İnkişaf Agentliyi Administratorunun Avropa və Avrasiya üzrə müavini vəzifəsini icra edən*

Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Xəzinədarlıq üzrə İnformasiyanı İdarəetmə Sistemi Layihəsi üzrə Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Hökuməti adından Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (bundan sonra - Maliyyə Nazirliyi) və Amerika Birləşmiş Ştatlarının Hökuməti adından Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi (bundan sonra -USAİD) birgə səy göstərərək, Xəzinədarlıq üzrə İnformasiyanı İdarəetmə Sisteminin (XİİS) respublika səviyyəsində icrasının başa çatdırılması, Maliyyə Nazirliyinin bu sistemi bütövlüklə istifadə edib davamlılığının təmin edilməsi və Maliyyə İnformasiya İdarəetmə Sisteminin (MİİS) hökumət səviyyəsinə çatdırılması üçün XİİS-in genişləndirilməsini planlaşdırmaq və potensialının gücləndirilməsinə nail olmaq istiqamətində əməkdaşlıq etmək arzusundadır. USAİD və Maliyyə Nazirliyi bu məqsədin həyata keçirilməsi üçün tərəfdaş kimi birgə çalışmaq niyyətindədirlər.

Qeyd olunan məqsədlə Tərəflər üzərlərinə götürdükləri öhdəliklər barədə qarşılıqlı anlaşmanı təsbit etmək üçün bu Anlaşma Memorandumunu (bundan sonra - Memorandum) imzalamışlar. Bu Memorandum USAİD və ya Maliyyə Nazirliyi tərəfindən maliyyə vəsaitlərinin ayrılması üzrə öhdəlik götürülməsi kimi qiymətləndirilməməlidir.

Maddə 1

Tərəflərin öhdəlikləri

1.1. Maliyyə vəsaiti və Tərəflər arasında birgə fəaliyyəti davam etdirmək barədə razılaşma olduğu halda ABŞ Hökuməti USAİD vasitəsilə 2007-ci ilin dekabr ayına kimi və ya bundan sonra Tərəflərin yazılı formada razılaşdıracağı digər tarixdə Maliyyə Nazirliyinə aşağıdakı texniki yardımı təqdim etmək niyyətindədir:

a) Maliyyə Nazirliyinə aşağıdakı sahələrdə yardım göstərəcək yerli və beynəlxalq mütəxəssislərdən ibarət məsləhət qrupunu təşkil etmək üçün:

(i) XİİS-in Respublika səviyyəsində qurulması; bərpa mexanizminin icrası və XİİS-in audit və təhlükəsizlik prosedurlarının qurulması; və

(ii) Maliyyə Nazirliyinin institusional və kadr potensialının gücləndirilməsi;

b) Xəzinədarlıq və Maliyyə İnformasiya İdarəetmə Sistemləri (MİİS), Hökumətin Maliyyə Statistikası, Dövlət Sektoru üzrə Beynəlxalq Mühasibat Standartları, kompyuter və məlumat mübadiləsinin audit və təhlükəsizliyi üzrə qabaqcıl təcrübəni öyrənmək üçün təlim səfərlərinin təşkili.

1.2. Yuxarıda qeyd olunan yardıma nail olmaq üçün Maliyyə Nazirliyi aşağıdakıları həyata keçirmək niyyətindədir:

a) XİİS-in funksiyaları və yeni layihənin işçi heyətini münasib iş yeri və ləvazimatla təchiz etmək;

b) respublika səviyyəsində XİİS-in qurulması üçün icra qruplarını təmin edib Dövlət Xəzinədarlıq ştatı üçün təlimlər keçirmək;

c) XİİS-in gündəlik əməliyyat, texniki dəstək, fəlakətdən bərpa, kompyuter təchizatı və işçilərin ezamiyyət xərclərini ödəmək.

1.3. Yuxarıda göstərilən məqsədlərə nail olmaq üçün ABŞ Hökuməti, maliyyə vəsaitlərinin mövcudluğundan asılı olaraq, layihəyə 2007-ci təqvim ilində təxminən 738 000 ABŞ dolları məbləğinə kimi töhfə əlavə etmək arzusundadır.

ABŞ Hökumətinin bu maliyyə töhfəsi maliyyə vəsaitlərinin ayrılması üzrə öhdəlik götürülməsi kimi qiymətləndirilməməlidir. Maliyyə Nazirliyinin 2007-ci təqvim ilində əlavə maliyyə iştirak payı 1500 000 ABŞ dolları həcmində qiymətləndirilir.

ABŞ Hökuməti Azərbaycan Respublikası Hökumətinin sosial, iqtisadi və siyasi inkişaf məqsədlərinə və hədəflərinə nail olmaq üçün bu yardımla və növbəti illərdə əlaqəli yardımla bağlı xərclərin getdikcə daha böyük hissəsini öz üzərinə götürmək istəyini alqışlayır. Bu məqsədlə Tərəflər Azərbaycan Respublikası Hökuməti tərəfindən layihə xərclərinin faiz artımı, icra müddəti mexanizmlərini müəyyən edən Birgə Maliyyələşdirmə üzrə daimi İşçi Qrupu yarat-maq barədə razılığa gəlirlər. Birgə Maliyyələşdirmə üzrə İşçi Qrupu 2007-ci il iyun ayının 30-dan gec olmayaraq Tərəflərə öz tövsiyələrini verəcəkdir. Azərbaycan Respublikası Hökuməti birgə maliyyələşdirmə paymı növbəti illik dövlət büdcəsinə ayrıca məxaric maddəsi kimi daxil etməyə öz razılığını bildirir.

Maddə 2

Ümumi müddəalar

2.1. İkitərəfli Çərçivə Sazişinə münasibət: Bu Memorandum əsasında USAİD tərəfindən naturada təqdim oluna biləcək yardım Amerika Birləşmiş Ştatlarının Hökuməti ilə Azərbaycan Respublikasının Hökuməti arasında İkitərəfli Saziş (11 may 2000-ci il tarixli "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında yardım göstərilməsini asanlaşdırmaq üzrə əməkdaşlıq haqqında Saziş") çərçivəsində Amerika Birləşmiş Ştatlarının yardımı hesab edilir və vergi və gömrük öhdəliklərindən azad olunmanı nəzərdə tutan müddəalar da daxil olmaqla, həmin Sazişin müddəa və şərtlərinə tabe olur.

2.2. Üçüncü Tərəfin sənədləri və maliyyə vəsaitlərinin mövcudluğu: Yuxarıda qeyd olunmuş naturada yardımı göstərmək üçün USAİD özünün uyğun hesab etdiyi dövlət və özəl tərəflərlə sazişlər və digər razılaşmalar imzalaya bilər. Amerika Birləşmiş Ştatlarının Memorandum ilə üzərinə götürdüyü bütün öhdəliklər maliyyə vəsaitinin mövcudluğuna və USAİD ilə belə dövlət və özəl tərəflər arasında, naturada yardımın təqdim olunmasına dair razılaşmalarla bağlı olacaqdır. Bu Memorandum USAİD tərəfindən maliyyə vəsaitlərinin ayrılmasına dair öhdəlik təsbit etmək məqsədi daşımır.

2.3. Amerika Birləşmiş Ştatlarının qanun və qaydalarına tabe olmaq: USAİD yalnız Amerika Birləşmiş Ştatlarının müvafiq qanun və qaydalarına əsasən maliyyə vəsaitləri ayırır, onları istiqamətləndirir, xərcləyir və Memorandumdan irəli gələn digər əməliyyatları həyata keçirir.

2.4. Əmlak üzərində mülkiyyət hüququ və ondan istifadə: USAİD tərəfindən başqa hal nəzərdə tutulmayıbsa, XİİS kompyuter proqramları və müvafiq lisenziyalar istisna olmaqla, USAİD tərəfindən təqdim olunmuş bütün əmlak üzərində mülkiyyət hüququ USAİD-də qalacaqdır. USAİD tərəfindən təqdim oluna biləcək istənilən əmlak yuxanda təsvir edilmiş məqsəd üçün səmərəli şəkildə istifadə edilməlidir və yardımın müddəti bitdikdən sonra onun məqsədlərinin davam etdirilməsi üçün istifadə olunmalıdır.

USAİD tərəfindən təqdim olunmuş əmlakdan, kompyuter proqramları və müvafiq lisenziyalar istisna olmaqla, Tərəflərin razılaşdırdıqları məqsədlərdən kənar məqsədlər üçün istifadə olunarsa və əgər Maliyyə Nazirliyinin müvafiq hərəkətləri ilə həmin halların müvafiq qaydada qarşısının alınması mümkün olduğu halda, belə hərəkətlərin qarşısı alınmamışdırsa, Maliyyə Nazirliyi USAİD-in xahişi və seçimi ilə həmin əmlakı qaytarmalı və ya həmin əmlak üçün xərclənmiş vəsaiti ABŞ dolları ilə ödəməlidir.

2.5. Sənədlər, yoxlama və təftiş: Maliyyə Nazirliyi Memoranduma uyğun olaraq, göstərilmiş yardımın qəbulunu və istifadəsini göstərmək üçün zəruri olan, yardımla əlaqədar olaraq birbaşa müvafiq sənədləşdirmə aparmalı və ya aparılmasına dair müvafiq göstəriş verməlidir. Sənədlər yardımın təqdim edildiyi vaxtdan etibarən Azərbaycan Respublikasının milli qanunvericiliyinə əsasən müəyyən edilmiş müddətə saxlanılmalıdır. Maliyyə Nazirliyi USAİD-in səlahiyyətli nümayəndələrinə və ya onların təyin etdiyi şəxslərə istənilən münasib vaxtda yardımın göstərildiyi yer və yardımla əlaqədar sənədləri yoxlamaq üçün imkan yaratmalıdır.

2.6. Mübadilə məzənnəsi: USAİD və ya digər dövlət və ya özəl təşkilat tərəfindən USAİD-in bu Memorandumda qeyd olunan öhdəliklərinin həyata keçirilməsi məqsədilə Azərbaycana maliyyə vəsaiti daxil olarsa, Maliyyə Nazirliyi bu maliyyə vəsaitinin Azərbaycan manatına, valyutanın konvertasiyasının həyata keçirildiyi vaxtda mövcud olan, ölkə qanunvericiliyinə zidd olmayan ən yüksək məzənnə ilə çevrilməsi üçün lazım ola biləcək zəruri tədbir görəcəkdir.

2.7. Aşkarlıq: Maliyyə Nazirliyi ABŞ Hökumətinin töhfə verdiyi proqram qismində təqdim olunmuş yardım barədə ictimaiyyətə məlumat verəcəkdir.

2.8. Məlumat və icra məktubları: Maliyyə Nazirliyi USAİD-i və bir-birini yardımın göstərilməsini asanlaşdırmaq və bu yardımın səmərəliliyini qiymətləndirmək üçün lazım ola biləcək məlumatlarla təchiz etməlidir. Bundan əlavə, USAİD vaxtaşırı bu Memorandumda qeyd edilmiş məsələlər barəsində əlavə məlumat vermək üçün icranın vəziyyəti haqqında məktublar təqdim edə bilər. Tərəflər həmçinin bu Memorandumun icrası ilə əlaqədar olaraq qarşılıqlı anlaşmalarını təsdiq edən birgə razılaşdırılmış məktublardan istifadə edə bilərlər. İcra məktublarından bu Memorandumun mətninə dəyişiklik edilməsi üçün istifadə edilməməlidir.

2.9. Səlahiyyətli nümayəndələr: Tərəflər bu Memorandumu imzalayan şəxslərin rəhbərlik etdiyi idarələrdə işləyən və ya fəaliyyət göstərən şəxslər tərəfindən təmsil olunurlar. Hər bir Tərəf digər Tərəfə yazılı bildiriş göndərməklə, həmin Tərəfi bu Memoranduma rəsmi düzəlişlər edilməsinin təsdiqlənməsi istisna olmaqla, istənilən məsələdə təmsil edəcək əlavə nümayəndələr təyin edə bilər. Hər bir Tərəf qarşı Tərəfi öz səlahiyyətli nümayəndələri ilə bağlı dəyişikliklərlə yazılı surətdə tanış etməlidir.

2.10. Əlavə və dəyişikliklər: Bu Memoranduma əlavə və dəyişikliklər Tərəflərin yazılı razılığı əsasında edilə bilər.

2.11. Dayandırılma və xitam:

A. Dayandırma.

(i) Maliyyə Nazirliyi bu Memorandumun hər hansı bir müddəasına riayət etməzsə;

(ii) USAİD bu Memorandumun məqsədinin əldə edilməsini və ya Maliyyə Nazirliyinin bu Memorandumun müddəalarına əməl etmə imkanım qeyri-mümkün edən fövqəladə vəziyyətin yaranmasını müəyyən edərsə;

(iii) USAİD bu yardımın təqdim edilməsinin ABŞ Hökumətinin qanun və ya qaydalarının pozulmasına səbəb olacağını müəyyən edərsə, USAİD, seçiminə müvafiq olaraq, bu Memorandumda nəzərdə tutulmuş yardımın təqdim edilməsini tam və ya qismən dayandırmaq üçün tədbir görə və bu barədə Maliyyə Nazirliyinə yazılı bildiriş təqdim edə bilər. Qismən dayandırma zamanı qeyd olunan bildirişdə dayandırmanın nəticəsinin şamil edildiyi fəaliyyət növü göstərilməlidir. Əgər belə bildirişin təqdim edilməsindən altmış (60) gün keçmiş USAİD dayandırmanın səbəbinin və ya səbəblərinin aradan qaldırılmadığını müəyyən edərsə, USAİD yardım təqdim edilməsinə xitam verə və bu barədə Maliyyə Nazirliyinə yazılı bildiriş təqdim edə bilər.

B. Xitam.

İstənilən Tərəf digər Tərəfə otuz (30) gün əvvəl yazılı bildiriş təqdim etməklə bu Memoranduma tam və ya qismən xitam verə bilər. Qismən xitam vermə zamanı, belə bildirişdə xitamın nəticəsinin şamil ediləcəyi fəaliyyətlər qeyd edilməlidir. Bu Memoranduma xitam verilməsi Tərəflərin bu fəaliyyət üçün hər hansı maliyyə və ya digər resursların təqdim edilməsi üzrə hər hansı məsuliyyətinə, bu Memorandumun xitamına qədər üçüncü tərəflə saziş bağlayaraq üzərlərinə götürdükləri ləğvolunmaz öhdəliklərdən irəli gələn ödənişlər istisna olmaqla, xitam verəcəkdir. Maliyyə Nazirliyinin bu Memoranduma əsasən təqdim olunmuş əmlakdan istifadəyə dair yuxarıda -'2.4-cü bənddə qeyd olunmuş öhdəlikləri Memorandumun xitamından sonra da qüvvədə qalacaqdır. Əlavə olaraq, bu cür xitamdan sonra USAİD əmlakın daşınar vəziyyətdə və mənşəyin Azərbaycandan kənar olduğu və Azərbaycanın giriş limanlarında boşalmadığı təqdirdə bu Memorandumla ayrılmış əmlakın mülkiyyət hüququnu öz xərcləri hesabına özündə saxlayacaqdır.

2.12. İddia hüququnun keçməsi: Maliyyə Nazirliyi, xahiş olunduqda, bu Memorandumla əlaqədar USAİD tərəfindən maliyyələşdirilən və USAİD ilə imzalanmış kontraktın Tərəfinin kontraktdan irəli gələn əməli və ya öhdəliyi pozmasından və ya bununla əlaqədar yaranmış hər hansı iddia vermək hüququnun ABŞ dolları dəyərində birbaşa USAİD-ə keçməsinə razılaşır.

2.13. Müdafiə vasitəsindən imtina edilməməsi: Bu Memorandum ilə bağlı Tərəflərdən birinin malik olduğu hər hansı hüququn və ya müdafiə vasitəsinin həyata keçirilməsində yol verilmiş ləngimə bu hüquqdan və ya vasitədən istifadə edilməsindən imtina kimi yozulmamalıdır.

2.14. Dil: Bu Memorandum Azərbaycan və ingilis dillərində hazırlanmışdır. İki dildə olan mətnlər arasında hər hansı bir anlaşılmazlıq və ya ziddiyyət olduğu təqdirdə ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

2.15. Qüvvəyə minmə tarixi: Bu Memorandum hər iki Tərəfin Memorandumu imzaladığı tarixdən qüvvəyə minir.

Bütün bunların təsdiqi olaraq, Tərəflərin hər biri müvafiq şəkildə səlahiyyətləndirilmiş nümayəndəsi vasitəsilə bu Memorandumu 2007-ci il 7 fevral tarixində imzalamışlar.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI HÖKUMƏTİ ADINDAN
SAMİR ŞƏRİFOV	*DUQLAS MENARÇİK*
Maliyyə naziri	*ABŞ Beynəlxalq İnkişaf Agentliyi Administratorunun Avropa və Avrasiya üzrə müavini vəzifəsini icra edən*

Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Təxirəsalınmaz Tibbi Yardım barədə Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Hökuməti adından Səhiyyə Nazirliyi və Amerika Birləşmiş Ştatlarının Hökuməti adından Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi ("USAİD") birgə islahatları həyata keçirməklə Azərbaycan rayonlarında Təxirəsalınmaz Tibbi Yardım xidmətlərinin möhkəmləndirilməsinə və keyfiyyətinin yaxşılaşdırılmasına nail olmaq istiqamətində əməkdaşlıq edəcəklər. Səhiyyə Nazirliyi və USAİD bu məqsədlə tərəfdaş kimi birgə çalışacaqlar.

Azərbaycan ərazisində USAİD və Səhiyyə Nazirliyi üzərlərinə götürdükləri öhdəliklər üçün bu Anlaşma Memorandumunu (bundan sonra "Memorandum") imzalayır.

Maddə 1

Tərəflərin öhdəlikləri

1.1. Maliyyə vəsaiti olduqda və Tərəflər arasında birgə fəaliyyəti davam etdirmək barədə razılaşma olduğu halda USAİD vasitəsilə ABŞ Hökuməti bu Memorandumun 2005-ci il sentyabr ayının 19-dan 2008-ci il mart ayının 18-nə qədər iki il yarım ərzində və ya bundan sonra Tərəflərin yazılı formada razılaşdıracağı digər tarixə qədər Səhiyyə Nazirliyinə infrastrukturun yaradılması, texniki yardım, təlim kursları və ləvazimatlar ilə təmin olunması şəklində yardımı yardım, təlim kursları və ləvazimatlar ilə təmin olunması şəklində yardımı təqdim etmək niyyətindədir. Səhiyyə Nazirliyinə göstərilən bu yardım Qlobal İnkişaf Tərəfdaşlıq yolu ilə USAİD tərəfindən maliyyələşdirilən, USAİD və özəl sektorun maliyyə vəsaitini birləşdirən Təxirəsalınmaz Tibbi Yardımın İnkişafı Təşəbbüsü Layihəsinin vasitəsilə həyata keçiriləcəkdir. Təxirəsalınmaz Tibbi Yardımın İnkişafı Təşəbbüsü Layihəsinə ayrılmış maliyyə vəsaiti olduqda USAİD tərəfindən 1,100,000 ABŞ dolları məbləğində və özəl donorlar tərəfindən 1,400,000 ABŞ dolları məbləğində, ümumi maliyyə vəsaiti 2,500,000 ABŞ dolları təşkil edir. Təxirəsalınmaz Tibbi Yardımın İnkişafı Təşəbbüsü Layihəsi Səhiyyə Nazirliyinin dörd pilot rayonda Təxirəsalınmaz Tibbi Yardım Xidmətlərinin təkmilləşdirilməsini nəzərdə tutur.

1.2. Səhiyyə Nazirliyinin 120 saylı əmrində qeyd olunduğu kimi, Səhiyyə Nazirliyi Regional Təxirəsalınmaz Tibbi Yardım Proqramı üçün aşağıdakıları həyata keçirir:

a) yardım göstərmək məqsədilə maliyyə vəsaitini qeyd olunmuş aşağıdakı sahələrə ayırmaq:

i. təmir işləri;

ii. ibbi avadanlıq və digər tibbi ləvazimatlar;

iii. təcili tibbi yardım ambulansları;

iv. təlim kursları;

b) Təxirəsalınmaz Tibbi Yardım Xidmətlərinin yaradılmasına imkan yaradan hüquqi və tənzimləyici islahatları həyata keçirmək;

c) tibb mütəxəssislərini müvafiq sahə üzrə təlimləndirmək məqsədilə təhsil proqramlarını hazırlamaq;

d) xəsarətlərin qarşısının alınması və təhlükəsiz sürücülük haqqında təlim kampaniyalarını həyata keçirmək;

e) müvafiq sahə üzrə kadr resursları ilə təmin etmək, konfransların keçirilməsi üçün şərait yaratmaq kimi inzibati dəstək göstərmək və Təxirəsalınmaz Tibbi Yardımın İnkişafı Təşəbbüsü Layihəsində çalışan məsləhətçilər üçün iş şəraiti yaratmaq;

f) Regional Təxirəsalınmaz Tibbi Yardım Proqramını tam şəkildə həyata keçirmək məqsədilə zəruri hökumət vəzifələrinin açılması və bu vəzifələrə mütəxəssislərin işə qəbul olunmasını təmin etmək.

1.3. ABŞ Hökuməti maliyyə imkanlarına əsaslanaraq yuxarıda göstərilmiş məqsədlərə nail olmaq üçün 2008-ci il mart ayının 18-nə kimi müvafiq sahə üzrə təxminən 1,100,000 ABŞ dolları məbləğində maliyyə vəsaitini ayıracaqdır. Bu razılaşma ABŞ Hökuməti tərəfindən təxmini nəzərdə tutulmuş bu maliyyə vəsaitlərinin ayrılması üzrə öhdəlik götürülməsi kimi qiymətləndirilməməlidir. Səhiyyə Nazirliyi tərəfindən maliyyə vəsaitinin təxminən 1,000,000 ABŞ dolları məbləğində olması nəzərdə tutulur.

ABŞ Hökuməti Azərbaycan Hökumətinin sosial, iqtisadi və siyasi inkişaf məqsədlərinə və məramlarına nail olmaq üçün bu yardımla və növbəti illərdə əlaqəli yardımla bağlı xərclərin getdikcə daha böyük hissəsini öz üzərinə götürmək istəyini alqışlayır. Bu məqsədlə Tərəflər Azərbaycan Hökumətinin layihə xərclərinin faiz artımı, icra müddəti, mexanizmlərini müəyyən edən Birgə Maliyyələşdirmə üzrə daimi İşçi Qrupu yaratmaq barədə razılığa gəlirlər. Birgə Maliyyələşdirmə üzrə İşçi Qrupu 2007-ci il iyunun 30-dan gec olmayaraq, Tərəflərə öz tövsiyələrini verəcəkdir. Azərbaycan Hökuməti birgə maliyyələşdirmə payını növbəti illik dövlət büdcəsinə ayrıca məxaric maddəsi kimi daxil etməyə öz razılığını bildirir.

Maddə 2

Ümumi müddəalar

2.1. İkitərəfli Çərçivə Sazişinə münasibət: Bu Memorandum əsasında USAİD tərəfindən naturada təqdim oluna biləcək yardım Amerika Birləşmiş Ştatlarının Hökuməti ilə Azərbaycan Respublikasının Hökuməti arasında İkitərəfli Saziş (2000-ci il 11 may tarixli "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatlarının Hökuməti arasında yardım göstərilməsini asanlaşdırmaq üzrə əməkdaşlıq haqqında Saziş") çərçivəsində Amerika Birləşmiş Ştatlarının yardımı hesab edilir, vergi və gömrük öhdəliklərindən azad olunur.

2.2. Üçüncü Tərəfin sənədləri və maliyyə vəsaitlərinin mövcudluğu: Yuxarıda qeyd olunmuş yardımı göstərmək üçün USAİD özünün uyğun hesab etdiyi dövlət və özəl tərəflərlə kontraktlar və digər razılaşmalar imzalaya bilər. Amerika Birləşmiş Ştatlarının Memorandum ilə üzərinə götürdüyü bütün öhdəliklər maliyyə vəsaitinin mövcudluğuna və USAİD ilə belə dövlət və özəl tərəflər arasında, naturada yardımın təqdim olunmasına dair razılaşmalarla bağlı olacaqdır. Bu Memorandum USAİD tərəfindən maliyyə vəsaitlərinin ayrılmasına dair öhdəlik təsbit etmək məqsədi daşımır.

2.3. Amerika Birləşmiş Ştatlarının qanun və qaydalarına tabe olmaq: USAİD yalnız Amerika Birləşmiş Ştatlarının müvafiq qanun və qaydalarına əsasən maliyyə vəsaitləri ayırır, onları istiqamətləndirir, xərcləyir və Memorandumdan irəli gələn əməliyyatları həyata keçirir.

2.4. Əmlak üzərində mülkiyyət hüququ və ondan istifadə: USAİD tərəfindən başqa hal nəzərdə tutulmayıbsa, kompyuter proqramları və müvafiq lisenziyalar istisna olmaqla, USAİD tərəfindən təqdim olunmuş bütün əmlak üzərində mülkiyyət hüququ USAİD-də qalacaqdır. USAİD tərəfindən təqdim oluna biləcək istənilən əmlak yuxarıda təsvir edilmiş məqsəd üçün səmərəli şəkildə istifadə edilməlidir və yardımın müddəti bitdikdən sonra onun məqsədlərinin davam etdirilməsi üçün istifadə olunmalıdır. USAİD tərəfindən təqdim olunmuş əmlakdan, kompyuter proqramları və müvafiq lisenziyalar istisna olmaqla, Tərəflərin razılaşdırdıqları məqsədlərdən kənar məqsədlər üçün istifadə olunarsa və əgər Səhiyyə Nazirliyinin müvafiq hərəkətləri ilə həmin halların müvafiq qaydada qarşısının alınması mümkün olduğu halda, belə hərəkətlərin qarşısını almamışdırsa, Səhiyyə Nazirliyi USAİD-in xahişi və seçimi ilə həmin əmlakı qaytarmalı və ya həmin əmlak üçün xərclənmiş vəsaiti ABŞ dolları ilə ödəməlidir.

2.5. Sənədlər, yoxlama və təftiş: Səhiyyə Nazirliyi Memoranduma uyğun olaraq göstərilmiş yardımın qəbulunu və istifadəsini göstərmək üçün zəruri olan yardımla əlaqədar olaraq müvafiq sənədləşdirmə aparmalı və ya aparılmasına dair göstəriş verməlidir. Sənədlər yardımın təqdim edildiyi vaxtdan etibarən Azərbaycan Respublikasının milli qanunvericiliyinə əsasən müəyyən edilmiş müddətdə saxlanmalıdır. Səhiyyə Nazirliyi USAİD-in səlahiyyətli nümayəndələrinə və ya onların təyin etdiyi şəxslərə istənilən münasib vaxtda yardımın göstərildiyi yer və yardımla əlaqədar sənədləri yoxlamaq üçün imkan yaratmalıdır.

2.6. Mübadilə məzənnəsi: USAİD və ya digər dövlət və ya özəl təşkilat tərəfindən USAİD-in bu Memorandumda qeyd olunan öhdəliklərinin həyata keçirilməsi məqsədilə Azərbaycana maliyyə vəsaiti daxil olarsa, Səhiyyə Nazirliyi bu maliyyə vəsaitinin Azərbaycan manatına, valyutanın konvertasiyasının həyata keçirildiyi vaxtda mövcud olan, ölkə qanunvericiliyinə zidd olmayan ən yüksək məzənnə ilə çevrilməsi üçün lazım ola biləcək zəruri tədbir görəcəkdir.

2.7. Aşkarlıq: Səhiyyə Nazirliyi ABŞ Hökumətinin töhfə verdiyi proqram qismində təqdim olunmuş yardım barədə ictimaiyyətə məlumat verəcəkdir.

2.8. Məlumat və icra məktubları: Səhiyyə Nazirliyi USAİD-i və bir-birini yardımın göstərilməsini asanlaşdırmaq üçün və bu yardımın effektivliyini qiymətləndirmək üçün lazım ola biləcək məlumatlarla təchiz etməlidir. Bundan əlavə, USAİD vaxtaşırı bu Memorandumda qeyd edilmiş məsələlər barəsində əlavə məlumat vermək üçün icranın vəziyyəti haqqında məktublar təqdim edə bilər. Tərəflər həmçinin bu Memorandumun icrası ilə əlaqədar olaraq qarşılıqlı anlaşmalarını təsdiq edən birgə razılaşdırılmış məktublardan istifadə edə bilərlər. İcra məktublarından bu Memorandumun mətninə dəyişiklik edilməsi üçün istifadə edilməməlidir.

2.9. Səlahiyyətli nümayəndələr: Tərəflər bu Memorandumu imzalayan şəxslərin rəhbərlik etdiyi idarələrdə işləyən və ya fəaliyyət göstərən şəxslər tərəfindən təmsil olunurlar. Hər bir Tərəf digər Tərəfə yazılı bildiriş göndərməklə, həmin Tərəfi bu Memoranduma rəsmi düzəlişlər edilməsinin təsdiqlənməsi istisna olmaqla, istənilən məsələdə təmsil edəcək əlavə nümayəndələr təyin edə bilər. Hər bir Tərəf qarşı Tərəfi öz səlahiyyətli nümayəndələri ilə bağlı dəyişikliklərlə tanış etməlidir.

2.10. Əlavə və dəyişikliklər: Bu Memoranduma əlavə və dəyişikliklər Tərəflərin yazılı razılığı əsasında edilə bilər.

2.11. Dayandırılma və xitam:

A. Dayandırma.

Aşağıdakı hallarda USAİD, seçiminə müvafiq olaraq, bu Memorandumda nəzərdə tutulmuş yardımın təqdim edilməsini tam və ya qismən dayandırmaq üçün tədbir görə və bu barədə Səhiyyə Nazirliyinə yazılı bildiriş təqdim edə bilər. Qismən dayandırma zamanı qeyd olunan bildiriş dayandırmanın nəticəsinin şamil edildiyi fəaliyyət növünü göstərməlidir.

Bu bildirişin təqdim edilməsindən altmış (60) gün keçdikdə USAİD dayandırmanın səbəbinin və ya səbəblərinin aradan qaldırılmadığını müəyyən edərsə, USAİD aşağıdakı hallarda yardımın təqdim edilməsinə xitam verə və bu barədə Səhiyyə Nazirliyinə yazılı bildiriş təqdim edə bilər:

(i) Səhiyyə Nazirliyi bu Memorandumun hər hansı bir müddəasına riayət etməzsə;

(ii) USAİD bu Memorandumun məqsədinin əldə edilməsini və ya Səhiyyə Nazirliyinin bu Memorandumun müddəalarına əməl etmə imkanını qeyri-mümkün edən fövqəladə vəziyyətin yaranmasını müəyyən edərsə;

(iii) USAİD bu yardımın təqdim edilməsinin ABŞ Hökumətinin qanun və ya qaydalarının pozulmasına səbəb olacağım müəyyən edərsə.

B. Xitam.

Tərəflərin biri digər Tərəfə otuz (30) gün əvvəl yazılı bildiriş təqdim etməklə, bu Memoranduma tam və ya qismən xitam verə bilər. Qismən xitamvermə zamanı, belə bildirişdə xitamın nəticəsinin şamil ediləcəyi fəaliyyətlər qeyd edilməlidir. Bu Memoranduma xitam verilməsi Tərəflərin bu fəaliyyət üçün hər hansı maliyyə və ya digər resursların təqdim edilməsi üzrə hər hansı məsuliyyətinə, bu Memorandumun xitamına qədər üçüncü tərəflə saziş bağlayaraq üzərlərinə götürdükləri ləğvolunmaz öhdəliklərdən irəli gələn ödənişlər istisna olmaqla, xitam verəcəkdir. Azərbaycan Hökumətinin və ya Səhiyyə Nazirliyinin bu Memoranduma əsasən təqdim olunmuş əmlakdan istifadəyə dair - 2.4-cü bənddə qeyd olunmuş öhdəlikləri Memorandumun xitamından sonra da qüvvədə qalacaqdır. Bundan əlavə, belə bir xitamdan sonra USAİD öz hesabına bu Memoranduma əsasən ayrılmış əmlakın üzərində mülkiyyət hüququnu, əgər həmin əmlak Azərbaycandan kənarda olan mənbədəndirsə, daşınılan durumdadırsa və Azərbaycana giriş limanlarına boşaldılmamışdırsa, USAİD-ə keçirə bilər.

2.12. İddia hüququnun keçməsi: Azərbaycan Hökuməti və ya Səhiyyə Nazirliyi, xahiş olunduqda, bu Memorandumla əlaqədar USAİD tərəfindən maliyyələşdirilən və USAİD ilə imzalanmış kontraktın Tərəfinin kontraktdan irəli gələn əməli və ya öhdəliyi pozmasından və ya bununla əlaqədar yaranmış hər hansı iddia vermək hüququnun USAİD-ə keçməsinə razılaşır.

2.13. Müdafiə vasitəsindən imtina edilməməsi: Bu Memorandum ilə bağlı Tərəflərdən birinin malik olduğu hər hansı hüququn və ya müdafiə vasitəsinin həyata keçirilməsində yol verilmiş ləngimə bu hüquq və ya vasitədən istifadə edilməsindən imtina kimi yozulmamalıdır.

2.14. Dil: Bu Memorandum Azərbaycan və ingilis dillərində hazırlanmışdır. İki dildə olan mətnlər arasında hər hansı bir anlaşılmazlıq və ya ziddiyyət olduğu təqdirdə ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

2.15. Qüvvəyə minmə tarixi: Bu Memorandum hər iki Tərəfin Memorandumu imzaladığı tarixdən qüvvəyə minir.

Bütün bunların təsdiqi olaraq, Tərəflərin hər biri müvafiq şəkildə səlahiyyətləndirilmiş nümayəndəsi vasitəsilə bu Memorandumu 2007-ci il 7 fevral tarixində imzalamışlar.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

OQTAY ŞİRƏLİYEV
Səhiyyə naziri

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI HÖKUMƏTİ ADINDAN

DUQLAS MENARÇİK
ABŞ Beynəlxalq İnkişaf Agentliyi Administratorunun Avropa və Avrasiya üzrə müavini vəzifəsini icra edən

"Azərpoçt" Dövlət Müəssisəsi (Milli Operator) və Misir Milli Poçt Təşkilatı arasında Beynəlxalq Pul Baratlarının Mübadilə Olunması üzrə Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərpoçt" Dövlət Müəssisəsi (Milli Operator) və Misir Milli Poçt Təşkilatı arasında Beynəlxalq Pul Baratlarının Mübadilə Olunması üzrə Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Misir Ərəb Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 may 2007-ci il

№2146

"Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Misir Ərəb Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumuna Əlavə Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Misir Ərəb Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumuna Əlavə protokol"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Misir Ərəb Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 may 2007-ci il

№2147

"Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Misir Ərəb Respublikası Kənd Təsərrüfatı və Meliorasiya Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Misir Ərəb Respublikası Kənd Təsərrüfatı və Meliorasiya Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Misir Ərəb Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 may 2007-ci il

№2148

"Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında hava nəqliyyatı haqqında Sazişə Əlavə Protokol"u Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında hava nəqliyyatı haqqında Sazişə Əlavə Protokol"u Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti "Azərbaycan Hava Yollan" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin "Azərbaycan Hava Yollan" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilməsi barədə Misir Ərəb Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 may 2007-ci il

№2149

"Azərbaycan Respublikasının Abşeron Rayon İcra Hakimiyyəti və Misir Ərəb Respublikasının Kalyubeya İcra Hakimiyyəti arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Abşeron Rayon İcra Hakimiyyəti və Misir Ərəb Respublikasının Kalyubeya İcra Hakimiyyəti arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Faiq Nüsrət oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Faiq Nüsrət oğlu Bağırova verilməsi barədə Misir Ərəb Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 may 2007-ci il

№2150

"Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Misirin Yaxın Şərq Agentliyi (MENA) arasında əməkdaşlıq Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Misirin Yaxın Şərq Agentliyi (MENA) arasında əməkdaşlıq Sazişi"ni imzalamaq səlahiyyəti Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) baş direktoru Aslan Əhməd oğlu Aslanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) baş direktoru Aslan Əhməd oğlu Aslanova verilməsi barədə Misir Ərəb Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 may 2007-ci il

№2151

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Misir Ərəb Respublikası Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Misir Ərəb Respublikası Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq

səlahiyyəti Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilməsi barədə Misir Ərəb Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 may 2007-ci il

№2152

"Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Misir Ərəb Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Misir Ərəb Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Fərrux oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Fərrux oğlu Məmmədova verilməsi barədə Misir Ərəb Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 may 2007-ci il

№2153

"Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında idman sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında idman sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimova verilməsi barədə Misir Ərəb Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 may 2007-ci il

№2154

"Macarıstan Respublikası və Azərbaycan Respublikası arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Macarıstan Respublikası və Azərbaycan Respublikası arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Macarıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 may 2007-ci il

№2155

"Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Bolqarıstan Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Bolqarıstan Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Fərrux oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Fərrux oğlu Məmmədova verilməsi barədə Bolqarıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 may 2007-ci il

№2162

Azərbaycan Respublikasının Qırğız Respublikasında (Bişkek şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Qırğız Respublikasında (Bişkek şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Qırğız Respublikasında (Bişkek şəhərində) Səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirmə məsələlərini bir ay müddətində həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Qırğız Respublikasında (Bişkek şəhərində) Səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 may 2007-ci il

№2169

A. A. Ağayevə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun @1.1. = 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Arif Ağaqulu oğlu Ağayevə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 may 2007-ci il

№2170

A. A. Ağayevin Azərbaycan Respublikasının Qırğız Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Arif Ağaqulu oğlu Ağayev Azərbaycan Respublikasının Qırğız Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 may 2007-ci il

№2171

K. T. Xasiyevin Azərbaycan Respublikasının Kimyəvi Silahların Qadağan Olunması üzrə Təşkilatda daimi nümayəndəsi vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Kamil Tacid oğlu Xasiyev Azərbaycan Respublikasının Kimyəvi Silahların Qadağan Olunması üzrə Təşkilatda daimi nümayəndəsi vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 may 2007-ci il

№2172

Azərbaycan Respublikasının Niderland Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri F. E. İsgəndərovun iqamətgahı Haaqa şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Kimyəvi Silahların Qadağan Olunması üzrə Təşkilatda daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Niderland Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri Fuad Eldar oğlu İsgəndərov iqamətgahı Haaqa şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Kimyəvi Silahların Qadağan Olunması üzrə Təşkilatda daimi nümayəndəsi təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 may 2007-ci il

№2173

Azərbaycan Respublikasının Belçika Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri E. Y. Eyyubovun iqamətgahı Brüssel şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Lüksemburq Böyük Hersoqluğunda Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Belçika Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri

Emin Yaqub oğlu Eyyubov iqamətgahı Brüssel şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Lüksemburq Böyük Hersoqluğunda Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 may 2007-ci il

№2174

Azərbaycan Respublikasının Hindistan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri T. Y. Qarayevin iqamətgahı Nyu Dehli şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Maldiv Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Hindistan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Tamerlan Yelmar oğlu Qarayev iqamətgahı Nyu Dehli şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Maldiv Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 may 2007-ci il

№2175

Azərbaycan Respublikası və Moldova Respublikası arasında 2007-ci il fevralın 22-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Moldova Respublikası arasında 2007-ci il fevralın 22-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş;

1.3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Moldova Respublikasının Maliyyə Nazirliyi arasında dövlət maliyyələşməsi sahəsində əməkdaşlığa dair Saziş;

1.4. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Moldova Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş;

1.5. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Moldova Respubli-

kasının Milli Statistika Bürosu arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş.

2. "Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş"in 2-ci maddəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Hökuməti tərəfindən Sazişin yerinə yetirilməsi üçün Səlahiyyətli Orqan kimi Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1.1-1.5-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki:

4.1. bu Sərəncamın 1.1-1.5-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Moldova Respublikası tərəfinə müvafiq bildiriş göndərsin;

4.2. bu Sərəncamın 1.1-ci bəndi ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş"in 2-ci maddəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Hökuməti tərəfindən Sazişin yerinə yetirilməsi üçün Səlahiyyətli Orqan kimi Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin müəyyən edilməsi barədə Moldova Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 may 2007-ci il

№2188

Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti,

hər iki dövlət arasında əlaqələrin möhkəmləndirilməsini və genişləndirilməsini arzulayaraq,

miqrasiya proseslərinin tənzimlənməsinin və idarə olunmasının və qeyri-leqal miqrasiya ilə mübarizənin zəruriliyini nəzərə alaraq, miqrasiya proseslərinin tənzimlənməsi sahəsində qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə və insan hüquq və azadlıqlarının müdafiəsinin təmin edilməsinə xüsusi əhəmiyyət verərək,

miqrasiya sahəsində ikitərəfli əməkdaşlığın effektiv formalarının inkişaf etdirilməsi və peşəkar əlaqələrin genişləndirilməsi üzrə ümumi niyyətlərini ifadə edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər aşağıdakı əsas istiqamətlər üzrə əməkdaşlıq edəcəklər:

bütün növ miqrantların hüquqlarının qorunması və təmin edilməsi;

miqrasiyanın idarə olunması, qanunsuz miqrasiyanın qarşısının alınması və insan alverinə qarşı mübarizə;

sığınacaq və qaçqınlar problemi;

vətəndaşların könüllü geriyə qayıtması.

Maddə 2

Bu Sazişin yerinə yetirilməsi üçün Tərəflərin Səlahiyyətli Orqanları aşağıdakılardır:

Azərbaycan Respublikası Hökuməti tərəfindən - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;

Moldova Respublikası Hökuməti tərəfindən Moldova Respublikasının Daxili İşlər Nazirliyi, Moldova Respublikasının İqtisadiyyat və Ticarət Nazirliyi.

Maddə 3

Tərəflər miqrasiya proseslərinin tənzimlənməsi, xüsusən də:

bu sahədə milli siyasətin hazırlanması və həyata keçirilməsi;

bu sahədə milli qanunvericilik;

miqrasiya sahəsində informasiya sistemlərinin yaradılması və məlumat bazasının idarə olunması;

miqrasiya axınlarına nəzarət;

qanunsuz miqrasiyaya qarşı tədbirlər;

xarici əmək miqrasiyası və bir Tərəf dövlətinin vətəndaşının digər Tərəf dövlətində işə düzəlməsi imkanları

sahəsində təcrübə və məlumat mübadiləsini həyata keçirəcəklər.

Maddə 4

1. Tərəflərin Səlahiyyətli Orqanları bu Sazişin həyata keçirilməsi ilə bağlı məsələlərin həlli üçün birgə işçi qrupu yaradırlar.

İşçi qrupu, ehtiyac yarandıqda, növbə ilə Bakı və Kişineu şəhərlərində birgə iclaslar keçirir.

2. Tərəflər zəruri hallarda bu Saziş çərçivəsində ikitərəfli əməkdaşlığın səmərəliliyinin artırılması imkanlarının öyrənilməsi məqsədilə iclaslar və məsləhətləşmələr təşkil edirlər.

3. Həmçinin Tərəflər iş təcrübəsinin öyrənilməsi və bu Sazişlə müəyyən edilmiş əməkdaşlıq üzrə məlumatlandırılma məqsədilə mütəxəssislərinin ezam olunmasını təşkil edirlər.

4. Əməkdaşlıq və təcrübə mübadiləsi üzrə fəaliyyətin müddəti, proqramı və maliyyə şərtləri Tərəflərin qarşılıqlı razılığı əsasında müəyyən ediləcəkdir.

Maddə 5

Tərəflər beynəlxalq və regional təşkilatların işində iştirak çərçivəsində mövqelərin razılaşdırılması və əhalinin miqrasiya problemlərinin həlli üzrə səylərin əlaqələndirilməsi məqsədilə əməkdaşlıq etmək və məsləhətləşmələr aparmaq niyyətlərini ifadə edirlər.

Maddə 6

Tərəflər həmçinin qarşılıqlı məqbul olan digər istiqamətlərdə də əməkdaşlıq etmək niyyətindədirlər.

Maddə 7

Tərəflər bu Sazişin müddəalarının tətbiqi və təfsiri zamanı yaranmış mübahisələri və fikir ayrılıqlarını danışıqlar və məsləhətləşmələr yolu ilə həll edirlər.

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərinə təsir etmir.

Maddə 8

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan ayrıca Protokollarla rəsmiləşdirilən və 9-cu maddədə müəyyən olunmuş qaydada qüvvəyə minən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 9

1. Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin diplomatik kanallar vasitəsilə axırıncı yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

2. Bu Saziş 5 il müddətinə bağlanılır. Tərəflərdən biri Sazişin müddətinin başa çatmasına ən azı 6 ay qalmış diplomatik kanallar vasitəsilə digər Tərəfə Sazişin ləğv edilməsi niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Saziş növbəti birillik müddətlərə uzadılır.

Bu Saziş Bakı şəhərində 2007-ci il 27 fevral tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, moldav və rus dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsiri ilə bağlı fikir ayrılığı yarandığı təqdirdə, rus dilində olan mətndən istifadə edilir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
FÜZULİ ƏLƏKBƏROV	*İQOR DODON*
Əmək və əhalinin sosial müdafiəsi naziri	*Ticarət naziri*

Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Moldova Respublikası Hökuməti,

iki ölkə xalqları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi və ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən davamlı istifadə məqsədilə əməkdaşlığı inkişaf etdirmək niyyətində olduqlarını ifadə edərək,

hər iki dövlətin iştirakçısı olduqları beynəlxalq konvensiyalardan irəli gələn öhdəliklərinin yerinə yetirilməsi üçün ətraf mühitin mühafizəsi sahəsində ikitərəfli əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətini qeyd edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Müvəkkil orqanlar sayılırlar:

Azərbaycan Respublikası tərəfindən - Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi;

Moldova Respublikası tərəfindən - Moldova Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi.

Maddə 2

Ətraf mühitin çirklənməsinin qarşısının alınması, mühafizəsi və təbii sərvətlərdən davamlı istifadə sahəsində qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi müvafiq proqramlar və planlar vasitəsilə təmin ediləcəkdir.

Maddə 3

Tərəflər arasında ətraf mühit üzrə əməkdaşlığın əsas sahələri aşağıdakılar olacaqdır:

a) mühafizə olunan ərazilərin idarə olunması;

b) bioloji müxtəlifliyin qorunması;

c) ətraf mühitə təsirin qiymətləndirilməsi, transsərhəd kontekstinin daxil edilməsi;

d) tullantıların (o cümlədən təhlükəli tullantıların) idarə olunması;

e) qanunverici və normativ aktların işlənib hazırlanması və tətbiq edilməsi;

f) atmosfer havası, o cümlədən ozon təbəqəsinin qorunması, qlobal iqlim dəyişmələrinin və uzaq məsafələrdə havanın transsərhəd çirklənməsinin qarşısının alınması;

g) meşələrin idarə olunması;

h) mineral ehtiyatlarının idarə edilməsi, o cümlədən yeraltı sərvətlərin tədqiqatı, kəşfiyyatı və istismarı;

i) ətraf mühit sahəsində elmi tədqiqatlar və monitorinq;

k) tərəflərin birgə maraq obyekti olan bu və ya digər sahə.

Maddə 4

Sazişin 3-cü maddəsində sadalanan sahələr üzrə əməkdaşlıq aşağıdakı şəkildə həyata keçiriləcəkdir:

birgə elmi-texniki tədqiqatlar/proqramlar;

əməkdaşlıq üzrə layihələrin hazırlanması;

ətraf mühitin mühafizəsi sahəsində ən yaxşı fəaliyyət üzrə təcrübə, məlumat və sənədlərin mübadiləsi, davamlı inkişaf və ekoloji təhsilin həyata keçirilməsi;

qanunverici və normativ aktların mübadiləsi;

ətraf mühitin mühafizəsi üzrə ən yaxşı texnologiyaların mübadiləsi;

mütəxəssislər mübadiləsi;

təhsil proqramları, konfranslar və simpoziumların təşkili;

tərəflərin zəruri hesab etdikləri hər hansı digər əməkdaşlıq formaları.

Maddə 5

Tərəflər ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən davamlı istifadə sahəsində çalışan hökumət və qeyri-hökumət təşkilatlan nümayəndələrinin əməkdaşlığına yardım göstərəcəklər.

Maddə 6

Bu Saziş qüvvəyə mindikdən sonra Tərəflərin hər biri Saziş çərçivəsində əməkdaşlıq fəaliyyətinin idarə edilməsinə cavabdeh olan Milli Əlaqələndirici təyin edəcəkdir. Tərəflər Milli Əlaqələndiricilərin təyin olunması barədə bir-birini məlumatlandıracaqlar. Tərəflər qarşı Tərəfə yazılı bildiriş göndərməklə Milli Əlaqələndiricini əvəz edən şəxsləri təyin edə bilərlər.

Tərəflərin Milli Əlaqələndiriciləri bu Sazişin 3-cü maddəsində əksini tapmış əməkdaşlıq sahələri üzrə fəaliyyətlə əlaqədar müfəssəl illik işçi proqramları hazırlayacaqlar.

Milli Əlaqələndiricilər bu Sazişlə müəyyən edilmiş fəaliyyəti müzakirə etmək və ya ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair məsələlərə baxmaq məqsədilə qarşılıqlı razılaşma əsasında görüşlər keçirə bilərlər. Görüşün vaxtı və keçirilmə yeri qarşılıqlı razılaşma ilə müəyyən edilir.

Maddə 7

Bu Sazişin təfsiri və ya həyata keçirilməsi zamanı ortaya çıxan bütün mübahisələr Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 8

Bu Sazişin müddəaları Tərəflərin iştirakçıları olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə toxunmur.

Maddə 9

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi sayılan və Sazişin 11-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrı-ayrı protokollarda rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 10

Bu Sazişin qüvvəsinin dayandırılması həmin Sazişə uyğun olaraq razılaşdırılmış və onun qüvvədə olduğu zaman başlanmış və sona çatdırılmamış işlərin davam etdirilməsinə təsir etməyəcəkdir.

Maddə 11

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirmələri haqqında diplomatik kanallar vasitəsilə sonuncu yazılı xəbərdarlığının alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır. Əgər Tərəflərdən heç biri Sazişin qüvvədə olma müddətinin bitməsinə ən azı altı ay qalmış ona xitam vermək niyyəti ilə yazılı xəbərdarlıq etməzsə, onun qüvvəsi növbəti beşillik müddətə uzadılacaq.

Bu Saziş Bakı şəhərində 2007-ci il 22 fevral tarixində, iki əsl nüsxədə, hər biri Azərbaycan, moldav və rus dillərində imzalanmışdır, hər üç mətn eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yaranacağı təqdirdə rus dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
HÜSEYNQULU BAĞIROV	*İQOR DODON*
Ekologiya və təbii sərvətlər naziri	*Ticarət naziri*

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Moldova Respublikasının Maliyyə Nazirliyi arasında dövlət maliyyələşməsi sahəsində əməkdaşlığa dair Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Moldova Respublikasının Maliyyə Nazirliyi,

büdcə və maliyyə sisteminin möhkəmləndirilməsi zərurətini qeyd edərək,

dövlət maliyyələşməsi sahəsində əməkdaşlığın gücləndirilməsi məqsədinə çatmaq niyyətində olaraq,

dövlət büdcə və maliyyə sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasına səy göstərərək,

iki dövlət arasında mövcud müsbət münasibətlərə əsaslanaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Sazişin məqsədi

Bu Sazişin məqsədi Tərəflər arasında onların səlahiyyətləri çərçivəsində və mövcud qanunvericiliyinə müvafiq olaraq, uzunmüddətli əməkdaşlığa şərait yaratmaqdan iba-

rətdir.

Maddə 2

Əməkdaşlıq sahələri

Tərəflər aşağıdakı sahələrdə əməkdaşlıq edəcəklər:

1) dövlət büdcəsinin tərtib olunması və icrası;
2) dövlət sektorunda mühasibatlıq;
3) büdcədaxili münasibətlər;
4) vergi siyasəti və vergiqoymanın idarə olunması;
5) dövlət borcunun idarə olunması;
6) şirkətlərin mühasibat uçotu və auditi;
7) daxili dövlət maliyyə nəzarəti;
8) maliyyə xidmətləri: sığorta bazarı;
9) Tərəflərin razılaşdığı digər əməkdaşlıq sahələri.

Maddə 3

Əməkdaşlığın həyata keçirilməsi

Tərəflər arasında əməkdaşlıq aşağıdakı formalarda həyata keçiriləcəkdir:

1) bu Sazişin 2-ci maddəsində göstərilən sahələrdə ümumi əməkdaşlıq proqramlarının işlənib hazırlanması və həyata keçirilməsi;
2) dövlət büdcə və maliyyə sisteminin tənzimlənməsi sahəsində təcrübə mübadiləsi və dövlət sektorunda mühasibat uçotu prosesinin beynəlxalq standartlara uyğunlaşdırılmasının təmin edilməsi;
3) Tərəflər arasında görüşlərin, tədris xarakterli tanışlıq səfərlərinin və məsləhətləşmələrin həyata keçirilməsi;
4) dövlət maliyyələşməsi sahəsinə dair qanunvericilik aktlarının, metodiki təlimatların və digər məlumatların mübadiləsi;
5) birgə təlim proqramları;
6) ümumi maraqlar sahəsində ekspertlərin mübadiləsi və görüşlərin təşkil olunması;
7) dövlət maliyyələşməsinin idarə olunması sahəsində yeni texnologiyaların tətbiqi.

Tərəflər yuxanda göstərilənlərlə yanaşı, öz aralarında razılaşdırdıqları digər formalarda da əməkdaşlıq edə bilərlər.

Maddə 4

Əməkdaşlığın planlaşdırılması

Bu Sazişə uyğun olaraq, Tərəflər Azərbaycan-Moldova Birgə Hökumətlərarası Komissiyası çərçivəsində həyata keçirilən beynəlxalq əməkdaşlığa əlavə olaraq müxtəlif tədbirlərin görülməsinə razılaşırlar.

Maddə 5

Maliyyə müddəaları

Tərəflər, konkret hallardan asılı olaraq və öz büdcə imkanları çərçivəsində, maliyyələşdirmə və hər hansı bir layihənin həyata keçirilməsi ilə bağlı tədbirlərin görülməsini nəzərdən keçirəcəklər.

Maddə 6

Mübahisələrin həlli

Bu Sazişin təfsiri və ya tətbiqi zamanı yaranan fikir ayrılıqları Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 7

Tərəflərin digər beynəlxalq sazişlərdən yaranan öhdəlikləri

Bu Saziş Tərəflərin dövlətlərinin bağladığı digər beynəlxalq müqavilələrdən, yaxud onların beynəlxalq təşkilatlara üzvlüyündən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.

Maddə 8

Əməkdaşlıq Sazişinə düzəlişlər

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan və Sazişin 9-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrı-ayrı protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 9

Müddət və xitam

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsilə Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri Sazişin müddətinin başa çatmasına ən azı 6 ay qalmış diplomatik kanallar vasitəsilə digər Tərəfə Sazişin ləğv edilməsi niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Saziş növbəti beşillik müddətlərə uzadılır.

Bu Saziş Bakı şəhərində 2007-ci il 22 fevral tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, moldav və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Sazişin təfsirində fikir ayrılığı olduqda, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİ ADINDAN

SAMİR ŞƏRİFOV
Maliyyə naziri

MOLDOVA RESPUBLİKASI MALİYYƏ NAZİRLİYİ ADINDAN

İON KİKU
Maliyyə nazirinin müavini

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Moldova Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Moldova Respublikasının Səhiyyə Nazirliyi səhiyyə və tibb elmi sahəsində ikitərəfli əməkdaşlığın inkişafı məqsədilə və bu əməkdaşlığın əhalinin sağlamlıq statusunun yaxşılaşdırılmasına səbəb olacağından əmin olaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər tibb müəssisələri və elmi tədqiqat institutları arasında səhiyyə və tibb elmi sahəsində uzunmüddətli, qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlığı hər iki Tərəfin ölkə daxili qanunvericiliyinə əsasən inkişaf etdirəcəklər.

Maddə 2

Tərəflər tibbin və səhiyyənin aşağıda qeyd olunan sahələri üzrə qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirəcəklər:

xəstəxanaların menecmenti və səhiyyə sahəsində islahatların idarə edilməsi;

səhiyyənin ehtiyaclarına müvafiq olaraq tibb və əczaçılıq elmlərinin inkişaf etdirilməsi;

Tərəflər üçün qarşılıqlı maraq kəsb edən məlumatların və materialların operativ mübadiləsi;

sanitar-epidemioloji vəziyyətin qənaətbəxş olmasının təmin edilməsi sahəsində koordinasiyanın aparılması;

sağlamlığın və ətraf mühitin qorunmasının bütün sahələri üzrə, xüsusilə qida məhsullarının təhlükəsizliyinə, suyun monitorinqinə və çalışan əhalinin sağlamlığına aidiyyəti olan proqramlara dair əməkdaşlığın aparılması;

ana və uşaq sağlamlığı sahəsində aparılan proqramlar və yaşlı insanlar üçün nəzərdə tutulan proqramlar barədə məlumat mübadiləsi;

sanator-kurort müalicəsi və fizioterapevtik proqramlar sahəsində təcrübə və məlumat mübadiləsi;

Tərəflərin razılığa gəldikləri digər sahələr.

Maddə 3

Tərəflər bu Sazişin 2-ci maddəsində qeyd olunanların, mütəxəssislər və tibbi-texniki məlumatlar mübadiləsi, simpoziumların, konfransların təşkili yolu ilə həyata keçirilməsini təmin edəcəklər.

Maddə 4

Bu məqsədlə Tərəfləri təmsil edən ölkələrin qanunvericiliyi əsasında tibbi-sanitar müəssisələr özlərinin fəaliyyətləri çərçivəsində birbaşa əlaqələr quraraq xarici tərəfdaşlarla qarşılıqlı faydalı anlaşmalar imzalaya bilərlər.

Sözügedən müəssisələr götürdükləri öhdəliklərin həyata keçməsində bu müqavilələrə görə qanuni və maliyyə məsuliyyəti daşıyırlar. Əməkdaşlıq edən müəssisələr arasında

hər hansı fikir ayrılığı onlar tərəfindən birbaşa və ya Tərəflər vasitəsilə həll edilir. Bu məqsədlə Tərəflər paritet əsasında müvəqqəti və ya daimi fəaliyyət göstərən işçi qruplar yarada bilərlər.

Maddə 5

Tərəflər öz ölkələrində keçirməyi planlaşdırılan konqreslər, sərgilər, konfranslar və digər əməkdaşlıq növləri barədə bir-birini məlumatlandıracaqlar və bu tədbirlərdə iştirak edəcək mütəxəssislərin ölkələrində qəbul edilməsində dəstək görəcəklər.

Maddə 6

Tərəflər tibb kadrlarının universitet, postuniversitet və ixtisas hazırlığı sahəsində əməkdaşlıq edəcəklər; tibb sahəsində işləyən müəllimlərin və elmi kadrların təkmilləşdirilməsi üçün imkanlar yaradacaq və buna təcrübə mübadiləsi yolu ilə nail olacaqlar.

Maddə 7

Bu Sazişin həyata keçirilməsi ilə bağlı xərcləri, bu məqsəd üçün ayrılan vəsaitlərdən asılı olaraq, hər iki Tərəf ödəyəcəkdir.

Maddə 8

Tərəflər səhiyyə sahəsində aparılan beynəlxalq səviyyədə maraq doğuran, xüsusilə Ümumdünya Səhiyyə Təşkilatının, digər ixtisaslaşdırılmış agentliklərin və Birləşmiş Millətlər Təşkilatının proqramları çərçivəsində əməkdaşlıq edəcəklər.

Maddə 9

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan ayrıca Protokollarla rəsmiləşdirilən və Sazişin 10-cu maddəsində müəyyən olunmuş qaydada qüvvəyə minən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 10

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsilə yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 il müddətinə bağlanılır. Tərəflərdən biri Sazişin qüvvədə olma müddətinin bitməsinə ən azı 6 ay qalmış diplomatik kanallar vasitəsilə digər Tərəfə Sazişin ləğv edilməsi niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Saziş növbəti beşillik müddətlərə uzadılır.

Bu Saziş Bakı şəhərində 2007-ci il 22 fevral tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, moldav və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni bərabər qüvvəyə malikdir.

Bu Sazişin təfsiri və tətbiqi ilə bağlı fikir ayrılığı yarandığı təqdirdə, rus dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ ADINDAN

OQTAY ŞİRƏLİYEV
Səhiyyə naziri

MOLDOVA RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ ADINDAN

BORİS QOLOVİN
Sahiyyə nazirinin müavini

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Moldova Respublikasının Milli Statistika Bürosu arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Moldova Respublikasının Milli Statistika Bürosu,

statistika sahəsində əməkdaşlığın inkişaf etdirilməsində, məlumat mübadiləsinin genişləndirilməsi və iki dövlət arasında iqtisadi əlaqələrin əks etdirilməsində qarşılıqlı surətdə maraqlı olaraq,

aşağıdakılar barədə razılığa gəlmişlər:

Maddə 1

Məlumatların konfidensiallığını və dövlət sirrini əks etdirən informasiyaların qorunmasını təmin etməklə, göstəricilərin müqayisəliliyini təmin etməyə imkan verəcək hər iki dövlətin sosial-iqtisadi vəziyyətini əks etdirən statistik məlumatların qarşılıqlı mübadiləsi üzrə statistika sahəsində qarşılıqlı əlaqələri və əməkdaşlığı inkişaf etdirmək.

Maddə 2

Tərəflər statistika sahəsində əməkdaşlığı aşağıdakı vasitələrlə həyata keçirəcəklər:

dövlətin sosial-iqtisadi, demoqrafik, ekoloji vəziyyətini əks etdirən statistik nəşrlərin və çap məhsullarının mübadiləsi;

statistik müşahidələrin (o cümlədən siyahıyaalmaların və müayinələrin) həyata keçirilməsi, statistik göstəricilər sisteminin yaradılması və istifadə edilməsi üzrə statistik materialların və araşdırmaların mübadiləsi;

seminarların və müşavirələrin keçirilməsi, həmçinin digər Tərəfin iş təcrübəsinin öyrənilməsi üçün mütəxəssislərin qarşılıqlı səfərlərinin təşkil edilməsi;

beynəlxalq statistika təşkilatları və iqtisadi təşkilatlar tərəfindən keçirilən tədbirlərdə iştirak məsələləri üzrə birgə fəaliyyət.

Maddə 3

Əməkdaşlıq bu Sazişin ayrılmaz hissəsi hesab olunan qarşılıqlı razılıq əsasında işlənib hazırlanmış və hər iki statistika təşkilatının rəhbərləri tərəfindən 2 illik dövr üçün təsdiq olunmuş tədbirlər planı əsasında həyata keçiriləcəkdir.

Maddə 4

Əməkdaşlığın əlaqələndirilməsi hər iki Tərəfdən təyin olunmuş vəzifəli cavabdeh şəxslər tərəfindən həyata keçirilir.

Maddə 5

Əməkdaşlıq prosesində bir Tərəfdən alınmış informasiya yalnız bu informasiyanı təqdim edən Tərəfin yazılı razılığı əsasında üçüncü tərəfə verilə bilər. Əməkdaşlıq prosesində alınan informasiyadan Tərəflərin mənafelərinin ziyanına istifadə edilə bilməz.

Maddə 6

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan, Sazişin 7-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən və ayrıca Protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 7

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır. Onun tətbiqi Tərəflərdən birinin Sazişin tətbiqini dayandırmaq təşəbbüsündə olduğu barədə digər Tərəfə göndərdiyi yazılı bildiriş vasitəsilə dayandırıla bilər. Saziş belə bildiriş alındıqdan 6 ay sonra qüvvəsini itirir.

Bu Saziş Bakı şəhərində 2007-ci il 22 fevral tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, moldav və rus dillərində imzalanmışdır, bütün mətnlər autentikdir.

Bu Sazişin təfsiri ilə bağlı fikir ayrılığı yarandığı təqdirdə, rus dilində olan mətndən istifadə edilir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ ADINDAN	MOLDOVA RESPUBLİKASININ MİLLİ STATİSTİKA BÜROSU ADINDAN
ARİF VƏLİYEV	*YEUCENİYA KİSTRUQA*
Komitəsinin sədri	*Xarici işlər və Avropa inteqrasiyası nazirinin müavini*

2007-ci il aprelin 9-da Əmman şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İordaniya Haşimiyyə Krallığının Xarici İşlər Nazirliyi arasında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il aprelin 9-da Əmman şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İordaniya Haşimiyyə Krallığının Xarici İşlər Nazirliyi arasında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 may 2007-ci il

№2190

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İordaniya Haşimiyyə Krallığının Xarici İşlər Nazirliyi arasında Anlaşma Memorandumu

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İordaniya Haşimiyyə Krallığının Xarici İşlər Nazirliyi (bundan sonra "Tərəflər" adlandırılacaq),

Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin prinsipləri və müddəalarına əsasən, Azərbaycan Respublikası ilə İordaniya Haşimiyyə Krallığı arasında dostluq əlaqələrini və əməkdaşlığı gücləndirməyi arzulayaraq,

ikitərəfli münasibətlərin və qarşılıqlı maraq kəsb edən beynəlxalq məsələlərə dair müxtəlif səviyyələrdə aparılan məsləhətləşmələrin və fikir mübadiləsinin əhəmiyyətini etiraf edərək,

qarşılıqlı faydalı əməkdaşlığın yaradılması və daha da inkişaf etdirilməsini arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

1. a) Tərəflər ikitərəfli əməkdaşlığın inkişafına, habelə qarşılıqlı maraq kəsb edən məsələlərə dair mütəmadi əsaslarda görüşlər, danışıqlar və məsləhətləşmələr keçirəcəklər;

   b) görüşlər nazirlər, onların müavinləri, idarə rəisləri səviyyəsində və ya Tərəflərin razılaşdırdığı digər hər hansı səviyyədə keçirilə bilər və hər iki Tərəfin ekspertləri iştirak edə bilər;

   c) görüşlərin gündəliyi, tarixi, keçirilmə yeri və səviyyəsi qarşılıqlı razılaşma ilə müəyyən ediləcək və növbə ilə Bakıda və Əmmanda keçiriləcəkdir;

   d) tərkibi və proseduru qarşılıqlı olaraq razılaşdırılacaq komissiyalar, işçi qrupları və ekspert qrupları yaradıla bilər.

2. Tərəflər imkan daxilində və lazım gəldikdə, beynəlxalq və regional təşkilatlar və forumlar çərçivəsində qarşılıqlı maraq doğuran müxtəlif məsələlərə dair öz mövqelərinin əlaqələndirilməsinə istiqamətlənmiş məsləhətləşmələr keçirəcək və əməkdaşlıq edəcəklər.

3. Tərəflər öz diplomatik xidmətlərinin nümayəndələri arasında əməkdaşlığı və birbaşa əlaqələri təşviq edəcəklər.Onlar diplomatik kanallar vasitəsilə qarşılıqlı olaraq razılaşdırılacaq birgə fəaliyyətlərin və proqramların təşkilinə və lazımi şəkildə həyata keçirilməsinə kömək edəcəklər.

4. Tərəflər Azərbaycan Respublikasının və İordaniya Haşimiyyə Krallığının üçüncü ölkələrdəki diplomatik və konsulluq missiyaları arasında əməkdaşlıq və məsləhətləşmələrə yardım edəcəklər.

5. Bu Memorandum imzalandığı tarixdən qüvvəyə minir, beşillik müddətə bağlanılır və Tərəflərdən biri həmin müddətin başa çatmasına ən azı altı ay qalmış Memorandumu ləğv etmək niyyəti barədə digər Tərəfi yazılı şəkildə xəbərdar etmədikdə, avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılacaqdır. Hər iki Tərəfin yazılı razılığı ilə bu Memoranduma düzəlişlər edilə bilər. "

Əmman şəhərində 2007-ci il aprel ayının 9-da hər biri Azərbaycan və ingilis dillərində bərabər autentik olan iki nüsxədə imzalanmışdır. Hər hansı bir fikir ayrılığı olduqda ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN	İORDANİYA HAŞİMİYYƏ KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*ABDULİLAH ƏL-XATİB*
Xarici işlər naziri	*Xarici işlər naziri*

"Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Macarıstan Respublikasının İqtisadiyyat və Nəqliyyat Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Macarıstan Respublikasının İqtisadiyyat və Nəqliyyat Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Macarıstan Respublikasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 may 2007-ci il

№2195

2007-ci il aprelin 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Hökuməti və Rusiya Federasiyası Kurqan vilayətinin Administrasiyası (Hökuməti) arasında ticarət-iqtisadi, elmi və mədəni əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il aprelin 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Hökuməti və Rusiya Federasiyası Kurqan vilayətinin Administrasiyası (Hökuməti) arasında ticarət-iqtisadi, elmi və mədəni əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Rusiya Federasiyası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 may 2007-ci il

№2197

Azərbaycan Respublikasının Hökuməti və Rusiya Federasiyası Kurqan vilayətinin Administrasiyası (Hökuməti) arasında ticarət-iqtisadi, elmi və mədəni əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Kurqan vilayətinin Administrasiyası (Hökuməti),

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında 1997-ci il 3 iyul tarixli Müqaviləni rəhbər tutaraq,

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2010-cu ilə qədər olan dövrdə uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında 2002-ci il 25 yanvar tarixli Müqavilənin müddəalarına əsaslanaraq,

ikitərəfli iqtisadi və humanitar əlaqələrin gələcəkdə dərinləşməsi və genişlənməsində, təsərrüfat subyektləri arasında bazar münasibətlərinin inkişafı üçün əlverişli şəraitin yaradılmasında qarşılıqlı marağı nəzərə alaraq,

bu əməkdaşlığın Tərəflər arasında xarici iqtisadi əlaqələrin inkişafına və dərinləşməsinə əlverişli şərait yaradacağına əmin olaraq,

təşkilati-hüquqi və mülkiyyət formalarından asılı olmayaraq, Azərbaycan Respublikası və Rusiya Federasiyasının Kurqan vilayəti ərazisində yerləşən müəssisə və təşkilatlar arasındakı əməkdaşlığın təşviqi niyyətindən çıxış edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər əməkdaşlığı bu Sazişə, Azərbaycan Respublikası və Rusiya Federasiyası qanunvericiliyinə, həmçinin Azərbaycan Respublikasının və Rusiya Federasiyasının iştirakçısı olduqları beynəlxalq müqavilələrə uyğun olaraq həyata keçirirlər.

Maddə 2

Tərəflər uzunmüddətli və çoxtərəfli ticarət-iqtisadi, elmi-texniki, mədəni əlaqələri bərabərlik, qarşılıqlı mənfəət, qarşılıqlı anlaşma, hörmət və etibarlılıq prinsipləri əsasında inkişaf etdirirlər.

Maddə 3

Tərəflər öz səlahiyyətləri çərçivəsində bu Sazişin həyata keçirilməsində bilavasitə iştirak edən təsərrüfat subyektlərinin fəaliyyəti üçün Azərbaycan Respublikası və Rusiya Federasiyası Kurqan vilayətinin ərazisində əlverişli şəraitin yaradılmasına kömək göstərirlər.

Maddə 4

Tərəflər xarici investisiyalı (Azərbaycan və Rusiya kapitalı ilə) kommersiya təşkilatlarının, səhmdar cəmiyyətlərinin, maliyyə-sənaye qruplarının, bazar konyukturunun öyrənilməsi üçün mal və xidmətlərin istehsalçı və istehlakçılarına lazımi məlumatların verilməsi, yığılması və işlənməsi üzrə işgüzar-kommersiya və regional məlumat mərkəzlərinin yaradılmasına və fəaliyyətinə, bank xidmətlərinin göstərilməsi imkanlarının təmin olunmasına, reklam fəaliyyətinin həyata keçirilməsinə, marketinq strategiyasının və

məhsul satışı kanallarının müəyyənləşdirilməsinə, həmçinin layihələrə birgə investisiya qoyuluşu və lizinq xidmətlərinin göstərilməsi məsələlərinə baxılmasına kömək göstərirlər.

Tərəflər öz səlahiyyətləri çərçivəsində qarşılıqlı investisiya qoyuluşları, fəaliyyət göstərən və yenidən təsis olunan təsərrüfat subyektlərinin normal fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına hərtərəfli yardım edirlər.

Maddə 5

Azərbaycan Respublikası və Rusiya Federasiyasının Kurqan vilayəti ərazisində qeydiyyata alınmış təsərrüfat subyektləri arasındakı əməkdaşlıq onların bağladıqları müqavilələr əsasında həyata keçirilir. Müqavilələrin yerinə yetirilməsi üzrə öhdəliyi onları bağlayan subyektlər daşıyır.

Qarşılıqlı hesablaşmalar Azərbaycan Respublikası və Rusiya Federasiyasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

Maddə 6

Tərəflər Azərbaycan Respublikası və Rusiya Federasiyasının Kurqan vilayəti ərazilərində istehsal olunmuş mal və xidmətlərin Azərbaycan Respublikası və Rusiya Federasiyasının Kurqan vilayəti bazarlarında irəliləməsinə qarşılıqlı kömək göstərir, birgə sərgi və yarmarkaların keçirilməsini və təşkil olunmasını dəstəkləyirlər.

Maddə 7

Tərəflər mədəni-tarixi irsə, arxivlərə, məlumat bazaları və fondlara buraxılışa və onların sərbəst istifadəsinə kömək göstərərək mədəniyyət, ədəbiyyat və incəsənət sahəsində əlaqələri genişləndirir və dərinləşdirirlər.

Ənənələrə əsaslanaraq peşəkar, özfəaliyyət və uşaq kollektivlərinin festivallarda, xalq yaradıcılığı baxışlarında və müsabiqələrində iştirakına, bədii, bədii-teatr sərgilərinin, teatr-konsert qastrollarının, dövri və bədii ədəbiyyatın mübadiləsinə, mədəniyyət orqanları, o cümlədən teatr, kitabxana, muzey, konsert və klub təşkilatları və digər mədəniyyət və istirahət mərkəzləri, həvəskar birliklər, gənclər təşkilatları arasında əməkdaşlığın və birbaşa əlaqələrin inkişaf etdirilməsinə kömək göstərirlər.

Maddə 8

Tərəflər əməkdaşlığın əlaqələndirilməsi, bu Sazişin icrasına nəzarət, qarşılıqlı maraq kəsb edən məsələlər üzrə fikir mübadiləsinin aparılması məqsədilə müntəzəm işçi görüşləri keçirir, məsləhətləşmələr və danışıqlar aparırlar.

Tərəflər qarşılıqlı razılıq əsasında əməkdaşlığın müxtəlif sahələrində ayrı-ayrı məsələlərin həlli üzrə birgə ekspert-analitik və digər işçi qrupları yarada bilərlər.

Maddə 9

Tərəflər idman və turizm sahəsində əməkdaşlığın inkişafı və möhkəmləndirilməsi üçün əlverişli şəraitin yaradılması üzrə razılaşdırılmış tədbirlər görür, turist və idman nümayəndə heyətlərinin mübadiləsini təşviq edir, idman, mütəşəkkil və fərdi turizmin inkişafı məqsədilə birgə sahibkarlıq həyata keçirən assosiasiyalar, turizm mərkəzləri və digər təşkilatlar arasında işgüzar əlaqələrin qurulmasına kömək göstərirlər.

Maddə 10

Tərəflər arasında bu Sazişin təfsiri və tətbiqi ilə bağlı mübahisələr Tərəflərin razılaşdırdığı prosedurlarla müəyyən edilən məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

Maddə 11

Tərəflər qarşılıqlı razılıq əsasında bu Sazişə ayrı-ayrı protokollarla rəsmiləşdirilən, Azərbaycan Respublikasının və Rusiya Federasiyasının qanunvericiliyinə müvafiq olaraq qüvvəyə minən əlavələr və dəyişikliklər edə bilərlər.

Maddə 12

Bu Saziş beş il müddətinə bağlanır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan prosedurların yerinə yetirilməsi barədə yazılı bildirişi aldığı tarixdən qüvvəyə minir.

Tərəflərdən biri müvafiq müddətin bitməsinə ən azı altı ay qalmış bu Sazişin qüvvəsini dayandırmaq niyyəti barədə digər Tərəfi yazılı şəkildə xəbərdar etmədiyi təqdirdə, Sazişin qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılır.

Əgər Tərəflər digər razılıq əldə etməzlərsə, bu Sazişin qüvvəsinin dayandırılması bu Sazişə uyğun yerinə yetirilən və həyata keçirilməsi razılaşdırılmış şərtlərlə davam etdirilən layihələrin icrasına təsir etmir.

Bu Saziş Bakı şəhərində 2007-ci il aprelin 12-də hər biri Azərbaycan və rus dillərində olmaqla, iki nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	RUSİYA FEDERASİYASI KURQAN VİLAYƏTİNİN ADMİNİSTRASİYASI (HÖKUMƏTİ) ADINDAN
YAQUB EYYUBOV	*OLEQ BOQOMOLOV*
Baş nazirin birinci müavini	*Kurqan vilayətinin qubernatoru*

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının vətəndaşlarının qarşılıqlı vizasız gediş-gəlişi haqqında" 1997-ci il 10 iyun tarixli Sazişə Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2007-ci il fevralın 27-də Astana şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının vətəndaşlarının qarşılıqlı vizasız gediş-gəlişi haqqında" 1997-ci il 10 iyun tarixli Sazişə Protokol təsdiq edilsin.

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 may 2007-ci il

№ 337-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının vətəndaşlarının qarşılıqlı vizasız gediş-gəlişi haqqında 1997-ci il 10 iyun tarixli Sazişə Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti 1997-ci il 10 iyun tarixində Almatı şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının vətəndaşlarının qarşılıqlı vizasız gediş-gəlişi haqqında Sazişin 7-ci maddəsinə uyğun olaraq aşağıdakılar barədə Protokolu imzaladılar:

Maddə 1

Onların sahiblərinin şəxsiyyətini müəyyən edən və vətəndaşlığını təsdiq edən və digər Tərəflərin dövlətinin ərazisinə vizasız gəlmək, getmək, oradan tranzitlə keçmək, orada hərəkət etmək və qalmaq hüququ verən sənədlərə bu Protokola 1-ci və 2-ci Əlavədə sadalanan sənədlər aiddir.

Bu Protokola 1-ci və 2-ci Əlavələr Protokol qüvvəyə mindikdən sonra 1997-ci il 10 iyun tarixində imzalanmış Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında Sazişə 1-ci və 2-ci Əlavələri əvəz edir.

Maddə 2

Bu Protokol Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirdikləri barədə bir-birilərinə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş Astana şəhərində 2007-ci il 27 fevral tarixində, iki nüsxədə Azərbaycan, qazax və rus dillərində imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*MARAT TAJİN*
Xarici işlər naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında 1997-ci il 10 iyun tarixli Sazişə ƏLAVƏ 1

Qazaxıstan Respublikasının vətəndaşlarına Azərbaycan Respublikasının ərazisinə vizasız gəlmək, getmək, oradan tranzitlə keçmək, orada qalmaq və hərəkət etmək hüququ verən sənədlərin Siyahısı

1. Qazaxıstan Respublikası vətəndaşının pasportu;

2. Xidməti pasport;

3. Diplomatik pasport;

4. Dənizçinin pasportu (dənizçinin şəxsiyyətini təsdiq edən sənəd, gəminin şəxsi heyətinin siyahısı və ya ondan çıxarış olduqda);

5. Qazaxıstan Respublikasına qayıdış şəhadətnaməsi (yalnız Qazaxıstan Respublikasına qayıdış üçün).

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında 1997-ci il 10 iyun tarixli Sazişə ƏLAVƏ 2

Azərbaycan Respublikasının vətəndaşlarına Qazaxıstan Respublikasının ərazisinə vizasız gəlmək, getmək, oradan tranzitlə keçmək, orada qalmaq və hərəkət etmək hüququ verən sənədlərin Siyahısı

1. Azərbaycan Respublikasının ümumvətəndaş pasportu;

2. Xidməti pasport;

3. Diplomatik pasport;

4. Dənizçinin pasportu (dənizçinin şəxsiyyətini təsdiq edən sənəd, gəminin şəxsi heyətinin siyahısı və ya ondan çıxarış olduqda);

5. Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsi (yalnız Azərbaycan Respublikasına qayıdış üçün).

"Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında gömrük məsələləri üzrə qarşılıqlı yardım və əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında gömrük məsələləri üzrə qarşılıqlı yardım və əməkdaşlıq haqqında" 2007-ci il fevralın 7-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 may 2007-ci il

№338-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında gömrük məsələləri üzrə qarşılıqlı yardım və əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti,

gömrük qanunvericiliyinin pozulmasının müvafiq ölkələrin iqtisadi, maliyyə və ticarət maraqlarına ziyan vurduğunu nəzərə alaraq,

gömrük rüsumları və digər vergilərin dəqiq tutulmasının təmin edilməsinin əhəmiyyətini nəzərə alaraq,

müvafiq ölkələrin gömrük qanunvericiliyinin tənzimlənməsi və həyata keçirilməsinə dair məsələlərdə beynəlxalq əməkdaşlığa olan tələbatı dərk edərək,

spesifik mallarla bağlı qadağan, məhdudiyyət və xüsusi nəzarət tədbirlərini özündə əks etdirən beynəlxalq konvensiyaları nəzərə alaraq,

gömrük qanunvericiliyinin pozulmasına qarşı tədbirlərin onların gömrük idarələri arasında əməkdaşlıq yolu ilə daha səmərəli olacağına inanaraq; və

Gömrük Əməkdaşlığı Şurasının Qarşılıqlı İnzibati Yardım haqqında 5 dekabr 1953-cü il tarixli Tövsiyəsini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Təriflər

Bu Sazişin məqsədləri üçün:

1. "Gömrük idarəsi" termini ilə Azərbaycan Respublikasında Dövlət Gömrük Komitəsinə, Amerika Birləşmiş Ştatlarında isə Daxili Təhlükəsizlik Departamentinin Gömrük və Sərhəd Mühafizəsi Xidməti ilə Birləşmiş Ştatlar Mühacirət və Gömrük İdarəsinə işarə olunur;

2. "Gömrük qanunvericiliyi" - gömrük rüsumları, ödənişləri və digər vergilər və ya qadağalar, məhdudiyyətlər və nəzarət altında olan əşyaların milli sərhədlərdən keçirilməsi ilə bağlı digər oxşar nəzarət tədbirlərilə əlaqədar malların idxalı, ixracı və tranziti və ya dövriyyəsinə dair gömrük idarələri tərəfindən həyata keçirilən qanun və qaydalar;

3. "İnformasiya" - hər hansı formada məlumat, sənədlər, yazılar və hesabatlar və ya onların təsdiq olunmuş surətləri;

4. "Hüquqpozma" - gömrük qanunvericiliyinin hər hansı şəkildə pozulması və ya pozulmasına yönəldilmiş hər hansı bir cəhd;

5. "Şəxs" - hər hansı fiziki və ya hüquqi şəxs;

6. "Mülkiyyət" - maddi və ya qeyri-maddi, daşınar və ya daşınmaz, real və ya qeyri-real olmaqla hər hansı vəsaitlər və belə vəsaitlərə hüquq və ya pay verən hüquqi sənədlər və ya aktlar;

7. "Müvəqqəti tədbirlər"ə aşağıdakıları bildirən "həbs" və ya "dondurulma" daxildir:

a. mülkiyyətin dəyişdirilməsinin, istifadəsinin, hərəkətinin və ya verilməsinin mü-

vəqqəti olaraq qadağan edilməsi;

b. məhkəmə və ya səlahiyyətli orqan tərəfindən verilən qərar əsasında və ya digər vasitə ilə mülkiyyətin müvəqqəti olaraq saxlanca və ya nəzarətə götürülməsi.

8. "Müsadirə" - məhkəmə və ya səlahiyyətli orqan tərəfindən verilən qərar əsasında mülkiyyətdən məhrumetmə; tətbiq oluna bildikdə buraya özgəninkiləşdirmə də daxildir;

9. "Sorğu göndərən idarə" - yardım üçün sorğu göndərən gömrük idarəsi;

10. "Sorğu alan idarə" - yardım üçün sorğu alan gömrük idarəsi.

Maddə 2

Sazişin tətbiq edilmə dairəsi

1. Tərəflər, öz Gömrük İdarələri vasitəsilə, bu Sazişdə əks olunmuş müddəalara uyğun olaraq hər hansı hüquqpozmanın qarşısının alınmasında, təhqiqatının aparılmasında və aradan qaldırılmasında bir-birinə yardım göstərəcəklər.

2. Hər bir Gömrük İdarəsi bu Sazişlə əlaqədar yardım üçün sorğuları daxili qanun və qaydalara uyğun və tabelik qaydasında, öz səlahiyyəti və mümkün vasitələr daxilində həyata keçirəcəkdir.

3. Bu Saziş yalnız Tərəflər arasında qarşılıqlı hüquqi yardım üçün nəzərdə tutulmuşdur; bu Sazişin müddəaları hər hansı dəlilin hər hansı özəl şəxs tərəfindən əldə olunmasına, gizlədilməsinə və ya istisna edilməsinə və ya sorğunun icra olunmasına maneçilik törədilməsinə hüquq verməməlidir.

4. Bu Saziş Tərəflər arasında qüvvədə olan qarşılıqlı yardım təcrübəsinin inkişaf etdirilməsi və artırılması üçün nəzərdə tutulmuşdur. Bu Sazişin heç bir müddəası Tərəflər arasında qüvvədə olan qarşılıqlı yardım və əməkdaşlıq haqqında sazişləri və təcrübələri məhdudlaşdıracaq tərzdə təfsir olunmamalıdır.

Maddə 3

Ümumi yardımın tətbiq edilməsi dairəsi

1. Sorğu əsasında bir Gömrük İdarəsi gömrük qanunvericiliyinin həyata keçirilməsi və Gömrük İdarələri tərəfindən gömrük rüsumlarının və digər vergilərin dəqiq tutulmasının təmin edilməsi məqsədilə informasiya formasında digər Gömrük İdarəsinə yardım göstərəcəkdir.

2. Sorğu əsasında və ya öz təşəbbüsü ilə bir Gömrük İdarəsi aşağıdakılar daxil olmaqla, lakin bunlarla məhdudlaşmayan informasiya formasında digər Gömrük İdarəsinə yardım göstərəcəkdir:

a. sərnişin və yüklərin rəsmiləşdirilməsinin metodları və üsulları;

b. nəzarət vasitələrinin və üsullarının müvəffəqiyyətli tətbiqi;

c. hüquqpozmaların aradan qaldırılmasında faydalı ola bilən nəzarət tədbirlərinin və xüsusilə hüquqpozmalara qarşı mübarizənin xüsusi üsulları; və

ç. hüquqpozmaların törədilməsində istifadə olunan yeni metodlar.

3. Gömrük İdarələri aşağıdakı məsələlərdə əməkdaşlıq edəcəklər:

a. təhlükəsiz və sürətli informasiya mübadiləsini asanlaşdırmaq məqsədilə rabitə kanallarının qurulması və saxlanması; və

b. effektiv əlaqələndirmənin sadələşdirilməsi;

c. yeni avadanlıq və ya prosedurların nəzərdən keçirilməsi və yoxlanılması; və

ç. vaxtaşırı birgə fəaliyyət tələb edə bilən hər hansı digər ümumi inzibati məsələlər.

Maddə 4

Xüsusi yardımın tətbiq edilmə dairəsi

1. Sorğu əsasında Gömrük İdarələri bir-birinə bir Tərəfin ərazisindən ixrac olunmuş malların digər Tərəfin ərazisinə qanuni yolla idxal olunması barədə məlumat verəcəklər. Tələb olunduqda, məlumata malların rəsmiləşdirilməsində istifadə olunan gömrük proseduru daxil ediləcəkdir.

2. Sorğu əsasında bir Gömrük İdarəsi aşağıdakılar üzərində xüsusi müşahidəni həyata keçirəcəkdir:

a. sorğu göndərən Tərəfə məlum olan gömrük hüquqpozmasını törətmiş və ya törətməsi şübhə doğuran şəxslər, xüsusilə bu əraziyə daxil olan və oranı tərk edən şəxslər;

b. sorğu göndərən Tərəfin, onun ərazisi istiqamətində və ya ərazisindən şübhə doğuran qeyri-qanuni dövriyyəyə səbəb olmasını müəyyən etdiyi, daşınmada və ya saxlancda olan mallar;

c. sorğu göndərən Tərəfin ərazisində hüquqpozmada istifadə olunması şübhə doğuran nəqliyyat vasitələri.

3. Sorğu əsasında Gömrük İdarələri bir-birlərinə digər Tərəfin ərazisində hüquqpozmalarla nəticələnə bilən fəaliyyətlər barədə məlumat verəcəklər. Digər Tərəfin iqtisadiyyatına, ictimai sağlamlığına, ictimai təhlükəsizliyinə, yaxud bu qəbildən olan digər mühüm marağına əsaslı zərər gətirə bilən hallarda Gömrük İdarələri, mümkün olduqda, belə məlumatı sorğu almadan təmin edəcəklər. Hər bir halda bu Sazişin heç bir müddəası Gömrük İdarələrinin öz təşəbbüsləri əsasında digər Tərəfin ərazisində hüquqpozmalarla nəticələnə bilən fəaliyyətlər barədə məlumat verməsinə mane olmayacaqdır.

4. Tərəflər müvəqqəti tədbirlərdən və müsadirədən istifadə etməklə və barəsində müvəqqəti tədbirlər və müsadirə həyata keçirilən əmlakla bağlı proseduralarda yardım göstərəcəklər.

5. Tərəflər, bu Sazişə və aralarında olan digər sazişlərə uyğun olaraq, müsadirə olunmuş vəsaitlərin bölüşdürülməsi və istifadəsi ilə bağlı aşağıdakıları həyata keçirə bilərlər:

a. mülkiyyət, gəlir və vasitələri nəzarətdə saxlayan Tərəfin daxili qanunvericiliyinə uyğun şəkildə, bu Saziş çərçivəsində göstərilən yardım nəticəsində müsadirə olunmuş mülkiyyət, gəlir və vasitələrdən istifadə etmək;

b. öz müvafiq daxili qanunvericiliklərində yol verilən çərçivədə və qarşılıq prinsipinin tələbləri nəzərə alınmadan, müsadirə olunmuş mülkiyyət, gəlir və vasitələri və ya onların satışından əldə olunmuş vəsaiti razılaşma bilən şərtlər əsasında digər tərəfə vermək.

Maddə 5

İş və sənədlər

1. Sorğu əsasında Gömrük İdarələri, dəyəri, təyinatı və istifadəsi göstərilməklə, malların daşınması və yüklənməsi barədə məlumatı təmin edəcəklər.

2. Sorğu göndərən bir idarə yalnız surətlər kifayət olmadıqda işlərin, sənədlərin və digər materialların əslini almaq üçün müraciət edə bilər. Sorğu əsasında, sorğu alan idarə belə işlərin, sənədlərin və digər materialların lazımi qaydada təsdiq olunmuş surətlərini təmin edəcəkdir.

3. Sorğu göndərən idarə xüsusi olaraq əsl və ya surətlər üçün müraciət etmədikdə, sorğu alan idarə kompüterləşdirilmiş hər hansı formada məlumatı təqdim edə bilər. Sorğu alan idarə eyni zamanda kompüterləşdirilmiş məlumatın şərhi və istifadəsi üçün bütün müvafiq məlumatı təmin edəcəkdir.

4. Sorğu alan idarə razılaşdığı təqdirdə, sorğu göndərən idarə tərəfindən təyin olunmuş rəsmi şəxslər sorğu alan idarənin qərargahlarında hüquqpozmaya dair məlumatı yoxlaya və orada surətləri əldə edə və ya məlumatı çıxara bilər.

5. Təqdim olunan işlərin, sənədlərin və digər materialların əsli mümkün qədər qısa müddətdə qaytarılacaqdır; sorğu alan Tərəfin və ya üçüncü tərəflərin əlaqədar hər hansı hüququna təsir etməyəcəkdir.

Maddə 6

Şahidlər

1. Sorğu alan idarə öz əməkdaşlarına digər Tərəfin ərazisində hüquqi və ya inzibati işlərdə şahid kimi çıxış etmək və iş, sənəd və ya digər materialları, yaxud onların təsdiq edilmiş surətlərini təqdim etmək səlahiyyəti verə bilər.

2. Diplomatik və ya konsulluq toxunulmazlığına malik olan gömrük məmurunun məhkəmədə şahidlik etməsi tələb olunduqda, sorğu verilən Tərəf öz müvafiq gördüyü şərtlər altında toxunulmazlıqdan imtina etməyi qəbul edə bilər.

Maddə 7

Sorğuların verilməsi

1. Bu Sazişə uyğun olaraq sorğular müvafiq Gömrük İdarələrinin rəhbərləri tərəfindən təyin olunan vəzifəli şəxslər arasında birbaşa yazılı surətdə aparılacaqdır. Sorğuların icrası üçün faydalı hesab edilən məlumat sorğunu müşayiət edəcəkdir. Təcili hallarda, şifahi sorğu tərtib və qəbul oluna bilər, yalnız mümkün qədər qısa müddətdə, lakin şifahi sorğunun verildiyi tarixdən etibarən 10 gündən gec olmayaraq yazılı surətdə təsdiq edilməlidir.

2. Sorğuya aşağıdakılar daxil edilməlidir:

a. sorğu göndərən orqanın adı;

b. məsələ və ya işin xüsusiyyəti;

c. əlaqədar fakt və hüquqpozmalar haqqında qısa arayış;

ç. sorğu üçün səbəb; və

d. əgər məlumdursa, məsələ və ya işlə əlaqədar tərəflərin adları və ünvanları.

Maddə 8

Sorğuların icrası

1. Sorğu alan idarə sorğunun icra edilməsi üçün bütün müvafiq tədbirləri görməli və həmin məqsəd üçün lazım olan hər hansı rəsmi tədbiri təmin etməyə səy göstərməlidir.

2. Əgər sorğu alan idarə sorğunun icrası üçün müvafiq idarə deyilsə, o, təcili surətdə sorğunu müvafiq idarəyə yönəltməli və bu barədə sorğu göndərən idarəni xəbərdar etməlidir.

3. Sorğu alan idarə, mümkün dərəcədə, sorğunun icrası üçün zəruri olan təftişlər, yoxlamalar, faktla bağlı araşdırmalar və ya digər təhqiqat tədbirləri, o cümlədən mütəxəssislərin, şahidlərin və hüquqpozma törətmiş olması şübhə doğuran şəxslərin dindirilməsini həyata keçirməlidir.

4. Sorğu əsasında, sorğu göndərən idarəyə sorğunun icrası üçün görülən tədbirin vaxtı və yeri barədə məlumat verilməlidir.

5. Sorğu əsasında, sorğu alan Tərəf sorğunun icrasına kömək etmək məqsədilə sorğu göndərən Tərəfin vəzifəli şəxslərinə sorğu alan Tərəfin ərazisində olmaq üçün mümkün qədər tam səlahiyyət verməlidir.

6. Sorğu alan idarə sorğu alan Tərəfin daxili qanunvericiliyinin yol verdiyi çərçivədə müəyyən prosedura riayət etməklə sorğunu yerinə yetirməlidir.

Maddə 9

İstifadə məhdudiyyətləri

1. Bu Sazişə uyğun olaraq əldə olunan məlumata onu alan Tərəfin öz himayəsində olan oxşar məlumata tətbiq etdiyi konfidensiallıq dərəcəsi şamil ediləcəkdir.

2. Bu Sazişə uyğun olaraq əldə olunan məlumat, onu alan Tərəfin ondan hər hansı işdə istifadə etməsi də daxil olmaqla, yalnız bu Sazişdə müəyyən olunmuş məqsədlər üçün istifadə oluna və ya açıqlana bilər. Belə məlumat digər məqsədlər üçün və ya onu alan Tərəfin digər orqanları tərəfindən yalnız məlumatı verən Gömrük İdarəsi belə istifadəni və ya açıqlanmanı yazılı surətdə xüsusilə təsdiq etdiyi təqdirdə istifadə oluna və ya açıqlana bilər.

3. Hər bir Tərəfin aldığı məlumat, məlumatı verən Tərəfin sorğusu əsasında konfidensial hesab edilməlidir. Belə sorğunun səbəbləri bəyan edilməlidir.

4. Bu maddə, məlumatı alan Tərəfin Konstitusiyasına, daxili qanun və qaydalarına uyğun olaraq cinayət ittihamı ilə bağlı öhdəliyin mövcud olması şərtilə, məlumatın istifadə edilməsinin və ya açıqlanmasının qarşısını almamalıdır. Məlumatı alan Tərəf nəzər-

də tutulan hər hansı belə açıqlanma barəsində məlumatı verən Tərəfə əvvəlcədən bildiriş verməlidir.

5. Bu maddənin 2-ci və 4-cü bəndlərinə əsasən məlumatı alan Tərəfin ərazisində açıqlanan məlumat istənilən məqsəd üçün istifadə oluna bilər.

Maddə 10

İstisnalar

1. Əgər sorğu alan Tərəf yardım göstərilməsinin onun suverenliyinə, təhlükəsizliyinə, ictimai siyasətinə və digər mühüm milli marağına xələl gətirəcəyini və ya daxili qanun və qaydalarına, o cümlədən istifadə və məxfiliyinə dair məhdudiyyətlərlə bağlı təminatlara riayət etməməklə əlaqədar hər hansı hüquqi tələblərə zidd olacağını hesab edirsə, o yardımdan imtina edə, yaxud onu müəyyən şərtlər və ya tələblər yerinə yetirilməklə göstərə bilər.

2. Əgər sorğu göndərən idarə sorğu alan idarə tərəfindən verilən eyni sorğunu yerinə yetirmək iqtidarında olmayacaqsa, o, sorğusunda bu faktı nəzərə çatdırmalıdır. Belə bir sorğunun yerinə yetirilməsi sorğu alan idarənin qərarına müvafiq olacaqdır.

3. Sorğu alan idarə, yardımın hazırda aparılan təhqiqata, ittihama və ya işə müdaxilə edəcəyi əsasda onu təxirə sala bilər. Bu təqdirdə, sorğu alan idarə yardımın sorğu alan idarə tərəfindən tələb oluna biləcək şərtlər daxilində göstərilməsinin mümkünlüyü barədə sorğu göndərən idarə ilə məsləhətləşəcəkdir.

4. Sorğu yerinə yetirilə bilmədiyi halda, sorğu göndərən idarə təcili surətdə məlumatlandırılmalı və sorğunun təxirə salınma və ya imtina səbəbləri haqqında arayışla təmin olunmalıdır. Məsələnin sonrakı həlli üçün əhəmiyyət kəsb edə bilən təfsilatlar da sorğu göndərən idarəyə çatdırılmalıdır.

Maddə 11

Xərclər

1. Sorğu alan Tərəf, ekspert və şahidlər üçün məsrəflər və şifahi, yazılı tərcümə və köçürmə xərcləri istisna olunmaqla, sorğunun icrası ilə bağlı bütün xərcləri ödəyəcəkdir.

2. Əgər sorğunun icrası zamanı, sorğunun icrasının tamamlanması qeyri-adi xərclərə səbəb olacağı aşkara çıxarsa, Gömrük İdarələri icranın davam etmə şərtlərini müəyyən etmək üçün məsləhətləşəcəklər.

Maddə 12

Sazişin həyata keçirilməsi

1. Tərəflərin Gömrük İdarələri:

a. bu Sazişdən irəli gələn məsələlərlə məşğul olmaq məqsədilə bilavasitə əlaqə saxlayacaqlar;

b. məsləhətləşmədən sonra bu Sazişin həyata keçirilməsi üçün zəruri olan hər hansı inzibati göstərişləri verəcəklər; və

c. Sazişin şərhi və ya tətbiqindən irəli gələn problem və ya suallar qarşılıqlı razılıq əsasında həll etməyə səy göstərəcəklər.

2. Həlli tapılmayan mübahisəli məsələlər diplomatik vasitələrlə həll olunacaqdır.

3. Bu Sazişin həyata keçirilməsini nəzərdən keçirmək məqsədilə Tərəflərin Gömrük İdarələri digər Tərəfin sorğusu əsasında, lazım gəldikdə, dövri olaraq görüşmək barədə razılığa gəlirlər.

Maddə 13

Tətbiq edilmə

Bu Saziş hər iki Tərəfin gömrük ərazisində onların daxili hüquqi və inzibati müddəalarında müəyyən edildiyi kimi tətbiq olunacaqdır.

Maddə 14

Qüvvəyə minmə və başa çatma

1. Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin tarixindən qüvvəyə minir.

2. Tərəflərdən hər biri diplomatik kanallarla verilən bildiriş vasitəsilə bu Sazişin qüvvəsini ləğv edə bilər. Digər Tərəfə verilmiş ləğv etməyə dair bildirişin tarixindən üç ay sonra Saziş qüvvədən düşəcəkdir. Bununla belə, bu Sazişin qüvvədən düşmə vaxtı davam edən işlər onun müddəalarına uyğun olaraq tamamlanmalıdır.

3. Bu Sazişə istənilən zaman qarşılıqlı yazılı razılaşma əsasında düzəlişlər edilə bilər.

Bunları təsdiq edərək, öz müvafiq hökumətlərindən lazımi qaydada səlahiyyət almış aşağıda imza edənlər bu Sazişi imzalamışlar.

Bakı şəhərində 2007-ci il 7 fevral tarixində Azərbaycan və ingilis dillə-rində iki nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Kredit Sazişinin (Yevlax-Gəncə avtomobil yolunun yenidən qurulması layihəsinin) təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında 2007-ci il fevralın 12-də Bakı şəhərində imzalanmış Kredit Sazişi (Yevlax-Gəncə avtomobil yolunun yenidən qurulması layihəsi) təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 may 2007-ci il

№339-IIIQ

KREDİT № 3/458

Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Kredit Sazişi (Yevlax-Gəncə avtomobil yolunun yenidənqurulma layihəsi)

Bu Saziş, hicri təqvimi ilə 1427-ci il məhərrəm ayının 24-nə uyğun gələn miladi təqvimi ilə 2007-ci il 12 fevral tarixində

1. Səudiyyə Ərəbistanı Krallığının Riyad şəhərində yerləşən Səudiyyə İnkişaf Fondu (bundan sonra - Fond adlanacaq) təmsil edən Fondun Vitse-Prezidenti və İcraçı Direktoru cənab Yusif ibn Əl-Bassam

və

2. Azərbaycan Respublikasını (bundan sonra - Borcalan adlanacaq) təmsil edən nəqliyyat naziri cənab Ziya Məmmədov tərəfindən imzalanmışdır.

PREAMBULA

(A) Borcalan bu Sazişə əlavə edilmiş 2 №-li Cədvəldə təsvir edilmiş "Yevlax-Gəncə avtomobil yolunun yenidən qurulması" layihəsinin (bundan sonra - Layihə adlanacaq) maliyyələşdirilməsinə yardım etmək məqsədilə kredit ayrılması xahişi ilə Fonda müraciət etdiyini nəzərə alaraq,

(B) Borcalan Layihənin bir hissəsinin maliyyələşdirilməsinə yardım məqsədilə İslam İnkişaf Bankından (bundan sonra - İslam Bankı adlanacaq) yeddi milyon (7000000) İslam Dinarı məbləğində borc aldığını nəzərə alaraq,

(C) Fondun məqsədinin, inkişaf etməkdə olan ölkələrə öz iqtisadiyyatlarının inkişaf səviyyəsini yüksəltmək üçün yardım göstərmək və onlara inkişaf layihələri və proqramlarının həyata keçirilməsi üçün lazım olan kreditləri ayırmaq olduğunu nəzərə alaraq,

(D) Bu Layihənin əhəmiyyətinə və dost Azərbaycan xalqının iqtisadi inkişafına Fondun öz tövhəsini verəcəyinə əmin olduğunu nəzərə alaraq,

(E) Fondun Direktorlar Şurasının yuxanda qeyd olunanları nəzərə alaraq, özünün 4/87/994 №-li qərarı ilə aşağıda qeyd edilmiş şərtlər və qaydalar əsasında Borcalana kredit ayrılması haqqında razılığa gəldiyini nəzərə alaraq,

Tərəflər aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Ümumi Şərtlər: İzahlar

Bənd 1.01. Bu Sazişi imzalayan Tərəflər Fondun Direktorlar Şurasının hicri təqvimlə 1396-cı il 29 rəcəb, müvafiq olaraq miladi təqvimlə 26 iyul 1976-cı il tarixində verilmiş 11/14 №-li qərarı ilə Fondun Borc Sazişlərinə tətbiq edilən Ümumi Şərtlərinin bütün müddəalarını qəbul edir (Borc Sazişlərinə tətbiq edilən Ümumi Şərtlər bundan sonra - Ümumi Şərtlər adlanacaq).

Bənd 1.02. Sazişin məzmunu başqa cür tələb etməyənədək, bu Sazişdə istifadə edildiyi yerdən asılı olmayaraq, Ümumi Şərtlərdə və Preambulada istifadə edilən müxtəlif ter-

minlər orada izah edildiyi kimi müvafiq məna kəsb edir, belə ki, "Departament" termini Borcalanın-Nəqliyyat Nazirliyinin "Yol-nəqliyyatservis" Departamenti mənasını daşıyır.

Maddə 2

Kredit

Bənd 2.01. Fond Borc Sazişinin izah edilmiş və ya istinad edilmiş şərtlərinə uyğun olaraq Borcalana qırx səkkiz milyon yeddi yüz əlli min (48750000) Səudiyyə Rialı məbləğində kredit vəsaitini ayırmağa razılaşır.

Bənd 2.02. Kredit vəsaiti bu Sazişin 1 №-li Cədvəlinin şərtlərinə (həmin Cədvəl Fond ilə Borcalan arasında əldə olunan razılığa əsasən vaxtaşırı dəyişdirilə bilər) uyğun olaraq və Səudiyyə İnkişaf Fondunun kredit vəsaitlərinin çıxarılması prosedurlarına uyğun olaraq, Layihə üçün tələb olunan və kredit vəsaitlərindən maliyyələşdiriləcək münasib qiymətdə mal və xidmətlərə çəkilmiş xərclər üçün (və ya Fond bu xərcləri çəkməyə razılaşacağı təqdirdə) kredit hesabından çıxanla bilər.

Bənd 2.03. Borcalan kredit vəsaitini yalnız Layihənin icrası üçün lazım olan münasib qiymətdə mallara və xidmətlərə çəkilən xərclərin maliyyələşdirilməsi üçün tətbiq edə bilər. Borcalan tərəfindən bu malların və xidmətlərin alqı-satqısı Fondun malların və xidmətlərin tədarükü, eləcə də texniki hesabatlara dair Təlimatlarına uyğun olaraq aparılacaqdır. Borcalan kredit vəsaitlərindən maliyyələşdiriləcək işlər üçün hər hansı müqaviləni imzalamamışdan və gələcəkdə ona hər hansı ciddi dəyişikliklər etməmişdən əvvəl Fondun razılığını alacaqdır.

Bənd 2.04. Kredit vəsaitlərindən istifadənin son müddəti 2010-cu il 31 dekabr (Miladi) və ya Fondun təyin edəcəyi daha sonrakı tarix olacaqdır. Fond sonradan təyin edəcəyi tarix haqqında Borcalana dərhal məlumat verəcəkdir.

Bənd 2.05. Borcalan kreditin əsas məbləğindən çıxarılmış və vaxtaşırı ödənilməmiş qalan hissəsi üçün ildə iki faiz (2%) miqdarında kredit faizi ödəyəcəkdir.

Bənd 2.06. Kredit məbləği və digər ödəmələri yarım ildən bir hər il 15 iyun və 15 dekabr tarixlərində ödəniləcəkdir.

Bənd 2.07. Kreditin müddəti 5 il güzəştli müddət daxil olmaqla, iyirmi (20) ildir. Borcalan kreditin əsas məbləğini bu Sazişə əlavə edilmiş 3 №-li Cədvəldə göstərilən ödəmə qrafikinə uyğun olaraq geri ödəməlidir.

Maddə 3

Layihənin icrası

Bənd 3.01. a) Borcalan Departament vasitəsilə lazımi səy və bacarıqla, eləcə də müvafiq mühəndisi, maliyyə və inzibati təcrübəyə uyğun olaraq Layihəni həyata keçirəcək və bu məqsəd üçün tələb olunan vəsaitləri , şəraiti və digər ehtiyatları lazım olduqda dərhal təmin edəcək və ya təmin olunmasına göstəriş verəcəkdir.

b) Borcalan Departamenti kredit vəsaitlərindən əlavə olaraq Layihənin həyata keçirilməsi zamanı tələb olunacaq bütün digər vəsaitlərlə (o

cümlədən bu Saziş imzalandığı ərəfədə müəyyən edilmiş smeta qiymətindən artıq hər hansı layihə xərcini ödəmək üçün tələb oluna biləcək hər hansı vəsaitlərlə) ehtiyac duyulduğu vaxtda təmin etməlidir. Bütün bu kimi məbləğlər Fond tərəfindən qəbul edilən şərtlər əsasında ödəniləcəkdir.

Bənd 3.02. Borcalan Layihəyə dair planları, spesifikasiyaları, hesabatları, müqavilə sənədlərini, tikinti və satınalma qrafiklərini, eləcə də onlara edilmiş dəyişiklik və əlavələri hazır olduqdan dərhal sonra Fond tərəfindən tələb edilən təfsilatla Fonda təqdim etməlidir.

Bənd 3.03. Borcalan Layihənin icrasına nəzarət etmək üçün ixtisası və təcrübəsi Fond tərəfindən məqbul hesab edilən məsləhətçi - mühəndisləri təyin edəcəkdir.

Bənd 3.04. Borcalan Layihənin həyata keçirilməsi məqsədilə Fondun məqbul hesab etdiyi şərtlər və qaydalar əsasında Fond tərəfindən məqbul sayılan podratçıları işə cəlb edəcəkdir.

Bənd 3.05. Borcalan Layihə üzrə onun payına düşən xərcləri ödəmək üçün müvafiq şəkildə illik büdcə ayırmalarını öz üzərinə götürür. Borcalan Layihə üzrə yerli xərcləri ödəməyi öz üzərinə götürür.

Bənd 3.06. Borcalan kredit vəsaiti hesabına idxal olunmuş malların alınması, daşınması, eləcə də onların istismar və yaxud quraşdırma sahəsinə təchizatı ilə əlaqədar yaranmış qəza hallarının vurduğu zərəri sığorta etməlidir və bu cür sığorta üçün hər hansı təzminat Borcalan tərəfindən malların əvəz edilməsi və onların təmiri üçün sərbəst istifadə oluna bilən valyutada ödəniləcəkdir.

Bənd 3.07. Borcalan Kredit vəsaiti hesabına maliyyələşdirilən bütün malları və xidmətləri yalnız Layihənin həyata keçirilməsinə sərf edəcəkdir.

Bənd 3.08. Borcalan:

a) Layihə üzrə işlərin gedişatının (xərclər də daxil olmaqla) qeydə alınması, Kredit vəsaiti hesabına maliyyələşdirilən mal və xidmətlərin müəyyən olunması və onların istifadəsinin göstərilməsi, Layihədə nəzərdə tutulan bütün əməliyyatların, resursların və xərclərin əks olunması üçün müvafiq hesabatın aparılmasını;

b) Kreditlə bağlı məqsədlər üçün Fondun səlahiyyətli nümayəndələrinin səfər etməsi, Layihənin gedişatının öyrənilməsi, Kredit vəsaiti hesabına maliyyələşdirilən malların və xidmətlərin, eləcə də aidiyyəti olan hər hansı protokol və sənədlərin yoxlanılması üçün lazım olan bütün imkanları yaratmağı;

c) Fondun müvafiq tələbinə əsasən, Layihənin gedişatı, kredit vəsaitinin xərclənməsi və bu vəsait hesabına maliyyələşdirilən mallar və xidmətlərlə əlaqədar bütün lazımi məlumatların Fonda təqdim olunmasını öhdəsinə götürür.

Bənd 3.09. Borcalan Layihənin həyata keçirilməsi üçün lazım olan bütün torpaq sahələrinin alınması və ona xas olan hüquqların əldə edilməsi istiqamətində müvafiq tədbirlər görməlidir.

Maddə 4

Xüsusi öhdəliklər

Bənd 4.01. (a) Borcalan ilə Fond arasındakı razılığa əsasən, hər hansı bir xarici borc dövlət əmlakı üzərində yaradılmış girov hüququ ilə bu kredit üzərində heç bir üstünlüyə malik olmayacaqdır. Bununla da Borcalan öhdəsinə götürür ki, Fond digər şəkildə razılaşmayacağı təqdirdə, əgər hər hansı bir xarici borca zəmanət üçün Borcalanın əmlakı girov olaraq saxlanılarsa, 0 hal-da bu girov fakta əsaslanaraq qüvvəsində qalacaq və Fonda heç bir maddi ziyan vurmamaqla, Kreditin əsas məbləğinin, kredit faizinin və kredit üzrə digər xərclərin bərabər və proporsional qaydada ödənilməsinə zəmanət verəcək və bu məqsədlə girov hüququnun yaradılmasına dair aydın ifadə olunmuş müddəalar nəzərdə tutulacaqdır.

(b) Bu bəndin (a) paraqrafında verilənlər aşağıdakılara tətbiq edilməyəcəkdir:

i) əmlakın alınması zamanı onun alış qiymətinin ödənilməsinə zəmanət vermək üçün bu əmlaka qoyulmuş girova;

ii) satışdan əldə olunan vəsaitlə geri ödəniləcək və müddəti, yarandığı tarixdən etibarən bir ildən çox olmayan borcun ödənilməsinə zəmanət vermək üçün ticarət mallarına qoyulmuş girova;

iii) geri ödənilmə müddəti bir ildən çox olmayan borcun ödənilməsinə zəmanət vermək üçün adi bank əməliyyatlarında əmlaka qoyulmuş girova.

Bənd 4.02. Borcalan Layihənin müvafiq texniki standartlara uyğun olaraq həyata keçirilməsi və bu məqsədlə lazım olan vəsaitin ayrılması üçün müvafiq tədbirlər görəcəkdir.

Bənd 4.03. Fondun Layihənin maliyyələşdirilməsi üçün etdiyi yardımı göstərmək məqsədilə Borcalan Layihədə nəzərdə tutulan obyektlərin birinin üzərində gözəçarpan yerdə münasib ölçüdə beton və ya metaldan hazırlanmış xatirə lövhəsinin asılmasını öz öhdəsinə götürür.

Bənd 4.04. Borcalan Layihənin və yaxud onun hər hansı hissəsinin həyata keçirilməsi üçün məsuliyyət daşıyan Departament və Borcalanın digər departamentləri, eləcə də agentliklərinin Layihə ilə əlaqədar əməliyyatlarının, ehtiyatlarının və xərclərinin sağlam mühasibatlıq təcrübəsinə uyğun həyata keçirildiyini əks etdirmək məqsədilə hesabat-sənədləşmə işlərini müvafiq şəkildə aparacaqdır.

Bənd 4.05. Borcalan, Layihə tamamlandıqdan dərhal sonra, lakin hər bir halda Son Müddət Tarixindən və yaxud Fondun bu məqsədlə təyin edə biləcəyi sonrakı tarixdən etibarən on iki aydan gec olmayaraq Layihənin icrası və ilkin istismara verilməsi, eləcə də onun xərcləri, əldə olunmuş və olunacaq mənfəətləri, Borc Sazişi çərçivəsində Borcalan tərəfindən öhdəliklərinin yerinə yetirilməsi və Kreditin məqsədlərinin əldə olunmasına dair Layihənin Tamamlanması Haqda Hesabatı Fond tərəfindən tələb olunan münasib forma və təfsilatda hazırlayacaq və Fonda təqdim edəcəkdir.

Maddə 5

Fond tərəfindən görülən tədbirlər

Bənd 5.01. Aşağıdakı əlavə hallar Ümumi Şərtlərin 6.02-ci bəndində göstərilmiş məqsədlər üçün (f) paraqrafına müvafiq olaraq müəyyənləşdirilir:

i) Bu paraqrafın (ii) yarımparaqrafına müvafiq olaraq:

A) Müqavilənin şərtlərinə əsasən, Borcalanın Layihənin maliyyələşdirilməsi üçün ona ayrılmış hər hansı bir kredit məbləğindən çıxarılması hüququ tam və ya qismən dondurulacaq, ləğv ediləcək və yaxud dayandırılacaqdır və yaxud,

B) hər hansı bir kredit razılaşdırılmış ödəniş müddətindən əvvəl ödəniləcək və ödənişə münasib olacaqdır.

ii) Bu paraqrafın (i) yarımparaqrafı, Fonda Borcalan tərəfindən onu qane edən aşağıdakılardan ibarət əsaslı dəlillər təqdim olunarsa, tətbiq olunmur: (A) bu Saziş çərçivəsində belə dondurulma, ləğv edilmə və dayandırılma, yaxud vaxtın uzadılması hallan Borcalanın öz öhdəliklərini yerinə yetirməməsi üzündən yaranmadığı təqdirdə və (B) bu Saziş çərçivəsində Borcalanın öhdəliklərinə uyğun olan şərtlərə əsasən Layihənin həyata keçirilməsi üçün ona digər mənbələrdən vəsait aynlarsa.

Bənd 5.02. Ümumi Şərtlərin 7.01-ci bəndində göstərilmiş məqsədlər üçün d) paraqrafına uyğun olaraq aşağıdakı hal müəyyənləşdirilir, yəni bu Sazişin 5.01-ci bəndinin (i) (B) paraqrafında müəyyən edilmiş hər hansı bir hal yarana bilər.

Maddə 6

Qüvvəyə minmə tarixi; Xitamvermə

Bənd 6.01. Saziş imzalandığı tarixdən etibarən altı ay müddəti Ümumi Şərtlərin 12.04-cü bəndində nəzərdə tutulmuş məqsədlər üçün müəyyən edilir.

Maddə 7

Borcalan nümayəndəsi, Ünvanlar

Bənd 7.01. Ümumi Şərtlərin 11.03-cü bəndində nəzərdə tutulmuş məqsədlər üçün Borcalanın maliyyə naziri Borcalanın nümayəndəsi təyin olunur.

Bənd 7.02. Ümumi Şərtlərin 11.01-ci bəndində nəzərdə tutulmuş məqsədlər üçün aşağıdakı ünvanlar müəyyən edilir:

Fond üçün

Səudiyyə İnkişaf Fondu
P.O.Box 50483
Riyad, 11523
Səudiyyə Ərəbistanı Krallığı
Teleks: 401145 SUNDOQ SC
Faks: +966-1-4647450

Borcalan üçün

Maliyyə Nazirliyi
Səməd Vurğun küç. 83
Bakı, 370022
Azərbaycan Respublikası
Tel/Faks: +994-12-493-93-98

Departament üçün

Nəqliyyat Nazirliyi
"Yolnəqliyyatservis" Departamenti
Bakı, Azərbaycan Respublikası
Tel/Faks: 994-12-493-60-09

Bunların təsdiqi olaraq, səlahiyyətli nümayəndələri vasitəsilə müvafiq şəkildə təmsil olunan Tərəflər öz adlarından Azərbaycan Respublikasının Bakı şəhərində yuxanda birinci qeyd edilmiş gün, ay və ildə, bu Sazişi ərəb dilin-də 2 əsl nüsxədə imzaladılar. Ümumi Şərtlərin ərəb dilində hazırlanmış bir nüsxəsi Borcalana verilmişdir.

SƏUDİYYƏ İNKİŞAF FONDU ADINDAN

YUSİF ƏL-BASSAM
Fondun vitse-prezidenti və icraçı direktoru

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

ZİYA MƏMMƏDOV
Nəqliyyat naziri

CƏDVƏL №1

Kredit vəsaitlərinin çıxarılması

(A) Aşağıdakı cədvəl Kredit vəsaiti hesabına maliyyələşdiriləcək kateqoriyaları, hər kateqoriya üzrə ayrılacaq kreditin məbləğini və hər bir kateqoriyada nəzərdə tutulmuş xərclərin faizini göstərir:

Kateqoriya		Ayrılacaq kreditin məbləği (Səudiyyə rialı ilə)	Maliyyələşdiriləcək xərclərin faizi
1	Tikinti işləri (Layihənin 1 hissəsi)	43,875,000	Ümumi xərclərinin 40%-i
2	Nəzərdə tutulmayan işlər	4,875,000	
Yekun		48,750,000	

(B) Yuxanda (A) paraqrafında qeyd edilmiş şərtlərə baxmayaraq, aşağıda verilənlər üçün çıxarışlar olmayacaqdır:

1) bu Sazişin imzalanma tarixindən əvvəl çəkilmiş xərclər üzrə;

2) mallar və yaxud xidmətlər, yaxud da onların daşınması, istehsalı, tədarükü və yaxud təchizatı üzrə Borcalan tərəfindən və yaxud onun ərazisində tətbiq ediləcək vergilərə;

(C) Kredit məbləğinin ayrılmasına və yaxud yuxanda (A) Paraqrafında qeyd edilmiş ödəniş faizlərinə baxmayaraq, əgər Fond dəqiq hesablamalardan sonra müəyyən kateqoriya üçün ayrılmış vəsaitin bu kateqoriyada ümumi xərclərin razılaş-

dırılmış faizini ödəməyə kifayət etməyəcəyini müəyyən etsə, Fond Borcalana bildirməklə:

(i) müəyyən edilmiş çatışmazlığı aradan qaldırmaq məqsədilə bölüşdürülməmiş qalacaq və yaxud nəzərdə tutulmayan vəsaitləri, həmçinin Fondun fikrincə digər xərcləri ödəmək üçün bu vəsaitlərə ehtiyac duyulmayacaqsa, o halda belə vəsaitləri bu kateqoriya üçün ayıra bilər və

(ii) əgər bu ayrılma müəyyən edilmiş çatışmazlığı tam aradan qaldıra bilməzsə, o halda bu kateqoriya üzrə bütün xərclər ödənilənə qədər bu kateqoriya üzrə vəsaitlərin çıxarılmasını davam etdirmək məqsədilə sonradan bu xərclərə tətbiq edilməklə xərcləmə faizini azalda bilər.

CƏDVƏL №2

Layihənin təsviri

Layihənin məqsədi ümumi uzunluğu 50 km olan, 2.7 km hissəsi dörd zolaqlı, qalan hissəsi iki zolaqlı olacaq Yevlax-Gəncə avtomobil yolunun yenidən qurulması və tikintisi vasitəsilə Azərbaycanın şimal-qərb hissəsində ticarətin aparılmasını asanlaşdırmaq və həmçinin bu regionu sosial və iqtisadi cəhətdən inkişaf etdirməkdən ibarətdir.

Layihə aşağıdakı komponentlərdən ibarətdir:

1) avtomobil yolunun yenidən qurulması və tikintisi, həmçinin körpülər, suötürücü borularla bağlı və digər təhlükəsizlik işləri daxil olmaqla tikinti işlərinin həyata keçirilməsi.

2) Layihənin nəzərdən keçirilməsi, tender sənədlərinin hazırlanması və layihəyə texniki nəzarət işindən ibarət Məsləhətçisi xidmətlərinin həyata keçirilməsi.

3) Torpaq alınması işləri.

4) Layihə İşçi Qrupunun yaradılması.

Layihənin ümumi qiyməti 31,46 milyon ABŞ dolları məbləğindədir, bu da təxminən 117,975 milyon Səudiyyə rialına bərabərdir.

Layihənin 2009-cu il dekabr ayının sonuna qədər tamamlanması gözlənilir.

CƏDVƏL № 3

Borcun geri ödənilməsi

Ödəmə №-si	Ödəmə tarixi	Ödəmə məbləği (Səudiyyə rialı ilə)	Ödəmə №-si	Ödəmə tarixi	Ödəmə məbləği (Səudiyyə rialı ilə)
1	15 iyun 2012	1 625 000.00	16	15 dekabr 2019	1 625 000.00
2	15 dekabr 2012	1 625 000.00	17	15 iyun 2020	1 625 000.00
3	15 iyun 2013	1 625 000.00	18	15 dekabr 2020	1 625 000.00
4	15 dekabr 2013	1 625 000.00	19	15 iyun 2021	1 625 000.00
5	15 iyun 2014	1 625 000.00	20	15 dekabr 2021	1 625 000.00
6	15 dekabr 2014	1 625 000.00	21	15 iyun 2022	1 625 000.00
7	15 iyun 2015	1 625 000.00	22	15 dekabr 2022	1 625 000.00
8	15 dekabr 2015	1 625 000.00	23	15 iyun 2023	1 625 000.00
9	15 iyun 2016	1 625 000.00	24	15 dekabr 2023	1 625 000.00
10	15 dekabr 2016	1 625 000.00	25	15 iyun 2024	1 625 000.00
11	15 iyun 2017	1 625 000.00	26	15 dekabr 2024	1 625 000.00
12	15 dekabr 2017	1 625 000.00	27	15 iyun 2025	1 625 000.00
13	15 iyun 2018	1 625 000.00	28	15 dekabr 2025	1 625 000.00
14	15 dekabr 2018	1 625 000.00	29	15 iyun 2026	1 625 000.00
15	15 iyun 2019	1 625 000.00	30	15 dekabr 2026	1 625 000.00
			Yekun:		48 750 000.00

Kredit müqavilələrinə tətbiq edilən Ümumi Şərtlər

(Fondun Direktorlar Şurasının 11/14 №-li qərarı ilə qəbul edilmişdir. Hicri tarixi ilə 29 Rəcəb 1396-cı il, Miladi tarixi ilə 26 iyul 1976-cı il)

Maddə 1

Ümumi Şərtlərin kredit müqavilələrinə tətbiqi

Bənd 1.01. Ümumi Şərtlərin tətbiq olunması. Müəyyən qayda və şərtlərdən ibarət olan Ümumi Şərtlər ümumi olaraq Səudiyyə İnkişaf Fondu tərəfindən verilən kreditlərə tətbiq edilir. Bu şərtlər bu cür kredit ayrılmasını nəzərdə tutan hər hansı bir kredit müqaviləsinə tətbiq edilir.

Bənd 1.02. Kredit müqavilələri ilə uyğunsuzluq. Əgər bu kredit müqaviləsinin hər hansı şərti Ümumi Şərtlərlə uyğunsuzluq təşkil edirsə, kredit müqaviləsinin şərti əsas götürülür.

Maddə 2

İzahlar, başlıqlar

Bənd 2.01. İzahlar. Ümumi Şərtlərdə istifadə edilən aşağıdakı terminlərin mənası belədir:

1. Fond dedikdə Səudiyyə İnkişaf Fondu başa düşülür.
2. Kredit Müqaviləsi termini bu Ümumi Şərtlərin tətbiq ediləcəyi hansısa bir müəyyən kredit müqaviləsidir, bu şərtlər həmçinin kredit Müqaviləsinə olan əlavələrə və cədvəllərə də tətbiq edilir.
3. Kredit termini Kredit Müqaviləsində nəzərdə tutulan krediti bildirir.
4. Borcalan dedikdə, Kredit Müqaviləsinə tərəfdar olan ölkənin təmsil olunduğu Hökumət nəzərdə tutulur.
5. Səudiyyə rialı və ya rial dedikdə Səudiyyə Ərəbistanı Krallığının pul vahidi başa düşülür.
6. Kredit məbləği termini alan tərəf - Borcalanın adına Fondun sənədləri üzrə açılan kredit hesabını nəzərdə tutur.
7. Layihə termini Kredit Müqaviləsində göstərildiyi kimi, icrası kredit ayrılan layihə və ya proqramı nəzərdə tutur, Fond və Borcalan arasındakı müqaviləyə əsasən, onun məzmununa vaxtaşırı düzəlişlər edilə bilər.
8. Mallar termini layihə üçün lazım olan avadanlıq, təchizat, işlər və digər xidmətləri nəzərdə tutur: malların dəyəri isə onların Borcalanın ölkəsinə idxal edilməsi üçün sərf olunan xərcləri ifadə edir.
9. Qüvvəyə minmə tarixi Kredit Müqaviləsinin 12.03-cü bənddə verildiyi kimi qüvvəyə minmə və qüvvədə olma tarixini bildirir.
10. Vergilər termini Kredit Müqaviləsinin qüvvədə olma tarixi müddətində hər hansı yığım, rüsum və vergiləri nəzərdə tutur.
11. Son tarix Kredit Müqaviləsində göstərilən tarixdir, Fond Borcalana bildirməklə Borcalanın Kredit hesabında qalan məbləği çıxarmaq hüququnu dayandıra bilər.

Bənd 2.02. İstinadlar. Ümumi Şərtlərdə istinad edilən maddələr və bəndlər bu Ümumi Şərtlərin maddələri və bəndləridir.

Bənd 2.03. Başlıqlar. Maddələrin və bəndlərin başlıqları və mündəricat yalnız istinad olunması üçün daxil edilib və bu Ümumi Şərtlərin tərkib his-səsi deyildir.

Maddə 3

Kredit hesabı: kredit faizi və digər xərclər; Geri ödəmə; Ödəmə yeri

Bənd 3.01. Kredit hesabı. Kredit məbləği kredit hesabına köçürülür və bu hesabdan Kredit Müqaviləsinə, bu Ümumi Şərtlərə və Fondun müəyyənləşdirdiyi əməliyyat prosedurlarına uyğun olaraq Borcalan tərəfindən çıxarılır.

Bənd 3.02. Kredit faizi və digər xərclər.

a) Borcalan ödənilmiş və yerdə qalan vəsaitin əsas məbləği daxilində vaxtaşırı

Kredit Müqaviləsində nəzərdə tutulan dərəcədə kredit faizi ödəyəcək. Kredit faizi məbləğlərin çıxarıldığı tarixdən üst-üstə yığılır.

b) Borcalan hər il 5.02 bəndinə uyğun olaraq Fondun tətbiq etdiyi hər hansı xüsusi öhdəlik üzrə əsas məbləğin bir faizinin 0,5-i qədərində əlavə faiz ödəməlidir (1%-in 1/2-i).

Bənd 3.03. Kredit faizi və digər xərclərin hesablanması. Kredit faizi və digər xərclər 30 gündən ibarət 12 ay olmaqla, yəni 360 gün əsasında bir il-dən az müddətə hesablanmalıdır.

Bənd 3.04. Geri ödəmə.

a) Borcalan Kredit Müqaviləsinin geri ödəmə cədvəlinə uyğun olaraq Kredit Hesabından çıxarılan əsas məbləği geri ödəməlidir.

b) Borcalanın bütün kredit faizlərinin və digər xərclərin ödənilməsindən sonra və 45 gündən az olmayaraq Fonda bildiriş göndərməklə, geri ödəmə vaxtından əvvəl olaraq qabaqcadan I) yerdə qalan kreditin əsas məbləğinin hamısını və ya II) hər hansı müəyyən məbləğin hamısını geri ödəmək hüququ var, belə olan halda əvvəlcədən ödəniş tarixinə qədər, kreditin ödənilməli olan qalıq hissələri qalmamalıdır.

Bənd 3.05. Ödəniş yeri. Əsas məbləğ, kredit faizi və digər xərclər Fondun müəyyənləşdirdiyi yerlərdə ödənilməlidir.

Maddə 4

Valyuta şərtləri

Bənd 4.01. Vəsait çıxarmalarının həyata keçiriləcəyi valyuta.

a) Kredit üzrə ödəmələr Səudiyyə rialı ilə aparılacaq.

b) Fond onun təmsil olunduğu nümayəndəsi kimi, Borcalanın xahişi ilə kredit hesabından çıxarılan və kredit məbləği ilə ödənişləri aparmaq üçün belə valyutaları ala bilər, bunlar Səudiyyə Ərəbistanı Valyuta Agentliyinin əməliyyatlarında istifadə edilən valyutalar olmalıdır.

Bənd 4.02. Əsas məbləğ, kredit faizi və digər xərclərin ödəniləcəyi valyuta.

a) Kreditin əsas məbləği, kredit faizi və digər xərclər Səudiyyə rialı ilə ödənilməlidir.

b) Fond onun təmsil olunduğu nümayəndə kimi, Borcalanın xahişi ilə əsas kreditin, kredit faizinin və digər xərclərin Kredit Müqaviləsi əsasında geri ödənilməsi üçün Fondun qəbul etdiyi valyuta və ya valyutalarla Borcalana kifayət qədər Rial verə bilər. Fond ödənişi rialla qəbul etdiyi halda, Borcalanın Kredit Müqaviləsi əsasında tələb olunan ödənişi yerinə yetirməsi məqbul hesab edilir.

Bənd 4.03. Valyutaların dəyərləndirilməsi. Kredit Müqaviləsinin məqsədi üçün müvafiq valyutanın digər valyutaya nisbətən məzənnəsini müəyyənləşdirmək lazım gəldikdə, bu, Səudiyyə Ərəbistanı Valyuta Agentliyinin müəyyənləşdirdiyi dəyər əsasında qiymətləndirilməlidir.

Maddə 5

Kredit hesabından vəsait çıxarılması

Bənd 5.01. Kredit hesabından vəsait çıxarılması. Kredit Müqaviləsinə və bu Ümumi Şərtlərə uyğun olaraq, Borcalana kredit hesabından Fond qaydaları və prosedurları əsasında məbləğ çıxarmaq səlahiyyəti verilir.

Bənd 5.02. Fondun üzərinə götürdüyü xüsusi öhdəlik. VI maddəyə uyğun olaraq, Borcalan və ya Fond tərəfindən olan hər hansı bir dayandırma və ya ləğvetmə halına baxmayaraq, tərəflər arasında razılaşdırılmış şərtlər daxilində və Borcalanın xahişinə əsasən, Fond Borcalana Kredit Müqaviləsi əsasında maliyyələşdirilən xərclərin ödənilməsi üçün məbləğ ayrılması barədə öz üzərinə, yazılı surətdə xüsusi öhdəlik götürə bilər.

Bənd 5.03. Kreditdən vəsait çıxarma və ya xüsusi öhdəlik üçün müraciət. 5.02-ci bəndə əsasən, Borcalan kredit hesabından hər hansı məbləği çıxarmaq istədikdə və ya Fonddan üzərinə hər hansı bir xüsusi öhdəlik götürməyi xahiş etdikdə, Borcalan Fondun tərtib etdiyi bəndlər və razılaşmalardan ibarət ərizə formasını doldurub Fonda təqdim edir. Layihə xərclərinə aid məbləğ çıxarmaq üçün xahişlər bu bənddə *verilmiş* müvafiq sənədlərlə birgə təqdim edilməlidir.

Bənd 5.04. Vəsaitin çıxarılması üçün müraciət etmək səlahiyyətini təsdiq edən sənədlər. Borcalan bu cür formada vəsaitin çıxarılması üçün müraciət ərizəsini imzalayacaq şəxs və ya şəxslərin səlahiyyətini təsdiq edən də-lilləri və həmin şəxsin imza nümunəsini Fonda təqdim etməlidir.

Bənd 5.05. Əsaslandırıcı dəlillər. Fondun xahiş edəcəyi təqdirdə, Borcalan qeyd olunan sənədləri və əsaslandırıcı dəlillər təqdim etməlidir. Ərizə ilə xahiş edilən vəsaitin çıxarılmasına razılıq verməmişdən əvvəl və hətta ondan sonra Fondun bu cür sənəd və dəlilləri tələb etmək hüququ vardır.

Bənd 5.06. Müraciət ərizələrinin və sənədlərin əsaslandırılması. Fondu qanc etmək üçün hər bir müraciət ərizəsi, müvafiq sənədlər və digər dəlillər forma və məzmunca əsaslandırılmalıdır ki, Borcalana kredit hesabından məbləğ çıxarmaq və onu Kredit Müqaviləsinin məqsədləri üçün istifadə etmək səlahiyyəti verilsin.

Bənd 5.07. Ayrılan məbləğin Fond tərəfindən ödənişi. Fond kredit hesabından Borcalana ayrılan məbləği yalnız Borcalana və onun xahişinə əsasən ödəməlidir.

Maddə 6

Ləğvetmə və dayandırılma

Bənd 6.01. Borcalan tərəfindən ləğvetmə. Borcalan Fonda bildirməklə kreditin qalan məbləğini ləğv edə bilər, yalnız bu hal 5.02-ci bənddə göstərilmiş xüsusi öhdəlik əsasında alınmış kreditə şamil olunmur.

Bənd 6.02. Fond tərəfindən dayandırılma. Əgər aşağıda göstərilmiş hallardan hər hansı biri yaranıbsa və artıq mövcud olaraq davam edirsə, Fond Borcalana bildirməklə onun kredit hesabından vəsait çıxarma hüququnu tam və ya qismən dayandıra bilər.

a) Fond və Borcalan arasında imzalanmış Kredit Müqaviləsi və ya digər kredit razılaşması daxilində Borcalan əsas məbləği, kredit faizini və ya digər ödənişləri yerinə yetirə bilmədikdə;

b) Borcalan Kredit Müqaviləsi daxilində hər hansı bir öhdəliyi yerinə yetirə bilmədikdə;

c) Borcalan bu Müqavilə çərçivəsində öz öhdəliklərini icra edə bilmədiyi təqdirdə Fondun hər hansı müqavilə daxilində Borcalanın vəsait çıxarma hüquqlarını tam və ya qismən dayandırdıqda;

d) Kredit Müqaviləsinin başlandığı tarixdən, Layihənin icrasına və Borcalanın üzərinə düşən öhdəliklərin yerinə yetirilməsinə maneçilik törədən fövqəladə hallar yarandıqda;

e) Kredit Müqaviləsinin imzalandığı tarixdən sonra və qüvvəyə minmə tarixindən əvvəl, hətta Kredit Müqaviləsinin qüvvəyə mindiyi tarixdə, Fonda Borcalanın kredit hesabından vəsait çıxarmaq hüququnu dayandırmağa imkan verən hallar yarandıqda;

f) Kredit Müqaviləsində müəyyən edilən hər hansı bir digər hal özünü büruzə verdikdə.

Belə halların mövcud olduğu ərəfədə və Borcalanın öz hüquqlarını bərpa etməsi barədə Fonda bildiriş təqdim olunmayana qədər, Borcalanın Kredit Hesabından vəsait çıxarmasının tam və ya qismən şəkildə dayandırılması davam etdirilir; lakin bildiriş təqdim olunan zaman çıxarışlar etmək hüququnun bərpa olunması üçün müvafiq şərtlər yazıda göstərilməlidir, əks təqdirdə heç bir bildiriş bu bənddə verilən müvafiq hal ilə əlaqədar Fondun hər hansı hüququna, səlahiyyətinə təsir edə və ya onları zəiflədə bilməz.

Bənd 6.03. Fond tərəfindən ləğvetmə.

a) Əgər Borcalanın Kredit Hesabından vəsait çıxarmaq hüququ davamlı olaraq 60 gün ərzində dayandırılıbsa və ya

b) Borcalanla məsləhətləşəndən sonra Fond ayrılmış Kredit məbləğinin Layihə xərclərinə sərf edilməsinə ehtiyac olmadığını müəyyənləşdirərsə və yaxud

c) son tarixdən sonra Kredit Hesabında çıxarılmamış vəsait qalarsa, Fond Borcalana bildirməklə onun bu hesabdan vəsait çıxarmaq hüquqlarını dayandıra bilər. Bu bildirişin verilməsindən sonra kredit məbləği ləğv edilir.

Bənd 6.04. Fond tərəfindən ləğvetmə və ya dayandırılmanın təsir etmədiyi xüsusi öhdəlik əsasında ödənilən məbləğlər. 5.02-ci bəndə uyğun olaraq Fond tərəfindən ləğvetmə və ya dayandırılma halları Fondun tətbiq etdiyi xüsusi öhdəlik əsasında ödənilən məbləğə şamil olunmur.

Bənd 6.05. Ləğvetmə işinin kreditin geri ödənilməsinə tətbiq olunması. Tərəflər arasında başqa cür razılaşdırılmayıbsa, hər hansı bir ləğvetmə proseduru proporsional olaraq əsas kredit vəsaiti üzrə müxtəlif geri ödəmə məbləğlərinə tətbiq edilməli və ləğvetmədən sonra yerinə yetirilməli olan ödə-mələrə şamil edilməlidir.

Bənd 6.06. Dayandırılma və ləğvetmədən sonra müqavilə şərtlərinin qüvvədə olması. Hər hansı bir ləğvetmə və ya dayandırılmaya baxmayaraq, Kredit Müqaviləsində nəzərdə tutulan bütün şərtlərin etibarlılığı və effektivliyi dəyişməz qalır.

Maddə 7

Geri ödəmə müddətinin sürətləndirilməsi

Bənd 7.01. Sürətləndirmə halları. Aşağıda verilən hallardan hər hansı biri qarşıya çıxdıqda və aşağıda verilən müddətdə davam etdikdə, Fond, öz növbəsində, Borcalana dildirməklə kredit faizi və digər xərclərlə birgə ödənilməli olan məbləği elan etməlidir və bu cür bildirişə əsasən əsas məbləğ, kredit faizi və digər xərclər dərhal ödənilməlidir:

a) mövcud Kredit Müqaviləsi əsasında əsas məbləğin, kredit faizinin və digər xərclərin ödənilməsində defolt (borcalan ödəməkdən imtina) yaranarsa və bu, 60 gün müddətində davam edərsə;

b) Fond və Borcalan arasında bağlanan hər hansı bir Kredit Müqaviləsi əsasında əsas məbləğin, kredit faizinin və digər xərclərin ödənilməsində defolt yaranarsa və bu, 60 gün müddətində davam edərsə;

c) Kredit Müqaviləsi əsasında Borcalan tərəfindən öhdəliklərin hər hansı birinin yerinə yetirilməsində defolt yaranırsa və bu, Fond tərəfindən Borcalana bildiriş göndərəndən sonra 90 gün ərzində davam edərsə;

d) bu bənddə göstərilən məqsədlərə əməl etmək üçün Kredit Müqaviləsi əsasında digər hallar yaranarsa və müəyyən müddətdə davam edərsə.

Maddə 8

Vergi və məhdudiyyətlər, Fondun toxunulmazlığı və imtiyazları

Bənd 8.01. Vergilər.

a) Kreditin əsas məbləği, kredit faizi və digər xərclər Borcalanın ərazisində hər cür vergi və rüsumlardan azad olmalıdır. Belə vergilər olsa belə, onlar Borcalan tərəfindən ödənilməlidir.

b) Kredit Müqaviləsi Borcalanın ərazisində rəsmiləşdirmə, icra və qeydiyyatla əlaqədar bütün vergi və rüsumlardan azad edilməlidir.

Bənd 8.02. Məhdudiyyətlər. Kreditin əsas məbləği, kredit faizi və digər xərclər Borcalanın ərazisində mövcud tətbiq olunan qanunların yarada biləcəyi məhdudiyyətlərdən azad olmalıdır.

Bənd 8.03. Sənədləşdirmə və rabitə imtiyazları. Fondun bütün sənədləri, qeydlər və yazışmalar və buna oxşar materiallar Borcalan tərəfindən məxfi sayılmalıdır. Borcalan Fondu bütün sənəd nəşrlərinin yoxlanılması və senzura üçün lazım olan tam azadlıqla təmin etməlidir.

Bənd 8.04. Mülkiyyət toxunulmazlığı. Borcalanın ərazisində Fondun bütün mülkiyyəti, aktivləri və gəlirləri müsadirə və bir sıra bu kimi vasitələrdən azad olaraq toxunulmazdır.

Maddə 9

Əməkdaşlıq və məlumat mübadiləsi

Bənd 9.01. Əməkdaşlıq və məlumat mübadiləsi

a) Fond və Borcalan kreditin məqsədlərinin tam şəkildə həyata keçirilməsinə təminat vermək üçün əməkdaşlıq etməlidirlər. Ona görə də: I) Fond və Borcalan vaxtaşırı onların hər hansı birinin xahişi ilə və nümayəndələri vasitəsilə Layihənin mövcud inkişaf vəziyyəti, əldə edilən mənfəətlər və Kredit Müqaviləsində nəzərdə tutulan öhdəliklərin icrası və kreditə aid digər məsələlərlə bağlı məlumat mübadiləsi apara bilərlər; II) Fond və Borcalan vaxtaşırı olaraq hər hansı bir Tərəfin xahişinə əsasən digər Tərəfi Layihənin hazırkı iş vəziyyəti, əldə olunan mənfəətlərə və Kreditin ümumi statusuna dair məlumatla təmin etməlidir.

b) Layihənin inkişafına və kreditin məqsədlərinin reallaşdırılmasına (Layihə xərclərində əhəmiyyətli artım da daxil olmaqla) dair məsələlərdə Fond və Borcalan, yəni Tərəflərdən hər hansı biri Kredit Müqaviləsi daxilində üzərinə düşən öhdəliklərin icra edilməsinə çətinlik törədən hər hansı bir təhlükə və maneə barədə qarşı Tərəfi dərhal xəbərdar etməlidir.

c) Kreditə aid məsələlərlə bağlı Fondun akkreditə edilmiş nümayəndələrinin Borcalanın ölkəsinin hər hansı bir bölgəsinə səfəri üçün şərait yaradılmalıdır.

d) Borcalan Fondun akkreditə edilmiş nümayəndələrinin kredit məsələsi ilə əlaqədar Borcalanın ölkəsinə səfər etməsi üçün yaradılmış lazımi şəraiti artırmalı və bu nümayəndələr üçün diplomatik missiya nümayəndələri üçün nəzərdə tutulan toxunulmazlıq verilməlidir.

Maddə 10

Kredit Müqaviləsinin hüquqi gücə malik olması: hüquqların həyata keçirilməməsi (onlardan istifadə olunmaması); Arbitrasiya

Bənd 10.01. Kredit Müqaviləsinin hüquqi gücə malik olması. Borcalanın mövcud qanunlarına və ya onun hər hansı inzibati ərazi vahidlərinə baxmayaraq, Kredit Müqaviləsi əsasında Fondun və Borcalanın hüquq və öhdəlikləri etibarlı sayılır və hüquqi gücə malikdir. Nə Bank, nə də Borcalan heç bir şəraitdə hər hansı bir səbəb üzündən Kredit Müqaviləsinin və ya onun Ümumi Şərtlərinin etibarsızlığı barədə tələb irəli sürə bilər.

Bənd 10.02. Hüquqların həyata keçirilməməsi (onlardan istifadə olunmaması). Hər hansı bir Tərəf Kredit Müqaviləsi daxilində öhdəlikləri yerinə yetirmədikdə (pul ödənişlərindən boyun qaçırma), qarşı Tərəf malik olduğu hüquq və səlahiyyətləri, eləcə də müvafiq ölçü-götürmə vasitələrini reallaşdır-maq üçün yubanma və etinasızlığa yol verərsə, bu, onun malik olduğu hüquq və səlahiyyətlərə mənfi təsir etmir və ya onları zəiflətmir və yaxud bu, həmin Tərəfin öz hüquq və səlahiyyətlərini həyata keçirmək, müvafiq tədbirlər görmək işindən imtina etməsi kimi hesab olunmur və yaxud hər hansı bir ödəmədən boyun qaçırma halına qarşı susması razılıq əlaməti sayılmır. Eləcə də, qarşı Tərəf hər hansı boyun qaçırma halına qarşı iddia irəli sürməzsə, ona xas olan hüquq və səlahiyyətlər öz gücünü saxlayır.

Bənd 10.03. Arbitrasiya. Kredit Müqaviləsi Tərəfləri arasındakı hər hansı ziddiyyət və ya Kredit Müqaviləsinin bir Tərəfinin digər Tərəf üzərində hər hansı tələbi Tərəflərin razılığı ilə həll olunur və bu razılıq əldə edilmədikdə ziddiyyət və ya tələb aşağıda göstərilən Arbitraj Məhkəməsinə təqdim edilir:

a) Arbitraj Məhkəməsi aşağıdakı kimi təyin olunan 3 arbitrdən ibarət olmalıdır. Bi-

rinci arbitr - Bank tərəfindən, ikinci arbitr Borcalan tərəfindən və üçüncü arbitr (burada Superarbitr adlandırılacaq) Tərəflərin razılığı ilə və ya onlar razılığa gələ bilmədikdə. İslam Konfransı Təşkilatının Prezidenti tərəfindən təyin edilməlidir. Əgər Tərəflərdən hər hansı biri arbitr təyin edə bilmirsə, digər Tərəfin xahişi ilə bu arbitr İslam Konfransı Təşkilatının Prezidenti tərəfindən təyin edilə bilər. Əgər bu bəndə əsasən təyin edilmiş arbitr istefa versə, ölsə və ya fəaliyyət göstərə bilməsə, onu əvəz edəcək arbitr eyni qayda ilə təyin edilməli və əvvəlki arbitrin vəzifə və səlahiyyətlərini daşımalıdır.

b) Bu bəndə əsasən arbitrasiya qaydaları iddiası olan Tərəfin digər Tərəfə bildiriş göndərməsi ilə tətbiq edilə bilər. Bu bildirişdə yaranan ziddiyyətin mahiyyəti və ya arbitrasiyaya təqdim ediləcək tələbi, lazım olan köməyi və bu prosedurları irəli sürən Tərəfin təyin etdiyi arbitrin adı əks etdirilməlidir. Belə bildirişdən sonra 30 gün ərzində digər Tərəf bu prosedurları irəli sürən Tərəfə öz arbitrinin adını bildirməlidir.

c) Əgər arbitrasiya prosedurlarının tətbiqi ilə əlaqədar bildirişdən sonrakı 60 gün ərzində arbitrlər razılığa gələ bilmirlərsə, hər hansı Tərəf bu bəndin a) hissəsində verildiyi kimi, Superarbitrin təyin olunmasını xahiş edə bilər.

d) Arbitraj Məhkəməsi Superarbitrin təyin etdiyi vaxtda və yerdə çağırılmalıdır. Bundan sonra Arbitraj Məhkəməsi çağırışın nə vaxt və harada keçiriləcəyini müəyyən etməlidir.

e) Arbitraj Məhkəməsi öz səlahiyyəti dairəsində bütün məsələləri həll etməli və bu bəndin şərtlərinə və Tərəflərin qərarına əsasən proseduru müəyyənləşdirməlidir. Arbitraj Məhkəməsinin bütün qərarları səs çoxluğu ilə qəbul edilməlidir.

f) Arbitraj Məhkəməsi hər iki Tərəfə açıq dinləmə imkanı yaratmalı və qərarları yazılı surətdə verməlidir. Boyun qaçırma halları zamanı belə qərar çıxanla bilər. Arbitraj Məhkəməsinin əksəriyyəti tərəfindən imzalanan qərar Məhkəmənin qərarı sayılmalıdır. Qərarın imzalanmış surəti hər bir Tərəfə verilməlidir. Bu bəndin şərtlərinə uyğun verilən hər hansı bir qərar Kredit Müqaviləsinin Tərəfləri üçün son vacib qərar hesab edilir. Hər bir Tərəf bu qərara tabe olmalı və ona riayət etməlidir.

g) Tərəflər arbitrlərin və arbitrasiya prosedurlarının aparılması üçün tələb edilən şəxslərin ödəniş məbləğini müəyyən etməlidirlər. Əgər Arbitraj Məhkəməsinə qədər Tərəflər məbləğ barədə qərara gələ bilməsələr, Arbitraj Məhkəməsi vəziyyətə uyğun müvafiq məbləğ təyin edə bilər. Hər bir Tərəf arbitrasiya prosedurları üçün öz xərclərini ödəməlidir. Arbitraj Məhkəməsinin

xərcləri Tərəflər arasında bərabər bölünməlidir. Arbitraj Məhkəməsi üçün xərclərin bölünməsi və ödənilməsinə dair məsələlər Arbitraj Məhkəməsi tərəfindən müəyyənləşdirilir.

h) Arbitraj Məhkəməsi Səudiyyə Ərəbistanı Krallığında tətbiq edilən qaydaları və qanunları və bərabərlik prinsiplərini tətbiq etməlidir.

i) Bu bənddə verilən arbitrasiya qaydaları Kredit Müqaviləsinin Tərəfləri arasında olan ziddiyyətləri və bir Tərəfin qarşı Tərəfə olan hər hansı tələbi ilə bağlı mə-

sələlərin digər yolla həlli proseduralarını əvəz edə bilər.

j) Bu bəndə əsasən hər hansı bir prosedurla bağlı bildiriş və ya iş prosesi ilə əlaqədar göstərilən xidmətlər 11.01-ci bənddə göstərilən qaydada aparılmalıdır. Kredit Müqaviləsində təmsil olunan Tərəflər bu cür bildiriş və ya iş prosesi ilə bağlı göstərilən xidmətin hər hansı birindən və ya hamısından imtina edə bilərlər.

Maddə 9

Müxtəlif şərtlər

Bənd 11.01. Bildirişlər və xahişlər. Kredit Müqaviləsi çərçivəsində tələb edilən və ya icazə verilən hər hansı bir bildiriş və ya xahiş yazlı surət-də olmalıdır. 12.03-cü bənddə nəzərdə tutulduğu kimi, heç bir istisna halı olmadıqda, belə bildiriş və ya xahiş şəxsən və ya qeydiyyata salınmış poçt ilə, teleqramla, teleks və ya radioqramla tələb edilən və yaxud icazə verilən di-gər Tərəfə çatdırılmalıdır ki, bu da öz növbəsində həmin Tərəfin Kredit Müqaviləsində göstərilən ünvanına və ya bildirişdə göstərdiyi ünvana göndərilmiş hesab edilir.

Bənd 11.02. Borcalanın adından müstəqil qərar vermək üçün əsaslandırıcı dəlil. Kredit Müqaviləsinə əsasən, müstəqil qərar vermək və sənədləri rəsmiləşdirmək üçün ondan tələb edilməklə və yaxud icazə verilməklə, Borcalan öz adından sənədlərin rəsmiləşdirilməsini həyata keçirəcək şəxs və ya şəxslərə verilən səlahiyyət barədə Fonda kifayət qədər dəlillər və həmin şəxsin imzasını təqdim etməlidir.

Bənd 11.03. Borcalan tərəfindən görülən tədbirlər:

a) Bu bənddə göstərilən məqsədlər üzrə Kredit Müqaviləsinə uyğun olaraq, müstəqil qərar vermək və sənədlərin rəsmiləşdirilməsi üçün Borcalandan tələb edilməklə və yaxud icazə verilməklə, bu iş Borcalanın Kredit Müqaviləsində göstərilən nümayəndəsi və ya onun tərəfindən yazılı surətdə səlahiyyət verilən digər şəxs tərəfindən aparıla bilər.

b) Kredit Müqaviləsi şərtlərinə edilən hər hansı bir dəyişiklik və ya əlavə Borcalanın adından onun yazılı səlahiyyəti ilə bu yarımbəndin a) hissəsində göstərilən hər hansı səlahiyyətli nümayəndəsi tərəfindən razılaşdırıla bilər; bu nümayəndənin fikrincə, edilən düzəliş və ya əlavələr şərtlərə uyğundur və Kredit Müqaviləsi çərçivəsində Borcalanın öhdəliklərini bir o qədər də artırmır. Yekun nəticə etibarilə, Fond bu nümayəndənin və ya digər səlahiyyətli şəxsin icrasını məqbul hesab edir; çünki bu nümayəndənin rəyinə görə, Kredit Müqaviləsi şərtlərinə edilən hər hansı dəyişiklik və ya əlavə mövcud vəziyyətə uyğundur və Borcalanın öhdəliklərini əhəmiyyətli dərəcədə artırmır.

Bənd 11.04. Kredit Müqaviləsinin nüsxələri. Kredit Müqaviləsi bir neçə nüsxədə rəsmiləşdirilə bilər ki, onların da hər biri orijinal sayılır.

Maddə 12

Qüvvəyə minmə tarixi; Kredit Müqaviləsinin dayandırılması

Bənd 12.01. Kredit Müqaviləsinin qüvvəyə minməsi üçün şərtlər. Fondu qane edəcək dəlil təqdim edilməyənə qədər Kredit Müqaviləsi qüvvəyə minmir;

a) Kredit Müqaviləsinin Borcalanın adından rəsmiləşdirilməsi və onun təminatına lazımi hökumət və digər orqanlar tərəfindən icazə verilib və təsdiq edilib.

b) Qüvvəyə minmə şərtləri kimi, Kredit Müqaviləsində müəyyənləşdirilən digər bütün ballar meydana gəlib.

Bənd 12.02. Hüquqi rəylər və sertifikatlar. 12.01-ci bəndə uyğun olaraq, əgər Fond xahiş edirsə, Fondun məqbul hesab etdiyi dövlət hüquq rəsmisinin rəyi və rəyləri təqdim edilməli olan dəlillərin bir hissəsi kimi, Fondu qane edirsə, Borcalan adından səlahiyyətli hüquq rəsmisinin sertifikatı Fonda təqdim edilməlidir.

Bu sertifikatda:

a) Kredit Müqaviləsinə icazə verilməsi və ya onun təsdiq edilməsi, rəsmiləşdirilməsi və Borcalanın adından göndərilməsi və eləcə də Borcalanın onun şərtlərinə hüquqi əməl edəcəyi haqda; və

b) Kredit Müqaviləsində müəyyənləşdirilən və ya Fond tərəfindən xahiş edilən digər məsələlər göstərilməlidir.

Bənd 12.03. Qüvvəyə minmə tarixi.

a) Fond və Borcalan tərəfindən digər şərt irəli sürülmürsə, 12.01-ci bəndə uyğun olaraq, Kredit Müqaviləsi Fondun Borcalana dəlillərin qəbul edilməsi ilə bağlı göndərdiyi bildirişdə qeyd olunan tarixdə qüvvəyə minir.

b) Qüvvəyə minmə tarixindən əvvəl, hətta Kredit Müqaviləsi imzalandıqda belə, Fonda Borcalanın Kredit Hesabından vəsait çıxarma hüququnu dayandırmağa əsas verən hər hansı bir hal yarandıqda və bu hal aradan qaldırılana qədər, Fond razılıq əlaməti olaraq, bu bəndin a) paraqrafında qeyd edildiyi kimi, öz tərəfindən bildiriş göndərilməsini təxirə sala bilər.

Bənd 12.04. Qüvvəyə minmədikdə Kredit Müqaviləsinin dayandırılması. Əgər Kredit Müqaviləsi bu müqavilədə göstərilən vaxta qədər qüvvəyə minmirsə, Fond həmin tarixdən sonra istədiyi vaxt Borcalana bildirməklə, Kredit Müqaviləsini dayandıra bilər. Belə bildiriş göndəriləndən sonra Kredit Müqaviləsi və Tərəflərin öhdəlikləri avtomatik surətdə dayandırılır.

Bənd 12.05. Tam ödəmə əsasında Kredit Müqaviləsinin dayandırılması. Kredit Hesabından çıxarılan kreditin bütöv əsas məbləği, bütün kredit faizləri və digər xərclər ödənildən sonra Kredit Müqaviləsi və Tərəflərin digər öhdəlikləri qüvvədən düşmüş hesab olunur.

"Ev heyvanlarının mühafizəsi haqqında" Avropa Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Ev heyvanlarının mühafizəsi haqqında" 1987-ci il noyabrın 13-də Strasburq şəhərində imzalanmış Avropa Konvensiyası Azərbaycan Respublikasının ona dair qeyd-şərti ilə təsdiq edilsin (qeyd-şərtin mətni əlavə olunur).

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 may 2007-ci il

№354-IIIQ

Ev heyvanlarının mühafizəsi haqqında Avropa Konvensiyası

Bu Konvensiyanı imzalayan Avropa Şurasının üzv dövlətləri,

Avropa Şurasının əsas məqsədinin onun üzvləri arasında daha sıx birliyə nail olmaqdan ibarət olduğunu nəzərə alaraq,

bütün canlılara hörmətlə yanaşmağın insan üçün mənəvi bir borc olduğunu etiraf edərək və ev heyvanlarının insana xüsusi münasibətinin olmasını nəzərə alaraq,

ev heyvanlarının insanın həyat tərzinə keyfiyyətcə təsir göstərməsinin əhəmiyyətini və nəticə etibarilə cəmiyyətə verdiyi dəyəri nəzərə alaraq,

insanın çoxlu sayda müxtəlif növ heyvan saxladıqda çətinliklərlə üzləşməsini nəzərə alaraq,

ev heyvanlarının sayca çoxalmasının insanların və digər heyvanların gigiyenası, təhlükəsizliyi və sağlamlığı üçün təhlükə yaratdığını nəzərə alaraq,

vəhşi fauna növlərinin ev heyvanları kimi saxlanılmasının təşviq edilməsinin məqsədəuyğun olmadığını nəzərə alaraq,

ev heyvanlarının alınmasını, saxlanılmasını, kommersiya və qeyri-kommersiya məqsədilə damazlığı və satılmasını nizamlayan müxtəlif şərtlərdən xəbərdar olaraq,

ev heyvanlarının heç də həmişə onların sağlamlığını və normal yaşayışını təmin edən şəraitdə saxlanılmadığından xəbərdar olaraq,

bəzi hallarda məhdud bilik və məlumat üzündən ev heyvanlarına çox fərqli münasibət bəsləndiyini vurğulayaraq,

məsuliyyətli ev heyvanı sahibinin meydana gəlməsi ilə nəticələnən əsas ümumi standart mövqelərin və təcrübələrin nəinki arzu olunan, həm də real məqsəd olduğunu nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Fəsil I

ÜMUMİ MÜDDƏALAR

Maddə 1. Anlayışlar

1. Ev heyvanı dedikdə, insanın xüsusilə ev şəraitində fərdi zövq almaq və yoldaşlıq münasibətləri yaratmaq üçün saxladığı heyvan nəzərdə tutulur.

2. Ev heyvanları ilə ticarət dedikdə, heyvanlar üzərində mülkiyyət hüququnun başqasına keçməsini özündə ehtiva edən, gəlir əldə olunması üçün heyvanların kütləvi satışı məqsədilə həyata keçirilən bütün mütəmadi ticarət sövdələşmələri nəzərdə tutulur.

3. Ev heyvanlarının kommersiya məqsədilə saxlanılması və damazlığı dedikdə, heyvanların gəlir məqsədilə kütləvi artırılması nəzərdə tutulur.

4. Heyvanlar üçün sığınacaq dedikdə, çoxlu sayda heyvan saxlanıla biləcək qeyri-kommersiya xarakterli yer nəzərdə tutulur. Əgər milli qanunvericilik və/və ya inzibati tədbirlər buna imkan verirsə, belə sığınacaq sahibsiz heyvanları da qəbul edə bilər.

5. Sahibsiz heyvan dedikdə, küçədə, yaxud sahibinin evindən kənar ərazidə yaşayan, sahibinin nəzarəti altında olmayan ev heyvanı nəzərdə tutulur.

6. Səlahiyyətli orqan dedikdə, üzv dövlət tərəfindən təyin olunan dövlət orqanı nəzərdə tutulur.

Maddə 2. Əhatə dairəsi və həyata keçirilmə

1. Hər bir Tərəf bu aşağıdakılara münasibətdə Konvensiyanın müddəalarının həyata keçirilməsi üçün zəruri olan tədbirlərin yerinə yetirilməsi öhdəliyini öz üzərinə götürür:

a) fiziki və ya hüquqi şəxs tərəfindən ev təsərrüfatında, ticarət məqsədilə və kommersiya yönümlü yetişdirmə və yerləşdirmə məqsədilə ayrıca yerdə və heyvan sığınacağında saxlanılan ev heyvanlarına;

b) zəruri hallarda sahibsiz heyvanlara.

2. Bu Konvensiyanın heç bir müddəası heyvanların müdafiəsinə və ya nəsli kəsilməkdə olan vəhşi heyvan növlərinin mühafizəsinə dair digər sənədlərin həyata keçirilməsinə mane olmur.

3. Bu Konvensiyanın heç bir müddəası Tərəflərin ev heyvanlarını mühafizə etmək üçün daha ciddi tədbirlər görməsinə və ya Konvensiyada açıq şəkildə qeyd olunmamış heyvan kateqoriyalarına Konvensiyanın müddəalarını tətbiq etmək azadlığına mane olmur.

Fəsil II

EV HEYVANLARININ SAXLANMASI PRİNSİPLƏRİ

Maddə 3. Heyvanların rifahının əsas prinsipləri

1. Heç bir kəs ev heyvanına lüzumsuz ağrı, əzab və ya zərər verə bilməz.

2. Heç bir kəs ev heyvanını çölə ata bilməz.

Maddə 4. Saxlama

1. Ev heyvanını saxlayan və ya ona baxmaq üçün razılıq verən hər bir kəs bu heyvanın sağlamlığına və rifahına görə məsuliyyət daşıyır.

2. Ev heyvanını saxlayan və ya ona baxan hər bir kəs həmin heyvanın növünə və cinsinə uyğun olaraq yaşayışı üçün yer ayırmalı, təbii tələbatlarını nəzərə alaraq ona diqqət və qayğı göstərməlidir, xüsusən də:

a) ona lazımi və kifayət qədər yem və su verməli;

b) təlim üçün adekvat imkanları təmin etməli;

c) onun qaçmaması üçün bütün lazımi tədbirlər görməlidir.

3. Heyvan aşağıdakı hallarda ev heyvanı kimi saxlanıla bilməz:

a) 2-ci bənddə qeyd olunan şərtlərə riayət edilməzsə;

b) həmin şərtlərə riayət edilməsinə baxmayaraq, heyvan əsarətdə yaşamağa uyğunlaşa bilməzsə.

Maddə 5. Damazlıq

Heyvanı damazlıq üçün götürən hər bir kəs onun balasının və dişi heyvanın sağlamlığına zərər vura bilən anatomik, fizioloji və davranış xüsusiyyətlərinin düzgün nəzərə alınması üçün məsuliyyət daşıyır.

Maddə 6. Sahib olma üçün yaş həddi

Heç bir ev heyvanı 16 yaşa çatmamış şəxsə, həmin şəxsin valideynlərinin və ya onu himayə edən şəxslərin aşkar razılığı olmadan satıla bilməz.

Maddə 7. Təlim

Heç bir ev heyvanı onun sağlamlığına və rifahına zərər vura biləcək üsullarla təlim edilməməlidir, xüsusən, əgər bu təlimlər heyvana ağrı verən, onun təbii imkanlarından və gücündən artığına məcbur edilməklə, lüzumsuz ağrı, zərər və əzab verən vasitələrdən istifadə edilərək aparılırsa.

Maddə 8. Heyvanların ticarət, kommersiya məqsədilə saxlanılması və damazlığı, heyvanlar üçün sığınacaqlar

1. Konvensiyanın qüvvəyə minməsi zamanı ev heyvanlarının ticarəti, yaxud kommersiya məqsədilə saxlanılması və ya damazlığı ilə məşğul olan, yaxud heyvan sığınacağı saxlayan hər bir şəxs Tərəflərin müəyyən etdiyi vaxtda səlahiyyətli orqanları bu haqda məlumatlandırmalıdır.

Bu fəaliyyət növləri ilə məşğul olmaq istəyən hər bir kəs əvvəlcədən bu niyyətini səlahiyyətli orqana bəyan etməlidir.

2. Bəyannamədə aşağıdakılar qeyd olunmalıdır:

a) bu fəaliyyətə cəlb olunan və ya cəlb olunacaq ev heyvanı növləri;

b) məsul şəxs və onun bilik səviyyəsi;

c) istifadə edilən və ya istifadə ediləcək yerin və avadanlığın təsviri.

3. Yuxanda qeyd olunan fəaliyyət növləri yalnız aşağıdakı hallarda həyata keçirilə bilər:

a) əgər məsul şəxs bu işlə məşğul olmaq üçün tələb olunan zəruri bilik və bacarıqlara peşəkar hazırlıq nəticəsində, yaxud ev heyvanları ilə işləmək sahəsində qazandığı təcrübə əsasında yiyələnibsə;

b) əgər seçilmiş yer və işlədilən avadanlıq 4-cü maddədə qeyd olunan tələblərə cavab verirsə.

4. Səlahiyyətdi orqan 1-ci bəndin müddəalarına uyğun olaraq verilən bəyannamə əsasında 3-cü bənddə qeyd edilmiş şərtlərə riayət olunub-olunmadığını təyin etməlidir. Həmin şərtlərə adekvat şəkildə riayət olunmadıqda, səlahiyyətli orqan zəruri tədbirlərin görülməsini məsləhət görür, lazım gəldikdə heyvanların rifahı üçün bu fəaliyyətə başlamağı və ya onun davam etdiril-məsini qadağan edir.

Maddə 9. Reklamlar, əyləncələr, sərgilər, yarışlar və oxşar tədbirlər

1. Aşağıdakı hallarda ev heyvanlarından reklam, əyləncə, sərgi və yarışlarda, habelə oxşar tədbirlərdə istifadə edilə bilməz:

a) təşkilatçılar ev heyvanları üçün Konvensiyanın 4-cü maddəsinin 2-ci bəndinin tələblərinə cavab verən lazımi şəraiti yaratmayıblarsa;

b) ev heyvanlarının sağlamlığı və rifahı təhlükə altına qoyulursa.

2. Aşağıda qeyd olunan hallarda ev heyvanlarının təbii imkanlarının artırılması, yaxud azaldılması məqsədilə onlara preparatların verilməsinə, tibbi və texniki üsulların tətbiqinə yol verilmir:

a) yarış vaxtı;

b) heyvanın sağlamlığı və rifahı üçün təhlükə yarada bilən digər hallarda.

Maddə 10. Cərrahiyyə əməliyyatları

1. Ev heyvanlarının xarici görkəmini dəyişmək məqsədilə və ya başqa qeyri-müalicəvi məqsədlərlə keçirilən cərrahiyyə əməliyyatları qadağan edilir, xüsusilə:

a) quyruğun kəsilməsi;

b) qulaqların kəsilməsi;

c) səsin batırılması;

d) dırnaq və dişlərin çıxardılması.

2. Bu qadağalardan istisnalar yalnız aşağıdakı hallarda ola bilər:

a) baytarın rəyinə görə qeyri-müalicəvi proses heyvanın faydası üçün və ya baytar-tibbi baxımdan lazımdırsa;

b) axtalamaq məqsədilə.

3. a) Əməliyyat zamanı heyvan şiddətli ağrılar keçirməli olacaqsa, bu əməliyyatlar anesteziya edilməklə yalnız baytar tərəfindən və ya onun şəxsi nəzarəti altında həyata keçirilməlidir.

b) Anesteziya tələb olunmayan əməliyyatlar dövlətdaxili qanunvericiliyə uyğun olaraq səlahiyyətli şəxs tərəfindən edilə bilər.

Maddə 11. Heyvanın həyatına son qoyma

1. Heyvanın əziyyətlərinə son qoymaq üçün baytar və ya başqa səlahiyyətli şəxsin köməyindən təcili istifadə etmək mümkün olmadığı hallar və ya ölkə qanunvericiliyində nəzərdə tutulan digər fövqəladə hallar istisna olmaqla, yalnız baytar və ya başqa səlahiyyətli şəxs heyvanın həyatına son qoya bilər. Heyvanın həyatına son qoyma şəraitə uyğun olaraq heyvana minimum fiziki və mənəvi əziyyət və ağrı verməklə aparılmalıdır. Heyvanın həyatına son qoymaq üçün seçilən üsul, fövqəladə halları istisna etməklə:

a) dərhal huşunu itirməklə və ya ölümlə nəticələnməlidir, yaxud da;

b) nəticə etibarilə heyvanın dəqiq ölümünə səbəb olacaq dərin narkoz verilməklə başlamalıdır.

Heyvanın həyatına son qoyan şəxs heyvanın cəmdəyini yox etməzdən əvvəl onun öldüyünə tam əmin olmalıdır.

2. Heyvanın həyatına son qoymağın aşağıdakı üsulları qadağan olunur:

a) 1.b. yarımbəndində qeyd olunan nəticələr verməyən suda boğma və digər boğma üsullarından istifadə;

b) dozası və tətbiqi 1-ci bənddə qeyd olunan nəticələr verəcəyinə təminat olmayan zəhərli maddələrdən və ya dərmanlardan istifadə;

c) heyvanın dərhal huşunu itirməsi ilə başlanmayan elektrik cərəyanından istifadə.

Fəsil III

SAHİBSİZ HEYVANLAR ÜÇÜN ƏLAVƏ TƏDBİRLƏR

Maddə 12. Sayın azaldılması

Tərəf sahibsiz heyvanların sayının onun üçün problemlər yaratdığını hesab etdiyi halda, o, heyvanları yol verilməməsi mümkün olan əziyyətlərə, ağrılara və ya narahatlığa məruz qoymadan onların sayını azaltmaq üçün zəruri qanunvericilik tədbirləri və/və ya inzibati tədbirlər həyata keçirir.

a) Bu tədbirlər aşağıdakı tələbləri əks etdirməlidir:

(i) bu cür heyvanların tutulması gərəkdirsə, onlar minimum fiziki və mənəvi əziyyətlər verilməklə tutulmalı;

(ii) tutulan heyvanların sığınacaqda saxlanılması və ya evtanaziya edilməsi bu Konvensiyanın prinsipləri əsasında həyata keçirilməli;

b) Tərəflər aşağıdakı tədbirlərin baxılması öhdəliyini qəbul edirlər:

(i) it və pişiklərin, tatuirovka və sahiblərinin adlan və ünvanlan ilə birlikdə nömrələrinin reyestrə salınması kimi cüzi ağrı verən və ya heç bir davamlı ağrı verməyən üsullarla daimi qeyd olunmasının təmin edilməsi;

(ii) it və pişiklərin sayının planlaşdırılmamış artımının axtalama vasitə-silə azaldılması;

(iii) sahibsiz it və pişikləri tapan insanların səlahiyyətli orqanlara müraciət etmələrinin təşviq olunması.

Maddə 13. Heyvanların tutulması, saxlanılması və onların həyatına son qoyulmasına dair istisnalar

Sahibsiz heyvanların tutulması, saxlanılması və onların həyatına son qoyulmasına dair bu Konvensiyada nəzərdə tutulmuş prinsiplərdən istisnalar yalnız xəstə heyvanların sayına nəzarət üzrə milli proqram çərçivəsində labüd olduğu hallarda edilə bilər.

Fəsil IV

İNFORMASİYA VƏ MAARİFLƏNDİRMƏ

Maddə 14. İnformasiya və maarifləndirmə proqramları

Tərəflər qeyd edilmiş ev heyvanlarının saxlanılması, damazlığı, təlimi, ticarəti və himayəsi ilə məşğul olan təşkilatların və fiziki şəxslərin Konvensiyanın müddəaları və prinsip-

ləri barədə məlumatlandırılması və maarifləndirilməsi məqsədilə informasiya və maarifləndirmə proqramlarının həyata keçirilməsini təşviq etməyi öz üzərinə götürürlər.

Bu proqramlarda xüsusilə aşağıdakı məsələlərə diqqət yetirilməlidir:

a) ev heyvanlarının kommersiya və ya yarış məqsədilə təliminin bu sahədə bilik və bacarığa malik olan şəxslər tərəfindən aparılması tələbi;

b) aşağıdakı hallara yol verilməməsi tələbi:

(i) ev heyvanlarının 16 yaşa çatmamış şəxslərə, həmin şəxsin valideynlərinin və ya onları himayə edən şəxslərin aşkar razılığı olmadan hədiyyə kimi verilməsinə;

(ii) ev heyvanlarının mükafat təltif və ya bonus kimi hədiyyə verilməsinə;

(iii) ev heyvanlarının sayının planlaşdırılmadan çoxaldılmasına;

c) vəhşi heyvanların ev heyvanları kimi alındığı və saxlanıldığı təqdirdə bunun onların sağlamlığı və normal yaşayışı üçün doğura biləcəyi mümkün mənfi nəticələr;

d) arzuolunmaz və sahibsiz heyvanların sayının artmasına gətirib çıxaran ev heyvanlarına məsuliyyətsiz sahiblik riski.

Fəsil V

ÇOXTƏRƏFLİ MƏSLƏHƏTLƏŞMƏLƏR

Maddə 15. Çoxtərəfli məsləhətləşmələr

1. Tərəflər Konvensiyanın qüvvəyə minməsindən sonrakı beş il ərzində və bundan sonra hər beş ildən bir və Tərəflərin nümayəndələrinin çoxunun tələb etdiyi hər bir halda Konvensiyanın necə həyata keçirildiyini, onun müddəalarının yenidən nəzərdən keçirilməsinin və ya genişləndirilməsinin məqsədəuyğun olub-olmadığını yoxlamaq məqsədilə Avropa Şurası çərçivəsində çoxtərəfli məsləhətləşmələr aparmalıdırlar. Bu məsləhətləşmələr Avropa Şurasının Baş katibi tərəfindən çağırılan toplantılarda aparılır.

2. Bu məsləhətləşmələrdə iştirak etmək üçün hər bir Tərəf öz nümayəndəsini təyin etmək hüququna malikdir. Konvensiyanın iştirakçısı olmayan Avropa Şurasının hər bir üzv dövləti həmin məsləhətləşmələrdə müşahidəçi ilə təmsil olunmaq hüququna malikdir.

3. Hər məsləhətləşmədən sonra Tərəflər məsləhətləşmənin gedişi və Konvensiyanın icrası barədə, o cümlədən Tərəflərin lazım bildiyi təqdirdə Konvensiyanın 15-23-cü maddələrinə düzəlişlərə dair təkliflər haqqında Avropa Şurasının Nazirlər Komitəsinə hesabat təqdim edirlər.

4. Tərəflər Konvensiyanın müddəalarını nəzərə almaqla, məsləhətləşmələrə dair prosedur qaydalarını hazırlayırlar.

Fəsil VI

DÜZƏLİŞLƏR

Maddə 16. Düzəlişlər

1. Tərəflərdən hər hansı birinin və ya Nazirlər Komitəsinin 1-14-cü maddələrə təklif

etdiyi düzəlişlər Avropa Şurasının Baş katibinə çatdırılır və onun tərəfindən Avropa Şurasının üzvü olan ölkələrə, Tərəflərə və 19-cu maddənin müddəalarına əsasən Konvensiyaya qoşulmaq üçün dəvət olunan hər bir dövlətə təqdim edilir.

2. Əvvəlki bəndin müddəalarına əsasən təklif olunan hər bir düzəliş Baş katibin bu düzəlişi bütün Tərəflərə təqdim etdiyi tarixdən etibarən iki aydan gec olmayaraq keçirilən çoxtərəfli məsləhətləşmədə baxılır və Tərəflərin 2/3 hissəsinin razılığı olduqda qəbul edilir. Qəbul edilmiş mətn Tərəflərə göndərilir.

3. Hər bir düzəliş çoxtərəfli məsləhətləşmədə qəbul edildikdən on iki ay sonra Tərəflərin en azı birinin etirazı olmadığı halda qüvvəyə minir.

Fəsil VII

YEKUN MÜDDƏALAR

Maddə 17. İmzalanma, ratifikasiya, qəbul, təsdiq

Bu Konvensiya Avropa Şurasının üzvü olan ölkələrin imzalaması üçün açıqdır. O, ratifikasiya, qəbul və ya təsdiq olunmalıdır. Ratifikasiya, qəbul və ya təsdiq sənədləri saxlanılmaq üçün Avropa Şurasının Baş katibinə verilir.

Maddə 18. Qüvvəyə minmə

1. Bu Konvensiya onun 17-ci maddəsinin müddəalarına əsasən Avropa Şurasının üzvü olan dörd dövlətin onun məcburiliyinə razılıqlarını ifadə etdikləri tarixdən altı ay sonra gələn növbəti ayın birinci günü qüvvəyə minir.

2. Bundan sonra onun məcburiliyinə razılığını ifadə edən istənilən üzv dövlət üçün ratifikasiya, bu Konvensiya həmin dövlətin ratifikasiya, qəbul və ya təsdiq sənədlərini saxlanılmağa verdiyi tarixdən altı ay sonra gələn növbəti ayın birinci günü qüvvəyə minir.

Maddə 19. Üzv olmayan dövlətlərin qoşulması

1. Bu Konvensiya qüvvəyə mindikdən sonra Avropa Şurası Nizamnaməsinin 20d maddəsində göstərilən səs çoxluğu ilə və Razılığa gələn Tərəflərin Nazirlər Komitəsindəki nümayəndələrinin yekdil səsi ilə Avropa Şurasının Nazirlər Komitəsi Şuranın üzvü olmayan istənilən dövləti bu Konvensiyaya qoşulmağa dəvət edə bilər.

2. Konvensiya ona qoşulan istənilən üzv dövlətə münasibətdə, həmin dövlətin qoşulma sənədini Avropa Şurasının Baş katibinə saxlanılmağa verdiyi tarixdən altı ay sonra gələn növbəti ayın birinci günü qüvvəyə minir.

Maddə 20. Ərazi məsələsi

1. Hər bir ölkə Konvensiyam imzalayarkən və ya ratifikasiya, qəbul, təsdiq və ya qoşulma sənədini saxlanılmağa verərkən bu Konvensiyanın tətbiq olunacağı ərazini və ya əraziləri dəqiq müəyyən etməlidir.

2. Hər bir Tərəf sonradan istənilən vaxt Avropa Şurasının Baş katibinə ünvanlanmış bəyannamə vasitəsilə Konvensiyanın tətbiqini həmin bəyannamədə göstərilən digər ərazilərə genişləndirə bilər. Bu cür ərazilərə münasibətdə Konvensiya Baş katibin bu bəyannaməni aldığı tarixdən altı ay sonra gələn növbəti ayın birinci günü qüvvəyə minir.

3. Əvvəlki iki bəndə əsasən edilmiş hər bir bəyannamə, həmin bəyannamədə göstəri-

lən hər bir əraziyə münasibətdə Baş katibə ünvanlanmış bildiriş vasitəsilə geri götürülə bilər. Bəyannamənin geri götürülməsi Baş katibin hə-min bildirişi aldığı tarixdən altı ay sonra gələn növbəti ayın birinci günü qüvvəyə minir.

Maddə 21. Qeyd-şərtlər

1. Hər bir dövlət Konvensiyanı imzalayarkən və ya ratifikasiya, qəbul, təsdiq və ya qoşulma sənədini saxlanılmağa verərkən 6-cı maddənin və 10-cu maddənin 1-ci bəndinin (a) yarımbəndinə aid bir və ya daha çox qeyd-şərtlər edə bilər. Başqa heç bir qeyd-şərtə yol verilmir.

2. Əvvəlki bəndə əsasən qeyd-şərt etmiş hər hansı Tərəf Avropa Şurasının Baş katibinə ünvanlanmış bildiriş vasitəsilə etdiyi qeyd-şərti tamamilə, yaxud da qismən ləğv edə bilər. Qeyd-şərtin ləğvi Baş katibin bu bildirişi aldığı tarixdən qüvvəyə minir.

3. Konvensiyanın hər hansı bir müddəasına qeyd-şərt etmiş Tərəf hər hansı başqa Tərəfin həmin müddəanı tətbiq etməsini tələb edə bilməz. Bununla belə, Tərəfin etdiyi qeyd-şərt qismən və ya şərtidirsə, onda o, həmin müddəanın özü qəbul etdiyi şəkildə tətbiqini hər hansı başqa Tərəfdən tələb edə bilər.

Maddə 22. Denonsasiya

1. Hər hansı Tərəf istədiyi vaxt Avropa Şurasının Baş Katibinə ünvanladığı bildiriş vasitəsilə bu Konvensiyanı denonsasiya edə bilər.

2. Bu cür denonsasiya Baş katibin həmin bildirişi aldığı tarixdən altı ay sonra gələn növbəti ayın birinci günü qüvvəyə minir.

Maddə 23. Bildirişlər

Avropa Şurasının Baş katibi AVropa Şurasının üzvü olan dövlətlərə və bu Konvensiyaya qoşulan və ya ona qoşulmaq üçün dəvət olunan hər bir dövlətə aşağıdakılar haqqında məlumat verir:

a) hər hansı imzalama;

b) ratifikasiya, qəbul, təsdiq və ya qoşulma haqqında hər hansı sənədin saxlanca verilməsi;

c) 18, 19 və 20-ci maddələrə əsasən bu Konvensiyanın qüvvəyə mindiyi hər hansı tarix;

d) Konvensiya ilə bağlı hər hansı digər akt, bildiriş və ya məlumat.

Bunun təsdiqi olaraq, bu məqsədlə müvafiq qaydada səlahiyyətləndirilmiş aşağıda imza edənlər bu Konvensiyanı imzaladılar.

1987-ci il noyabrın 13-də Strasburq şəhərində hər iki mətn eyni hüquqi qüvvəyə malik olmaqla, ingilis və fransız dillərində bir nüsxədə imzalanmışdır. Əsl nüsxə saxlanılmaq üçün Avropa Şurasının arxivinə verilir. Avropa Şurasının Baş katibi Konvensiyanın təsdiq edilmiş nüsxələrini Avropa Şurasının üzvü olan hər bir dövlətə və bu Konvensiyaya qoşulmaq üçün dəvət olunan hər bir dövlətə təqdim edir.

"Ev heyvanlarının mühafizəsi haqqında Avropa Konvensiyasına dair Azərbaycan Respublikasının qeyd-şərti

Konvensiyanın 21-ci maddəsinin 1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası bəyan edir ki, Konvensiyanın 10-cu maddəsinin 1-ci bəndinin a. yarımbəndi Azərbaycan Respublikasında tətbiq olunmayacaqdır.

"Azərbaycan Respublikası Hökuməti ilə Koreya Respublikasının Şinhan Bankı arasında Yevlax-Gəncə Magistral Avtomobil Yolu Layihəsi üzrə" Kredit Sazişinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti ilə Koreya Respublikasının Şinhan Bankı arasında Yevlax-Gəncə Magistral Avtomobil Yolu Layihəsi üzrə" 2007-ci il aprelin 23-də Seul şəhərində imzalanmış Kredit Sazişi təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 31 may 2007-ci il

№355-IIIQ

Azərbaycan Respublikasının Türkiyə Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Z.A. Həşimovun, iqamətgahı Ankara şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Makedoniya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Türkiyə Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Zakir Arif oğlu Həşimov iqamətgahı Ankara şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Makedoniya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 iyun 2007-ci il

№2206

Azərbaycan Respublikasının Mərakeş Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri S.M. Ağabəyovun, iqamətgahı Rabat şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Seneqal Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Mərakeş Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri Sabir Məmməd oğlu Ağabəyov iqamətgahı Rabat şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Seneqal Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 iyun 2007-ci il

№2207

"Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında geodeziya, kartoqrafiya, kadastr, yerquruluşu, geoinformasiya sistemləri və Yerin məsafədən tədqiq edilməsi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında geodeziya, kartoqrafiya, kadastr, yerquruluşu, geoinformasiya sistemləri və Yerin məsafədən tədqiq edilməsi sahəsində əməkdaşlıq haqqında" 2007-ci il fevralın 22-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 iyun 2007-ci il

№360-IIIQ

Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında geodeziya, kartoqrafiya, kadastr, yerquruluşu, geoinformasiya sistemləri və Yerin məsafədən tədqiq edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Hökuməti və Moldova Respublikasının Hökuməti,

öz ölkələrinin sosial və iqtisadi inkişafı üçün geodeziya və kartoqrafiyanın inkişafının mühümlüyünü nəzərə alaraq,

Tərəflərin iqtisadi və sosial mənfəəti üçün şərait yaradan belə əməkdaşlıq nəticələrinin

tətbiqinin və geodeziya, kartoqrafiya, kadastr, yerquruluşu, geoinformasiya sistemləri və Yerin məsafədən tədqiq edilməsi sahəsində əməkdaşlığın hüquqi əsasını yaratmaq niyyətində olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər geodeziya, kartoqrafiya, kadastr, yerquruluşu, geoinformasiya sistemləri və Yerin məsafədən tədqiq edilməsi sahəsində əməkdaşlığı daha da inkişaf etdirəcəklər.

Əməkdaşlıq aşağıdakı istiqamətlər üzrə aparılacaqdır:

elmi-texniki və istehsalat məlumatları üzrə mübadilə;

geodeziya, kartoqrafiya, kadastr, yerquruluşu, geoinformasiya sistemləri və Yerin məsafədən tədqiq edilməsi sahəsində dövlət siyasətinin normativ hüquqi və metodoloji təminatı;

elmi tədqiqat, eksperimental, istehsalat və istismar işlərinin birgə həyata keçirilməsi;

geodeziya, kartoqrafiya, kadastr, yerquruluşu, geoinformasiya sistemləri və Yerin məsafədən tədqiq edilməsi sahəsi üzrə işlərin yerinə yetirilməsi üçün mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması;

geodeziya, kartoqrafiya, kadastr, yerquruluşu, geoinformasiya sistemləri və Yerin məsafədən tədqiq edilməsi sahəsində qarşılıqlı maraq doğuran məsələlər üzrə məlumatlar mübadiləsi, həmçinin onların rəsmi mətbuat orqanlarında nəşri;

ərazi mənsubiyyəti baxımından istinad geodeziya, kartoqrafiya və aerokosmik planaalma materiallarının ikitərəfli saziş əsasında mübadiləsi;

Tərəflərin məqsədəuyğun hesab etdiyi əməkdaşlığın digər istiqamətləri.

Maddə 2

Tərəflər, bu Sazişə uyğun olaraq, mübadilə ediləcək elmi-texniki məlumatların, kartoqrafiya materiallarının və digər sənədlərin açıq istifadəli olmasını nəzərdə tuturlar.

Tərəflər məhdud istifadəli material və məlumatların mübadiləsini öz dövlətlərinin qanunvericiliyinə uyğun olaraq müəyyən olunmuş qaydada yerinə yetirirlər.

Məhdud istifadəli məlumat və materialların mübadiləsində Tərəflər öz dövlətlərinin qanunvericiliyinə, ikitərəfli və çoxtərəfli müqavilələrə uyğun olaraq bu məlumatların qorunmasına təminat verirlər.

Maddə 3

Əməkdaşlıq aşağıdakı formalarda həyata keçiriləcəkdir:

bu Sazişin 1-ci maddəsində göstərilən bütün istiqamətlər üzrə birgə əməkdaşlıq proqramlarının və layihələrin hazırlanması və həyata keçirilməsi;

geodeziya, kartoqrafiya, kadastr, yerquruluşu, geoinformasiya sistemləri və Yerin məsafədən zondlanması sahəsi üzrə qanunvericilik və digər hüquqi normativ aktların, metodik, elmi-texniki ədəbiyyatların və başqa məlumatların mübadiləsi;

geodeziya, kartoqrafiya, kadastr, yerquruluşu, geoinformasiya sistemləri və aero-

kosmik planaalma üzrə elmi tədqiqat işlərinin və informasiya sistemlərinin yaradılması işlərinin birgə həyata keçirilməsi;

geodeziya, kartoqrafiya, kadastr, yerquruluşu, geoinformasiya sistemləri və Yerin məsafədən zondlanması sahəsində məsafədən təlimin təşkil edilməsi;

geodeziya, kartoqrafiya, kadastr, yerquruluşu, geoinformasiya sistemləri və Yerin məsafədən zondlanması sahəsində qanunvericilik və normativ hüquqi bazanın uyğunlaşdırılması.

Əməkdaşlıq bu Sazişin yerinə yetirildiyi müddətdə razılaşdırılmış digər formalarda da həyata keçirilə bilər.

Maddə 4

Bu Sazişin yerinə yetirilməsi üçün Tərəflər məsul olan səlahiyyətli orqanları təyin edir:

Azərbaycan Respublikası tərəfindən - Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi;

Moldova Respublikası tərəfindən - Torpaq Münasibətləri və Kadastr Agentliyi.

Digər səlahiyyətli məsul orqanın təyin edildiyi hallarda, Tərəflər bir-birlərini diplomatik kanallar vasitəsilə yazılı surətdə xəbərdar edirlər.

Maddə 5

Əməkdaşlığın maliyyə şərtləri və birgə layihələrin yerinə yetirilməsinə hər bir hal üçün Tərəflərin büdcə imkanları çərçivəsində baxılır.

Maddə 6

Tərəflər öz dövlətlərinin qanunvericiliklərinə uyğun olaraq, fəaliyyəti geodeziya, kartoqrafiya, kadastr, yerquruluşu, geoinformasiya sistemləri və Yerin məsafədən tədqiq edilməsi sahəsi ilə bağlı olan, hər iki dövlətin hüquqi şəxsləri arasında birbaşa əlaqələrin qurulmasına və inkişafına kömək göstərəcəklər.

Tərəflər bu Saziş əsasında bağlanmış müqavilələr (kontraktlar) çərçivəsində təsərrüfat subyektlərinin öhdəliklərinə görə məsuliyyət daşımırlar.

Maddə 7

Bu Saziş çərçivəsində birgə həyata keçirilən fəaliyyətdən əldə edilmiş nəticələr, Tərəflər arasında digər razılaşma olmadığı təqdirdə, üçüncü tərəfin hüquqi və fiziki şəxslərinə verilə və ya satıla bilməz.

Maddə 8

Bu Sazişin həyata keçirilməsi zamanı Tərəflər arasında yaranan fikir ayrılıqları Tərəflər arasında məsləhətləşmələr yolu ilə həll edilir.

Maddə 9

Bu Saziş Tərəflərin iştirakçısı olduğu beynəlxalq sazişlərdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 10

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan, Sazişin 11-ci

maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən və ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 11

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanır və Tərəflərdən biri bu Sazişin bağlandığı beş il müddətinin bitməsinə 6 ay qalmış digərini bu Sazişin qüvvəsinin ləğv edilməsi niyyəti barədə yazılı formada xəbərdar etməsə, avtomatik olaraq növbəti beş il müddətinə uzadılır.

Bu Saziş əsasında bağlanmış müqavilələr (kontraktlar) onların fəaliyyət müddəti bitənə qədər qüvvədə qalır.

Bu Saziş Bakı şəhərində 22 fevral 2007-ci il tarixində, iki əsl nüsxədə, hər biri Azərbaycan, moldov və rus dillərində imzalanmışdır, hər üç mətn eyni qüvvəyə malikdir.

Bu Sazişin ayrı-ayrı müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, rus dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

QƏRİB MƏMMƏDOV
Dövlət torpaq və xəritəçəkmə komitəsinin sədri

MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ANATOLİ SPİVAÇENKO
Kənd təsərrüfatı və yeyinti sənayesi nazirinin müavini

Azərbaycan Respublikası Prezidentinin və Polşa Respublikası Prezidentinin Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası Prezidentinin və Polşa Respublikası Prezidentinin 2007-ci il martın 30-da Bakı şəhərində imzalanmış Birgə Bəyannaməsi təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 iyun 2007-ci il

№361-IIIQ

Azərbaycan Respublikası Prezidentinin və Polşa Respublikası Prezidentinin Birgə Bəyannaməsi

Azərbaycan Respublikası Prezidenti və Polşa Respublikası Prezidenti,

Azərbaycan Respublikası və Polşa Respublikası arasında ənənəvi dostluq münasibətlərinin hərtərəfli əməkdaşlıq, etimad və qarşılıqlı hörmət əsasında inkişaf etdirilməsini

dəstəkləyərək,

Azərbaycan və Polşa arasında əməkdaşlığın Avrasiyada sülhün və stabilliyin möhkəmləndirilməsinə töhfə verəcəyini qeyd edərək,

Azərbaycan və Polşa arasında siyasi, iqtisadi, elm və mədəni sahələrdə balanslaşdırılmış ikitərəfli əməkdaşlığın zərurətini nəzərə alaraq,

aşağıdakıları bəyan edirlər:

Tərəflər iki ölkə arasında dostluq və qarşılıqlı faydalı ikitərəfli əlaqələrin gələcəkdə inkişaf etdirilməsinə və daimi əməkdaşlığın möhkəmləndirilməsi əzmində olduqlarına razılaşırlar;

Tərəflər Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında, xüsusilə Avropa Qonşuluq Siyasəti çərçivəsində əməkdaşlığın ikitərəfli əlaqələrdə vacib amil olduğunu təsdiqləyir və onun inkişafını dəstəklədiklərini ifadə edirlər;

Tərəflər dünyada sülhün və sabitliyin qorunmasında BMT və ATƏT kimi beynəlxalq təşkilatların və beynəlxalq hüququn ümumtanınmış prinsiplərinin vacibliyini qeyd edirlər. Onlar münaqişələrin beynəlxalq hüquq prinsiplərinə uyğun, dövlətlərin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına hörmət əsasında sülh yolu ilə həll edilməsini dəstəklədiklərini bildirirlər;

Tərəflər NATO ilə Azərbaycan arasında, xüsusilə də Fərdi Tərəfdaşlıq Fəaliyyət Planı çərçivəsində əməkdaşlığın və siyasi dialoqun inkişaf etdirilməsini dəstəklədiklərini ifadə edirlər;

Tərəflər enerji sahəsində Avropa İttifaqı və Azərbaycan arasında strateji tərəfdaşlığın əhəmiyyətini bildirir, həmçinin Mərkəzi Asiya - Cənubi Qafqaz - Mərkəzi Avropa nəqliyyat dəhlizinin yaradılmasına yönəlmiş infrastruktur layihələrinin dəstəklənməsi əzmini ifadə edirlər;

Tərəflər ikitərəfli iqtisadi əməkdaşlığın inkişafında Azərbaycanın ÜTT-yə üzvlüyünün əhəmiyyətini qeyd edirlər;

Tərəflər iki ölkə cəmiyyətlərinin bir-birinə yaxınlaşmasında, xüsusilə rabitə, turizm, sağlamlığın qorunması, təhsil, elm, mədəniyyət, ətraf mühit və humanitar məsələlər sahələrində tədbirlər görülməsi əzmini ifadə edirlər;

Tərəflər bu Birgə Bəyannamənin Azərbaycan və Polşa arasında ikitərəfli əlaqələrin səmərəliliyini təşviq edəcəyinə əminliklərini ifadə edirlər.

Bakı şəhərində 30 mart 2007-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, polyak və ingilis dillərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	POLŞA RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*LEX KAÇİNSKİ*

Ümumdünya Səhiyyə Təşkilatının Nizamnaməsinin 24-cü və 25-ci maddələrində edilmiş dəyişikliklərin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Ümumdünya Səhiyyə Təşkilatının 1946-cı il iyulun 22-də Nyu-York şəhərində imzalanmış Nizamnaməsinin 24-cü və 25-ci maddələrində 1998-ci il mayın 16-da Ümumdünya Səhiyyə Assambleyası tərəfindən edilmiş dəyişikliklər təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 iyun 2007-ci il

№362-IIIQ

Nizamnamənin 24 və 25-ci maddələrinə düzəlişlər

Əlli birinci Ümumdünya Səhiyyə Assambleyası,

Avropa regionunun və Qərbi Sakit Okean regionunun İcraiyyə Komitəsinə nümayəndə təyin etmək hüququ olan üzvlərinin sayını səkkizə və beşə kimi artırılması üçün İcraiyyə Komitəsində üzvlərin sayının müvafiq şəkildə 32-dən 34-dək artırılmalı olduğunu nəzərə alaraq,

1) Çin, ərəb, fransız, ingilis, ispan və rus dillərindəki mətnləri eyni qüvvəli olan Nizamnamənin 24 və 25-ci maddələrinə aşağıdakı dəyişiklikləri qəbul edir:

24-cü maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 24. Komitə Təşkilatın 34 üzvü tərəfindən təyin edilən otuz dörd nümayəndədən ibarətdir. Bərabər coğrafi bölgünü nəzərə alaraq, Səhiyyə Assambleyası Komitəyə öz nümayəndələrini təyin etmək hüququ olan üzvlər seçir. Həmin üzvlərdən ən azı üçü 44-cü maddəyə əsasən təsis edilmiş regional təşkilatların hər birindən seçiləcəkdir. Bu üzvlərdən hər biri Komitəyə səhiyyə sahəsində texniki bilik və səriştəyə malik olan bir nümayəndə təyin edir ki, onu da əvəzləyicilər və müşavirlər müşayiət edə bilərlər.";

25-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 25. Bu üzvlər üç il müddətinə seçilirlər və onlar təkrar seçilə bilərlər. Nəzərə alınmalıdır ki, bu Nizamnaməyə İcraiyyə Komitəsi üzvlərinin sayını 32-dən 34-ə qədər artıran düzəliş qüvvəyə mindikdən sonra keçirilən Səhiyyə Assambleyasının ilk sessiyasında əlavə olaraq seçilən üzvlərin səlahiyyət müddəti, lazım gəldikdə, hər il hər bir regional təşkilatdan ən azı bir üzvün seçilməsini təmin etmək üçün azaldıla bilər".

2) Qərara alır ki, bu qətnamənin iki nüsxəsinin həqiqiliyi əlli birinci Ümumdünya Səhiyyə Assambleyasının Sədri və Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunun imzaları ilə təsdiqlənəcək və onlardan biri Nizamnamənin depozitarisi olan Birləşmiş Millətlər Təşkilatının Baş katibinə göndəriləcək, bir nüsxəsi isə Ümumdünya Səhiyyə Təşkilatının arxivində saxlanılacaqdır.

3) Qərara alır ki, Nizamnamənin 73-cü maddəsinin müddəalarına uyğun

olaraq, Üzvlər tərəfindən bu düzəlişlərin qəbul edilməsi barədə bildiriş, Nizamnamənin 79-cu maddəsinin "b" bəndində göstərildiyi kimi, Nizamnamənin qəbulu üçün tələb olunan rəsmi sənədin Birləşmiş Millətlər Təşkilatının Baş katibinə saxlanılmağa verilməsi ilə qüvvəyə minəcəkdir.

16 may 1998-ci il

Ümumdünya Səhiyyə Təşkilatının Nizamnaməsi (Konstitusiyası) [1]

Bu Nizamnaməni qəbul edən dövlətlər Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə müvafiq olaraq bəyan edirlər ki, aşağıda göstərilən prinsiplər bütün xalqlar arasında xoşbəxtliyin və rəvan münasibətlərin bərqərar olması üçün və həmçinin dünya xalqlarının təhlükəsizliyi üçün əsas prinsiplərdir:

Sağlamlıq yalnız xəstəliklərin və fiziki qüsurların olmaması demək deyil, o, həmçinin insanın fiziki, ruhi və sosial rifah halı deməkdir.

Ən yüksək sağlamlıq səviyyəsinə nail olmaq, irqindən, dilindən, siyasi əqidəsindən, iqtisadi və ya sosial vəziyyətindən asılı olmayaraq, hər bir insanın əsas hüquqlarından biridir.

Bütün xalqların sağlamlığı sülhün və təhlükəsizliyin əldə olunması yolunda əsas amil olub, dövlətlərin və ayrı-ayrı şəxslərin tam əməkdaşlığından asılıdır.

Hər hansı bir dövlətin sağlamlığın yaxşılaşdırılması və qorunması sahəsində əldə etdiyi nailiyyətlər hamı üçün böyük dəyər kəsb edir və hamının sərvətidir.

Müxtəlif ölkələrdə səhiyyə sahəsində görülən tədbirlərin və xəstəliklərlə, xüsusilə də yoluxucu xəstəliklərlə aparılan mübarizənin qeyri-bərabər inkişafı bütün dünya xalqları üçün böyük təhlükə yaradır.

Hər bir uşağın sağlam inkişafı çox mühüm əhəmiyyətə malikdir; dəyişkən mühit şəraitində ahəngdar yaşamaq bacarığı bu inkişafın əsas şərtidir.

Bütün xalqların tibbin, psixologiyanın və onlara qohum elmlərin ən son nailiyyətlərindən istifadə etmək imkanının olması sağlamlığın ən yüksək səviyyəsinin əldə edilməsi üçün zəruri şərtlərdən biridir.

Maarifçi ictimai rəy və cəmiyyət tərəfindən göstərilən fəal əməkdaşlıq xalqın sağlamlıq vəziyyətinin yaxşılaşdırılması üçün son dərəcə mühümdür.

Hər bir hökumət öz xalqının sağlamlığı üçün məsuliyyət daşıyır və bu məsuliyyət səhiyyə və sosial xarakterli müvafiq tədbirlərin görülməsini tələb edir.

Razılığa gələn Tərəflər bu prinsipləri tanıyaraq, bütün xalqların sağlamlığının möhkəmləndirilməsi və qorunması sahəsində öz aralarında və başqaları ilə əməkdaşlıq etmək məqsədilə bu Nizamnaməni qəbul edir və beləliklə də, Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 57-ci maddəsinə əsasən Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış qurumu kimi Ümumdünya Səhiyyə Təşkilatını təsis edirlər.

Fəsil I

MƏQSƏDİ

Maddə 1

Bundan sonra "Təşkilat" adlandırılacaq Ümumdünya Səhiyyə Təşkilatının məqsədi bütün xalqlar arasında səhiyyənin mümkün qədər yüksək səviyyəsinə nail olmaqdır.

Fəsil II

FUNKSİYALARI

Maddə 2

Göstərilən məqsədə nail olmaq üçün Təşkilatın funksiyaları aşağıdakılardır:

a) beynəlxalq səhiyyə işində rəhbər və əlaqələndirici orqan kimi fəaliyyət göstərmək;

b) Birləşmiş Millətlər Təşkilatı, onun ixtisaslaşmış qurumları, səhiyyə üzrə hökumət strukturları, peşəkar qruplar və digər müvafiq təşkilatlarla effektiv əməkdaşlıq yaratmaq və onlara dəstək vermək;

c) hökumətlərin xahişi ilə səhiyyə xidmətinin təkmilləşdirilməsi işində onlara kömək göstərmək;

d) hökumətlərin xahiş və ya razılığı ilə onlara müvafiq texniki kömək və fövqəladə hallarda təcili yardım göstərmək;

e) Birləşmiş Millətlər Təşkilatının müraciəti ilə xüsusi qruplara, məsələn qəyyumluq altında olan ərazilərin əhalisinə lazımi səhiyyə xidmətləri göstərmək və ya göstərilməsinə kömək etmək;

f) tələb oluna biləcək inzibati və texniki xidməti, o cümlədən epidemioloji və statistik xidməti yaratmaq və saxlamaq;

g) yoluxucu, endemik və digər xəstəliklərə qarşı mübarizəni stimullaşdırmaq və inkişaf etdirmək;

h) lazım gələrsə, digər ixtisaslaşmış qurumlarla əməkdaşlıq şəraitində, bədbəxt hadisələrin qarşısını almağa kömək göstərmək; ,

i) lazım gələrsə, digər ixtisaslaşmış qurumlarla əməkdaşlıq şəraitində, qidalanma və həyat şəraitinin, sanitariya qaydalarının və istirahət şəraitinin, iqtisadi və əmək şəraitinin, eləcə də ətraf mühitin gigiyenik şəraitinin digər aspektlərinin yaxşılaşmasına kömək etmək;

j) səhiyyənin inkişafında iştirak edən elmi və peşəkar qruplar arasında əməkdaşlığa kömək etmək;

k) beynəlxalq səhiyyə məsələlərinə dair konvensiyalar, sazişlər və qaydalar təklif etmək, tövsiyələr vermək və bununla əlaqədar olaraq təşkilata həvalə edilə biləcək və onun məqsədlərinə uyğun gələn vəzifələri yerinə yetirmək;

l) ana və uşaq sağlamlığı və rifahı işinə kömək göstərmək, dəyişkən mühit şəraitində ahəngdar yaşamaq bacarığını aşılamaq;

m) psixiki sağlamlıq sahəsində görülən və insanlararası münasibətlərin ahəngi üçün böyük əhəmiyyəti olan işə dəstək vermək;

n) səhiyyə sahəsində tədqiqatların aparılmasına dəstək vermək;

o) səhiyyə və tibb sahələrində, habelə onlarla bağlı peşələrdə təhsil və hazırlıq standartlarının təkmilləşməsinə kömək etmək;

p) lazım gələrsə, digər ixtisaslaşmış qurumlarla əməkdaşlıq şəraitində, profilaktik və müalicəvi nöqteyi-nəzərdən ictimai səhiyyəyə və tibbi xidmətə təsir göstərən inzibati və sosial məsələləri, o cümlədən xəstəxana xidmətini və sosial təminat məsələlərini öyrənmək və bu haqda məruzələr təqdim etmək;

q) səhiyyə sahəsində informasiya və məsləhət vermək, kömək göstərmək;

r) bütün ölkələrdə səhiyyədən məlumatlı ictimai rəyin formalaşmasına kömək etmək;

s) xəstəliklərin, ölüm səbəblərinin və ictimai səhiyyə təcrübəsinin beynəlxalq nomenklaturunu müəyyənləşdirmək və lazım gəldikdə, yenidən nəzərdən keçirmək;

t) lazım gəldikdə, diaqnostika prosedurlarını standartlaşdırmaq;

u) qida, bioloji, əczaçılıq və analoji məhsullar üçün beynəlxalq standartların müəyyən edilməsinə, tətbiqinə və inkişafına kömək etmək;

v) bütövlükdə, Təşkilatın məqsədinə nail olmaq üçün bütün zəruri tədbirləri həyata keçirmək.

Fəsil III

TƏŞKİLATA ÜZVLÜK VƏ ASSOSİATİV ÜZVLÜK

Maddə 3

Təşkilata üzvlük bütün dövlətlər üçün açıqdır.

Maddə 4

Birləşmiş Millətlər Təşkilatının üzvləri öz konstitusion prosedurlarına və XIX fəslin müddəalarına uyğun olaraq bu Nizamnaməni imzalamaqla və ya qəbul etməklə Təşkilata üzv ola bilərlər.

Maddə 5

Nümayəndələri müşahidəçi kimi 1946-cı ildə Nyu-Yorkda keçirilən Beynəlxalq səhiyyə konfransına dəvət olunmuş dövlətlər öz konstitusion prosedurlarına və XIX fəslin müddəalarına uyğun olaraq bu Nizamnaməni imzalamaqla və ya qəbul etməklə Təşkilata üzv ola bilərlər, bu şərtlə ki, bu cür imzalama və ya qəbuletmə Səhiyyə Assambleyasının birinci sessiyasına qədər edilmiş olsun.

Maddə 6

Birləşmiş Millətlər Təşkilatı ilə Təşkilat arasında XVI fəslə uyğun olaraq təsdiq edilmiş hər hansı bir şərtləri nəzərə almaqla, 4 və 5-ci maddələrdə göstərilmiş qaydalara əsasən Təşkilatın üzvü olmamış dövlətlər Təşkilatın üzvlüyünə qəbul olmaq haqqında müraciət edə bilərlər və bu müraciət Səhiyyə Assambleyasında sadə səs çoxluğu ilə təsdiq olunduqdan sonra həmin dövlət Təşkilatın üzvü olur.

Maddə 7

Təşkilatın üzvü Təşkilat qarşısında olan maliyyə öhdəliklərini yerinə yetirmədikdə və ya digər xüsusi hallarda, Səhiyyə Assambleyası özünün düzgün hesab etdiyi şərtlər əsasında Təşkilatın üzvünü səsvermə və xidmət göstərmə hüququndan müvəqqəti olaraq məhrum edə bilər. Səsvermə və xidmət göstərmə hüququnu bərpa etmək Səhiyyə Assambleyasının səlahiyyətindədir.

Maddə 8

Öz beynəlxalq əlaqələri üçün məsuliyyət daşımayan ərazilər və ya ərazi qrupları bu cür ərazi və ya ərazi qruplarının adından onların beynəlxalq əlaqələri üçün məsuliyyət daşıyan Təşkilat üzvü və ya hər hansı bir hakimiyyət orqanı tərəfindən Səhiyyə Assambleyasına müraciət təqdim etməklə Təşkilata assosiativ üzv qəbul oluna bilərlər. Assosiativ üzvlərin Səhiyyə Assambleyasındakı nümayəndələri səhiyyə sahəsində yüksək texniki biliyə malik olmalı və yerli əhali arasından seçilməlidir. Assosiativ üzvlərin hüquq və vəzifələrinin həddi və xarakteri Səhiyyə Assambleyası tərəfindən müəyyənləşdirilir.

Fəsil IV

ORQANLAR

Maddə 9

Təşkilatın işi aşağıdakı orqanlar vasitəsilə həyata keçirilir:

a) Ümumdünya Səhiyyə Assambleyası (bundan sonra - Səhiyyə Assambleyası)

b) İcraiyyə Komitəsi (bundan sonra - Komitə)

c) Katiblik.

Fəsil V

ÜMUMDÜNYA SƏHİYYƏ ASSAMBLEYASI

Maddə 10

Səhiyyə Assambleyası Təşkilatın üzvlərini təmsil edən nümayəndələrdən ibarətdir.

Maddə 11

Təşkilatın hər bir üzvü üç nümayəndədən çox olmayan nümayəndə ilə təmsil olunur. Onlardan da biri Təşkilat üzvünün qərarı ilə baş nümayəndə təyin edilir. Nümayəndələr səhiyyə sahəsində yüksək texniki bilik və səriştəyə malik olan və əsasən də Təşkilat üzvünün Səhiyyə Nazirliyini təmsil edən şəxslər sırasından seçilir.

Maddə 12

Nümayəndələri əvəzləyicilər və müşavirlər müşayiət edə bilərlər.

Maddə 13

Səhiyyə Assambleyasının ildə bir dəfə növbəti sessiyası olur, lazım gəldikdə, xüsusi sessiyalar çağırılır. Xüsusi sessiyalar Komitənin və ya Təşkilat üzvlərinin çoxunun tələ-

bi ilə çağırılır.

Maddə 14

Səhiyyə Assambleyası hər illik sessiyasında növbəti sessiyanın keçiriləcəyi ölkə və ya regionu, Komitə isə konkret yerini müəyyənləşdirir. Xüsusi sessiyanın keçiriləcəyi yer də Komitə tərəfindən müəyyən edilir.

Maddə 15

Komitə Birləşmiş Millətlər Təşkilatının Baş katibi ilə məsləhətləşdikdən sonra illik və xüsusi sessiyaların çağırış vaxtını təyin edir.

Maddə 16

Səhiyyə Assambleyası hər illik sessiyanın əvvəlində rəyasət heyətinin sədrini və üzvlərini seçir. Bu şəxslər növbəti sessiyada yeniləri seçilənədək öz səlahiyyətlərini saxlayırlar.

Maddə 17

Səhiyyə Assambleyası özünün prosedur qaydalarını qəbul edir.

Maddə 18

Səhiyyə Assambleyasının funksiyaları aşağıdakılardan ibarətdir:

a) Təşkilatın fəaliyyət istiqamətlərini müəyyənləşdirmək;

b) Komitəyə öz nümayəndələrini seçmək hüququ olan Təşkilat üzvlərini müəyyənləşdirmək;

c) Baş direktoru təyin etmək;

d) Komitənin və Baş direktorun fəaliyyətini və məruzələrini nəzərdən keçirmək və təsdiq etmək, barəsində araşdırma, yaxud tədqiqat aparılması və ya məruzə təqdim edilməsi məqsədəuyğun görülən məsələlərlə bağlı Komitəyə göstərişlər vermək;

e) Təşkilatın işi üçün lazım olan komitələr yaratmaq;

f) Təşkilatın maliyyə fəaliyyətinə nəzarət etmək, büdcəni nəzərdən keçirmək və təsdiq etmək;

g) Təşkilat üzvlərinin, beynəlxalq təşkilatların, hökumət və ya qeyri-hökumət təşkilatlarının diqqətini səhiyyəyə aid olan və nəzərdən keçirilməsi Səhiyyə Assambleyası tərəfindən məqsədəuyğun hesab olunan məsələlərə yönəltmək haqqında Komitəyə və Baş direktora göstərişlər vermək;

h) vəzifələri Təşkilatın vəzifələri ilə uyğun gələn beynəlxalq və ya milli, hökumət və ya qeyri-hökumət təşkilatlarını öz iclaslarında və Komitənin iclaslarında, eləcə də öz rəhbərliyi altında çağırılan konfranslarda səs hüququ olmadan və Səhiyyə Assambleyasının müəyyənləşdirdiyi şərtlər əsasında iştirak etmək üçün nümayəndələrini göndərməyə dəvət etmək; milli təşkilatlara münasibətdə dəvətnamələr müvafiq hökumətin razılığı ilə göndərilir;

i) Baş Assambleyanın, İqtisadi və Sosial Şuranın, Təhlükəsizlik Şurasının, Birləşmiş Millətlər Təşkilatının Qəyyumluq üzrə Şurasının səhiyyə haqqında verdiyi tövsiyələri nəzərdən keçirmək və bu tövsiyələrin həyata keçirilməsi məqsədilə görülən tədbirlər haqqında onlara məruzələr təqdim etmək;

j) Təşkilatla Birləşmiş Millətlər Təşkilatı arasında əldə edilmiş hər hansı bir razılığa müvafiq olaraq İqtisadi və Sosial Şuraya məruzələr təqdim etmək;

k) Təşkilatın heyəti ilə, öz təsisatlarını yaratmaqla və ya hər hansı bir üzv-ölkənin (həmin ölkənin hökumətinin razılığı ilə) hökumət və ya qeyri-hökumət təsisatları ilə əməkdaşlıq etməklə səhiyyə sahəsində tədqiqatlar aparmaq və aparılan tədqiqatlara kömək etmək;

l) səhiyyə işinə xeyir gətirə bilən bu cür başqa təsisatlar yaratmaq;

m) Təşkilatın məqsədlərinə nail olmağa kömək edən digər müvafiq tədbirləri həyata keçirmək.

Maddə 19

Səhiyyə Assambleyası, Təşkilatın səlahiyyətində olan hər hansı bir məsələ üzrə konvensiya və ya sazişlər qəbul etmək hüququna malikdir. Bu cür konvensiya və sazişlərin qəbul edilməsi üçün Səhiyyə Assambleyası üzvlərinin 2/3 səs çoxluğu tələb olunur. Bu konvensiya və sazişlər Təşkilatın hər bir ayrıca üzvü üçün onlar həmin ölkənin konstitusiya proseduru qaydalarına əsasən qəbul edildikdən sonra qüvvəyə minir.

Maddə 20

Hər bir üzv on səkkiz ay ərzində Səhiyyə Assambleyasının qəbul etdiyi konvensiya və sazişləri təsdiq etmək üçün müəyyən tədbirlər görməyi öz öhdəsinə götürür. Hər bir üzv həyata keçirdiyi belə tədbirlər haqqında Baş direktoru xəbərdar edir, o, bu cür konvensiya və ya sazişi müəyyən olunmuş müddətdə qəbul etmədikdə isə bunun səbəbləri haqqında məlumat verir. Hər bir üzv konvensiya və ya saziş qəbul etdikdə, XIV fəslin tələblərinə uyğun olaraq, hər il Baş direktora məruzə təqdim etməyi öz öhdəsinə götürür.

Maddə 21

Səhiyyə Assambleyası aşağıdakı bəndlərə dair qaydalar müəyyən etmək səlahiyyətinə malikdir:

a) xəstəliklərin beynəlxalq səviyyədə yayılmasına qarşı yönəldilmiş sanitariya və karantin tələbləri və digər tədbirlər;

b) xəstəliklərin, ölüm səbəblərinin və ictimai səhiyyə təcrübəsinin nomenklaturu;

c) beynəlxalq istifadə üçün diaqnostika üsullarına dair standartlar;

d) beynəlxalq ticarətdə istifadə olunan bioloji, əczaçılıq və digər məhsulların təhlükəsizliyi, təmizliyi və təsir qüvvəsinə dair standartlar;

e) beynəlxalq ticarətdə istifadə olunan bioloji, əczaçılıq və digər məhsulların reklam və etiketləşdirilməsi.

Maddə 22

21-ci maddəyə uyğun olaraq qəbul edilən qaydalar, onların Səhiyyə Assambleyası tərə-

findən qəbul edilməsi haqqında lazımi qaydada bildiriş göndərildikdən sonra, həmin bildirişdə göstərilən müddət ərzində bu qaydaları qəbul etmədiyi və ya onlara dair qeyd-şərt etdiyi barədə Baş direktora məlumat verən Təşkilat üzvləri istisna olmaqla, bütün üzvlər üçün qüvvəyə minir.

Maddə 23

Səhiyyə Assambleyası Təşkilatın səlahiyyətində olan istənilən məsələ üzrə üzvlərə tövsiyələr verə bilər.

Fəsil VI

İCRAİYYƏ KOMİTƏSİ

Maddə 24

Komitə Təşkilatın 34 üzvü tərəfindən təyin edilən otuz dörd nümayəndədən ibarətdir. Bərabər coğrafi bölgünü nəzərə alaraq, Səhiyyə Assambleyası Komitəyə öz nümayəndələrini təyin etmək hüququ olan üzvlər seçir. Həmin üzvlərdən ən azı üçü 44-cü maddəyə əsasən təsis edilmiş regional təşkilatların hər birindən seçiləcəkdir. Bu üzvlərdən hər biri Komitəyə səhiyyə sahəsində texniki bilik və səriştəyə malik olan bir nümayəndə təyin edir ki, onu da əvəzləyicilər və müşavirlər müşayiət edə bilərlər.

Maddə 25

Bu üzvlər üç il müddətinə seçilirlər və onlar təkrar seçilə bilərlər. Nəzərə alınmalıdır ki, bu Nizamnaməyə İcraiyyə Komitəsi üzvlərinin sayını 32-dən 34-ə qədər artıran düzəliş qüvvəyə mindikdən sonra keçirilən Səhiyyə Assambleyasının ilk sessiyasında əlavə olaraq seçilən üzvlərin səlahiyyət müddəti, lazım gəldikdə, hər il hər bir regional təşkilatdan ən azı bir üzvün seçilməsini təmin etmək üçün azaldıla bilər.

Maddə 26

Komitə hər dəfə iclas yerini müəyyənləşdirməklə, ildə iki dəfədən az olmayaraq iclasını keçirir.

Maddə 27

Komitə öz üzvləri arasından sədr seçir və özünün prosedur qaydalarını qəbul edir.

Maddə 28

Komitənin funksiyaları aşağıdakılardır:

a) Səhiyyə Assambleyasının siyasətini və qərarlarını həyata keçirmək;

b) Səhiyyə Assambleyasının icraedici orqanı kimi fəaliyyət göstərmək;

c) Səhiyyə Assambleyası tərəfindən ona tapşırılan istənilən digər funksiyanı yerinə yetirmək;

d) Assambleya tərəfindən ona tapşırılan və ya konvensiyalar, sazişlər və qaydalarla əlaqədar olaraq Təşkilat qarşısında meydana çıxan məsələlər üzrə rəy hazırlayaraq Səhiyyə Assambleyasına rəy təqdim etmək;

e) Səhiyyə Assambleyasına öz təşəbbüsü ilə məsləhət və təkliflər təqdim etmək;

f) Səhiyyə Assambleyasının iclaslarının gündəliyini hazırlamaq;

g) müəyyən müddətlər üçün ümumi iş proqramları hazırlayaraq nəzərdən keçirmək və təsdiq olunmaq üçün Səhiyyə Assambleyasına təqdim etmək;

h) öz səlahiyyətlərinə daxil olan bütün məsələləri ətraflı təhlil etmək;

i) təcili fəaliyyət tələb olunan hallarda öz səlahiyyətləri və maliyyə imkanları daxilində fövqəladə tədbirlər həyata keçirmək. Xüsusilə o, epidemiyalara qarşı mübarizədə zəruri tədbirlər görmək, fəlakət qurbanlarına tibbi yardımı təşkil etmək, Təşkilatın istənilən üzvü və ya Baş direktor tərəfindən Komitənin diqqətinə yönəldilən çox mühüm məsələləri öyrənmək və təsdiq etmək səlahiyyətini Baş direktora həvalə edə bilər.

Maddə 29

Komitə Səhiyyə Assambleyasının adından fəaliyyət göstərərək, bütövlükdə Assambleyanın ona verdiyi səlahiyyətlərdən istifadə edir.

Fəsil VII

KATİBLİK

Maddə 30

Katiblik Baş direktordan və Təşkilata lazım olan texniki və inzibati heyətdən ibarətdir.

Maddə 31

Baş direktor Komitənin Assambleya tərəfindən müəyyən edilmiş şərtlər əsasında təqdimatı ilə Səhiyyə Assambleyası tərəfindən təyin edilir. Baş direktor Komitəyə tabe olaraq, Təşkilatın texniki və inzibati vəzifəli əsas şəxsi hesab olunur.

Maddə 32

Baş direktor vəzifə etibarilə Səhiyyə Assambleyasının, Komitənin, Təşkilatın bütün komissiya və komitələrinin, çağırılan konfransların ex officio katibi hesab olunur. O, bu funksiyaların yerinə yetirilməsini başqa şəxslərə tapşıra bilər.

Maddə 33

Üzvlərlə əldə edilmiş razılığa əsasən Baş direktor və ya onun nümayəndəsi öz vəzifələrini yerinə yetirmək üçün elə prosedur qaydaları müəyyənləşdirə bilər ki, bu qaydalar həmin üzvlərin müxtəlif dövlət müəssisələrinə, xüsusilə də səhiyyə nazirliklərinə, hökumət və qeyri-hökumət səhiyyə təşkilatlarına bilavasitə daxil olmağa imkan versin. O, həmçinin fəaliyyəti Təşkilatın səlahiyyətinə aid olan beynəlxalq təşkilatlarla birbaşa münasibətlər yarada bilər. O, regional büroları onların ərazisinə aid olan bütün məsələlər barədə xəbərdar edir.

Maddə 34

Baş direktor hər il Təşkilatın maliyyə hesabatlarını və büdcə layihəsini tərtib edir və Komitəyə təqdim edir.

Maddə 35

Baş direktor Səhiyyə Assambleyası tərəfindən müəyyən edilmiş qaydalar əsasında Katibliyin heyətini təyin edir. Heyət üzvləri işə götürülərkən onun yüksək səviyyəli iş qabiliyyəti, işə vicdanla yanaşması, Katibliyin beynəlxalq təmsilçilik xarakteri əsas şərtlər kimi ön plana çəkilir. Heyət üzvlərinin işə qəbulu zamanı coğrafi əhatənin mümkün qədər geniş olmasına da xüsusi diqqət yetirilir.

Maddə 36

Təşkilat heyətinin xidmət şəraiti BMT-nin digər təşkilatlarının xidmət şəraiti ilə mümkün qədər analoji olmalıdır.

Maddə 37

Öz vəzifələrini yerinə yetirərkən Baş direktor və heyət hər hansı bir hökumətdən və ya Təşkilatdan xaric hər hansı hakimiyyətdən heç bir göstəriş gözləməməli və almamalıdır. Onlar beynəlxalq vəzifəli şəxs kimi öz mövqelərinə xələl gətirə bilən hər hansı bir hərəkətdən çəkinməlidirlər. Təşkilatın hər bir üzvü öz tərəfindən Baş direktorun və heyətin müstəsna beynəlxalq xarakterinə ciddi hörmət etməyi və onlara təzyiq göstərməməyi öz öhdəsinə götürür.

Fəsil VIII

KOMİTƏLƏR

Maddə 38

Komitə Səhiyyə Assambleyasının göstərişi ilə, eləcə də öz şəxsi təşəbbüsü və ya Baş direktorun təklifi ilə Təşkilatın hər hansı bir məqsədini həyata keçirmək üçün zəruri olan istənilən başqa komitələr təsis edə bilər.

Maddə 39

Komitə vaxtaşırı və hər bir halda heç olmasa ildə bir dəfə hər bir komitənin gələcək mövcudluğunun zəruri olub-olmadığını nəzərdən keçirir.

Maddə 40

Komitə Təşkilatın digər təşkilatlarla birgə və ya qarışıq komitələr yarada və ya belə komitələrdə Təşkilatın iştirakını təmin edə bilər, eləcə də digər təşkilatlar tərəfindən yaradılmış komitələrdə Təşkilatı təmsil edə bilər.

Fəsil IX

KONFRANSLAR

Maddə 41

Səhiyyə Assambleyası və ya Komitə, Təşkilatın səlahiyyətində olan hər hansı bir məsələ üzrə yerli, ümumi, texniki və ya digər xüsusi konfranslar çağıra bilər və müvafiq hökumətin razılığı ilə milli hökumət və qeyri-hökumət təşkilatlarının, habelə beynəlxalq təşkilatların nümayəndə heyətlərini bu cür konfranslarda iştiraka dəvət edə bilər. Belə iştirakın xarakteri Səhiyyə Asambleyası və ya Komitə tərəfindən müəyyənləşdirilir.

Maddə 42

Komitə öz mülahizələrinə əsasən, Təşkilat üçün maraqlı hesab etdiyi konfranslarda Təşkilatın iştirakını təmin edə bilər.

Fəsil X

QƏRARGAH

Maddə 43

Birləşmiş Millətlər Təşkilatı ilə məsləhətləşdikdən sonra Səhiyyə Assambleyası Təşkilatın qərargahının yerləşəcəyi yeri müəyyən edir.

Fəsil XI

REGİONAL RAZILAŞMALAR

Maddə 44

a) Səhiyyə Assambleyası vaxtaşırı olaraq, regional təşkilatların təsis edilməsi üçün arzu edilən coğrafi əraziləri müəyyənləşdirir.

b) Səhiyyə Assambleyası belə ərazilərdə yerləşən üzv ölkələrin çoxunun razılığı ilə həmin ərazinin xüsusi ehtiyaclarını təmin etmək məqsədilə regional təşkilat təsis edə bilər. Hər ərazidə yalnız bir regional təşkilat ola bilər.

Maddə 45

Bu Nizamnaməyə əsasən hər bir regional təşkilat Təşkilatın ayrılmaz tərkib hissəsidir.

Maddə 46

Hər bir regional təşkilat regional komitə və regional bürodan ibarətdir.

Maddə 47

Regional komitələr müvafiq coğrafi ərazidə yerləşən üzvlərin və assosiativ üzvlərin nümayəndələrindən ibarət olur. Assosiativ üzv olmayan, lakin müvafiq coğrafi ərazidə yerləşərək, öz beynəlxalq əlaqələri üçün məsuliyyət daşımayan ərazilərin və ya ərazi qruplarının da regional komitələrdə təmsil olunmaq və iştirak etmək hüququ vardır. Səhiyyə Assambleyası bu ərazi və ya ərazi qruplarının beynəlxalq əlaqələri üçün məsuliyyət daşıyan hakimiyyət orqanı ilə və sözügedən coğrafi ərazidəki üzv ölkələri ilə məsləhətləşdikdən sonra həmin ərazi və ya ərazi qruplarının hüquq və vəzifələrinin həddi və xarakterini müəyyənləşdirir.

Maddə 48

Regional komitələrin iclası ehtiyac olduqda çağırılır və hər bir iclasın yerini komitə özü müəyyənləşdirir.

Maddə 49

Regional komitələr öz prosedur qaydalarını qəbul edirlər.

Maddə 50

Regional komitənin funksiyaları aşağıdakılardır:

a) regional xarakterli məsələlərdə fəaliyyət istiqamətlərini müəyyənləşdirmək;

b) regional büronun fəaliyyətinə nəzarət etmək;

c) ərazi daxilində Təşkilatın məqsədlərinə nail olmağa kömək edən texniki konfransların çağırılması, əlavə tapşırıqların yerinə yetirilməsi və ya səhiyyə məsələləri üzrə tədqiqatların aparılması haqqında regional büroya tövsiyələr vermək;

d) Birləşmiş Millətlər Təşkilatının və digər ixtisaslaşmış qurumların müvafiq regional komitələri ilə, eləcə də Təşkilatla ümumi maraqları olan digər regional beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək;

e) Baş direktor vasitəsilə Təşkilata region maraqlarını üstələyən beynəlxalq səhiyyə məsələləri üzrə məsləhətlər vermək;

f) əgər Təşkilatın əsas büdcədən bu regiona ayırdığı vəsaitin həcmi regional funksiyaların yerinə yetirilməsi üçün kifayət deyilsə, həmin regionun hökumətlərinə onların əlavə vəsait ayırmaları barədə tövsiyələr vermək;

g) Səhiyyə Assambleyası, Komitə və ya Baş direktor tərəfindən regional komitəyə tapşırıla bilən bütün başqa funksiyaları yerinə yetirmək.

Maddə 51

Regional büro Təşkilatın Baş direktorunun rəhbərliyi altında fəaliyyət göstərməklə regional komitənin əsas inzibati orqanı sayılır. Bundan başqa, büro ərazi daxilində Səhiyyə Assambleyasının və Komitənin qərarlarını yerinə yetirir.

Maddə 52

Regional büroya regional komitənin razılığı ilə Komitə tərəfindən təyin olunmuş regional direktor rəhbərlik edir.

Maddə 53

Regional büronun heyəti Baş direktorla regional direktor arasındakı razılığa əsasən müəyyən edilmiş qaydada təyin edilir.

Maddə 54

Panamerikan Sanitar Bürosu və Panamerikan sanitar konfransları ilə təmsil olunan Panamerikan Sanitar Təşkilatı və bu Nizamnamə imzalanana qədər mövcud olan bütün digər hökumətlərarası regional səhiyyə təşkilatları vaxtında Təşkilata inteqrasiya olunmalıdırlar. Bu inteqrasiya mümkün qədər qısa müddət ərzində müvafiq təşkilatların səlahiyyətli hakimiyyət orqanlarının qarşılıqlı razılığına əsaslanan birgə tədbirlər vasitəsilə həyata keçməlidir.

Fəsil XII

BÜDCƏ VƏ XƏRCLƏR

Maddə 55

Baş direktor Təşkilatın illik büdcə layihəsini tərtib edir və baxılmaq üçün Komitəyə təqdim edir. Komitə büdcə layihəsini nəzərdən keçirir və lazım bildiyi tövsiyələrlə Səhiyyə Assambleyasına təqdim edir.

Maddə 56

Səhiyyə Assambleyası Birləşmiş Millətlər Təşkilatı ilə Təşkilat arasında olan bütün razılaşmalara riayət etməklə, büdcə smetasını nəzərdən keçirərək təsdiq edir və xərcləri özünün müəyyənləşdirmiş olduğu şkalaya əsasən üzvlər arasında bölüşdürür.

Maddə 57

Səhiyyə Assambleyası və ya Səhiyyə Assambleyası adından fəaliyyət göstərən Komitə Təşkilata verilmiş hədiyyələri və mirasları qəbul edə və onlardan istifadə edə bilər; bu şərtlə ki, həmin hədiyyə və miraslar Səhiyyə Assambleyası və ya Komitə üçün məqbul şərtlər əsasında verilmiş olsun və Təşkilatın ümumi məqsədi və siyasətinə uyğun gəlsin.

Maddə 58

Fövqəladə hallar və gözlənilməyən xərclər üçün xüsusi fond təsis edilir. Bu fondun vəsaitlərindən Komitənin mülahizəsinə əsasən istifadə oluna bilər.

Fəsil XIII

SƏSVERMƏ

Maddə 59

Səhiyyə Assambleyasının hər bir üzvü bir səsə malikdir.

Maddə 60

a) Səhiyyə Assambleyasının mühüm məsələlər üzrə qərarları səsvermədə iştirak edən üzvlərin 2/3 səs çoxluğu ilə qəbul edilir. Bu məsələlərə aşağıdakılar daxildir: konvensiya və sazişlərin qəbul edilməsi; 69, 70 və 72-ci maddələrə əsasən, Birləşmiş Millətlər Təşkilatı, hökumətlərarası təşkilat və qurumlarla Təşkilat arasında əlaqə yaradan razılaşmaların təsdiq edilməsi; bu Nizamnaməyə düzəlişlərin edilməsi.

b) Digər məsələlər üzrə qərarlar, o cümlədən həlli 2/3 səs çoxluğu tələb edən əlavə məsələlərin müəyyənləşdirilməsi barədə qərar səsvermədə iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir.

c) Komitədə və Təşkilatın komitələrində analoji məsələlər üzrə səsvermə bu maddənin (a) və (b) bəndlərinə müvafiq olaraq həyata keçirilir.

Fəsil XIV

DÖVLƏTLƏRİN TƏQDİM ETDİYİ MƏRUZƏLƏR

Maddə 61

Hər bir üzv öz xalqının sağlamlıq vəziyyətinin yaxşılaşması sahəsində gördüyü tədbirlər və əldə etdiyi nəticələr haqqında hər il Təşkilata məruzə təqdim edir.

Maddə 62

Hər bir üzv Təşkilatın ona verdiyi tövsiyələrə dair gördüyü işlər haqqında, eləcə də kon-

vensiyalar, sazişlər və qaydalar üzrə həyata keçirdiyi tədbirlər haqqında hər il məruzə təqdim edir.

Maddə 63

Hər bir üzv öz ölkəsində səhiyyə sahəsində dərc olunmuş mühüm qanunlar, qaydalar, rəsmi məruzələr, statistik məlumatlar haqqında dərhal Təşkilata məlumat verir. Hər bir üzv Səhiyyə Assambleyasının müəyyənləşdirdiyi formada statistik və epidemioloji məruzələr təqdim edir.

Maddə 65

Hər bir üzv Komitənin xahişi əsasında səhiyyə üzrə yerinə yetirilməsi praktiki cəhətdən mümkün olan əlavə məlumatlar təqdim edir.

Fəsil XV

HÜQUQ QABİLİYYƏTİ, İMTİYAZ VƏ İMMUNİTETLƏR

Maddə 66

Təşkilat özünün hər bir üzvünün ərazisində öz məqsədlərinə nail olmaq və funksiyalarını yerinə yetirmək üçün zəruri olan hüquq qabiliyyətindən istifadə edir.

Maddə 67

a) Təşkilat hər bir üzvünün ərazisində öz məqsədlərinə nail olmaq və funksiyalarını yerinə yetirmək üçün zəruri olan imtiyaz və immunitetlərdən istifadə edir.

b) Üzvlərin nümayəndələri, Komitəyə təyin olunmuş şəxslər, Təşkilatın texniki və inzibati heyəti Təşkilatın fəaliyyəti ilə bağlı olan vəzifələrini müstəqil yerinə yetirmələri üçün zəruri olan imtiyaz və immunitetlərdən eyni qaydada istifadə edə bilərlər.

Maddə 68

Haqqında danışılan hüquq qabiliyyəti, imtiyaz və immunitetlər Təşkilat tərəfindən Birləşmiş Millətlər Təşkilatının Baş katibi ilə məsləhətləşmə yolu ilə işlənib hazırlanır və üzvlər arasında bağlanmış xüsusi saziş əsasında müəyyən edilir.

Fəsil XVI

DİGƏR TƏŞKİLATLARLA QARŞILIQLI ƏLAQƏLƏR

Maddə 69

Təşkilat BMT-nin Nizamnaməsinin 57-ci maddəsində göstərilən ixtisaslaşmış qurumlardan biri kimi Birləşmiş Millətlər Təşkilatı ilə əlaqəyə girir. Təşkilatla BMT arasında əlaqə yaradan saziş və ya sazişlər Səhiyyə Assambleyasında 2/3 səs çoxluğu ilə təsdiq edilməlidir.

Maddə 70

Təşkilat özünün lazım bildiyi digər hökumətlərarası təşkilatlarla səmərəli əlaqə və sıx əməkdaşlıq yaradır. Bu növ təşkilatlarla bağlanmış hər cür rəsmi saziş Səhiyyə Assambleyasında 2/3 səs çoxluğu ilə təsdiq edilməlidir.

Maddə 71

Təşkilat öz səlahiyyətində olan məsələlər üzrə beynəlxalq qeyri-hökumət təşkilatları, eləcə də müvafiq dövlətin razılığı ilə həmin dövlətin istər hökumət, istərsə də qeyri-hökumət təşkilatları ilə məsləhətləşmək və əməkdaşlıq etmək məqsədilə müvafiq tədbirlər görə bilər.

Maddə 72

Səhiyyə Assambleyasında 2/3 səs çoxluğu ilə təsdiq edilmək şərtilə, Təşkilat məqsəd və fəaliyyəti öz məqsəd və fəaliyyətinə uyğun gələn hər hansı bir beynəlxalq təşkilat və ya qurumdan elə funksiya, resurs və öhdəliklər qəbul edə bilər ki, onlar beynəlxalq sazişlər və ya müvafiq təşkilatların səlahiyyətli rəhbər orqanları arasında bağlanmış qarşılıqlı faydalı razılaşmalar əsasında Təşkilata verilsin.

Fəsil XVII

DÜZƏLİŞLƏR

Maddə 73

Baş direktor bu Nizamnaməyə təklif edilən düzəlişlərin mətnini Səhiyyə Assambleyasında baxılmazdan ən azı altı ay əvvəl üzvlərə təqdim edir. Düzəlişlər Səhiyyə Assambleyasında 2/3 səs çoxluğu ilə qəbul edildikdən və üzvlərin 2/3 hissəsi tərəfindən onların konstitusiya prosedurlarına uyğun olaraq təsdiq edildikdən sonra qüvvəyə minir.

Fəsil XVIII

ŞƏRHLƏR

Maddə 74

Bu Nizamnamənin Çin, fransız, ingilis, ispan və rus dillərindəki mətnləri eyni qüvvəyə malikdir.

Maddə 75

Bu Nizamnamənin şərhi və ya tətbiqi ilə bağlı yaranan hər hansı bir məsələ və ya mübahisə danışıqlar yolu ilə, yaxud Səhiyyə Assambleyası tərəfindən həll edilmədikdə, maraqlı tərəflər hər hansı bir başqa həll yolu tapmazlarsa, məsələ Beynəlxalq Məhkəmənin statusuna müvafiq olaraq həmin Məhkəməyə verilir.

Maddə 76

Birləşmiş Millətlər Təşkilatının Ali Məclisinin sanksiyasına və ya Təşkilatla BMT arasındakı hər hansı bir sazişdən irəli gələn səlahiyyətlərə müvafiq olaraq, Təşkilat öz səlahiyyəti daxilində yaranan hər hansı bir hüquqi məsələyə dair tövsiyə xarakterli rəy almaq üçün Beynəlxalq Məhkəməyə müraciət edə bilər.

Maddə 77

Baş direktor tövsiyə xarakterli rəy üçün məhkəməyə müraciət etdikdə, Təşkilatın adından Məhkəmədə çıxış edə bilər. O, işin Məhkəmədə təqdimatı üçün tədbirlər görür və işlə bağlı bütün dəlillərin təqdim olunmasını təmin edir.

Fəsil XIX

QÜVVƏYƏ MİNMƏ

Maddə 78

Bu Nizamnamə III fəslin müddəalarına riayət olunmaqla bütün dövlətlər tərəfindən imzalanmaq və ya qəbul edilmək üçün açıq qalır.

Maddə 79

a) Dövlətlər bu Nizamnaməyə aşağıdakı qaydada qoşula bilər:

i) onun təsdiq edilməsinə münasibətdə qeyd-şərt etmədən imzalamaqla;

ii) sonradan qəbul etmək məqsədilə onu təsdiq etmək şərtilə imzalamaqla; və ya

iii) qəbul etməklə.

b) Qəbuletmə Birləşmiş Millətlər Təşkilatının Baş katibinə rəsmi sənəd verməklə həyata keçirilir.

Maddə 80

Nizamnamə Birləşmiş Millətlər Təşkilatının iyirmi altı üzvü 79-cu maddəyə uyğun olaraq ona qoşulduqdan sonra qüvvəyə minir.

Maddə 81

Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 102-ci maddəsinə uyğun olaraq, BMT-nin Baş katibi bu Nizamnaməni bir dövlət həmin Nizamnaməni təsdiqetmə barədə qeyd-şərt etmədən imzaladıqdan sonra və ya qəbuletmə haqqında ilk sənəd saxlanılmağa təhvil verildikdən sonra qeydə alır.

Maddə 82

Birləşmiş Millətlər Təşkilatının Baş katibi bu Nizamnaməyə qoşulmuş dövlətləri Nizamnamənin qüvvəyə minməsi tarixi haqqında xəbərdar edir. O, həmçinin başqa dövlətlərin Nizamnaməyə qoşulması tarixi haqqında da məlumat verir.

Nyu-York şəhərində min doqquz yüz qırx altıncı il iyulun 22-də, eyni qüvvəyə malik olmaqla, Çin, fransız, ingilis, ispan və rus dillərində bir nüsxədə imzalanmışdır. Mətnin əsli Birləşmiş Millətlər Təşkilatının arxivinə saxlanılmağa verilmişdir. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Nizamnamənin təsdiq olunmuş surətlərini Konfransda təmsil olunan hər bir dövlətə göndərəcəkdir.

Bunun təsdiqi olaraq, lazımi qaydada səlahiyyətləndirilmiş aşağıda imza edənlər bu Nizamnaməni imzaladılar.

---

[1] Nizamnamə 1946-cı il iyunun 19-dan 20-dək Nyu-Yorkda keçirilən Beynəlxalq səhiyyə konfransında qəbul edilmiş, 1946-cı il iyulun 22-də 61 ölkənin nümayəndəsi (off. Rec.Wild Hith Org., 2, 100) tərəfindən imzalanmış və 1948-ci il aprelin 7-də qüvvəyə minmişdir. Ümumdünya Səhiyyə Assambleyasının iyirmi altıncı, iyirmi doqquzuncu və otuz doqquzuncu sessiyaları tərəfindən qəbul edilmiş düzəlişlər (WHA 26,37, WHA 29.38 DZ W 39.6) müvafiq olaraq 3 fevral 1997-ci il, 20 yanvar 1984-cü il və 11 iyul 1994-cü ildə qüvvəyə minmiş və bu sənədə daxil edilmişdir.

"Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında maliyyə əməkdaşlığı haqqında (Kreditlərin zəmanəti fondunun yaradılması)" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında maliyyə əməkdaşlığı haqqında (Kreditlərin zəmanəti fondunun yaradılması)" 2007-ci il fevralın 15-də Berlin şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 iyun 2007-ci il

№363-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında maliyyə əməkdaşlığı haqqında Saziş

(Kreditlərin zəmanəti fondunun yaradılması)

Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti,

Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında mövcud dostluq əlaqələri ruhunda,

bu dostluq əlaqələrinin tərəfdaşlığa əsaslanan maliyyə əməkdaşlığı vasitəsilə daha da möhkəmləndirilməsini və dərinləşdirilməsini arzulayaraq,

həmin əlaqələrin qorunub saxlanmasının bu Sazişin əsasını təşkil etdiyini dərk edərək, Azərbaycan Respublikasının sosial və iqtisadi inkişafına kömək etmək məqsədilə,

2003-cü ilin 24-28 noyabr tarixlərində Bakı şəhərində Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında keçirilmiş inkişaf sahəsində əməkdaşlığa dair hökumətlərarası danışıqlara istinad edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

(1) Almaniya Federativ Respublikası Hökuməti Azərbaycan Respublikası Hökuməti üçün və ya hər iki Hökumət tərəfindən birgə seçiləcək benifisiar üçün Kreditanştalt für Widеraufbau Bankından (Frankfurt Mayn) aşağıdakı vəsaitlərin alınmasına imkan yaradır:

1. Yoxlamadan sonra layihənin dəstəklənməsinin zəruriliyi müəyyən edilərsə və kreditlərin zəmanəti fondu kimi kiçik və orta müəssisələr üçün maliyyə dəstəyi istiqamətində xüsusi şərtləri yerinə yetirməsi təsdiq olunarsa, "Kreditlərin zəmanəti fondu - Azərbaycan" layihəsi üçün 3750000 avro (sözlə: üç milyon yeddi yüz əlli min avro) həcminə qədər maliyyə qrantı.

2. Yoxlamadan sonra layihənin dəstəklənməsinin zəruriliyi təsdiq olunarsa, kredit-

lərin zəmanəti fondunun yaradılması üçün zəruri müşayiətedici tədbirlərin görülməsi məqsədilə cəmi 250000 avro (sözlə: iki yüz əlli min avro) həcminə qədər maliyyə qrantı.

(2) Layihənin məqsədi kiçik və orta sahibkarlar üçün uzunmüddətli kreditləri əldə etmək imkanını təmin etmək məqsədilə zəmanət fondu vasitəsilə beynəlxalq kapital bazarlarından yerli banklara vəsaitlərin cəlb edilməsidir.

(3) Əgər 1-ci bənddə göstərilən layihə orada qeyd edilən təsdiqini tapmazsa, Almaniya Federativ Respublikası Hökuməti Azərbaycan Respublikası Hökumətinə Kreditanştalt für Wideraufbau Bankı tərəfindən nəzərdə tutulmuş maliyyə qrantı həcminə qədər ssuda alınması üçün imkan yaradır.

(4) 1-ci bənddə göstərilən layihə Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökumətinin razılığı əsasında digər layihələrlə əvəz edilə bilər. 1-ci bənddə göstərilən layihə ətraf mühitin mühafizəsi və ya sosial infrastruktur layihəsi, yaxud qadınların cəmiyyətdə rolunun yaxşılaşdırılmasına xidmət edən və ya yoxsulluğun azaldılması üçün maliyyə qrantının xüsusi şərtlərinə müvafiq özünəkömək istiqamətli tədbirlə əvəz edilərsə, maliyyə qrantı əks təqdirdə ssuda kimi veriləcəkdir.

(5) Əgər Almaniya Federativ Respublikası Hökuməti gələcəkdə Azərbaycan Respublikası Hökumətinə Kreditanştalt für Wideraufbau Bankından 1-ci bənddə göstərilmiş layihənin hazırlanması məqsədilə ssuda və ya maliyyə qrantları və ya 1-ci bənddə göstərilən layihənin həyata keçirilməsi və dəstəklənməsi üçün zəruri müşayiətedici tədbirlər görmək məqsədilə maliyyə qrantları almaq imkanı yaradarsa, bu Saziş tətbiq ediləcəkdir.

(6) 1-ci bəndin 2-ci yarımbəndində, habelə 5-ci bənddə hazırlıq və müşayiətedici tədbirlər üçün nəzərdə tutulmuş maliyyə qrantları qeyd olunan tədbirlər üçün istifadə edilməzsə, onlar ssudaya çevriləcəkdir.

Maddə 2

(1) Bu Sazişin 1-ci maddəsində göstərilən məbləğlərin istifadəsi, onların verilmə şərtləri, habelə sifarişlərin yerləşdirilməsi prosedurları Almaniya Federativ Respublikasında qüvvədə olan qanunvericiliyə müvafiq olaraq Kreditanştalt für Wideraufbau Bankı və benifisiar arasında imzalanacaq müqavilələrlə müəyyən ediləcəkdir. Bu Sazişin 1-ci maddəsinin 1-ci bəndində göstərilmiş məbləğlərin verilməsi üzrə öhdəliklər, onlar barəsində öhdəliyin verildiyi ildən etibarən 8 il ərzində müvafiq ssuda və maliyyə qrantı müqavilələri imzalanmazsa, qüvvədən düşmüş hesab olunur. Bu məbləğlər üçün müddət 2011-ci il 31 dekabr tarixində bitir.

(2) Azərbaycan Respublikası Hökuməti əgər özü bilavasitə maliyyə qrantı alan tərəf deyilsə, 1-ci bəndə müvafiq olaraq imzalanacaq maliyyə qrantı müqavilələri ilə əlaqədar məbləğlərin geriyə qaytarılması üzrə yarana bilən mümkün iddialar üçün Kreditanştalt für Wideraufbau Bankına zəmanət verəcəkdir.

Maddə 3

Azərbaycan Respublikası Hökuməti Kreditanştalt für Wideraufbau Bankını bu Sazişin 2-ci maddəsində göstərilən müqavilələrin bağlanması və həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasında tutulan bütün vergi və digər dövlət yığımlarından azad edir.

Maddə 4

Azərbaycan Respublikası Hökuməti maliyyə qrantlarının verilməsi ilə əlaqədar şəxslərin və yüklərin dəniz, quru və hava nəqliyyatı ilə daşınmasında nəqliyyat şirkətlərinin sərbəst seçimini sərnişinlərin və mal göndərənlərin ixtiyarına buraxır, Almaniya Federativ Respublikasında qeydiyyatda olan nəqliyyat müəssisələrinin bərabərhüquqlu iştirakını istisna edən və ya mürəkkəbləşdirən heç bir tədbir görmür, lazım olduğu təqdirdə bu nəqliyyat müəssisələrinin iştirakı üçün tələb olunan icazələri verir.

Maddə 5

Bu Saziş Azərbaycan Respublikası Hökumətinin Almaniya Federativ Respublikası Hökumətini Sazişin qüvvəyə minməsi üçün lazımi dövlətdaxili prosedurları yerinə yetirdiyini bildirdiyi tarixdən qüvvəyə minir. Bildirişin alındığı vaxt müvafiq tarixdir.

Berlin şəhərində 2007-ci il 15 fevral tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan və alman dillərində, hər iki mətn eyni hüquqi qüvvəyə malik olmaqla imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	ALMANİYA FEDERATİV RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

"Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında" 2007-ci il martın 15-də Düşənbə şəhərində imzalanmış Müqavilə təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 iyun 2007-ci il

№364-IIIQ

Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilə

Bundan sonra "Razılığa gələn Ali Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası və Tacikistan Respublikası,

BMT-nin Nizamnaməsinin məqsəd və prinsipləri, beynəlxalq hüququn digər ümumta-

nınmış normalan və ümumbəşəri dəyərləri rəhbər tutaraq,

Helsinki Yekun Aktının, Yeni Avropa üçün Paris Xartiyasının, habelə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının digər sənədlərindən irəli gələn öhdəliklərin yerinə yetirilməsinə səylərini təsdiq edərək,

onların xalqları arasında tarixi dostluq və qarşılıqlı hörmət münasibətlərinə əsaslanaraq,

qarşılıqlı faydalı ikitərəfli əməkdaşlıq münasibətlərinin daha da. inkişaf etdirilməsinin hər iki dövlətin xalqlarının əsas maraqlarına cavab verdiyindən, sülh işinə xidmət etdiyindən, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsindən çıxış edərək,

dövlətlərarası münasibətlərinin bərabərlik, ədalət və qarşılıqlı anlaşma prinsipləri əsasında qurulması əzmində olaraq,

siyasi, iqtisadi, elmi-texniki, ekoloji, informasiya, humanitar, mədəniyyət və digər sahələrdə ikitərəfli əməkdaşlığa yeni keyfiyyət verilməsi və onun hüquqi bazasının möhkəmləndirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Razılığa gələn Ali Tərəflər öz münasibətlərini dost dövlətlər kimi inkişaf etdirirlər. Onlar qarşılıqlı münasibətlərində suveren bərabərlik, zor tətbiq etməkdən və ya zor tətbiq etməklə hədələməkdən imtina etmək, mübahisələrin sülh yolu ilə həll edilməsi, sərhədlərin toxunulmazlığı, ərazi bütövlüyü, daxili işlərə qarışmamaq, insan hüquqları və əsas azadlıqlarına hörmət, bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq, beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsiplərini, həmçinin beynəlxalq hüququn digər ümumtanınmış prinsiplərini rəhbər tutacaqlar.

Maddə 2

Razılığa gələn Ali Tərəflər, kim tərəfindən asılı olmayaraq, öz ərazilərindən Razılığa gələn digər Ali Tərəfə qarşı düşmən fəaliyyəti məqsədilə istifadə olunmasına yol verməmək öhdəliyini götürürlər.

Maddə 3

Razılığa gələn Ali Tərəflər təsdiq edirlər ki, ümumi təhlükəsizlik bölünməzdir və onlar bu sahədə tərəfdaşlığı ardıcıl həyata keçirəcək, ikitərəfli və çoxtərəfli əsasda sülhün, etimadın və təhlükəsizliyin möhkəmləndirilməsinə fəal kömək edəcəklər.

Razılığa gələn Ali Tərəflər BMT-nin Nizamnaməsi və ATƏT-in sənədlərinə uyğun olaraq suverenliyə və dövlətlərin ərazi bütövlüyünə və onların sərhədlərinin toxunulmazlığına hörmət və riayət olunması əsasında münaqişələrin sülh yolu ilə nizamlanması məqsədilə fəaliyyət göstərəcəklər.

Maddə 4

Razılığa gələn Ali Tərəflər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı və təmasları genişləndirəcək, hər iki dövlətdə qüvvədə olan qanun və qaydalara hörmət və riayət edilməsinə əsaslanaraq, qarşılıqlı maraq kəsb edən məsələlər üzrə mövqelərinin razılaşdırılması üçün məsləhətləşmələr keçirəcəklər.

Maddə 5

Razılığa gələn Ali Tərəflər hər iki dövlətin xalqlarının yaxınlaşması üçün zəruri şəraitin təmin edilməsinə səy göstərərək, onların vətəndaşları, dövlət və ictimai təşkilat və birlikləri, özünüidarəetmə orqanları arasında əlaqələrin genişləndirilməsinə hərtərəfli kömək göstərəcəklər.

Maddə 6

Razılığa gələn Ali Tərəflər hər iki dövlətin parlamentləri və parlament nümayəndələri arasında əlaqələri və əməkdaşlığı inkişaf etdirəcəklər.

Maddə 7

Razılığa gələn Ali Tərəflər qarşılıqlı faydalı ikitərəfli iqtisadi əməkdaşlığın inkişafı üçün əlverişli şəraiti təmin edəcəklər. Onlar öz iqtisadi və ticarət münasibətləri mexanizminin təkmilləşdirilməsi və dünya bazarının norma və təcrübəsinə yaxınlaşdırılması məqsədilə müvafiq tədbirlər həyata keçirəcək, o cümlədən bir-birinə əlverişli, yaxud milli rejim tətbiq edəcəklər.

Razılığa gələn Ali Tərəflər dünya ticarət sisteminə inteqrasiyaya böyük əhəmiyyət verərək, öz münasibətlərinin potensialından tam istifadə edilməsinin zəruriliyini qeyd edərək və qarşılıqlı faydalı ticarət-iqtisadi əməkdaşlıq şərtlərinə əsaslanaraq hər vəchlə yeni şərtlərlə ənənəvi təsərrüfat əlaqələrinin yenidən qurulmasına yardım edirlər.

Maddə 8

Razılığa gələn Ali Tərəflər ikitərəfli sazişlər, onların beynəlxalq öhdəlikləri və milli qanunvericilikləri əsasında, sərmayələrin stimullaşdırılması və qarşılıqlı qorunması daxil olmaqla, Razılığa gələn bir Ali Tərəfin hüquqi və fiziki şəxslərinin Razılığa gələn digər Ali Tərəfin ərazisində sahibkarlıq fəaliyyəti üçün əlverişli iqtisadi, maliyyə və hüquqi şərait yaradacaqlar.

Razılığa gələn Ali Tərəflər öz hüquqi və fiziki şəxsləri arasında müxtəlif kooperasiya formalarını, həmçinin birbaşa əlaqələri təşviq edəcəklər.

Razılığa gələn hər bir Ali Tərəf öz ərazisində Razılığa gələn digər Ali Tərəfin hüquqi və fiziki şəxslərinin mülkiyyət və əmlak müdafiəsinə təminat verəcəkdir.

Maddə 9

Razılığa gələn Ali Tərəflər tranzit və nəqliyyat kommunikasiyaları sahəsində əməkdaşlığı inkişaf etdirəcək və dərinləşdirəcəklər. Razılığa gələn hər bir Ali Tərəf onun ərazisində yerləşən hava, dəniz və çay limanları, dəmir yolu və avtomobil şəbəkələri və boru kəmərləri vasitəsilə Razılığa gələn digər Ali Tərəfin nəqliyyat əməliyyatlarının həyata keçirilməsi üçün əlverişli şərait yaradır və təmin edir.

Nəqliyyat və tranzit hərəkəti sahəsində əməkdaşlığın təmin edilməsi şərtləri və qaydaları xüsusi sazişlər ilə müəyyən ediləcəkdir.

Maddə 10

Razılığa gələn Ali Tərəflər rabitə vasitələrinin, sistemlərinin və xətlərinin təkmilləşdirilməsi imkanlarını öyrənəcək və tədbirlər görəcək, bu sahədə müvafiq sazişlər imzalayacaqlar.

Maddə 11

Razılığa gələn Ali Tərəflər ayrıca sazişlər əsasında hər iki dövlətin müdafiə idarələri arasında əlaqələrə kömək edəcək və hərbi-texniki sahədə qarşılıqlı fəaliyyət göstərəcəklər.

Maddə 12

Razılığa gələn Ali Tərəflər fundamental və tətbiqi elmlər sahəsində səmərəli əməkdaşlıq, qabaqcıl texnika və texnologiyaların birgə hazırlanması və tətbiqi, həmçinin alimlərin, elmi tədqiqat institutlarının, elmi istehsalat birliklərinin birbaşa əlaqələri və birgə təşəbbüslərinin inkişafı üçün şəraitin yaradılmasına kömək edəcəklər.

Razılığa gələn Ali Tərəflər bu məsələlər üzrə ayrıca sazişlər bağlayacaqlar.

Maddə 13

Razılığa gələn Ali Tərəflər təhsil sahəsində münasibətləri inkişaf etdirəcək və müxtəlif tədris müəssisələri arasında əməkdaşlığı, o cümlədən məktəblilərin, tələbələrin, aspirantların və təcrübə keçənlərin mübadiləsi vasitəsilə təşviq edəcəklər.

Razılığa gələn Ali Tərəflər təhsil, elmi dərəcə də elmi adlar üzrə şəhadətnamələrin, attestatların və diplomların ekvivalentliyinin qarşılıqlı tanınması mexanizmini hazırlayacaqlar.

Bu məsələlər üzrə ayrıca sazişlər bağlanacaqdır.

Maddə 14

Razılığa gələn Ali Tərəflər mədəniyyət sahəsində ikitərəfli əlaqələrin genişləndirilməsini və dərinləşdirilməsini dünya mədəni irsinin artırılması üçün zəruri şərt sayırlar. Bundan çıxış edərək, Razılığa gələn Ali Tərəflər yaradıcı heyətlər, mədəniyyət xadimləri arasında mübadilələrə şərait yaradır, həmçinin Razılığa gələn digər Ali Tərəfin vətəndaşları üçün öz vətəndaşları ilə bərabər səviyyədə və eyni şərtlərlə mədəni sərvətlərdən, arxivlərdən, kitabxanalardan, kütləvi informasiya vasitələrindən geniş istifadə olunmasını təmin edəcəklər.

Maddə 15

Razılığa gələn Ali Tərəflər əqli mülkiyyət hüquqlarının qorunması, müdafiəsi və istifadəsi məsələlərində birbaşa və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edəcəklər.

Maddə 16

Razılığa gələn Ali Tərəflər qarşılıqlı maraqlar və öz imkanlarından çıxış edərək, ətraf mühitin qorunması və yaxşılaşdırılması, texnogen xarakterli qəzaların və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması, təbiətdən ehtiyatlı istifadə, ekoloji cəhətdən təmiz istehsalat sahəsinin genişləndirilməsi, təbiəti qorumaq və təbiəti bərpa etmək üzrə yüksək səmərəli tədbirlərin həya-ta keçirilməsi sahəsində əməkdaşlığı inkişaf etdirəcəklər.

Maddə 17

Razılığa gələn Ali Tərəflər əhalinin sağlamlığının qorunmasının təmin olunması, tibb elminin və təcrübəsinin inkişafı üzrə birgə fəaliyyətin zəruriliyini etiraf edirlər.

Razılığa gələn Ali Tərəflər Razılığa gələn hər iki Ali Tərəfin vətəndaşları üçün mövcud unikal və ixtisaslaşdırılmış tibbi və sanatoriya-istirahət müəssisələrinə, tibbi və konsultativ yardımın alınmasına buraxılış və bərabərhüquqlu istifadəni təmin edəcəklər.

Maddə 18

Razılığa gələn Ali Tərəflərdən hər biri Razılığa gələn digər Ali Tərəfin vətəndaşlarına milliyyətindən, cinsindən, dilindən, dinindən, siyasi və digər əqidəsindən asılı olmayaraq, bərabər hüquq və azadlıqlarına təminat verir.

Maddə 19

Razılığa gələn Ali Tərəflər hüquq pozuntularına, o cümlədən mütəşəkkil cinayətkarlığa, korrupsiyaya, terrorizmə, qeyri-qanuni miqrasiyaya, qanunsuz maliyyə əməliyyatlarına, narkotik və psixotrop maddələrin, kimyəvi-zəhərli maddələrin, silahların, partlayıcı maddələrin qeyri-qanuni dövriyyəsinə və hava qaçaqmalçılığı və kontrabandaya, mədəni sərvətlərin qanunsuz satışına və sərhəddən keçirilməsinə, hüquqazidd fəaliyyətdən əldə edilmiş gəlirlərin qanuniləşdirilməsinə, digər təhlükəli cinayət növlərinə qarşı mübarizə sahəsində əməkdaşlıq edəcəklər. Razılığa gələn Ali Tərəflər bu sahədə təcrübə və operativ məlumat mübadiləsini həyata keçirirlər, bu istiqamətdə birbaşa və beynəlxalq əməkdaşlıq çərçivəsində məsləhətləşmələr və birgə tədbirlər hə-yata keçirəcəklər. Razılığa gələn Ali Tərəflər hüquqi məlumat mübadiləsi, hüquqi aktların hazırlanması və tətbiqi sahəsində əməkdaşlıq edəcəklər.

Razılığa gələn Ali Tərəflər bu məsələlərə dair müvafiq sazişlər bağlayacaqlar.

Maddə 20

Bu Müqavilə heç bir dövlətə qarşı yönəlməmişdir və Razılığa gələn Ali Tərəflərin üçüncü ölkələrlə iştirakçısı olduqları ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 21

Razılığa gələn Ali Tərəflər bu Müqavilənin təfsiri və tətbiqinə dair yaranan mübahisələri BMT Nizamnaməsinin 33-cü maddəsində nəzərdə tutulan mübahisələrin sülh yolu ilə həlli proseduralarından istifadə etməklə həll edəcəklər.

Maddə 22

Razılığa gələn Ali Tərəflərin qarşılıqlı razılığına əsasən bu Müqaviləyə müvafiq protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər. Əlavə və dəyişikliklər barədə Protokollar Razılığa gələn hər iki Ali Tərəf onları ratifikasiya etdikdən sonra qüvvəyə minir və bu Müqavilənin ayrılmaz his-səsini təşkil edir.

Maddə 23

Bu Müqavilə BMT-nin Nizamnaməsinin 102-ci maddəsinə uyğun olaraq Birləşmiş Millətlər Təşkilatının katibliyində qeydiyyata alınacaqdır. Bu Müqavilənin həyata keçirilməsi məqsədilə Razılığa gələn Ali Tərəflər müntəzəm şəkildə bir ildən az olmayaraq ayrı-ayrı səviyyələrdə məsləhətləşmələr keçirəcəklər və lazım olduqda birgə komissiya yaradacaqlar.

Maddə 24

Bu Müqavilə təsdiq olunmalıdır və təsdiqnamələrin mübadiləsi günü qüvvəyə minəcəkdir.

Bu Müqavilə on il müddətinə bağlanılır. Razılığa gələn Ali Tərəflərdən biri Razılığa gələn digər Ali Tərəfə müvafiq müddətin başa çatmasından ən azı on iki ay əvvəl Müqavilənin qüvvəsinin ləğv edilməsi barədə yazılı şəkildə bildirmədiyi təqdirdə Müqavilənin qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılacaqdır.

Bu Müqavilə Düşənbə şəhərində 2007-ci il 15 mart tarixində iki əsl nüsxədə hər biri Azərbaycan, tacik və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir.

Bu Müqavilənin müddəalarının təfsiri məqsədilə rus dilindəki mətndən istifadə edilir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*EMOMƏLİ RƏHMON*

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında" 2007-ci il martın 15-də Düşənbə şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 iyun 2007-ci il

№365-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti,

iki dövlət arasında dostluq münasibətlərini gələcəkdə inkişaf etdirmək məqsədilə,

öz dövlətlərinin vətəndaşlarının qarşılıqlı surətdə gediş-gəlişinin hüquqi tənzimlənməsinə səy göstərərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

1. Bir Tərəfin dövlətinin vətəndaşları, o cümlədən üçüncü dövlətlərdə daimi yaşayan və ya müvəqqəti qalan vətəndaşları, xaricə getmək üçün etibarlı sayılan sənədlər əsasında gəldiyi dövlətin dövlət sərhədini keçdiyi gündən etibarən 90 (doxsan) gün müddətində vizasız digər Tərəfin dövlətinin ərazisinə gələ, tranzit keçə, gedə və orada qala bilərlər.

2. Bu maddənin 1-ci bəndində göstərilən qalma müddəti Tərəflərdən hər birinin dövlətinin milli qanunvericiliyinə uyğun olaraq uzadıla bilər.

Maddə 2

1. Bu Sazişin anlamında xaricə getmək üçün etibarlı sayılan sənədlər aşağıdakılardan ibarətdir:

a) Azərbaycan Respublikası vətəndaşları üçün:

diplomatik pasport;

xidməti pasport;

Azərbaycan Respublikasının ümumvətəndaş pasportu;

dənizçi kitabçası (gəminin şəxsi heyətinin siyahısı və ya ondan çıxarış olduğu təqdirdə);

hava gəmisinin heyət üzvünün uçuş şəhadətnaməsi (müvafiq ümumi bəyannamə və ya uçuş tapşırığı olduğu təqdirdə);

Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsi (yalnız Azərbaycan Respublikasına qayıdış üçün);

b) Tacikistan Respublikası vətəndaşları üçün:

diplomatik pasport;

xidməti pasport;

ümumvətəndaş xarici pasportu;

dənizçi kitabçası (gəminin şəxsi heyətinin siyahısı və ya ondan çıxarış olduğu təqdirdə);

hava gəmisinin heyət üzvünün uçuş şəhadətnaməsi (müvafiq ümumi bəyannamə və ya uçuş tapşırığı olduğu təqdirdə);

Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsi (yalnız Tacikistan Respublikasına qayıdış üçün).

2. Yetkinlik yaşına çatmamış Azərbaycan Respublikasının vətəndaşları (18 yaşa qədər) və Tacikistan Respublikasının vətəndaşları (16 yaşına qədər) ümumvətəndaş pasportları və ya valideynlərinin və ya öz qanuni nümayəndələrinin pasportlarına məlumatların daxil edilməsi əsasında, həmçinin valideynlərinin və ya öz qanuni nümayəndələrinin notarial qaydada təsdiq edilmiş razılığına malik şəxsin müşayiəti ilə xaricə gedirlər.

3. Tərəflər qüvvədə olan sənədlərə dəyişikliklərin edilməsi, həmçinin xaricə getmək üçün etibarlı sayılan yeni sənədlərin dövriyyəyə buraxılması haqqında 30 (otuz) gündən gec olmayaraq bir-birini diplomatik kanallar vasitəsilə məlumatlandıracaqlar və onların nümunələrini mübadilə edəcəklər.

4. Xaricə getmək üçün etibarlı sayılan sənədlərin siyahısına dəyişikliklər və əlavələr ayrıca Protokol vasitəsilə bu Sazişin 9-cu maddəsində nəzərdə tutulan qaydada rəsmiləşdirilir.

Maddə 3

1. Diplomatik və ya xidməti pasportlara malik bir Tərəfin dövlətinin vətəndaşları digər Tərəfin dövlətinin ərazisində yerləşən diplomatik nümayəndəliklər və konsulluqların əməkdaşları və işçiləri və ya diplomatik missiya, ya da onların nümayəndəlikləri statusunu daşıyan beynəlxalq təşkilatların əməkdaşları kimi öz xidməti vəzifələrinin icrasının tam müddəti ərzində bu dövlətin ərazisinə vizasız gələ, gedə və qala bilərlər.

2. Bu maddənin 1-ci bəndinin müddəaları yuxarıda qeyd olunan şəxslərin onlarla birlikdə yaşayan ailə üzvlərinə də şamil edilir.

Maddə 4

Bir Tərəfin dövlətinin vətəndaşları digər Tərəfin dövlətinin ərazisinə beynəlxalq gediş-gəliş üçün açıq olan sərhəd-buraxılış məntəqələrindən gəlir, gedir və oradan tranzit keçirlər.

Maddə 5

1. Bir Tərəfin dövlətinin vətəndaşları digər Tərəfin dövlətinin ərazisində olarkən bu dövlətin milli qanunvericiliyinə riayət etməyə borcludurlar.

2. Bir Tərəfin dövlətinin vətəndaşları digər Tərəfin dövlətinin ərazisində olarkən onun qanunvericiliyini pozarlarsa, qaldıqları dövlətin qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyacaqlar.

Maddə 6

Bu Saziş Tərəflərin digər Tərəfin dövlətinin öz ərazisində qalması arzu-olunmaz sayılan vətəndaşlarına ölkəyə gəlməkdən imtina etmək və ya qalma müddətini qısaltmaq hüquqlarını məhdudlaşdırmır.

Maddə 7

1. Bir Tərəfin dövlətinin vətəndaşları digər Tərəfin dövlətinin ərazisində bu Sazişin 2-ci maddəsində qeyd olunan sənədləri itirdikləri halda, bu barədə qaldıqları dövlətin sənədlərin itirilməsi faktını təsdiq edən arayış verən səlahiyyətli orqanlarına təcili surətdə bildirməlidirlər.

2. Diplomatik nümayəndəliklər və konsulluqlar bu maddənin 1-ci bəndində qeyd olunan şəxslərə vətənə qayıdış şəhadətnaməsi verirlər.

Maddə 8

Tərəflər gəlmək, qalmaq və getmək şərtlərində dəyişikliklər barədə 30 gündən gec olmayaraq diplomatik kanallar vasitəsilə bir-birinə məlumat verəcəklər.

Maddə 9

Tərəflər qarşılıqlı razılıq əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və bu Sazişin 12-ci maddəsinə uyğun olaraq qüvvəyə minən ayrı-ayrı protokollar vasitəsilə tərtib edi-

lən dəyişikliklər və əlavələr edə bilər.

Maddə 10

Bu Sazişin təfsiri və icrası ilə bağlı olan mübahisəli məsələlər Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə tənzimlənir.

Maddə 11

1. Tərəflərdən hər biri dövlət təhlükəsizliyinin, ictimai asayişin təmin edilməsi və ya öz dövlətinin əhalisinin sağlamlığının qorunması üçün zəruri olarsa, bu Sazişin qüvvəsini bütövlükdə və ya qismən dayandırmaq hüququna malikdir.

2. Tərəflər bu maddənin 1-ci bəndində nəzərdə tutulan tədbirlərin görülməsi və ya ləğv edilməsi barəsində təxirə salmadan bir-birinə məlumat verəcəklər.

Maddə 12

1. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

2. Tərəflərdən hər biri digər Tərəfə bildirməklə bu Sazişin qüvvəsini ləğv edə bilər. Bu halda Saziş digər Tərəfin belə bildirişini aldığı tarixdən 90 (doxsan) gün bitdikdən sonra qüvvəsini itirir.

Bu Saziş Düşənbə şəhərində 2007-ci il martın 15-də iki nüsxədə, hər biri Azərbaycan, tacik və rus dillərində imzalanmışdır, bütün mətnlər autentikdir. Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə rus dilindəki mətndən istifadə edilir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TACİKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*XAMROXON ZARİPOV*
Xarici işlər naziri	*Xarici işlər naziri*

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında" 2007-ci il martın 15-də Düşənbə şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 iyun 2007-ci il

№366-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti,

hər iki ölkənin qarşılıqlı faydası üçün iqtisadi əməkdaşlığı möhkəmləndirmək və Razılığa gələn bir Tərəfin investisiyaları üçün Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində ədalətli və bərabər şərait yaratmaq niyyətində olaraq,

bu Saziş əsasında investisiyaların təşviqi və qarşılıqlı qorunmasının sahibkarlıq təşəbbüsünə təkan verəcəyini etiraf edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Anlayışlar

Bu Sazişin məqsədi üçün:

1. "İnvestisiya" termini Razılığa gələn bir Tərəfin investoru tərəfindən Razılığa gələn digər Tərəfin ərazisində Razılığa gələn sonuncu Tərəfin qanunvericiliyinə uyğun olaraq yaradılmış və ya əldə edilmiş istənilən aktivlər maddəsi, o cümlədən, lakin müstəsna olmamaqla:

a) daşınar və daşınmaz əmlak və ya girov, borca görə əmlaka həbs qoyulma, müqavilə öhdəlikləri, icarə müqaviləsi (icarə), uzufrukt və digər hüquqlar kimi istənilən mülkiyyət hüquqları;

b) patent, müəllif hüququ, texniki proses, ticarət nişanı, sənaye nümunələri, firma adları, istehsalat sirləri və firmanın nüfuzu kimi əqli mülkiyyət hüquqları;

c) təsərrüfat fəaliyyətinin həyata keçirilməsi hüququ, o cümlədən tədqiqat, işlənilmə, hasilat və ya istismar üçün qanun və ya müqaviləyə əsasən əldə olunmuş konsessiya üzrə hüquq deməkdir.

Mülkiyyət dəyərlərinin investisiya və ya reinvestisiya edilməsi formasında hüquqi dəyişiklik onların investisiya xarakterinə təsir etmir.

2. "Gəlir" termini investisiya nəticəsində gəlir kimi əldə edilən məbləği ifadə edir. Xüsusilə, lakin müstəsna olmamaqla, mənfəət, dividendlər, faiz ödənişləri, qonorarlar, kapital artımı, royalti, lisenziya və komisyon mükafatlarını daxil edir.

Gəlirə münasibətdə ilkin investisiyalara tətbiq olunan rejim həyata keçiriləcəkdir.

3. "İnvestor" termini:

a) Razılığa gələn digər Tərəfin dövlətinin vətəndaşlığına malik olan və ya onun ərazisində daimi yaşayan istənilən fiziki şəxs,

b) Razılığa gələn Tərəflərdən birinin dövlətinin qanunvericiliyinə uyğun yaradılmış, onun ərazisində yerləşən və qanunvericiliyinə görə Razılığa gələn digər Tərəfin ərazisində investisiya qoyuluşunu həyata keçirmək imkanı olan istənilən hüquqi şəxs deməkdir.

4. "Ərazi" termini aşağıdakılara münasibətdə istifadə edilir:

a) Azərbaycan Respublikasına münasibətdə - onun hüdudları çərçivəsində yerin təki, dənizin dibi, kontinental şelf və təbii ehtiyatlara münasibətdə Azərbaycan Respublikasının öz suveren hüquqlarını həyata keçirəcəyi Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı daxil olmaqla Azərbaycan Respublikasının ərazisi, habelə beynəlxalq hüquqa və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq müəyyən edilə bilən istənilən digər ərazi;

b) Tacikistan Respublikasına münasibətdə - Tacikistan Respublikasının ərazisi.

5. "Müvəkkil institut" termini Razılığa gələn Tərəflərdən birinin agentliyini, nümayəndəliyini, zaminini, kreditorunu ifadə edir.

Maddə 2

İnvestisiyaların təşviqi və qorunması

1. Razılığa gələn hər bir Tərəf öz dövlətinin qanunvericiliyinə uyğun olaraq, Razılığa gələn digər Tərəfin investorlarının investisiyalarını təşviq etməli, onlar üçün əlverişli şərait yaratmalıdır.

2. Razılığa gələn hər bir Tərəf öz dövlətinin ərazisində Razılığa gələn digər Tərəfin investorlarının investisiyaları üçün əlverişli rejim yaratmalı və onların qorunması və təhlükəsizliyini təmin etməlidir.

3. Razılığa gələn heç bir Tərəf öz dövlətinin ərazisində Razılığa gələn digər Tərəfin investorlarının investisiyalarının idarə olunmasını, təminatım, istifadəsini, yığımını və ötürülməsini səbəbsiz olaraq, zor gücünə və ya ayrı-seçkilik edərək məhdudlaşdıra bilməz.

4. Razılığa gələn heç bir Tərəf material, istehsal vasitələrinin əldə olunması, daşıma, əmtəə ticarəti ilə əlaqədar səbəbsiz olaraq və ayrı-seçkiliyə yol verərək, Razılığa gələn digər Tərəfin investorlarının investisiyaları ilə bağlı məcburi tədbirlərin həyata keçirilməsini tələb etməyəcəkdir.

5. Razılığa gələn hər bir Tərəf dövlətinin milli qanunvericiliyi çərçivəsində onun dövlətinin ərazisində investisiyalarla əlaqədar zəruri icazələrin verilməsinə dair, o cümlədən investorların seçimi ilə rəhbər işçilərin, menecerlərin, mütəxəssislərin və texniki personalın işə götürülməsinə dair müraciətlərə xoş məramla baxacaqdır.

Maddə 3

İnvestisiya rejimi

1. Razılığa gələn hər bir Tərəf öz dövlətinin ərazisində Razılığa gələn digər Tərəfin investorları və investisiyalarla bağlı fəaliyyət üçün öz investorları və ya üçüncü dövlətlərin investorları üçün təmin etdiyi rejimdən az əlverişli olmayan rejim təmin edir.

2. Bu rejim aşağıdakılara şamil olunmur:

a) sərbəst ticarət zonasında, gömrük ittifaqında və ya iqtisadi birlikdə, valyuta birli-

yində və ya belə birliyin yaradılmasını təmin edən beynəlxalq müqavilədə, yaxud Razılığa gələn Tərəfin qoşulduğu və ya qoşula biləcəyi beynəlxalq əməkdaşlığın digər formalarında iştirak;

b) Razılığa gələn Tərəflərdən birinin digər ölkələrin investorlarına münasibətdə ikiqat vergiqoymanın aradan qaldırılması və ya vergi məsələləri ilə bağlı digər razılaşmalar əsasında tətbiq etdiyi güzəştlər.

Maddə 4

Şəffaflıq

Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin investorlarının investisiyalarına təsir edə biləcək normativ hüquqi aktların, habelə tərəfdar çıxdığı beynəlxalq müqavilələrin onların qüvvəyə minməsindən sonra dərhal nəşr edilməsi və ya digər yolla ictimaiyyətə çatdırılmasını təmin edəcəkdir.

Maddə 5

İnvestisiya zəmanəti

1. Razılığa gələn Tərəflərdən birinin investorlarının Razılığa gələn digər Tərəfin dövlətinin ərazisindəki investisiyaları, ictimai mənafe baxımından və aşağıdakı qaydada baş verən hallar istisna olmaqla, ekspropriasiya edilməyəcək, milliləşdirilməyəcək və ya ekspropriasiyaya bərabər nəticələr verən tədbirlərə məruz qalmayacaqdır:

ekspropriasiyanı həyata keçirən Razılığa gələn Tərəfin dövlətinin qanunvericiliyi ilə müəyyən olunmuş qaydada;

ayrı-seçkilik olmadan;

adekvat kompensasiyanın gecikdirilmədən ödənilməsilə.

2. Kompensasiyanın məbləği investisiyanın ekspropriasiyasının həyata keçirilməsi anında və ya ekspropriasiyanın baş verməsinin və ya belə təhlükənin mövcudluğu barədə rəsmi məlumatın olduğu anda (bunlardan hansı daha tez baş verərsə) müəyyən olunur.

3. Kompensasiyanın məbləği cari bazar qiymətləri və/və ya auditor, yaxud auditor firması tərəfindən təsdiqlənmiş əsaslandırılmış qiymət əsasında hesablanır və Razılığa gələn bir Tərəfin dövlətinin ərazisindən Razılığa gələn digər Tərəfin dövlətinin ərazisinə sərbəst köçürülür.

4. Kompensasiya investisiyalar qoyulan valyuta ilə və yaxud investorun razılığı ilə digər sərbəst dönərli valyuta ilə ödənilir.

Maddə 6

Zərərin ödənilməsi

İnvestisiyalarına Razılığa gələn digər Tərəfin ərazisində müharibə, silahlı münaqişə, fövqəladə vəziyyət, vətəndaş qarşıdurması və ya oxşar vəziyyətlərdə zərər dəymiş Razılığa gələn bir Tərəfin investorlarına münasibətdə, yuxarıdakılar nəticəsində baş verən ziyanın əvəzinin ödənilməsi zamanı üçüncü ölkələrin investorlarına münasibətdə tətbiq olunan rejimdən az əlverişli olmayan rejim tətbiq olunur.

Maddə 7

Köçürmələr

1. Razılığa gələn hər bir Tərəf investisiyalarla bağlı istənilən ödəmələrin sərbəst dönərli valyutada gecikdirilmədən köçürülməsinə icazə verir.

2. Bu Saziş çərçivəsində bütün ödənişlər (daxili ödənişlər istisna olmaqla) sərbəst dönərli valyuta ilə, Razılığa gələn Tərəflərin dövlətinin qanunvericiliyinə uyğun olaraq həyata keçirilməlidir.

3. İnvestorun investisiyaları ilə bağlı ödəmələri köçürmək hüququ Razılığa gələn Tərəflərin dövlətinin qanunvericiliyində nəzərdə tutulan vergilərin ödənildiyi təqdirdə həyata keçirilə bilər.

Maddə 8

Subroqasiya

1. Əgər Razılığa gələn Tərəf və ya onun tərəfindən müvəkkil edilmiş hər hansı institut investisiyalar ilə əlaqədar zəmanət və ya sığorta əsasında istənilən investora ödəniş həyata keçirərsə, Razılığa gələn digər Tərəf investora mənsub olan istənilən hüquq və ya tələblərin Razılığa gələn birinci Tərəfə keçməsini (subroqasiyasını) tanıyacaqdır.

2. İnvestorun subroqasiya edilmiş hüquqları və ya tələbləri investorun ilkin hüquq və ya tələblərindən artıq olmayacaqdır.

Maddə 9

İnvesior və Razılığa gələn Tərəf arasında mübahisələr

1. Razılığa gələn bir Tərəfin və Razılığa gələn digər Tərəfin dövlətinin investoru arasında investisiyalarla bağlı mübahisələr danışıqlar yolu ilə həll ediləcəkdir.

2. Əgər danışıqlar onların başlanması haqqında yazılı təklifin verildiyi tarixdən 6 ay ərzində razılıqla nəticələnməzsə, mübahisə tərəfləri aşağıdakı şəkildə hərəkət edə bilərlər:

a) mübahisə bu Sazişin 5, 6, 7-ci maddələri üzrə öhdəliklərə aiddirsə, o, investorun xahişi ilə həll edilməsi üçün arbitraj (münsiflər) məhkəməsinə verilir;

b) bu maddənin 2-ci bəndinin a) altbəndində göstərilməyən mübahisə hər iki tərəfin razılığı ilə arbitraj (münsiflər) məhkəməsinə verilir.

3. Arbitraj (münsiflər) məhkəməsi hər bir fərdi iş üçün təşkil olunacaqdır. Mübahisədə iştirak edən Tərəflər arasında digər razılığın olmadığı təqdirdə onlardan hər biri bir hakim (münsif) təyin edir. Təyin edilmiş hakimlər (münsiflər) üçüncü dövlətin vətəndaşı olan sədri seçir.

Hakimlər (münsiflər) mübahisənin arbitraj (münsiflər) məhkəməsində baxılması haqqında müraciətin edildiyi tarixdən iki ay müddətində, sədr isə növbəti iki ay müddətində təyin olunur.

4. Bu maddənin 3-cü bəndində göstərilən müddətlər yerinə yetirilməzsə, digər razılaşmanın, olmadığı təqdirdə mübahisə tərəflərindən hər hansı biri

zəruri təyinatları həyata keçirmək xahişi ilə Parisdəki Beynəlxalq Ticarət Palatası nəzdində Arbitraj Məhkəməsinin sədrinə müraciət edə bilər. Əgər sədr göstərilən funksiyanı yerinə yetirə bilmirsə və ya Razılığa gələn Tərəfin dövlətinin vətəndaşdırsa, bu Sazişin 9-cu maddəsinin 5-ci bəndinin analoji müddəaları tətbiq edilir.

5. Tərəflər arasında digər razılaşmanın olmadığı təqdirdə arbitraj (münsiflər) məhkəməsi öz prosedur qaydalarını müəyyən edir. Qərarlar qəti və icbaridir. Razılığa gələn hər bir Tərəf arbitrajın qərarlarını qəbul və icra edir.

6. Mübahisə tərəflərinin hər biri məhkəmədə öz nümayəndəsinin saxlanması üzrə xərclərin və arbitraj (münsiflər) prosesində özünə aid xərclərin ödənilməsini öz üzərinə götürür, sədrin saxlanması üzrə xərclərin və digər xərclərin ödənilməsini onlar bərabər hissələrlə üzərinə götürürlər.

7. Mübahisə tərəfi olan Razılığa gələn Tərəf arbitraj (münsiflər) prosesinin və ya məhkəmə qərarının icrasının hər hansı mərhələsində investor tərəfindən sığorta müqaviləsi əsasında dəymiş ziyanı tam və ya qismən əhatə edən əvəzin alınması faktına istinad edə bilməz.

Maddə 10

Razılığa gələn Tərəflər arasında mübahisələr

1. Razılığa gələn Tərəflər arasında bu Sazişin müddəalarının təfsiri və ya tətbiqinə dair mübahisələr diplomatik kanallar vasitəsilə həll olunacaqdır.

2. Mübahisənin yaranması tarixindən 6 ay müddətində Razılığa gələn Tərəflər arasında razılıq əldə edilməzsə, mübahisə Razılığa gələn Tərəflərdən hər hansı birinin tələbi ilə 3 üzvdən ibarət arbitraj (münsiflər) məhkəməsinə veriləcəkdir. Razılığa gələn hər bir Tərəf bir hakim (münsif) təyin edir və onlar öz növbəsində Razılığa gələn hər iki Tərəfin dövlətləri ilə diplomatik münasibətlər saxlayan üçüncü dövlətin vətəndaşı olan sədri seçirlər.

3. Razılığa gələn Tərəflərdən biri hakim (münsif) təyin etmədiyi və Razılığa gələn ikinci Tərəfin bu təyinatı 2 ay ərzində həyata keçirmək barədə dəvəti ilə razı olmadığı təqdirdə, hakim (münsif) Razılığa gələn həmin Tərəfin xahişi ilə BMT-nin Beynəlxalq Məhkəməsinin prezidenti tərəfindən təyin olunur.

4. Əgər hər iki hakim təyin olunduqları tarixdən iki ay müddətində sədrin seçilməsi ilə bağlı razılıq əldə etməzsə o, Razılığa gələn Tərəflərdən birinin xahişi ilə BMT-nin Beynəlxalq Məhkəməsinin prezidenti tərəfindən təyin olunur.

5. Bu maddənin 3-cü və 4-cü bəndlərində nəzərdə tutulan hallarda BMT-nin Beynəlxalq Məhkəməsinin sədri hər hansı səbəbdən göstərilən funksiyasını yerinə yetirə bilmirsə və ya o, Razılığa gələn Tərəflərdən birinin dövlətinin vətəndaşıdırsa, bu təyinat vitse-prezident tərəfindən həyata keçirilir. Əgər o da hər hansı səbəbdən müvafiq funksiyanı yerinə yetirə bilmirsə, təyinat Razılığa gələn Tərəflərdən heç birinin dövlətinin vətəndaşı olmayan,

BMT-nin Beynəlxalq Məhkəməsinin ən yüksək rütbəli hakimi tərəfindən həyata keçiriləcəkdir.

6. Arbitraj (münsiflər) məhkəməsi səs çoxluğu ilə qərar qəbul edir.

7. Razılığa gələn Tərəflərdən hər biri məhkəmədə öz nümayəndəsinin saxlanılması üzrə xərclərin, eləcə də arbitraj (münsiflər) prosesində özünə aid xərclərin ödənilməsini öz üzərinə götürür. Sədrin saxlanması üzrə xərclərin və digər xərclərin ödənilməsi Razılığa gələn Tərəflərlə bərabər hissələrlə həyata keçirilir.

8. Məhkəmənin qərarları Razılığa gələn hər iki Tərəf üçün qəti və icbaridir.

Maddə 11

Sazişin tətbiqi

Bu Saziş, onun qüvvəyə minməsindən sonra qoyulacaq investisiyalara münasibətdə tətbiq edildiyi kimi, Sazişin qüvvəyə minməsi anında mövcud olan investisiyalara münasibətdə də tətbiq edilir.

Maddə 12

Qüvvəyə minmə

1. Bu Saziş Razılığa gələn Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı gündən qüvvəyə minir.

2. Bu Saziş 5 il müddətinə qüvvədə qalır. Bu müddətin başa çatmasından

sonra Razılığa gələn Tərəflərdən biri digərini yazılı şəkildə müvafiq müddətin bitməsinə ən azı 12 ay qalmış bu Sazişin qüvvəsini dayandırmaq niyyəti barədə məlumatlandırmazsa, onun müddəti avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

3. Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə ayrı-ayrı protokollarla rəsmiləşdirilən, bu Sazişin ayrılmaz hissəsi olan və bu maddənin 1-ci bəndində nəzərdə tutulmuş qaydada qüvvəyə minən dəyişikliklər və əlavələr edilə bilər.

4. Bu Sazişin qüvvəsinin dayandırılması tarixinə qədər qoyulmuş və onun təsir dairəsinə aid olan investisiyalar üçün bu Sazişin bütün digər hissələrinin müddəaları onun qüvvəsinin dayandırılması tarixindən sonra növbəti 5 il müddətində qüvvədə qalacaqdır.

Düşənbə şəhərində 2007-ci il martın 15-də hər biri Azərbaycan, tacik və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı olduqda rus dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

HEYDƏR BABAYEV
İqtisadi inkişaf naziri

TACİKİSTAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

ŞƏRİF RAXİMOV
Dövlət Əmlakının İdarəolunması üzrə Dövlət Komitəsinin sədri

"Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında" 2007-ci il martın 15-də Düşənbə şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 iyun 2007-ci il

№371-IIIQ

Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti,

nəqliyyat sahəsində qarşılıqlı faydalı əməkdaşlıq üçün əlverişli şəraitləri nəzərə alaraq,

iki dövlət arasında və onların ərazilərindən tranzitlə avtomobil əlaqələrinin gələcək inkişafına cəhd edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişə müvafiq olaraq Tərəflərin dövlətləri arasında və onların ərazilərindən tranzitlə, həmçinin üçüncü ölkəyə (ölkədən) sərnişin və yük daşımaları Tərəflərdən birinin dövlətinin ərazisində qeydiyyata alınmış avtonəqliyyat vasitəsilə həyata keçirilir.

Maddə 2

Anlayışlar

Bu Sazişin məqsədləri üçün göstərilən terminlər aşağıdakı mənaları daşıyır:

a) "səlahiyyətli orqan" - Hökumət tərəfindən bu Sazişin maddələrinin yerinə yetirilməsinə səlahiyyət verilmiş orqan;

b) "daşıyıcı" - Tərəflərdən birinin dövlətinin ərazisində qeydə alınmış, Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinə əsasən beynəlxalq avtomobil sərnişin və ya yük daşımalarını yerinə yetirməyə buraxılan istənilən fiziki və ya hüquqi şəxs;

c) "avtonəqliyyat vasitəsi":

yüklərin daşınmasında - yük avtomobili, qoşqulu yük avtomobili, dartıcı avtomobil və ya yarımqoşqulu dartıcı avtomobil;

sərnişinlərin daşınmasında - avtobus, sərnişinlərin daşınması üçün nəzərdə tutulmuş və sürücünün yeri də daxil olmaqla, doqquzdan artıq oturacağı olan avtobus, yəni nəqliyyat vasitəsi, eləcə də baqaj daşınması üçün qoşqu;

ç) "müntəzəm sərnişin daşımaları" - Tərəflərin səlahiyyətli orqanları arasında qabaqcadan razılaşdırılmış tariflər, hərəkət cədvəlləri, hərəkətin başlanğıc və son, eləcə də sərnişinlərin minib-düşmə məntəqələri göstərilmiş marşrut üzrə avtonəqliyyat vasitələri ilə həyata keçirilən sərnişin daşımaları;

d) "qeyri-müntəzəm daşımalar" - bütün digər daşımalar;

e) "tranzit daşımalar" - Tərəflərdən birinin dövlətinin ərazisindən keçməklə üçüncü ölkələrə həyata keçirilən daşımalar;

ə) "üçüncü ölkələr" - bu Sazişdə iştirak etməyən dövlətlər;

f) "icazə" - Tərəflərdən birinin dövlətinin ərazisində qeydiyyata alınmış avtomobil nəqliyyat vasitəsinin digər Tərəfin ərazisinə daxil olmasına və ya girib-çıxmasına, eləcə də Tərəflərin səlahiyyətli orqanları tərəfindən verilən digər Tərəfin ərazisindən tranzitlə keçməsinə hüquq verən sənəd;

g) "xüsusi icazə" - ərazisində daşıma həyata keçirilən Tərəfin milli qanunvericiliyinə uyğun olaraq avtonəqliyyat vasitələri ilə böyük ölçülü, ağır çəkili, həmçinin təhlükəli yüklərin daşınmasını yerinə yetirməyə hüquq verən sənəd;

ğ) "sanitar nəzarəti" - sanitar, baytar, eləcə də fitosanitar nəzarət.

SƏRNİŞİN DAŞIMALARI

Maddə 3

Müntəzəm daşımalar

1. Avtobuslarla müntəzəm sərnişin daşımaları Tərəflərin səlahiyyətli orqanları arasında razılaşdırılaraq təşkil edilir.

2. Belə daşımaların təşkilinə dair təkliflər Tərəflərin səlahiyyətli orqanları tərəfindən bir-birinə qabaqcadan verilir. Bu təkliflərdə daşıyıcının (şirkətin) adı, hərəkət marşrutu və cədvəli, tariflər, daşıyıcının sərnişinləri düşürəcəyi və mindirəcəyi dayanacaq məntəqələri, habelə daşımaların yerinə yetirilməsinin nəzərdə tutulan müddəti və müntəzəmliyi barədə məlumatlar olmalıdır.

3. Tərəflərin səlahiyyətli orqanları müntəzəm sərnişin daşımalarını həyata keçirilməsi üçün yolun öz dövlətlərinin ərazilərindən keçən hissəsinə yazılı surətdə icazə verəcəklər.

Maddə 4

Qeyri-müntəzəm daşımalar

1. Bu Sazişin 5-ci maddəsində nəzərdə tutulan daşımalar istisna olmaqla, iki dövlət arasında və ya onların ərazilərindən tranzitlə avtobuslarla qeyri-müntəzəm sərnişin daşımalarını həyata keçirmək üçün hər bir ayrı halda, əgər icazənin özündə başqa hal nəzərdə tutulmayıbsa, digər Tərəfin səlahiyyətli orqanlarının, hər iki başa bir reys həyata keçirmək hüquqi verən icazəsi tələb olunur. Tərəflərin səlahiyyətli orqanları icazələrin

verilmə qaydalarını və formasını öz aralarında razılaşdırırlar.

2. Tərəflərin səlahiyyətli orqanları icazə blanklarının mübadilə qaydası və müddətlərini müəyyən edirlər.

Maddə 5

1. Eyni tərkibdə olan sərnişin qrupu eyni avtobusla bütün yol boyu daşındıqda iki dövlət arasında və ya onların ərazilərindən tranzitlə avtobusla qeyri-müntəzəm sərnişin daşımaları üçün aşağıdakı hallarda bu Sazişin 4-cü maddəsində göstərilən icazələr tələb edilmir:

a) səfər avtobusun qeydiyyata alındığı Tərəfin dövlətinin ərazisində başlanır və tamamlanır;

b) səfər avtobusun qeydiyyata alındığı Tərəfin dövlətinin ərazisində başlanır və digər Tərəfin dövlətinin ərazisində tamamlanır, bir şərtlə ki, avtobus bu ərazini sərnişinsiz tərk edir, yaxud əvvəlcədən gətirilmiş sərnişin qrupunu götürmək üçün ərazіyə sərnişinsiz daxil olur.

2. Nasaz avtobusun başqa avtobusla dəyişdirilməsi zamanı qeyri-müntəzəm daşımaların yerinə yetirilməsi üçün icazə tələb olunmur.

3. Bu maddənin 1-ci bəndində nəzərdə tutulan daşımaların yerinə yetirilməsi zamanı avtobusun sürücüsü sərnişinlərin xüsusi formada tərtib edilmiş və Tərəflərin səlahiyyətli orqanları tərəfindən razılaşdırılmış siyahısına malik olmalıdır.

YÜKLƏRİN DAŞINMASI

Maddə 6

1. Bu Sazişin 7-ci maddəsində nəzərdə tutulmuş daşımalar istisna olmaqla, iki ölkə arasında və ya onların ərazilərindən tranzitlə yüklərin yük avtonəqliyyat vasitələrilə daşınması Tərəflərin səlahiyyətli orqanlarının verdikləri icazələr əsasında həyata keçirilir.

2. Əgər icazənin özündə başqa şərtlər nəzərdə tutulmamışdırsa, hər bir yük daşınması üçün hər iki başa bir reys həyata keçirmək hüquqi verən ayrıca icazə verilir.

Maddə 7

1. Aşağıdakı daşımaların yerinə yetirilməsi zamanı bu Sazişin 6-cı maddəsində göstərilən icazələr tələb edilmir:

a) yarmarka və sərgilər üçün nəzərdə tutulmuş eksponatlar, avadanlıq və materialların daşınması;

b) idman tədbirləri keçirmək üçün nəzərdə tutulmuş nəqliyyat vasitələri, heyvanlar, habelə müxtəlif inventar və əmlakın daşınması;

c) kino çəkilişləri, radio və televiziya verilişləri üçün teatr dekorasiyaları və rekvizitləri, musiqi alətləri, avadanlıq və ləvazimatın daşınması;

ç) cənazələrin daşınması;

d) poçt daşımaları;

e) Tərəflərdən birinin dövlətinin ərazisində qeydiyyata alınmış zədələnmiş avtonəqliyyat vasitələrinin daşınması;

ə) köçmə zamanı əmlakın daşınması;

f) fövqəladə hallar zamanı (xüsusilə təbii fəlakətlər və humanitar yüklərin daşınması zamanı) yardım göstərmək üçün tibbi avadanlığın və dərmanların daşınması.

Texniki yardım avtomobillərinin gedişi üçün icazə tələb olunmur.

2. Bu maddənin 1-ci bəndinin a), b) və c) yarımbəndlərində nəzərdə tutulmuş istisnaslar, yalnız yük avtonəqliyyat vasitəsinin qeydiyyata alındığı dövlətin ərazisinə qaytarıldığı və ya üçüncü ölkənin ərazisində daşındığı halda qüvvədə olur.

Maddə 8

1. Tərəflərdən birinin yüksüz və ya yüklə gedən avtonəqliyyat vasitəsinin qabaritləri və ya çəkisi digər Tərəfin dövlətinin ərazisi üçün müəyyən edilmiş normalardan artıq olduqda, daşıyıcı qabaqcadan digər Tərəfin səlahiyyətli orqanlarının xüsusi icazəsini almalıdır.

2. Əgər bu maddənin 1-ci bəndində göstərilən icazə avtonəqliyyat vasitəsinin müəyyən marşrutla hərəkətini nəzərdə tutursa, daşınma həmin marşrut üzrə həyata keçirilməlidir.

3. Təhlükəli yüklərin daşınması zamanı Tərəflər onların dövlətlərinin iştirakçısı olduğu beynəlxalq müqavilələrin, eləcə də Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinin bütün tələblərinin yerinə yetirilməsini təmin etməlidirlər.

ÜMUMİ MÜDDƏALAR

Maddə 9

1. Tərəflərin səlahiyyətli orqanları hər il bir-birinə yük daşımaları, eləcə də qeyri-müntəzəm sərnişin daşımaları üçün razılaşdırılmış miqdarda icazə blanklarını verəcəklər. Bu blanklarda icazəni verən səlahiyyətli orqanın möhürü və imzası olmalıdır.

2. Əgər daşıyıcı digər Tərəfin səlahiyyətli orqanının müvafiq icazəsini almış olarsa, həmin Tərəfin dövlətinin ərazisindən üçüncü ölkənin ərazisinə, eləcə də üçüncü ölkənin ərazisindən həmin Tərəfin dövlətinin ərazisinə daşımaları həyata keçirə bilər.

Maddə 10

1. Bu Sazişdə nəzərdə tutulmuş daşımalar, yalnız öz dövlətinin milli qanunvericiliyinə müvafiq olaraq beynəlxalq daşımaları həyata keçirmək hüququna malik olan daşıyıcılar tərəfindən yerinə yetirilə bilər.

2. Beynəlxalq daşımaları yerinə yetirən avtonəqliyyat vasitələrində öz dövlətlərinin qeydiyyat və fərqlənmə nişanları olmalıdır.

Maddə 11

1. Avtobusun və ya yük avtomobili sürücüsündə avtonəqliyyat vasitəsinin milli qeydiyyat sənədləri və idarə etdiyi avtonəqliyyat vasitəsinin kateqoriyasına və hamı tərəfindən qəbul edilmiş beynəlxalq nümunəyə uyğun olan milli və ya beynəlxalq sürücülük vəsiqəsi olmalıdır.

2. Bu Sazişdə nəzərdə tutulmuş yük daşımaları, forması ümumi qəbul edilmiş beynəlxalq nümunəyə uyğun olan qaimələr əsasında həyata keçirilməlidir.

3. Bu Sazişə uyğun olaraq, tələb edilən icazə və digər sənədlər aid olduqları avtonəqliyyat vasitəsində olmalı və səlahiyyətli orqanların tələbi ilə təqdim edilməlidir.

Maddə 12

1. Bu Sazişə uyğun olaraq, Tərəflərin dövlətinin ərazilərində qeydiyyata

alınmış avtonəqliyyat vasitələrilə beynəlxalq daşımalar (tranzit də daxil olmaqla), Tərəflərin milli qanunvericiliklərinə müvafiq olaraq dövlət ödənişlərini ödəmək şərtilə həyata keçirilir.

2. Vergilərin və dövlət rüsumlarının ödənilməsində güzəştlərin verilməsi şərtləri Tərəflərdən hər birinin dövlətinin milli qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 13

1. Bu Saziş Tərəfin dövlət maraqlarına və təhlükəsizlik məsələlərinə xələl gətirə biləcək tranzitə qadağalar tətbiq edilməsini istisna etmir.

2. Tərəflərdən birinin dövlətinin daşıyıcısına, digər Tərəfin dövlətinin ərazisində yerləşən məntəqələr arasında sərnişin və ya yük daşımalarını həyata keçirməyə icazə verilmir.

Maddə 14

Bu Saziş çərçivəsində həyata keçirilən hesablaşma və ödənişlər, ödəniş günü qüvvədə olan Tərəflər arasında hesablaşma və ödənişlər barədə Sazişlərə müvafiq olaraq aparılacaqdır.

Maddə 15

Sərhəd, gömrük və sanitar nəzarətinə münasibətdə, hər iki Tərəfin iştirakçısı olduğu beynəlxalq müqavilələrin müddəaları, həmin müqavilələrlə tənzimlənməyən məsələlərin həlli zamanı isə Tərəflərin milli qanunvericiliyi tətbiq ediləcəkdir.

Maddə 16

Ağır xəstələrin daşınması, avtobuslarla sərnişinlərin müntəzəm daşınması, habelə heyvanların və tez korlanan yüklərin daşınması zamanı sərhəd, gömrük və sanitar nəzarəti növbədən kənar keçiriləcəkdir.

Maddə 17

1. Bu Saziş əsasında daşımaların yerinə yetirilməsi zamanı digər Tərəfin ərazisinə gətirilən aşağıdakı materiallar və ehtiyat hissələri gömrük rüsumlarından azad edilirlər:

a) avtonəqliyyat vasitəsinin hər bir modeli üçün nəzərdə tutulan və mühərrikin qida sistemi ilə texnoloji və konstruktiv cəhətdən bağlı olan qablardakı yanacaq;

b) daşıma zamanı avtonəqliyyat vasitəsinin normal istismarı üçün zəruri olan miqdarda sürtgü materialları;

c) beynəlxalq daşımaları yerinə yetirən avtonəqliyyat vasitəsinin təmiri üçün nəzərdə tutulan ehtiyat hissələri və alətlər.

2. İstifadə edilməmiş ehtiyat hissələri geri qaytarılmalıdır, dəyişdirilmiş ehtiyat hissələri isə ölkədən çıxarılmalı, yaxud ləğv edilməlidir və ya müvafiq Tərəfin dövlətinin ərazisində müəyyən edilmiş qaydada təhvil verilməlidir.

Maddə 18

Bu Saziş əsasında sərnişin və yük daşımaları yalnız hər bir avtonəqliyyat vasitəsi sahibinin üçüncü şəxsə vurduğu ziyana görə qabaqcadan icbari mülki məsuliyyətin sığortalanması şərtilə həyata keçirilə bilər.

Maddə 19

Daşıyıcılar avtonəqliyyat vasitəsinin ərazisində olduğu dövlətin milli qanunvericiliyinə və yol hərəkəti qaydalarına əməl etməlidirlər.

Maddə 20

1. Tərəflərdən birinin dövlətinin daşıyıcısı digər Tərəfin dövlətinin ərazisində bu Sazişin müddəalarını pozduğu halda, həmin Tərəfin səlahiyyətli orqanları avtonəqliyyat vasitəsinin qeydiyyatda olduğu Tərəfin səlahiyyətli orqanlarını bu barədə məlumatlandırırlar.

2. Ərazisində pozuntuya yol verilmiş Tərəfin səlahiyyətli orqanları digər Tərəfin səlahiyyətli orqanlarına pozuntunu törətmiş daşıyıcıya aşağıdakı cəzaların tətbiq edilməsi barədə təkliflə müraciət edə bilər:

a) xəbərdarlıq etmək;

b) pozuntu baş verən Tərəfin dövlətinin ərazisində daşıyıcını daşıma hüquqlarından müvəqqəti, qismən və ya tamamilə məhrum etmək.

3. Tərəflərin səlahiyyətli orqanları bu maddənin 2-ci bəndinə əsasən görülən tədbirlər barədə bir-birinə vaxtında məlumat verirlər.

4. Bu maddənin müddəaları digər Tərəfin daşıyıcısına ərazisində pozuntu

baş vermiş dövlətin milli qanunvericiliyində nəzərdə tutulmuş sanksiyaların tətbiq edilməsini istisna etmir.

Maddə 21

1. Bu Sazişin müddəalarının yerinə yetirilməsi və meydana çıxan mübahisəli məsələlərin həlli üçün Tərəflər daimi əsasda fəaliyyət göstərəcək Qarışıq Komissiya yaradırlar.

2. Əgər Tərəflərdən birinin təklifi ilə təcili çağırışa zərurət yaranmazsa, Qarışıq Komissiyanın iclası ildə bir dəfədən tez olmayaraq növbə ilə Tərəflərin dövlətlərinin ərazisində keçirilir.

3. Qarışıq Komissiya daşımaların həyata keçirilməsi üçün icazələrin kontingentini müəyyən etmək və sonradan təsdiq edilməsi barədə təklif verməklə, bu Sazişin maddələrinə düzəlişlər tərtib etmək hüququna malik olur.

4. Sərnişin və yük daşımaları ilə əlaqədar praktiki məsələlər bilavasitə Tərəflərin daşıyıcıları arasında tənzimlənir. Bu məqsədlə daşıyıcılar Tərəflərin səlahiyyətli orqanları ilə razılaşmaya əsasən digər Tərəfin ərazisində öz nümayəndəliklərini təsis edə bilərlər.

Maddə 22

Bu Sazişin yerinə yetirilməsi üçün Tərəflərin səlahiyyətli orqanları aşağıdakılardır:

Azərbaycan Respublikası tərəfindən - Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi;

Tacikistan Respublikası tərəfindən - Tacikistan Respublikasının Nəqliyyat və Kommunikasiya Nazirliyi.

YEKUN MÜDDƏALAR

Maddə 23

Tərəflər bu Sazişin təfsiri və tətbiqi ilə bağlı yarana biləcək bütün mübahisəli məsələləri danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

Maddə 24

Bu Saziş Tərəflərin bağladıqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 25

Tərəflərin qarşılıqlı razılığına əsasən bu Sazişə onun ayrılmaz hissəsi olan və 26-cı maddəsinə uyğun olaraq qüvvəyə minən ayrı-ayrı protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 26

1. Bu Saziş 5 (beş) illik müddətə bağlanılır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin diplomatik kanallarla sonuncu bildirişi aldığı tarixdən 30 gün müddəti başa çatdıqdan sonra qüvvəyə minir.

2. Tərəflərdən biri Sazişin müddətinin başa çatmasına ən azı 6 ay qalmış diplomatik kanallar vasitəsilə digər Tərəfə Sazişin ləğv edilməsi niyyəti barədə bildiriş təqdim etməzsə, Saziş növbəti beşillik müddətlərə uzadılacaqdır.

Düşənbə şəhərində 15 mart 2007-ci ildə hər biri Azərbaycan, tacik və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir.

Bu Sazişin təfsiri və tətbiqi zamanı fikir ayrılığı yarandıqda, rus dilində olan mətndən istifadə olunacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ZİYA MƏMMƏDOV
Nəqliyyat naziri

TACİKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ABDURAXİM AŞUROV
Nəqliyyat və kommunikasiyalar naziri

2007-ci il aprelin 11-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Hindistan Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il aprelin 11-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Hindistan Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Hindistan Respublikası Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 iyun 2007-ci il

№2212

Azərbaycan Respublikası Hökuməti və Hindistan Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq üzrə Hökumətlərarası komissiya haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Hindistan Respublikası Hökuməti,

Razılığa gələn Tərəflərin iqtisadiyyatlarının dinamik şəkildə daimi inkişafını təşviq etmək istəyini əsas tutaraq,

qarşılıqlı fayda və bərabərlik prinsiplərinə əsaslanmaqla, uzunmüddətli və sabit əsasda ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlığı gücləndirməyi və inkişaf etdirməyi arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

1 maddə

Razılığa gələn Tərəflər bundan sonra "komissiya" adlandırılacaq Ticarət, İqtisadi, Elmi və Texnoloji Əməkdaşlıq üzrə Azərbaycan-Hindistan Hökumətlərarası Komissiyasını təsis edirlər.

2 maddə

Komissiyanın vəzifələri aşağıdakılardır:

a) Razılığa gələn Tərəflər arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq haqqında Sazişin və Azərbaycan və Hindistan arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq sahəsində digər sazişlərin icrası zamanı yaranan məsələlərə baxılması;

b) ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlığın sonrakı inkişaf imkanlarının araşdırılması;

c) əməkdaşlığın bərqərar olunmasına məsləhətləşmələr və İşçi Qrupları vasitəsilə yardım edilməsi;

d) ikitərəfli əməkdaşlıq layihələri ilə əlaqədar yarana bilən iqtisadi, elmi və texniki problemləri qiymətləndirmək və onların həllinə yönələn proqramların işlənib hazırlanması;

e) qarşılıqlı maraq doğuran problemlər üzrə mütəmadi əsasda informasiya mübadiləsi edilməsi.

3 maddə

Komissiyaya Sədrlik Razılığa gələn Tərəflərin Hökumətlərinin Baş nazirinin müavinləri və ya nazirləri tərəfindən həyata keçiriləcəkdir.

Komissiya sədrlərinin müavinləri və icraçı katibləri müvafiq tərəflərin Sədrləri tərəfindən təyin edilirlər.

4 maddə

Razılığa gələn Tərəflər aşağıdakıları zəruri hesab edirlər:

a) Komissiya razılaşdırılmış tarixlərdə ən azı iki ildən bir iclaslar keçirəcəkdir;

b) Komissiyanın iclasları növbə ilə Azərbaycan Respublikasında və Hindistan Respublikasında qəbul edən ölkənin Sədrliyi altında keçirəcəkdir;

c) Komissiya öz iclaslarını Sədrlər arasındakı razılaşma da daix olmaqla təsdiq olunmuş iş cədvəlinə uyğun olaraq keçirəcəkdir;

d) Komissiyanın iclaslarında hər bir Tərəfin lazımi sayda məsləhətçiləri və ekspertləri iştirak edə bilər.

5 maddə

Razılığa gələn Tərəflər razılaşmışlar ki:

a) müntəzəm iclasların cədvəli və ilkin gündəliyi məsləhətləşmələr yolu ilə Sədrlər tərəfindən iclas tarixindən ən azı 30 gün əvvəl müəyyən olunacaqdır;

b) iclasda, əvvəlcədən müəyyən olunmuş gündəliyin bəndləri və eyni zamanda Sədrlərin razılığı ilə iclasın başlanğıcında gündəliyə daxil edilə biləcək bəndlər də müzakirə ediləcəkdir.

6 maddə

Razılığa gələn Tərəflər Sədrlərdən birinin xahişi ilə Komissiyanın xüsusi iclaslarını keçirə bilər. Razılığa gələn Tərəflərdən birinin təşəbbüsü ilə Sədrlər və ya onların müavinləri arasında xüsusi iclaslar mümkün qədər tez təşkil olunacaqdır.

7 maddə

1. Komissiyanın iclaslarında qərarlar Razılığa gələn Tərəflərin razılığı ilə qəbul olunacaqdır.

2. Komissiyanın qərarları, digər şəkildə nəzərdə tutulmayıbsa, imzalandığı gündən qüvvəyə minəcəkdir.

3. Təcili məsələlərdə qarşılıqlı razılıq ilə Komissiyanın iclasları arasındakı dövrlərdə Sədrlərin qərarlar qəbul etmək hüququ olacaqdır. Sədrlərin qərarları Komissiyanın növbəti iclasının Protokoluna daxil ediləcəkdir.

4. Sədrlərdən birinin bəyanatına əsasən, müvafiq ölkənin səlahiyyətli orqanları tərəfindən təsdiq olunmalı qərarlar belə təsdiq haqqında Sədrlərdən birinin bildiriş göndərdiyi tarixdən qüvvəyə minəcəkdir.

8 maddə

1. Komissiya iclaslarının nəticələri və qərarları Sədrlər tərəfindən imzalanacaq protokollarda öz əksini tapacaqdır.

2. Komissiyanın protokollarının mətnləri eyni qüvvəyə malik olaraq Azərbaycan, hind və ingilis dillərində tərtib olunacaqdır.

9 maddə

1. Öz vəzifələrini yerinə yetirmək üçün Komissiya daimi və müvəqqəti orqanlar, misal üçün alt komissiya, ekspert və ya işçi qrupları təsis edə bilər.

2. Komissiya öz işini Komissiya tərəfindən təsdiq edilmiş plan və qərarlara əsasən aparacaq daimi və müvəqqəti orqanların vəzifələrini, səlahiyyətlərinin hədlərini və tərkibini müəyyən edəcəkdir.

10 maddə

Razılığa gələn Tərəflərin Komissiyalarının İcraçı Katibləri müvafiq tərəfin fəaliyyətinin təşkilinə, icraçı orqanların işinin əlaqələndirilməsinə, Komissiya iclasları üçün sənədlərin hazırlanmasına, habelə Komissiyanın fəaliyyəti ilə əlaqədar olan digər təşkilati məsələlərə görə məsuliyyət daşıyacaqlar. Bu məqsədlə İcraçı Katiblər bir-biri ilə daimi əlaqədə olacaqlar.

11 maddə

Bu Sazişə Razılığa gələn Tərəflərin qarşılıqlı yazılı razılığına əsasən dəyişikliklər edilə bilər.

12 maddə

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili proseduların yerinə yetirilməsini təsdiq edən sonuncu yazılı bildirişi Tərəflərin diplomatik kanallar vasitəsilə mübadilə etdiyi tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır. Əgər həmin müddətin başa çatmasına ən azı 6 (altı) ay qalana qədər Razılığa gələn Tərəflərdən biri Razılığa gələn digər Tərəfə bu Sazişin ləğv edilməsi barədə öz niyyətini bildirməzsə, o, hər dəfə avtomatik olaraq növbəti 5 (beş) illik müddətə uzadılır.

Bu Sazişin qüvvəsinin ləğvi onun əsasında imzalanmış kontraktların qüvvədə qalmasına təsir göstərməyəcəkdir.

Bakı şəhərində 11 aprel 2007-ci il tarixində hər biri Azərbaycan, hind və ingilis dillərin-

də olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətndən istifadə olunacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	HİNDİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
HEYDƏR BABAYEV	*CAİRAM RAMEŞ*
İqtisadi inkişaf naziri	*Ticarət üzrə dövlət naziri*

"Azərbaycan Respublikası Hökuməti ilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı arasında Əməkdaşlıq Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı arasında Əməkdaşlıq Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Əməkdaşlıq Sazişini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 iyun 2007-ci il

№2214

D. M. Məmmədovun Amerika Birləşmiş Ştatlarında Azərbaycan Respublikasının səfirliyi nəzdində hərbi attaşe vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Daşdəmir Məmmədağa oğlu Məmmədov Amerika Birləşmiş Ştatlarında Azərbaycan Respublikasının səfirliyi nəzdində hərbi attaşe vəzifəsindən azad edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 iyun 2007-ci il

№2218

B. B. Ələkbərovun Türkiyə Respublikasında Azərbaycan Respublikasının hərbi attaşesi vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Baxış Bəxtiyar oğlu Ələkbərov Türkiyə Respublikasında Azərbaycan Respublikasının hərbi attaşesi vəzifəsindən azad edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 iyun 2007-ci il

№2219

R.R.Axundovun NATO-nun Brüsseldəki Qərargah - mənzilinin Hərbi Komitəsi yanında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndəsi - Azərbaycan Respublikasının NATO-dakı missiyasının hərbi məsələlər üzrə müşaviri vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Rza Rizvan oğlu Axundov NATO-nun Brüsseldəki Qərargah-mənzilinin Hərbi Komitəsi yanında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndəsi - Azərbaycan Respublikasının NATO-dakı missiyasının hərbi məsələlər üzrə müşaviri vəzifəsindən azad edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 iyun 2007-ci il

№2220

"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına daxil olması haqqında İkitərəfli Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına daxil olması haqqında İkitərəfli Protokol"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Türkiyə Respublikasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 iyun 2007-ci il

№2221

2007-ci il fevralın 7-də Tbilisi şəhərində imzalanmış "Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda - Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiya-rekonstruksiyası və istismarının prinsip və şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Saziş" üzrə Azərbaycan Respublikası Hökuməti tərəfindən səlahiyyətli orqanın müəyyən edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il fevralın 7-də Tbilisi şəhərində imzalanmış "Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda - Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiya-rekonstruksiyası və istismarının prinsip və şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Saziş" üzrə Azərbaycan Respublikası Hökuməti tərəfindən səlahiyyətli orqan Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Saziş üzrə Azərbaycan Respublikası Hökuməti tərəfindən səlahiyyətli orqanın Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin müəyyən edilməsi barədə Gürcüstan Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 iyun 2007-ci il

№2222

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təmənnasız hərbi yardım haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təmənnasız hərbi yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Türkiyə Respublikasındakı hərbi attaşesi Ənvər Əkbər oğlu İbrahimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Türkiyə Respublikasındakı hərbi attaşesi Ənvər Əkbər oğlu İbrahimova verilməsi barədə Türkiyə Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyun 2007-ci il

№2227

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı arasında maliyyə yardımının tətbiqi haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı arasında maliyyə yardımının tətbiqi haqqında Protokol"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Türkiyə Respublikasındakı hərbi attaşesi Ənvər Əkbər oğlu İbrahimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Türkiyə Respublikasındakı hərbi attaşesi Ənvər Əkbər oğlu İbrahimova verilməsi barədə Türkiyə Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 iyun 2007-ci il

№2228

"GUAM üzvü olan dövlətlərin hökumətlərinin nüvə və radiasiya təhlükəsizliyi məsələləri üzrə əməkdaşlığı və qarşılıqlı yardımı haqqında Memorandum"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "GUAM üzvü olan dövlətlərin hökumətlərinin nüvə və radiasiya təhlükəsizliyi məsələləri üzrə əməkdaşlığı və qarşılıqlı yardımı haqqında Memorandum"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Fəttah oğlu Heydərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə GUAM üzvü olan dövlətlərin hökumətlərinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 iyun 2007-ci il

№2230

"Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın iştirakçısı olan dövlətlərin 2007-2010-cu illər üçün mədəniyyət sahəsində əməkdaşlığı haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın iştirakçısı olan dövlətlərin 2007-2010-cu illər üçün mədəniyyət sahəsində əməkdaşlığı haqqında Protokol"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəz Mürsəl oğlu Qarayevə verilsin.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəz Mürsəl oğlu Qarayevə verilməsi barədə GUAM üzvü olan dövlətlərin hökumətlərinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 iyun 2007-ci il

№2232

"Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın üzvü olan dövlətlərin hökumətləri arasında beynəlxalq multimodal yük daşımaları haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın üzvü olan dövlətlərin hökumətləri arasında beynəlxalq multimodal yük daşımaları haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə GUAM üzvü olan dövlətlərin hökumətlərinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 iyun 2007-ci il

№2233

Azərbaycan Respublikası ilə Türkmənistan Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası ilə Türkmənistan Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

Komissiyanın həmsədri

Yaqub Eyyubov	- Azərbaycan Respublikasının Baş nazirinin birinci müavini

Komissiyanın üzvləri:

Natiq Əliyev	- Azərbaycan Respublikası sənaye və energetika naziri
Xələf Xələfov	- Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
İlqar Fəti-zadə	- Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini
Mikayıl Cabbarov	- Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini
Musa Pənahov	- Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini
İlham Quliyev	- Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini
Ədalət Vəliyev	- Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini
Elmar Qasımov	- Azərbaycan Respublikası təhsil nazirinin müavini
İntiqam Babayev	- Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini
Aydın Əliyev	- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri
Nazim İbrahimov	- Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri
Elşad Nəsirov	- Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayələr və marketinq üzrə vitse-prezidenti
Arif Əsgərov	- Azərbaycan Dövlət Dəmir Yolunun rəisi
Aydın Bəşirov	- Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin rəisi
Etibar Pirverdiyev	- "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti
Əlixan Məlikov	- "Azəriqaz" Qapalı Səhmdar Cəmiyyətinin sədri
Vadim Xubanov	- Azərbaycan Respublikası Milli Bankının İdarə Heyəti sədrinin müavini
Elxan Hüseynov	- Azərbaycan Respublikasının Türkmənistan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri
Kamal İsmayılzadə	- Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının MDB ölkələri ilə iqtisadi əlaqələr şöbəsinin müdiri (Komissiyanın məsul katibi)

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası ilə Türkmənistan Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Türkmənistan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 iyun 2007-ci il

№2236

Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı üzrə Komissiyanın tərkibinə dair bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1. "Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığını daha da gücləndirmək tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 noyabr tarixli, 692 nömrəli Sərəncamının 1-ci bəndində göstərilmiş Azərbaycan Respublikasının Prezidenti yanında Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı üzrə Komissiyanın aşağıdakı tərkibi müəyyən edilsin:

Komissiyanın sədri

Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Komissiyanın üzvləri:

Azərbaycan Respublikasının xarici işlər naziri

Azərbaycan Respublikasının daxili işlər naziri

Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri

Azərbaycan Respublikasının müdafiə naziri

Azərbaycan Respublikasının fövqəladə hallar naziri

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri

Azərbaycan Respublikasının ədliyyə naziri

Azərbaycan Respublikasının maliyyə naziri

Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri

Azərbaycan Respublikasının sənaye və energetika naziri

Azərbaycan Respublikasının nəqliyyat naziri

Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri

Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri

Azərbaycan Respublikasının təhsil naziri

Azərbaycan Respublikasının səhiyyə naziri

Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti

"Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru

Azərbaycan Respublikası Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin direktoru

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti

2. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişikliklər edilməsi haqqında" 2006-cı il 3 iyul tarixli, 424 nömrəli Fərmanının 1.4-cü bəndi, "Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı üzrə Komissiyanın tərkibində dəyişikliklər edilməsi barədə" 2004-cü il 28 iyul tarixli, 327 nömrəli və "Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı üzrə Komissiyanın tərkibinə dəyişiklik və əlavə edilməsi barədə" 2006-cı il 13 iyun tarixli, 1505 nömrəli sərəncamları, "Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığını daha da gücləndirmək tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 noyabr tarixli, 692 nömrəli Sərəncamına dəyişikliklər edilməsi barədə" 2003-cü il 5 sentyabr tarixli, 1312 nömrəli Sərəncamının 1-ci bəndi və "Azərbaycan Respublikası Prezidentinin bəzi sərəncamlarında dəyişikliklər edilməsi haqqında" 2005-ci il 31 oktyabr tarixli, 1080 nömrəli Sərəncamının 1.8-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 iyun 2007-ci il

№590

Azərbaycan Respublikası və Koreya Respublikası arasında 2007-ci il aprelin 23-ü və 24-də Seul şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Koreya Respublikası arasında 2007-ci il aprelin 23-ü və 24-də Seul şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyi arasında Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaradılması sahəsində Anlaşma Memorandumu;

1.2. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyi arasında şəhər nəqliyyatı əməliyyatlarının intellektual idarəetmə sisteminin yaradılması sahəsində Anlaşma Memorandumu;

1.3. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Koreya Respublikasının

Tikinti və Nəqliyyat Nazirliyi arasında dəmir yolu sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu;

1.4. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Koreya Nəqliyyat İnstitutu arasında elmi-texniki əməkdaşlıq haqqında Anlaşma Memorandumu;

1.5. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Koreya Respublikasının fövqəladə halların idarə olunması Milli Agentliyi arasında fövqəladə halların idarə olunması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu;

1.6. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Koreya Respublikasının Ehtiyatlar Korporasiyası və Koreya Respublikasının Mineral Ehtiyatlar Geoelmlər İnstitutu arasında mineral ehtiyatların işlənməsi sahəsində qarşılıqlı əməkdaşlığa dair Anlaşma Memorandumu;

1.7. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Koreya Respublikasının Milli Gənclər Komissiyası arasında gənclər sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu;

1.8. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Koreya Respublikasının İnformasiya və Rabitə Nazirliyi arasında elektron hökumətin formalaşdırılması sahəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumu;

1.9. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə Koreya Respublikasının Koreya Elektrik Enerjisi Korporasiyası arasında Anlaşma Memorandumu;

1.10. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və Koreya Milli Neft Korporasiyası arasında Anlaşma Memorandumu;

1.11. Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Koreya Respublikasının "STX ENERGY CO. LTD" Şirkəti arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1.1-1.11-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 iyun 2007-ci il

№2250

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyi arasında Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaradılması sahəsində Anlaşma Memorandumu

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyi (bundan sonra "Tərəflər") Azərbaycan Respublikasında Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaradılması sahəsində əməkdaşlıq etmək məqsədilə aşağıdakı Anlaşma Memorandumunun (bundan sonra "Memorandum" adlandırılacaq) imzalanması barədə razılığa gəldilər:

Maddə 1

Məqsədlər

1. Bu Memorandum üzrə əməkdaşlığın məqsədi Koreya Tikinti və Nəqliyyat Nazirliyi tərəfindən Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaradılması, o cümlədən müvafiq idarəetmə, texniki və mütəxəssis baxımından dəstək göstərilməsi sahəsində Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi ilə qarşılıqlı əməkdaşlığın qurulmasıdır.

2. Bu Memorandum iki ölkənin müvafiq qayda və qanunları daxilində həyata keçiriləcəkdir.

Maddə 2

Əməkdaşlıq sahələri

Memorandum çərçivəsində əməkdaşlıq aşağıdakı istiqamətləri əhatə edir:

a. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının mövcud vəziyyətinin müəyyənləşdirilməsi;

b. Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaradılması üçün planın işlənib hazırlanması;

c. Azərbaycan Respublikası mütəxəssislərinin peşə bacarıqlarının artırılması üçün Koreya Respublikasında dəniz limanı sahəsində müvafiq ixtisasartırma kurslarının təşkili;

d. Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaradılması sahəsində qarşılıqlı əməkdaşlıq;

e. Tərəflər arasında birgə qərarlaşdırılan hər hansı digər əməkdaşlıq formalarını.

Maddə 3

İcra

Tərəflər bu Memorandumun məqsədlərinə nail olmaq üçün hökumət və ya özəl təşkilatlar və digər qurumlar arasında birbaşa əlaqələri və əməkdaşlığı həvəsləndirəcək və sadələşdirəcək, onlar arasında birgə proqramların tərtib edilməsini dəstəkləyəcəklər.

Maddə 4

Məsləhətləşmələr

Tərəflər hər hansı bir Tərəfin müraciəti əsasında bu Memorandumun müddəaları ilə bağlı məsələlərə dair məsləhətləşmələr aparacaq və qarşıya çıxa biləcək hər hansı çətinlik və anlaşılmazlığın əməkdaşlıq və qarşılıqlı inam ruhunda həll edilməsi üçün birgə səy göstərəcəklər.

Maddə 5

Qüvvəyə minmə və qüvvədən düşmə

1. Bu Memorandum imzalandığı gündən qüvvəyə minir və Tərəflərdən birinin bu Memorandumu ləğv etmək niyyətindən 90 gün əvvəl bu barədə yazılı müraciəti daxil olana qədər qüvvədə qalır.

2. Bu Memoranduma Tərəflərin qarşılıqlı yazılı razılığı ilə düzəlişlər edilə bilər.

Seul şəhərində 23 aprel 2007-ci il tarixində Azərbaycan, Koreya və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir. Bu Memorandumun müddəalarının təfsiri zamanı mübahisələr yaranarsa, ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ NƏQLİYYAT NAZİRLİYİ ADINDAN	KOREYA RESPUBLİKASININ TİKİNTİ VƏ NƏQLİYYAT NAZİRLİYİ ADINDAN
ZİYA MƏMMƏDOV	*Lİ YONQ-SUP*
Nəqliyyat naziri	*Tikinti və nəqliyyat naziri*

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyi arasında şəhər nəqliyyatı əməliyyatlarının intellektual idarəetmə sisteminin yaradılması sahəsində Anlaşma Memorandumu

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyi (bundan sonra "Tərəflər") şəhər nəqliyyatı əməliyyatlarının intellektual idarəetmə sisteminin (bundan sonra "İİS") yaradılması sahəsində əməkdaşlıq etmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Məqsədlər

1. Bu Anlaşma Memorandumu (bundan sonra "Memorandum") üzrə əməkdaşlığın məqsədi Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyinin İİS-in yaradılmasında fəal iştirak etməsi, eləcə də Azərbaycan Respublikası tərəfindən yaradılması nəzərdə tutulan İİS-lə bağlı layihələr üzrə inzibati, texniki və mütəxəssis baxımından dəstək göstərilməsi, beləliklə də Azərbaycan Respublikasında İİS-in uğurla qurulmasına səy göstərilməsidir.

2. Bu Memorandum iki ölkənin müvafiq qayda və qanunları çərçivəsində həyata keçiriləcəkdir.

Maddə 2

Əməkdaşlıq sahələri

Bu Memorandum çərçivəsində əməkdaşlıq aşağıdakı istiqamətləri əhatə edir:

a. İİS ilə əlaqədar müasir texnologiya və innovasiya proqramları üzrə məlumatların mübadiləsi;

b. Bakı şəhərində mövcud olan nəqliyyat problemlərinin həlli üçün küçələrin, yolların və prospektlərin buraxılış qabiliyyətinin artırılmasını, tıxacların aradan qaldırılmasının və nəqliyyat vasitələrinin nizamlı və təhlükəsiz hərəkətini təmin etmək məqsədilə İİS-in tətbiq edilmə imkanlarının öyrənilməsi;

c. Bu maddənin "b" alt bəndində nəzərdə tutulmuş müddəaların gerçəkləşdirilməsi məqsədilə müvafiq tədqiqat işlərinin aparılması və layihənin həyata keçirilməsi;

d. İİS sahəsində mütəxəssislərin hazırlanması;

e. Şəhər nəqliyyatının tənzimlənməsi və idarə olunmasını təmin edən normativ hüquqi sənədlərin və standartların işlənib hazırlanması;

f. Tərəflər arasında birgə razılaşdırıla biləcək hər hansı digər əməkdaşlıq formaları.

Maddə 3

İcrası

Tərəflər bu Memorandumun məqsədlərinə nail olmaq üçün hökumət və ya özəl təşkilatlar və digər qurumlar arasında birbaşa əlaqələri və əməkdaşlığı həvəsləndirən yardım edəcək, onlar arasında birgə proqramların tərtib edilməsini dəstəkləyəcəklər.

Maddə 4

Qüvvəyə minmə və qüvvədən düşmə

1. Bu Memorandum imzalandığı gündən qüvvəyə minir və Tərəflərdən birinin bu Memorandumu ləğv etmək niyyətindən 90 gün əvvəl bu barədə yazılı müraciəti daxil olana qədər qüvvədə qalır.

2. Bu Memoranduma Tərəflərin qarşılıqlı yazılı razılığı ilə düzəlişlər edilə bilər.

Bu Memorandum Seul şəhərində 23 aprel 2007-ci il tarixində Azərbaycan, Koreya və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir. Bu Memorandumun müddəalarının təfsiri zamanı mübahisələr yaranarsa, ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ NƏQLİYYAT NAZİRLİYİ ADINDAN	KOREYA RESPUBLİKASININ TİKİNTİ VƏ NƏQLİYYAT NAZİRLİYİ ADINDAN
ZİYA MƏMMƏDOV	*Lİ YONQ-SUP*
Nəqliyyat naziri	*Tikinti və nəqliyyat naziri*

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyi arasında dəmir yolu sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyi,

Azərbaycan Respublikasında dəmir yollarının təkmilləşdirilməsi və yenidən qurulması, innovasiya proqramlarının və yeni texnologiyaların tətbiqi sahəsində əməkdaşlıq etmək məqsədilə,

aşağıdakılar barədə razılığa gələrək bu Anlaşma Memorandumunu (bundan sonra "Memorandum") imzaladılar.

Maddə 1

Məqsədlər

2006-cı ilin dekabr ayında Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyinin məsul işçiləri Azərbaycan Respublikasına səfər etmiş və Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinin və Dövlət Dəmir Yolunun məsul işçiləri ilə Azərbaycan Respublikasında mövcud dəmir yollarında sürətin artırılması və yüksək sürətli sərnişin qatarlarının tikintisi mövzusunda müzakirələr aparmışlar. Tərəflər qarşılıqlı olaraq qərara gəlmişlər ki, ümumi dəmir yolunun istismar keyfiyyətlərinin (xarakteristikaları) təkmilləşdirilməsinin tədricən aparılması zəruridir və yüksək sürətli dəmir yolunun tikintisinə, təkmilləşdirilmədən sonra münasib vaxtda başlanılması zəruridir. Məqsədə nail olmaq üçün, Tərəflər dəmir yolunun Bakı - Böyük Kəsik hissəsinin təkmilləşdirilməsinin Texniki İqtisadi Əsaslandırılmasının hazırlanması, Azərbaycanın dəmir yolu mütəxəssisləri üçün Koreya Respublikasında müvafiq ixtisasartırma kurslarının təşkil edilməsi, treninq və əməkdaşlıq seminarlarının keçirilməsi üzrə dəmir yolu sahəsində əməkdaşlıq layihələrinin həyata keçirilməsini qərara aldılar.

Maddə 2

Əməkdaşlıq çərçivəsi

Bu Memorandum çərçivəsində əməkdaşlıq aşağıdakı səlahiyyəti əhatə edir:

a. Azərbaycan Respublikasında Bakı - Böyük Kəsik dəmir yolu xəttinin buraxılış qabiliyyətinin artırılması;

b. Tərəflərin dəmir yolu mütəxəssislərinin dəvət edilməsi və müvafiq ixtisasartırma kurslarının təşkil edilməsi;

c. yeni dəmir yolu texnologiyaları sahəsində əməkdaşlıq və ikitərəfli dəmir yolu əməkdaşlığının genişləndirilməsi üçün seminarların keçirilməsi;

d. dəmir yolu nəqliyyatı vasitələrinin alınmasında inzibati dəstək verilməsi;

e. hər iki ölkənin dəmir yoluna dair cari məsələlərin həll edilməsi üçün məsləhətləşmələr;

f. yüksək sürətli dəmir yolu daxil olmaqla, dəmir yolunun yenidən qurulması, inkişaf etdirilməsi, təkmilləşdirilməsi və istismarı üzrə əməkdaşlıq;

g. dəmir yolu sektorunda qarşılıqlı maraq kəsb edən məsələlər üzrə birgə tədqiqat və işləmələrin həyata keçirilməsi;

h. Tərəflərin və ya üçüncü ölkənin dəmir yolu layihələrinin inkişaf etdirilməsi üzrə qarşılıqlı əməkdaşlıq;

i. Tərəflərin birgə razılaşdığı digər əməkdaşlıq formaları.

Maddə 3

Əsas rollar

1. Tərəflər bu Memorandumun məqsədlərinə nail olmaq üçün hökumət və ya özəl təşkilatlar və digər qurumlar arasında birbaşa əlaqələri və əməkdaşlığı həvəsləndirəcək və sadələşdirəcək, onlar arasında birgə proqramların tərtib edilməsini dəstəkləyəcəklər.

2. Tərəflər əməkdaşlıq yollarının müzakirə edilməsi və informasiya mübadiləsi üçün birgə razılaşdırılmış zamanda və yerdə mütəxəssislərin işçi səviyyəli iclaslarını keçirə bilərlər.

3. Tərəflərdən biri digər Tərəfdən 2-ci maddədə müəyyən edilmiş istiqamətlər daxilində zəruri olan məlumatları sorğu edə bilər.

Maddə 4

Xərclər

Birgə razılaşdırılmış digər hallar istisna olmaqla, Tərəflər bu Memoranduma əsasən dəmir yolu əməkdaşlığı üzrə fəaliyyətə aid xərcləri özləri ödəyəcəklər.

Maddə 5

Qüvvəyə minmə və qüvvədən düşmə

1. Bu Memorandum imzalandığı gündən qüvvəyə minir və Tərəflərdən birinin bu Memorandumu ləğv etmək niyyətindən 90 gün əvvəl bu barədə yazılı müraciəti daxil olana qədər qüvvədə qalır.

2. Bu Memoranduma Tərəflərin qarşılıqlı yazılı razılığı ilə düzəlişlər edilə bilər.

Bu Memorandum Seul şəhərində 23 aprel 2007-ci il tarixində Azərbaycan, Koreya və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir. Bu Memorandumun müddəalarının təfsiri zamanı mübahisələr yaranarsa, ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ NƏQLİYYAT NAZİRLİYİ ADINDAN	KOREYA RESPUBLİKASININ TİKİNTİ VƏ NƏQLİYYAT NAZİRLİYİ ADINDAN
ZİYA MƏMMƏDOV	*Lİ YONQ-SUP*
Nəqliyyat naziri	*Tikinti və nəqliyyat naziri*

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Koreya Nəqliyyat İnstitutu arasında elmi-texniki əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Koreya Nəqliyyat İnstitutu öz aralarında elmi-texniki əməkdaşlıq sahəsində elmi mübadilənin və birgə tədqiqat fəaliyyətinin ümumi maraqlara xidmət etdiyinə əmin olaraq, öz aralarında Anlaşma Memorandumunu (bundan sonra "Memorandum") qəbul etməyi qərara aldılar.

Maddə 1

Tərəflər aralarında elmi mübadilə və birgə tədqiqat fəaliyyətlərini genişləndirməyi təşviq edəcəklər. Bu əməkdaşlıq aşağıdakı istiqamətlərdə həyata keçiriləcəkdir:

qarşılıqlı maraq kəsb edən məsələlər üzrə birgə tədqiqat və işləmələrin həyata keçirilməsi;

tədqiqat materiallarının, nəşrlərin və elmi məlumatların mübadiləsi;

əməkdaşlıq və birgə tədqiqat proqramlarının həyata keçirilməsi;

iri miqyaslı nəqliyyat infrastrukturu layihələri üzrə elmi araşdırmaların aparılması;

Tərəflərdən birinin mümkün tədqiqat nəticələrinin digər Tərəfə təklif edilməsi.

Maddə 2

Koreya Nəqliyyat İnstitutu Azərbaycan Respublikasında nəqliyyat sahəsində mövcud institutlar ilə əməkdaşlıq əlaqələri yaradaraq, Nəqliyyat üzrə Elmi Tədqiqat İnstitutunun yaradılmasında elmi, metodiki, maddi-texniki dəstək göstərəcəkdir.

Maddə 3

Tərəflərin razılığı əsasında birgə layihələrin dəstəklənməsində əməkdaşlığın bütün sahələri üzrə təkliflər irəli sürülə bilər. Hər bir əməkdaşlıq fəaliyyətinin məqsədi, məzmunu, müddəti, xərcləri və digər şərtləri Tərəflər arasında qəbul ediləcək sazişlərdə öz əksini tapacaqdır.

Maddə 4

Bu Memorandum imzalandığı tarixdən qüvvəyə minir və üç il ərzində qüvvədə qalacaqdır. Əgər Tərəflərdən biri Memorandumun qüvvədən düşməsi tarixindən altı ay əvvəl xitam verilməsi barədə yazılı şəkildə digər Tərəfə müraciət etməzsə, o, avtomatik olaraq təzələnəcəkdir.

Bu Memorandum Seul şəhərində 23 aprel 2007-ci il tarixində Azərbaycan, Koreya və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir. Bu Memorandumun müddəalarının təfsiri zamanı mübahisələr yaranarsa, ingilis dilində olan varianta üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ NƏQLİYYAT NAZİRLİYİ ADINDAN

ZİYA MƏMMƏDOV
Nəqliyyat naziri

KOREYA RESPUBLİKASININ TİKİNTİ VƏ NƏQLİYYAT NAZİRLİYİ ADINDAN

Lİ YONQ-SUP
Tikinti və nəqliyyat naziri

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Koreya Respublikasının Fövqəladə Halların İdarə Olunması Milli Agentliyi arasında Fövqəladə Halların İdarə Olunması Sahəsində Əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Koreya Respublikasının Fövqəladə Halların İdarə Olunması Milli Agentliyi,

təbii və texnogen mənşəli fövqəladə halların idarə olunmasında dəstək və qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsində öz arzularını təsdiq edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

1. Hər iki ölkənin müvafiq qanunvericiliyinə uyğun olaraq, Tərəflər təbii və texnogen mənşəli fövqəladə halların idarə olunması sahəsində əməkdaşlıq edəcəklər.
2. Bu Anlaşma Memorandumu müharibə və ya kimyəvi, bioloji, radioloji və nüvə materialları ilə bağlı qəzalar nəticəsində törədilən fövqəladə halları əhatə etməyəcəkdir.
3. Bu Anlaşma Memorandumu heç bir beynəlxalq öhdəlik yaratmayacaqdır.
4. Bu Anlaşma Memorandumu çərçivəsində əməkdaşlıq fəaliyyətləri müvafiq fond və şəxsi heyətin mövcudluğundan asılıdır və aşağıdakıları əhatə edir:
   a) fövqəladə halların idarə olunması üçün məlumat mübadiləsini;
   b) fövqəladə halların idarə olunmasında axtarış-xilasetmə komandası və ekspertlərin göndərilməsi və tədrisini;
   c) erkən xəbərdarlıq sistemləri daxil olmaqla, fövqəladə halların idarə olunmasının əsasının qoyulması və inkişaf etdirilməsi üzrə birgə tədqiqatlar və beynəlxalq təşkilatlarla əməkdaşlığı;
   d) yanğınsöndürmə texnologiyalarının və məlumatların mübadiləsini;
   e) axtarış-xilasetmə və fövqəladə tibbi xidmət üzrə əməliyyat təcrübəsinin mübadiləsi və gələcək təkmilləşdirmə üçün birgə tədqiqatları;
   f) fövqəladə hallara məruz qalmış insanlara yardımın göstərilməsi üçün təcrübə və bilik mübadiləsini; və
   g) Tərəflərin birgə qərara alına bilinən, öz səlahiyyətlərində olan digər başqa fövqəladə halların idarə olunması ilə bağlı fəaliyyətlərini.

5. Bu Anlaşma Memorandumu imzalandığı gündən qüvvəyə minir. Hər hansı bir Tərəf ən azı altı (6) ay qabaq Anlaşma Memorandumuna xitam verilməsi ilə bağlı niyyətini digər Tərəfə yazılı şəkildə bildirməzsə, bu Anlaşma Memorandumu qüvvədə qalacaqdır.

Bu Anlaşma Memorandumu Seul şəhərində 23 aprel 2007-ci il tarixində Azərbaycan, Koreya və ingilis dillərində imzalanmışdır. Bütün mətnlər autentikdir. Təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ ADINDAN

KƏMALƏDDİN HEYDƏROV
Fövqəladə hallar naziri

KOREYA RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR İDARƏ OLUNMASI MİLLİ AGENTLİYİ ADINDAN

MUN VON-KYONQ
Agentliyinin rəhbəri

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Koreya Respublikasının Ehtiyatlar Korporasiyası və Koreya Mineral Ehtiyatlar Geoelmlər İnstitutu arasında mineral ehtiyatların işlənməsi sahəsində qarşılıqlı əməkdaşlığa dair Anlaşma Memorandumu

Bundan sonra "Nazirlik" adlandırılacaq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və "KREK" adlandırılacaq Koreya Respublikasının Ehtiyatlar Korporasiyası və "KGMEİ" adlandırılacaq (birlikdə həmçinin "Tərəflər" kimi qeyd ediləcəklər) Koreya Geoelmlər və Mineral Ehtiyatlar İnstitutu,

bu Anlaşma Memorandumunu imzalamaq niyyətlərini bəyan edərək,

KREK və KGMEİ Azərbaycan Respublikasında mineral ehtiyat yataqlarının işlənilməsi üzrə fəaliyyətlərdə iştirak etmək niyyətini bildirərək,

Nazirlik KREK və KGMEİ-nin Azərbaycan Respublikasında mineral ehtiyat yataqlarının işlənilməsi üçün sərmayə qoyulmasına marağını dəstəkləyərək, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Məqsəd

Bu Anlaşma Memorandumunun əsas məqsədi Tərəflərin bərabərlik və qarşılıqlı faydalılıq prinsipinə əsaslanan əməkdaşlığı vasitəsilə Azərbaycan Respublikasının mineral ehtiyat yataqlarının tədqiqi və işlənilməsinə KREK və KGMEİ-nin sərmayə qoyuluşlarını təşviq etməkdir.

Maddə 2

Qarşılıqlı əməkdaşlıq üçün maraq kəsb edən sahələr

Tərəflər arasında əməkdaşlıq məlumat mübadiləsi, həmçinin qarşılıqlı maraq dairəsində olan mineral ehtiyat yataqlarının birgə işlənilməsi üzrə layihə və fəaliyyətlərin yerinə yetirilməsində işbirliyi vasitəsilə həyata keçiriləcəkdir. Tərəflərin qarşılıqlı olaraq razılaşdırdıqları hər hansı bir texniki əməkdaşlıq razılaşması bu Anlaşma Memorandumunun tərkib hissəsi ola bilər.

Memorandumun 1-ci maddəsinə əsasən Tərəflər Azərbaycan Respublikasında mineral ehtiyat yataqlarının tədqiqi və işlənməsi üzrə fəaliyyətləri təşviq edəcək və asanlaşdıracaqlar. Tərəflər əməkdaşlıq fəaliyyətlərində və layihələrdə özəl sektorun iştirak etməsi üzrə qarşılıqlı razılığa gəlmişlər.

Bu Anlaşma Memorandumu çərçivəsində həyata keçirilən əməkdaşlıq fəaliyyətləri və layihələr Tərəflərin maliyyə dəstəyinə və kadr imkanlarına uyğunlaşdırılacaqdır.

Layihələr, proqramlar və digər əməkdaşlıq fəaliyyətləri Tərəflər arasında xüsusi razılaşmalar və fərdi proqramlar əsasında həyata keçiriləcəkdir. Hər bir razılaşmaya ətraflı fəaliyyət proqramı və iştirakçıların texniki ixtisaslaşma üzrə fəaliyyət istiqamətləri, mülkiyyətlə bağlı məlumatın saxlanılması, mübadilə olunması və istifadəsi, nəticələr əsasında əqli mülkiyyətlə bağlı anlaşmalar, eləcə də əldə olunacaq nəticələrə müvafiq olaraq hər bir layihənin istənilən xüsusi mövzusu daxil olunmalıdır.

Maddə 3

Tərəflərin hüquqi çərçivəsi

Anlaşma Memorandumu çərçivəsində həyata keçirilən əməkdaşlıq fəaliyyətləri hər iki dövlətin qanun və qaydalarına uyğun olacaqdır.

Maddə 4

Mübahisələrin həlli

Anlaşma Memorandumunun təfsiri və tətbiqi zamanı meydana çıxan istənilən fikir ayrılığı Tərəflər arasında qarşılıqlı razılaşma yolu ilə həll ediləcəkdir.

Maddə 5

Yekun müddəalar

1. Anlaşma Memorandumu imzalandığı gündən qüvvəyə minəcək və 3 il müddətində qüvvədə qalacaqdır. Bu müddətin başa çatmasına ən azı 60 gün qalmış Tərəflərdən birinin digər Tərəfə onun ləğv edilməsinə dair yazılı bildiriş təqdim etmədiyi təqdirdə, Anlaşma Memorandumu növbəti 3 illik müddətdə qüvvədə olacaqdır.

2. Hər bir Tərəf 90 gün öncədən yazılı bildiriş göndərməklə bu Sazişi ləğv edə bilər.

Tərəflərin qarşılıqlı razılığı ilə bu Anlaşma Memorandumuna əlavələr və ya düzəlişlər edilə bilər.

Seul şəhərində 24 aprel 2007-ci il tarixində Azərbaycan, Koreya və ingilis dillərində olmaqla, iki nüsxədə imzalanmışdır.

Bu Anlaşma Memorandumunun tətbiqi və ya təfsiri ilə bağlı hər hansı fikir ayrılığı meydana çıxdıqda ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ ADINDAN

(imza)

KOREYA RESPUBLİKASININ EHTİYATLAR KORPORASİYASI ADINDAN

(imza)

KOREYA GEOELMLƏR VƏ MİNERAL EHTİYATLAR İNSTİTUTU ADINDAN

(imza)

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Koreya Respublikasının Milli Gənclər Komissiyası arasında gənclər sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Koreya Respublikasının Milli Gənclər Komissiyası,

iki ölkə arasında dostluq əlaqələrinin gücləndirilməsi və genişləndirilməsinə töhfə vermək arzusu ilə,

gənclər mübadiləsi sahəsində əməkdaşlığı və qarşılıqlı maraqları inkişaf etdirmək və təşviq etmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

1. Bu Anlaşma Memorandumunun məqsədi Tərəflər arasında gənclər məsələlərinə dair əməkdaşlığı gücləndirmək və təşviq etməkdir.

Bu Anlaşma Memorandumu ilə nəzərdə tutulan tədbirlər iki ölkənin müvafiq milli qanunları və qaydaları və müvafiq Tərəflərin maliyyə imkanları çərçivəsində həyata keçiriləcəkdir.

Maddə 2

Bu Anlaşma Memorandumu çərçivəsində əməkdaşlıq aşağıdakı formalarda ola bilər:

a) gənclərin, gənclər təşkilatları təmsilçilərinin və gənclər siyasətinə məsul hökumət rəsmilərinin mübadiləsi;

b) hər iki Tərəfin ərazisində keçirilən gənclər düşərgələri, festivallar, seminar və konfranslar kimi digər gənclər tədbirlərinə digər Tərəfin gənclərinin, gənclər təşkilatlarının və müvafiq hökumət rəsmilərinin dəvət olunması;

c) gənclərin məsələlərinə dair çap materialları və digər məlumatın mübadiləsi; və

d) Tərəflərin birgə qərar verə biləcəyi hər hansı digər əməkdaşlıq fəaliyyətləri.

Maddə 3

1. Tərəflər, 15-24 yaş arası gənclər, gənclər təşkilatları təmsilçiləri, gənclər siyasətinə məsul hökumət rəsmiləri də daxil olmaqla, 20 nəfər gənclərdən ibarət nümayəndə heyətinin illik mübadiləsinə çalışacaqlar və bu mübadilələri təşviq edəcəklər.

2. Nümayəndə heyəti üzvlərinin dəqiq sayı və səfərlərinin planını Tərəflər hər ilin əvvəlində birgə qərarlaşdıracaqlar.

Maddə 4

Tərəflər arasında digər birgə qərar qəbul edilməzsə, 3-cü maddədə göstərilmiş nümayəndə heyətləri mübadiləsi aşağıdakı şərtlərlə həyata keçiriləcəkdir:

a) göndərən Tərəf öz nümayəndə heyətinin beynəlxalq nəqliyyat xərclərinə məsuldur;

b) qəbul edən Tərəf səfər etmiş nümayəndə heyətinin onun ölkəsində qalmasından meydana gələn xərclərə məsuldur və buraya yaşayış, yemək, nəqliyyat və tərcümə xərcləri daxildir;

c) qəbul edən Tərəf digər Tərəfin nümayəndə heyətinin tibbi xidmətlərlə təmin etməyə məsuldur və göndərən Tərəf xəstənin, yaralının və vəfat etmiş şəxsin nəqliyyatı da daxil olmaqla bu tibbi xərclərin ödənilməsinə məsuldur;

d) bu Anlaşma Memorandumu ilə nəzərdə tutulan tədbirlərə dair digər maliyyə məsələləri Tərəflər arasında məsləhətləşmələr vasitəsilə həll ediləcəkdir.

Maddə 5

Tərəflər, qabaqcadan razılaşdırılmış şəkildə, öz ərazilərində digər Tərəfin mütəşəkkil gənclər qruplarına, müvafiq nümayəndələrinə yardım etməyə səy göstərəcəklər.

Maddə 6

Tərəflər bu Anlaşma Memorandumunun həyata keçirilməsini müzakirə etmək və növbəti il üçün birgə əməkdaşlıq planının tərtib olunması məqsədilə öz aralarında məsləhətləşmələr aparacaqlar.

Maddə 7

Bu Anlaşma Memorandumuna Tərəflərin qarşılıqlı razılığı əsasında dəyişikliklər edilə bilər. Belə dəyişikliklər bu Anlaşma Memorandumunun 9-cu paraqrafına uyğun olaraq qüvvəyə minəcəkdir.

Maddə 8

Bu Anlaşma Memorandumunun həyata keçirilməsindən və ya təfsirindən meydana çıxan mübahisə və fikir ayrılıqları Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 9

1. Bu Anlaşma Memorandumu imzalandığı gündən qüvvəyə minəcəkdir.

2. Bu Anlaşma Memorandumu ilkin olaraq üç il müddətində qüvvədə olacaq və əgər Tərəflərdən biri müvafiq müddətin başa çatmasından ən azı altı ay əvvəl digər Tərəfə bu Anlaşma Memorandumunu ləğv etmə niyyəti barə də yazılı məlumat verməzsə, o, avtomatik surətdə növbəti birillik müddətlərə uzadılır.

3. Bu Anlaşma Memorandumunun ləğv olunması ləğv olunma tarixindən əvvəl keçirilməsi qərara alınmış tədbirlərin etibarlılığına və müddətinə təsir etməyəcəkdir.

Seul şəhərində 23 aprel 2007-ci il tarixində Azərbaycan, Koreya və ingilis dillərində olan iki nüsxədə imzalanmışdır. Təfsirdə hər hansı fikir aynlığı olduğu təqdirdə, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ ADINDAN	KOREYA RESPUBLİKASININ MİLLİ GƏNCLƏR KOMİSSİYASI ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Koreya Respublikasının İnformasiya və Rabitə Nazirliyi arasında elektron hökumətin formalaşdırılması sahəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Koreya Respublikasının İnformasiya və Rabitə Nazirliyi,

hər iki ölkənin sosial və iqtisadi inkişafı çərçivəsində informasiya və kommunikasiya texnologiyaları sahəsində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək və möhkəmləndirməyi arzu edərək,

hər iki ölkədə ictimaiyyət üçün səmərəli və dayanaqlı xidmətlərin yerinə yetirilməsi ilə əlaqədar ümumi məqsəd və maraqları bölüşərək,

əməkdaşlığın hazırkı səviyyəsi və ümumi maraq kəsb edən ideyalar, məlumatlar, bilik və təcrübələr baxımından mübadilə yolu ilə təkmilləşdirilməsinin Tərəflər üçün faydalı olacağını hesab edərək,

Elektron hökumətin formalaşdırılması sahəsində tərəfdaşlığın, tədqiqat işlərinin, təcrübə mübadiləsinin və inkişaf məsələlərinin təşviq olunmasında və dəstəklənməsində hər iki ölkənin qarşılıqlı fayda və maraqlarını əsas götürərək,

beynəlxalq arenada əməkdaşlıq münasibətlərini inkişaf etdirmək niyyəti ilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər qarşılıqlı fayda əsasında, hər iki ölkənin milli qanunvericiliyinə, beynəlxalq hüququn normalarına və bu Anlaşma Memorandumunun müddəalarına uyğun olaraq ikitərəfli əməkdaşlığı inkişaf etdirəcək və təkmilləşdirəcəklər.

Maddə 2

Tərəflər Elektron hökumətin formalaşdırılması sahəsində aşağıdakı ümumi əməkdaşlıq istiqamətlərini müəyyən edirlər:

(a) Elektron hökumətin yaradılması, müşayiət edilməsi və inkişaf etdirilməsi və kadr təminatı;

(b) Elektron imza xidməti;

(c) Elektron hökumətin formalaşdırılması üçün zəruri olan kadr heyətinin yenidən hazırlanması;

(d) Genişzolaqlı şəbəkə və e-xidmətlərin inkişaf etdirilməsi;

(e) E-hökumət sahəsində standartlaşdırma və sertifikatlaşdırma;

(f) İnformasiya təhlükəsizliyi;

(g) Milli identifikasiya sistemi və açıq açar infrastrukturu;

(h) Tərəflərin qarşılıqlı razılaşdığı digər sahələr.

Maddə 3

Bu Memoranduma uyğun olaraq əməkdaşlıq tədbirləri aşağıdakı formalarda olacaqdır:

a) informasiya və kommunikasiya texnologiyaları siyasəti sahəsində əməkdaşlıq;

b) birgə layihələrə yardım etmək;

c) mütəxəssislərin, peşəkarların və nümayəndə heyətlərinin təcrübə mübadiləsi və qarşılıqlı işgüzar səfərlər;

d) bu Memorandumun 2-ci maddəsində qeyd olunmuş sahələr üzrə informasiya və təcrübə mübadiləsi;

e) birgə texniki sərgilər, seminarlar və simpoziumların keçirilməsi;

f) əməkdaşlığın Tərəflər arasında razılaşdırılmış hər hansı digər formaları.

Maddə 4

Tərəflər bu Memorandumdan irəli gələn əməkdaşlıq tədbirlərinin inkişafına və bu Memoranduma dair digər məsələlərin müzakirə olunması və hə yata keçirilməsi üçün E-hökumət üzrə işçi qrup yaradacaqlar. İşçi qrup Tərəflərin təklif edəcəkləri nümayəndələrdən ibarət olacaq və Tərəflərin razılaşdırıldıqları qrafik əsasında əməkdaşlıq edəcəklər.

İşçi qrupun hər bir iclasından əvvəl Tərəflər İşçi qrupun tərkibini və müzakirə olunacaq məsələləri razılaşdıracaqlar.

Bu Memorandumdan irəli gələn məsələlərin həyata keçirilməsi üzrə Tərəflərin təyin etdikləri nümayəndələrin qarşılıqlı fəaliyyəti zamanı ingilis dili işçi dildir.

Maddə 5

Bu Memorandumun 2-ci, 3-cü və 4-cü maddələrində nəzərdə tutulan bütün əməkdaşlıq tədbirlərini hər bir ölkənin qanunvericiliyinə, Tərəflərin öhdəlik və funksiyalarına, eləcə də Tərəflərin imzaladıqları beynəlxalq konvensiya və razılaşmalara uyğun aparacaqlar.

Bu Memorandumun 2-ci, 3-cü və 4-cü maddələrində nəzərdə tutulan bütün əməkdaşlıq tədbirlərinin həyata keçirilməsi Tərəflərin maliyyə və digər resurslarının mövcudluğundan asılı olacaqdır. Əməkdaşlıq tədbirləri üzrə xərclər qarşılıqlı razılaşdırma şəklində Tərəflər arasında bölüşdürüləcəkdir.

Maddə 6

Tərəflərdən heç biri bu Memorandumdan irəli gələn əməkdaşlıq tədbirlərinin həyata keçirilməsi zamanı ötürülən hər hansı konfidensial informasiyanı, digər Tərəfin yazılı icazə verdiyi hallar istisna olmaqla, üçüncü Tərəfə açıqlamayacaqdır. Göstərilən müddəa hətta müddətin başa çatması və ya ləğv olunması nəticəsində Memorandum artıq qüvvədə olmadıqda belə, etibarlı sayılacaqdır.

Maddə 7

Tərəflərin birgə qərarı ilə yazılı şəkildə bu Memoranduma düzəlişlər edilə bilər. Bu cür birgə qərarlar bu Memorandumun ayrılmaz hissəsi olacaq və qüvvəyə minməsi bu Memorandumun 9-cu maddəsində qeyd edilmiş yolla həyata keçiriləcəkdir.

Maddə 8

Bu Memorandumun müddəalarının təfsiri və ya tətbiqində mübahisələr yarandığı təqdirdə, Tərəflər onları məsləhətləşmələr yolu ilə həll edəcəklər.

Maddə 9

Bu Memorandum imzalandığı tarixdən qüvvəyə minir və 5 (beş) il müddətinə bağlanı-

lır. Əgər müvafiq beşillik müddətin başa çatmasına ən azı 6 (altı) ay qalmış Tərəflərdən biri digər Tərəfə onun qüvvəsini ləğv etmək niyyəti barədə yazılı bildiriş göndərməzsə, bu Memorandum avtomatik olaraq növbəti beşillik müddətə uzadılır.

Bu Memorandumа xitam verilməsi inkişaf mərhələsində olan 2-ci və 3-cü maddələrdə qeyd olunmuş əməkdaşlıq tədbirlərinə təsir etməyəcəkdir.

Bu Memorandum Seul şəhərində 23 aprel 2007-ci il tarixində hər biri Azərbaycan, Koreya və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Memorandumun təfsirində fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər ingilis dilində olan mətnə müraciət edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRLİYİ ADINDAN	KOREYA RESPUBLİKASININ İNFORMASİYA VƏ RABİTƏ NAZİRLİYİ ADINDAN
ƏLİ ABBASOV	*RO CUN-HYONQ*
İnformasiya texnologiyaları naziri	*İnformasiya və rabitə naziri*

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə Koreya Respublikasının Koreya Elektrik Enerjisi Korporasiyası arasında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası, Bakı şəhəri AZ1066 Niyazi küç. 23 ünvanında yerləşən Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi (bundan sonra "İİN"),

və

baş qərargahı Koreya Respublikası, Seul şəhəri 135-79, Samseong-Dong, Gangnam-Gu 167 ünvanında yerləşən Koreya Elektrik Enerjisi Korporasiyası (bundan sonra "KEPCO")

ı. 11 may 2006-cı il tarixində imzalanmış "Azərbaycan Respublikası və Koreya Respublikası arasında münasibətlərin və əməkdaşlığın prinsipləri haqqında Birgə Bəyannamə"nin müddəalarını rəhbər tutaraq,

ıı. KEPCO-nun Azərbaycanın energetika sektorunun inkişafında iştirak etmək marağım nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Məqsədlər

1.1. Bu Anlaşma Memorandumu çərçivəsində Tərəflər Azərbaycanın elektrik enerjisi sektorunda qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirəcəklər.

1.2. Tərəflər Azərbaycanın elektrik enerjisi istehsalının stabilliyini möhkəmləndirmək üçün KEPCO-nun malik olduğu müasir texnologiyalar, idarəetmə bacarıqları, nou-hau və ya təcrübələrin tətbiqi üçün bütün səylərini göstərəcəklər.

Maddə 2

Əməkdaşlığın çərçivəsi

2.1. İkitərəfli əməkdaşlıq çərçivəsində KEPCO birbaşa və ya öz tərəfdaşları və/və ya məsləhətçiləri vasitəsilə Tik-Sahib ol-İşlət sxemi ilə layihə - maliyyələşdirmə mexanizmi əsasında maliyyələşəcək Azərbaycanda Müstəqil Elektrik Stansiyasının (MES) Tikintisi ilə bağlı Texniki İqtisadi Əsaslandırma (TİƏ) və Son Təklifi təqdim edəcəkdir. İİN ədalətli və qərəzsiz şəkildə Azərbaycanda Elektrik Stansiyasının tikintisi ilə bağlı KEPCO-nun təqdim etdiyi Son Təklifi qiymətləndirəcəkdir.

2.2. Tərəflər aşağıda göstərilən sahələrdə əməkdaşlıq edəcəklər:

A. Elektrik stansiyasının planı, mühəndis işləri, inşası, əməliyyatı və istismarı da daxil olmaqla, MES-in inkişafı sahəsində elektrik enerjisi biznesi barədə məlumatların mübadiləsi; və ya

B. MES layihəsinin inkişafı sahəsində təcrübəli ekspertlər, mühəndis və peşəkarların səfərlərinin mübadiləsi;

C. Azərbaycanın elektrik enerjisi sektorunda məsləhət və məşvərət xidmətlərinin göstərilməsi.

2.3. Anlaşma Memorandumuna uyğun olaraq hər hansı xüsusi birgə fəaliyyət üçün zərurət yarandığı hallarda, Tərəflər bu cür əməkdaşlığın xüsusi və təfsilatlı çərçivəsi barədə ayrıca saziş və/və ya müqavilənin tərtib edilməsi üçün müzakirələr apara bilər.

Maddə 3

Məxfilik

3.1. Tərəflər bu Anlaşma Memorandumuna aid hər hansı sənəd, informasiya və ya məlumatı Azərbaycan Respublikası və ya Koreya Respublikasından xaric üçüncü bir tərəf və ya şəxsə, aşağıdakı hallar istisna olmaqla, açıqlamayacaqlar:

A. Açıqlama qanun, məhkəmə, komissiya və ya digər hüquqi və ya inzibati qurumlar tərəfindən tələb olunarsa;

B. Hər hansı məlumatın açılması üçün digər Tərəfin əvvəlcədən yazılı razılığı əldə olunarsa;

C. İİN KEPCO ilə Layihənin həyata keçirilməsi məqsədilə bu Anlaşma Memorandumuna müvafiq olaraq KEPCO tərəfindən təqdim ediləcək TİƏ-nin nəticələri və digər məlumatlardan yalnız KEPCO ilə əməkdaşlıq məqsədləri üçün istifadə edəcəkdir.

Maddə 4

Anlaşma Memorandumunun xüsusiyyəti

4.1. Bu Anlaşma Memorandumunun heç bir müddəası istənilən tərəf üçün qanuni öhdəlik yaradan müddəa kimi nəzərdən keçirilməyəcəkdir və bu Anlaşma Memorandumu çərçivəsində heç bir Tərəf digər Tərəf qarşısında baş vermiş ziyan və ya

itkilərə görə məsuliyyət daşımır; eyni zamanda, Tərəflər sənədin 3, 7 və 8-ci maddələrinin hər bir Tərəf üçün öhdəlik yaratdığı ilə aşkar şəkildə razılaşırlar.

Maddə 5

Bildiriş

5.1. Bu Anlaşma Memorandumuna müvafiq olaraq bütün qeydlər aşağıdakı ünvanlara göndərilməlidir:

İİN üçün: Nazir müavini
İqtisadi İnkişaf Nazirliyi
Niyazi küçəsi 23
Bakı, AZ1066
Azərbaycan Respublikası
Faks: +994 12 4925895

KEPCO üçün: Baş Vitse Prezident
Koreya Elektrik Enerjisi Korporasiyası
167, Samseong-Dong, Gangnam-Gu,
Seul 135-791, Koreya Respublikası
Faks: +822 3456 5599 yaxud +822 569 3193

Maddə 6

Müxtəlif şərtlər

6.1. Bu Anlaşma Memorandumuna müvafiq olaraq əməkdaşlığın həyata keçirilməsi üçün rəsmi dillər ingilis və Azərbaycan dilləri olacaqdır. Təfsirdə fikir ayrılığı olduğu təqdirdə, ingilis dilindəki mətnə istinad ediləcəkdir.

6.2. Bu Anlaşma Memorandumunun təfsiri və yaxud həyata keçirilməsindən irəli gələn hər bir mübahisə Tərəflər arasında müzakirə, məsləhət və danışıqlar vasitəsilə dostcasına həll ediləcəkdir.

Maddə 7

Dəyişikliklər və düzəlişlər

7.1. Bu Anlaşma Memorandumuna hər hansı dəyişikliklər və düzəlişlər Tərəflər arasında yazılı razılaşma əsasında edilə bilər.

Maddə 8

Qüvvəyə minmə və ləğv edilmə

8.1. Bu Anlaşma Memorandumu imzalandığı tarixdə qüvvəyə minəcəkdir və ləğv edilməsinə qədər tam qüvvədə qalacaqdır.

8.2. Bu Anlaşma Memorandumu hər hansı bir Tərəfin Anlaşma Memorandumunu ləğv etmək niyyəti barədə digər Tərəfə yazılı bildiriş təqdim etməsindən otuz (30) gün sonra ləğv ediləcəkdir.

24 aprel 2007-ci il tarixində Seul şəhərində Azərbaycan, Koreya və ingilis dillərində imzalanmışdır və bütün mətnlər autentikdir. Bu Anlaşma Memorandumunun təfsiri ilə bağlı hər hansı fikir ayrılığı yarandıqda ingilis dilində olan mətn üstün götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF NAZİRLİYİ ADINDAN	KOREYA ELEKTRİK ENERJİSİ KORPORASİYASI ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və Koreya Milli Neft Korporasiyası arasında Anlaşma Memorandumu

Azərbaycan Respublikası qanunları əsasında lazımi şəkildə təsis edilmiş və mövcud olan, Azərbaycan Respublikası, Bakı şəhəri, AZ 1000, Neftçilər prospekti 73 ünvanında qeydiyyatdan keçmiş Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ("ARDNŞ")

və

Koreya Respublikası qanunları əsasında lazımi şəkildə təsis edilmiş və mövcud olan, baş ofisi 1584-14, Gvanyang-donq, Dongan-gu, Anyang, Gyeonggi-do, 431-711, Koreya ünvanında yerləşən Koreya Milli Neft Korporasiyası ("KMNK") arasında bağlanmışdır.

Yuxanda adları çəkilən şirkətlər, onların müvafiq vasitələri və təyin olunmuş nümayəndəlikləri (əgər varsa) mətndən asılı olaraq ayrılıqda "Tərəf və ya birgə "Tərəflər" adlandırıla bilərlər.

Nəzərə alaraq ki:

ARDNŞ yerli və beynəlxalq neft və qaz sənayesindən kəşfiyyat, işlənmə və hasilat biznesilə məşğul olur;

KMNK yerli və beynəlxalq neft və qaz sənayesində kəşfiyyat, işlənmə və hasilat biznesilə məşğul olur;

Tərəflər neft və qaz kəşfiyyatı, işlənməsi və hasilatı layihələrinin axtarışı, danışıqlar və zəmanəti işlərinə fəal cəlb olunmuşlar;

Tərəflər qarşılıqlı mənfəətli əməkdaşlığın sonrakı inkişafını təmin etmək niyyətindədirlər;

Bununla təsdiq edilir ki, Tərəflər aşağıdakılar barədə razılığa gəldilər:

1. Əhatə dairəsi

1.1. ARDNŞ KMNK-nın Azərbaycan Respublikasında neft və qaz yataqlarının ("Layihələr") birgə işlənməsinə tərəfdaş kimi cəlb olunması məqsədilə tərəfdaşlara danışıqlar aparmağa çalışacaqdır.

1.2. KMNK-nın Layihələrdə iştirakı barədə müsbət qərar qəbul olunduğu halda maraqlı tərəflər müvafiq Hasilatın Pay Bölgüsü Sazişlərinin ("HPBS") müddəalarına və şərtlərinə əsaslanan danışıqlar aparacaq və sazişlər imzalayacaqlar.

1.3. KMNK Koreyada və/və ya üçüncü ölkələrdə müxtəlif layihələrdə ARDNŞ-nin

iştirakı üçün öz tərəfdaşları ilə danışıqlar aparmağa çalışacaqdır.

1.4. Tərəflər yeni biznes imkanlarının həyata keçirilməsi və bu cür biznes imkanlarının icra edilməsi üzrə təşəbbüs qrupunun formalaşdırılması müvafiq hesab edildiyi halda, razılığa gələcək və ayrıca saziş imzalayacaqlar.

1.5. Buna görə Tərəflər işçi heyətinin mübadiləsi və ezamiyyətini həyata keçirmək və təlim proqramları, eləcə də Tərəflərin təşviq edə biləcəkləri istənilən seminar və maarifləndirmə tədbirlərinin təşkil olunması üzrə əməkdaşlıq edəcəklər.

2. Məxfilik

Tərəflər bu Anlaşma Memorandumu və onun tətbiqinə dair məlumatları ciddi məxfilikdə saxlamağa razılaşdılar.

3. Müddət

Bu Anlaşma Memorandumu Tərəflər onu imzaladıqdan sonra qüvvəyə minəcək və bir il qüvvədə qalacaqdır, sonra isə Tərəflərin qarşılıqlı razılığı ilə onun qüvvədə olma müddəti uzadıla bilər.

Bu Memorandum imzalandığı tarixdən qüvvəyə minir.

Seul şəhərində 23 aprel 2007-ci il tarixində, iki nüsxədə Azərbaycan, Koreya və ingilis dillərində imzalanmışdır, bütün mətnlər autentikdir. Bu Anlaşma Memorandumunun müddəalarının təfsiri zamanı mübahisələr yaranarsa, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ ADINDAN	KOREYA MİLLİ NEFT KORPORASİYASININ ADINDAN
NATIQ ƏLİYEV	*HVANQ DU-YUL*
Sənaye və energetika naziri	*İcraçı direktoru*

Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Koreya Respublikasının "STX ENERGY CO., LTD" Şirkəti arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi (bundan sonra "SEN"), rəsmi ünvanı Azərbaycan Respublikası, Bakı şəhəri, H. Zərdabi küçəsi 88, AZ1012 və Koreya Respublikasının "STX ENERGY CO., LTD" Şirkətlər Qrupu (bundan sonra "STX ENERGY CO., LTD"), rəsmi ünvanı Koreya Respublikası, Seul 135-791, Gangnam-Gu, Samsehg-Döng 167,

elektroenergetika sahəsində əməkdaşlıq əlaqələrinin qurulması və inkişaf etdirilməsi məqsədilə,

Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Koreya Respublikasının Ticarət, Sənaye və Energetika Nazirliyi arasında Yanacaq və Enerji Ehtiyatları sahəsində əməkdaşlıq üzrə 11 may 2006-cı il tarixli Anlaşma Memorandumuna əsaslanaraq,

Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyinin respublikanın sənaye

və yanacaq-energetika kompleksi üzrə mərkəzi icra hakimiyyəti orqanı olaraq bu sahələrdəki inkişaf siyasətini həyata keçirdiyini nəzərə alaraq,

bazar iqtisadiyyatı şəraitində Azərbaycan və Koreya Respublikalarının təsərrüfat subyektləri arasında iqtisadi əməkdaşlığın aparıcı rolunu vurğulayaraq,

Tərəflər arasındakı enerji sektorunda əməkdaşlıq barədəki 16 dekabr 2006-cı il tarixli Niyyət Protokolunun maddələrini nəzərə alaraq,

Azərbaycan və Koreya Respublikalarının müəssisə və təşkilatları arasında birbaşa əlaqələrin qurulması və inkişaf etdirilməsi üçün əlverişli şəraitin yaradılmasını təmin etmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Məqsədlər

1.1. Bu Anlaşma Memorandumu Tərəflərin qarşılıqlı faydaları üçün Azərbaycanda sənayenin qeyri-neft sahəsində və eləcə də elektroenergetika sahəsində ikitərəfli əməkdaşlıq əlaqələrinin inkişafının təmin edilməsi məqsədini daşıyır.

1.2. Tərəflər əməkdaşlıq layihələrinin faydalı inkişafının davam etdirilməsinin təşviqi üçün bütün səylərini göstərəcəklər.

1.3. Tərəflər Azərbaycanda alternativ və bərpa olunan enerji mənbələrindən istifadə sahəsində müasir texnologiyalar, idarəetmə bacarıqları, nou-hau və təcrübələrinin tətbiqi üçün bütün səylərini göstərəcəklər.

Maddə 2

Tərəflərin öhdəlik və vəzifələri

2.1. Bu Anlaşma Memorandumuna uyğun olaraq birgə fəaliyyətlər aşağıdakılardan ibarətdir:

mövcud qanunvericilik çərçivəsində informasiya mübadiləsi;

texnologiya mübadiləsi: tədqiqatların aparılması, məlumat bazasının yaradılması;

elektroenergetika sahəsindəki layihələrə investisiya qoyuluşunun təşviqi;

elektroenergetika sahəsində hər iki ölkənin sərmayədarlarının digər üçüncü ölkənin ərazisində birgə tədqiqat, araşdırma, istehsal və inkişaf sahələrində əməkdaşlığı;

elektroenergetika sahəsində avadanlıqların istismarı və təmiri;

elektrik enerjisinin istehsalında, çatdırılmasında və ötürülməsində əməkdaşlığın qurulması;

günəş və külək enerjisi kimi bərpa olunan enerji sahələrində əməkdaşlığın təşviqi;

elektroenergetika sahəsində mütəxəssislər üçün təlim proqramlarının təşkili;

elektroenergetika sahəsində qarşılıqlı investisiyaların inkişafı məqsədilə seminarlar və görüşlərin təşkili;

külək elektrik stansiyasının dizayn, mühəndislik, inşaat, fəaliyyət və təchizatını da əhatə etməklə, Layihələrin həyata keçirilməsi ilə bağlı məlumat və informasiya mübadiləsi;

külək elektrik stansiyası Layihəsinin təkmilləşdirilməsi ilə əlaqədar mütəxəssis, mühəndis və peşəkarların mübadiləsi;

Azərbaycanın elektrik enerjisi sektorunda məsləhətçi və konsultasiya xidmətlərinin göstərilməsi.

2.2. Əməkdaşlığın inkişafı istiqamətində SEN-in görəcəyi tədbirlər:

SEN Azərbaycanda elektroenergetikanın inkişafında "STX ENERGY CO., LTD"-nin investisiyalarının və təcrübələrinin cəlb edilməsində maraqlıdır;

SEN Azərbaycan Respublikasında qanuni və dinc üsulla layihələrin həyata keçirilməsi üçün lazımi icazələrin və təsdiqlərin, qeydiyyatların və lisenziyaların alınmasında və Azərbaycanın digər dövlət orqanları ilə əməkdaşlığın yaxından koordinasiya edilməsində "STX ENERGY CO., LTD"-yə kömək göstərəcəkdir;.

SEN Azərbaycan Respublikasının mövcud qanun, qayda və tənzimləmələrinə müvafiq olaraq "STX ENERGY CO., LTD"-nin ilk Şirkət kimi Layihələrin icrası ilə əlaqədar investisiyanın təşviqedici stimullar əldə etməsinə kömək göstərəcəkdir.

2.3. "STX ENERGY CO., LTD"-nin görəcəyi tədbirlər: "STX ENERGY CO., LTD" Azərbaycanda elektroenergetika sahəsində əməkdaşlıq etməkdə çox maraqlı olduğunu ifadə edir;

"STX ENERGY CO., LTD" əməkdaşlıq üzrə Layihənin inkişaf etdirilməsinə sərmayə qoymaqda fəal şəkildə iştirak edəcəyini vurğulayır;

SEN-in Azərbaycan Respublikasında Layihənin icrası ilə bağlı razılaşdırılacaq ehtiyaclarına müvafiq olaraq "STX ENERGY CO., LTD" öz resurslarını ayıracaqdır.

2.4. Anlaşma Memorandumu çərçivəsində digər spesifik əməkdaşlıq fəaliyyətlərinə ehtiyac olarsa, Tərəflər bu cür əməkdaşlıq üçün lazım olan spesifik və fərqli bir razılaşmanın müzakirəsinə başlaya bilərlər.

Maddə 3

Külək elektrik stansiyasının tikintisi Layihəsi

3.1. Tərəflər 16 dekabr 2006-cı ildə imzalanmış Niyyət Protokoluna müvafiq olaraq enerji sektorunda əməkdaşlıq layihələrinin hazırlanması məqsədilə İşçi Qrup yaratmışlar. İlkin layihənin Azərbaycanda külək elektrik stansiyasının qurulması layihəsi olacağı razılaşdırılmışdır.

3.2. Azərbaycanda külək elektrik stansiyasının quraşdırılması üçün Tərəflərin İşçi Qrupları tədqiqat aparacaqlar. Tədqiqatların və müvafiq Proqramların hazırlanması üzrə işlərin maliyyələşdirilməsi "STX ENERGY CO., LTD" Şirkətlər Qrupu tərəfindən həyata keçiriləcəkdir.

3.3. Külək enerjisi stansiyasının yerləşəcəyi ərazinin Qobustan olacağı nəzərdə tutulur;

3.4. Qobustan ərazisində külək elektrik stansiyasının Texniki-İqtisadi Əsaslandırma sənədlərinin hazırlanmasında və qurulmasında "STX ENERGY CO., LTD"-nin 6 (altı) ay müddətində müstəsna hüququna zəmanət verilməsinə qanunvericilik çərçivəsində baxılacaqdır.

3.5. SEN Azərbaycan haqqında lazımi məlumat və informasiya/hesabatlar ilə "STX ENERGY CO., LTD"-ni təmin edəcəkdir.

Maddə 4

Məxfilik

4.1. Tərəflər, bu Anlaşma Memorandumuna aid hər hansı sənəd, informasiya və ya məlumatı Azərbaycan Respublikası və ya Koreya Respublikasından xaric üçüncü bir tərəf və ya şəxsə aşağıdakı hallar istisna olmaqla açıqlamayacaqlar:

Açıqlama qanun, məhkəmə, komissiya və ya digər hüquqi və ya inzibati qurumlar tərəfdən tələb olunarsa;

İstənilən məlumatın açıqlanması üçün digər tərəfin əvvəlcədən yazılı razılığı olduqda;

SEN, "STX ENERGY CO., LTD"-nin Layihənin inkişafı ilə bağlı təqdim etdiyi TİƏ və digər informasiya və məlumatları istifadə edəcəkdir.

Maddə 5

Müxtəliflik

5.1. Bu Anlaşma Memorandumunun icrası ilə əlaqədar əməkdaşlıqda istifadə olunan rəsmi dil ingilis dilidir.

5.2. Tərəflər Anlaşma Memorandumu ilə əlaqədar hər hansı bir xüsusi məqsəd üçün informasiya və/və ya məlumat mübadiləsində düzgün və qanuni olmayan məsələlərdən imtina edirlər. Tərəflər mümkün dərəcədə bu cür məlumat və/və ya informasiyanın reallıq dərəcəsini və məqsədəuyğunluğunu göstərməyə cəhd etməlidirlər.

5.3. Bu Anlaşma Memorandumunun təfsiri və ya icrası ilə əlaqədar meydana çıxa biləcək hər hansı bir mübahisə Tərəflər arasında dinc yolla müzakirə, məsləhətləşmə və danışıq yolu ilə həll olunacaqdır.

Maddə 6

Dəyişikliklər və düzəlişlər

6.1. Bu Anlaşma Memorandumuna hər hansı dəyişikliklər və düzəlişlər Tərəflər arasında yazılı razılaşma ilə edilə bilər.

6.2. Bu Anlaşma Memorandumuna edilmiş dəyişikliklər və ya düzəlişlər bu cür dəyişiklik və ya düzəlişin qüvvəyə minməsindən əvvəl əldə olunmuş hüquq və öhdəliklərin tam həcmdə reallaşdırılmasına xələl gətirmədən qüvvəyə minir.

Maddə 7

Qüvvəyə minmə və müddət

7.1. Bu Anlaşma Memorandumu imzalandığı gündən qüvvəyə minir.

7.2. Bu Anlaşma Memorandumu SEN və "STX ENERGY CO., LTD"-nin külək elektrik stansiyası quraşdırılması barədə razılığa gəlinənə qədər və ya Anlaşma Memorandumunun imzalanmasından etibarən altı (6) ay müddətində (hər hansı biri əvvəl gələrsə) qüvvədə olacaqdır;

7.3. Bu Anlaşma Memorandumuna xitam vermək istəyən Tərəf digər Tərəfə 3 (üç) ay qabaqcadan xitam vermək niyyəti barədə yazılı məlumat verməlidir. Bu cür ləğv etmə bu Memorandum çərçivəsində həyata keçirilən Layihələrin tamamlanmasına xələl gətirməyəcəkdir.

24 aprel 2007-ci il tarixində Seul şəhərində Azərbaycan, Koreya və ingilis dillərində imzalanmışdır və bütün mətnlər autentikdir. Bu Anlaşma Memorandumunun tətbiqi və təfsiri ilə bağlı hər hansı fikir ayrılığı meydana çıxdıqda ingilis dilində olan mətn üstün götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ SƏNAYE VƏ ENERGETİKA NAZİRLİYİ ADINDAN	KOREYA RESPUBLİKASININ "STX ENERGY CO., LTD" ŞİRKƏTİ ADINDAN
(imza)	*(imza)*

"Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik, konsulluq və başqa diplomatik nümayəndəlikləri tərəfindən ölkədən getmək və ölkəyə gəlmək üçün əcnəbi vətəndaşlara verilən viza blankının təsviri və spesifikasiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 1 dekabr tarixli 153 nömrəli qərarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik, konsulluq və başqa diplomatik nümayəndəlikləri tərəfindən ölkədən getmək və ölkəyə gəlmək üçün əcnəbi vətəndaşlara verilən viza blankının təsviri və spesifikasiyasının beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik, konsulluq və başqa diplomatik nümayəndəlikləri tərəfindən ölkədən getmək və ölkəyə gəlmək üçün əcnəbi vətəndaşlara verilən viza blankının təsviri və spesifikasiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 1 dekabr tarixli 153 nömrəli (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, №12, (I kitab), maddə 741; 2005-ci il, №10, maddə 985) qərarı ilə təsdiq edilmiş 1 və 2 nömrəli əlavələr yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik, konsulluq və başqa diplomatik nümayəndəlikləri tərəfindən ölkədən getmək və ölkəyə gəlmək üçün əcnəbi vətəndaşlara verilən viza blankının təsviri

və spesifikasiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 1 dekabr tarixli 153 nömrəli qərarına dəyişiklik edilməsi barədə" 2005-ci il 20 oktyabr tarixli 192 nömrəli (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №10, maddə 985) və "Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik, konsulluq və başqa diplomatik nümayəndəlikləri tərəfindən ölkədən getmək və ölkəyə gəlmək üçün əcnəbi vətəndaşlara verilən viza blanklarının tətbiq edilməsi haqqında" 2006-cı il 20 dekabr tarixli 270 nömrəli (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, №12, maddə 1157) qərarları qüvvədən düşmüş hesab edilsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A. RASİZADƏ

Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, 22 iyun 2007-ci il

№100

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2003-cü il 1 dekabr tarixli 153 nömrəli qərarı ilə təsdiq edilmişdir
1 nömrəli əlavə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2007-ci il "22 "iyun" tarixli "100" nömrəli qərarı ilə
təsdiq edilmiş redaksiyada

Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik, konsulluq və başqa diplomatik nümayəndəlikləri tərəfindən ölkədən getmək və ölkəyə gəlmək üçün əcnəbi vətəndaşlara verilən viza blankının təsviri

Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik, konsulluq və başqa diplomatik nümayəndəlikləri tərəfindən ölkədən getmək və ölkəyə gəlmək üçün əcnəbi vətəndaşlara verilən viza blankının təsviri İCAO-nun (Beynəlxalq Mülki Aviasiya Təşkilatının) 9303 nömrəli sənədinin ikinci hissəsində nəzərdə tutulmuş maşınla oxunan viza (MRV-A) formatına uyğun çap olunur.

Vizada aşağıdakı məlumatlar göstərilir:

Azərbaycan və ingilis dillərində Azərbaycan Respublikasının adı və Dövlət gerbi, habelə "VİZA" sözü, viza blankının iki latın hərfindən ibarət olan seriyası və yeddirəqəmli nömrəsi;

viza sahibinin adı, soyadı, onun pasportunun nömrəsi, cinsi, anadan olduğu tarix, vətəndaşlığı və gedənlərin ümumi sayı;

vizanın verildiyi yer (şəhər), vizanın etibarlılıq müddətinin başlandığı və bitdiyi tarix, vizanın növü (giriş, qayıdış, tranzit, çıxış və s.), girişin sayı (birdəfəlik, çoxdəfəlik və s.), kateqoriyası (adi, xidməti, diplomatik və s.) və məqsədi (turist, biznes, tranzit və s.), ölkədə qalmaq üçün icazə verilmiş günlərin sayı, vizanın verildiyi tarix;

vizanı verən səlahiyyətli şəxsin imzası və müvafiq dövlət orqanının möhürü;

viza sahibinin şəkli.

Viza blankının aşağı hissəsində maşınla oxunan zona (MRZ) yerləşir və vizaya daxil edilən məlumatların maşınla oxunan formada təqdimatını təmin edir.

Qeyd. Vizada nəzərdə tutulmuş parametrlərin adları Azərbaycan və ingilis dillərində yazılır. Viza doldurularkən qeyd olunan məlumatlar ingilis dilində verilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2003-cü il 1 dekabr tarixli 153 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR
2 nömrəli əlavə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2007-ci il "22" "iyun" tarixli "100" nömrəli qərarı ilə
təsdiq edilmiş redaksiyada

Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik, konsulluq və başqa diplomatik nümayəndəlikləri tərəfindən ölkədən getmək və ölkəyə gəlmək üçün əcnəbi vətəndaşlara verilən viza blankının spesifikasiyası

Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik, konsulluq və başqa diplomatik nümayəndəlikləri tərəfindən ölkədən getmək və ölkəyə gəlmək üçün əcnəbi vətəndaşlara verilən viza blankının spesifikasiyası İCAO-nun (Beynəlxalq Mülki Aviasiya Təşkilatının) 9303 nömrəli sənədinin ikinci hissəsində nəzərdə tutulmuş maşınla oxunan viza (MRV-A) formatının spesifikasiyasına uyğundur.

Viza blankı 80x120 mm ölçülü, üfüqi şəkildə küncləri yarımdairəvi formada olan bir səhifədən və kötükdən ibarətdir və arxa hissəsi yapışqanlıdır. Kağızın tərkibi 100% sellülozdan olan viza blankı ofset, çoxçalarlı intaqlio və metalloqrafik üsulla çap olunur. Kağız, istifadə olunmuş boya və yapışqan viza blankının lazer printerində çap olunması üçün müvafiq hərarət dərəcəsinə davamlı olmalıdır.

Viza blankının üzərində görünən və görünməyən formada Azərbaycan Respublikasının simvolları, mərkəzi hissəsində böyüdülmüş formada Azərbaycan Respublikasının Dövlət gerbi göstərilir. Viza blankının maşınla oxuna bilən hissəsi ikizolaqlıdır.

Viza blankının səthi hamardır. Viza blankının kağızının tərkibində görünən və flüoresent liflər vardır. Viza blankının istehsalı üçün istifadə olunan kağız optik cəhətdən ultrabənövşəyi şüaları əks etdirmir. İstehsalında giyoş, mikro çap və qabarıq çap üsullarından istifadə olunur.

Viza blankının şəxsi məlumatlara aid hissəsi "göy qurşağı" çap üsulu ilə təsvir olunur. "VİZA" sözünün yazılışında optik dəyişən mürəkkəbdən istifadə edilir. Viza blankının seriyası və nömrəsi maqnetik mürəkkəblə çap edilir. Viza blankındakı bir sıra elementlər infraqırmızı optik mürəkkəblə təsvir olunur və qoruyucu əlamətlər viza blankının üzərində proporsional şəkildə yerləşdirilir.

Viza blankının üzərində Azərbaycan Respublikasının Dövlət gerbi həkk olunmuş kiçik ölçüdə holloqram və ya kineqram vardır.

Viza blankı üçün istifadə olunmuş kağız, boya və yapışqan ən azı on il keyfiyyətini və xüsusiyyətini saxlamalıdır.

Viza blankının üzərində, onu pasportdan qoparmağa çalışarkən vizanın bir neçə hissəyə bölünməsinə gətirib çıxaran kəsiklər vardır.

Azərbaycan Respublikasının Litva Respublikasında (Vilnüs şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Litva Respublikasında (Vilnüs şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Litva Respublikasında (Vilnüs şəhərində) Səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirmə məsələlərini bir ay müddətinə həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Litva Respublikasında (Vilnüs şəhərində) Səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətinə təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyun 2007-ci il

№2260

N. Ə. Şahtaxtinskayaya Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Nairə Əliabbas qızı Şahtaxtinskayaya Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyun 2007-ci il

№2261

N. Ə. Şahtaxtinskayanın Azərbaycan Respublikasının Litva Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Nairə Əliabbas qızı Şahtaxtinskaya Azərbaycan Respublikasının Litva Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyun 2007-ci il

№2262

Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarında Fövqəladə və Səlahiyyətli Səfiri Y. T. Əliyevin, iqamətgahı Vaşinqton şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarında Fövqəladə və Səlahiyyətli Səfiri Yaşar Teymur oğlu Əliyev, iqamətgahı Vaşinqton şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyun 2007-ci il

№2263

2007-ci il mayın 3-də Rabat şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın təsis edilməsi haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il mayın 3-də Rabat şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın təsis edilməsi haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsi üçün digər lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Mərakeş Krallığı tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 iyun 2007-ci il

№2272

Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın təsis edilməsi haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti,

Tərəflərin maraqları çərçivəsində ikitərəfli əlaqə və əməkdaşlığı uzun-müddətlilik əsasında genişləndirməyi və inkişaf etdirməyi arzulayaraq,

bərabərlik, qarşılıqlı fayda və suverenliyə hörmət prinsipləri əsasında iki dövlət arasında ikitərəfli əməkdaşlığı gücləndirmək maraqlarını təsdiqləyərək,

iki dövlət arasında müxtəlif sahələrdə mövcud və gələcəkdə imzalanacaq Sazişləri nəzərə alaraq,

onların dövlətlərində müvafiq qanun və qaydalara uyğun olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər, aralarında bütün sahələrdəki əməkdaşlıq və məsləhətləşmələrə yardım edəcək Birgə Komissiya (bundan sonra "Komissiya" adlandırılacaq) təsis edirlər.

Maddə 2

Komissiya qeyd olunan əməkdaşlıq və məsləhətləşmələrin təşviq olunması üsul və vasitələrini nəzərdən keçirəcək və bu Anlaşma Memorandumunun və öz qərarlarının koordinasiyasını və icrasını təmin edəcəkdir.

Bu məqsədlərə nail olmaq üçün Komissiya əsasən aşağıdakı məsələlərə baxacaqdır:

a) hər iki Tərəfin maraqları çərçivəsində olan bütün sahələrdə ikitərəfli əməkdaşlığın həyata keçirilməsi üçün fəaliyyət istiqamətinin müəyyən edilməsi;

b) hər iki hökumətə təqdim olunması məqsədilə təklif və iş planının hazırlanması;

c) iki dövlət arasında səfər, əlaqə və məlumat mübadiləsinin təşviq olunması;

d) dövlətlər arasındakı sazişlərin həyata keçirilməsinə nəzarət və onların həyata keçirilməsi zamanı meydana çıxa biləcək problemlərin həlli;

e) əməkdaşlığı daha da təşviq etmək və həvəsləndirmək metodlarının və formalarının müəyyən edilməsi və təkliflərin verilməsi.

Maddə 3

1. Tərəflər Komissiyanın həmsədrlərini və üzvlərini müəyyən edəcək və diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandıracaqlar.

2. Komissiya Tərəflərin razılığı ilə alternativ olaraq Bakıda və ya Rabatda görüşəcəklər. Komissiyanın hər görüşünün gündəliyi diplomatik kanallarla müzakirə olunacaq və açılış sessiyasında qəbul olunacaqdır.

3. Komissiyanın görüşünün nəticələri Tərəflərin razılığı ilə Protokol formasında tərtib olunacaqdır.

Maddə 4

Komissiya öz qayda və prosedurlarını müəyyən edəcək və qarşıya çıxan spesifik məsələlərlə məşğul olmaq məqsədilə müvafiq İşçi qrupları yaradacaqdır.

Maddə 5

İşçi qrupları Tərəflərin qarşılıqlı razılığı ilə görüşəcəklər və bu görüşlərə razılıq əsasında, rəsmi və ya qeyri-rəsmi ekspert və məsləhətçilər dəvət oluna bilərlər.

Maddə 6

Bu Anlaşma Memorandumunun təfsiri və ya icrası ilə bağlı yaranan hər hansı mübahisə və ya ziddiyyət Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll olunacaqdır.

Maddə 7

Tərəflərin qarşılıqlı yazılı razılığı ilə bu Anlaşma Memorandumuna əlavə və dəyişikliklər edilə bilər. Belə əlavə və ya dəyişikliklər bu Anlaşma Memorandumunun 8-ci maddəsinə uyğun olaraq qüvvəyə minəcək və onun ayrılmaz hissəsi olacaqdır.

Maddə 8

1. Bu Anlaşma Memorandumu, onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minəcəkdir.

2. Bu Anlaşma Memorandumu 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən biri bu Anlaşma Memorandumunun qüvvədə olması müddətinin başa çatmasına ən azı 6 (altı) ay qalmış digər Tərəfə onun qüvvəsini ləğv etmək niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Anlaşma Memorandumu avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

3. Tərəflər başqa qayda nəzərdə tutmayıblarsa, bu Anlaşma Memorandumunun qüvvədən düşməsi onun şərtlərilə davam etdirilən proqramlar bitənədək, onların icrası üçün əsas olacaqdır.

Yuxarıdakıların təsdiqi olaraq, Hökumətləri tərəfindən müvafiq qaydada səlahiyyətləndirilmiş şəxslər bu Anlaşma Memorandumunu imzaladılar.

Bu Anlaşma Memorandumu Rabat şəhərində 3 may 2007-ci il tarixində Azərbaycan, ərəb və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər autentikdir. Anlaşma Memorandumunun təfsirində fikir ayrılığı yarandıqda ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MƏRAKEŞ KRALLIĞI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*MƏHƏMMƏD BENAİSSA*
Xarici işlər naziri	*Xarici işlər və əməkdaşlıq naziri*

Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında 2000-ci il 1 iyun tarixli Sazişin qüvvədə olma müddətinin uzadılması haqqında Protokolu imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında 2000-ci il 1 iyun tarixli Sazişin qüvvədə olma müddətinin uzadılması haqqında Protokolu Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Fərrux oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Fərrux oğlu Məmmədova verilməsi barədə Beynəlxalq Qırmızı Xaç Komitəsinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 iyun 2007-ci il

№2273

BMT-nin Baş Məclisinin 1965-ci il 21 dekabr tarixli Qətnaməsi ilə qəbul edilmiş İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya üzrə Azərbaycan Respublikası Hökumətinin beşinci və altıncı dövri məruzələrinin hazırlanması və təqdim olunması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

BMT-nin Baş Məclisinin 2106 A (XX) nömrəli 1965-ci il 21 dekabr tarixli Qətnaməsi ilə qəbul edilmiş İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya üzrə Azərbaycan Respublikası Hökumətinin beşinci və altıncı dövri məruzələrinin hazırlanmasını və Azərbaycan Respublikasının adından Birləşmiş Millətlər Təşkilatının İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsinə təqdim olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. BMT-nin Baş Məclisinin 2106 A (XX) nömrəli 1965-ci il 21 dekabr tarixli Qətnaməsi ilə qəbul edilmiş İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya üzrə Azərbaycan Respublikası Hökumətinin beşinci və altıncı dövri məruzələrinin hazırlanması üçün aşağıdakı tərkibdə İşçi qrupu yaradılsın:

İşçi qrupunun rəhbəri

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

İşçi qrupunun üzvləri:

Oruc Zalov - Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Əli Şəfiyev - Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini

Çingiz Məmmədov - Azərbaycan Respublikası müdafiə nazirinin müavini

Toğrul Musayev - Azərbaycan Respublikası ədliyyə nazirinin müavini

Rüstəm Usubov - Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini

Natiq Məmmədov - Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Elsevər Ağayev - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Sevda Məmmədəliyeva - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini

Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini

Svetlana Qasımova - Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədr müavini

Həmid Bağırov - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini

Aynur Sofiyeva - Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini

Ceyhun Məmmədov - Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin İctimai məsələlər və analitik təhlil şöbəsinin müdiri

2. İşçi qrupuna tapşırılsın ki, iki ay müddətində bu Sərəncamın 1-ci bəndində göstərilən məruzələrin layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən beşinci və altıncı dövri məruzələrin hazırlanıb baxıldıqdan sonra Birləşmiş Millətlər Təşkilatının İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsinə təqdim olunmasını təmin etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 iyun 2007-ci il

№2274

Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında tarixən mövcud olan dostluq və mehriban qonşuluq münasibətlərinin genişləndirilməsinə, əməkdaşlığın bütün sahələri və istiqamətləri üzrə əlaqələrin inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verərək, bu əməkdaşlığın səmərəli təşkil olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin:

Komissiyanın həmsədri

Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Komissiyanın üzvləri:

Natiq Əliyev - Azərbaycan Respublikasının sənaye və energetika naziri

Füzuli Ələkbərov - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

Oqtay Şirəliyev - Azərbaycan Respublikasının səhiyyə naziri

Aydın Əliyev - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri

Nazim İbrahimov - Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini

Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini

İlham Quliyev - Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Firdovsi Əliyev - Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Sevda Məmmədəliyeva - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini

İradə Hüseynova - Azərbaycan Respublikası təhsil nazirinin müavini

Elçin Quliyev - Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi

Arzu Rəhimov - Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi

Arif Alışanov - "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri

Etibar Pirverdiyev - "Azərenerji" Səhmdar Cəmiyyətinin prezidenti

Əhməd Əhmədzadə - Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri

Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının MDB ölkələri ilə iqtisadi əlaqələr şöbəsinin müdiri (Komissiyanın məsul katibi)

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfinin tərkibi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 iyul 2007-ci il

№2283

"Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Böyük Əmman Bələdiyyəsi (İordaniya Haşimilər Krallığı) arasında dostluq və əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Böyük Əmman Bələdiyyəsi (İordaniya Haşimilər Krallığı) arasında dostluq və əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyəti Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala İbrahim oğlu Abutalıbova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala İbrahim oğlu Abutalıbova verilməsi barədə İordaniya Haşimilər Krallığı tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 iyul 2007-ci il

№2294

"İordaniya-Azərbaycan İşgüzar Şurasının təsis olunmasına dair Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "İordaniya-Azərbaycan İşgüzar Şurasının təsis olunmasına dair Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə İordaniya Haşimilər Krallığı tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 iyul 2007-ci il

№2295

"Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya haqqında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya haqqında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə İordaniya Haşimilər Krallığı Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 iyul 2007-ci il

№2296

"Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə İNTEL Technologies, İnc şirkəti arasında təhsil sahəsində informasiya-kommunikasiya texnologiyalarından istifadəyə dair qarşılıqlı anlaşma və niyyətlər barədə Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə İNTEL Technologies, İnc şirkəti arasında təhsil sahəsində informasiya-kommunikasiya texnologiyalarından istifadəyə dair qarşılıqlı anlaşma və niyyətlər barədə Memorandum"u imzalamaq səlahiyyəti Azər-

baycan Respublikasının təhsil naziri Misir Cumayıl oğlu Mərdanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının təhsil naziri Misir Cumayıl oğlu Mərdanova verilməsi barədə İNTEL Technologies, İnc şirkətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri 1 avqust 2007-ci il

№2298

Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasına uyğun olaraq Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsi ilə bağlı dördüncü dövri hesabatın hazırlanması və təqdim olunması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasına Azərbaycan Respublikasının qoşulduğunu nəzərə alaraq və həmin Konvensiyanın müddəalarına uyğun olaraq Azərbaycan Respublikasının öz öhdəliklərini yerinə yetirməsi ilə bağlı həyata keçirdiyi tədbirlər barədə dördüncü dövri hesabatın hazırlanmasını və Birləşmiş Millətlər Təşkilatının Qadınlara münasibətdə ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsinə təqdim edilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasına uyğun olaraq Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsi ilə bağlı həyata keçirdiyi tədbirlər barədə dördüncü dövri hesabatın hazırlanması üçün aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

İşçi qrupunun rəhbəri

Hicran Hüseynova - Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri

İşçi qrupunun üzvləri:

İntiqam Babayev - Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

İradə Hüseynova - Azərbaycan Respublikası təhsil nazirinin müavini

Oruc Zalov - Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Sevda Məmmədəliyeva - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini

Sevinc Həsənova - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini

Faiq Qurbanov - Azərbaycan Respublikası Ədliyyə Nazirliyi İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi

Murad Nəcəfbəyli - Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Beynəlxalq hüquq və müqavilələr idarəsinin rəisi

Ağadadaş Məmmədov - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Demoqrafiya və sosial statistika şöbəsinin müdiri

Azad Tagızadə - Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Əlil, tənha və ahıllara sosial xidmətin təşkili şöbəsinin müdiri

Faizə Əliyeva - Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun direktoru

Azay Quliyev - Milli QHT Forumunun prezidenti

2. İşçi qrupuna tapşırılsın ki, 6 ay müddətində bu Sərəncamın birinci bəndində göstərilən hesabatın layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın birinci bəndində göstərilən dördüncü dövri hesabatın hazırlanıb baxıldıqdan sonra 2008-ci il avqustun 1-dək Birləşmiş Millətlər Təşkilatının Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması üzrə Komitəsinə təqdim olunmasını təmin etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 avqust 2007-ci il

№2301

"Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında müdafiə sənayesi müəssisələrinin istehsalat və elmi-texniki sahələrdə kooperasiyası haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında müdafiə sənayesi müəssisələrinin istehsalat və elmi-texniki sahələrdə kooperasiyası haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Qazaxıstan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 avqust 2007-ci il

№2303

"Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Qazaxıstan Respublikası maliyyə bazarının və maliyyə təşkilatlarının tənzimlənməsi və onlara nəzarət Agentliyi arasında qiymətli kağızlar bazarlarında nəzarət məsələləri üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Qazaxıstan Respublikası maliyyə bazarının və maliyyə təşkilatlarının tənzimlənməsi və onlara nəzarət Agentliyi arasında qiymətli kağızlar bazarlarında nəzarət məsələləri üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Gündüz Qəzənfər oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Gündüz Qəzənfər oğlu Məmmədova verilməsi barədə Qazaxıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 avqust 2007-ci il

№2304

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və "Qazaxıstan" Respublika Teleradio Korporasiyası Səhmdar Cəmiyyəti arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və "Qazaxıstan" Respublika Teleradio Korporasiyası Səhmdar Cəmiyyəti arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Arif Nizam oğlu Alışanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində .göstərilən Sazişi imzalamaq səlahiyyətinin "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Arif Nizam oğlu Alışanova verilməsi barədə Qazaxıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 avqust 2007-ci il

№2305

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında təbii qaz və neft sahəsində əməkdaşlıq haqqında Memorandum"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında təbii qaz və neft sahəsində əməkdaşlıq haqqında Memorandum"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Yunanıstan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 avqust 2007-ci il

№2306

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında azad ticarət haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında azad ticarət haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Tacikistan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 avqust 2007-ci il

№2309

"Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"i Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"i Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilməsi barədə Tacikistan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 avqust 2007-ci il

№2310

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında rabitə və informasiyalaşdırma sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında rabitə və informasiyalaşdırma sahəsində əməkdaşlıq haqqında

Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilməsi barədə Tacikistan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 avqust 2007-ci il

№2311

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının təhsil naziri Misir Cumayıl oğlu Mərdanova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu

Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının təhsil naziri Misir Cumayıl oğlu Mərdanova verilməsi barədə Tacikistan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 avqust 2007-ci il

№2312

"Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Tacikistan Respublikasının Dövlət Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Tacikistan Respublikasının Dövlət Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Arif Mikayıl oğlu Vəliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Arif Mikayıl oğlu Vəliyevə verilməsi barədə Tacikistan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 avqust 2007-ci il

№2313

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında elm, texnika və texnologiya sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında elm, texnika və texnologiya sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərim oğlu Kərimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərim oğlu Kərimova verilməsi barədə Tacikistan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 avqust 2007-ci il

№2314

Azərbaycan Respublikasının beynəlxalq dövlətlərarası və hökumətlərarası müqavilələrinin bağlanması qaydası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1. Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanması nəzərdə tutulan beynəlxalq dövlətlərarası və hökumətlərarası müqavilə layihələri həmin layihələrin bağlanmasına bir ay qalmış Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına təqdim edilməlidir.

2. Mərkəzi icra hakimiyyəti və digər icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən beynəlxalq dövlətlərarası və hökumətlərarası müqavilələrin imzalanmasına Azərbaycan Respublikasının Prezidenti tərəfindən səlahiyyət verilməsi nəzərdə tutulduqda həmin müqavilə layihələri onların imzalanması tarixinə ən azı qırx beş gün qalmış Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına təqdim edilməlidir.

3. Qoşulma prosedurunda imzalanması nəzərdə tutulmayan beynəlxalq müqavilələrə qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının qoşulması üçün həmin müqavilələr qoşulmaq tarixinə ən azı qırx beş gün qalmış Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına təqdim edilməlidir.

4. Bu Fərmanın 1-3-cü bəndlərində göstərilən beynəlxalq dövlətlərarası və hökumətlərarası müqavilə layihələrinin mətnlərinə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına təqdim edildikdən sonra hər hansı düzəliş haqqında həmin düzəlişin edildiyi gündən başlayaraq üç gün müddətində Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına məlumat verilməlidir.

5. Azərbaycan Respublikasının Prezidentinə təqdim edilən beynəlxalq dövlətlərarası və

hökumətlərarası müqavilə layihələrinin dövlət dilinə tərcümələri qanunvericiliklə müəyyən olunmuş qaydada təsdiq edilməlidir.

6. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti.

Bakı şəhəri, 16 avqust 2007-ci il

№616

Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında 2007-ci il mayın 7-də Qahirə şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında 2007-ci il mayın 7-də Qahirə şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Misir Ərəb Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Misir Ərəb Respublikasının Kənd Təsərrüfatı və Meliorasiya Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş;

1.3. Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTac) və Misirin Yaxın Şərq Xəbər Agentliyi (MENA) arasında Əməkdaşlıq Sazişi;

1.4. "Azərpoçt" Dövlət Müəssisəsi (Milli Operator) və Misir Milli Poçt Təşkilatı arasında beynəlxalq pul baratlarının mübadilə olunması üzrə İkitərəfli Saziş;

1.5. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Misir Ərəb Respublikasının Daxili İşlər Nazirliyi arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu;

1.6. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası və Misir Ərəb Respublikasının İskəndəriyyə Kitabxanası arasında Anlaşma Memorandumu;

1.7. Azərbaycan Respublikasının Abşeron Rayonu və Misir Ərəb Respublikasının Kalyubcya Əyaləti arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu;

1.8. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Misir Ərəb Respublikasının Neft Nazirliyi arasında texniki əməkdaşlığa dair Protokol.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1.1-1.8-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə Misir Ərəb Respublikası Kənd Təsərrüfatı və Meliorasiya Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 avqust tarixli 939 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 8, maddə 732) 1-ci və 2-ci bəndləri qüvvədən düşmüş hesab

edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 avqust 2007-ci il

№2327

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Misir Ərəb Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Misir Ərəb Respublikasının Ədliyyə Nazirliyi,

Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında hüquqi əməkdaşlığın bərqərar olunmasına və inkişafına mühüm əhəmiyyət verərək,

hüquq və ədliyyə sahəsində əlaqələrin inkişafı və möhkəmləndirilməsin-də hər iki dövlətin marağını qeyd edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər əməkdaşlığı həyata keçirərkən aşağıdakı istiqamətlərə üstünlük verəcəklər:

1) hər iki dövlətin ədliyyə idarə və müəssisələrinin təşkili və fəaliyyəti ilə tanışlıq və bu məqsədlə Tərəflərin nümayəndə heyətlərinin mübadiləsi;
2) hüquq ədəbiyyatının və hüquq məsələlərinə dair nəşrlərin, həmçinin hüquq sahəsinə aid olan məlumatların qarşılıqlı mübadiləsi;
3) qüvvədə olan qanunvericilik haqqında məlumat mübadiləsi;
4) hakimlərin və digər ədliyyə işçilərinin peşəkarlıq səviyyəsinin və hazırlığının daha da yaxşılaşdırılması üçün qarşılıqlı surətdə seminar, mühazirə, təcrübi məşğələ və digər bu kimi tədbirlərin təşkili və keçirilməsi;
5) Tərəflərin təhsil və ekspertiza mərkəzləri arasında əməkdaşlığın təşviq edilməsi.

Maddə 2

Tərəflər həmçinin ədliyyə sahəsində əməkdaşlığın inkişafına kömək edən digər sazişlər bağlaya bilərlər.

Maddə 3

Tərəflər əməkdaşlığın həcmini, tədbirlərin həyata keçirilməsinin maliyyə və təşkilati məsələlərini müəyyənləşdirəcəklər.

Maddə 4

Bu Sazişin icrası zamanı ingilis dili rəsmi dil kimi istifadə olunacaqdır.

Maddə 5

Bu Saziş qeyri-müəyyən müddətə bağlanır və imzalandığı tarixdən qüvvəyə minir.

Hər bir Tərəf digər Tərəfə diplomatik kanallarla yazılı bildiriş göndərmək yolu ilə Sazişi ləğv edə bilər. Saziş belə bildirişin alındığı gündən üç ay keç-dikdən sonra öz qüvvəsini itirir.

Qahirə şəhərində 2007-ci il 7 may tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər qüvvəyə malikdir. Sazişin təfsirində fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN

FİKRƏT MƏMMƏDOV
Ədliyyə naziri

MİSİR ƏRƏB RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN

FAYZA ABUL NAQA
Beynəlxalq əməkdaşlıq naziri

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Misir Ərəb Respublikasının Kənd Təsərrüfatı və Meliorasiya Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə Misir Ərəb Respublikasının Kənd Təsərrüfatı və Meliorasiya Nazirliyi,

kənd təsərrüfatının iqtisadi, elmi-texniki və aqrar sənaye sahəsində əməkdaşlığı genişləndirmək məqsədilə, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər səmərəli əməkdaşlığa nail olmaq üçün aşağıda göstərilmiş istiqamətlərdə birgə fəaliyyət göstərəcəklər:

kənd təsərrüfatı sahəsində elmi əlaqələrin genişləndirilməsi və aşağıdakı sahələrdə təcrübə mübadiləsi;

məhsul istehsalı, baytarlıq təbabəti, həşəratlara qarşı mübarizə, üzvi heyvandarlıq, kənd təsərrüfatının müxtəlif sahələrinə həsr edilmiş simpozium, seminar, konfrans, sərgi və yarmarkaların təşkil edilməsi;

kənd təsərrüfatında mütəxəssis sisteminin inkişafı və tətbiqi üzrə təlim;

beynəlxalq standartlar, texnologiyalar və elmi-texniki yeniliklər barədə məlumat mübadiləsi;

kənd təsərrüfatı məhsullarının müasir texnologiya ilə istehsalı və emalı, marketinqi və infrastruktur sahələrinə investisiya qoyuluşu, bu sahələrdə mövcud müəssisələrin modernləşdirilməsi və yeni birgə müəssisələrin yaradılmasına kömək göstərilməsi;

ekoloji təmiz kənd təsərrüfatı məhsulları (meyvə-tərəvəz və bostan) istehsalı üzrə aqrokimyəvi tədbirlərin aparılması sahəsində təcrübə mübadiləsi;

bitkiçilik və heyvandarlıqda genetik və bioloji materiallar mübadiləsi;

iki ölkə arasında idxal-ixrac mübadiləsi üçün baytarlıq sertifikatlarının hazırlanması;

baytarlıq sahəsində istifadə olunan dərman preparatlarının istehsalı üzrə birgə müəssisələrin yaradılmasına kömək göstərilməsi;

dəmyə və şoranlıq şəraitində yem bitkilərinin becərilməsi sahəsində təcrübə mübadiləsi və bu sahələrdə əməkdaşlıq;

bitkiçilik sahəsində ziyanvericilərə və xəstəliklərə qarşı mübarizə və karantin tədbirlərinin həyata keçirilməsi;

əkinçilik, bağçılıq, aqrosənaye və suvarma sistemləri sahəsində layihələrin həyata keçirilməsi;

suvarmanın səmərəli üsullarından istifadə, o cümlədən çiləmə üsulu ilə suvarmanın tətbiqi sahəsində əməkdaşlıq;

kənd təsərrüfatında özəl texniki xidmətin yaradılmasına kömək göstərilməsi;

özəl qurumlara yardım məqsədilə maliyyə strukturlarının təşkili, kredit cəmiyyətləri və kənd təsərrüfatı birjalarının yaradılmasına kömək göstərilməsi.

Maddə 2

Bu Sazişdə müəyyən edilmiş əməkdaşlıq Tərəflərin dövlətlərinin beynəlxalq öhdəliklərinə və qanunvericiliklərinə uyğun olaraq həyata keçiriləcəkdir.

Maddə 3

Tərəflər bu Sazişin həyata keçirilməsi üçün məsləhətləşmələr aparacaqlar. Məsləhətləşmələrin keçirildiyi yer, tarix, gündəlik və həmçinin xərclərin ödənilməsi qaydası qarşılıqlı razılıq əsasında müəyyənləşdiriləcəkdir.

Tərəflər arasında təfsir və tətbiqlə bağlı mübahisəli məsələlər danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 4

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə dəyişiklik və əlavələr edilə bilər. Belə dəyişiklik və əlavələr bu Sazişin ayrılmaz tərkib hissəsi olan ayn-ayrı protokollarda tərtib ediləcəkdir.

Maddə 5

Bu Saziş imzalandığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri müvafiq müddətin qurtarmasına ən azı altı ay qalmış Sazişin qüvvəsinin ləğv edilməsi haqqında digər Tərəfə yazılı formada xəbərdarlıq etməzsə, Saziş avtomatik olaraq növbəti beş il müddətinə qüvvədə qalacaqdır.

Bu Saziş Qahirə şəhərində 7 may 2007-ci il tarixində Azərbaycan, ərəb və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Sazişin təfsirində fikir ayrılığı olduqda, ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ ADINDAN	MİSİR ƏRƏB RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI VƏ MELİORASİYA NAZİRLİYİ ADINDAN
HEYDƏR BABAYEV	*FAYZA ABUL NAQA*
İqtisadi inkişaf naziri	*Beynəlxalq əməkdaşlıq naziri*

Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Misirin Yaxın Şərq Xəbər Agentliyi (MENA) arasında əməkdaşlıq Sazişi

Azərbaycan Respublikası və Misir Ərəb Respublikası xalqları arasında dostluq əlaqələri çərçivəsində iki ölkə arasında informasiya, texnologiya və kommunikasiya sahəsində əməkdaşlığı inkişaf etdirmək və möhkəmləndirmək yönündə qarşılıqlı istəyə əsaslanaraq,

bir tərəfdən Azərbaycan Dövlət Teleqraf Agentliyi (bundan sonra "Azər-TAc" adlandırılacaq), Baş direktor Aslan Aslanovun şəxsində və

digər tərəfdən Orta Şərq Xəbər Agentliyi (bundan sonra "MENA" adlandırılacaq), İdarə Heyətinin sədri və Baş redaktor Abdulla Həsənin şəxsində

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

AzərTAc və MENA müntəzəm olaraq ingilis dilində biri-birinə gündə orta hesabla xəbər seçimi əsasında 40 yeni informasiya göndərəcəkdir. Əgər ikinci Tərəf (MENA) digər Tərəfin bütün informasiyalarını almaq istəsə, bu, Tərəflərin razılığı ilə ayrıca saziş və abunə tarifləri əsasında həyata keçiriləcəkdir.

Maddə 2

Tərəflər arasında informasiya xidmətləri mübadiləsi qarşılıqlı razılıq əsasında süni peyk rabitəsi, yaxud İnternet vasitəsilə həyata keçiriləcəkdir.

Maddə 3

Hər bir Tərəf digər Tərəfə aldığı xəbərlərdən istifadə etmək və onları qeyri-kommersiya əsasında yaymaq hüququ verir.

Maddə 4

AzərTAc və MENA fotoşəkilləri mümkün olduğu və ya ehtiyac olduğu hallarda mübadilə etməyi öhdələrinə götürürlər.

Maddə 5

Tərəflərin hər biri digər Tərəfdən öz ölkəsində baş verən mühüm hadisələr barədə əlavə informasiya göndərməyi xahiş edə bilər. Bu cür xüsusi müraciətlərə görə xərcləri müraciət edən tərəf ödəyir.

Maddə 6

AzərTAc və MENA biri-birinin xəbərlərindən istifadə edərkən, onun məzmununu və faktları dəyişməyəcəyi və xəbərin mənbəyini aydın göstərəcəyini öz üzərilərinə götürürlər.

Maddə 7

AzərTAc və MENA öz mətbuat tapşırığını yerinə yetirməkdə digər tərəfdaşların müxbirlərinə, yaxud xüsusi əməkdaşlarına lazım olan hər bir köməyi göstərəcəklər.

Maddə 8

AzərTAc və MENA hər il jurnalist və başqa mütəxəssislərin illik mübadiləsini təşviq edirlər. Bu cür mübadilənin şərtləri hər iki tərəfin məktub mübadiləsi əsasında əvvəlcədən müəyyən ediləcəkdir.

Maddə 9

Tərəflər redaktə, treninq, texniki məsələlər, informasiya texnologiyası, marketinq və satış sahəsində təcrübə mübadiləsi etməyə razılaşırlar.

Maddə 10

Bu Saziş imzalandığı gündən qüvvəyə minir. Bir il müddətində etibarlıdır və Tərəflərdən hər hansı biri bu müddətin başa çatmasından iki ay əvvəl Sazişi ləğv etmək istəməsə, o, daha bir il müddətinə uzadıla bilər. Saziş istənilən vaxt Tərəflərin əlavə memorandum imzalaması ilə dəyişdirilə bilər.

Bu Saziş 7 may 2007-ci il tarixində Azərbaycan, ərəb və ingilis dillərin-də iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər qüvvəyə malikdir. Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

AZƏRTAC ADINDAN	MENA ADINDAN
ASLAN ASLANOV	*ABDULLA HƏSƏN*
Baş direktor	*İdarə heyətinin sədri, baş redaktor*

"Azərpoçt" Dövlət Müəssisəsi (Milli Operator) və Misir Milli Poçt Təşkilatı arasında beynəlxalq pul baratlarının mübadilə olunması üzrə İkitərəfli Saziş

Maddə 1

Müqavilənin məqsədi

Bu Saziş Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında beynəlxalq pul baratlarının mübadiləsini tənzimləyir.

Maddə 2

Pul baratlarının mübadiləsi

Pul baratları yalnız poçt vasitəsilə mübadilə oluna bilər.

Pul baratları TFPl formalı blankda tərtib olunaraq və həmin baratların sayı, məbləği, baratı qəbul edən idarənin adı və baratı ödəyən idarənin adı göstərilməklə bütün məlumatlar, iki nüsxədə tərtib olunmuş siyahıya yazılmaqla mübadilə məntəqəsinə ünvanlanmış sifarişli məktubla aviapoçt vasitəsilə göndəriləcəkdir. Həmin siyahının surəti baratların daxil olduğunu təsdiq etmək üçün göndərən ölkəyə qaytarılmalıdır.

Maddə 3

Mübadilə valyutası

Pul baratları mübadiləsi Avropa avrosu ilə həyata keçirilərək və hər bir pul baratının maksimum məbləği 1000 Avropa avrosu olacaqdır.

Maddə 4

Mübadilə idarələri

Bu müqaviləyə uyğun olaraq pul baratları Azərbaycan Respublikasından Misir Ərəb Respublikasının Mübadilə İdarəsinə aşağıdakı ünvana göndəriləcəkdir:

Beynəlxalq Poçt Xidmətləri Departamentinin

Beynəlxalq Maliyyə Mübadilə İdarəsi

Qahirə şəhəri, Əttabə Meydanı

Tel: (+202) 3915796

Faks: (+202) 3914156

Elektron ünvan: gdconferences@egyptpost.org

Misir Ərəb Respublikasından Azərbaycan Respublikasına aşağıdakı ünvana göndəriləcəkdir:

AZ1000, Bakı şəhəri,

Üzeyir Hacıbəyov küç. 36

"Azərpoçt" Dövlət Müəssisənin

Baratlara nəzarət şöbəsi

Tel: (+99412) 493-56-00

Tel/faks: (+99412) 498-82-49

Elektron ünvan: bns@azerpost.rabita.az

Maddə 5

Yerinə yetirilmə qiymətləri

Hər iki Poçt Müdiriyyəti digər ölkədə ödənilmək üçün göndərilən pul baratlarına görə göndəricidən tutulmalı haqqı özü müəyyən edir. Ödəyən tərəf üçün ödənilmiş pul baratlarının ümumi məbləğinin 1,5 faizi həcmində komission xərc hesablanır.

Maddə 6

Ödəniş valyutası

Pul baratlarının məbləği onu ödəyən ölkənin valyutasının xarici ölkə valyutalarının hazırki mübadilə məzənnəsinə uyğun olaraq konvertasiya olunduqdan sonra, ödənişi aparacaq ölkənin valyutası ilə ödəniləcəkdir.

Maddə 7

Pul baratlarının ödənilməsi

Pul baratları ödəniş ediləcək tərəfə və ya poçt təşkilatının nəzərdə tutduğu qərarlara müvafiq yerlərə ödəniləcəkdir. Pul baratı ödəniş edilərək tərəfə və ya rəsmi icazə ilə onun səlahiyyətli nümayəndəsinə ödəniləcəkdir. Ödənilən pul baratları barədə hər iki ölkədə edilən həvalə qeydi (indossament) qəbul edilmir.

Maddə 8

Pul baratlarının ləğv olunması, pulun geri qaytarılması və ya ünvanın dəyişilməsi barədə müraciətlər

Əgər pul ödəyən tərəf pul baratını ləğv etmək və ya ödəniş ediləcək tərəfin təşkilatında ünvanı dəyişmək istəyirsə, onda o, sifariş verən təşkilata bu barədə yazılı müraciət etməlidir. Əgər pul baratı ödəniş ediləcək tərəfə ödənilməzsə, onda göndərən tərəfin istəyinin yerinə yetirilməsi məqsədilə yeri-nə yetirən təşkilat ödəniş ediləcək tərəflə birlikdə bütün lazımi prosedurları yerinə yetirəcəkdir. Əgər göndərən tərəf pul baratının məbləğini geri qaytar-maq və ya ödəniş ediləcək tərəfin ünvanını dəyişmək istəyirsə, əvvəlki prosedur tətbiq olunacaqdır.

Maddə 9

Pul baratının qüvvədə olma müddəti

Ödəniş ediləcək ölkədə pul baratının qüvvədə olma müddəti həmin pul baratının verildiyi aydan sonrakı üçüncü ayın sonuna kimi qüvvədə olacaqdır. Əgər pul baratının qüvvədə olma müddəti göndərən təşkilatın xahişi ilə uzadılmazsa, həmin pul baratı üzrə ödəniş aparılmayacaqdır.

Əgər pul baratının ödənilməməsi xidməti problemlə əlaqədardırsa, onda əvvəlki prosedurlar əlavə xərc olmadan tətbiq olunacaqdır.

Maddə 10

Qiymətlərdən azad olunma

Hər iki təşkilat arasında mübadilə olunan pul baratları xidməti bütün xərclərdən azad olunacaqdır.

Maddə 11

Ödənilməmiş pul baratları

Alıcısı bilinməyən, alıcısı göndəriş ünvanını tərk edərək getmiş və ya alınmasından imtina olunmuş pul baratı dərhal onu göndərən təşkilata qaytarılacaqdır.

Hər hansı bir səbəbdən ödənilməmiş pul baratı onun qüvvədə olma müddəti başa çatdıqdan sonra baratı göndərən təşkilata qaytarılacaqdır.

Maddə 12

Hesabların hazırlanması

Ödəyən təşkilat baratı göndərən təşkilat üçün ödənilmiş pul baratlarının məbləğini göstərən aylıq hesabı tərtib edəcəkdir. Bu baratların surətləri hesab vasitəsilə müşayiət olunacaqdır. Kreditor təşkilat ödənilmiş məbləğin 5-ci maddədə göstərilən təyin olunmuş faizini ödəyəcəkdir. Borclu təşkilat hesabı təsdiq edərək hesabın verildiyi aydan sonrakı ayın sonundan gec olmayaraq həmin məbləği kreditor təşkilata ödəyəcəkdir.

Maddə 13

Hesablara nəzarət olunması və ödənilməsi

Hesablar aşağıdakı kimi Avropa avrosu ilə tərtib olunacaqdır:

Misir Ərəb Respublikası üçün: Milli Poçt Təşkilatının Beynəlxalq Hesablaşma Bölməsinin Maliyyə Məsələləri üzrə Baş Departamenti Poçt indeksi - 11599 Qahirə şəhəri, Misir

Azərbaycan Respublikasından Misir Ərəb Respublikasına olan ödənişlər bank çeki vasitəsilə Misir Ərəb Respublikasının Milli Poçt Təşkilatının sədrinin adına (Poçt indeksi - 11599, Qahirə şəhəri - Misir) qeydiyyatdan keçmiş poçt vasitəsilə və ya bank köçürməsi vasitəsilə Misirin Milli Poçt Təşkilatının aşağıdakı hesabına ünvanlanacaqdır:

Banque du Jaire,

Kasr el Nil şöbəsi (Qahirə)

30031 saylı hesab sərbəst valyuta ilə

Ödəmə hesabı:	00206050000670 (avro)
SWIFT:	BCA1EGCX020
Hesabın sahibi:	Misirin Milli Poçt Təşkilatı
İdentifikasiya:	614800

Azərbaycan Respublikası üçün:

"Azərpoçt" Dövlət Müəssisəsinin

Baratlara Nəzarət şöbəsi

Bakı şəhəri, Ü.Hacıbəyov küç., 36

Misir Ərəb Respublikasından Azərbaycan Respublikasına edilən bank köçürələri "Azərpoçt" Dövlət Müəssisəsinin aşağıdakı hesabına ünvanlanacaqdır:

Xidmət bankı:	Kapital Bank
Ünvan:	Bakı şəhəri, Ü.Hacıbəyov küç., 36, AZ1000
Ödəmə hesabı:	7633168000 (avro)
Müxbir hesabı:	0137010001031
İdentifikasiya:	9900003611
KOD:	200189
SWIFT:	ALLBAZ2X
Hesabın sahibi:	"Azərpoçt" Dövlət Müəssisəsi
İdentifikasiya:	9900037711

Avropa avrosu ilə aparılacaq ödəmələr üçün:

Müxbir Bank:	COMMERZBANK AG (Frankfurt Mayn, Almaniya)
SWIFT kodu:	JOBADEFF

avro hesab nömrəsi: 400886714501 EUR

Maddə 14

Xidmətin dayandırılması və ya müqavilənin maddələrinə dəyişikliklər olunması

Əgər hər hansı poçt təşkilatı pul baratının mübadilə olunmasını dayandırmaq istəyində olarsa, qarşı tərəfə yazılı şəkildə məlumat verəcəkdir. Bu müqavilə həmin məlumatın verildiyi tarixdən iki ay sonra dayandırılacaqdır.

Hər bir poçt təşkilatı qarşılıqlı razılaşma əsasında ingilis dilində aparılan yazışmalar yolu ilə müqavilənin hər hansı maddəsinə dəyişiklik edə bilər. O, bu yeni dəyişikliklər barədə digər təşkilata məlumat verəcəkdir. Bu dəyişikliklərin yerinə yetirilməsi hər iki tərəfin razılaşdırdığı tarixdən etibarən yeri-nə yetiriləcəkdir.

Maddə 15

Məsuliyyət

Pul ödəyənin ödədiyi pul baratı nəzərdə tutulan şəxsə çatdırılana qədər sifarişi yerinə yetirən təşkilat pul verən tərəf qarşısında cavabdeh olacaqdır.

Pul baratına dair səhv məlumatın verilməsinə görə səhv edən təşkilat məsuliyyət daşıyacaqdır.

Əgər səhv hər iki təşkilatın (qəbul edən ölkənin təşkilatı və ödəniş edən ölkənin təşkilatı) üzündən baş verərsə və yaxud həmin məsuliyyəti müəyyən etmək mümkün olmazsa, hər iki təşkilat pul baratının kompensasiyasını bərabər surətdə ödəyəcəkdir.

Əgər ödəniş edən təşkilat ödənişin ölkədaxili qanunvericiliyə uyğun olaraq edilməsini sübut etməzsə, onda həmin təşkilat pul baratına görə məsuliyyət daşıyacaqdır.

Fors major hallan zamanı ziyan dəyərsə və yaxud pul baratının ödənildiyi tarixdən bir ay keçərsə, ödənişin qanuniliyi ilə əlaqədar mübahisələr yara-nan hallarda ödəniş edən təşkilat məsuliyyətdən azad ediləcəkdir.

Maddə 16

Qüvvəyə minmə

Bu Saziş imzalandığı tarixdən qüvvəyə minir və tərəflərdən biri digər tərəfə onun qüvvəsini ləğv etmək niyyəti barədə yazılı bildiriş göndərməzsə, avtomatik olaraq uzadılır.

Bu Saziş Qahirə şəhərində 7 may 2007-ci il tarixində hər biri Azərbaycan, ərəb və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ "AZƏPOÇT" DÖVLƏT MÜƏSSİSƏSİ ADINDAN	MİSİR ƏRƏB RESPUBLİKASININ MİLLİ POÇT TƏŞKİLATI ADINDAN
HEYDƏR BABAYEV *İqtisadi inkişaf naziri*	*TARİK MƏHƏMMƏD KAMİL* *Rabitə naziri*

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Misir Ərəb Respublikasının Daxili İşlər Nazirliyi arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Misir Ərəb Respublikasının Daxili İşlər Nazirliyi,

Misir Ərəb Respublikası və Azərbaycan Respublikası arasında mövcud olan dostluq əlaqələrini möhkəmlətmək və daha da inkişaf etdirmək niyyətində olaraq,

əməkdaşlığın hər iki ölkənin xalqlarına fayda gətirəcəyinə əmin olaraq,

hər iki ölkənin suverenliyinə və müstəqilliyinə qarşılıqlı hörmət prinsiplərinə əsaslanaraq,

Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası arasında 7 may 1996-cı il tarixində imzalanmış Təhlükəsizlik sahəsində Sazişi nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Əməkdaşlığın Miqyası

1) Tərəflər öz səlahiyyətləri çərçivəsində, öz dövlətlərinin qanunvericiliyinə və iştirakçı olduqlan beynəlxalq müqavilələrə uyğun olaraq aşağıda göstərilən cinayətlərin qarşısının alınması və aradan qaldırılması üzrə əmək-daşlığı həyata keçirəcəklər:
   a) terror aktları, silah, döyüş sursatı, partlayıcı, zəhərli, nüvə və radioaktiv maddələrdən istifadə edilməklə törədilmiş mütəşəkkil cinayətlər;
   b) narkotik vasitələr, psixotrop maddələr və prekursorların qanunsuz dövriyyəsi;
   c) pulların və qiymətli kağızların saxtalaşdırılması, istifadə edilməsi və dələduzluq;
   d) mədəni və tarixi dəyərlərə qarşı törədilən cinayətlər;
   e) kiber cinayətlər;
   f) qaçaqmalçılıq;
   g) pasport, viza və digər sənədlərin saxtalaşdırılması;
   h) qanunsuz miqrasiya və insan alveri;
   i) cinayət fəaliyyəti ilə əldə edilmiş gəlirlərin leqallaşdırılması.
2) Tərəflər həmçinin öz dövlətlərinin müvafiq qanunlarına uyğun olaraq qarşılıqlı əməkdaşlığı aşağıda göstərilən sahələrdə də genişləndirəcəklər:
   a) istintaqdan və məhkəmədən, cinayətə görə cəzanın çəkilməsindən boyun qaçıran şəxslərin, aliment verməkdən və iddialar üzrə məhkəmə qərarlarının icrasından yayınan, habelə itkin düşmüş şəxslərin axtarışı;
   b) şəxsiyyəti bilinməyən meyitlərin, naməlum şəxslərin və uşaqların şəxsiyyətinin müəyyənləşdirilməsi;

c) digər Tərəfin dövlətində qeyri-qanuni, şəxsiyyəti təsdiq edən saxta sənədlə yaşayan və ya sənədi olmayan şəxslərin müəyyənləşdirilməsi;

d) əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair sorğuların icrası.

Maddə 2

Məlumat mübadiləsi

Tərəflər öz dövlətlərinin qanunvericiliyinə müvafiq olaraq aşağıda göstərilən məlumat mübadiləsini həyata keçirəcəklər:

1) Bu Anlaşma Memorandumunun 1-ci maddəsində göstərilən cinayətlər üzrə;

2) Tərəflərin dövlətinin ərazisində cinayət törətmiş və ya cinayətlərin qurbanı olmuş digər Tərəfin dövlətinin vətəndaşları barədə;

3) Bu Anlaşma Memorandumu çərçivəsində qarşılıqlı maraq doğuran digər sahələr üzrə.

Maddə 3

Təcrübə Mübadiləsi

Tərəflər öz səlahiyyətləri çərçivəsində, aşağıda göstərilən sahələr üzrə təcrübə mübadiləsi aparacaqlar:

1) odlu silahlar, döyüş sursatı və partlayıcı maddələrin saxlanılmasına və qanuni dövriyyəsinə nəzarət;

2) əcnəbilərin qanunvericilikdə nəzərdə tutulmuş qaydada ölkəyə giriş və çıxış prosedurlarına nəzarət;

3) dil kursları daxil olmaqla, xüsusilə terrorizmə qarşı mübarizə sahəsində müvafiq polis akademiyaları vasitəsilə effektiv polis qüvvəsinin, məhkəmə-ekspertiza və müasir axtarış metodlarının təşkili və inkişaf etdirilməsi.

Maddə 4

İnterpol vasitəsilə əməkdaşlıq

Tərəflər əməkdaşlığın miqyasını genişləndirmək məqsədilə Milli İnterpol Büroları arasında əməkdaşlığın gücləndirilməsinə səy göstərəcəklər.

Maddə 5

Əməkdaşlığın forması

1) Tərəflər öz səlahiyyətləri çərçivəsində, müvafiq qanunvericiliklərinə uyğun olaraq bu Anlaşma Memorandumunun 1-ci maddəsində göstərilən cinayətlərin qarşısının alınması və aradan qaldırılması məqsədilə birgə tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsini, habelə öz müvafiq qanunvericiliyi çərçivəsində cinayət törədilməsində şübhəli bilinən və təqsirləndirilən şəxslərin əməliyyat axtarışlarını və həbsini təşkil edəcək və digər Tərəfə onların şəxsiyyətini təsdiq edən sənədlər və digər sübutlar barədə məlumat verəcəklər.

2) Tərəflər 1-ci maddədə göstərilmiş cinayətlərlə mübarizədə əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə mütəmadi məsləhətləşmələr aparacaqlar.

Maddə 6

Sorğuların icrası

Tərəflər qarşılıqlı fəaliyyəti aşağıdakı rekvizitlərə malik olan yazılı sorğular əsasında həyata keçirirlər:

1) sorğu göndərən orqanın adı və sorğu göndərilən orqanın adı;

2) sorğu üzrə göndərilən materialın qısa məzmunu və sorğunun icra olunması üçün digər sənədlər;

3) sorğu göndərən Tərəfi maraqlandıran sualların siyahısı.

Sorğu müvafiq qaydada imzalanmalı və onu göndərən orqanın möhürü ilə təsdiq edilməlidir. Sorğu göndərən Tərəfin dövlət dilində tərtib olunmuş sorğuları rus və yaxud ingilis dilinə tərcümə olunmalıdır.

Təxirəsalınmaz hallarda sorğular şifahi formada ifadə oluna bilər, lakin onlar postfaktum yazılı şəkildə təsdiq edilməlidir.

Maddə 7

Xərclər

Bu Anlaşma Memorandumuna müvafiq olaraq, hər bir konkret halda digər qayda razılaşdırılmadığı təqdirdə, Tərəflərin nümayəndələrinin beynəlxalq nəqliyyat xərclərini göndərən Tərəf, onların ölkədə qalması xərclərini isə qəbul edən Tərəf ödəyir.

Maddə 8

Əməkdaşlığın inkişaf etdirilməsi

Tərəflər bu Anlaşma Memorandumunun müddəalarının yerinə yetirilməsi vəziyyətinin yoxlanılması və gələcəkdə əməkdaşlıq üçün planların müzakirə edilməsi və icra edilməsi məqsədilə, nümayəndə heyətlərini mütəmadi olaraq, növbə ilə, Bakı və Qahirəyə görüş keçirmək üçün göndərəcəklər.

Maddə 9

Digər beynəlxalq müqavilələr üzrə öhdəliklər

Bu Anlaşma Memorandumu Tərəflərin iştirakçıları olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn beynəlxalq hüquq öhdəliklərinə təsir etməyəcəkdir.

Maddə 10

Məxfilik

Göndərən Tərəf məlumatın açıqlanmasını arzuolunmaz hesab etdiyi halda, Tərəflər digər Tərəfdən əldə edilən məlumatın məxfiliyini təmin etməlidir. Bu məlumatı verən Tərəf onun məxfilik dərəcəsini müəyyənləşdirməlidir.

Bu Anlaşma Memorandumu çərçivəsində mübadilə edilən məlumatlar onu təqdim edən Tərəfin yazılı razılığı olmadan üçüncü Tərəfə verilə bilməz.

Maddə 11

Əlavə və dəyişikliklər

Tərəflərin qarşılıqlı razılığı ilə bu Anlaşma Memorandumuna əlavələr və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Anlaşma Memorandumunun ayrılmaz hissəsi olaraq ayrı-ayrı protokollar formasında rəsmiləşdiriləcək və bu Anlaşma Memorandumunun 12-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minəcəkdir.

Maddə 12

Qüvvəyə minmə və qüvvədən düşmə

Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu 5 (beş) il müddətinə bağlanır və əgər müvafiq beşillik müddətin başa çatmasına ən azı 6 (altı) ay qalmış Tərəflərdən biri digər Tərəfə onun qüvvəsini ləğv etmək niyyəti barədə yazılı bildiriş gön-dərməzsə, bu Anlaşma Memorandumunun qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılacaqdır.

Anlaşma Memorandumu Qahirə şəhərində 7 may 2007-ci il tarixində Azərbaycan, ərəb və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər qüvvəyə malikdir. Bu Anlaşma Memorandumunun təfsirin-də fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətnə üstünlük verəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ ADINDAN	MİSİR ƏRƏB RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ ADINDAN
RAMİL USUBOV	*HƏBİB ƏL-ƏDLİ*
Daxili işlər naziri	*Daxili işlər naziri*

M. F. Axundov adına Azərbaycan Milli Kitabxanası və Misir Ərəb Respublikasının İskəndəriyyə Kitabxanası arasında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası və Misir Ərəb Respublikasının İskəndəriyyə Kitabxanası,

kitabxanalar arasında peşəkar münasibətləri inkişaf etdirmək, həmçinin mədəniyyət, elm sahələrində və elmi informasiyanın yayılması sahəsində əməkdaşlıq üçün şərait yaratmağı arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər kitabxana elmi, biblioqrafiya və informasiya elmi sahəsində əmək-daşlığı, sənədlərin elektron mübadiləsi və çatdırılmasını təşviq edəcəklər.

Maddə 2

Tərəflər kitabxana elminin inkişaf perspektivləri və nailiyyətləri barədə qarşılıqlı bilik əldə etmək məqsədilə aşağıdakı sahələr üzrə birbaşa elmi əlaqələri inkişaf etdirəcəklər:

nadir kitabların mühafizəsi və bərpası texnologiyası;

kitabxana arxivlərinin keyfiyyətli təkmilləşdirilməsi məqsədilə beynəlxalq kitab mübadiləsinin inkişafı;

kitab sərgilərinin təşkili;

kitabxana-biblioqrafiya prosesinin avtomatlaşdırılması;

kitabxana elminin bütün sahələrində mütəxəssis mübadiləsi.

Maddə 3

Bu Anlaşma Memorandumunun həyata keçirilməsi məqsədilə Razılığa gələn Tərəflər 3 illik Əməkdaşlıq Proqramını işləyib hazırlayacaqlar.

Maddə 4

Bu Anlaşma Memorandumuna əlavə və dəyişikliklər Tərəflərin qarşılıqlı razılığına əsasən edilə bilər. Belə dəyişiklik və əlavələr bu Anlaşma Memorandumunun ayrılmaz hissəsi olan Protokollarla rəsmiləşdiriləcək və bu Anlaşma Memorandumunun 5-ci maddəsində nəzərdə tutulmuş qaydada qüvvəyə minəcəkdir.

Maddə 5

Bu Anlaşma Memorandumu imzalandığı andan qüvvəyə minir və 5 (beş) il müddətinə qüvvədə qalacaqdır. Bu Anlaşma Memorandumunun qüvvədən düşməsinə ən azı 6 (altı) ay qalmış Tərəflərdən biri onu ləğv etmək niyyəti barədə digər Tərəfə yazılı bildiriş göndərməzsə, Anlaşma Memorandumu avtomatik olaraq növbəti 5 (beş) il müddətinə uzadılacaqdır.

Anlaşma Memorandumu Qahirə şəhərində 7 may 2007-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər qüvvəyə malikdir. Bu Anlaşma Memorandumunun təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

M. F. AXUNDOV ADINA AZƏRBAYCAN MİLLİ KİTABXANASI ADINDAN	İSKƏNDƏRİYYƏ KİTABXANASI ADINDAN
FAİQ BAĞIROV	*İSMAİL SƏRACƏDDİN*
Azərbaycanın Misirdəki Səfiri	*Müdir*

Azərbaycan Respublikasının Abşeron Rayonu və Misir Ərəb Respublikasının Kalyubeya Əyaləti arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Abşeron Rayon İcra Hakimiyyəti və Misir Ərəb Respublikasının Kalyubeya Əyaləti İcra Hakimiyyəti,

öz səmimi münasibətlərini möhkəmləndirmək və kənd təsərrüfatı, sənaye, irriqasiya, yerli inkişaf, mədəniyyət, xeyriyyə və s. sahələr üzrə nümayəndə heyətləri və məlumat mübadiləsi vasitəsilə iqtisadi, elmi və texniki əməkdaşlığı inkişaf etdirməyi arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

1. Kənd təsərrüfatı

Tərəflər aşağıdakı istiqamətlərdə mübadilə aparacaqlar: İstifadə olunan ən müasir kənd təsərrüfatı sistemləri ilə tanışlıq məqsədilə hər iki tərəfin kənd təsərrüfatı mütəxəssisləri arasında səfərlər; müvafiq əyalət və rayonda tədqiqat mərkəzləri arasında səfərlər.

2. Sənaye

Tərəflər öz müvafiq əyalət və rayonundakı zavodlar, fabriklər, ticarət və sənaye palataları və banklar arasında sənaye kommunikasiyalarını təmin edəcəklər.

Onlar həmçinin iqtisadi məsələlər də daxil olmaqla müvafiq əməkdaşlıq sahələrini inkişaf etdirəcək və Abşeronda Kalyubeya sənaye-kənd təsərrüfatı sərgisini və Kalyubeyada Abşeron sənaye-kənd təsərrüfatı sərgisini təşkil edəcəklər.

3. İrriqasiya

Tərəflər aşağıdakı istiqamətlərdə mübadilə aparacaqlar.

Ən müasir irriqasiya texnika və texnologiyaları, həmçinin su mənbələrinin ən optimal surətdə qorunub saxlanılması vasitələri ilə tanış olmaq məqsədilə tərəflərin irriqasiya sahəsindəki rəsmilərinin səfərləri, hər iki əyalət və rayonda bu sahədəki tədqiqat institutlarına səfərlər.

4. Yerli inkişaf

Tərəflər davamlı inkişaf və ətraf mühitin mühafizəsi vasitələri, eləcə də qadınlar, uşaqlar, ailə və digərlərinin statusunun dəstəklənməsi məqsədilə yerli inkişaf sahələrində səfərlər edəcək və təcrübə mübadiləsi aparacaqlar.

5. Mədəniyyət

Tərəflər arasında hər iki ölkədə milli bayramlar, festivallar və mədəni tədbirlər zamanı teatr və musiqi qruplarının, mədəni birliklər və forumların nümayəndələrinin mübadilə səfərləri həyata keçiriləcəkdir.

6. Xeyriyyə sahəsində əməkdaşlıq

Tərəflər aşağıdakıları dəstəkləyəcəklər:

Abşeron rayonu və Kalyubeya əyaləti icra hakimiyyətləri nəzdində xeyriyyə cəmiyyətləri arasında əlaqələri,

xeyriyyə cəmiyyətlərinin nümayəndəlikləri arasında səfərlərin keçirilməsi, xeyriyyə cəmiyyətləri arasında xeyriyyə tədbirlərinin təşkili.

7. Maliyyə şərtləri

Tərəflər öz nümayəndələrinin mübadilə səfərləri ilə əlaqədar xərcləri bərabər əsaslarla ödəmək barədə razılığa gəldilər.

8. İmza və müddət

Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qüvvəyə minir və beş il müddətinə bağlanır.

Tərəflərdən biri bu Anlaşma Memorandumunun qüvvədə olması müddətinin başa çatmasına ən azı 6 (altı) ay qalmış digər Tərəfə onun qüvvəsini ləğv etmək niyyəti barədə

yazılı bildiriş təqdim etməzsə, Anlaşma Memorandumu avtomatik olaraq növbəti beşillik müddətə uzadılır.

Bu Anlaşma Memorandumu 7 may 2007-ci il tarixində Qahirə şəhərində Azərbaycan, ərəb və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər qüvvəyə malikdir. Mətnin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ ABŞERON RAYONU ADINDAN	MİSİR ƏRƏB RESPUBLİKASININ KALYUBEYA ƏYALƏTİ ADINDAN
FAİQ BAĞIROV	*ƏDİL HÜSEYN*
Azərbaycanın Misirdəki Səfiri	*İcra hakimiyyətinin başçısı*

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Misir Ərəb Respublikasının Neft Nazirliyi arasında Texniki Əməkdaşlığa dair Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Misir Ərəb Respublikasının Neft Nazirliyi iki ölkə arasında mövcud olan münasibətlərin möhkəmləndirilməsini arzu edərək,

Tərəflərin qarşılıqlı faydalan üçün əlverişli sərmayə mühitinin yaradılması məqsədilə effektiv əməkdaşlığa nail olmaq niyyətini qeyd edərək,

belə əməkdaşlıq üçün hər iki ölkədə əlverişli şəraitin olduğunu nəzərə alaraq,

Tərəflər aşağıdakılar barədə razılığa gəldilər:

1. Tərəflər bərabərlik, qarşılıqlı fayda, risk və nailiyyətlərin bölgüsü əsasında uzunmüddətli əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinin qurulması haqqında razılığa gəlirlər.
2. Bu Protokolun məqsədi elmi və texniki biliklərin mübadiləsi üçün müqavilə hüquq bazasının yaradılmasından ibarətdir. Bu, aşağıdakı sahələr üzrə əməkdaşlığı və tərəfdaşlığı əhatə edir:

   geoelmlər texnologiyası,

   dağ-mədən sənayesi,

   dağ-mədən sərmayəsi,

   dağ-mədən, minerallar və xidmətlər sahəsində ticarət fəaliyyəti,

   səfər və treninqlər.

3. Bu Protokol imzalandığı tarixdən qüvvəyə minəcək və 5 (beş) il müddətinə qüvvədə olacaqdır. Əgər bu Protokolun qüvvədə olma müddətinin başa çatmasına 90 (doxsan) gün qalmış Tərəflərdən biri digər Tərəfə onun qüvvəsini ləğv etmək niyyəti barədə yazılı bildiriş göndərməzsə, Protokolun qüvvəsi avtomatik olaraq növbəti 5 (beş) il müddətinə uzadılacaqdır.

Bu Protokol Qahirə şəhərində 7 may 2007-ci il tarixində Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər qüvvəyə malikdir. Bu Protokolun təf-

siri zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ ADINDAN	MİSİR ƏRƏB RESPUBLİKASININ NEFT NAZİRLİYİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*SAMEH FƏHMİ*
Xarici işlər naziri	*Neft naziri*

2006-cı il mayın 25-də Düşənbə şəhərində imzalanmış "Rusiya dövlət kitabxanası" Federal Dövlət İdarəsinə Kitabxana işi sahəsində əməkdaşlıq üzrə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin baza təşkilatı statusunun verilməsi haqqında Qərar"ın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2006-cı il mayın 25-də Düşənbə şəhərində imzalanmış "Rusiya dövlət kitabxanası" Federal Dövlət İdarəsinə Kitabxana işi sahəsində əməkdaşlıq üzrə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin baza təşkilatı statusunun verilməsi haqqında Qərar" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsini xəbərdar etsin.

İlham ƏLİYEV,

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 avqust 2007-ci il

№2328

"Rusiya dövlət kitabxanası" Federal Dövlət İdarəsinə Kitabxana işi sahəsində ətnəkdaşlıq üzrə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin baza təşkilatı statusunun verilməsi haqqında Qərar

MDB Hökumət Başçıları Şurasının 1997-ci il 17 yanvar tarixli Qərarı ilə təsdiq edilmiş Müstəqil Dövlət Birliyinin vahid (ümumi) təhsil məkanının formalaşması Konsepsiyasına və Müstəqil Dövlətlər Birliyinin vahid (ümumi) təhsil məkanının formalaşması üzrə əməkdaşlıq haqqında 1997-ci il 17 yan-var tarixli Sazişə uyğun olaraq,

Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurası

qərara aldı:

1. "Rusiya dövlət kitabxanası" Federal Dövlət İdarəsinə Kitabxana işi sahəsində əməkdaşlıq üzrə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin baza təşkilatı statusu verilsin.

2. Kitabxana işi sahəsində əməkdaşlıq üzrə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin baza təşkilatı haqqında Əsasnamə təsdiq edilsin (əlavə edilir).

3. Qərar imzalandığı gündən, qanunvericiliyi dövlətdaxili prosedurların həyata keçirilməsini tələb edən iştirakçı dövlətlər üçün isə müvafiq sənədlərin depozitariyə təhvil verildiyi tarixdən qüvvəyə minir.

Düşənbə şəhərində 2006-cı il 25 may tarixində rus dilində bir əsl nüsxə-də imzalanmışdır. Əsl nüsxə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitə-sində saxlanılır, Komitə onun təsdiq edilmiş surətini bu Qərarı imzalayan hər bir dövlətə göndərəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*
ERMƏNİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	RUSİYA FEDERASİYASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*
BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TACİKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*
GÜRCÜSTAN HÖKUMƏTİ ADINDAN	TÜRKMƏNİSTAN HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*
QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	ÖZBƏKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*
QIRĞIZISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	UKRAYNA HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları
Şurasının "Rusiya dövlət kitabxanası" Federal Dövlət
İdarəsinə Kitabxana işi sahəsində əməkdaşlıq üzrə
Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan
dövlətlərin baza təşkilatı statusunun verilməsi
haqqında 2006-cı il 25 may tarixli Qərarı ilə
TƏSDİQ OLUNMUŞDUR

Kitabxana işi sahəsində əməkdaşlıq üzrə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin baza təşkilatı haqqında Əsasnamə

I. ÜMUMİ MÜDDƏALAR

1.1. Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin kitabxana işi sahəsində əməkdaşlıq üzrə baza təşkilatı (bundan sonra - Baza təşkilatı) MDB Hökumət Başçıları Şurasının 1997-ci il 17 yanvar tarixli Qərarı ilə təsdiq edilmiş Müstəqil Dövlətlər Birliyinin vahid (ümumi) təhsil məkanının formalaşması Konsepsiyasına və Müstəqil Dövlətlər Birliyinin vahid (ümumi) təhsil məkanının formalaşması üzrə əməkdaşlıq haqqında 1997-ci il 17 yan-var tarixli Sazişə uyğun olaraq kitabxana işi üzrə mütəxəssislərin elmi, təşkilati, tədris-metodiki təminatı və Müstəqil Dövlətlər Birliyinin (bundan sonra - MDB və ya Birlik) iştirakçısı olan dövlətlərin milli-mədəni nailiyyətlərinin qorunması, Birliyin iştirakçısı olan dövlətlərin formalaşmaqda olan əmək bazarının inteqrasiyalı iqtisadi inkişaf tələbləri nəzərə alınmaqla kitabxana işi sahəsində mütəxəssislərin yenidən hazırlanması və ixtisaslarının artırılması məqsədilə yaradılır.

1.2. Baza təşkilatı statusu "Rusiya dövlət kitabxanası" Federal Dövlət İdarəsinə verilir.

1.3. Baza təşkilatı öz fəaliyyətində Birliyin başlıca sənədlərini, beynəlxalq müqavilələri, MDB Dövlət Başçıları Şurasının, Hökumət Başçıları Şurasının, İqtisadi Şurasının qərarlarını, habelə bu Əsasnaməni rəhbər tutur.

1.4. Baza təşkilatı öz fəaliyyətini Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi və zərurət olduqda, MDB-nin sahəvi əməkdaşlıq orqanları ilə sıx qarşılıqlı əlaqədə həyata keçirir.

II. FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

Baza təşkilatının əsas fəaliyyət istiqamətləri:

- MDB-nin iştirakçısı olan dövlətlərin kitabxanaları ilə sıx qarşılıqlı əlaqədə, maddi obyektlər üzərindəki informasiyanın qorunması və ictimai istifadəsi məqsədilə zaman və məkanda ötürmək üçün, mətn, səsyazma, yaxud təsvir halında toplanması və qorunub saxlanmasının təmin edilməsi, MDB iştirakçısı olan dövlətlərin xalqlarının informasiya-kitabxana məkanları və mədəniyyətlərinin inkişafı naminə, iştirakçı dövlətlərin əhalisinin universal informasiya tələbatını ödəmək məqsədilə universal fondun yaradılması;
- kitabxana işi sahəsində mütəxəssislərin yenidən hazırlanması, habelə MDB iştirakçısı olan dövlətlərin milli xüsusiyyətləri nəzərə alınmaqla işlənib hazırlanmış ali və fasiləsiz peşə təhsili proqramlarının həyata keçirilməsi;
- rəhbər işçilərin və mütəxəssislərin ali məktəbdən sonrakı təhsilinin (aspirantura) müxtəlif formalarının təşkili yolu ilə ixtisasının artırılması və əlavə peşə təhsilinin, konfransların və təcrübə keçilməsinin təşkili və s.;
- yaşadığı yerdən, milli və dil mənsubiyyətindən asılı olmayaraq, MDB iştirakçısı olan dövlətlərin əhalisinə xidmət sisteminin inkişafı məqsədilə kitabxana işi sahəsində birgə elmi tədqiqatların aparılması, kitabxana işinin inkişafının ən aktual problemləri, dünya kitabxana təcrübəsinin tətbiqi və yeni texnologiyalardan istifadə üzrə birgə layihə və proqramların işlənməsi və həyata keçirilməsi;
- Birliyin informasiya, intellektual və kitabxana məkanını yaratmaq məqsədilə, MDB iştirakçısı olan dövlətlərin kitabxana idarələri, elmi və tədqiqat təşkilatları arasında əməkdaşlığın inkişafı və genişləndirilməsi;
- kitabxanaların komplektləşdirilməsi və kataloqlaşdırılması problemlərinin araşdırılması, kitabxana fondlarının qorunması, bərpası və s. məsələlərin işlənməsi, kitabxanalararası abonement (KAA) və beynəlxalq kitabxanalararası abonement (BKAA) sisteminin inkişafı;
- tədris-metodiki və elmi tədqiqat materiallarının işlənməsi, aprobasiya və yayılması, fundamental və təcrübi tədqiqatların aparılması.

Baza təşkilatının fəaliyyətinin üstün istiqamətləri:

- Birlik dövlətlərinin informasiya-kitabxana məkanının mütərəqqi inkişafı məqsədilə yeni texnologiyaların inkişafı və tətbiqi;
- kitabxanaşünaslıq, kitabşünaslıq, biblioqrafiyaşünaslıq və əlaqəli fənlər üzrə fundamental innovasiya işlərinin nəticələrinin yayılması;
- MDB-nin iştirakçısı olan dövlətlərin əhalisinə kitabxana və informasiya xidmətinin təkmilləşdirilməsi, İnternetdə Baza təşkilatının veb-saytının yaradılması;
- MDB-nin iştirakçısı olan dövlətlərin kitabxanalarının fəaliyyətinin informasiya təminatı.

III. ƏSAS FUNKSİYALAR

Baza təşkilatının əsas funksiyaları:

- kitabxana işinin problemləri, yeni texnologiyalar, standartlaşdırma və informasiyanın əsas istiqamətləri üzrə fundamental və tətbiqi tədqiqatlara dair tövsiyələrin hazırlanması;
- MDB-nin iştirakçısı olan dövlətlərin müvafiq təhsil və elmi tədqiqat idarələri ilə birgə, kitabxana işi və informatika, kitabxana kadrlarının hazırlanması və hazırlığının artırılması sahəsində təhsil (ali məktəbdən sonrakı və əlavə peşə təhsili sahəsində) və elmi tədqiqat proqramlarının işlənməsinin və həyata keçirilməsinin əlaqələndirilməsi;
- sənədlərin konservasiyası və bərpası sahəsində yeni texnologiyaların və təcrübənin ümumiləşdirilməsi və yayılması, o cümlədən MDB-nin iştirakçısı olan

dövlətlərin konservasiya və bərpa üzrə korporativ mərkəzlərinin yaradılması yolu ilə;

- istifadəçilərə birgə kitabxana-informasiya, o cümlədən KAA və BKAA vasitəsilə və s. soraq-biblioqrafiya xidmətinin göstərilməsi;
- birgə elmi, elmi-praktiki konfransların, mədəni-maarif və təhsil tədbirlərinin təşkili və keçirilməsi;
- tədris-metodiki və elmi tədqiqat materiallarının işlənməsi, aprobasiyası və yayılması, fundamental və tətbiqi tədqiqatların aparılması;
- ümumi proqram və layihələrin işlənməsi və həyata keçirilməsində peşəkar beynəlxalq təşkilatlarla əməkdaşlığın koordinasiyası və inkişafı.

IV. BAZA TƏŞKİLATININ HÜQUQLARI

Öz funksiyalarını həyata keçirmək üçün Baza təşkilatının aşağıdakı hüquqları vardır:

- Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi və MDB-nin müvafiq sahəvi əməkdaşlıq orqanlarına, öz işi haqqında məlumat, öz səlahiyyəti çərçivəsində hazırlanmış, dövlətlərarası informasiya xidmətinin hüquqi normalarının, kitabxana materiallarının mübadiləsi və köçürülməsinin, peşə təhsili sənədləri alınmasının yaxşılaşdırılmasına və sadələşdirilməsinə təkan verən tövsiyə və sənəd layihələri təqdim etmək;
- bu Əsasnamədə nəzərdə tutulmuş fəaliyyəti həyata keçirmək məqsədilə MDB-nin sahəvi əməkdaşlıq orqanları vasitəsilə zəruri informasiya barəsində sorğu göndərmək;
- kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində elmi və metodiki fəaliyyəti, elmi-metodik iş, sərgi və təhsil fəaliyyətini əlaqələndirmək;
- MDB-nin iştirakçısı olan dövlətlərdə kitabxana işinin vəziyyəti və inkişafı haqqında ixtisaslaşdırılmış banklar yaratmaq;
- MDB-nin iştirakçısı olan dövlətlərin digər təşkilatlarının alim və mütəxəssislərinin cəlb olunması ilə işçi qrup və digər məşvərət orqanlarının təşkili;
- MDB-nin iştirakçısı olan dövlətlərin kitabxanaları ilə informasiya məkanın inkişafı sahəsində birgə layihələrin işlənməsi və həyata keçirilməsi;
- Baza təşkilatının səlahiyyətinə aid olan məsələlərin baxılması zamanı, Birliyin dövlətlərarası (hökumətlərarası) orqanlarının, ixtisaslaşdırılmış beynəlxalq təşkilatların işində iştirak etmək;
- kadrların yenidən hazırlanmasını, o cümlədən ali ixtisaslı kadrların yenidən hazırlanmasını həyata keçirmək;
- Baza təşkilatı tərəfindən işlənən aktual problemlər üzrə elmi-praktiki və tədris-metodiki konfrans və digər tədbirlər təşkil etmək;
- Baza təşkilatının profilinə uyğun informasiya, nəşriyyat fəaliyyətini və sərgi işini həyata keçirmək;
- informasiya savadının yayılmasına və populyarlaşmasına təkan vermək.

V. İŞİN TƏŞKİLİ

5.1. Baza təşkilatına rəhbərlik "Rusiya dövlət kitabxanası" Federal Dövlət İdarəsinin baş direktoruna həvalə edilir.

5.2. Baza təşkilatının işinin təşkili Baza təşkilatının rəhbəri tərəfindən təsdiq edilmiş reqlamentə uyğun həyata keçirilir.

5.3. Baza təşkilatının nəzdində, MDB-nin iştirakçısı olan dövlətlərin milli, akademiya, parlament, ali məktəb və digər böyük kitabxanaları, elm və mədəniyyət müəssisələrinin nümayəndələrindən məşvərət orqanı olan ictimai şura yaradılır.

5.4. Baza təşkilatının işçi və məşvərət orqanlarının fəaliyyətinin təşkili və maddi-texniki təminatı üzrə iş "Rusiya dövlət kitabxanası" Federal Dövlət İdarəsinin ştatda olan heyəti tərəfindən həyata keçirilir.

5.5. Baza təşkilatının işində məşvərətçi səslə MDB-nin İcraiyyə Komitəsinin nümayəndəsi və zərurət olduğu halda, MDB-nin maraqlı sahəvi əməkdaşlıq orqanının nümayəndəsi iştirak edir.

5.6. Baza təşkilatı MDB-nin iştirakçısı olan dövlətlərin qanunvericiliyinə müvafiq olaraq, onların milli kitabxanalarında və digər böyük kitabxanalarda Baza təşkilatının filiallarını yarada bilər.

VI. BAZA TƏŞKİLATININ FƏALİYYƏTİNİN MALİYYƏ TƏMİNATI

6.1. Baza təşkilatının fəaliyyəti və funksiyalarının əsas istiqamətlərinin maliyyə təminatı aşağıdakı vəsaitlər hesabına həyata keçirilir:

- sifarişçilərin müqavilə və kontraktlar üzrə yerinə yetirilmiş işlərin haqqını ödəməsi;
- ekspertiza və məsləhətlərin haqqının ödənilməsi;
- mütəxəssislərin məqsədli yenidən hazırlanması və ixtisaslarının artırılması haqqının ödənilməsi;
- informasiya xidmətlərinin göstərilməsi üçün ödənişlər;
- MDB-nin iştirakçısı olan dövlətlərin kitabxana işi və informatika sahəsində innovasiya proqramları və layihələrinin yerinə yetirilməsində iştirakdan gələn gəlir;
- ixtisaslaşdırılmış fondların ayırmaları;
- hüquqi və fiziki şəxslərin birgə təhsil, elmi tədqiqat və mədəniyyət proqramları, ayn-ayrı tədbirlər üçün maliyyə və maddi vəsait, resurs, iş və xidmət şəklində könüllü üzvlük haqları və ianələr;
- xeyriyyəçilik və mədəniyyət tədbirlərinin keçirilməsindən gələn vəsaitlər;
- Baza təşkilatı yerləşən dövlətin qüvvədə olan qanunvericiliyi ilə qadağan edilməmiş qeyri-mənbələr.

6.2. Üzvlük haqları MDB-nin iştirakçısı olan dövlətlərin milli valyuta, habelə sərbəst konvertasiya edilən valyuta ilə ödənilə bilər.

6.3. Vəsaitlərin xərclənməsi, vergilərin ödənilməsi və Rusiya Federasiyasının normativ aktları ilə müəyyən edilmiş digər məcburi ödənişlər Baza təşkilatının rəhbərliyi tərəfindən təsdiq edilmiş xərclər smetasına müvafiq həyata keçirilir. Vəsaitlərin istifadəsinə nəzarət Rusiya Federasiyasının qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq həyata keçirilir.

6.4. Baza təşkilatının fəaliyyətinin təminatına yönəldilən maliyyə vəsaitləri Rusiya Federasiyasında qəbul edilmiş şəxsi hesabların aparılması qaydalarına müvafiq olaraq, "Rusiya dövlət kitabxanası" federal dövlət idarəsinin şəxsi hesablarında saxlanılır.

VII. YEKUN MÜDDƏALAR

7.1. Baza təşkilatının işçi dili rus dilidir.

7.2. Bu Əsasnaməyə müəyyən edilmiş qaydada dəyişiklik və əlavələr edilə bilər, dəyişiklik və əlavələr MDB Hökumət Başçıları Şurası tərəfindən təsdiq edilir.

7.3. Baza təşkilatının ləğvi haqqında qərarı Əsasnaməni təsdiq etmiş, MDB-nin iştirakçısı olan dövlətlərdən birinin təklifi ilə MDB Hökumət Başçıları Şurası qəbul edir.

2007-ci il iyunun 19-da Bakı şəhərində GUAM - Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilatın 2-ci Zirvə Toplantısı zamanı imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il iyunun 19-da Bakı şəhərində GUAM - Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilatın 2-ci Zirvə Toplantısı zamanı imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. GUAM - Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilatın üzvü olan dövlətlər arasında 2007-2010-cu illər üçün mədəniyyət sahəsində əməkdaşlıq haqqında Protokol;

1.2. GUAM - Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilatın üzvü olan dövlətlərin Hökumətləri arasında nüvə və radiasiya təhlükəsizliyi məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Memorandum.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1.1-ci və 1.2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 avqust 2007-ci il

№2329

GUAM - Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilatın üzv olan dövlətlər arasında 2007-2010-cu illər üçün mədəniyyət sahəsində əməkdaşlıq haqqında Protokol

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Gürcüstanın Mədəniyyət, Abidələrin Qorunması və İdman Nazirliyi, Moldova Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Ukraynanın Mədəniyyət və Turizm Nazirliyi (bundan sonra - Tərəflər), xalqlar arasında ənənəvi mədəni əlaqələri və dostluq münasibətlərini nəzərə alaraq,

mədəniyyət və incəsənət sahəsində əlaqələrin Tərəflərin köklü maraqlarına cavab verdiyinə və əlaqələrin, qarşılıqlı faydalı əməkdaşlığın gələcək inkişafına yardım göstərəcəyinə əmin olaraq,

öz dövlətlərindən kənarda yaşayan vətəndaşların mənəvi ehtiyaclarını və

maraqlarını nəzərə alaraq,

mədəniyyət və incəsənət sahəsində əməkdaşlığın gələcək inkişafı və

möhkəmləndirilməsi sahəsində təşəbbüslərini bildirərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər mədəniyyət və incəsənət sahəsində əməkdaşlığın hərtərəfli inkişafına və genişlənməsinə hər cəhətdən yardım göstərəcəklər.

Maddə 2

Tərəflər mədəniyyət və incəsənət sahəsində dövlət, incəsənət və yaradıcılıq birliklərinin əməkdaşlığının dəstəklənməsinə və əlaqələndirilməsinə yönəlmiş mədəni tədbirlərin, layihələrin təşkilinə və həyata keçirilməsinə yardım göstərəcəklər.

Maddə 3

Tərəflər mədəniyyət sahəsində layihələrin həyata keçirilməsinə, peşəkar, özfəaliyyət və folklor kollektivlərinin, ayrı-ayrı ifaçıların bir ölkədən digərinə dəvət edilməsinə yardım göstərməyə hazır olduqlarını bildirirlər.

Maddə 4

Tərəflər birgə bədii festivalların və sərgilərin, yaradıcı kollektivlərin və solistlərin qastrollarının, teatr tamaşalarının təşkilinə yardım göstərəcəklər.

Maddə 5

Tərəflər ədəbiyyat, incəsənət, kinematoqrafiya xadimlərinin kollektivləri, təşkilatları və birlikləri arasında yaradıcılıq mübadiləsinin və qarşılıqlı fəaliyyətin genişlənməsinə, ənənəvi milli mədəniyyət günlərininin keçirilməsinə, dövlət regional və yerli səviyyələrdə mədəniyyət xadimləri nümayəndə heyətlərinin və mütəxəssislərin mübadiləsinə yardım göstərəcəklər.

Maddə 6

Tərəflər dövlətlərinin ərazilərində yerləşən tarixi-mədəni irs obyektlərinin qorunması, mühafizəsi və istifadəsi sahəsində təcrübə mübadiləsi və əməkdaşlıq edəcəklər, habelə mədəni irsin qorunması üzrə birgə tədbirlərin keçirilməsi imkanını nəzərdən keçirəcəklər.

Maddə 7

Tərəflər mədəni sərvətlərin qanunsuz olaraq dövlətlərinin ərazisindən GUAM üzvü olan digər dövlətlərə və üçüncü ölkələrin ərazisinə aparılmasının qarşısını almaq üçün zəruri tədbirlər görəcəklər.

Maddə 8

Tərəflər GUAM dövlətlərinin ərazisində yaşayan xalqların mədəni həyatındakı aktual məsələləri, tarixi əlaqələri geniş işıqlandırmaq üçün GUAM ölkələrinin mədəni siyasətinin müşahidəsi çərçivəsində müntəzəm məlumat mübadiləsi edəcəklər.

Maddə 9

Tərəflər mədəniyyətlərin və sivilizasiyaların dialoqu, dözümlülük prinsipi və xalqların mənəvi irsinə qarşılıqlı hörmət ruhunda gələcək əməkdaşlığa yardım göstərəcəklər.

Maddə 10

Bu Protokol Tərəflərin iştirakçısı olduğu beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərə xələl gətirmir.

Maddə 11

Bu Protokol imzalandığı gündən qüvvədədir və 2010-cu il dekabrın 31-dək qüvvədə qalacaqdır.

Bakı şəhərində 2007-ci il iyunun 19-da ingilis və rus dillərində dörd nüsxədə imzalanmışdır, bütün mətnlər autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ ADINDAN

ƏBÜLFƏS QARAYEV
Mədəniyyət və turizm naziri

MOLDOVA RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ ADINDAN

VALERİ USTALOV
Xarici işlər və Avropa inteqrasiyası nazirinin müavini

GÜRCÜSTANIN MƏDƏNİYYƏT, ABİDƏLƏRİN QORUNMASI VƏ TURİZM NAZİRLİYİ ADINDAN

GEORGİ QABAŞVİLİ
Mədəniyyət, abidələrin qorunması və idman naziri

UKRAYNANIN MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ ADINDAN

ARSENİ YATSENYUK
Xarici işlər naziri

GUAM - Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilatın üzvü olan dövlətlərin Hökumətləri arasında nüvə və radiasiya təhlükəsizliyi məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Memorandum

Azərbaycan Respublikası Hökuməti, Gürcüstan Hökuməti, Moldova Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti (bundan sonra - Tərəflər),

nüvə və radiasiya təhlükəsizliyi sahəsində məhsuldar əməkdaşlığın və qarşılıqlı yardımın bundan sonra da möhkəmləndirilməsinə və inkişafına can atdıqlarını ifadə edərək,

beynəlxalq standartlar əsasında, elmin və texnologiyaların inkişafını nəzərə almaqla nüvə və radiasiya təhlükəsizliyi sahəsində səylərin birləşdirilməsinin və müasir tənzimləyici üsul və prinsiplərin tətbiqi ilə bağlı müsbət təcrübənin yayılmasının əhəmiyyətini dərk edərək,

əhalinin və ətraf mühitin radiasiyadan mühafizəsi, radioaktiv tullantılardan, radioaktiv ionlaşdırıcı şüa mənbələrindən istifadə, o cümlədən onların fiziki mühafizəsi ilə bağlı məsələlər üzrə beynəlxalq norma və tələbləri rəhbər tutaraq,

radioaktiv mənbələrin təhlükəsizliyinin və mühafizəsinin təmin edilməsi üzrə Məcəlləyə tərəfdar olduqlarını təsdiq edərək,

GUAM üzvü olan dövlətlərin Beynəlxalq Atom Enerji Agentliyinin (BAEA) üzvləri olduğunu nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Memorandumun məqsədləri

Tərəflər aşağıdakı məqsədlər üçün nüvə və radiasiya təhlükəsizliyinin tənzimlənməsi məsələləri ilə bağlı əməkdaşlığı inkişaf etdirir:

nüvə və radiasiya təhlükəsizliyinin tənzimlənməsi sahəsində qanunvericilik bazasının və milli infrastrukturların inkişafı və təkmilləşdirilməsi;

texnogen xarakterli fövqəladə hallar zamanı cavab reaksiyası ilə bağlı razılaşdırılmış tədbirlərin işlənib hazırlanması;

təhlükəsizliyin və müasir təhlükələrdən, o cümlədən terrorizmdən, nüvə və radioaktiv maddələrin icazəsiz yerdəyişməsindən mühafizənin gücləndirilməsi.

Maddə 2

Səlahiyyətli orqanlar

Bu Memorandumun müddəalarının icrası məsələləri ilə bağlı Tərəflərin səlahiyyətli orqanları aşağıdakılardır:

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi

Gürcüstanın Ətraf Mühitin və Təbii Sərvətlərin Mühafizəsi Nazirliyi

Moldova Respublikasının Radiasiya və Nüvə Fəaliyyətinin Tənzimlənməsi üzrə Milli Agentliyi

Ukraynanın Nüvə Tənzimlənməsi üzrə Dövlət Komitəsi.

Maddə 3

Əməkdaşlığın əsas istiqamətləri

Əməkdaşlığın əsas istiqamətləri aşağıdakılardır:

- nüvə və radiasiya təhlükəsizliyi məsələləri üzrə fəaliyyəti nizamlayan qanunvericilik təminatı barəsində məlumat mübadiləsi;
- nüvə, yaxud radiasiya qəzalarına praktik reaksiya məsələləri üzrə, o cümlədən BAEA-nın texniki sənədlərində ifadə olunan prosedur və üsullar əsasında təcrübə mübadiləsi;
- ionlaşdırıcı şüa mənbələrinin saxlanılması da daxil olmaqla, onlardan, eləcə də radioaktiv tullantılar və nüvə materiallarından istifadə, lisenziyalaşdırma, onların yerdəyişməsinə nəzarət və qeydiyyat prosedurları daxil edilməklə, məsələləri üzrə təcrübə mübadiləsi;
- BAEA-nın regional layihələrinin həyata keçirilməsi prosesində qarşılıqlı fəaliyyət;
- radioaktiv maddələrin gözlənilməz tullantıları olduğu halda, onların transsərhəd daşınmasının mümkünlüyü nəzərə alınmaqla, GUAM üzvü olan dövlətlərin ərazisində nüvə və radiasiya təhlükəsizliyi ilə bağlı istənilən insident barədə vaxtında qarşılıqlı məlumatlandırma;
- qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq.

Maddə 4

Əməkdaşlığın formaları

Əməkdaşlığın əsas formaları aşağıdakılardır:

- Nüvə Təhlükəsizliyi üzrə Konvensiya və İstifadə olunmuş yanacaqla rəftarın təhlükəsizliyi və radioaktiv tullantılarla rəftarın təhlükəsizliyi barədə Birgə Konvensiya çərçivəsində hazırlanmış nüvə və radiasiya təhlükəsizliyinin vəziyyəti, ətraf mühitin - o cümlədən iştirakçı dövlətlər üçün - radiasiya vəziyyəti haqqında milli hesabatların mübadiləsi;
- BAEA-nın məlumat bazasının fəaliyyətində qarşılıqlı maraq doğuran məsələlər üzrə İnternet şəbəkəsində məlumat resurslarının Tərəflərin iştirakı ilə yaradılması və dəstəklənməsi;
- qarşılıqlı maraq doğuran məsələlər üzrə keçirilən seminar, konfrans və iclaslarda birgə hesabatların (məlumatların, çıxışların) hazırlanması;
- əməkdaşlığın başlıca istiqamətləri üzrə beynəlxalq tədbirlər çərçivəsində birgə işgüzar görüşlərin keçirilməsi;
- Tərəflər üçün qəbul olunan digər əməkdaşlıq formaları.

Maddə 5

Məxfilik

Bu Memorandum çərçivəsində məlumatların verilməsi GUAM üzvü olan dövlətlərin milli qanunvericiliyinə uyğun həyata keçirilir. Məhdud istifadəli məlumatın ötürülməsi

zamanı belə məlumatı verən Tərəf onun məxfiliyini/gizliliyini bildirir. Məxfi/gizli məlumatı alan Tərəf onu qorumalıdır.

Maddə 6

Əqli mülkiyyət hüququ

Tərəflər öz dövlətlərinin qanunvericiliklərinə uyğun olaraq, əqli mülkiyyətin səmərəli şəkildə qorunmasını təmin etməyi öhdələrinə götürürlər.

Maddə 7

Dəyişikliklər və əlavələr edilməsi

Tərəflərin razılığı ilə bu Memoranduma dəyişikliklər və əlavələr edilə bilər. Həmin dəyişiklik və əlavələr bu Memorandumun ayrılmaz hissəsi olan və Memorandumun 11-ci maddəsinə müvafiq olaraq qüvvəyə minən protokollarla rəsmiləşdirilir.

Maddə 8

Fəaliyyət sahəsi

1. Tərəflər nüvə və radiasiya təhlükəsizliyini nizamlayan orqanlar, nizamlayıcı fəaliyyətə yardım göstərən elmi-texniki təşkilatlar, institutlar, təhsil ocaqları, fəaliyyətləri əməkdaşlığın qeyd olunan məqsədlərinə uyğun olan idarə və təşkilatlar arasında birbaşa elmi-texniki və iqtisadi əməkdaşlığın inkişafına kömək edəcəklər.

2. Bu Memorandum müəssisələr (təşkilatlar, idarələr) arasında Tərəflərin qanunvericiliyinə müvafiq olaraq əməkdaşlıq və birbaşa kontraktların (müqavilələrin, sazişlərin) bağlanması üçün əsasdır.

Maddə 9

Mübahisələrin həlli

Bu Memorandumun müddəalarının şərhi və tətbiqi zamanı yaranmış mübahisəli məsələlər Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

Maddə 10

Əlaqələndirmə

Bu Memorandum çərçivəsində əməkdaşlığın və qarşılıqlı fəaliyyətin əlaqələndirilməsi məqsədilə Tərəflər məsul şəxsləri təyin edir və onların əlaqə ünvanları barədə məlumatı mübadilə edirlər.

Maddə 11

Qüvvəyə minmə və qüvvədə qalma müddəti

1. Bu Memorandum Tərəflərin bütün zəruri dövlətdaxili prosedurları yerinə yetirməsi ilə bağlı ikinci bildirişi saxlanca vermə tarixindən qüvvəyə minir. Bildirişlərini bu tarixdən sonra vermiş Tərəflərə münasibətdə isə Memorandum depozitarinin belə bildirişi alması tarixindən qüvvəyə minir.

2. Bu Memorandumun depozitarisi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyidir.

3. Memorandum 5 (beş) il müddətinə bağlanır. Tərəflərin razılığı ilə Memorandumun müddəti növbəti beşillik müddətlərə uzadıla bilər.

4. Tərəf depozitariyə yazılı bildiriş göndərməklə Memorandumda iştiraklarına son qoya bilər.

5. Memorandumda iştirak depozitarinin qeyd olunan bildirişi alması tarixindən 90 gün sonra başa çatır.

Maddə 12

Mətnin orijinallığı

2007-ci il iyunun 19-da Bakı şəhərində ingilis və rus dillərində dörd nüsxədə hazırlanmışdır, hər iki mətn orijinaldır. Mətnlərin təfsiri ilə bağlı mübahisə yarandıqda ingilis dilində olan mətnə üstünlük verilir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

KƏMALƏDDİN HEYDƏROV
Fövqəladə hallar naziri

MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

VALERİ USTALOV
Xarici işlər və Avropa inteqrasiyası nazirinin müavini

GÜRCÜSTAN HÖKUMƏTİ ADINDAN

NİKA GİLAURİ
Energetika naziri

UKRAYNANIN NAZİRLƏR KABİNETİ ADINDAN

ARSENİ YATSENYUK
Xarici işlər naziri

"Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişə 3 saylı Düzəliş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişə 3 saylı Düzəliş"i Azərbaycan Respublikasının Nazirlər Kabineti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişə 3 saylı Düzəlişi Azərbaycan Respublikasının Nazirlər Kabineti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Amerika Birləşmiş Ştatlarına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 avqust 2007-ci il

№2332

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Çin Xalq Respublikası Müdafiə Nazirliyi arasında Çin tərəfindən Azərbaycana təmənnasız hərbi yardım göstərilməsi haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Çin Xalq Respublikası Müdafiə Nazirliyi arasında Çin tərəfindən Azərbaycana təmənnasız hərbi yardım göstərilməsi haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Çin Xalq Respublikasındakı hərbi attaşesi Yaşar Məhəmməd oğlu Aydəmirova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Çin Xalq Respublikasındakı hərbi attaşesi Yaşar Məhəmməd oğlu Aydəmirova verilməsi barədə Çin Xalq Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 avqust 2007-ci il

№2333

2007-ci il aprelin 24-də Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 4 saylı Düzəliş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il aprelin 24-də Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 4 saylı Düzəliş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən 4 saylı Düzəlişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 avqust 2007-ci il

№2334

Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 4 saylı Düzəliş

Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair 2 yanvar 2004-cü il tarixində imzalanmış, 28 oktyabr 2004-cü il, 26 avqust 2005-ci il və 11 iyul 2006-cı il tarixlərində düzəlişlər edilmiş Sazişin (bundan sonra "Saziş" adlandırılacaq) VII maddəsinə müvafiq olaraq,

Azərbaycan Respublikasının Nazirlər Kabineti (NK) və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi (MN) Sazişə aşağıda göstərilən düzəlişin edilməsinə dair razılığa gəldilər:

III Maddədə "əlli bir milyon beş yüz min ABŞ dolları" sözləri "altmış bir milyon ABŞ dolları" sözləri ilə əvəz edilsin.

Bu Düzəliş imzalandığı andan qüvvəyə minir və Sazişin tətbiq edildiyi müddət ərzində qüvvədə qalır.

Bunun təsdiqi olaraq, hökumətləri tərəfindən müvafiq qaydada səlahiyyətləndirilmiş aşağıdakı şəxslər bu düzəlişi imzaladılar.

Bakı şəhərində 2007-ci il mart ayının 7-də, Vaşinqton şəhərində 2007-ci il aprel ayının 24-də, Azərbaycan və ingilis dillərində, mətnləri eyni dərəcə-də autentik olan iki nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİ ADINDAN	AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI MÜDAFİƏ DEPARTAMENTİ ADINDAN
(imza)	*(imza)*

2007-ci il iyunun 20-də Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Qəbələ radiolokasiya stansiyasının (RLS "Daryal") statusu, istifadəsinin prinsipləri və şərtləri haqqında 25 yanvar 2002-ci il tarixli Sazişin yerinə yetirilməsi üçün təyin olunmuş səlahiyyətli nümayəndələrin statusu haqqında Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında "Protokol'un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il iyunun 20-də Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Qəbələ radiolokasiya stansiya-sının (RLS "Daryal") statusu, istifadəsinin prinsipləri və şərtləri haqqında 25 yanvar 2002-ci il tarixli Sazişin yerinə yetirilməsi üçün təyin olunmuş səlahiyyətli nümayəndələrin statusu haqqında Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Protokol" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın

1-ci bəndində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Rusiya Federasiyası Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 avqust 2007-ci il

№2335

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Qəbələ radiolokasiya stansiyasının (RLS "Daryal") statusu, istifadəsinin prinsipləri və şərtləri haqqında 25 yanvar 2002-ci il tarixli Sazişin yerinə yetirilməsi üçün təyin olunmuş səlahiyyətli nümayəndələrin statusu haqqında Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti,

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Qəbələ radio-lokasiya stansiyasının (RLS "Daryal") statusu, istifadəsinin prinsipləri və şərtləri haqqında 25 yanvar 2002-ci il tarixli Sazişin (bundan sonra - Saziş) yerinə yetirilməsi üçün

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Azərbaycan Respublikasının və Rusiya Federasiyasının səlahiyyətli nümayəndələri (bundan sonra - səlahiyyətli nümayəndələr) Sazişin yerinə yetirilməsi üçün Tərəflərin hər birinin müəyyənləşdirdiyi qaydada təyin olunurlar.

Səlahiyyətli nümayəndələrin təyinatı (yenidən təyinatı) barədə Tərəflər diplomatik kanallar vasitəsilə bir-birinə bildirirlər.

Maddə 2

Səlahiyyətli nümayəndələr öz dövlətlərinin qanunvericiliyinə və Azərbaycan Respublikasının və Rusiya Federasiyasının iştirakçıları olduqları beynəlxalq müqavilələrə müvafiq olaraq, eləcə də aşağıda göstərilən məsələlərin

tənzimlənməsi üzrə razılaşdırılmış tədbirlərin görülməsi üçün bu Protokolla müəyyənləşdirilmiş səlahiyyətlər əsasında bir-biri ilə qarşılıqlı fəaliyyət göstərirlər:

Qəbələ radiolokasiya stansiyasının (RLS "Daryal") fəaliyyətinin təmin olunması məsələləri;

Analitik-informasiya mərkəzinin heyətinin tərkibinə daxil olan Rusiya Federasiyası vətəndaşlarının və onların ailə üzvlərinin Azərbaycan Respublikasında olmaları məsələləri;

Analitik-informasiya mərkəzinin daşınan və daşınmaz əmlakının istifadə-sinə dair məsələlər;

Sazişin yerinə yetirilməsi ilə bağlı digər məsələlər.

Maddə 3

Səlahiyyətli nümayəndələr birgə tədbirləri, bir qayda olaraq, iclas (görüş) keçirilməsi

vasitəsilə həyata keçirirlər.

Səlahiyyətli nümayəndələrin iclası (görüşü) onlardan birinin təklifi ilə keçirilir. Eyni zamanda iclasın (görüşün) gündəliyi, iştirakçılarının tərkibi, yeri və keçirilmə vaxtı təklif olunur.

Ayrı-ayrı hallarda, səlahiyyətli nümayəndələr arasında qarşılıqlı razılaş-maya əsasən, əvvəlcədən iclasda (görüşdə) müzakirə olunması üçün təklif olunmayan məsələlərə baxıla bilər.

Səlahiyyətli nümayəndələr Sazişin həyata keçirilməsi məsələləri üzrə Tərəflərin dövlət hakimiyyət orqanlarına rəsmi müraciət etmək hüququna malikdirlər.

Səlahiyyətli nümayəndələrin şəxsi görüşlərini tələb etməyən məsələlər yazışmalar və ya Tərəflərin texniki rabitə vasitələrinin istifadə olunması ilə həll oluna bilər.

Maddə 4

İclasın (görüşün) yekunlarına əsasən, iclasın (görüşün) gündəliyi, iştirakçılarının tərkibi, ümumi gedişi, səlahiyyətli nümayəndələrin qəbul etdikləri qərarlar və onların yerinə yetirilmə müddətləri göstərilən protokol tərtib olunur.

Səlahiyyətli nümayəndələr iclasda (görüşdə) qəbul edilmiş qərarların yerinə yetirilməsi üzrə tədbirlər barədə bir-birini razılaşdırılmış müddətlərdə məlumatlandırırlar.

İclasın (görüşün) protokolu iki nüsxədə, hər biri Azərbaycan və rus dillərində tərtib olunur və səlahiyyətli nümayəndələr tərəfindən imzalanır.

Maddə 5

Tərəflərin razılığı ilə bu Protokola ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər edilə bilər.

Maddə 6

Bu Protokol Sazişin qüvvədə olduğu müddət üçün bağlanılır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetir-mələrini təsdiq edən sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Moskva şəhərində 20 iyun 2007-ci il tarixində iki nüsxədə, hər biri Azərbaycan və rus dillərində imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

SƏFƏR ƏBİYEV
Müdafiə naziri

RUSİYA FEDERASİYASI HÖKUMƏTİ ADINDAN

ANATOLİ SERDYUKOV
Müdafiə naziri

2007-ci il iyulun 13-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təmənnasız hərbi yardım haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il iyulun 13-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təmənnasız hərbi yardım haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Türkiyə Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 avqust 2007-ci il

№2336

Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təmənnasız hərbi yardım haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti, uzun illər mövcud olan dostluq əlaqələri çərçivəsində 10 iyun 1996-cı il tarixli "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi təlim, texniki və elmi sahədə əməkdaşlıq haqqında Saziş"ə və 11 avqust 1992-ci il tarixli "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı hərbi təlim-təhsil haqqında Müqavilə"yə əsaslanaraq, hərbi əməkdaşlığı daha da möhkəmləndirmək və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təkmilləşdirilməsi işinə yardım etmək məqsədilə aşağıdakılar barədə razılığa gəldilər:

Maddə I

Türkiyə Respublikası Hökuməti Azərbaycan Respublikası Hökumətinə 3.757.000 (üç milyon yeddi yüz əlli yeddi min) Yeni Türk Lirəsinə bərabər ABŞ dolları ilə təmənnasız yardım edəcəkdir. Təmənnasız yardımın istifadə olunmasına 2007-ci ildən etibarən başlanılacaqdır.

Maddə II

Bu Sazişin bir hissəsi olaraq, təmənnasız yardımın 3.485.000 (üç milyon dörd yüz səksən beş min) Yeni Türk Lirəsinə bərabər ABŞ dolları ilə olan qismi avadanlıq və xidmət şəklində, 272.000 (iki yüz yetmiş iki min) Yeni Türk Lirəsinə bərabər ABŞ dolları ilə olan qismi isə maliyyə vəsaiti şəklin-də Türkiyə Respublikasının mövcud qaydalarına müvafiq olaraq təmin ediləcəkdir.

Maddə III

3.757.000 (üç milyon yeddi yüz əlli yeddi min) Yeni Türk Lirəsinə bərabər ABŞ dolları ilə təmənnasız yardım iki ölkənin səlahiyyətli şəxsləri arasında bu Sazişə istinadən ayrıca imzalanacaq Maliyyə Yardımının və Maddi-Texniki Təminatın Tətbiqi Protokolları əsasında həyata keçiriləcəkdir.

Maddə IV

Azərbaycan Respublikası Türkiyə Respublikasının əvvəlcədən razılığı olmadan mal və xidmətləri və yaxud onlardan istifadə hüququnu başqa bir ölkəyə və ya üçüncü tərəfə verməyəcəyi barədə razılaşmışdır.

Maddə V

Bu Saziş Tərəflər arasında zəruri dövlətdaxili hüquqi prosedurların başa çatması haqqında bildirişlərin mübadiləsi tarixindən qüvvəyə minəcək və Tətbiq Protokolları ilə müəyyən ediləcək mal və xidmətlərin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin inventarından çıxarılmasına qədər qüvvə-də olacaqdır.

Bu Saziş Azərbaycan Respublikası adından Müdafiə Nazirliyi tərəfindən, Türkiyə Respublikası adından isə Baş Qərargah tərəfindən həyata keçiriləcəkdir.

Bu Sazişin tətbiqi zamanı meydana çıxan hər hansı mübahisə qarşılıqlı müzakirələr və danışıqlar yolu ilə həll ediləcəkdir.

Bu Saziş iki nüsxədə, Azərbaycan, türk və ingilis dillərində imzalanmışdır. Bu Sazişin tətbiqi ilə bağlı ziddiyyətlər yarandığı təqdirdə, ingilis dilin-də olan mətn əsas götürüləcəkdir.

Bu Saziş 13 iyul 2007-ci il tarixində Ankara şəhərində (Türkiyə Respublikası) imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ƏNVƏR İBRAHİMOV	*ALPASLAN ERDOĞAN*
Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Türkiyə Respublikasındakı hərbi attaşesi	*Baş Qərargahın Müdafiə Planlaşdırması və Mənbələrin İdarə Edilməsi İdarəsinin rəisi*

"Azərbaycan Respublikası Vergilər Nazirliyi və Çexiya Respublikası Maliyyə Nazirliyi arasında Vergi Administrasiyasının fəaliyyəti sahəsində əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Vergilər Nazirliyi və Çexiya Respublikası Maliyyə Nazirliyi arasında Vergi Administrasiyasının fəaliyyəti sahəsində əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın

1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilməsi barədə Çexiya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 avqust 2007-ci il

№2338

M. A. Əliyevə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Məhərrəm Abış oğlu Əliyevə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 avqust 2007-ci il

№2341

M. A. Əliyevin Azərbaycan Respublikasının Tacikistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Məhərrəm Abış oğlu Əliyev Azərbaycan Respublikasının Tacikistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 avqust 2007-ci il

№2342

R. T. İbrahimovun Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında və eyni zamanda İrlandiya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Rafael Tofiq oğlu İbrahimov Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında və eyni zamanda İrlandiya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 avqust 2007-ci il

№2343

F. İ. Qurbanovun Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Fəxrəddin İsa oğlu Qurbanov Azərbaycan Respublikasının Kanadada fövqəladə və səlahiyyətli səfiri və Beynəlxalq Mülki Aviasiya Təşkilatı yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılsın.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti.

Bakı şəhəri, 20 avqust 2007-ci il

№2344

Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı Fövqəladə və Səlahiyyətli Səfiri F. İ. Qurbanovun iqamətgahı London şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının İrlandiya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı Fövqəladə və Səlahiyyətli Səfiri Fəxrəddin İsa oğlu Qurbanov iqamətgahı London şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının İrlandiya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 avqust 2007-ci il

№2346

Azərbaycan Respublikasının Tacikistan Respublikasında (Düşənbə şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının Tacikistan Respublikasında (Düşənbə şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikasının Tacikistan Respublikasında (Düşənbə şəhərində) səfirliyinin fəaliyyətinin təminatı ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirmə məsələlərini bir ay müddətində həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Tacikistan Respublikasında (Düşənbə şəhərində) səfirliyinin strukturunu və ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 avqust 2007-ci il

№2347

Azərbaycan Respublikasının Mərakeş Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri S. M. Ağabəyovun iqamətgahı Rabat şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Mali Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Mərakeş Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri Sabir Məmməd oğlu Ağabəyov iqamətgahı Rabat şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Mali Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 avqust 2007-ci il

№2348

"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Almaniya Federativ Respublikası Gömrük İdarəsi arasında əməkdaşlıq haqqında Birgə Bəyanatı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Almaniya Federativ Respublikası Gömrük İdarəsi arasında əməkdaşlıq haqqında Birgə Bəyanatı imzalamaq sə-

lahiyyəti Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əli oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Bəyanatı imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əli oğlu Əliyevə verilməsi barədə Almaniya Federativ Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 avqust 2007-ci il

№2349

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və ABŞ-ın Sülh Korpusu arasında Gənclərin İnkişafı Layihəsinin həyata keçirilməsi üzrə əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və ABŞ-ın Sülh Korpusu arasında Gənclərin İnkişafı Layihəsinin həyata keçirilməsi üzrə əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimova verilməsi barədə Amerika Birləşmiş Ştatları tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 avqust 2007-ci il

№2352

2007-ci il iyulun 9-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatlarının "Uşaqların Xilası" ("Save the Children") Təşkilatı arasında Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin təhvili haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il iyulun 9-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatlarının "Uşaqların Xilası" ("Save the Children") Təşkilatı arasında Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin təhvili haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 avqust 2007-ci il

№2355

Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatlarının "Uşaqların Xilası" ("Save the Children") Təşkilatı arasında Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin təhvili haqqında Saziş

Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatlarının "Uşaqların Xilası" ("Save the Children") Təşkilatı (bundan sonra - Tərəflər) Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyası və onlara icma əsaslı qayğının artırılması məqsədilə aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1. Sazişin məzmunu

1.0.1. Amerika Birləşmiş Ştatlarının "Uşaqların Xilası" ("Save the Children") Təşkilatı (bundan sonra - Təşkilat) Təşkilatın Azərbaycan Respublikasındakı nümayəndəliyi tərəfindən "Uşaqlarla İcma Əsaslı Dəstək Proqramı" çərçivəsində Goranboy rayonu ərazisində (Goranboy şəhəri, Civəzadə küçəsi 9, ümumi sahəsi 0,372 ha, binanın sahəsi 240 kv.m) və Bakı şəhərinin Əzizbəyov rayonu ərazisində (Şüvəlan qəsəbəsi, Almas İldırım küçəsi, döngə 1, sahəsi 190 kv.m) yaradılmış Uşaq və Ailələrə Dəstək Mərkəzlərini (bundan sonra - Mərkəzlər) Təşkilatın Azərbaycan Respublikasındakı nümayəndəliyi vasitəsilə Azərbaycan Respublikasına təhvil verir;

1.0.2. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (bundan sonra - Komitə) Azərbaycan Respublikası tərəfindən Mərkəzlərin qəbulu üzrə səlahiyyətli orqan qismində çıxış edərək Mərkəzləri təhvil alır.

Maddə 2. Sazişin şərtləri

2.1. Bu Saziş çərçivəsində Təşkilat aşağıdakı əsas öhdəlikləri qəbul edir:

2.1.1. 2008-ci ilin 1 yanvar tarixinədək Mərkəzlərin fəaliyyətinin tam həcmdə maliyyələşdirilməsi ilə bağlı bütün məsələləri həll etmək;

2.1.2. 2008-ci ilin 1 yanvar tarixinədək Komitənin strukturuna Mərkəzlərin daxil edilməsi mümkün olmadıqda daha üç ay müddətində (2008-ci ilin 1 aprel tarixinədək) onların fəaliyyətini maliyyələşdirmək;

2.1.3. Mərkəzlərin yarandığı vaxtdan etibarən onların maliyyə vəziyyətini, habelə fəaliyyəti zamanı qarşıya çıxan digər məsələləri əks etdirən hərtərəfli məlumatı Komitəyə təqdim etmək.

2.2. Bu Saziş çərçivəsində Komitə aşağıdakı əsas öhdəlikləri qəbul edir:

2.2.1. Mərkəzlərin gələcəkdə Komitənin strukturuna daxil edilməsi məqsədilə onları qəbul etmək, uzunmüddətli və davamlı fəaliyyətini təmin etmək;

2.2.2. Mərkəzlərin təyinatı üzrə istifadəsini, fəaliyyətlərinin inkişafını, bina və avadanlığının qorunub saxlanılmasını təmin etmək;

2.2.3. Təhvil aktı imzalandıqdan sonrakı 2 il ərzində əsas xidmətlərin istiqamətini dəyişdirməmək, onları təkmilləşdirmək və genişləndirmək;

2.2.4. Mərkəzlər təhvil verildikdən sonra onların işçi heyətinin sayının və funksiyalarının azaldılmamasını təmin etmək;

2.2.5. gələcəkdə Mərkəzlərin fəaliyyəti ilə tanış olmaq üçün Təşkilata şərait yaratmaq.

2.3. Tərəflər Mərkəzlərin fəaliyyətinin təkmilləşdirilməsi və genişləndirilməsi üzrə qarşılıqlı əməkdaşlıq etməyi öz öhdələrinə götürürlər.

2.4. Mərkəzlərin idarə olunması, gələcək inkişafı və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı məsələlər Komitə tərəfindən müstəqil şəkildə həll edilir. Mərkəzlərin Təşkilat tərəfindən maliyyələşdirildiyi dövrdə onların fəaliyyəti ilə bağlı məsələlər üzrə ikitərəfli məsləhətləşmələr aparılır.

2.5. 2008-ci ildən sonrakı dövrdə Mərkəzlərin fəaliyyəti ilə bağlı məsələlər üzrə Tərəflər arasında əməkdaşlıq Texniki yardım proqramı çərçivəsində həyata keçirilir.

Maddə 3. Mərkəzlərin fəaliyyət istiqamətləri

3.1. Mərkəzlərin məqsədini Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyası və onlara icma əsaslı qayğının göstərilməsi təşkil edir. Mərkəzlər uşaq və ailələrə icma əsaslı dəstək xidmətlərini (uşaqlara müəssisə şəraitində göstərilən qayğıya alternativ model olaraq) göstərir. Mərkəzlərin ümumi istiqaməti və onlar tərəfindən göstərilən xidmətlər bilavasitə xüsusi qayğıya ehtiyacı olan uşaqların ehtiyaclarının ödənilməsinə yönəldilir. Bu xidmətlər uşaqların inkişaf məsələlərində müəyyən çatışmazlıqları və boşluqları aradan qaldırmaq məqsədilə xüsusi olaraq seçilmişdir.

3.2. Mərkəzlərin xidmətləri aşağıdakıları əhatə edir:

3.2.1. istiqamətləndirmə və məlumatlandırma xidməti - problemin həlli üçün düzgün istiqamətləndirmə və müəyyən ərazidə mövcud olan, gənclərə və uşaqlara xidmətlər göstərən digər ictimai təşkilatlar, icmalar, QHT-lər və ailələr haqqında məlumat vermə;

3.2.2. asudə vaxtın səmərəli keçirilməsi ilə bağlı fəaliyyət və mədəni tədbirlər - uşaqlar və gənclər üçün müxtəlif tədbirlər, oyunlar, viktorinalar, yarışlar, tarixi muzeylərə və abidələrə səfərlər;

3.2.3. ailəyə dəstək qrupları - sağlamlıq imkanları məhdud olan uşaqlara müstəqil həyat bacarıqlarını inkişaf etdirməyə kömək etmək və valideynlərə bir-birinə qarşılıqlı dəstək göstərməkdə yardımçı olmaq;

3.2.4. fərdi terapiya sessiyaları - müstəqil həyat bacarıqlarının aşılanması üçün uşaqlara ixtisaslaşmış dəstəyin göstərilməsi;

3.2.5. açıq qapı məsləhətləşmələri - ailə həyatına təsir göstərən problemlərin həlli istiqamətində məsləhətlərin verilməsi və dəstəyin göstərilməsi;

3.2.6. evlərdə görüşlər - sağlamlıq imkanları məhdud olan uşaqlara və onların valideynlərinə müstəqil həyat bacarıqlarının ev şəraitində inkişafı istiqamətində iş aparmaqda kömək etmək;

3.2.7. gənclər klubu - gənclər üçün dram, rəqs, musiqi və idman kimi məktəbdənkənar fəaliyyətlərin təşkili;

3.2.8. ana və uşaq qrupları - anaların və uşaqların birlikdə iştirakını nəzərdə tutan müntəzəm məktəbəqədər məşğələlərin keçirilməsi, birgə hərtərəfli inkişaf məqsədilə analar və uşaqlar üçün digər şəxslərlə ünsiyyət yaratmaq, müxtəlif məsələləri müzakirə etmək, əylənmək kimi imkanların yaradılması;

3.2.9. uşaq və gənclər üçün həyat bacarıqları təlimi - potensial risk mənbələri olan siqaret, narkotik maddələr və spirtli içkilərdən istifadədən və QİÇS-dən qorunmaq üçün uşaq və gənclərə həyat bacarıqlarını (fərdi və sosial bacarıqları) tədris etmək (təlimin birinci hissəsi çoxsaylı risk amilləri haqqında məlumatlılığı artırmaqdan, ikinci hissəsi psixi-sosial təlim sessiyalarının keçirilməsindən ibarətdir);

3.2.10. uşaqlarla pozitiv qarşılıqlı münasibətə dair məlumatlılığın artırılması - uşaqlarda sağlam böyümək, biliklərə yiyələnmək və doğru istiqamətdə inkişaf etmək imkanlarının yaradılmasına dair valideynlər, himayədarlar və gənclər üçün nəzərdə tutulan kurslar;

3.2.11. uşaq hüquqları sahəsində maarifləndirmə - uşaq hüquqları və xüsusi qayğıya ehtiyacı olan uşaqların ehtiyaclan haqqında təlimlərin keçirilməsi;

3.2.12. gün ərzi xidmətlər - iş günü ərzində uşaqlara müxtəlif xidmətin göstərilməsi.

3.3. Mərkəzlərin göstərdiyi xidmətlər, ilk növbədə ən çətin şəraitdə yaşayan uşaqlara və onların valideynlərinə kömək göstərilməsinə istiqamətləndirilir.

3.4. Mərkəzlər aşağıdakı şəxslərə xidmət göstərir:

3.4.1. məcburi köçkün ailələrindən olan uşaqlar və onların valideynlərinə;

3.4.2. sağlamlıq imkanları məhdud olan uşaqlar və onların valideynlərinə;

3.4.3. küçə uşaqlarına;

3.4.4. uşaq müəssisələrində olan uşaqlar və onların valideynlərinə;

3.4.5. tək valideyni (qəyyumu) olan uşaqlara;

3.4.6. aztəminatlı ailələrdən olan uşaqlara.

3.5. Mərkəzlər tərəfindən göstərilən xidmətlərdən bəziləri daha geniş şəxslər dairəsinin məlumatlılığının artırılmasını, seminarların, təlimlərin keçirilməsini və digər üsullarla həmin xidmətlərdən faydalanmanı nəzərdə tutur.

3.6. Mərkəzlər qeyri-kommersiya əsaslan ilə fəaliyyət göstərir.

3.7. Mərkəzlər tərəfindən təklif olunan xidmətlər ödənişsizdir.

Maddə 4. Mərkəzlərin maliyyələşdirilməsi

4.1. Təşkilat, Mərkəzləri ayrı-ayrılıqda bu Sazişə 1 saylı Əlavədə göstərilmiş xərclər smetasına uyğun olaraq 2008-ci ilin 1 yanvar tarixinədək tam həcmdə maliyyələşdirir. Təşkilat tərəfindən ayrılan maliyyə vəsaitləri əvvəlki illərə nisbətdə azaldıla bilməz.

4.2. Komitə bu Sazişin tələbləri nəzərə alınmaqla, 2008-ci ilin 1 yanvar tarixindən etibarən Mərkəzlərin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi ilə bağlı məsələləri təmin etməyi öhdəsinə götürür.

4.3. 2008-ci ilin 1 yanvar tarixinədək, habelə zərurət yarandığı halda sonrakı üç ay müddətində Mərkəzlərin fəaliyyəti ilə bağlı bütün maliyyə öhdəlikləri Təşkilat tərəfindən təmin edilir.

4.4. Mərkəzlərin Komitəyə təhvil verilməsi Tərəflər arasında imzalanan Təhvil aktı ilə təsdiq olunur. Təhvil aktı Mərkəzlərin fəaliyyətinin maliyyə qiymətləndirilməsi aparıldıqdan sonra imzalanır.

4.5. Təhvil aktı imzalandığı günədək yaranmış bütün öhdəliklər Təşkilat tərəfindən həll edilməlidir.

4.6. Təhvil aktı imzalandığı gündən etibarən Mərkəzlərin fəaliyyəti ilə bağlı maliyyə, hüquqi və təşkilati öhdəlikləri Komitə daşıyır.

Maddə 5. Mərkəzlərin əmlakı

5.1. Mərkəzlərin bütün əmlakı, o cümlədən alınmış proqram təminatı, aparat və kompyuter avadanlıqları Komitənin balansına verilir. Komitə həmin avadanlığın Mərkəzlərdə istifadə olunmasını təmin edir.

5.2. Mərkəzlərin əmlakı Təhvil aktında göstərilməklə qəbul edilir. Əmlakın istismar müddətinin bitməsi və ya zədələnərək yararsız vəziyyətə düşməsi hallan istisna olmaqla, Tərəflərdən heç biri heç bir halda onu özgəninkiləşdirmək, üçüncü tərəfə vermək və ya mübadilə etmək hüququna malik deyildir.

Maddə 6. Mərkəzlərin strukturu

6.1. Təhvil aktı imzalandıqdan sonra Mərkəzlərin strukturu, ştat cədvəli və xərclər smetası Komitə tərəfindən təsdiq olunur.

6.2. Mərkəzlərin işçiləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada işə götürülür və işdən azad edilir.

6.3. Mərkəzlərə yeni işçilər götürüldükdə, onlar Mərkəzlər daxilində müvafiq ilkin təlim keçməlidirlər.

6.4. Mərkəzlərin fəaliyyətinin səmərəliliyinin təmin edilməsi məqsədilə Komitə tərəfindən Təşkilatın tövsiyəsinə əsasən əlaqələndirmə işləri ilə məşğul olan şəxs təyin edilir.

Maddə 7. Monitorinq

7.1. Mərkəzlər Komitəyə öz fəaliyyəti ilə bağlı aylıq, rüblük, altı aylıq və illik hesabatları təqdim edirlər. Həmin hesabatların nəticələri, habelə Mərkəzlərin 2007-ci il ərzində fəaliyyətinin altı aylıq nəticələri Təşkilat və Komitə arasında müzakirə olunmalıdır.

7.2. Monitorinq və qiymətləndirmə sahəsində müvafiq təcrübəyə, sistemə, səriştəyə və zəruri məlumatlara malik olduğu üçün 2009-cu ilin 1 sentyabr tarixinədək Təşkilat tərəfindən Mərkəzlərin fəaliyyətinin monitorinqi aparılır. Monitorinqin nəticələri barədə məlumat Komitəyə təqdim olunur.

7.3. Mərkəzlər Komitənin strukturuna daxil edildikdən sonra onların fəaliyyətinin monitorinqi Komitə tərəfindən həyata keçirilir.

Maddə 8. Texniki yardım

8.1. Mərkəzlərin fəaliyyətinin təkmilləşdirilməsi və beynəlxalq təcrübənin tətbiqi məqsədilə Təşkilat tərəfindən birgə layihə çərçivəsində Komitəyə texniki yardım göstəriləcəkdir.

8.2. Texniki yardım proqramı Mərkəzlərin fəaliyyətinin təkmilləşdirilməsi, gündəlik qayğı, uşaqların reabilitasiyası, monitorinq və qiymətləndirmə, strateji planlaşdırma və digər məsələləri əhatə etməlidir.

Maddə 9. Digər şərtlər

9.1. Bu Saziş 2007-ci il 9 iyul tarixində hər biri Azərbaycan və ingilis dillərində olmaqla eyni hüquqi qüvvəyə malik iki nüsxədə imzalanmışdır.

9.2. Bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı fikir ayrılığı yarandığı təqdirdə Tərəflər Azərbaycan dilində olan mətni rəhbər tutacaqlar.

9.3. Tərəflər arasında bu Saziş çərçivəsində yaranmış mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun həll edilir.

9.4. Bu Sazişə yalnız Tərəflərin qarşılıqlı razılığı əsasında hər hansı dəyişiklik və (və ya) əlavələr edilə bilər. Həmin dəyişiklik və (və ya) əlavələr bu Sazişin tərkib hissəsi hesab edilir.

9.5. Bu Saziş Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təsdiq edildiyi gündən qüvvəyə minir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

HİCRAN HÜSEYNOVA
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI "UŞAQLARIN XİLASI" ("SAVE THE CHILDREN") TƏŞKİLATI ADINDAN

CORC CAKOMİNİ
Ölkə üzrə direktoru

ƏLAVƏ 1

MƏRKƏZİN ORTA AYLIQ XƏRCLƏRİ

İnzibati xərclər

	Xərcin növü	İşçilərin sayı	Əmək haqqı	Cəmi	Qeyd
1.	Mərkəzin direktoru	1	240	240	Əməkhaqqı, vergilər və digər icbari ödənişlər daxil olmaqla, ABŞ dolları ilə göstərilmişdir
2.	Psixoloq	1	220	220	
3.	Təlim işçisi	1	200	200	
4.	Günərzi işçi	1	200	200	
5.	Sosial işçi r	1	200	200	
6.	Xadimə/aşpaz	1	150	150	
7.	Gözətçilər	2	130	260	
8.	İƏR işçiləri	2	200	400	
Cəmi:				**1870**	

Maddi-texniki təchizat xərcləri

	Xərcin növü	Hər mərkəzə münasibətdə, ABŞ dolları ilə	Cəmi, ABŞ dolları ilə	Qeyd
9.	Kommunal xərclər	150	150	Elektrik enerjisi, su, kanalizasiya ödənişləri
10.	Səyahət	50	50	Nəqliyyatdan istifadə və s.
11.	Ofis ləvazimatı	70	70	Ofisdə istifadə üçün dəftərxana ləvazimatı və s.
12.	Texniki xidmət	60	60	Avadanlığa və elektrik sisteminə texniki xidmət və s.
13.	Əlaqə və rabitə	50	50	Telefon
Cəmi:			**380**	

Cari xərclər

14.	Xidmətlərin icrası üçün ləvazimat (günərzi xidmət daxil olmaqla)	200	200	Boya, kağız, fırça, qovluq, plastilin və s.
15.	Günərzi xidmət üçün ərzaq	670	670	Günərzi xidmət üçün
16.	Çap və surətçıxarma	70	70	Tədbir ve təlimlər üçün materiallar
17.	Müxtəlif xərclər	50	50	Avadanlıq icarəsi -audio, video avadanlıq və s.
18.	İnteqrasiya yönümlü icma tədbirləri	100	100	
19.	Xüsusi qayğıya ehtiyacı olan uşaqların nəqliyyat xərcləri	100	100	
Cəmi:			**1190**	
Ümumi məbləğ			**3440**	

"Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və İran İslam Respublikasının Yol və Nəqliyyat Nazirliyi arasında "Bakı-Naxçıvan-Bakı" müntəzəm avtobus marşrutunun açılması haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və İran İslam Respublikasının Yol və Nəqliyyat Nazirliyi arasında "Bakı-Naxçıvan-Bakı" müntəzəm avtobus marşrutunun açılması haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə İran İslam Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 avqust 2007-ci il

№2357

"Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Culfa (Azərbaycan Respublikası) - Culfa (İran İslam Respublikası) yeni avtomobil yolu körpüsünün inşa edilməsi haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Culfa (Azərbaycan Respublikası) - Culfa (İran İslam Respublikası) yeni avtomobil yolu körpüsünün inşa edilməsi haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə İran İslam Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 avqust 2007-ci il

№2358

"Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Ordubad və Marazad Su Elektrik Stansiyalarının Tikintisi barədə Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Ordubad və Marazad Su Elektrik Stansiyalarının Tikintisi barədə Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının sənaye və energetika naziri Natiq Ağaəmi oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu

Sərəncamın 1-ci bəndində göstərilən Protokolu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının sənaye və energetika naziri Natiq Ağaəmi oğlu Əliyevə verilməsi barədə İran İslam Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 avqust 2007-ci il

№2359

"Azərbaycan Respublikası Hökuməti və Sloveniya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Azərbaycan Respublikası Hökuməti və Sloveniya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilsin.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri Əli Məmməd oğlu Abbasova verilməsi barədə Sloveniya Respublikasının Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 avqust 2007-ci il

№2360

2007-ci il aprelin 6-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Cəmiyyəti arasında Qafqaz təşəbbüsü çərçivəsində Azərbaycanda İctimai Yönümlü Erkən Xəbərdarlıq və Fəlakətlərin Qarşısının Alınmasına dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il aprelin 6-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Cəmiyyəti arasında Qafqaz təşəbbüsü çərçivəsində Azərbaycanda İctimai Yönümlü Erkən Xəbərdarlıq və Fəlakətlərin Qarşısının Alınmasına dair Anlaşma Memorandumu təsdiq edilsin.

2. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 avqust 2007-ci il

№2361

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Cəmiyyəti arasında Qafqaz təşəbbüsü çərçivəsində Azərbaycanda İctimai Yönümlü Erkən Xəbərdarlıq və Fəlakətlərin Qarşısının Alınmasına dair Anlaşma Memorandumu

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Cəmiyyəti (bundan sonra "Tərəflər") adlandırılacaq,

Hər iki dövlət arasında mövcud dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsini istəyərək,

Azərbaycanda İctimai Yönümlü Erkən Xəbərdarlıq və Fəlakətlərin Qarşısının Alınması üçün Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Cəmiyyəti tərəfindən Azərbaycan Respublikasına texniki yardım göstərmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

1. MƏQSƏD

2006-cı ilin noyabr ayında Almaniya Texniki Əməkdaşlıq Cəmiyyətinin (GTZ) təşəbbüsü ilə "Cənubi Qafqazda İctimai Yönümlü Erkən Xəbərdarlıq və Fəlakətlərin Qarşısının Alınmasına dair layihənin həyata keçirilməsi mümkünlüyünü müəyyən etmək məqsədilə Layihə Qiymətləndirilmə Missiyası həyata keçirilmişdir. Missiya GTZ-nin dəstəyi ilə Bemard Amler və Suzan Smail tərəfindən həyata keçirilmişdir.

Məqsəd tərəfdaşlarla razılaşdırılmalı olan layihənin nəticədə ümumi aspektlərini, xüsusilə aşağıda göstərilən strategiya və konsepsiyanı özündə dolğun əks etdirməkdən ibarətdir:

lokal və milli səviyyədə fövqəladə halların xəbərdar edilməsi və risklərin idarə olunması;

aparıcı icra orqanlarının müəyyən edilməsi;

icra orqanlarının imkanlarının təhlili;

layihənin konsepsiyasının və strategiyasının işlənib hazırlanması.

Qiymətləndirməyə dair qısa məlumat

GTZ-nin dəstəyi ilə 2005-ci ilin avqust ayında Erkən Xəbərdarlıq üzrə Katiblik tərəfindən hazırlanmış layihə ilə bağlı təkliflər 2005-ci ilin oktyabr ayında Bonn şəhərində təşkil olunmuş erkən xəbərdarlıq mövzusunda keçirilən Üçüncü Beynəlxalq Konfransda "Yerli tədbirlərdən regional əməkdaşlığa doğru: Cənubi Qafqazda İctimai Yönümlü Erkən Xəbərdarlıq Sistemi" adı ilə təqdim edilmişdir.

Layihə təklifi bəyənilərək qəbul edilmiş və yerli qurumların iştirakını göstərmək və aydınlaşdırmaq məqsədilə diqqətəlayiq layihələr kataloquna daxil edilmişdir.

Almaniya Hökuməti ikitərəfli əməkdaşlığın inkişafına dəstək vermək məqsədilə Qafqaz Təşəbbüsü çərçivəsində bu layihəni ilkin olaraq qəbul etmiş və sözügedən layihə daha sonra həyata keçirilməsi nəzərdə tutulan "Yerli demokratiyanın və mülki cəmiyyətin gücləndirilməsi" ilə bağlı layihəyə dəstək olacaqdır.

Azərbaycan-Almaniya Hökumətlərarası danışıqlar zamanı (Bakı, 16.08.2006) bu layihə

Qafqaz regional təşəbbüsünün tərkib hissəsi kimi qeyd olunmuş və Azərbaycan Hökuməti tərəfindən razılıqla qarşılanaraq dəstəklənmişdir (rəsmi protokol səh. 13).

Hazırkı missiya çərçivəsində Azərbaycan Respublikasını təmsil edən Fövqəladə Hallar Nazirliyi fəlakət risklərinin tənzimlənməsi üzrə ikitərəfli əməkdaşlıq layihəsinə marağını açıq şəkildə nümayiş etdirmişdir. Yeni yaranmış Nazirlik üçün (fevral 2006) bu təşəbbüslər risklərin tənzimlənməsi üzrə və gələcəkdə risklərin qiymətləndirilməsi üçün arzu olunandır.

2. ƏLDƏ EDİLMİŞ MƏLUMATLAR VƏ LAYİHƏ KONSEPSİYASI

2.1. Layihənin əsaslandırılması

Cənubi Qafqaz regionu əksər təbii fəlakətlərə, o cümlədən zəlzələ, daşqın, torpaq sürüşməsi, qaya və qar uçqunları, sel, ildırım, dolu, vulkan püskürmələri və meşə yanğınlarına meyillidir. Bu region Alp-Himalay seysmik zolağının ən fəal hissələrindən birini təşkil edir.

Ənənəvi olaraq, keçmiş Sovet İttifaqı ölkələrində riskli hadisələrin elmi araşdırmaları üzrə inkişaf etmiş sistem mövcud idi. Erkən xəbərdarlıq sistemləri riskli hadisələrin təyini və proqnozunun texnoloji aləti kimi düşünülmüş və həyəcan siqnalını vermək üçün vasitə kimi başa düşülürdü. Keçmişdə riskli hadisələrin araşdırmaları ilə məşğul olan qurumlar öz fəaliyyətlərini vətəndaşların mərkəzləşdirilmiş müdafiəsinə yönəltmişlər. Sovetlərin vaxtında bu qurumların əsas tapşırığı əhalini texnogen fəlakətlərdən və müharibələrin mümkün nəticələrindən (atom hücumu) qorumaq idi. Erkən xəbərdarlıq sistemində göstərilən bəzi xüsusiyyətlər hələ də mövcuddur və açıq informasiya siyasəti hələ də ümumi deyildir.

Müəyyən edilmiş ümumi problemləri aşağıdakı kimi xülasə etmək mümkündür:

Problemlər

Mütəmadi təbii risklər;

əhali çoxçeşidli risklərin öhdəsindən təkbaşına gələ bilmir;

təbii fəlakətlərin qarşısını almaq və təsirlərini yüngülləşdirmək sahəsində yerli institusional baza və imkanlar zəifdir;

milli səviyyədə institusional struktur təbii fəlakətlərin qarşısının alınması və təsirlərinin yüngülləşdirilməsi sahəsində yerli idarəetmə bazaları zəifdir;

fəlakət risklərinin idarə edilməsi istiqamətində cavab tədbirinin həyata keçirilməsi üçün vəziyyət qənaətbəxş deyildir;

layihədən bəhrələnən şəxslər arasında qeyri-qənaətbəxş əlaqə;

tələblərə cavab verən kommunikasiya strukturlarının çatışmazlığı (həm icmalar arasında, həm də müxtəlif səviyyələrdə).

Mövcud strukturlar və sistemlər nəzərə alınaraq aşağıdakılar qeyd oluna bilər:

Çatışmazlıqların aradan qaldırılması

İctimaiyyətin maarifləndirilməsi və hazırlığı (ictimaiyyətin səfərbərliyi);

yerli səviyyədə fəlakət risklərinin idarə edilməsi işinin planlaşdırılması və həyata

keçirilməsi;

xüsusi olaraq torpaq sürüşmələri və sellərə dair münasib erkən xəbərdarlıq sistemlərinə dair biliklər;

yerli, regional və ölkə miqyasında tələblərə cavab verən kommunikasiya sistemləri.

Əsas problemlər

Yerli qurumların təbii risklərlə mübarizə aparmaq üçün münasib imkanları və məlumatları yoxdur, onlara dövlət orqanlarının və qurumlarının səmərəli dəstəyi çatışmır.

2.2. Məqsəd və nəticələr

Layihə yerli və ölkə miqyasında bilik və imkanlar sahəsində mövcud çatışmazlıqları aradan qaldırmağı nəzərdə tutur. Risklərlə üzləşən əhali bu risklər barədə və necə hərəkət etmələri barədə məlumatlandırılırlar, eyni zamanda səriştəli rəsmi orqanlara arxalana bilərlər. Layihənin məqsədi aşağıdakı kimi identifikasiya olunur: Cənubi Qafqazdakı qurumlar milli institutlarla (təşkilatlarla) təbii riskləri azaltmağa hazırlaşırlar. İlkin göstəricilər regional seminarın nəticəsinə uyğun olaraq müəyyən olunur.

Layihənin əldə edəcəyi nəticələr

Əsas nəticələrin və ümumi fəaliyyətlərin xülasəsi:

A. Risklərlə hazırlıq və onların qarşısının alınması üzrə prioritet sahələrdə imkanların artırılması

A 1. Bütün səviyyədə tədbirlərin görülməsi üçün lazımi bilikləri və hazırlığı təmin etmək;

A 2. yerli və regional səviyyələrdə tədbirlər planlarını işləyib hazırlamaq;

A 3. Risklərin qarşısının alınması üzrə konkret tədbirlərin həyata keçiril-məsinə dəstək vermək.

B. Risklərin qiymətləndirilməsi üçün biliklərin idarə edilməsi

B 1. Seçilmiş ərazilərdə müəyyən edilmiş risklər üzrə ətraflı qiymətləndirmələr həyata keçirmək (prioritet: daşqın, torpaq sürüşməsi, sel);

B 2. risklər haqqında yerli bilikləri elmi imkanlarla əlaqələndirmək;

B 3. yaxşı elmi əsaslan əldə etməyə yönəldilmiş əməkdaşlıq tədbirlərinə və araşdırmalara dəstək vermək;

B 4. iştirak edən aidiyyəti qurumlarla ölkə miqyasında bilik (məlumat mübadiləsi təşkil etmək).

C. Seçilmiş risklərin monitorinqi və xəbərdarlıq

C 1. Seçilmiş ərazilərdə müəyyən edilmiş risklərin daimi monitorinqini və təhlilini təşkil etmək;

C 2. effektiv xəbərdarlıq planları tərtib etmək; C 3. xəbərdarlıq vermək.

D. Cavab tədbirləri üçün əlaqə

D 1. Kommunikasiya sistemi təşkil etmək və onun idarəetmə imkanlarını təkmilləşdirmək;

D 2. yerli və ölkə miqyasında təşkilati strukturları möhkəmləndirmək, məlumat axını və qərarların verilməsi mexanizminin idarə olunmasını təkmilləşdirmək;

D 3. risklərə məruz qalan qruplara anlaşılan xəbərdarlıqları ötürmək.

2.3. Layihənin Ümumi Konsepsiyası

Yerli layihələrin risklərlə mübarizə aparmasına imkan yaratmaq üçün regional və ölkə miqyasında işlək mexanizmlərin olması zəruridir. Layihənin əsas diqqət yetirdiyi məqam təbii fəlakətlərə hazırlıq və onların qarşısının alınması sahəsində yerli qurumların ölkə miqyasında digər qurumlarla əməkdaşlığını gücləndirməkdədir. Risklərə hazırlıq nöqteyi-nəzərdən bütün maraqlı tərəflərin həm şaquli, həm də üfüqi inteqrasiyasının zəruri olduğunu göstərən komponentlərdən biri risklərin araşdırılmasına yönəldilmiş erkən xəbərdarlıq sistemidir. Seçilmiş ərazilərdə yerli, regional və ölkə miqyaslı erkən xəbərdarlıq sistemlərini təkmilləşdirməklə və möhkəmləndirməklə, layihə, risklərə hazırlıq və onların qarşısının alınması istiqamətində bir sıra müxtəlif tədbirlərə hazırlıq görmüş olur.

Erkən Xəbərdarlıq sistemləri sahəsində ölkə miqyaslı və yerli imkanları möhkəmləndirmək məqsədilə əhatəli proqramlar həyata keçirmək üçün ölkələr ardıcıl inkişafa yönəlmiş reallaşdırıla bilən strategiya qəbul etməlidirlər. Sistemi tətbiq etməyə başlamazdan əvvəl onun bütün aspektlərini işləyib hazırlamağa səy göstərməkdənsə, ilk öncə ən riskli ərazilərdə mövcud strukturlara uyğun olaraq yerli sistemlər təşkil etmək daha məqsədə müvafiqdir. Bu yolla əldə edilən təcrübə bu işin digər sahələrə də genişləndirilməsi üçün siyasi dəstəyi və resursları canlandıra bilər. Erkən xəbərdarlıq sistemlərinin ardıcıl inkişaf etdirilməsi, həmçinin yeni texnologiyaları da tədricən, yəni sistem spesifikasiyalarını inkişaf etdirdikcə tətbiq etməyə imkan verir.

2.4. Layihə üzrə regional və hədəf qrupları

Yuxarıda qeyd olunduğu kimi, layihə üç əsas səviyyədə fəaliyyət göstərəcəkdir: Cənubi Qafqazda, ölkə və yerli rayon səviyyələrində. İlk mərhələ üçün aşağıdakı prioritet rayonlar seçilmişdir:

Layihə rayonları:

birinci mərhələ	İkinci mərhələnin
Azərbaycan	potensial genişləndirilməsi
Şəki-Zaqatala r-nu	Mingəçevir su anbarı, Kür çayı

Azərbaycan regionunun seçilməsində məqsəd

Azərbaycan ərazisi geniş təbii risklərlə xarakterizə olunur. Beynəlxalq statistikaya əsasən baş vermiş fəlakətlərin sayına görə Azərbaycan ən çox təbii risklərə məruz qalmış ölkələr sırasında göstərilir. Seçilmiş Şəki-Zaqatala zonasında (9.000 km2, 900.000 ha) bir çox təbii fəlakətlərə, o cümlədən daşqın, torpaq sürüşməsi, sel, dolu, qar uçqunları və meşə yanğınlarına rast gəlmək olar. Bura həmçinin zəlzələ üçün də yüksək risk zonasıdır. Bu hadisələr hər il yerli iqtisadiyyatda böyük itkilərə səbəb olur.

Daha geniş məlumat Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən veriləcəkdir.

Hədəf qrupu - seçilmiş rayonların fəlakətlərə məruz qalan əhalisidir.

Vasitəçilər yerli orqanlar və təşkilatlardır.

2.5. Aparıcı İcraçı Qurumlar və İnstitutlar

Aparıcı İcraçı Qurum

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi

Cəlb edilməsi gözlənilən tərəflər

Ekologiya və Təbii Sərvətlər Nazirliyi və onun Milli Hidrometeorologiya Departamenti

Milli Elmlər Akademiyası (Geologiya və Coğrafiya institutları) Layihə rayonlarında yerli orqanlar

3. MÜDDƏT VƏ GÖZLƏNİLƏN NƏTİCƏLƏR

3.1. Layihələrin müddəti və mərhələləri

Layihənin müddəti Gözlənilən ümumi müddət

1. Mərhələ: 2 il (06/2007-05/2009)
2. Mərhələ (potensial olaraq): 3 il (01/2010-12/2011)

Birgə qiymətləndirmə bir il yarımdan sonra olacaqdır. Əlavə mərhələlər barədə qərarlar müvafiq nəticədən asılıdır.

3.2. Almaniya tərəfinin Layihəyə töhfəsi

Beynəlxalq mütəxəssislərin cəlb olunması;

yerli mütəxəssislərin cəlb olunması;

məsləhətçilər və araşdırıcılar;

malların, avadanlıqların və yerli subsidiyaların təmin olunması, habelə əlavə kommunikasiya avadanlıqlarının təmin edilməsi;

seminarların, təlimlərin, habelə ölkə, region və beynəlxalq miqyasda konfransların keçirilməsi.

3.3. Tərəfdaşların Layihəyə töhfəsi

Texniki kadrlar; inzibati dəstək və ofis; mallar və avadanlıqlar; bütün əlaqədar məlumatların təmin edilməsi; ölkənin müvafiq qurumları ilə əlaqələndirmə;

Layihə rayonlarında razılaşdırılmış prioritetlərə uyğun olaraq ərazi investisiyalarını istiqamətləndirmək.

4. DİGƏR TƏDBİRLƏR

Razılaşdırılmış bu Anlaşma Memorandumu əsasında missiya BMZ (Almaniya İqtisadi İnkişaf və Əməkdaşlıq Nazirliyi) üçün layihənin ilkin variantını hazırlayacaq və qiymətləndirmə hesabatı tərtib edəcəkdir.

Yekun fəsli

Aşağıda imzaları qeyd olunan Tərəflər bu sənəddə əks olunan məlumatlar və tövsiyələrlə razılaşdıqlarını bəyan edirlər.

Bundan əlavə, aşağıda imza edən Tərəflər Qiymətləndirmə Missiyası zamanı, habelə 28 noyabr 2006-cı il tarixində Tiflis şəhərində (Gürcüstan) keçirilmiş regional planlaşdırma və konsensus seminarında müzakirə edildiyi kimi Qafqaz Təşəbbüsü çərçivəsində yeni "Cənubi Qafqazda İctimai Yönümlü Erkən Xəbərdarlıq və Fəlakətlərin Qarşısının Alınması" layihəsi üzrə layihə konsepsiyası barədə razılığa gəlirlər. Bu regional layihə Azərbaycan və Almaniya arasında ikitərəfli əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edir.

Bu müddəalara əsasən "Deutche Gesellschaft fur Technische Zusamme-narbeyt" GTZ GmbH təşkilatı inkişaf sahəsində Əməkdaşlıq üzrə Almaniya Federal Nazirliyi tərəfindən nəzərdən keçiriləcək və təsdiq ediləcək layihə təklifini hazırlayacaqdır.

Qüvvəyə minmə və xitam verilmə

Bu Memorandum qeyri-müəyyən müddətə bağlanılır və imzalandığı tarixdən qüvvəyə minir.

Tərəflərdən biri Memorandumu ləğv etmək niyyəti barədə digər Tərəfi diplomatik kanallar vasitəsilə yazılı şəkildə xəbərdar etməklə Memorandumа xitam verə bilər. Memorandum belə bildirişin alındığı tarixdən altı ay sonra qüvvədən düşmüş hesab edilir.

Bu Memorandum 6 aprel 2007-ci il tarixində Bakı şəhərində iki əsl nüsxədə, hər biri Azərbaycan və ingilis dillərində olmaqla imzalanmışdır. Bütün mətnlər autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ ADINDAN	ALMANİYA FEDERATİV RESPUBLİKASININ TEXNİKİ ƏMƏKDAŞLIQ CƏMİYYƏTİ ADINDAN
KƏMALƏDDİN HEYDƏROV	*FRANZ HEİNZMANN GTZ*
Fövqəladə hallar naziri	*Bakı ofisinin direktoru*

2007-ci il mayın 18-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Macarıstan Respublikasının İqtisadiyyat və Nəqliyyat Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il mayın 18-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Macarıstan Respublikasının İqtisadiyyat və Nəqliyyat Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Macarıstan Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 avqust 2007-ci il

№2362

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Macarıstan Respublikasının İqtisadiyyat və Nəqliyyat Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Macarıstan Respublikasının İqtisadiyyat və Nəqliyyat Nazirliyi,

Tərəflər arasında uzunmüddətli ikitərəfli əlaqələrə əsaslanan iqtisadi əməkdaşlığı genişləndirməyi arzu edərək,

innovasiya, tədqiqat, birgə istehsal və investisiyalar sahələrində iqtisadi, sənaye, texniki və texnoloji əməkdaşlığın yeni və qarşılıqlı faydalı formalarını inkişaf etdirmək və gücləndirmək niyyətini rəhbər tutaraq,

ikitərəfli iqtisadi əlaqələrin vacibliyini etiraf edərək,

öz ölkələrinin qanunvericiliyinə və beynəlxalq öhdəliklərinə müvafiq olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz beynəlxalq öhdəliklərinə və milli qanunvericiliklərinə uyğun olaraq səlahiyyətləri çərçivəsində olan və qarşılıqlı maraq kəsb edən məsələlər üzrə əməkdaşlığı inkişaf etdirirlər.

Maddə 2

Nazirliklərarası əməkdaşlığın məqsədi Azərbaycan və Macarıstan arasında mövcud olan iqtisadi əlaqələrin dəstəklənməsi və əməkdaşlığın yeni istiqamətlərinin inkişaf etdirilməsidir.

Maddə 3

Tərəflər iqtisadi məsələlər üzrə məlumat və təcrübə mübadiləsini həyata keçirirlər və xüsusilə aşağıda göstərilən sahələr üzrə investisiyalar, birgə istehsal, birgə tədqiqatları təşviq edirlər:

kiçik və orta sahibkarlıq;

investisiya siyasəti;

sahibkarlığın inkişafı və tənzimlənməsi;

energetika;

sənaye;

nəqliyyat və daşımalar;

kommunikasiya və informasiya texnologiyaları;

ikitərəfli maraq doğuran istənilən digər sahələr.

Maddə 4

Bu Sazişdə qeyd edilən məqsədlərə nail olmaq üçün Tərəflər, zərurət olduğu hallarda, öz təmsilçilərinin görüşlərini təşkil edəcəklər.

Maddə 5

Bu Sazişin məqsədlərinə nail olmaq üçün Tərəflər iş adamlarının görüşlərinin, həmçinin birgə konfrans və seminarların təşkilini təşviq edirlər.

Maddə 6

Tərəflər ümumi maraq kəsb edən proqram və layihələrin yaradılması və həyata keçirilməsi barədə bir-birini məlumatlandırırlar.

Maddə 7

Tərəflər bu Sazişlə əlaqədar bütün mübahisələri birbaşa danışıqlar vasitəsilə həll edəcəklər.

Maddə 8

Bu Saziş hər iki Tərəfin hər hansı beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinin qüvvədə olmasına və ya icra edilməsinə təsir etmir.

Maddə 9

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə dəyişikliklər edilə bilər. Belə dəyişikliklər bu Sazişin tərkib hissəsi olan ayrı-ayrı protokollar formasında edilə bilər və bu Sazişin 10-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minəcəkdir.

Maddə 10

Bu Saziş Tərəflər arasında diplomatik notaların mübadiləsindən sonra qüvvəyə minir və beş il müddətinə bağlanılır və Tərəflərdən biri Sazişin müddətinin başa çatmasına ən azı altı ay qalmış diplomatik kanallar vasitəsilə digər Tərəfə Sazişin ləğv edilməsi niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Sazişin qüvvəsi növbəti ikiillik müddətlərə uzadılır.

Bu Sazişin ləğvi bu Sazişə müvafiq olaraq həyata keçirilən razılaşmaların və proqramların tam başa çatmasınadək onların hüquqi qüvvəsinə və davamiyyətinə təsir etməyəcəkdir.

Bu Saziş Bakı şəhərində 18 may 2007-ci il tarixində iki əsl nüsxədə Azərbaycan, macar və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsiri zamanı fikir ayrılığı olduqda ingilis dilində olan mətnə istinad ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF NAZİRLİYİ ADINDAN

HEYDƏR BABAYEV
İqtisadi inkişaf naziri

MACARISTAN RESPUBLİKASININ İQTİSADİYYAT VƏ NƏQLİYYAT NAZİRLİYİ ADINDAN

GÖNTS KİNQA
Xarici işlər naziri

"Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Qətər Dövləti Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 avqust 2007-ci il

№2363

"Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu

Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilməsi barədə Qətər Dövləti Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 avqust 2007-ci il

№2364

"Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında hava daşımalarına dair Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında hava daşımalarına dair Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin "Azərbaycan Hava Yolları" Dövlət Konserninin Baş direktoru Cahangir Cəlal oğlu Əsgərova verilməsi barədə Qətər Dövləti Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 avqust 2007-ci il

№2365

"Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası və Qətərin Ticarət və Sənaye Palatası arasında Müştərək Biznes Şurasının (MBŞ) təsis edilməsi barədə Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası və Qətərin Ticarət və Sənaye Palatası arasında Müştərək Biznes Şurasının (MBŞ) təsis edilməsi barədə Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Ticarət və Sənaye Palatasının prezidenti Süleyman Bayram oğlu Tatlıyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Ticarət və Sənaye Palatasının prezidenti Süleyman Bayram oğlu Tatlıyevə verilməsi barədə Qətər Dövləti tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 avqust 2007-ci il

№2366

"Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası ilə Qətərin Ticarət və Sənaye Palatası arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası ilə Qətərin Ticarət və Sənaye Palatası arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan

Respublikası Ticarət və Sənaye Palatasının prezidenti Süleyman Bayram oğlu Tatlıyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Ticarət və Sənaye Palatasının prezidenti Süleyman Bayram oğlu Tatlıyevə verilməsi barədə Qətər Dövləti tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 avqust 2007-ci il

№2367

"Koreya Respublikası Tikinti və Nəqliyyat Nazirliyi ilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında Yeni inzibati şəhərin salınması sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Koreya Respublikası Tikinti və Nəqliyyat Nazirliyi ilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında Yeni inzibati şəhərin salınması sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Koreya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 sentyabr 2007-ci

№2378

"Avropa İttifaqı Komissiyasının Texniki Yardım Proqramı üzrə Azərbaycan Respublikasının Milli Koordinatoru haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 10 iyun tarixli 940 nömrəli Sərəncamına dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Avropa İttifaqı Komissiyasının Texniki Yardım Proqramı üzrə Azərbaycan Respublikasının Milli Koordinatoru haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 10 iyun tarixli 940 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 6, maddə 347; 2005-ci il, № 10, maddə 968) adında və 1-ci bəndində "Texniki Yardım Proqramı" sözləri "Yardım Proqramları" sözləri ilə əvəz edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 sentyabr 2007-ci il

№2379

"Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Litva Respublikasının Maliyyə Nazirliyi yanında Vergi Müfəttişliyi arasında vergi məsələləri üzrə informasiya mübadiləsi haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Litva Respublikasının Maliyyə Nazirliyi yanında Vergi Müfəttişliyi arasında vergi məsələləri üzrə informasiya mübadiləsi haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilməsi barədə Litva Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 sentyabr 2007

№2383

"Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəz Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəz Mürsəl oğlu Qarayevə verilməsi barədə Litva Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 sentyabr 2007-ci il

№2384

"Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəz Mürsəl oğlu Qarayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəz Mürsəl oğlu Qarayevə verilməsi barədə Litva Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 sentyabr 2007-ci il

№2385

Tarixi İpək Yolunun bərpası üzrə beynəlxalq konfransın 10 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ilin sentyabr ayında Bakı şəhərində 13 beynəlxalq təşkilat və 32 dövlət nümayəndə heyətlərinin iştirakı ilə "TRASEKA - Tarixi İpək Yolunun Bərpası" Beynəlxalq Konfransı keçirilmişdir. Məhz bu önəmli toplantıda Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq tranzit daşımalarının daha səmərəli təşkilinin hüquqi əsasları qoyulmuşdur.

Konfransdan sonra ötən on il ərzində səmərəli əməkdaşlıq nəticəsində Şərq-Qərb istiqamətində *inteqrasiya prosesləri daha da genişləndirilmiş, nəqliyyat infrastrukturunun* yenidən qurulması sahəsində bir sıra perspektiv layihələr uğurla icra olunmaqdadır.

1998-ci ilin sentyabr ayında keçirilmiş "TRASEKA - Tarixi İpək Yolunun bərpası" Beynəlxalq Konfransın 10 illik yubileyi münasibətilə, habelə bu Konfransın nəqliyyat dəhlizi üzərində yerləşən ölkələrin iqtisadi-ticarət əlaqələrinin inkişaf etdirilməsində mühüm rolunu nəzərə alaraq qərara alıram:

1. Tarixi İpək Yolunun bərpası üzrə beynəlxalq konfransın 10 illik yubileyi 2008-ci il sentyabr ayında keçirilsin.

2. 10 illik yubiley beynəlxalq konfransının hazırlanmasını və keçirilməsini təmin etmək məqsədilə aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

Təşkilat Komitəsinin sədri

Artur Rasizadə - Azərbaycan Respublikasının Baş naziri

Təşkilat Komitəsinin sədr müavini

Ramiz Mehdiyev - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri

Təşkilat Komitəsinin üzvləri:

Abid Şərifov - Azərbaycan Respublikası Baş nazirinin müavini

Vahid Axundov - Azərbaycan Respublikasının dövlət müşaviri

Elmar Məmmədyarov - Azərbaycan Respublikasının xarici işlər naziri

Hacıbala Abutalıbov - Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

Ramil Usubov - Azərbaycan Respublikasının daxili işlər naziri

Samir Şərifov - Azərbaycan Respublikasının maliyyə naziri

Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri

Ziya Məmmədov - Azərbaycan Respublikasının nəqliyyat naziri

Əli Əsədov - Azərbaycan Respublikası Prezidentinin köməkçisi

Əli Abbasov - Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri

Əbülfəz Qarayev - Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri

Elçin Bağırov - Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi

Novruz Məmmədov - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının xarici əlaqələr şöbəsinin müdiri

Əli Həsənov - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının ictimai-siyasi məsələlər şöbəsinin müdiri

Oqtay Şahbazov - Azərbaycan Respublikası Prezidentinin işlər müdirinin birinci müavini

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 sentyabr 2007-ci il

№2396

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Macarıstan Respublikasının Sosial İşlər və Əmək Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Macarıstan Respublikasının Sosial İşlər və Əmək Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Həsən oğlu Ələkbərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının

əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Həsən oğlu Ələkbərova verilməsi barədə Macarıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 sentyabr 2007-ci il

№2397

2007-ci il iyunun 12-də Yerusəlim şəhərində imzalanmış "Azərbaycan Respublikasının nəqliyyat naziri və İsrail Dövlətinin nəqliyyat və yol təhlükəsizliyi naziri arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Birgə Bəyannamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il iyunun 12-də Yerusəlim şəhərində imzalanmış "Azərbaycan Respublikasının nəqliyyat naziri və İsrail Dövlətinin nəqliyyat və yol təhlükəsizliyi naziri arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Birgə Bəyannamə" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Birgə Bəyannamənin həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 sentyabr 2007-ci il

№2398

Azərbaycan Respublikasının nəqliyyat naziri və İsrail Dövlətinin nəqliyyat və yol təhlükəsizliyi naziri arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Birgə Bəyannamə

Azərbaycan Respublikası nəqliyyat nazirinin 2007-ci ilin iyun ayında İsrail Dövlətinə səfəri ilə əlaqədar İsrail Dövlətinin nəqliyyat və yol təhlükəsizliyi və Azərbaycan Respublikasının nəqliyyat nazirləri nəqliyyat sahəsində əməkdaşlıq haqqında razılığın əldə olunmması niyyətlərini ifadə etmişlər. Bu məqsədlə nazirlər tərəfindən hər iki nazirliyin müvafiq rəhbər işçilərinin idarə edəciyi birgə işçi qrupu yaradılacaqdır.

Nazirlər nəqliyyat siyasəti və bu sahədə səmərəli qarşılıqlı əməkdaşlığın qurulmasının mümkünlüyü barədə aşağıdakıları nəzərə almaqla fikir mübadiləsi aparmışlar:

Tərəflərin milli iqtisadiyyatı üçün, habelə malların dövriyyəsi və insanların hərəkət etməsində nəqliyyatın əhəmiyyəti;

İsrail və Azərbaycanda mövcud olan müvafiq təcrübə və nou-hau;

iki ölkə arasında nəqliyyat əlaqələrinin və əməkdaşlığın daha da inkişaf etdirilməsinin əhəmiyyəti, habelə yerli və beynəlxalq nəqliyyat xidmətləri bazarlarında rəqabətin artırılması və bu sahədə təcrübə mübadiləsinin aparılması.

Nazirlər bu cür əməkdaşlığın hər iki ölkə üçün faydalı olacağı barədə fikirlərini açıqlayaraq, onların Hökumətləri, habelə ölkələrinin sənayesi, institutları, məsləhətçi və təc-

hizatçı subyektləri arasında nəqliyyat sahəsində əməkdaşlığın qurulması və inkişaf etdirilməsi arzusunda olduqlarını bildirmişlər.

Bu cür əməkdaşlıq fikir, təcrübə və nou-hau mübadiləsi, məqsədlərin müəyyən edilməsi, birgə layihələrin və ticarət əməkdaşlığının həyata keçirilməsi formasında ola bilər.

Aşağıda göstərilən hər iki nazir tərəfindən bağlanması nəzərdə tutulan sazişin əsasları kimi müəyyən edilmişdir:

avtomobil və dəmir yollarının, habelə limanların və digər infrastruktur obyektlərinin inkişafı;

iki ölkə arasında multimodal daşımalar;

tranzit daşımalar;

daşımaların idarə edilməsi üzrə yeni texnologiyalar və loqistik mərkəzlər;

irimiqyaslı infrastruktur layihələri üzrə elmi tədqiqat;

nəqliyyat şirkətləri və müəssisələri arasında əlaqələrin qurulması;

qarşılıqlı faydalı məsələlərlə bağlı birgə tədqiqat;

nəqliyyatla əlaqədar inşaat bazarına dair, habelə mühəndis və qurğu işlərinin həyata keçirilməsi sahəsində məlumat mübadiləsi;

mütəxəssislərin təlimləndirilməsi və təcrübə mübadiləsi;

tərəflərin və ya üçüncü ölkənin ərazisində layihələndirmə və inşaat işlərinin həyata keçirilməsində birgə iştirak (birgə müəssisələrin yaradılması da daxil olmaqla);

texniki seminarların və sərgilərin keçirilməsi;

hər iki ölkənin hökumət və özəl təşkilatları arasında birbaşa əlaqələrin və əməkdaşlığın təşviq edilməsi.

2007-ci il 12 iyun tarixində Yerusəlim şəhərində ingilis dilində iki əsl nüsxədə olmaqla imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ NƏQLİYYAT NAZİRLİYİ ADINDAN	İSRAİL DÖVLƏTİNİN ƏDLİYYƏ NƏQLİYYAT VƏ YOL TƏHLÜKƏSİZLİYİ NAZİRLİYİ ADINDAN
ZİYA MƏMMƏDOV	*ŞAUL MOFAZ*
Nəqliyyat naziri	*Nəqliyyat və yol təhlükəsizliyi naziri*

2007-ci il avqustun 2-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında təbii qaz və neft sahəsində əməkdaşlıq haqqında Memorandum"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il avqustun 2-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında təbii qaz və neft sahəsində əməkdaşlıq haqqında Memorandum" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Yunanıstan Respublikası Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 sentyabr 2007-ci il

№2399

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında təbii qaz və neft sahəsində əməkdaşlıq haqqında Memorandum

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti (bundan sonra ayrılıqda "Tərəf" və birlikdə "Tərəflər" adlandırılacaq),

əməkdaşlığın hər zaman hörmətə və beynəlxalq hüququn prinsip və normalarına əsaslanacağını vurğulayaraq,

təbii qaz və neft sektorlarında əməkdaşlığı artırmaq məqsədilə enerji sektorunda əməkdaşlığı genişləndirmək niyyətində olaraq,

Avropa İttifaqının enerji təchizatı təhlükəsizliyinə öz töhfələrini vermək arzularını ifadə edərək,

Transavropa Enerji Şəbəkələrinin inkişafı üçün Avropa İttifaqının 1229/2003/EC nömrəli qərarını qeyd edərək,

Yunanıstan və İtaliya arasında yeni qaz kəmərləri infrastrukturu (bundan sonra "Poseydon" kəməri adlandırılacaq) üçün Üçüncü Tərəfin Çıxışı Tələblərindən (bundan sonra "TPA" adlandırılacaq) azadolmaların verilməsi barədə Avropa İttifaqının qərarını (CAB D (2007)/629/22.05.07 nömrəli) qeyd edərək,

Yunanıstan Respublikasının Avropa İttifaqına üzvlüyündən irəli gələn öhdəliklərinə hörmət edərək,

1994-cü il 26 iyul tarixində Bakıda imzalanmış Yunanıstan Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında iqtisadi, sənaye və texnoloji əməkdaşlıq haqqında Sazişi qeyd edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Əməkdaşlıq Memorandumunun məqsədi təbii qazın təchiz edilməsi və tranziti, eləcə də neftin axtarışı, hasilatı və istismarı və bu istiqamətdə nou-haunun mübadiləsi sahəsində Tərəflər arasında birgə əməkdaşlığın əsası üçün çərçivənin yaradılmasıdır.

Maddə 2

Enerji sektorunda, təbii qaz və neft sahələrində əməkdaşlıq hər iki Tərəf üçün prioritetdir.

Tərəflər Azərbaycan Respublikası mənşəli təbii qazın yerli bazar üçün kəmərlər vasitəsilə Yunanıstana satılması və tranziti, həmçinin "Poseydon" kəməri vasitəsilə İtaliyaya və digər Avropa ölkələrinə tranziti imkanlarını qiymətləndirərək, şərtlərini araşdıracaqdır.

Maddə 3

Tərəflər qarşılıqlı maraq doğuran və ya yuxarıda qeyd olunan məqsədlərlə bağlı qərar qəbul etməkdə yardım edə biləcək məlumatları mübadilə edəcəklər.

Maddə 4

Tərəflər iqtisadi, sənaye və texnoloji əməkdaşlıq üzrə Azərbaycan Respublikası və Yunanıstan Respublikası arasında Hökumətlərarası Komissiya çərçivəsində 1-ci və 2-ci maddələrdə təsbit olunmuş məqsədlərin reallaşdırılması imkanları ilə məşğul olacaq Birgə Altkomissiya yaradacaqlar və hər iki Tərəfin maraqlarını nəzərə alan hər hansı variantı seçəcəklər. Birgə Altkomissiya diplomatik kanallar vasitəsilə razılaşdırmaqla, Bakı və Afinada iclaslarını keçirəcəkdir. Birgə Altkomissiyanın birinci iclası bu Memorandumun qüvvəyə mindiyi tarixdən iki ay ərzində keçiriləcəkdir.

Maddə 5

Bu Memorandum Tərəflər üçün heç bir satış, alğı-satqı və ya köçürmə öhdəlikləri yaratmır.

Maddə 6

Bu Memorandum zəruri hüquqi prosedurların yerinə yetirildiyi barədə Tərəflərin diplomatik kanallar vasitəsilə bir-birinə göndərdikləri sonuncu yazılı bildirişin tarixində qüvvəyə minir.

Memorandum 5 il müddətində qüvvədə qalacaqdır. Tərəflərdən biri ilkin və ya sonrakı qüvvədə olma müddətinin bitməsinə ən azı altı (altı) ay qalmış onu ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş göndərmədiyi təqdirdə, Memorandum avtomatik olaraq növbəti iki (2) illik müddətlərə uzadılacaqdır.

2007-ci il 2 avqust tarixində hər biri Azərbaycan, yunan və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər autentikdir.

Fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

HEYDƏR BABAYEV
İqtisadi inkişaf naziri

YUNANISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

DİMİTRİS SİOUFAS
İnkişaf naziri

Azərbaycan Respublikasının Ukraynada Fövqəladə və Səlahiyyətli Səfiri T.M. Əliyevin eyni zamanda Azərbaycan Respublikasının Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat - GUAM yanında daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının Ukraynada Fövqəladə və Səlahiyyətli Səfiri Tələt Müseyib oğlu Əliyev eyni zamanda Azərbaycan Respublikasının Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat - GUAM yanında daimi nümayəndəsi təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 sentyabr 2007-ci il

№2401

"Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Litva Respublikasının Sərhəd Mühafizəsi Xidməti arasında əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Dövlət Sərhad Xidməti və Litva Respublikasının Sərhəd Mühafizəsi Xidməti arasında əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi-Sərhəd Qoşunlarının komandanı Elçin İsaağa oğlu Quliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi-Sərhəd Qoşunlarının komandanı Elçin İsaağa oğlu Quliyevə verilməsi barədə Litva Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 sentyabr 2007-ci il

№2405

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin təyin edilməsi və onların fəaliyyətinin təmin olunması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 12 iyun tarixli 419 nömrəli Fərmanına əlavə və dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin təyin edilməsi və onların fəaliyyətinin təmin olunması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 12 iyun tarixli 419 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 6, maddə 496) aşağıdakı əlavə və dəyişiklik edilsin:

1.1. 1-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin nümayəndələrinin təyin edilməsi həmçinin Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə razılaşdırılır. ";

1.2. 2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Daxili işlər Nazirliyinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələri öz funksiyalarını Azərbaycan Respublikasının xarici dövlətlərdəki və beynəlxalq təşkilatlardakı diplomatik nümayəndəliklərinin tərkibində həyata keçirirlər. ".

2. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 sentyabr 2007-ci il

№630

"Rumıniya və Bolqarıstan Respublikasının Avropa İttifaqına qəbul olunması ilə əlaqədar, bir tərəfdən Azərbaycan Respublikası, digər tərəfdən Avropa İttifaqı və onun üzvü olan dövlətlər arasında bağlanmış Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Sazişə Protokol"u Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Rumıniya və Bolqarıstan Respublikasının Avropa İttifaqına qəbul olunması ilə əlaqədar, bir tərəfdən Azərbaycan Respublikası, digər tərəfdən Avropa İttifaqı və onun üzvü olan dövlətlər arasında bağlanmış Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Sazişə Protokol"u Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Avropa İttifaqı yanında daimi nümayəndəsi Emin Yaqub oğlu Eyyubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Avropa İttifaqı yanında daimi nümayəndəsi Emin Yaqub oğlu Eyyubova verilməsi barədə Avropa İttifaqı tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 sentyabr 2007-ci il

№2407

2007-ci il iyulun 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında 1 iyun 2000-ci il tarixli Sazişin qüvvədə olma müddətinin uzadılması haqqında Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il iyulun 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında 1 iyun 2000-ci il tarixli Sazişin qüvvədə olma müddətinin uzadılması haqqında Protokol" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Beynəlxalq Qırmızı Xaç Komitəsini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 sentyabr 2007-ci il

№2408

Azərbaycan Respublikası Hökuməti və Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında 1 iyun 2000-ci il tarixli Sazişin qüvvədə olma müddətinin uzadılması haqqında Protokol

"Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Beynəlxalq Qırmızı Xaç Komitəsi (bundan sonra - BQXK),

BQXK nümayəndələri tərəfindən öz mandatları çərçivəsində səlahiyyətlərin həyata keçirilməsinin davam etdirilməsini arzulayaraq,

Azərbaycan Respublikası Hökuməti və Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında 1 iyun 2000-ci il tarixli Sazişin qüvvəsinin 13 iyun 2007-ci il tarixdə bitməsini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəlmişlər:

1. Azərbaycan Respublikası Hökuməti və Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında 1 iyun 2000-ci il tarixli Saziş bir il müddətinə uzadılır. Əgər bu müddətin başa çatmasından bir ay əvvəl Tərəflərdən biri onun qüvvəsinin ləğv olunması barədə digər Tərəfi yazılı xəbərdar etməzsə, o, növbəti il ərzində öz qüvvəsini saxlayır.

2. Bu Protokol Sazişin tərkib hissəsidir. İki nüsxədə hər biri Azərbaycan, ingilis və rus dillərində imzalanır və bütün mətnlər eyni qüvvəyə malikdir.

3. Bu Protokol onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Azərbaycan Respublikasının bildirişi tarixindən qüvvəyə minir.

Bakı şəhərində 26 iyul 2007-ci il tarixində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BEYNƏLXALQ QIRMIZI XAÇ KOMİTƏSİ ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında 2007-ci il avqustun 7-də Astana şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında 2007-ci il avqustun 7-də Astana şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Qazaxıstan Respublikası Maliyyə Bazarının və Maliyyə Təşkilatlarının Tənzimlənməsi və Onlara Nəzarət Agentliyi arasında qiymətli kağızlar bazarlarında nəzarət məsələləri üzrə Anlaşma Memorandumu;

1.2. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və "Qazaxıstan" Respublika Teleradio Korporasiyası Səhmdar Cəmiyyəti arasında əməkdaşlıq haqqında Saziş.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-ci və 1.2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-ci bəndində göstərilən Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Qazaxıstan Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 sentyabr 2007-ci il

№2409

Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Qazaxıstan Respublikası Maliyyə Bazarının və Maliyyə Təşkilatlarının Tənzimlənməsi və Onlara Nəzarət Agentliyi arasında qiymətli kağızlar bazarlarında nəzarət məsələləri üzrə Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (bundan sonra - Komitə) və Qazaxıstan Respublikası Maliyyə Bazarının və Maliyyə Təşkilatlarının Tənzimlənməsi və Onlara Nəzarət Agentliyi (bundan sonra - Agentlik),

qiymətli kağızlar bazarında nəzarətin aktual məsələləri üzrə səmərəli qarşılıqlı əməkdaşlığın və informasiya mübadiləsinin təşkili, Tərəflərin dövlətlərinin nəzarət fəaliyyətinin gələcək inkişafına təkan verilməsi məqsədilə, bu sahədə beynəlxalq prinsip və

standartları nəzərə almaqla,

qarşılıqlı etimad əsasında əməkdaşlığa hazırlıqlarını ifadə edərək,

transsərhəd qurumlarının şəffaflığının təmin edilməsi vəzifələrinin əhəmiyyətini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Fəsil 1

ÜMUMİ MÜDDƏALAR

Maddə 1

Əsas anlayışlar

1. Bu Memorandumun məqsədləri üçün:

1) sorğu alan nəzarət orqanı - bu Memorandumun müddəalarına uyğun olaraq yardım barədə sorğunu qəbul edən və ya belə yardımı göstərən nəzarət orqanıdır;

2) sorğu göndərən nəzarət orqanı - bu Memorandumun müddəalarına uyğun olaraq yardım etmək üçün sorğu göndərən və ya bu cür yardımı qəbul edən nəzarət orqanıdır;

3) informasiya - nəzarət informasiyası, açıq məsələlər üzrə informasiya və bu Memorandum müvafiq olaraq Tərəflərin əməkdaşlığı çərçivəsində onlar üçün maraq kəsb edən digər məlumatlardır;

4) açıq məsələlər üzrə informasiya - maliyyə təşkilatlarının yaradılması, fəaliyyəti və əsas göstəriciləri, maliyyə bazarının vəziyyəti və onun tənzimlənməsinin hüquqi şərtləri barədə rəsmi məlumatlardır;

5) konfidensial xarakterli informasiya - Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə və ya Tərəflərin qarşılıqlı razılaşmasına uyğun olaraq yayılmasına məhdudiyyət qoyulan məlumatlardır;

6) maliyyə təşkilatı ilə bağlı olan və ya onunla xüsusi və ya digər münasibətlərlə əlaqəli olan şəxslər - maliyyə təşkilatları, onların iştirakçıları, əməkdaşları və maliyyə təşkilatının rəhbər vəzifəli şəxsləri ilə münasibətləri Tərəflərin dövlətlərinin milli qanunvericilikləri ilə xüsusi olaraq tənzimlənərək, müvafiq prosedurlar çərçivəsində nəzarət olunan hüquqi və fiziki şəxslər, o cümlədən maliyyə təşkilatlarının iştirakı olan maliyyə birlikləri (holdinqlər), yaxud

onların iri iştirakçılarıdır (təsisçilər ,və ya səhmdarlar);

7) təsis tədbirləri və sanksiyalar - müvafiq nəzarət orqanı tərəfindən, yaxud onun vəsaiti əsasında Tərəfin dövlətinin digər səlahiyyətli orqanları tərəfindən Tərəfin dövlətinin maliyyə təşkilatları və maliyyə bazarı üzrə milli qanunvericiliyinin müddəalarının pozulmasına görə təsisçi baş maliyyə təşkilatına, transsərhəd quruma və ya orada yüksək vəzifə tutan şəxslərə tətbiq edilən tədbirlərdir;

8) konsolidasiya olunmuş nəzarət - maliyyə təşkilatının və onunla bağlı olan və ya onunla xüsusi və ya digər münasibətlərlə əlaqəli olan şəxslərin məruz qaldığı və ya məruz qala biləcəyi bütün riskləri nəzərə alan, maliyyə təşkilatının xidmətindən istifadə edən istehlakçıların qanuni maraqlarının müdafiəsinə, eləcə də onun mövcud transsərhəd qurumlarının yoxlanılması yolu ilə şəffaflığının artırılmasına və nəzarət orqanları arasında nəzarət informasiyasının mübadiləsinə yönələn, Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinə müvafiq olaraq maliyyə təşkilatları üzərində konsolidasiya əsasında həyata keçirilən nəzarətdir;

9) nəzarət informasiyası - nəzarət orqanı tərəfindən öz funksiyalarını yerinə yetirmə prosesində sorğu ilə, yaxud qarşı Tərəfdən mübadilə vasitəsilə, habelə yoxlamaların aparılması, yaxud bu Memorandumu müvafiq olaraq Tərəflər arasında qarşılıqlı əlaqənin həyata keçirilməsi zamanı alınan, o cümlədən konfidensial informasiyadır. Nəzarət informasiyasına maliyyə təşkilatlarının müştərilərinin əməliyyatları (əqdləri), hesabları, əmanətləri haqqında informasiya, həmçinin Tərəflərin dövlətlərinin milli qanunvericilikləri ilə dövlət sirri hesab olunan başqa məlumatlar, habelə qanunla qorunan digər sirlər aid edilmir;

10) qəbul edən Tərəf - transsərhəd qurumun yaradıldığı (açıldığı) ölkədə yerləşən nəzarət orqanıdır;

11) rəhbər vəzifələr - Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə müvafiq olaraq bu cür hesab olunan vəzifələrdir;

12) təsisçi baş maliyyə təşkilatı - Tərəflərin dövlətinin ərazisində qeydiyyata alınmış və maliyyə xidmətlərinin göstərilməsi üzrə fəaliyyəti həyata keçirən, digər Tərəfin dövlətinin yurisdiksiyasında olan transsərhəd quruma malik hüquqi şəxsdir;

13) maliyyə təşkilatının mənşə dövlətinin Tərəfi - maliyyə təşkilatının transsərhəd qurumunun baş idarəsinin və ya təsisçi baş maliyyə təşkilatının yerləşdiyi ölkədəki nəzarət orqanıdır;

14) transsərhəd qurum - bir Tərəfin dövlətinin milli qanunvericiliyinə görə konsolidasiya olunmuş nəzarət tətbiq edilməli olan, digər Tərəfin dövlətinin yurisdiksiyasında olan maliyyə təşkilatının törəmə maliyyə təşkilatı, filialı və ya nümayəndəliyidir. Hüquqi şəxs olan transsərhəd qurumunun hüquqi statusu onun maliyyə təşkilatı kimi fəaliyyət göstərmək üçün müvafiq lisenziyasının olmasını nəzərdə tutur;

15) üçüncü şəxslər - Tərəflər istisna olmaqla, bütün şəxslər;

16) maliyyə təşkilatı - qiymətli kağızlar bazarında fəaliyyət göstərməsi üzrə lisenziyaya malik olan hüquqi şəxsdir;

17) maliyyə birliyi (holdinq) - müqavilə əsasında, yaxud müvafiq-təşkilati hüquqi formada yaradılmış və tərkibinə, fəaliyyət şərtləri konsolidasiya olunmuş nəzarət məqsədilə Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinə müvafiq olaraq əlavə tənzimlənən bir və ya bir neçə maliyyə təşkilatının daxil olduğu hüquqi şəxslər birliyidir.

2. Bu Memorandumun məqsədləri üçün, bir tərəfdən "maliyyə təşkilatı" anlayışı, digər tərəfdən "transsərhəd qurum" və "təsisçi baş maliyyə təşkilatı" anlayışları, bir sıra hallarda, oxşar anlayışlar kimi istifadə olunur.

Maddə 2

Memorandumun predmeti və məqsədləri

1. Bu Memorandumа uyğun olaraq, Tərəflərin dövlətləri milli qanunvericiliklərə əsasən qiymətli kağızlar bazarının peşəkar iştirakçıları adlandırılan maliyyə təşkilatları və transsərhəd qurumlar barədə nəzarət və digər informasiyanın bir-birinə razılaşdırılmış şərtlərlə təqdim edilməsini və eləcə də müştərək əsasda konsolidasiya olunmuş nəzarətin digər məsələləri üzrə qarşılıqlı yardımı təmin edirlər.

2. Bu Memorandumun məqsədi Tərəflərin konsolidasiya olunmuş nəzarət çərçivəsində transsərhəd qurumları və təsisçi baş maliyyə təşkilatlarında yoxlamaların səmərəliliyinin artırılması da daxil olmaqla, konsolidasiya olunmuş nəzarət fəaliyyətlərini səmərəli həyata keçirmək üçün təşkilati - hüquqi əsasların yaradılmasıdır.

3. Bu Memorandum Azərbaycan Respublikasında və ya Qazaxıstan Respublikasında tətbiq olunan və ya qüvvədə olan nəzarət tələblərini və ya dövlətlərin milli qanunvericiliyini dəyişdirmir və ya əvəz etmir.

4. Bu Memorandum Tərəflərin iştirakçısı olduğu digər beynəlxalq müqavilələrin müəyyən etdiyi hər hansı razılaşmalara təsir etmir.

Maddə 3

Maliyyə təşkilatlarının, onlarla bağlı olan şəxslərin hüquqi vəziyyəti və nəzarət orqanlarının səlahiyyətləri

1. Tərəflərin dövlətlərinin ərazilərində maliyyə təşkilatlarının növləri, hüquqi statusu, yaradılması şərtləri, fəaliyyəti, yenidən təşkili və ləğvi, maliyyə təşkilatının iri iştirakçısı anlayışı, konsolidasiya olunmuş nəzarət məqsədilə törəmə maliyyə təşkilatlarının və maliyyə təşkilatı ilə xüsusi və ya digər münasibətlərdə olan və ya onunla bağlı olan şəxslərin, o cümlədən maliyyə birliklərinin (holdinqlərin) və maliyyə təşkilatlarının iştirak etdiyi digər qrup şəxslərin hüquqi vəziyyəti, eləcə də transsərhəd qurumların yaradılması, fəaliyyətlərinin

lisenziyalaşdırılması və tənzimlənməsi xüsusiyyətləri, maliyyə təşkilatlarının müştəriləri və kreditorlarının hüquqlarının və qanuni maraqlarının müdafiəsi qaydaları Tərəflərin dövlətlərinin milli qanunvericilikləri ilə tənzimlənir.

2. Müvafiq yurisdiksiya daxilində konsolidasiya olunmuş nəzarətin həyata keçirilməsi və digər dövlətlərin nəzarət orqanları ilə beynəlxalq əməkdaşlıqda iştirakı üzrə Tərəflərin səlahiyyətləri Tərəflərin dövlətlərinin milli qanunvericikləri ilə müəyyən edilir.

3. Tərəflərin dövlətlərinin qanunları ilə qorunan sirlərə aid edilmiş məsələləri özündə əks etdirən məlumatları nəzarət orqanları bir-birinə ayrıca sazişlə müəyyən olunmuş qaydada Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinin tələblərini nəzərə almaqla təqdim edirlər.

Maddə 4

Qarşılıqlı yardım və informasiya mübadiləsinin təşkilinin əsas məsələləri

1. Tərəflər bir-birlərinə ayrı-ayrı sorğular üzrə lazımi informasiyanı təqdim etmək və ya Tərəflərin dövlətlərinin milli qanunvericiliyinin tələbləri nəzərə alınmaqla, müntəzəm

olaraq informasiyanın qarşılıqlı mübadiləsini təşkil etmək hüququna malikdirlər.

2. Konfidensial xarakterli nəzarət informasiyasının təqdim edilməsi barədə sorğu və ya təsisçi baş maliyyə təşkilatının fəaliyyəti və ya transsərhəd qurumlarında yoxlamaların aparılması ilə bağlı yardım üçün müraciətlər Tərəflər arasında yazılı formada, nəzarət orqanlarının yüksək rəhbərlərinin imzası ilə həyata keçirilir. Tərəflərin sorğu edilən yardım üzrə təcili tədbirlər görməsi mümkün hesab edildikdə, yaxud Tərəflərin biri tərəfindən müvafiq müraciət nəzarətlə bağlı məsələnin baxılmasının mühümlüyü və təciliyi ilə əlaqədar edildikdə, sorğu, sonradan təxirə salınmadan yazılı şəkildə təsdiq olunmaqla, istənilən formada göndərilə bilər.

3. Bir-birinə mütləq yazılı formada (kağız daşıyıcıda) təqdim olunmalı nəzarət informasiyasının siyahısını Tərəflər əlavə olaraq razılaşdıra bilərlər.

4. Bir Tərəfin sorğusu yerinə yetirilə bilinmədiyi (tam həcmdə və ya qismən) təqdirdə, sorğu alan Tərəfin nəzarət orqanı, öz dövlətinin milli qanunvericiliyinin müddəalarına uyğun olmaqla, mümkün olan yardım tədbirlərinin digər Tərəfə göstərilməsi imkanını nəzərdən keçirəcəkdir.

Maddə 5

İnformasiya mübadiləsi üzrə qarşılıqlı yardımın prioritetləri haqqında

Tərəflərin qarşılıqlı yardım və informasiya mübadiləsi üzrə prioritetlərinə aşağıdakılar daxildir:

1) sorğu alan Tərəfin təqdim etdiyi nəzarət informasiyasının yoxlanılması və ya təsdiq edilməsi;
2) bu Memorandumla nəzərdə tutulmuş nəzarət informasiyasının və təsisçi baş maliyyə təşkilatı və transsərhəd qurumun iri iştirakçıları olan şəxslər, eləcə də maliyyə təşkilatı ilə bağlı olan və ya onunla xüsusi və digər münasibətlərdə olan şəxslər barədə informasiyanın təqdim edilməsi;
3) transsərhəd qurumlarda yoxlamaların aparılması şərtlərinin razılaşdırılması;
4) Tərəflərin dövlətlərinin milli qanunvericiliyində başqa hal nəzərdə tutulmamışdırsa, sorğu alan Tərəfin nümayəndəsinin transsərhəd qurumların yoxlanılmasında iştirak etməsi;
5) açıq məsələlər üzrə informasiya mübadiləsinin təşkili;
6) nəzarət fəaliyyətinin aktual məsələlərinin müzakirə edilməsi və məsləhətləşmələrin aparılması;
7) nəzarət orqanlarının əməkdaşlığı, təcrübə mübadiləsi də daxil olmaqla, digər məsələlər üzrə yardımın göstərilməsi.

Maddə 6

Sorğular və onların icrasından imtinanın əsasları

1. Nəzarət informasiyasının təqdim olunması və ya nəzarət fəaliyyəti ilə bağlı yardımın göstərilməsi barədə hər bir yazılı sorğu və ya digər müraciət, sorğunu alan nəzarət orqanı tərəfindən onun Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinə uyğunluğu və

əməli icra edilməsi (nəzarət informasiyasının açıqlanması və ötürülməsi) imkanları baxımından qiymətləndirilməlidir.

2. Yazılı sorğunun və ya digər müraciətin icrası imkanları (tam həcmdə və ya qismən) barədə qərar qəbul edərkən sorğunu alan nəzarət orqanı aşağıdakıları nəzərə alır:

1) həmin məsələyə baxılmasının sorğunu alan nəzarət orqanının müstəsna səlahiyyətlərinə daxil olub-olmadığını;

2) sorğu və ya yardım göstərilməsi müraciətinin bu Memorandumun müddəalarına uyğunluğunu;

3) daxil olmuş sorğunun və ya yardım göstərilməsi barədə müraciətin icrasının onun funksiya və səlahiyyətlərinin yerinə yetirilməsinə mane olmadığını;

4) Tərəflərin dövlətlərinin milli qanunvericiliklərində nəzərdə tutulan, habelə qanunvericiliklə qorunan sirlərə riayət olunması və konfidensial informasiyanın istifadə edilməsi məsələlərinə aid olan istənilən digər məhdudiyyətlərin mövcudluğunu.

3. Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə müvafiq olaraq nəzarət və digər informasiyanın ötürülməsində hüquqi məhdudiyyətlər (qadağalar) mövcud olduqda, Tərəflər bu barədə bir-birini yazılı şəkildə xəbərdar edirlər.

4. Əgər Tərəflərdən biri Tərəflərin dövlətlərinin milli qanunvericilikləri ilə birbaşa tənzimlənməyən hər hansı bir məsələ ilə bağlı sorğu edilən informasiyanın ötürülməsinin bu dövlətin suverenliyinə və təhlükəsizliyinə xələl gətirəcəyini hesab edərsə, həmin Tərəf baxılan sorğu üzrə sənədlərin və ya məlumatların (tam və ya qismən) digər Tərəfə təqdim edilməsindən imtina etmək hüququna malikdir.

Fəsil 2

NƏZARƏT İNFORMASİYASININ TƏQDİM EDİLMƏSİ VƏ MÜBADİLƏSİ

Maddə 7

Lisenziyalaşdırma və icazə prosedurları ilə bağlı olan nəzarət informasiyası haqqında

1. Lisenziyalaşdırma və icazə (razılıq) verilməsi prosesi ilə əlaqədar olaraq maliyyə təşkilatının mənşə dövlətinin Tərəfi digər Tərəfə təsisçi baş maliyyə təşkilatı barədə aşağıdakı nəzarət informasiyasını təqdim edir:

1) dövlət qeydiyyatı tarixi barədə;

2) qiymətli kağızlar bazarında lisenziyaya müvafiq olaraq həyata keçirilən fəaliyyəti barədə;

3) onun iri iştirakçıları, təsisçi baş maliyyə təşkilatı və onunla xüsusi münasibətdə olan və ya təsisçi olan baş maliyyə təşkilatı ilə bağlı olan, o cümlədən bir Tərəfin dövlətinin ərazisində qeydiyyatda olan və digər Tərəfin dövlətinin ərazisində fəaliyyət göstərən və ya qeydiyyata alınan maliyyə təşkilatlarının iri iştirakçıları olan digər şəxslərin iştirakı ilə maliyyə birlikləri (holdinqlər) barədə;

4) risklərin, o cümlədən yaradılan transsərhəd qurumunun risklərinin idarə edilməsi, daxili audit və nəzarət sistemi barədə;

5) təsisçi baş maliyyə təşkilatının fəaliyyətinin maliyyə təşkilatının mənşə dövlətinin

Tərəfinin milli qanunvericiliyinə, o cümlədən konsolidasiya edilmiş nəzarətin tələblərinə və qüvvədə olan normalara uyğunluğu barədə;

6) təsisçi baş maliyyə təşkilatının və onun transsərhəd qurumlarının maliyyə vəziyyətini xarakterizə edən göstəricilər barədə;

7) başa çatmış təqvim ili üzrə və cari ilin son hesabat tarixinə mövcud sanksiya və təsir tədbirləri barədə;

8) onun, fəaliyyətlərinin könüllü və ya məcburi qaydada xitamı ilə əlaqədar, bərələrində yenidən təşkil və ya ləğv olma prosedurları keçirilən transsərhəd qurumları və törəmə maliyyə təşkilatları barədə.

2. Qiymətli kağızlar bazarında fəaliyyətin həyata keçirilməsi üçün lisenziyanın verilməsi zamanı Tərəflər öz dövlətlərinin milli qanunvericiliklərinin tələblərini rəhbər tuturlar.

3. Qiymətli kağızlar bazarında fəaliyyətin həyata keçirilməsi üçün lisenziyanın verilməsi barədə qərarı qəbul edən Tərəf digər Tərəfə bu barədə yazılı məlumat verir.

4. Tərəflər digər Tərəfin dövlətlərinin ərazisində yerləşən transsərhəd quruma təyin edilmiş şəxslər, o cümlədən müvəqqəti rəhbər vəzifədə olan şəxslər barədə nəzarət informasiyasının qarşılıqlı mübadiləsini həyata keçirirlər.

Maddə 8

Cari fəaliyyət üzrə nəzarət informasiyası haqqında

1. Təsisçi baş maliyyə təşkilatının və transsərhəd qurumların cari fəaliyyəti üzrə konsolidasiya edilmiş nəzarət məsələləri üzrə Tərəflər:

1) təsisçi baş maliyyə təşkilatının və transsərhəd qurumların fəaliyyətləri barədə müvafiq nəzarət informasiyasını bir-birilərinə təqdim edirlər;

2) təsisçi baş maliyyə təşkilatının, transsərhəd qurumunun iri iştirakçıları və ya maliyyə təşkilatı ilə xüsusi münasibətlərdə olan və ya maliyyə təşkilatı ilə əlaqəli olan digər şəxslər barədə məlumatları vaxtında göndərirlər;

3) təsisçi baş maliyyə təşkilatına, transsərhəd qurumlara və ya onların rəhbər vəzifəli şəxslərinə qarşı maliyyə və müntəzəm hesabatların verilməsi zamanı prudensial normativlərin mütəmadi pozulmasına görə maliyyə təşkilatının lisenziyasının dayandırılmasına, yaxud inzibati tənbehlərin tətbiqinə səbəb olmuş təsir tədbirlərinin görülməsi və sanksiyaların tətbiqi barədə bir-birini məlumatlandırırlar;

4) Tərəflərin dövlətlərində olan konsolidasiya edilmiş nəzarət sistemi və standartları, o cümlədən transsərhəd qurumların fəaliyyətləri barədə informasiya mübadiləsini aparırlar.

2. Qəbul edən Tərəf transsərhəd qurum tərəfindən maliyyə təşkilatının mənşə dövlətinin Tərəfinin tətbiq etdiyi formalar üzrə konsolidasiya hesabatının hazırlanması üçün lazım olan digər informasiyanın, maliyyə təşkilatının mənşə dövlətinin Tərəfinin sorğusuna əsasən və ya Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinə müvafiq olaraq digər materialların və ya hesabatların təsisçi baş maliyyə təşkilatına təqdim edilməsinə mane olmur.

3. Təsisçi baş maliyyə təşkilatının, transsərhəd qurumun lisenziyasının dayandırıldığı və ya ləğv edildiyi halda Tərəflər bir-birini bu barədə və bu tədbirin görülməsinin səbəbləri barədə xəbərdar edirlər.

Maddə 9

Digər məsələlər üzrə nəzarət informasiyası barədə

1. Tərəflərin razılığına əsasən yaradılmış (açılmış) transsərhəd qurumların fəaliyyətinin başlanması barədə Tərəflər bir-birinə məlumat verirlər. Xüsusi məsələlər üzrə konsolidasiya olunmuş nəzarəti həyata keçirmək üçün Tərəflər təsisçi baş maliyyə təşkilatı barədə aşağıdakı məsələlərin dəqiqləşdirilməsini nəzərdə tutan nəzarət informasiyasının mübadiləsini aparırlar:

1) təsisçi baş maliyyə təşkilatının və müvafiq maliyyə birliyinin (holdinqin) tərkibinə daxil olan təşkilatların iştirakçısı olan şəxslər qruplarının strukturu;

2) təsisçi baş maliyyə təşkilatının iştirakı ilə maliyyə birliyinin (holdinqin) maliyyə vəziyyəti, xüsusən də, kapitalın adekvatlığı, qrupdaxili əməliyyatların xarakteri, risk və gəlirliyin təmərküzləşməsi səviyyəsi;

3) müvafiq maliyyə birliyinə (holdinqə) daxil olan təsisçi baş maliyyə təşkilatlarından nəzarət informasiyasının toplanması proseduru və onlar tərəfindən bu informasiyanın təsdiq edilməsi şərtləri;

4) təsisçi baş maliyyə təşkilatının iştirakçısı ilə maliyyə birliyinin (holdinqin) təsisçi olan baş maliyyə təşkilatının iri iştirakçılarına və müvafiq maliyyə birliyinin (holdinqin) iştirakçılarına sanksiya və təsir tədbirlərinin tətbiq edilməsi faktlarının mövcudluğu;

5) təsisçi baş maliyyə təşkilatının iştirakı ilə maliyyə birliyinin (holdinqin) daxili tənzimlənmə və risklərin idarə edilməsi sisteminin Tərəflərin dövlətlərinin milli qanunvericiliyinin tələblərinə uyğunluğu məsələsi.

Bu məlumatlar habelə hüquqi şəxs olan transsərhəd qurumlar üzrə də formalaşır və Tərəflər arasında ötürülür.

3. Qəbul edən Tərəf və maliyyə təşkilatının mənşə dövlətinin Tərəfi, zəruri hallarda, maliyyə təşkilatlarının yaradılması, lisenziyalaşdırılması və fəaliyyəti, maliyyə təşkilatının səsli səhmlərinin (paylarının) əldə edilməsi, Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinin tələblərinin həyata keçirilməsinin digər məsələləri ilə bağlı nəzarət informasiyasının mübadiləsini həyata keçirirlər.

4. Tərəflərdən biri digər Tərəfin nəzarət fəaliyyətinə faydalı ola biləcək nəzarət və ya digər informasiyaya malik olduğu halda, rəsmi sorğu olmadan, adı çəkilən nəzarət orqanına müvafiq məsələlər üzrə öz təşəbbüsü ilə yardım göstərə bilər.

Bu zaman həmin qaydada alınmış informasiya Tərəflərin bu Memorandumа müvafiq olaraq sorğuya əsasən əldə etdikləri məlumatla bərabər istifadə edilməli və qorunmalıdır.

Fəsil 3

ƏMƏKDAŞLIĞIN VƏ İNFORMASİYA MÜBADİLƏSİNİN DİGƏR MƏSƏLƏLƏRİ

Maddə 10

Yoxlamaların aparılması

1. Maliyyə təşkilatının mənşə dövlətinin Tərəfinin qəbul edən Tərəfdə həyata keçirdiyi bütün yoxlamalar qəbul edən Tərəfin nümayəndələrinin iştirakı ilə aparılır.

2. Maliyyə təşkilatının mənşə dövlətinin Tərəfi qəbul edən Tərəfə transsərhəd qurumlarda yoxlamaların aparılması barədə, yaxud sərbəst beynəlxalq auditor təşkilatının təyin etdiyi müəyyən şəraitlərdə onun adından yoxlamanın aparılmasının mümkünlüyü barədə yazılı sorğu göndərir.

Qəbul edən Tərəf, maliyyə təşkilatının mənşə dövlətinin Tərəfini transsərhəd qurumlarda yoxlamaların aparılması barədə öz planları və müddətləri barədə məlumatlandırmaq hüququna malikdir.

3. Transsərhəd qurumlarda yoxlamaların aparılması barədə sorğuya baxarkən, qəbul edən Tərəf digər Tərəfə lazımi nəzarət informasiyasını təqdim etməli və yoxlamanın təşkil edilməsinə mümkün olan yardımı göstərməlidir.

4. Tərəflər, qarşılıqlı razılaşma ilə, yoxlamanın məqsədini, miqyasını, maliyyə təşkilatının mənşə dövlətinin Tərəfinin nümayəndələrinin ölkədə nəzərdə tutulan qalma müddətini, eləcə də yoxlayanlar haqqında məlumatları müəyyən edirlər.

5. Maliyyə təşkilatının mənşə dövlətinin Tərəfinin apardığı yoxlamanın əsas nəticələri qəbul edən Tərəf üçün açıq olmalıdır.

Zəruri halda, yoxlamaların aparılmasından sonra, Tərəflər transsərhəd qurumun fəaliyyətinin baxılan məsələlər üzrə qiymətləndirilməsi barədə yazılı sənədlərin mübadiləsini apara bilərlər.

6. Qəbul edən Tərəfin apardığı yoxlamaların nəticələri barədə məlumatlar, onun dövlətinin milli qanunvericiliyi çərçivəsində, maliyyə təşkilatının mənşə dövlətinin Tərəfinə təqdim olunur.

7. Yoxlamanın aparılması üçün nəzarət informasiyasının təqdim edilməsindən, yoxlamanın aparılmasından və ya yoxlamanın aparılması ilə bağlı digər məsələlər üzrə qərarların qəbul edilməsindən Tərəflərdən birinin imtina etdiyi halda, Tərəflər qəbul edilmiş qərarın səbəbləri barədə bir-birini yazılı xəbərdar etməlidirlər.

Maddə 11

Maliyyə təşkilatlarının fəaliyyətinin xitamı və müştərilər barədə sorğuların icrası məsələləri

1. Transsərhəd qurumların və ya transsərhəd quruma malik olan təsisçi baş maliyyə təşkilatının ləğvi və ya yenidən təşkil edilməsi üçün görülən tədbirlər üzrə Tərəflər, müvafiq maliyyə təşkilatlarının fəaliyyətlərinin ləğvi üzrə milli qanunvericiliklər ilə müəyyən edilən prosedurlar nəzərə alınmaqla, qarşılıqlı yardımı təmin edirlər.

2. Tərəflər arasında sorğu edilmiş informasiya maliyyə təşkilatlarının müştərilərinin əmanətləri və hesabları, əməliyyatları (əqdləri) barədə məlumatları nəzərdə tutmur.

Maddə 12

Məsləhətləşmələr və müzakirələr

Qəbul edən Tərəf və maliyyə təşkilatının mənşə dövlətinin Tərəfi ikitərəfli əməkdaşlığın inkişafı və nəzarət təcrübəsinin təkmilləşdirilməsi məqsədilə məsləhətləşmələr və konsolidasiya edilmiş nəzarətin qarşılıqlı maraq kəsb edən zəruri məsələlərinin müzakirələrini aparırlar.

Maddə 13

Açıq məsələlər üzrə informasiya mübadiləsi

1. Bu Memorandumun qüvvəyə minməsindən sonra bir ay müddətində Tərəflər bir-birinə öz dövlətlərinin konsolidasiya olunmuş nəzarət edilməli olan maliyyə təşkilatlarının, hər yarım ilin nəticələrinə görə sonralar dəqiqləşdirilməli olan siyahılarını təqdim edirlər.

2. Tərəflər qarşılıqlı informasiya mübadiləsinin müvafiq qaydalarını müəyyən etməmişlərsə, açıq məsələlər üzrə digər informasiyanın təqdim edilməsi yazılı, yaxud şifahi sorğulara əsasən həyata keçirilir.

3. Agentlik Qazaxıstan Respublikası ərazisində qeydiyyata alınmış təsisçi baş maliyyə təşkilatları və onların transsərhəd qurumlan, Qazaxıstan Respublikasında konsolidasiya edilmiş nəzarət məsələləri üzrə normativ hüquqi aktlar barədə əlavə məlumat adıçəkilən nəzarət orqanının "Karjı xabarşısı - Finansoviy vestnik" rəsmi mətbu orqanında dərc edilir və onun İnternet şəbəkəsindəki www.afn.kz saytında yerləşdirilir.

4. Komitə, Azərbaycan Respublikasının ərazisində qeydiyyata alınmış təsisçi baş maliyyə təşkilatları və onların transsərhəd qurumları, habelə konsolidasiya edilmiş nəzarət məsələləri üzrə normativ hüquqi aktlar barədə əlavə məlumatlar adı çəkilən orqanın rəsmi mətbu orqanında dərc edilir və onun internet şəbəkəsindəki www.scs.gov.az saytında yerləşdirilir.

Maddə 14

Sorğuların icra müddətləri

1. Nəzarət informasiyasının təqdim edilməsi barədə sorğu və transsərhəd qurumlarda yoxlamaların aparılmasına yardım barədə müraciətlər, Tərəflərin dövlətlərinin milli qanunvericilikləri ilə başqa qayda müəyyən edilməmişdirsə, onların alındığı gündən 20 iş günü müddətindən gec olmayaraq icra edilir. Bu Memorandumla müəyyən edilmiş icra müddəti Tərəflərin razılığı ilə uzadıla bilər.

2. Tərəflərin digər sorğu və müraciətləri üzrə icra müddəti, baxılan məsələlərin mürəkkəbliyi, tərkibi və onlar üzrə aparılacaq işin həcmi nəzərə alınmaqla müəyyən edilir.

Maddə 15

Konfidensiallıq

1. Bu Memorandum çərçivəsində alınmış hər bir nəzarət informasiyası, onu təqdim

edən nəzarət orqanının yazılı razılığı olmadan, sorğu və təqdim edilmiş məqsəddən başqa digər məqsədlər üçün istifadə edilə bilməz.

2. Bu Memorandumа müvafiq olaraq təqdim olunan hər bir konfidensial informasiya yalnız qanuni əsaslarla və nəzarət məqsədləri üçün istifadə edilməlidir.

3. Ötürülən yazılı və digər konfidensial sənədlərin mülkiyyətçisi, həmin sənədlərə üçüncü şəxslərin buraxılış şərtlərini əlavə olaraq müəyyən etmək səlahiyyəti olan sorğu alan nəzarət orqanıdır.

4. Digər Tərəfdən alınmış konfidensial (nəzarət) informasiyanın verilməsi və ya təqdim edilməsi barədə üçüncü şəxsin sorğusunu alan Tərəf, bu Memorandumun icrasının təmin edilməsi vəzifəsindən çıxış edərək, konfidensial (nəzarət) informasiyanı təşkil edən məlumatların açıqlanmasına qədər bu məsələ barədə digər Tərəfi xəbərdar etməli və belə sorğunun icrasının mümkünlüyü barədə rəyi soruşmalıdır.

5. Nəzarət orqanının konfidensial (nəzarət) informasiyanın dərhal açıqlanması üzrə vəzifəsi Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinin müddəalarından birbaşa meydana çıxmırsa, bu Memorandumа müvafiq olaraq əldə edilən konfidensial (nəzarət) informasiyanın üçüncü tərəfə ötürülməsinə və ya rəsmi dərc etdirilməsinə, hər bir konkret halda konfidensial (nəzarət) informasiyanı təqdim edən digər Tərəfin yazılı razılığı əsasında və yaxud onun bu məsələ üzrə mövqeyini bildirən digər sənədin mövcud olduğu halda yol verilir.

6. Tərəflərin hər biri bu Memorandumа müvafiq olaraq, digər Tərəfin, açıq məsələlər üzrə informasiya istisna olmaqla, aldığı bütün informasiyanın konfidensiallığını Tərəflərin dövlətlərinin milli qanunvericiliyi ilə müəyyən edilmiş dərəcədə qoruyub saxlamalıdır və bu cür informasiyanı Tərəflərin dövlətlərinin milli qanunvericiliyi ilə müəyyən edilmiş şərt və əsaslara və bu maddənin 1-5-ci bəndlərində nəzərdə tutulan qarşılıqlı anlaşmalara riayət etmədən açıqlaya bilməz.

7. Bu Memorandumа müvafiq olaraq Tərəflərin yazılı konfidensial sənədləri bir-birinə təqdim etdiyi zaman, ötürən Tərəf onun hər səhifəsini aşağıdakı məzmunlu mətnlə qeyd etməlidir: " Konfidensialdır - Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Qazaxıstan Respublikası Maliyyə Bazarının və Maliyyə Təşkilatlarının Tənzimlənməsi və Onlara Nəzarət Agentliyi arasında qiymətli kağızlar bazarlarında nəzarət məsələləri üzrə qarşılıqlı Anlaşma Memorandumuna müvafiq olaraq təqdim olunmuşdur".

8. Bir Tərəfin ötürdüyü konfidensial (nəzarət) informasiyanın gözlənilməz hadisələr nəticəsində yayılması ehtimalı yarandıqda, qarşı Tərəf dərhal informasiyanı ötürmüş və ötürən Tərəfi bu barədə xəbərdar edir, habelə informasiyanın yayılması nəticəsində baş verə bilən və ya baş vermiş nəticələr haqqında və bu hadisələrin qarşısını almaq üçün görülmüş tədbirlər haqqında məlumatlandırır.

9. Bu Memorandumа əsasən Tərəflər arasında konfidensial (nəzarət) informasiyanın mübadiləsi, onlar tərəfindən bu maddədə sadalanan razılaşmalara sadiqlikdən və bu qayda ilə əldə edilən konfidensial (nəzarət) informasiyanın məhdud istifadə olunmasına təminatdan çıxış edərək həyata keçirilir.

Maddə 16

İnformasiyanın saxlanması və qorunması üzrə əlavə şərtlər

1. Tərəflər, informasiya və sənədlərin bir-birinə, o cümlədən telekommunikasiya vasitələrilə ötürülməsi, həmçinin istifadəsi və saxlanması zamanı, konfidensiallığını qorunması üzrə kifayət qədər hüquqi və təşkilati - texniki tədbirlər görürlər.

Bu zaman sorğu göndərən nəzarət orqanı tərəfindən təmin edilən informasiyanın konfidensiallıq səviyyəsi sorğu alan nəzarət orqanı tərəfindən təmin edilən konfidensiallıq səviyyəsindən aşağı olmamalıdır.

2. Nəzarət orqanlarının əməkdaşları bu Memoranduma müvafiq olaraq əldə edilmiş konfidensial (nəzarət) informasiyanın qorunub saxlanmasını təmin etməyə borcludurlar.

3. Bu Memorandum xitam edildiyi halda, bu Memoranduma müvafiq olaraq əldə edilmiş bütün nəzarət və konfidensial informasiya konfidensial hesab olunmaqda davam edir.

Fəsil 4

YEKUN MÜDDƏALAR

Maddə 17

Əlavə və dəyişikliklər

Tərəflərin qarşılıqlı razılığı ilə bu Memoranduma onun ayrılmaz hissəsi olan və bu Memorandumun 20-ci maddəsinə uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 18

Xərclər

Tərəflər arasında başqa qayda müəyyən edilməyibsə, hər bir Tərəf bu Memorandumun həyata keçirilməsi zamanı yarana bilən xərcləri özü ödəyir.

Maddə 19

Mübahisələrin həlli

Bu Memorandumun müddəalarının təfsiri və/və ya tətbiqi ilə bağlı Tərəflər arasında mübahisələr, mümkün qədər, danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilməlidir.

Maddə 20

Qüvvəyə minmə, dərc edilmə və xitam vermə

1. Bu Memorandum, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Azərbaycan Tərəfindən yazılı bildirişin diplomatik kanallarla Qazaxıstan Tərəfinin aldığı tarixdən qüvvəyə minir.

2. Bu Memorandum qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərin birinin onun qüvvəsinə xitam verilməsi niyyəti haqqında göndərdiyi yazılı bildirişin digər Tərəfdən alındığı tarixdən altı ay keçənə qədər qüvvədə qalır.

3. Tərəflər bu Memorandumun qüvvəyə minməsindən sonra onun rəsmi mətninin İnternet şəbəkəsindəki saytlarında yerləşdirilməsinə etiraz etmirlər.

Bu Memorandum Astana şəhərində 7 avqust 2007-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, qazax və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Memorandumun müddəalarının təfsirində və tətbiqində fikir ayrılığı yarandıqda, Tərəflər rus dilində olan mətnə istinad edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA QİYMƏTLİ KAĞIZLAR ÜZRƏ DÖVLƏT KOMİTƏSİ ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN	QAZAXISTAN RESPUBLİKASI MALİYYƏ BAZARININ VƏ MALİYYƏ TƏŞKİLATLARININ TƏNZİMLƏNMƏSİ VƏ ONLARA NƏZARƏT AGENTLİYİ ADINDAN
GÜNDÜZ MƏMMƏDOV *Komitənin sədri*	*QANİ UZBEKOV* *Agentliyin sədr müavini*

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və "Qazaxıstan" Respublika Teleradio Korporasiyası Səhmdar Cəmiyyəti arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və "Qazaxıstan" Respublika Teleradio Korporasiyası Səhmdar Cəmiyyəti (bundan sonra - RTK SC),

Azərbaycan və Qazaxıstan ərazilərində televiziya və radio proqramlarının yayımlanması üçün əlverişli şərait yaradılmasına dair qarşılıqlı marağı rəhbər tutaraq,

Azərbaycan və Qazaxıstan xalqları arasında tarixən yaranan sosial-mədəni və elmi əlaqələrin inkişaf etdirilməsində teleradio yayımının ümumsiyasi əhəmiyyətinə əsaslanaraq,

Tərəflər arasında dostluq və işgüzar əlaqələrin möhkəmlənməsinə böyük əhəmiyyət verərək,

teleradio yayım sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz dövlətlərinin, xalqlarının iqtisadi, mədəni və sosial inkişafını, qazandıqları nailiyyətləri əks etdirən sənədli və xronikal proqramların, habelə musiqi, elmi-populyar verilişlərin mübadiləsini həyata keçirəcək, o cümlədən öz ölkələrinin milli bayramlarını və əlamətdar hadisələrini işıqlandıracaqlar.

Tərəflərin heç biri əldə olunan materialları üçüncü tərəfə vermək və ya satmaq hüququna malik deyildir. Tərəflər bu Sazişə əsasən aldıqları proqramlardan, yaxud informasiya və arxiv materiallarından yalnız özləri istifadə edə bilərlər.

Materialı alan Tərəf proqramda dəyişiklik və ya ixtisar edərsə, bu halda proqramın mahiyyətinə, məzmununa xələl gəlməməli və təhrif olunmamalıdır.

Teleradioməhsul əvəzi ödənilmədən verilə bilər və yaxud haqqı hər bir konkret halda razılaşmaya uyğun ödənilə bilər. Proqramın və materialların göndərilməsi haqqını onları alan Tərəf ödəyir.

Maddə 2

Saziş çərçivəsində göndərilən proqramların müəlliflik hüququnun qorunmasını müəlliflik hüququ sahəsindəki milli və beynəlxalq qanunvericilik tələblərini nəzərə almaqla göndərən Tərəf təmin edir. Əgər proqramı alan müəlliflik mülkiyyəti hüququna görə müəyyən vergi ödəməyə borcludursa, proqramı göndərən bu barədə alan Tərəfi əvvəlcədən xəbərdar edir və yalnız müəlliflik hüquqları ilə əlaqədar bütün vergilərin ödəniləcəyinə razılıq aldıqdan sonra proqramı göndərir.

Maddə 3

Tərəflər, qarşılıqlı razılaşmaya əsasən, öz işçilərini digər Tərəfin struktur bölmələrinə ezamiyyətə göndərəcək və belə səfərlərin təşkilində bir-birinə kömək göstərəcəklər.

Göndərən Tərəf nümayəndə heyətinin tərkibi və işçilərin tutduğu vəzifə barədə qəbul edən Tərəfi vaxtında xəbərdar etməlidir ki, digər Tərəf görüşün təşkili üçün lazımi tədbirləri görə bilsin.

Qarşılayan Tərəf xidməti ezamiyyətdə olan işçilərə aldıqları jurnalist tapşırıqlarının və çəkilişlərin yerinə yetirilməsində lazımi kömək (informasiya verilməsi, təşkilati və texniki xidmət) göstərir.

Əlavə razılaşma olmadığı halda nəqliyyat və yaşayış xərcləri də daxil olmaqla, səfərlə bağlı bütün xərcləri əməkdaşları göndərən Tərəf ödəyir.

Xidmətlərin dəyəri və ödəniş müddəti hər iki Tərəfin razılaşdırdığı standartlara uyğun olaraq əvvəlcədən müəyyənləşdirilir.

Maddə 4

Tərəflər müxtəlif mövzulu audio-video məhsulların birgə istehsalı və mübadiləsi, müxtəlif beynəlxalq tədbirlərin birgə işıqlandırılması və onları maraqlandıran digər sahələrdə əməkdaşlığı inkişaf etdirəcəklər.

Tərəflər müştərək proqramların hazırlanmasında hər bir konkret proqramın mövzusunu, məzmununu, davamiyyət müddətini, iştirakçıların sayını, proqramın dəyərini və s. öncədən razılaşdırırlar.

Tərəflər həmçinin öz mövqelərini əlaqələndirəcək və bir Tərəfin beynəlxalq təşkilatlar çərçivəsində (Avropa Yayım Birliyi və s.) irəli sürdüyü təşəbbüslərin həyata keçirilməsi məqsədilə birgə fəaliyyətlərini müəyyən olunmuş qaydada razılaşdıracaqlar.

Maddə 5

Tərəflər mövcud Sazişə uyğun olaraq qarşılıqlı surətdə mütəxəssisləri tədrisə və təkmilləşməyə cəlb edə bilərlər. Tədrisin təşkilinin konkret məsələləri ayrı-ayrı protokollarla nizamlanır.

Maddə 6

Tərəflər televiziya və radionun inkişafı üçün əhəmiyyətli olan informasiyaların, o cümlədən sorğuların və tədqiqatların nəticələrinin, idarəetmə, hüquqi baza, proqram cədvəllərinin tərtibi, texniki problemlər və s. haqqında informasiyaların ötürülməsini və ya mübadiləsini öhdəyə götürürlər.

Maddə 7

Bu Saziş çərçivəsində əməkdaşlığı bilavasitə Tərəflər və yaxud onların müvəkkilləri - konkret tədbirləri, müddətləri, maliyyə və digər şərtləri nəzərə alan ayrı-ayrı fəaliyyət istiqamətləri üzrə əməkdaşlıq haqda birgə protokollar imzalaya bilən struktur bölmələri həyata keçirirlər.

Maddə 8

Tərəflər bu Saziş əsasında əməkdaşlığın həyata keçirilməsində rus dilindən istifadə edirlər.

Maddə 9

Bu Sazişin müddəalarının təfsiri və tətbiqi ilə əlaqədar fikir ayrılığı məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

Maddə 10

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilən və Sazişin 11-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 11

Bu Saziş imzalandığı gündən qüvvəyə minir və beş il müddətində etibarlıdır. Əgər Tərəflərdən biri həmin müddətin bitməsinə altı ay qalmış Sazişin qüvvəsini dayandırmaq niyyətini digər Tərəfə yazılı formada diplomatik kanallar vasitəsilə bildirməzsə, Saziş avtomatik olaraq daha beş il müddətində qüvvədə qalır.

Bu Saziş Astana şəhərində 7 avqust 2007-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, qazax və rus dillərində imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə rus dilindəki mətndən istifadə ediləcəkdir.

"AZƏRBAYCAN TELEVİZİYA VƏ RADİO VERİŞLƏRİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ ADINDAN

ARİF ALIŞANOV
Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin sədri

"QAZAXISTAN TELEVİZİYA VƏ RADİO KORPORASİYASI" SƏHMDAR CƏMİYYƏTİ ADINDAN

DAUREN ABDUXAMİTOV
Korporasiya sədrinin müavini

Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişikliklər edilməsi və "Avropa İttifaqı ilə tərəfdaşlıq və əməkdaşlıq üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 23 noyabr tarixli 272 nömrəli Sərəncamına dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 10 iyun tarixli 941 nömrəli Sərəncamının qüvvədən düşmüş hesab edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

I. Azərbaycan Respublikası Prezidentinin fərmanlarında və sərəncamlarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Azərbaycan Respublikasında Hərbi Tibbi Təminat üzrə Əlaqələndirmə Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 20 avqust tarixli 147 nömrəli Fərmanının (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 14, maddə 714; 1994-cü il, № 16, maddə 218) 2-ci bəndində "İnsanov Əli Binnət oğlu - Azərbaycan Respublikasının səhiyyə naziri" sözləri "Şirəliyev Oqtay Kazım oğlu - Azərbaycan Respublikasının səhiyyə naziri" sözləri ilə əvəz edilsin;

1.2. "Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 17 iyun tarixli 139 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 6, maddə 346; 2001-ci il, № 7, maddə 459; 2002-ci il, № 5, maddə 259; 2003-cü il,№ 10, maddə 546; 2004-cü il, № 7, maddə 533; 2006-cı il, № 7, maddə 588, № 9, maddə 743) 1-ci bəndində " Əli İnsanov - Azərbaycan Respublikasının səhiyyə naziri" sözləri "Oqtay Şirəliyev - Azərbaycan Respublikasının səhiyyə naziri" sözləri ilə əvəz edilsin;

1.3. "Azərbaycan Milli Ensiklopediyası redaksiya heyətinin tərkibinin və Əsasnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 2 aprel tarixli 46 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 4, maddə 226, № 5, maddə 332) 1-ci bəndindən "İnsanov Əli Binnət oğlu - AMEA-nın həqiqi üzvü" sözləri çıxarılsın;

1.4. "Azərbaycan Respublikası tərəfindən 1995-ci il yanvarın 10-da təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının iqlim dəyişmələri üzrə çərçivə konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 30 aprel tarixli 560 nömrəli Sərəncamının 1-ci bəndində "Əli İnsanov - Azərbaycan Respublikasının səhiyyə naziri" sözləri "Oqtay Şirəliyev - Azərbaycan Respublikasının səhiyyə naziri" sözləri ilə əvəz edilsin;

1.5. "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 767 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik

Toplusu, 1998-ci il, № 3, maddə 189) 1-ci bəndində "Əli İnsanov - Azərbaycan Respublikasının səhiyyə naziri" sözləri "Oqtay Şirəliyev - Azərbaycan Respublikasının səhiyyə naziri" sözləri ilə əvəz edilsin;

1.6. "Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 1 fevral tarixli 62 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 2, maddə 97) 1-ci bəndində "Əli İnsanov - Azərbaycan Respublikasının səhiyyə naziri" sözləri "Oqtay Şirəliyev - Azərbaycan Respublikasının səhiyyə naziri" sözləri ilə əvəz edilsin;

1.7. "Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 28 may tarixli 160 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 5, maddə 321; 2006-cı il, № 9, maddə 743) 1-ci bəndində "Əli İnsanov - Azərbaycan Respublikasının səhiyyə naziri" sözləri "Oqtay Şirəliyev - Azərbaycan Respublikasının səhiyyə naziri" sözləri ilə əvəz edilsin;

1.8. "Qəbələ radiolokasiya stansiyasının fəaliyyəti ilə əlaqədar əhalinin sağlamlığının və ətraf mühitin monitorinqinin keçirilməsi üzrə Azərbaycan Respublikası və Rusiya Federasiyası birgə komissiyasının Azərbaycan hissəsinin tərkibi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 iyun tarixli 1254 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il,№ 6, maddə 317) 1-ci bəndində "Əli İnsanov - Azərbaycan Respublikasının səhiyyə naziri" sözləri "Oqtay Şirəliyev - Azərbaycan Respublikasının səhiyyə naziri" sözləri ilə əvəz edilsin;

1.9. "Azərbaycan torpaqlarının Ermənistan Silahlı Qüvvələri tərəfindən işğalı nəticəsində didərgin düşmüş, Bərdə və Ağcabədi rayonları ərazisində çadır düşərgələrində, eləcə də Bərdə rayonu ərazisində dəmir yolu üzərindəki yük vaqonlarında müvəqqəti yerləşdirilmiş Ağdam və digər rayonlardan olan məcburi köçkünlərin sosial, mənzil-məişət vəziyyətinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 4 fevral tarixli 80 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 2, maddə 81) 3-cü bəndindən "Əli İnsanov - Azərbaycan Respublikasının səhiyyə naziri" sözləri və "Fərhad Əliyev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri çıxarılsın;

1.10. "2006-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın hazırlanması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 iyun tarixli 853 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 6, maddə 512, № 10, maddə 968; 2006-cı il, № 7, maddə 588, № 9, maddə 743) 1-ci bəndində "Əli İnsanov - Azərbaycan Respublikasının səhiyyə naziri" sözləri "Oqtay Şirəliyev - Azərbaycan Respublikasının səhiyyə naziri" sözləri ilə əvəz edilsin.

2. "Avropa İttifaqı ilə tərəfdaşlıq və əməkdaşlıq üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 23 noyabr tarixli, 272 nömrəli Sərəncamına dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 10 iyun tarixli 941 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 6, maddə 348; 2005-ci il, № 10, maddə 968) qüvvədən düşmüş hesab edilsin.

3. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 sentyabr 2007-ci il

№633

Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında 2007-ci il avqustun 13-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında 2007-ci il avqustun 13-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında rabitə və informasiyalaşdırma sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında elm, texnika və texnologiya sahəsində əməkdaşlıq haqqında Saziş;

1.3. Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş;

1.4. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Tacikistan Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş;

1.5. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Tacikistan Respublikasının Dövlət Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.5-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.5-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tacikistan Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 sentyabr 2007-ci il

№2410

Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında rabitə və informasiyalaşdırma sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti,

qarşılıqlı faydalı əməkdaşlıq əsasında Azərbaycan Respublikası və Tacikistan Respublikası xalqları arasında mövcud olan əlaqələrin daha da inkişaf etdirilməsi məqsədilə,

telekommunikasiya, informasiya texnologiyaları və poçt sahəsi üzrə ikitərəfli əməkdaşlığın Ümumdünya Poçt İttifaqının aktlarına və Beynəlxalq Telekommunikasiya İttifaqının tövsiyələrinə, həmçinin digər beynəlxalq sazişlərə uyğun olaraq qurulmasını nəzərə alaraq,

telekommunikasiya, informasiya texnologiyaları və poçt sahəsi üzrə əməkdaşlığın qarşılıqlı yardım əsasında inkişaf etdirilməsini məqsədəuyğun hesab edərək,

Tərəflər arasında rabitə vasitələrinin dayanıqlı işinin təmin edilməsi üçün hüquqi, iqtisadi və texnoloji sahələrdə sıx əlaqələrin qurulması məqsədilə, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər telekommunikasiya, informasiya texnologiyaları və poçt rabitəsi sahəsində əməkdaşlığı ümumtanınmış normalara və beynəlxalq hüquq prinsiplərinə, Azərbaycan Respublikasının və Tacikistan Respublikasının qanunvericiliyinə, Ümumdünya Poçt İttifaqının və Beynəlxalq Telekommunikasiya İttifaqının məqsəd və prinsiplərinə, həmçinin bu beynəlxalq təşkilatların fəaliyyəti çərçivəsində qəbul olunmuş normativ aktlara müvafiq olaraq genişləndirəcək və inkişaf etdirəcəklər.

Maddə 2

Tərəflər arasında əməkdaşlığın istiqamətlərinə informasiya texnologiyalarına aid olan aşağıda göstərilən sahələr daxildir.

a) hökumət orqanları və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin təşkilinin təkmilləşdirilməsi üçün informasiya texnologiyalarından istifadə olunması;

b) məsafədən tibbi konsultasiyaların keçirilməsi daxil olmaqla, səhiyyədə informasiya texnologiyalarından istifadə olunması;

c) təhsil müəssisələrinin kompyuterləşdirilməsi və məsafədən tədris;

d) elektron ticarətin inkişafı;

e) elektron imzadan istifadə olunması.

Maddə 3

Telekommunikasiya, informasiya texnologiyaları və poçt rabitəsi təşkilatlarında bütün dəyişiklikləri, həmçinin rabitə sahəsində göstərilən xidmətlərin qarşılıqlı hesablaşma prosedurları haqqında Tərəflər bir-birlərini xəbərdar edəcəklər.

Maddə 4

Tərəflər bütün növ telekommunikasiya, informasiya texnologiyaları və elektrik rabitəsi

şəbəkələri ilə ötürülən məlumatların, poçt göndərişlərinin və xüsusi rabitənin öz ölkələrinin ərazisindən sərbəst tranzitinə zəmanət verirlər. Tranzit əvvəlcədən razılaşdırılmış və Tərəflərin aidiyyəti dövlət orqanları tərəfindən təsdiq edilmiş marşrut, cədvəl və tariflərlə həyata keçiriləcəkdir.

Maddə 5

Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında poçt pul köçürmələri və qarşılıqlı pul ödənişlərinin həyata keçirilməsi Tərəflərin qanunvericiliyinə və xüsusi Sazişə müvafiq olaraq müəyyən olunur.

Maddə 6

Bu Sazişin yerinə yetirilməsindən irəli gələn hesablaşmalar və ödəmələr Tərəflər arasında qüvvədə olan sazişlərə əsasən həyata keçiriləcəkdir.

Rabitə xidmətlərinin təqdim olunması üzrə bütün qarşılıqlı ödənişlər müvafiq orqanlar və səlahiyyətli banklar tərəfindən Tərəflərin milli qanunvericiliyinə uyğun olaraq, mərkəzləşdirilmiş şəkildə həyata keçiriləcəkdir.

Maddə 7

Tərəflər bir-birinə qarşı Tərəflərin rabitə administrasiyalarının üçüncü dövlətlərdə və müvafiq beynəlxalq təşkilatlarda fəaliyyətinə mane ola biləcək ayrı-seçkilik tədbirləri tətbiq etməyəcəklər.

Maddə 8

Tərəflər bir-birinə digər Tərəfin dövri nəşrlərinin öz dövlətləri ərazisində abunə ilə və pərakəndə şəkildə, Tərəflər və ya onların müvafiq idarələri arasındakı razılaşmalarla müəyyən edilmiş həcmlərdə yayılmasının təşkil olunmasında kömək göstərəcəklər.

Maddə 9

Tərəflər tələb olunduqda səlahiyyətləri çərçivəsində radiotezliklərin istifadə olunması məsələlərində qüvvədə olan qaydalar, öz dövlətlərinin milli qanunvericiliyi, beynəlxalq müqavilələr və Beynəlxalq Telekommunikasiya İttifaqının tövsiyələrinə uyğun olaraq məsləhətləşəcəklər. Bu cür əlaqələndirmə məktublaşma və ya ayrı-ayrı imzalanmış razılaşmaların mübadiləsi yolu ilə həyata keçiriləcəkdir.

Maddə 10

Tərəflərin xidmətlərin təqdim olunmasında iştirak edən bütün müəssisələri vaxtında və keyfiyyətli xidmət üçün istehlakçılar qarşısında bərabər məsuliyyət daşıyırlar. Poçt rabitəsi və beynəlxalq rabitə xətlərinin keyfiyyətsiz işinə görə şikayətlərə baxılma qaydası Ümumdünya Poçt İttifaqının aktları və Beynəlxalq Telekommunikasiya İttifaqının tövsiyələri əsasında müəyyən olunur.

Maddə 11

Tərəflər telefonçu, teleqrafçı, texniki işçi heyəti, rabitə təşkilatlarının poçt işçiləri arasında xidməti məlumat mübadiləsi, həmçinin xidməti sənədlərin mübadiləsi zamanı rus və ya ingilis dillərindən istifadə edəcəklər.

Tərəflərin ölkələri arasında mübadilə olunan poçt göndərişlərinin və teleqramların ünvanı rus dilində və ya latın hərfləri və ərəb rəqəmləri ilə hazırlanacaqdır.

Teleqramların mətni latın hərfləri ilə qəbul oluna və ötürülə bilər.

Maddə 12

Dövlətlərarası məlumatların və informasiyaların ötürülməsində Tərəflər arasında rabitə müəssisələrində vahid zaman olaraq Moskva vaxtı istifadə edilir.

Maddə 13

Tərəflər qüvvədə olan texnoloji proseslərə uyğun olaraq özlərinin operativ-texniki idarəetmə sistemlərinin qarşılıqlı təsirinə imkan yaradırlar.

Tərəflər fövqəladə hallarda rabitə vasitələri ilə prioritet məlumatların ötürülməsini təmin edirlər.

Tərəflər beynəlxalq rabitə xətlərindəki qəza nəticələrinin aradan qaldırılması zamanı bir-birinə qarşılıqlı kömək göstərirlər.

Bərpaetmə işlərinin aparılması zamanı qarşılıqlı fəaliyyət qaydaları Tərəflərin rabitə administrasiyaları tərəfindən hazırlanır və razılaşdırılır.

Maddə 14

Beynəlxalq əhəmiyyət kəsb edən rabitə və informasiya texnologiyaları obyektlərinin tikilməsi və istifadə olunması qaydaları və normaları Tərəflər arasında razılaşdırılır.

Ehtiyac olduğu təqdirdə Tərəflər birgə müəssisələrin yaradılmasına və birgə layihələrin həyata keçirilməsinə kömək göstərirlər.

Maddə 15

Bu Saziş Tərəflərin daha əvvəl bağlanmış beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə təsir göstərmir.

Maddə 16

Bu Sazişin təfsiri və ya tətbiqi ilə əlaqədar yaranan mübahisələr Tərəflərin səlahiyyətli orqanları arasında danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 17

Bu Sazişə, Tərəflərin qarşılıqlı razılığı ilə, bu Sazişin ayrılmaz hissəsi olan protokollar vasitəsilə rəsmiləşdirilən və Sazişin 18-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 18

Bu Saziş Tərəflərin bu Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlət-daxili prosedurları yerinə yetirmələri barədə diplomatik kanallarla sonuncu yazılı bildirişi aldıqları tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətində qüvvədə qalır və Tərəflərdən heç biri bu müddətin başa çatmasına ən azı altı ay qalmış onun qüvvəsini ləğv etmək niyyəti barədə digər Tərəfə yazılı bildiriş təqdim etməzsə, bu Sazişin qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılacaqdır.

Bu Saziş belə bildirişin alındığı tarixdən altı ay sonra qüvvədən düşür.

Bu Saziş Bakı şəhərində 13 avqust 2007-ci il tarixində Azərbaycan, tacik və rus dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə rus dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ƏLİ ABBASOV
Rabitə və informasiya texnologiyaları naziri

TACİKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ƏBDÜRƏHİM AŞUR
Nəqliyyat və kommunikasiyalar naziri

Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında elm, texnika və texnologiya sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq, Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti,

ikitərəfli kompleks əlaqələrin tərkib hissəsi olan elmi-texniki əməkdaşlığın vacibliyindən çıxış edərək,

elm, texnika və texnologiya sahəsində bərabərlik prinsipi və qarşılıqlı fayda əsasında, Azərbaycan və Tacikistan arasında tarixi-elmi əlaqələri və bu əməkdaşlığın dövlətlər arasında dostluq əlaqələrinin möhkəmlənməsinə xidmət edəcəyini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişin əsas məqsədi qarşılıqlı fayda və effektiv elmi əməkdaşlıq, elmi müəssisələr və ayrı-ayrı alimlər arasında perspektiv tədqiqatların və hər iki ölkənin elminin inkişafı naminə ümumi elmi problemlərin həlli yollarının araşdırılmasıdır. Tərəflər öz milli qanunvericiliklərinə uyğun qarşılıqlı maraq kəsb edən elm, texnika və informasiya sahəsində əlaqələrin qarşılıqlı fayda və bərabərhüquqluluq prinsipi əsasında əməkdaşlığın inkişafı üçün şərait yaradacaqlar.

Maddə 2

Bu Sazişin 1-ci maddəsinə uyğun olaraq Tərəflər müvafiq elmi tədqiqat müəssisələri arasında bilavasitə əlaqələrin qurulmasına, kontrakt və müqavilələrin bağlanmasına kömək edəcəklər.

Hər iki ölkənin iqtisadiyyatının və elminin inkişafı üçün texniki prosesin və innovasiyanın xüsusi əhəmiyyətini nəzərə alaraq, Tərəflər dəqiq, təbiət, humanitar, ictimai elmlər sahəsində əməkdaşlığı inkişaf etdirməli, tətbiqi tədqiqatlar və yeni texnologiyalar sahəsində elmi kadrların hazırlanması, sənaye və əqli mülkiyyətin mühafizəsi sahəsində əməkdaşlığı inkişaf etdirməli və stimullaşdırmalıdırlar.

Əməkdaşlığın şərtlərini və konkret formalarını Tərəflərin nazirlikləri, idarələri, elmi və elmi tədqiqat müəssisələri və ali məktəbləri öz səlahiyyətlərinə və milli qanunvericiliyinə uyğun tənzimləməlidir.

Maddə 3

Bu Saziş çərçivəsində Tərəflər arasında elmi-texniki əməkdaşlıq aşağıdakı formada reallaşacaqdır:

- elmi texnologiyanın yaranması üzrə birgə elmi-texniki proqram layihələrinin yerinə yetirilməsi;
- çöl tədqiqatları və ekspedisiyalar daxil olmaqla elmi tədqiqat müəssisələrində, ali məktəblərdə, arxiv və kitabxanalarda elmi işlərin aparılması;
- elmi-texniki informasiyaların, sənədlərin, ədəbiyyat və biblioqrafik nəşrlərin mübadiləsi;
- qarşılıqlı fayda kəsb edən müştərək seminar, simpozium, elmi konfrans və görüşlərin və elmi-texniki sərgilərin keçirilməsi;
- alim və mütəxəssislərin mübadiləsi və onların ixtisaslarının artırılması;
- elmi, tədqiqat və təhsil müəssisə və təşkilatlarının gənc alimləri üçün tədris kurslarının, stajkeçmələrin təşkili və bu Saziş çərçivəsində elm, texnika və texnologiya sahəsində digər faydalı formada əməkdaşlıq.

Maddə 4

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və vəzifələrinə təsir etmir.

Maddə 5

Əməkdaşlığın gedişində əldə olunan və sənaye mülkiyyəti əhəmiyyəti kəsb etməyən informasiya (yayılması qadağan olunmuş kommersiya və sənaye xarakterli informasiyalar istisna olmaqla) Tərəflərin rəsmi razılığı ilə müəyyən edilmiş qaydada üçüncü ölkələrə verilə bilər.

Maddə 6

Birgə elmi tədqiqat işlərinin nəticələri və ya başqa elmi-texniki işlərin görülməsində əldə olunan məlumatlardan istifadə olunması qaydası, əqli və sənaye xarakterli mülkiyyətlərin və müəlliflik hüquqları ilə əlaqədar məsələlərin həlli hər konkret hal üçün Tərəflərin uyğun təşkilatlan arasında ayrıca müqavilə bağlamaq yolu ilə razılaşdırılır.

Maddə 7

Bu Sazişin yerinə yetirilməsində və Tərəflərin qarşılıqlı fəaliyyət üzrə təkliflərinin hazırlanması məsələlərində zərurət olduqda Tərəflər birgə komissiya yarada bilərlər.

Maddə 8

Bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı meydana çıxan mübahisəli məsələlər Tərəflər arasında məsləhətləşmələr, danışıqlar və razılaşdırılmış digər prosedurlar yolu ilə həll ediləcəkdir.

Maddə 9

Bu Sazişin həyata keçirilməsi üzrə Tərəflərin məsul təşkilatları aşağıdakılardır:

Azərbaycan Respublikası tərəfindən - Azərbaycan Milli Elmlər Akademiyası;

Tacikistan Respublikası tərəfindən - Tacikistan Respublikası Elmlər Akademiyası.

Maddə 10

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilən və Sazişin 11-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 11

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 il müddətinə bağlanır və əgər heç bir Tərəf bu müddətin bitməsinə ən azı 6 ay qalmış Sazişi ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş təqdim etməzsə, Sazişin qüvvəsi növbəti 5 illik müddətlərə uzadılacaqdır.

Sazişin müddətinin bitməsi onun qüvvədə olduğu müddətdə imzalanmış sazişlərin etibarlılığına təsir etmir.

Bu Saziş Bakı şəhərində 13 avqust 2007-ci il tarixində Azərbaycan, tacik və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı olduqda Tərəflər rus dilində olan mətndən istifadə edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TACİKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
MAHMUD KƏRİMOV	*MAMADŞO İLOLOV*
Milli Elmlər Akademiyasının prezidenti	*Elmlər Akademiyasının prezidenti*

Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti,

Tərəflərin təhsil sistemlərinin bərabərhüquqluluğu, müstəqilliyi və bütövlüyü prinsipləri əsasında gələcəkdə qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsi və inkişafı üçün qarşılıqlı səylərini bildirərək,

maarifçilik siyasəti sahəsində qarşılıqlı münasibətlərdə ümumbəşəri dəyərlərin, insan hüquqları haqqında Ümumi Bəyannamənin prinsiplərinin, uşaq hüquqları haqqında Konvensiyanın, beynəlxalq normaların şərtsiz üstünlüklərini qəbul edərək və onların əməli həyata keçirilməsinə səy göstərərək,

təhsil sahəsində elmiliyin və dünyəviliyin, humanizm və demokratiyanın təmin olunmasına, hər iki dövlətdə yaşayan xalqların, təhsil alanların vətəndaşlığından, etnik mənsubiyyətindən asılı olmayaraq, mədəni-təhsil tələbatının ödənilməsinə xüsusi əhəmiyyət verərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər ümumi təhsil, texniki peşə, orta ixtisas və ali, eləcə də diplomdan sonrakı təhsil, həmçinin elmi tədqiqatların aparılması sahəsində əməkdaşlığı inkişaf etdirəcəklər.

Maddə 2

Tərəflər:

- müvafiq sahələrin ali və orta ixtisas təhsili məktəbləri, eləcə də ixtisasartırma təhsil müəssisələri və elmi təşkilatlar arasında birbaşa əlaqələrin bərqərar olunması və onların qarşılıqlı faydalı əməkdaşlığı üçün lazımi şəraitin yaradılmasına;
- qarşılıqlı maraq kəsb edən mövzular üzrə birgə elmi tədqiqatların aparılmasına, tədris-metodiki ədəbiyyatın tərtib edilməsinə;
- ali və orta ixtisas təhsili məktəblərində, o cümlədən ixtisasartırma təhsili müəssisələrində mühazirələrin oxunması üçün uzun və qısamüddətli əsaslarla elmi və müəllim kadrlarının mübadiləsinə kömək göstərəcəklər.

Maddə 3

Tərəflər:

- təhsil və elmi məsələlər üzrə beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsində bir-birinə kömək göstərilməsində;
- digər Tərəfin vətəndaşlarına öz təhsil müəssisələrində qarşılıqlı maraq doğuran sahələrə qəbul üzrə dövlət kvotasının ayrılmasına yardımçı olacaqlar. Seçilmə, qəbul və maliyyə qaydaları hər il ayrı-ayn protokollarla müəyyən olunur.
- Hər iki Tərəfin alimlərinin elmi əsərlərinin və məqalələrinin, ali məktəblərin elmi məcmuələrinin dövri mətbuatda dərc olunmasına kömək göstərilməsində;
- Tərəflərin milli dillərinin öyrənilməsi üzrə xüsusi kursların təşkil olunmasında;
- dərslik və dərs vəsaitləri daxil olmaqla ədəbiyyat mübadiləsində;
- ümumtəhsil məktəbləri müəllimlərinin ixtisasartırması və təkmilləşdirilməsi sahəsində qarşılıqlı əməkdaşlığa yardımçı olacaqlar.

Tərəflər Tacikistanda yaşayan milliyyətcə azərbaycanlı uşaqlara və Azərbaycanda yaşayan milliyyətcə tacik uşaqlara ana dillərində təhsil almaq, öz xalqlarının mədəniyyəti, tarixi və adət-ənənələri ilə tanış olmaq üçün əlverişli şərait yaradacaqlar.

Maddə 4

Tərəflər Azərbaycan Respublikası və Tacikistan Respublikasının ali təhsil müəssisələri arasında birbaşa əməkdaşlığın inkişafına, həmçinin hər iki ölkənin ali təhsil və müvafiq elmi tədqiqat müəssisələri ilə əməkdaşlığın qurulmasına, təhsil sahəsində beynəlxalq proqram və layihələr çərçivəsində əməkdaşlıq aparılmasına, ali məktəb alimlərinin əsərlərinin qarşılıqlı olaraq öz elmi məcmuələrində çap olunmasına şərait yaradacaqlar.

Maddə 5

Tərəflər dünya standartlarına istiqamətləndirilmiş vahid tələbatı təmin etmək məqsədilə təhsil müəssisələri üzrə normativ hüquqi sənədlərin mübadiləsini həyata keçirir, təhsilin dövlət standartlarına dair qanunvericilik və digər normativ aktların, elmi-pedaqoji tədqiqatlar haqqında məlumatların alınmasına və mübadiləsinə, təhsil problemləri üzrə birgə elmi proqramların işlənilməsinə kömək göstərəcəklər.

Maddə 6

Tərəflər öz dövlətlərinin ərazilərində adekvat şəkildə mövcud olan ehtiyaclara uyğun olaraq digər Tərəfin dövlətinin dilində ümumi təhsil müəssisələrinin, o cümlədən məktəblərin, siniflərin, qrup və dərnəklərin açılmasına yardım edəcək, onlara dövlət tərəfindən təşkilati-pedaqoji və tədris-metodiki kömək göstərəcəklər.

Maddə 7

Müvafiq Saziş imzalamaq məqsədilə, Tərəflər Azərbaycan Respublikası və Tacikistan Respublikası tərəfindən verilən elmi ad və elmi dərəcələrin və təhsil sənədlərinin qarşılıqlı tanınması və ekvivalentliyi haqqında məsləhətləşmələr aparacaqlar.

Maddə 8

Tərəflər humanitar sahədə, o cümlədən birgə sosioloji tədqiqatların aparılmasına, şagirdlərin və müəllimlərin birgə əməyinin və istirahətinin təşkilinə kömək göstərəcək, idman yarışları təşkil edəcəklər.

Maddə 9

Təhsil sisteminin inkişafı və təkmilləşdirilməsi, təhsili idarəetmə kadrlarının hazırlanması, müəllimlərin attestasiyası məsələlərinin öyrənilməsi və qabaqcıl təcrübə mübadiləsinin aparılması məqsədilə Tərəflər nazirlik, təhsili idarəetmə orqanları və tədris müəssisələri işçiləri səviyyəsində nümayəndə heyətlərinin qarşılıqlı mübadiləsini aparır, habelə birgə nəzəri, elmi-praktik konfranslar, seminarlar, müşavirələr və s. keçirirlər.

Maddə 10

Bu Sazişin müddəalarından irəli gələn konkret tədbirlər, onların həyata keçirilməsi tarixləri və şərtləri hər il tərtib olunan protokollarla müəyyən olunur.

Bu Sazişin müddəalarının həyata keçirilməsi ilə əlaqədar Tərəflər arasında əlaqələri və qarşılıqlı münasibətləri tənzimləmək məqsədilə Daimi Komissiya təşkil olunur. Komissiya Tərəflərdən birinin xahişi ilə ildə bir dəfə Bakıda və Düşənbədə görüşür.

Komissiyaya hər Tərəfdən nazir müavini başçılıq edir.

Maddə 11

Bu Saziş Tərəflərin iştirakçısı olduğu beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 12

Bu Sazişin tətbiqi və təfsiri ilə bağlı yaranan mübahisəli məsələlər Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll olunur.

Maddə 13

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və Sazişin 14-cü maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən və ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 14

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirdikləri barədə diplomatik kanallar vasitəsilə bir-birlərinə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən hər biri yuxarıda göstərilən müddətin bitməsinə ən azı altı ay qalmış digər Tərəfi bu Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə xəbərdar etməzsə, Saziş avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

Bu Saziş Bakı şəhərində 13 avqust 2007-ci il tarixində hər biri Azərbaycan, tacik və rus dillərində iki nüsxədə imzalanmışdır, bütün mətnlər autentikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə rus dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TACİKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
MİSİR MƏRDANOV	*XAMROXON ZARİPİ*
Təhsil naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Tacikistan Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Tacikistan Respublikası Ədliyyə Nazirliyi,

hər iki Tərəfin ədliyyə sahəsində əlaqələrin inkişafı və möhkəmləndirilməsində marağını nəzərə alaraq,

qarşılıqlı anlaşma və dostluq əlaqələrinin gələcəkdə möhkəmləndirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər səlahiyyətləri çərçivəsində bu Sazişə uyğun olaraq və öz dövlətlərinin qanunvericiliyinə əməl edərək qarşılıqlı əməkdaşlığı həyata keçirirlər.

Maddə 2

Tərəflər aşağıdakı istiqamətlərdə əməkdaşlıq edirlər:

1) Hər iki dövlətin ədliyyə idarələri arasında tərəfdaşlıq əlaqələrinin yaradılması;
2) mütəmadi olaraq qanunvericilik və digər normativ hüquqi aktların, həmçinin idarə nəşrlərinin və metodiki materialların mübadiləsi;
3) ədliyyə idarələrində reyestrin aparılmasının təşkili və normativ hüquqi aktların qeydiyyatı;

4) hüquqi informasiya sistemlərinin inkişafı;

5) Tərəflərin fəaliyyəti barədə informasiya mübadiləsi;

6) ədliyyə idarələri üçün kadrların peşəkarlıq səviyyəsinin artırılması;

7) qarşılıqlı maraq doğuran məsələlər üzrə elmi tədqiqat fəaliyyəti;

8) hər iki tərəfin ədliyyə idarələrinin təşkili və fəaliyyəti ilə tanış olmaq məqsədilə Tərəflərin nümayəndə heyətlərinin mübadiləsi;

9) ədliyyə işçilərinin peşəkarlıq səviyyəsinin və hazırlığının yüksəldilməsi üçün qarşılıqlı əsasda seminar, mühazirə, təcrübi məşğələ və digər bu kimi tədbirlərin təşkili və həyata keçirilməsi;

10) qanunların və digər normativ hüquqi aktların layihələrinin işlənilməsində informasiya təminatına kömək edilməsi.

Maddə 3

Bu Saziş əməkdaşlığın digər istiqamət və formalarının qarşılıqlı surətdə müəyyənləşdirilməsində və inkişafında Tərəflərə maneələr törətmir.

Maddə 4

Tərəflər həmçinin onların arasında ədliyyə sahəsində əməkdaşlığın inkişafına kömək edən digər Sazişlər bağlaya bilərlər.

Maddə 5

Sorğular yazılı formada göndərilir. Təxirəsalınmaz hallarda onlar sonradan mütləq üç gün ərzində yazılı şəkildə təsdiq olunaraq göndərilməsi şərtilə, o cümlədən mətnin texniki vasitələrlə ötürülməsindən istifadə olunmaqla şifahi surətdə də verilə bilər.

Sorğu edilən Tərəf sorğunun tez və daha dolğun icrasını təmin etmək məqsədilə zəruri tədbirləri görür.

Maddə 6

Bu Saziş çərçivəsində Tərəflərin əməkdaşlığının əlaqələndirilməsi onların aşağıdakı struktur bölmələrinə həvalə olunur (bundan sonra - nümayəndələr):

Azərbaycan tərəfindən - Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Beynəlxalq Əməkdaşlıq İdarəsinə;

Tacikistan tərəfindən - Tacikistan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Əlaqələr və Tacikistan Respublikasının İqtisadi Maraqlarının Qorunması İdarəsinə.

Bu maddə ilə nəzərdə tutulan Tərəflərin nümayəndələri birbaşa olaraq bir-biri ilə əlaqə yaradırlar.

Maddə 7

Tərəflərin nümayəndələri, zərurət yarandığı halda, bu Saziş üzrə əməkdaşlığın səmərəliliyinin artırılması və möhkəmləndirilməsi məsələlərinə baxılması məqsədilə işçi görüşləri və məsləhətləşmələri keçirəcəklər.

Maddə 8

Tərəflər bu Saziş çərçivəsində həyata keçirilən tədbirlərin maliyyələşdirilməsində, onların təşkili və nümayəndə heyətlərinin dövlət ərazisində qalma xərclərini qəbul edən Tərəfin, hər iki başa nəqliyyat xərclərini isə göndərən Tərəfin ödənilməsi prinsipinə əsaslanacaqlar.

Maddə 9

Əməkdaşlıq həyata keçirilərkən rus dilindən istifadə ediləcəkdir.

Maddə 10

Tərəflərin hər birinin təşəbbüsü ilə bu Sazişin 11-ci maddəsinə müvafiq olaraq qüvvəyə minən, onun ayrılmaz hissəsi olan və ayrıca protokol şəklində tərtib olunan əlavələr və dəyişikliklər bu Sazişə daxil edilə bilər.

Maddə 11

Bu Saziş üç il müddətinə bağlanılır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən heç biri Sazişin qüvvəsinin başa çatmasına ən azı altı ay qalmış onun ləğv edilməsi barədə yazılı bildiriş göndərməzsə, Sazişin qüvvəsi avtomatik olaraq növbəti üçillik müddətlərə uzadılır.

Bakı şəhərində 13 avqust 2007-ci il tarixində hər biri Azərbaycan, tacik və rus dillərində iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı halda Tərəflər rus dilində olan mətnə müraciət edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TACİKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*BAXTİYER XUDOYAROV*
Xarici işlər naziri	*Ədliyyə naziri*

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Tacikistan Respublikasının Dövlət Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Tacikistan Respublikasının Dövlət Statistika Komitəsi,

statistikanın inkişafı, statistik məlumatların təkmilləşdirilməsi və hərtərəfli əlaqələrin möhkəmləndirilməsi sahəsində əməkdaşlığın təşkil edilməsində qarşılıqlı maraqlan rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər milli qanunvericilik çərçivəsində aşağıdakı sahələrdə ikitərəfli əməkdaşlığın həyata keçirilməsini öhdələrinə götürürlər:

- uçot və sorğuların, siyahıyaalmaların və müayinələrin statistik sisteminin yaradılması və istifadə edilməsi üzrə metodoloji materialların və işləmələrin mübadiləsi;
- statistikanın təkmilləşdirilməsi, milli hesablar sisteminin təşkili və tətbiqi məsələləri üzrə təcrübə mübadiləsi;
- statistik nəşrlərin (dövlətlərin və ya onların ayrı-ayrı regionlarının sosial-iqtisadi vəziyyətindəki dəyişikliklərlə bağlı illik məcmuələrin, külliyyatların, bülletenlərin, məlumatların və icmaların, qanunvericilik aktlarının) mübadiləsi;
- milli statistika xidmətlərinin mütəxəssisləri üçün birgə seminarların və digər ümumi tədbirlərin təşkili.

Maddə 2

Əməkdaşlıq bu Sazişin ayrılmaz hissəsi hesab olunan qarşılıqlı razılıq əsasında işlənib hazırlanmış və hər iki statistika təşkilatının rəhbərləri tərəfindən 2 illik dövr üçün təsdiq olunmuş tədbirlər planı əsasında həyata keçiriləcəkdir.

Maddə 3

Əməkdaşlığın əlaqələndirilməsi hər iki Tərəfdən təyin olunmuş səlahiyyətli şəxslər tərəfindən həyata keçirilir.

Maddə 4

Əməkdaşlıq prosesində bir Tərəfdən alınmış informasiya yalnız bu informasiyanı təqdim edən Tərəfin yazılı razılığı əsasında üçüncü Tərəfə verilə bilər. Əməkdaşlıq prosesində alınan informasiyadan Tərəflərin mənafelərinin ziyanına istifadə edilə bilməz.

Maddə 5

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan, Sazişin 6-cı maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən və ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 6

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş qeyri-müəyyən müddətə imzalanır. Onun qüvvəsi Tərəflərdən birinin Sazişin qüvvəsinə xitam vermək niyyəti barədə diplomatik kanallarla di-gər Tərəfə göndərdiyi yazılı bildiriş vasitəsilə dayandırıla bilər. Saziş belə bildirişin alındığı tarixdən altı ay sonra qüvvəsini itirir.

Bu Saziş Bakı şəhərində 13 avqust 2007-ci il tarixində Azərbaycan, tacik və rus dillərində iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə rus dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ ADINDAN	TACİKİSTAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ ADINDAN
ARİF VƏLİYEV	*MİQRAND ŞABOZOV*
Komitəsinin sədri	*Komitəsinin sədri*

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında 2007-ci il avqustun 21-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və İran İslam Respublikası arasında 2007-ci il avqustun 21-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Ordubad və Marazad Su-Elektrik Stansiyalarının Tikintisi barədə Protokol;

1.2. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və İran İslam Respublikasının Yol və Nəqliyyat Nazirliyi arasında "Bakı - Naxçıvan - Bakı" müntəzəm avtobus marşrutunun açılması haqqında Anlaşma Memorandumu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1 -ci və 1.2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 sentyabr 2007-ci il

№2411

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Ordubad və Marazad Su-Elektrik Stansiyalarının Tikintisi barədə Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti,

iki ölkə arasında mövcud dostluq və mehriban qonşuluq münasibətlərinin inkişafına əsaslanaraq,

2 iyul 1994-cü il tarixində Tehran şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında hidro və elektroenergetika sahələri üzrə əməkdaşlıq haqqında Memorandum"da və 26 yanvar 2005-ci il tarixində Tehran şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Araz çayının hidroenergetika potensialının istifadəsi haqqında Anlaşma Memorandu-

mu"nda qeyd olunmuş Ordubad ərazisində (Azərbaycan) və Marazad ərazisində (İran) su-elektrik stansiyalarının (SES) tikintisi ilə bağlı müddəalarının icrasını təmin etmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər Araz çayı üzərində Ordubad və Marazad su-elektrik stansiyalarının tikintisinin həyata keçirilməsini təmin etmək məqsədilə su-elektrik stansiyalarının yerini 1 ay müddətində dəqiq müəyyənləşdirib tərəf-müqabilinə təqdim edirlər.

Bundan sonra Tərəflər 3 ay müddətində birinci mərhələnin layihələndirmə sənədlərini başa çatdırıb, tərəf-müqabili ilə razılaşdıracaq və onu təsdiq etdikdən sonra tərəf-müqabilinə təqdim edəcəklər.

Tərəflər yuxarıda qeyd edilən mərhələdən sonra 1 ay müddətinə razılaşma işlərini başa çatdırır və tikinti işlərini başlayırlar.

Maddə 2

Tərəflər hər iki tərəfin SES-ləri üçün tənzimləyici bənddən kanallar vasitəsilə 120 m3/san miqdarında suyun götürülməsi və Araz çayının ekoloji cəhətdən təhlükəsizliyini təmin etmək üçün tənzimləyici bənddən minimum 15 m3/san həcmində suyun Araz çayına buraxılması barədə razılaşdılar.

Maddə 3

Tərəflər SES-lərin layihələndirilməsinin, kanallar üçün götürüləcək suyun miqdarı ilə SES-lərdən sonra ötürüləcək suyun miqdarının eyni olmasına və həmçinin kanalların istiqamətinin hər iki tərəf üçün aydın şəraitdə olmasına riayət etməklə aparılmasını təmin edəcəklər.

Maddə 4

Tərəflər kanalların suyundan digər məqsədlər üçün istifadə edilməsinə icazə verilməməsi barədə razılığa gəldilər.

Maddə 5

Tərəflər bu Protokolun 1-ci maddəsini yerinə yetirməklə, qarşı Tərəfi məlumatlandıraraq, öz ərazilərində öz vəsaitləri hesabına həyata keçirməyi nəzərdə tutduqları layihə və tikinti işlərinin yerinə yetirilməsinə başlamaq hüququnun olduğunu təsdiqlədilər.

Maddə 6

Tərəflər bəndlərin və SES-lərin layihə və tikinti işlərinin maliyyələşdirilməsini hər Tərəfin özünün təmin etməsi və hər dövlətə aid SES-in istehsal etdiyi enerjinin həmin dövlət tərəfindən istifadə edilməsi barədə razılığa gəldilər.

Maddə 7

Tərəflər Ordubad və Marazad su-elektrik stansiyalarının tikintisinin həyata keçirilməsi məqsədilə təşkil etdikləri Birgə Texniki Komissiyanın fəaliyyətini təqdirəlayiq hesab edirlər.

Maddə 8

Bu Protokol imzalandığı gündən qüvvəyə minir.

Bu Protokol Bakı şəhərində 21 avqust 2007-ci il tarixində, müvafiq olaraq hicri şəms tarixi ilə 30 mordad 1386-cı il tarixində hər biri Azərbaycan və fars dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır. Hər iki nüsxə eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
NATİQ ƏLİYEV	*MUSA ZƏRGƏR*
Sənaye və energetika naziri	*Energetika nazirinin müavini*

Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi və İran İslam Respublikasının Yol və Nəqliyyat Nazirliyi arasında "Bakı-Naxçıvan-Bakı" müntəzəm avtobus marşrutunun açılması haqqında Anlaşma Memorandumu

1. Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və İran İslam Respublikasının Yol və Nəqliyyat Nazirliyi 2002-ci il 20 may tarixində imzalanmış "Beynəlxalq avtomobil daşımaları haqqında Saziş"in 2-ci və 3-cü maddələrinin tələblərinə, 2005-ci il 9 yanvar tarixində Tehran şəhərində keçirilmiş Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında Dövlətlərarası Müştərək Komissiyanın 6-cı iclasında əldə edilmiş razılığa əsaslanaraq və Naxçıvan Muxtar Respublikasının blokada vəziyyətində olduğunu nəzərə alaraq, İran İslam Respublikası ərazisindən keçməklə, daşımalarda İran şirkətlərinin 50% iştirakı ilə "Bakı-Naxçıvan-Bakı" müntəzəm avtobus marşrutunun açılması barədə razılığa gəldilər.

2. Tərəflər İran İslam Respublikasının ərazisini sərbəst keçmək imkanının təmin edilməsi məqsədilə, sərhəd keçid məntəqələrindən avtobusların növbədənkənar keçməsinin təmin edilməsi barədə razılığa gəldilər.

3. Azərbaycan tərəfinin "Bakı-Naxçıvan-Bakı" marşrutu üzrə hərəkət edən avtobuslarının sürücülərindən "Kornet de Passaj" sənədinin tələb edilib-edilməməsi sorğusuna İran tərəfi bir ay müddətinə cavab verəcəkdir.

4. Bu Anlaşma Memorandumu imzalandıqdan sonra bir ay müddətində, Tərəflər "Bakı-Naxçıvan-Bakı" avtobus marşrutunda sərnişin daşımalarını həyata keçirməyə icazəsi olan və müvafiq imkanlara malik nəqliyyat şirkətləri haqqında məlumatı qarşı Tərəfə təqdim etmək barədə razılığa gəldilər.

5. Tərəflərin daşıyıcılarına məxsus avtobusların sürücüləri və sərnişinləri Tərəflərin dövlətlərinin ərazisinə daxil olarkən və hərəkət edərkən bu dövlətin qanunlarına riayət etməlidirlər.

6. "Bakı-Naxçıvan-Bakı" müntəzəm avtobus marşrutunda sərnişindaşıma fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar Tərəflər daşıyıcı şirkətləri, məsafə baxımından qısa və səmərəli marşrutun müəyyənləşdirilməsi, bu marşrut üzrə sürücülərin və sərnişinlərin istirahət və yemək üçün müəyyən edilmiş məntəqələrini nəzərə almaqla hərəkət cədvəlini, sxemini və digər şərtləri müəyyən edərək, bu Anlaşma Memorandumu imzalan-

dıqdan sonra bir ay müddətində qarşı tərəfə yazılı şəkildə məlumatın verilməsi barədə razılığa gəldilər.

Tərəflər "Bakı-Naxçıvan-Bakı" marşrutu üzrə daşıyıcıların müəyyən edilməsi, onlar arasında müqavilə bağlanmasının təmin edilməsi və marşrut üzrə hərəkət cədvəlinin təsdiq edilərək qarşı Tərəfə göndərilməsi barədə razılığa gəldilər.

7. Tərəflər bu Anlaşma Memorandumunun imzalandığı gündən iki ay müddətindən gec olmayaraq "Bakı-Naxçıvan-Bakı" marşrutu üzrə daşımaların həyata keçirilməsinin təmin edilməsi barədə razılığa gəldilər.

8. Bu Anlaşma Memorandumu imzalandığı gündən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 21 avqust 2007-ci il tarixində, müvafiq olaraq hicri şəms tarixi ilə 30 mordad 1386-cı il tarixində iki əsl nüsxədə Azərbaycan və fars dillərində imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ NƏQLİYYAT NAZİRLİYİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASININ YOL VƏ NƏQLİYYAT NAZİRLİYİ ADINDAN
ZİYA MƏMMƏDOV	*MƏNUÇEHR MOTTƏKİ*
Nəqliyyat naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikası və Qətər Dövləti arasında 2007-ci il avqustun 28-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Qətər Dövləti arasında 2007-ci il avqustun 28-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası və Qətərin Ticarət və Sənaye Palatası arasında Müştərək Biznes Şurasının (MBŞ) təsis edilməsi barədə Saziş;

1.2. Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası ilə Qətərin Ticarət və Sənaye Palatası arasında Anlaşma Memorandumu.

2. Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası bu Sərəncamın 1.1 -ci və 1.2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 sentyabr 2007-ci il

№2412

Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası və Qətərin Ticarət və Sənaye Palatası arasında Müştərək Biznes Şurasının (MBŞ) təsis edilməsi barədə Saziş

Azərbaycan Respublikası və Qətər Dövlətinin biznes icmaları iki dost ölkə arasında ticarət və iqtisadi əməkdaşlığı artıracaq davamlı qarşılıqlı əlaqənin asanlaşdırılması məqsədilə şəxsi təşəbbüslə kooperativ cəmiyyətin yaradılmasına ehtiyac hiss edirlər.

Azərbaycan Respublikası tərəfindən isə Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası, Qətər Dövləti tərəfindən Qətərin Ticarət və Sənaye Palatası ticarət, sərmayə, texnologiyanın ötürülməsi, xidmətlər və digər sənaye sektorlarında biznesin təşviqi fəaliyyətlərinin daha sistemli şəkildə həyata keçirilməsi məqsədilə Müştərək Biznes Şurasının (MBŞ) yaradılmasına dair razılığa gəldilər. MBŞ iki ölkənin iş adamları və müəssisə sahibləri arasında belə fəaliyyətlərin təşviq edilməsinin müzakirəsi üçün mütəmadi və tanınmış biznes forum kimi çıxış edəcəkdir.

I. Təşkilat

1. Azərbaycan-Qətər MBŞ-nin iclası Azərbaycan və Qətərin biznes dairələrinin qarşılıqlı əməkdaşlığı və məsləhəti məqsədilə müvafiq olaraq Azərbaycan Respublikasında və Qətər Dövlətində təşkil olunacaqdır.

2. Hər bir Tərəf ümumilikdə müxtəlif iqtisadi maraqlardan olan iş adamlarından ibarət olacaqdır. Komitə üzvlərinin sayı və fəaliyyət üsulu ayrılıqda hər bir ölkədə yazılıb hazırlanacaqdır.

3. Ən yaxın əməkdaşlıq və əlaqə çərçivəsində əməkdaşlıqla yanaşı, hər bir Tərəf öz sahəsində müstəqil olacaqdır.

II. MBŞ-nin məqsədləri

MBŞ Azərbaycan və Qətərin biznes icmaları arasında dostluq və anlaşmaya şərait yaratmaq və hər iki ölkə arasında ticarət, sərmayə, texnologiyanın ötürülməsi, xidmətlər və bütün sənaye sektorlarında əməkdaşlığı təşviq etmək məqsədini daşıyır.

III. MBŞ-nin fəaliyyəti

MBŞ (hər iki Tərəfin) əvvəlki bənddə göstərilmiş məqsədlərə nail olmaq üçün aşağıdakı fəaliyyətləri həyata keçirəcəkdir:

1) İki ölkə arasında ticarət, iqtisadi əməkdaşlıq və xidmətlərlə bağlı məlumat mübadiləsi həyata keçiriləcəkdir.

2) İki ölkə arasında yaxın iqtisadi əlaqələrin təşviqi üçün zəruri olan müvafiq materialları hər hansı bir Tərəf həmin ölkədə onlara tələb olduğu təqdirdə müvafiq hökumətlərə təqdim edə bilər.

3) Bu iki ölkə arasında yaxın iqtisadi əlaqələrə yardım göstərilməsinə dair lazımi təlimatlar hər hansı bir Tərəfin həmin ölkədə onlara tələb olduğu təqdirdə müvafiq hökumətlərə təqdim edilə bilər.

4) İş adamlarının Azərbaycan Respublikası və Qətər Dövlətində keçirilən sərgilərdə iştiraka həvəsləndirilməsi.

5) Münasib hesab edildikdə, missiyalara sponsorluq edilməsi və iş adamları və texniki ekspertlərin qəbul edilməsi zamanı qarşılıqlı əməkdaşlıq həyata keçiriləcəkdir.

6) MBŞ-nin məqsədlərinə nail olmaq üçün faydalı olan digər fəaliyyətlər həyata keçiriləcəkdir.

IV. Müştərək iclas

1) Hər iki Tərəf Azərbaycan Respublikası və Qətər Dövləti arasında ticari-iqtisadi əməkdaşlığın və xidmət sahəsinin təşviqinə dair müxtəlif problemlər üzrə birgə razılaşdırılmış iclaslar keçirəcəkdir.

2) Müştərək iclaslar ən azı ildə bir dəfə növbə ilə hər iki ölkədə keçiriləcəkdir.

V. Müştərək iclasın təşkili və fəaliyyəti

1) Müştərək iclasa hər iki ölkənin nümayəndəsi tərəfindən sədrlik ediləcəkdir.

2) Alt komitələr və tapşırıq qrupları belə hallarda spesifik məsələlərin nəzərdən keçirilməsi və ona dair məsləhət verilməsi üçün təyin edilə bilər.

3) Müştərək iclasın zəruri hesab edilən tarixi, davam edəcəyi müddət, gündəliyi və digər xüsusi şərtləri hər iki Tərəf razılaşdıqdan sonra qərara alınacaqdır.

VI. Müştərək iclasın xərcləri

Müştərək iclaslara hazırlığın aparılması və keçirilməsinə dair müxtəlif xərclər sponsorluq edən tərəfdən, səyahət xərcləri və otel xərcləri və s. isə səfər edən nümayəndələr tərəfindən həyata keçiriləcəkdir. Ümumiyyətlə, hər bir Tərəf öz xərclərini ödəyəcəkdir.

VII. Katiblik

Hər bir Tərəf, maddə III (1), (2), (3) və (4)-də göstərildiyi kimi, öz ehtiyaclarına ən münasib katiblik xidmətlərini və fəaliyyətini təşkil edəcəkdir.

VIII. Digər razılaşmalar

Hər iki ölkədə olan digər təşkilatlar bu MBŞ-nin hər iki Tərəfinə aidiyyəti üzrə ərizə ilə müraciət etməklə, bu MBŞ-nin üzvlüyünə yazıla bilər.

Bu Saziş imzalandığı tarixdən qüvvəyə minir. Bu Saziş beş il müddətinə qüvvədə olacaqdır və Tərəflərdən biri bu Sazişin xitam olunmasına ən azı altı ay qalmış onun qüvvəsinə xitam vermək niyyətini yazılı şəkildə bildirmədiyi təqdirdə eyni müddətə uzadılacaqdır.

Bakı şəhərində 28 avqust 2007-ci il tarixində iki əsl nüsxədə Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər autentikdir. Fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ TİCARƏT VƏ SƏNAYE PALATASI ADINDAN	QƏTƏRİN TİCARƏT VƏ SƏNAYE PALATASI ADINDAN
SÜLEYMAN TATLIYEV	*YUSİF HÜSEYN KAMAL*
Palatasının prezidenti	*Maliyyə naziri*

Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası ilə Qətərin Ticarət və Sənaye Palatası arasında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası və Qətərin Ticarət və Sənaye Palatası,

bundan sonra "Şirkətlər" adlandırılacaq üzvləri arasında qarşılıqlı faydalı əsaslarla ticarət mübadiləsi və iqtisadi əməkdaşlığın inkişafı və diversifikasiyasına şərait yaratmağı arzulayaraq aşağıdakılarla razılaşırlar:

1. Tərəflər müvafiq Şirkətlər arasında ticarət mübadilələri və iqtisadi əməkdaşlığın təşviqinə və inkişafına istiqamətlənən fəaliyyəti (hər iki ölkədə mövcud olan qanunlara uyğun olaraq) habelə hər iki ölkə arasında mövcud olan sazişlər və anlaşmalara riayət edərək həvəsləndirəcək və onlara yardım göstərəcəklər.

2. Tərəflər ticarət mübadilələri və iqtisadi əməkdaşlığın təşviqi və inkişafına dair əlavə imkanları müəyyənləşdirməyə cəhd göstərəcəklər. Bu məqsədlə Tərəflər öz resursları çərçivəsində ticarət məlumatlarını və biznes imkanlarını mübadilə edəcək və yayacaqlar. Tərəflər həmçinin biznes tərəfdaşlarının müəyyən olunmasında yardım göstərəcəklər.

3. Yuxanda göstərilən 1-ci və 2-ci bəndlərdə təsbit olunmuş məqsədlərin həyata keçirilməsi üçün Tərəflər bundan sonra aşağıdakılarla razılaşırlar:

a) Tərəflərdən hər biri, mümkün olduğu təqdirdə, iqtisadi əməkdaşlığı gücləndirmək məqsədini güdən milli sərgilərin, beynəlxalq yarmarkaların, ixtisaslaşmış sərgilərin, iqtisadi və texniki yarmarkaların, informasiya ofislərinin, simpoziumların, konfransların və ya öz ölkələrində keçirilən digər oxşar tədbirlərin təşkilində və/və ya onlarda iştirakda digər Tərəfə yardım edəcəkdir.

b) Hər iki Tərəf iqtisadi və ticari qanunvericilik və digərinin arbitraj praktikası, mübahisələrin həlli yolları ilə bağlı məlumat mübadiləsini aparacaqdır. Hər iki Tərəf Azərbaycan və Qətərin hüquqi və fiziki şəxsləri arasında ticarət, iqtisadi və sənaye sahəsində əlaqələrdə meydana gələn mübahisələrin dostcasına arbitraj metodları vasitəsilə həllinə yardım göstərəcəkdir.

c) Tərəflər, qarşılıqlı maraqlarını qoruyaraq, bu Memorandumun səmərəliliyini və həyata keçirilməsini yoxlamaq və bu Anlaşma Memorandumuna uyğun olaraq, Tərəflər arasında iqtisadi əlaqələrin davamlı inkişafı üçün zəruri tədbirlərin müəyyənləşdirilməsi məqsədilə Azərbaycan və Qətər nümayəndələrinin görüşlərini növbə ilə təşkil edəcəklər.

d) Hər iki Tərəf ticarət təşkilatları və özəl şirkətlər arasında əlaqələri həvəsləndirəcəkdir. Tərəflər qarşılıqlı ticarət və marketinq araşdırmaları missiyalarının təşkilində bir-birinə yardım göstərəcəklər və faydalı biznes əlaqələrinin qurulmasında və ikitərəfli ticarəti təşviq etmək məqsədilə öz fəaliyyətlərində bir-birinə kömək edəcəklər.

4. Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qüvvəyə minir və iki il müddətində etibarlı olacaqdır. Bu Anlaşma Memorandumunun müddəti Tərəflərin qarşılıqlı razılığı və yazılı bildirişi əsasında növbəti ikiillik müddətlərə uzadıla bilər.

5. Bu Anlaşma Memorandumu və ya bu Anlaşma Memorandumuna hər hansı əlavə bu Anlaşma Memorandumunun qüvvədə olduğu tarixin sonuna iki aydan az qalmamaq şərtilə yazılı bildiriş verməklə hər hansı bir Tərəfdən ləğv edilə bilər.

Bu Anlaşma Memorandumunun xitam olmasından əvvəl başlanmış işlərə münasibətdə bu Anlaşma Memorandumu həmin işlərin başa çatmasına qədər qüvvədə qalacaqdır.

Bakı şəhərində 28 avqust 2007-ci il tarixində iki əsl nüsxədə, Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər autentikdir. Fikir ayrılığı yarandığı təqdirdə ingilis dilində olan mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ TİCARƏT VƏ SƏNAYE PALATASI ADINDAN	QƏTƏRİN TİCARƏT VƏ SƏNAYE PALATASI ADINDAN
SÜLEYMAN TATLIYEV	*YUSİF HÜSEYN KAMAL*
Palatasının prezidenti	*Maliyyə naziri*

Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 iyun tarixli 2272 nömrəli Sərəncamı ilə təsdiq edilmiş 2007-ci il mayın 3-də Rabat şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın təsis edilməsi haqqında Anlaşma Memorandumu"nun icrasını və iki ölkə arasındakı əlaqələrin daha da genişlənməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasın ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

Komissiyanın həmsədri

Elmar Məmmədyarov - Azərbaycan Respublikasının xarici işlər naziri

Komissiyanın üzvləri:

İlqar Fətizadə - Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini

Toğrul Musayev - Azərbaycan Respublikası ədliyyə nazirinin müavini

Natiq Qasımov - Azərbaycan Respublikası vergilər nazirinin müavini

Mikayıl Cabbarov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini

Gülməmməd Cavadov - Azərbaycan Respublikası sənaye və energetika nazirinin müavini

Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini

Bəhram Əliyev - Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Teymur Mehdiyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini

Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini

Sənan Kərimov - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

İltimas Məmmədov - Azərbaycan Respublikası rabitə və informasiya texnologiyaları nazirinin müavini

Səfər Mehdiyev - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

Vadim Xubanov - Azərbaycan Respublikası Milli Bankının İdarə Heyəti sədrinin müavini

Sabir Ağabəyov - Azərbaycan Respublikasının Mərakeş Krallığındakı Fövqəladə və Səlahiyyətli Səfiri

2. Bu Sərəncamın 1-ci bəndində göstərilən Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə tapşırılsın ki, Azərbaycan Respublikası və Mərakeş Krallığı arasında ikitərəfli əməkdaşlıq əlaqələrinin tənzimlənməsi və daha da genişləndirilməsi istiqamətində müvafiq tədbirləri həyata keçirsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 sentyabr 2007-ci il

№2413

"Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılması barədə" 1992-ci il 13 mart tarixli Sazişə əlavə və dəyişikliklərin edilməsi haqqında" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılması barədə" 1992-ci il 13 mart tarixli Sazişə əlavə və dəyişikliklərin edilməsi haqqında" 2000-ci il iyunun 20-də Moskva şəhərində imzalanmış Protokol Azərbaycan Respublikasının həmin Protokola dair xüsusi rəyi ilə (xüsusi rəyin mətni əlavə olunur) təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2007-ci il

№395-IIIQ

Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılması barədə 1992-ci il 13 mart tarixli Sazişə əlavə və dəyişikliklərin edilməsi haqqında Protokol

Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılması barədə 1992-ci il 13 mart tarixli Sazişin iştirakçısı olan dövlətlərin hökumətləri,

sertifikatlaşdırma üzrə orqanların, sınaq və ölçmə laboratoriyalarının akkreditasiyası sahəsində razılaşdırılmış siyasətin aparılmasının zəruriliyini etiraf edərək, həmçinin

- azad ticarət zonasının yaradılması zamanı Birliyin iştirakçısı olan dövlətlərin ticarət-iqtisadi, elmi-texniki əməkdaşlığında texniki maneələrin aradan qaldırılmasına yardım edəcək ümumi normativ texniki və metroloji təminatın qorunması və gələcək inkişafı üçün şəraitin yaradılması,
- Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə Dövlətlərarası Şuranın Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi ilə qarşılıqlı fəaliyyətinin təmin edilməsi,
- Dövlət Başçıları Şurasının MDB orqanlarının strukturunun təkmilləşdirilməsi və dəyişdirilməsi haqqında 1999-cu il 2 aprel tarixli Qərarının həyata keçirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

1. Standartlaşdırma metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılması barədə 1992-ci il 13 mart tarixli Sazişə (bundan sonra - Saziş) aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1.1. Sazişin bütün mətnində "standartlaşdırma, metrologiya və sertifikatlaşdırma" sözləri "standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrində akkreditasiya" sözləri ilə əvəz edilsin.

1.2. Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə Dövlətlərarası Şura haqqında Əsasnamə yeni redaksiyada verilsin (əlavə olunur).

2. Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılması barədə Sazişə dair 1995-ci il 3 noyabr tarixli Protokol qüvvədən düşmüş hesab edilsin.

3. Bu Protokol imzalandığı gündən, qanunvericiliyi Protokolun qüvvəyə minməsi üçün dövlətdaxili prosedurların yerinə yetirilməsini tələb edən dövlətlər üçün isə qeyd olunan prosedurların yerinə yetirilməsi barədə xəbərdarlığın depozitariyə saxlanılmağa verildiyi gündən qüvvəyə minir. Bu Protokolun imzalandığı gündən üç ay ərzində Dövlətlər bu prosedurların yerinə yetirilməsinin zəruriliyi haqqında depozitarini məlumatlandırırlar.

4. Bu Protokolun tətbiqi və təfsirinə aid mübahisəli məsələlər məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

Moskva şəhərində 2000-ci il iyunun 20-də bir əsl nüsxədə olmaqla rus dilində imzalanmışdır. Əsl nüsxə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır. İcraiyyə Komitəsi onun təsdiq olunmuş surətlərini bu Protokolu imzalamış hər bir ölkəyə göndərəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN *A.ABBASOV*	MOLDOVA RESPUBLİKASI ADINDAN *D.BRAGİS*
ERMƏNİSTAN RESPUBLİKASI ADINDAN *A.MARQARYAN*	RUSİYA FEDERASİYASI ADINDAN *M.KASYANOV*
BELARUS RESPUBLİKASI ADINDAN *V.YERMOŞİN*	TACİKİSTAN RESPUBLİKASI ADINDAN *A.AKİLOV*
GÜRCÜSTAN ADINDAN *Q.ARSENİŞVİLİ*	TÜRKMƏNİSTAN ADINDAN *imzalanmayıb*
QAZAXISTAN RESPUBLİKASI ADINDAN *K.TOKAYEV*	ÖZBƏKİSTAN RESPUBLİKASI ADINDAN *B.HƏMİDOV*
QIRĞIZISTAN RESPUBLİKASI ADINDAN *A.MURALİYEV*	UKRAYNA ADINDAN *V.YUŞENKO*

Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılması barədə 1992-ci il 13 mart tarixli Sazişə əlavə və dəyişikliklərin edilməsi haqqında 2000-ci il 20 iyun tarixli Protokola ƏLAVƏ

Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə Dövlətlərarası Şura haqqında Əsasnamə

1. ÜMUMİ MÜDDƏALAR

Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə Dövlətlərarası Şura (bundan sonra - Şura) standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrin-

də akkreditasiya üzrə əlaqələndirməni həyata keçirir, razılaşdırılmış siyasətin aparılması barədə qərarlar hazırlayır və qəbul edir.

Şura Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılması barədə 1992-ci il 13 mart tarixli Sazişin (bundan sonra - Saziş) iştirakçı dövlətlərinin səlahiyyətli nümayəndələrindən ibarətdir.

Şura dövlətlərarası standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrində akkreditasiya üzrə Şuranın işlərinin yerinə yetirilməsi və Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi üçün materialların hazırlanması məqsədilə Standartlar üzrə Büro yaradır.

Standartlar üzrə Büro Minsk şəhərində yerləşir.

Şuranın və onun işçi orqanının rəsmi dili rus dilidir.

2. ŞURANIN FUNKSİYALARI

Şura aşağıdakı əsas funksiyaları yerinə yetirir:

standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və akkreditasiya sahəsində dövlətlərarası əməkdaşlıq üzrə birgə fəaliyyətin prioritet istiqamətləri və formalarının hazırlanması və razılaşdırılması;

elmi tədqiqatların, elmi-texniki proqramların, plan və layihələrin əsas istiqamətlərinin baxılması və qəbul edilməsi;

Sazişlə nəzərdə tutulan Şuraya təhkim edilmiş sahələr üzrə sənədlərin iştirakçı dövlətlərin hökumətlərinin təsdiqinə təqdim edilməsi, səlahiyyətləri olduqda isə onların təsdiq edilməsi;

dövlətlərarası standartlar barədə qərarların qəbul edilməsi, standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrində akkreditasiya üzrə birgə işlərin aparılması qaydaları və prosedurlarının hazırlanması və qəbul edilməsi;

Şuraya təhkim edilmiş fəaliyyət sahələri üzrə MDB-nin İqtisadi Şurası yanında İqtisadi Məsələlər üzrə Komissiyanın, Müstəqil Dövlətlər Birliyinin İqtisadi Şurasının və Birliyin digər dövlətlərarası (hökumətlərarası) orqanlarının iclaslarına materialların hazırlanması;

standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrində akkreditasiya üzrə məqsədli proqram və texniki layihələrin yerinə yetirilməsi üçün xərclər smetalarının nəzərdən keçirilməsi və razılaşdırılması, onların maliyyə mənbələri üzrə təkliflərin hazırlanması;

Şura nəzdində elmi-texniki komissiyaların və texniki komitələrin yaradılması barədə qərarların qəbul edilməsi, onların iş planlarının və xərclər smetasının təsdiqi;

Şuraya təhkim edilmiş fəaliyyət sahələri üzrə beynəlxalq təşkilatlarla əməkdaşlığın həyata keçirilməsi.

Dövlətlərarası standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və akkreditasiya sahəsində işlərin və qarşılıqlı informasiya fəaliyyətinin səmərəliliyinin artırılmasına yardım göstərən, habelə standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrində akkreditasiya üzrə beynəlxalq və regional təşkilatlarla əməkdaşlığı təmin edən

dövlətlərarası təşkilati, hüquqi, elmi-texniki və digər tədbirlərin hazırlanması və həyata keçirilməsi məqsədilə Şura Birliyin səlahiyyətli orqanlarına qəbul edilmiş normalara uyğun olaraq özümaliyyələşdirmə əsasında fəaliyyət göstərən qeyri-kommersiya təşkilatlarının (fəaliyyət məqsədi mənfəət əldə etmək olmayan büdcədənkənar maliyyələşən təşkilatlar) yaradılması barədə təkliflər verə bilər.

Şura ona təhkim edilmiş fəaliyyət sahələri üzrə Sazişin iştirakçı dövlətlərinin hökumətləri ilə razılaşdırılmış, əlavə səlahiyyətlərlə müəyyən edilmiş digər funksiyaları da həyata keçirə bilər.

3. ŞURADA DÖVLƏTLƏRİN NÜMAYƏNDƏLİKLƏRİ

Sazişin iştirakçı dövlətlərinin standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə milli orqanlarının rəhbərləri həmin dövlətlərin Şurada nümayəndələridir ki, onlara da dövlətlər adından Şuraya üzv olmaq hüququ və bu Şuranın üzərinə qoyulmuş funksiyaların yerinə yetirilməsi üçün lazımi səlahiyyətlər verilir.

Şuranın üzvləri:

Şuranın bütün fəaliyyət növlərində həlledici səs hüququ ilə iştirak edirlər;

Şurada standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrində akkreditasiya üzrə dövlətlərarası əməkdaşlığın müxtəlif məsələlərinin müzakirəsini təşkil edirlər;

göstərilən fəaliyyət növlərində dövlətlərarası əməkdaşlığın konkret məsələləri üzrə öz dövlətlərinin mövqeyi barədə Şuraya məlumat verirlər;

milli orqanların fəaliyyəti barədə informasiya mübadiləsi aparır və standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrində akkreditasiya üzrə dövlətlərarası və beynəlxalq əməkdaşlığın konkret formalarında öz dövlətinin iştirakı ilə bağlı digər üzvlərlə danışıqlar aparırlar;

sistematik olaraq Şuranın iclaslarının stenoqramlarının, Şuranın elmi-texniki komissiyalarının və Standartlar üzrə Büronun cari fəaliyyəti barədə, həmçinin əməkdaşlığın konkret istiqamətləri üzrə informasiya alırlar;

sorğu ilə Şuraya və onun Standartlar üzrə Bürosuna standartlaşdırma, metrologiya, sertifikatlaşdırma üzrə milli orqanların fəaliyyəti barədə dövlətlərarası maraq kəsb edən konkret məsələlər üzrə lazımi informasiyanı təqdim edirlər.

4. ŞURANIN İŞİNİN TƏŞKİLİ

Standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrində akkreditasiya üzrə Şuranın qəbul etdiyi qərarlar Sazişin iştirakçı dövlətlərində milli qanunvericiliklərə müvafiq olaraq tətbiq edilir.

Şura öz iclaslarını zərurət olduqda, lakin yarım ildə bir dəfədən az olmamaqla keçirir. İclaslarda Şuranın üzvlərindən başqa digər dövlət nümayəndələri, Sazişin iştirakçı dövlətlərinin aparıcı sənaye sahələrinin həlledici səs hüququ olmayan nümayəndələri də iştirak edə bilər. İclaslarda dövlətlərin nümayəndə heyətlərinin tərkibinə lazımi sayda məsləhətçi və ekspertlər daxil edilə bilər.

Şuranın iclaslarında Müstəqil Dövlət Birliyi İcraiyyə Komitəsinin nümayəndəsi məşvə-

rətçi səs hüququ ilə iştirak edir.

Şurada sədrlik növbə ilə Birliyin iştirakçı dövlətləri tərəfindən, onun nümayəndəsi qismində rotasiya prinsipi əsasında bir ildən çox olmayan müddətə həyata keçirilir. Sədr iclaslara rəhbərlik edir və iclaslararası müddətdə onun işini təşkil edir.

İclasların gündəlikləri Şura üzvlərinin səs çoxluğu ilə təsdiq olunur.

Konkret dövlətlərarası proqramlar, texniki layihələr və əməkdaşlıq formaları üzrə qərarlar Şura üzvləri tərəfindən konsensus əsasında qəbul edilir.

İstənilən iştirakçı dövlətlərdən birinin maraqlarına toxunan qərarlar onu təmsil edən Şura üzvü olmadıqda qəbul edilə bilməz.

Prosedur məsələləri üzrə qərar səs çoxluğu ilə qəbul edilir.

Şuranın sədri:

standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə milli orqanlarla razılaşdırmaqla sənaye, kənd təsərrüfatı və iqtisadiyyatın digər sahələrinin inkişafı üzrə çoxtərəfli razılaşma çərçivəsində birgə proqram layihələrinin hazırlanmasında iştirak etmək üçün Birliyin iştirakçı dövlətlərinin mütəxəssislərini cəlb edir;

Müstəqil Dövlətlər Birliyinin İqtisadi Şurası yanında İqtisadi Məsələlər üzrə Komissiyanın işində məşvərətçi səs hüququ ilə iştirak edir.

Şura Sədrinin tapşırığı ilə Müstəqil Dövlətlər Birliyinin İqtisadi Şurası yanında İqtisadi Məsələlər üzrə Komissiyanın, Müstəqil Dövlətlər Birliyi İqtisadi Şurasının, Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsinin, standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrində akkreditasiya məsələləri üzrə digər dövlətlərarası orqanların işində Şuranın digər üzvü iştirak edə bilər.

İclaslararası fasilələrdə Şura üzvləri öz dövlətlərində Şuranın qəbul etdiyi qərarların həyata keçirilməsi üzrə işi təşkil edir, Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi ilə, Şura tərəfindən və öz aralarında yaradılmış təşkilatlarla əlaqələr saxlayır.

5. STANDARTLAR ÜZRƏ BÜRO

Standartlar üzrə Büro Şura tərəfindən yaradılır və Şuranın fəaliyyətinin əsas istiqamətləri üzrə daimi işləyən mütəxəssislərdən ibarətdir. Məsləhətçi-təşkilatçıların say tərkibi Şura tərəfindən müəyyən edilir.

Standartlar üzrə Büro öz fəaliyyətində Şura haqqında bu Əsasnaməni, standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrində akkreditasiya sahəsində razılaşdırılmış siyasətin aparılması məsələləri üzrə qəbul edilmiş dövlətlərarası Sazişi və digər sənədləri, Şura tərəfindən təsdiq olunmuş Standartlar üzrə Büro haqqında Əsasnaməni rəhbər tutur.

Standartlar üzrə Büro öz fəaliyyətini həyata keçirmək üçün yerləşdiyi ölkənin qanunvericiliyinə müvafiq olaraq özünün hüquqi şəxs statusunu sənədləşdirir. O, üzərində adı əks olunmuş möhürə və bank hesabına malikdir.

Standartlar üzrə Büro lazımi yerlə təmin olunur. Şuraya xidmət göstərmək üçün təşkilati texnika, rabitə, nəqliyyatla və onun normal fəaliyyəti üçün lazım olan digər atributlarla təchiz edilir.

Standartlar üzrə Büronun Şuranın işinin təşkili və aparatın saxlanması ilə bağlı xərclərinin maliyyələşdirilməsi Sazişin iştirakçısı olan dövlətlərin standartlaşdırma, metrologiya, sertifikatlaşdırma üzrə milli orqanlarının büdcədənkənar mənbələrdən köçürülmüş illik ödənişləri, həmçinin məsləhət - informasiya və metodiki - təşkilati fəaliyyəti nəticəsində daxil olmuş vəsaitlər və təsərrüfat subyektləri tərəfindən dövlətlərarası standartlaşdırma üzrə işlərin ödənişi və digər mənbələrin hesabına həyata keçirilir.

Standartlaşdırma, metrologiya, sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılması barədə Sazişə əlavə və dəyişikliklərin edilməsi haqqında 2000-ci il 20 iyun tarixli Protokola Azərbaycan Respublikasının xüsusi rəyi

Şura haqqında Əsasnamənin 2-ci bölməsinin səkkizinci abzasının "texniki komitələr" ifadəsi, habelə Şuranın beynəlxalq hüquq subyektliyini, onun yeni strukturlar yaratmasını və Sazişin iştirakçı dövlətlərdə Şuranın qərarlarının tətbiq edilməsini nəzərdə tutan həmin bölmənin doqquzuncu və onuncu abzasları və 4-cü bölmənin birinci abzası istisna olmaqla.

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini A. ABBASOV

"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin açıq elmi-texniki informasiyaya sərbəst çıxışı və həmin informasiyanı mübadilə etməsi qaydası haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin açıq elmi-texniki informasiyaya sərbəst çıxışı və həmin informasiyanı mübadilə etməsi qaydası haqqında" 1998-ci il sentyabrın 11-də Moskva şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2007-ci il

№396-IIIQ

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin açıq elmi-texniki informasiyaya sərbəst çıxışı və həmin informasiyanı mübadilə etməsi qaydası haqqında Saziş

Bu Sazişin üzv dövlətləri bundan sonra "Tərəflər" adlanacaq hökumətlərinin şəxsində, Müstəqil Dövlətlər Birliyinin informasiya məkanının formalaşması konsepsiyasını rəhbər tutaraq,

informasiyaya sərbəst çıxış prinsiplərini rəhbər tutaraq,

informasiya istifadəçilərinin onların vətəndaşlığından və yaşadığı ölkədən asılı olmayaraq informasiya resurslarına çıxış hüquqlarına hörmətlə yanaşaraq,

birgə istifadə üçün informasiya resurslarına çıxış qaydasının təsis edilməsinin vacibliyini nəzərə alaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişin məqsədləri üçün aşağıda adları çəkilən terminlər bu mənalar daşıyırlar:

informasiyaya sərbəst çıxış - istifadəçilərə informasiyanın verilməsi - vətəndaşların, hüquqi şəxslərin, dövlət hakimiyyəti və idarəçilik orqanlarının, regional və yerli özünüidarə orqanlarının, Sazişin üzv dövlətlərinin ictimai birliklərinin milli qanunvericiliklə qadağan olunmayan elmi, elmi-texniki, istehsalat, ictimai və digər fəaliyyətləri həyata keçirərkən alınmasının, saxlanmasının, istifadəsinin və yayılmasının sərbəstliyi imkanını nəzərdə tutan açıq informasiya almaq hüququ;

açıq elmi-texniki informasiya - elmi tədqiqat, sınaq-konstruktor, texnoloji, layihə və digər elmi və istehsalat fəaliyyətləri nəticəsində əldə edilmiş və Tərəflər arasında mövcud hüquqi rejimə müvafiq olaraq istifadəsinə icazə verilmiş elmi-texniki, iqtisadi və sosial bilikləri əks etdirən məlumatlar;

törəmə informasiya - ilkin informasiyanın işlənməsi nəticəsində əldə edilən informasiya;

sənədləşdirilmiş informasiya (sənəd) - material daşıyıcı rekvizitlərlə birlikdə qeyd edilmiş və onları müqayisə etməyə imkan verən informasiya;

informasiya sistemi - informasiya proseslərini realizə edən sənədlərin və informasiya texnologiyalarının təşkilati qaydaya salınmış məcmusu (*sənədlərin massivləri*);

informasiya resursları - ayrı-ayrı sənədlər və sənədlərin massivləri, informasiya sistemlərində sənədlər və sənədlərin massivləri (kitabxanalarda, arxivlərdə, fondlarda, məlumat bazasında, digər informasiya sistemlərində);

birgə istifadə üçün informasiya resursları - dövlətlərarası elmi-texniki informasiya mübadiləsinə dair Sazişin üzv dövlətlərinin yurisdiksiyası altında olan və onlar tərəfindən dövlətin mübadiləni etmək üçün kifayət qədər təyin etdiyi hissədə dövlətlərarası elmi-texniki informasiyanı təmin edən elementlər kimi müəyyən etdiyi informasiya resurslarının toplusu;

informasiya məhsulları - istifadəçilərin tələbatına müvafiq olaraq hazırlanmış və istifadəçilərin tələbatlarını ödəmək üçün nəzərdə tutulmuş və ya tətbiq edilən sənədləşdirilmiş informasiya;

informasiya xidmətləri - istifadəçiləri informasiya məhsulları ilə təchiz etmək üçün subyektlərin (sahibkarların və sahiblərin) hərəkətləri;

sənədləşdirilmiş informasiyanın, informasiya resurslarının, informasiya məhsullarının sahibkarı - qanunla müəyyən edilmiş həcmdə qeyd edilən obyektlər üzərində sahiblik, istifadə və sərəncam vermə səlahiyyətlərini həyata keçirən subyekt;

sənədləşdirilmiş informasiyanın, informasiya resurslarının, informasiya məhsullarının sahibi - qeyd edilən obyektlər üzərində sahiblik, istifadə və sərəncam vermə səlahiyyətlərini sahibkar tərəfindən müəyyən edilmiş həcmdə həyata keçirən subyekt;

informasiyanın, dövlətlərarası informasiya mübadiləsinin istifadəçisi (bundan sonra

- istifadəçi) - ona lazım olan informasiya məhsullarını və ya dövlətlərarası informasiya mübadiləsinin vasitələrindən istifadə etmək imkanını əldə etmək üçün sahibkara və ya sahibə müraciət edən subyekt;

dövlətlərarası informasiya mübadiləsi - mövcud hüquqi rejimə müvafiq olaraq dövlət sərhədindən informasiya məhsullarının ötürülməsi və alınması, eləcə də informasiya xidmətlərinin göstərilməsi;

dövlətlərarası informasiya mübadiləsi vasitələri - dövlətlərarası informasiya mübadiləsi zamanı istifadə edilən informasiya sistemləri və şəbəkələri, rabitə şəbəkələri;

informasiya təhlükəsizliyi - vətəndaşların, təşkilatların, dövlətlərin maraqları naminə onun formalaşmasını, istifadəsini və inkişafını təmin edən ictimaiyyətin informasiya mühitinin mühafizə vəziyyəti.

Maddə 2

Hər bir Tərəf:

istifadəçilərə açıq elmi-texniki informasiyaya sərbəst çıxışı təmin edir;

informasiya strukturlarının əlaqələndirilmiş hərəkətlərinin həyata keçməsi üçün və birgə istifadə olunan elmi-texniki informasiyanın resurslarını səmərəli istifadə etmək üçün tədbirlər görür;

tərəflərin birgə istifadəsi üçün elmi-texniki informasiya sərbəst çıxış prinsiplərinin əməli həyata keçirilməsi üçün şərait yaradır;

informasiya resurslarının, informasiya məhsullarının, informasiya sistemlərinin uçotunu və qeydiyyatını və onlar haqqında məlumatların nəşrini təşkil edir;

elektron kataloqların və elmi-texniki informasiyanın ünvanlı sorğu məlumat bazasının formalaşmasını təmin edir.

Maddə 3

1. Dövlətlərarası informasiya mübadiləsi üçün təqdim edilən Tərəflərin dövlət informasiya resursları sərbəst çıxış obyektləri sayılırlar.

2. Olduğu ölkədən və vətəndaşlıqdan asılı olmayaraq informasiya istifadəçiləri açıq informasiya resurslarına çıxış üçün eyni hüquqlara malikdirlər.

3. Dövlət informasiya resurslarından qanuni əsaslarla istifadəçilərin aldığı informasiya onlar tərəfindən törəmə informasiyanın yaradılması üçün istifadə oluna bilər. Elmi-texniki informasiyanın istifadə olunması onun mənbəyinə məcburi istinadla həyata keçirilməlidir.

Maddə 4

1. Sahibkar və ya sahib müqavilə əsasında elmi-texniki informasiyanın istifadəçi tərəfindən alınması qaydasını və şərtlərini müəyyən edir. Elmi-texniki informasiyanın verilməsi gəlirsiz, pulsuz əsasda olduğu kimi, eynilə də bu Saziş ilə müəyyən edilmiş tələblərə əməl olunmaqla onun kommersiya yönlü satışı ilə həyata keçirilə bilər. Pulsuz olaraq və ya gəlirsiz əsasda dövlət informasiya resurslarından verilən informasiya xidmətlərinin siyahısı Tərəflərin hər biri tərəfindən müəyyən edilir.

2. Təqdim edilən elmi-texniki informasiyanın və informasiya təminatına dair xidmətlərin siyahısı, onun alınması barədə qayda və şərtlər istifadəçilərə pulsuz təqdim edilir.

3. Elmi-texniki informasiyanın mübadiləsini və birgə istifadə olunan informasiya resurslarına çıxışı tənzimləyən təlimat-metodiki sənədlər elmi-texniki informasiya üzrə Dövlətlərarası Əlaqələndirmə Şurası tərəfindən təsdiq edilir.

4. Sənədləşdirilmiş informasiya, informasiya resursları, informasiya məhsullarının sahibkarı öz dövlətlərarası mübadilə obyektlərinin mühafizəsi üzrə tədbirlərin həyata keçirilməsinə nəzarət etmək, müəyyən edilmiş tələblərin və müqavilənin şərtlərinin yerinə yetirilməməsi hallarında informasiya məhsullarının ötürülməsini və dövlətlərarası vasitələrə çıxışı qadağan etmək və ya dayandırmaq hüququna malikdir.

Sahibkar bu Saziş ilə müəyyən edilmiş şərtlərə müvafiq olaraq istifadəçilərə öz mülkiyyət obyektlərinə çıxışı təmin etməlidir.

Maddə 5

1. Tərəflərin dövlət idarəetmə orqanları və eləcə informasiya resurslarının formalaşdırılmasına və istifadəsinə Tərəflərin məsuliyyət daşıyan təşkilatları öz səlahiyyətlərinə müvafiq olaraq istifadəçilərə tam və həqiqi informasiyanın operativ çatdırılması üçün şərtləri təmin edirlər.

2. Sənədləşdirilmiş informasiyanın, informasiya resurslarının, informasiya məhsullarının sahibi normativ, proqram və texnoloji uyğunluq əsasında milli qanunvericiliyə və ya bu informasiya resurslarının sahibkarı tərəfindən müəyyən edilmiş işlətmə rejiminə və istifadəçiyə informasiyanın verilməsi qaydalarına əməl edilməsini təmin etməlidir.

Maddə 6

1. Birgə istifadə üçün nəzərdə tutulmuş informasiya resurslarına aşağıdakılar aiddir:

Tərəflərin 1991-ci ilədək birgə yaratdıqları informasiya resursları;

1991-ci ildən sonra yaradılmış və Tərəflərin birgə istifadəyə verdiyi informasiya resursları;

Tərəflərin birgə formalaşdırdığı informasiya resursları.

2. Birgə istifadə üçün informasiya resursları aşağıdakı yollarla təqdim edilir:

elmi-texniki informasiya fondlarına sərbəst çıxışla;

Tərəflərin kitabxanalararası abonementinin istifadəsi ilə;

birgə istifadə üçün kompüter informasiya şəbəkələrinə, məlumat bazalarına və banklarına daxil olma ilə;

birgə istifadə üçün sorğu elektron kataloqları və ünvanlı sorğu-məlumat bazalarına müraciət etmə yolu ilə.

3. Birgə istifadənin informasiya resurslarının icazəsiz çıxışdan mühafizəsi Tərəflərin qanunverici və digər normativ aktları ilə təmin edilir.

Maddə 7

1. Tərəflər aşağıdakıları öz öhdələrinə götürürlər:

öz informasiya resurslarının vəziyyəti və inkişafı barədə məlumat və təcrübə mübadiləsini təşviq etmək;

iqtisadi xarakterli tədbirlər sistemi vasitəsilə dövlətlərarası informasiya mübadiləsinin intensivliyini stimullaşdırmaq;

inkişaf etmiş informasiya infrastrukturunun, o cümlədən MDB Hökumət Başçıları Şurasının qərarı ilə 13 noyabr 1992-ci ildə yaradılmış Dövlətlərarası Elmi-Texniki İnformasiya Mübadiləsinin İnkişaf Fondunun yaranmasına kömək göstərmək.

2. Dövlətlərarası elmi-texniki informasiya mübadiləsinin reallaşdırılması mexanizmi üzrə prinsipial məsələlərə dair Elmi-Texniki İnformasiya üzrə Dövlətlərarası Əlaqələndirmə Şurası tərəfindən qəbul edilmiş təlimat-metodiki sənədlərin əsasında elmi-texniki əməkdaşlığın həyata keçirilməsinə məsul Tərəflərin dövlət idarəetmə orqanları milli qanunvericiliyə uyğun olaraq normativ hüquqi aktlara müvafiq dəyişiklik və əlavələrin edilməsi üzrə tədbirlər həyata keçirir.

3. Tərəflər birlikdə Dövlət Elmi-Texniki İnformasiya Rubrikatoru əsasında (QOST 7.49-84) MDB-nin üzv dövlətlərinin Elmi-Texniki İnformasiyasının Dövlətlərarası Rubrikatorunu bu dövlətlərin informasiya tələbatlarının xüsusiyyətlərini nəzərə almaqla işləyib hazırlayırlar. Adı çəkilən sənədin qəbul edilməsinə qədər Tərəflər dövlətlərarası Elmi-Texniki İnformasiyanın Dövlət Rubrikatorunu QOST 7.49-84 istifadə edirlər.

Maddə 8

Tərəflər aşağıdakılara yönəlmiş dövlətlərarası informasiya mübadiləsi iştirakçılarının dövlət dəstəyi prinsiplərinin və mexanizmlərinin işlənib hazırlanması və tətbiqi üzrə əlaqələndirilmiş hərəkətlərin aparılması üçün tədbirlər həyata keçirəcəklər:

milli informasiya resurslarının vəziyyətində keyfiyyətli dəyişikliklərin həyata keçirilməsi üçün elmi tədqiqatların aparılması;

müasir informasiya texnologiyaları əsasında prinsipcə yeni informasiya məhsullarının və xidmətlərin yaradılması;

milli informasiya infrastrukturunun və dövlətlərarası informasiya mübadiləsinin formalaşdırılması, inkişafı və təkmilləşdirilməsi.

Maddə 9

1. Tərəflər elmi-texniki informasiyanın sənədləşdirilmiş informasiya və informasiya məhsulları şəklində rüsum çıxılmadan, milli qanunvericiliyə və Birliyin üzv dövlətlərinin beynəlxalq razılaşmalarına müvafiq olaraq tərtib edilmiş müşayiətedici sənədlərin gömrük orqanlarına təqdim edilməsi ilə idxalı, ixracı və yerdəyişməsi prosedurlarının işlənib hazırlanması üçün tədbirlər həyata keçirəcəklər.

2. Tərəflər bu Sazişin üzv dövlətlərindən tədris, elmi və mədəni xarakterli kitabların, qəzetlərin, dövri nəşrlərin gömrük rüsumu və əlavə dəyər vergisi tutulmadan idxalını və ixracını müəyyən edən Tədris, elmi və mədəni xarakterli materialların idxalı haqqında 22 noyabr 1950-ci il tarixli Beynəlxalq Sazişə (Florensiya Konvensiyası) və ona dair 26 noyabr 1976-cı il tarixli Əlavə Protokola qoşulmaq üçün tədbirlər həyata keçirəcəklər.

Maddə 10

Hər bir Tərəf bu Sazişin müddəalarına zidd olan və orada müəyyən edilmiş məqsədlərin həyata keçirilməsinə mane olan və eləcə də digər Tərəflərə xələl yetirən hərəkətlərə yol vermir.

Maddə 11

Bu Sazişin tətbiqi və ya şərhi ilə əlaqədar olan mübahisəli məsələlər maraqlı Tərəflərin arasında aparılan məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

Mübahisəli məsələləri danışıqlar yolu ilə həll etmək mümkün olmadıqda, Tərəflər Müstəqil Dövlətlər Birliyinin İqtisad Məhkəməsinə və ya digər beynəlxalq məhkəmə orqanlarına müraciət edirlər.

Maddə 12

Bu Sazişə Tərəflərin ümumi razılığı ilə Sazişin ayrılmaz hissəsi sayılan ayrı-ayrı protokollar şəklində dəyişikliklər və əlavələr edilə bilər və onlar bu Sazişin 16-cı maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minir.

Maddə 13

Bu Sazişin müddəaları digər beynəlxalq müqavilələrə müvafiq olaraq Tərəflərin qəbul etdiyi öhdəliklərə təsir göstərmir.

Maddə 14

Hər bir Tərəf bu Sazişdən çıxmazdan əvvəl bu barədə Depozitariyə 6 aydan gec olmayaraq yazılı şəkildə xəbərdarlıq göndərməklə çıxa bilər.

Maddə 15

Bu Saziş onun məqsəd və prinsiplərinə şərik çıxan və bu Sazişdən irəli gələn öhdəliklərin yerinə yetirilməsini üzərinə götürməyə hazır olan digər dövlətlərin Depozitariyə qoşulma barədə sənədlərini təqdim etmək yolu ilə qoşulması üçün açıqdır.

Maddə 16

Bu Saziş, əgər Tərəflərin qanunvericiliyinə zidd deyilsə, imzalandığı gündən müvəqqəti tətbiq edilir və onun qüvvəyə minməsi üçün lazım olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə onu imzalamış Tərəflərin üçüncü bildirişinin Depozitariyə saxlanılmağa təhvil verildiyi gündən qüvvəyə minir.

Lazımi dövlətdaxili prosedurları sonralar yerinə yetirən Tərəflər üçün o, depozitariyə müvafiq bildirişin saxlanılmağa təhvil verildiyi gündən qüvvəyə minir.

Bu sənəd Moskva şəhərində 11 sentyabr 1998-ci il tarixdə bir əsl nüsxədə olmaqla rus dilində tərtib edilmişdir. Əsl nüsxə Müstəqil Dövlətlər Birliyinin İcraçı Katibliyində saxlanılır və o, bu Sazişi imzalamış hər bir dövlətə onun təsdiq edilmiş surətini göndərəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MOLDOVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*
ERMƏNİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	RUSİYA FEDERASİYASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*
BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TACİKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*
GÜRCÜSTAN HÖKUMƏTİ ADINDAN	TÜRKMƏNİSTAN HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*
QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	ÖZBƏKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*
QIRĞIZISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	UKRAYNA HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

"GUAM: Qitələri birləşdirərək" Bakı Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2007-ci il iyunun 19-da Bakı şəhərində GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın 2-ci Zirvə Toplantısında imzalanmış "GUAM: Qitələri birləşdirərək" Bakı Bəyannaməsi təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2007-ci il

№397-IIIQ

"GUAM: Qitələri birləşdirərək" Bakı Bəyannaməsi

GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın Dövlət Başçıları Şurası,

GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın (bundan sonra - GUAM) Nizamnaməsini, o cümlədən beynəlxalq hüquq prinsiplərini və normalarını rəhbər tutaraq,

on il bundan əvvəl GUAM dövlətlərinin sülh, təhlükəsizlik və sabitliyə olan ümumi təhdid və təhlükələrə qarşı birgə mübarizə aparmaq məqsədilə birləşdiyini xatırladaraq,

bu üç il ərzində GUAM-ın strateji məqsədlərini uğurla inkişaf etdirdiyini, əməkdaşlıq diapazonunu iqtisadi, parlamentlərarası, mədəni və humanitar, qarşılıqlı fəaliyyət istiqamətində genişləndirdiyini və tamhüquqlu beynəlxalq regional təşkilata çevrildiyini məmnuniyyətlə qeyd edərək,

maraqların ümumiliyinə və bərabərlik, qarşılıqlı hörmət və dəstək prinsiplərinə əsaslanan əməkdaşlığın etibarlı özülünün GUAM-ın beynəlxalq aləmə daxil olmasını təmin etdiyini və qitələri birləşdirən beynəlxalq struktur kimi onun transregional rolunun inkişafı üçün şərait yaratdığını qeyd edərək,

Bakı Sammitində beynəlxalq səviyyədə iştirakını bəyənərək və bunu GUAM-a artan dəstəyin və tərəfdaş dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf perspektivinin dəlili kimi nəzərdən keçirərək,

belə əməkdaşlığın GUAM ölkələrində bütün sahələrdə demokratik sabitliyin təmin olunması və dinamik inkişaf üçün həyata keçirildiyini, onların qlobal və regional inteqrasiya prosesində müsbət rol oynadığını qeyd edərək,

GUAM dövlətlərinin xalqlarının mənəvi və mədəni irsini yüksək qiymətləndirərək və etnosların, mədəniyyətlərin müxtəlifliyinin qorunmasına, dözümlülük əhvalı-ruhiyyəsinin möhkəmlənməsinə yardım göstərməyə hazır olduğunu bildirərək,

beynəlxalq terrorizm, aqressiv separatizm, ekstremizm və bunlarla bağlı digər təhlükəli cinayətlərdən irəli gələn böhran və artan təhdidlərlə əlaqədar dərin narahatlığını bildirərək və beynəlxalq ictimaiyyətin diqqətini GUAM dövlətlərinin üzləşdiyi problemlərin mürəkkəbliyinə, ciddiliyinə və miqyasına yönəldərək,

1. GUAM regionunda demokratik dəyərlərin bərqərar olması, qanunun aliliyi, insan hüquqlarına və başlıca azadlıqlarına hörmət, davamlı iqtisadi inkişafa nail olmaq, təhlükəsizliyin və sabitliyin təminatı məqsədilə əməkdaşlığı genişləndirmək sahəsində qətiyyətini bildirir.

2. Ümumi maraqların möhkəmləndirilməsi və müəyyən sahə üzrə əməkdaşlığın dərinləşdirilməsi yolu ilə GUAM-ın regional əhəmiyyətini və mövqeyini möhkəmləndirmək istiqamətində davamlı təşəbbüsünü bəyan edir. GUAM regionunda inteqrasiya və təhlükəsizlik məkanının yaradılması üçün üzv dövlətlərin sosial-iqtisadi, nəqliyyat, enerji, elmi-texniki, humanitar, qanunvericilik və hüquq mühafizə sahəsində potensialının tam şəkildə reallaşdırılmasını zəruri hesab edir. Bununla əlaqədar olaraq, müəyyən sahə üzrə əməkdaşlığın inkişafı strategiyasını qəbul edir.

3. Digər dövlətlərin və beynəlxalq təşkilatların GUAM ilə tərəfdaşlıq yaratmalarına və qarşılıqlı faydalı əməkdaşlığın dərinləşdirilməsinə artan marağını bəyənir və GUAM-ın

fəaliyyətinin Ümumavropa, Transatlantik, Qara dəniz, Transxəzər və Asiya istiqamətlərini inkişaf etdirmək məqsədilə tədbirlər görməyi həvalə edir.

4. Əraziləri Avropa və Asiya arasında təbii dəhliz təşkil edən GUAM-a üzv dövlətlərin hakim coğrafi mövqelərini və strateji əhəmiyyətini vurğulayır. Bu dəhlizin hərtərəfli inkişafı üçün GUAM-ın tranzit potensialından istifadə və beynəlxalq dəstəyin, investisiyanın cəlb olunması təşəbbüslərini artırmaq barədə tapşırıq verir. Bu baxımdan qanunvericiliyin uyğunlaşdırılması, iqtisadi və ticari inkişafa əngəl törədən maneələrin aradan qaldırılması, infrastrukturun inkişafı, nəqliyyat dəhlizlərinin səmərəliliyinin və təhlükəsizliyinin təmini, terrorizmə, mütəşəkkil cinayətkarlığa, narkotik maddələrin qeyri-qanuni alverinə və cinayətin digər təhlükəli növlərinə qarşı birgə mübarizədə əməkdaşlığın genişləndirilməsinin vacibliyini qeyd edir.

5. Qlobal enerji təhlükəsizliyinin gücləndirilməsində fəal iştirak etmək, karbohidrogen resurslarının yeni mənbələrini aşkar etmək sahəsində gələcək təşəbbüsləri dəstəkləmək niyyətini, belə resursları dünya bazarına çıxarmaq üçün üzv dövlətlərin ərazilərini təklif etməyə hazır olduğunu bildirir, alternativ və bərpa olunan enerji növlərinin araşdırılması və inkişafı sahəsində gələcək əməkdaşlığın vacibliyini qeyd edir.

6. Münaqişələrin nizamlanması, beynəlxalq təhlükəsizliyin təminatı, qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi, qlobal və regional inteqrasiyanın ahəngdar inkişafı məqsədilə əlverişli şəraitin yaradılması üçün dövlətlərin beynəlxalq səviyyədə qəbul olunan sərhədləri çərçivəsində icmalararası və dinlərarası dialoqun inkişafı və milli azlıqlara mənsub şəxslərin hüquqlarının qorunması zəruriliyini bəyan edir, GUAM-ın müvafiq beynəlxalq təşəbbüslərini hazırlamaq barədə göstəriş verir.

7. Suverenlik, ərazi bütövlüyü, dövlətlərin beynəlxalq səviyyədə qəbul olunan sərhədlərinin toxunulmazlığı prinsiplərinə hörmət etməklə və münaqişələrin həlli üzrə GUAM-a üzv dövlətlərin başçılarının Birgə Bəyannaməsinin müddəalarına müvafiq olaraq, o cümlədən bu münaqişələrin həlli üçün beynəlxalq ictimaiyyətin dəstəyini səfərbər etmək zərurəti əsasında GUAM regionunda həlli uzanan münaqişələrin nizamlanması üzrə fəal şəkildə birgə fəaliyyət göstərmək zərurətini təsdiqləyir. Əlaqədar ərazilərin dövlətin siyasi, hüquqi, sosial-iqtisadi sisteminə yenidən inteqrasiyası, onların tam bərpası, məcburi köçkünlərin öz daimi yaşayış yerlərinə qaytarılması, nəqliyyat kommunikasiyalarının bərpası və bu ərazilərdə icmaların sülh şəraitində yaşamasının və əməkdaşlığın təmin edilməsi yolu ilə münaqişələrin nizamlanmasının alternativsizliyinə, ədalətliliyinə və möhkəmliyinə əminliyini bildirir.

8. Katibliyin yaradılması da daxil olmaqla GUAM-ın beynəlxalq regional təşkilata çevrilməsini məmnuniyyətlə qeyd edir və Bakı Sammitinin GUAM- ın 10-cu ildönümündə keçirilməsini xüsusi vurğulayır. Bununla əlaqədar olaraq Sədrlik edən tərəfə Katibliklə əməkdaşlıq edərək üzv dövlətlərin iştirakı ilə beynəlxalq tədbirlər təşkil etməyi həvalə edir.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN	MOLDOVA RESPUBLİKASI ADINDAN
İLHAM ƏLİYEV	*VASİLİ TARLEV*
Azərbaycan Respublikasının Prezidenti	*Moldova Respublikasının Baş naziri*

GÜRCÜSTAN ADINDAN

MİXAİL SAAKAŞVİLİ
Gürcüstan Prezidenti

UKRAYNA ADINDAN

VİKTOR YUŞENKO
Ukrayna Prezidenti

"GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın imtiyazları və immunitetləri haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının *Milli Məclisi* qərara alır:

I. 2007-ci il iyunun 19-da Bakı şəhərində GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın 2-ci Zirvə Toplantısında imzalanmış "GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın imtiyazları və immunitetləri haqqında" Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi *gündən qüvvəyə minir.*

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2007-ci il

№398-IIIQ

GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın imtiyazları və immunitetləri haqqında Saziş

GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilata üzv dövlətlər - Azərbaycan Respublikası, Gürcüstan, Moldova Respublikası və Ukrayna:

beynəlxalq hüququn hamı tərəfindən qəbul olunmuş prinsip və normalarını rəhbər tutaraq,

GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın Nizamnaməsinin 16-cı maddəsinin müddəalarını nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Fəsil I

ANLAYIŞLAR

Maddə 1

Bu Sazişin məqsədləri üçün:

a) "GUAM" - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatı bildirir;

b) "Nizamnamə" - 23 may 2006-cı il tarixində Kiyev şəhərində imzalanmış GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın Nizamnaməsini bildirir;

c) "üzv dövlətlər" - Nizamnamənin və bu Sazişin iştirakçısı olan dövlətləri bildirir;

d) "Şura" - GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın Şurasını ifadə edir;

e) "daimi nümayəndə" - üzv dövlətin GUAM-dakı daimi nümayəndəliyinə rəhbərlik etmək səlahiyyəti verdiyi şəxsi bildirir;

f) "daimi nümayəndəliyin əməkdaşları" - üzv dövlətlərin GUAM-dakı daimi nümayəndələrini və daimi nümayəndəliyin əməkdaşlarını bildirir;

g) "nümayəndə heyətinin üzvləri" - üzv dövlətin, digər dövlətin və ya beynəlxalq təşkilatın GUAM-ın işində və ya GUAM tərəfindən, yaxud onun rəhbərliyi ilə təşkil edilən konfransda nümayəndə kimi iştirak etmək üçün təyin edilmiş şəxsi bildirir;

h) "Katiblik" - GUAM-ın Katibliyini bildirir;

i) "Baş katib" - GUAM-ın Baş katibini bildirir;

j) "Katibliyin əməkdaşları" və ya "Katiblik heyəti" - GUAM Katibliyinin beynəlxalq vəzifəli şəxslərini və inzibati-texniki işçilərini bildirir;

k) "GUAM-ın əmlakı" - fondları, vəsaitləri və aktivləri, o cümlədən GUAM-a aid olunan və ya onun tərəfindən idarə edilən daşınar və daşınmaz əmlakı bildirir;

l) "GUAM-ın binası" - sahiblik hüququndan asılı olmayaraq yalnız GUAM-ın məqsədləri üçün istifadə edilən tikilini və ya onun hissəsini, o cümlədən onun ətrafındakı torpaq ərazisini bildirir;

m) "GUAM-ın arxivi" - GUAM-a məxsus olan və ya onun tərəfindən saxlanılan sənədləri, aktları, yazışmaları, o cümlədən əlyazmaları, audioyazıları, videolentləri, fotoşəkilləri, diskləri, kompüter proqramlarını və digər məlumat daşıyıcılarını bildirir;

n) "ailə üzvləri" - daimi nümayəndəliyin və ya Katibliyin əməkdaşlarının himayəsində olan və onlarla yaşayan həyat yoldaşlarını və uşaqları bildirir.

Fəsil II

SAZİŞİN HÜQUQ SUBYEKTLİYİ VƏ TƏTBİQİ

Maddə 2

1. GUAM - müqavilə bağlamaq, GUAM üçün əmlak əldə etmək, icarəyə götürmək, sərəncam vermək və idarə etmək, o cümlədən məhkəmə qaydasında öz maraqlarını qorumaq da daxil olmaqla, GUAM-ın fəaliyyətini təmin etməyə yönəlmiş fəaliyyəti həyata keçirmək səlahiyyəti olan beynəlxalq hüquq subyektidir. Bu məsələlərdə Baş katib GUAM-ı təmsil edir.

2. Bu Sazişi tətbiq edərkən Baş katib sədrlik edən Tərəfin adından və ya Şura ilə razılaşmaqla fəaliyyət göstərir.

Maddə 3

Baş katib hüquq mühafizə orqanlarının təlimatlarının həyata keçirilməsinə, ədalətin bərpasına, o cümlədən bu Sazişdə nəzərdə tutulan imtiyaz və immunitetlərdən sui-istifadənin qarşısının alınmasına yardım etmək məqsədilə üzv dövlətlərin müvafiq orqanları ilə əməkdaşlıq edir.

Fəsil III

ƏMLAK

Maddə 4

1. Şuranın müvafiq immunitetdən imtina ilə bağlı qərar qəbul etdiyi hallar istisna olmaqla, GUAM-ın əmlakı istənilən növ inzibati və ya məhkəmə müdaxiləsinə qarşı immunitetə malikdir.

2. Mülki və inzibati işlə bağlı yurisdiksiyadan olan immunitetdən imtina xüsusi imtinanın tələb olunduğu qərarın icrası ilə bağlı immunitetdən imtinanı bildirmir.

Maddə 5

1. GUAM-ın binası və arxivi toxunulmazdır.

2. GUAM-ın binası və arxivi axtarış, rekvizisiya, müsadirə, ekspropriasiya, həbs və istənilən prosessual fəaliyyətə qarşı immunitetə malikdir.

Maddə 6

1. GUAM-ın bayrağı və gerbi, o cümlədən üzv dövlətlərin bayraqları GUAM-ın binasında yerləşdirilir.

2. Nəqliyyat vasitələri rəsmi məqsədlər üçün istifadə edildikdə GUAM-ın bayrağı həmin nəqliyyat vasitələrində olur.

Maddə 7

1. GUAM fondları, bahalı metalları və ya istənilən növ valyutanı ala və istifadə edə bilər, istənilən növ valyutada və digər maliyyə aktivləri formasında olan bank hesablarına sahib ola və onlar haqqında sərəncam verə bilər.

2. GUAM üzv dövlətlərinin müvafiq orqanlarının maliyyə nəzarəti, qərarı və ya moratoriumu ilə bağlı heç bir məhdudiyyət olmadan malik olduğu maddi vəsaiti bir üzv dövlətdən digər üzv dövlətə göndərə, onlardan istifadə edə və malik olduğu istənilən valyutaya çevirə bilər.

Maddə 8

1. GUAM-ın aktivləri, gəlirləri və digər əmlakı aşağıdakılardan azad edilir:

a) müəyyən xidmət növləri üçün ödənişlər istisna olmaqla, üzv dövlətin ərazisində yığılan bütün birbaşa vergi və rüsumlardan;

b) anbara yığma, yerlərdən kənarda malların gömrük qeydiyyatı üçün nəzərdə tutulan xərclər və gömrük orqanlarının iş vaxtından əlavə görülən iş haqqı istisna olmaqla, xidməti istifadə məqsədilə GUAM üçün gətirilən əmlak, o cümlədən nəşriyyatla bağlı bütün növ gömrük rüsumlarından.

2. Belə imtiyazlara uyğun olaraq gətirilən GUAM-ın əmlakı bu dövlətlə razılaşdırılan şərtlərə müvafiq olaraq gətirildiyi üzv dövlətin ərazisində müsadirə edilə bilməz.

Maddə 9

1. GUAM dolayı vergi və rüsumlardan, o cümlədən funksiyalarını həyata keçirmək

üçün aldığı mal və xidmətlərin qiymətinin bir hissəsini təşkil edən əlavə dəyər vergisi və aksizlərdən azad edilir.

2. Belə azadetmə və ya ödəmə vasitəsilə alınmış mallar belə azadetmə və ödəməyə imkan verən üzv dövlətin müəyyən etdiyi şərtlər əsasında satıla və ya digər yolla müsadirə edilə bilər.

Fəsil IV

ƏLAQƏ VASİTƏLƏRİ, YAZIŞMA VƏ NƏŞRİYYAT

Maddə 10

1. Üzv dövlətlər digər dövlətlərin və ya beynəlxalq təşkilatların diplomatik nümayəndəlikləri üçün ərazilərində yaratdıqları əlverişli rəsmi əlaqə rejimini GUAM üçün də yaradırlar.

2. GUAM-ın əlaqə vasitələrinə, rəsmi yazışmalarına, nəşriyyatına, foto və kino materiallarına, səs və video yazılarına senzura tətbiq edilmir.

3. GUAM Diplomatik əlaqələr haqqında 1961-ci il tarixli Vyana Konvensiyasında nəzərdə tutulan imtiyaz və immunitetlərin aid edildiyi şifrələrdən istifadə etmək, diplomatik poçt almaq və göndərmək hüququna malikdir.

Fəsil V

DAİMİ NÜMAYƏNDƏLƏR VƏ NÜMAYƏNDƏ HEYƏTİNİN ÜZVLƏRİ

Maddə 11

1. Nümayəndə heyətlərinin üzvləri üzv dövlətin ərazisində xidməti vəzifələrini icra edərkən aşağıdakı imtiyaz və immunitetlərdən istifadə edirlər:

a) üzv dövlətlərin nümayəndəsi kimi dediklərinə, yazdıqlarına və ya etdikləri hərəkətlərə görə cinayət, mülki və inzibati məsuliyyətdən azad edilmə;

b) sənədlərin və xidməti istifadə üçün nəzərdə tutulmuş digər məlumat daşıyıcılarının toxunulmazlığı;

c) şifrələrdən istifadə etmə, diplomatik poçt alma və göndərmə;

d) vəzifələrini icra edərkən səfər etdikləri və ya tranzit kimi istifadə etdikləri üzv dövlətlərin ərazisinə gəliş, gediş və ya orada qalma ilə bağlı məhdudiyyətlərdən azad edilmə;

e) valyutanın gətirilməsi, çıxarılması və mübadiləsi, o cümlədən şəxsi yükün gətirilməsi və çıxarılması ilə bağlı olaraq Diplomatik əlaqələr haqqında 1961-ci il tarixli Vyana Konvensiyasına uyğun olaraq diplomatlara verilən imtiyaz və immunitetlər.

2. Daimi nümayəndələr və üzv dövlətlərin daimi nümayəndəliklərinin digər əməkdaşları, o cümlədən onların ailə üzvləri Diplomatik əlaqələr haqqında 1961-ci il tarixli Vyana Konvensiyasına müvafiq olaraq nümayəndəliyin rəhbərləri və nümayəndəliyin diplomatik, inzibati və xidməti heyətinin üzvləri üçün nəzərdə tutulan imtiyaz və immunitetlərdən faydalanırlar.

Maddə 12

Üzv dövlətlərin daimi nümayəndələrinin və nümayəndə heyəti üzvlərinin söz azadlıqlarını və vəzifələrini yerinə yetirərkən müstəqil olmalarını təmin etmək məqsədilə göstərilən şəxslər vəzifələrin icrasını dayandırdıqdan sonra dövlətlərin və ya beynəlxalq təşkilatların nümayəndəsi kimi dediklərinə, yazdıqlarına və ya etdikləri hərəkətlərə görə məhkəmə məsuliyyətinə cəlb olunmaya qarşı immunitetə malik olurlar.

Maddə 13

Üzv dövlətlərin daimi nümayəndələrinə və nümayəndə heyətlərinin üzvlərinə imtiyaz və immunitetlər ayrı-ayrı şəxslərin şəxsi mənfəəti üçün deyil, vəzifələrini səmərəli şəkildə icra etmək üçün verilir.

Üzv dövlətlər daimi nümayəndələrin yurisdiksiyadan olan immunitetlərindən imtina edə bilərlər.

Maddə 14

Bu Sazişin 11, 12 və 13-cü maddələrinin müddəaları üzv dövlətlər və onların nümayəndələri arasındakı əlaqələrə şamil edilmir.

Fəsil VI

KATİBLİYİN ƏMƏKDAŞLARI

Maddə 15

1. Beynəlxalq vəzifəli şəxslər qismində vəzifələrini yerinə yetirən Katiblik əməkdaşları:

a) xidməti vəzifələrini yerinə yetirərkən dediklərinə, yazdıqlarına və ya hərəkətlərinə görə üzv dövlətin cinayət, mülki və inzibati yurisdiksiyasına qarşı immunitetə malikdirlər;

b) GUAM-dan aldıqları əməkhaqqı və məvacibə görə vergidən azad olunurlar;

c) üzv dövlətlərə giriş, çıxış və orada qalma ilə bağlı məhdudiyyətlərə qarşı immunitetə malikdirlər;

d) müvafiq rütbəli diplomatlara verilmiş valyutaların gətirilməsi, çıxarılması və mübadiləsi ilə əlaqədar imtiyazlardan istifadə edirlər;

e) fövqəladə hallarla əlaqədar repatriasiya zamanı diplomatlara verilən imtiyazlara malikdirlər;

f) Katibliyin yerləşdiyi ölkənin qanunvericiliyinə müvafiq olaraq gəldikləri ölkədə vəzifəyə başladıqda nəqliyyat vasitələri də daxil olmaqla şəxsi əmlakın gömrüksüz gətirilməsi, eyni zamanda vəzifə müddəti başa çatdıqdan sonra onların gömrüksüz olaraq daşınması hüququndan istifadə edirlər.

2. 1-ci bəndin c, d, e, f yarımbəndlərində göstərilən imtiyaz və immunitetlər Katiblik əməkdaşları ilə birlikdə yaşayan ailə üzvlərinə də aid edilir.

3. Belə imtiyazlara uyğun olaraq gətirilən əmlak Katibliyin yerləşdiyi ölkənin qüvvədə olan qanunvericiliyinə uyğun olaraq müsadirə edilə bilər.

Maddə 16

Bu Sazişin 15-ci maddəsində göstərilmiş immunitetlərə və imtiyazlara əlavə olaraq Katibliyin beynəlxalq vəzifəli şəxslərinə və onlarla birgə yaşayan ailə üzvlərinə Diplomatik əlaqələr haqqında 1961-ci il tarixli Vyana Konvensiyasına müvafiq olaraq diplomatik agentlər üçün nəzərdə tutulmuş digər imtiyaz və immunitetlər verilir.

Katibliyin inzibati-texniki işçiləri və onların ailə üzvləri Diplomatik əlaqələr haqqında 1961-ci il tarixli Vyana Konvensiyasına müvafiq olaraq inzibati-texniki heyət üzvləri üçün nəzərdə tutulmuş immunitetlərdən və imtiyazlardan istifadə edirlər.

Maddə 17

Olduğu ölkənin, yaxud Katibliyin yerləşdiyi dövlətdə daimi yaşayış yeri olan digər üzv dövlətlərin vətəndaşı olan Katiblik əməkdaşlarına yalnız bu Sazişin 15-ci maddəsinin 1-ci bəndinin "a" yarımbəndində nəzərdə tutulmuş imtiyaz və immunitetlər verilir.

Maddə 18

1. Katibliyin əməkdaşlarına imtiyaz və immunitetlər ayrı-ayrı şəxslərin mənafeyi naminə deyil, GUAM-ın maraqları naminə verilir.

2. Şura, immunitetin ədalətin bərpasına mane olduğu və immunitetdən imtinanın onun verildiyi məqsədə heç bir zərər yetirmədiyi halda Katibliyin beynəlxalq vəzifəli şəxsi olan əməkdaşına immunitet verməmək hüququna malikdir.

3. Baş katib immunitetin ədalətin bərpasına mane olduğu və immunitetdən imtinanın onun verildiyi məqsədə heç bir zərər yetirmədiyi halda Katibliyin inzibati-texniki işçisi olan əməkdaşına immunitet verməmək hüququna malikdir.

Fəsil VII

YEKUN MÜDDƏALAR

Maddə 19

1. Bu Saziş qeyri-müəyyən müddətə bağlanır.

2. Bu Saziş imzalandığı tarixdən müvəqqəti olaraq üzv dövlətlərin milli qanunvericiliyinə uyğun şəkildə tətbiq edilir və depozitarinin bu Sazişi imzalamış üzv dövlətlərin onun qüvvəyə minməsi üçün bütün lazımi dövlətdaxili prosedurları icra etməsi haqqında sonuncu yazılı bildirişi aldığı tarixdən qüvvəyə minir.

Maddə 20

1. Bu Saziş qüvvəyə mindikdən sonra Nizamnamənin 13-cü maddəsinə uyğun olaraq GUAM-a üzv olmuş dövlətlərin ona qoşulması üçün açıq olacaqdır.

2. Bu Sazişə qoşulmuş dövlət üçün o, Depozitarinin ona qoşulmuş dövlətin Sazişin qüvvəyə minməsi üçün bütün lazımi dövlətdaxili prosedurları icra etməsi haqqında rəsmi yazılı bildiriş aldığı tarixdən qüvvəyə minir.

Maddə 21

Bu Sazişə üzv dövlətlərin qarşılıqlı razılığı ilə, onun ayrılmaz hissəsi olan ayrı-ayrı protokollarla rəsmiləşdirilən və bu Sazişin 19-cu maddəsində nəzərdə tutulmuş qaydada

qüvvəyə minən düzəliş və əlavələr edilə bilər.

Maddə 22

Bu Sazişin şərhi və tətbiqi ilə əlaqədar mübahisələr olduqda üzv dövlətlər onları məsləhətləşmələr və danışıqlar yolu ilə həll edəcəklər.

Maddə 23

Bu Sazişə qeyd-şərtin edilməsinə yol verilmir.

Maddə 24

Bu Sazişin Depozitarisi kimi Katiblik çıxış edir.

Bakı şəhərində 2007-ci il 19 iyun tarixində ingilis və rus dillərində olmaqla bir nüsxədə imzalanıb. Hər iki mətn autentikdir.

Bu Sazişin şərhi zamanı fikir ayrılığı olarsa, ingilis mətninə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

MOLDOVA RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

VALERİ USTALOV
Xarici işlər və Avropa inteqrasiyası nazirinin müavini

GÜRCÜSTAN
HÖKUMƏTİ ADINDAN

GELA BEJUAŞVİLİ
Xarici işlər naziri

UKRAYNA
NAZİRLƏR KABİNETİ ADINDAN

ARSENİ YATSENYUK
Xarici işlər naziri

"GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın üzvü olan dövlətlərin hökumətləri arasında beynəlxalq multimodal yük daşımaları haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2007-ci il iyunun 19-da Bakı şəhərində GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın 2-ci Zirvə Toplantısında imzalanmış "GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın üzvü olan dövlətlərin hökumətləri arasında beynəlxalq multimodal yük daşımaları haqqında" Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2007-ci il

№399-IIIQ

GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın üzvü olan dövlətlərin hökumətləri arasında beynəlxalq multimodal yük daşımaları haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın (DİİT-GUAM) üzvü olan dövlətlərin hökumətləri,

beynəlxalq yük daşımalarının DİİT-GUAM üzv dövlətləri arasında ticari-iqtisadi əlaqələrin məqsədyönlü inkişafına yardım edən vasitələrdən biri olduğunu etiraf edərək,

ətraf mühitin qorunması, daşımaların iqtisadi səmərəliliyinin yüksəldilməsi, yanacaq-enerji resurslarının istifadəsinin azaldılması, nəqliyyat təhlükəsizliyinin təmin edilməsi, nəqliyyat sisteminin buraxılış qabiliyyətinin artırılması məqsədilə yüklərin daşınması üçün istifadə edilən nəqliyyat növlərinin seçimində yük sahibləri üçün alternativlərin yaradılmasının zəruriliyini dərk edərək,

beynəlxalq yük daşımalarının həyata keçirilməsi üçün multimodal daşımaların geniş seçim təklif etdiyinə əmin olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Ümumi müddəalar

1. Bu Saziş dəmir yolu, dəniz, çay, bərə keçidi və avtomobil nəqliyyatının qarşılıqlı əlaqəsi ilə multimodal daşımalar həyata keçirən nəqliyyat təşkilatları, multimodal daşımalar üzrə operatorlar, yükgöndərənlər, yükalanlar, yük sahibini təmsil edən digər hüquqi və fiziki şəxslər arasında münasibətləri tənzimləyir, daşımanın hər bir iştirakçısının hüquqlarını, vəzifələrini və məsuliyyətini müəyyən edir.

2. Bu Saziş DİİT-GUAM üzv dövlətlərinin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə toxunmur.

3. Bu Saziş DİİT-GUAM üzv dövlətlərinin ərazilərində olan göndərmə və ya təyinat məntəqələri arasında dəmir yolu, dəniz, çay, avtomobil nəqliyyatından istifadə etməklə, Tərəflərin birinin dövlətinin ərazisində qeydə alınmış daşıyıcılar tərəfindən Tərəflər arasında və onların ərazilərindən tranzitlə həyata keçirilən beynəlxalq multimodal yük daşımaları sahəsində tətbiq olunur.

Maddə 2

Tərif lər

Bu Sazişdə istifadə olunan terminlər aşağıdakı mənaları daşıyır:

1. "Multimodal daşımalar" - iki və ya daha artıq nəqliyyat növü ilə həyata keçirilən yük daşımalarıdır.

2. "Multimodal daşımaların operatoru" - multimodal daşımaları həyata keçirmək məqsədilə öz adından yük sahibi (yükgöndərən) və nəqliyyat təşkilatları ilə müqavilələr bağlayan və göstərilən daşımaların təşkilinə görə məsuliyyət daşıyan hər hansı bir hüquqi və ya fiziki şəxsdir.

3. "Multimodal daşıma müqaviləsi" - multimodal daşıma üzrə operator və ya digər daşı-

yıcı ilə yük sahibi (ekspeditor) arasında yükün iki və ya daha artıq nəqliyyat növü ilə çatdırılmasına dair bağlanmış müqavilədir.

4. "Multimodal daşımalarda nəqliyyat vahidi" - multimodal yük daşımalarının həyata keçirilməsində istifadə olunan nəqliyyat vasitələri və konteynerlərdir.

5. "Multimodal daşımalar üçün terminal" - multimodal daşımaların nəqliyyat vahidlərinin yüklənməsi və boşaldılması və nəqliyyat növlərinin dəyişdirilməsi məntəqələrində onların qısamüddətli saxlanması, eləcə də gömrük və digər nəzarət növləri və Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq malların və nəqliyyat vasitələrinin rəsmiləşdirilməsi üçün zəruri olan binalar, tikililər, mühəndis-texniki vasitələr və kommunikasiyalar (dəmir yolu stansiyaları, avtoterminallar, dəniz, çay, aviasiya və avtomobil limanları, yük gömrük anbarları) kompleksinə malik olan ərazidir.

6. "Yükgöndərən" - yüklərin yükalana çatdırılması məqsədilə onları digər şəxslərə və ya müəssisələrə (daşımalar üzrə ekspeditor, daşıyıcı /operator) təhvil verilməsini həyata keçirən hər hansı bir hüquqi və ya fiziki şəxsdir.

7. "Yükalan" - çatdırılmış yükləri almağa səlahiyyəti olan şəxsdir.

8. "Daşıyıcı" - operatorla bağlanmış daşıma müqaviləsinə əsasən yüklərin təyinat məntəqəsinə çatdırılmasına görə üzərinə öhdəlik və məsuliyyət götürmüş, yüklərin daşınmasını və onların yükalana və ya daşıma müqaviləsində göstərilmiş digər şəxsə təhvil verilməsini (ötürülməsini) həyata keçirən, Tərəflərin dövlətlərinin ərazisində qeydiyyata alınmış hüquqi və ya fiziki şəxsdir.

9. "Ekspeditor" - yük daşımalarının təşkil olunması və/və ya yükgöndərənin tapşırığına əsasən müvafiq xidmətlərin göstərilməsini təmin edən vasitəçidir.

Maddə 3

Məqsədlər

1. Bu Sazişin məqsədləri aşağıdakılardır:

a) DİİT-GUAM-a üzv olan dövlətlər arasında iqtisadi münasibətlərin, ticarət və nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi;

b) multimodal yük daşımaları üzrə xidmətlərin göstərilməsinə lazımi şəraitin yaradılması;

c) multimodal daşıma müqaviləsinin yerinə yetirilməsi zamanı daşıyıcılara və multimodal daşıma üzrə operatorlara dair vahid tələblərin müəyyənləşdirilməsi;

ç) yük daşımalarının iqtisadi səmərəliliyinin artırılması;

d) hərəkətin təhlükəsizliyinin, yüklərin toxunulmazlığının və ətraf mühitin mühafizəsinin təmin edilməsi;

e) ayrı-ayrı nəqliyyat növləri arasında eyni rəqabət mühitinin yaradılması;

ə) nəqliyyat siyasətinin, habelə nəqliyyat sahəsində hüquq normalarının uyğunlaşdırılmasının təmin edilməsi.

2. Multimodal daşımalar sahəsində yaranan münasibətlər Tərəflərin milli qanunvericiliyinə əsasən tənzimlənir. Tərəflərin səlahiyyətli orqanları beynəlxalq müqavilələrə, bu

Sazişə, habelə digər normativ hüquqi aktlara uyğun olaraq, öz səlahiyyətləri daxilində hüquqi və fiziki şəxslər tərəfindən icrası məcburi xarakter daşıyan dəmir yolu, çay, dəniz, avtomobil nəqliyyatı, bərə əlaqələri və yük terminallarının iştirakı ilə multimodal yük daşımaları qaydalarını, multimodal daşımaların həyata keçirilməsi zamanı yarana bilən münasibətləri tənzimləyəcək digər normativ hüquqi aktları qəbul edirlər.

Maddə 4

Multimodal yük daşımalarının təşkili

1. Bu Sazişlə müəyyən olunmadığı hallarda multimodal yük daşımalarının həyata keçirilməsi qaydası, bu cür daşımaları tənzimləyən beynəlxalq hüquq normalarına və Tərəflərin milli qanunvericiliyinə əsasən müəyyən edilir.

2. Multimodal daşımalarda aşağıdakılar iştirak edə bilərlər:

a) multimodal daşımaların müvafiq əməliyyatlarının yerinə yetirilməsi üçün açıq olan dəmir yolu stansiyaları;

b) dəniz və çay limanları (bundan sonra - limanlar);

c) yük terminalları;

ç) bərə kompleksləri;

d) multimodal daşımalarda yük vahidlərinin daşınması üçün gəmilər.

3. Multimodal daşımalar üçün terminallar Tərəflərin müvafiq orqanları tərəfindən müəyyən edilir. Tərəflərin müvafiq orqanları terminalların siyahısı barədə bir-birinə məlumatların verilməsini həyata keçirirlər.

Maddə 5

Multimodal daşıma üzrə operatorun hüquqları, vəzifələri və məsuliyyəti

1. Multimodal daşıma üzrə operator qəbul etdiyi yükün daşınmasının təşkilini təmin etməyə borcludur.

2. Multimodal daşıma üzrə operator yükgöndərən (yük sahibi), yükalan və daşıyıcı qarşısında Tərəflərin milli qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyır.

3. Multimodal daşımalar sahəsində sığortalanma Tərəflərin milli qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

Maddə 6

Yük sahibinin (yükgöndərənin) hüquqları, vəzifələri və məsuliyyəti

Yük sahibinin (yükgöndərənin) və yükalanın hüquqları, vəzifələri və məsuliyyəti Tərəflərin iştirakçısı olduğu beynəlxalq sazişlər və həmin Tərəflərin milli qanunvericiliyi ilə müəyyən edilir.

Maddə 7

Mübahisələrin həll edilməsi

Bu Sazişin müddəalarının şərhi və ya tətbiqi ilə bağlı yarana bilən hər hansı bir fikir ayrılığı və mübahisələr Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 8

Səlahiyyətli orqanlar

1. Bu Sazişin həyata keçirilməsi çərçivəsində səlahiyyətli orqanlar aşağıdakılardır:

Gürcüstan tərəfindən - Gürcüstanın İqtisadi İnkişaf Nazirliyi;

Ukrayna tərəfindən - Ukraynanın Nəqliyyat və Kommunikasiya Nazirliyi;

Azərbaycan Respublikası tərəfindən - Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi;

Moldova Respublikası tərəfindən - Moldova Respublikasının Nəqliyyat və Yol Təsərrüfatı Nazirliyi.

2. Tərəflər müvafiq səlahiyyətli orqanın müəyyənləşdirilməsinə aid hər hansı bir dəyişiklik barədə bir-birini məlumatlandırmalıdırlar.

Maddə 9

Multimodal daşımaların dəstəklənməsi və stimullaşdırılması

1. Multimodal daşımaların üstün cəhətləri nəzərə alınmaqla, Tərəflər öz milli qanunvericiliklərinə uyğun olaraq, bu növ daşımaların dəstəklənməsi istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsinə dair özlərinin dəmir yolu administrasiyaları, limanları, gəmiçilik şirkətləri, avtonəqliyyat müəssisələri və multimodal daşımalar üzrə operatorlar arasında razılıq əldə edilməsi istiqamətində lazımi tədbirlər görürlər.

2. Tərəflər özlərinin milli qanunvericiliyinə əsasən, nəqliyyat müəssisələri və multimodal daşımalar üzrə operatorlar tərəfindən dəmir yolu, avtomobil, çay və dəniz nəqliyyatı ilə həyata keçirilən multimodal daşımaların stimullaşdırılmasına, inkişafına və rəqabət qabiliyyətinin artırılmasına kömək göstərirlər.

3. Tərəflər multimodal daşımaların həyata keçirilməsində istifadə olunan infrastrukturun inkişafı məqsədilə özlərinin dəmir yolu və avtomobil müəssisələrinə, habelə limanlarına lazımi dəstək və kömək göstərirlər.

4. Tərəflər özlərinin milli qanunvericiliyinə əsasən multimodal daşıma zamanı yüklərin sərhəddə yoxlanılması prosesinin tezləşdirilməsi üçün zəruri tədbirlər görür, həmçinin multimodal daşımaların gömrük rəsmiləşdirilməsinin sərhəd keçid məntəqələrindən multimodal daşıma terminallarına keçirilməsinə yardım edirlər.

5. Tərəflər beynəlxalq multimodal daşımaların inkişaf etdirilməsi üçün əlverişli şəraitin yaradılması məqsədilə qarşılıqlı əməkdaşlıq edir və bir-birlərinə yardım göstərirlər.

6. Tərəflərin müvafiq dövlət orqanları bu Sazişin yerinə yetirilməsinə və tətbiqinə, habelə multimodal daşımalara dair məlumatların qarşılıqlı mübadiləsinə kömək göstərirlər.

7. Tərəflər multimodal daşıma terminallarında yüklərin daşınması və emal edilməsinə dair razılaşdırılmış tarif siyasətinin həyata keçirilməsinə lazımi şərait yaradırlar.

Maddə 10

Fövqəladə hallar

Multimodal daşımalar zamanı fövqəladə hallar yarandıqda, Tərəflər ölkələrinin milli

qanunvericiliyinə müvafiq qaydada tədbirlər görəcəklər. Tərəflər yaranmış fövqəladə hallar barədə dərhal bir-birini məlumatlandırır və daşımaların yerinə yetirilməsi üçün təxirəsalınmaz tədbirlərin görülməsi istiqamətində qərarlar qəbul edirlər.

Maddə 11

Əlavə və düzəlişlərin edilməsi

Bu Sazişə istənilən düzəliş və əlavələrin edilməsi Tərəflərin qarşılıqlı razılığı əsasında Protokol tərtib edilməklə rəsmiləşdirilir. Tərtib olunmuş Protokol bu Sazişin ayrılmaz tərkib hissəsi olaraq, bu Sazişin 12-ci maddəsinə uyğun olaraq qüvvəyə minir.

Maddə 12

Qüvvəyə minmə

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin diplomatik kanallarla sonuncu yazılı bildirişinin Depozitariyə təqdim edildiyi tarixdən 30 (otuz) gün sonra qüvvəyə minir. Depozitari Sazişin qüvvəyə minməsi barədə Tərəfləri məlumatlandırır.

Maddə 13

Sazişə qoşulma

1. Bu Saziş Depozitarinin bütün Tərəflərdən diplomatik kanallar vasitəsilə aldığı razılıq əsasında istənilən dövlətin ona qoşulması üçün açıqdır.

2. Bu Sazişə qoşulan dövlət üçün Saziş, onun qoşulması və bütün dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sənədin Depozitariyə təqdim edildiyi tarixdən 30 (otuz) gün sonra qüvvəyə minir. Sazişə qoşulan dövlət Depozitarini öz səlahiyyətli orqanı haqqında məlumatlandırır.

Maddə 14

Sazişin qüvvədə olma müddəti

1. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır.

2. Tərəflərdən hər hansı biri diplomatik kanallarla Depozitariyə yazılı bildiriş göndərməklə bu Sazişin qüvvəsini ləğv edə bilər. Bu cür ləğvetmə Depozitari tərəfindən yazılı bildirişin alındığı tarixdən 6 (altı) ay sonra qüvvəyə minir.

Maddə 15

Sazişin Depozitarisi

1. Bu Sazişin Depozitarisi DİİT-GUAM-ın Katibliyidir.

2. Depozitari Tərəflərə Sazişin təsdiq edilmiş nüsxələrini təqdim edir. Depozitari Tərəflərə bu Sazişə hər hansı digər dövlətin qoşulması, hər hansı Tərəfin və ya bütün Tərəflərin Sazişi ləğv etməsi barədə məlumatı verir.

2007-ci il 19 iyun tarixində Bakı şəhərində rus dilində bir nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

ZİYA MƏMMƏDOV
Nəqliyyat naziri

MOLDOVA RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

VALERİ USTALOV
Xarici işlər və Avropa inteqrasiyası nazirinin müavini

GÜRCÜSTAN
HÖKUMƏTİ ADINDAN

KAXA DAMENİYA
iqtisadi inkişaf nazirinin müavini

UKRAYNA
NAZİRLƏR KABİNETİ ADINDAN

ARSENİ YATSENYUK
Xarici işlər naziri

Azərbaycan Respublikası və Belarus Respublikası arasında dostluq və əməkdaşlıq haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası və Belarus Respublikası arasında dostluq və əməkdaşlıq haqqında" 2007-ci il mayın 2-də Bakı şəhərində imzalanmış Müqavilə təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2007-ci il

№400-IIIQ

Azərbaycan Respublikası və Belarus Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilə

Bundan sonra Razılığa gələn Ali Tərəflər adlandırılan Azərbaycan Respublikası və Belarus Respublikası,

beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına, Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin məqsəd və prinsiplərinə, Helsinki Yekun Aktının və Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının digər sənədlərinin müddəalarına sadiq olduqlarını təsdiq edərək,

onların xalqları arasında mövcud əlaqələrə, dostluq münasibətlərinə və qarşılıqlı hörmət ənənələrinə əsaslanaraq,

qarşılıqlı faydalı ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsinin iki dövlət xalqlarının əsl maraqlarına cavab verdiyindən, sülhə, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə xidmət etdiyindən çıxış edərək,

siyasi, iqtisadi, elmi-texniki, ekoloji, informasiya, humanitar və digər sahələrdə ikitərəfli əməkdaşlığa yeni keyfiyyət verilməsini və onun hüquqi bazasının möhkəmləndirilməsini arzu edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Razılığa gələn Ali Tərəflər öz qarşılıqlı münasibətlərində dövlət suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına hörmət, daxili işlərə qarışmamaq, iqtisadi və digər üsullarla təzyiq göstərilməsi də daxil olmaqla, zor işlətməmək və zor işlətməklə hədələməmək, mübahisələrin sülh yolu ilə həll edilməsi, insan hüquqları və əsas azadlıqlarına hərtərəfli hörmət, beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsiplərini, həmçinin beynəlxalq hüququn digər ümumtanınmış prinsip və normalarının yerinə yetirilməsini təmin edirlər.

Maddə 2

Razılığa gələn Ali Tərəflərin hər biri Razılığa gələn digər Ali Tərəfin suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönələn hər hansı bir fəaliyyətdə və tədbirdə iştirakdan və onu dəstəkləməkdən çəkinir və öz ərazisindən Razılığa gələn digər Ali Tərəfin təhlükəsizlik maraqlarına ziyan vurulması üçün istifadə edilməsinə yol vermir.

Maddə 3

Razılığa gələn Ali Tərəflər təsdiq edirlər ki, ümumi təhlükəsizlik bölünməzdir, onlar bu sahədə tərəfdaşlığı ardıcıl həyata keçirəcəklər, ikitərəfli və çoxtərəfli əsasda sülhün, etimadın və təhlükəsizliyin möhkəmləndirilməsinə fəal kömək göstərəcəklər.

Razılığa gələn Ali Tərəflər silahların məhdudlaşdırılması və silahsızlaşdırma prosesinə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasında Birləşmiş Millətlər Təşkilatının rolunun gücləndirilməsinə, Avropada kollektiv təhlükəsizlik sisteminin yaradılmasına, bütün dünyada etimad və təhlükəsizliyin möhkəmləndirilməsi üzrə tədbirlərin görülməsinə yardım edirlər.

Razılığa gələn Ali Tərəflər BMT-nin Nizamnaməsinə və ATƏT-in sənədlərinə uyğun olaraq dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərin toxunulmazlığına hörmət və riayət olunması əsasında münaqişələrin sülh yolu ilə nizamlanması məqsədilə fəaliyyət göstərəcəklər.

Maddə 4

Razılığa gələn Ali Tərəflər BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı və təmasları genişləndirirlər, qarşılıqlı maraq kəsb edən məsələlər üzrə mövqelərinin razılaşdırılması üçün məsləhətləşmələr keçirirlər.

Maddə 5

Razılığa gələn Ali Tərəflər hər iki dövlətin xalqlarının yaxınlaşması üçün zəruri şəraitin təmin edilməsinə səy göstərərək, onların vətəndaşları, dövlət və ictimai təşkilat və birlikləri, yerli idarə və özünüidarə orqanları arasında əlaqələrin genişləndirilməsinə hərtərəfli kömək göstərirlər.

Maddə 6

Razılığa gələn Ali Tərəflər hər iki dövlətin parlamentləri arasında əlaqələri və əməkdaşlığı inkişaf etdirirlər.

Maddə 7

Razılığa gələn Ali Tərəflər qarşılıqlı faydalı ikitərəfli iqtisadi əməkdaşlığın inkişafı üçün əlverişli şəraiti təmin edirlər və beynəlxalq hüququn prinsip və normaları əsasında özlərinin iqtisadi və ticarət münasibətlərinin mexanizminin təkmilləşdirilməsi üzrə müvafiq tədbirlər görürlər.

Razılığa gələn Ali Tərəflər ikitərəfli sazişlər, onların beynəlxalq öhdəlikləri və milli qanunvericilikləri əsasında Razılığa gələn bir Ali Tərəfin hüquqi və fiziki şəxslərinin Razılığa gələn digər Ali Tərəfin ərazisində sahibkarlıq fəaliyyəti üçün əlverişli iqtisadi, maliyyə və hüquqi şərait yaradırlar.

Razılığa gələn hər bir Ali Tərəf öz ərazisində milli qanunvericiliklərinə uyğun olaraq Razılığa gələn digər Ali Tərəfin hüquqi və fiziki şəxslərinin mülkiyyət və əmlak hüququnun müdafiəsinə təminat verir.

Maddə 8

Razılığa gələn Ali Tərəflər tranzit və nəqliyyat kommunikasiyaları sahəsində əməkdaşlığı inkişaf etdirir və dərinləşdirirlər. Razılığa gələn hər bir Ali Tərəf onun ərazisində yerləşən hava, dəniz və çay limanları, dəmir yolu və avtomobil şəbəkəsi və boru kəmərləri vasitəsilə Razılığa gələn digər Ali Tərəfin nəqliyyat əməliyyatlarının həyata keçirilməsi üçün əlverişli şəraiti yaradır və təmin edir.

Nəqliyyat və tranzit hərəkəti sahəsində əməkdaşlığın həyata keçirilməsinin şərtləri və qaydaları ayrıca sazişlərlə müəyyən edilir.

Maddə 9

Razılığa gələn Ali Tərəflər rabitə sahəsində, o cümlədən onların arasında elektrorabitə və poçt rabitəsi xidmətlərinin keyfiyyətinin artırılması yolu ilə əməkdaşlığı inkişaf etdirirlər.

Maddə 10

Razılığa gələn Ali Tərəflər hərbi və hərbi-texniki əməkdaşlığı inkişaf etdirir, həmçinin ayrıca sazişlər əsasında hər iki dövlətin müdafiə idarələri arasında əlaqələri təşviq edirlər.

Maddə 11

Razılığa gələn Ali Tərəflər fundamental və tətbiqi elmlər sahəsində səmərəli əməkdaşlıq, qabaqcıl texnika və texnologiyaların birgə hazırlanması və tətbiqi, həmçinin alimlərin, elmi araşdırma institutlarının, elmi-istehsal birliklərinin birbaşa əlaqələri və birgə təşəbbüslərinin inkişafı üçün şərait yaradılmasına kömək edirlər.

Razılığa gələn Ali Tərəflər bu məsələlər üzrə ayrıca sazişlər bağlayacaqlar.

Maddə 12

Razılığa gələn Ali Tərəflər təhsil sahəsində münasibətləri inkişaf etdirir və xüsusilə məktəblilərin, tələbələrin, aspirantların və təcrübə keçənlərin mübadiləsi yolu ilə müxtəlif tədris müəssisələri arasında əməkdaşlığı təşviq edirlər.

Bu məsələ üzrə ayrıca sazişlər bağlanacaqdır.

Razılığa gələn Ali Tərəflər təhsil, elmi dərəcə və elmi adlar haqqında sənədlərin tanınması haqqında xüsusi hökumətlərarası sazişin bağlanmasının mümkünlüyünü öyrənəcəklər.

Maddə 13

Razılığa gələn Ali Tərəflər mədəniyyət sahəsində ikitərəfli əlaqələrin genişləndirilməsini dünya mədəni irsinin artırılması üçün zəruri şərt sayırlar. Bundan çıxış edərək, Razılığa gələn Ali Tərəflər yaradıcı heyətlər, mədəniyyət xadimləri arasında mübadilələrə şərait yaradırlar, həmçinin Razılığa gələn digər Ali Tərəfin vətəndaşları üçün öz vətəndaşları ilə bərabər səviyyədə və eyni şərtlərlə mədəni sərvətlərdən, arxivlərdən, kitabxanalardan, kütləvi informasiya vasitələrindən istifadə etməyə geniş imkanı təmin edirlər.

Maddə 14

Razılığa gələn Ali Tərəflər bilavasitə və beynəlxalq təşkilatlar çərçivəsində hüquqların qorunması, əqli mülkiyyətin müdafiəsi və istifadəsi sahəsində əməkdaşlıq edirlər.

Maddə 15

Razılığa gələn Ali Tərəflər, qarşılıqlı maraqlar və öz imkanlarından çıxış edərək, ətraf mühitin qorunması və yaxşılaşdırılması, texnogen xarakterli qəzaların və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması, təbiətdən ehtiyatlı istifadə, ekoloji cəhətdən təmiz istehsalat sahəsinin genişləndirilməsi, təbiəti qorumaq və təbiəti bərpa etmək üzrə yüksək səmərəli tədbirlərin həyata keçirilməsi sahəsində əməkdaşlığı inkişaf etdirirlər. Bu məsələ üzrə ayrıca sazişlər bağlanacaqdır.

Maddə 16

Razılığa gələn Ali Tərəflər əhalinin sağlamlığının qorunmasının təmin olunması, tibb elminin və təcrübəsinin inkişafı üzrə birgə fəaliyyətin zəruriliyini etiraf edirlər.

Razılığa gələn Ali Tərəflər iştirakçısı olduqları beynəlxalq müqavilələrə və milli qanunvericiliklərinə uyğun olaraq Razılığa gələn hər iki Ali Tərəfin vətəndaşları üçün mövcud unikal və ixtisaslaşdırılmış tibbi və sanatoriya-istirahət müəssisələrindən istifadəni, tibbi yardımın alınmasını təmin edirlər.

Maddə 17

Razılığa gələn Ali Tərəflərdən hər biri onun ərazisində daimi yaşayan Razılığa gələn digər Ali Tərəfin vətəndaşlarına, həmçinin həmin dövlətin ərazisində yaşayan vətəndaşlığı olmayan şəxslərə, onların milli mənsubiyyətindən, dinindən və digər fərqlərdən asılı olmayaraq, mülki, siyasi, sosial, iqtisadi və mədəni hüquq və azadlıqlarına, insan hüquqları sahəsində ümumtanınmış beynəlxalq normalara və milli qanunvericiliyinə uyğun olaraq riayət olunmasına təminat verir.

Maddə 18

Razılığa gələn Ali Tərəflərdən hər biri Azərbaycan Respublikasında Belarus azlığına mənsub olan və Belarus Respublikasında Azərbaycan azlığına mənsub olan şəxslərin azad fərdi və ya kollektiv özünüifadə hüquqlarına, etnik, mədəni və dil xüsusiyyətlərinin qorunub saxlanmasına təminat verir, onları heç bir zorakı assimilyasiya cəhdlərinə

məruz qoymur.

Razılığa gələn Ali Tərəflər milli azlıqların qarşılıqlı münasibətlərinin tənzimlənməsi və mədəni inkişafının dəstəklənməsi üzrə iş təcrübəsi mübadiləsi sahəsində dövlət orqanları arasında əməkdaşlığı inkişaf etdirirlər.

Razılığa gələn Ali Tərəflərdən hər biri öz ərazisində milli, irqi, etnik və dini dözümsüzlük, düşmənçilik və ədavətə əsaslanan hər bir fəaliyyətin qarşısının alınması və aradan qaldırılması üçün zəruri, o cümlədən qanunverici tədbirlərin görülməsini öz öhdəsinə götürür.

Maddə 19

Razılığa gələn Ali Tərəflər cinayətkarlığa, o cümlədən mütəşəkkil cinayətkarlığa, korrupsiyaya, terrorizmə, qeyri-qanuni miqrasiyaya, insan alverinə, qanunsuz maliyyə əməliyyatlarına, narkotik və psixotrop maddələrin, zəhərli kimyəvi maddələrin, silahların, partlayıcı maddələrin qeyri-qanuni dövriyyəsinə və qaçaqmalçılığa, mədəni sərvətlərin qanunsuz satışma və sərhəddən keçirilməsinə, hüquqazidd fəaliyyətdən əldə edilmiş gəlirlərin qanuniləşdirilməsinə, digər təhlükəli cinayət növlərinə qarşı mübarizə sahəsində əməkdaşlıq edirlər.

Razılığa gələn Ali Tərəflər bu sahədə təcrübə və operativ məlumat mübadiləsini həyata keçirirlər, bu istiqamətdə bilavasitə və beynəlxalq əməkdaşlıq çərçivəsində məsləhətləşmələr və birgə tədbirlər həyata keçirirlər.

Razılığa gələn Ali Tərəflər hüquqi məlumat mübadiləsi, hüquqi aktların hazırlanması və tətbiqi sahəsində əməkdaşlıq edirlər.

Razılığa gələn Ali Tərəflər bu məsələlərə dair ayrı-ayrı sazişlər bağlayacaqlar.

Maddə 20

Bu Müqavilənin müddəaları Razılığa gələn Ali Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə toxunmur.

Maddə 21

Bu Müqavilənin təfsiri və tətbiqinə dair yaranan mübahisələr Razılığa gələn Ali Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

Maddə 22

Razılığa gələn Ali Tərəflərin qarşılıqlı razılığına əsasən bu Müqaviləyə onun ayrılmaz hissəsi olacaq ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 23

Bu Müqavilə ratifikasiya olunmalıdır və ratifikasiya fərmanlarının mübadiləsi günü qüvvəyə minir.

Bu Müqavilə on il müddətinə bağlanılır. Razılığa gələn Ali Tərəflərdən biri Razılığa gələn digər Ali Tərəfə Müqavilənin qüvvəsinin ləğv edilməsi barədə müvafiq müddətin başa çatmasından ən azı on iki ay əvvəl yazılı şəkildə bildirmədiyi təqdirdə, Müqavilənin qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılacaqdır.

Bu Müqavilə BMT Nizamnaməsinin 102-ci maddəsinə uyğun olaraq Birləşmiş Millətlər Təşkilatında qeydiyyata alınacaqdır.

Bu Müqavilə Bakı şəhərində 2 may 2007-ci il tarixində iki nüsxədə, hər biri Azərbaycan, Belarus və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Müqavilənin müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, rus dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ ADINDAN	BELARUS RESPUBLİKASININ ADINDAN
İLHAM ƏLİYEV	*ALEKSANDR LUKAŞENKO*

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Belarus Respublikası vətəndaşlarının və Belarus Respublikası ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Belarus Respublikası vətəndaşlarının və Belarus Respublikası ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında" 2007-ci il mayın 2-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2007-ci il

№401-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Belarus Respublikası vətəndaşlarının və Belarus Respublikası ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti,

BMT-nin insan hüquqları sahəsində əsas sənədlərinə və Beynəlxalq Əmək Təşkilatı çərçivəsində qəbul olunmuş prinsiplərə sadiqlikdən çıxış edərək,

Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Belarus Respublikası vətəndaşlarının və Belarus Respublikası ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası

vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi sahəsində hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Saziş Azərbaycan Respublikası vətəndaşlarının Belarus Respublikası ərazisində və Belarus Respublikası vətəndaşlarının Azərbaycan Respublikası ərazisində əmək fəaliyyəti ilə bağlı məsələləri tənzimləyir.

Maddə 2

Bu Sazişin məqsədləri üçün aşağıda göstərilən terminlər bunları ifadə edir:

"əməkçi miqrant" - daimi yaşamadığı Tərəfin dövlətinin ərazisində qanuni əsaslarla qalaraq əmək fəaliyyəti ilə məşğul olan digər Tərəf dövlətinin vətəndaşı;

"ailə üzvü" - əməkçi miqrantla nikahda olan şəxs, həmçinin onun himayəsində olan uşaqları və işlə təmin edən Tərəfin qanunvericiliyinə müvafiq ailə üzvü sayılan digər şəxslər;

"işlə təmin edən Tərəf" - əməkçi miqrantın əmək fəaliyyətini həyata keçirdiyi Tərəfin dövləti;

"işəgötürən" - mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq əməkçi miqrantı əmək və ya mülki-hüquqi müqavilə əsasında işə götürən hüquqi və ya fiziki şəxs.

Maddə 3

Bu Sazişin qüvvəsi əməkçi miqrantlara və onların ailə üzvlərinə şamil edilir.

Bu Saziş aşağıdakılara tətbiq edilmir:

a) qaçqın və ya sığınacaq axtaran şəxs statusu almış, yaxud qaçqın və ya sığınacaq axtaran şəxs statusu almaq üçün müraciət edən şəxslərə;

b) qısamüddətli əmək fəaliyyəti ilə məşğul olan artistlərə və idmançılara;

c) dənizçilərə;

ç) üç ayadək müddətdə ezamiyyətdə olan şəxslərə;

d) təhsil alan və təhsil müəssisələrinin proqramları əsasında təcrübə keçən şəxslərə;

e) Tərəflərin dövlətlərində akkreditə olunmuş diplomatik nümayəndəliklərdə və ya konsulluqlarda işləyən, həmçinin Tərəflərin dövlətlərinin ərazisində yerləşən beynəlxalq təşkilatlarda işləyən şəxslərə;

ə) bir Tərəfin dövlətində daimi yaşayan digər Tərəfin dövlətinin vətəndaşlarına;

f) Tərəf dövlətlərində rəsmi qeydiyyata alınmış dini təşkilatlarda dini fəaliyyətlə məşğul olan din xadimlərinə;

g) ali təhsil, ixtisasartırma və kadr hazırlığı üzrə təhsil müəssisələrində mühazirə kurslarının oxunması və digər tədris işləri məqsədilə mühazirə kurslarının oxunması üçün 90 gündən artıq olmayan müddətə dəvət olunan şəxslərə;

ğ) Tərəflərin dövlətlərində xarici kütləvi informasiya vasitələrinin əməkdaşları kimi akkreditə olunmuş şəxslərə.

Maddə 4

Bu Sazişin yerinə yetirilməsində Tərəfləri təmsil edən səlahiyyətli orqanlar aşağıdakılardır:

Azərbaycan Respublikası tərəfindən - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;

Belarus Respublikası tərəfindən - Daxili İşlər Nazirliyi.

Maddə 5

Tərəflər əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarına hörmətlə yanaşmağı, onların hüquqlarının müdafiəsini təmin etməyi, cinsinə, yaşına, irqinə, dilinə, etnik və sosial mənşəyinə, dini və siyasi baxışlarına, vətəndaşlığına, ailə və mülkiyyət vəziyyətinə və digər əlamətlərə görə istənilən formada ayrı-seçkiliyə yol verməməyi öz üzərlərinə götürürlər.

Maddə 6

Tərəflər işlə təmin edən Tərəfin dövlətinin ərazisində əmək fəaliyyətini həyata keçirmələri məqsədilə əməkçi miqrantların mütəşəkkil qəbulu üzrə razılaşdırılmış tədbirlər həyata keçirirlər.

Tərəflər işlə təmin edən Tərəfin dövlətinin əmək bazarına ehtiyac duyulan işçilərin seçilməsi məqsədilə müvafiq qurumların yaradılmasına kömək göstərirlər.

Maddə 7

Əməkçi miqrantların onları işlə təmin edən Tərəfin ərazisinə gəlməsi, əmək fəaliyyəti, qalması və qayıtması işlə təmin edən Tərəfin milli qanunvericiliyinə və Tərəflərin dövlətlərinin bağladıqları beynəlxalq müqavilələrə uyğun olaraq həyata keçirilir.

Maddə 8

Əməkçi miqrantların əmək fəaliyyəti işlə təmin edən Tərəfin milli qanunvericiliyinə uyğun olaraq işəgötürənlə bağlanmış əmək və ya mülki-hüquqi müqavilə əsasında həyata keçirilir.

Əməkçi miqrant əmək fəaliyyətini həyata keçirmək üçün işlə təmin edən Tərəfin qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və şərtlərlə həmin Tərəfin aidiyyəti orqanı tərəfindən verilmiş müvafiq iş icazəsinə malik olmalıdır.

Maddə 9

Tərəflər işlə təmin edən Tərəf dövlətinin ərazisində əməkçi miqrantların adaptasiyası üçün işlə təmin edən Tərəf dövlətinin qanunvericiliyinin, dilinin, əhalisinin adət-ənənələrinin öyrənilməsindən ibarət tədbirlər görürlər.

Maddə 10

Əməkçi miqrantın ailə üzvləri əməkçi miqranta verilmiş iş icazəsinin müddəti ərzində işlə təmin edən Tərəf dövlətinin qanunvericiliyi ilə müəyyən olunmuş qaydada həmin Tərəfin dövlətinin ərazisində qalmaq hüququna malikdirlər.

Maddə 11

Əməkçi miqrantların əməyinin mühafizəsi, əmək şəraiti və əməyin ödənilməsi ilə bağlı məsələlər, həmçinin vergiyə cəlb edilmə sosial təminat (pensiya istisna olmaqla) sosial və tibbi sığorta ilə bağlı məsələlər işlə təmin edən Tərəfin qanunvericiliyinə və Tərəf dövlətlərinin imzaladıqları beynəlxalq müqavilələrə uyğun tənzimlənir.

Əməkçi miqrantların pensiya təminatı ilə bağlı məsələlər Tərəf dövlətlərinin bağladıqları ayrıca beynəlxalq müqavilələrlə tənzimlənir.

Maddə 12

Bu Saziş qüvvəsini itirdiyi halda onun müddəaları əməkçi miqrantla işəgötürən arasında bu Saziş qüvvədə olduğu dövrdə bağlanmış əmək və ya mülki-hüquqi müqavilənin müddəti başa çatanadək qüvvədə qalır.

Maddə 13

Əməkçi miqrantlar işlə təmin edən Tərəfin qanunvericiliyi ilə müəyyən olunmuş hüquqlardan istifadə edir və vəzifələri yerinə yetirirlər.

Əməkçi miqrantlara işçilər tərəfindən ödənilən vergi, rüsum və ödənişlərlə bağlı işlə təmin edən Tərəfin qanunvericiliyi ilə yerli işçilər üçün nəzərdə tutulandan ağır olmayan qaydalar tətbiq edilir.

Maddə 14

Əməkçi miqrantlar işlə təmin edən Tərəfin milli qanunvericiliyi ilə nəzərdə tutulan şərtlərlə sosial təminat (xəstəliyə görə müavinət, hamiləliyə və doğuşa görə müavinət, istehsalatda bədbəxt hadisələrə və peşə xəstəliyinə görə müavinət, dəfn üçün müavinət) hüququna malikdirlər.

Maddə 15

İşlə təmin edən Tərəfin qanunvericiliyi ilə nəzərdə tutulmuş əsaslarla işəgötürənin təşəbbüsü ilə əməkçi miqrantla bağlanmış əmək və ya mülki hüquqi müqaviləyə vaxtından əvvəl xitam verildikdə, işəgötürən tərəfindən əməkçi miqranta əmək və ya mülki hüquqi müqavilədə və işlə təmin edən Tərəfin qanunvericiliyi ilə nəzərdə tutulmuş əvəzödəmələr ödənilir.

Bu halda işçi, əmək və ya mülki hüquqi müqaviləyə vaxtından əvvəl xitam verildiyi gündən bir ay ərzində, iş icazəsində göstərilən qalan müddətə işlə təmin edən Tərəfin digər işəgötürəni ilə yeni əmək və ya mülki hüquqi müqavilə bağlaya bilər.

Maddə 16

Tərəflər əməkçi miqrantların əməyinin mühafizəsi, əmək şəraiti və əməyin ödənilməsi ilə bağlı işlə təmin edən Tərəfin vətəndaşları ilə eyni hüquqlara malik olmalarına zəmanət verirlər.

Əmək vəzifələrinin yerinə yetirilməsi ilə bağlı istehsalatda bədbəxt hadisə, peşə xəstəliyi və ya digər şəkildə sağlamlığın itirilməsi nəticəsində əməkçi miqrantlara dəymiş zərərin ödənilməsi işlə təmin edən Tərəfin milli qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

Maddə 17

Tərəflər öz dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq, güzəştlər nəzərdə tutulan staj da daxil olmaqla, əmək (sığorta) stajını, eləcə də ixtisas üzrə əmək stajını qarşılıqlı olaraq tanıyırlar.

Maddə 18

1. Əməkçi miqrant əmək fəaliyyətini başa vurduqda və ya əməkçi miqrantla işəgötürən arasında bağlanmış əmək müqaviləsi və ya mülki hüquqi müqavilə vaxtından əvvəl pozulduqda işəgötürən, Tərəflər arasında razılaşdırılmış formaya uyğun olaraq əməkçi miqranta onun əmək fəaliyyətinin müddəti, əməyin ödənilməsi (hər ay üçün əməkhaqqının məbləği göstərilməklə) və aldığı əməkhaqqından gəlir vergisi ödəməsi haqqında özü və işlə təmin edən Tərəfin səlahiyyətli orqanı tərəfindən möhürlə təsdiq edilmiş müvafiq sənəd təqdim edir.

2. Tərəflərin səlahiyyətli orqanları bu Saziş imzalandığı gündən sonrakı bir ay ərzində bu maddənin 1-ci bəndində göstərilən sənədin formasını razılaşdırırlar.

Maddə 19

Təhsil haqqında sənədlərin tanınması ilə bağlı məsələlər Tərəf dövlətləri arasında imzalanmış ayrıca beynəlxalq müqavilələrlə tənzimlənir.

Maddə 20

Əməkçi miqrantlar tərəfindən əmək fəaliyyəti üçün nəzərdə tutulan alət və avadanlığın, həmçinin digər mallarını Tərəf dövlətlərinin gömrük sərhədlərindən keçirilməsi Tərəf dövlətlərinin qanunvericiliyinə uyğun həyata keçirilir.

Maddə 21

Əməkçi miqrantlar və onların ailə üzvləri bu Sazişin hüquqi tənzimlənməsi sahəsinə aid məsələlərlə bağlı Tərəf dövlətlərinin səlahiyyətli orqanlarına birbaşa müraciət edə bilərlər.

Bir Tərəf dövlətinin səlahiyyətli orqanlarının sorğusu ilə digər Tərəf dövlətinin səlahiyyətli orqanları öz dövlətinin qanunvericiliyinə uyğun olaraq bu Sazişin yerinə yetirilməsi ilə bağlı, arxiv materialları da daxil olmaqla, zəruri sənədləri təqdim edir.

Maddə 22

1. Tərəflərin dövlətlərinin səlahiyyətli orqanları aşağıdakılar barədə məlumat mübadiləsini həyata keçirir:

miqrasiya sahəsində milli qanunvericilik, həmçinin ona edilən əlavə və dəyişikliklər haqqında - müvafiq normativ hüquqi akt qəbul olunan gündən sonrakı bir ay ərzində;

əcnəbilərin cəlb olunması mümkün olan boş (vakant) iş yerləri haqqında;

digər Tərəf dövləti vətəndaşlarının əmək fəaliyyətinə cəlb edilməsi üçün müəyyən olunmuş kvota haqqında.

2. Səlahiyyətli orqanlar bir Tərəfin dövlətindəki boş iş yerlərinə digər Tərəfin dövlətinin vətəndaşlarının işə cəlb olunması məqsədilə birgə zəruri tədbirlər görürlər.

3. Bir Tərəfin dövlətinin səlahiyyətli orqanı digər Tərəfin dövlətinin vətəndaşı olan

əməkçi miqrantların sayı haqqında ildə iki dəfədən az olmamaqla, digər Tərəfin dövlətinin səlahiyyətli orqanına məlumat göndərir.

Maddə 23

Bu Sazişin tətbiqi ilə bağlı. Tərəflər arasında yaranan mübahisə və fikir ayrılığı Tərəflərin dövlətlərinin səlahiyyətli orqanları arasında məsləhətləşmələr yolu ilə həll edilir.

Maddə 24

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və bu Sazişin 25-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 25

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları Tərəflərin yerinə yetirməsi haqqında sonuncu yazılı bildirişin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 il müddətinə bağlanılır. Tərəflərdən biri bu Sazişin müddətinin başa çatmasına ən azı 6 ay qalmış diplomatik kanallar vasitəsilə digər Tərəfə Sazişin ləğv edilməsi niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Saziş növbəti 5 illik müddətlərə uzadılır.

Bu Saziş Bakı şəhərində 2 may 2007-ci il tarixində hər biri Azərbaycan, Belarus və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir.

Bu Sazişin təfsiri ilə bağlı Tərəflər arasında fikir ayrılığı yarandıqda, rus dilində olan mətndən istifadə edilir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
RAMİL USUBOV	*VLADİMİR NAUMOV*
Daxili işlər naziri	*Daxili işlər naziri*

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında" 2007-ci il mayın 2-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2007-ci il

№402-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti (bundan sonra - "Tərəflər" adlandırılacaq),

Azərbaycan Respublikası və Belarus Respublikası arasında dostluq əlaqələrini möhkəmləndirmək və qarşılıqlı səmərəli əməkdaşlığı inkişaf etdirmək marağı ilə,

Dövlətlərarası sirlərin mühafizəsinin qarşılıqlı təminatı haqqında 1993-cü il 22 yanvar tarixli Sazişin həyata keçirilməsində qarşılıqlı maraqları nəzərə alaraq,

məxfi informasiya təşkil edən məlumatların, siyasi, hərbi, iqtisadi, elmi-texniki və ya digər sahələrdə ikitərəfli əməkdaşlıq zamanı ötürülən və alınan informasiyanın qarşılıqlı mühafizəsini təmin etmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Terminlərin tərifi

Bu Sazişdə istifadə edilən terminlər aşağıdakıları bildirir:

"məxfi informasiya" - istənilən formada ifadə olunmuş, hər bir Tərəfin dövlətinin qanunvericiliyinə uyğun olaraq mühafizə edilən, bu Sazişin həyata keçirildiyi zaman verilmiş (alınmış), həmçinin Tərəflərin əməkdaşlığı prosesində yaranmış, sanksiyasız yayılması Azərbaycan Respublikasının və (və ya) Belarus Respublikasının təhlükəsizliyinə və ya mənafeyinə ziyan vura bilən məlumatlar;

"məxfi informasiya mühafizəsi" - məxfi məlumatların sanksiyasız yayılmasının qarşısının alınması məqsədilə Tərəflərin dövlətlərinin qanunvericiliklərinə və bu Sazişə müvafiq olaraq hüquqi, təşkilati, texniki və digər tədbirlər görmək;

"məxfi informasiya daşıyıcıları" - məxfi informasiyanın simvollar, obrazlar, siqnallar, texniki qərarlar və proseslər şəklində əks olunduğu maddi obyektlər, o cümlədən fiziki sahələr;

"məxfilik qrifi" - məxfi informasiya daşıyıcısında və (və ya) onun müşayiət sənədlərində qoyulan, verilən informasiyanın məxfilik dərəcəsini göstərən rekvizit;

"müvəkkil edilmiş orqanlar" - Tərəf dövlətlərin məxfi informasiyanı vermək, almaq, saxlamaq, mühafizə və istifadə etmək səlahiyyəti verdiyi dövlət hakimiyyəti orqanı və hüquqi şəxslər;

"sanksiyalaşdırılmamış məxfi informasiyanın yayılması" - Tərəf dövlətlərin qanunvericilik tərəfindən müəyyən edilmiş saxlama qaydalarının pozulması və ya məxfi informasiyanın açılması, həmçinin bu kimi informasiyanın yayılması nəticəsində məxfi informasiya ilə tanış olmağa buraxılışı olmayan şəxslərə açıqlanma;

"məxfi informasiya ilə tanış olmağa buraxılma" - Tərəf dövlətlərin milli qanunvericiliyinə müvafiq olaraq rəsmiləşdirilmiş məxfi məlumatlarla işləməyə buraxılışı olan fiziki şəxsin məxfi informasiya ilə tanış olması və (və ya) işləməsi;

"kontrakt" - müvəkkil edilmiş orqanlar arasında bağlanan, məxfi informasiyanın ve-

rilməsini və (və ya) yaranmasını nəzərdə tutan müqavilə;

"məxfi işlər" - məxfi informasiyadan istifadə edilməsi ilə bağlı olan işlər, həmçinin təlim.

Maddə 2

Bu Sazişin predmeti

Tərəflərin ikitərəfli əməkdaşlığı prosesində yaranmış və (və ya) ötürülmüş məxfi informasiyanın qarşılıqlı mühafizəsi bu Sazişin predmetini təşkil edir.

Maddə 3

Məxfilik dərəcələrinin müqayisəsi

Tərəf dövlətlərin məxfi informasiyanın məxfilik dərəcəsi və bu dərəcəyə müvafiq məxfilik qrifi onun maddi daşıyıcıları üçün aşağıdakı qaydada müqayisələndirilir:

Azərbaycan Respublikasında - "məxfi";

Belarus Respublikasında - "məxfi".

Maddə 4

Səlahiyyətli orqanlar

Bu Sazişin həyata keçirilməsi üzrə məsul səlahiyyətli orqanlar:

Azərbaycan Respublikasında - Milli Təhlükəsizlik Nazirliyi;

Belarus Respublikasında - Dövlət Təhlükəsizlik Komitəsi.

Səlahiyyətli orqanlar öz səlahiyyətləri çərçivəsində bilavasitə qarşılıqlı əlaqə saxlayırlar.

Tərəf dövlətlərin müvəkkil edilmiş orqanlarının məxfi işlərin icrası sifarişinin yerləşdirilməsi zamanı qarşılıqlı əlaqənin təşkili səlahiyyətli orqanlarla razılaşdırılmaqla həyata keçirilir.

Tərəf dövlətlərin səlahiyyətli orqanları məxfi işlərin icrası prosesində öz qanunvericiliklərində və onların arasında bağlanmış müqavilədə nəzərdə tutulmuş qaydaya müvafiq olaraq birbaşa qarşılıqlı əməkdaşlıq edirlər.

Maddə 5

Məxfi informasiyanın mühafizəsi üzrə tədbirlər

Tərəflər öz dövlətlərinin qanunvericiliklərinə uyğun olaraq öhdəlik götürürlər:

məxfi informasiyanı mühafizə etmək;

əldə edilmiş informasiyaya ona təqdim edən Tərəfin verdiyi məxfilik qrifini həmin Tərəfin yazılı razılığı olmadan dəyişməmək;

məxfi informasiyaya münasibətdə özünün müvafiq məxfilik dərəcəli (bu Sazişin 3-cü maddəsindəki müqayisəyə uyğun) məxfi informasiyanın mühafizəsi üçün tətbiq etdiyi tədbirləri tətbiq etmək;

digər Tərəfin səlahiyyətli orqanından alınmış məxfi informasiyadan yalnız onun verilməsi zamanı nəzərdə tutulmuş məqsədlər üçün istifadə etmək;

məxfi informasiyanı verən Tərəfin əvvəlcədən yazılı razılığı olmadan bu informasiyanı tanış olmaq üçün üçüncü tərəfə təqdim etməmək.

Məxfi informasiyanın verilməsi zamanı nəzərdə tutulan məqsədlərlə bağlı xidməti (vəzifə) borcunu yerinə yetirməsi üçün həmin informasiyanı bilməsi zəruri olan və məxfi informasiya ilə işləməyə müvafiq buraxılışı olan şəxslərə bu informasiya ilə tanış olmağa icazə verilir.

Ehtiyac olduqda, məxfi informasiyanın mühafizəsi üzrə əlavə tələblər, uyğun tədbirlər göstərilməklə və belə informasiyadan istifadə üzrə öhdəliklər ətraflı şərh edilməklə, müvafiq kontraktlara daxil edilir.

Maddə 6

Məxfi informasiyanın ötürülməsi

Əgər bir Tərəfin müvəkkil edilmiş orqanı məxfi informasiyanı digər Tərəfin müvəkkil edilmiş orqanına vermək niyyətindədirsə, o, əvvəlcədən öz Tərəfinin səlahiyyətli orqanına digər Tərəfin müvəkkil edilmiş orqanının Tərəf dövlətlərin milli qanunvericiliklərinə müvafiq məxfi informasiya ilə işləməyə buraxılışının olmasının yazılı təsdiqi üçün sorğu göndərir.

Məxfi informasiyanın verilməsi haqqında qərarı, Tərəf dövlətlərin hər birinin qanunvericiliyinə uyğun olaraq, hər bir ayrıca hal üzrə Tərəflər qəbul edirlər.

Məxfi informasiyalar bir dövlətdən digər dövlətə diplomatik kanallarla feldyeger xidməti ilə və ya Tərəflər arasında qüvvədə olan müqavilələrə əsasən bu işə müvəkkil olunmuş orqan vasitəsilə ötürülür. Məxfi informasiyanı qəbul edən orqan həmin informasiyanın qəbul olunmasını təsdiq edir.

İriqabaritli məxfi məlumatların daşıyıcılarının verilməsi üçün müvəkkil edilmiş orqanlar öz dövlətlərinin qanunvericiliyinə uyğun göndərilmə üsulu, marşrutu və müşayiət forması haqqında razılığa gəlirlər və bu barədə səlahiyyətli orqanları məlumatlandırırlar.

Tərəflər başqa razılığa gəlmədikdə, məxfi məlumatların ötürülməsi prosesində həmin məlumatlar üzrə xüsusi hüquqların və məxfi məlumat daşıyıcıları üzrə mülkiyyət hüquqlarının ötürülməsi nəzərdə tutulmur.

Maddə 7

Məxfi informasiyadan istifadə edilməsi

Verilmiş məxfi informasiya daşıyıcılarına onun alınmasına cavabdeh olan səlahiyyətli orqan tərəfindən bu Sazişin 3-cü maddəsindəki müqayisəyə uyğun olaraq məxfilik qrifləri əlavə olaraq qoyulur.

Tərəflərin əməkdaşlığı prosesində yaranmış, həmçinin tərcümə, surətin çıxarılması və ya çoxaldılması nəticəsində əldə edilmiş məxfi informasiya daşıyıcılarına məxfilik qrifləri qoyulur.

Verilmiş məxfi informasiya əsasında yaranmış məxfi informasiya daşıyıcılarına, verilmiş məxfi informasiyanın məxfilik qrifindən aşağı olmayan məxfilik qrifi qoyulur.

Məxfi informasiya daşıyıcılarının Tərəflərin dövlətlərinin öz məxfi informasiyasına münasibətdə qüvvədə olan tələblərə uyğun olaraq uçotu aparılır və saxlanılır.

Məxfi informasiyanın məxfilik dərəcəsi və onun maddi daşıyıcılarının müvafiq məxfilik qrifi onu vermiş Tərəfin səlahiyyətli orqanının yazılı razılığı olmadan dəyişdirilə bilməz.

Tərəflərin əməkdaşlığı prosesində yaranmış məxfi informasiyanın məxfilik dərəcəsi müvəkkil edilmiş orqanların qarşılıqlı razılığı əsasında müəyyən edilir, dəyişdirilir və ya götürülür.

Məxfi informasiyanın məxfilik dərəcəsinin dəyişdirilməsi və ya götürülməsi barədə onu vermiş Tərəfin səlahiyyətli orqanı digər Tərəfin səlahiyyətli orqanını yazılı surətdə məlumatlandırır.

Məxfi informasiya daşıyıcıları razılaşdırılma yolu ilə onu vermiş Tərəfin müvəkkil edilmiş orqanının yazılı icazəsi ilə qaytarılır və ya bu daşıyıcıların yerləşdiyi ərazi olan Tərəfin qanunvericiliyinə müvafiq olaraq, bərpa olunması mümkünsüzlüyünü təmin edən vasitə ilə məhv edilir.

Məxfi informasiya daşıyıcısının məhv edilməsi sənədləşdirilir, məhvetmə prosesinin özü isə onun bərpa olunmasının mümkünsüzlüyünü təmin etməlidir.

Məxfi informasiya daşıyıcılarının məhv edilməsi haqqında onları vermiş Tərəfin səlahiyyətli orqanı yazılı xəbərdar edilir.

Maddə 8

Kontraktlar

Tərəflərin müvəkkil edilmiş orqanları arasında bağlanan kontraktlara aşağıdakıların müəyyən edildiyi bölmə daxil edilir:

məxfi informasiyanın siyahısı və onların məxfilik dərəcələri;

məxfi informasiyanın mühafizəsinin xüsusiyyətləri;

mübahisəli sualların həlli və məxfi informasiyanın sanksiyasız yayılmasından dəyən mümkün ziyanın ödənilməsi qaydaları;

mübadilə olunan məxfi informasiyanın mühafizə öhdəlikləri;

məxfi informasiyanın istifadə və işlədilmə şərtləri;

məxfi informasiyanın, yalnız onu təqdim edən səlahiyyətli orqanın yazılı razılığı əsasında üçüncü tərəfə təqdim edilməsi öhdəliyi.

Maddə 9

Məsləhətləşmələr

Səlahiyyətli orqanlar məxfi informasiyanın mühafizəsi sahəsində öz dövlətlərinin qanunvericilik və digər normativ hüquqi aktlarını bu Sazişin həyata keçirilməsi üçün zəruri olan həcmdə mübadilə edirlər.

Bu Sazişin həyata keçirilməsi çərçivəsində əməkdaşlığın təmin edilməsi məqsədilə səlahiyyətli orqanlar onlardan birinin xahişi ilə birgə məsləhətləşmələr keçirirlər.

Maddə 10

Nümayəndələrin görüşləri

Bir Tərəfin müvəkkil edilmiş orqanlarının nümayəndələrinin digər Tərəfin dövlətinin məxfi informasiyası ilə tanış olmağa buraxılmasını nəzərdə tutan görüşləri qəbul edən Tərəfin səlahiyyətli orqanının icazəsi ilə həyata keçirilir. Belə görüşlər üçün icazə, yalnız bu Sazişin 5-ci maddəsinin 2-ci bəndində göstərilən şəxslərə verilir.

Belə görüşün həyata keçirilməsi mümkünlüyü barədə müraciət, göndərən Tərəfin səlahiyyətli orqanı tərəfindən qəbul edən Tərəfin səlahiyyətli orqanına, görüş nəzərdə tutulan tarixdən ən azı iki ay əvvəl göndərilir.

Nəzərdə tutulan görüş barədə müraciət, qəbul edən Tərəfin dövlətində qəbul edilmiş prosedurlara uyğun olaraq tərtib edilir və aşağıdakı məlumatları əks etdirir:

görüşün məqsədi;

nümayəndənin soyadı və adı, onun doğulduğu tarix və yer, vətəndaşlığı və pasportunun nömrəsi;

nümayəndənin ixtisası və vəzifəsi;

nümayəndənin işlədiyi səlahiyyətli orqanın adı;

məxfi informasiyanın məxfilik dərəcəsinə müvafiq olan buraxılışının olması barədə informasiya;

görüşün təklif olunan tarixi və müddəti;

görüşü planlaşdıran müvəkkil edilmiş orqanların adları;

nümayəndələrinin görüşməsi nəzərdə tutulan şəxslərin vəzifələri, soyadları və adları.

Bir Tərəfin müvəkkil edilmiş orqanlarının nümayəndələri görüş zamanı digər Tərəfin müvafiq məxfilik dərəcəli məxfi informasiyası ilə iş qaydaları ilə tanış edilirlər və bu qaydalara riayət edirlər.

Hər bir Tərəf digər Tərəfin nümayəndələrinin qəbulundan imtina edə bilər.

Maddə 11

Məxfi informasiyanın mühafizəsi üzrə tədbirlərin həyata keçirilməsi xərcləri

Bir Tərəfin müvəkkil edilmiş orqanlarının məxfi informasiyasının mühafizəsi üzrə tədbirlərin görülməsi ilə əlaqədar yaranan xərclər digər Tərəfin müvəkkil edilmiş orqanları tərəfindən ödənilmir.

Maddə 12

Məxfi informasiyanın mühafizəsi üzrə tələblərin pozulması

İkitərəfli əməkdaşlıq prosesində yaranan, həmçinin qəbul olunan məxfi informasiyanın sanksiyasız yayıldığı təqdirdə, həmin informasiyanın sanksiyasız yayılma halları nəzərə alınmaqla, bu yayılmanın baş verdiyi Tərəf dövlətin milli qanunvericiliyi tətbiq olunur.

İkitərəfli əməkdaşlıq prosesində yaranan və əldə olunan məxfi informasiyanın sanksi-

yasız yayılma faktı müəyyən olunduqda, digər Tərəfin səlahiyyətli orqanına gecikdirilmədən məlumat verilir.

Tərəflər məxfi informasiyanın sanksiyasız yayılma faktı üzrə məsləhətləşmələr, milli qanunvericiliyə əsasən təhqiqat həyata keçirirlər, nəticəsi barədə bir-birini məlumatlandırırlar.

Məxfi informasiyanın sanksiyasız yayılması zamanı dəymiş ziyan, məxfi informasiyanın sanksiyasız yayılmasında günahkar olan Tərəfin ödəmə qaydası təhqiqat zamanı müəyyən olunur.

Təhqiqatın həyata keçirilməsi zamanı Tərəflər öz dövlətlərinin milli qanunvericiliyinə əsasən qarşılıqlı razılıq yolu ilə bir-birinə öz nümayəndələrini göndərə bilərlər. Tərəflər başqa razılığa gəlmədikdə, belə şəxslərin ezamiyyəti ilə bağlı bütün xərcləri göndərən Tərəf ödəyir.

Tərəflərin səlahiyyətli orqanları təhqiqatın nəticələri və görülən tədbirlər barədə bir-birini məlumatlandırırlar.

Məxfi informasiyanın sanksiyasız yayılması zamanı dəymiş ziyanın həcmi və onun ödənilmə qaydası Tərəflərin məsləhətləşmələri ilə, onların arasında bağlanmış beynəlxalq müqavilələrlə və Tərəf dövlətlərin milli qanunvericiliyi ilə müəyyən olunur.

Maddə 13

Mübahisəli məsələlərin həlli

Bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi ilə əlaqədar olan mübahisələr səlahiyyətli orqanlar arasında danışıqlar yolu ilə həll edilir.

Maddə 14

Digər razılaşmalara münasibət

Əgər Tərəflər arasında məxfi informasiyanın mühafizəsi rejimini tənzimləyən mövcud razılaşmaların müddəaları bu Sazişə zidd deyildirsə, o, qüvvədə qalacaqdır.

Maddə 15

Sazişə əlavə və dəyişikliklərin edilməsi

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə, onun ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilən və bu Sazişin 16-cı maddəsinə uyğun olaraq qüvvəyə minən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 16

Sazişin qüvvəyə minməsi, qüvvədə qalma müddəti və qüvvəsinin ləğv edilməsi

Bu Saziş onun qüvvəyə minməsi üçün Tərəflərin zəruri dövlətdaxili proseduralarının yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir və qeyri-müəyyən müddətə bağlanılır.

Tərəflərdən hər biri bu Sazişin qüvvəsinin ləğv edilməsi niyyəti barədə yazılı bildirişi diplomatik kanallarla digər Tərəfə göndərməklə, bu Sazişin qüvvəsini ləğv edə bilər. Bu halda həmin yazılı bildirişin alınma tarixindən 6 ay sonra Saziş qüvvədən düşür.

Bu Saziş qüvvədən düşdüyü halda, Tərəflər arasında əməkdaşlıq prosesində yaranan və (və ya) alınan məxfi informasiyaya münasibətdə onun mühafizəsi, verən Tərəfin dövlətinin qanunvericiyi ilə məxfilik qrifi götürülənə qədər bu Sazişlə nəzərdə tutulan tədbirlərin tətbiqi davam etdirilir.

Bakı şəhərində 2007-ci il mayın 2-də, hər biri Azərbaycan, Belarus və rus dillərində olmaqla, iki nüsxədə tərtib edilmişdir, hər iki mətn eyni qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsiri zamanı fikir ayrılığı olduqda, rus dilində olan mətndən istifadə edilir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELDAR MAHMUDOV	*NİKOLAY SVOROB*
Milli təhlükəsizlik naziri	*Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini*

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında" 2007-ci il mayın 2-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2007-ci il

№403-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti,

Azərbaycan-Belarus əlaqələrini inkişaf etdirmək istəyini rəhbər tutaraq, diri heyvanların, heyvan mənşəli məhsulların qarşılıqlı ticarətini genişləndirmək, tərəf ölkələrin ərazisi ilə getməsinə və ya keçməsinə,

insan və heyvanların sağlamlığını qorumaq məqsədilə öz ölkələrinin ərazilərindən yoluxucu heyvan xəstəliklərinin keçməsinin qarşısını almağa səy göstərərək,

baytarlıq sahəsində ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi marağını nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişin yerinə yetirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsini həyata keçirən Tərəflərin səlahiyyətli orqanları:

Azərbaycan Respublikasından - Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidmətidir;

Belarus Respublikasından - Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinin Dövlət baytarlıq və Dövlət ərzaq müfəttişlikləri ilə Baş Baytarlıq İdarəsidir.

Maddə 2

1. Bu Sazişdə "heyvanlar" adı altında aşağıdakılar anlaşılmalıdır:

təkdırnaqlılar (at, eşşək, qatır və s.);

cütdırnaqlı ev heyvanları (iribuynuzlu heyvanlar, qoyunlar, keçilər, donuzlar, dəvələr və s.) və vəhşi heyvanlar;

ev gəmiriciləri və vəhşi gəmiricilər (ev və çöl dovşanları, siçovullar, hind donuzları və s.);

ev quşları (toyuqlar, hind toyuqların, qazlar, ördəklər, firəng toyuğu və s.);

dekorativ quşlar (qırqovul, kəklik, meşə xoruzu və s.);

ekzotik quş və heyvanlar (tutuquşular, meymunlar və s.);

sirk heyvanları;

arılar;

balıqlar, ilbizlər, xərçəngkimilər, digər onurğasızlar, tısbağalar, qurbağalar, ipəkqurdları.

2. Bu Sazişdə "heyvan mənşəli məhsullar" adı altında aşağıdakılar anlaşılmalıdır:

işlənilməmiş halda heyvan mənşəli xammal;

heyvanların doğub-törəmə materialları (toxum, yumurta hüceyrələri, ziqotalar və embrionlar, mayalanmış kürü);

qida üçün istifadə olunan heyvan mənşəli qida məhsulları, subməhsullar və hazır heyvandarlıq məhsulları;

ət və ət məhsulları, süd və süd məhsulları, yumurta, bal və s.;

qida üçün istifadə olunmayan heyvan mənşəli məhsullar.

3. Bu Sazişdə "yem" anlayışı altında tərkibində toksiki maddə olmayan və heyvanların yemlənməsi üçün istifadə edilə bilən bitki, heyvan, mineral, mikrobioloji, kimyəvi və digər mənşəli yemlər anlaşılmalıdır.

Maddə 3

1. Tərəf ölkələrə gələn və ya onun ərazisindən keçən diri heyvan, heyvan mənşəli məhsullar, yem və baytarlıq xidmətinin nəzarətində olan digər yüklərin (bundan sonra - yük) idxalına və tranzitinə aşağıdakı qaydalara əməl edildikdə icazə verilir:

a) idxal edən ölkə və ya müvafiq tranzit ölkənin qəbul etdiyi baytarlıq - sanitariya

tələbləri yerinə yetirildikdə;

b) yola salınmazdan əvvəl idxal edən ölkənin və ya müvafiq tranzit ölkəsinin səlahiyyətli orqanları tərəfindən yükə icazə verildikdə;

c) yükün iki dildə - idxalçı ölkənin dilində və rus dilində yazılmış baytarlıq sertifikatı ilə müşayiət edilməsində.

2. Bu maddənin 1-ci bəndinin yerinə yetirilməsi üçün Tərəflər öhdələrinə götürürlər:

a) müvafiq dövlətlərin idxal olunan və ya ərazilərindən keçən tranzit yüklərə baytar-sanitariya tələblərinin tənzimlənməsinə dair mütəmadi informasiya mübadiləsini aparmağı;

b) yükün idxalı və tranzitində istifadə edilən baytarlıq sertifikatlarının nümunələrinin mübadiləsini aparmağı və onlarda hər hansı dəyişiklik edilməsi barədə təcili olaraq bir-birinə xəbər verməyi.

Maddə 4

1. Əgər dövlət sərhəd buraxılış məntəqəsində və ya təyinatı yerində yükün baytarlıq sertifikatında göstərilən şərtlərlə uyğun gəlməməsi aşkar edilərsə, idxalı həyata keçirən Tərəfin səlahiyyətli orqanının qüvvədə olan milli qanunvericiliyə uyğun müvafiq tədbir görmək hüququ vardır.

2. Bu maddənin 1-ci bəndində təsvir edilmiş vəziyyət baş verərsə, idxalı həyata keçirən Tərəflərin səlahiyyətli orqanı, yükü göndərən Tərəfin səlahiyyətli orqanına pozuntu və görülmüş tədbirlər barəsində məlumat verməlidir.

Maddə 5

1. Tərəflərin səlahiyyətli orqanları öhdələrinə götürürlər:

a) öz dövlətlərinin ərazilərində Beynəlxalq epizootik büronun siyahısına daxil edilən heyvanların yoluxucu xəstəliklərinin baş verməsi, yayılması və ləğv edilməsi, heyvan xəstəlikləri barədə həmin büro tərəfindən müəyyən edilmiş müddətə və vasitələrlə biri-birinə müntəzəm surətdə məlumat verirlər. Məlumatda xəstəlik baş vermiş regionlar, xəstə heyvanların növü, sayı, xəstəliyinin ləğvi və məhdudlaşdırılması, infeksiyanın yayılma səbəbləri və ehtimal edilən yoluxma yollarını mütləq göstərmək;

b) heyvan sürülərinin yoluxucu xəstəliklərdən qabaqlayıcı qorunma tədbirləri və ona nəzarət edilməsi tədbirləri barədə məlumat mübadiləsi aparmaq.

2. Tərəflərin səlahiyyətli orqanları habelə öhdələrinə götürürlər:

Beynəlxalq epizootik büronun tövsiyəsi çərçivəsində yoluxucu xəstəliklər üzərində nəzarət üzrə əməkdaşlığa və texniki layihələrin birgə işlənməsinə kömək göstərmək;

yüklərin idxalı (tranziti) zamanı öz dövlətlərinin ərazilərinə yoluxucu

heyvan xəstəliklərinin kənardan gətirilməsinin və yayılmasının, təhlükəli məhsulların keçməsinin qarşısını almaq üzrə tədbirlər görmək.

Maddə 6

1. Tərəflərin səlahiyyətli orqanları baytarlıq sahəsində ikitərəfli əməkdaşlığa kömək edəcəklər:

a) baytarlıq fəaliyyəti ilə əlaqədar olan normativ sənədlərin və ya xüsusi nəşrlərin qarşılıqlı əsasda mübadiləsinə;

b) qarşılıqlı maraqlardan irəli gələn problemlərin öyrənilməsi və tədqiq edilməsi ilə məşğul olan elmi institutlar, diaqnostik və analitik laboratoriyalar arasında əməkdaşlığa;

c) heyvan xəstəliklərinin müşahidəsi, nəzarət edilməsi və qarşısının alınması sahələrində ikitərəfli texniki yardımın və ekspertizanın genişləndirilməsinə;

ç) yoluxucu heyvan xəstəliklərinə qarşı mübarizə tədbirləri və onların profilaktikasına dair məlumat mübadiləsinə;

d) baytarlıq xidmətinin təşkilində və fəaliyyətində ikitərəfli anlaşma və etimadi gücləndirmək məqsədilə milli baytarlıq ekspertləri mübadiləsi;

e) Tərəf dövlətlərin ərazilərində istehsal edilən baytarlıq preparatları ilə (dərman maddələri, parazitlərəleyhinə, immunbioloji və diaqnostik vasitələr) ticarət mübadiləsi, habelə birgə istehsal və ticarət təşkilatlarının yaradılması.

2. Məlumat və sənədləşmə mübadiləsi ilə bağlı xərclər bu informasiya və sənədləşməni göndərən Tərəfin hesabına ödənilir. Nümayəndə heyətinin səfərləri ilə bağlı xərclər, əgər bu barədə əvvəlcədən razılaşma yoxdursa, göndərən Tərəfin hesabına ödənilir.

Maddə 7

Bu Sazişin təfsiri və tətbiqi ilə bağlı mübahisələr, Tərəflərin səlahiyyətli orqanları arasında danışıqlar yolu ilə həll ediləcəkdir. Əgər bu yolla istənilən nəticə əldə edilməzsə, fikir ayrılığı diplomatik kanallarla həll ediləcəkdir.

Maddə 8

Bu Saziş Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdə müəyyən edilmiş hüquq və öhdəliklərinə təsir etmir.

Maddə 9

Tərəflərin qarışılıqlı razılığı ilə bu Sazişə əlavə və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilir.

Qeyd edilən Protokolların qüvvəyə minməsi bu Sazişin 10-cu maddəsində göstərilən qaydada həyata keçirilir.

Maddə 10

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili proseduların yerinə yetirilməsi barədə bir-birinə diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır. Tərəflərdən biri Sazişin müddətinin başa çatmasına ən azı 6 ay qalmış diplomatik kanallar vasitəsilə digər Tərəfə Sazişin ləğv edil-

məsi niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Saziş növbəti beşillik müddətlərə uzadılacaqdır.

Bakı şəhərində, 2 may 2007-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan və rus dillərində olmaqla, imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
İSMƏT ABASOV	*LEONİD RUSAK*
Kənd təsərrüfatı naziri	*Kənd təsərrüfatı və ərzaq naziri*

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti

arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında" 2007-ci il mayın 2-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2007-ci il

№404-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti,

karantin zərərverici orqanizmlərinin daxil olmasının və yayılmasının qarşısının alınması sahəsində əməkdaşlığın əhəmiyyətini etiraf edərək,

Tərəflər arasında ticarət əlaqələrini inkişaf etdirərkən və kommersiya kontraktlarını həyata keçirərkən öz dövlətlərinin ərazilərini karantin zərərverici orqanizmlərinin daxil olmasından və yayılmasından qarşılıqlı qorunması maraqlarından çıxış edərək,

bitki karantini və mühafizəsi sahəsində əməkdaşlığı genişləndirmək və dövlət karantin tədbirlərinin koordinasiyasını təmin etmək istəyini rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Sazişdə istifadə olunan terminlər aşağıdakı mənaları daşıyır:

"zərərverici orqanizm" - bitki və ya bitkiçilik məhsullarına zərər vuran bitkilərin, heyvanların və ya patogen agentlərin hər hansı növü, növmüxtəlifliyi və ya biotipi;

"karantin zərərverici orqanizm" - yoluxma təhlükəsi olan zonada mövcud olan və ya hələlik olmayan, lakin məhdud dairədə yayılan və müəyyən edilmiş mübarizə obyekti olan potensial iqtisadi əhəmiyyətli zərərverici orqanizm;

"karantin altında olan material" - zərərverici orqanizmlərin məskən salmasına (gizlənməsinə) və ya onların yayılmasına şərait yaradan və xüsusilə də beynəlxalq yükdaşımaları zamanı fitosanitar tədbirlərin aparılması tələb olunan hər hansı bitki, bitki məhsulu, saxlanma (anbar) yeri, qablaşdırma materialı, nəqliyyat vasitələri, konteyner, torpaq və digər hər hansı orqanizm, obyekt və yaxud material.

Maddə 2

Bu Sazişin müddəalarının və həyata keçirilməsinin əlaqələndirilməsi üzrə Tərəflərin səlahiyyətli orqanları:

Azərbaycan Respublikası tərəfindən - Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti,

Belarus Respublikası tərəfindən - Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinin Dövlət İdarəsi - "Toxumçuluq, Karantin və Bitki Mühafizəsi üzrə Baş Dövlət Müfəttişliyi".

Maddə 3

Tərəflər idxal, ixrac və tranzit karantin nəzarətində olan materialların yoxlanılması üzrə zəruri tədbirləri qüvvədə olan milli qanunvericiliyə və öz dövlətləri üçün əhəmiyyət kəsb edən karantin zərərverici orqanizmlərin siyahısına uyğun olaraq həyata keçirəcəklər.

Tərəflər öz dövlətləri üçün əhəmiyyət kəsb edən karantin zərərverici orqanizmlərin siyahılarını mübadilə edirlər.

Karantin altında olan materialların yoxlanılmasına çəkilən xərclər, pullu xidmətlər mövcud olduğu təqdirdə, Tərəf dövlətlərin ərazisində qəbul edilmiş tariflərə uyğun olaraq yük sahibi tərəfindən ödənilir.

Maddə 4

Tərəflər bir ölkənin ərazisindən digər ölkənin ərazisinə daşınan karantin altında olan materialların idxalı, ixracı və tranziti zamanı Tərəflərin dövlətlərinin qüvvədə olan milli qanunvericiliklərinə müvafiq olaraq təsdiq olunmuş fitosanitar qaydalarına riayət etməyi öhdələrinə götürürlər.

Maddə 5

Tərəflər bitki karantini və mühafizəsi sahəsində səmərəli əməkdaşlıq etmək məqsədilə qüvvədə olan milli qanunvericiliyinə müvafiq olaraq öhdələrinə götürürlər:

karantin altında olan materialların idxalı, ixracı və tranziti zamanı karantin zərərverici orqanizmlərinin bir Tərəfin dövlətinin ərazisindən o biri Tərəfin dövlətinin ərazisinə keçməsinin qarşısını alan lazımi tədbirlərin görülməsini;

Azərbaycan Respublikasının və Belarus Respublikasının ərazilərində bitki karantini və mühafizəsi tədbirlərini tənzimləyən qayda və əsasnamələrin mübadiləsini;

Tərəf dövlətlərin ərazilərində karantin və digər xüsusi təhlükəli zərərverici orqanizmlərin peyda olması və yayılması barədə informasiya mübadiləsini;

bitki karantini və mühafizəsi sahəsində elmi tədqiqat işləri barədə informasiya mübadiləsini;

karantin altında olan materialların istehsalı və tədarükü yerlərində seçmə yolu ilə karantin yoxlanılmasını təşkil etmək, bitki karantini və mühafizəsi məsələlərinin operativ həlli, eləcə də bitki karantini və mühafizəsi sahəsində elmi nailiyyətləri və təcrübəni öyrənmək məqsədilə mütəxəssislərin ezam edilməsini;

bitki karantini və mühafizəsi tədbirlərinin keçirilməsində, karantin zərərverici orqanizmlərin aşkar edilməsində, lokallaşdırılmasında və ləğv edilməsində, zərərsizləşdirilməsində və digər tədbirlərin aparılmasında qarşılıqlı elmi, texniki və digər kömək göstərilməsini;

fövqəladə hallarda birgə təcili tədbirlər görmək məqsədilə Tərəflərdən birinin xahişi ilə bitki karantini və mühafizəsi üzrə mütəxəssislərdən ibarət ekspedisiyaların ezam olunmasını.

Maddə 6

Tərəflər, qüvvədə olan milli qanunvericiliyə uyğun olaraq, ixrac və idxal olunan və ya tranzit daşınan karantin altında olan materiallarla karantin zərərverici orqanizmlərinin Azərbaycan Respublikasının və ya Belarus Respublikasının ərazisinə keçməsinin qarşısını almaq məqsədilə bütün tədbirlərin görülməsini öhdələrinə götürürlər.

Bir Tərəfin dövlət ərazisinə digər Tərəfin dövlət ərazisindən idxal edilən karantin altında olan materialın hər yük partiyası ixrac edən ölkənin bitki karantini və mühafizəsi xidməti tərəfindən verilmiş tərəflərin mübadilə etdikləri fitosanitar sertifikatları ilə müşayiət edilməlidir. Sertifikat karantin altında olan materialların idxal edən Tərəfin idxal karantin icazəsində qoyulmuş fitosanitar normalarına cavab verməsini təsdiq etməlidir.

Fitosanitar sertifikatının orijinal mətni dəyişdirilmədən, düzəliş aparılmadan və rus, Azərbaycan və ya ingilis dillərində olmalıdır. Fitosanitar sertifikatlarının qüvvədə olma müddəti verilmə tarixindən etibarən 14 gündür.

Karantin nəzarətində olan materialların təkrar ixracatı zamanı bu materialın istehsal edildiyi ölkənin orijinal fitosanitar sertifikatı və ya Tərəfin səlahiyyətli orqanları tərəfindən təsdiq olunmuş surəti və ixracatçı Tərəfin fitosanitar sertifikatı ilə müşayiət olunmalıdır.

Fitosanitar sertifikata və idxal karantin icazəsinə çəkilən xərclər, pullu xidmətlər mövcud olduğu təqdirdə, Tərəflərin ərazilərində qəbul olunmuş tariflər üzrə yük sahibi tərəfindən ödənilməlidir.

Tərəflərin səlahiyyətli orqanları qüvvədə olan milli qanunvericiliyə müvafiq olaraq karantin altında olan materialların ayrı-ayrı yük partiyalarının alınması zamanı materialların fitosanitar vəziyyətinə dair əlavə şərtlər qoymaq (zərərsizləşdirmək, yenidən qablaşdırmaq, kənar qarışıqlardan və torpaqdan azad edilməsi, ağac qabığının olmaması,

yuyulma, hermetiklik və digər şərtlər) hüququna malikdirlər.

Karantin altında olan materialların tranziti, ərazisini keçdiyi ölkənin milli qanunvericiliyinə və beynəlxalq hüquqa müvafiq olaraq həyata keçirilir.

Maddə 7

Karantin altında olan materialların Azərbaycan Respublikasının və Belarus Respublikasının ərazilərindən ixracı, idxalı və tranziti Tərəf dövlətlərin milli qanunvericiliyi ilə müəyyən edilmiş dövlət sərhəd buraxılış məntəqələrində həyata keçirilir.

Maddə 8

Tərəflər torpağın (torf istisna olmaqla), həmçinin köklərində torpaq olan bitkilərin bir dövlətin ərazisindən digər dövlətin ərazisinə daşınmasına qadağa qoyur.

Karantin nəzarətində olan materialların ixracı zamanı qablaşdırma materialı kimi karantin zərərverici orqanizmlərinin daşıyıcıları ola bilməyən və torpaqdan azad olan taxta kəpəyi, yonqar, kağız, plastik kütlə və digər materiallar tətbiq ediləcəkdir. Quru ot, küləş, püfə, yarpaq və digər bitki mənşəli materiallardan qablaşdırıcı kimi istifadə olunmasına yol verilmir.

Karantin altında olan materialların Tərəf dövlətlərin birinin ərazisindən digər Tərəfin dövlətinin ərazisinə daşınmasında istifadə olunan nəqliyyat vasitələri əsaslı surətdə təmizlənməli və lazım gəldikdə zərərsizləşdirilməlidir.

Maddə 9

Tərəflər idxalçı ölkənin buraxılış məntəqələrində dövlət fitosanitar nəzarəti aparan zaman zərərverici orqanizmləri aşkar etdikdə, karantin altında olan materialı yük sahibinin hesabına ixracatçıya qaytarmaq, yaxud zərərsizləşdirmək hüququna malikdirlər. Əgər yükü zərərsizləşdirməyə, yaxud geri qaytarmağa imkan yoxdursa, yük sahibi və gömrük orqanlarının razılığı əsasında yük məhv edilməli və hər bir halda ayrılıqda digər Tərəf dövlətin səlahiyyətli orqanları bu barədə qabaqcadan məlumatlandırılmalıdırlar.

Maddə 10

Tərəflərin səlahiyyətli orqanları bu Sazişin həyata keçirilməsində praktiki məsələlərin həlli üçün, lazım gəldikdə, Tərəf dövlətlərin hər birinin ərazisində növbə ilə birgə müşavirələr keçirirlər.

Müşavirənin yeri, tarixi və müzakirə olunacaq məsələlərin siyahısı Tərəflərin səlahiyyətli orqanları tərəfindən müəyyən edilir.

Müşavirənin keçirilməsi ilə bağlı təşkilatı xərcləri qəbul edən Tərəfin səlahiyyətli orqanı ödəyir.

Maddə 11

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər. Belə protokollar Sazişin 14-cü maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minir.

Maddə 12

Bu Sazişin müddəalarının təfsiri və tətbiqi ilə bağlı mübahisəli məsələlər Tərəflər arasında danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 13

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən və ya onların bitki karantini və mühafizəsi üzrə beynəlxalq təşkilatlara üzvlüyündən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 14

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 il müddətinə bağlanılır. Tərəflərdən biri müvafiq müddətin bitməsinə ən azı altı ay qalmış Sazişi ləğv etmək niyyəti barədə digər Tərəfi diplomatik kanallar vasitəsilə yazılı şəkildə xəbərdar etmədiyi təqdirdə, Sazişin qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətə uzadılır.

Saziş Bakı şəhərində 2 may 2007-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BELARUS RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
İSMƏT ABASOV	*LEONİD RUSAK*
Kənd təsərrüfatı naziri	*Kənd təsərrüfatı və ərzaq naziri*

Azərbaycan Respublikası və Koreya Respublikası arasında Birgə Bəyanatın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

I. Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikası və Koreya Respublikası arasında 2007-ci il aprelin 23-də Seul şəhərində imzalanmış Birgə Bəyanat təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2007-ci il

№ 405-IIIQ

Azərbaycan Respublikası və Koreya Respublikası arasında Birgə Bəyanat

Koreya Respublikasının Prezidenti zati-aliləri cənab Roh Mu-hyunun dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev 23-25 aprel 2007-ci il tarixində Koreya Respublikasına dövlət səfəri etmişdir. İki ölkə başçıları bir çox ikitə-

rəfli, regional və beynəlxalq məsələlər üzrə fikir mübadiləsi apardılar və qarşılıqlı etimad və hörmət əsasında ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi səylərini davam etdirəcəklərini bir daha təsdiqlədilər.

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Koreya Respublikasının Prezidenti Roh Mu-hyun (bundan sonra "hər iki Tərəf" adlanacaq) iki ölkənin BMT Nizamnaməsinin məqsəd və prinsipləri və beynəlxalq hüququn digər ümumtanınmış normaları əsasında ikitərəfli əməkdaşlığın inkişafının davam etdirilməsi niyyətlərini təsdiqlədilər.

2. 1992-ci ildə iki ölkə arasında diplomatik əlaqələrin qurulmasından sonra ikitərəfli əməkdaşlığın sabit inkişafının Prezident Roh Mu-hyunun rəsmi səfəri çərçivəsində 11 may 2006-cı ildə imzalanmış "Azərbaycan Respublikası və Koreya Respublikası arasında münasibətlərin və əməkdaşlığın prinsipləri haqqında Birgə Bəyannamə" ilə daha da möhkəmləndiyini qeyd edərək, hər iki Tərəf hökumətlərarası, parlamentlərarası mübadilə, eləcə də iki ölkənin xarici işlər nazirlikləri arasında yüksək səviyyəli məsləhətləşmələr də daxil olmaqla, ikitərəfli dialoqun təşviq edilməsi niyyətlərini ifadə etdilər.

3. Hər iki Tərəf beynəlxalq birlik tərəfindən çevik fəaliyyət tələb edən beynəlxalq və regional məsələlər üzrə mühüm fikir mübadiləsi apardılar və həmin məsələlər üzrə ümumi maraq və mövqelərini təsdiqlədilər:

a) Azərbaycan Tərəfi Koreya yarımadasında sülhün təşviqi, eləcə də Şimal-Şərqi Asiyada ümumi rifaha nail olunması məqsədi daşıyan Koreya Respublikasının Sülh və Rifah siyasətinə dəstəyini ifadə etdi və Koreya tərəfinin Şimali Koreyanın nüvə məsələsini sülh yolu ilə həll etmək səylərini dəstəklədi.

b) Hər iki Tərəf Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və ATƏT-in Lissabon sammitinin üç prinsipinə diqqət yetirərək, suverenliyə və ərazi bütövlüyünə hörmət əsasında Azərbaycan və Ermənistan arasında Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinin əhəmiyyətini vurğuladılar.

c) Hər iki Tərəf sülh və təhlükəsizlik, inkişaf və insan hüquqları məsələlərində BMT-nin vacib rolunu bir daha təsdiq edərək, beynəlxalq terrorizm, narkotiklərin, psixotrop maddələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq, insan və silah alveri və kütləvi qırğın silahlarının yayılması kimi qlobal təhlükəsizliyə və sabitliyə təhlükə törədən ümumi təhdidlərə qarşı mübarizədə əməkdaşlıq etmək barədə razılığa gəldilər.

4. Hər iki Tərəf ticarət və investisiya sahəsində əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyini təsdiqləyərək, "Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qorunması haqqında Saziş" və enerji, tikinti, nəqliyyat və kommunikasiya sahələrində bir sıra razılaşmalar imzaladılar.

Qarşıdakı illərdə Azərbaycan-Koreya münasibətlərinin hüquqi bazasının genişləndirilməsi məqsədilə hər iki Tərəf, iki ölkə arasında ikiqat vergitutmanın aradan qaldırılması haqqında Saziş də daxil olmaqla, digər saziş və anlaşma memorandumları üzrə aparılan işlərin sürətləndirilməsi barədə razılığa gəldilər.

5. Hər iki Tərəf enerji və digər təbii ehtiyatlar sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğuladılar. Azərbaycan tərəfi Koreya Milli Neft Korporasiyası (KNOC) və digər Koreya şirkətlərinin Azərbaycanda təbii ehtiyatlar və sosial infrastrukturun inkişafına dair qarşılıqlı fayda məqsədi daşıyan təkliflərini alqışladı.

6. Hər iki Tərəf ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi məqsədilə ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq üzrə Azərbaycan-Koreya Komissiyasını təsis edərək, Hökumətlərarası məsləhətləşmələri genişləndirmək barədə razılığa gəldilər.

7. Hər iki Tərəf diplomatik və xidməti pasportlara malik şəxslərin vizasız gediş-gəlişi haqqında Sazişin imzalanması yolu ilə iki ölkə arasında viza prosesini sadələşdirmək niyyətlərini ifadə etdilər.

8. Koreya Tərəfi Azərbaycanın iqtisadi inkişaf və islahatlar yolunda mühüm nailiyyətlərini alqışlayaraq Azərbaycanın ÜTT-yə qəbul olması niyyətini dəstəklədi.

9. Hər iki Tərəf insan, mədəniyyət, təhsil və turist mübadiləsini təkmilləşdirməklə, hər iki ölkənin xalqları arasında qarşılıqlı anlaşmanı və dostluğu genişləndirmək və dərinləşdirmək barədə razılığa gəldilər.

10. Hər iki Tərəf Azərbaycan Prezidentinin səfərinin çox uğurlu keçdiyini qeyd etdi. Azərbaycan Respublikasının Prezidenti zati-alilləri cənab İlham Əliyev Koreya Respublikası Hökuməti və xalqı tərəfindən xoş qarşılanmaya və səmimi qonaqpərvərliyə görə öz təşəkkürünü bildirdi.

Seul şəhərində 23 aprel 2007-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, Koreya və ingilis dillərində olmaqla imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN	KOREYA RESPUBLİKASI ADINDAN
İLHAM ƏLİYEV	*ROH MU-HYUN*

"Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qorunması haqqında" 2007-ci il aprelin 23-də Seul şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2007-ci il

№406-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qorunması haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti,

iki ölkənin qarşılıqlı faydası üçün iqtisadi əməkdaşlığın uzunmüddətlilik əsasında sürətləndirilməsini istəyərək,

bərabərlik və ədalətlilik prinsipi əsasında Razılığa gələn bir Tərəfin sərmayəçilərinin Razılığa gələn digər Tərəfin dövləti ərazisində sərmayələri üçün əlverişli şərait yaratmaq məqsədilə,

bu Saziş əsasında sərmayələrin təşviqi və qorunmasının ayrı-ayrı biznes təşəbbüslərinin yaranmasına təkan verəcəyini və hər iki ölkədə rifah səviyyəsinin artacağını etiraf edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərif lər

Bu Sazişin məqsədləri üçün:

1. "İnvestisiya" termini - Razılığa gələn bir Tərəfin sərmayəçisinin Razılığa gələn digər Tərəfin dövlət ərazisində investisiya edilən, xüsusi halda aşağıdakılar daxil olmaqla, lakin istisna olmamaqla, əmlakın hər hansı növü deməkdir:

a) daşınar və daşınmaz əmlak və ya ipotekalar, girov hüquqları, girovlar, lizinqlər və oxşar hüquqlar kimi hər hansı mülkiyyət hüquqları;

b) paylar, səhmlər, istiqrazlar və ya şirkətdə iştirakın digər forması və bundan törəyəcək hüquqlar və mənfəətlər;

c) pul və ya iqtisadi dəyərə malik və müqavilə çərçivəsində olan icra hüquqlarına iddialar;

d) patentlər, müəlliflik hüquqları, texniki proseslər, ticarət nişanları, sənaye modelləri, firma adları, ticarət sirləri və "nou-hau" və "qudvil" kimi əqli mülkiyyət hüquqları;

e) təbii ehtiyatların kəşfiyyatı, işlənməsi, çıxarılması və ya istismarı üzrə konsessiyalar da daxil olmaqla, qanun və ya kontrakt əsasında verilən və iqtisadi dəyərə malik işgüzar konsessiyalar.

Əmlakın sərmayə və ya yenidən sərmayə formasında edilən hər hansı bir dəyişiklik onun sərmayə kimi dəyərləndirilməsinə təsir etmir.

2. "Gəlir" termini - sərmayələrdən əldə edilən məbləğlər və xüsusi halda, lakin istisna olmamaqla, mənfəət, dividendlər, faizlər, royaltilər, kapital artımı və ya sərmayələrə aid bu cür istənilən ödəmələr deməkdir.

3. "Sərmayəçi" termini - Razılığa gələn bir Tərəfin ərazisində investisiya qoyan Razılığa gələn digər Tərəfin fiziki və hüquqi şəxsləri:

a) "fiziki şəxs" - Razılığa gələn bir Tərəfin qanunlarına uyğun olaraq onun dövlətinin vətəndaşı olan hər hansı fiziki şəxsdir;

b) "hüquqi şəxs" - Razılığa gələn bir Tərəfin qanun və qaydalarına müvafiq olaraq yaradılmış şirkətlər, ictimai birliklər, fondlar, tərəfdaşlıqlar, korporasiyalar, firmalar, işgüzar assosiasiyalar, təsisatlar və ya bənzər təşkilatlar kimi hər hansı hüquqi şəxs deməkdir.

4. "Ərazi" - termini:

a) Azərbaycan Respublikasına münasibətdə - Azərbaycan Respublikasının ərazisi;

b) Koreya Respublikasına münasibətdə - Koreya Respublikasının ərazisi.

5. "Sərbəst dönərli valyuta" termini - Beynəlxalq ödəniş əməliyyatlarında geniş istifadə olunan, həmçinin mühüm beynəlxalq valyuta bazarlarında geniş mübadilə olunan valyuta.

Maddə 2

Sərmayələrin təşviqi və qorunması

1. Razılığa gələn hər bir Tərəf öz qanun və qaydalarına uyğun olaraq Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrini təşviq edəcək, onlar üçün əlverişli şərait yaradacaq və bu cür sərmayə qoyuluşlarına icazə verəcəkdir.

2. Razılığa gələn hər bir Tərəf hər zaman öz dövlət ərazisində Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrinə ədalətli rejim tətbiq edəcək, tam və daimi qorunma və təhlükəsizlik təmin edəcəkdir.

3. Razılığa gələn heç bir Tərəf öz dövlət ərazisində Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrinin idarə edilməsinə, saxlanmasına, istifadəsinə, onlardan faydalanmasına, əldə edilməsinə və ya satışına səbəbsiz, əsassız və ya ayrı-seçkilik yolu ilə qarışmayacaqdır.

Maddə 3

Sərmayələrə tətbiq olunan rejim

1. Razılığa gələn hər bir Tərəf, ərazisində sərmayə qoymuş Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrinə və gəlirlərinə, öz və yaxud hər hansı bir üçüncü ölkənin sərmayəçilərinin sərmayələri və gəlirlərinə tətbiq etdiyi rejimdən, hansı daha əlverişli olarsa, az əlverişli olmayan rejim tətbiq edəcəkdir.

2. Razılığa gələn hər bir Tərəf öz dövlətinin ərazisində Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrinin idarə edilməsinə, saxlanmasına, istifadəsinə, onlardan faydalanmasına, əldə edilməsinə və ya satışına öz ölkəsinin və ya hər hansı bir üçüncü ölkənin sərmayəçilərinə tətbiq etdiyi rejimdən, hansı daha əlverişli olarsa, az əlverişli olmayan rejim tətbiq edəcəkdir.

3. Bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları Razılığa gələn Tərəflərin sərmayəçilərinə hər hansı rejimdən irəli gələn fayda, imtiyaz və ya güzəştin aid edilməsi öhdəliyi kimi izah olunmayacaqdır:

a) Razılığa gələn Tərəflərdən birinin üzv olduğu və ya üzv ola biləcəyi hər hansı mövcud və ya gələcəkdə yaradılacaq azad ticarət zonası, gömrük ittifaqı, iqtisadi

birlik, regional iqtisadi inteqrasiya Sazişi və ya oxşar beynəlxalq Saziş.

b) Tam və ya əsasən vergitutmaya aid olan hər hansı beynəlxalq Saziş və ya razılaşma.

Maddə 4

Zərərə görə kompensasiya

1. Razılığa gələn bir Tərəfin sərmayəçiləri, Razılığa gələn digər Tərəfin dövlət ərazisindəki sərmayələri Razılığa gələn sonuncu Tərəfin dövlət ərazisində baş verən müharibə və ya başqa silahlı münaqişə, fövqəladə vəziyyət, üsyan, qiyam və ya iğtişaş nəticəsində ziyan çəkirsə, restitusiya, əvəz ödəmə, kompensasiya və ya hər hansı başqa ödənişlərə münasibətdə, Razılığa gələn sonuncu Tərəfin öz sərmayəçilərinə və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinə yaratdığı rejimdən, sərmayəçi üçün hansı daha əlverişlidirsə, az əlverişli olmayan rejimi Razılığa gələn sonuncu Tərəf tətbiq edəcəkdir. Yekun ödəmələr sərbəst dönərli valyuta ilə təxirə salınmadan köçürülməlidir.

2. Bu maddənin 1-ci bəndinə xələl gətirmədən, Razılığa gələn bir Tərəfin sərmayəçisinə, o, bu bənddə göstərilən hər hansı bir vəziyyətdə, Razılığa gələn digər Tərəfin dövlət ərazisində aşağıdakılar nəticəsində ziyan çəkirsə:

a) Razılığa gələn sonuncu Tərəfin silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onun mülkiyyətinin müsadirəsi və ya

b) onun mülkiyyətinin Razılığa gələn sonuncu Tərəfin silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən vəziyyətin zəruriliyi tələb edilmədən məhv edilməsi,

dərhal, Razılığa gələn digər Tərəfin və ya hər hansı bir ölkənin sərmayəçilərinə tətbiq edilən adekvat və səmərəli restitusiya və ya kompensasiyadan daha az olmayan rejim tətbiq ediləcəkdir. Yekun ödəmələr səmərəli şəkildə həyata keçirilməli, sərbəst dönərli valyuta ilə və təxirə salınmadan köçürülməlidir.

Maddə 5

Ekspropriasiya

1. Razılığa gələn bir Tərəfin sərmayəçilərinin sərmayələri Razılığa gələn digər Tərəfin dövlət ərazisində, ictimai mənafenin tələb etdiyi, ayrı-seçkiliyə yol verilmədən, qanunun tələblərinə uyğun olaraq və dərhal, adekvat və səmərəli kompensasiyanın ödənilməsi halları istisna olmaqla, ekspropriasiyaya, milliləşdirməyə və ya birbaşa və ya dolayısı, ekspropriasiyaya və ya milliləşdirməyə (bundan sonra "ekspropriasiya" adlanır) bərabər təsirə malik olan hər hansı digər tədbirlərə məruz qalmayacaqdır.

2. Bu cür kompensasiya, ekspropriasiyanın həyata keçirildiyi və ya nəzərdə tutulmuş ekspropriasiya ictimaiyyətə məlum olduğundan, hansı daha əvvəldirsə, bilavasitə əvvəlki vaxtda ekspropriasiya edilmiş sərmayə ədalətli bazar dəyərinə bərabər olacaqdır və bu məbləğə ekspropriasiya tarixindən ödəniş tarixinə qədər mövcud olan kommersiya faiz dərəcəsi daxil olacaqdır. Kompensasiya gecikdirilmədən ödəniləcək, sərbəst dönərli valyuta ilə köçürüləcəkdir.

Həm ekspropriasiya həm də kompensasiya üçün, Razılığa gələn Tərəfin öz sərmayəçilərinə və ya hər hansı bir üçüncü ölkənin sərmayəçisinə tətbiq etdiyi rejimdən daha az

əlverişli olmayan rejim tətbiq ediləcəkdir.

3. Sərmayələri ekspropriasiya edilmiş sərmayəçi, onun işinə və bu maddədə ifadə olunmuş prinsiplərə müvafiq olaraq onun sərmayələrinin qiymətləndirilməsinə Razılığa gələn qəbul edən Tərəfin məhkəmə və ya digər səlahiyyətli orqanı tərəfindən təxirə salınmadan yenidən baxılması hüququna malik olacaqdır.

4. Razılığa gələn bir Tərəfin sərmayəçilərinin Razılığa gələn digər Tərəfin qanun və qaydalarına müvafiq olaraq qurulmuş şirkətlərin səhmlərinə və ya digər şəriklik formalarına sahib olmaları və bu şirkətin mülkiyyətinin sonuncu tərəfindən ekspropriasiya edilməsi halında bu maddənin müddəaları tətbiq ediləcəkdir.

Maddə 6

Sərbəst köçürmə

1. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayə və gəlirlərinin sərbəst köçürülməsini təmin edəcəkdir. Belə ödəmələrə xüsusi halda, lakin istisna olmamaqla:

a) xalis mənfəət, kapital artımı, dividendlər, faizlər, royaltilər, lisenziya ödəmələri və sərmayədən əldə edilən digər bütün gəlir növləri;

b) sərmayənin satışından və ya tam və ya bir hissəsinin ləğvindən əldə edilən vəsaitlər;

c) sərmayələrlə bağlı kreditlərin qaytarılması üçün tələb olunan vəsait;

d) investisiyalarla bağlı, Razılığa gələn bir Tərəfin ərazisində işləməsinə icazə verilən Razılığa gələn digər Tərəfin vətəndaşlarının qazancları;

e) mövcud investisiyaların saxlanılması və ya inkişafı üçün tələb olunan əlavə vəsait;

f) Razılığa gələn digər ölkənin və ya üçüncü bir ölkənin ərazisində, investisiyanın idarə olunması üçün xərclənən məbləğlər;

g) 4-cü və 5-ci maddələrə müvafiq ödənilən kompensasiyalar daxildir.

2. Bu Sazişlə bağlı bütün köçürmələr heç bir məhdudiyyət qoyulmadan və ya təxirə salınmadan, sərbəst dönərli valyutada və köçürmə valyutasının köçürmə günü tətbiq edilən, üstünlük təşkil edən bazar mübadilə məzənnəsi ilə həyata keçiriləcəkdir.

Maddə 7

Subroqasiya

1. Razılığa gələn bir Tərəf və ya onun təyin etdiyi agentlik (qarant) sərmayənin risklərinə görə verilən zəmanət əsasında öz sərmayəçilərinə ödəmə həyata keçirərsə, Razılığa gələn qəbul edən Tərəf:

a) hüquq və ya bu ölkədə mövcud olan rəsmi razılaşmaya uyğun olaraq hər hansı hüququn və ya sərmayəçilər tərəfindən irəli sürülən iddiaların ilkin Razılığa gələn Tərəfə və ya onun təyin etdiyi agentə təhvil verilməsini; və

b) hüquqlardan istifadə və o sərmayəçilərin iddialarının həyata keçirilməsi üçün

subroqasiya əsasında təyin edilmiş ilkin Razılığa gələn Tərəfi və ya onun təyin etdiyi agenti tanıyacaqdır.

3. Subroqasiya edilən hüquq və iddialar sərmayəçinin əsas hüquq və iddialarının sərhədlərindən kənara çıxmayacaqdır.

Maddə 8

Razılığa gələn bir Tərəflə Razılığa gələn digər Tərəfin sərmayəçisi arasında investisiyalarla bağlı ortaya çıxan mübahisələrin tənzimlənməsi

1. Razılığa gələn bir Tərəflə Razılığa gələn digər Tərəfin sərmayəçisi arasında, ekspropriasiya və dövlət tərəfindən müsadirə də daxil olmaq şərtilə, bu Saziş çərçivəsində götürülən öhdəliyin pozulmasından ortaya çıxan istənilən mübahisələr imkan dairəsində dostcasına tənzimlənəcəkdir.

2. Ərazisində sərmayə qoyulan Razılığa gələn Tərəfin hüquq və qaydaları çərçivəsində mövcud olan hüquq mühafizə vasitələrindən ölkənin öz sərmayəçiləri və ya istənilən üçüncü ölkə sərmayəçiləri üçün tətbiq edilən rejimdən, hansı daha əlverişlidirsə, Razılığa gələn digər Tərəfin sərmayəçiləri də faydalanacaqlar.

3. Əgər mübahisə Tərəflər arasında ortaya çıxarıldığı tarixdən etibarən 6 ay ərzində həll olunmazsa və əgər sərmayəçi bu maddənin 2-ci paraqrafının eyni mübahisə ilə bağlı prosedurlarını tanıdığı hüquqlardan imtina edirsə, mübahisə, Razılığa gələn Tərəfin sərmayəçisinin müraciəti ilə:

a) "İnvestisiyalarla bağlı mübahisələrin tənzimlənməsi üzrə Beynəlxalq Mərkəz"ə (İMTBM) (Ölkələr və digər ölkələrin vətəndaşları arasında ortaya çıxan İnvestisiya mübahisələrinin tənzimlənməsi üzrə Konvensiya, 18 mart 1965-ci il, Vaşinqton) və ya

b) əgər İMTBM-nin imkanı yoxdursa, Mərkəzin əlavə bir qurumuna və ya

c) UNCİTRAL Arbitraj qaydalarına uyğun olaraq və ya

d) mübahisə tərəflərinin razılığına əsasən, istənilən digər hüquq normalarına uyğun olaraq və ya istənilən digər məhkəmə qurumuna təqdim olunacaqdır.

4. Sərmayəçi 3-cü bəndə əsasən mübahisəli məsələni beynəlxalq məhkəməyə çıxarmış olduğuna baxmayaraq, mübahisə tərəfi olan Razılığa gələn digər Tərəfin inzibati və hüquqi tribunalından qabaq, öz hüquq və maraqlarını müdafiə etmək məqsədilə müvəqqəti təyin olunmuş vəsait axtara bilər.

5. Razılığa gələn hər bir Tərəf bununla, mübahisəli məsələnin Sazişlə müəyyənləşdirilən prosedurlarla məhkəməyə çıxarılmasına razı olur.

6. Bu maddədə göstərilən Beynəlxalq Məhkəmənin çıxardığı qərar hər iki Tərəf üçün sonuncu və məcburi olacaqdır. Razılığa gələn hər iki Tərəf, müvafiq qanun və qaydaları çərçivəsində, çıxarılan qərarın tanınmasını və tətbiq olunmasını təmin edəcəkdir.

Maddə 9

Razılığa gələn Tərəflər arasındakı mübahisələrin həlli

1. Razılığa gələn Tərəflər arasında bu Sazişin təfsiri və tətbiqi ilə bağlı ola biləcək mübahisələr diplomatik kanallar və ya məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

2. Əgər mübahisə Razılığa gələn hər hansı bir Tərəfin belə danışıqların aparılması haqqında müraciət etdiyi tarixdən etibarən altı ay ərzində bu cür həll edilə bilinmirsə, o, Razılığa gələn hər hansı bir Tərəfin müraciəti əsasında Arbitraj Məhkəməsinə verilə bilər.

3. Bu cür Arbitraj Məhkəməsi hər bir fərdi iş üçün aşağıdakı yolla təsis olunacaqdır: arbitraj haqqında müraciətin alındığı tarixdən etibarən iki ay ərzində Razılığa gələn hər bir Tərəf Məhkəmənin bir üzvünü təyin edəcəkdir. Sonra bu iki üzv Razılığa gələn hər iki Tərəfin razılığı əsasında Məhkəmənin Sədri kimi təyin olunacaq üçüncü dövlətin vətəndaşını seçəcəkdir. Sədr digər iki üzvün təyin edildiyi vaxtdan sonra iki ay ərzində təyin olunacaqdır.

4. Əgər bu maddənin 3-cü bəndində göstərilən müddətlər ərzində lazımi təyinatlar həyata keçirilməzsə, Razılığa gələn hər hansı bir Tərəf Beynəlxalq Məhkəmənin Sədrinə hər hansı zəruri təyinatların verilməsi barədə müraciət edə bilər. Əgər Sədr Razılığa gələn hər hansı bir Tərəfin vətəndaşıdırsa və ya hər hansı səbəbdən göstərilən funksiyanı yerinə yetirə bilmirsə, təyinatların keçirilməsi üçün Sədr müavini dəvət ediləcəkdir. Əgər Sədr müavini də Razılığa gələn hər hansı bir Tərəfin vətəndaşıdırsa və ya göstərilən funksiyanı yerinə yetirə bilməkdən məhrumdursa, Razılığa gələn Tərəflərdən heç birinin vətəndaşı olmayan Beynəlxalq Məhkəmənin rütbəcə sonra gələn üzvü zəruri təyinatların həyata keçirilməsinə dəvət ediləcəkdir.

5. Arbitraj Məhkəməsi öz qərarını səs çoxluğu ilə qəbul edəcəkdir. Məhkəmənin qərarları Razılığa gələn hər iki Tərəf üçün məcburi olacaqdır.

6. Razılığa gələn hər bir Tərəf özünün təyin etdiyi üzvünün və özünün məhkəmə prosesində təmsil edilməsi ilə bağlı xərclərini ödəyəcəkdir. Razılığa gələn hər iki Tərəf Sədrin xərcini, həmçinin digər ümumi xərcləri bərabər hissədə öz üzərinə götürəcəkdir. Məhkəmə həmçinin, xərclərin çox hissəsinin Razılığa gələn Tərəflərdən biri tərəfindən ödənilməsi ilə bağlı qərar qəbul edə bilər.

Maddə 10

Digər qaydaların tətbiqi

1. Əgər məsələ eyni zamanda həm bu Saziş, həm də Razılığa gələn hər iki Tərəfin imzaladığı digər bir beynəlxalq sazişlə və ya beynəlxalq hüququn ümumi prinsipləri ilə tənzimlənirsə, bu Saziş heç bir şəkildə Razılığa gələn istənilən Tərəfi və ya onların sərmayəçilərini özləri üçün daha əlverişli olan normativdən istifadə etmək hüququna məhdudiyyət gətirməyəcəkdir.

2. Əgər Razılığa gələn bir Tərəfin öz hüquq və normativləri və ya digər xüsusi müddəalar və müqavilələr əsasında Razılığa gələn digər Tərəfin sərmayəçilərinə tətbiq etdiyi rejim bu Sazişlə nəzərdə tutulan rejimdən daha əlverişlidirsə, daha əlverişli olan rejim tətbiq olunacaqdır.

3. Razılığa gələn Tərəflərdən hər biri öz ərazisində Razılığa gələn digər Tərəfin sərmayəçilərinin investisiyaları ilə əlaqədar üzərinə götürə biləcəyi hər hansı digər öhdəliyi yerinə yetirəcəkdir.

Maddə 11

Sazişin tətbiqi

Bu Saziş onun qüvvəyə mindiyi tarixdə mövcud olan, həmçinin sonra təsis ediləcək və ya əldə ediləcək sərmayələrə münasibətdə tətbiq ediləcəkdir, lakin bu Sazişin qüvvəyə mindiyi tarixdən əvvəl sərmayələrlə əlaqədar meydana çıxmış mübahisələrə aid edilməyəcəkdir.

Maddə 12

Qüvvəyə minmə, qüvvədə qalma və qüvvədən düşmə

1. Tərəflər, bu Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında bir-birini məlumatlandıracaqlar. Bu Saziş sonuncu bildirişin alındığı tarixdən on üç gün sonra qüvvəyə minəcəkdir.

2. Bu Saziş iyirmi (20) il müddətində qüvvədə qalacaqdır və Razılığa gələn hər hansı bir Tərəfin digərinə Sazişin ləğv edilməsi niyyəti barədə bir il əvvəl yazılı surətdə məlumat verməzsə, bundan sonra o, eyni şərtlər əsasında qüvvədə qalacaqdır.

3. Bu Sazişin ləğv edilməsi vaxtından əvvəl qoyulmuş sərmayələrə münasibətdə onun 1-11-ci maddələrinin müddəaları bu Sazişin ləğv olunduğu tarixdən etibarən daha iyirmi (20) illik müddət ərzində qüvvədə qalacaqdır.

Bunun təsdiqi olaraq, hökumətləri tərəfindən müvafiq qaydada səlahiyyətləndirilmiş aşağıda imza etmiş şəxslər bu Sazişi imzaladılar.

Seul şəhərində 23 aprel 2007-ci il tarixində hər biri Azərbaycan, Koreya və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirdə hər hansı fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	KOREYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
HEYDƏR BABAYEV	*SONQ MİN-SUN*
İqtisadi inkişaf naziri	*Xarici işlər və xarici ticarət naziri*

"Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında hava əlaqələri haqqında" Sazişə Əlavə Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında hava əlaqələri haqqında" 2007-ci il aprelin 23-də Seul şəhərində imzalanmış Sazişə Əlavə Protokol təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2007-ci il

№407-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında Hava əlaqələri haqqında Sazişə Əlavə Protokol

Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti;

iki ölkə arasında mülki aviasiya sahəsində əlaqələri möhkəmləndirmək və hər iki ölkənin təyin edilmiş aviasiya şirkətlərinə müntəzəm reyslərin yerinə yetirilməsi məqsədilə əlavə hüquqlar vermək istəyi ilə,

Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) hava nəqliyyatının liberallaşdırılması barədə prinsip və tövsiyələrinə riayət edərək,

Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında 11 may 2006-cı ildə imzalanmış Sazişi dəyişmək istəyi ilə (bundan sonra "Saziş" adlandırılacaq) və qeyd edilən Sazişin 18-ci maddəsini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Sazişin 11-ci maddəsi dəyişdiriləcək və aşağıdakı redaksiyada veriləcəkdir:

"Maddə 11

Tariflər

1. Aşağıdakı bəndlərin məqsədlərinə uyğun olaraq "tarif(lər)" termini sərnişinlərin və yükün daşınması üçün ödənilməli olan qiymətləri, habelə agent və digər köməkçi xidmətlərə görə qiymət və şərtlər də daxil olmaqla, bu tariflər tətbiq edilməsi üçün əsas götürülən şərtləri bildirir, bu halda poçtun daşınma şərtləri və ödəniş istisna olunur.

2. Razılığa gələn hər bir Tərəf təyin edilmiş hər bir aviaşirkətə hava daşımaları bazarındakı vəziyyətin kommersiya təhlili əsasında daşıma tariflərini müəyyən etməyə icazə verəcəkdir. Razılığa gələn Tərəflər aşağıdakı məqsədlərlə müdaxilə edə bilərlər:

a) hüquq bərabərliyini pozan əsaslandırılmamış tariflərin və ya təcrübələrin qarşısının alınması;

b) üstün vəziyyətdən sui-istifadə edərək məntiqsiz surətdə artırılmış və ya məhdudlaşdıran tariflərdən istehlakçıların müdafiəsi; habelə

c) birbaşa və vasitəli dövlət dotasiyası və ya yardımı ilə əlaqədar süni surətdə azaldılmış tariflərdən aviaşirkətlərin müdafiəsi.

3. Razılığa gələn hər bir Tərəf, hüquq bərabərliyini pozmadan, Razılığa gələn digər Tərəfin təyin edilmiş aviaşirkətlərinin onun ərazisinə və ya ərazisindən daşımalar yerinə yetirməsi üçün müəyyən edilən tariflər barədə öz aviasiya hakimiyyət orqanlarından bildiriş göndərilməsini və ya onların qeydə alınmasını tələb edə bilər. Razılığa gələn hər iki Tərəfin aviaşirkətləri tərəfindən bildiriş və ya qeydiyyat tariflərin qüvvəyə minməsi üçün təklif edilən tarixdən ən geci 30 (otuz) gün əvvəl tələb edilə bilər. Ayrı-ayrı hallarda, adətən tələb olunduğu müddətdən daha qısa müddətdə bildiriş göndərildikdə,

bildiriş və ya qeydə alınma üçün icazə verilə bilər. Razılığa gələn Tərəflərdən heç biri Razılığa gələn digər Tərəfin aviaşirkətlərindən icarəçilər tərəfindən əhalidən alınan tariflər barədə bildirişi və ya qeydə alınmanı tələb etməyəcəkdir (hüquq bərabərliyini pozmadan məlumat toplamaq məqsədilə tələb edildiyi hallar istisna olunur).

4. Razılığa gələn Tərəflərdən heç biri aşağıdakı məqsədlər üçün alınan və ya alınmaq üçün təklif edilən tariflərin tətbiqinin və ya qüvvədə olma müddətinin uzadılmasının qarşısını almaq üçün birtərəfli tədbirlər görməməlidir:

a) Razılığa gələn istənilən Tərəfin aviaşirkətləri tərəfindən Razılığa gələn Tərəflərin əraziləri arasında beynəlxalq aviadaşımalar üçün və ya

b) hər iki halda interlayn və ya intralayn əsasında daşıma daxil olmaqla, Razılığa gələn bir Tərəfin aviaşirkətləri tərəfindən Razılığa gələn digər Tərəfin və ya istənilən digər ölkənin ərazisi arasında beynəlxalq aviadaşımalar üçün.

Razılığa gələn Tərəflərdən biri istənilən belə tarifin bu Sazişin 2-ci bəndinin məzmununa uyğun olmadığını güman edərsə, ən qısa müddətdə məsləhətləşmələrin keçirilməsi üçün Razılığa gələn digər Tərəfə müraciət etməli və razı olmamasının səbəbləri barədə məlumat verməlidir. Bu məsləhətləşmələr sorğu daxil olduqdan ən gec 30 (otuz) gün sonra keçirilməli və Razılığa gələn Tərəf bu məsələnin səmərəli həlli üçün lazım olan məlumatla təmin edilmə məsələsində əməkdaşlıq etməlidir. Razılığa gələn Tərəf razılaşmamaya dair bildirişin aid edildiyi tariflər barədə razılıq əldə edərsə, Razılığa gələn hər bir Tərəf razılığın qüvvəyə minməsi üçün mümkün olan bütün tədbirləri görməlidir. Belə ikitərəfli razılıq olmadıqda tarif qüvvəyə minəcək və ya qüvvədə olma müddəti uzadılacaqdır. ".

Maddə 2

Sazişin ayrılmaz hissəsi olan bu Protokol, Sazişin 21-ci maddəsində qeyd edilən proseduralara müvafiq qaydada qüvvəyə minir.

Bunun təsdiqi olaraq, müvafiq hökumətlərin səlahiyyət verdikləri aşağıdakı şəxslər bu Protokolu imzaladılar.

Seul şəhərində 23 aprel 2007-ci il tarixində hər biri Azərbaycan, Koreya və ingilis dillərində olmaqla, iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Protokolun təfsiri zamanı fikir ayrılığı yaranarsa, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

(imza)

KOREYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

(imza)

"Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında idman sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında idman sahəsində əməkdaşlıq haqqında" 2007-ci il mayın 7-də Qahirə şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2007-ci il

№408-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında idman sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti,

iki dövlət arasında əlaqələrin möhkəmləndirilməsi niyyətlərini təsdiq edərək,

iki ölkənin xalqları arasında ənənəvi dostluq münasibətlərinin inkişaf etdirilməsini arzu edərək,

idman sahəsində sıx qarşılıqlı əməkdaşlığın, Azərbaycan və Misir gəncləri arasında dostluq əlaqələrinin inkişafına kömək edəcəyinə və onlar arasında qarşılıqlı anlaşmanın güclənəcəyinə xidmət edəcəyinə əmin olaraq,

aşağıdakılara dair bu Sazişi imzalamaq barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər reabilitasiya, məşq və hakimlik sahələri üzrə seminarlarda iştirak etmək məqsədilə idmanda rəhbər işçilərin və idmançıların mübadiləsini təşviq edəcəklər.

Maddə 2

Tərəflər idman təşkilatları arasında əməkdaşlığı və onların nümayəndələrinin hər iki ölkədə keçirilən idman tədbirlərində iştirakını təşviq edəcəklər.

Maddə 3

Tərəflər öz aralarında idman sahəsində əlaqələrin və əməkdaşlığın inkişafına, əsasən, aşağıdakı vasitələrlə kömək edəcəklər:

a) idman sahəsində fəaliyyət göstərən idarələr və təşkilatlar, həmçinin ayrı-ayrı fiziki şəxslər arasında birbaşa əməkdaşlığa, əlaqələrə və mübadilələrə şərait yaradılması;

b) idman tədbirləri keçirmək üçün digər Tərəfin şərait və imkanlarının birgə öyrə-

nilməsi və bu işdə ona kömək edilməsi;

c) idman hərəkətinin vəziyyəti və inkişafı haqqında məlumat mübadiləsi.

Maddə 4

Tərəflər idman problemləri ilə məşğul olan tədqiqat təşkilatları və mərkəzləri arasında birbaşa əlaqələrin, qarşılıqlı maraq kəsb edən məsələlər üzrə mübadilələr də daxil olmaqla, inkişaf etdirilməsinə kömək edəcəklər.

Maddə 5

Tərəflər idman avadanlığı və ləvazimatı istehsalı, idman qurğularının layihələşdirilməsi, tikintisi, yenidən qurulması və istismarı sahəsində əməkdaşlığa yardım edəcək, yarışların və təlim-məşq toplanışlarının keçirilməsinə şərait yaradacaqlar. Tərəflər idman infrastrukturu və idman səhiyyəsi sahəsində qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi üçün şərait yaradacaqlar.

Maddə 6

Tərəflər bu Sazişin əhatə etdiyi sahələrdə öz ölkələrində keçirilən festival, konfrans, simpozium, seminar, yarış, sərgi, görüş, müsabiqə və turnirlərdə digər Tərəfin nümayəndələrinin iştirakına kömək edəcəklər.

Maddə 7

Tərəflər, qabaqcadan alınmış məlumata uyğun olaraq, digər Tərəfin ərazisində olan mütəşəkkil idmançı qruplarına, ayrı-ayrı rəsmi nümayəndələrə hərtərəfli yardım edəcəklər.

Maddə 8

Tərəflər bu Sazişlə nəzərdə tutulan idman mübadilələrinin maliyyələşdirilməsini təmin etməyə səy göstərəcəklər.

Tərəflərin nümayəndələri Sazişin müddəalarının həyata keçirilməsi və növbəti il üçün tədbirlər planı hazırlanması məqsədilə Bakı və Qahirə şəhərlərində görüşəcəklər.

Maddə 9

İki ölkə arasında idman sahəsində əməkdaşlığın maliyyələşdirilməsi şərtləri hər iki ölkənin müvafiq qurumları arasında razılaşdırılaraq imzalanacaq Tədbirlər planında öz əksini tapacaqdır.

Maddə 10

Bu Saziş imzalandığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə 6 (altı) ay qalmış onu ləğv etmək niyyəti barədə diplomatik kanallar vasitəsilə digər Tərəfə yazılı bildiriş göndərməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 5 (beş) il müddətinə uzadılacaqdır.

Bu Saziş Qahirə şəhərində 7 may 2007-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər qüvvəyə malikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

AZAD RƏHİMOV
Gənclər və idman naziri

MİSİR ƏRƏB RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

HƏSƏN SAKR
Milli İdman Şurasının sədri

"Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında hava nəqliyyatı haqqında" Sazişə Əlavə Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında hava nəqliyyatı haqqında" Sazişə 2007-ci il mayın 7-də Qahirə şəhərində imzalanmış Əlavə Protokol təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2007-ci il

№409-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında Hava nəqliyyatı haqqında Sazişə Əlavə Protokol

Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti 17 fevral 1997-ci il tarixdə imzalanmış Hava nəqliyyatı haqqında Sazişə əsaslanaraq, əraziləri arasında və hüdudlarından kənarda hava əlaqəsi yaratmaq məqsədilə,

qeyd edilən Sazişin marşrutların cədvəli üzrə Əlavəsində dəyişiklik etmək və aşağıdakı redaksiyada təqdim etmək barədə razılığa gəldilər:

Maddə 1

Əlavə

MARŞRUTLARIN CƏDVƏLİ

Marşrutların cədvəli 1

Misir Ərəb Respublikasının təyin edilmiş aviaşirkəti (aviaşirkətləri) tərəfindən hər iki istiqamətdə istismar olunacaq marşrutlar:

Misir Ərəb Respublikasının təyin edilmiş aviaşirkəti (aviaşirkətləri) tərəfindən hər iki istiqamətdə istismar olunacaq marşrutlar:

Yola düşmə məntəqələri	Aralıq məntəqələri	Azərbaycanda məntəqələr	Azərbaycandan kənarda olan məntəqələr
Misirdə məntəqələr	Üçüncü ölkələrdə	Üç məntəqə	Üçüncü ölkələrdə məntəqələr

Marşrutların cədvəli 2

Azərbaycan Respublikasının təyin edilmiş aviaşirkəti (aviaşirkətləri) tərəfindən hər iki istiqamətdə istismar olunacaq marşrutlar:

Yola düşmə məntəqələri	Aralıq məntəqələri	Misirdə məntəqələr	Misirdən kənarda olan məntəqələr
Azərbaycanda məntəqələr	Üçüncü ölkələrdə	Üç məntəqə	Üçüncü ölkələrdə məntəqələr

Qeyd:

1. Aralıq məntəqələr və Razılığa gələn Tərəflərin dövlətlərinin ərazilərindən kənarda olan məntəqələr istənilən sahədə buraxıla bilər.

2. Razılığa gələn hər iki Tərəfin aviasiya şirkətləri üçüncü ölkələrdəki məntəqələr və Razılığa gələn digər Tərəfin dövlətinin ərazisindəki məntəqələr arasında kommersiya hüquqlarından istifadə etmədən, aralıq məntəqələrə və kənarda olan məntəqələrə xidmət göstərəcəklər.

3. Razılığa gələn bir Tərəfin təyin edilmiş aviaşirkətinin Razılığa gələn digər Tərəf dövlətinin ərazisindəki məntəqələr və üçüncü ölkələrin ərazilərindəki məntəqələr arasında sərnişin, baqaj, yük və poçt daşımalarını həyata keçirmək hüququ (5-ci hava sərbəstliyi hüququndan istifadə) Razılığa gələn Tərəflərin aviasiya hakimiyyətləri arasında ayrıca razılaşma mövzusu olacaqdır.

Maddə 2

Bu Protokol Hava nəqliyyatı haqqında Sazişin ayrılmaz hissəsidir və imzalandığı andan qüvvəyə minir.

Bunun təsdiqi olaraq, öz müvafiq hökumətləri tərəfindən səlahiyyətləndirilmiş aşağıda imza edənlər bu Protokolu imzaladılar.

Bu Protokol 7 may 2007-ci il tarixində Azərbaycan, ərəb və ingilis dillərində üç əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər qüvvəyə malikdir. Protokolun təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

CAHANGİR ƏSGƏROV
"Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru

MİSİR ƏRƏB RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

EHAB SADEKO
Mülki Aviasiya Hakimiyyətinin rəhbəri

"Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında turizm əməkdaşlığı sahəsində Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2007-ci il mayın 7-də Qahirə şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında turizm əməkdaşlığı sahəsində Anlaşma Memorandumu" təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2007-ci il

№410-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında turizm əməkdaşlığı sahəsində Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti,

iki ölkə arasında dostluq əlaqələrini nəzərə alaraq,

iki ölkə arasında turizm sahəsində əməkdaşlığın möhkəmlənməsini arzu edərək,

hər iki ölkənin iqtisadi inkişafı üçün turizm sektorunun vacibliyini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər hər iki ölkədə turizm məlumatlarının, nəşr materiallarının və statistik göstəricilərin mübadiləsini həyata keçirəcəklər.

Turizm sərgilərində, festivallarda iştirak mübadiləsi və hər iki ölkədə keçirilən turizm tədbirləri proqramlarının mübadiləsi.

Turizm proqramlarının istənilən səviyyədə təşkil edilməsində hər iki ölkənin turizm və səyahət agentliklərinin dəstəklənməsi.

Hər iki ölkənin turizm potensialı ilə tanış olmaq üçün turizm rəsmilərinin, jurnalistlərin və müxtəlif media nümayəndələrinin səfərlərinin mübadiləsi.

Maddə 2

Tərəflər hər iki ölkədə turizm sahəsində məlumatların və ekspertlərin və mehmanxana tədris kurslarının mübadiləsi həyata keçirəcəklər.

Hər iki ölkənin turizm və mehmanxana sahəsində təcrübə kurslarının təşkil olunmasını dəstəkləyəcəklər.

Maddə 3

Tərəflər yeni turizm mərkəzlərində turizm sərmayə qoyuluşu sahəsində məlumat və təcrübə mübadiləsi edəcək və hər iki ölkənin investorlarına turizm investisiga imkanlarını, təşviqlərini və vasitələrini təklif edəcəklər.

Maddə 4

Hər iki ölkənin vətəndaşlarına (viza-rüsum) giriş qaydaları üçün təklif edilən vasitələri mübadilə edəcəklər.

Tərəflər qaydalarla və turizm ilə bağlı qanunvericiliklə, mehmanxanaların və turist müəssisələrinin təsnifatına, idarə edilməsinə, turizm peşəkarlar assosiasiyasına aid qanunvericiliyi mübadilə edəcəklər.

Maddə 5

Bu Anlaşma Memorandumu imzalanan tarixdən qüvvəyə minir və 5 il müddətinə bağlanılır, hər hansı Tərəf onun ləğv olunması barədə ən azı altı ay öncədən yazılı olaraq digər Tərəfə bildirmədikdə, avtomatik olaraq növbəti 5 il müddətinə uzadılır.

Bu Anlaşma Memorandumunun qüvvəsinin dayandırılması onun qüvvədə olduğu müddətdə bağlanmış öhdəliklərin və layihələrin yerinə yetirilməsinə təsir göstərməyəcəkdir.

Qahirə şəhərində 7 may 2007-ci il tarixində iki əsl nüsxədə Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər qüvvəyə malikdir.

Anlaşma Memorandumunun təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MİSİR ƏRƏB RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*ZÖHƏR QRANA*
Xarici işlər naziri	*Turizm naziri*

"Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında diplomatik, rəsmi, xidməti və xüsusi pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında diplomatik, rəsmi, xidməti və xüsusi pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında" 2007-ci il mayın 3-də Rabat şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2007-ci il

№411-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında diplomatik, rəsmi, xidməti və xüsusi pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti,

iki dövlət arasında dostluq münasibətlərini daha da inkişaf etdirmək niyyəti ilə,

etibarlı diplomatik, rəsmi, xidməti və xüsusi pasportlara malik olan vətəndaşlarının iki dövlət arasında gediş-gəlişinin və yerdəyişməsinin asanlaşdırılması arzusunda olaraq,

aşağıdakılar barəsində razılığa gəldilər:

Maddə 1

1. Etibarlı diplomatik, rəsmi, xidməti və xüsusi pasportlara malik olan Azərbaycan Respublikası və Mərakeş Krallığı vətəndaşları, habelə adları onların pasportlarında qeyd olunan yetkinlik yaşına çatmamış şəxslər, Razılığa gələn digər Tərəfin dövlətinin ərazisinə 90 (doxsan) gün ərzində vizasız daxil ola, orada qala, oradan gedə və tranzit qaydada həmin ərazidən keçə bilərlər.

2. Tərəflərin dövlətlərinin vətəndaşlarının qalma müddətinin uzadılması, qəbul edən dövlətin səlahiyyətli orqanlarının icazəsindən asılı olaraq, göndərən dövlətin qəbul edən dövlətdəki səfirliyinin müraciəti əsasında həyata keçirilir.

Maddə 2

1. Bir dövlətin ərazisində diplomatik və ya konsulluq missiyalarında və ya beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliklərin üzvü olan, 1-ci maddədə göstərilən etibarlı pasportlara malik digər Tərəfin dövlətinin vətəndaşları Razılığa gələn digər Tərəflərin ərazisinə viza tələblərindən azad şəkildə daxil ola və maksimum 90 (doxsan) gün ərzində orada qala bilərlər. Bu vaxt ərzində həmin şəxslər yerləşmə dövlətinin Xarici İşlər Nazirliyi ilə zəruri akkreditasiya prosedurunu tamamlamalıdırlar.

2. Bu maddənin birinci bəndinin müddəaları həmçinin diplomatik, rəsmi, xidməti və xüsusi pasportlara malik olan şəxslərin yaxın ailə üzvlərinə münasibətdə, onlar özləri eyni pasportlardan istifadə etdikləri halda tətbiq edilir.

Maddə 3

Etibarlı diplomatik, rəsmi, xidməti və xüsusi pasportlara malik olan hər iki Tərəfin vətəndaşları digər Tərəfin dövlətinin ərazisinə istənilən beynəlxalq sərhəd-buraxılış məntəqələrindən daxil ola və oradan çıxa bilərlər.

Maddə 4

Bir Tərəfin dövlətinin vətəndaşına məxsus diplomatik, rəsmi, xidməti və xüsusi pasportlar digər Tərəfin dövlətinin ərazisində itdikdə və ya korlandıqda, həmin pasportun sahibi digər Tərəfin Xarici İşlər Nazirliyini bu barədə məlumatlandırmalıdır və həmin şəxsə münasibətdə yeni səyahət sənədi tərtib olunacaqdır. Həmin səyahət sənədi ilə çıxış qəbul edən dövlətin Xarici İşlər Nazirliyinin müvafiq icazəsi ilə həyata keçirilir.

Maddə 5

Etibarlı diplomatik, rəsmi, xidməti və xüsusi pasportlara malik olan bir Tərəfin dövlətinin vətəndaşları digər Tərəfin ərazisində qüvvədə olan qanunlara və qaydalara əməl etməlidirlər.

Maddə 6

Tərəflər milli təhlükəsizliyin təmin edilməsi, ictimai asayişin qorunması üçün və ya vətəndaşların sağlamlığına təhlükə olduqda, bu Sazişin tətbiqini müvəqqəti, tamamilə və ya qismən dayandırmaq hüququnu özündə saxlayırlar. Tərəflər bu Sazişin tətbiqinin dayandırılması və onun yenidən qüvvəyə minməsi haqqında qərar barədə dərhal, 48 saatdan gec olmayaraq, diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandırırlar.

Maddə 7

Hər bir Tərəf digər Tərəfin "persona non grata" və ya arzuolunmaz şəxslərini öz dövlətinin ərazisinə qəbul etməkdən imtina etmək və ya həmin şəxslərin öz ərazisində qalmasını ləğv etmək hüququnu özündə saxlayır.

Maddə 8

1. Tərəflərin Xarici İşlər Nazirlikləri bu Sazişin qüvvəyə minməsindən sonra 30 gün müddətində diplomatik kanallar vasitəsilə Sazişin şamil edildiyi pasportların nümunələrini mübadilə edəcəklər.

2. Tərəflər dövriyyəyə yeni diplomatik, rəsmi, xidməti və xüsusi pasportlar buraxdıqları halda onların qüvvəyə minməsindən ən azı 30 gün əvvəl onların xarici işlər nazirlikləri diplomatik kanallar vasitəsilə bu pasportların nümunələrini mübadilə edirlər.

Maddə 9

Bu Sazişin müddəalarının yerinə yetirilməsi və tətbiq edilməsində yarana bilən hər hansı anlaşılmazlıq və mübahisə Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 10

Bu Sazişə hər hansı əlavə və dəyişikliklər Tərəflərin qarşılıqlı razılığı əsasında edilə bilər. Belə əlavə və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olan ayrı-ayrı protokollar formasında rəsmiləşdiriləcək və bu Sazişin 11-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minəcəkdir.

Maddə 11

1. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərin nota mübadiləsi həyata keçirməsindən 30 gün sonra qüvvəyə minəcəkdir.

2. Tərəflərdən biri bu Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə istənilən vaxt digər Tərəfə diplomatik kanallarla yazılı şəkildə xəbər verə bilər. Saziş belə bildirişin alındığı tarixdən 6 (altı) ay sonra qüvvədən düşür.

Bu Saziş Rabat şəhərində 3 may 2007-ci ildə iki əsl nüsxədə Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır və bütün mətnlər autentikdir.

Bu Sazişin təfsiri zamanı fikir ayrılığı yarandıqda ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	MƏRAKEŞ KRALLIĞI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*MƏHƏMMƏD BENAİSSA*
Xarici işlər naziri	*Xarici işlər və əməkdaşlıq naziri*

"Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında" 2007-ci il fevralın 20-də Yerusəlim şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2007-ci il

№412-IIIQ

Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq İsrail Dövləti Hökuməti və Azərbaycan Respublikası Hökuməti,

hər iki ölkənin qarşılıqlı faydası üçün iqtisadi əməkdaşlığın gücləndirilməsini arzu edərək,

Razılığa gələn Tərəflərdən hər hansı birinin investorlarının Razılığa gələn digər Tərəfin ərazisində daha çox investisiya qoyuluşları üçün əlverişli şəraitin yaradılması niyyətində olaraq,

bu Saziş əsasında investisiyaların qarşılıqlı təşviqi və qorunmasının fərdi işgüzar təşəbbüsün stimullaşdırılmasına və hər iki dövlətdə rifahın yaxşılaşdırılmasına səbəb olacağını etiraf edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Anlayışlar

1. Bu Sazişin məqsədləri üçün:

a) "İnvestisiyalar" - ərazisində investisiya qoyulmuş Razılığa gələn Tərəfin qanun-

vericiliyinə uyğun olaraq qoyulmuş əmlakın hər bir növü, o cümlədən, lakin bununla məhdudlaşmayaraq:

1. daşınar və daşınmaz əmlak, habelə əmlakın hər bir növünə münasibətdə istənilən digər mülkiyyət hüquqları;
2. paylar, səhmlər, istiqrazlardan əldə edilən hüquqlar və hüquqi şəxslərdə mənfəətin digər növləri;
3. pul tələbi, işgüzar nüfuz və digər aktivlər və iqtisadi dəyərə malik olan istənilən iddia;
4. əqli mülkiyyət sahəsində hüquqlar, o cümlədən patentlər, ticarət nişanları, coğrafi göstəricilər, sənaye nümunələri, texniki proseslər, müəllif hüquqları və əlaqəli hüquqlar, biznesə dair gizli məlumat, ticarət sirləri, "nou-hau" və bitkilərin yetişdirilməsi üzrə hüquqlar;
5. təbii ehtiyatların kəşfiyyatı, işlənməsi, hasilatı və ya istismarı üzrə konsessiyalar daxil olmaqla, qanunvericiliklə və ya kontrakt əsasında verilən biznes konsessiyaları deməkdir.

b) "Qəbul edən Razılığa gələn Tərəf" ərazisində investisiya qoyulmuş Razılığa gələn Tərəf deməkdir və "Göndərən Razılığa gələn Tərəf" bu investisiyaya münasibətdə Razılığa gələn digər Tərəf deməkdir.

c) "Gəlir" investisiyadan əldə edilən məbləğ, o cümlədən, lakin bununla məhdudlaşmayaraq, dividendlər, mənfəət, investisiyanın tam və ya qismən ləğvindən əldə edilən məbləğlər, faiz, kapital artımı, royaltilər və ya qonorarlar deməkdir.

d) "İnvestor" Razılığa gələn Tərəflərdən hər hansı birinə münasibətdə Razılığa gələn digər Tərəfin dövlət ərazisində bu Sazişə əsasən investisiya qoyuluşunu həyata keçirən aşağıdakı subyektləri ifadə edir:

(1) Razılığa gələn Tərəflərdən hər hansı birinin onun qanunvericiliyinə uyğun olaraq vətəndaşlığını daşıyan və ya ərazisində daimi yaşayan və Razılığa gələn digər Tərəfin də vətəndaşlığını daşımayan və ərazisində daimi yaşamayan istənilən fiziki şəxs; və ya

(2) istənilən hüquqi şəxs, o cümlədən korporasiya, firma, assosiasiya və ya partnyorluq -

i) Göndərən Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq təsis edilmiş, yaradılmış və ya digər qaydada təşkil edilmiş; və ya

ii) Göndərən Razılığa gələn Tərəfin vətəndaşları və ya daimi sakinləri olan şəxslər tərəfindən birbaşa və ya dolayısı ilə idarə edilən və aşağıdakı şərtlərdən birini yerinə yetirən:

(A) onun qeydiyyata alınmış idarəsi, idarəedici mərkəzi Razılığa gələn Tərəflərdən hər hansı birinin ərazisində yerləşməlidir;

(B) onun iqtisadi fəaliyyətinin əhəmiyyətli bir hissəsi Razılığa gələn Tərəflərdən hər hansı birinin ərazisində yerləşməlidir.

e) "Ərazi":

(1) İsrail Dövlətinə münasibətdə: üzərində İsrail Dövləti tərəfindən suveren hüquqları və beynəlxalq hüquqa müvafiq olaraq yurisdiksiyası həyata keçirilən İsrail Dövlətinin ərazisi, o cümlədən ərazi dənizi, eləcə də kontinental şelf və xüsusi iqtisadi zona deməkdir;

(2) Azərbaycan Respublikasına münasibətdə: Azərbaycan Respublikasının suveren hüquqlarını və yurisdiksiyasını həyata keçirdiyi ərazi, o cümlədən Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektoru, Azərbaycan üzərindəki hava məkanı, yerin təki, dənizin dibi və təbii sərvətlər və ya Azərbaycan Respublikasının qanunvericiliyinə və beynəlxalq hüquqa uyğun olaraq müəyyən edilmiş və ya gələcəkdə müəyyən edilə biləcək hər hansı digər ərazi deməkdir.

f) "Sərbəst istifadə edilən valyuta" Beynəlxalq Valyuta Fondunun Sazişinin maddələrinə və ona edilmiş dəyişikliklərə uyğun olaraq Beynəlxalq Valyuta Fondu tərəfindən bəzən sərbəst istifadə edilən valyuta kimi müəyyən edilmiş valyuta deməkdir.

g) Razılığa gələn Tərəfin "qanunvericiliyi" Razılığa gələn həmin Tərəfin qanun və qaydaları və bu qanun və qaydalarla verilən inzibati səlahiyyətləri icra etmək hüququ deməkdir.

2. Əgər reinvestisiya Qəbul edən Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun həyata keçirilirsə, investisiyalarla əlaqədar bu Sazişin müddəaları investisiyadan gələn gəlirlərin reinvestisiya edilməsinə tətbiq ediləcəkdir, buna münasibətdə ilkin investisiyaya tətbiq edilən rejim tətbiq ediləcəkdir. İnvestisiyanın formasında və ya reinvestisiyanın formasında edilən dəyişiklik onların bu Sazişdə nəzərdə tutulan mənada investisiya xarakterinə təsir etməyəcəkdir, əgər dəyişiklik Qəbul edən Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun həyata keçirilirsə.

Maddə 2

İnvestisiyaların təşviqi və qorunması

1. Razılığa gələn hər bir Tərəf öz ərazisində Razılığa gələn digər Tərəfin investorlarının investisiyaları üçün əlverişli şərait yaradacaq və bu investisiya qoyuluşlarına öz qanunvericiliyinə uyğun icazə verəcəkdir.

2. Razılığa gələn hər bir Tərəfin investorlarının investisiyalarına və investisiyalardan əldə edilmiş gəlirlərə münasibətdə bu Sazişin müddəalarına uyğun olaraq ədalətli və bərabərhüquqlu rejim tətbiq ediləcəkdir və Razılığa gələn digər Tərəfin ərazisində onların tam müdafiəsi və təhlükəsizliyi təmin ediləcəkdir. Razılığa gələn Tərəflərdən heç biri öz ərazisində Razılığa gələn digər Tərəfin investorlarının investisiyalarının və investisiyalardan əldə edilmiş gəlirlərinin idarə edilməsinə, saxlanılmasına, istifadəsinə, onlardan faydalanmasına əsassız tədbirlərlə hər hansı maneə törətməyəcəkdir.

Maddə 3

Ən əlverişli rejim və milli rejim

1. Razılığa gələn Tərəflərdən heç biri öz ərazisində Razılığa gələn digər Tərəfin inves-

torlarının investisiyalarına və investisiyadan əldə edilmiş gəlirlərinə münasibətdə hər hansı üçüncü dövlətin investorunun investisiyalarına və ya investisiyadan əldə edilmiş gəlirlərinə münasibətdə tətbiq etdiyi redimdən və ya öz qanunvericiliyinə uyğun olaraq öz investorlarının investisiyalarına və investisiyadan əldə edilmiş gəlirlərinə münasibətdə tətbiq etdiyi rejimdən az əlverişli olan rejim tətbiq etməyəcəkdir.

2. Razılığa gələn Tərəflərdən heç biri öz ərazisində Razılığa gələn digər Tərəfin investorlarına münasibətdə onların investisiyalarının idarə edilməsi, saxlanılması, istifadəsi, onlardan faydalanması ilə əlaqədar, hər hansı üçüncü dövlətin investoruna və ya öz qanunvericiliyinə uyğun olaraq öz investorlarına münasibətdə tətbiq etdiyi rejimdən az əlverişli olan rejim tətbiq etməyəcəkdir.

Maddə 4

Zərərə görə kompensasiya

1. Göndərən Razılığa gələn Tərəfin investorlarının investisiyaları Qəbul edən Razılığa gələn Tərəfin ərazisində, bu ərazidə baş verən müharibə və ya başqa silahlı münaqişə, inqilab, fövqəladə vəziyyət, üsyan, qiyam və ya digər oxşar hadisə nəticəsində zərər çəkərsə, bu investorlara münasibətdə Qəbul edən Razılığa gələn Tərəf, ziyanın ödənilməsi, əvəzinin verilməsi, kompensasiya və digər tədbirlərlə əlaqədar öz investoruna və ya hər hansı üçüncü dövlətin investoruna münasibətdə tətbiq etdiyi rejimdən az əlverişli olmayan rejim tətbiq edəcəkdir. İrəli gələn ödəmələr sərbəst köçürüləcəkdir.

2. Bu maddənin 1-ci bəndinə xələl gətirmədən, Göndərən Razılığa gələn Tərəfin investorları Qəbul edən Razılığa gələn Tərəfin ərazisində aşağıdakılar:

a) onların əmlakının onun silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən müsadirəsi və ya

b) onun silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən vuruşma nəticəsi olmayaraq və ya vəziyyətin zəruriliyi tələb etmədən onların əmlakının məhv edilməsi nəticəsində zərər çəkərsə,

onlara münasibətdə ziyanın ödənilməsi və ya adekvat kompensasiya həyata keçiriləcəkdir. İrəli gələn ödəmələr sərbəst köçürüləcəkdir.

Maddə 5

Ekspropriasiya

1. Göndərən Razılığa gələn Tərəfin investorlarının investisiyaları və investisiyalardan əldə edilmiş gəlirləri Qəbul edən Razılığa gələn Tərəfin ərazisində, Qəbul edən Razılığa gələn Tərəfin daxili ehtiyacları ilə əlaqədar ictimai mənafe baxımından və aşağıdakı şərtlərin yerinə yetirilməsi halları istisna olmaqla, milliləşdirilməyəcək, ekspropriasiya edilməyəcəkdir və ya milliləşdirməyə, yaxud ekspropriasiyaya (bundan sonra "ekspropriasiya") bərabər təsirə malik olan tədbirlərə məruz qalmayacaqdır:

a) ekspropriasiya Qəbul edən Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq, ayrı-seçkiliyə yol verilmədən və dərhal, adekvat və effektiv olan, onun öz investorlarına ödənilən kompensasiyadan az əlverişli olmayan kompensasiyanın ödənilməsi müqabilində həyata keçiriləcəkdir. İrəli gələn ödəmələr sərbəst köçürüləcəkdir.

b) Belə kompensasiya ekspropriasiyanın həyata keçirildiyi və ya gözlənilən ekspropriasiyanın ictimaiyyətə məlum olduğundan, hansı daha əvvəldirsə, bilavasitə əvvəlki vaxtda ekspropriasiya edilmiş investisiyanın bazar dəyərinə bərabər olacaqdır, Razılığa gələn həmin Tərəfin qanunvericiliyinə müvafiq olaraq tətbiq edilən məzənnə ilə ödəmə tarixinə qədər faizi daxil edəcəkdir, effektiv qaydada realizə ediləcəkdir və sərbəst köçürüləcəkdir.

c) Zərər çəkmiş investorların ekspropriasiyanın qanuniliyinə, onların investisiyasının qiymətləndirilməsinin bu maddədə ifadə olunmuş prinsiplərə müvafiq olaraq həyata keçirilməsinə ekspropriasiyanı həyata keçirən Razılığa gələn Tərəfin məhkəmə və ya digər müstəqil orqanı tərəfindən təxirə salınmadan yenidən baxılmasına hüququ olacaqdır.

2. Yuxarıdakılara baxmayaraq, əqli mülkiyyət hüququna münasibətdə, Razılığa gələn Tərəflər əqli mülkiyyət hüquqlarından icazəsiz istifadəyə icazə verə bilərlər, əgər bu icazə əqli mülkiyyətin ticarətlə əlaqədar aspektləri haqqında Sazişdə (1994) göstərilmiş prinsiplərə müvafiq qaydada verilirsə.

Maddə 6

İnvestisiyaların və gəlirlərin köçürülməsi

1. Razılığa gələn Tərəf hər bir investisiyalarla əlaqədar olaraq Razılığa gələn digər Tərəfin investorlarına onların investisiyalarının və gəlirlərinin aşağıdakı şərtlərlə məhdudiyyətsiz köçürülməsinə zəmanət verəcəkdir:

i) Köçürmələr kapitalın investisiya şəklində ilkin olaraq qoyulduğu sərbəst istifadə edilən valyutada və ya investorla və Qəbul edən Razılığa gələn Tərəf arasında razılaşdırılmış istənilən digər sərbəst istifadə edilən valyutada gecikdirilmədən həyata keçiriləcəkdir, bu şərtlə ki, investor Qəbul edən Razılığa gələn Tərəfin Hökuməti və ya yerli hakimiyyət orqanları qarşısında öz fiskal və digər maliyyə öhdəliklərini yerinə yetirmiş olsun.

ii) İnvestorla digər razılaşmanın olmadığı təqdirdə köçürmələr Qəbul edən Razılığa gələn Tərəfdə qüvvədə olan valyuta mübadiləsi qaydalarına uyğun köçürmə əsasında tətbiq edilən məzənnə ilə həyata keçiriləcəkdir.

(iii) İstənilən halda köçürmələr Qəbul edən Razılığa gələn Tərəfin öz investorlarına münasibətdə tətbiq etdiyi şərtlərdən az əlverişli olmayan şərtlərlə həyata keçiriləcəkdir.

2. Yuxarıdakılara baxmayaraq:

i) əgər Razılığa gələn Tərəf ödəmə balansı ilə əlaqədar ciddi çətinliklərlə üzləşibsə və ya valyuta məzənnəsi, yaxud pul-kredit siyasətinin həyata keçirilməsində ciddi çətinliklərlə üzləşibsə və ya belə təhlükə yaranıbsa, Razılığa gələn həmin Tərəf Tariflər və Ticarət üzrə Baş Saziş (TTBS) çərçivəsində müəyyən edilmiş şərtlərə və Beynəlxalq Valyuta Fondunun Sazişinin VIII və XIV maddələrinə uyğun olaraq müddəti altı aydan çox olmayan və yalnız vəziyyəti yaxşılaşdırmaq məqsədilə məhdudlaşdırıcı tədbirlər görə bilər.

Razılığa gələn Tərəf mümkün olan kimi Razılığa gələn digər Tərəfi gördüyü tədbirlər və onların aradan qaldırılması vaxtı barədə məlumatlandıracaqdır.

ii) Bu tədbirlər ədalətli, ayrı-seçkisiz olacaq və vicdanla həyata keçiriləcəkdir.

Maddə 7

İstisnalar

1. Razılığa gələn Tərəflərdən hər biri təhlükəsizlik maraqlarının müdafiəsi üçün zəruri olan tədbirlər görə bilər. Bu tədbirlər bu Sazişin müddəalarından yayınma minimum dərəcəyə çatdırılmaqla ayrı-seçkisiz olacaq və vicdanla həyata keçiriləcəkdir.

2. Razılığa gələn Tərəflərdən hər hansı birinin investorlarına və ya hər hansı üçüncü dövlətin investorlarına münasibətdə tətbiq edilən rejimdən az əlverişli olmayan rejimin tətbiq edilməsi ilə bağlı bu Sazişin müddəaları, Razılığa gələn bir Tərəfin digərinin investorlarına aşağıdakılardan irəli gələn rejimin, imtiyazın və ya üstünlüyün faydasını tətbiq etmək öhdəliyinin olması kimi izah edilməyəcəkdir:

i) tam və ya əsasən vergitutma ilə əlaqədar olan beynəlxalq saziş, yaxud tam və ya əsasən vergitutma ilə əlaqədar daxili qanunvericilik;

ii) Razılığa gələn Tərəflərdən hər hansı birinin qoşulduğu və ya gələcəkdə qoşulacağı, TTBS-nin XXIV maddəsinə müvafiq olaraq "gömrük ittifaqı" və ya "sərbəst ticarət sazişi" ifadələrinin mənasında hər hansı mövcud, yaxud gələcəkdə mövcud olacaq gömrük ittifaqı və ya sərbəst ticarət sazişi və ya oxşar beynəlxalq saziş;

iii) əqli mülkiyyətə dair hər hansı mövcud və ya gələcəkdə mövcud olacaq ikitərəfli və ya çoxtərəfli saziş;

iv) 2003-cü il 1 iyul tarixindən əvvəl İsrail və hər hansı üçüncü dövlət arasında imzalanmış İnvestisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında Saziş.

Maddə 8

Razılığa gələn Tərəf və investor arasında investisiya mübahisələrinin həlli

1. Razılığa gələn Tərəf və Razılığa gələn digər Tərəfin investoru arasında hər hansı investisiya mübahisəsi danışıqlar yolu ilə həll ediləcəkdir.

2. Əgər bu maddənin 1-ci bəndində qeyd edilən mübahisə, bu mübahisə haqqında yazılı bildirişin verilməsi tarixindən altı (6) ay ərzində həll edilməzsə, o, investorun xahişi ilə aşağıdakı qaydada həll ediləcəkdir:

a) Qəbul edən Razılığa gələn Tərəfin səlahiyyətli məhkəməsi tərəfindən; və ya

b) barışıq proseduru ilə; və ya

c) 1965-ci ilin 18 mart tarixində Vaşinqtonda imzalanmaya açıq elan edilmiş "Dövlətlər və digər Dövlətlərin vətəndaşları arasında investisiya mübahisələrinin həlli üzrə Konvensiya"ya əsasən təsis edilmiş İnvestisiya məhkəməsi tərəfindən, əgər Razılığa gələn hər iki Tərəf Konvensiyaya qoşulubsa;və ya

d) İMHBM-in Əlavə Qaydalarına müvafiq olaraq, əgər Razılığa gələn Tərəflərdən yalnız biri İMHBM-in Konvensiyasına qoşulubsa; və ya

e) Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyanın ("UNCITRAL") Arbitraj qaydalarına müvafiq olaraq təsis ediləcək "ad hoc" ar-

bitraj məhkəməsi tərəfindən. Digər razılaşmanın olmadığı təqdirdə işlərin təqdim edilməsi və bütün dinləmələr Sədrin seçilməsi tarixindən altı (6) ay müddətində bitəcəkdir və işin son təqdim edilməsi və ya dinləmələrin bitməsi tarixindən, bunlardan hansı daha gecdirsə, iki (2) ay müddətində məhkəmə öz yazılı və əsaslandırılmış qərarlarını verəcəkdir.

3. Bununla Razılığa gələn hər bir Tərəf mübahisənin bu maddənin müddəalarına müvafiq olaraq beynəlxalq arbitraja verilməsinə qeyd-şərtsiz razılığını verir. Bu razılıq və mübahisə edən investor tərəfindən iddianın arbitraja verilməsi aşağıdakıların tələblərinə uyğun gəlməlidir:

a) İMHBM-in II fəsli və ya Tərəflərin yazılı razılığı üçün İMHBM-in Əlavə Qaydalarına;

b) 1958-ci il tarixli Xarici Arbitraj məhkəmələrinin qərarlarının tanınması və icra edilməsi haqqında Birləşmiş Millətlər Təşkilatının Konvensiyasına (Nyu-York Konvensiyası), yazılı razılaşma üçün.

4. Digər razılaşmanın olmadığı təqdirdə mübahisəni milli məhkəmə sisteminə təqdim etmiş investor bu maddənin 2-ci bəndində qeyd edilmiş arbitraj məhkəmələrinə müraciət edə bilər, əgər milli məhkəmə tərəfindən mübahisənin məzmunu üzrə qərar verilməyibsə.

5. Qərar qəti və məcburidir. Razılığa gələn hər bir Tərəf bu cür hər hansı qərarın şərtlərini gecikdirilmədən icra edəcəkdir və bu cür qərarın icra edilməsini öz ərazisində təmin edəcəkdir.

Maddə 9

Razılığa gələn Tərəflər arasında mübahisələr

1. Bu Sazişin təfsiri və tətbiqi ilə bağlı Razılığa gələn Tərəflər arasında mübahisələr diplomatik kanallar vasitəsilə, o cümlədən Razılığa gələn Tərəflərin istədiyi təqdirdə Razılığa gələn hər iki Tərəfin nümayəndələrindən ibarət İkitərəfli Komissiyaya müraciət və ya barışıq proseduru yolu ilə həll edilməlidir.

2. Əgər 1-ci bənddə qeyd edilən mübahisə onun barədə bildirişin verilməsindən altı (6) ay ərzində həll edilməzsə, o, Razılığa gələn Tərəflərdən hər hansı birinin xahişi ilə arbitraj məhkəməsinə verilə bilər.

3. Bu cür Arbitraj Məhkəməsi hər bir fərdi iş üçün aşağıdakı qaydada təşkil olunacaqdır. Arbitraj haqqında müraciətin alındığı tarixdən etibarən iki (2) ay ərzində Razılığa gələn hər bir Tərəf Məhkəmənin bir üzvünü təyin edəcəkdir. Bu iki hakim Razılığa gələn hər iki Tərəfin razılığı əsasında üçüncü dövlətin vətəndaşını seçəçək və bu şəxs Məhkəmənin Sədri olacaqdır. Sədr digər iki üzvün təyin olunduğu vaxtdan sonra iki (2) ay ərzində təyin olunacaqdır.

4. Əgər bu maddənin 3-cü bəndində göstərilən müddətlər ərzində zəruri təyinatlar həyata keçirilməzsə, Razılığa gələn Tərəflərdən hər hansı biri digər razılaşmanın olmadığı təqdirdə Haaqadakı Daimi Arbitraj Məhkəməsinin (bundan sonra "DAM") Baş katibini zəruri təyinatların həyata keçirilməsinə dəvət edə bilər. Əgər DAM-ın Baş katibi Razılığa gələn Tərəflərdən hər hansı birinin vətəndaşıdırsa və ya hər hansı səbəbdən

göstərilən funksiyanı yerinə yetirə bilmirsə, Razılığa gələn Tərəflərdən heç birinin vətəndaşı olmayan DAM-ın Baş katibinin müavini zəruri təyinatların həyata keçirilməsinə dəvət ediləcəkdir.

5. Digər razılaşmanın olmadığı təqdirdə arbitraj məhkəməsi UNCİTRAL-ın arbitraj qaydalarına müvafiq həyata keçiriləcəkdir. Digər razılaşmanın olmadığı təqdirdə sənədlərin təqdim edilməsi və bütün dinləmələr Sədrin seçilməsindən altı (6) aylıq müddət ərzində bitəcəkdir və sənədlərin son təqdim edilməsi və ya dinləmələrin bitməsi tarixindən, bunlardan hansı daha gecdirsə, iki (2) ay müddətində məhkəmə öz yazılı və əsaslandırılmış qərarlarını verəcəkdir.

6. Arbitraj Məhkəməsi öz qərarını səs çoxluğu ilə qəbul edəcəkdir. Məhkəmənin qərarları Razılığa gələn hər iki Tərəf üçün qəti və məcburi olacaqdır.

7. Razılığa gələn hər bir Tərəf öz üzvünün və özünün arbitraj prosesində təmsil edilməsi ilə bağlı xərclərini ödəyəcəkdir. Sədrin xərclərini və digər xərcləri Razılığa gələn Tərəflər bərabər hissədə ödəyəcəklər.

Maddə 10

Sığorta və zəmanət

İnvestisiya mübahisəsi ilə əlaqədar hər hansı proses zamanı hər hansı Tərəf özünü müdafiə üçün, qarşı iddia kimi və ya hər hansı digər səbəbdən, sığorta və ya zəmanət müqaviləsi əsasında bildirilən zərərin tam və ya qismən əvəzinin ödənilməsini və ya digər kompensasiyanın verilməsini və ya veriləcəyini iddia etməyəcəkdir.

Maddə 11

Subroqasiya

1. Əgər Göndərən Razılığa gələn Tərəf və ya onun təyin etdiyi agentlik Qəbul edən Razılığa gələn Tərəfin ərazisində investisiya ilə əlaqədar, zərərə qarşı zəmanət əsasında ödəmə həyata keçirərsə, Qəbul edən Razılığa gələn Tərəf:

a) qanunvericilik və ya hüquqi sövdələşmə əsasında kompensasiya verilmiş tərəfin bütün hüquqlarının və iddialarının Göndərən Razılığa gələn Tərəfə verilməsini; və

b) Göndərən Razılığa gələn Tərəfin, subroqasiya əsasında kompensasiya almış tərəf qədər belə hüquqlardan istifadə etmək və belə iddiaları həyata keçirmək hüququnda olmasını, habelə investisiya ilə əlaqədar üzərinə öhdəlikləri götürəcəyini tanıyacaqdır.

2. Göndərən Razılığa gələn Tərəfin bütün hallarda:

a) əldə etdiyi hüquqlara, iddialara və öhdəliklərə münasibətdə eyni rejimin tətbiq edilməsinə; və

b) kompensasiya almış Tərəf bu Saziş əsasında vaxtilə almalı olduğu kimi, investisiya və onunla bağlı gəlirlərlə əlaqədar həmin hüquqlardan və iddialardan irəli gələn ödənişlərin alınmasına hüququ olacaqdır.

Maddə 12

Digər qaydaların tətbiqi

Əgər bu Sazişə əlavə olaraq, Razılığa gələn Tərəflərdən hər hansı birinin qanunvericiliyinin şərtləri və ya Razılığa gələn Tərəflər arasında beynəlxalq hüquq əsasında mövcud olan və ya gələcəkdə qəbul ediləcək öhdəliklər Razılığa gələn bir Tərəfin investorları və ya investorlarının investisiyaları üçün bu Sazişlə təmin edilən rejimdən daha əlverişli rejimin təmin edilməsi haqqında ümumi və ya xüsusi qaydalar müəyyən edərsə, həmin qaydalar, onların daha əlverişli olduğu dərəcədə, bu Sazişə nisbətən üstünlük təşkil edəcəkdir.

Maddə 13

Sazişin tətbiqi

Bu Saziş onun qüvvəyə minməsindən sonra və ya əvvəl qoyulmuş investisiyalara tətbiq ediləcəkdir, lakin bu Sazişin qüvvəyə minməsindən əvvəl mübahisə mövzusu olan investisiyaya tətbiq edilməyəcəkdir.

Maddə 14

Qüvvəyə minmə

Razılığa gələn hər bir Tərəf bu Sazişin qüvvəyə minməsi üçün öz zəruri dövlətdaxili hüquqi prosedurlarının bitdiyi barədə diplomatik kanallar vasitəsilə Razılığa gələn digər Tərəfə yazılı bildiriş verəcəkdir. Bu Saziş sonuncu bildirişin alındığı tarixdən qüvvəyə minəcəkdir.

Maddə 15

Qüvvədə qalma və ləğv edilmə

Bu Saziş on (10) il müddətində qüvvədə qalacaqdır. Bundan sonra Razılığa gələn Tərəflərdən hər hansı biri digərinə diplomatik kanallar vasitəsilə Sazişi ləğv etmək niyyəti haqqında yazılı bildiriş göndərdiyi tarixdən on iki (12) aylıq müddətin bitməsinə qədər qüvvədə qalacaqdır. Bu Sazişin qüvvədə olduğu müddətdə qoyulmuş investisiyalara münasibətdə onun müddəaları ləğv edilməsi tarixindən sonra on (10) il müddətində ümumi beynəlxalq hüququn qaydaları nəzərə alınmaqla qüvvədə qalacaqdır.

Bunun təsdiqi olaraq, bunun üçün Hökumətləri tərəfindən lazımi qaydada səlahiyyətlər almış aşağıda imza edənlər bu Sazişi imzaladılar.

Yerusəlim şəhərində 20 fevral 2007-ci il tarixində, müvafiq olaraq, hər biri Azərbaycan, yəhudi və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Təfsirdə fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI
HÖKUMƏTİ ADINDAN

HEYDƏR BABAYEV
İqtisadi inkişaf naziri

İSRAİL DÖVLƏTİ
HÖKUMƏTİ ADINDAN

TSİPİ LİVNİ
Baş nazirin müavini, xarici işlər naziri

"Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında" 2007-ci il mayın 2-də Dubay şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2007-ci il

№413-IIIQ

Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti,

iki ölkə arasında və onların ərazilərindən tranzitlə avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını inkişaf etdirmək arzusu ilə

aşağıdakılar barədə razılığa gəldilər:

ÜMUMİ MÜDDƏALAR

Maddə 1

Tərəflər

Sazişin müvafiq bəndlərində qeyd ediləcək terminlər aşağıdakı mənaları kəsb etməlidir:

1. "Ölkə" - avtomobil nəqliyyatı vasitəsinin qeydiyyata alındığı Tərəfin dövlətinin ərazisi deməkdir.

2. "Qəbul edən ölkə" - avtomobil nəqliyyatı vasitəsinin qeydiyyata alındığı ölkədən fərqli olaraq, onun daşımalar əməliyyatına cəlb olunduğu Tərəfin dövlətinin ərazisi deməkdir.

3. Daşıyıcı" - Tərəflərdən birinin ərazisində təsis olunmuş və təsis olunduğu ölkədə müvafiq milli qanunvericiliyə uyğun olaraq beynəlxalq sərnişin və yük daşımaları üçün səlahiyyəti olan hər hansı bir hüquqi və ya fiziki şəxs deməkdir.

4. Bu Sazişin məqsədləri üçün səlahiyyətli orqanlar aşağıdakılardır:

Azərbaycan Respublikası tərəfindən - Nəqliyyat Nazirliyi,

Birləşmiş Ərəb Əmirlikləri tərəfindən - Milli Nəqliyyat Qurumu.

5. "Avtomobil nəqliyyatı vasitəsi":

a) sərnişin daşımalarında - Tərəflərdən birinin dövlətinin ərazisində qeydiyyata alınmış, sürücünün yeri də daxil olmaqla, 9-dan artıq oturacaq yeri olan mexanikləşdirilmiş nəqliyyat vasitəsi;

b) yük daşımalarında - yük daşımalarında istifadə etmək üçün nəzərdə tutulmuş və hər hansı bir Tərəfin dövlətinin ərazisində qeydiyyata alınmış mexanikləşdirilmiş nəqliyyat vasitəsi deməkdir.

Bu Sazişin məqsədləri üçün "avtomobil nəqliyyatı vasitəsi" termini istənilən mühərrikli nəqliyyat vasitələri ilə bağlı hər hansı bir qoşqu və ya yarımqoşqu, eləcə də yol nəqliyyatı vasitələrinin hər hansı bir kombinasiyasına şamil edilir.

6. "Müntəzəm daşıma" - əvvəlcədən təyin olunmuş marşrut və razılaşdırılmış hərəkət cədvəli üzrə, sərnişinlərin minib-düşə biləcəkləri məntəqələr göstərilməklə həyata keçirilən beynəlxalq sərnişin daşımaları deməkdir.

7. "Qeyri-müntəzəm daşımalar" - bu maddənin 6-cı bəndində göstərilmiş müntəzəm daşımaların tərifinə uyğun gəlməyən daşımalar deməkdir.

8. "İcazə" - bir ölkənin səlahiyyətli orqanı tərəfindən verilməli, Tərəflərindən birinin nəqliyyat vasitəsinin Tərəflərin dövlətlərinin əraziləri arasında və ya digər Tərəfin dövlətinin ərazisindən tranzitlə, eləcə də üçüncü ölkələrə/ölkələrdən beynəlxalq daşımaları yerinə yetirməyə və ya digər Tərəfin dövlətinin ərazisində yüklənməyə hüquq verən sənəd deməkdir.

9. "Tranzit" - bir Tərəfin dövlətinin ərazisində qeydiyyata alınmış daşıyıcı tərəfindən digər Tərəfin dövlətinin ərazisindən keçərək sərnişin və yük daşımaları deməkdir.

10. "Kabotaj" - Tərəflərdən birinin dövlətinin ərazisində qeydə alınaraq, qəbul edən ölkənin ərazisində yerləşən iki məntəqə arasında avtomobil nəqliyyatı vasitəsilə həyata keçirilən sərnişin və yük daşımaları deməkdir.

Maddə 2

Tətbiq edilmə dairəsi

Bu Sazişin müddəaları Tərəflər arasında, onların ərazilərindən üçüncü ölkəyə Razılığa gələn Tərəflərin ərazisində qeydiyyatdan keçmiş nəqliyyat vasitələri ilə sərnişinlərin və yüklərin beynəlxalq yerüstü daşımalarına tətbiq ediləcəkdir.

Silahların, döyüş sursatlarının və hərbi vasitələrin daşınması buradakı müddəalardan istisna ediləcəkdir.

Maddə 3

Birgə Komissiya

1. Tərəflər bu Sazişin müddəalarının tətbiqi ilə əlaqədar, səlahiyyətli orqanlar tərəfindən təyin olunmuş nümayəndələrdən ibarət Birgə Komissiya yaradırlar.

2. Birgə Komissiyanın vəzifələri aşağıdakılardan ibarətdir:

a) səlahiyyətli orqan tərəfindən bilavasitə tənzimlənə bilməyən problemlərin öyrənilməsi və həlli üçün təkliflərin verilməsi;

b) bu Sazişin tətbiqi və şərhli ilə bağlı məsələlərə baxılması və onların həlli üçün tövsiyələrin verilməsi;

c) avtomobil daşımalarına dair qarşılıqlı razılaşdırılması tələb olunan digər məsələlərə baxılması.

3. Birgə Komissiya bu Sazişə hər hansı bir dəyişiklik haqqında təkliflərini razılaşdırmaq üçün səlahiyyətli orqana təqdim etməlidir. Dəyişikliklər bu Sazişin 16-cı maddəsinin müddəalarına uyğun olaraq rəsmiləşdirilir və qüvvəyə minir.

4. Birgə Komissiyanın toplantıları Tərəflərdən birinin səlahiyyətli orqanının diplomatik kanallar vasitəsilə yazılı müraciəti əsasında, növbə ilə Tərəflərdən birinin dövlətinin ərazisində keçirilir. Bu Sazişin izahında və ya tətbiqində hər hansı bir sual yarandığı təqdirdə Birgə Komissiya tərəfindən həll ediləcəkdir.

SƏRNİŞİN DAŞIMALARI

Maddə 4

İcazə

Bu Sazişin 6-cı maddəsinin 1-ci bəndində göstərilən daşımalar istisna olmaqla, Tərəflərin dövlətlərinin əraziləri arasında və onların dövlətlərinin ərazilərindən tranzitlə bütün sərnişin daşımalarını həyata keçirmək üçün qəbul edən ölkənin səlahiyyətli orqanlarının müvafiq "İcazə"si olmalıdır.

Maddə 5

Müntəzəm daşımalar

1. Tərəflərin dövlətlərinin əraziləri arasında və onların dövlətlərinin ərazilərindən tranzitlə müntəzəm daşımaların həyata keçirilməsi üçün Tərəflərin səlahiyyətli orqanları tərəfindən əvvəlcədən verilmiş "İcazə" tələb olunur.

Bu müntəzəm daşımalar qarşılıqlı razılaşmaya əsasən həyata keçirilir. Səlahiyyətli orqanlar "İcazə"ni öz dövlətinin ərazilərinə aid olan hissə üçün verməlidir.

2. Müntəzəm daşımaların həyata keçirilməsi üçün daşıyıcılar öz ölkəsinin səlahiyyətli orqanlarına "İcazə" almaq barədə müraciət etməlidirlər. Əgər müraciət səlahiyyətli orqan tərəfindən qəbul olunarsa, o, bu müraciəti qəbul edən ölkənin səlahiyyətli orqanına müvafiq sənədlərlə birlikdə göndərməlidir.

Maddə 6

Qeyri-müntəzəm daşımalar

1. Tərəflərdən birinin dövlətinin ərazisində qeydiyyata alınmış avtomobil nəqliyyatı vasitələrindən istifadə etməklə, qəbul edən ölkənin ərazisində aşağıdakı qeyri-müntəzəm daşımaların həyata keçirilməsi üçün heç bir "İcazə" tələb olunmayacaqdır:

a) eyni qrup sərnişinlərin, eyni avtomobil nəqliyyatı vasitəsilə bütün səyahət boyu daşınması və yola düşdükləri yerə qaytarılmasından ibarət iki başa gedış-gəliş səyahət daşımaları;

b) bir başa sərnişinləri aparıb, geriyə sərnişinsiz qayıtmaq şərtilə həyata keçirilən daşımalar;

c) bir başa sərnişinsiz gedib, geriyə sərnişinləri qaytarmaqla həyata keçirilən daşımalar, əgər:

səyahət üçün yaradılmış sərnişin qrupu ilə bağlanmış müvafiq müqavilənin qüvvəyə minmə tarixi qrupun digər ölkənin ərazisinə daxil olma tarixindən əvvəldirsə və sərnişinlər yola düşmə ölkəsinin ərazisinə qaytarılırsa;

Tərəfin dövlətinin ərazisinə eyni daşıyıcı tərəfindən əvvəlcədən gətirilmiş sərnişinlər yenidən yola düşdükləri ölkənin ərazisinə qaytarılırsa;

sərnişinlər, dəvəti göndərən şəxs tərəfindən daşıma haqqını ödəməklə təsis ölkəsi ərazisinə səyahət etmək üçün dəvət olunublarsa;

d) a), b) və c) yarımbəndlərində göstərilmiş daşımalara münasib həyata keçirilən tranzit daşımaları;

e) sıradan çıxan avtobusu əvəz etmək üçün göndərilmiş avtobusun gedişi.

2. Bu maddənin 1-ci bəndində göstərilmiş daşımalar zamanı, avtomobil nəqliyyatı vasitələrində müvafiq şəkildə doldurulmuş, daşıyıcı tərəfindən imzalanmış və səlahiyyətli orqanlar tərəfindən möhürlə təsdiq edilmiş sərnişinlərin siyahısından ibarət sənəd olmalıdır.

3. Həmin sənəd doldurulmalı, bütün səyahət boyu avtomobil nəqliyyatı vasitəsində saxlanılmalı və hər hansı bir nəzarət orqanının səlahiyyətli nümayəndələrinin tələbi ilə təqdim olunmalıdır.

YÜK DAŞIMALARI

Maddə 7

"İcazə" rejimi

1. Daşıyıcılar qəbul edən ölkənin səlahiyyətli orqanları tərəfindən əvvəlcədən verilmiş "İcazə"lərə əsasən, Tərəflərin dövlətlərinin əraziləri arasında, onların dövlətlərinin ərazilərindən tranzitlə, eləcə də üçüncü ölkəyə/ölkədən yük daşımalarını həyata keçirə bilərlər.

2. "İcazə" yalnız onun verildiyi daşıyıcı tərəfindən istifadə oluna bilər və digər daşıyıcıya verilə bilməz.

3. "İcazə" yalnız bir avtomobil nəqliyyatı vasitəsi üçün verilə bilər. Tərəflərin səlahiyyətli orqanları yük daşımaları üçün hər il razılaşdırılmış miqdarda "İcazə"ləri mübadilə edəcəklər.

4. Bu Sazişdə nəzərdə tutulan daşımalar yalnız öz dövlətinin milli qanunvericiliyinə müvafiq olaraq beynəlxalq daşımaları həyata keçirmək hüququna malik olan daşıyıcılar tərəfindən yerinə yetirilə bilər.

Maddə 8

"İcazə" tələb edilməyən daşımalar

Aşağıdakı kateqoriyalara aid beynəlxalq daşımalar üçün "İcazə" tələb olunmur:

a) qoşqunun çəkisi də nəzərə alınmaqla icazə verilən yüklü çəkisi (TPLW) 6 tondan artıq olmayan və ya qoşqu da daxil olmaqla, icazə verilən yük tutumu 3,5 tondan artıq olmayan avtomobil nəqliyyatı vasitələri ilə daşımalar zamanı;

b) uçuşun olmamağına təsadüf edilən hallarda hava limanına/limanından daşımalar zamanı;

c) zədələnmiş və ya sıradan çıxmış avtomobil nəqliyyatı vasitələrinin daşınması, eləcə də texniki xidmət avtomobillərinin gedişi zamanı;

d) sıradan çıxan avtomobil nəqliyyatı vasitəsini digər ölkədə əvəz etmək üçün yüksüz gedən avtomobil nəqliyyatı vasitəsinin, eləcə də sıradan çıxmış avtomobil nəqliyyatı vasitəsinin təmirdən sonra geriyə qaytarılması zamanı;

e) gəmi və təyyarələri təmir etmək üçün ehtiyat hissələrinin daşınması zamanı;

f) fövqəladə hallarda, xüsusən təbii fəlakətlər zamanı yardım göstərmək üçün zəruri olan təbii ləvazimat və digər təchizatların, eləcə də humanitar yardım yüklərinin daşınması zamanı;

f) kommersiya məqsədləri daşımayan yarmarka və sərgilər üçün nəzərdə tutulan incəsənət əsərlərinin və eksponatların daşınması zamanı;

h) digər tərəflər ilə münasibətdə tətbiq olunan qanun və qaydalara zidd olmamaqla, kommersiya məqsədləri daşımayan teatr, musiqi, kino və ya idman yarışları, sirk, yarmarka, sərgilər üçün lazım olan mexanizmlər, ləvazimatlar və ya heyvanlar, həmçinin radio və televiziya verilişləri, yaxud filmlərin çəkilişi üçün istifadə olunan əşyaların daşınması zamanı;

i) cənazələrin daşınması zamanı;

j) yeni alınan avtomobil nəqliyyatı vasitələrinin ilk boş gedişi zamanı;

k) köçərkən daşınan əmlakın aparılması zamanı.

DİGƏR MÜDDƏALAR

Maddə 9

Kabotaj

Daşıyıcılar qəbul edən ölkənin ərazisində kabotaj daşımaları həyata keçirə bilməzlər.

Maddə 10

Milli qanunvericiliyə uyğunluq

Daşıyıcılar və onların ekipajları qəbul edən ölkənin ərazisində daşımaları həyata keçirərkən həmin ölkədə qüvvədə olan qanun və qaydalara riayət etməlidirlər.

Bu Sazişin müddəaları hər bir Tərəfin milli təhlükəsizliyinə xələl gətirə biləcək tranzit daşımalarına məhdudiyyət qoyulmasını istisna etmir.

Maddə 11

Pozuntular və sanksiyalar

1. Hər hansı bir daşıyıcı və ya Tərəflərin birinin ərazisində qeydiyyata alınan avtomobil nəqliyyatı vasitələrinin ekipajları qəbul edən ölkənin ərazisində qüvvədə olan milli qanunvericiliyə, yaxud bu Sazişin müddəalarına və "İcazə"lərin şərtlərinə riayət etmədikdə, qəbul edən ölkənin səlahiyyətli orqanlarının müraciəti ilə digər Tərəfin səlahiyyətli orqanları onlara qarşı aşağıdakı tədbirləri görə bilərlər:

a) pozuntuya yol verən daşıyıcıya xəbərdarlıq etmək;

b) pozuntunun baş verdiyi Tərəfin dövlətinin ərazisində daşıyıcını daşımaları həyata keçirmək icazəsindən qismən, müvəqqəti və ya tamamilə məhrum etmək.

2. Pozuntuya yol vermiş daşıyıcıya qarşı tədbirlər görmüş səlahiyyətli orqanlar qəbul edən ölkənin səlahiyyətli orqanlarına bu barədə məlumat verəcəkdir.

3. Bu maddənin müddəaları pozuntu baş verən ölkədə idarəedici orqanlar və ya məhkəmələr tərəfindən tətbiq ediləcək qanuni sanksiyaları istisna etmir.

Maddə 12

Vergi və rüsumlar

1. Bu Saziş çərçivəsində, Tərəflərdən birinin avtonəqliyyat vasitələri digər Tərəfin dövlətinin ərazisində sərnişin və yük daşımalarını həyata keçirərkən, avtonəqliyyat vasitələrindən istifadəyə və sahibliyə görə, habelə avtomobil yollarından istifadə edilməsi və onların saxlanılması ilə bağlı yığımlar və ödənişlər qəbul edən ölkənin milli qanunvericiliyinin tələblərinə uyğun olmalıdır.

2. Bu Saziş əsasında daşımaların yerinə yetirilməsi zamanı digər Tərəfin dövlətinin ərazisinə daxil olan avtonəqliyyat vasitələri gömrük yığımlarından, rüsumlardan və vergilərdən qarşılıqlı surətdə azad olunur:

a) avtonəqliyyat vasitəsinin texniki xarakteristikalarına uyğun istehsalçı zavod tərəfindən quraşdırılmış çənlərdə olan və qəbul edən ölkənin milli qanunvericiliyinə əsasən icazə verilən miqdarda yanacaq;

b) daşıma zamanı avtonəqliyyat vasitələrinin normal istismarı üçün nəzərdə tutulmuş miqdarda sürtkü materialları;

c) beynəlxalq daşımanı yerinə yetirən avtonəqliyyat vasitəsinin normal istismarı üçün lazımi miqdarda ehtiyat hissələri və alətlər.

3. İstifadə edilməmiş və ya əvəz edilmiş ehtiyat hissələri, eləcə də alətlər geriyə qaytarılmalı və ya ləğv etmə gömrük rejimində və ya müvafiq Tərəfin dövlətinin gömrük qanunvericiliyi ilə təyin edilmiş qaydalara əsasən digər gömrük rejimi ilə yerləşdirilməlidir.

4. Tərəflərdən birinin dövlətinin ərazisində qeydiyyata alınmış və digər Tərəfin dövlətinin ərazisində sərnişin və yük daşımalarını həyata keçirən daşıyıcının həmin digər Tərəfdəki mənbələrdən əldə etdiyi gəlirlər həmin digər Tərəfin milli qanunvericiliyinə, həmçinin Tərəflər arasında ikiqat vergitutmanın aradan qaldırılmasına dair Saziş mövcud olduğu halda həmin Sazişin müddəalarına müvafiq olaraq vergiyə cəlb ediləcəkdir.

Maddə 13

Təhlükəli yüklər

Birgə Komissiya başqa hal nəzərdə tutmazsa, təhlükəli yüklərin daşınması üçün qəbul edən ölkənin səlahiyyətli orqanları tərəfindən verilən xüsusi icazə tələb olunur.

Maddə 14

Çəki və ölçülər

1. Avtomobil nəqliyyatı vasitələrinin çəki və ölçülərinə gəldikdə, bir Tərəf öz dövlətinin ərazisində qeydiyyata alınmış avtomobil nəqliyyatı vasitələrinin üzərinə qoyulmuş şərtlərdən daha çox məhdudlaşdırıcı şərtləri digər Tərəfin dövlətinin ərazisində qeydiyyata alınmış avtomobil nəqliyyatı vasitələri üzərinə qoymamağı öz öhdəsinə götürür.

2. Daşıma zamanı istifadə olunan yüklü və ya yüksüz avtomobil nəqliyyatı vasitəsinin çəki və ölçüsü qəbul edən ölkənin ərazisində qüvvədə olan maksimum icazə verilə bilən məhdudiyyəti keçərsə, həmin ölkənin səlahiyyətli orqanlarının verdiyi xüsusi icazə tələb olunur.

Daşıyıcı bu icazənin tələblərinə riayət etməlidir.

Maddə 15

Beynəlxalq hüquq və öhdəliklər

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduğu beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə təsir etməyəcəkdir.

Maddə 16

Qüvvəyə minmə və qüvvədən düşmə

1. Tərəflər Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə bir-birinə sonuncu rəsmi bildiriş verdikləri tarixdən 30 gün sonra Saziş qüvvəyə minəcəkdir.

2. Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan və bu maddənin 1-ci bəndi ilə nəzərdə tutulmuş qaydada qüvvəyə minən və ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

3. Bu Saziş onun qüvvədən düşməsi barədə Tərəflərdən birinin diplomatik kanallar vasitəsilə bildiriş verdiyi müddətədək qüvvədə qalacaqdır. Sazişin fəaliyyətinə xitam verilməsi, bu barədə digər Tərəfin xəbərdar edilməsindən 6 ay sonra həyata keçiriləcəkdir.

Dubay şəhərində 2 may 2007-ci il tarixində Azərbaycan, ərəb və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir. Mətnin təfsiri zamanı fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətndən istifadə olunacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ HÖKUMƏTİ ADINDAN
ZİYA MƏMMƏDOV	*SULTAN BİN SAİD ƏL MANSURİ*
Nəqliyyat naziri	*Dövlət sektorunun inkişafı naziri, Milli Nəqliyyat Qurumunun Sədri*

"Azərbaycan Respublikası və Macarıstan Respublikası arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası və Macarıstan Respublikası arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" 2007-ci il mayın 18-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 oktyabr 2007-ci il

№414-IIIQ

Azərbaycan Respublikası və Macarıstan Respublikası arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası və Macarıstan Respublikası,

Razılığa gələn hər iki Tərəfin qarşılıqlı faydası üçün iqtisadi əməkdaşlığı genişləndirməyi arzu edərək,

Razılığa gələn Tərəflərdən hər hansı birinin sərmayəçilərinin sərmayələri üçün Razılığa gələn digər Tərəfin ərazisində əlverişli şəraitin yaradılması və saxlanılması niyyətində olaraq və

bu Sazişə müvafiq olaraq, sərmayələrin təşviqi və qarşılıqlı qorunmasının bu sahədə işgüzar təşəbbüsü stimullaşdıracağını etiraf edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Anlayışlar

Bu Sazişin məqsədləri üçün:

1. "Sərmayə" termini Razılığa gələn bir Tərəfin sərmayəçisi tərəfindən Razılığa gələn digər Tərəfin qanunvericiliyinə müvafiq olaraq Razılığa gələn sonuncu Tərəfin ərazisində iqtisadi fəaliyyətlə əlaqədar sərmayə edilmiş əmlakın hər növü deməkdir və xüsusilə, lakin istisna olmamaqla, aşağıdakıları özündə ehtiva edir:

a. daşınar və daşınmaz əmlak, habelə ipoteka, girov, əmlaka həbs qoyulması və oxşar hüquqlar kimi istənilən əmlak hüquqları;

b. şirkətdə paylar, səhmlər və istiqrazlar və ya şirkətdə iştirakın hər hansı digər forması;

c. pul vəsaiti və ya sərmayələrlə əlaqədar iqtisadi dəyərə malik istənilən növ fəaliyyətlə bağlı tələblər;

d. sərmayələrlə bağlı olan əqli və sənaye mülkiyyəti hüquqları, o cümlədən müəlliflik hüququ, ticarət nişanı, patentlər, sənaye nümunələri, istehsalçıların hüquqları, texniki proseslər, "nou-hau", ticarət sirləri, coğrafi göstəricilər, firma adları və işgüzar nüfuz;

e. qanunla və ya müqavilə üzrə verilən hüquqlar və qanunvericiliyə müvafiq olaraq müəyyən edilmiş lisenziya və icazələr, o cümlədən təbii ehtiyatların kəşfiyyatı, hasilatı, işlənilməsi və istismar edilməsi üçün konsessiyalar.

Əmlakın sərmayə kimi qoyuluşu formasında hər hansı dəyişiklik onun sərmayə kimi xarakterinə təsir etməyəcəkdir, bu şərtlə ki, bu dəyişiklik ərazisində sərmayə qoyulmuş Razılığa gələn Tərəfin qanunvericiliyinə müvafiq olaraq həyata keçirilir.

2. "Sərmayəçi" termini Razılığa gələn bir Tərəfin ərazisində sərmayə qoymuş Razılığa gələn digər Tərəfin hər hansı fiziki və ya hüquqi şəxsi deməkdir.

a. "Fiziki şəxs" - Razılığa gələn Tərəfin qanunlarına müvafiq olaraq, onun vətəndaşlığına malik olan şəxs deməkdir.

b. "Hüquqi şəxs" Razılığa gələn hər iki Tərəfə münasibətdə, Razılığa gələn bir Tərəfin qanunvericiliyinə müvafiq olaraq təsis olunmuş və ya yaradılmış və Razılığa gələn həmin Tərəfin ərazisində baş qərargahı olan və ya işgüzar fəaliyyətini əsasən həyata keçirən hər hansı bir qurum deməkdir. Macarıstan Respublikasına münasibətdə, bu termin həmçinin hüquqi şəxs statusuna malik olmayan, lakin onun qanunvericiliyinə əsasən şirkət hesab olunan tam ortaqlığı və kommandit ortaqlığını özündə ehtiva edir.

3. "Gəlir" termini sərmayədən əldə edilən məbləğlər deməkdir və xüsusilə, lakin bununla məhdudlaşmayaraq, mənfəət, faiz, kapital artımı, dividendlər, royaltilər və qonorarları daxil edir.

4. "Ərazi" termini:

a. Macarıstan Respublikasına münasibətdə: Macarıstan Respublikası tərəflidən beynəlxalq hüquqa uyğun olaraq üzərində suveren hüquqları və ya yurisdiksiyası həyata keçirilən ərazi;

b. Azərbaycan Respublikasına münasibətdə: Xəzər dənizinin müvafiq sektoru da daxil olmaqla, üzərində Azərbaycan Respublikasının öz milli qanunvericiliyinə və beynəlxalq hüquqa uyğun olaraq suveren hüquqlarını və yurisdiksiyasını həyata keçirdiyi Azərbaycan Respublikasının ərazisi.

5. "Sərbəst dönərli valyuta" termini beynəlxalq əməliyyatlarda ödəmələr üçün geniş miqyasda istifadə edilən və Razılığa gələn hər iki Tərəfin qanunvericiliyinə zidd olmamaq şərtilə əsas beynəlxalq valyuta bazarlarında dəyişdirilən valyuta deməkdir.

Maddə 2

Sərmayələrin təşviqi və qorunması

1. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrini təşviq edəcək və onlar üçün əlverişli şərait yaradacaqdır və öz qanunvericiliyinə uyğun olaraq bu cür sərmayələri qəbul edəcəkdir.

2. Razılığa gələn hər bir Tərəfin sərmayəçilərinin sərmayə və gəlirlərinə münasibətdə hər zaman ədalətli və bərabər rejim tətbiq ediləcəkdir və onların Razılığa gələn digər Tərəfin ərazisində tam və daimi müdafiəsi və təhlükəsizliyi təmin ediləcəkdir.

3. Razılığa gələn Tərəf ətraf mühit, əmək və ya peşə səviyyəsi və təhlükəsizliklə bağlı milli qanunvericiliyin tələblərini yumşaltma, yaxud əsas əmək standartlarını azaltma yolu ilə sərmayələri təşviq etməyəcəkdir. Əgər Razılığa gələn Tərəf hesab etsə ki, Razılığa gələn digər Tərəf bu cür təşviqatı həyata keçirir, o, Razılığa gələn digər Tərəflə məsləhətləşmələrin keçirilməsini xahiş edə bilər və Razılığa gələn hər iki Tərəf belə təşviqatın aradan qaldırılması məqsədilə məsləhətləşmələri həyata keçirəcəklər.

4. Razılığa gələn Tərəflərdən heç biri öz ərazisində Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrinin idarə edilməsinə, saxlanmasına, istifadəsinə, onlardan faydalanmasına, əldə edilməsinə və ya satışına səbəbsiz, əsassız və ya ayrı-seçkilik yolu ilə qarışmayacaqdır.

5. Razılığa gələn Tərəflərdən heç biri Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrinə münasibətdə materialların, istehsal vasitələrinin alınması, əməliyyatlar, daşınma, məhsulların marketinqi ilə əlaqədar olaraq məcburi tədbirdər və ya əsassız və ayrı-seçkilik yaradan digər oxşar qaydalar tətbiq etməyəcəkdir.

Maddə 3

Milli rejim və ən əlverişli rejim

1. Razılığa gələn bir Tərəf öz ərazisində Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrinə və gəlirlərinə öz sərmayəçilərinin və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinin sərmayələrinə və gəlirlərinə münasibətdə, bunlardan hansı daha əlverişlidirsə, tətbiq edilən rejimdən az əlverişli olmayan ədalətli və bərabər rejim tətbiq edəcəkdir.

2. Razılığa gələn bir Tərəfin sərmayəçilərinə münasibətdə sərmayələrin idarə edilməsi, saxlanılması, istifadə edilməsi, onlardan faydalanması və satılması ilə əlaqədar Razılığa gələn digər Tərəflə, Razılığa gələn sonuncu Tərəfin öz sərmayəçilərinə və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinə münasibətdə tətbiq etdiyi rejimdən (sərmayəçi üçün hansı daha əlverişlidirsə) az əlverişli olmayan ədalətli və bərabər rejim tətbiq ediləcəkdir.

3. Bu Sazişin milli rejim və ən əlverişli rejimlə bağlı müddəalarının Razılığa gələn Tərəfin gömrük, iqtisadi və ya valyuta birlikləri, ümumi bazar və yaxud sərbəst ticarət zonasının üzvü kimi öhdəliklərinə uyğun olaraq tətbiq etdiyi imtiyazlara aidiyyəti olmayacaqdır.

4. Razılığa gələn Tərəflər gömrük, iqtisadi və ya valyuta birlikləri, ümumi bazar və yaxud sərbəst ticarət zonası barədə beynəlxalq müqavilə və ya qarşılıqlı razılaşmalardan irəli gələn öhdəliklər də daxil olmaqla, belə gömrük, iqtisadi və ya maliyyə birlikləri, ümumi bazar və yaxud sərbəst ticarət zonasının üzvü kimi Razılığa gələn Tərəfin üzərinə götürdüyü öhdəliklərini qəbul (etiraf) edirlər.

5. Bu maddədə nəzərdə tutulan şərtlər Razılığa gələn bir Tərəfin aşağıdakılardan irəli gələrək tətbiq edə biləcəyi hər hansı rejimin faydasını, imtiyazı və ya güzəşti Razılığa

gələn digər Tərəfin sərmayəçilərinə və ya bu sərmayəçilərin sərmayələrinə və gəlirlərinə münasibətdə tətbiq etmək öhdəliyində olması kimi şərh edilməyəcəkdir:

a. Razılığa gələn Tərəflərdən hər hansı birinin qoşulduğu və ya qoşula biləcəyi sərmayələrlə bağlı çoxtərəfli razılaşmalar;

b. vergitutmaya aid olan hər hansı beynəlxalq müqavilə və ya razılaşma.

Maddə 4

Zərərə görə kompensasiya

Razılığa gələn Tərəflərdən hər hansı birinin sərmayəçilərinin sərmayələri və ya gəlirləri Razılığa gələn digər Tərəfin ərazisində baş verən müharibə, silahlı münaqişə, fövqəladə vəziyyət, üsyan, qiyam, iğtişaş və ya digər oxşar hadisələr nəticəsində zərər çəkəndə, həmin sərmayəçilərin sərmayələrinə münasibətdə restitusiya, əvəzin ödənilməsi, kompensasiya və ya hər hansı başqa ödənişlərlə bağlı Razılığa gələn sonuncu Tərəfin öz sərmayəçilərinə və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinə tətbiq etdiyi rejimdən az əlverişli olmayan rejim tətbiq ediləcəkdir.

1. Bu maddənin 1-ci bəndi nəzərə alınmaqla, Razılığa gələn bir Tərəfin sərmayəçilərinə münasibətdə, o, bu bənddə göstərilən hər hansı bir vəziyyətdə Razılığa gələn digər Tərəfin ərazisində aşağıdakılar nəticəsində ziyan çəkirsə:

a. onun silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onların sərmayəsinin tam və ya qismən rekvizisiyası,

b. onun silahlı qüvvələri və ya hakimiyyət orqanların tərəfindən onların sərmayəsinin tam və ya qismən, hərbi əməliyyat olmadan və ya vəziyyətin zəruriliyi tələb etmədiyi halda məhv edilməsi,

Razılığa gələn digər Tərəf ədalətli, adekvat və effektiv kompensasiyanın ödənilməsini təmin edəcəkdir.

Kompensasiyaya zərərin baş verdiyi gündən ödənişin həyata keçirildiyi günədək hesablanan, məqbul kommersiya dərəcəsi üzrə faizlər də daxil olacaqdır.

Maddə 5

Ekspropriasiya

Razılığa gələn bir Tərəfin sərmayəçilərinin Razılığa gələn digər Tərəfin ərazisindəki sərmayələri və ya gəlirləri, ictimai mənafenin tələb etdiyi hallar istisna olmaqla, milliləşdirməyə, ekspropriasiyaya və ya bərabər nəticə verə biləcək hər hansı digər tədbirlərə (bundan sonra "ekspropriasiya" adlanır) məruz qalmayacaqdır. Ekspropriasiya qanunvericiliyə tam uyğun şəkildə, ayrı-seçkiliyə yol verilmədən, dərhal, adekvat və effektiv kompensasiya ilə təmin ediləcəkdir. Bu cür kompensasiya, ekspropriasiyanın həyata keçirildiyi və ya ekspropriasiyanın gözlənildiyi ictimaiyyətə məlum olduğundan (hansı daha tez baş verərsə) bilavasitə əvvəlki vaxtda ekspropriasiya edilmiş sərmayənin bazar dəyərinə bərabər olacaq, ekspropriasiya tarixindən ödəniş tarixinə qədər məqbul kommersiya dərəcəsi üzrə faizləri daxil edəcək, gecikdirilmədən həyata keçiriləcək, effektiv realizə edilə biləcək (effektiv şəkildə pula çevrilə biləcək) və sərbəst dönərli valyuta ilə köçürüləcəkdir.

Maddə 6

Köçürmələr

1. Razılığa gələn Tərəflər sərmayələr və gəlirlərlə bağlı ödəmələrin sərbəst köçürülməsinə icazə verəcəklər. Köçürmələr sərbəst dönərli valyuta ilə ərazisində sərmayə qoyulmuş Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun olaraq, heç bir məhdudiyyət və əsassız ləngitmə olmadan həyata keçiriləcəkdir. Belə köçürmələrə xüsusi halda, lakin bununla məhdudlaşmayaraq:

a. sərmayələrin saxlanması və ya artırılması üçün əsas və əlavə məbləğlər;

b. bu Sazişin 1-ci maddəsinin 3-cü bəndində müəyyən edilən gəlirlər;

c. royaltilər və lisenziya haqları və ya digər oxşar xərclərin ödənilməsi kimi sərmayə qoyuluşu ilə bağlı fəaliyyətdən yaranan xərclərin ödənilməsi üçün tələb olunan məbləğlər;

d. borc sazişləri daxil olmaqla, kontraktlarla bağlı ödəmələr;

e. sərmayələrin tam və ya qismən satışından və ya ləğvindən əldə edilmiş vəsaitlər;

f. ərazisində sərmayə qoyulmuş Razılığa gələn Tərəfin qanunvericilinə müvafiq olaraq sərmayələrlə bağlı xarici dövlətlərdən cəlb edilmiş fiziki şəxslərin əməkhaqları və buna oxşar gəlirləri;

g. bu Sazişin 4-cü və 5-ci maddələrinə uyğun olaraq ödənilməli olan kompensasiya;

h. bu Sazişin 8-ci maddəsində göstərilən mübahisələrin həll edilməsindən irəli gələn ödəmələr daxildir.

2. Köçürmələr ərazisində sərmayə qoyulmuş Razılığa gələn Tərəfin qüvvədə olan qanunvericiliyinə uyğun olaraq sərmayəçinin bütün müvafiq maliyyə öhdəliklərinin icrasından sonra həyata keçirilir.

3. Bu Sazişin məqsədləri üçün digər razılığın olmadığı təqdirdə, valyuta məzənnəsi köçürməni həyata keçirən maliyyə qurumu tərəfindən sərmayəni qəbul edən Razılığa gələn Tərəfin qanunvericiliyinə müvafiq olaraq elan edilmiş məzənnədir. Digər razılığın olmadığı təqdirdə, belə məzənnə mövcud olmadıqda rəsmi məzənnədən istifadə ediləcəkdir.

Maddə 7

Subroqasiya

1. Əgər Razılığa gələn Tərəf və ya onun təyin etdiyi təşkilat Razılığa gələn digər Tərəfin ərazisində sərmayə qoyuluşu ilə bağlı öz sərmayəçilərinə zəmanət və ya sığorta əsasında ödəmə həyata keçirərsə, Razılığa gələn sonuncu Tərəf:

a. həmin ölkədə qanuna və ya hüquqi sövdələşməyə uyğun olaraq sərmayəçinin hər hansı hüquq və ya tələblərinin Razılığa gələn birinci Tərəfə və ya onun təyin etdiyi təşkilata keçməsini, eləcə də,

b. Razılığa gələn birinci Tərəfin və ya onun təyin etdiyi təşkilatın, subroqasiya əsasında həmin sərmayəçinin hüquqlarını həyata keçirmək və tələblərini irəli sürmək hüququnda olmasını və sərmayə ilə əlaqədar öhdəlikləri öz üzərinə götürməsini tanıyacaqdır.

2. Subroqasiya olunmuş hüquqlar və tələblər sərmayəçinin ilkin hüquqlarından və tələblərindən artıq olmayacaqdır.

Maddə 8

Razılığa gələn Tərəf ilə Razılığa gələn digər Tərəfin sərmayəçisi arasında sərmayə mübahisələrinin həll edilməsi

1. Razılığa gələn bir Tərəfin sərmayəçisi ilə Razılığa gələn digər Tərəf arasında Razılığa gələn həmin Tərəfin ərazisində sərmayə ilə bağlı yarana bilən hər hansı bir mübahisə, mübahisənin tərəfləri arasında danışıqların predmeti olacaqdır.

2. Əgər Razılığa gələn bir Tərəfin sərmayəçisi ilə Razılığa gələn digər Tərəf arasında hər hansı mübahisə yazılı bildiriş əsasında belə danışıqların tələb olunması tarixindən altı ay ərzində bu yolla həll edilə bilməzsə, sərmayəçi mübahisənin aşağıdakılara verilməsi seçiminə malikdir:

a. ərazisində sərmayə qoyulmuş Razılığa gələn Tərəfin səlahiyyətli məhkəməsinə;

b. 1965-ci il 18 mart tarixində Vaşinqtonda imzalanma üçün açıq elan edilmiş Dövlətlər və digər Dövlətlərin vətəndaşları arasında sərmayə mübahisələrinin həlli üzrə Konvensiya ilə əlaqədar olan Sərmayə Mübahisələrinin Tənzimlənməsi üzrə Beynəlxalq Mərkəzə, əgər Razılığa gələn hər iki Tərəf bu Konvensiyaya qoşulubsa; və ya

c. Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyasının ("UNCITRAL") Arbitraj Qaydalarına müvafiq olaraq təsis edilən "ad hoc" arbitraj məhkəməsinə. Mübahisə tərəfləri bu Qaydaların dəyişdirilməsi üçün yazılı şəkildə razılığa gələ bilərlər.

3. Əgər mübahisə 2-ci bəndin a) - c) altbəndlərində göstərilmiş məhkəmələrdən birinə verilərsə, sərmayəçi mübahisənin tənzimlənməsi üçün 2-ci bəndin a) - c) altbəndlərində göstərilmiş digər vasitələrdən istifadə edə bilməz.

4. Sərmayəçi mübahisəni 1-ci bənddə müəyyən edildiyi kimi, 2-ci bəndə uyğun olaraq arbitraja o vaxt verə bilər ki, pozuntunu, itki və ya zərəri aşkar etdiyi və ya aşkar etməli olduğu vaxtdan üç ildən artıq vaxt keçməmiş olsun.

5. Məhkəmənin qərarı mübahisə tərəfləri üçün yekun və icbari olacaqdır və ərazisində sərmayə qoyulmuş və qərar aid olan Razılığa gələn Tərəfin qanunvericiliyinə uyğun qaydada qərarda göstərilən tarixə qədər icra ediləcəkdir.

Maddə 9

Razılığa gələn Tərəflər arasında mübahisələrin həll edilməsi

1. Razılığa gələn Tərəflər arasında bu Sazişin təfsiri və ya tətbiqi ilə bağlı mübahisələr, əgər mümkündürsə, məsləhətləşmələr və danışıqlar vasitəsilə həll olunacaqdır.

2. Əgər mübahisə altı ay ərzində bu yolla həll edilə bilməzsə, o, Razılığa gələn Tərəflərdən hər hansı birinin müraciəti əsasında bu maddənin müddəalarına uyğun olaraq üç üzvdən ibarət Arbitraj Məhkəməsinə təqdim olunacaqdır.

3. Arbitraj Məhkəməsi hər bir fərdi iş üçün aşağıdakı qaydada təsis olunacaqdır. Arbitraj haqqında müraciətin alındığı tarixdən etibarən iki ay ərzində Razılığa gələn hər bir

Tərəf Məhkəmənin bir üzvünü təyin edəcəkdir. Sonra bu iki üzv Məhkəmənin Sədri (bundan sonra "Sədr" adlandırılacaq) kimi təyin olunacaq üçüncü dövlətin vətəndaşını seçəcəkdir. Sədr digər iki üzvün təyin olunduğu tarixdən sonra üç ay ərzində təyin olunacaqdır.

4. Əgər bu maddənin 3-cü bəndində göstərilmiş müddət ərzində zəruri təyinatlar həyata keçirilməzsə, Beynəlxalq Məhkəmənin Sədrinə zəruri təyinatların həyata keçirilməsi üçün müraciət edilə bilər. Əgər Sədr Razılığa gələn Tərəflərdən hər hansı birinin vətəndaşıdırsa və ya hər hansı səbəbdən göstərilən funksiyanı yerinə yetirə bilmirsə, o halda Sədr müavininə bu təyinatları həyata keçirmək üçün müraciət ediləcəkdir. Əgər Sədr müavini Razılığa gələn Tərəflərdən hər hansı birinin vətəndaşıdırsa və ya hər hansı səbəbdən göstərilən funksiyanı yerinə yetirə bilmirsə, bu cür təyinatları həmin Məhkəmənin rütbəcə növbəti üzvü həyata keçirəcəkdir.

5. Arbitraj Məhkəməsi öz qərarlarını səs çoxluğu ilə qəbul edəcəkdir.

6. Arbitraj Məhkəməsi öz qərarlarını qanunvericiliyə, bu Sazişin müddəalarına, habelə beynəlxalq hüququn ümumi qəbul edilmiş prinsiplərinə hörmət əsasında qəbul edəcəkdir.

7. Razılığa gələn Tərəflər başqa qaydalar müəyyən etmədiyi hallarda, Arbitraj Məhkəməsi öz prosedur qaydalarını özü müəyyən edəcəkdir.

8. Razılığa gələn hər bir Tərəf özünün təyin etdiyi üzvün və özünün məhkəmə prosesində təmsil edilməsi xərclərini ödəyəcəkdir. Sədrin xərcləri və qalan xərclər Razılığa gələn Tərəflərlə bərabər hissədə ödəniləcəkdir. Məhkəmə xərclərlə bağlı başqa qaydalar müəyyən edə bilər.

9. Məhkəmənin qərarı Razılığa gələn Tərəflər üçün yekun və məcburi olacaqdır.

Maddə 10

Digər qaydaların tətbiq edilməsi və xüsusi öhdəliklər

Bu Sazişin heç bir müddəası Razılığa gələn Tərəflərin investorlarının Razılığa gələn Tərəflərin qoşulduğu mövcud və ya gələcəkdə mövcud olacaq hər hansı ikitərəfli və ya çoxtərəfli sazişin müəyyən etdiyi daha əlverişli şərtlərdən istifadə hüququnu məhdudlaşdırdığı kimi qəbul edilməyəcəkdir.

Maddə 11

Sazişin tətbiqi

Bu Saziş onun qüvvəyə minməsindən əvvəl, eləcə də sonra Razılığa gələn bir Tərəfin ərazisində onun qanunvericiliyinə uyğun olaraq Razılığa gələn digər Tərəfin sərmayəçilərinin qoyduğu sərmayələrə tətbiq ediləcəkdir, lakin Sazişin qüvvəyə minməsindən əvvəl sərmayələrlə bağlı yaranmış və ya həll edilmiş mübahisələrə tətbiq edilməyəcəkdir.

Maddə 12

Məsləhətləşmələr

Razılığa gələn Tərəflərdən birinin xahişi əsasında Razılığa gələn digər Tərəf bu Sazişin təfsir və ya tətbiq edilməsi ilə bağlı məsləhətləşmələrin keçirilməsinə öz razılığını verir. Razılığa gələn hər hansı Tərəfin xahişi əsasında bu Sazişlə əhatə olunan sərmayələ-

rə təsir göstərə biləcək Razılığa gələn digər Tərəfin müəyyən etdiyi qanunlar, qaydalar, qərarlar, inzibati təcrübə və prosedurlar barədə məlumatın mübadiləsi təşkil ediləcəkdir.

Maddə 13

Ümumi istisnalar

1. Bu Sazişin heç bir müddəası Razılığa gələn Tərəfin aşağıdakı kimi təhlükəsizlik məqsədləri üçün müvafiq tədbirlər görməsinin qarşısını aldığı kimi şərh edilməyəcəkdir:

a. maliyyə institutlarının maliyyə məsuliyyətinin təhlükəsizliyi və bütövlüyünün qorunması; və

b. Razılığa gələn Tərəfin maliyyə sisteminin bütövlüyü və sabitliyinin təmin edilməsi.

2. (a) Bu Sazişin heç bir müddəası, Razılığa gələn Tərəfin tədiyə balansında ciddi çətinliklərlə üzləşdiyi və ya belə təhlükənin mövcud olduğu halda Razılığa gələn həmin Tərəfin köçürmələrin məhdudlaşdırılması ilə bağlı tədbirlər görməsinin qarşısını aldığı kimi şərh edilməyəcəkdir və bu məhdudlaşdırıcı tədbirlər "b" bəndinə müvafiq olacaqdır.

(b) "a" bəndində göstərilən tədbirlər ədalətli olacaq, zor gücünə və ya ayrı-seçkili olmayacaqdır, qısamüddətli olacaq və tədiyə balansı ilə bağlı yaranmış vəziyyətin aradan qaldırılması üçün zəruri olan hüdudlardan kənara çıxmayacaqdır. Bu maddə əsasında həmin tədbirləri görən Razılığa gələn Tərəf Razılığa gələn digər Tərəfi dərhal məlumatlandıracaqdır və mümkün olan kimi həmin tədbirlərin görülməsinin dayandırılması ilə bağlı vaxt cədvəlini təqdim edəcəkdir. Belə tədbirlərin görülməsi Razılığa gələn müvafiq Tərəfin digər beynəlxalq öhdəliklərinə, o cümlədən ÜTT Sazişi və Beynəlxalq Valyuta Fondunun Sazişi əsasında öhdəliklərinə uyğun olacaqdır.

3. Bu Sazişin heç bir müddəası:

a. Razılığa gələn Tərəfin onun başlıca təhlükəsizlik maraqlarının mübadiləsi üçün lazım bildiyi hər hansı tədbirlərin həyata keçirilməsinin qarşısını alan kimi şərh edilməyəcəkdir:

i. silah, hərbi sursat, qurğuların satışı, hərbi və digər təhlükəsizlik qurumun birbaşa və ya dolayısı təmin edilməsi üçün digər mallar, materiallar, xidmətlər və texnologiyaların satışı və sövdələşmələrlə əlaqədar olaraq görülən tədbirlər;

ii. müharibə və beynəlxalq əlaqələrdə digər fövqəladə vəziyyətdə görülən tədbirlər;

iii. nüvə silahlarının və digər nüvə partlayıcı qurğularının yayılmasının qarşısının alınması ilə bağlı milli siyasətin və ya beynəlxalq müqavilələrin icrası ilə bağlı tədbirlər; və ya

b. Razılığa gələn Tərəfin beynəlxalq sülhün və təhlükəsizliyin qorunması haqqında Birləşmiş Millətlər Təşkilatının Xartiyası əsasında öhdəliklərin gözlənilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsinin qarşısını alan kimi şərh edilməyəcəkdir.

4. Razılığa gələn Tərəf bu Sazişin şərtlərini Razılığa gələn digər Tərəfin sərmayəçisinə, yəni Razılığa gələn belə Tərəfin müəssisəsinə və belə sərmayəçilərin sərmayələrinə münasibətdə tətbiq etməkdən imtina edə bilər, əgər bu müəssisəyə sahiblik və ya nəzarət Razılığa gələn Tərəf olmayan tərəfin sərmayəçilərinə mənsubdursa və əgər müəssisə qanunvericiliyinə uyğun olaraq təsis edilmiş Razılığa gələn Tərəfin ərazisində əhəmiyyətli işgüzar fəaliyyət həyata keçirmirsə.

5. Razılığa gələn Tərəf bu Sazişin şərtlərini Razılığa gələn digər Tərəfin sərmayəçisinə, yəni Razılığa gələn belə Tərəfin sərmayəsinə və belə sərmayəçinin sərmayələrinə münasibətdə tətbiq etməkdən imtina edə bilər, əgər bu sərmayəyə sahiblik və ya nəzarət Razılığa gələn Tərəf olmayan tərəfin sərmayəçilərinə mənsubdursa və əgər imtina edən Razılığa gələn Tərəf, Razılığa gələn Tərəf olmayan tərəfə münasibətdə elə tədbirlər həyata keçirir ki, bu tədbirlər investisiya ilə bağlı əməliyyatların həyata keçirilməsini qadağan edir və ya bu Sazişin şərtləri sərmayəçilərin sərmayələrinə tətbiq edildikdə həmin tədbirlər pozulmuş olur.

6. Razılığa gələn Tərəfin bu Sazişdə qeyd edilən bütün tədbirləri onun Avropa İttifaqına üzvlüyündən irəli gələrək, Razılığa gələn həmin Tərəfin ərazisində Avropa İttifaqının qanunvericiliyinə müvafiq olaraq tətbiq edilən tədbirləri daxil edəcəkdir.

"Tədiyyə balansında ciddi çətinliklər və ya belə təhlükənin mövcudluğu" ilə bağlı məqamlara, həmçinin Razılığa gələn Tərəfin üzv olduğu iqtisadi və ya valyuta birliyində tədiyyə balansında ciddi çətinliklər və ya belə təhlükə daxildir.

7. Razılığa gələn Tərəfin başlıca təhlükəsizlik maraqlarına onun gömrük, iqtisadi və ya valyuta birliyində, ümumi bazarda və ya sərbəst ticarət zonasında üzvlüyündən irəli gələn maraqları və tədbirləri daxildir.

8. Maddə 8-ə müvafiq olaraq mübahisələrin həlli rejim, üstünlük və ya imtiyaz kimi qəbul edilməyəcəkdir.

Maddə 14

Yekun şərtlər, qüvvəyə minmə, qüvvədə olma, xitam verilmə və düzəlişlər

1. Bu Saziş Avropa İttifaqında üzvlükdən irəli gələn öhdəliklər nəzərə alınmaqla və bu öhdəliklər çərçivəsində tətbiq ediləcəkdir. Beləliklə, bu Sazişin şərtləri Macarıstanın Avropa İttifaqının yaranmasına əsaslanan müqavilələrdən, eləcə də Avropa İttifaqının birinci və ya ikinci hüququndan irəli gələn öhdəliklərini ləğv edən və ya digər yolla onlara mənfi təsir edən kimi tətbiq edilə və ya şərh edilə bilməz.

2. Razılığa gələn Tərəflər bu Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedur tələblərinin yerinə yetirildiyi barədə bir-birini məlumatlandıracaqlar. Bu Saziş sonuncu bildirişin alındığı tarixdən altmış gün sonra qüvvəyə minəcəkdir.

3. Bu Saziş on il müddətində qüvvədə qalacaqdır və davam edən onillik dövrün bitməsinə ən azı bir il qalana qədər Razılığa gələn bir Tərəf Razılığa gələn digər Tərəfə yazılı şəkildə bu Sazişə xitam verilməsi barədə bildiriş göndərməyənə qədər, bundan sonra avtomatik olaraq növbəti onillik müddətlərə uzadılacaqdır.

4. Bu Sazişə xitam verilməsindən əvvəl qoyulmuş sərmayələrə münasibətdə bu Sazişin şərtləri xitam verilmə tarixindən on il müddətində qüvvədə qalacaqdır.

5. Bu Sazişə dəyişikliklər Razılığa gələn Tərəflərin yazılı razılaşması yolu ilə edilə bilər. Hər hansı dəyişiklik bu Sazişin tərkib hissəsi olacaq və bu Sazişin qüvvəyə minməsi üçün tələb edilən prosedura uyğun qüvvəyə minəcəkdir.

Bunun təsdiqi olaraq, bunun üçün lazımi səlahiyyətlər almış aşağıda imza edənlər bu Sazişi imzaladılar.

Bakı şəhərində 18 may 2007-ci il tarixində Azərbaycan, macar və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirdə fikir ayrılığı olduqda, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN	MACARISTAN RESPUBLİKASI ADINDAN
HEYDƏR BABAYEV	*GÖNTS KİNQA*
İqtisadi inkişaf naziri	*Xarici işlər naziri*

"Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası və Xorvatiyanın İqtisadiyyat Palatası arasında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası və Xorvatiyanın İqtisadiyyat Palatası arasında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Ticarət və Sənaye Palatasının prezidenti Süleyman Bayram oğlu Tatlıyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Ticarət və Sənaye Palatasının prezidenti Süleyman Bayram oğlu Tatlıyevə verilməsi barədə Xorvatiya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 oktyabr 2007-ci il

№2416

"Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu

Babayevə verilməsi barədə Xorvatiya Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 oktyabr 2007-ci il

№2417

"Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Xorvatiya Respublikasının İqtisadiyyat, Əmək və Sahibkarlıq Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və Xorvatiya Respublikası İqtisadiyyat, Əmək və Sahibkarlıq Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Xorvatiya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 oktyabr 2007-ci il

№2418

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası ilə Xorvatiya Respublikası Xarici İşlər və Avropaya İnteqrasiya Nazirliyinin Diplomatik Akademiyası arasında əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası ilə Xorvatiya Respublikası Xarici İşlər və Avropaya İnteqrasiya Nazirliyinin Diplomatik Akademiyası arasında əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasının rektoru Hafiz Mir Cəlal oğlu Paşayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasının rektoru Hafiz Mir Cəlal oğlu Paşayevə verilməsi barədə Xorvatiya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 oktyabr 2007-ci il

№2419

"Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında beynəlxalq avtomobil sərnişin və yük daşımaları haqqında Saziş"i və onun Protokolunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında beynəlxalq avtomobil sərnişin və yük daşımaları haqqında Saziş"i və onun Protokolunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədləri Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan, Respublikasının nəqliyyat naziri Ziya Ərzuman oğlu Məmmədova verilməsi barədə İsveçrə Federal Şurasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 oktyabr 2007-ci il

№2423

"Almaniya Federativ Respublikasının Ətraf Mühit, Təbiətin Mühafizəsi və Nüvə Təhlükəsizliyi üzrə Federal Nazirliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında təmiz inkişaf mexanizmi layihələrinin həyata keçirilməsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Almaniya Federativ Respublikasının Ətraf Mühit, Təbiətin Mühafizəsi və Nüvə Təhlükəsizliyi üzrə Federal Nazirliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında təmiz inkişaf mexanizmi layihələrinin həyata keçirilməsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Seyid oğlu Bağırova verilməsi barədə Almaniya Federativ Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 oktyabr 2007-ci il

№2424

Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri E. H. Araslının iqamətgahı Amman şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının İraq Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri Elman Həmid oğlu Araslı iqamətgahı Amman şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının İraq Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 oktyabr 2007-ci il

№2426

"Azərbaycan Respublikası Hökuməti və Bəhreyn Krallığı Hökuməti arasında hərbi əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Bəhreyn Krallığı Hökuməti arasında hərbi əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının müdafiə naziri Səfər Axundbala oğlu Əbiyevə verilməsi barədə Bəhreyn Krallığı Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 8 oktyabr 2007-ci il

№2430

"Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Ukraynanın Qiymətli Kağızlar və Fond Bazarı üzrə Dövlət Komissiyası arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Ukraynanın Qiymətli Kağızlar və Fond Bazarı üzrə Dövlət Komissiyası arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının

Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Gündüz Qəzənfər oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Gündüz Qəzənfər oğlu Məmmədova verilməsi barədə Ukrayna tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 oktyabr 2007-ci

№2439

2007-ci il sentyabrın 11-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Vergilər Nazirliyi və Çexiya Respublikası Maliyyə Nazirliyi arasında Vergi Administrasiyasının fəaliyyəti sahəsində əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il sentyabrın 11-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Vergilər Nazirliyi və Çexiya Respublikası Maliyyə Nazirliyi arasında Vergi Administrasiyasının fəaliyyəti sahəsində əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Vergilər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Çexiya Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 oktyabr 2007-ci il

№2440

Azərbaycan Respublikası Vergilər Nazirliyi və Çexiya Respublikası Maliyyə Nazirliyi arasında Vergi Administrasiyasının fəaliyyəti sahəsində əməkdaşlığa dair Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Vergilər Nazirliyi və Çexiya Respublikası Maliyyə Nazirliyi,

vergi orqanları arasında əməkdaşlığın genişlənməsinin Tərəflər üçün faydalı olacağına və hər iki ölkə arasında əlaqələrin güclənməsinə kömək edəcəyinə inanaraq,

vergitutmanın idarə olunması sahəsində ikitərəfli əməkdaşlığın əhəmiyyətini anlayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər xüsusilə vergi orqanlarının işinin təşkili və idarə olunması (menecment), vergi inzibatçılığı, informasiya texnologiyalarının tətbiqi, vergi işçilərinin treninqi, vergi ödəyiciləri ilə qarşılıqlı əlaqələr, tədris proqramlarının hazırlanması və həyata keçirilməsi sahələrində təcrübə mübadiləsi aparacaqlar.

Bu Sazişlə müəyyən edilən ikitərəfli əməkdaşlığın tərkib hissələrinin hazırlanması və təşkili üzrə məsələlər Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Çexiya Respublikası Maliyyə Nazirliyinin Mərkəzi Maliyyə və Vergi Direktorluğu tərəfindən həyata keçiriləcəkdir.

Maddə 2

İkitərəfli əməkdaşlıq seminarlar, fərdi görüşlər və ya Tərəflərin təyin etdiyi səlahiyyətli nümayəndələrin müəyyən etdiyi digər formalarda (bundan sonra "tədbirlər" adlanır) həyata keçiriləcəkdir.

Qeyd olunan tədbirlər Tərəflərin təyin edilmiş səlahiyyətli nümayəndələrinin qarşılıqlı razılığına əsasən Azərbaycan Respublikasında və ya Çexiya Respublikasında həyata keçiriləcəkdir.

Maddə 3

Hər bir Tərəf öz nümayəndələrinin tədbirlərdə iştirakı ilə bağlı bütün xərcləri öz üzərinə götürür.

Tərəflərin nümayəndələri dedikdə, Azərbaycan Respublikası Vergilər Nazirliyinin əməkdaşları və Çexiya Respublikası Maliyyə Nazirliyinin Mərkəzi Maliyyə və Vergi Direktorluğunun əməkdaşları başa düşülür.

Maddə 4

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və bu Sazişin 5-ci maddəsində nəzərdə tutulmuş qaydada qüvvəyə minən ayrıca Protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Bu Sazişin tətbiqi ilə bağlı yaranan mübahisələr Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 5

Bu Saziş Tərəflərin Dövlətlərinin zəruri dövlətdaxili prosedurların bitməsi haqqında bildirişlərindən sonuncusunun alındığı tarixdə qüvvəyə minir. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır. Bu Sazişin qüvvəsi Tərəflərdən birinin yazılı bildirişinə əsasən istənilən vaxt ləğv edilə bilər və bu halda Saziş Tərəflərdən birinin digərinə qüvvədən düşmə haqqında yazılı bildiriş təqdim etdiyi aydan sonrakı ayın ilk günündən etibarən qüvvədən düşmüş hesab edilir.

Bakı şəhərində 11 sentyabr 2007-ci il tarixində iki nüsxədə, hər biri Azərbaycan, çex və ingilis dillərində imzalanmışdır. Bütün mətnlər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ VERGİLƏR NAZİRLİYİ ADINDAN

FAZİL MƏMMƏDOV
Vergilər naziri

ÇEXİYA RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİ ADINDAN

YAN KNİJEK
Baş direktor

Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti arasında əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 dekabr tarixli 1873 nömrəli Sərəncamı ilə təsdiq edilmiş, 2006-cı il sentyabrın 29-da Havana şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Kuba Respublikası Hökuməti arasında əməkdaşlıq haqqında Saziş"in 6-cı maddəsinə əsasən iki ölkə arasındakı əlaqələrin daha da genişlənməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti arasında əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin:[1]

Komissiyanın həmsədri

Əbülfəs Qarayev - Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri

Komissiyanın üzvləri:

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini

Azər Bayramov - Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Gülməmməd Cavadov - Azərbaycan Respublikası sənaye və energetika nazirinin müavini

Teymur Mehdiyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini

Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini

Sənan Kərimov - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

İntiqam Babayev - Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

Aqşin Mehdiyev - Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəsi, eyni zamanda Kuba Respublikasında akkreditə olunmuş fövqəladə və səlahiyyətli səfiri

2. Bu Sərəncamın 1-ci bəndində göstərilən Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə tapşırılsın ki, Azərbaycan Respublikası və Kuba Respublikası arasında əməkdaşlığın tənzimlənməsi və əlaqələrin daha da genişləndirilməsi istiqamətində müvafiq tədbirləri həyata keçirsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 oktyabr 2007-ci il

№2444

Sərəncama edilmiş dəyişiklik və əlavələrin siyahısı

[1] 16 yanvar 2009-cu il tarixli 117 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ("Azərbaycan" qəzeti 17 yanvar 2009-cu il, № 12, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №01, maddə 17) ilə 1-ci bəndində "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Əbülfəs Qarayev - Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri" sözləri ilə, "İlham Ağayev - Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyinin müşaviri" sözləri "Aqşin Mehdiyev - Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəsi, eyni zamanda Kuba Respublikasında akkreditə olunmuş fövqəladə və səlahiyyətli səfiri" sözləri ilə əvəz edilmişdir, "Teymur Mehdiyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini" sözləri çıxarılmışdır və "Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini" sözlərindən sonra "Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini" sözləri əlavə edilmişdir.

Azərbaycan Respublikası Hökuməti və Hindistan Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 2212 nömrəli Sərəncamı ilə təsdiq edilmiş, 2007-ci il aprelin 11-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Hindistan Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya haqqında Saziş"in icrasını və iki ölkə arasındakı əlaqələrin daha da genişlənməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası Hökuməti və Hindistan Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:[1]

Komissiyanın həmsədri

Hüseynqulu Bağırov - Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri

Komissiyanın üzvləri:

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini

Tofiq Rəfiyev - Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini

Azər Bayramov - Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Gülməmməd Cavadov	- Azərbaycan Respublikası sənaye və energetika nazirinin müavini
Musa Pənahov	- Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini
Bəhram Əliyev	- Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini
Firdovsi Əliyev	- Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini
Teymur Mehdiyev	- Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini
Elmar Qasımov	- Azərbaycan Respublikası təhsil nazirinin müavini
Sənan Kərimov	- Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
İltimas Məmmədov	- Azərbaycan Respublikası rabitə və informasiya texnologiyaları nazirinin müavini
Səfər Mehdiyev	- Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini
Elşad Nəsirov	- Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti
Sabir İlyasov	- "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti
Vadim Xubanov	- Azərbaycan Respublikası Milli Bankının İdarə Heyəti sədrinin müavini
Tamerlan Qarayev	- Azərbaycan Respublikasının Hindistan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri

2. Bu Sərəncamın 1-ci bəndində göstərilən Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə tapşırılsın ki, Azərbaycan Respublikası və Hindistan Respublikası arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq əlaqələrinin tənzimlənməsi və daha da genişləndirilməsi istiqamətində müvafiq tədbirləri həyata keçirsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 oktyabr 2007-ci il

№2445

Sərəncama edilmiş dəyişiklik və əlavələrin siyahısı

[1] 16 yanvar 2009-cu il tarixli 117 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ("Azərbaycan" qəzeti 17 yanvar 2009-cu il, № 12, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №01, maddə 17) ilə 1-ci bəndində "Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri" sözləri "Hüseynqulu Bağırov - Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri" sözləri ilə, "Sabir İlyasov - "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktorunun birinci

müavini" sözləri "Sabir İlyasov - "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti" sözləri ilə əvəz edilmişdir, "Firdovsi Əliyev - Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini" sözləri çıxarılsın və "Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini" sözlərindən sonra "Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini" sözləri əlavə edilmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının tərkibində dəyişikliklər haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikası Milli Məclisinin aşağıdakı deputatları parlamentlərarası əlaqələr üzrə mövcud işçi qruplarının tərkibinə daxil edilsinlər:

2. Azərbaycan Respublikası Milli Məclisinin deputatı Vasif İzzət oğlu Əliyev Azərbaycan-Avstraliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun tərkibindən çıxarılaraq, Azərbaycan-Belarus parlamentlərarası əlaqələr üzrə işçi qrupunun tərkibinə, Milli Məclisin deputatı Rafiq Musa oğlu Məmmədhəsənov Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun tərkibindən çıxarılaraq, Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qrupunun tərkibinə daxil edilsinlər.

3. Azərbaycan Respublikası Milli Məclisinin deputatı Sabir Xudu oğlu Rüstəmxanlı Azərbaycan-İran parlamentlərarası əlaqələr üzrə işçi qrupunun tərkibindən çıxarılsın.

O.ƏSƏDOV

Azərbaycan Respublikası Milli Məclisinin Sədri

Bakı şəhəri, 19 oktyabr 2007-ci il

№434-IIIQR

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında Birgə Bəyannamənin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında 2007-ci il avqustun 7-də Astana şəhərində imzalanmış Birgə Bəyannamə təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 oktyabr 2007-ci il

№435-IIIQ

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında Birgə Bəyannamə

Bundan sonra "Tərəflər" adlandırılan Qazaxıstan Respublikası və Azərbaycan Respublikası,

Qazaxıstan Respublikası və Azərbaycan Respublikası arasında ənənəvi dostluq münasibətlərinin hərtərəfli inkişaf etdirilməsi əzmində olaraq,

Qazaxıstan və Azərbaycan arasında əməkdaşlığın Avrasiyada sülhün və stabilliyin möhkəmləndirilməsinə töhfə verəcəyini qeyd edərək,

24 may 2005-ci il tarixində imzalanmış "Qazaxıstan Respublikası və Azərbaycan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin əsaslı rolunu nəzərə alaraq,

ikitərəfli siyasi dialoqun və müxtəlif beynəlxalq və regional təşkilatlar çərçivəsində iki ölkə əməkdaşlığın əhəmiyyətini vurğulayaraq,

qarşılıqlı maraq kəsb edən mühüm və aktual beynəlxalq məsələlərdə eyni mövqedən çıxış edərək,

qlobal enerji təhlükəsizliyinin təmin edilməsində hər iki dövlətin mühüm rol oynadığını nəzərə alaraq,

hər iki dövlətin potensialına uyğun olaraq siyasi, ticarət-iqtisadi, humanitar və mədəni əlaqələrin möhkəmləndirilməsinin zəruriliyini qeyd edərək,

aşağıdakıları bəyan etdilər:

Tərəflər iki dost ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin dərinləşməsində müxtəlif səviyyələrdəki siyasi dialoqun və hökumətlər, parlamentlər və vətəndaş cəmiyyəti səviyyələrində mübadilənin genişləndirilməsinin mühüm əhəmiyyətini qeyd edirlər.

Tərəflər ikitərəfli əlaqələrin qanunun aliliyi, demokratiya, insan hüquqlarının müdafiəsi və bazar iqtisadiyyatı prinsipləri əsasında möhkəmləndirilməsində qətiyyətli olduqlarını vurğulayırlar.

Tərəflər iki ölkə arasında ticarət-iqtisadi, elmi-texniki, mədəni və humanitar əməkdaşlığın genişləndirilməsi səylərində qətiyyətlidirlər.

Tərəflər iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın fəaliyyətini ikitərəfli iqtisadi münasibətlərin inkişafının vacib əlaqələndirici mexanizmi və əldə edilmiş razılaşmaların həyata keçirilməsinin səmərəli üsulu kimi nəzərdən keçirirlər.

Tərəflər enerji və yüngül sənaye, həmçinin qeyri-neft sektorunun digər sahələrində hər iki ölkənin müəssisələrinin qarşılıqlı fayda əsasında əməkdaşlığının təşviq etdirilməsinə hazırdırlar.

Tərəflər Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin bir hissəsi olan Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin işə düşməsinin strateji əhəmiyyətini qeyd edərək, onun qlobal enerji təhlükəsizliyinə töhfə verəcəyinə, region ölkələrinin davamlı iqtisadi inkişafına xidmət edəcəyinə əminliklərini bildirirlər.

Tərəflər Şərq-Qərb nəqliyyat dəhlizinin uğurlu fəaliyyət göstərməsində, Xəzər dənizi vasitəsilə birgə nəqliyyat və enerji layihələrinin həyata keçirilməsində, Qazaxıstan mallarının Azərbaycan ərazisindən və Azərbaycan mallarının Qazaxıstan ərazisindən

müntəzəm tranzitində, sərmayələr üçün qarşılıqlı əlverişli şəraitin yaradılmasında qarşılıqlı fəaliyyətin zəruriliyini qeyd edirlər.

Tərəflər Avropa və Asiya arasında nəqliyyat-kommunikasiya əlaqələrinin inkişafı və yük daşımalarının genişləndirilməsini regional əməkdaşlığın prioritet məsələsi hesab edirlər.

Tərəflər BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini, habelə ATƏT-in Lissabon Sammitinin üç prinsipini tam dəstəkləyərək, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn ümumtanınmış prinsip və normaları, dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında sülh yolu ilə həll edilməsinin vacibliyini vurğulayırlar.

Tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində ATƏT çərçivəsində fəaliyyət göstərən Minsk qrupu tərəfindən təsirli və qətiyyətli addımların atılmasının vacibliyini qeyd edirlər.

Beynəlxalq terrorizm, ekstremizmin bütün növləri narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq, insan və qanunsuz silah alveri, kütləvi qırğın silahlarının yayılması kimi beynəlxalq təhlükəsizlik və sabitliyə təhlükə törədən ümumi təhdidləri pisləyir və onlara qarşı mübarizə sahəsində beynəlxalq səylərin artırılması zəruriliyindən çıxış edirlər.

Tərəflər BMT və onun ixtisaslaşmış strukturları, həmçinin müxtəlif beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlığı bundan sonra da davam etdirəcəklərini təsdiq edirlər və beynəlxalq münaqişələrin həllində BMT-nin rolunun gücləndirilməsinin vacibliyini vurğulayırlar.

Tərəflər Xəzər regionunun sülh, sabitlik, mehriban qonşuluq və əməkdaşlıq zonası olmasına hərtərəfli kömək edəcəklər.

Tərəflər Azərbaycan, Qazaxıstan və Rusiya arasında Xəzər dənizinin dibinin bölünməsi üzrə imzalanmış ikitərəfli və çoxtərəfli sazişlərin Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsinə fundamental töhfə olduğunu hesab edir və bu istiqamətdə birgə səylərin davam etdirilməsinə tərəfdar olduqlarını bildirirlər.

Tərəflər Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi üzrə aparılan işlər çərçivəsində konstruktiv dialoqun davam etdirilməsi zərurətini vurğulayırlar. Tərəflər Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri səviyyəsində xüsusi işçi qrupun fəaliyyətini müsbət qiymətləndirirlər.

Yüksək və ali səviyyəli görüşlərin müsbət və mühüm rol oynadığını məmnunluqla qeyd edərək, Tərəflər mövcud təcrübə çərçivəsində siyasi və iqtisadi məsləhətləşmələrin, regional və qlobal təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn dialoqların və qarşılıqlı maraq doğuran başqa məsələlər ətrafında fikir mübadiləsinin həyata keçirilməsinə gələcəkdə də dəstək verəcəklər.

Tərəflər bu Birgə Bəyannamənin Qazaxıstan Respublikası və Azərbaycan Respublikası arasındakı münasibətlərin intensivləşdirilməsinə və hərtərəfli genişlənməsinə təkan verəcəyinə əminliklərinin ifadə edirlər.

Astana, 7 avqust 2007-ci il.

"Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi haqqında" 1997-ci il 10 iyun tarixli Müqavilədə dəyişiklik edilməsi barədə" Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi haqqında" 1997-ci il 10 iyun tarixli Müqavilədə dəyişiklik edilməsi barədə" 2007-ci il avqustun 7-də Astana şəhərində imzalanmış Protokol təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 oktyabr 2007-ci il

№436-IIIQ

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi haqqında 10 iyun 1997-ci il tarixli Müqaviləyə dəyişiklik edilməsi barədə Protokol

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası və Qazaxıstan Respublikası,

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi haqqında 10 iyun 1997-ci il tarixli Müqaviləyə (bundan sonra - Müqavilə) aşağıdakı dəyişikliyi etməyə razılığa gəldilər:

1-ci maddənin 6-cı hissəsi aşağıdakı redaksiyada verilsin:

"6. "mərkəzi orqanlar" - azadlıqdan məhrum edilmiş məhkumların, Razılığa gələn Tərəflərin milli qanunvericiliyinə uyğun olaraq, cəza çəkmək üçün verilməsi haqqında qərar qəbul edən dövlət orqanlarıdır;".

Bu Protokol Müqavilənin 23-cü maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş qaydada qüvvəyə minir.

Bu Protokol Müqavilənin ayrılmaz hissəsidir.

Bu Protokol Astana şəhərində 7 avqust 2007-ci il tarixində iki əsl nüsxədə hər biri Azərbaycan, qazax və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Protokolun mətninin təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, Razılığa gələn Tərəflər rus dilində olan mətnə istinad edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

ZAKİR QARALOV
Baş prokuror

QAZAXISTAN RESPUBLİKASI ADINDAN

RƏŞİD TUSUPBEKOV
Baş prokuror

"Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında müdafiə sənayesi müəssisələrinin istehsalat və elmi-texniki sahələrdə kooperasiyası haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında müdafiə sənayesi müəssisələrinin istehsalat və elmi-texniki sahələrdə kooperasiyası haqqında" 2007-ci il avqustun 7-də Astana şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 oktyabr 2007-ci il

№ 437-IIIQ

Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında müdafiə sənayesi müəssisələrinin istehsalat və elmi-texniki sahələrdə kooperasiyası haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti,

Tərəflərin dövlətlərinin bundan sonra "təsərrüfat subyektləri" adlandırılacaq müdafiə sənayesi müəssisələri arasında iqtisadi, istehsalat və elmi-texniki əməkdaşlığa əlverişli şəraitin təmin edilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər təsərrüfat subyektləri arasında xüsusi təyinatlı məhsulların, avtomatika-telemexanika sistemlərinin və cihazqayırmanın işlənib hazırlanması, istehsalı, təmiri və modernləşdirilməsi sahələrində istehsalat və elmi-texniki kooperasiyası əlaqələrinin qarşılıqlı faydalılıq əsasında yaradılmasını, qorunmasını və inkişafını dəstəkləyəcəklər.

Tərəflər xüsusi təyinatlı məhsullar adı altında hərbi sursat, hərbi texnika, sənədlər, iş, xidmət, əqli fəaliyyətin nəticələri, o cümlədən onlara dair müstəsna hüquq (əqli mülkiyyət) və hərbi-texniki sahədə informasiya, informasiya mühafizəsinin texniki üsulları, həmçinin Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinə uyğun olaraq ixracı nəzarətdə saxlanılan istənilən hər hansı digər məhsulları başa düşürlər.

Maddə 2

Materialların, yarımfabrikatların, dəstləşdirici məmulatların, təlim və yardımçı əmlakın kooperasiyalı təchizatı, texnoloji və elmi-texniki xarakterli xidmətlər Azərbaycanın və Qazaxıstan təsərrüfat subyektləri arasında imzalanmış kontraktlar (müqavilələr) əsasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının qanunvericiliklərinə uyğun olaraq həyata keçirilir.

Maddə 3

Tərəflər kooperasiya vasitəsilə istehsal edilən məhsulların rentabelliyinin son hədlərinin yaxınlaşdırılması üzrə məsləhətləşmələr keçirir.

Maddə 4

Bu Sazişə uyğun olaraq qarşılıqlı təchiz olunan xüsusi təyinatlı məhsulların, avtomatika-telemexanika sistemlərinin və cihazqayırmanın, onlar haqqında elmi və texniki məlumatların, yardımçı əmlakın üçüncü tərəfə satışı və ötürülməsinə Tərəflərin qarşılıqlı razılığı əsasında icazə verilir.

Maddə 5

Tərəflər öz dövlətlərinin qanunvericiliklərinin tələblərinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrinə uyğun olaraq bu Saziş çərçivəsində əldə edilən məhdud buraxılışlı məlumatların mühafizəsinə dair öhdəlik götürürlər.

Maddə 6

Tərəflər əqli fəaliyyətin nəticələrinə dair hüquqların qarşılıqlı mühafizəsi və dövlət sirlərinin qorunması haqqında əlavə sazişlərin imzalanması vasitəsilə xüsusi təyinatlı məhsulların, avtomatika-telemexanika sistemlərinin və cihazqayırmanın işlənib hazırlanması, istehsalı, təmiri və modernləşdirilməsi sahələrində müəllif hüquqlarına və dövlət sirrinə riayət edəcəklər.

Maddə 7

Bu Sazişə uyğun olaraq məhsulların təchizatı ilə bağlı təsərrüfat subyektləri arasında yarana biləcək mübahisəli məsələlər Tərəflərin dövlətlərinin qanunvericiliklərində və kontraktlarda (müqavilələrdə) nəzərdə tutulmuş qaydada həll olunur.

Maddə 8

Bu Sazişin müddəalarının həyata keçirilməsində səlahiyyətli orqanlar aşağıdakılardır:

Azərbaycan tərəfindən - Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi;

Qazaxıstan tərəfindən - Qazaxıstan Respublikasının Sənaye və Ticarət Nazirliyi.

Tərəflərin dövlətlərinin səlahiyyətli orqanlarının rəsmi adlarının və ya funksiyalarının dəyişdirildiyi təqdirdə Tərəflər vaxtında diplomatik kanallar vasitəsilə məlumatlandırılacaqlar.

Maddə 9

Bu Sazişin müddəalarının tətbiqi və təfsiri ilə bağlı mübahisəli məsələlər Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcəkdir.

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan və bu Sazişin 10-cu maddəsinə uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 10

Bu Saziş qeyri-müəyyən müddətə imzalanır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları Tərəflərin yerinə yetirməsi haqqında sonuncu yazılı bildirişin

alındığı tarixdən qüvvəyə minir. Bu Saziş Tərəflərdən birinin onun qüvvəsinin dayandırılması niyyəti haqqında göndərdiyi yazılı bildirişin digər Tərəfdən alındığı tarixdən altı ay keçənə qədər qüvvədə qalır.

Bu Saziş Astana şəhərində 7 avqust 2007-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, qazax və rus dillərində olmaqla imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandıqda, Tərəflər rus dilində olan mətnə istinad edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	QAZAXISTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
HEYDƏR BABAYEV	*QALIM ORAZBAKOV*
İqtisadi inkişaf naziri	*Sənaye və ticarət naziri*

Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında Birgə Bəyannamənin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında 2007-ci il avqustun 13-də Bakı şəhərində imzalanmış Birgə Bəyannamə təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 oktyabr 2007-ci il

№438-IIIQ

Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında Birgə Bəyannamə

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası və Tacikistan Respublikası,

Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında ənənəvi dostluq münasibətlərinin hərtərəfli inkişaf etdirilməsi əzmində olaraq,

Azərbaycan və Tacikistan arasında əməkdaşlığın Avrasiyada sülhün və stabilliyin möhkəmləndirilməsinə töhfə verəcəyini qeyd edərək,

Düşənbə şəhərində 15 mart 2007-ci il tarixində imzalanmış "Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilə"nin iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsində başlıca rol oynadığını nəzərə alaraq,

beynəlxalq münasibətlərin hazırkı inkişafı kontekstində ikitərəfli siyasi dialoqun əhəmiyyətini vurğulayaraq,

qarşılıqlı maraq kəsb edən mühüm və aktual beynəlxalq məsələlərdə eyni mövqedən çı-

xış edərək,

iki dövlət arasında dostluq münasibətlərinin möhkəmlənməsinə hərtərəfli səylərini davam etdirərək,

regionda mövcud münaqişələrin sülh yolu ilə həll edilməsində qarşılıqlı səylərini birləşdirmək qətiyyətlərini ifadə edərək,

müxtəlif beynəlxalq və regional təşkilatlar çərçivəsində iki ölkə arasında əməkdaşlığın əhəmiyyətini vurğulayaraq,

enerji təhlükəsizliyinin təmin edilməsində hər iki dövlətin mühüm rol oynadığını nəzərə alaraq,

hər iki dövlətin potensialına uyğun olaraq Azərbaycan və Tacikistan arasında siyasi, iqtisadi, humanitar, mədəni və s. əlaqələrin daha da inkişaf etdirilməsinin zəruriliyini qeyd edərək,

aşağıdakıları bəyan etdilər:

Tərəflər iki dost ölkə arasında hərtərəfli münasibətlərin möhkəmləndirilməsində müxtəlif səviyyələrdəki siyasi dialoqun mühüm əhəmiyyətini qeyd edirlər. Onlar hökumətlər, parlamentlər və vətəndaş cəmiyyəti səviyyələrində mübadilənin genişləndirilməsini alqışlayırlar.

Tərəflər ikitərəfli əlaqələrin qanunun aliliyi, demokratiya, insan hüquqları və bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdirilməsində qətiyyətli olduqlarını vurğulayırlar.

Tərəflər iki ölkə arasında iqtisadi, elmi-texniki, mədəni, humanitar və s. sahələrdə əməkdaşlığın möhkəmləndirilməsi səylərində qətiyyətlidirlər.

Tərəflər qarşılıqlı fayda əsasında iki ölkənin müəssisələri arasında müxtəlif sahələrdə əməkdaşlığı təşviq edəcəklərinə razılaşdılar.

Tacikistan tərəfi Azərbaycan tərəfinin Tacikistan Respublikasında Azərbaycan Respublikasının Səfirliyinin açılması niyyətini alqışlayır və Azərbaycan tərəfinin bu addımının iki dost ölkə arasında qarşılıqlı faydalı əlaqələrin daha da möhkəmlənməsinə xidmət edəcəyinə əminliyini ifadə edir.

Tərəflər Şərq-Qərb nəqliyyat dəhlizinin uğurlu fəaliyyət göstərməsində, Xəzər dənizi vasitəsilə birgə nəqliyyat və enerji layihələrinin həyata keçirilməsində bu sahədə mövcud potensialdan istifadə etməklə, Azərbaycan və Tacikistan arasında daha sıx qarşılıqlı fəaliyyətin zəruriliyinə öz əminliklərini ifadə etdilər.

Tərəflər Avropa və Asiya arasında nəqliyyat-kommunikasiya əlaqələrinin inkişafı və yük daşımalarının genişləndirilməsini regional əməkdaşlığın prioritet məsələsi hesab edir və bununla əlaqədar olaraq yeni birbaşa birləşdirici dəmiryolu xətlərinin yaradılmasının vacibliyini qeyd edirlər.

Tərəflər beynəlxalq tamınmış sərhədlərin zorla dəyişdirilməsi məqsədilə güc tətbiq etmək və ya güc tətbiq etməklə hədələməyin yolverilməz və qəbuledilməz olmasına dair öz mövqelərini təsdiq edərək, təcavüz aktlarına, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə yönəlmiş hərəkətlərə qarşı beynəlxalq birliyin səylərinin birləşdirilməsinin

qlobal təhlükəsizliyin təmin edilməsində mühüm amil olduğunu bildirirlər.

Tərəflər Ermənistan-Azərbaycan münaqişəsinin nəticələrinin aradan qaldırılması, o cümlədən qaçqın və məcburi köçkün məsələsinin həlli məqsədilə regional və beynəlxalq səylərin artırılmasının zəruriliyini qeyd edirlər.

Tərəflər BMT-nin Təhlükəsizlik Şurasının və İslam Konfransı Təşkilatının müvafiq qətnamələrini, habelə ATƏT-in Lissabon Sammitinin üç prinsipini tam dəstəkləyərək, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı əsasında sülh yolu ilə həll edilməsinin vacibliyini qeyd edirlər.

Onlar bu münaqişənin tezliklə sülh yolu ilə həll edilməsi məqsədilə ATƏT-in Minsk Qrupu tərəfindən təsirli və qətiyyətli addımların atılmasının vacibliyini qeyd edirlər.

Beynəlxalq terrorizm, ekstremizmin bütün növləri və aqressiv separatizm, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq, insan və qanunsuz silah alveri, kütləvi qırğın silahlarının yayılması kimi beynəlxalq təhlükəsizlik və sabitliyə təhlükə törədən ümumi təhdidləri pisləyir və onlara qarşı mübarizədə beynəlxalq səylərin artırılması zəruriliyindən çıxış edirlər.

Tərəflər Müstəqil Dövlətlər Birliyi çərçivəsində qarşılıqlı əlaqələrin inkişaf etdirilməsində öz maraqlarını qeyd edir və ümid edir ki, 2007-ci ilin oktyabr ayında Düşənbə şəhərində keçiriləcək MDB dövlət başçıları Şurasının növbəti iclası bunun üçün lazımi təkan verəcəkdir.

Tərəflər Avro-Atlantika Tərəfdaşlıq Şurası və NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramı çərçivəsindəki əməkdaşlığın vacibliyini və regionda təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsində əhəmiyyətini qeyd edirlər.

Tərəflər yüksək səviyyəli görüşlərin iki ölkə arasında hərtərəfli əməkdaşlığın inkişafında müsbət və mühüm rol oynadığını məmnunluqla qeyd edirlər. Tərəflər mövcud təcrübə çərçivəsində dostluq əlaqələrinin dərinləşdirilməsi məqsədilə siyasi və iqtisadi məsləhətləşmələrin, regional və qlobal təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn dialoqların və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsinin həyata keçirilməsinə gələcəkdə də dəstək verəcəklər.

Tərəflər bu Birgə Bəyannamənin Azərbaycan və Tacikistan arasındakı ikitərəfli münasibətlərin intensivləşdirilməsinə və hərtərəfli inkişafına xidmət edəcəyinə əminliklərini ifadə edirlər.

Bakı şəhərində, 13 avqust 2007-ci il tarixində iki əsl nüsxədə, Azərbaycan, tacik və rus dillərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

İLHAM ƏLİYEV

TACİKİSTAN RESPUBLİKASI ADINDAN

EMOMƏLİ RƏHMON

"Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" 2007-ci il avqustun 13-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 oktyabr 2007-ci il

№439-IIIQ

Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş

Bundan sonra "Razılığa gələn Dövlətlər" adlandırılan Azərbaycan Respublikası və Tacikistan Respublikası hər iki Dövlət arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlığı inkişaf etdirmək və möhkəmləndirmək istəyindən çıxış edərək "gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması" haqqında bu Sazişi bağlamağı qərara almış və aşağıdakılar barədə razılığa gəlmişlər:

Maddə 1

Əhatə olunan şəxslər

Bu Saziş Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olan şəxslərə tətbiq edilir.

Maddə 2

Əhatə olunan vergilər

1. Bu Saziş, vergitutma üsulundan asılı olmayaraq, Razılığa gələn Dövlət və ya onun inzibati ərazi bölmələri və ya yerli-hakimiyyət orqanları tərəfindən gəlirlərə və əmlaka görə tutulan vergilərə tətbiq edilir.

2. Gəlirlərə (mənfəətə) və əmlaka görə vergilərə - gəlirin ümumi məbləğindən, əmlakın ümumi dəyərindən və ya gəlirin və ya əmlakın ayrı-ayrı elementlərindən tutulan bütün vergilər, o cümlədən, daşınar və ya daşınmaz əmlakın özgəninkiləşdirilməsindən gəlirlərdən vergilər, müəssisələr tərəfindən ödənilən əməkhaqqı və ya maaşların ümumi məbləğlərindən vergilər, həmçinin əmlakın dəyərinin artımından vergilər aiddir.

3. Sazişin tətbiq edildiyi hazırda mövcud vergilər konkret olaraq aşağıdakılardır:

a) Azərbaycan Respublikasında:

fiziki şəxslərin gəlir vergisi;

hüquqi şəxslərin mənfəət vergisi;

əmlak vergisi; və

torpaq vergisi

(bundan sonra "Azərbaycan vergiləri" adlanır);

b) Tacikistan Respublikasında:

fiziki şəxslərin gəlir vergisi;

fiziki şəxslərin gəlirlərindən (mənfəətindən) vergi;

daşınmaz əmlakdan vergi

(bundan sonra "Tacikistan vergiləri" adlanır).

4. Bu Saziş həmçinin onun imzalandığı tarixdən sonra mövcud vergilərə əlavə olaraq və ya onların əvəzinə tətbiq edilən istənilən oxşar və ya mahiyyətcə analoji vergilərə də tətbiq edilir. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları öz vergi qanunvericiliklərində baş verən hər bir əhəmiyyətli dəyişiklik barədə bir-birini xəbərdar edirlər.

Maddə 3

Ümumi anlayışlar

1. Kontekst başqa cür tələb etmirsə, bu Sazişin məqsədləri üçün:

a) "Azərbaycan" termini - Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektoru və Azərbaycan Respublikasının üzərindəki hava məkanı da daxil olmaqla, yerin təki, dənizin dibi və təbii sərvətlərə münasibətdə Azərbaycan Respublikasının suveren hüquqlarının və yurisdiksiyasının tətbiq edildiyi Azərbaycan Respublikası ərazisini, habelə, beynəlxalq hüquqa və Azərbaycan Respublikasının milli qanunvericiliyinə müvafiq olaraq müəyyən edilmiş və gələcəkdə müəyyən edilə bilən istənilən digər ərazini bildirir;

b) "Tacikistan" termini - Tacikistan Respublikasını bildirir və coğrafi mənada istifadə edildikdə Tacikistan Respublikasının beynəlxalq hüquq normalarına müvafiq qaydada və Tacikistan Respublikasının qanunvericiliyinin fəaliyyət göstərdiyi yerlərdə öz suveren hüquqları və yurisdıksiyasını, o cümlədən yerin təki və təbii resursların istifadəsi üzrə hüquqlarını tətbiq edə bildiyi ərazisi, daxili suları, onlar üzərindəki hava məkanını ehtiva edir;

c) "Razılığa gələn Dövlət" və "Razılığa gələn digər Dövlət" terminləri - kontekstdən asılı olaraq Azərbaycan Respublikasını və ya Tacikistan Respublikasını bildirir;

d) "şəxs" termini - fiziki şəxsi, şirkəti və şəxslərin hər hansı digər birliklərini bildirir;

e) "şirkət" termini - hər hansı korporativ qurumu və ya vergi məqsədləri üçün kor-

porativ qurum kimi baxılan hər hansı digər təşkilatı bildirir;

f) "Razılığa gələn Dövlətin müəssisəsi" və "Razılığa gələn digər Dövlətin müəssisəsi" terminləri - müvafiq olaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən idarə edilən müəssisəni və Razılığa gələn digər Dövlətin rezidenti tərəfindən idarə edilən müəssisəni bildirir;

g) "beynəlxalq daşıma" termini - Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən istismar edilən dəniz və ya hava gəmiləri vasitəsilə yerinə yetirilən istənilən daşımaları (dəniz və ya hava gəmisinin müstəsna olaraq Razılığa gələn digər Dövlətin məntəqələri arasında istismar edilməsi halları istisna olmaqla) bildirir;

h) "milli şəxs" termini:

Razılığa gələn Dövlətin vətəndaşı olan istənilən fiziki şəxsi;

özünün müvafiq statusunu Razılığa gələn Dövlətdə qüvvədə olan qanunvericiliyə müvafiq olaraq almış istənilən hüquqi şəxsi, tərəfdaşlığı və ya assosiasiyanı bildirir;

i) "səlahiyyətli orqan" termini:

Azərbaycan Respublikasında - Vergilər Nazirliyi və Maliyyə Nazirliyini;

Tacikistan Respublikasında - Maliyyə Nazirliyi və ya onun səlahiyyətli nümayəndəsini bildirir.

2. Razılığa gələn Dövlət tərəfindən bu Sazişin tətbiqi zamanı burada müəyyən edilməmiş hər hansı termin, kontekstdən başqa məna alınmırsa, bu Sazişin tətbiq edildiyi vergilərə münasibətdə həmin vaxt həmin Dövlətin qanunvericiliyində nəzərdə tutulmuş mənanı daşıyır, həmin Dövlətin tətbiq edilən vergi qanunvericiliyində nəzərdə tutulmuş hər hansı bir məna, həmin terminə həmin Dövlətin digər qanunlarına müvafiq olaraq verilən mənadan üstün tutulur.

Maddə 4

Rezident

1. Bu Sazişin məqsədləri üçün "Razılığa gələn Dövlətin rezidenti" termini həmin Dövlətin qanunvericiliyinə müvafiq olaraq daimi yaşayış yerinə, daimi olduğu yerə, qeydiyyat yerinə, idarəetmə yerinə və ya oxşar xarakterli digər meyara əsasən orada vergiyə cəlb edilə bilən hər hansı şəxsi bildirir, həmçinin, həmin Dövləti və onun hər hansı inzibati ərazi bölməsi və ya yerli hakimiyyət orqanlarını da əhatə edir. Bununla belə, bu termin, yalnız həmin Dövlətdəki mənbələrdən gəlirlərə və ya orada yerləşən əmlaka münasibətdə orada vergiyə cəlb edilə bilən hər hansı şəxsi əhatə etmir.

2. Əgər 1-ci bəndin müddəalarına müvafiq olaraq, fiziki şəxs Razılığa gələn Dövlətlərdən hər ikisinin rezidentidirsə, bu halda onun statusu aşağıdakı kimi müəyyən edilir:

a) o, yalnız daimi yaşayış yerinə malik olduğu Dövlətin rezidenti hesab edilir; əgər onun hər iki Dövlətdə daimi yaşayış yeri vardırsa, o, yalnız şəxsi və iqtisadi əlaqələrinin daha sıx olduğu (həyati mənafelərin mərkəzi) Dövlətin rezidenti hesab edilir;

b) əgər onun həyati mənafelərinin mərkəzinin yerləşdiyi Dövləti müəyyən etmək

mümkün deyildirsə və ya onun bu Dövlətlərdən heç birində daimi yaşayış yeri yoxdursa, bu halda o, yalnız adətən yaşadığı Dövlətin rezidenti hesab edilir;

c) əgər o, adətən hər iki Dövlətdə yaşayırsa və ya onlardan heç birində yaşamırsa, o yalnız milli şəxsi olduğu Dövlətin rezidenti hesab edilir;

d) əgər o, hər iki Dövlətin milli şəxsidirsə və ya onlardan heç birinin milli şəxsi deyildirsə, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları məsələni qarşılıqlı razılaşma yolu ilə həll edirlər.

3. Əgər 1-ci bəndin müddəalarına müvafiq olaraq, fiziki şəxs olmayan şəxs Razılığa gələn Dövlətlərdən hər ikisinin rezidentidirsə, bu halda o, yalnız faktiki idarəetmə yerinin yerləşdiyi Dövlətin rezidenti hesab edilir.

Maddə 5

Daimi nümayəndəlik

1. Bu Sazişin məqsədləri üçün "daimi nümayəndəlik" termini müəssisənin sahibkarlıq fəaliyyətinin tamamilə və ya qismən həyata keçirildiyi daimi fəaliyyət yerini bildirir.

2. "Daimi nümayəndəlik" termini xüsusilə aşağıdakıları əhatə edir:

a) idarəetmə yeri;

b) bölmə;

c) ofis;

d) fabrik;

e) emalatxana;

f) qurğu, tikili və ya gəmi, yaxud təbii ehtiyatların kəşfiyyatı üçün istifadə edilən hər hansı digər yer;

g) yataq, neft və ya qaz quyusu, karxana və ya təbii ehtiyatların hasil olunduğu hər hansı digər yer;

h) otlaqlar, kənd və meşə təsərrüfatı torpaqları.

3. "Daimi nümayəndəlik" terminə həmçinin aşağıdakılar aid edilir:

a) tikinti meydançası və ya tikinti, quraşdırma və ya yığma obyekti və ya bunlarla bağlı nəzarət və ya məsləhət fəaliyyəti - yalnız bu cür meydança, obyekt və ya fəaliyyət 6 (altı) aydan artıq davam etdikdə;

b) məsləhət xidmətləri də daxil olmaqla, müəssisə tərəfindən öz işçiləri və ya bu cür məqsədlər üçün cəlb edilmiş digər heyət vasitəsilə xidmətlərin göstərilməsi - yalnız bu xarakterli fəaliyyət (eyni və ya əlaqəli layihə üçün) istənilən 12 (on iki) aylıq dövr ərzində ümumilikdə 90 təqvim günündən artıq bir dövr və ya dövrlər ərzində davam etdikdə.

4. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, "daimi nümayəndəlik" terminə aşağıdakılar aid edilmir:

a) qurğulardan müəssisəyə məxsus olan malların və ya məmulatların müstəsna olaraq saxlanılması və ya nümayiş etdirilməsi məqsədi üçün istifadə edilməsi;

b) müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarının müstəsna olaraq saxlanılma və ya nümayiş etdirilmə məqsədi üçün saxlanılması;

c) müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarının müstəsna olaraq başqa müəssisə tərəfindən emal edilmək məqsədi üçün saxlanılması;

d) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq mal və ya məmulatların satın alınması və ya informasiya toplanılması məqsədi üçün saxlanılması;

e) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq müəssisə üçün hazırlıq və ya yardımçı xarakterli istənilən digər fəaliyyətin göstərilməsi məqsədi üçün saxlanılması;

f) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq (a) - (e) yarımbəndlərində sadalanmış fəaliyyət növlərinin istənilən kombinasiyası üçün saxlanılması - bir şərtlə ki, daimi sahibkarlıq fəaliyyəti yerinin bu kombinasiyanın nəticəsi olan məcmu fəaliyyəti hazırlıq və ya yardımçı xarakter daşısın.

5. 1-ci və 2-ci bəndlərin müddəalarından asılı olmayaraq, 6-cı bəndin tətbiq edildiyi müstəqil statuslu agentdən fərqli şəxs müəssisənin adından fəaliyyət göstərirsə və müəssisənin adından müqavilələr bağlamaq səlahiyyətlərinə malikdirsə və Razılığa gələn Dövlətdə adətən bu səlahiyyətlərdən istifadə edirsə, həmin müəssisə həmin şəxsin onun üçün həyata keçirdiyi hər hansı fəaliyyətə münasibətdə adı birinci çəkilən Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilir, bir şərtlə ki, həmin şəxsin fəaliyyəti 4-cü bənddə göstərilmiş fəaliyyətlə məhdudlaşmasın, belə ki, həmin fəaliyyət hətta daimi sahibkarlıq fəaliyyəti yeri vasitəsilə həyata keçirilsə belə, həmin bəndin müddəalarına əsasən bu cür daimi sahibkarlıq fəaliyyəti yerini daimi nümayəndəliyə çevirmir.

6. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin sığorta müəssisəsi, təkrar sığorta istisna olmaqla, Razılığa gələn digər Dövlətin ərazisində 7-ci bəndin tətbiq edildiyi müstəqil statuslu agentdən fərqli şəxs vasitəsilə sığorta mükafatları yığırsa və ya orada yerləşən riskləri sığorta edirsə, həmin digər Dövlətin ərazisində daimi nümayəndəliyə malik olan müəssisə hesab edilir.

7. Müəssisə Razılığa gələn Dövlətdə sadəcə olaraq broker, baş komisyon agenti və ya müstəqil statuslu hər hansı digər agent vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirdiyinə görə həmin Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilmir, bir şərtlə ki, bu cür şəxslər adi fəaliyyətləri çərçivəsində fəaliyyət göstərsinlər.

8. Razılığa gələn Dövlətin rezidenti olan şirkətin Razılığa gələn digər Dövlətin rezidenti olan və ya həmin digər Dövlətdə sahibkarlıq fəaliyyətini həyata keçirən (daimi nümayəndəlik vasitəsilə və ya başqa tərzdə) şirkətə nəzarət etməsi və ya onun nəzarətində olması faktı özlüyündə bu şirkətlərdən heç birini digərinin daimi nümayəndəliyinə çevirmir.

Maddə 6

Daşınmaz əmlakdan gəlir

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan əldə edilən gəlirlər (kənd və ya meşə təsərrüfatından gəlirlər də daxil olmaqla) həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. "Daşınmaz əmlak" termini həmin əmlakın yerləşdiyi Razılığa gələn Dövlətin qanunvericiliyinə əsasən malik olduğu mənam daşıyır. Bu termin istənilən halda, daşınmaz əmlaka münasibətdə yardımçı əmlakı, kənd və meşə təsərrüfatında istifadə edilən mal-qara və avadanlığı, torpaq mülkiyyəti barədə ümumi qanunvericiliyin müddəalarının tətbiq edildiyi hüquqları, daşınmaz əmlakın uzufrukturu və mineral ehtiyatların, mənbələrin və digər təbii resursların işlənməsi və ya işlənmə hüququ əvəzində ödənilən dəyişkən və ya təsbit olunmuş ödənişlərə olan hüquqları əhatə edir; dəniz və hava gəmiləri

daşınmaz əmlak hesab edilmir.

3. 1-ci bəndin müddəaları daşınmaz əmlakın birbaşa istifadəsindən, icarəyə verilməsindən və ya hər hansı digər formada istifadəsindən əldə edilən gəlirlərə tətbiq edilir.

4. 1-ci və 3-cü bəndlərin müddəaları, həmçinin, müəssisənin daşınmaz əmlakından gəlirlərə və müstəqil fərdi xidmətlərin göstərilməsi üçün istifadə edilən daşınmaz əmlakdan gəlirlərə də tətbiq edilir.

Maddə 7

Sahibkarlıq fəaliyyətindən mənfəət

1. Razılığa gələn Dövlətin müəssisəsinin mənfəəti yalnız həmin Dövlətdə vergiyə cəlb edilir, bir şərtlə ki, həmin müəssisə sahibkarlıq fəaliyyətini Razılığa gələn digər Dövlətdə, orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirməsin. Əgər müəssisə sahibkarlıq fəaliyyətini yuxarıda göstərilən tərzdə həyata keçirirsə, bu halda onun mənfəətinin yalnız:

a) həmin daimi nümayəndəliyə;

b) həmin digər Dövlətdə daimi nümayəndəlik vasitəsilə satılan mallarla (işlərlə, xidmətlərlə) eyni və ya onlara oxşar malların (işlərin, xidmətlərin) satışına; və ya

c) həmin digər Dövlətdə daimi nümayəndəlik vasitəsilə həyata keçirilən digər sahibkarlıq fəaliyyəti ilə eyni və ya ona oxşar sahibkarlıq fəaliyyətinə aid edilə bilən hissəsi həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. 3-cü bəndin müddəaları nəzərə alınmaqla, əgər Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirirsə, Razılığa gələn Dövlətlərin hər birində bu daimi nümayəndəliyin mənfəətinə, onun eyni və ya oxşar şəraitdə, eyni və ya oxşar fəaliyyətlə məşğul olan müstəqil və ayrıca müəssisə olduğu və daimi nümayəndəliyi olduğu müəssisədən tamamilə asılı olmadan fəaliyyət göstərdiyi halda əldə edə biləcəyi mənfəət aid edilir.

3. Daimi nümayəndəliyin mənfəəti müəyyən edilərkən, daimi nümayəndəliyin yerləşdiyi Razılığa gələn Dövlətdə və ya hər hansı digər yerdə çəkilməsindən asılı olmayaraq, daimi nümayəndəliyin məqsədləri üçün çəkilmiş xərclərin, o cümlədən idarəetmə və ümumi inzibati xərclərin çıxılmasına yol verilir.

4. Əgər Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə aid olan mənfəət adətən müəssi-

sənin ümumi mənfəətinin onun ayrı-ayrı hissələri arasında bölüşdürülməsi əsasında müəyyən edilirsə, bu maddənin 2-ci bəndinin müddəaları, vergiyə cəlb edilməli olan mənfəətin bu cür bölgü vasitəsilə müəyyənləşdirilməsində Razılığa gələn Dövlətə heç bir mancə yaratmır; bununla belə, tətbiq edilən bölgü metodu elə olmalıdır ki, nəticə bu maddədə nəzərdə tutulan prinsiplərə müvafiq olsun.

5. Daimi nümayəndəlik tərəfindən sadəcə olaraq öz müəssisəsi üçün mal və ya məmulat alınmasına görə həmin daimi nümayəndəliyə heç bir mənfəət aid edilmir.

6. Əvvəlki bəndlərin məqsədləri üçün, daimi nümayəndəliyə aid edilə bilən mənfəət hər il eyni metodla müəyyən edilir, bir şərtlə ki, bunun əksi üçün tutarlı və kifayət qədər əsaslı səbəb olmasın.

7. Əgər mənfəətə barəsində bu Sazişin digər maddələrində ayrıca söhbət açılan gəlir növləri daxildirsə, bu halda bu maddənin müddəaları həmin maddələrin müddəalarına təsir göstərmir.

Maddə 8

Beynəlxalq daşımalar

1. Razılığa gələn Dövlətin müəssisəsinin dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarından mənfəəti yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2. Bu maddənin məqsədləri üçün, dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarından əldə olunan mənfəətə həmçinin:

a) dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda qeyri-müntəzəm olaraq, heyətsiz icarəyə verilməsindən; və

b) konteynerlərin (konteynerlərin daşınması üçün treylerlər və əlaqədar avadanlıq da daxil olmaqla) beynəlxalq daşımalarda istifadəsi, saxlanılması və ya icarəyə verilməsindən əldə edilən mənfəət də aiddir, bir şərtlə ki, bu fəaliyyət növləri dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarına münasibətdə tamamlayıcı və ya qeyri-müntəzəm xarakter daşısın.

3. 1-ci və 2-ci bəndlərin müddəaları həmçinin pulda ("rool"), birgə sahibkarlıq fəaliyyəti və ya nəqliyyat vasitələrinin istismarı ilə bağlı beynəlxalq təşkilatda iştirakdan mənfəətə də tətbiq edilir.

Maddə 9

Qarşılıqlı əlaqəli müəssisələr

1. Əgər:

a) Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, ona nəzarətdə və ya onun kapitalında birbaşa və ya dolayısı ilə iştirak edirsə, və ya

b) eyni şəxslər Razılığa gələn Dövlətin müəssisəsinin və Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, onlara nəzarətdə və ya onların kapitalında birbaşa və ya dolayısı ilə iştirak edirlərsə,
və hər iki halda bu müəssisələrin qarşılıqlı kommersiya və maliyyə münasibətlərində onlar arasında yaradılmış və ya müəyyən edilmiş şərtlər müstəqil müəssisələr arasında mövcud ola biləcək şərtlərdən fərqlidirsə, bu halda onlardan birinə hesablana biləcək, lakin bu şərtlər səbəbindən hesablanmamış hər hansı mənfəət, həmin müəssisənin mənfəətinə daxil edilə və müvafiq qaydada vergiyə cəlb edilə bilər.

2. Əgər Razılığa gələn Dövlət həmin Dövlətin müəssisəsinin mənfəətinə Razılığa gələn digər Dövlətin müəssisəsinin həmin digər Dövlətdə vergiyə cəlb edilmiş mənfəətini daxil edir və müvafiq qaydada vergiyə cəlb edirsə və bu tərzdə daxil edilmiş mənfəət, bu müəssisələr arasındakı münasibətlər müstəqil müəssisələr arasında ola biləcək münasibətlər olduğu halda adı birinci çəkilən Dövlətin müəssisəsinə hesablana biləcək mənfəətdirsə, bu halda həmin digər Dövlət orada bu mənfəətdən hesablanan verginin məbləğinə müvafiq düzəliş edir. Bu cür düzəlişin müəyyən edilməsində bu Sazişin digər müddəaları müvafiq qaydada nəzərə alınır və Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları zəruri olduqda bir-biri ilə məsləhətləşmələr aparırlar.

Maddə 10

Dividendlər

1. Razılığa gələn Dövlətin rezidenti olan şirkət tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən dividendlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür dividendlər həmçinin həmin dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilə bilər, lakin dividendlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi dividendlərin ümumi məbləğinin 10 faizindən artıq olmamalıdır.

Bu bənd, dividendlər ödənilən mənfəətə münasibətdə şirkətin vergiyə cəlb edilməsinə təsir etmir.

3. Bu maddədə istifadə edilən "dividendlər" termini səhmlərdən, təsisçilərin səhmlərindən və ya borc tələbləri olmayan, mənfəətdə iştirak hüququ verən digər hüquqlardan gəlirləri, o cümlədən gəlirləri bölüşdürən şirkətin rezident olduğu Dövlətin qanunvericiliyinə müvafiq olaraq, səhmlərdən gəlirlərin cəlb edildiyi eyni qaydada vergitutmaya cəlb edilən digər korporativ hüquqlardan əldə edilən gəlirləri bildirir.

4. 1-ci və 2-ci bəndlərin müddəaları, dividendlərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və dividendlərin ödənilməsi ilə bağlı olan holdinqin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

3. Əgər Razılığa gələn Dövlətin rezidenti olan şirkət Razılığa gələn digər Dövlətdən mənfəət və ya gəlir əldə edirsə, həmin digər Dövlət, hətta şirkət tərəfindən ödənilən dividendlər və ya onun bölüşdürülməmiş mənfəəti tamamilə və ya qismən həmin digər Dövlətdə yaranan mənfəət və ya gəlirdən ibarət olduğu halda belə, dividendlərin həmin

digər Dövlətin rezidentinə ödənildiyi və ya dividendlərin ödənilməsi ilə bağlı olan holdinqin həmin digər Dövlətdə yerləşən daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu hallar istisna edilməklə, nə şirkət tərəfindən ödənilən dividendlərə hər hansı vergi tətbiq edə, nə də şirkətin bölüşdürülməmiş mənfəətini şirkətin bölüşdürülməmiş mənfəəti üzrə vergiyə cəlb edə bilər.

Maddə 11

Faizlər

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür faizlər həmçinin onların yarandığı Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilə bilər, lakin faizlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi faizlərin ümumi məbləğinin 10 faizindən artıq olmamalıdır.

3. 2-ci bəndin müddəalarına baxmayaraq, Razılığa gələn bir Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin Hökuməti, onun inzibati ərazi bölməsi, yerli hakimiyyət orqanı, həmin digər Dövlətin Mərkəzi Bankı, yaxud tamamilə həmin digər Dövlətin Hökumətinə məxsus istənilən maliyyə institutu və oxşar institut tərəfindən əldə edilən və onların faktiki sahibliyində olan faizlər, həmin digər Dövlətin Hökuməti tərəfindən zəmanət verilmiş borclar üzrə ödənilən faizlər yarandıqları Razılığa gələn Dövlətdə vergidən azad edilir.

4. Bu maddədə istifadə edilən "faizlər" termini ipoteka təminatının olub-olmamasından və borcluların mənfəətində iştirak hüququ verib-verməməsindən asılı olmayaraq, istənilən növ borc tələblərindən gəlirləri və xüsusilə, hökumətin qiymətli kağızlarından gəlirləri və istiqrazlardan və ya borc öhdəliklərindən gəlirləri, o cümlədən bu cür qiymətli kağızlar, istiqrazlar və ya borc öhdəlikləri üzrə mükafatlar və uduşları bildirir. Gecikdirilmiş ödənişlərə görə cərimələr bu maddənin məqsədi üçün faizlər hesab edilmir.

5. 1-ci və 2-ci bəndlərin müddəaları, faizlərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, faizlərin yarandığı Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və faizlərin ödənilməsi ilə bağlı olan borc öhdəliyinin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

6. Faizlərin ödəyicisi Razılığa gələn Dövlətin rezidenti olduğu halda, faizlər həmin Dövlətdə yaranmış hesab edilir. Bununla belə, faizləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə və ya daimi bazaya sahib olduğu və faizlər ödənilən borcun bu cür daimi nümayəndəlik və ya daimi baza ilə bağlı yarandığı və bu faizlərin ödənilməsi üzrə xərclərin bu cür daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkildiyi halda, bu cür faizlər daimi nümayəndəliyin və ya daimi bazanın yerləşdiyi Dövlətdə yaranmış hesab edilir.

7. Əgər ödəyici və faktiki sahib arasında və ya onların hər ikisi ilə hər hansı digər şəxs

arasındakı xüsusi münasibətlər səbəbindən, borc tələbi ilə əlaqədar ödənilən faizlərin məbləği, bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla biləcək məbləğdən artıqdırsa, bu maddənin müddəaları yalnız adı sonuncu çəkilən məbləğə tətbiq edilir. Bu halda, ödənişlərin artıq hissəsi, bu Sazişin digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilir.

Maddə 12

Royaltilər

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən royaltilər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür royaltilər həmçinin onların yarandığı Razılığa gələn Dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilə bilər, lakin royaltilərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi royaltilərin ümumi məbləğinin 10 faizindən artıq olmamalıdır.

3. Bu maddədə istifadə olunan "royaltilər" termini hər hansı ədəbiyyat, incəsənət və ya elmi əsərlər, o cümlədən proqram təminatı, kinofilmlər və televiziya və ya radio yayımları üçün filmlər və ya yazılar üzrə müəlliflik hüquqlarının, hər hansı patent, ticarət markası, dizayn və ya model, plan, məxfi formula və ya prosesin istifadəsi və ya istifadə hüququ əvəzində və ya sənaye, kommersiya və ya elmi avadanlığın istifadəsi və ya istifadə hüququ əvəzində, yaxud sənaye, kommersiya və ya elmi təcrübəyə dair informasiya əvəzində alınan istənilən növ ödənişləri bildirir.

4. 1-ci və 2-ci bəndlərin müddəaları, royaltilərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, royaltilərin yarandığı Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və royaltilərin ödənilməsi ilə bağlı olan hüquq və ya əmlakın bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən aşılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Royaltilərin ödəyicisi Razılığa gələn Dövlətin rezidenti olduğu halda, royaltilər həmin Dövlətdə yaranmış hesab edilir. Bununla belə, royaltiləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə və ya daimi bazaya sahib olduğu və royaltiləri ödəmək öhdəliyinin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə bağlı yarandığı və bu royaltilərin ödənilməsi üzrə xərclərin bu cür daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkildiyi halda, bu cür royaltilər daimi nümayəndəliyin və ya daimi bazanın yerləşdiyi Dövlətdə yaranmış hesab edilir.

6. Əgər ödəyici və faktiki sahibi arasında və ya onların hər ikisi ilə hər hansı digər şəxs arasındakı xüsusi münasibətlər səbəbindən istifadə, hüquq və ya informasiya ilə əlaqədar ödənilən royaltilərin məbləği, bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla biləcək məbləğdən artıqdırsa, bu maddənin müddəaları yalnız adı sonuncu çəkilən məbləğə tətbiq edilir. Bu halda, ödənişlərin artıq hissəsi, bu Sazişin digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər

birinin qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilir.

Maddə 13

Əmlakın özgəninkiləşdirilməsindən gəlir

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən, 6-cı maddədə qeyd edilmiş və Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Razılığa gələn Dövlətin rezidentinin aktivləri əsasən bilavasitə və ya dolayısı ilə Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakla bağlı olan şirkətdəki səhmlərin və ya hüquqların özgəninkiləşdirilməsindən əldə etdiyi gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsini təşkil edən daşınar əmlakın və ya Razılığa gələn Dövlətin rezidentinin müstəqil fərdi xidmətlər göstərmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə sərəncamında olan daimi bazaya aid daşınar əmlakın özgəninkiləşdirilməsindən gəlirlər, bu cür daimi nümayəndəliyin (ayrılıqda və ya bütün müəssisə ilə birlikdə) və ya bu cür daimi bazanın özgəninkiləşdirilməsindən gəlirlər də daxil olmaqla həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

4. Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmilərinin və ya bu cür dəniz və ya hava gəmilərinin istismarı ilə bağlı olan daşınar əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər yalnız həmin Razılığa gələn Dövlətdə vergiyə cəlb edilir.

5. Bu maddənin 1-ci, 2-ci, 3-cü və 4-cü bəndlərində qeyd edilənlər istisna edilməklə, hər hansı əmlakın özgəninkiləşdirilməsindən gəlirlər, yalnız əmlakı özgəninkiləşdirən şəxsin rezident olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb edilir.

Maddə 14

Müstəqil fərdi xidmətlər

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən peşəkar xidmətlərdən və ya müstəqil xarakterli digər fəaliyyətlərdən əldə edilən gəlirlər, onun öz fəaliyyətini həyata keçirmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə müntəzəm istifadə etdiyi daimi bazaya sahib olduğu hallar istisna edilməklə, yalnız həmin Dövlətdə vergiyə cəlb edilir. Əgər o, bu cür daimi bazaya sahibdirsə, gəlirin yalnız həmin daimi bazaya aid edilə bilən hissəsi Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. "Peşəkar xidmətlər" terminində xüsusilə müstəqil elmi, ədəbi, artistlik, təhsil və ya tədris fəaliyyəti, o cümlədən həkimlərin, hüquqşünasların, mühəndislərin, memarların, stomatoloqların, mühasiblərin və auditorların müstəqil fəaliyyəti daxildir.

Maddə 15

Qeyri-müstəqil fərdi xidmətlər

1. 16-cı, 18-ci və 19-cu maddələrin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidenti tərəfindən muzdlu işlə bağlı əldə edilən maaş, əməkhaqqı və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir, bir şərtlə ki, muzdlu iş Razılığa

gələn digər Dövlətdə həyata keçirilməsin. Əgər muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilirsə, onunla bağlı orada əldə edilən bu cür mükafatlar həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. 1-ci bəndin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətdə həyata keçirilən muzdlu işlə bağlı əldə edilən mükafat yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb edilir, əgər:

a) resipient cari vergi ilində başlayan və ya başa çatan istənilən 12 (on iki) aylıq dövr ərzində ümumilikdə 183 (yüz səksən üç) gündən artıq olmayan bir dövr və ya dövrlər ərzində digər Dövlətdə qalırsa, və

b) mükafat digər Dövlətin rezidenti olmayan işəgötürən tərəfindən və ya onun adından ödənilirsə, və

c) mükafatların ödənilməsi üzrə xərclər işəgötürənin digər Dövlətdə sahib olduğu daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkilmirsə.

3. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmisinin göyərtəsində həyata keçirilən muzdlu işlə bağlı əldə edilən mükafatlar dəniz və ya hava gəmisini istismar edən müəssisənin rezident olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 16

Direktorların qonorarları

Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətin rezidenti olan şirkətin direktorlar şurasının və ya nəzarət şurasının, yaxud digər oxşar orqanının üzvü qismində əldə edilən qonorarlar və digər oxşar ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 17

İncəsənət işçiləri və idmançılar

1. 14-cü və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən teatr, kino, estrada, radio və ya televiziya artisti və ya musiqiçi qismində Razılığa gələn digər Dövlətdə həyata keçirilən incəsənət işçisi kimi və ya idmançı kimi fərdi fəaliyyətdən əldə edilən gəlir həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Əgər incəsənət işçisi və ya idmançının bu cür şəxs kimi fərdi fəaliyyəti ilə bağlı gəlir incəsənət işçisi və ya idmançının özünə deyil, digər şəxsə hesablanırsa, həmin gəlir, 7-ci, 14-cü və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, incəsənət işçisi və ya idmançının fəaliyyətinin həyata keçirildiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Bu maddənin 1-ci və 2-ci bəndlərinin müddəaları, Razılığa gələn digər Dövlətə gəliş tamamilə və ya qismən Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin və ya onların inzibati ərazi bölmələri və ya yerli hakimiyyət orqanlarının ictimai fondlarından maliyyələşdirildiyi halda, incəsənət işçisi və ya idmançının həmin Razılığa gələn Dövlətdə əldə etdiyi gəlirlərinə tətbiq edilmir. Bu halda həmin gəlir yalnız incəsənət işçisi

və ya idmançının rezident olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb edilir.

Maddə 18

Təqaüdlər

19-cu maddənin 2-ci bəndinin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidentinə keçmişdəki muzdlu işlə bağlı ödənilən təqaüdlər və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

Maddə 19

Dövlət qulluğu

1. a) Razılığa gələn Dövlət və ya onun inzibati-ərazi bölməsi və ya yerli hakimiyyət orqanı tərəfindən fiziki şəxsə, həmin Dövlətə və ya bölməyə, yaxud hakimiyyət orqanına göstərilən xidmətlərlə bağlı ödənilən, təqaüd olmayan maaş, əməkhaqqı və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

b) Bununla belə, əgər xidmətlər Razılığa gələn digər Dövlətdə göstərilirsə və fiziki şəxs həmin Dövlətin rezidentidirsə və o:

i) həmin Dövlətin milli şəxsidirsə; və ya

ii) yalnız qulluq göstərmək məqsədi üçün həmin Dövlətin rezidenti olmamışdırsa,

bu cür maaş, əməkhaqqı və digər oxşar mükafatlar yalnız Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilir.

2. a) Razılığa gələn Dövlət və ya onun inzibati ərazi bölməsi və ya yerli hakimiyyət orqanı tərəfindən və ya onlar tərəfindən yaradılmış fondlardan fiziki şəxsə, həmin Dövlətə və ya bölməyə, yaxud hakimiyyət orqanına göstərilən xidmətlərlə bağlı ödənilən təqaüdlər yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

b) Bununla belə, əgər fiziki şəxs Razılığa gələn digər Dövlətin rezidenti və milli şəxsidirsə, bu cür təqaüdlər yalnız həmin digər Dövlətdə vergiyə cəlb edilir.

3. 15-ci, 16-cı və 18-ci maddələrin müddəaları Razılığa gələn Dövlətin və ya onun inzibati ərazi bölməsinin və ya yerli hakimiyyət orqanının sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı göstərilən xidmətlərlə əlaqədar ödənilən maaş, əməkhaqqı və digər oxşar mükafatlara və təqaüdlərə tətbiq edilir.

Maddə 20

Tələbələr

Razılığa gələn Dövlətin rezidenti olan və ya Razılığa gələn digər Dövlətə gəlməzdən bilavasitə əvvəl adı birinci çəkilən Dövlətin rezidenti olmuş və həmin digər Dövlətdə yalnız təhsil və ya təlim almaq məqsədilə olan tələbələrin, aspirantların və ya stajçıların yaşamaq, təhsil və ya təlim almaq məqsədilə aldıqları ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilmir, bir şərtlə ki, bu cür ödənişlərin mənbəyi həmin digər Dövlətdən kənarda olsun.

Maddə 21

Digər gəlirlər

1. Razılığa gələn Dövlətin rezidentinin, barəsində əvvəlki maddələrdə söhbət açılmayan gəlir növləri, yaranma mənbəyindən asılı olmayaraq yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2. 1-ci bəndin müddəaları, 6-cı maddənin 2-ci bəndinə əsasən müəyyən edilmiş daşınmaz əmlakdan əldə olunan gəlirlərdən fərqli olan digər gəlirlərə, bu gəlirlərin resipienti Razılığa gələn Dövlətin rezidenti olmaqla sahibkarlıq fəaliyyətini Razılığa gələn digər Dövlətdə orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və gəlirin ödənilməsi ilə bağlı olan hüquq və ya əmlakın bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

Maddə 22

Əmlak

1. 6-cı maddədə müəyyən edilmiş, Razılığa gələn Dövlətin rezidentinin mülkiyyətində olan və Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakla ifadə olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyinin kommersiya əmlakının bir hissəsini təşkil edən daşınar əmlakla və ya Razılığa gələn Dövlətin rezidentinin müstəqil fərdi xidmətlər göstərmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə sərəncamında olan daimi bazaya aid daşınar əmlakla ifadə olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmiləri və ya bu cür dəniz və ya hava gəmilərinin istismarı ilə bağlı olan daşınar əmlakla təmsil olunmuş əmlak yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

4. Razılığa gələn Dövlətin rezidentinin bütün digər əmlak elementləri yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

Maddə 23

İkiqat vergitutmanın aradan qaldırılması

1. Əgər Azərbaycan Respublikasının rezidenti, bu Sazişin müddəalarına müvafiq olaraq Tacikistan Respublikasında vergiyə cəlb edilə bilən gəlir əldə edirsə və ya əmlaka sahibdirsə, həmin şəxs tərəfindən bu cür gəlirə və ya əmlaka görə Tacikistan Respublikasında ödənilmiş vergi məbləği, həmin şəxsdən həmin gəlir və ya əmlaka münasibətdə Azərbaycan Respublikasında hesablanan verginin məbləğindən çıxılmalıdır.

Bununla belə, çıxılan məbləğ Azərbaycan Respublikasının qanunvericiliyinə və vergitutma qaydalarına müvafiq olaraq bu cür gəlirə və ya əmlaka hesablanmış verginin məbləğindən artıq olmamalıdır.

2. Əgər Tacikistan Respublikasının rezidenti, bu Sazişin müddəalarına müvafiq olaraq

Azərbaycan Respublikasında vergiyə cəlb edilə bilən gəlir əldə edirsə və ya əmlaka sahibdirsə, Tacikistan Respublikası aşağıdakılara icazə verəcək:

- həmin rezidentin gəlir vergisindən Azərbaycan Respublikasında ödənilmiş vergi məbləğinin çıxılmasına;
- həmin rezidentin əmlak vergisindən Azərbaycan Respublikasında ödənilmiş əmlak vergisi məbləğlərinin çıxılmasına.

Bununla belə, çıxılan məbləğ Tacikistan Respublikasının qanunvericiliyinə müvafiq qaydada bu cür gəlirə və ya əmlaka hesablanmış vergi məbləğindən artıq olmamalıdır.

3. Əgər bu Sazişin müddəalarına müvafiq olaraq Razılığa gələn Dövlətin rezidenti tərəfindən əldə edilən gəlir və ya ona məxsus olan əmlak həmin Dövlətdə vergidən azaddırsa, həmin Dövlət buna baxmayaraq, bu cür rezidentin qalan gəlirinə və ya əmlakına vergi hesablayan zaman vergidən azad edilən gəliri və ya əmlakı nəzərə ala bilər.

Maddə 24

Ayrı-seçkiliyə yol verilməməsi

1. Razılığa gələn Dövlətin milli şəxsləri Razılığa gələn digər Dövlətdə həmin digər Dövlətin milli şəxslərinin eyni şəraitdə, o cümlədən rezidentliyə münasibətdə cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdəliklərə cəlb edilməməlidir. Bu müddəa, 1-ci maddənin müddəalarından asılı olmayaraq, həmçinin Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olmayan şəxslərə də tətbiq edilir.

2. Razılığa gələn Dövlətin rezidenti olan vətəndaşlığı olmayan şəxslər, Razılığa gələn Dövlətlərdən heç birində həmin Dövlətin milli şəxslərinin eyni şəraitdə, o cümlədən rezidentliyə münasibətdə cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdəliklərə cəlb edilməməlidir.

3. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyinin vergiyə cəlb edilməsi həmin digər Dövlətdə həmin digər Dövlətin eyni fəaliyyətlə məşğul olan müəssisələrinin vergiyə cəlb edilməsindən az əlverişli olmamalıdır. Bu müddəa, Razılığa gələn Dövlətin üzərinə onun, mülki status və ya ailə öhdəlikləri nəzərə alınmaqla öz rezidentlərinə verdiyi vergitutma məqsədləri üçün hər hansı şəxsi imtiyazların, güzəştlərin və çıxılmaların Razılığa gələn digər Dövlətin rezidentlərinə də verilməsi öhdəliyinin qoyulması kimi təfsir edilməməlidir.

4. 9-cu maddənin 1-ci bəndinin, 11-ci maddənin 7-ci bəndinin və ya 12-ci maddənin 6-cı bəndinin müddəalarının tətbiq edildiyi hallar istisna edilməklə, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər, royaltilər və digər ödənişlər, bu cür müəssisənin vergiyə cəlb edilməli olan mənfəətinin müəyyən edilməsi məqsədilə, adı birinci çəkilən Dövlətin rezidentinə ödənildiyi halda tətbiq olunan eyni şərtlər əsasında çıxılmalıdır. Eynilə, Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətin rezidentinə olan hər hansı bir borcu, həmin müəssisənin vergiyə cəlb edilməli olan kapitalının müəyyən edilməsi məqsədilə adı birinci çəkilən Dövlətin rezidentinə olan borc kimi eyni şərtlər əsasında çıxılmalıdır.

5. Razılığa gələn Dövlətin, əmlakı tamamilə və ya qismən Razılığa gələn digər Dövlətin rezidentinə və ya rezidentlərinə məxsus olan və ya onların birbaşa və ya dolayı nəzarəti altında olan müəssisəsi adı birinci çəkilən Dövlətdə həmin Dövlətin digər oxşar müəssisələrinin cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdəliklərə cəlb edilə bilməz.

6. Bu maddənin müddəaları, 2-ci maddənin müddəalarından asılı olmayaraq, istənilən növlü və xarakterli vergilərə tətbiq edilir.

Maddə 25

Qarşılıqlı razılaşma proseduru

1. Əgər hər hansı şəxs Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin hərəkətlərinin onun bu Sazişin müddəalarına uyğun olmayan tərzdə vergiyə cəlb edilməsinə gətirib çıxardığını və ya gətirib çıxara biləcəyini zənn edirsə, həmin şəxs, həmin Dövlətlərin daxili qanunvericiliklərində nəzərdə tutulmuş müdafiə vasitələrindən asılı olmayaraq, bu işlə bağlı rezident olduğu Dövlətin və ya bu hal 24-cü maddənin 1-ci bəndinin əhatə dairəsinə aiddirsə, milli şəxsi olduğu Razılığa gələn Dövlətin səlahiyyətli orqanlarına müraciət edə bilər. Müraciət, bu Sazişin müddəalarına uyğun olmayan vergitutmaya gətirib çıxaran hərəkətlər haqqında ilk məlumat tarixindən etibarən 3 il ərzində təqdim edilməlidir.

2. Əgər səlahiyyətli orqan etirazı əsaslandırılmış hesab edərək, eyni zamanda, qənaətbəxş qərara gələ bilmirsə, bu Sazişin müddəalarına uyğun olmayan vergitutmanın qarşısının alınması məqsədilə məsələni Razılığa gələn digər Dövlətin səlahiyyətli orqanı ilə qarşılıqlı razılıq yolu ilə həll etməyə səy göstərir. Əldə edilmiş hər hansı bir razılıq, Razılığa gələn Dövlətin daxili qanunvericiliyində nəzərdə tutulmuş hər hansı zaman məhdudiyyətlərindən asılı olmayaraq həyata keçirilməlidir.

3. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Sazişin təfsiri və ya tətbiqi ilə bağlı meydana çıxan bütün çətinlikləri və ya şübhələri qarşılıqlı razılıq yolu ilə həll etməyə səy göstərməlidirlər. Onlar həmçinin bu Sazişdə nəzərdə tutulmamış hallarda ikiqat vergitutmanın aradan qaldırılması üçün bir-biri ilə məsləhətləşmələr apara bilərlər.

4. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları, əvvəlki bəndlərin anlaşılmasında meydana çıxan məsələləri tənzimləmək məqsədilə birbaşa olaraq, o cümlədən onların özləri və ya nümayəndələrindən ibarət olan birgə komissiya vasitəsilə bir-biri ilə birbaşa əlaqələr yarada bilərlər.

Maddə 26

İnformasiya mübadiləsi

1. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Sazişin və ya Razılığa gələn Dövlətlərin, Razılığa gələn Dövlətlər və ya onların inzibati ərazi bölmələri və ya yerli hakimiyyət orqanları tərəfindən tutulan istənilən növlü və xarakterli vergilərlə bağlı daxili qanunvericiliklərinin müddəalarının yerinə yetirilməsi üçün zəruri olan informasiya mübadiləsi həyata keçirirlər, bu şərtlə ki, həmin qanunvericilikdə nəzərdə tutulmuş vergitutma bu Sazişə zidd olmasın. İnformasiya mübadiləsi 1-ci maddə ilə məhdudlaş-

mır. Razılığa gələn Dövlət tərəfindən əldə edilmiş hər hansı informasiya, həmin Dövlətin daxili qanunvericiliyi çərçivəsində əldə edilmiş informasiyaya tətbiq edilən eyni qayda əsasında məxfi hesab edilir və yalnız birinci cümlədə göstərilən vergilərin hesablanması və ya toplanması, məcburi alınması və ya məhkəmə qaydasında təqib edilməsi, yaxud həmin vergilərlə bağlı şikayətlərə baxılması ilə məşğul olan şəxslərə və ya orqanlara (o cümlədən məhkəmələrə və inzibati orqanlara) açıqlanır. Bu şəxslər və ya orqanlar həmin informasiyadan yalnız bu cür məqsədlər üçün istifadə edirlər. Onlar bu informasiyanı açıq məhkəmə istintaqı və ya məhkəmə qərarlarının qəbul edilməsi zamanı açıqlaya bilərlər.

2. Heç bir halda, 1-ci bəndin müddəaları Razılığa gələn Dövlətlərin üzərinə aşağıdakı öhdəliklərin qoyulması kimi şərh edilməməlidir:

a) Razılığa gələn bu və ya digər Dövlətin qanunvericiliyində və inzibati təcrübəsində nəzərdə tutulmuş tədbirlərdən fərqli olan inzibati tədbirlər həyata keçirmək;

b) Razılığa gələn bu və ya digər Dövlətin qanunvericiliyi və ya adi inzibatçılığı əsasında əldə edilməsi mümkün olmayan informasiya vermək;

c) hər hansı ticarət, sahibkarlıq, sənaye, kommersiya və ya peşə sirrini, yaxud ticarət prosesini açа biləcək informasiya və ya açılması dövlət siyasətinə zidd olan informasiya vermək.

Maddə 27

Diplomatik nümayəndəliklərin və konsulluq xidmətlərinin əməkdaşları

Bu Sazişin heç bir müddəası diplomatik nümayəndəliklərin və ya konsulluq xidmətlərinin əməkdaşlarının beynəlxalq hüququn ümumi normalarına və ya xüsusi sazişlərə əsasən müəyyən edilmiş vergi imtiyazlarına toxunmur.

Maddə 28

Dəyişikliklər və əlavələr

Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanlarının qarşılıqlı razılığı ilə bu Sazişə, onun tərkib hissələri hesab edilən və 29-cu maddənin müddəalarına müvafiq qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 29

Qüvvəyə minmə

1. Razılığa gələn Dövlətlər bir-birini bu Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə diplomatik kanallarla yazılı xəbərdar edirlər.

2. Bu Saziş yuxarıda qeyd edilmiş bildirişlərdən sonuncusunun alındığı tarixdən qüvvəyə minir və onun müddəaları Razılığa gələn hər iki Dövlətdə tətbiq edilir:

a) mənbədə tutulan vergilərə münasibətdə - Sazişin qüvvəyə mindiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində və ya ondan sonra ödənilən gəlirlərə;

b) digər gəlir vergilərinə və əmlak vergilərinə münasibətdə - Sazişin qüvvəyə mindiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində və ya ondan sonra başlanan hər hansı vergitutma dövrləri üzrə tutulan vergi məbləğlərinə.

Maddə 30

Qüvvədən düşmə

Bu Saziş qeyri-müəyyən müddətə bağlanır, lakin Razılığa gələn Dövlətlərdən hər biri onun qüvvəyə mindiyi tarixdən sonrakı beş illik dövr bitdikdən sonra hər hansı təqvim ilinin başa çatmasına ən azı altı ay qalmış, diplomatik kanallarla özünün bu Sazişin qüvvəsini ləğv etmək istəyi barədə yazılı bildiriş təqdim etməklə, onun qüvvəsini ləğv edə bilər.

Bu halda, bu Sazişin qüvvəsi ləğv edilir:

a) mənbədə tutulan vergilərə münasibətdə - bildirişin təqdim edildiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində və ya ondan sonra ödənilən gəlirlərə;

b) digər gəlir vergilərinə münasibətdə - bildirişin təqdim edildiyi ildən sonrakı təqvim ilinin 1 yanvar tarixində və ya ondan sonra başlanan hər hansı vergitutma dövrləri üzrə tutulan vergi məbləğlərinə.

Bunun təsdiqi olaraq, müvafiq qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Sazişi imzaladılar.

Bakı şəhərində 13 avqust 2007-ci il tarixində iki əsl nüsxədə Azərbaycan, tacik və rus dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, rus dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN	TACİKİSTAN RESPUBLİKASI ADINDAN
ELMAR MƏMMƏDYAROV	*SƏFƏRƏLİ NACMUDDİNOV*
Xarici işlər naziri	*Maliyyə naziri*

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında azad ticarət haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında azad ticarət haqqında" 2007-ci il avqustun 13-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 oktyabr 2007-ci il

№440-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında azad ticarət haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti,

qarşılıqlı ticari-iqtisadi əməkdaşlığın sərbəst inkişafına səy göstərərək,

dünya ticarətinin harmonik inkişafı və artımına, onun inkişafı yolunda maneələrin aradan qaldırılmasına yardım etmək qərarlarını ifadə edərək,

əmtəələrin və xidmətlərin sərbəst hərəkəti üzrə qarşılıqlı razılaşdırılmış fəaliyyətin əhəmiyyətini başa düşərək,

Razılığa gələn hər bir Tərəfin beynəlxalq hüququn ümumi qəbul olunmuş prinsip və normalarını rəhbər tutmaqla öz suveren hüquqlarına əsaslanaraq, müstəqil xarici iqtisadi siyasəti həyata keçirməsi arzusunda olaraq,

Tariflər və Ticarət üzrə Baş Sazişin (GATT/WTO) prinsiplərinin nəzərə alınması ilə ticari-iqtisadi sahədə ikitərəfli qarşılıqlı əlaqələrin inkişafının zəruriliyini təsdiq edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Gömrük rüsumları, vergilər və yığımlar

Razılığa gələn Tərəflər Razılığa gələn bir Tərəfin dövlətinin gömrük ərazisindən gələn və Razılığa gələn digər Tərəfin dövlətinin gömrük ərazisi üçün nəzərdə tutulan malların ixracına və/və ya idxalına ekvivalent təsir göstərən gömrük rüsumları, vergiləri və sair yığımları, həmçinin kəmiyyət məhdudiyyətlərini tətbiq etmirlər. Bu sərbəst ticarət rejimindən istisnalar bu Sazişin tərkib hissəsi sayılan protokollarla rəsmiləşdirilir.

Maddə 2

Daxili vergilər

1. Razılığa gələn Tərəflərdən heç biri Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində istehsal olunmuş malları daxildə və ya üçüncü ölkədə istehsal olunmuş və Razılığa gələn Tərəflərin dövlətlərinin gömrük ərazisinə idxal edilmiş analoji/bənzər mallara tətbiq edilən vergi və yığımlardan yüksək olan daxili vergi və yığımlara bilavasitə və ya bilavasitə cəlb etməyəcəkdir.

2. Razılığa gələn Tərəflərdən heç biri Razılığa gələn digər Tərəfin dövlətinin ərazisindən gələn malların anbara yığılmasına, yüklənməsinə, saxlanmasına, daşınmasına, həmçinin onlar üçün hesablaşmalara və köçürmələrə analoji halda öz mallarına və ya mənşəcə üçüncü ölkədən olan mallara tətbiq olunanlardan fərqli qaydalar tətbiq etməyəcəkdir.

Maddə 3

Malın mənşəyinin müəyyən edilməsi

Bu Sazişin məqsədləri üçün və onun qüvvədə olduğu dövrdə Razılığa gələn Tərəflərin dövlətlərinin ərazisində istehsal olunmuş malların mənşəyinin müəyyənləşdirilməsi

üçün MDB Hökumət Başçıları Şurasının 30 noyabr 2000-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Malın mənşə Ölkəsinin müəyyənləşdirilməsi Qaydaları"nı, həmçinin ona əlavələri və dəyişiklikləri rəhbər tutacaqlar.

Maddə 4

Tarif və qeyri-tarif tənzimləmə

1. Razılığa gələn Tərəflər qarşılıqlı ticarətdə bu Saziş çərçivəsində malların ixracına və idxalına ayrı-seçkilik tədbirlərinin, kəmiyyət məhdudlaşdırmalarının və ekvivalent tədbirlərin tətbiqindən imtina edirlər.

2. Razılığa gələn Tərəflər birtərəfli qaydada kəmiyyət və xüsusi məhdudiyyətləri, məqbul çərçivədə və qəti müəyyən olunmuş şəkildə və yalnız aşağıdakı hallarda tətbiq edə bilərlər:

a) daxili bazarda bu malın kəskin defisiti zamanı, və ya

b) tədiyyə balansının stabilləşdirilməsinədək, və ya

c) Razılığa gələn Tərəflərdən birinin digərinə idxalının böyük həcmi və ya şərti daxili bazarda eyni və ya birbaşa bu mal ilə rəqabət aparan malın istehsalçısına zərər vurursa və ya təhlükə yaradırsa, və ya

d) reeksport əməliyyatlarını tənzimləyən müddəalar ilə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi məqsədilə.

Bu məhdudiyyətlər müstəsna xarakter daşımalıdır və yalnız GATT/WTO Sazişi çərçivəsində nəzərdə tutulmuş hallarda tətbiq oluna bilər.

3. Bu maddəyə müvafiq olaraq kəmiyyət və xüsusi məhdudlaşdırmanı tətbiq edən Razılığa gələn Tərəf bu tədbirin tətbiqindən 30 gün əvvəl bu məhdudiyyətlərin səbəbi, forması və ehtimal olunan müddəti barədə Razılığa gələn digər Tərəfə ətraflı elmi əsaslandırılmış məlumatı təqdim etməlidir.

Maddə 5

Texniki və digər xüsusi tələblər

1. Razılığa gələn Tərəflər qüvvədə olan dövlət standartlaşdırma, vahid ölçü və sertifikatlaşdırma sistemlərini qarşılıqlı olaraq tanıyırlar.

2. Razılığa gələn Tərəflərdən biri Razılığa gələn digər Tərəfin dövlətinin gömrük ərazisindən gətirilən və onun ərazisinə idxal olunan mallara münasibətdə, texniki tələblər və keyfiyyət tələbləri baxımından, daxildə istehsal olunmuş və ya hər hansı bir üçüncü ölkənin mallarına tətbiq olunan rejimdən daha az əlverişli rejim tətbiq etməyəcəkdir.

3. Razılığa gələn Tərəflər qarşılıqlı ticarətdə texniki maneələrin və digər məhdudiyyətlərin aradan qaldırılması məqsədilə texniki və digər xüsusi tələblərin harmonizasiyasını, həmçinin bu sahədə öz siyasətlərinin beynəlxalq hüquq normaları əsasında həyata keçirilməsini təmin edəcəklər.

4. Razılığa gələn Tərəflər qarşılıqlı ticarətdə texniki maneələrin və digər xüsusi tələblərin (məhdudiyyətlərin) qarşısını almaq məqsədilə standartlaşdırma, metrologiya, kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi və sertifikasiya sahələrində əməkdaşlıq edəcəklər və informasiya mübadiləsini həyata keçirəcəklər.

Maddə 6

Gömrük prosedurları

1. Razılığa gələn Tərəflər gömrük prosedurlarının harmonizasiyasını və gömrük sənədləşməsinin qarşılıqlı tanınmasını təmin edəcəklər.

2. Razılığa gələn Tərəflər milli qanunvericiliyə və beynəlxalq hüquq normalarına müvafiq olaraq, azad ticarət rejiminə düşən malların və nəqliyyat vasitələrinin qeydiyyatını və gömrük nəzarətini, həmçinin rəsmiləşdirilməsini həyata keçirirlər.

Maddə 7

Əmtəə nomenklaturu

Tarif və qeyri-tarif tənzimlənmə, statistik məlumatların mübadiləsi və gömrük prosedurlarının həyata keçirilməsi zamanı Razılığa gələn Tərəflər Malların siyahıya alınmasının və kodlaşdırılmasının harmonizasiya edilmiş Sisteminə əsaslanan Ümumdünya Gömrük Təşkilatının Xarici İqtisadi Fəaliyyətin Əmtəə Nomenklaturundan (XİFƏN) istifadə edirlər. Eyni zamanda Razılığa gələn Tərəflər öz tələbatlarını təmin etmək zərurəti yarandıqda, əmtəə nomenklaturunun gələcək inkişafını həyata keçirəcəklər.

Maddə 8

Tranzit

1. Razılığa gələn Tərəflər bu Sazişin məqsədlərinə nail olmanın əsas şərti və onların beynəlxalq əmək bölgüsü və kooperasiya sisteminə qoşulma prosesi üçün vacib element olan tranzitin sərbəstliyi prinsipinə riayət etməyə razıdırlar.

2. Razılığa gələn hər bir Tərəf öz dövlətinin ərazisinə Razılığa gələn digər Tərəfin və/və ya üçüncü ölkənin gömrük ərazisindən gətirilən və Razılığa gələn digər Tərəfə və/və ya üçüncü ölkəyə nəzərdə tutulmuş əmtəələrin maneəsiz tranzitini öz ərazisində təmin edəcək, həmçinin ixracatçı, idxalçı və yükdaşıyanlar üçün tranzitin həyata keçirilməsi istiqamətində bütün lazımi xidmətləri və vasitələri təmin edəcəkdir. Təqdim edilən şərtlər həm öz, həm də istənilən üçüncü ölkələrin ixracatçı, idxalçı və yükdaşıyanlarının xidmət və vasitələrinin növlərinə təqdim olunandan pis olmayacaqdır.

3. Razılığa gələn Tərəflərin dövlət ərazilərindən yüklərin keçirilməsi qayda və şərtləri Razılığa gələn Tərəflərin dövlətlərinin iştirak etdiyi yükdaşımalar üzrə beynəlxalq razılaşmalarla tənzimlənir.

Maddə 9

Reeksport

1. Razılığa gələn hər bir Tərəf mənşəcə Razılığa gələn digər Tərəfin dövlətinin gömrük ərazisindən olan, ixracına dövlət tənzimlənməsi tədbirlərinin tətbiq edildiyi ixrac məhsullarının icazəsiz reeksportuna yol verməyəcəkdir. Razılığa gələn Tərəflər icazəsiz reeksportuna yol verilməyən malların siyahısını müəyyənləşdirir, həmçinin dövlət tənzimlənməsi tətbiq olunan malların siyahısını mübadilə edirlər.

2. Belə malların üçüncü ölkəyə reeksportu bu malların mənşəsi olan dövlətin müvəkkil orqanının yalnız müəyyən etdiyi şərtlərlə və onun yazılı razılığı ilə həyata keçirilə bilər.

Maddə 10

Əqli mülkiyyətin müdafiəsi

Razılığa gələn Tərəflər Ümumdünya Ticarət Təşkilatının Əqli mülkiyyət hüquqlarının ticarət aspektləri haqqında Sazişə (TRİPS) müvafiq olaraq əqli mülkiyyətin müdafiəsi sahəsində əməkdaşlığı həyata keçirəcək və genişləndirəcəklər.

Maddə 11

Daxili qanunvericilik haqqında məlumatların mübadiləsi

1. Razılığa gələn Tərəflər mütəmadi olaraq iqtisadi fəaliyyətlə bağlı qanun və digər normativ aktlar, o cümlədən ticarət, investisiya, bank və sığorta fəaliyyəti, vergi qoyma sahəsi və digər maliyyə, nəqliyyat və gömrük xidmətləri, həmçinin gömrük statistikası məsələləri ilə bağlı məlumat mübadiləsi aparacaqlar.

2. Razılığa gələn Tərəflər milli qanunvericilikdə bu Sazişin yerinə yetirilməsinə təsir göstərə biləcək hər hansı bir dəyişiklik barədə bir-birini dərhal məlumatlandıracaqlar.

3. Razılığa gələn Tərəflərin müvəkkil edilmiş orqanları belə məlumatların mübadiləsi qaydalarını razılaşdırırlar.

Maddə 12

İstisnalar

1. Ümumi istisnalar

Bu Saziş Razılığa gələn heç bir Tərəfin xarici iqtisadi sahədə öz həyati maraqlarının müdafiəsi üçün zəruri olan və onun iştirakçısı olduğu və ya olacağı beynəlxalq müqavilələrin yerinə yetirilməsi üçün vacib saydığı beynəlxalq təcrübədə qəbul olunmuş dövlət tənzimlənməsi tədbirlərinin həyata keçirilməsi hüququna əngəl törətmir, bir şərtlə ki, bu tədbirlər könüllü olaraq və ya diskriminasiya məqsədilə həyata keçirilsin və aşağıdakılara aiddir:

a) ictimai əxlaq və ictimai asayişin qorunmasına;

b) insanların həyatının və səhhətinin qorunmasına;

c) heyvanların və bitkilərin mühafizəsinə;

ç) ətraf mühitin qorunmasına;

d) bədii, arxeoloji və tarixi dəyərlər kəsb edən milli sərvətin qorunmasına;

e) sənaye və əqli mülkiyyətin qorunmasına;

ə) qızıl, gümüş və digər qiymətli metal və daşların ticarətinə;

f) bərpa olunmayan təbii resursların qorunmasına;

g) tədiyyə balansının pozulmasına;

ğ) əstək üzrə dövlət proqramının həyata keçirilməsi nəticəsində ölkə daxilində məhsulun qiyməti həmin məhsulun dünya qiymətlərindən aşağı olduğu təqdirdə məhsulun ixracına məhdudiyyətlər.

2. Təhlükəsizlik nöqteyi-nəzərindən istisnalar

Bu Saziş Razılığa gələn Tərəflərə onun vacib saydığı istənilən dövlət tənzimlənməsi tədbirlərinin həyata keçirilməsi hüququna əngəl törətmir, bir şərtlə ki, bu tədbirlərə aşağıdakılar daxildir:

a) milli təhlükəsizliyin təmin olunması;

b) silah, hərbi texnika, hərbi sursatlarla ticarət, hərbi xarakterli xidmətlərin göstərilməsi, hərbi silahların və hərbi texnikanın istehsalı ilə bağlı texnologiyaların ötürülməsi və digər hərbi məqsədli xidmətlərin göstərilməsi;

c) parçalanan materialların və radioaktiv maddələrin təchiz edilməsi, radioaktiv qalıqların istifadə olunması;

d) müharibə və ya beynəlxalq münasibətlərdə digər fövqəladə hallar zamanı həyata keçirilən tədbirlər;

e) beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün BMT-nin Nizamnaməsi üzrə götürülən öhdəliklərin təmin olunmasından irəli gələn fəaliyyətlər.

Maddə 13

Sanitar və fitosanitar tədbirlər

1. Razılığa gələn Tərəflər sanitar və fitosanitar tədbirlərin tətbiq edilməsi, həmçinin Ümumdünya Ticarət Təşkilatının Sanitar və fitosanitar tədbirlər haqqında Sazişinin tələblərinə müvafiq olaraq, heyvanların infeksion xəstəlikləri, karantin xəstəlikləri və bitkilər üçün təhlükəli parazitlərin yayılması haqqında məlumatların mübadiləsi barədə razılığa gəldilər.

2. Razılığa gələn Tərəflər baytarlıq və bitki mühafizəsi, insan sağlamlığının qorunması üzrə mövcud qeyri-diskriminasiya tədbirlərinin tətbiq edilməsi və ticarətə maneçilik törədən yeni müdafiə mexanizmlərinin hazırlanmaması barədə razılığa gəldilər.

Maddə 14

Xüsusi tədbirlər

Razılığa gələn Tərəflər idxala münasibətdə antidempinq, kompensasiya və xüsusi tədbirlərin istifadəsində Tariflər və Ticarət üzrə Baş Sazişin (GATT/WTO) prinsip və müddəalarını rəhbər tutacaqlar.

Maddə 15

Mübahisələrin həlli qaydaları

1. Bu Sazişin müddəalarının təfsiri və/və ya tətbiqi ilə bağlı Razılığa gələn Tərəflər arasında yaranan istənilən mübahisə və ya anlaşmazlıq, həmçinin bu Saziş üzrə və ya bununla əlaqədar olaraq Razılığa gələn Tərəflərin hüquq və öhdəliklərinə dair digər mübahisələr aşağıdakı qaydada həll edilməlidir:

a) Razılığa gələn Tərəflər arasında bilavasitə məsləhətləşmələr yolu ilə;

b) razılaşdırılmış xüsusi prosedurlar çərçivəsində (mübahisəli məsələlərin öyrənilməsi və tövsiyələrin hazırlanması üzrə işçi qrupunun yaradılması yolu ilə).

2. Bu maddənin müddəaları Razılığa gələn Tərəflərin öz aralarında yaranan mübahisələri beynəlxalq hüquq qaydaları çərçivəsində həll etməsinə mane olmur.

Maddə 16

Razılığa gələn Tərəflərin digər hüquq öhdəlikləri ilə bu Sazişin əlaqəsi

1. Bu Saziş Razılığa gələn Tərəflərin hər birinə Tərəflərin üzv olduğu və ya olacağı beynəlxalq müqavilələr üzrə götürdüyü öhdəlikləri yerinə yetirməsinə mane olmayacaqdır.

2. Bu müddəa iqtisadi birliklər, sərhədyanı ticarət, inkişaf etməkdə olan ölkələr, azad iqtisadi və ya gömrük zonaları çərçivəsində və daxili qanunvericilik və ya beynəlxalq razılaşmalarla tənzimlənən güzəştlərin müəyyən edilməsi ilə bağlı Razılığa gələn Tərəflərin hüquq və üstünlüklərinə aid deyildir.

Maddə 17

Əlavələr və dəyişikliklər

Razılığa gələn Tərəflər qarşılıqlı razılıq əsasında bu Sazişə onun tərkib hissəsi olan və Sazişin 18-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən, ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 18

Qüvvəyə minməsi və qüvvədən düşməsi

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Razılığa gələn Tərəflərin zəruri dövlətdaxili prosedurları yerinə yetirməsi barədə sonuncu yazılı bildirişi diplomatik kanallar vasitəsilə aldığı tarixdən qüvvəyə minir.

Bu Saziş, onun qüvvəsinin ləğv edilməsi niyyəti barədə bildirişi Razılığa gələn Tərəflərdən birinin diplomatik kanallar vasitəsilə alması tarixindən altı ay sonra qüvvədən düşür.

Bu Sazişin müddəaları onun qüvvəsi dayandırıldıqdan sonra, hər iki dövlətin təsərrüfat subyektləri arasında bağlanmış, lakin Sazişin qüvvədə olduğu dövrdə yerinə yetirilməmiş bütün müqavilə ilə kontraktlara tətbiq edilir.

Bakı şəhərində 13 avqust 2007-ci il tarixində hər biri Azərbaycan, tacik və rus dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə rus dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TACİKİSTAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
HEYDƏR BABAYEV	*QULOMJON BOBOZADƏ*
İqtisadi inkişaf naziri	*İqtisadi inkişaf və ticarət naziri*

"Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında sərmayə-

lərin təşviqi və qarşılıqlı qorunması haqqında" 2007-ci il avqustun 28-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 oktyabr 2007-ci il

№442-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti,

Razılığa gələn hər iki Tərəfin qarşılıqlı faydası üçün iqtisadi əməkdaşlığın gücləndirilməsi və Razılığa gələn bir Tərəfin sərmayəçilərinin Razılığa gələn digər Tərəfin dövlətinin ərazisindəki sərmayələri üçün ədalətli və qərəz-siz şəraiti saxlamaq (müəyyən etmək) niyyətində olaraq,

bu Saziş əsasında sərmayələrin təşviqi və qorunmasının işgüzar təşəbbüslərin yaranmasına təkan verəcəyini qəbul edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Anlayışlar

Bu Sazişin məqsədi üçün aşağıdakı sözlər və terminlər başqa cür müəyyən olunmayana qədər müvafiq məna daşıyacaqdır:

1. "Sərmayə" termini - Razılığa gələn bir Tərəfin sərmayəçisinin Razılığa gələn digər Tərəfin tam və ya müstəsna şəkildə dövlətinin ərazisində Razılığa gələn sonuncu Tərəfin dövlətinin qanunvericiliyinə müvafiq olaraq birbaşa təsis və ya əldə etdiyi, xüsusilə aşağıdakılar daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq, aktivlərin hər növü deməkdir:

a. daşınan və daşınmaz əmlak və ya ipotekalar, girov hüquqları, girovlar, lizinqlər, uzufrukt və oxşar hüquqlar;

b. paylar, səhmlər, istiqrazlar və ya şirkətdə iştirakın istənilən digər forması;

c. pul, pul tələbi və ya kontrakt əsasında maliyyə dəyərinə malik olan fəaliyyət üzrə tələblər;

d. patentlər, müəllif hüquqları, texniki proseslər, ticarət nişanlan, sənaye modelləri, firma adlan, "nou-hau" və "qudvil" kimi əqli mülkiyyət hüquqları;

e. təbii ehtiyatların kəşfiyyatı, işlənməsi, çıxarılması və ya istismarı üzrə konsessiyalar da daxil olmaqla, qanun, inzibati akt və ya kontrakt əsasında səlahiyyətli hakimiyyət orqanı tərəfindən verilən konsessiyalar.

Aktivlərin sərmayə və ya yenidən sərmayə formasında edilən hər hansı bir dəyişiklik onun sərmayə kimi xarakterinə təsir etmir.

2. "Gəlir" termini - sərmayələrdən əldə edilən məbləğlər və xüsusilə, lakin bununla məhdudlaşmayaraq, mənfəət, dividendlər, faizlər, qonorarlar, kapital artımı və ya sərmayələrə aid istənilən ödəmələr deməkdir.

Gəlirlərə münasibətdə ilkin sərmayələrə aid olan rejim tətbiq ediləcəkdir.

3. "Sərmayəçi" termini - Razılığa gələn digər Tərəfin dövlət ərazisində sərmayə qoyan:

a. Razılığa gələn Tərəfin dövlətinin qanunlarına uyğun olaraq onun vətəndaşı olan istənilən fiziki şəxs;

b. Razılığa gələn Tərəfin milli qanunvericiliyinə müvafiq olaraq qeydiyyatdan keçmiş və ya yaradılmış və Razılığa gələn həmin Tərəfin dövlətinin ərazisində yerləşən şirkət, korporasiya, firma, iş birliyi və ya digər müəssisə kimi hüquqi şəxs deməkdir.

4. "Ərazi" termini:

a. Azərbaycan Respublikasına münasibətdə - Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektoru və Azərbaycan Respublikasının üzərindəki hava məkanı da daxil olmaqla, yerin təki, dənizin dibi və təbii sərvətlərə münasibətdə Azərbaycan Respublikasının suveren hüquqlarının və yurisdiksiyasının tətbiq edildiyi Azərbaycan Respublikası ərazisini, habelə beynəlxalq hüquqa və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq müəyyən edilmiş və gələcəkdə müəyyən edilə bilən istənilən digər ərazini bildirir;

b. Qətər Dövlətinə münasibətdə - üzərində Qətər Dövlətinin öz milli qanunvericiliyinə və beynəlxalq hüquqa uyğun olaraq suveren hüquqlarını və ya yurisdiksiyasını həyata keçirdiyi Qətər Dövlətinin torpaqları, dib və torpaqaltı qat daxil olmaqla daxili və ərazi suları, hava məkanı, xüsusi iqtisadi zonası və kontinental şelfi.

Maddə 2

Sərmayələrin təşviqi və qorunması

1. Razılığa gələn hər bir Tərəf öz qanunvericiliyinə müvafiq olaraq Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrini təşviq edəcək və onlar üçün əlverişli şərait yaradacaq və bu cür sərmayələri qəbul edəcəkdir.

2. Razılığa gələn hər bir Tərəf hər zaman öz dövlətinin ərazisində Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrinə ədalətli və qərəzsiz rejim tətbiq edəcək və onların tam və daimi müdafiəsini və təhlükəsizliyini təmin edəcəkdir.

3. Razılığa gələn hər bir Tərəf öz dövlətinin ərazisində Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrinin idarə edilməsinə, saxlanmasına, istifadəsinə, onlardan faydalanmasına, əldə edilməsinə və ya satışına səbəbsiz, əsassız və ya ayrı-seçkilik yolu ilə qarışmayacaqdır.

4. Razılığa gələn Tərəflərdən heç biri Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrinə münasibətdə materialların, istehsal vasitələrinin alınması, əməliyyatlar,

daşınma, məhsulların marketinqi ilə əlaqədar olaraq məcburi tədbirlər və ya əsassız və ayrı-seçkilik yaradan digər oxşar qaydalar tətbiq etməyəcəkdir.

5. Razılığa gələn hər bir Tərəf, öz milli qanunvericiliyi çərçivəsində, sərmayəçinin seçimi ilə rəhbər işçilərin, menecerlərin, mütəxəssislərin və texniki heyətin işə qəbul edilməsi ilə bağlı icazələr daxil olmaqla, onun dövlət ərazisində sərmayələrlə əlaqədar zəruri icazələrin alınması üçün ediləcək müraciətlərinə diqqətlə baxacaqdır.

Maddə 3

Şəffaflıq

Razılığa gələn hər bir Tərəf imkan daxilində, öz dövlətinin ərazisində Razılığa gələn digər Tərəfin sərmayəçilərinin sərmayələrinə təsir edə biləcək qanunların, qərarların, prosedurların, inzibati qaydaların və məhkəmə qərarlarının, habelə beynəlxalq müqavilələrin onların qüvvəyə minməsindən sonra dərhal nəşr edilməsini və ya digər yolla ictimaiyyətə çatdırılmasını təmin edəcəkdir.

Maddə 4

Sərmayələrə münasibətdə rejim

1. Razılığa gələn bir Tərəfin sərmayəçilərinin Razılığa gələn digər Tərəfin dövlət ərazisindəki sərmayələrinə və ya onlarla bağlı gəlirlərə münasibətdə, oxşar hallarda Qəbul edən Razılığa gələn Tərəfin öz sərmayəçilərinin və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinin qoyduğu sərmayələrə və gəlirlərə münasibətdə tətbiq etdiyi rejimdən (sərmayəçi üçün hansı daha əlverişlidirsə) az əlverişli olmayan rejim tətbiq ediləcəkdir.

2. Razılığa gələn bir Tərəfin sərmayəçilərinə münasibətdə sərmayələrin idarə edilməsi, saxlanılması, istifadə edilməsi, onlardan faydalanması və satılması ilə əlaqədar Razılığa gələn digər Tərəf oxşar hallarda öz sərmayəçilərinə və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinə münasibətdə tətbiq etdiyi rejimdən (sərmayəçi üçün hansı daha əlverişlidirsə) az əlverişli olmayan rejim tətbiq ediləcəkdir.

Maddə 5

İstisnalar

Bu Sazişin müddəaları Razılığa gələn bir Tərəfin aşağıda qeyd edilənlər əsasında hər hansı rejim, imtiyaz və ya güzəştin Razılığa gələn digər Tərəfin sərmayəçilərinə şamil etmək öhdəliyində olması kimi şərh edilməyəcəkdir:

a. Razılığa gələn Tərəflərdən birinin üzv olduğu və ya üzv ola biləcəyi hər hansı mövcud və ya gələcəkdə yaradılacaq sərbəst ticarət zonası, gömrük ittifaqı, ümumi bazar və ya regional əmək bazarı sazişi;

b. tam və ya qismən vergitutmaya aid olan hər hansı beynəlxalq müqavilə və ya razılaşma və ya vergitutmaya aid olan hər hansı daxili qanunvericilik, və ya

c. Razılığa gələn Tərəflərdən birinin üzv olduğu və ya üzv ola biləcəyi, sərmayələrə aid hər hansı çoxtərəfli konvensiya və ya müqavilə.

Maddə 6

Ekspropriasiya

1. Razılığa gələn bir Tərəfin sərmayəçilərinin Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində sərmayələri, ictimai mənafenin tələb etdiyi, ayrı-seçkiliyə yol vermədən, qanunun tələblərinə müvafiq olaraq və dərhal, adekvat və effektiv kompensasiyanın ödənilməsi hallan istisna olmaqla, ekspropriasiyaya, millilləşdirməyə və ya birbaşa və ya dolayısı ilə ekspropriasiyaya və ya millilləşdirməyə (bundan sonra "ekspropriasiya" adlanır) bərabər nəticə verən hər hansı digər tədbirlərə məruz qalmayacaqlar.

2. Bu cür kompensasiya, hansı daha tez baş verərsə, ekspropriasiyanın həyata keçirildiyi və ya ictimaiyyətə məlum edildiyi tarixdən, bilavasitə əvvəlki vaxtda ekspropriasiya edilmiş sərmayənin ədalətli bazar dəyərinə bərabər olacaqdır.

3. Bu cür ədalətli bazar dəyəri sərbəst dönərli valyuta ilə bu maddənin 2-ci bəndində göstərilən tarixdə, köçürmə günü bu valyutaya tətbiq edilən bazar mübadilə məzənnəsi əsasında həyata keçiriləcəkdir. Kompensasiya həmçinin ekspropriasiya vaxtından real ödəniş vaxtına qədər bu valyuta üçün bazar əsasında müəyyən edilən kommersiya dərəcəsi üzrə faizi də daxil edəcəkdir.

4. Sərmayələri ekspropriasiya edilmiş sərmayəçi onun işinin və bu maddədə ifadə olunmuş prinsiplərə müvafiq qaydada onun sərmayələrinin qiymətləndirilməsinin Qəbul edən Razılığa gələn Tərəfin məhkəmə və ya digər səlahiyyətli orqanı tərəfindən təxirə salınmadan yenidən baxılması hüququna malik olacaqdır.

Maddə 7

Zərərə görə kompensasiya

1. Razılığa gələn bir Tərəfin sərmayəçilərinə, Razılığa gələn digər Tərəfin dövlətinin ərazisindəki sərmayələri Razılığa gələn sonuncu Tərəfin dövlətinin ərazisində baş verən müharibə və ya digər silahlı münaqişə, fövqəladə vəziyyət, üsyan, qiyam və ya təbii fəlakət nəticəsində ziyan çəkirsə, Razılığı gələn sonuncu Tərəfin onlara münasibətdə restitusiya, əvəzin ödənilməsi, kompensasiya və ya hər hansı başqa ödənişlərlə bağlı tətbiq edəcəyi rejim, Razılığa gələn sonuncu Tərəfin öz sərmayəçilərinə və ya hər hansı üçüncü dövlətin sərmayəçilərinə münasibətdə tətbiq etdiyi rejimdən, sərmayəçi üçün hansı daha əlverişlidirsə, az əlverişli olmayacaqdır. Həmin ödəmələr sərbəst dönərli valyuta ilə və təxirə salınmadan köçürülməlidir.

2. Bu maddənin 1-ci bəndinə xələl gətirmədən, Razılığa gələn bir Tərəfin sərmayəçisinə münasibətdə, o, bu bənddə göstərilən hər hansı bir vəziyyətdə, Razılığa gələn digər Tərəfin dövləti ərazisində aşağıdakılar nəticəsində:

a. sonuncunun tam silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onun sərmayəsinin və ya bir hissəsinin müsadirəsi və ya

b. sonuncunun silahlı qüvvələri və ya hakimiyyət orqanları tərəfindən onun sərmayəsinin tam və ya bir hissəsinin, vəziyyətin zəruriliyi tələb etmədən məhv edilməsi nəticəsində ziyan çəkirsə,

mövcud şərait nəzərə alınmaqla dərhal, adekvat və effektiv kompensasiya həyata keçiriləcəkdir.

Maddə 8

Sərbəst köçürmə

1. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər TərəfİN sərmayəçiləri üçün sərmayə ilə bağlı ödəmələrin öz dövlətinin ərazisinə və ərazisindən sərbəst köçürülməsini vicdanla təmin edəcəkdir. Belə ödəmələr məhdudlaşmayaraq, xüsusilə aşağıdakıları ehtiva edəcəkdir:

a. sərmayənin saxlanılması, inkişaf etdirilməsi və ya artırılması üçün əsas və əlavə Məbləğlər;

b. gəlirlər;

c. sərmayənin tam və ya qismən satışından və ya özgəninkiləşdirilməsindən əldə edilən vəsaitlər;

d. royaltilər və lisenziya haqları və ya digər oxşar xərclərin ödənilməsi kimi sərmayə qoyuluşu ilə bağlı fəaliyyətdən yaranan xərclərin ödənilməsi üçün tələb olunan məbləğlər;

e. 6-cı və 7-ci maddələrə uyğun olaraq ödənilməli olan kompensasiya;

f. idarəetmə xərcləri ilə əlaqədar ödəmələr;

g. mübahisənin tənzimlənməsindən irəli gələn ödəmələr;

h. borc sazişləri daxil olmaqla, kontraktlarla bağlı ödəmələr;

i. sərmayə ilə bağlı işləyən, xaricdən cəlb olunmuş kadrların xalis gəlirləri və digər mükafatlar.

2. Bu maddənin 1-ci bəndində göstərilən köçürmələr heç bir məhdudiyyət və ya gecikdirmə olmadan sərbəst dönərli valyuta ilə və köçürmə valyutasının köçürmə günü tətbiq edilən, tətbiq olunan bazar məzənnəsi ilə həyata keçiriləcəkdir. Əgər bazar məzənnəsi mövcud deyilsə, tətbiq edilən mübadilə məzənnəsi kimi valyutaların "SDR"-ə çevrilməsi üzrə ən son mübadilə məzənnəsi istifadə ediləcəkdir.

3. Bu maddənin 1-ci və 2-ci bəndlərinə baxmayaraq, Razılığa gələn Tərəf sərmayəçinin Qəbul edən Razılığa gələn TərəfİN vergilər, rüsumlar və digər məcburi ödənişlər ilə bağlı qanunvericiliyinə müvafİqliyini müəyyən etmək üçün qərəzsiz, ayn-seçkisiz və vicdanlı tədbirlərin həyata keçirilməsi vasitəsilə köçürməni yubada və ya qarşısını ala bilər.

Maddə 9

Subroqasiya

Razılığa gələn bir Tərəf və ya onun təyin etdiyi agentlik (zamin) Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində sərmayənin qeyri-kommersiya risklərinə görə verilən zəmanət əsasında ödəniş həyata keçirərsə, Qəbul edən Razılığa gələn Tərəf bu sərmayə ilə bağlı bütün hüquqların və tələblərin zaminə verilməsini və zaminin bu cür hüquqları və tələbləri ilkin sərmayəçi qədər həyata keçirmək hüququna malik olduğunu tanıyacaqdır.

Maddə 10

Məsləhətləşmələr

Razılığa gələn Tərəflər, onlardan hər hansı birinin müraciəti əsasında bu Sazişlə əlaqədar aralarında yaranan hər hansı bir mübahisənin həll edilməsi və ya bu Sazişin yerinə yetirilməsi və ya tətbiq edilməsi ilə bağlı hər hansı bir məsələnin nəzərdən keçirilməsi və ya bu Sazişdən irəli gələ biləcək hər hansı digər məsələnin öyrənilməsi üçün təxirəsalınmaz məsləhətləşmələr keçirməyə razılaşırlar. Belə məsləhətləşmələr Razılığa gələn Tərəflər arasında diplomatik kanallar vasitəsilə razılaşdırılmış yerdə və vaxtda Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları arasında həyata keçiriləcəkdir.

Maddə 11

Sərmayəçi və Qəbul edən Razılığa gələn Tərəf arasında mübahisələr

1. Razılığa gələn bir Tərəfin sərmayəçisi və Razılığa gələn digər Tərəf arasında, Razılığa gələn sonuncu Tərəfin dövlət ərazisindəki sərmayəyə münasibətdə hər hansı mübahisə imkan daxilində dostcasına həll ediləcəkdir.

2. Əgər mübahisə dostcasına həll edilməsinə dair müraciətin tarixindən üç ay müddətində həll olunmursa, sözügedən sərmayəçi mübahisəni beynəlxalq arbitraja verə bilər. Sərmayəçi işi baxılması üçün aşağıdakı instansiyalardan birinə vermək seçiminə malikdir:

a. Dövlətinin ərazisində sərmayə qoyulmuş Razılığa gələn TərəfİN səlahiyyətli məhkəməsinə;

b. əgər mübahisə tərəfləri arasında digər razılaşma yoxdursa, Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyasının ("UNCITRAL") Arbitraj Qaydalarına müvafİq olaraq təsis ediləcək "ad hoc" arbitraj məhkəməsinə.

Razılığa gələn Tərəflər sərmayə ilə bağlı bütün mübahisələrin yuxarıda göstərilən məhkəməyə, tribunala və alternativ arbitraja təqdim olunmasına dair qəti razılıqlarını verirlər.

3. Sərmayəçi mübahisəni baxılması üçün Razılığa gələn Dövlətin məhkəməsinə verərsə, bu maddənin 2-ci bəndində qeyd edilən arbitraj məhkəmələrinin heç birinə müraciət edə bilməz.

4. Mübahisə tərəfi olan Razılığa gələn Tərəflərdən heç biri arbitraj prosedurunun və ya arbitraj məhkəməsi qərarının yerinə yetirilməsinin hər hansı bir mərhələsində, mübahisədə qarşı tərəf olan sərmayəçinin sığorta əsasında onun itkilərini tam və ya qismən ödəyən kompensasiyanı aldığını nəzərə alaraq etirazla çıxış edə bilməz.

5. Bu qərar mübahisə tərəfləri üçün son və məcburi olacaq və milli qanunvericiliyə uyğun icra ediləcəkdir.

Maddə 12

Razılığa gələn Tərəflər arasında mübahisələr

1. Bu Sazişin təfsiri və tətbiqi ilə bağlı Razılığa gələn Tərəflər arasında mübahisələr, mümkün qədər, diplomatik yollarla həll ediləcəkdir.

2. Əgər mübahisə Razılığa gələn hər hansı bir Tərəfin belə danışıqların aparılması haqqında müraciət etdiyi tarixdən etibarən altı (6) ay ərzində bu yolla həll edilə bilməzsə, o, Razılığa gələn hər hansı bir Tərəfin müraciəti əsasında Arbitraj Məhkəməsinə veriləcəkdir.

3. Belə Arbitraj Məhkəməsi hər bir fərdi iş üçün aşağıdakı qaydada təsis olunacaqdır. Arbitraj haqqında müraciətin alındığı tarixdən etibarən iki (2) ay ərzində Razılığa gələn hər bir Tərəf Məhkəmənin bir üzvünü təyin edəcəkdir. Sonra bu iki üzv Razılığa gələn hər iki Tərəfin razılığı əsasında Məhkəmənin sədri kimi təyin olunacaq üçüncü dövlətin vətəndaşını seçəcəkdir. Sədr digər iki üzvün təyin olunduğu vaxtdan sonra dörd (4) ay ərzində təyin olunacaqdır.

4. Əgər bu maddənin 3-cü bəndində göstərilən müddətlər ərzində zəruri təyinatlar həyata keçirilməzsə, digər razılaşmanın olmadığı təqdirdə, Razılığa gələn Tərəflərdən hər hansı biri Beynəlxalq Məhkəmənin sədrini hər hansı zəruri təyinatların həyata keçirilməsi üçün dəvət edə bilər. Əgər sədr Razılığa gələn Tərəflərdən hər hansı birinin vətəndaşıdırsa və ya hər hansı səbəbdən göstərilən funksiyanı yerinə yetirə bilmirsə, Razılığa gələn Tərəflərdən heç birinin vətəndaşı olmayan və bu funksiyanı yerinə yetirə biləcək, Beynəlxalq Məhkəmənin rütbəcə sonra gələn üzvü zəruri təyinatların həyata keçirilməsi üçün dəvət ediləcəkdir.

5. Arbitraj Məhkəməsi öz qərarını səs çoxluğu ilə qəbul edəcəkdir. Məhkəmənin qərarları Razılığa gələn hər iki Tərəf üçün son və məcburi olacaqdır. Razılığa gələn hər bir Tərəf özünün təyin etdiyi üzvün və özünün məhkəmə prosesində təmsil edilməsi xərclərini ödəyəcəkdir. Razılığa gələn hər iki Tərəf sədrin xərcini, həmçinin digər ümumi xərclərin ödənilməsini bərabər hissədə öz üzərinə götürəcəkdir. Bütün qalan hallarda, Arbitraj Məhkəməsi öz prosedur qaydalarını müəyyən edəcəkdir.

Maddə 13

Digər qaydaların tətbiqi

Əgər bu Sazişə əlavə olaraq, Razılığa gələn hər hansı Tərəfin dövlətinin qanunvericiliyinin müddəaları və ya Razılığa gələn Tərəflər arasında beynəlxalq hüquq əsasında mövcud olan və ya gələcəkdə qəbul ediləcək öhdəliklər Razılığa gələn digər Tərəfin sərmayəçilərinin qoyduğu sərmayələr üçün bu Sazişlə təmin edilən rejimdən daha əlverişli rejimin tətbiqi haqqında ümumi və ya xüsusi qayda müəyyən edərsə, həmin müddəalar, onların sərmayəçi üçün daha əlverişli olduğu dərəcədə, bu Sazişə nisbətən üstünlük təşkil edəcəkdir.

Maddə 14

Sazişin tətbiqi

Bu Saziş Razılığa gələn bir Tərəfin sərmayəçisinin Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində bu Sazişin qüvvəyə minməsindən əvvəl və ya sonra qoyduğu sərmayələrə şamil ediləcəkdir, lakin bu Sazişin qüvvəyə min-məsindən əvvəl yaranan sərmayə mübahisələrinə şamil edilməyəcəkdir.

Maddə 15

Əlavə və dəyişikliklər

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə dəyişikliklər və əlavələr edilə bilər. Belə dəyişikliklər və əlavələr Sazişin ayrılmaz hissəsi olan ayrıca protokollar şəklində edilməlidir və Sazişin 16-cı maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minməlidir.

Maddə 16

Qüvvəyə minmə, müddət və xitam

1. Razılığa gələn Tərəflər bu Sazişin qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurları yerinə yetirdikləri barədə bir-birlərinə bildiriş göndərəcəklər. Saziş sonuncu yazılı bildirişin alındığı tarixdən sonra otuzuncu gündə qüvvəyə minəcəkdir.

2. Bu Saziş on il müddətində qüvvədə qalacaqdır və bu müddətin başa çatmasına ən azı 12 ay qalmış ləğvetmə haqqında Razılığa gələn bir Tərəf Razılığa gələn digər Tərəfə yazılı bildiriş təqdim etmədikdə, Saziş eyni şərtlərlə növbəti müddətlərə uzadılacaqdır.

3. Bu Sazişə xitam verilməsi tarixindən əvvəl qoyulmuş sərmayələrə münasibətdə onun 1-14-cü maddələrinin müddəaları həmin sərmayələrin icrasının tamamlanmasınadək qüvvədə qalacaqdır.

Bunun təsdiqi olaraq, bunun üçün lazımi surətdə səlahiyyətlər almış, aşağıda imza etmiş təmsilçilər bu Sazişi imzaladılar.

Bu Saziş Bakı şəhərində 28 avqust 2007-ci il tarixində, hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsiri və tətbiqi zamanı fikir ayrılığı yarandıqda, ingilis dilində olan mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	QƏTƏR DÖVLƏTİ HÖKUMƏTİ ADINDAN
HEYDƏR BABAYEV	*YUSİF HÜSEYN KAMAL*
İqtisadi inkişaf naziri	*Maliyyə naziri*

"Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı arasında ekstradisiya haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı arasında ekstradisiya haqqında" 2007-ci il iyulun 29-da Əmman şəhərində imzalanmış Müqavilə təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 oktyabr 2007-ci il

№443-IIIQ

Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı arasında ekstradisiya haqqında Müqavilə

Preambula

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı,

suverenliklərinə qarşılıqlı hörmət və marağa əsaslanan iki ölkə arasında dostluq əlaqələrinin inkişafını arzu edərək,

hüquq sahəsində faydalı yardımın təmin edilməsi zərurətini bildirərək,

hər iki Tərəfin ekstradisiya sahəsində hüquqi yardımının göstərilməsi məqsədilə

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Ekstradisiya ilə bağlı öhdəlik

Tərəflər sorğuya əsasən və bu Müqavilənin müddəalarına uyğun olaraq barələrində cinayət təqibinin başlanması və ya cəzanın icrası üçün Tərəflərin ərazilərində aşkar edilən şəxslərin bir-birinə təslim edilməsini öhdələrinə götürürlər.

Maddə 2

Ekstradisiya üçün əsas olan cinayətlər

1. Əgər ekstradisiyaya səbəb olan əməl hər iki Tərəfin qanunvericiliyinə uyğun olaraq cinayət hesab edilirsə, onda ekstradisiya həyata keçirilir.

2. Şəxsə qarşı cinayət təqibinin həyata keçirilməsi ilə əlaqədar sorğu edilən ekstradisiya hər iki Tərəfin qanunları ilə ən azı bir il müddətinə azadlıqdan məhrumetmə ilə və ya daha ciddi cəza ilə cəzalandırılan cinayətlərə görə həyata keçirilir.

3. Cəzanın çəkilməsi ilə əlaqədar sorğu edilən ekstradisiya təslim edilməli şəxsin cəza müddətinin bitməsinə ekstradisiya sorğusunun alındığı anda ən azı altı aylıq müddət qaldıqda həyata keçirilir.

4. Bu maddənin 1-ci bəndinə uyğun olaraq hər iki Tərəfin qanunvericiliyinə əsasən əməlin cəzalandırılan əməl olub-olmaması məsələsi həll edilərkən hər iki Tərəfin qanunvericiliklərinin cinayət sayılan əməli eyni cinayətlər kateqoriyasına daxil etmələri və ya cinayəti eyni terminlə adlandırmaları əhəmiyyət kəsb etməyəcək.

5. Əgər ekstradisiya haqqında sorğu bir neçə əməllərlə bağlı verilirsə və onlardan bir neçəsi bu maddənin 1-3-cü bəndlərində göstərilən şərtlərə cavab vermirsə, ekstradisiya ancaq bu şərtlərə cavab verən əməllərə görə həyata keçirilə bilər.

Maddə 3

Ekstradisiyadan imtina

1. Ekstradisiyadan imtina edilir:

a) əgər ekstradisiyaya səbəb olan cinayət siyasi xarakterli sayılırsa;

b) əgər cinayət işi ilə bağlı ekstradisiya haqqında sorğunun şəxsin irqi, dini, vətəndaşlığı və ya siyasi düşüncəsinə görə təqib olunması və ya cəzalandırılması məqsədilə verildiyini ehtimal etməyə sorğu edilən Tərəfin kifayət qədər əsasları varsa və ya belə səbəblərdən biri həmin şəxsin vəziyyətinə zərər gətirə bilərsə;

c) əgər ekstradisiyaya səbəb olan cinayət sorğu edilən Tərəfin qanunvericiliyinə görə hərbi xarakterli cinayət sayılırsa;

d) əgər ekstradisiyası tələb olunan şəxsə sorğu edilən Tərəfin ərazisində sığınacaq hüququ verilibsə;

e) əgər ekstradisiya tələb olunan şəxs sorğu edilən Tərəfin vətəndaşıdırsa;

f) əgər sorğu edilən Tərəf ekstradisiyaya səbəb olan cinayət ilə bağlı ekstradisiyası tələb olunan şəxsə qarşı qəti hökm çıxarmışsa;

g) əgər sorğu edən Tərəf ekstradisiya haqqında sorğunu təqsirləndirilən şəxsin iştirakı olmadan qəbul olunmuş hökmə müvafiq olaraq veribsə və sorğu edən Tərəf ekstradisiyadan sonra işin yenidən məhkəmədə baxılmasına öz qanunvericiliyinə əsasən zəmanət vermirsə;

h) əgər ekstradisiyası tələb olunan şəxs sorğu edən və ya sorğu edilən Tərəfin qanunvericiliyinə uyğun olaraq müddətin bitməsi və ya digər hüquqi əsaslara görə cinayət təqibindən və ya cəzanın çəkilməsindən toxunulmazlıq hüququ əldə edibsə;

i) əgər sorğu edilən Tərəfin ərazisində ekstradisiyası tələb olunan şəxs əfv olunubsa və ya ekstradisiyaya səbəb olan cinayət barəsində amnistiya aktı qəbul edilibsə;

j) ekstradisiyası tələb olunan şəxs ekstradisiyaya səbəb olan cinayətə görə üçüncü ölkə tərəfindən məhkum olunmuş və ya təqsirsiz hesab edilmişdirsə.

2. Ekstradisiyadan imtina edilə bilər, əgər:

a) ekstradisiyaya səbəb olan cinayət tam və ya qismən sorğu edilən Tərəfin ərazisində törədilibsə;

b) əgər ekstradisiyaya səbəb olan cinayət sorğu edilən Tərəfin milli qanunvericiliyinə əsasən onun yurisdiksiyasına aiddirsə;

c) əgər ekstradisiyası tələb olunan şəxs törətdiyi cinayətə görə sorğu edən Tərəfin qanunvericiliyinə uyğun olaraq ölümlə cəzalandırılırsa.

3. Bu Müqavilənin tətbiqi zamanı aşağıdakılar siyasi xarakterli cinayət sayılmır:

a) hər iki Tərəfin dövlət başçısına və ya onların hər hansı ailə üzvünə qarşı sui-qəsd;

b) terror cinayətləri;

c) hər iki Tərəfin iştirakçısı olduğu cinayət təqibi və ya ekstradisiyanın təmini üçün Tərəflər qarşısında öhdəlik qoyan beynəlxalq müqavilədə müəyyən edilən hər hansı cinayət.

Maddə 4

Əgər bu Müqavilənin 3-cü maddəsinin 1-ci bəndinin e) yarımbəndinə və ya 2-ci bəndinin c) yarımbəndinə müvafiq olaraq ekstradisiyadan imtina edilirsə, sorğu edilən Tərəf ekstradisiyaya səbəb olan bütün və ya hər hansı cinayətə görə şəxsin cinayət məsuliyyətinə cəlb olunması üçün işi öz səlahiyyətli orqanına təqdim edir. Sorğu edilən Tərəf görülən hər hansı tədbir və ya məhkəmə işinin nəticəsi barədə sorğu edən Tərəfi məlumatlandırır. Vətən-daşlıq ekstradisiya sorğusunun verildiyi an müəyyən edilir.

Bu məqsədlə sorğu edilən Tərəf sorğu edən Tərəfi işə aidiyyəti olan sənədlər və sübutlarla təmin edir.

Maddə 5

Əlaqələr

Bu Müqavilənin məqsədləri üçün Tərəflər bir-biri ilə səlahiyyətli orqanlar vasitəsilə diplomatik kanallar yolu ilə əlaqə yaradırlar:

Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan Ədliyyə Nazirliyidir;

İordaniya Haşimilər Krallığı tərəfindən səlahiyyətli orqan Ədliyyə Nazirliyidir.

Maddə 6

Sorğu və aidiyyəti sənədlər

1. Ekstradisiya haqqında sorğu yazılı formada verilməli və aşağıdakı sənədlərlə müşayiət olunmalıdır:

a) sorğu edən orqanın adı;

b) sorğu edilən orqanın adı;

c) ekstradisiyası tələb olunan şəxsin soyadı, adı, yaşı, cinsi, vətəndaşlığı, vəzifəsi, yaşadığı və ya olduğu yer və onun şəxsiyyətini müəyyən etməyə yardım edə bilən digər məlumat;

d) işin məzmunu, o cümlədən törədilən cinayətin faktlarının göstərilməsi və onun nəticələri;

e) işi, nəzərdə tutulan cəzanı, cinayət təqibini və ya hökmün icrası ilə bağlı vaxt məhdudiyyətini əks etdirən qanunun müvafiq müddəalarının mətni;

f) əgər mümkündürsə, ekstradisiya haqqında sorğu ekstradisiyası tələb olunan şəxsin görünüşünün təsviri, onun fotoşəkli və barmaq izləri ilə müşayiət olunur;

g) sorğu, sorğu edən Tərəfin səlahiyyətli orqanı tərəfindən verilmiş həbs qərarının təsdiq olunmuş surəti ilə müşayiət olunmalıdır;

h) hökmün icrası məqsədilə verilən ekstradisiya haqqında sorğu hökmün qüvvəyə minməsini göstərən və cəzanın çəkilmiş hissəsini müəyyən edən hökmün təsdiq olunmuş surəti ilə müşayiət olunmalıdır.

2. Ekstradisiya haqqında sorğu və aidiyyəti sənədlər sorğu edən Tərəfin səlahiyyətli şəxsi tərəfindən imzalanmalı və səlahiyyətli orqanı tərəfindən rəsmi möhürlə təsdiq olunmalıdır.

3. Yuxanda göstərilən bütün sənədlər rəsmi qaydada sorğu edilən Tərəfin dilinə və ya ingilis dilinə tərcümə edilməlidir.

Maddə 7

1. Sorğu edilən Tərəf ekstradisiya haqqında sorğuya öz qanunvericiliyinə uyğun olaraq baxır və öz qərarı barədə sorğu edən Tərəfi dərhal məlumatlandırır.

2. Ekstradisiyadan imtina edildikdə, sorğu edilən Tərəf imtinanın səbəbləri barədə sorğu edən Tərəfi məlumatlandırır.

3. Sorğu edən Tərəf təslim edilmiş şəxsə qarşı həyata keçirilən cinayət təqibinin nəticəsi barədə sorğu edilən Tərəfi məlumatlandırır. Azadlıqdan məhrumetmə cəzası tətbiq olunduqda, sorğu edən Tərəf sorğu edilən Tərəfi təsdiq olunmuş qəti hökm ilə təmin edir.

Maddə 8

Əlavə məlumatlar

Əgər sorğu edilən Tərəfin fikrincə, ekstradisiya haqqında sorğuda təqdim olunan məlumatlar bu Müqaviləyə müvafiq olaraq qərar qəbul etmək üçün kifayət etmirsə, o, otuz gün ərzində təqdim olunmalı əlavə məlumatları sorğu edə bilər. Əsaslandırıcı səbəblər olduqda, bu müddət sorğu edən Tərəfin müvafiq müraciəti əsasında on beş günə qədər uzadıla bilər. Sorğu edən Tərəf göstərilən müddətdə əlavə məlumatları təqdim edə bilmədikdə, sorğu edilən Tərəf bunu sorğudan imtina kimi qiymətləndirəcək. Lakin bu, sorğu edən Tərəfə eyni cinayətə görə eyni ekstradisiya haqqında sorğu verməyə mane olmur.

Maddə 9

Ekstradisiya haqqında sorğunu aldıqdan sonra sorğu edilən Tərəfin ekstradisiya haqqında sorğuya dair qərarı qəbul edilənədək, sorğu edilən Tərəf öz qanunvericiliyinə uyğun olaraq tələb olunan şəxsi həbs edir.

Maddə 10

Müvəqqəti həbs

1. Təxirə salınmayan hallarda ekstradisiya haqqında sorğunun bu Müqavilənin 6-cı maddəsində göstərilən sənədlərlə birlikdə qəbul edilməsindən əvvəl ekstradisiyası tələb olunan şəxs sorğu edən Tərəfin səlahiyyətli orqanının müraciəti əsasında müvəqqəti həbs edilə bilər. Belə müraciət faks və ya Beynəlxalq Cinayət Polis Təşkilatının (İnterpol) Milli Mərkəzi Bürosu vasitəsilə və ya Tərəflərin səlahiyyətli orqanları arasında razılaşdırılmış digər kanallar vasitəsilə göndərilə bilər.

2. Həmin müraciət bu Müqavilənin 6-cı maddəsinin 1-ci bəndində göstərilən məlumatı, sorğu edən Tərəfin səlahiyyətli orqanı tərəfindən çıxarılmış həbs qərarının və ya qüvvəyə minmiş hökmün mövcudluğu haqqında məlumatı və ekstradisiyası tələb olunan şəxsin təslim edilməsi haqqında rəsmi sorğunun əlavə olaraq göndəriləcəyi barədə qeydi əks etdirməlidir.

3. Sorğu edilən Tərəf sorğuya baxılmanın nəticəsi barədə sorğu edən Tərəfi təxirə salınmadan məlumatlandırır.

4. Əgər sorğu edilən Tərəfin səlahiyyətli orqanı şəxsin həbsindən sonra 30 gün ərzində onun ekstradisiyası haqqında sorğunu almazsa, müvəqqəti həbs olunan şəxs azadlığa buraxılır. Əgər müddətin bitməsindən əvvəl müvafiq sorğu sorğu edən Tərəfin səlahiyyətli orqanından alınmışdırsa, bu müddət 15 günə qədər uzadıla bilər.

5. Əgər şəxsin ekstradisiyası haqqında sorğu sonradan alınmışdırsa, bu maddənin 4-cü bəndində göstərilən müddətin bitməsi şəxsin ekstradisiyasına mane olmur.

Maddə 11

Əgər ekstradisiya haqqında sorğu təmin olunubsa, sorğu edilən Tərəfin ərazisində çəkilən həbsdə saxlama müddəti ekstradisiyası tələb olunan şəxsə qarşı sorğu edən Tərəfdə hər hansı hökm çıxarılarkən nəzərə alınmalıdır.

Maddə 12

Kolliziyalı sorğular

Əgər eyni cinayətlə bağlı bir neçə ekstradisiya sorğusu edilirsə, bu zaman ilk olaraq cinayətin baş verdiyi dövlətin, sonra maraqlarına zərər vurulmuş dövlətin və daha sonra vətəndaşı olduğuna görə cinayətkarın ekstradisiyasını tələb edən dövlətin sorğusu təmin olunur. Şərait eyni olduğu təqdirdə sorğunu ilk olaraq verən dövlətə üstünlük veriləcəkdir. Digər tərəfdən ekstradisiya sorğusu bir neçə cinayətə görə edildikdə isə üstünlük cinayətin törədilmə halına və ağırlığına görə müəyyən ediləcəkdir.

Maddə 13

Aşağıda göstərilən hallar istisna olmaqla, ekstradisiya olunan şəxs onun təslim edilməsinə qədər törədilmiş və ekstradisiyaya səbəb olan cinayətdən başqa hər hansı digər cinayətə görə sorğu edən Tərəfin ərazisində cinayət təqibinə və ya cəzaya məruz qalmır və üçüncü dövlətə təslim edilmir:

a) əgər sorğu edilən Tərəf razılıq verirsə - bu razılığın məqsədləri üçün sorğu edilən Tərəf bu Müqavilənin 6-cı maddəsində göstərilən sənədlərin və məlumatların, həmçinin həmin cinayət üzrə təslim edilən şəxsin mülahizələrinin təqdim edilməsini xahiş edə bilər;

b) əgər təslim edilən şəxs bəraət qazandıqdan sonra otuz gün müddətində sorğu edən Tərəfin ərazisini tərk etməmişsə - bu müddətə şəxsin özündən asılı olmayan səbəblərə görə sorğu edən Tərəfin ərazisini tərk edə bilmədiyi müddət daxil edilmir;

c) əgər həmin şəxs sorğu edən Tərəfin ərazisini tərk etdikdən sonra həmin əraziyə könüllü olaraq qayıdarsa.

Maddə 14

Əmlakın təslimi

1. Sorğu edilən Tərəf sorğu edən Tərəfin sorğusu əsasında və öz qanunvericiliyi imkan verdiyi həcmdə dəlil kimi istifadə oluna bilən və sorğu edilən Tərəfin ərazisində aşkar edilən cinayət yolu ilə əldə olunmuş gəlirləri, vasitələri və digər əmlakı müsadirə edə bilər və əgər ekstradisiya həyata keçirilmişsə, həmin əmlakı sorğu edən Tərəfə təhvil verə bilər.

2. Bu maddənin 1-ci bəndində qeyd olunan əmlak şəxsin vəfatı, itkin düşməsi və ya qaçması nəticəsində ekstradisiyası tələb olunan şəxsin təslim edilməsi mümkün olmadığı təqdirdə də təhvil verilə bilər.

3. Sorğu edilən Tərəf hər hansı digər cinayət işi ilə əlaqədar prosessual hərəkətlərin həyata keçirilməsi məqsədilə həmin hərəkətlərin başa çatmasına qədər yuxarıda qeyd olunan əmlakın təhvil verilməsini təxirə sala bilər və ya qaytarmaq şərtilə onu müvəqqəti olaraq sorğu edən Tərəfə verə bilər.

4. Bu maddənin müddəaları sorğu edilən Tərəfin və ya üçüncü tərəflərin həmin əmlaka dair hüquqlarına xələl gətirmir. Prosessual hərəkətlərin başa çatmasından sonra sorğu edən Tərəf heç bir ödəmə olmadan dərhal bu əmlakı sorğu edilən Tərəfin onu geri götürməkdən imtina etmədiyi halda sonuncu Tərəfə qaytarır.

Maddə 15

Şəxsin ekstradisiyası

1. Əgər ekstradisiya həyata keçirilirsə, Tərəflər ekstradisiyası tələb olunan şəxsin verilmə tarixini, yerini, vaxtını və ekstradisiya haqqında sorğunun icrası ilə əlaqədar digər məsələləri razılaşdırır. Sorğu edilən Tərəf ekstradisiyası tələb olunan şəxsin ekstradisiyadan əvvəl həbsdə saxlandığı müddət barədə sorğu edən Tərəfi məlumatlandırır.

2. Əgər sorğu edən Tərəf ekstradisiyası tələb olunan şəxsi təhvil verilmə tarixindən sonra on beş gün müddətində qəbul etməmişsə, sorğu edilən Tərəf həmin şəxsi dərhal azad edir və bu maddənin 3-cü bəndində nəzərdə tutulan hallar olmadıqda, həmin cinayətə görə bu şəxsin ekstradisiyasına dair sorğu edən Tərəfin yeni sorğusundan imtina edə bilər.

3. Əgər Tərəflərdən biri ekstradisiyası tələb olunan şəxsin verilməsini və ya qəbul edilməsini ondan asılı olmayan səbəblərə görə həyata keçirə bilmirsə, digər Tərəf bu barədə dərhal məlumatlandırılır. Belə halda Tərəflər ekstradisiya haqqında sorğunun yerinə yetirilməsinə dair müvafiq məsələləri bir daha razılaşdırır və bu maddənin 2-ci bəndinin müddəaları tətbiq olunur.

Maddə 16

Təxirə salınmış və ya müvəqqəti ekstradisiya

1. Əgər ekstradisiyası tələb olunan şəxs ekstradisiyaya səbəb olan cinayətdən başqa digər cinayətə görə sorğu edilən Tərəfin ərazisində cinayət təqibinə məruz qalırsa və ya cəza çəkirsə, həmin Tərəf cinayət təqibinin və ya cəzaçəkmənin bitməsinə qədər onun ekstradisiyasını təxirə sala bilər. Sorğu edilən Tərəf ekstradisiyanın təxirə salınması barədə sorğu edən Tərəfi məlumatlandırır.

2. Əgər bu maddənin 1-ci bəndində göstərilən ekstradisiyanın təxirə salınması ekstradisiyaya səbəb olan cinayət barədə cinayət təqibinin mürur müddətinin bitməsinə səbəb ola bilərsə və ya cinayət təqibinin həyata keçirilməsinə mane olarsa, sorğu edilən Tərəf razılaşdırılmış şərtlərə uyğun olaraq ekstradisiyası tələb olunan şəxsi müvəqqəti olaraq sorğu edilən Tərəfə verə bilər. Müvəqqəti verilən şəxs müvafiq prosedurların başa çatmasından sonra sorğu edilən Tərəfə qaytarılır.

Maddə 17

Tranzit

1. Əgər Tərəflərdən biri şəxsi üçüncü dövlətdən digər Tərəfin ərazisi vasitəsilə təslim edirsə, birincisi sonuncudan belə tranzit üçün icazə istəyir.

2. Sorğu edilən Tərəf öz qanunvericiliyinə zidd olmamaq və bu Müqavilənin 3-cü maddəsinin 1-ci bəndinin e) yarımbəndinə xələl gətirməmək şərtilə sorğu edən Tərəfin təqdim etdiyi tranzit haqqında sorğuya icazə verir.

3. Təyyarədən istifadə olunduqda və enmə planlaşdırılmadıqda belə icazə tələb olunmur.

4. Planlaşdırılmamış enmə baş verərsə, tranzit üçün icazə verilməsi barədə sorğu edilən Tərəf müşayiət edən əməkdaşın xahişi əsasında tranzit olunan şəxsi bu maddənin 1-ci və 2-ci bəndlərinə uyğun olaraq təqdim olunan tranzit sorğusu almanadək 48 saat müddətində həbsdə saxlaya bilər.

Maddə 18

Xərclər

Ekstradisiya ilə əlaqədar bütün xərcləri, ərazisində belə xərclərin əmələ gəldiyi Tərəf ödəyir. Tranzit ilə bağlı əmələ gələn xərcləri sorğu edən Tərəf ödəyir. Əgər həmin xərclər fövqəladə xarakter daşıyırsa, Tərəflər onların ödənilməsi üçün məsləhətləşmələr aparırlar.

Maddə 19

Bu Müqavilənin müddəaları Tərəflərin iştirakçısı olduğu digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 20

Bu Müqavilənin icrası və ya təfsiri ilə əlaqədar meydana çıxan hər hansı mübahisələr məsləhətləşmələr yolu ilə diplomatik kanallar vasitəsilə həll edilir.

Maddə 21

Ratifikasiya və ləğvetmə

1. Bu Müqavilə ratifikasiya edilir və ratifikasiya haqqında sənədlər mübadilə edilir. Bu Müqavilə ratifikasiya haqqında sənədlərin mübadiləsi tarixindən otuz gün sonra qüvvəyə minir.

2. Hər iki Tərəf bildiriş yolu ilə yazılı şəkildə diplomatik kanallar vasitə-silə istənilən vaxt bu Müqaviləni ləğv edə bilər. Müqavilə belə bildirişin verildiyi tarixdən altı ay sonra ləğv edilir. Lakin artıq başlanılmış işlərin bu Müqavilə ilə tənzimlənməsi onların bitməsinə qədər davam etdirilir.

Bunun təsdiqi olaraq aşağıda imza edənlər, onların hökumətləri tərəfindən lazımi qaydada səlahiyyətləndirilərək bu Müqaviləni imzaladılar.

Bu Müqavilə Əmman şəhərində 29 iyul 2007-ci il tarixində hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Müqavilənin təfsiri ilə bağlı fikir ayrılığı yarandıqda, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN	İORDANİYA HAŞİMİLƏR KRALLIĞI ADINDAN
(imza)	*(imza)*

"Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında diplomatik və xidməti pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında diplomatik və xidməti pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında" 2007-ci il iyulun 29-da Əmman şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 oktyabr 2007-ci il

№444-IIIQ

Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında diplomatik və xidməti pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti,

iki dövlət arasında dostluq münasibətlərini daha da inkişaf etdirmək niyyətilə,

etibarlı diplomatik və xidməti pasportlara malik olan vətəndaşların iki dövlət arasında gediş-gəlişinin və yerdəyişməsinin asanlaşdırılması arzusunda olaraq,

aşağıdakılar barəsində razılığa gəldilər:

Maddə 1

1. Etibarlı diplomatik və xidməti pasportlara malik olan Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı vətəndaşları, habelə adları onların pasportlarında qeyd olunan yetkinlik yaşına çatmamış şəxslər, digər Tərəfin dövlətinin ərazisinə 90 (doxsan) gün ərzində vizasız daxil ola, orada qala, oradan gedə və tranzit qaydada həmin ərazidən keçə bilərlər.

2. Tərəflərin dövlətlərinin vətəndaşlarının qalma müddətinin uzadılması, qəbul edən dövlətin səlahiyyətli orqanlarının icazəsindən asılı olaraq, göndərən dövlətin qəbul edən dövlətdəki səfirliyinin müraciəti əsasında həyata keçirilir.

Maddə 2

1. Bir dövlətin ərazisində diplomatik və ya konsulluq missiyalarında və ya beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliklərin üzvü olan, 1-ci maddədə etibarlı göstərilən pasportlara malik bir Tərəfin dövlətinin vətəndaşları digər Tərəfin ərazisinə viza tələblərindən azad şəkildə daxil ola və maksimum 90 (doxsan) gün ərzində orada qala bilərlər. Bu vaxt ərzində həmin şəxslər yerləşmə dövlətinin Xarici İşlər Nazirliyi ilə zəruri akkreditasiya prosedurunu tamamlamalıdırlar.

2. Bu maddənin birinci bəndinin müddəaları həmçinin diplomatik, rəsmi, xidməti və xüsusi pasportlara malik olan şəxslərin yaxın ailə üzvlərinə münasibətdə, onlar özləri eyni pasportlardan istifadə etdikləri halda tətbiq edilir.

Maddə 3

Etibarlı diplomatik və xidməti pasportlara malik olan hər iki Tərəfin vətəndaşları digər Tərəfin dövlətinin ərazisinə istənilən beynəlxalq sərhəd-buraxılış məntəqələrindən daxil ola və oradan çıxa bilərlər.

Maddə 4

Bir Tərəfin dövlətinin vətəndaşlarına məxsus diplomatik və ya xidməti pasportlar digər Tərəfin dövlətinin ərazisində itdikdə və ya korlandıqda, həmin pasportun sahibi digər Tərəfin Xarici İşlər Nazirliyini bu barədə məlumatlandırmalıdır və həmin şəxsə münasibətdə yeni səyahət sənədi tərtib olunacaqdır. Həmin səyahət sənədi ilə çıxış qəbul edən dövlətin Xarici İşlər Nazirliyinin müvafiq icazəsi ilə həyata keçirilir.

Maddə 5

Etibarlı diplomatik və xidməti pasportlara malik olan bir Tərəfin dövlətinin vətəndaşları digər Tərəfin ərazisində qüvvədə olan qanunlara və qaydalara əməl etməlidirlər.

Maddə 6

Tərəflər milli təhlükəsizliyin təmin edilməsi, ictimai asayişin qorunması üçün və ya vətəndaşların sağlamlığına təhlükə olduqda, bu Sazişin tətbiqini müvəqqəti, tamamilə və ya qismən dayandırmaq hüququnu özündə saxlayırlar. Tərəflər bu Sazişin tətbiqinin dayandırılması və onun yenidən qüvvəyə minməsi haqqında qərar barədə dərhal, 48 saatdan gec olmayaraq, diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandırırlar.

Maddə 7

Hər bir Tərəf digər Tərəfin "persona non qrata" və ya arzuolunmaz şəxslərini öz dövlətinin ərazisinə qəbul etməkdən imtina etmək və ya həmin şəxslərin öz ərazisində qalmasını ləğv etmək hüququnu özündə saxlayır.

Maddə 8

1. Tərəflərin Xarici İşlər Nazirlikləri bu Sazişin qüvvəyə minməsindən sonra 30 gün müddətində diplomatik kanallar vasitəsilə Sazişin şamil edildiyi pasportların nümunələrini mübadilə edəcəklər.

2. Tərəflər dövriyyəyə yeni diplomatik və xidməti pasportlar buraxdıqları halda, onların qüvvəyə minməsindən ən azı 30 gün əvvəl onların Xarici İşlər Nazirlikləri diplomatik

kanallar vasitəsilə bu pasportların nümunələrini mübadilə edirlər.

Maddə 9

Bu Sazişin müddəalarının yerinə yetirilməsi və tətbiq edilməsində yarana bilən hər hansı anlaşılmazlıq və mübahisə Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 10

Bu Sazişə hər hansı əlavə və dəyişikliklər Tərəflərin qarşılıqlı razılığı əsasında edilə bilər. Belə əlavə və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olan ayrı-ayrı protokollar formasında rəsmiləşdiriləcək və bu Sazişin 11-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minəcəkdir.

Maddə 11

1. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərin bu Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişinin alındığı tarixdən 30 gün sonra qüvvəyə minəcəkdir.

2. Tərəflərdən biri bu Sazişin qüvvəsini ləğv etmək niyyəti barədə istənilən vaxt digər Tərəfə diplomatik kanallarla yazılı şəkildə xəbər verə bilər. Saziş belə bildirişin alındığı tarixdən altı (6) ay sonra qüvvədən düşür.

Bu Saziş Əmman şəhərində 29 iyul 2007-ci il tarixində, iki əsl nüsxədə Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır və bütün mətnlər bərabər autentikdir.

Bu Sazişin təfsiri və tətbiqi zamanı fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İORDANİYA HAŞİMİLƏR KRALLIĞI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

"Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında" 2007-ci il iyulun 29-da Əmman şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 oktyabr 2007-ci il

№ 445-IIIQ

Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti,

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə müvafiq öhdəliklərini təsdiq edərək,

özlərinin Müdafiə Nazirlikləri arasındakı əməkdaşlığı inkişaf etdirməyi arzulayaraq,

ikitərəfli əməkdaşlığın onların müvafiq hərbi məsələlərinin qarşılıqlı anlaşılmasına və onların müvafiq müdafiə imkanlarının möhkəmləndirilməsinə kömək edəcəyinə əmin olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Məqsəd

Tərəflər müdafiə sahəsində qarşılıqlı əsasda əməkdaşlığı təşviq və inkişaf etdirmək məqsədilə birgə və onların dövlətlərinin müvafiq qanunlarına və beynəlxalq öhdəliklərinə uyğun olaraq fəaliyyət göstərəcəklər.

Maddə 2

Birgə Komissiya

Müdafiə sahəsində konkret əməkdaşlıq tədbirlərinin təşkil edilməsi və keçirilməsi hər tərəfdən yeddi nəfərdən çox olmayan üzvdən ibarət yaradılan Birgə Komissiya vasitəsilə aparılacaqdır. Birgə Komissiya, Tərəflər arasında razılaşdırıldığı kimi, hər il növbə ilə Bakıda və Əmmanda görüşəcəkdir. Birgə Komissiyaya, qəbul edən ölkənin başçılıq etdiyi sessiya prinsipinə müvafiq olaraq, Silahlı Qüvvələrin Baş Qərargah Rəisi və Silahlı Qüvvələrin Birləşmiş Qərargah Rəislərinin Sədri və ya onların təmsilçiləri növbə ilə sədrlik edəcəklər. Bu Komissiya bu Sazişin və ya bu Saziş, yaxud da hər hansı əlavə sazişlər çərçivəsində təşkil edilən hər hansı əməkdaşlıq proqramlarının əhatə etdiyi bütün tədbirlərə nəzarət edilməsinə və yerinə yetirilməsinə cavabdeh olacaqdır.

Maddə 3

Əhatə dairəsi

1. Tərəflər arasında əməkdaşlıq aşağıdakı sahələrdə həyata keçirilə bilər:

a. müdafiə təhlükəsizliyi və siyasəti;

b. silahların idxalı, ixracı və tranziti;

c. sülhməramlı və humanitar əməliyyatlar;

d. müdafiə, təhlükəsizlik və silahlara nəzarət üzrə beynəlxalq müqavilələrə riayət olunması;

e. Silahlı Qüvvələrin təşkili, quruluşu və hərbi bölmələrin təchizatı, şəxsi heyətin idarə edilməsi;

f. ordu quruculuğu/təlim;

g. hərbi tibb xidməti;

h. hərb tarixi, idman, musiqi.

2. Bu əməkdaşlıq yuxarıda göstərilən sahələrlə məhdudlaşdırılmayacaqdır. Əslində, Tərəflər hər iki Tərəfin zəruri hesab etdiyi, qarşılıqlı maraq doğuran yeni əməkdaşlıq sahələri axtaracaqlar.

Maddə 4

Əməkdaşlıq mexanizmi

Tərəflər arasında əməkdaşlıq aşağıdakı kimi həyata keçiriləcəkdir:

a. müdafiə nazirlərinin, Baş Qərargah Rəisi və Birləşmiş Qərargah Rəisləri Sədrinin, onların müavinlərinin və Tərəflərin səlahiyyət verdikləri digər rəsmi şəxslərin görüşləri;

b. iki Tərəfin ekspertləri arasında təcrübə mübadilələri;

c. qarşılıqlı təlim tədbirlərinin və təlimlərin təşkil edilməsi və həyata keçirilməsi;

d. hərbi təlimlərdə müşahidəçilərin iştirakı;

e. oxşar hərbi müəssisələr arasında əlaqələr;

f. müzakirələr, məsləhətləşmələr, görüşlər və simpoziumlarda, konfranslarda, kurslarda iştirak;

g. hərbi gəmilərin, təyyarələrin və başqa strukturların səfərləri;

h. məlumat və tədris nəşrləri mübadiləsi;

i. mədəni və idman tədbirləri mübadiləsi.

Maddə 5

Təchizat və material

1. Tərəflər onların Ölkələrində qüvvədə olan müvafiq qanunlara uyğun

olaraq, maddə 3-də göstərildiyi kimi silahların, o cümlədən onların tərkib hissələrinin aşağıdakı kateqoriyalar üzrə mübadiləsinə yardım göstərəcəklər:

a. təyyarə;

b. sualtı qayıq və suüstü döyüş hərbi dəniz vahidləri;

c. zirehli maşınlar, yüngül və ağır silahlar və sursat.

2. Bu mübadilə bu Saziş çərçivəsində, dövlətlərarası əməliyyatlar vasitəsilə və ya onların müvafiq Hökumətləri tərəfindən təsdiqlənmiş özəl şirkətlər vasitəsilə həyata keçiriləcəkdir.

3. Üçüncü Ölkələrə mümkün yenidən ixrac yalnız təqdim edən Ölkənin əvvəlcədən razılığı əsasında olacaqdır.

4. Bu maddə Tərəflərdən heç birini Razılığa gələn digər Tərəfin sonradan irəli sürdüyü silah mübadiləsi təklifi ilə razılaşmağa məcbur etmir.

5. Tərəflər bu Saziş çərçivəsində onlar üçün prioritet maraq doğuran digər sahələrdə

mübadiləni genişləndirmək niyyətində olarlarsa, onlar milli kateqoriyalar siyahısı əsasında belə malların spesifik olaraq müəyyənləşdirildiyi əlavə protokollarda açıq şəkildə bu Sazişə istinad edəcəklər.

6. Zəruri olduqda, malların təmənnasız təqdim edilməsi təfsilatlı tədbirləri əks etdirən müvafiq Texniki Saziş imzalandıqdan sonra həyata keçiriləcəkdir.

Maddə 6

Xərclər

1. Tərəflər bu Sazişin və mümkün əməkdaşlığın yerinə yetirilməsi üzrə xərcləri qarşılıqlıq prinsipi əsasında ödəyəcəklər.

2. Göndərən Tərəf səfər xərclərini, maaşı, bədbəxt hadisələrdən sığorta xərclərini və öz qaydalarına görə şəxsi heyətinə şamil edilən digər təminat növləri üzrə xərcləri ödəyəcəkdir.

3. Qəbul edən Tərəf onun dövlətinin ərazisinə giriş nöqtəsindən başlayaraq yerli nəqliyyat, planlaşdırılmış tədbirlər də daxil olmaqla, mümkün olarsa, hərbi binalarda yaşayış və yemək xərclərini ödəyəcəkdir.

4. Tərəflərin dövlətlərinin müvafiq qanunları ərazidə tibbi yardımı və müvafiq xərcləri tənzimləyir. Xüsusilə:

a. Qəbul edən Tərəf təcili tibbi yardımı təmin edəcəkdir.

b. Göndərən Tərəf özünün xəstə şəxsi heyətinin vətənə qaytarılması üçün xərclərə əlavə olaraq, sağlamlıq sığortasını ödəyəcəkdir.

5. Qarşılıqlığın bu ümumi prinsipi 10 nəfərdən artıq olan qruplara tətbiq edilməyəcəkdir. Bu qruplara dair maliyyələşdirmə prosedurları hər bir hal üçün ayrıca olaraq, Tərəflər arasında qarşılıqlı razılığa əsasən həyata keçiriləcəkdir.

6. Hərbi şəxsi heyət tərəfindən kurslarda iştirak: maliyyə və tibbi aspektlər, eləcə də əməkdaşlığın hər hansı xüsusi forması üçün ətraflı icra prosedurları isə, Tərəflər arasında iki Ölkənin mövcud qanunlarına müvafiq olaraq bağlanan hər bir hal üçün xüsusi əlavə sazişlərlə tənzimlənəcəkdir.

7. Tərəflərdən biri bu Saziş çərçivəsi xaricində nümayəndə heyəti göndərərsə, marağı olan Tərəf bütün müvafiq xərcləri ödəyəcəkdir.

Maddə 7

Təzminat

1. Vəzifəsi/təlimi zamanı və ya bununla bağlı, Qəbul edən Tərəfdə bilərəkdən, səhlənkarlıq və ya diqqətsizlik nəticəsində hərbi şəxsi heyət tərəfindən vurulan zərər üçün təzminata görə Göndərən Tərəf məsuliyyət daşıyacaqdır.

2. Əgər zərər hərbi şəxsi heyətə, əmlaka və infrastruktura dəymişsə, Tərəflər arasında hər hansı mübahisə və zərərə görə təzminat qarşılıqlı razılıq əsasında həll ediləcəkdir.

Maddə 8

Yurisdiksiya

1. Qəbul edən Tərəfin hakimiyyət orqanları Qəbul edən Tərəfin dövlətinin ərazisində törədilən, onun dövlətinin qanunvericiliyinə əsasən cinayət hesab olunan qanun pozuntularına görə səfər edən şəxsi heyətə öz yurisdiksiyalarını tətbiq etmək hüququna malikdirlər.

2. Bununla belə, Göndərən Ölkənin hakimiyyət orqanları öz Silahlı Qüvvələrinin üzvlərinə aşağıdakı hallarda öz yurisdiksiyalarını tətbiq etmək hüququna malikdirlər:

a. Göndərən Ölkənin təhlükəsizliyinə və ya mülkiyyətinə təhlükə təşkil edən qanun pozuntuları;

b. xidmət zamanı və ya onunla bağlı qəsdən və ya səhlənkarlığa görə törədilən hərəkətlərin və ya diqqətsizliyin nəticəsi olan qanun pozuntuları.

3. Yuxarıda b) yarımbəndində göstərilən halda, Göndərən Ölkənin hakimiyyət orqanları Qəbul edən Ölkənin hakimiyyət orqanlarına belə niyyətlərini bildirməklə və sonuncu razı olduqda, öz yurisdiksiyasını tətbiq etmək hüquqlarından imtina edə bilərlər.

Maddə 9

Məxfi məlumat

1. Bu Saziş çərçivəsində mübadilə edilən məlumatla Qəbul edən Tərəfin milli hüquq normalarına müvafiq olaraq davranılacaqdır.

2. Hər bir Tərəf bu Saziş çərçivəsində alınmış bütün məxfi materialların,

layihələrin, planların, texniki spesifikasiyanın və hər hansı digər məlumatın

Göndərən Tərəfin təyin etdiyi dərəcədən aşağı olmayan təhlükəsizlik mühafizəsini təmin edəcəkdir və onların Göndərən Tərəfin tələb etdiyi müddətdə məxfi saxlanılması üçün bütün zəruri tədbirləri görəcəkdir. Qəbul edən Tərəf hər hansı bir sənədin və ya materialın məxfilik təsnifatı dərəcəsini yalnız Göndərən Tərəfin yazılı razılığı olduqda dəyişdirə bilər.

3. Məxfi məlumat, sənəd və/və ya materiallar, tərkibində məxfi məlumat olan dəstək, eləcə də hər hansı şəraitdə və tərkibində belə məlumat olan hər hansı vasitə ilə yaradılan əlaqə deməkdir.

4. Tərəflərin istifadə etdiyi müvafiq təhlükəsizlik təsnifatı dərəcələri aşağıdakılardır:

Azərbaycan Respublikası Hökuməti üçün	İngilis dilində qarşılığı	İordaniya Haşimilər Krallığı Hökuməti üçün
Tam məxfi	Top secret	
Məxfi	Secret	
Xidməti istifadə üçün	Restricted	

5. Tərəflər bu Saziş çərçivəsində mübadilə edilən sənədlərin, materialların və texnologiyaların yalnız Tərəflərin xüsusi olaraq razılaşdırdıqları məqsədlər üçün və bu Sazişin əhatə dairəsində istifadə ediləcəyinə təminat verəcəklər.

6. Tərəflər arasında başqa cür razılaşdırılmadığı halda, bu Sazişdən irəli gələn əməkdaşlıq çərçivəsində əldə edilən istər məxfi, istərsə də qeyri-məxfi məlumatın, sənədlərin, texniki məlumatın, müdafiə materiallarının və təchizatın üçüncü tərəflərə ötürülməsi, onları verən Hökumətin əvvəlcədən yazılı razılığının mövzusu olacaqdır.

7. Tərəflərdən başqa, sənaye sahələri və/və ya qurumlar arasında bu Saziş çərçivəsində məxfi məlumat mübadilə edilərsə, iki Tərəfin cavabdeh orqanları tərəfindən ayrıca razılaşmalar işlənib hazırlanacaqdır. Belə razılaşmalara dair danışıqlar zamanı, bu Sazişdə qeyd olunan təhlükəsizlik tədbirləri razılaşdırma danışıqları zamanı mübadilə edilən məxfi məlumata da tətbiq ediləcəkdir.

8. Məxfiliyin təmin olunması öhdəliyi Tərəflərin bu Saziş çərçivəsində bir-birinə verdikləri texniki vasitələrə və avadanlığa da eyni dərəcədə şamil olunur.

Tərəflər arasında mübadilə edilən hər hansı məxfi məlumat bu Sazişin müddəti bitəndən sonra da bu maddəyə müvafiq olaraq onlar tərəfindən mühafizə ediləcəkdir.

Maddə 10

Mübahisələr

Bu Sazişin təfsiri və ya tətbiqi ilə bağlı hər hansı fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər onları ikitərəfli danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

Maddə 11

Qüvvəyə minmə/Ləğvetmə

1. Bu Saziş Tərəflərin, müvafiq ratifikasiya prosedurlarının yerinə yetirildiyini bir-birinə rəsmi şəkildə bildirəcəkləri iki bildirişdən ikincisinin alındığı tarixdən qüvvəyə minir.

2. Bu Sazişə rəsmi notalar vasitəsilə istənilən zaman düzəliş edilə bilər. Hər hansı dəyişiklik bu Saziş üçün müəyyənləşdirilmiş eyni prosedurlara riayət olunmaqla qüvvəyə minəcəkdir.

3. Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri Sazişin müddətinin başa çatmasına ən azı 6 ay qalmış diplomatik kanallar vasitəsilə digər Tərəfə Sazişin ləğv edilməsi niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Saziş 12 aylıq müddətlərə uzadılır.

4. Bu Saziş ləğv olunduğu halda, Tərəflər tamamlanmamış tədbirləri tamamlamaq üçün hər cür səy göstərəcəklər və mübahisəli məsələləri həll etmək məqsədilə məsləhətləşmələrə başlayacaqlar.

Bu Saziş Əmman şəhərində 29 iyul 2007-ci ildə iki əsl nüsxədə, hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər autentikdir. Mətnlərin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilin-də olan mətnə üstünlük veriləcəkdir.

Bunun təsdiqi olaraq, müvafiq səlahiyyətli orqan tərəfindən səlahiyyətləndirilmiş aşağıda imza edən şəxslər bu Sazişi imzaladılar.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

(imza)

İORDANİYA HAŞİMİLƏR KRALLIĞI HÖKUMƏTİ ADINDAN

(imza)

"Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında" 2007-ci il iyulun 29-da Əmman şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 oktyabr 2007-ci il

№446-IIIQ

Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti,

bazar iqtisadiyyatı çərçivəsində, iki ölkə arasında ticarət və iqtisadi əlaqələri, eləcə də iki ölkə arasında və onların ərazilərindən tranzitlə avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını inkişaf etdirmək arzusu ilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Fəsil I

XÜSUSİ MÜDDƏALAR

Maddə 1

Tətbiq edilmə dairəsi

1. Bu Sazişin müddəaları Razılığa gələn Tərəflər arasında, onların dövlətlərinin ərazilərindən Razılığa gələn Tərəflərin dövlətlərinin ərazisində qeydiyyatdan keçmiş nəqliyyat vasitələri ilə sərnişinlərin və yüklərin tranzitlə beynəlxalq yerüstü daşımalarına tətbiq ediləcəkdir.

2. Bu Sazişin müddəaları Razılığa gələn Tərəflərin iştirakçısı olduğu beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə təsir etməyəcəkdir.

3. Silahların, döyüş sursatlarının və hərbi vəsaitlərin daşınması buradakı müddəalardan istisna ediləcəkdir.

Maddə 2

Tərifler

Sazişin müvafiq bəndlərində istifadə edilən terminlər aşağıdakı mənaları daşıyır:

1. "Daşıyıcı" - Razılığa gələn Tərəflərdən birinin ərazisində təsis olunmuş və təsis olunduğu ölkədə müvafiq milli qanunvericiliyə uyğun olaraq beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirmək üçün səlahiyyəti olan hər hansı bir hüquqi və ya fiziki şəxs deməkdir.

2. "Avtomobil nəqliyyatı vasitəsi" - Razılığa gələn Tərəflərdən birinin ərazisində qeydiyyatdan keçmiş, yük və sərnişin daşımalarında istifadə üçün nəzərdə tutulmuş mühərrikli avtomobil nəqliyyatı vasitəsi deməkdir.

Bu Sazişin məqsədləri üçün "avtomobil nəqliyyatı vasitəsi" termini istənilən mühərrikli nəqliyyat vasitələri ilə bağlı hər hansı bir qoşqu və ya yarımqoşqu, eləcə də yol nəqliyyat vasitələrinin hər hansı bir kombinasiyasına şamil edilir.

3. "Daşıma" - yüklü və ya yüksüz nəqliyyat axım, habelə avtomobil nəqliyyatı vasitəsinin, qoşqu və ya yarımqoşqunun səyahətin bir hissəsi olaraq qatar və ya bərə ilə daşınması deməkdir.

4. "Kabotaj" - Razılığa gələn Tərəflərdən birinin dövlətinin ərazisində qeydə alınmış avtomobil nəqliyyatı vasitəsilə qəbul edən ölkənin ərazisində yerləşən iki məntəqə arasında həyata keçirilən sərnişin və yük daşımaları deməkdir.

5. "Kombinəedilmiş (Multimodal) daşıma" - başlanğıc və ya son daşıma məntəqəsində avtomobil yolundan istifadə olunaraq, yük maşını, qoşqu, yarımqoşqu, konteyner vasitəsilə həyata keçirilən dəniz və dəmir yolu daşımaları deməkdir.

6. "Razılığa gələn Tərəflərin ərazisi" - İordaniya Haşimilər Krallığının və Azərbaycan Respublikasının ərazisi deməkdir.

7. "Təsis olunduğu ölkə" - daşıyıcının təsis olunduğu və avtonəqliyyat vasitəsinin qeydiyyatdan keçdiyi Tərəfin dövlətinin ərazisi deməkdir.

8. "Qəbul edən ölkə" - avtomobil nəqliyyatı vasitəsinin qeydiyyata alındığı ölkədən fərqli olaraq, onun daşıma əməliyyatına cəlb olunduğu Tərəfin dövlətinin ərazisi deməkdir.

9. "Avtobus" - Razılığa gələn Tərəflərdən birinin dövlətinin ərazisində qeydiyyata alınmış, müvafiq milli qanunvericiliyə .uyğun olaraq sərnişin daşıması üçün nəzərdə tutulmuş, mexanikləşdirilmiş nəqliyyat vasitəsi deməkdir.

10. "Müntəzəm daşıma" - əvvəlcədən təyin olunmuş marşrut və razılaşdırılmış hərəkət cədvəli üzrə, sərnişinlərin minib-düşə biləcəkləri məntəqələr göstərilməklə həyata keçirilən beynəlxalq sərnişin daşımaları deməkdir.

11. "İki məntəqə arasında müntəzəm sərnişin daşımaları" - əvvəlcədən təşkil edilmiş sərnişin qruplarının vahid yoladüşmə məntəqəsi və vahid təyinat məntəqəsi arasında təkrarlanan daşınması xidmətidir.

Yoladüşmə məntəqəsindən hərəkətə başlayan sərnişinlərdən ibarət olan hər bir qrup növbəti dəfə geriyə, yoladüşmə məntəqəsinə daşmır. Yoladüşmə və təyinat məntəqəsi

uyğun olaraq səyahətin başlandığı və sona çatdığı məntəqələrdir. İki məntəqə arasında müntəzəm daşımalar seriyasında təyinat məntəqəsindən ilk geridönmə və başlanğıc məntəqəsindən ilk yoladüşmə yüksüz halda yerinə yetirilməlidir.

12. "Qeyri-müntəzəm daşımalar" - bu maddənin 3-cü bəndində göstərilmiş müntəzəm daşımaların tərifinə uyğun gəlməyən daşımalar deməkdir.

13. "Nəzarət sənədi" - bu Sazişin 16-cı maddəsinə uyğun olaraq Birgə Komissiya tərəfindən razılaşdırılmış və təsdiq edilmiş avtobus üçün sərnişinlərin siyahısı.

Fəsil II

SƏRNİŞİN DAŞIMALARI

Maddə 3

Müntəzəm sərnişin daşımaları

1. Razılığa gələn Tərəflərin dövlətlərinin əraziləri arasında avtobusla həyata keçirilən müntəzəm sərnişin daşımaları üçün Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları tərəfindən əvvəlcədən verilmiş "İcazə" tələb olunur.

2. Müntəzəm daşımaların həyata keçirilməsi üçün daşıyıcılar öz ölkəsinin səlahiyyətli orqanına "İcazə" almaq barədə müraciət etməlidirlər. Əgər müraciət səlahiyyətli orqan tərəfindən qəbul olunarsa, o, bu müraciəti qəbul edən ölkənin səlahiyyətli orqanına müvafiq sənədlər ilə birlikdə göndərməlidir. Qarşı tərəfdən razılıq alınmadığı halda ikitərəfli müntəzəm daşıma sənə-dindən imtina edilməlidir.

Sazişin 16-cı maddəsinə uyğun olaraq, Birgə Komissiya icazə sənədinin formasını, icazə prosedurlarını, daşıma xidmətləri göstərən avtobusun oturacaqlarının minimum sayını və tələb olunan digər sənədləri müəyyən edir.

3. İcazə sənədi Razılığa gələn Tərəflərin səlahiyyətli orqanlarının birgə razılığı əsasında qəbul edilir.

Əgər xüsusi bir vəziyyət baş verməzsə, icazə sənədini təsdiq etmək və ya ondan imtina etməklə bağlı 3 ay müddətində qərar qəbul edilməlidir.

4. Daşıma şərtlərində dəyişikliklər və daşımanın ləğv olunması bu maddənin 2-ci və 3-cü bəndlərinə əsasən həyata keçirilir.

Əgər daşıma xidmətlərinə uzunmüddətli tələb yoxdursa, daşıyıcı səlahiyyətli orqanı dörd həftə əvvəl xəbərdarlıq etməklə onu dayandıra bilər.

Maddə 4

İki məntəqə arasında müntəzəm daşıma

1. Razılığa gələn Tərəflərin dövlətlərinin əraziləri arasında və onların dövlətlərinin ərazilərindən tranzitlə avtobus vasitəsilə sərnişin daşımalarını həyata keçirmək üçün qəbul edən ölkənin səlahiyyətli orqanının müvafiq "İcazə"si olmalıdır.

2. Müntəzəm daşımaların həyata keçirilməsi üçün daşıyıcılar öz ölkələrinin səlahiyyətli orqanına "İcazə" almaq barədə müraciət etməlidirlər.

3. Sazişin 16-cı maddəsinə uyğun olaraq, Birgə Komissiya icazə sənədinin formasını,

icazə prosedurlarını, daşıma xidmətləri göstərən avtobusun oturacaqlarının minimum sayını və tələb olunan digər sənədləri müəyyən edir.

4. Birgə Komissiya müntəzəm daşıma üçün daha yüngül rejim müəyyən edə bilər.

Maddə 5

Qeyri-müntəzəm daşımalar

1. Razılığa gələn Tərəflərin dövlətlərinin əraziləri arasında və onların dövlətlərinin ərazilərindən tranzitlə avtobus vasitəsilə qeyri-müntəzəm sərnişin daşımalarını həyata keçirmək üçün qəbul edən ölkənin səlahiyyətli orqanının müvafiq "İcazə"si olmalıdır.

2. Qəbul edən ölkənin ərazisində aşağıdakı qeyri-müntəzəm daşımaların həyata keçirilməsi üçün heç bir "İcazə" tələb olunmayacaqdır:

2.1. eyni qrup sərnişinlərin eyni avtomobil nəqliyyatı vasitəsilə bütün səyahət boyu daşınması və yola düşdükləri yerə qaytarılmasından ibarət iki başa gediş-gəliş səyahət daşımaları;

2.2. birbaşa sərnişinləri aparıb, geriyə sərnişinsiz qayıtmaq şərtilə həyata keçirilən daşımalar;

2.3. bir başa sərnişinsiz gedib, geriyə sərnişinləri qaytarmaqla həyata keçirilən daşımalar, əgər:

a) səyahət üçün yaradılmış sərnişin qrupu ilə bağlanmış müvafiq müqavilənin qüvvəyə minmə tarixi qrupun digər ölkənin ərazisinə daxil olma tarixindən əvvəldirsə və sərnişinlər yola düşmə ölkəsinin ərazisinə qaytarılırlarsa;

b) Tərəfin dövlətinin ərazisinə eyni daşıyıcı tərəfindən əvvəlcədən gətirilmiş sərnişinlər yenidən yola düşdükləri ölkənin ərazisinə qaytarılırlarsa;

c) sərnişinlər, dəvəti göndərən şəxs tərəfindən daşıma haqqını ödəməklə təsis ölkəsi ərazisinə səyahət etmək üçün dəvət olunublarsa.

3. Xüsusi razılıq alınmadan "İcazə" sənədindən azad edilmiş səyahət zamanı yol boyu sərnişinlərin yığılmasına icazə verilmir.

Sazişin 16-cı maddəsinə uyğun olaraq Birgə Komissiya qeyri-müntəzəm daşımaların "İcazə" sənədindən azad olunmuş kateqoriyalarının sayını artıra bilər.

4. Sazişin 16-cı maddəsinə uyğun olaraq Birgə Komissiya qeyri-müntəzəm daşıma xidmətləri göstərən avtobusun oturacaqlarının minimum sayını müəyyən edir.

5. "İcazə" sənədindən azad olunmuş qeyri-müntəzəm daşıma xidmətləri həyata keçirən avtobuslar nəzarət sənədinə malik olmalıdırlar. Nəzarət sənədinin məzmunu Sazişin 16-cı maddəsinə uyğun olaraq Birgə Komissiya tərəfindən razılaşdırılır.

Maddə 6

Sərnişin daşımalarının ümumi təminatı

1. "İcazə" yalnız onun verildiyi daşıyıcı tərəfindən istifadə oluna bilər və digər daşıyıcıya verilə bilməz.

2. Daşıyıcılar qəbul edən ölkənin ərazisində kabotaj daşımaları həyata keçirə bilməzlər.

3. Sərnişinlər daxilolma vizası ilə birlikdə etibarlı olan pasporta malik olmalıdırlar.

Fəsil III

YÜK DAŞIMALARI

Maddə 7

İcazə sistemi

1. Daşıyıcılar qəbul edən ölkənin səlahiyyətli orqanları tərəfindən əvvəlcədən verilmiş "İcazə"lərə əsasən, Razılığa gələn Tərəflərin dövlətlərinin əraziləri arasında yük daşımalarını həyata keçirə bilərlər.

2. Daşıyıcılar Razılığa gələn Tərəflərin dövlətlərinin ərazisindən üçüncü ölkəyə/ölkədən yük daşımalarını xüsusi icazə vasitəsilə həyata keçirə bilərlər.

3. Təhlükəli yüklərin daşınması üçün qəbul edən ölkənin səlahiyyətli orqanları tərəfindən verilən xüsusi icazə tələb olunur.

4. Daşıyıcılar qəbul edən ölkənin ərazisində kabotaj daşımaları həyata keçirə bilməzlər.

Maddə 8

İcazə tələb edilməyən daşımalar

1. Aşağıdakı kateqoriyalara aid beynəlxalq daşımalar üçün "İcazə" tələb olunmur:

a) qoşqu da daxil olmaqla icazə verilən yük tutumu 3,5 tondan artıq olmayan avtomobil nəqliyyatı vasitələri ilə daşımalar zamanı;

b) zədələnmiş və ya sıradan çıxmış avtomobil nəqliyyatı vasitələrinin daşınması, eləcə də texniki xidmət avtomobillərinin gedişi zamanı;

c) sıradan çıxmış avtomobil nəqliyyatı vasitəsini digər ölkədə əvəz etmək üçün nəzərdə tutulmuş avtomobil nəqliyyatı vasitəsinin yüksüz gedişi, eləcə də sıradan çıxmış avtomobil nəqliyyatı vasitəsinin təmirdən sonra geriyə qaytarılması zamanı;

d) fövqəladə hallarda, xüsusən təbii fəlakətlər zamanı yardım göstərmək üçün zəruri olan tibbi ləvazimat və digər təchizatların, eləcə də humanitar yardım yüklərinin daşınması zamanı;

e) kommersiya məqsədləri daşımayan, yarmarka və sərgilər üçün nəzərdə tutulan incəsənət əsərlərinin və eksponatların daşınması zamanı;

f) kommersiya məqsədləri daşımayan teatr, musiqi, kino və ya idman yarışları, sirk, yarmarka, sərgilər üçün lazım olan mexanizmlər, ləvazimatlar və ya heyvanlar, həmçinin radio və televiziya verilişləri, yaxud filmlərin çəkilişi üçün istifadə olunan əşyaların daşınması zamanı;

g) cənazələrin daşınması zamanı;

h) poçtun daşınması zamanı.

Sazişin 16-cı maddəsinə uyğun olaraq Birgə Komissiya icazə tələb olunmayan beynəlxalq daşımalara əlavə və dəyişikliklər edə bilər.

Maddə 9

İcazə vəziyyəti

1. Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları hər il razılaşdırılmış sayda "İcazə" blanklarının mübadiləsini aparırlar.

2. Yük daşımalarına verilən "İcazə" 13 ay müddətinə etibarlıdır.

3. "İcazə" yalnız onun verildiyi daşıyıcı tərəfindən istifadə oluna bilər və digər daşıyıcıya verilə bilməz.

4. "İcazə" yalnız bir nəqliyyat vasitəsi üçün istifadə oluna bilər. Nəqliyyat vasitələrinin kombinasiyası halında, avtomobil nəqliyyatı vasitələri "İcazə"dən azadolma üçün əsas amil kimi müəyyən edilir.

5. Sazişin 16-cı maddəsinə uyğun olaraq Birgə Komissiya kvota, kateqoriya və "İcazə"ləri nizama salan digər məsələləri müəyyən edir.

Fəsil IV

ÜMUMİ MÜDDƏALAR

Maddə 10

Vergi və rüsumlar

1. Bu Saziş əsasında daşımaların yerinə yetirilməsi zamanı avtonəqliyyat vasitəsinin texniki xarakteristikalarına uyğun istehsalçı-zavod tərəfindən quraşdırılmış çənlərdə olan və qəbul edən ölkənin milli qanunvericiliyinə əsasən icazə verilən miqdarda yanacaq, avtonəqliyyat vasitələrinin normal istismarı üçün nəzərdə tutulmuş miqdarda sürtgü materialları və lazımi miqdarda ehtiyat hissələri və alətlər gömrük rüsumlarından, digər yığımlardan və vergilərdən qarşılıqlı surətdə azad olunur. İstifadə edilməmiş və ya əvəz edilmiş ehtiyat hissələri, eləcə də alətlər geriyə qaytarılmalı və ya gömrük rejimində məhv edilməlidir.

2. Bu Saziş çərçivəsində, Razılığa gələn Tərəflərdən birinin avtonəqliyyat vasitələri digər Tərəfin dövlətinin ərazisində sərnişin və yük daşımalarını həyata keçirərkən avtomobil yollarından və körpülərdən istifadə edilməsi və onların saxlanılması ilə bağlı yığımlar və ödənişlər qəbul edən ölkənin milli qanunvericiliyinin tələblərinə uyğun olmalıdır.

Maddə 11

Çəki və ölçülər

1. Nəqliyyat vasitələrinin yolverilən maksimal çəkisi, oxa düşən yükü və ölçüləri, qəbul edən ölkənin müəyyən etdiyi limitlərdən yüksək olmayan qeydiyyat sənədlərinə daxil edilmiş göstəriciləri aşmamalıdır.

2. Daşıma zamanı istifadə olunan yüklü və ya yüksüz avtomobil nəqliyyatı vasitəsinin çəki və ölçüləri qəbul edən ölkənin ərazisində qüvvədə olan maksimum icazə verilə bilən məhdudiyyəti keçərsə, həmin ölkənin səlahiyyətli orqanlarının verdiyi xüsusi icazə tələb olunur.

Maddə 12

Viza məsələləri

Razılığa gələn Tərəflərin ölkələrinin müvafiq qurumları bu Sazişin müddəalarına və Razılığa gələn Tərəflərin ölkələrinin müvafiq milli qanunvericiliyinə uyğun olaraq beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən nəqliyyat vasitələrinin heyətlərinin üzvləri üçün (iki nəfərdən artıq olmayaraq) 3 aylıq müddətdə 90 gün etibarlı olacaq çoxdəfəlik vizalar verəcəkdir.

Maddə 13

Nəzarət sənədi

1. Beynəlxalq daşımalar zamanı, avtomobil nəqliyyatı vasitələrində bu Sazişdə göstərilən "İcazə" və nəzarət sənədlərindən əlavə, gömrük keçidləri üçün Razılığa gələn Tərəflərin milli qanunvericiliyinə uyğun müvafiq sənədlər olmalıdır və nəzarət orqanının səlahiyyətli nümayəndələrinin tələbi ilə təqdim olunmalıdır.

2. Bu Sazişə uyğun olaraq avtonəqliyyat vasitələri sürücülərinin üzərində aşağıda göstərilən sənədlər olmalıdır:

a) etibarlı olan beynəlxalq sürücülük vəsiqəsi;

b) avtomobil nəqliyyatı vasitəsinin etibarlı qeydiyyat sənədi;

c) daxilolma vizası ilə birlikdə etibarlı olan pasport.

Maddə 14

Sığorta

Razılığa gələn Tərəflərin əraziləri arasında və /və ya onların ərazilərindən tranzitlə sərnişinlərin, baqajın və/və ya yüklərin daşınması, Razılığa gələn hər bir Tərəfin ölkəsində qüvvədə olan və nəqliyyat operatorları üçün nəzərdə tutulmuş qanunvericiliyə riayət edilməklə üçüncü şəxs qarşısında məsuliyyətinin icbari sığortasının təmin edilməsi əsasında yerinə yetirilir.

Maddə 15

Daşıyıcıların öhdəlikləri və pozuntular

1. Razılığa gələn Tərəflərin daşıyıcıları və onların ekipajları qəbul edən ölkənin ərazisində daşımaları həyata keçirərkən həmin ölkədə qüvvədə olan qanun və qaydalara riayət etməlidirlər.

2. Razılığa gələn Tərəflərdən birinin ərazisində qeydiyyata alınmış hər hansı bir daşıyıcı qəbul edən ölkənin ərazisində qüvvədə olan milli qanunvericiliyə, yaxud bu Sazişin müddəalarına və "İcazə"lərin şərtlərinə riayət etmədikdə, qəbul edən ölkənin səlahiyyətli orqanlarının müraciəti ilə Razılığa gələn digər Tərəfin səlahiyyətli orqanları öz ölkəsinin qanunvericiliyinə uyğun olaraq onlara qarşı müəyyən tədbirlər görə bilər. Xüsusilə ciddi məsələlərdə daşıyıcının təsis olunduğu ölkənin səlahiyyətli orqanları pozuntuya yol vermiş daşıyıcıya qarşı qərar çıxarana kimi qəbul edən ölkənin səlahiyyətli orqanı daşıyıcını öz ölkəsində daşıma əməliyyatlarından müvəqqəti olaraq məhrum edə bilər.

Pozuntuya yol vermiş daşıyıcıya qarşı tədbirlər görmüş səlahiyyətli orqanlar qəbul edən ölkənin səlahiyyətli orqanlarına bu barədə məlumat verəcəkdir.

Maddə 16

Birgə Komissiya

1. Razılığa gələn Tərəflər bu Sazişin müddəalarının tətbiqi ilə əlaqədar səlahiyyətli orqanlar tərəfindən təyin olunmuş nümayəndələrdən ibarət Birgə Komissiya yaradırlar.

2. Birgə Komissiyanın vəzifələri aşağıdakılardan ibarətdir:

a) qarşılıqlı icazələrin kateqoriyalarını müəyyən etmək;

b) Bu Sazişin müddəalarının yerinə yetirilməsinə nəzarət etmək;

c) səlahiyyətli orqanlar tərəfindən bilavasitə tənzimlənə bilməyən problemlərin öyrənilməsi və həlli üçün təkliflərin verilməsi;

d) bu Sazişin tətbiqi və şərhi ilə bağlı məsələlərə baxılması və onların həlli üçün tövsiyələrin verilməsi;

e) Sazişə düzəlişlər etməklə bağlı təkliflər vermək və razılaşdırmaq üçün səlahiyyətli orqanlara təqdim etmək;

f) Sazişə dair tələb olunan digər məsələlərə baxılması.

Birgə Komissiyanın toplantıları Razılığa gələn Tərəflərdən birinin səlahiyyətli orqanının sorğusuna əsasən iki ildən bir növbə ilə İordaniya Haşimilər Krallığında və Azərbaycan Respublikasında keçirilir. Səlahiyyətli orqanlar diplomatik kanallar vasitəsilə yazılı müraciət əsasında görüşləri təşkil edirlər.

Maddə 17

Digər məsələlər

Bu Sazişlə tənzimlənməyən məsələlər Razılığa gələn Tərəflərin dövlətlərinin daxili qanunvericiliyinə uyğun olaraq həll edilir.

Fəsil V

YEKUN MÜDDƏALAR

Maddə 18

Səlahiyyətli orqanlar

Bu Sazişin məqsədləri üçün səlahiyyətli orqanlar aşağıdakılardır: Azərbaycan Respublikası tərəfindən - Nəqliyyat Nazirliyi, İordaniya Haşimilər Krallığı tərəfindən - Nəqliyyat Nazirliyi.

Maddə 19

Düzəlişlər

Sazişə edilən hər hansı düzəlişlər Razılığa gələn Tərəflər arasında razılaşdırılacaq və bu Sazişin 20-ci maddəsinə uyğun olaraq qüvvəyə minəcəkdir.

Maddə 20

Qüvvəyə minmə və qüvvədən düşmə

1. Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Razılığa gələn Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən 30 gün sonra qüvvəyə minir.

2. Razılığa gələn Tərəflərdən biri bu Sazişə xitam vermək niyyəti barədə diplomatik kanallar vasitəsilə yazılı bildiriş təqdim etməklə bu Sazişin qüvvəsinə xitam verə bilər. Bu Saziş belə bildirişin alındığı tarixdən 6 ay sonra qüvvədən düşmüş hesab ediləcəkdir.

Bu Saziş Əmman şəhərində 29 iyul 2007-ci il tarixində Azərbaycan, ərəb və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir. Mətnin təfsiri zamanı fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İORDANİYA HAŞİMİLƏR KRALLIĞI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikası Prezidentinin və İran İslam Respublikası Prezidentinin Birgə Bəyanatının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası Prezidentinin və İran İslam Respublikası Prezidentinin 2007-ci il avqustun 21-də Bakı şəhərində imzalanmış Birgə Bəyanatı təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 oktyabr 2007-ci il

№447-IIIQ

Azərbaycan Respublikası Prezidentinin və İran İslam Respublikası Prezidentinin Birgə Bəyanatı

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dəvətinə əsasən, İran İslam Respublikasının Prezidenti cənab doktor Mahmud Əhmədinejadın başçılıq etdiyi nümayəndə heyəti 21-22 avqust 2007-ci il tarixində Azərbaycan Respublikasına rəsmi səfər etmişdir.

Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və İran İslam Respublikasının Prezidenti cənab doktor Mahmud Əhmədinejad arasında səmimi dostluq şəraitində ikitərəfli münasibətlərin müxtəlif aspektlərinə dair müzakirələr və danışıqlar aparılmışdır.

Tərəflər danışıqlar və müzakirələrin nəticəsi olaraq aşağıdakıları bəyan etdilər:

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında ənənəvi dostluq münasibətlərinin hərtərəfli inkişaf etdirilməsi əzmində olaraq,

Beynəlxalq münasibətlərin hazırkı inkişafı kontekstində ikitərəfli siyasi dialoqun əhəmiyyətini vurğulayaraq,

regionda ölkələrin normal inkişafına, onların irimiqyaslı iqtisadi və digər qarşılıqlı fəaliyyətlərinə maneçilik törədən münaqişələrin həllini tapmaması ilə əlaqədar narahatlıq ifadə edərək,

Azərbaycan və İran arasında ikitərəfli siyasi, iqtisadi, humanitar, mədəni və s. əlaqələrin hər iki dövlətin potensialına uyğun olaraq inkişaf etdirilməsinin zəruriliyini qeyd edərək,

İran İslam Respublikasının Prezidenti cənab doktor Mahmud Əhmədinejadın Azərbaycan Respublikasına hazırkı səfərinin iki ölkə arasında dostluq və əməkdaşlığın dərinləşməsinə və daha da genişlənməsinə töhfə verəcəyinə əminlik ifadə edərək,

Beynəlxalq münasibətlərdə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsəd və prinsiplərinə, beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına, o cümlədən dövlətlərin ərazi bütövlüyü, sərhədlərin toxunul-mazlığı və dövlətlərin suveren bərabərliyi, bir-birinin daxili işlərinə qarışma-maq, zor işlətməmək və ya zor işlətməklə hədələməmək prinsiplərinə riayət edilməsinin vacibliyini vurğulayaraq,

20 may 2002-ci il tarixində imzalanmış "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında Müqavilə"yə uyğun olaraq inkişaf etdirilən Azərbaycan Respublikası və İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsinin regionda sabitlik və sülhün bərqərar olmasında mühüm rol oynayacağını vurğulayaraq,

Tərəflər iki ölkə arasında mövcud mehriban qonşuluq münasibətlərinə və dərin tarixi, dini və mədəni ortaqlıqlara toxunmaqla yanaşı, siyasi, iqtisadi, elmi, texniki, mədəni və tibb sahələri üzrə ikitərəfli əlaqələrin daha da genişləndirilməsinin vacibliyini qeyd etdilər.

Tərəflər siyasi təmasları bundan sonra da səmərəli şəkildə inkişaf etdirərək, ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi məqsədilə, hər iki ölkənin hökumətləri arasında müxtəlif səviyyələrdə, həmçinin iki ölkə xalqlarını təmsil edən parlament üzvləri arasında mübadilələrin genişləndirilməsi də daxil olmaqla, siyasi dialoqun aparılmasının əhəmiyyətini qeyd etdilər.

Tərəflər Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsində mühüm rol oynadığını vurğulayaraq, Komissiyanın növbəti iclasının tezliklə keçiril-məsinin vacibliyini qeyd etdilər.

Tərəflər iki ölkə arasında iqtisadiyyat, ticarət, kommunikasiya, turizm, səhiyyə, elm, təhsil, mədəniyyət, ətraf mühitin mühafizəsi, humanitar və s. sahələrdə əlaqələrin və texniki əməkdaşlığın genişləndirilməsinin təmin edil-məsi məqsədilə zəruri tədbirlər həyata keçirəcəklər.

Tərəflər energetika, ticarət, neft-kimya, yüngül sənaye, maşınqayırma, kənd təsərrüfatı, nəqliyyat və rabitə infrastrukturları sahələrində əməkdaşlığın genişləndirilməsi istiqamətində səy göstərəcəklərini bildirdilər.

Tərəflər iki dövlət arasında infrastruktur və nəqliyyat layihələrinin həya-ta keçirilməsini dəstəkləyir və Ordubad və Marazad Su Elektrik Stansiyalarının və Culfa (Azərbaycan Respublikası) - Culfa (İran İslam Respublikası) yeni avtomobil yolu körpüsünün tikintisinə dair sənədlərin imzalanmasını yük-sək qiymətləndirirlər.

Tərəflər BMT Nizamnaməsinə uyğun olaraq dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə, beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığına hörmət və riayət edilməsi əsasında münaqişələrin sülh yolu ilə həll edilməsi məqsədilə fəaliyyət göstərəcəklər.

Tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə BMT-nin və İKT-nin müvafiq qətnamələrinin yerinə yetirilməsinə və bu münaqişənin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında həll olunmasına tərəfdar olduqlarını bir daha bəyan edirlər.

Tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində ATƏT çərçivəsində fəaliyyət göstərən Minsk Qrupu tərəfindən təsirli və qətiyyətli addımların atılmasının vacibliyini qeyd edirlər.

Tərəflər beynəlxalq terrorizm, ekstremizmin bütün növləri və aqressiv separatizm, "nəzarətsiz zonalarda" narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq, insan və qanunsuz silah alveri, kütləvi qırğın silahlarının yayılması kimi beynəlxalq təhlükəsizlik və sabitliyə təhlükə törədən ümumi təhdidləri pisləyir və onlara qarşı mübarizə sahəsində beynəlxalq səylərin artırılması zəruriliyindən çıxış edirlər.

Tərəflər beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərini əsas götürərək, Nüvə Silahının Yayılmaması haqqında Müqavilə və Beynəlxalq Atom Enerjisi Agentliyi ilə əməkdaşlıq çərçivəsində bütün ölkələrin, o cümlədən İran İslam Respublikasının nüvə enerjisini dinc məqsədlərlə istifadə hüququnu dəstəkləyir.

Tərəflər Xəzəryanı ölkələrin xarici işlər nazirlərinin 20 iyun 2007-ci il tarixində Tehranda keçirilmiş toplantısının nəticələrindən razı qaldıqlarını bildirərək, Tehranda Xəzəryanı ölkə başçılarının zirvə toplantısının keçirilməsinin vacibliyini qeyd edirlər.

Tərəflər Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi üzrə aparılan işlər çərçivəsində konstruktiv dialoqun davam etdirilməsi zərurətini vurğulayırlar. Bununla əlaqədar, Tərəflər Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri səviyyəsində Xüsusi İşçi Qrupun fəaliyyətini müsbət qiymətləndirirlər.

Tərəflər Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası rəsmiləri və İran İslam Respublikasının sərhəd vilayətlərinin valiləri arasında keçirilən görüşləri alqışlayaraq, belə görüşlərin və mübadilələrin davam etdirilməsinin əhəmiyyətini qeyd etdilər.

Tərəflər iki ölkə arasında mövcud olan dostluq münasibətləri çərçivəsində, mədəniyyət, incəsənət, turizm, kütləvi informasiya vasitələri, elm, təhsil, səhiyyə və sosial sahələr üzrə fəaliyyətin genişləndirilməsi üçün birgə səylərin artırılacağını qeyd etdilər.

Tərəflər qarşılıqlı maraq doğuran məsələlər üzrə əməkdaşlığın gücləndirilməsi məqsədilə BMT və onun ixtisaslaşdırılmış təşkilatları, eləcə də İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, digər regional və beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinə hazır olduqlarını bildirdilər.

Tərəflər bu Birgə Bəyanatın Azərbaycan Respublikası və İran İslam Respublikası arasındakı münasibətlərin hərtərəfli inkişafına təkan verəcəyinə əminliklərini ifadə edirlər.

Bu Birgə Bəyanat Azərbaycan və fars dillərində eyni qüvvəyə malik olan iki əsl nüsxədə hazırlanaraq, 21 avqust 2007-ci il tarixində Bakı şəhərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*MAHMUD ƏHMƏDİNEJAD*

"Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Culfa (Azərbaycan Respublikası) - Culfa (İran İslam Respublikası) yeni avtomobil yolu körpüsünün inşa edilməsi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Culfa (Azərbaycan Respublikası) - Culfa (İran İslam Respublikası) yeni avtomobil yolu körpüsünün inşa edilməsi haqqında" 2007-ci il avqustun 21-də Bakı şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 oktyabr 2007-ci il

№448-IIIQ

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Culfa (Azərbaycan Respublikası) - Culfa (İran İslam Respublikası) yeni avtomobil yolu körpüsünün inşa edilməsi haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti, iki ölkə arasında nəqliyyat sahəsində imzalanmış sazişlərə, o cümlədən dövlətlərarası Müştərək Komissiyanın 5-ci və 6-cı iclaslarının nəticələri barədə memorandumlara əsaslanaraq və nəqliyyat üzrə əlaqələrin inkişafının əhəmiyyətini nəzərə alaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər Azərbaycan Respublikası və İran İslam Respublikası arasında Araz çayının yuxarı hissəsində mövcud körpünün yanında paralel olaraq "Culfa" yeni avtomobil körpü-

sünün ən qısa zamanda inşa edilməsi barədə razılığa gəldilər.

Maddə 2

Tərəflər layihəyə dair texniki və maliyyə sənədlərinin təsdiqlənməsindən sonra körpünün tikintisi ilə əlaqədar xərclərin Tərəflərin hər biri tərəfindən 50 faiz ödənilməsi istiqamətində tədbir görəcəkləri barədə razılığa gəldilər.

Maddə 3

Körpünün inşa edilməsi üçün Azərbaycan və İran şirkətləri arasında tender keçirmək yolu ilə qalib podratçı şirkət müəyyən edilir.

Maddə 4

Tərəflər razılığa gəldilər ki, körpünün tikintisinin layihə-smeta sənədlərinin hazırlanması və maliyyələşdirilməsi, tenderin keçirilməsi İran tərəfindən həyata keçiriləcəkdir. Tenderin keçirilməsi İran tərəfinin müəyyən etdiyi orqana həvalə edilsin və İranın qanunvericiliyinə uyğun olaraq həyata keçirilsin.

Maddə 5

Qalib podratçı şirkət İran tərəfinin müəyyən etdiyi orqanla 4-cü maddəyə uyğun olaraq müvafiq icra müqaviləsini bağlayacaqdır.

Maddə 6

Tərəflər körpünün inşasının sürətləndirilməsi və sadələşdirilməsi üçün iki ölkənin sərhəd bölgələrində podratçı şirkətin işçilərinin yerləşməsi və hərəkəti istiqamətində bütün lazımi sadələşdirmə tədbirlərini görəcəklər.

Maddə 7

Körpünün inşasının həyata keçirilməsi üçün podratçı şirkət tərəfindən Tərəflərin dövlətlərinin ərazisinə idxal və ixrac olunacaq bütün təchizat və avadanlıqlar istənilən gömrük rüsumları və ödənişlərdən azad olunacaqdır.

Maddə 8

Podratçı şirkətin körpünün inşası zamanı hər iki ölkənin mütəxəssislərin-dən və ekspertlərindən istifadə edəcəyi barədə razılığa gəldilər.

Maddə 9

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və İran İslam Respublika-sının Yol və Nəqliyyat Nazirliyi qarşılıqlı əməkdaşlıqla bu Anlaşma Memorandumunun bütün müddəalarının həyata keçirilməsinə nəzarət etmələri və bu dövr ərzində ortaya çıxan fikir ayrılıqlarının Tərəflər arasında müzakirə yolu ilə aradan qaldırılması barədə razılığa gəldilər.

Maddə 10

Bu Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında sonuncu yazılı bildirişi Tərəflərin diplomatik kanallar vasitəsilə aldığı tarixdən qüvvəyə minəcəkdir.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 21 avqust 2007-ci il tarixin-də, müvafiq olaraq hicri şəms tarixi ilə mordad 1386-cı il tarixində, iki əsl nüsxədə Azərbaycan və fars dillərində imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ZİYA MƏMMƏDOV	*MƏNUÇEHR MOTTƏKİ*
Nəqliyyat naziri	*Xarici işlər naziri*

"Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Şahtaxtı və Poldəşt sərhəd-keçid məntəqələrinə beynəlxalq statusun verilməsi haqqında" Memorandumun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Şahtaxtı və Poldəşt sərhəd-keçid məntəqələrinə beynəlxalq statusun verilməsi haqqında" 2007-ci il avqustun 21-də Bakı şəhərində imzalanmış Memorandum təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 oktyabr 2007-ci il

№449-IIIQ

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Şahtaxtı və Poldəşt sərhəd-keçid məntəqələrinə beynəlxalq statusun verilməsi haqqında Memorandum

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti,

Dövlət sərhədindən daşımalar sahəsində əməkdaşlığın inkişaf etdirilməsi və sərhəd-keçid məntəqələrinin buraxılış qabiliyyətinin artırılmasına yönəlmiş səyləri nəzərə alaraq, həmçinin vətəndaşların, nəqliyyat vasitələrinin və malların dövlət sərhədindən keçməsi üçün lazımi şərait yaratmaq məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

1. Tərəflər Şahtaxtı və Poldəşt sərhəd-keçid məntəqələrinə beynəlxalq status verilməsi barəsində qərara gəldilər.

2. Tərəflər müvafiq olaraq Şahtaxtı və Poldəşt sərhəd-keçid məntəqələrində fəaliyyət göstərən dövlət orqanlarının normal fəaliyyəti üçün onları zəruri olan müvafiq infrastruktur və tikililərlə təmin edəcəklər.

Maddə 2

Malların, nəqliyyat vasitələrinin və şəxslərin Şahtaxtı və Poldəşt sərhəd-keçid məntəqələrindən keçidi Tərəflərin müvafiq olaraq milli qanunvericiliklərinə uyğun həyata keçiriləcəkdir.

Maddə 3

Şəxslər dövlət sərhədindən sərhəd-keçid məntəqələrini nəqliyyat vasitələrindən istifadə etməklə və ya piyada keçə bilərlər.

Maddə 4

1. Tərəflərdən hər biri öz dövlətinin ərazisində sərhəd-keçid məntəqəsinin tikililərini və infrastrukturunu hazırlayarkən şəxslərin, nəqliyyat vasitələrinin və malların axınının artma tendensiyalarını nəzərə alacaqdır.

2. Tərəflər sərhəd-keçid məntəqəsinin bağlanmasını qarşılıqlı razılıq əsasında diplomatik kanallar vasitəsilə həyata keçirəcəklər.

Maddə 5

1. Sərhəd-keçid məntəqəsində hərəkətin dayandırılması və məhdudiyyəti sanitar səbəblərdən, ölkələrin epizootiki durumundan asılı olaraq, ictimai təhlükəsizlik nöqteyi-nəzərindən və ya təbii fəlakət nəticəsində tətbiq edilə bilər.

Hərəkəti dayandırmağa, yaxud məhdudlaşdırmağa hazırlaşan Tərəf bu barədə digər Tərəfə diplomatik kanallarla dayandırılma və ya məhdudiyyət barədə dərhal xəbər verir.

2. Tərəflər bir-birini sərhəd-keçid məntəqəsinin və ya kommunikasiya tikililərinin nəzərdə tutulmuş təmiri ilə əlaqədar sərhəddə hərəkətin dayandırılması və ya məhdudlaşdırılması barədə belə işlərin başlanmasına üç ay qalmış, onların qurtarma müddəti bildirilməklə, xəbərdar edirlər.

Maddə 6

Bu Memorandumun 1-ci maddəsində göstərilən sərhəd-keçid məntəqələrinin iş rejimini Azərbaycan Respublikasının və İran İslam Respublikasının sərhəd xidmətləri və gömrük orqanları arasındakı qarşılıqlı razılaşmalar əsasında müəyyən edirlər.

Maddə 7

Tərəflərin qarşılıqlı razılığı ilə bu Memoranduma əlavələr və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Memorandumun ayrılmaz hissəsi olaraq ayrıca protokollar formasında rəsmiləşdiriləcək və bu Memorandumun 8-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minəcəkdir.

Maddə 8

Bu Memorandum onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişi Tərəflərin diplomatik kanallar vasitəsilə aldığı tarixdən qüvvəyə minir.

Bu Memorandum beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Memorandumun

müddətinin bitməsinə altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılacaqdır.

Bu Memorandum Bakı şəhərində 21 avqust 2007-ci il tarixində, müvafiq olaraq hicri şəmsi tarixi ilə mordad 1386-cı il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan və fars dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İRAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*MƏNUÇEHR MOTTƏKİ*
Xarici işlər naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Amerika Birləşmiş Ştatlarının Ticarət və İnkişaf Agentliyi vasitəsilə çıxış edən Amerika Birləşmiş Ştatları Hökuməti arasında Qrant Müqaviləsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Amerika Birləşmiş Ştatlarının Ticarət və İnkişaf Agentliyi vasitəsilə çıxış edən Amerika Birləşmiş Ştatları Hökuməti arasında 2007-ci il avqustun 16-da Bakı şəhərində imzalanmış Qrant Müqaviləsi təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 oktyabr 2007-ci

№ 450-IIIQ

Qrant Müqaviləsi

Bu Qrant Müqaviləsi Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (Qrant Alan) ilə Amerika Birləşmiş Ştatlarının Ticarət və İnkişaf Agentliyi (ABŞ TİA) vasitəsilə fəaliyyət göstərən Amerika Birləşmiş Ştatları Hökuməti arasında bağlanır. ABŞTİA bu Müqavilənin şərtlərinə uyğun olaraq, Azərbaycan Respublikasına (Sahib Ölkə) birləşəcək təklif olunan Trans-Xəzər Neft və Qaz Boru Kəmərləri layihəsinə dair texniki-iqtisadi əsaslandırma (Tədqiqat) ilə bağlı tələb olunan materialların və xidmətlərin dəyərini maliyyələşdirmək üçün Qrant Alana 1,700,000 ABŞ dolları (ABŞTİA Qrantı) məbləğində vəsait ayırmağa razılaşır.

1. ABŞTİA-nın maliyyələşdirmə qaydaları

Bu Qrant Müqaviləsi əsasında həyata keçiriləcək maliyyələşdirmə Qrant Alan ilə onun seçmiş olduğu ABŞ şirkəti (Podratçı) arasında Podratçının yerinə yetirəcəyi Tədqiqat işlərinə dair müqavilənin (Müqavilə) dəyərinin ödənilməsinə istifadə olunacaqdır. Podratçıya ödəniş Qrant Alanın adından bu Qrant Müqaviləsinə əsasən ayrılmış ABŞTİA-nın Qrant fondundan birbaşa ABŞTİA tərəfindən ediləcəkdir.

2. Səlahiyyətlər dairəsi

Bu Qrant Müqaviləsi əsasında səlahiyyətlər dairəsi (Səlahiyyətlər dairəsi) 1 saylı əlavə kimi əlavə edilmişdir və bu Qrant Müqaviləsinin tərkib hissəsi hesab olunur. Bu Tədqiqat işləri çərçivəsində nəzərdə tutulmuş layihənin texniki, maliyyə, ekoloji və digər vacib aspektləri nəzərdən keçiriləcəkdir. Tədqiqat işlərinə dair Səlahiyyətlər Dairəsi həmçinin Müqaviləyə daxil edilməlidir.

3. Davranış standartları

Qrant Alan və ABŞTİA müvafiq olaraq öz ölkələrində rəsmi şəxslər və kommersiya birlikləri üçün davranış standartlarının mövcudluğunu etiraf edirlər. Bu Qrant Müqaviləsinin tərəfləri və Podratçı, Tədqiqat işləri ilə əlaqə-dar hər hansı bir tərəf üçün əlverişli olan hər hansı bir hərəkət də daxil olmaqla, pul və ya hər hansı bir qiymətli əşya şəklində ödənişin bilavasitə və ya bilavasitə ilə hər hansı bir şəxsdən qeyri-qanuni və ya qeyri-düzgün formada qəbul etməməyi özündə ehtiva edən bu standartlara riayət etməlidirlər.

4. Qrant Alanın vəzifələri

Qrant Alan yerli nəqliyyat vasitələri, ofis və katiblik xidmətləri kimi məsələlərdə Podratçıya müvafiq yardım göstərməyi öz öhdəsinə götürür.

5. ABŞTİA maliyyələşdirici kimi

(A) ABŞTİA-nın müsabiqəli seçmə qaydalarını təsdiq etməsi

ABŞ Podratçılarının seçilməsi tədarük barədə əvvəlcədən bildirişi "Federal Business Opportunities" (www.fedbizopps.gov) internet səhifəsində yerləşdirməklə Qrant Alan tərəfindən podratçıların rəqabət əsaslı seçilməsinə dair tətbiq etdiyi qaydalara uyğun olaraq həyata keçirilir. Tələb olunduğu təqdirdə, Qrant Alan bu müqavilə qaydalarını və onlarla bağlı sənədləri məlumat və /və ya təsdiq olunmaq üçün ABŞTİA-ya təqdim etməlidir.

(B) ABŞTİA-nın Podratçı Seçimini təsdiq etməsi

Tədqiqat işlərini yerinə yetirmək üçün Podratçı seçildikdə Qrant Alan tərəfindən ABŞTİA-nm 17-ci maddədə göstərilmiş ünvanına bildiriş göndərilməlidir. Həmin seçim ABŞTİA tərəfindən təsdiq edildikdən sonra Qrant Alan və Podratçı Tədqiqat İşlərinin yerinə yetirilməsi üçün müqavilə bağlamalıdır. Qrant Alan Tədqiqat işlərinin yerinə yetirilməsi üçün uğursuz təkliflər təqdim etmiş ABŞ şirkətlərini seçilməmələri barədə yazılı şəkildə xəbərdar etməlidir.

(C) Qrant Alan ilə Podratçı arasında bağlanacaq müqavilənin ABŞTİA tərəfindən təsdiq edilməsi

Tədqiqat işlərinin yerinə yetirilməsi üçün Qrant Alan və Podratçı müqavilə bağlamalıdır. Müqavilə və onunla bağlı hər hansı düzəlişlər, o cümlədən Səlahiyyətlər Dairəsindəki təyinatlar və dəyişikliklər ABŞTİA tərəfindən yazılı şəkildə təsdiq olunmalıdır. Bu təsdiqetmə prosesini tezləşdirmək üçün Qrant Alan (yaxud Qrant Alanın adından

Podratçı) imzalanmış müqavilənin ingilis dilində olan versiyasının fotosurətini və ya müqavilənin son razılaşdırılmış layihə variantını ABŞTİA-nın 17-ci maddədə göstərilmiş ünvanına göndərəcəkdir.

(D) ABŞTİA Müqavilənin Tərəfi deyildir

Tərəflər anlayırlar ki, ABŞTİA aşağıdakı, lakin bununla məhdudlaşmayan, müqavilənin şərtlərini və onunla bağlı hər hansı düzəlişləri, o cümlədən təyinatları, bütün podratçıların seçilməsini, Səlahiyyətlər Dairəsini, Yekun Hesabatlarını və Qrant Müqaviləsi çərçivəsində maliyyələşdirilən hər hansı bir müqavilə ilə bağlı hər hansı bir, yaxud bütün sənədləri təsdiq etmək kimi müəyyən hüquqları özündə saxlayır. Bununla Tərəflər anlayır və razılaşırlar ki, ABŞTİA yalnız maliyyələşdirici bir birlik olaraq, Amerika Birləşmiş Ştatları Hökumətinin fondlarının düzgün istifadə olunmasını təmin etmək məqsədilə yuxarıda göstərilən hər hansı bir və ya bütün təsdiqetmə hüquqlarını özündə saxlamışdır və ABŞTİA bu təsdiqetmə hüquqlarından istifadə etmək, yaxud imtina etmək haqqında hər hansı bir qərarını bir maliyyəçi kimi Tədqiqat işlərinin yerinə yetirilməsi dövründə verəcəkdir və bu, ABŞTİA-nı müqavilənin tərəflərindən biri etmək kimi anlaşılmamalıdır. *Tərəflər bununla anlayır və razılaşır ki,* ABŞTİA vaxtaşırı yuxarıda göstərilmiş hüquqlardan istifadə edə bilər, yaxud bu hüquqlarla və Tədqiqat işləri ilə bağlı məsələləri müqavilənin və ya hər hansı bir submüqavilənin tərəfləri ilə birgə, yaxud ayrılıqda, bununla belə Tərəflərin üzərinə hər hansı bir öhdəlik və məsuliyyət qoymadan, müzakirə edə bilər. ABŞTİA-nın hər hansı bir təsdiqi və ya təsdiq-dən imtinası Qrant Alanın, yaxud ABŞTİA-nın Podratçıya qarşı irəli sürə biləcəyi hər hansı bir tələbin qarşısında maneə olmayacaqdır, yaxud Podratçını Qrant Alan və ya ABŞTİA qarşısında malik ola biləcəyi hər hansı bir öhdəlikdən azad etməyəcəkdir.

(E) Qrant Müqaviləsinə nəzarət

ABŞTİA-nın təsdiqindən asılı olmayaraq, müqavilənin və submüqavilənin hər hansı bir tərəfinin hüquq və vəzifələri bu Qrant Müqaviləsinə uyğun ol-malıdır. Qrant Müqaviləsi ilə Qrant Müqaviləsi tərəfindən maliyyələşdirilən hər hansı bir müqavilə və ya submüqavilə arasmda uyğunsuzluq olduğu təq-dirdə Qrant Müqaviləsi əsas götürüləcəkdir.

6. Ödəniş qaydaları

(A) Müqavilənin ABŞTİA tərəfindən təsdiqi zəruridir

ABŞTİA Qrant fondundan ödənişləri Podratçıya birbaşa yalnız Qrant Alanla Podratçı arasında bağlanmış müqavilə ABŞTİA tərəfindən təsdiq edildik-dən sonra həyata keçirəcəkdir.

(B) Podratçının hesab-fakturalarına qoyulan tələblər

Qrant Alan, 2 saylı əlavədə göstərilən ABŞTİA-nın Məcburi Şərtlərində əks olunmuş qaydalara müvafiq hesab-faktura təqdim etməklə, Tədqiqat işlərinin yerinə yetirilməsinə görə Podratçıya ABŞTİA tərəfindən ödənişlərin hə-yata keçirilməsini xahiş edəcəkdir.

7. Qüvvəyə minmə tarixi

Bu Qrant Müqaviləsi Amerika Birləşmiş Ştatları Hökumətinə münasibətdə hər iki tərəfin onu imzaladığı andan qüvvəyə minir. Bu Qrant Müqaviləsi Qrant Alana münasibətdə Qrant Müqaviləsinin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların başa çatması barədə Azərbaycan Respublikasının yazılı bildirişinin diplomatik kanallar vasitəsilə ABŞTİA tərəfindən alındığı tarixdən və ya 30 sentyabr 2007-ci il tarixində, onların hansının tez baş verməsindən asılı olaraq qüvvəyə minir (qüvvəyə minmə tarixi).

8. Tədqiqat işlərinin yerinə yetirilmə cədvəli

(A) Tədqiqat işlərinin tamamlanma tarixi

Tədqiqat işlərinin yerinə yetirilməsinin tamamlanma tarixi olan 30 iyun 2009-cu il Tədqiqat işlərinin tamamlana biləcəyi barədə Tərəflərin proqnozlaşdırdıqları tarixdir.

(B) ABŞTİA-nın Qrant Fondlarının ödənişinə qoyulan vaxt məhdudiyyəti

ABŞTİA-nın başqa cür razılaşa biləcəyi hallar istisna olmaqla: (a) Qrant Müqaviləsinin Qüvvəyə minmə tarixindən qabaq təqdim edilmiş material və xidmətlərə görə bu Qrant Müqaviləsinə əsasən heç bir ABŞTİA-nın ödənişi həyata keçirilə bilməz; və (b) Qrant Müqaviləsinə əsasən ayrılmış pul vəsaiti Qrant Müqaviləsinin qüvvəyə minmə tarixindən dörd (4) il müddətinə ödənilməlidir.

9. ABŞTİA-nın Məcburi Şərtləri

Bu Qrant Müqaviləsinə əsasən maliyyələşdirilən bütün müqavilələrə bu Qrant Müqaviləsinə 2 nömrəli əlavədə təsbit olunmuş ABŞTİA-nın Məcburi Şərtləri daxil edilməlidir. ABŞTİA-nm Qrant fondları vasitəsilə tam və ya qismən maliyyələşdirilən bütün submüqavilələrə B(l), G, H, İ və J şərtləri istisna olmaqla, ABŞTlA-nın Məcburi Şərtləri daxil edilməlidir.

10. ABŞ nəqliyyat vasitələrindən istifadə

(A) Hava

Qrant Müqaviləsinə əsasən maliyyələşdirilən mülkiyyət və ya şəxslərin hava yolları ilə daşınması, belə hava nəqliyyat vasitələri imkan daxilində olduğu təqdirdə, ABŞ Hökumətinin qanunlarına müvafiq olaraq, ABŞ bayrağı altında, 49 U.S.C 40118 nömrəli Uçuşlara dair Amerika Aktına uyğun surət-də yerinə yetiriləcəkdir.

(B) Dəniz

Qrant Müqaviləsinə əsasən maliyyələşdirilən mülkiyyətin dəniz ilə daşınması Birləşmiş Ştatların yüklərin prioritetliyi haqqında qanununa uyğun olaraq ABŞ gəmiləri ilə həyata keçiriləcəkdir.

11. Milliyyət, mənbə və mənşə

ABŞTİA-nın başqa cür razılaşa biləcəyi hallar istisna olmaqla, bu Qrant Müqaviləsinə əsasən ABŞTİA-nın maliyyələşdirdiyi mal və xidmətlərin çatdırılması aşağıdakı şərtlər altında mümkün olacaqdır: (a) professional xidmətlər üçün Podratçı ya ABŞ şirkəti, ya da ABŞ fərdi olmalıdır; (b) Podratçı ABŞ subpodratçılarından məhdudiyyət qoyulma-

dan istifadə edə bilər, lakin Sahib ölkənin, Qazaxıstanın, Gürcüstanın və Türkiyənin subpodratçılarından istifadə olunması ABŞTİA-nın Qrant məbləğinin iyirmi faizindən (20%) artıq olmamalıdır və yalnız submüqavilədə müəyyənləşdirilmiş Səlahiyyətlər dairəsindəki xüsusi xidmətlər üçün istifadə oluna bilər; (c) ABŞ Podratçılarının və ya ABŞ subpodrat şirkətlərinin professional xidmətlər üçün cavabdeh olan işçiləri ABŞ vətəndaşları, yaxud ABŞ-da daimi yaşaması üçün qanuni icazəsi olan qeyri-ABŞ vətəndaşları olmalıdır; (d) Tədqiqat işlərinin yerinə yetirilməsi üçün alı-nan materiallar və onlarla bağlı çatdırılma xidmətləri (məsələn, beynəlxalq daşınma və sığorta) milli mənsubiyyət, mənbə və mənşəcə Amerika Birləşmiş Ştatlarına məxsus olmalıdır; (e) Sahib ölkədə, Qazaxıstan, Gürcüstan və ya Türkiyədə işlərin yerinə yetirilməsi ilə bağlı istifadə olunacaq az əhəmiyyətli yardımçı material və xidmətlərə (məsələn, yaşayış yeri, ərzaq, yerli nəqliyyat) yuxarıda göstərilən məhdudiyyətlər qoyulmur. Tələb olunduğu təqdirdə, ABŞTİA bu müddəalara dair müfəssəl məlumat verəcəkdir.

12. Vergilər

Bu Qrant Müqaviləsi əsasında ödənilən fondlardan Sahib Ölkənin qüvvə-də olan qanunlarına əsasən qoyulan heç bir vergi, tarif, rüsum, ödəniş və di-gər bu kimi haqların ödənilməsi üçün istifadə olunmamalıdır. Nə Qrant Alan, nə də Podratçı belə vergi, tarif, rüsum, ödəniş və digər bu kimi haqların ABŞTİA tərəfindən əvəzinin ödənilməsini iddia etməməlidir.

13. Tərəflər arasında əməkdaşlıq və şərtlərə əməl edilməsi

Tərəflər Qrant Müqaviləsinin məqsədlərinin həyata keçirilməsini təmin etmək üçün əməkdaşlıq edəcəklər, ABŞTİA-ya Yekun hesabatı (2 saylı əlavənin 1-ci Müddəasında müəyyənləşdirildiyi kimi) təqdim olunanadək beş (5) il müddətində Qrant Alan Tədqiqat işlərinin statusu haqqında ABŞTİA-nın müvafiq sorğularına cavab verməyə razılaşır.

14. Tətbiq məktubları

Tədqiqat işlərinin yerinə yetirilməsində Qrant Alana kömək məqsədilə, ABŞTİA Qrant Müqaviləsinin əhatə etdiyi məsələlər barədə vaxtaşırı tətbiq məktubları hazırlaya bilər. Həmçinin Tərəflər Qrant Müqaviləsinin əhatə etdiyi məsələlər barədə öz qarşılıqlı anlaşmalarını təsdiq etmək və qeydiyyat apar-maq üçün birgə razılaşdırılmış tətbiq məktublarından istifadə edə bilərlər.

15. Mühasibat hesabatı və audit

Qran alan razılaşır ki, Qrant Müqaviləsinə əsasən üzərinə düşən məsuliyyətin yerinə yetirilməsini, o cümlədən podratçıların seçilməsi, müqavilə ilə əlaqədar təchiz olunmalı malların təsdiq olunması və alınması, ABŞTIA tərəfindən ödənilməsi podratçı hesab-fakturalarının təsdiq edilməsi və ya edilməməsini nümayiş etdirə bilməsi üçün Tədqiqat işləri ilə bağlı mühasibat kitab-ları, qeydləri (akt, protokol) və digər sənədləri lazımi səviyyədə saxlayacaqdır. Belə mühasibat kitabları, qeydlər (akt, protokol) və digər sənədlər ABŞTİA tərəfindən son ödəniş həyata keçirildiyi tarixdən sonra üç (3) il müddətində ayrıca saxlanılmalıdır. Qrant Alan imkan yaratmalıdır ki, ABŞTİA, yaxud onun səlahiyyət verdiyi nümayəndəsi müvafiq vaxtlarda texniki-iqtisadi əsaslandırma işlərinə və Qrant Müqaviləsinə aidiyyəti olan mühasibat kitablarını, hesabatlarını və digər

sənədləri nəzərdən keçirsin.

16. Tərəflərin təmsil olunması

Qrant Müqaviləsi ilə bağlı məqsədlər üçün Amerika Birləşmiş Ştatları Hökumətini ABŞ-ın Sahib ölkədəki səfiri və ya ABŞTİA təmsil edəcəkdir və Qrant Alan onun Prezidenti tərəfindən təmsil olunacaqdır. Tərəflər yazılı xəbərdarlıq etməklə, Qrant Müqaviləsi ilə bağlı bütün məqsədlər üçün əlavə nümayəndələr təyin edə bilərlər.

17. Tərəflərin ünvanları

Qrant Müqaviləsi ilə bağlı Tərəflərdən birinin digərinə təqdim etdiyi hər hansı bir bildiriş, təklif, sənəd və ya digər məlumat yazılı formada, yaxud teleqramın, faksın ötürülməsinin dürüst qeydiyyatını aparan teleqraf və ya elektron vasitələrlə olmalıdır və aşağıdakı ünvanlar üzrə müvafiq tərəfə çatdırılma qaydasında göndərilmiş və ya verilmiş hesab olunmalıdır:

Kimə: Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Neftçilər Prospekti, 73 Bakı,
Azərbaycan Respublikası Azərbaycan
Telefon: +994-12-492-0685
Faks: +994-12-497-1167

Kimə: U.S. Trade and Development Agency
1000 Wilson Boulevard, Suite 1600
Arlington, Virginia 22209-3901
USA
Telefon: (703) 875-4357
Fax: (703) 875-4009

Tərəflər yazılı surətdə başqa cür razılaşdırmasalar, bütün məlumatlandırma sənədləri ingilis dilində olmalıdır. Bundan başqa, Qrant Alan ABŞTİA-ya göndərilən məlumatın surətini Sahib ölkədəki ABŞ səfirliyinin Kommersiya Şöbəsinə təqdim etməlidir.

Bu Qrant Müqaviləsinə aidiyyəti olan hər bir məlumat aşağıdakı fiskal göstəriciləri əhatə etməlidir:

Appropriation No.:	116/71001 (Təyinat nömrəsi)
Activity No.:	2006-81023F (Fəaliyyət nömrəsi)
Reservation No.:	2007810027 (Rezervasiya nömrəsi)
Grant No.:	GH2007810004 (Qrant nömrəsi)

18. Müqaviləyə xitam verilməsi maddəsi

Tərəflərdən hər biri digər tərəfə otuz (30) gün öncədən yazılı şəkildə xəbərdarlıq etməklə Qrant Müqaviləsinə xitam verə bilər. Qrant Müqaviləsinə xitam verilməsi, müqaviləyə xitam verilməsi haqqında yazılı bildirişdən əvvəl Tərəflərin üçüncü tərəflərə münasibətdə ləğv edilməz öhdəliklərinə əsa-sən yerinə yetirməli olduqları ödənişlər istisna olmaqla,

Tərəflərin Tədqiqat işləri üçün maliyyə və digər resurslarla təmin etməyə dair öhdəliklərinə son qoyur.

19. Hüquqlardan və hüquqların müdafiə vasitələrindən imtina edilməməsi

Qrant Müqaviləsi ilə bağlı Tərəflərə verilən hüquqların və hüquqlarını müdafiə vasitələrinin həyata keçirilməsində ödənilməsindəki heç bir gecikmə halı bu hüquq və ziyanın ödənilməsindən imtina kimi başa düşülməməlidir.

20. ABŞ texnologiyası və avadanlığı

Bu Tədqiqat işlərini maliyyələşdirməklə ABŞTİA texnologiyası, malları və xidmətlərindən istifadə etməklə Sahib Ölkənin məqsədlərini həyata keçirməyə kömək etməyə cəhd göstərir. Bu cəhdi qəbul edərək, Qrant Alan Layihələrin yerinə yetirilməsi üçün tələb olunan texnologiyanın, malların və xidmətlərin təchizatında ABŞ təchizatçılarının iştirakına icazə verəcəyinə razılıq verir.

Bunun təsdiqi olaraq, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Amerika Birləşmiş Ştatları Hökuməti hər biri öz müvafiq səlahiyyətli nümayəndəsi vasitəsilə fəaliyyət göstərərək, bu Müqavilənin Azərbaycan və ingilis dillərində aşağıda qeyd olunmuş gün və ildə imzalanmasına qərar vermişdir. Qrant Müqaviləsinin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ ADINDAN	AMERİKA BİRLƏŞMİŞ ŞTATLAR HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Litva Respublikasının Sosial Təhlükəsizlik və Əmək Nazirliyi arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Litva Respublikasının Sosial Təhlükəsizlik və Əmək Nazirliyi arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimova verilməsi barədə Litva Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 oktyabr 2007-ci il

№2451

"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Bolqarıstan Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il mayın 15-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Bolqarıstan Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Bolqarıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 oktyabr 2007-ci il

№2460

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Bolqarıstan Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Bolqarıstan Respublikasının Ədliyyə Nazirliyi,

iki dövlət arasında dostcasına və mehriban münasibətləri nəzərə alaraq,

hər iki dövlət arasında ədliyyə sahəsində əməkdaşlığı genişləndirmək arzusunu ifadə edərək,

hüquq sahəsində təcrübə və bilik mübadiləsinin hər iki dövlətin maraqlarına xidmət etdiyindən əmin olaraq,

beynəlxalq öhdəlikləri, hər iki dövlətin milli qanunvericiliyini və hər iki Tərəfin səlahiyyətlərini nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər aşağıdakı sahələrdə əməkdaşlıq edəcəklər:

a) hüquq sahəsində məlumat mübadiləsi;

b) ədliyyə və məhkəmə orqanlarının təşkili və fəaliyyəti barədə təcrübənin öyrənilməsi;

c) hakimlərin, prokurorların və ədliyyə işçilərinin tədrisi üzrə qarşılıqlı dəstək;

ç) qanunvericiliyin və səlahiyyətləri çərçivəsində fəaliyyəti və strukturuna aid olan digər sənədlərin mübadiləsi;

d) beynəlxalq standartlara uyğun qanun layihələrinin işlənib hazırlanması üzrə təcrübənin öyrənilməsi;

c) Tərəflərin qarşılıqlı razılığı əsasında, daxili qanunvericiliklərinə uyğun olaraq və səlahiyyətlərinə aid olan digər sahələr üzrə.

Maddə 2

Tərəflərin əməkdaşlığı üzrə konkret tədbirlərin siyahısı, həmçinin bu tədbirlərin həyata keçirilməsinin şərtləri əvvəlcədən Tərəflərin qarşılıqlı razılaşması əsasında, o cümlədən əməkdaşlıq proqramlarının qəbul olunması yolu ilə müəyyən ediləcəkdir.

Maddə 3

Tərəflər qarşılıqlı maraq kəsb edən məsələlər üzrə məsləhətləşmələr, seminarlar və elmi konfranslar təşkil edəcək, həmçinin ekspertlər və nümayəndə heyətlərinin mübadiləsini həyata keçirəcəklər.

Maddə 4

Bu Saziş çərçivəsində həyata keçiriləcək tədbirlərlə bağlı qəbul edən Tərəf tədbirin təşkili və ölkə daxilində qalma xərclərini, göndərən Tərəf isə beynəlxalq nəqliyyat xərclərinin ödənilməsini təmin edəcəkdir.

Maddə 5

Bu Saziş əməkdaşlığın digər məqbul istiqamət və formalarının müəyyən edilməsində və inkişafında Tərəflərə maneələr törətmir.

Maddə 6

Bu Sazişin fəaliyyət dairəsinə aid olan məsələlər üzrə Tərəflər arasında yarana biləcək mübahisələr danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 7

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz hissəsi olan Protokollarla rəsmiləşdirilən və 8-ci maddəsinə uyğun olaraq qüvvəyə minən müvafiq əlavə və dəyişikliklər edilə bilər.

Maddə 8

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və hər bir dövlətin müvafiq dövlətdaxili prosedurlarının yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Hər bir Tərəf digər Tərəfə yazılı bildiriş göndərmək yolu ilə Sazişi ləğv edə bilər. Belə bildirişin alındığı tarixdən altı ay keçdikdən sonra Saziş öz qüvvəsini itirir.

Bakı şəhərində 15 may 2007-ci il tarixində iki nüsxədə, hər biri Azərbaycan, bolqar və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ
ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN

FİKRƏT MƏMMƏDOV
Ədliyyə naziri

BOLQARISTAN RESPUBLİKASININ
ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN

GEORGİ PETKANOV
Ədliyyə naziri

"Bakı-Tbilisi-Ceyhan Boru Kəməri layihəsi, Cənubi Qafqaz Boru Kəməri layihəsi, Qərb İxrac Boru Kəməri, Şimal İxrac Boru Kəməri və hamısı Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Azəri, Çıraq yataqları, Günəşli yatağının dərinlikdə yerləşən hissəsi, Şahdəniz yatağı ilə əlaqədar qurğular və Səngəçal terminalında yerləşən müvafiq sahil qurğuları ilə əlaqədar təhlükəsizliyin təmin edilməsi zamanı təhlükəsizlik və insan hüquqları prinsiplərinin tətbiqi ilə bağlı Azərbaycan Respublikasının Hökuməti və BP Eksploreyşn (Kaspian Si) Limited Şirkəti arasında Protokol"u Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Bakı-Tbilisi-Ceyhan Boru Kəməri layihəsi, Cənubi Qafqaz Boru Kəməri layihəsi, Qərb İxrac Boru Kəməri, Şimal İxrac Boru Kəməri və hamısı Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Azəri, Çıraq yataqları, Günəşli yatağının dərinlikdə yerləşən hissəsi, Şahdəniz yatağı ilə əlaqədar qurğular və Səngəçal terminalında yerləşən müvafiq sahil qurğuları ilə əlaqədar təhlükəsizliyin təmin edilməsi zamanı təhlükəsizlik və insan hüquqları prinsiplərinin tətbiqi ilə bağlı Azərbaycan Respublikasının Hökuməti və BP Eksploreyşn (Kaspian Si) Limited Şirkəti arasında Protokol"u Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə BP Eksploreyşn (Kaspian Si) Limited Şirkətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 oktyabr 2007-ci il

№2468

"Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya"nı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya"nı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Konvensiyanı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu

Məmmədova verilməsi barədə Estoniya Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 oktyabr 2007-ci il

№2470

"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Uzunmüddətli İqtisadi Əməkdaşlıq Proqramı və İcra Planı"nı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Uzunmüddətli İqtisadi Əməkdaşlıq Proqramı və İcra Planı"nı imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Türkiyə Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

3. "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Uzunmüddətli İqtisadi Əməkdaşlıq Proqramı və İcra Planı"nı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 18 oktyabr tarixli 2442 nömrəli Sərəncamı qüvvədən düşmüş hesab edilsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 noyabr 2007-ci il

№2481

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında tərəfdaşlıq və əməkdaşlıq Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında tərəfdaşlıq və əməkdaşlıq Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Qoca oğlu Şərifova verilməsi barədə Türkiyə Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 noyabr 2007-ci il

№2482

"Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Türkiyə Respublikasının Qadın və Ailə Məsələləri üzrə Dövlət Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Türkiyə Respublikasının Qadın və Ailə Məsələləri üzrə Dövlət Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Kamran qızı Hüseynovaya verilsin.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Kamran qızı Hüseynovaya verilməsi barədə Türkiyə Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 noyabr 2007-ci il

№2483

"Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişə 3 saylı Düzəliş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişə 3 saylı Düzəliş" təsdiq edilsin.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Düzəlişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 noyabr 2007-ci il

№2484

Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişə 3 saylı Düzəliş

Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti, Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlığa dair 6 iyun 2005-ci il tarixində imzalamış, 23 iyun 2006-cı il və 6 mart 2007-ci il tarixlərində düzəlişlər edilmiş Sazişin (bundan sonra "Saziş" adlandırılacaq) VII maddəsinə uyğun olaraq, həmin Sazişin III maddəsinin 1-ci bəndinə düzəliş etməklə, "iyirmi [20] milyon ABŞ dolları" ifadəsinin "iyirmi iki [22] milyon ABŞ dolları" ifadəsi ilə əvəz edilməsinə dair razılığa gəldilər.

Bu Düzəliş imzalandığı andan qüvvəyə minir və Sazişin tətbiq edildiyi müddət ərzində qüvvədə qalır.

Bunun təsdiqi olaraq, öz hökumətləri tərəfindən müvafiq qaydada səlahiyyətləndirilmiş aşağıdakı şəxslər bu Düzəlişi imzaladılar.

Bakı şəhərində 2007-ci il sentyabr ayının 12-də və Vaşinqton şəhərində 2007-ci il oktyabr ayının 5-də Azərbaycan və ingilis dillərində iki nüsxədə imzalanmışdır, hər iki mətn bərabər autentikdir.

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİ ADINDAN	AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI MÜDAFİƏ DEPARTAMENTİ ADINDAN
(imza)	*(imza)*

"Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 dekabr tarixli 1852 nömrəli Sərəncamına əlavə edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 dekabr tarixli 1852 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1111) 1-ci bəndində "Etibar Pirverdiyev - "Azərenerji" Səhmdar Cəmiyyətinin prezidenti" sözlərindən sonra aşağıdakı məzmunda abzas əlavə edilsin:

"Azər Hüseyn - Azərbaycan Respublikasının Yaponiyadakı Fövqəladə və Səlahiyyətli Səfiri".

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 noyabr 2007-ci il

№2489

"Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Tatarıstan Respublikası arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 25 avqust tarixli 977 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Tatarıstan Respublikası arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 25 avqust tarixli 977 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 8, maddə 770) 1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Abbas Abbasov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini" sözləri "Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini" sözləri ilə əvəz edilsin;

1.2. "Ədalət Vəliyev - Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini" sözləri "Ədalət Vəliyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini" sözləri ilə əvəz edilsin;

1.3. "Asif Əsgərov - Azərbaycan Respublikası gənclər, idman və turizm nazirinin müavini" sözləri "İntiqam Babayev - Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini" sözləri ilə əvəz edilsin;

1.4. "Fikrət Sadıqov - "Azərikimya" Dövlət Şirkətinin prezidenti" sözləri "Məcid Kərimov - "Azərikimya" Dövlət Şirkətinin prezidenti" sözləri ilə əvəz edilsin;

1.5. "Elşad Nəsirov - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin marketinq və iqtisadi əməliyyatlar idarəsinin rəisi" sözləri "Elşad Nəsirov - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti" sözləri ilə əvəz edilsin;

1.6. "Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Regionlararası iqtisadi əlaqələr şöbəsinin müdiri (Komissiyanın məsul katibi)" sözləri "Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının MDB ölkələri iqtisadi əlaqələr şöbəsinin müdiri (Komissiyanın məsul katibi)" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Tatarıstan Respublikası arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası üzrə tərkibinə dəyişikliklər barədə Tatarıstan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 noyabr 2007-ci il

№2490

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Bolqarıstan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 noyabr 2007-ci

№2491

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında antiinhisar siyasəti və rəqabətin müdafiəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında antiinhisar siyasəti və rəqabətin müdafiəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Bolqarıstan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 noyabr 2007-ci il

№2492

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya"nı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya"nı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Konvensiyanı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova verilməsi barədə Bolqarıstan Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 noyabr 2007-ci il

№2493

"Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə Birləşmiş Krallığın İdman Şurası arasında idman sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə Birləşmiş Krallığın İdman Şurası arasında idman sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Arif oğlu Rəhimova verilməsi barədə Birləşmiş Krallıq tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 noyabr 2007-ci il

№2496

2007-ci il avqustun 28-də Lyublyana şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Sloveniya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il avqustun 28-də Lyublyana şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Sloveniya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Sloveniya Respublikası Hökumətini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 noyabr 2007-ci il

№2497

Azərbaycan Respublikası Hökuməti və Sloveniya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Sloveniya Respublikası Hökuməti,

hər iki ölkənin sosial və iqtisadi inkişafı çərçivəsində informasiya və kommunikasiya texnologiyaları sahəsində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməyi və möhkəmləndirməyi arzu edərək,

hər bir müvafiq ölkədə ictimaiyyət üçün səmərəli və dayanıqlı xidmətlərin yerinə yetirilməsi ilə əlaqədar eyni məqsəd və maraqları bölüşərək,

informasiya və kommunikasiya texnologiyaları sahəsində aparılan əməkdaşlığın hazırkı səviyyəsi və ümumi maraq kəsb edən ideyalar, məlumatlar, bilik və təcrübələr baxımından mübadiləsi yolu ilə təkmilləşdirilməsinin Tərəflər üçün faydalı olacağını hesab edərək,

informasiya və kommunikasiya texnologiyaları sahəsində Tərəflər arasında kommersiya əlaqələrinin möhkəmləndirilməsində mövcud olan potensialı və mövcud imkanlardan tam istifadə etmək üçün ehtiyacı dərk edərək,

Tərəflər informasiya və kommunikasiya texnologiyaları sahəsində sərmayələri, birgə müəssisələri, ümumi maraqları, texnoloji inkişafı və ticarəti inkişaf etdirmək arzusunda olduqlarını nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər qarşılıqlı fayda əsasında, öz milli qanunvericilikləri və beynəlxalq hüququn müvafiq norma və prinsiplərinə və bu Sazişin müddəalarına uyğun olaraq informasiya və kommunikasiya texnologiyaları sahəsində öz iqtisadi, sənaye, elmi və texniki əməkdaşlıqlarını inkişaf etdirəcək və təkmilləşdirəcəklər.

Maddə 2

Tərəflər arasında informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsində əməkdaşlıq aşağıdakıları əhatə edir:

1. telekommunikasiya, elektron kontent, elektron xidmətlər və elektron biznesin tənzimlənməsi ilə əlaqədar Sloveniyanın təcrübəsinin öyrənilməsi;
2. E-hökumətin və E-imzanın tətbiqi sahəsində əməkdaşlıq (elektron hökumət və elektron imza);
3. Azərbaycanın informasiya və kommunikasiya texnologiyaları sahəsinə Sloveniya tərəfindən sərmayə qoyuluşlarının təşviq etdirilməsi;
4. qarşılıqlı məqbul şərtlərlə Azərbaycanda informasiya və kommunikasiya texnologiyaları sahəsində birgə müəssisələrin yaradılmasının təşviq etdirilməsi;
5. Sloveniyanın telekommunikasiya təsisatlarında azərbaycanlı mütəxəssislər üçün təlim kurslarının təşkili;
6. birgə seminar, konfrans, forum və sərgilərin keçirilməsi ilə bağlı tələb olunacaq xərclər;
7. Beynəlxalq təşkilatlarda (ÜPİ və BTİ kimi) hər iki ölkənin milli maraqlan üst-üstə düşdüyü təqdirdə bir-birini dəstəkləməsi;
8. Sərbəst tənzimləmə şəraitində beynəlxalq telefon danışıq tariflərinə yenidən baxılmasının mütəxəssislər səviyyəsində müzakirə edilməsi və hər iki ölkənin mövcud tranzit telefon trafiki mübadiləsi imkanlarından səmərəli istifadə edilməsi;
9. hər iki Tərəfin nümayəndə heyətlərinin təcrübə mübadiləsi məqsədilə qarşılıqlı səfərlərinin təşkili;
10. İKT sahəsində elmi araşdırmalar üzrə siyasətin hazırlanmasında və həyata keçirilməsində əməkdaşlıq və təcrübə mübadiləsi (İKT texnologiyaları üzrə platformalar, İKT sahəsində elmi araşdırmalar üzrə milli himayə və Avropa İttifaqının dəstəyi);
11. qarşılıqlı razılaşma əsasında digər məsələlər.

Maddə 3

Tərəflər İKT sahəsində görülmüş işlərin daha da təkmilləşdirilməsi, əməkdaşlığın inkişaf etdirilməsi, yeni texnologiyaların tətbiq edilməsi və birgə müəssisələrin yaradılması məqsədilə aidiyyəti orqanlarını, təşkilat və müəssisələrini bu sahədə sıx əlaqələrin və məlumat mübadiləsinin təkmilləşdirilməsi, eləcə də xüsusi proqramların və layihələrin yerinə yetirilməsi sahəsində əməkdaşlığa təşviq edəcəklər.

Tərəflər kəndlərdə telekommunikasiyanın inkişaf etdirilməsi, rəqəmsallara keçidin təmin edilməsi və lokal şəbəkələrin tənzimlənməsi sahəsində Sloveniyanın təcrübəsinin tətbiqi üçün hər iki Tərəfin mütəxəssislərinin birgə iş aparmasını təmin edəcəklər.

Maddə 4

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 5

Tərəflər əməkdaşlıq çərçivəsində mübadilə etdikləri konfidensial informasiyanın öz milli qanunvericiliklərinə uyğun surətdə qorunması üçün zəruri tədbirlər görmək, həmçinin belə informasiyanı təqdim etmiş Tərəfin yazılı icazəsi olmadan bu informasiyanı üçüncü tərəfə aşkarlamamaq və yaymamaq öhdəliyini daşıyırlar. Bu müddəa Saziş qüvvədən düşdükdən sonra da qüvvədə qalır.

Maddə 6

Tərəflər bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı mübahisələr yarandığı təqdirdə, onları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

Maddə 7

Bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə məsul səlahiyyətli orqanlar:

Azərbaycan Respublikası Hökuməti adından - Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi;

Sloveniya Respublikası Hökuməti adından - Sloveniya Respublikasının İqtisadiyyat Nazirliyidir.

Tərəflər əməkdaşlığın xüsusiyyətlərindən asılı olaraq, bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə məsul olan digər dövlət hakimiyyəti orqanlarını təyin edə bilər və bu barədə onlar diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandıracaqlar.

Maddə 8

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə əlavə və dəyişikliklər edilə bilər. Belə əlavə və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olan və bu Sazişin 9-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən protokollarla rəsmiləşdiriləcəkdir.

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş iki il müddətinə bağlanılır. Tərəflərdən biri bir Sazişin müddətinin bitməsinə altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 2 il müddətinə uzadılacaqdır.

Bu Saziş Lyublyana şəhərində 2007-ci il 28 avqust tarixində hər biri Azərbaycan, sloven və ingilis dillərində imzalanmışdır, hər iki mətn bərabər autentikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ƏLİ ABBASOV
Rabitə və informasiya texnologiyaları naziri

SLOVENİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ANDREY VİZJAK
İqtisadiyyat naziri

2007-ci il oktyabrın 4-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Federativ Respublikasının Ətraf Mühit, Təbiətin Mühafizəsi və Nüvə Təhlükəsizliyi üzrə Federal Nazirliyi arasında Təmiz İnkişaf Mexanizmi layihələrinin həyata keçirilməsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il oktyabrın 4-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Federativ Respublikasının Ətraf Mühit, Təbiətin Mühafizəsi və Nüvə Təhlükəsizliyi üzrə Federal Nazirliyi arasında Təmiz İnkişaf Mexanizmi layihələrinin həyata keçirilməsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 noyabr 2007-ci il

№2498

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Federativ Respublikasının Ətraf Mühit, Təbiətin Mühafizəsi və Nüvə Təhlükəsizliyi üzrə Federal Nazirliyi arasında Təmiz İnkişaf Mexanizmi layihələrinin həyata keçirilməsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və

Almaniya Federativ Respublikasının Ətraf Mühit, Təbiətin Mühafizəsi və Nüvə Təhlükəsizliyi üzrə Federal Nazirliyi,

Azərbaycan Respublikasının və Almaniya Federativ Respublikasının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (BMT İDÇK) və bu Konvensiyanın Kioto Protokolunun Tərəfləri olduğunu nəzərə alaraq,

həmçinin, Kioto Protokolunun 12-ci maddəsinin antropogen tullantıların mənbələrinin azaldılması və karbon udulması yolu ilə istilik effekti yaradan qaz tullantılarının azaldılması üzrə Təmiz İnkişaf Mexanizmi (TİM) layihələrinin həyata keçirilməsindən əldə edilən sertifikatlaşdırılmış tullantı qazlarının azalma vahidlərinin ötürülməsini nəzərə alaraq,

TİM layihələrini Qəbul edən Ölkənin davamlı inkişafına yardım etməsini təsdiqləmək və bu Tərəfin müstəsna hüququ olduğunu qeyd edərək,

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransında (TK), Kioto Protokolunun 12-ci maddəsi üzrə Tərəflər Görüşündə (TG) və TİM-in İcra Şurasında qəbul edilmiş qərarları, təlimatları, üsul və qaydaları nəzərə alaraq,

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının və Kioto Protokolunun məqsədlərinin həyata keçirilməsi istiqamətində Tərəflərin aşağıdakı şəkildə əməkdaşlıq etmək niyyətini ifadə edərək,

I. Əməkdaşlığın əhatə dairəsi və vasitələri

Tərəflər razılaşmışlar ki:

1. Bu Anlaşma Memorandumu üzrə əməkdaşlıq xüsusilə özəl sektorda TİM layihələrinin icrasına yardım məqsədilə Memorandum çərçivəsində şəraitin sonrakı inkişafını və təkmilləşməsini əhatə edəcək.

2. TİM və TİM layihələri üzrə əməkdaşlıq xüsusilə aşağıdakıları əhatə etməlidir:

a) TİM layihələrində iştiraka dair müvafiq tələblərin razılaşdırılması üzrə məlumat mübadiləsi;

b) layihə imkanları, xüsusilə bərpa olunan enerji və enerji səmərəliliyi layihələri, layihə maliyyələşdirilməsi və maliyyələşdirmə şərtləri, habelə dövlət və özəl müəssisələrin məlumatlandırılması sahəsində informasiya ötürülməsinin inkişafı sahəsində məlumat mübadiləsi;

c) Tərəflərin TİM layihələri üçün tətbiq etdiyi bəyənilmə qaydaları və təlimatları da daxil olmaqla layihələrin həyata keçirilməsinin qiymətləndirilməsi üzrə məlumat və fikir mübadiləsi; ikitərəfli TİM layihə fəaliyyətlərinə dair məlumatlar elektron rabitə vasitəsilə həyata keçirilir;

d) Tullantıların baza səviyyəsinin müəyyən edilməsi və Əlavəlik şərtinin göstərilməsi və TİM layihələri olduğu halda əldə edilən istilik effekti yaradan qaz tullantılarının azaldılması, monitorinqi və yoxlanılması üçün metodologiyalar və mexanizmlər üzrə məlumat və fikir mübadiləsi; ikitərəfli TİM

layihə fəaliyyətlərinə dair məlumatlar elektron rabitə vasitəsilə həyata keçirilir;

e) TİM layihələrinin, Kiçik Həcmli Layihələr də daxil olmaqla, layihə dövrü tələblərinə cavab verməsi üçün birgə müəyyən edilmiş layihə fəaliyyətlərinin inkişafı. Birgə müəyyən edilmiş layihə fəaliyyətləri hər iki Tərəfin rəsmi məktubları vasitəsilə təsdiq edilməlidir;

f) layihə fəaliyyətinin TİM layihələri kimi bəyənilməsini müəyyən etmək məqsədilə təyin edilmiş Milli Səlahiyyətli Orqanlara (MSO) təqdim olunan layihə ideyalarının inkişaf etdirilməsi. Hər iki MSO-nun qərarları müraciət edən təşkilata yazılı şəkildə təqdim edilməlidir;

g) Hər iki Tərəfdən layihənin TİM-in İcra Şurasına göndərilməzdən əvvəl tam TİM dövrü vasitəsilə təsdiq edilməsini MSO dəstəkləməlidir. Hər iki Tərəf fikir mübadiləsi etməli və bu yönümdə həyata keçiriləcək fəaliyyət barədə digərini

məlumatlandırmalıdır.

II. Əməkdaşlığın ümumi prinsipləri, qaydaları və strukturu

Bu əməkdaşlıq çərçivəsində Tərəflər aşağıdakıları həyata keçirmək niyyətindədirlər:

1. Müvafiq milli qanunvericiliyə uyğun olaraq, zəruri məxfiliyi saxlamaqla Azərbaycan Respublikası və Almaniya Federativ Respublikasının hüquqi təşkilatları arasında lisenziya sazişi, birgə müəssisələr yaradılması və işgüzar sövdələşmələrə dair məlumat mübadiləsinə kömək etmək;

2. Bu Anlaşma Memorandumu üzrə əməkdaşlıq çərçivəsində yerinə yetirilən Layihə fəaliyyətləri və digər fəaliyyətlərin inkişafına dair müntəzəm olaraq məsləhətlərin verilməsi və layihə fəaliyyətinə cəlb olunan milli təşkilatların məlumatlandırılması;

3. TİM layihələrinin inkişaf proseslərinin sürətləndirilməsi və xüsusilə validasiya mərhələsini keçmiş Layihə Sənədləri üzrə uyğun qərarların qəbul edilməsinin ən geci altı həftə ərzində başa çatdırılmasına səy göstərmək;

4. Anlaşma Memorandumu imzalandıqdan sonra hər iki Tərəf qarşılıqlı olaraq MSO üzrə Əlaqələndiricilər haqqında məktub mübadiləsi vasitəsilə məlumat verməlidir.

III. Mübahisəli məsələlər

Hər iki Tərəf bu Anlaşma Memorandumu çərçivəsində yaranmış istənilən mübahisəli məsələni qarşılıqlı məsləhətləşmələr vasitəsilə həll etmək niyyətindədirlər.

IV. Düzəlişlər

Tərəflər razılaşmışlar ki:

1. Bu Memoranduma istənilən vaxtda qarşılıqlı razılaşdırılmış şəkildə yazılı düzəlişlər edilə bilər;

2. Konvensiyanın TK və TG-nin yeni qərarlarından irəli gələn öhdəlikləri, milli iqlim siyasəti strategiyasında, həmçinin TİM layihələrinin qiymətləndirilməsi və təsdiqi qaydalarında və ya TİM layihələrinin həyata keçirilməsi təcrübəsində meydana çıxan dəyişiklikləri nəzərə almaq zərurəti yaranarsa, bu Memoranduma yenidən baxıla bilər.

V. Əməkdaşlığın müddəti

Tərəflər razılaşmışlar ki:

1. Bu Anlaşma Memorandumu çərçivəsində əməkdaşlıq onun imzalanması tarixindən başlanmalıdır;

2. Bir Tərəfin digər Tərəfə bu Anlaşma Memorandumunu ləğv etmək arzusunda olması haqqında altı ay əvvəl yazılı şəkildə məlumat verməsinə qədər əməkdaşlıq davam etdirilir;

3. Anlaşma Memorandumunun ləğv edilməsi artıq həyata keçirilmişdir və ya hər iki Tərəfin təsdiqlədiyi TİM layihə fəaliyyətlərinə təsir göstərməməlidir.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 2007-ci il 4 oktyabr tarixində Azərbaycan, alman və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ ADINDAN

HÜSEYNQULU BAĞIROV
Ekologiya və təbii sərvətlər naziri

ALMANİYA FEDERATİV RESPUBLİKASININ ƏTRAF MÜHİT, TƏBİƏTİN MÜHAFİZƏSİ VƏ NÜVƏ TƏHLÜKƏSİZLİYİ ÜZRƏ FEDERAL NAZİRLİYİ ADINDAN

ASTRİD KLUG
Almaniya Parlamentinin Dövlət katibi

Azərbaycan Respublikası Hökuməti ilə Fransa Respublikası Hökuməti arasında Maliyyə Protokolu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti ilə Fransa Respublikası Hökuməti arasında Maliyyə Protokolu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Fransa Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 noyabr 2007-ci il

№2499

"Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" 2007-ci il avqustun 28-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 oktyabr 2007-ci il

№441-IIIQ

Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 1997-ci il iyunun 18-də Daşkənd şəhərində imzalanmış "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə hökumətlərarası komissiyanın yaradılması haqqında Protokol"un 2-ci və 3-cü bəndlərinə müvafiq olaraq Birgə komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

Birgə komissiyanın Azərbaycan Respublikası tərəfindən sədri:

Yaqub Eyyubov - Azərbaycan Respublikasının Baş nazirinin birinci müavini

Birgə komissiyanın üzvləri:

Natiq Əliyev - Azərbaycan Respublikasının sənaye və energetika naziri

Füzuli Ələkbərov - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

Əli Abbasov - Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri

Azad Rəhimov - Azərbaycan Respublikasının gənclər və idman naziri

Nazim İbrahimov - Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri

Xələf Xələfov - Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini

İlqar Fəti-zadə - Azərbaycan Respublikasının maliyyə nazirinin birinci müavini

Niyazi Səfərov - Azərbaycan Respublikasının iqtisadi inkişaf nazirinin müavini

Musa Pənahov - Azərbaycan Respublikasının nəqliyyat nazirinin müavini

Bəhram Əliyev - Azərbaycan Respublikasının kənd təsərrüfatı nazirinin müavini

Ədalət Vəliyev - Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinin müavini

Namiq Abbasov - Azərbaycan Respublikasının Özbəkistan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri

Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının MDB ölkələri ilə iqtisadi əlaqələr şöbəsinin müdiri (komissiyanın məsul katibi)

2. "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası üzrə tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 2 dekabr tarixli 705 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, N

6, maddə 527) qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi barədə Özbəkistan Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti.

Bakı şəhəri, 22 noyabr 2007-ci il.

№2505

Birləşmiş Millətlər Təşkilatının "Əlillərin hüquqları haqqında" Konvensiyasını və onun Fakultativ Protokolunu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Birləşmiş Millətlər Təşkilatının "Əlillərin hüquqları haqqında" Konvensiyasını və onun Fakultativ Protokolunu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı yanında Daimi nümayəndəsi Aqşin Şəfaət oğlu Mehdiyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədləri Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı yanında Daimi nümayəndəsi Aqşin Şəfaət oğlu Mehdiyevə verilməsi barədə Birləşmiş Millətlər Təşkilatına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 noyabr 2007-ci il

№2508

Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı arasında 2007-ci il iyulun 29-u və 30-da Əmman şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı arasında 2007-ci il iyulun 29-u və 30-da Əmman şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında fövqəladə halların idarə edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya haqqında Protokol;

1.3. 2007-2009-cu illər üçün Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında Təhsil, Elm, Mədəniyyət və İncəsənət, Gənclər və İdman, Səhiyyə və Media sahələrində əməkdaşlıq üzrə İcraedici Proqram;

1.4. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və İordaniya Haşimilər Krallığı Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş;

1.5. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə İordaniya Haşimilər Krallığının Statistika Departamenti arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş;

1.6. Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi və İordaniya Standartlar və Metrologiya Orqanı (JİSM) arasında standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya və digər əlaqəli sahələr üzrə əməkdaşlıq Sazişi;

1.7. Azərbaycan-İordaniya İşgüzar Şurasının təsis olunmasına dair Saziş;

1.8. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və İordaniya Haşimilər Krallığının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu;

1.9. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və İordaniya Televiziya və Radio Şirkəti arasında əməkdaşlıq haqqında Saziş;

1.10. Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və İordaniya Xəbər Agentliyi (Petra) arasında əməkdaşlıq haqqında Saziş;

1.11. Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Böyük Əmman Bələdiyyəsi (İordaniya Haşimilər Krallığı) arasında dostluq və əməkdaşlıq haqqında Protokol.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Sərəncamın 1.1-1.11-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti.

Bakı şəhəri, 23 noyabr 2007-ci il.

№2509

Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında fövqəladə halların idarə edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti,

hər iki ölkə arasında mövcud dostluq münasibətlərinin möhkəmləndirilməsi və inkişaf etdirilməsi fikrini rəhbər tutaraq,

qarşılıqlı maraq, hörmət, suverenlik və bərabərlik prinsiplərinə əsaslanaraq, təbii və texnogen mənşəli fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində ikitərəfli əməkdaşlığın gücləndirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər milli qanunvericiliyə uyğun olaraq və Tərəflərin səlahiyyətləri çərçivəsində aşağıdakı istiqamətlərdə əməkdaşlıq edəcəklər:

a) informasiya, dövri mətbuat, metodiki və elmi-texniki ədəbiyyat, elmi tədqiqat işlərinin nəticələri, video, foto və digər materialların mübadiləsi;

b) birgə işçi müşavirələrin, seminarların, konfransların, tədris kurslarının, məşqlərin, təlimlərin, elmi tədqiqat layihələrinin, idman və digər tədbirlərin planlaşdırılması, işlənməsi və həyata keçirilməsi;

c) Tərəflərin tədris müəssisələrində mütəxəssislərin hazırlığının təşkil edilməsi, təcrübə keçənlərin, müəllimlərin, alimlərin, mütəxəssislərin və digər əməkdaşların mübadiləsi; Tərəflərin fəaliyyətləri ilə əlaqədar sahələrdə əməkdaşlığın inkişafı;

d) Tərəflərin səlahiyyətinə daxil olan məsələlər üzrə qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin işlənib hazırlanması;

e) texniki, sosial və humanitar əməkdaşlıq üzrə birgə layihələrin hazırlanması və həyata keçirilməsi;

f) zərurət yarandıqda təbii və texnogen mənşəli fövqəladə halların nəticələrinin aradan qaldırılması üzrə qarşılıqlı yardımın və ya üçüncü ölkələrə birgə yardımın göstərilməsinin təşkili; üçüncü tərəfə yardım Tərəflərin qarşılıqlı razılığı əsasında həyata keçiriləcəkdir;

g) Tərəflərin səlahiyyətlərinə daxil olan digər fəaliyyətin həyata keçirilməsi.

Maddə 2

Bu Sazişin icra edilməsi üçün tədbirlərin həyata keçirilməsi məqsədilə Tərəflər qarşılıqlı əməkdaşlıq üzrə Birgə işçi qrupu yaradaraq (bundan sonra-Birgə işçi qrupu) qrup üzvlərinin sayını, tərkibini, funksiyalarını və iş qaydalarını müəyyən edirlər.

Bu Saziş qüvvəyə mindikdən sonra Birgə işçi qrupu Tərəflər arasında əməkdaşlıq üzrə Kompleks plan işləyib hazırlayır və müəyyən olunmuş qaydada təsdiq edirlər.

Maddə 3

Bu Sazişin 1-ci və 2-ci maddələri ilə nəzərdə tutulmuş şərtlərin həyata keçirilməsi hər bir konkret hal üçün ayrıca olaraq müəyyən edilir.

Maddə 4

Bu Saziş Tərəflərin iştirakçı olduğu digər çoxtərəfli və ikitərəfli müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə toxunmur.

Maddə 5

Tərəflər bu Sazişin həyata keçirilməsi və təfsiri ilə əlaqədar yarana biləcək mübahisəli məsələləri məsləhətləşmələr və danışıqlar yolu ilə həll edəcəklər.

Maddə 6

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və Sazişin 7-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 7

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən hər hansı biri onun qüvvəsini ləğv etmək niyyəti barədə bu müddətin bitməsinə altı ay qalmış diplomatik kanallar vasitəsilə digər Tərəfə yazılış bildiriş göndərməzsə, Sazişin qüvvəsi növbəti beşillik müddətə uzadılacaqdır.

Bu Saziş Əmman şəhərində 30 iyul 2007-ci il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla imzalanmışdır. Bütün mətnlər bərabər autentikdir. Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İORDANİYA HAŞİMİLƏR KRALLIĞI HÖKUMƏTİ ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında ticarət, iqtisadi və texniki əməkdaşlıq üzrə hökumətlərarası komissiya haqqında Protokol

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti,

Razılığa gələn Tərəflərin iqtisadiyyatlarının dinamik şəkildə daimi inkişafını təşviq etmək istəyini əsas tutaraq,

qarşılıqlı fayda və bərabərlik prinsiplərinə əsaslanmaqla, uzunmüddətli və sabit əsasda

ticarət, iqtisadi və texniki əməkdaşlığı gücləndirməyi və inkişaf etdirməyi arzulayaraq,

2006-cı il 8 noyabr tarixində imzalanmış "İqtisadi və Texniki Əməkdaşlıq üzrə Saziş"in və "Ticarət Sazişi"nin həyata keçirilməsini arzu edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Razılığa gələn Tərəflər "İqtisadi və Texniki Əməkdaşlıq üzrə Saziş"in və "Ticarət Sazişi"nin 8-ci maddələrinə uyğun olaraq bundan sonra "Komissiya" adlandırılan Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Azərbaycan-İordaniya Hökumətlərarası Komissiyasını təsis edirlər.

Maddə 2

"İqtisadi və Texniki Əməkdaşlıq Sazişi"nin 8-ci maddəsində nəzərdə tutulan vəzifələrə əlavə olaraq Komissiyanın vəzifələri aşağıdakılardır:

1. Razılığa gələn Tərəflər arasında "Ticarət Sazişi" və "İqtisadi və Texniki Əməkdaşlıq üzrə Saziş"in və Azərbaycan və İordaniya arasında ticarət, iqtisadi, texnoloji əməkdaşlıq sahəsində digər sazişlərin icrası zamanı yaranan məsələlərə baxılması;

2. ticarət, iqtisadi və texniki əməkdaşlığın sonrakı inkişaf imkanlarının araşdırılması;

3. əməkdaşlığın bərqərar olmasına məsləhətləşmələr və İşçi Qrupları vasitəsilə yardım edilməsi;

4. ikitərəfli əməkdaşlıq layihələri ilə əlaqədar yarana bilən iqtisadi, elmi və texniki problemləri qiymətləndirmək və onların həllinə yönələn proqramların işlənib hazırlanması;

5. qarşılıqlı maraq doğuran problemlər üzrə mütəmadi əsasda informasiya mübadiləsi edilməsi.

Maddə 3

Komissiyaya sədrlik Razılığa gələn Tərəflərin Hökumətlərinin Baş nazirlərinin müavinləri və ya nazirləri tərəfindən həyata keçiriləcəkdir.

Komissiya sədrlərinin müavinləri və icraçı katibləri müvafiq tərəflərin sədrləri tərəfindən təyin edilirlər.

Maddə 4

1. Komissiya razılaşdırılmış tarixlərdə ən azı iki ildən bir iclaslar keçirəcəkdir.

2. Komissiyanın iclasları növbə ilə Azərbaycan Respublikasında və İordaniya Haşimilər Krallığında qəbul edən ölkənin sədrliyi altında keçiriləcəkdir.

3. Komissiya öz iclaslarını təsdiq olunmuş gündəliyə uyğun olaraq keçirəcəkdir.

4. Komissiyanın iclaslarında Razılığa gələn Tərəflərin müxtəlif sahələrdən olan nümayəndələri iştirak edə bilərlər.

5. Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə hər iki Tərəfin özəl sektorunun nümayəndələri Komissiyanın iclaslarında iştirak edə bilərlər.

6. Müntəzəm iclasların ilkin gündəliyi məsləhətləşmələr yolu ilə sədrlər tərəfindən iclas tarixindən ən azı 30 gün əvvəl müəyyən olunacaqdır.

7. İclasda, əvvəlcədən müəyyən olunmuş gündəliyin bəndləri və eyni zamanda sədrlərin razılığı ilə iclasın başlanğıcında gündəliyə daxil edilə biləcək bəndlər də müzakirə ediləcəkdir.

8. Razılığa gələn Tərəflər sədrlərdən birinin xahişi ilə Komissiyanın xüsusi iclaslarını keçirə bilərlər. Razılığa gələn Tərəflərdən birinin təşəbbüsü ilə sədrlər və ya onların müavinləri arasında xüsusi iclaslar mümkün qədər tez təşkil olunacaqdır.

Maddə 5

1. Komissiyanın iclaslarında qərarlar Razılığa gələn Tərəflərin razılığı ilə qəbul olunacaqdır.

2. Komissiyanın qərarları, digər şəkildə nəzərdə tutulmayıbsa, imzalandığı gündən qüvvəyə minəcəkdir.

3. Təcili məsələlərdə qarşılıqlı razılıq ilə Komissiyanın iclasları arasındakı dövrlərdə sədrlərin qərarlar qəbul etmək hüququ olacaqdır. Sədrlərin qərarları Komissiyanın növbəti iclasının protokoluna daxil ediləcəkdir.

4. Sədrlərdən birinin bəyanatına əsasən, müvafiq ölkənin səlahiyyətli orqanları tərəfindən təsdiq olunmalı qərarlar, belə təsdiq haqqında sədrlərdən birinin bildiriş göndərdiyi tarixdən qüvvəyə minəcəkdir.

5. Komissiya iclaslarının nəticələri və qərarları sədrlər tərəfindən imzalanacaq protokollarda öz əksini tapacaqdır.

6. Komissiyanın görüşünün protokolları bərabər autentik olmaqla, Azərbaycan və ingilis dillərində tərtib ediləcəkdir və mətnlərin təfsirində fikir ayrılığı olduğu təqdirdə ingilis dilində olan mətn əsas götürüləcəkdir.

Maddə 6

1. Öz vəzifələrini yerinə yetirmək üçün Komissiya daimi və müvəqqəti orqanlar, misal üçün alt komissiya, ekspert və ya işçi qrupları təsis edə bilər.

2. Komissiya, öz işini Komissiya tərəfindən təsdiq edilmiş plan və qərarlara əsasən aparacaq daimi və müvəqqəti orqanların vəzifələrini, səlahiyyətlərinin hədlərini və tərkibini müəyyən edəcəkdir.

Maddə 7

Razılığa gələn Tərəflərin komissiyalarının icraçı katibləri müvafiq Tərəfin fəaliyyətinin təşkilinə, icraçı orqanların işinin əlaqələndirilməsinə, Komissiya iclasları üçün sənədlərin hazırlanmasına, habelə Komissiyanın fəaliyyəti ilə əlaqədar olan digər təşkilati məsələlərə görə məsuliyyət daşıyacaqlar. Bu məqsədlə icraçı katiblər bir-biri ilə daimi əlaqədə olacaqlar.

Maddə 8

Bu Protokola Razılığa gələn Tərəflərin qarşılıqlı yazılı razılığına əsasən dəyişikliklər edilə bilər və belə dəyişikliklər bu Protokolun 9-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minəcəkdir.

Maddə 9

Bu Protokol onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsini təsdiq edən sonuncu yazılı bildirişi Tərəflərin diplomatik kanallar vasitəsilə mübadilə etdiyi tarixdən qüvvəyə minir.

Bu Protokol 5 (beş) il müddətinə bağlanılır. Əgər həmin müddətin başa çatmasına ən azı 6 (altı) ay qalana qədər Razılığa gələn Tərəflərdən biri Razılığa gələn digər Tərəfə bu Protokolun ləğv edilməsi barədə öz niyyətini bildirməzsə, o, hər dəfə avtomatik olaraq növbəti 5 (beş) illik müddətə uzadılır.

Bu Protokolun qüvvəsinin ləğv edilməsi bu Protokol əsasında Komissiya tərəfindən qəbul edilmiş qərara uyğun olaraq bağlanmış xüsusi müqavilə və ya layihələrin və ya fəaliyyətlərin icrasına təsir etməyəcəkdir.

Bu Protokol Əmman şəhərində 29 iyul 2007-ci il tarixində hər biri Azərbaycan və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Protokolun müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İORDANİYA HAŞİMİLƏR KRALLIĞI HÖKUMƏTİ ADINDAN
HEYDƏR BABAYEV	*SALİM XƏZAALEH*
İqtisadi inkişaf naziri	*Sənaye və ticarət naziri*

2007-2009-cu illər üçün Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında Təhsil, Elm, Mədəniyyət və İncəsənət, Gənclər və İdman, Səhiyyə və Media sahələrində əməkdaşlıq üzrə İcraedici Proqram

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti,

iki ölkə arasında dostluq münasibətlərini inkişaf etdirmək və möhkəmləndirmək niyyəti ilə,

elm, təhsil, mədəniyyət, səhiyyə, gənclər və idman sahələrində əməkdaşlığı genişləndirməyə səy göstərərək,

2006-cı il 23 avqust tarixində Bakı şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında Sazişə müvafiq olaraq,

2007-2009-cu illər üçün aşağıdakı İcraedici Proqram barədə razılığa gəldilər:

I. Elm və Təhsil

Maddə 1

Tərəflər aşağıdakı sahələr üzrə əməkdaşlıq edəcəklər :

a) təhsil sistemli inkişaf planları və islahatların istiqamətləri barədə məlumat mübadiləsi;

b) Tərəflər üçün xüsusi maraq kəsb edən ixtisaslar üzrə heyətin təlimi;

c) bütün səviyyələrdən olan təhsil müəssisələri arasında əməkdaşlıq;

d) birgə elmi tədbir, konfrans, simpozium və gənclər üçün müsabiqələrin təşkili.

Maddə 2

Tərəflər aşağıdakılara xüsusi diqqət yetirməklə hər iki ölkənin əlaqədar elmi tədqiqat institutlan arasında birbaşa əməkdaşlığa yardım edirlər:

a) birgə elmi tədqiqat;

b) mühazirələr oxumaq, elmi seminar və konfranslarda iştirak etmək məqsədilə elmi-pedaqoji heyətin mübadiləsi;

c) elmi nəşr və məlumatların mübadiləsi;

d) əlaqədar institutlar birbaşa əlaqə yaratmaqla əməkdaşlıq mövzuları və onların maliyyə şərtlərini hazırlayacaqlar.

Maddə 3

Azərbaycan Tərəfi hər il İordaniya Tərəfinə təqaüdsüz, ödənişsiz tibb, stomatologiya və mühəndislik sahələrində ali təhsil üçün bir neçə yer ayıracaqdır. Yerlərin sayı və təhsilin şərtləri müvafiq təşkilatlar arasında və ya diplomatik kanallar vasitəsilə razılaşdırılacaqdır.

Maddə 4

İordaniya Tərəfi Azərbaycan Tərəfini hər il aşağıdakılarla təmin edir:

a) təqaüdsüz, ödənişsiz bir təhsil ili müddətində ərəb dilini öyrənmək

üçün təcrübə ilə;

b) təqaüdsüz, ödənişsiz elmi tədqiqat təcrübələri ilə.

Təcrübə keçənlərin sayı diplomatik kanallar vasitəsilə razılaşdırılacaqdır.

II. Mədəniyyət və İncəsənət

Maddə 5

Tərəflər digər dövlətdə müasir və qədim incəsənət sərgiləri təşkil etməyə səy göstərəcəklər. İki ölkənin əlaqədar institutları sərgilərin təşkili üçün ətraflı tədbirlər hazırlayacaqlar.

Maddə 6

Tərəflər digər dövlətdə musiqi proqramları və tamaşalar təşkil etməyə səy göstərəcəklər. Hər iki ölkənin əlaqədar institutları tamaşa və konsertlərin təşkili ilə bağlı tədbirlər hazırlayacaqlar.

Maddə 7

Tərəflər Azərbaycanın və İordaniyanın mədəniyyət müəssisələri arasında arxeologiya, muzeylərin idarə edilməsi, mədəni abidələrin mühafizəsi və qorunması sahəsində birbaşa əməkdaşlığı dəstəkləyəcəklər. Belə əməkdaşlığın şərtləri hər iki ölkənin əlaqədar

müəssisələri arasında razılaşdırılacaqdır.

Maddə 8

Tərəflər ən azı bir ay əvvəl müvafiq dəvətnamələri göndərməklə hər iki ölkədə təşkil olunan beynəlxalq festival və müsabiqələrdə qarşılıqlı iştirakı təşviq edəcəklər.

Maddə 9

Tərəflər mütəxəssislərin, nəşr və məlumatın mübadiləsini ehtiva edən milli kitabxanalar arasında əməkdaşlığı dəstəkləyirlər. Tərəflər ədəbiyyat, nəşriyyat və kitabxanaların idarə edilməsi sahəsində birgə təhsil layihələrinin hə-yata keçirilməsinə səy göstərəcəklər. Belə əməkdaşlığın şərtləri hər iki ölkənin əlaqədar müəssisələri arasında razılaşdırılacaqdır.

Maddə 10

Tərəflər milli arxiv orqanları arasında birbaşa sazişlər əsasında elmi, sosial və hüquqi məqsədlər üçün arxivdən istifadəni, təcrübə, nəşrlərin və mikrofilmlərin mübadiləsinin vacibliyini nəzərə alaraq arxiv idarəetməsi sahəsində əməkdaşlığa dəstək verəcəklər.

Maddə 11

Tərəflər dövlətlərinin daxili qanunvericilikləri və imzaladıqları beynəlxalq müqavilələrə uyğun olaraq mədəni irsə məxsus olan mədəni əşyaların qanunsuz alverinin qarşısını almağa səy göstərəcəklər.

Maddə 12

Tərəflər öz ölkələrində mədəniyyət həftələrinin və tətbiqi sənət, kitab sərgilərinin və folklor nümayişlərinin təşkilinə səy göstərəcəklər.

III. Gənclər və İdman

Maddə 13

Tərəflər gənclər təşkilatları və idman assosiasiyaları arasında birbaşa əməkdaşlığa yardım edəcəklər.

Maddə 14

Tərəflər uşaq və gənclərin mədəniyyət və təhsili sahəsində birbaşa əməkdaşlığı dəstəkləyirlər.

Maddə 15

Tərəflərin gənclər, təhsil, bədən tərbiyəsi və idman sahələri üzrə nazirlikləri və müəssisələri əməkdaşlığın fəaliyyət dairəsini, formasını, təşkili strukturunu və maliyyə şərtlərini hazırlamaqla birbaşa əməkdaşlıq və dövrü icraedici proqramlarla əlaqədar sazişlər bağlaya bilərlər.

IV. Arxeologiya

Maddə 16

Tərəflər öz ölkələrində nəşr edilən müvafiq elmi ədəbiyyatı mübadilə edəcəklər.

Maddə 17

Tərəflər əntiq əşyalar və muzey işi ilə bağlı elmi mühazirə və konfranslarda belə tədbirlərə dəvətnamələrin çatdırılması şərtilə iştirakı təşviq edəcəklər.

Maddə 18

Tərəflər hər iki ölkədə arxeoloji və milli irslə bağlı aparıcı mobil sərgilərin təşkilini təşviq edəcəklər.

Maddə 19

Tərəflər tarixi abidələrin bərpası və qorunması sahəsində əməkdaşlığı və hər iki ölkədə müvafiq sərgilərin keçirilməsini təşviq edəcəklər.

Maddə 20

Tərəflər hər iki ölkədə mütəxəssislərin mübadiləsini təşviq edəcəklər. Təfsilatlar diplomatik kanallar vasitəsilə razılaşdırılacaqdır.

V. Səhiyyə

Maddə 21

Tərəflər hər iki ölkənin səlahiyyətli müəssisələri arasında bağlanmış ayrıca sazişin mövzusu olan səhiyyə və tibb elminin müxtəlif sahələrində təcrübə və məlumat mübadiləsi edəcəklər.

VI. Media

Maddə 22

Tərəflər digər ölkənin kinematoqrafiyasının beynəlxalq film festivallarında iştirakını və bu ölkələrdə film nümayişlərinin təşkilini dəstəkləyəcəklər. Tərəflər televiziya proqramlarının kommersiya və qeyri-kommersiya mübadiləsinə yardım edəcəklər.

Maddə 23

Tərəflər hər iki ölkənin ictimai televiziya şəbəkələri arasında ikitərəfli əlaqələr yaratmaq istiqamətində fəaliyyət göstərəcəklər.

Maddə 24

Tərəflər media və kommunikasiya sahəsində təcrübə, məlumat, nəşrlər, o cümlədən mütəxəssislərin mübadiləsinə yardım göstərəcəklər. Mübadiləyə aid təfsilatlar Tərəflər arasında bağlanan ayrıca müqavilələrlə tənzimlənəcəkdir.

VII. Şəxslərin mübadiləsi

Maddə 25

Proqram çərçivəsində doktorluq, ali təhsil, elmi tədqiqat təcrübələri üzrə şəxslərin mübadiləsi qısa səfərlər çərçivəsində həyata keçiriləcəkdir.

Maddə 26

Bu Proqramda 3-cü və 4-cü maddələrə müvafiq olaraq mübadilələrdə iştirak edən şəxslər aşağıdakılarla təmin olunacaqlar:

a) Qəbul edən Tərəf:

1) dövlət ali məktəblərində və doktorluq təhsili verən müəssisələrdə ödənişsiz təhsil;

2) tələbə yataqxanalarında ödənişli mənzil.

b) Göndərən Tərəf:

1) otaq və yemək xərclərinin ödənişi;

2) Qəbul edən Tərəfin qaydaları xəstəliyə görə müavinət hüququnu təmin etməzsə, tibbi və bədbəxt hadisələrə qarşı sığorta.

Təqaüd alan və təcrübə keçəcək namizədlərin sənədləri diplomatik kanallar vasitəsilə göndərilir.

VIII. Yekun müddəalar

Maddə 27

Bu Proqram, diplomatik kanallar vasitəsilə razılaşdırılma şərtilə, təhsil, elm və mədəniyyət sahəsində olan əməkdaşlığın digər formalarına mənfi təsir etməyəcəkdir.

Maddə 28

Bu Proqram Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Protokol 2009-cu il 31 dekabr tarixinədək qüvvədə qalacaqdır.

Bu Proqram 2009-cu il 31 dekabr tarixindən gec olmayaraq yeni proqram qüvvəyə minənədək tətbiq olunacaqdır.

Əmman şəhərində 2007-ci il 29 iyul tarixində Azərbaycan, ərəb və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır. Hər iki mətn bərabər autentikdir. Bu Proqramın təfsirində fikir ayrılığı olduğu təqdirdə, ingilis dilin-də olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İORDANİYA HAŞİMİLƏR KRALLIĞI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*SÜHEYR ƏL-ƏLİ*
Xarici işlər naziri	*Planlaşdırma və beynəlxalq əməkdaşlıq naziri*

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və İordaniya Haşimilər Krallığı Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və İordaniya Haşimilər Krallığının Səhiyyə Nazirliyi,

səhiyyə və tibb elmi sahəsində ikitərəfli əlaqələri inkişaf etdirməyi arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər hər bir Tərəfin müvafiq qanunvericiliyinə uyğun olaraq tibb institutları, tibb mərkəzləri və bu sahəyə aid digər qurumlar arasında ikitərəfli əməkdaşlığı inkişaf etdirəcəklər.

Maddə 2

Tərəflər öz ölkələrində tədris seminarları təşkil edəcək və hər bir ölkənin səhiyyəsinin prioritetlərinə əsaslanaraq, əlaqədar sahələrin mütəxəssis ekspertlərinin digər ölkəyə səfərini təşkil edəcəklər.

Hər bir Tərəf öz səlahiyyətli nümayəndəsinin digər ölkəyə etdiyi səfərin vaxtını ən azı 15 gün əvvəl bildirəcəkdir.

Maddə 3

Tibb elmi sahələri üzrə əməkdaşlığın inkişafı üçün hər iki tərəfin tibbi cəmiyyətləri hər il dekabr ayının ortalarına qədər keçiriləcək konfransların və iclasların cədvəlini və iş planını təqdim etməlidirlər.

Maddə 4

Tərəflər Tibbi Elmi Tədqiqat İnstitutları arasında əməkdaşlığı dəstəkləyəcəklər.

Bura elmi məlumatın, elmi sənədlərin və tədqiqat materiallarının mübadiləsi daxildir.

Bu institutların əməkdaşlığa dair illik iş planı öz ölkələrinin səhiyyə nazirləri tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minəcəkdir.

Maddə 5

Tərəflər öz ölkələrində xəstəxanalar arasında birbaşa əlaqələri möhkəmləndirəcəklər.

Maddə 6

Tərəflər tibbi nəşrlərin və tibbi məlumatların mübadiləsini gücləndirəcəklər.

Maddə 7

Tərəflər dərman preparatları və əczaçılıq sənayesi sahəsində əməkdaşlıq edəcəklər.

Maddə 8

Tərəflər epidemik və ya yoluxucu xəstəliklər baş verəcəyi təqdirdə hər bir Tərəfin vətəndaşlarına ödənişsiz tibbi xidmətlər göstərəcəklər. Hər bir Tərəf öz vətəndaşlarını diaqnoz və müalicə üçün digər Tərəfə göndərə bilər. Göndərən Tərəf bu cür diaqnoz və müalicə ilə bağlı bütün xərcləri ödəyəcəkdir.

Maddə 9

Tərəflər hər iki nazirliyi əməkdaşlığın inkişafı barədə müntəzəm olaraq məlumatlandıracaq, hər bir Tərəfdən 3 nümayəndənin daxil olduğu birgə işçi qrupu təsis edəcəklər. Bu qrup müntəzəm olaraq Əmmanda və Bakıda görüşəcəkdir.

Maddə 10

Bu Sazişdə nəzərdə tutulmuş fəaliyyətlər hər iki Tərəfin büdcələrində mövcud olan vəsaitlərə uyğun olaraq həyata keçiriləcəkdir.

Bu Sazişin 2-ci və 8-ci maddələrinin müddəalarına uyğun olaraq ekspertlərin iki ölkə arasında səfər xərclərini göndərən Tərəf ödəyəcəkdir.

Qəbul edən tərəf qeyd edilən qaydalara uyğun olaraq yerli nəqliyyat və mehmanxana xərclərini ödəməlidir.

Maddə 11

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və Sazişin 7-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 12

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurlarının yerinə yetirilməsi barədə Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən hər hansı biri onun qüvvəsini ləğv etmək niyyəti barədə bu müddətin bitməsinə ən azı altı ay qalmış diplomatik kanallar vasitəsilə digər Tərəfə yazılı bildiriş göndərməzsə, Sazişin qüvvəsi növbəti beşillik müddətə uzadılacaqdır.

Bu Saziş Əmman şəhərində 30 iyul 2007-ci il tarixində iki əsl nüsxədə hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ ADINDAN	İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ SƏHİYYƏ NAZİRLİYİ ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə İordaniya Haşimilər Krallığının Statistika Departamenti arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və İordaniya Haşimilər Krallığının Statistika Departamenti,

gələcəkdə statistika sahəsində əməkdaşlığın inkişaf etdirilməsində, məlumatların mübadiləsinin genişləndirilməsində və iki dövlət arasında iqtisadi əlaqələrin əks etdirilməsində qarşılıqlı surətdə maraqlıdırlar və

aşağıdakılar barədə razılığa gəldilər;

Maddə 1

Tərəflər dövlət sirri təşkil edən məlumatların qorunmasını və göstəricilərin müqayisəliliyini təmin etməklə, hər iki dövlətin sosial-iqtisadi vəziyyətini əks etdirən statistik məlumatların mübadiləsi üzrə statistika sahəsində qarşılıqlı əlaqələri və əməkdaşlığı inkişaf etdirəcəklər.

Maddə 2

Tərəflər statistikanın aşağıdakı sahələrində əməkdaşlığı həyata keçirəcəklər:

ölkənin sosial-iqtisadi vəziyyətini əks etdirən statistik nəşrlərin və çap məhsullarının mübadiləsi;

statistik müşahidələrin, siyahıyaalmaların və müayinələrin həyata keçirilməsi, statistik göstəricilər sisteminin yaradılması və istifadə edilməsi üzrə statistik materialların və işləmələrin mübadiləsi;

Tərəflərin iş təcrübələrinin öyrənilməsi üçün qarşılıqlı səfərlərin təşkil edilməsi;

beynəlxalq statistika və iqtisadi təşkilatlar tərəfindən keçirilən tədbirlərdə iştirak məsələləri üzrə birgə fəaliyyət.

Maddə 3

Əməkdaşlıq bu Sazişin ayrılmaz hissəsi hesab olunan qarşılıqlı razılıq əsasında işlənib hazırlanmış və hər iki statistika təşkilatının rəhbərləri tərəfindən 2 illik dövr üçün təsdiq olunmuş tədbirlər planı əsasında həyata keçiriləcəkdir.

Maddə 4

Əməkdaşlıq prosesində digər Tərəfdən alınmış informasiya yalnız bu informasiyam təqdim edən Tərəfin yazılı razılığı əsasında üçüncü tərəfə verilə bilər, Əməkdaşlıq prosesində alınan informasiya Tərəfin mənafelərinin ziyanına istifadə edilə bilməz.

Maddə 5

Əməkdaşlıq əlaqəsi hər iki Tərəfdən təyin olunmuş vəzifəli cavabdeh şəxslər tərəfindən həyata keçirilir.

Maddə 6

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və Sazişin 7-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən ayrıca Protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 7

Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır.

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən biri Sazişə xitam vermək niyyəti barədə diplomatik kanallar vasitəsilə yazılı bildiriş təqdim etməklə bu Sazişin qüvvəsinə xitam verə bilər. Saziş belə bildirişin alındığı tarixdən 6 ay sonra qüvvədən düşmüş hesab edilir.

Bu Saziş Əmman şəhərində 29 iyul 2007-ci il tarixində iki əsl nüsxədə hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

Bu Sazişin təfsirində fikir ayrılığı yaranacağı təqdirdə, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ ADINDAN	İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ STATİSTİKA DEPARTAMENTİ ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi və İordaniya Standartlar və Metrologiya Orqanı (JİSM) arasında standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya və digər əlaqəli sahələr üzrə əməkdaşlıq Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi və İordaniya Standartlar və Metrologiya Orqanı (JİSM),

iki dost ölkə arasında gələcəkdə də ikitərəfli əlaqələrin inkişafının vacibliyini nəzərə alaraq, əməkdaşlıq əlaqələrinin gücləndirilməsi məqsədilə və aralarında mövcud olan ticarətdə texniki maneələrin aradan qaldırılmasını hədəf alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz maraqlarını təmin etmək məqsədilə standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya və digər əlaqəli sahələr-də inteqrasiyaya nail olmaq üçün elmi-texniki əməkdaşlığa başlayacaqlar.

Maddə 2

Tərəflər arasında əməkdaşlıq hər biri üçün ümumi olan sahələri və xüsusən də aşağıdakıları əhatə edəcəkdir:

1. hər bir ölkədə tətbiq olunan beynəlxalq, regional, Avropa, İordaniya və Azərbaycan standartlarının qəbul edilməsi;
2. beynəlxalq qaydalara və tələblərə əsaslanaraq Akkreditasiya və sertifikatlaşdırma nəticələrinin tanınmasını təsdiqləyən Qarşılıqlı Tanınma Sazişinin (QTS) imzalanmasını məqsəd tutaraq uyğunluğun qiymətləndirilməsi sisteminin inkişafı;
3. hər bir ölkədə yeni standartların hazırlanması zamanı beynəlxalq, regional və Avropa standartları əsas götürülməlidir;
4. İordaniya və Azərbaycan bazarlarında satılan mallara uyğunluğun təsdiqlənməsi prosedurlarının qarşılıqlı tanınmasına şərait yaratmaq;
5. Tərəflər müvafiq sahələrdə birinin üzv olduğu beynəlxalq təşkilatlara daxil olmaqla

və bu təşkilatların işində iştirak etməklə digər Tərəfə, lazım olduqda, qarşılıqlı kömək göstərəcəklər.

Maddə 3

Hər iki dövlətin qarşılıqlı göndərilən mallarının standartlarının harmonizə imkanlarını öyrənmək üçün aşağıdakı fəaliyyəti həyata keçirəcəklər:

1. Qarşılıqlı göndərilən malların siyahısının hazırlanması;
2. Qarşılıqlı göndərilən malların standartlarının siyahısının hazırlanması, bu standartların nömrələrinin və maliyyə dəyərinin göstərilməsi;
3. Qarşılıqlı göndərilən prioritet malların standartlarının hazırlanması üçün illik işçi proqramının hazırlanması. Bu illik işçi proqramı aşağıdakıları müəyyən edəcəkdir:

İordaniya və Azərbaycan standartları; standart olmayan malların siyahısı.

Maddə 4

Tərəflər əməkdaşlığı və qarşılıqlı fəaliyyəti aşağıdakı hallarda həyata keçirəcəklər:

1. ekspertlərin və təlim iştirakçılarının mübadiləsi;
2. standartlarla, uyğunluğun qiymətləndirilməsi, metrologiya və akkreditasiya ilə bağlı texniki informasiyanın, sənədlərin, o cümlədən bülletenlərin, təlim kurslarının, statistik göstəricilərin və ümumi informasiyanın mübadiləsi;
3. standartlaşdırma, uyğunluğun qiymətləndirilməsi, metrologiya və akkreditasiya sahələrində təlim kurslarının, konfransların və iclasların qarşılıqlı təşkili;
4. kalibrasiya və sınaq fəaliyyəti üzrə laboratoriyaların qarşılıqlı müqayisəli sxemlərinin hazırlanmasında əməkdaşlığın təşkili;
5. beynəlxalq təcrübəyə uyğun metrologiya xidmətlərinin, o cümlədən qanunverici və sənaye metrologiya üzrə fəaliyyətin təşkili.

Maddə 5

Bu Sazişin vaxtında həyata keçirilməsi üçün:

1. Tərəflər bu Sazişin icrası vaxtı milli səviyyədə başqa təşkilatlarla koordinasiya işləri apara bilərlər.
2. Tərəflər bu Sazişdə qeyd olunan əməkdaşlıq proqramım həyata keçirmək üçün birgə komitə yaradırlar. Bu komitənin iclasları İordaniya və Azərbaycanda keçiriləcəkdir.

Maddə 6

1. Tərəflər informasiya mübadiləsinin konfidensiallığını təmin edəcəklər.
2. Tərəflərdən birinin aldığı məlumatların konfidensiallığı haqqında heç bir göstəriş yoxdursa, bu məlumat sərbəst istifadə oluna bilər.
3. Bu məlumat üçüncü tərəfə yalnız təqdim edən Tərəfin icazəsi olduqda verilə bilər.

Maddə 7

1. Tərəflərin istəyi ilə başqa sahələri əhatə edən sazişlər hazırlana bilər. Məsələn, Qarşılıqlı Tanınma Sazişi, Əqli Mülkiyyət Hüquqlarının qaydaları, sənəd satışı və s.

Maddə 8

1. Bu Sazişdən irəli gələn, yaxud onun yerinə yetirilməsi ilə bağlı məsələlər üzrə fikir ayrılığı yarandığı halda, Tərəflər dostluq şəraitində müvafiq məsləhətləşmələr və danışıqlar aparacaqlar.

Maddə 9

1. Bu Saziş Tərəflərin müvafiq dövlət qurumlarının təsdiqindən sonra qüvvəyə minir.
2. Bu Saziş beş il müddətinə bağlanır və avtomatik olaraq növbəti beşillik müddətə uzadılır.
3. Əgər Tərəflərdən biri bu Sazişi ləğv etmək arzusunda olarsa, müddətin bitməsinə altı ay qalmış o, öz niyyətini bildirməlidir.
4. Bu Sazişin ləğvi onun icrası zamanı qəbul olunmuş sənədlərə, layihələrə və proqramlara xitamı vermir.

Bunun təsdiqi olaraq, müvafiq səlahiyyətli orqan tərəfindən səlahiyyətləndirilmiş aşağıda imza edən şəxslər bu Sazişi imzaladılar.

Bu Saziş Əmman şəhərində 2007-ci il 29 iyul tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla imzalanmışdır. Bütün mətnlər bərabər autentikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ STANDARTLAŞDIRMA, METROLOGİYA VƏ PATENT ÜZRƏ DÖVLƏT AGENTLİYİ ADINDAN	İORDANİYANIN STANDARTLAR VƏ METROLOGİYA ORQANI ADINDAN
(imza)	*(imza)*

Azərbaycan-İordaniya İşgüzar Şurasının təsis olunmasına dair Saziş

Azərbaycan Respublikasında və İordaniya Haşimilər Krallığında biznes ictimaiyyətinin maraqlarını və istəklərini nəzərə alaraq və hər iki ölkə arasında iqtisadi əlaqələrin gücləndirilməsi məqsədilə ticarət və sənaye sahəsində əməkdaşlığın və birgə investisiya qoyuluşunun təşviq edilməsi, iqtisadiyyatın bütün sektorlarından iş adamlarının birgə fəaliyyətinin təmin edilməsi məqsədilə,

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu və İordaniya İş Adamları Şurası (bundan sonra "Tərəflər" adlandırılacaq) Azərbaycan-İordaniya İşgüzar Şurasının birgə təsis olunması barədə razılığa gəlirlər:

Azərbaycan-İordaniya İşgüzar Şurası Azərbaycan və İordaniya firmaları, təşkilatlan və

müəssisələri arasında birbaşa biznes əlaqələrinin inkişafına yardım göstərən və iqtisadiyyatın bütün sahələrində onlar arasında iqtisadi əməkdaşlığı inkişaf etdirmək niyyətilə fəaliyyəti həyata keçirən məşvərətçi qeyri-hökumət qurumudur.

Tərəflər, İşgüzar Şura çərçivəsində mütəmadi olaraq iqtisadi, ticarət və biznes mühitinə dair informasiya və sahibkarlığa dair təcrübə mübadiləsini təşviq edəcəklər.

Tərəflər yarmarka və sərgi fəaliyyətlərinin inkişafında, iqtisadi, texniki və investisiya seminarlarının, simpoziumların, konfransların və ikitərəfli ticarətin, iqtisadi və investisiya əməkdaşlığının, əlavə olaraq turizm fəaliyyətinin təşviqinin genişləndirilməsi məqsədilə digər tədbirlərin təşkilində bir-birlərinə yardım göstərmək üçün fəaliyyətlər həyata keçirəcəklər.

Tərəflər sənaye, ticarət, turizm və investisiya sahələrində əməkdaşlıq imkanlarının nəzərdən keçirilməsi üçün biznes nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkilinə yardım göstərəcək və onu təşviq edəcəklər.

Bu Saziş imzalandığı gündən qüvvəyə minəcək və qeyri-müəyyən müddətə qüvvədə olacaqdır.

Bu Saziş onun ləğv edilməsi ilə əlaqədar Tərəflərdən hər hansı birinin yazılı bildirişi tarixindən üç ay sonradan tez olmayaraq qüvvədən düşəcəkdir.

Bu Saziş Əmman şəhərində 2007-ci il 29 iyul tarixində, Azərbaycan və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCANDA İXRACIN VƏ İNVESTİSİYALARIN TƏŞVİQİ FONDU ADINDAN	İORDANİYANIN İŞ ADAMLARI ŞURASI ADINDAN
HEYDƏR BABAYEV *İqtisadi inkişaf naziri*	*TABİT ƏL-TAHİR* *Sədrinin müavini*

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və İordaniya Haşimilər Krallığının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və İordaniya Haşimilər Krallığının Ədliyyə Nazirliyi hüquq və məhkəmə sahələrində əməkdaşlığın bərqərar olunmasına, inkişafına və möhkəmlənməsinə böyük maraq göstərərək, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Əməkdaşlığa nail olmaq üçün Tərəflər aşağıdakı istiqamətlərə üstünlük verəcəklər:

1) Tətbiq edilən qanunların, nəşrlərin, ədliyyə və hüquq sahələrində ədəbiyyatın və elmi tədqiqatların, hüquqi jurnalların, o cümlədən hər iki Tərəfin ədliyyə sistemi haqqında məlumatların mübadiləsi;
2) hər iki Tərəfdə təşkil olunan hüquq və ədliyyə sahələrinə aid olan konfrans, habelə simpozium və seminarlarda iştirak;

3) qanunvericilik və ədliyyə sahələrində yeniliklərin öyrənilməsi məqsədilə ədliyyə nümayəndə heyətlərinin səfərlərinin təşviqi.

Maddə 2

Bu Anlaşma Memorandumu Tərəflər arasında əməkdaşlığı təşviq etmək üçün ədliyyə sahəsində əməkdaşlıq haqqında digər sazişlərin bağlanmasına mane olmur.

Maddə 3

Yazışma və əlaqələr sorğu edən Tərəfin dilində həyata keçirilir və ingilis dilində olan tərcümə ilə müşayiət olunur.

Maddə 4

Hər bir Tərəf digər Tərəfə göndəriləcək öz nümayəndə heyətinin mehmanxana və yol xərclərini ödəyir.

Maddə 5

Bu Anlaşma Memorandumu hər iki Tərəfin milli qanunvericiliyinə uyğun qaydada qüvvəyə minir və üç il müddətinə qüvvədə qalır və hər bir Tərəf istənilən vaxt yazılı şəkildə diplomatik kanallar vasitəsilə üç ay əvvəlcədən bildiriş göndərməklə onu ləğv etməzsə, o, avtomatik olaraq həmin müddətə və ya müddətlərə uzadılır. Lakin bu Anlaşma Memorandumunun ləğvi onun qüvvədən düşməsindən əvvəl başlanılmış işlərə təsir göstərmir.

Bunun təsdiqi olaraq aşağıda imza edənlər onların hökumətləri tərəfindən lazımi qaydada səlahiyyətləndirilərək bu Memorandumu imzaladılar.

Bu Anlaşma Memorandumu Əmman şəhərində 2007-ci il 30 iyul tarixində Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Memorandumun təfsiri ilə bağlı fikir ayrılığı yarandıq-da, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN	İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ ƏDLİYYƏ NAZİRLİYİ ADINDAN
(imza)	*(imza)*

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və İordaniya Televiziya və Radio Şirkəti arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və İordaniya Televiziya və Radio Şirkəti əməkdaşlıq əlaqələrini möhkəmləndirmək niyyətini ifadə edərək, bu məqsədlə aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz təkliflərinə uyğun olaraq müəllif hüquqları azad olan televiziya proqramlarının qeyri-kommersiya əsasında mübadiləsini aparacaqlar.

Göndərən Tərəf proqramın yazılma, göndərilmə xərclərini ödəyəcək və göndərilən proqramların ingilis dilindəki mətnlərini əlavə edəcəkdir.

Maddə 2

Tərəflər proqram və materiallardan yalnız öz ölkələri daxilində və öz televiziyalarının ehtiyaclarına uyğun olaraq istifadə edə bilərlər.

Qəbul edən Tərəf göndərən Tərəfin yazılı razılığı ilə proqramın orijinal məzmununa və ya proqramın dəyərinə xələl gətirmədən təklif edilən proqramı qısalda və ya redaktə edə bilər.

Tərəflərin qəbul etdikləri proqramları üçüncü tərəfə satmaq və ya vermək hüququ yoxdur.

Maddə 3

Tərəflər qarşılıqlı razılıq əsasında televiziya sahəsi üzrə mütəxəssislərin mübadiləsini apara bilərlər.

Maddə 4

Tərəflər televiziya yaradıcı qruplarına və jurnalistlərə unilateral proqramların montajında və ya yayımında lazımi kömək göstərəcəklər.

Göstərilən xidmətlərə görə qəbul edən Tərəf xərclərlə bağlı fakturaları, CİRAP-EBU tariflərinə uyğun olaraq, göndərən Tərəfə təqdim edəcək; belə fakturalar alındığı gündən 15 gün ərzində ödənilməlidir.

Xidmət xərclərini Tərəflər öncədən razılaşdıracaqlar.

Maddə 5

Göndərən Tərəf digər Tərəfə təyin olunmuş vaxtdan iki həftə əvvəl öz çəkiliş qrupunun səfər tarixini bildirməli, onların gündəliyi, texniki tələbləri haqqında məlumat verməlidir.

Bu vaxt limiti rəsmi səfərlərə və siyasi hadisələrə aid edilmir.

Maddə 6

Mübadilə edilən proqramların müəlliflik hüququ proqramı göndərən Tərə-fin dövlətinin qanunvericiliyinə uyğun müəyyənləşdiriləcəkdir.

Maddə 7

Göndərilən proqram və ya materialın istifadəsi ilə bağlı müəlliflik hüququ üçün ödəniş tələb olunarsa, göndərən Tərəf alan Tərəfi vaxtında məlumatlandırmalıdır. Materialların göndərilmə xərcini göndərən Tərəf ödəyir, alan Tərəf isə materialın qəbul xərclərini ödəyir.

Maddə 8

Tərəflər hər iki Tərəfin maraqlarına uyğun mövzuda müştərək proqramlar hazırlanması imkanlarını nəzərdən keçirəcəklər.

Müştərək proqramların hazırlanması üçün konkret şərtlər və aspektlər ayrı müqavilələrlə müəyyən ediləcəkdir.

Maddə 9

Bu Sazişin həyata keçirilməsində yarana biləcək mübahisələr danışıqlar və qarşılıqlı anlaşma yolu ilə həll ediləcəkdir.

Maddə 10

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilən və Sazişin 11-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 11

Bu Saziş imzalandığı gündən qüvvəyə minir və 3 il müddətinə etibarlıdır.

Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə diplomatik kanallar vasitəsilə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti üç il müddətinə uzadılacaqdır.

Bu Saziş Əmman şəhərində 29 iyul 2007-ci il tarixində, iki əsl nüsxədə, hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətn əsas götürüləcəkdir.

"AZƏRBAYCAN TELEVİZİYA VƏ RADİO VERİŞLƏRİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ ADINDAN	İORDANİYA TELEVİZİYA VƏ RADİO ŞİRKƏTİ ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və İordaniya Xəbər Agentliyi (Petra) arasında Əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və İordaniya Xəbər Agentliyi (Petra),

Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı xalqları arasında dostluq əlaqələri çərçivəsində, iki ölkə arasında informasiya sahəsində əmək-daşlığı inkişaf etdirmək və möhkəmləndirmək yönündə qarşılıqlı istəyə əsaslanaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər müntəzəm olaraq bir-birinə ingilis dilində ödənişsiz və qarşılıqlı razılıq əsasında internet vasitəsilə informasiya göndərəcəkdir.

Maddə 2

Tərəflər bir-birinə aldıqları xəbərlərdən istifadə etmək və onları qeyri-kommersiya əsasında yaymaq hüququ verirlər və Tərəflər bir-birinin xəbərlərindən istifadə edərkən, xəbərin mənbəyini aydın göstərəcək, onun məzmununu və faktları dəyişməyəcəklərini təsdiq edirlər.

Maddə 3

Tərəflər lazımi foto-informasiya materiallarını elektron poçtla bir-birinə göndərməyi öhdələrinə götürürlər.

Maddə 4

Tərəflərin hər biri digər Tərəfdən öz ölkəsində baş verən mühüm hadisələr barədə əlavə informasiya göndərməyi xahiş edə bilər. Tərəflər bu cür xahişləri ödənişsiz əsaslarla yerinə yetirirlər.

Maddə 5

Tərəflər öz ölkələrində bir-birinin müxbirlərinin, yaxud digər əməkdaşlarının fəaliyyəti üçün lazım olan köməyi göstərəcəklər.

Maddə 6

Tərəflər jurnalistlərin və başqa mütəxəssislərin qarşılıqlı mübadiləsini təşviq edirlər. Bu cür mübadilənin şərtləri Tərəflərin məktubu əsasında əvvəlcədən müəyyən ediləcəkdir.

Maddə 7

Bu Saziş bir il müddətinə bağlanılır və imzalandığı gündən qüvvəyə minir. Tərəflərdən hər hansı biri bu müddətin başa çatmasına ən azı iki ay qalmış Sazişi ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə yazılı bildiriş təqdim etməzsə, Sazişin qüvvəsi növbəti bir il müddəti-nə uzadılacaqdır.

Bu Saziş Əmman şəhərində 2007-ci il 29 iyul tarixində, Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır. Bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsiri zamanı fikir ayrılığı olduqda, ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN DÖVLƏT TELEQRAF AGENTLİYİ ADINDAN	İORDANİYA XƏBƏR AGENTLİYİ ADINDAN
(imza)	*(imza)*

Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Böyük Əmman Bələdiyyəsi (İordaniya Haşimilər Krallığı) arasında dostluq və əməkdaşlıq haqqında Protokol

Bundan sonra "Tərəflər" adlandırılan Bakı Şəhər İcra Hakimiyyəti və Böyük Əmman Bələdiyyəsi,

şəhərlər arasında əlaqələrin iki ölkə xalqlarının dostluğuna, qarşılıqlı anlaşmaya və dünyada sülhün qorunmasına xidmət edəcəyinə inanaraq,

ölkələri arasında mövcud olan dostluq əlaqələrinin, çoxsahəli əməkdaşlığın daha da inkişaf etdirilməsi və birbaşa əlaqələr üçün əlverişli şəraitin yaradılmasına çalışaraq,

paytaxt şəhərlərin ümumi problemlərinin həlli təcrübəsinin mübadiləsinə mühüm əhəmiyyət verərək,

şəhərlər arasında qarşılıqlı tanıtma və anlaşmanın inkişafına yardım etməyi arzu edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

1) Tərəflər Bakı və Əmman şəhərləri arasında dostluq və əməkdaşlığı öz dövlətlərinin milli qanunvericiliklərinə və ənənələrinə, Azərbaycan Respublikası ilə İordaniya Haşimilər Krallığı arasındakı beynəlxalq müqavilələrə uyğun olaraq, bərabərlik, tərəfdaşlıq və qarşılıqlı fayda əsasında həyata keçirəcəklər;

2) Tərəflər arasında dostluq əlaqələri və əməkdaşlıq, əsasən, onların şəhərlərinin sakinlərinin maraqlarına uyğun olaraq, ilk növbədə, qarşılıqlı tanıtma, şəhərlərin idarə edilməsi, eləcə də şəhər infrastrukturuna aid sahələrdə yaradılaraq inkişaf etdiriləcəkdir;

3) şəhərlər arasında əlaqələr şərtləri və tərkibi qarşılıqlı razılaşma əsasında hazırlanmış əməkdaşlıq proqramları və Tərəflərin ayrı-ayrı təklifləri əsasında həyata keçiriləcəkdir;

4) Tərəflərin qarşılıqlı razılığı əsasında bu Protokola onun ayrılmaz hissəsi olan və 5-ci bəndinə uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər;

5) bu Protokol beş il müddətinə bağlanılır və imzalandığı tarixdən qüvvəyə minir.

Tərəflərdən biri bu müddətin başa çatmasına ən azı altı ay qalmış onun qüvvəsini ləğv etmək niyyətini digər Tərəfə diplomatik kanallar vasitəsilə bildirməzsə, bu Protokolun qüvvəsi növbəti beşillik müddətlərə uzadılacaqdır.

Bu Protokol Əmman şəhərində 2007-ci il 29 iyul tarixində, Azərbaycan, ərəb və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər autentikdir. Bu Protokolun təfsiri zamanı fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

BAKI ŞƏHƏR İCRA HAKİMİYYƏTİ ADINDAN	BÖYÜK ƏMMAN BƏLƏDİYYƏSİ ADINDAN
HACIBALA ABUTALIBOV	*ÖMƏR ƏL-MƏƏSİ*
Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı	*Böyük Əmman bələdiyyəsinin meri*

Azərbaycan Respublikası və Litva Respublikası arasında 2007-ci il sentyabrın 13-də Vilnüs şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Litva Respublikası arasında 2007-ci il sentyabrın 13-də Vilnüs şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş;

1.3. Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş;

1.4. Azərbaycan Respublikası Vergilər Nazirliyi və Litva Respublikası Maliyyə Nazirliyi yanında Dövlət vergi müfəttişliyi arasında vergitutma məsələləri üzrə məlumat mübadiləsi haqqında Saziş.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.4-cü bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.4-cü bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Litva Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti.

Bakı şəhəri, 23 noyabr 2007-ci il.

№2510

Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti,

dostluq münasibətləri və mədəniyyət sahəsində gələcək əməkdaşlığı inkişaf etdirmək və gücləndirmək arzusunda olaraq,

mədəniyyət sahəsində əməkdaşlığın xalqlar arasındakı dostluğun və daha yaxşı anlaşmanın inkişafına kömək etdiyinə inanaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Razılığa gələn Tərəflər musiqi, teatr, kinematoqrafiya, rəssamlıq, kitabxana elmi və muzey elmi, tarixi və mədəni irs obyektlərinin mühafizəsi, həvəs-kar incəsənət, sənətkarlıq və digər mədəni fəaliyyət sahələrində mübadilələr və əməkdaşlığın inkişafı üçün əlverişli şərait yaradacaqlar.

Maddə 2

Razılığa gələn Tərəflər öz səlahiyyətləri daxilində və ikitərəfli layihələr əsasında teatr və musiqi ifaçı qruplarının qastrol və tamaşalarını, incəsənət obyektləri və muzey eksponatları sərgilərinin mübadiləsini, peşəkar və həvəs-kar incəsənət sahələrində festival, müsabiqə, konfrans, seminar və digər tədbirlərin təşkilini dəstəkləyəcəklər.

Maddə 3

Razılığa gələn Tərəflər öz səlahiyyətləri daxilində teatrlar, konsertlərin təşkili ilə məşğul olan təşkilatlar, mədəni irsin mühafizəsi üzrə təsisatlar, kitabxanalar, habelə digər mədəniyyət və incəsənət təsisatları arasında birbaşa əməkdaşlığı dəstəkləyəcəklər.

Maddə 4

Razılığa gələn Tərəflər yaradıcı birliklər, eləcə də mədəniyyət və incəsənət sahələrində fəaliyyət göstərən şəxslər arasında qarşılıqlı əlaqələrin inkişafına yardım göstərəcəklər.

Maddə 5

Razılığa gələn Tərəflər öz səlahiyyətləri daxilində mədəniyyət və incəsənət mütəxəssislərinin tanışlıq səfərlərini dəstəkləyəcəklər.

Razılığa gələn Tərəflər öz səlahiyyətləri daxilində digər ölkələrin mədəniyyət və incəsənət mütəxəssislərini hər iki ölkə tərəfindən təşkil olunmuş konqres, konfrans, festivallarda, habelə digər milli və beynəlxalq tədbirlərdə iştirak etmək üçün dəvət edəcəklər.

Maddə 6

Razılığa gələn Tərəflər hər iki ölkənin muzey və kitabxanalarında nümayiş etdirilən dəyərli mədəniyyət əşyaları ehtiyatlarına sənədlər, kitabxanalararası mübadilə, elektron kataloq və elektron kitabxanalar vasitəsilə keçid üçün əlverişli imkanlar yaratmağı qarşılarına məqsəd qoyacaqlar.

Maddə 7

Razılığa gələn Tərəflər qeyri-qanuni ixrac olunmuş rəssamlıq əsərlərinin, daşına bilən qiymətli mədəniyyət əşyalarının və antikvar əşyaların qaytarılmasında əməkdaşlıq edəcəklər.

Maddə 8

Razılığa gələn Tərəflər iki ölkə arasında kinematoqrafiya sahəsində, habelə film və digər vizual məhsulların mübadiləsi, festivallarda iştirak, reklam materialları, jurnal və bu sahədəki digər nəşrlərin mübadiləsində əməkdaşlığı dəstəkləyəcəklər.

Maddə 9

Razılığa gələn Tərəflər mədəniyyət və incəsənət sahələrində tədqiqatla bağlı məlumatların mübadiləsini aparacaq, habelə elmi mübadilələri və digər növ əməkdaşlığı dəstəkləyəcəklər.

Maddə 10

Razılığa gələn Tərəflər əqli mülkiyyət sahəsində, xüsusilə müəlliflik hüququnun və digər əlaqəli hüquqların qorunması və həyata keçirilməsi sahə-sində əməkdaşlıq edəcəklər.

Maddə 11

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Razılığa gələn Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Razılığa gələn Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə diplomatik kanallar vasitəsilə yazılı şəkildə Razılığa gələn digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılacaqdır.

Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə düzəliş və əlavələr edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olan ayrıca protokollar formasında rəsmiləşdiriləcək və Sazişin bu maddəsinin 1-ci bəndində nəzərdə tutulan qaydada qüvvəyə minəcəkdir.

Razılığa gələn Tərəflər başqa qayda barədə razılaşmadıqları təqdirdə, bu Sazişin xitam olunması onun qüvvədə olduğu müddət ərzində başlanmış, lakin onun xitam olunmasına qədər başa çatmamış proqramların və layihələrin həyata keçirilməsinə təsir etməyəcəkdir.

Bu Saziş Vilnüs şəhərində 2007-ci il 13 sentyabr tarixində, hər biri Azərbaycan, Litva və ingilis dillərində iki nüsxədə imzalanmışdır və bütün mətnlər bərabər autentikdir.

Bu Sazişin təfsiri zamanı hər hansı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ƏBÜLFƏS QARAYEV
Mədəniyyət və turizm naziri

LİTVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

YONAS YUÇAS
Mədəniyyət naziri

Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti,

turizm sahəsində sıx və uzunmüddətli əməkdaşlığın qurulmasında qarşılıqlı marağı etiraf edərək,

bu sahədə hər iki ölkə, o cümlədən onların milli turizm təşkilatları arasında əlaqələrin inkişaf etdirilməsini arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər hər iki xalqın həyatı, tarixi və mədəniyyəti ilə tanış olmaq məqsədilə Azərbaycan Respublikası və Litva Respublikası arasında turizm mübadiləsinin genişləndirilməsinə kömək edəcəklər.

Belə əməkdaşlıq Tərəflərin normativ hüquqi aktlarına və bu Sazişin müddəalarına uyğun olaraq həyata keçiriləcəkdir.

Maddə 2

Tərəflər turizm üzrə dövlət idarəetmə qurumları və turizm təşkilatları, o cümlədən beynəlxalq və daxili turizmin inkişafında iştirak edən digər təşkilatlar arasında daha sıx əməkdaşlığı dəstəkləyəcəklər.

Maddə 3

Tərəflər turizmin inkişafı haqqında məlumat, çap məhsulları, filmlər ilə mübadiləni təşviq edəcəklər, reklam kampaniyalarının, konfransların və seminarların keçirilməsinə, sərgilərin və yarmarkaların təşkilinə yardım edəcəklər.

Tərəflər bu məqsədlə özəl turizm şirkətlərinin yaradılmasına kömək edə bilərlər.

Maddə 4

Tərəflər turizm sektorunun təhsil, hazırlıq, mütəxəssis, personal və tələbələrin mübadiləsi sahəsində əməkdaşlığı təşviq edəcəklər. Tərəflər turizmin inkişafı üzrə müxtəlif tədqiqatların və layihələrin həyata keçirilməsində həm ictimai, həm də özəl təşkilatlara yardım edəcəklər.

Maddə 5

Tərəflər turizm üzrə öz dövlət idarəetmə qurumlan vasitəsilə turizm fəaliyyətinə aid qanunvericilik barədə və beynəlxalq turizm təşkilatlarında fəaliyyətləri haqqında məlumat mübadiləsi aparacaqlar.

Maddə 6

Tərəflər qarşılıqlı razılıq əsasında bu Sazişin daha səmərəli həyata keçirilməsi məqsədilə turizm sahəsində ikitərəfli əməkdaşlığın inkişaf etdirilmə-sinə dair birgə təkliflərin, proqramların və qərarların həyata keçirilməsi üçün tərkibinə hər iki ölkənin turizm üzrə mütəxəssislərinin daxil olacağı Birgə Komissiya yarada bilərlər.

Komissiya ildə bir dəfə növbə ilə Azərbaycan Respublikasında və Litva Respublikasında iclas keçirəcəkdir.

Maddə 7

Tərəflər bu Sazişin həyata keçirilməsi üzrə məsul dövlət orqanlarının aşağıdakıların olduğu barədə razılığa gəldilər:

Azərbaycan Respublikası tərəfindən - Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi,

Litva Respublikası tərəfindən - Litva Respublikasının Təsərrüfat Nazirliyi yanında Turizm üzrə Dövlət Departamenti.

Maddə 8

Bu Saziş Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə toxunmur.

Maddə 9

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və bu Sazişin 11-ci maddəsində müəyyən edilən qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 10

Bu Sazişin tətbiqi zamanı yaranan mübahisəli məsələlər Tərəflərin qarşılıqlı razılığı əsasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcəkdir.

Maddə 11

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılacaqdır.

Tərəflər digər məsələ barədə razılaşmadıqları halda, bu Sazişin qüvvəsinin dayandırılması onun qüvvədə olduğu müddətdə bağlana biləcək proqram və layihələrin yerinə yetirilməsinə təsir göstərməyəcəkdir.

Saziş Vilnüs şəhərində 13 sentyabr 2007-ci ildə iki əsl nüsxədə Azərbaycan, Litva və rus dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

Bu Sazişin təfsiri və tətbiqi zamanı fikir ayrılığı olduğu təqdirdə, rus dilindəki mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	LİTVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ƏBÜLFƏS QARAYEV	*PYATRAS VAYTEKUNAS*
Mədəniyyət və turizm naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti (bundan sonra "Tərəflər" adlandırılacaq),

hər iki ölkənin sosial və iqtisadi inkişafı çərçivəsində informasiya və kommunikasiya texnologiyaları sahəsində qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməyi və möhkəmləndirməyi arzu edərək,

hər bir müvafiq ölkədə ictimaiyyət üçün səmərəli və dayanıqlı xidmətlərin yerinə yetirilməsi ilə əlaqədar eyni məqsəd və maraqlan bölüşərək,

informasiya və kommunikasiya texnologiyaları sahəsində aparılan əməkdaşlığın hazırkı səviyyəsi və ümumi maraq kəsb edən ideyalar, məlumatlar, bilik və təcrübələr baxımından mübadiləsi yolu ilə təkmilləşdirilməsinin Tərəflər üçün faydalı olacağını hesab edərək,

informasiya və kommunikasiya texnologiyaları sahəsində Tərəflər arasında kommersiya əlaqələrinin möhkəmləndirilməsində mövcud olan potensialı və mövcud imkanlardan tam istifadə etmək üçün ehtiyacı dərk edərək,

Tərəflərin informasiya və kommunikasiya texnologiyaları sahəsində sər-mayələri, birgə müəssisələri, ümumi maraqları, texnoloji inkişafı və ticarəti inkişaf etdirmək arzusunda olduqlarını nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər qarşılıqlı fayda əsasında, öz milli qanunvericilikləri və beynəlxalq hüququn müvafiq norma və prinsiplərinə və bu Sazişin müddəalarına uyğun olaraq informasiya və kommunikasiya texnologiyaları sahəsində öz iqtisadi, sənaye, elmi və texniki əməkdaşlıqlarını inkişaf etdirəcək və təkmilləşdirəcəklər.

Maddə 2

Tərəflər arasında informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsində əməkdaşlıq aşağıdakıları əhatə edir:

1. telekommunikasiyanın tənzimlənməsi ilə əlaqədar təcrübənin öyrənilməsi;
2. E-hökumət və E-imzanın tətbiqi sahəsində əməkdaşlıq;
3. informasiya və kommunikasiya texnologiyaları sahəsinə sərmayə qoyuluşlarının təşviq etdirilməsi;
4. qarşılıqlı məqbul şərtlərlə informasiya və kommunikasiya texnologiyaları sahəsində birgə müəssisələrin yaradılmasının təşviq etdirilməsi;
5. birgə təlim kursları, seminar, konfrans, forum və sərgilərin təşkili;
6. beynəlxalq təşkilatlarda (ÜPİ və BTİ kimi) hər iki ölkənin milli maraqları üst-üstə düşdüyü təqdirdə bir-birini dəstəkləməsi;
7. sərbəst tənzimləmə şəraitində beynəlxalq telefon danışıq tariflərinə yenidən baxılmasının mütəxəssislər səviyyəsində müzakirə edilməsi və hər iki ölkənin mövcud tranzit telefon trafiki mübadiləsi imkanlarından səmərəli istifadə edilməsi;
8. hər iki Tərəfin nümayəndə heyətlərinin təcrübə mübadiləsi məqsədilə qarşılıqlı səfərlərinin təşkili;
9. qarşılıqlı razılaşma əsasında digər məsələlər.

Maddə 3

Tərəflər İKT sahəsində görülmüş işlərin daha da təkmilləşdirilməsi, əməkdaşlığın inkişaf etdirilməsi, yeni texnologiyaların tətbiq edilməsi və birgə müəssisələrin yaradılması məqsədilə aidiyyəti orqanlarını, təşkilat və müəssisələrini bir sahədə sıx əlaqələrin və məlumat mübadiləsinin təkmilləşdirilməsi, eləcə də xüsusi proqramların və layihələrin yerinə yetirilməsi sahəsində əməkdaşlığı təşviq edəcəklər.

Tərəflər kəndlərdə telekommunikasiyanın inkişaf etdirilməsi, rəqəmsallara keçidin təmin edilməsi və İKT bazarında istehlakçı hüquqlarının tənzimlənməsi sahəsində təcrübənin tətbiqi üçün hər iki tərəfin mütəxəssislərinin birgə iş aparmasını təmin edəcəklər.

Maddə 4

Bu Sazişin müddəaları Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq sazişlərdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 5

Tərəflər əməkdaşlıq çərçivəsində mübadilə etdikləri konfidensial informasiyanın öz milli qanunvericiliklərinə uyğun surətdə qorunması üçün zəruri tədbirlər görmək, həmçinin belə informasiyanı təqdim etmiş Tərəfin yazılı icazəsi olmadan bu informasiyanı üçüncü tərəfə aşkarlamamaq və yaymamaq öhdəliyini daşıyırlar. Bu müddəa Saziş qüvvədən düşdükdən sonra da qüvvədə qalır.

Maddə 6

Tərəflər, bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı mübahisələr yarandığı təqdirdə, onları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

Maddə 7

Bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə məsul səlahiyyətli orqanlar:

Azərbaycan Respublikası Hökuməti adından - Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi;

Litva Respublikası Hökuməti adından - Litva Respublikasının Nəqliyyat və Rabitə Nazirliyidir.

Bu Sazişdən irəli gələn məsələlərin həyata keçirilməsi üzrə səlahiyyətli orqanların qarşılıqlı fəaliyyəti zamanı işçi dil qismində ingilis dilindən istifadə ediləcəkdir.

Tərəflər, əməkdaşlığın xüsusiyyətlərindən asılı olaraq, bu Sazişin həyata keçirilməsi üzrə fəaliyyətin əlaqələndirilməsinə görə məsul olan digər dövlət hakimiyyəti orqanlarını təyin edə bilər və bu barədə onlar diplomatik kanallar vasitəsilə bir-birini məlumatlandıracaqlar.

Maddə 8

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə əlavə və dəyişikliklər edilə bilər. Belə əlavə və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olan və bu Sazişin 9-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən protokollarla rəsmiləşdiriləcəkdir.

Maddə 9

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş iki il müddətinə bağlanılır. Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə di-gər Tərəfə məlumat verməzsə, onun hüquqi qüvvəsi avtomatik olaraq növbəti 2 il müddətlərinə uzadılacaqdır.

Bu Saziş Vilnüs şəhərində 13 sentyabr 2007-ci il tarixində, hər biri Azərbaycan, Litva və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandıqda ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

LİTVA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

PYATRAS VAYTEKUNAS
Xarici işlər naziri

Azərbaycan Respublikası Vergilər Nazirliyi və Litva Respublikası Maliyyə Nazirliyi yanında Dövlət Vergi Müfəttişliyi arasında vergitutma məsələləri üzrə məlumat mübadiləsi haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Litva Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Vergi Müfəttişliyi Azərbaycan Respublikası Hökuməti ilə Litva Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergi-tutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında 02.04.2004-cü il tarixli Konvensiyanın (bundan sonra - Konvensiya) 27-ci maddəsini ("İnformasiya mübadiləsi") və ümumilikdə Konvensiyanın müddəalarını rəhbər tutaraq,

Tərəflərin dövlətlərinin vergi qanunvericiliyinə əməl olunması məsələləri üzrə beynəlxalq əməkdaşlığın və qarşılıqlı yardımın mühümlüyünü nəzərə alaraq,

bu məqsədlə bir-birinə mümkün qədər daha geniş yardım göstərməyi arzulayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Əsas anlayışlar

Bu Sazişdə müvafiq olaraq Konvensiyanın əsas anlayışları tətbiq edilir.

Maddə 2

Yardım göstərilməsinin forması və dilləri

Tərəflər aşağıdakı formalarda bir-birinə yardım göstərirlər:

yardım barədə sorğu;

müntəzəm yardım;

təşəbbüslü (spontan) yardım;

eyni vaxtlı vergi yoxlamaları.

Yardım göstərilməsinin rəsmi dili ingilis dilidir. Tərəflərin, ingilis dilinə tərcüməsi əlavə edilməklə, məlumatı Tərəflərin dövlət dilində təqdim etməyə hüquqları var.

Maddə 3

Yardım barədə sorğu

Yardım barədə sorğu yazılı şəkildə poçt əlaqəsindən istifadə edilməklə aparılır. Yardım barədə sorğunun və ya təqdim edilmiş məlumatın həqiqiliyi ilə bağlı şübhələr yarandıqda, Tərəflər baxılması üçün müvafiq materiallar əlavə olunmaqla həqiqiliyin təsdiq edilməsi üçün bir-birinə yazılı formada müraciət edə bilərlər.

Yardım barədə sorğuya aşağıdakılar daxil edilməlidir:

sorğu edən vergi orqanının adı;

sorğu edilən vergi orqanının adı;

sorğunun səbəbi və məqsədi;

barəsində sorğu edilən vergi ödəyicisinin adı və qeydiyyat məlumatları;

baxılan dövr üzrə konkret vergi növləri və büdcəyə ödənilən digər məcburi ödənişlər göstərilməklə, sorğunun və onunla bağlı hüquqi şəraitin məğzinin qısa şərhi.

Sorğu edilən vergi orqanının alınmış yardım barədə sorğu üzrə əlavə məlumat tələb etmək hüququ vardır.

Sorğu edilən vergi orqanı sorğunun icrasını təmin etmək məqsədilə səlahiyyətləri çərçivəsində bütün zəruri tədbirləri həyata keçirir və sorğunu mümkün qədər qısa müddətdə icra etməyə səy göstərir.

Sorğu edilən vergi orqanı sorğunu onun alındığı gündən 90 gün ərzində icra edir.

Sorğu edən vergi orqanı sorğunun müəyyən müddət ərzində icra edilməsi ilə bağlı xahişlə müraciət edirsə, sorğu edilən vergi orqanı sorğunun həmin müddətdə icra edilməsi üçün səy göstərir.

Sorğu edilən vergi orqanı sorğunu icra edə bilmədikdə və ya göstərilən müddətdə icra edə bilmədikdə və ya tam icra edə bilmədikdə, sorğu edən vergi orqanına bu barədə dərhal məlumat verməli və sorğunun icrasının mümkün olmamasının səbəblərini, maneələrin mahiyyətini və ya imtinanın səbəblərini göstərməlidir.

Maddə 4

Müntəzəm yardım

Müntəzəm yardım vergitutma sahəsində xüsusi sorğu olmadan qarşılıqlı əsasda rəsmi məlumat mübadiləsini bildirir və Tərəflər belə yardımı öz milli qanunvericiliklərinə müvafiq olaraq hər il yazılı və (və ya) elektron forma-da həyata keçirirlər.

Müntəzəm məlumat mübadiləsinə Razılığa gələn Dövlətin rezidentlərinin Razılığa gələn digər Dövlətdə, yaxud Razılığa gələn digər Dövlətdən əldə olunan gəlirləri barədə qarşılıqlı məlumat mübadiləsi aid edilir.

Müntəzəm surətdə mübadilə edilən məlumatların siyahısı və müddətləri vaxtaşırı olaraq Tərəflər arasında yazışma yolu ilə razılaşdırılır.

Maddə 5

Təşəbbüslü (spontan) yardım

Təşəbbüslü (spontan) yardım Tərəflərin adi inzibati təcrübəsi gedişatında əldə etdiyi və digər Tərəf üçün maraq kəsb edən hər hansı məlumata münasibətdə şəxsi təşəbbüs əsasında təqdim olunan məlumatı bildirir.

Maddə 6

Eyni vaxtlı vergi yoxlamaları

Tərəflər məlumat mübadiləsində və vergidən yayınma hallarının araşdırılmasında daha yüksək effektivliyə nail olmaq üçün keçirilmə qaydaları razılaşma əsasında müəyyən edilən eynivaxtlı vergi yoxlamaları apara bilərlər.

Maddə 7

Digər yardım

Tərəflərdən hər biri qanunvericilikdə edilmiş və Tərəfin dövlətinin Konvensiya ilə bağlı öhdəliklərinə, həmçinin Razılığa gələn bu Dövlətin rezidentinin Razılığa gələn digər Dövlətdəki öhdəliklərinə toxuna biləcək dəyişikliklər barədə digər Tərəfi məlumatlandıracaqdır.

Zəruri olduğu halda, Tərəflər hüquqi və fiziki şəxslərin vergitutma üçün Razılığa gələn digər Dövlətdə tələb olunan sənədlərinin surətlərini təsdiq edirlər.

Maddə 8

Yardım göstərilməsindən imtina

Əgər sorğu edilən vergi orqanı yardımın göstərilməsinin onun dövlətinin müstəqilliyinə, təhlükəsizliyinə, dövlət siyasətinə və ya onun dövlətinin digər əhəmiyyətli maraqlarına xələl gətirə, yaxud sənaye, ticarət və ya peşə sirlərinin pozulmasına səbəb ola biləcəyini hesab edirsə, yardım göstərilmir, yaxud müvafiq şərtlər və tələblər gözlənilməklə həyata keçirilir.

Sorğu edilən vergi orqanı yardım göstərə bilmədiyi halda belə imtinanın səbəbləri barədə dərhal sorğu edən vergi orqanını xəbərdar edir.

Yardım göstərilməsi istintaq prosesinə və ya məhkəmə araşdırılmasına təsir edə biləcəyi halda sorğu edilən vergi orqanı tərəfindən yardım göstərilməsi təxirə salına bilər.

Maddə 9

Məxfiliyin qorunması

Tərəflərin aldıqları məlumat yalnız Konvensiyanın 27-ci maddəsində ("İnformasiya mübadiləsi") nəzərdə tutulan qaydada istifadə olunur və açıqlanır.

Maddə 10

Maliyyələşmə qaydaları

Hər bir konkret hal üzrə xərclərin maliyyələşdirilməsində başqa şərtlər razılaşdırılmadığı halda, Tərəflər bu Sazişin tətbiqi ilə bağlı bütün xərcləri müstəqil şəkildə çəkirlər.

Maddə 11

Digər beynəlxalq sazişlər və razılaşmalar

Bu Sazişdəki normalar Tərəflərin milli qanunvericilik aktları çərçivəsində tətbiq olunur və Tərəflərin onların dövlətlərinin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 12

Mübahisəli məsələlərin həlli

Tərəflər bu Sazişin şərhi və ya tətbiqi zamanı ortaya çıxa bilən mübahisəli məsələlərin tənzimlənməsində qarşılıqlı razılıq əldə etməyə çalışacaqlar. Bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi üzrə mübahisələr yarandığı halda, Tərəflər onları danışıqlar və məsləhətləşmələr yolu ilə həll edəcəklər.

Maddə 13

Əlavə və dəyişikliklər

Tərəflərin qarşılıqlı yazılı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və 14-cü maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 14

Sazişin qüvvəyə minməsi və qüvvədən düşməsi

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallarla sonuncu yazılı bildiriş aldığı gündən qüvvəyə minir.

Bu Saziş 5 il müddətinə bağlanılır. Əgər Tərəflərdən heç biri bu Sazişin qüvvədən düşməsinə ən azı 6 (altı) ay qalmış Sazişin qüvvəsinə xitam vermək niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Sazişin qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılacaqdır.

Vilnüs şəhərində 2007-ci il 13 sentyabr tarixində, hər biri Azərbaycan, Litva və rus dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin təfsirində və tətbiqində fikir ayrılığı yarandığı təqdirdə, Tərəflər rus dilində olan mətndən istifadə edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASININ VERGİLƏR NAZİRLİYİ ADINDAN	LİTVA RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİ YANINDA DÖVLƏT VERGİ MÜFƏTTİŞLİYİNİN ADINDAN
FAZİL MƏMMƏDOV	*MODESTAS KASELYAUSKAS*
Vergilər naziri	*Dövlət Vergi Müfəttişliyinin sədri*

2007-ci il sentyabrın 25-də Budapeşt şəhərində imzalanmış "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Macarıstan Respublikasının Sosial İşlər və Əmək Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il sentyabrın 25-də Budapeşt şəhərində imzalanmış "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Macarıstan Respublikasının Sosial İşlər və Əmək Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırıl-

sın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Macarıstan Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti.

Bakı şəhəri, 23 noyabr 2007-ci il

№2511

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Macarıstan Respublikasının Sosial İşlər və Əmək Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Macarıstan Respublikasının Sosial İşlər və Əmək Nazirliyi,

Azərbaycan Respublikası və Macarıstan Respublikası arasında dostluq münasibətlərinə və sosial və iqtisadi sahələrdə mövcud səmərəli əməkdaşlığa əsaslanaraq,

əmək, məşğulluq və sosial qayğı sahəsində əməkdaşlığın inkişaf etdiril-məsi məqsədilə aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər əsasən informasiya və təcrübə mübadiləsi yolu ilə aşağıdakı sahələrdə əməkdaşlıq edəcəklər:

a) əmək və məşğulluq sahəsində milli qanunvericilik;

b) əmək münasibətlərinin və əməyin təhlükəsizliyinin tənzimlənməsi sahəsində milli qanunvericiliyin tətbiq olunması mexanizmləri;

c) əmək bazarının təhlili, məlumatların toplanması və işsiz və iş axtaran vətəndaşların peşə hazırlığı;

d) milli əmək bazan və milli əmək bazarında xarici işçi qüvvəsinin iştirakının tənzimlənməsi;

e) dövlət orqanları və beynəlxalq təşkilatların iştirakı ilə əmək və məşğulluq sahəsində birgə və çoxtərəfli layihələrin hazırlanması və tətbiqi;

f) Avropaya inteqrasiya ilə bağlı əmək və məşğulluq sahəsində tədbirlər.

Maddə 2

Tərəflər əməkdaşlığı aşağıdakı formalarda inkişaf etdirəcəklər:

a) ekspertlər mübadiləsi;

b) ekspertlərin məsləhətləşmələri və əlavə hazırlığı;

c) hər iki Tərəfin fəaliyyəti ilə əlaqədar, xüsusilə də əmək və məşğulluq, sosial qayğı, işsiz və iş axtaran vətəndaşların peşə hazırlığı ilə bağlı siyasət və proq-

ramların həyata keçirilməsi, qanunvericiliklə bağlı təkliflərin və digər məlumatların mübadiləsi;

d) beynəlxalq təşkilatlar tərəfindən maliyyələşdirilən layihələrlə bağlı əməkdaşlığın dəstəklənməsi;

e) Tərəflərin tabeliyində olan icraedici təşkilat və qurumlar arasında əməkdaşlığın dəstəklənməsi.

Maddə 3

Bu Saziş Tərəflərin maliyyə imkanlarından asılı olaraq birgə iş planlan vasitəsilə həyata keçiriləcəkdir.

Maddə 4

Tərəflərin yazılı razılığına əsasən, bu Sazişə, onun 5-ci maddəsinə uyğun olaraq, ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 5

Bu Saziş 5 il müddətinə bağlanılır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişin alındığı gündən qüvvəyə minir.

Tərəflərdən biri bu müddətin başa çatmasına ən azı altı ay qalmış onun qüvvəsini ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitə-silə bildirməzsə, bu Sazişin qüvvəsi növbəti beşillik müddətlərə uzadılır.

Bu Saziş Budapeşt şəhərində 2007-ci il 25 sentyabr tarixində, Azərbaycan, macar və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsiri zamanı fikir ayrılığı yarandıqda, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ ADINDAN	MACARISTAN RESPUBLİKASININ SOSİAL İŞLƏR VƏ ƏMƏK NAZİRLİYİ ADINDAN
HÜSEYNQULU BAĞIROV	*MONİKA LAMPERT*
Əmək və əhalinin sosial müdafiəsi naziri	*Sosial işlər və əmək naziri*

2007-ci il sentyabrın 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Litva Respublikası Daxili İşlər Nazirliyinin Sərhəd Mühafizəsi Xidməti arasında əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il sentyabrın 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Litva Respublikası Daxili İşlər Nazirliyinin Sərhəd Mühafizəsi Xidməti arasında əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Litva Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti.

Bakı şəhəri, 23 noyabr 2007-ci il.

№2512

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Litva Respublikası Daxili İşlər Nazirliyinin Sərhəd Mühafizəsi Xidməti arasında əməkdaşlığa dair Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Litva Respublikası Daxili İşlər Nazirliyinin Sərhəd Mühafizəsi Xidməti,

ümumi qəbul olunmuş beynəlxalq hüququn norma və prinsiplərinə riayət etməklə, dostluq əlaqələrinin inkişaf etdirilməsi, sərhəd mühafizəsi sahəsində Azərbaycan Respublikasının və Litva Respublikasının bərabərhüquqlu və qarşılıqlı əməkdaşlığının həyata keçirilməsi məqsədilə,

əməkdaşlıq prinsiplərinin müəyyən olunması və öz səlahiyyətləri çərçivəsində fəaliyyət göstərmək məqsədilə əməkdaşlığın inkişaf etdirilməsi arzusunu təsdiq edərək,

transmilli cinayətlər, mütəşəkkil cinayətkarlıq, o cümlədən qaçaqmalçılıq, insan alveri, habelə qanunsuz miqrasiya və digər təhdidləri, eləcə də bu təhdidlərin qarşısının alınmasında beynəlxalq əməkdaşlığın mühüm rolunu qeyd edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər səlahiyyətləri çərçivəsində, dövlətlərinin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və milli qanunvericilik aktlarının tələblərinə müvafiq olaraq, əməkdaşlığı aşağıda göstərilən istiqamətlərdə inkişaf etdirəcəklər:

1. qanunsuz miqrasiya, insan alveri və qaçaqmalçılıqla mübarizə;

2. mütəşəkkil və transsərhəd cinayətkarlığın təzahürlərinə, o cümlədən dövlət sərhədinin pozulmasına, silah və sursatın, partlayıcı maddələrin, narkotik və psixotrop maddələrin, radioaktiv materialların, qadağan olunmuş mal və əşyaların qaçaqmalçılığına, eləcə də dövlət sərhədlərində digər potensial təhdid və təhlükələrə qarşı mübarizə;

3. Avropa İttifaqının qurumları, beynəlxalq təşkilatlar və üçüncü ölkələrin sərhəd mühafizə xidmətləri ilə razılaşdırılmış tədbirlərin həyata keçirilməsi, iki və çoxtərəfli səviyyədə əməkdaşlığın gücləndirilməsi;

4. Tərəflərin şəxsi heyətinin peşə hazırlığının artırılması, habelə təhsil müəssisələri arasında ikitərəfli əməkdaşlığın təkmilləşdirilməsi;

5. aşağıdakı sahələr üzrə təcrübə mübadiləsinin aparılması:

aviasiya;

sərhəd nəzarəti məntəqələrinin xidməti fəaliyyəti; saxta sənədlərin aşkarlanması;

xidməti itlərin hazırlığı; cinayət istintaqı;

6. maddi-texniki təminatın yaxşılaşdırılması;

7. qarşılıqlı maraq doğuran digər məsələlər.

Maddə 2

Tərəflər bu Sazişin həyata keçirilməsi məqsədilə aşağıdakıları həyata keçirəcəklər:

1. müsbət təcrübə və məlumat mübadiləsi;

2. birgə məsləhətləşmələrin aparılması;

3. Tərəflərin dövlət sərhədlərinin təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş razılaşdırılmış tədbirlərin təşkili;

4. rəsmi və işgüzar səfərlərin təşkili;

5. konfrans, seminar, peşə səviyyəsinin artırılması və praktiki məşğələlər, habelə müxtəlif təlimlərin təşkili;

6. maddi-texniki təminat üzrə dəstək;

7. Tərəflərin təşkil etdiyi dəniz təlimləri və əməliyyatlarında iştirak;

8. birgə beynəlxalq layihələrdə iştirak;

9. Tərəflərin təhsil müəssisələri arasında təlim proqramlarının hazırlanması sahəsində təcrübə mübadiləsi.

Maddə 3

Tərəflər arasında əməkdaşlıq aşağıda göstərilən qaydada təşkil olunur:

1. ardıcıl olaraq ildə bir dəfə Tərəflərin rəhbərlərinin səfərlərinin təşkili;

2. sərhəd qurumlarının rəhbərləri tərəfindən müəyyən olunmuş istiqamətlərə uyğun olaraq, Tərəflərin aşağıda göstərilən səlahiyyətli bölmələri tərəfindən zəruri tədbirlərin təşkil edilməsi və həyata keçirilməsi:

Azərbaycan tərəfindən:

Dövlət Sərhəd Xidmətinin Beynəlxalq Əlaqələr Baş İdarəsi:
Ünvan: Bakı şəhəri, Azərbaycan prospekti, 30
Tel: (+99 412) 498 01 92
Fax: (+99 412) 498 82 62
E-mail: sarhad@bakinter. net

Litva tərəfindən:

Dövlət Sərhəd Mühafizəsi Xidmətinin Beynəlxalq Əməkdaşlıq İdarəsi:
Ünvan: Vilnüs şəhəri, Savanoriu prospekti, 2, LT-03116
Tel: +370 5 2716983
Fax: +370 5 2331350
E-mail: nerijus.songaila@vrm.lt

3. Tərəflərin struktur bölmələri öz səlahiyyətləri çərçivəsində cari məlumatı mübadilə etmək hüququna malikdirlər.

Maddə 4

Beynəlxalq nəqliyyat xərcləri istisna olmaqla, nümayəndə heyətlərinin qəbulu üzrə xərcləri qəbul edən Tərəf öz üzərinə götürür.

Maddə 5

Tərəflər əməkdaşlıq müddətində qarşılıqlı şəkildə əldə edilən məlumatların konfidensiallığının qorunmasını təmin edir, həmin məlumatı təqdim edən Tərəfin mənafeyinə zidd istifadə olunmayacağını və Tərəflərin yazılı razılığı olmadan üçüncü tərəflərə verilməyəcəyi öhdəliyini öz üzərlərinə götürürlər.

Maddə 6

Bu Sazişin müddəaları Tərəflərin dövlətlərinin iştirakçısı olduğu beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərinə təsir etməyəcək və digər dövlətlərin mənafeyinə, təhlükəsizliyinə və ərazi bütövlüyünə qarşı istifadə edilməyəcəkdir.

Maddə 7

Tərəflərin yazılı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və 8-ci maddədə müəyyən olunmuş qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edilə bilər.

Maddə 8

Bu Saziş zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə diplomatik kanallar vasitəsilə Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən hər biri istənilən vaxt digər Tərəfə diplomatik kanallar vasitəsilə bu Sazişə xitam vermək niyyəti barədə yazılı bildiriş göndərə bilər. Bu Sazişə bu cür bildirişin alındığı tarixdən altı ay sonra xitam veriləcəkdir.

Bu Saziş Bakı şəhərində 26 sentyabr 2007-ci ildə Azərbaycan, Litva və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandıqda, ingilis dilində olan mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT SƏRHƏD XİDMƏTİ ADINDAN	LİTVA RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİNİN SƏRHƏD MÜHAFİZƏSİ XİDMƏTİ ADINDAN
(imza)	*(imza)*

2007-ci il oktyabrın 1-də Nyu-york şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Uruqvay Şərq Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il oktyabrın 1-də Nyu-York şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Uruqvay Şərq Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki:

2.1. bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsini təmin etsin;

2.2. bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Uruqvay Şərq Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 noyabr 2007-ci il

№2513

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Uruqvay Şərq Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Uruqvay Şərq Respublikasının Xarici İşlər Nazirliyi,

BMT Nizamnaməsinə uyğun olaraq suverenliyə hörmət edilməsi, bərabərlik və daxili işlərə qarışmamaq prinsiplərini rəhbər tutaraq,

qarşılıqlı maraq kəsb edən ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlərə dair müxtəlif səviyyələrdə məsləhətləşmələr və fikir mübadiləsinin aparılmasının hər iki Tərəf üçün faydalı olduğunu nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər qarşılıqlı maraq kəsb edən beynəlxalq, regional və ikitərəfli məsələlərə dair xarici işlər nazirləri və digər səviyyələrdə müntəzəm olaraq danışıqlar aparacaqlar və məsləhətləşmələr keçirəcəklər.

Qarşılıqlı razılıq əsasında xüsusi məsələlərin müzakirəsi üçün ekspertlərin ad hoc işçi qrupları yaradıla bilər.

Maddə 2

Tərəflər aşağıdakı məsələlərə üstünlük verərək məsləhətləşmələr keçirəcəklər:

a) ikitərəfli əlaqələrin inkişafı;

b) qarşılıqlı maraq kəsb edən qlobal və regional məsələlər;

c) ikitərəfli sazişlərin həyata keçirilməsi prosesinə dair məlumat mübadiləsi.

Maddə 3

Tərəflərin xarici işlər nazirləri və ya onların nümayəndələri və ekspertlər qarşılıqlı maraq kəsb edən ikitərəfli münasibətlər, beynəlxalq və regional məsələlər üzrə növbə ilə Bakıda və Montevideoda və Tərəflərin razılaşdırdıqları digər yerdə ildə bir dəfə görüşəcəklər və lazım olduğu təqdirdə məsləhətləşmələr keçirəcəklər.

Maddə 4

Tərəflər beynəlxalq təşkilatlar və forumlar çərçivəsində öz mövqelərini razılaşdırmaq üçün əməkdaşlıq edəcək və məsləhətləşmələr aparacaqlar.

Tərəflər üçüncü ölkələrdəki diplomatik nümayəndəlikləri və konsulluq missiyaları vasitəsilə əməkdaşlığı həyata keçirəcəklər.

Maddə 5

Tərəflər diplomatik xidmətlərin qarşılıqlı fəaliyyəti üçün əlverişli şərait yaradacaqlar, birbaşa əlaqələr saxlayacaqlar, işçilərin mübadiləsi yolu ilə təcrübələrini bölüşəcəklər, seminarlar və birgə tədqiqatlar təşkil edəcəklər və bir-birləri arasında müxtəlif birbaşa əlaqələrə nail olmağın yollarını araşdıracaqlar.

Maddə 6

Tərəflərin qarşılıqlı razılığı ilə bu Memoranduma əlavələr və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər, bu Memorandumun ayrılmaz hissəsi olacaq və bu Memoranduma 7-ci maddəsində nəzərdə tutulan qayda-da qüvvəyə minəcək ayrıca protokollar formasında rəsmiləşdiriləcəkdir.

Maddə 7

Bu Memorandum beş il müddətinə qüvvədə qalacaqdır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu diplomatik notasının alındığı tarixdən qüvvəyə minir. Bu beşillik müddətin başa çatmasına altı ay qalmış Tərəflərdən biri digərinə bu Memorandumu ləğv etmək barədə yazılı bildiriş göndərməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılacaqdır.

Nyu-York şəhərində 2007-ci il 1 oktyabr tarixində hər biri Azərbaycan, ispan və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirdə fikir ayrılığı olduqda, ingilis dilində olan mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN	URUQVAY ŞƏRQ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ADINDAN
(imza)	*(imza)*

2007-ci il oktyabrın 16-da Bişkek şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Qırğız Respublikası Müdafiə Nazirliyi arasında Qırğız Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş"ə Əlavə Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il oktyabrın 16-da Bişkek şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Qırğız Respublikası Müdafiə Nazirliyi arasında Qırğız Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş"ə Əlavə Protokol" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsini təmin etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 noyabr 2007-ci il

№2525

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Qırğız Respublikası Müdafiə Nazirliyi arasında Qırğız Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş"ə Əlavə Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Qırğız Respublikası Müdafiə Nazirliyi,

Azərbaycan Respublikası və Qırğız Respublikası Silahlı Qüvvələri arasında hərbi təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə,

29 noyabr 2005-ci il tarixində Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Qırğız Respublikası Müdafiə Nazirliyi arasında Qırğız Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş"in (bundan sonra "Saziş") müddəalarını rəhbər tutaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

1. H. Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbindən məzun olan Qırğız Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçuları Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində təşkil olunan 1 (bir) illik "Zabit ixtisas kursları"nda təhsillərini davam etdirəcəklər.

2. Qəbul edən Tərəf "Zabit ixtisas kursları"nda təhsil alan Qırğız Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularını gündəlik yeməklə, yataqla, nəzəri və praktiki məşğə-

lələr zamanı müvafiq geyim forması ilə, zəruri təcili tibbi xidmətlə və H. Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantları üçün müəyyənləşdirilmiş miqdarda aylıq təqaüdlə təmin edəcəkdir.

3. "Zabit ixtisas kursları"nı müvəffəqiyyətlə bitirmiş hərbi qulluqçulara müvafiq sertifikatlar veriləcəkdir.

Maddə 2

1. Qırğız Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçuları Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasında 2 (iki) il müddətinə dinləyicilər qismində təhsilə qəbul ediləcəklər.

2. Qəbul edən Tərəf Silahlı Qüvvələrin Hərbi Akademiyasında təhsil alan Qırğız Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularını gündəlik yeməklə, yataqla və zəruri təcili tibbi xidmətlə təmin edəcəkdir.

3. Hərbi təhsili bitirən hərbi qulluqçulara Azərbaycan Tərəfinin müəyyənləşdirdiyi proseduralara uyğun olaraq, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasını bitirdikləri haqqında hər iki Tərəfdən tanınacaq diplomlar və döş nişanları veriləcəkdir.

Maddə 3

Hərbi təhsilin təşkili, Tərəflərin hüquq və vəzifələri, hüquqi və zərərin ödənilməsi üzrə məsələlər Sazişin 4, 5, 6 və 7-ci maddələrinin müddəalarına müvafiq olaraq tənzimlənəcəkdir.

Maddə 4

Bu Protokol Qırğız Tərəfi üçün onun imzaladığı tarixdən, Azərbaycan Tərəfi üçün isə bu Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili proseduların yerinə yetirildiyi gündən qüvvəyə minir.

Bu Protokol qeyri-müəyyən müddətə bağlanır və Tərəflərdən biri digər Tərəfin bu Protokolu ləğv etmək niyyəti barədə bildirişini aldığı gündən altı ay müddət bitənədək qüvvədə olacaqdır.

2007-ci il 16 oktyabr tarixində Bişkek şəhərində iki əsl nüsxədə, hər biri Azərbaycan, qırğız və rus dillərində imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Protokolun müddəalarının təfsiri ilə bağlı ziddiyyətlər yarandığı təqdirdə, Tərəflər rus dilində olan mətnə müraciət edəcəklər.

AZƏRBAYCAN RESPUBLİKASININ
MÜDAFİƏ NAZİRLİYİ
ADINDAN

SƏFƏR ƏBİYEV
Müdafiə naziri

QIRĞIZ RESPUBLİKASININ
MÜDAFİƏ NAZİRLİYİ
ADINDAN

İSMAİL İSAKOV
Müdafiə naziri

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının daxili işlər naziri Ramil İdris oğlu Usubova verilməsi barədə Birləşmiş Ərəb Əmirlikləri Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 dekabr 2007-ci il

№2529

Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının tərkibində dəyişikliklər haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikası Milli Məclisinin deputatları Əkrəm Kamal oğlu Abdullayev, Nizami Zaman oğlu İsgəndərov və Rövşən Şükür oğlu Rzayev Azərbaycan-Böyük Britaniya və Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının tərkibinə daxil edilsinlər.

2. Azərbaycan Respublikası Milli Məclisinin deputatları Fuad Rauf oğlu Muradov Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Küveyt və Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının tərkibinə, Lalə Gülbaba qızı Abbasova Azərbaycan-İspaniya və Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının tərkibinə, Ərəstun Nurəddin oğlu Cavadov Azərbaycan-Belarus və Azərbaycan-Moldova parlamentlərarası əlaqələr üzrə işçi qruplarının tərkibinə, Jalə Fazil qızı Əliyeva Azərbaycan-Böyük Britaniya və Azərbaycan-Hindistan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının tərkibinə, Azər Kamal oğlu Əmiraslanov Azərbaycan-Böyük Britaniya və Azərbaycan-Küveyt parlamentlərarası əlaqələr üzrə işçi qruplarının tərkibinə, Dünyamin Zakir oğlu Xəlilov Azərbaycan-Bolqarıstan və Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının tərkibinə, Asim Nazim oğlu Mollazadə Azərbaycan-Böyük Britaniya və Azərbaycan-İsveçrə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının tərkibinə daxil edilsinlər.

3. Azərbaycan Respublikası Milli Məclisinin deputatları Aydın Abbas oğlu Abbasov və Çingiz Rauf oğlu Əsədullayev Azərbaycan-Küveyt və Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının tərkibinə, Əli Məhəmməd oğlu Hüseynov və

Ülvi Zahid oğlu Quliyev Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun tərkibinə daxil edilsinlər.

4. Azərbaycan Respublikası Milli Məclisinin deputatları Fəzail Rəhim oğlu Ağamalı Azərbaycan-Bolqarıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun tərkibinə, Asəf Hacı oğlu Hacıyev Azərbaycan-Hindistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun tərkibinə, Eldar Allahyar oğlu Quliyev Azərbaycan-Xorvatiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun tərkibinə daxil edilsinlər.

5. Azərbaycan Respublikası Milli Məclisinin deputatı Gövhər Baxşəli qızı Baxşəliyeva Azərbaycan-Norveç parlamentlərarası əlaqələr üzrə işçi qrupunun tərkibindən çıxarılaraq, Azərbaycan-İspaniya və Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının tərkibinə daxil edilsin.

O.ƏSƏDOV

Azərbaycan Respublikası Milli Məclisinin Sədri

Bakı şəhəri, 7 dekabr 2007-ci il

№494-IIIQR

Azərbaycan Respublikası, İran İslam Respublikası, Qazaxıstan Respublikası, Rusiya Federasiyası və Türkmənistanın Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası, İran İslam Respublikası, Qazaxıstan Respublikası, Rusiya Federasiyası və Türkmənistanın 2007-ci il oktyabrın 16-da Tehran şəhərində Xəzəryanı Ölkələrin dövlət başçılarının II Zirvə Toplantısı çərçivəsində imzalanmış Bəyannaməsi təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 dekabr 2007-ci il

№ 495-IIIQ

Azərbaycan Respublikası, İran İslam Respublikası, Qazaxıstan Respublikası, Rusiya Federasiyası və Türkmənistanın Bəyannaməsi

Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikası, İran İslam Respublikası, Qazaxıstan Respublikası, Rusiya Federasiyası və Türkmənistan Prezidentləri öz dövlətləri adından,

İran İslam Respublikasının Prezidenti cənab Mahmud Əhmədinejadın Xəzəryanı dövlətlərin Prezidentlərinin ikinci görüşünün çağırılması təşəbbüsünü dəstəkləyərək,

2007-ci il 16 oktyabr tarixində Tehran şəhərində qarşılıqlı anlaşma və konstruktivlik şəraitində qarşılıqlı maraq kəsb edən, aktual beynəlxalq və regional problemləri, çoxtərəfli əməkdaşlığın vəziyyəti və perspektivlərini, eləcə də Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi ilə bağlı işin gedişatına dair məsələləri müzakirə edərək,

Xəzəryanı beş dövlətin əməkdaşlığının onların xalqlarının əsl maraqlarına cavab verən dostluq və mehriban qonşuluq əsasında inkişafının regional təhlükəsizliyin əsas amil olduğuna əmin olaraq,

beş dövlətin dostluq və qarşılıqlı etimadı möhkəmləndirmək, bütün məsələləri, onların maraqlan nəzərə alınmaqla, bərabərlik və qarşılıqlı səmərəli tərəfdaşlıq ruhunda həll etmək üzrə ümumi səylərinə əsaslanaraq,

Xəzər dənizi regionunda geosiyasi və milli səviyyədə baş vermiş dəyişiklik və prosesləri, Xəzəryanı beş dövlət arasında mövcud razılaşmaları və bununla əlaqədar, Xəzər dənizinin hüquqi rejiminin təkmilləşdirilməsi və bu məqsədlə, Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın tezliklə qəbul edilməsi zərurətini nəzərə alaraq,

Xəzəryanı dövlətlərin Xəzər dənizində suveren hüquqlarının təmin edilməsi üçün əlverişli şərait yaratmağa, eləcə də Xəzər dənizinin hüquqi statusu və onun resurslarının istifadəsi ilə bağlı məsələlərin qarşılıqlı anlaşma və əməkdaşlıq əsasında tənzimlənməsinə səy göstərərək,

Xəzəryanı dövlətlərin başçıları arasında, beştərəfli format da daxil olmaqla, mütəmadi əlaqələrin saxlanması və mühüm ikitərəfli, regional və beynəlxalq problemlər üzrə fikir mübadiləsinə hazır olduqlarından çıxış edərək,

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində əks olunmuş məqsəd və prinsiplərə, suverenliyə, müstəqilliyə, ərazi bütövlüyünə və dövlətlərin suveren bərabərliyinə, zor işlətməmək və ya zor işlədəcəyi ilə hədələməməyə hörmət də daxil olmaqla, beynəlxalq hüququn ümumtanınmış normalarına sadiqliklərini təsdiq edərək,

aşağıdakıları bəyan edirlər:

I

1. Tərəflər Xəzər regionunun sülh və sabitlik, davamlı iqtisadi inkişaf və çiçəklənmə, mehriban qonşuluq və sahilyanı dövlətlərin bərabərhüquqlu beynəlxalq əməkdaşlıq regionu olmasına yardım göstərəcəklər. Onlar bir-biri ilə siyasi, diplomatik, ticari, iqtisadi, elmi-texniki, mədəni-humanitar və digər sahələrdə çoxtərəfli və ikitərəfli əsaslarla sıx əməkdaşlıq etmək qətiyyətindədirlər. Tərəflər onların razılığı ilə Xəzəryanı dövlətlərin başçılarının mütəmadi əsaslarla görüşlərinin və görüşlərarası dövrdə xarici işlər nazirlərinin, eləcə də Xəzər dənizi ilə bağlı bütün komplcks məsələlərə baxılması məqsədilə Tərəflərin səlahiyyətli ekspertlərinin görüşlərinin keçirilməsini dəstəkləyirlər.

2. Xəzər regionunun zəngin potensialının səmərəli istifadəsinə səy göstərərək və onun inkişafının əlverişli perspektivini nəzərə alaraq, Tərəflər iqtisadi sahədə, xüsusilə də energetika və nəqliyyat sahələrində dialoq və qarşılıqlı fəaliyyəti dərinləşdirəcəklər.

3. Tərəflər beynəlxalq nəqliyyat dənizlərinin formalaşdırılması və inkişafı da daxil olmaqla, regionun nəqliyyat potensialının səmərəli istifadəsinə yardım edəcəklər.

II

5. Tərəflər bəyan edirlər ki, yalnız sahilyanı dövlətlər Xəzər dənizinə və onun resurslarına münasibətdə suveren hüquqlara malikdirlər.

6. Tərəflər təsdiq edirlər ki, Xəzər dənizinin tam əhatəli hüquqi statusu, yalnız bütün sahilyanı dövlətlərin ümumi razılığı əsasında qəbul olunması mümkün olan baza sənədi kimi Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya ilə müəyyən olunacaqdır.

7. Tərəflər razılaşırlar ki, Xəzər dənizinin yeni hüquqi statusu müəyyən edilənə qədər onun akvatoriyasında Xəzəryanı dövlətlərin suveren hüquqlarının həyata keçirilməsi əsasında razılaşdırılmış gəmiçilik, balıqçılıq və yalnız onların bayraqları altında üzən gəmilərin üzməsi rejimləri tətbiq edilməlidir.

8. Tərəflər bəyan edirlər ki, Xəzər dənizinin tam əhatəli hüquqi statusunun işlənib hazırlanması və bu məqsədlə Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın bağlanması ən mühüm məsələdir. Xəzər dənizinin hüquqi statusunun baza sənədi olan Konvensiya Xəzəryanı dövlətlərin Xəzər dənizindəki suveren hüquqlarına hörmət əsasında, yurisdiksiyalarının həyata keçirilməsi məsələlərini tənzimləməli, təbii mühitin mühafizəsi və təbiətdən rasional istifadənin, o cümlədən Xəzər dənizinin bioloji resursları və onun dibi və təkinin mineral resurslarından istifadəni tənzimləyən norma və prinsiplərini, gəmiçiliyi, eləcə də Xəzər dənizində fəaliyyətə dair digər məsələləri özündə əks etdirməlidir.

9. Tərəflər bəyan edirlər ki, dəniz təkinin istifadə edilməsi məqsədilə Xəzər dənizinin dibinin bölünməsi ilə bağlı məsələlərin yekun razılaşdırılması onların suveren hüquqları nəzərə alınmaqla və bir-birinin qanuni maraqlarına hörmət etməklə həyata keçiriləcəkdir.

10. Tərəflər Xəzər-dənizi akvatoriyasında razılaşdırılmış enlik üzrə zonaları və ümumi su səthinin, eləcə də onlara müvafiq hüquqi rejimlərin müəyyənləşdirilməsinin razılaşdırılmasını davam etdirmək barədə şərtləşirlər.

11. Tərəflər Xəzər dənizinin və onun ekoloji sisteminin bütövlüyünün qorunması sahəsində indiki və gələcək nəsillər qarşısındakı öz məsuliyyətini dərk edərək, regional mühafizə sisteminin formalaşdırılması və bioloji müxtəlifliyin qorunması, bioloji resursların təkrar istehsalı və rasional istifadəsi məqsədilə, milli təbiəti mühafizə fəaliyyətinin əlaqələndirilməsi və beynəlxalq təbiəti mühafizə təşkilatları ilə qarşılıqlı fəaliyyət də daxil olmaqla, ekoloji problemlərin həllində əməkdaşlığın genişlənməsinin əhəmiyyətini vurğulayırlar.

Tərəflər təsdiq edirlər ki, Xəzər dənizinin təbii mühiti və onun nərə balığı ehtiyatının vəziyyəti, arzuolunmaz ekoloji nəticələrin qarşısının alınması məqsədilə təxirəsalınmaz birgə səylər tələb edir. Bununla əlaqədar olaraq, Tərəflər Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya əsasında regional təbiəti mühafizə üzrə əməkdaşlığın zəruri müqavilə-hüquqi bazasının formalaşdırılmasını prioritet qaydada davam etdirəcəklər.

Tərəflər 2003-cü ilin noyabrında Tehranda imzalanan Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyasının qüvvəyə minməsi ilə bağlı məmnunluq ifadə etdilər və onun əlavə protokollarının tezliklə hazırlanmasının və təsdiq olunmasının vacibliyini qeyd etdilər.

Tərəflər habelə bu Konvensiyanın prosedur məsələlərinin və xüsusilə də onun daimi katibliyinin yerinin müəyyən edilməsinin tezliklə tam razılaşdırılması zərurətini qeyd etdilər.

12. Tərəflər Xəzər dənizindən istifadə edilməsi və onun resurslarının mənimsənilməsi nəticəsində Xəzərin ətraf mühitinə və bir-birinə vurduğu ziyana görə Xəzəryanı dövlətlərin məsuliyyət prinsipini təsdiq edirlər.

13. Tərəflər bəyan edirlər ki, Xəzər dənizindən yalnız dinc məqsədlər üçün istifadə edilməlidir və Xəzərlə bağlı bütün məsələlər Xəzəryanı dövlətlər tərəfindən dinc vasitələrlə həll olunacaqdır.

14. Tərəflər qarşılıqlı etimadın, regional təhlükəsizliyin və stabilliyin yaradılması və möhkəmləndirilməsinə səy göstərəcəklər, eləcə də qarşılıqlı münasibətlərdə hərbi gücün tətbiq olunmasından çəkinəcəklər.

Tərəflər təsdiq edirlər ki, onların hərbi qüvvələri Tərəflərdən hər hansı birinə hücum üçün istifadə etməyə yönəlməmişdir.

15. Tərəflər qeyd edirlər ki, Tərəflərin hər hansı birinə qarşı təcavüz və digər hərbi hərəkətlər törətmək üçün başqa dövlətlərin heç bir halda öz ərazilərindən istifadə etməsinə yol verməyəcəklər.

16. Tərəflər Xəzər dənizinin hüquqi statusu üzrə danışıqlar prosesinin qarşılıqlı hörmət, qarşılıqlı anlaşma və bərabərhüquqluluq, beynəlxalq hüququn ümumi qəbul edilmiş normaları ruhunda sivil müzakirə şəraitində aparılmasından məmnunluqlarını ifadə etdilər. Tərəflər həmçinin bu müzakirələrin fəal davam etdirilməsi zərurətini qeyd etdilər.

III

17. Tərəflər Xəzər dənizi regionunda təhlükəsizliyin, sülhün və sabitliyin əhəmiyyətini qəbul edərək, Xəzər dənizində təhlükəsizliklə bağlı bütün məsələlər üzrə danışıqların davam etdirilməsi arzularını ifadə etdilər.

18. Tərəflər çoxqütblü dünya düzəninin, yeni, daha mükəmməl və ədalətli beynəlxalq siyasi, iqtisadi və hüquqi qaydanın yaradılmasına yardım göstərəcəklər. Onlar beynəlxalq sülhün, təhlükəsizliyin və sabitliyin dəstəklənməsi sahəsində universal mexanizm kimi BMT-nin rəhbər rolunun möhkəmləndirilməsinə hərtərəfli kömək göstərəcəklər.

19. Tərəflər nüvə silahının yayılmaması haqqında müqaviləni beynəlxalq təhlükəsizlik və sabitliyin ən vacib dayaqlarından biri hesab edir, bu Müqavilənin daha da universallaşdırılmasının lehinə çıxış edirlər. Tərəflər həmçinin nüvə silahının yayılmaması haqqında müqavilənin iştirakçısı olan dövlətlərin ayrı-seçkiliyə məruz qalmadan və bu Müqavilənin müddəaları, eləcə də MAQATE-nin mexanizmləri çərçivəsində nüvə enerjisinin dinc məqsədlərlə tədqiqi, istehsalı və istifadəsinin inkişaf etdirilməsinə dair ayrılmaz hüquqlarını təsdiq edirlər.

20. Tərəflər Xəzəryanı dövlətlərin tarixi, sosial və mədəni dəyərləri nəzərə alınmaqla, insan hüquqlarına hörmət əsasında hər bir dövlətin öz inkişaf yolunu seçməklə bağlı ayrılmaz hüququnu təsdiq edərək, müstəqil dövlətlərin daxili işlərinə müdaxiləyə qarşı çıxış edirlər.

21. Tərəflər hesab edirlər ki, regionda təhlükəsizliyin, sülhün və sabitliyin təmin edilməsinin zəruri şərti münaqişələrin BMT nizamnaməsinə uyğun olaraq, suverenliyə hörmət, ərazi bütövlüyünə və beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığına riayət olunması əsasında sülh yolu ilə ədalətli və davamlı həllidir.

22. Tərəflər beynəlxalq terrorizm, təcavüzkar separatizm və ekstremizmin digər zorakı təzahürlərini, eləcə də narkotiklərin, silahların qeyri-qanuni dövriyyəsini və transmilli mütəşəkkil cinayətkarlığın digər formalarını bütün dünya ictimaiyyəti, eləcə də beynəlxalq siyasi sabitliyə təhlükə törədən qlobal çağırışlar kimi qiymətləndirirlər.

Tərəflər motivlərindən, bütün forma və təzahürlərindən, harada və kim tərəfindən həyata keçirilməsindən asılı olmayaraq, xüsusilə regionda sülhə və təhlükəsizliyə təhlükə törədən bütün terror aktlarını, metod və təcrübələrini qeyd-şərtsiz cinayət kimi mühakimə edirlər. Tərəflər habelə əmindirlər ki, terrorizm hər hansı bir din, milliyyət, sivilizasiya və ya etnik qrupla əlaqələndirilə bilməz və əlaqələndirilməməlidir.

23. Tərəflər terrorizm, narkotiklərin, silahların qeyri-qanuni dövriyyəsi və transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə beynəlxalq hüququn ümumi qəbul edilmiş norma və prinsiplərinə ciddi əməl edilməsi əsasında BMT-nin mərkəzi əlaqələndirici rolu nəzərə alınmaqla, geniş ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafına sadiq olduqlarını təsdiq edirlər.

24. Tərəflər Xəzəryanı dövlətlərin Prezidentlərinin Tehran görüşünün nəticələri ilə bağlı məmnunluqlarını ifadə edərək, qarşılıqlı əməkdaşlığın inkişafına hərtərəfli yardım göstərəcəkləri barədə qəti niyyətlərini vurğulayırlar.

25. Xəzəryanı dövlətlərin Prezidentlərinin növbəti görüşü razılaşdırılmış tarixdə Azərbaycan Respublikasında keçiriləcəkdir.

16 oktyabr 2007-ci il, Tehran şəhəri

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

İLHAM ƏLİYEV

RUSİYA FEDERASİYASI ADINDAN

VLADİMİR PUTİN

İRAN İSLAM RESPUBLİKASI ADINDAN

MAHMUD ƏHMƏDİNEJAD

TÜRKMƏNİSTAN ADINDAN

QURBANQULU BERDİMƏHƏMMƏDOV

QAZAXISTAN RESPUBLİKASI ADINDAN

NURSULTAN NAZARBAYEV

Azərbaycan Respublikası Prezidentinin və Litva Respublikası Prezidentinin Tərəfdaşlıq münasibətlərinin inkişafı haqqında Birgə Bəyannaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikası Prezidentinin və Litva Respublikası Prezidentinin 2007-ci il sentyabrın 13-də Vilnüs şəhərində imzalanmış Tərəfdaşlıq münasibətlərinin inkişafı haqqında Birgə Bəyannaməsi təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 dekabr 2007-ci il

№496-IIIQ

Azərbaycan Respublikası Prezidentinin və Litva Respublikası Prezidentinin Tərəfdaşlıq münasibətlərinin inkişafı haqqında Birgə Bəyannaməsi

Azərbaycan Respublikasının Prezidenti və Litva Respublikasının Prezidenti,

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevin Litvaya 2007-ci ilin 13 sentyabrında həyata keçirilən tarixi səfərinin iki ölkə arasında ikitərəfli əlaqələrin dərinləşməsinə və dostluğun daha da genişlənməsinə töhfə verəcəyinə əminlik ifadə edərək,

Azərbaycan və Litva strateji tərəfdaşlığını gücləndirmək niyyətində olaraq və hər iki ölkənin regional və beynəlxalq səviyyədə rollarının əhəmiyyətini vurğulayaraq,

Azərbaycan-Litva siyasi, iqtisadi, hərbi və mədəni əlaqələrinin güclənməsinin və inkişafının hər iki dövlət, Baltik-Qara dəniz-Qafqaz regionu və bütün Avropa üçün əhəmiyyətini vurğulayaraq,

müxtəlif beynəlxalq və regional təşkilatlar və qurumlar çərçivəsində iki ölkə arasında əməkdaşlığın əhəmiyyətini vurğulayaraq,

iki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi prosesində Azərbaycan-Litva ticarət mübadiləsinin artırılması və diversifikasiyasının aparıcı amil kimi əhəmiyyətini qeyd edərək,

hər iki ölkədə səfirliklərin açılmasını alqışlayaraq,

2006-cı ilin iyun ayında imzalanmış Prezidentlərin Birgə Bəyannaməsində əks olunmuş əməkdaşlıq məqsədlərini təsdiq edərək,

bəyan edirlər:

strateji tərəfdaşlığı gücləndirmək, siyasi və iqtisadi məsləhətləşmələri davam etdirmək məqsədilə, regional və qlobal təhlükəsizliyi gücləndirməyə yönəlmiş dialoqu canlandırmaq;

ikitərəfli əlaqələrin təşviqinin təmin edilməsi üçün mövcud hüquqi çərçivəni genişləndirmək;

BMT Nizamnaməsinin prinsiplərini, BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini və ATƏT-in Lissabon Sammitində qəbul edilmiş üç prinsipi tam dəstəkləyərək və onları rəhbər tutaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normaları əsasında, xüsusilə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında sülh yolu ilə həll edilməsinin vacibliyini vurğulayırlar;

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində ATƏT çərçivəsində davam edən səylərə, həmçinin Minsk Qrupunun fəaliyyətinə istinad edərək bu istiqamətdə daha təsirli və qətiyyətli addımlar atılma-

sının əhəmiyyətini qeyd edirlər;

BMT, ATƏT və digər beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əməkdaşlığın səmərəliliyini artırmaq üçün səyləri davam etdirəcəklər. BMT-nin islahatlarına uyğun olaraq, beynəlxalq məsələlərdə təşkilatın səmərəliliyini və yeni çağırış və təhdidlərin qarşısında potensialından istifadəni artırmaqla, diqqət onun mərkəzi rolunun gücləndirilməsinə yönəldilməlidir;

Avro-Atlantik Tərəfdaşlıq Şurası, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramı, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Etimad Fondu və Azərbaycanın təqdim etdiyi "Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planı" çərçivəsində sıx əməkdaşlığı və təcrübə mübadiləsini dəstəkləyirlər;

Cənubi Qafqazda sabitliyi və təhlükəsizliyi artırmaq məqsədilə hərbi və hərbi-texniki sahələrdə əməkdaşlıq etmək və ayrıca sazişlər əsasında hər iki dövlətin müvafiq qurumları arasında əlaqələrin inkişaf etdirilməsinə yardım göstərmək;

ticarəti və iqtisadi əməkdaşlığı təşviq etmək və investisiyaların təşviqi də daxil olmaqla, bütün növ biznes fəaliyyətləri üçün əlverişli hüquqi, institusional və digər şəraitləri təmin etmək;

enerji təhlükəsizliyinin vacibliyini vurğulayır və bununla əlaqədar Xəzər dənizi regionunun enerji ehtiyatlarının Avropanın enerji tələbatının təmin edilməsində artan və müsbət təsirinin hər iki tərəfin strateji maraqlarında olan rolunu qeyd edirlər;

Avropa İttifaqı ilə Xəzər regionu arasında enerji əməkdaşlığı sahəsində əlaqələri möhkəmləndirmək;

Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz boru kəmərlərinin işə düşməsinin qlobal enerji təhlükəsizliyinə töhfə verəcəklərinə və region ölkələrinin davamlı iqtisadi inkişafına xidmət edəcəyinə inamlarını ifadə edirlər;

Avropanın neft təchizatında mühüm rol oynayacaq Odessa-Brodı-Plodsk-Qdansk neft kəməri layihəsində iştirakın əhəmiyyətini vurğulayırlar;

Avropa-Qafqaz-Asiya (TRASEKA) nəqliyyat dəhlizinin və VİKİNQ layihəsinin inkişafı naminə nəqliyyat və yük daşımaları istiqamətində həm regional, həm də ikitərəfli formatda əməkdaşlığı gücləndirmək. Bu layihələr Baltik, Xəzər və Qara dəniz regionlarında və ətrafda iqtisadi inkişaf, təhlükəsizlik və sabitliyə mühüm töhfə verəcək;

ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq etmək;

gənclər və tələbələr mübadiləsi, kütləvi informasiya vasitələri və ümumilikdə cəmiyyətlər arasında əlaqələri genişləndirməklə mədəniyyət, elm, təhsil, səhiyyə və sosial müdafiə, insanlar arasında əlaqələrin artırılmasında əməkdaşlıq etmək;

Azərbaycan və Litva dillərinin öyrənilməsində və ədəbiyyatının yayılmasında, habelə elm, ədəbiyyat və incəsənət xadimləri arasında təmasların inkişaf etdirilməsində əməkdaşlıq etmək;

dinlər və sivilizasiyalar arasında dialoqa şərait yaratmaq, həmçinin harmoniya, anlaşma, bir-birini yaxşı tanımaq və insan istedadının inkişafı üçün hər iki ölkədə mövcud olan Xristianlıq, İslam və digər mədəniyyətlər və dinlər arasında əlaqələri və anlaşmanı genişləndirmək.

Prezidentlər Azərbaycan Respublikasının Avropa İttifaqına yaxınlaşmasında Avropa

Qonşuluq Siyasətinin müsbət təsirini məmnuniyyətlə qeyd etdilər və Avropa Qonşuluq Siyasətinin Cənubi Qafqazda sabitlik və təhlükəsizliyin bərpa olunmasına töhfə verəcəyini vurğuladılar. Tərəflər belə bir vahid mövqedən çıxış edirlər ki, Fəaliyyət Planının müddəalarının həyata keçirilməsi Azərbaycan Respublikası ilə Aİ-nin üzv dövlətləri arasında fəal əməkdaşlığa əsaslanmalıdır. Azərbaycan Respublikası Fəaliyyət Planının həyata keçirilməsində Litva Respublikasının Azərbaycan Respublikasına yardım etməyə hazır olduğunu alqışladı.

Vilnüs şəhərində 2007-ci il 13 sentyabr tarixində ingilis dilində iki əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ	LİTVA RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV	*VALDAS ADAMKUS*

"Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında beynəlxalq avtomobil sərnişin və yük daşımaları haqqında" Sazişin və onun Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında beynəlxalq avtomobil sərnişin və yük daşımaları haqqında" 2007-ci il oktyabrın 8-də Bakı şəhərində imzalanmış Saziş və onun Protokolu təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 dekabr 2007-ci il

№497-IIIQ

Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında beynəlxalq avtomobil sərnişin və yük daşımaları haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası (bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq) iki ölkə arasında və onların ərazilərindən tranzitlə avtomobil sərnişin və yük daşımalarını sadələşdirməyə səy göstərərək, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tətbiqetmə sahəsi

Bu Sazişin müddəaları Razılığa gələn Tərəflərdən birinin ərazisində qeydiyyata alınmış avtomobil nəqliyyatı vasitələrilə Razılığa gələn digər Tərəfin ərazisinə/ərazisindən, eləcə də onun ərazisindən tranzitlə həyata keçirən sərnişin və yük daşımalarına tətbiq edilir.

Maddə 2

Tərifler

Bu Sazişdə:

1. "Daşıyıcı" termini Azərbaycan Respublikası və ya İsveçrədə qeydiyyata alınmış və bu dövlətlərin qüvvədə olan qanunvericiliklərinə müvafiq olaraq, avtomobil sərnişin və yük daşımalarını həyata keçirmək hüququna malik olan hüquqi və ya fiziki şəxs deməkdir;

2. "Avtomobil nəqliyyatı vasitəsi" termini qoşqu və ya yarımqoşqu da daxil olmaqla,

a) sürücü də daxil olmaqla 9-dan artıq sərnişinin,

b) yüklərin daşınmasını həyata keçirən mühərrikli nəqliyyat vasitəsi deməkdir;

3. "İcazə" Razılığa gələn Tərəflərin milli qanunvericiliklərinin tələblərinə uyğun olaraq, onların ərazilərinə giriş/çıxışa və ərazilərindən tranzitlə keçməyə hüquq verən lisenziya, konsessiya və ya icazə sənədidir.

Maddə 3

Sərnişin daşımaları

1. Qeyri-müntəzəm sərnişin daşımalarını həyata keçirərkən aşağıdakı hallarda "İcazə" tələb olunmur:

a) eyni tərkibli sərnişin qrupu bütün yol boyu eyni nəqliyyat vasitəsilə daşınarsa və daşımalar nəqliyyat vasitəsinin qeydiyyata alındığı Razılığa gələn Tərəfin dövlətinin ərazisində başlanar və tamamlanarsa (bağlı qapı daşımaları);

b) eyni tərkibli sərnişin qrupu bir istiqamətdə bütün yol boyu eyni nəqliyyat vasitəsilə daşınarsa və daşımalar nəqliyyat vasitəsinin qeydiyyata alındığı Razılığa gələn Tərəfin dövlətinin ərazisində başlanır və Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində tamamlanarsa, bir şərtlə ki, nəqliyyat vasitəsi qeydiyyata alındığı dövlətin ərazisinə boş qayıdacaqdır;

c) sərnişin qrupu Razılığa gələn digər Tərəfin dövlətinin ərazisindən nəqliyyat vasitəsinin qeydiyyata alındığı dövlətin ərazisinə daşınarkən Razılığa gələn digər Tərəfin ərazisinə gəlməzdən əvvəl daşıma müqaviləsi əsasında qruplaşmış sərnişin qrupunun daşınması üçün nəqliyyat vasitəsi həmin əraziyə sərnişinsiz daxil olur, bir şərtlə ki, sərnişinlər:

əvvəl yola düşdükləri ölkəyə daşınırlar;

bu maddənin (b) bəndində göstərilən şərtlərlə həmin daşıyıcının öz ölkəsinə və ya onun xaricinə daşınarlar; yaxud

Razılığa gələn digər Tərəfin ölkəsinə dəvət olunublar və burada daşımaların haqqı dəvət edən şəxs tərəfindən ödənilir;

ç) Razılığa gələn digər Tərəfin dövlətinin ərazisindən tranzitlə keçərkən.

2. Bu maddənin 1-ci bəndində göstərilən sərnişinsiz gedişlər müvafiq yol vərəqəsinə əsasən həyata keçirilir.

3. Bu maddənin 1-ci bəndində göstərilməyən daşımalar Razılığa gələn Tərəflərin milli qanunlarına əsasən "İcazə"lər əsasında həyata keçirilir. "İcazə"lər qarşılıqlı şəkildə mübadilə edilir.

Maddə 4

Yük daşımaları

1. Razılığa gələn Tərəflərin daşıyıcıları "İcazə" əsasında Razılığa gələn digər Tərəfin ərazisinə yüklə və ya yüksüz müvəqqəti daxil olaraq aşağıdakı daşımaları həyata keçirmək hüququna malikdirlər:

a) Razılığa gələn Tərəflərin ərazilərində yerləşən iki məntəqə arasında;

b) Razılığa gələn digər Tərəfin ərazisinə/ərazisindən 3-cü ölkələrin ərazilərinə/ərazilərindən ; və ya

c) Razılığa gələn digər Tərəfin dövlətinin ərazisindən tranzitlə yüklərin daşınmasına.

2. "İcazə"lərdən azad olunma halları bu Sazişin 9-cu maddəsində göstərilən Protokolda nəzərdə tutulur.

3. Razılığa gələn Tərəflərin dövlət maraqlarına və ya təhlükəsizliyinə xələl gətirdiyi halda, bu Saziş tranzit daşımalarına qadağaların tətbiqini istisna etmir.

Maddə 5

Milli qanunların tətbiqi

Bu Sazişdə nəzərdə tutulmayan bütün digər hallarda, Razılığa gələn Tərəflərdən birinin daşıyıcısı və nəqliyyat vasitələrinin sürücüləri Razılığa gələn digər Tərəfin ərazisində olarkən, Razılığa gələn həmin Tərəfin qüvvədə olan qanun və qaydalarının müddəalarına riayət etməlidirlər.

Maddə 6

Daxili daşımaların (kabotaj) qadağan olunması

Sərnişin və yüklərin kabotaj daşımalarına icazə verilmir. 10-cu maddədə göstərilən Qarışıq Komissiya bu barədə dəyişikliklər edə bilər.

Maddə 7

Qaydalara riayət olunması

1. Razılığa gələn Tərəflərin dövlətlərinin səlahiyyətli orqanları daşıyıcıların bu Sazişin müddəalarına riayət etmələrinə nəzarət edirlər.

2. Razılığa gələn bir Tərəfin daşıyıcıları, yaxud onun nəqliyyat vasitələrinin sürücüləri tərəfindən Razılığa gələn digər Tərəfin dövlətinin ərazisində avtomobil daşımalarını tənzimləyən qanunlar, yaxud bu Sazişin müddəaları pozularsa, ərazisində daşımalara icazə verilmiş Razılığa gələn Tərəfin səlahiyyətli orqanının müraciəti ilə nəqliyyat vasitəsinin qeydiyyata alındığı ölkənin səlahiyyətli orqanı onlara qarşı aşağıdakı tədbirləri görə bilər:

a) xəbərdarlıq;

b) pozuntu hallarının baş verdiyi Razılığa gələn Tərəfin ərazisində daşıma hüquqlarından müvəqqəti, yaxud tamamilə məhrumetmə.

3. Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları görülən tədbirlər barədə bir-birinə məlumat verəcəklər.

4. Tətbiq edilən sanksiyalar, ərazisində pozuntu hallarının baş verdiyi Razılığa gələn Tərəfin milli qanunlarına əsasən həyata keçiriləcəkdir.

Maddə 8

Səlahiyyətli orqanlar

Razılığa gələn Tərəflər qarşılıqlı olaraq bu Sazişin həyata keçirilməsinə səlahiyyəti olan orqanları bəyan edəcəklər. Bu səlahiyyətli orqanlar bir-biri ilə bilavasitə əlaqələr yaradacaqlar.

Maddə 9

Mümkün ola bilən dəyişikliklər

Razılığa gələn Tərəflər bu Sazişin ayrılmaz hissəsi olan Protokola əsasən bu Sazişin tətbiqi ilə əlaqədar edilən dəyişikliklər barədə ümumi razılığa gəldilər.

Maddə 10

Birgə Komissiya

1. Bu Sazişin tətbiqi ilə bağlı qarşıya çıxan məsələlərin müzakirəsi üçün Razılığa gələn Tərəflər Qarışıq Komissiya yaradırlar.

2. Qarışıq Komissiya 9-cu maddədə göstərilən Protokola əlavə və dəyişikliklər etmək səlahiyyətinə malikdir.

3. Qarışıq Komissiyanın toplantıları Razılığa gələn Tərəflərin səlahiyyətli orqanlarından hər hansı birinin müraciəti əsasında, Razılığa gələn Tərəflərdən birinin dövlətinin ərazisində vaxtaşırı keçiriləcəkdir.

Maddə 11

Lixtenşteyn Knyazlığına şamil edilməsi

Lixtenşteyn Knyazlığının rəsmi arzusuna uyğun olaraq, bu Saziş bu dövlətin İsveçrə ilə Gömrük İttifaqı müqaviləsi ilə bağlı olduğu müddətdə Lixtenşteyn Knyazlığına da şamil edilir.

Maddə 12

Qüvvəyə minmə və qüvvədə olma müddəti

1. Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Razılığa gələn Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən 30 gün sonra qüvvəyə minir.

2. Saziş qeyri-müəyyən müddətə bağlanılır. Razılığa gələn Tərəflərdən hər biri onun qüvvəsini ləğv etmək niyyəti barədə Razılığa gələn digər Tərəfə yazılı bildiriş göndərməklə Sazişin qüvvəsinə xitam verə bilər. Saziş belə bildirişin alındığı tarixdən altı ay

sonra öz qüvvəsini itirir.

Bunun təsdiqi olaraq, öz Hökumətləri tərəfindən lazımi səlahiyyət almış aşağıda imza edənlər bu Sazişi imzaladılar.

Bakı şəhərində 2007-ci il 8 oktyabr tarixində Azərbaycan və alman dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İSVEÇRƏ FEDERAL ŞURASI ADINDAN
(imza)	*(imza)*

Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında beynəlxalq avtomobil sərnişin və yük daşımaları haqqında Sazişin Protokolu

Sazişin 9-cu maddəsinə uyğun olaraq, Razılığa gələn Tərəflər aşağıdakılar barədə razılığa gəldilər:

1. Sərnişin daşımaları (maddə 3)

Sazişin 3-cü maddəsinin 1-ci bəndində göstərilən daşımalar zamanı, nəqliyyat vasitəsinin sürücüsündə Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları tərəfindən nümunələri mübadilə edilmiş yol vərəqəsi və sərnişinlərin siyahısı olmalıdır.

Bu Sazişin 3-cü maddəsinin 3-cü bəndində göstərilən daşımalar Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları arasında olan razılaşmaya əsasən həyata keçirilir.

Daşıyıcılar özlərinin səlahiyyətli orqanlarına göndərdikləri müraciətlərdə marşrutun hərəkət cədvəli, tarif barədə və tələb olunan digər məlumatlar təqdim etməlidirlər. Razılığa gələn Tərəflərin səlahiyyətli orqanları "İcazə"lərin verilməsini və qarşılıqlı razılıq əsasında digər müvafiq məsələləri həll edəcəklər.

"İcazə"ni verən səlahiyyətli orqan icazə sənədlərini Razılığa gələn digər Tərəfin səlahiyyətli orqanına təqdim etməklə qarşı tərəfi məlumatlandırır.

"İcazə'lər nəqliyyat vasitələrində olmalıdır və nəzarət orqanlarının tələbi ilə təqdim edilməlidir. Müntəzəm daşımaların həyata keçirilməsi üçün bu marşrut üzrə işləyən nəqliyyat vasitələrinin sayına müvafiq miqdarda "İcazə"lər verilir.

Zədələnmiş, yaxud sıradan çıxmış avtobusları əvəz edəcək nəqliyyat vasitələrinin boş gedişinə "İcazə" tələb olunmur.

2. Yük daşımaları (maddə 4)

Bu Sazişin tətbiqi ilə əlaqədar Razılığa gələn Tərəflərdən birinin ərazi-sində qeydiyyata alınmış avtomobil qatarlan ilə daşımalar həyata keçirildiyi təqdirdə, verilən "İcazə"lər qoşqulara və yarımqoşqulara da aid edilir;

Bu Sazişin 4-cü maddəsinin 2-ci bəndinə uyğun olaraq, aşağıda göstərilən daşımalar "İcazə"lərdən azaddır:

1. Təyyarə reyslərinin dəyişdirilməsi ilə əlaqədar, əvvəlcədən nəzərdə tutulmayan hava limanlarına/limanlarından yük daşımaları;

2. Sərnişin nəqliyyat vasitələrinə qoşulmuş qoşqularda baqajların daşınması və eləcə də hava limanlarına/limanlarından bütün növ baqajların daşınması;
3. Poçtun daşınması;
4. Zədələnmiş nəqliyyat vasitələrinin daşınması;
5. Dərilərinin istifadə edilməsi üçün ölü heyvanların daşınması;
6. Arıların və balıq sürfəsinin daşınması;
7. Cənazələrin daşınması;
8. Öz hesabına olan yüklərin daşınması;
9. Dəniz gəmilərinin təchizatı üçün ehtiyat hissələrin daşınması;
10. Daşıyıcı tərəfindən avtomobil yollan haqqında milli qaydalara müvafiq olaraq xüsusi "İcazə"lər alındığı təqdirdə, böyük qabaritli və ağır çəkili yüklərin daşınması;
11. Polis və ya digər təhlükəsizlik xidməti tərəfindən müşayiət edilən xüsusi nəqliyyat vasitələrilə qiymətli yüklərin (qiymətli metalların) daşınması;
12. Zəruri hallarda, xüsusilə təbii fəlakətlər zamanı dərmanların, tibbi cihazların və avadanlıqların, eləcə də humanitar yardım məqsədilə nəzərdə tutulan yüklərin daşınması;
13. Qoşqu daxil olmaqla ümumi çəkisi 6,0 tondan yuxarı olmayan və ya qoşqu daxil olmaqla yükgötürmə qabiliyyəti 3,5 tondan yuxarı olmayan yük nəqliyyat vasitəsilə yüklərin daşınması;
14. Sıradan çıxmış nəqliyyat vasitələrinin dəyişdirilməsi, eləcə də "İcazə" olan sıradan çıxmış nəqliyyat vasitəsinin yükünü qəbul edib daşımaq üçün boş avtonəqliyyat vasitələrinin gedişi;
15. Sərgilər, yarmarkalar və yaxud kommersiya məqsədi daşımayan tədbirlər üçün incəsənət əsərlərinin və əşyaların daşınması;
16. Yalnız məlumat və reklam məqsədilə avadanlıqların və materialların daşınması;
17. Teatr tamaşaları, sirk, yarmarka və sərgilər, radio və televiziya, yaxud kino çəkilişləri üçün nəzərdə tutulmuş ləvazimat və heyvanların daşınması;
18. Yük daşımaları üçün nəzərdə tutulan nəqliyyat vasitələrinin boş gedişi;
19. Xüsusi hazırlıqlı personal tərəfindən xüsusi nəqliyyat vasitəsilə ev əşyalarının daşınması.

3. Milli qanunların tətbiqi (maddə 5)

Razılığa gələn Tərəflər müəyyən edirlər ki, Sazişin 5-ci maddəsində qüvvədə olan qanun və qaydalar dedikdə, avtomobil daşımalarına, yol hərəkətinə, nəqliyyat vasitələrinin çəki və ölçülərinə, nəqliyyat vasitələri ekipajlarının iş və istirahət vaxtlarına və eləcə də yol rüsumlarına aid qanunvericilik nəzərdə tutulur.

4. Səlahiyyətli orqanlar (maddə 8)

Bu Sazişin tətbiqi üçün səlahiyyətli orqanlar:

Azərbaycan Respublikası tərəfindən:

Nəqliyyat Nazirliyi

Az-1122, Bakı ş., Tbilisi prospekti, 1054-cü məhəllə

İsveçrə Konfederasiyası tərəfindən:

Ətraf mühit, nəqliyyat, enerji və rabitə üzrə Federal Büro

Federal Nəqliyyat Bürosu

JH-3003, Bern

5. Nəqliyyat vasitələrinin çəki və ölçüləri

Nəqliyyat vasitələrinin çəki və ölçülərinə gəldikdə, Razılığa gələn Tərəflər öz ərazilərində qeydiyyata alınmış nəqliyyat vasitələrinə tətbiq edilən şərtlərdən daha sərt tələbləri Razılığa gələn digər Tərəfin ərazisində qeydiyyata alınmış nəqliyyat vasitələrinə tətbiq etməmək barədə razılığa gəldilər.

Nəqliyyat vasitəsilə daşınan yükün çəkisi, onun istehsalçı-zavod tərəfindən təyin edilmiş zəmanətli yükgötürmə qabiliyyətini aşmamalıdır.

Daşıma zamanı istifadə olunan Razılığa gələn bir Tərəfin yüklü və ya yüksüz nəqliyyat vasitəsinin çəkisi və ölçüsü Razılığa gələn Tərəfin ərazisində icazə verilə bilən maksimum məhdudiyyəti aşarsa, Razılığa gələn həmin Tərəfin səlahiyyətli orqanlarının verdiyi xüsusi "İcazə" tələb olunur.

Azərbaycan Respublikasında belə səlahiyyətli orqanlar aşağıdakılardır:

Nəqliyyat Nazirliyi

Az-1122, Bakı ş., Tbilisi prospekti, 1054-cü məhəllə

İsveçrədə belə səlahiyyətli orqanlar aşağıdakılardır:

Bu daşımalar avtomobil üzrə Federal Büronun (CH 3003, Bern) səlahiyyətlərinə aiddir. Yol şəraitinin imkan verməsi nəzərə alınmaqla, xüsusi "İcazə"lər yalnız bölünməz yüklərin daşınmasına verilir.

Daşınan yükün həcmi və çəkisi istehsalçı tərəfindən icazə verilmiş normanı aşmamalıdır.

6. Gömrük rejimi

Bu Saziş əsasında daşımalar yerinə yetirildiyi zaman Razılığa gələn digər Tərəfin ərazisinə gətirilən aşağıdakı mallar gömrük yığımlarından, rüsumlardan və vergilərdən qarşılıqlı surətdə azad olunur:

a) nəqliyyat vasitəsinin hər modeli üçün istehsalçı-zavod tərəfindən nəzərdə tutulan və mühərrikin təchizatı sistemi ilə texnoloji və konstruktiv cəhətdən bağlı olan çənlərindəki, qəbul edən Razılığa gələn Tərəfin dövlətinin qanunlarına əsasən icazə verilən miqdarda, yanacaq;

b) daşıma zamanı istifadə üçün zəruri miqdarda olan sürtkü materialları;

c) beynəlxalq daşımaları yerinə yetirən nəqliyyat vasitəsinin məcburi təmiri üçün nəzərdə tutulan ehtiyat hissələr və alətlər.

Dəyişdirilmiş ehtiyat hissələr gömrük rəsmiyyətindən keçirilməklə Razılığa gələn müvafiq Tərəfə qaytarılmalı, yaxud gömrük orqanlarının nəzarəti ilə məhv edilməlidir.

Bakı şəhərində 2007-ci il 8 oktyabr tarixində Azərbaycan və alman dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İSVEÇRƏ FEDERAL ŞURASI ADINDAN
(imza)	*(imza)*

"Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında müntəzəm hava əlaqəsinə dair" Sazişin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında müntəzəm hava əlaqəsinə dair" 2007-ci il oktyabrın 9-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 dekabr 2007-ci il

№498-IIIQ

Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında müntəzəm hava əlaqəsinə dair Saziş

Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası (bundan sonra "Razılığa gələn Tərəflər"),

Hökumət tərəfindən minimal təsir və tənzimləmə yolu ilə, bazarda fəaliyyət göstərən aviaşirkətlər arasında rəqabət əsasında beynəlxalq aviasiya sistemini inkişaf etdirmək arzusunda olaraq,

beynəlxalq hava əlaqələri üzrə imkanların genişləndirilməsini sürətləndirmək arzusunda olaraq,

səmərəli və rəqabətədavamlı beynəlxalq hava xidmətlərinin ticarəti genişləndirdiyini, istehlakçıların rifahını, habelə iqtisadi artımı təmin etdiyini dərk edərək,

aviaşirkətlər üçün səyahət edən və yük göndərən əhaliyə bir sıra xidmət növlərini təklif etmək imkanı yaratmaq, habelə ayrı-ayrı aviaşirkətləri yeni və rəqabətədavamlı qiymətləri tətbiq etməyə sövq etmək arzusunda olaraq,

beynəlxalq hava xidmətləri zamanı uçuşların təhlükəsizliyini və aviasiya təhlükəsizliyini yüksək səviyyədə təmin etmək arzusunda olaraq, şəxslərin və əmlakın təhlükəsizliyinə xələl gətirən, hava əlaqələrinin yerinə yetirilməsinə mənfi təsir göstərən və əhalinin mülki aviasiyanın təhlükəsizliyinə olan inamını zəiflədən, hava gəmisinin təhlükəsizliyinə qarşı yönəldilən hərəkətlər və ya həmin hərəkətlərin törədilməsi qorxusu üçün ciddi narahatlığını yeni-dən təsdiq edərək, habelə

7 dekabr 1944-cü ildən Çikaqoda imzalanmaq üçün açıq olan Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyanın Tərəfləri olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Təriflər

1. Başqa cür razılaşdırılmamışdırsa, bu Saziş və onun Əlavəsinin məqsədi üçün:

a. "Konvensiya" termini, 1944-cü il dekabrın 7-dən Çikaqoda imzalanmaq üçün açıq olan Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyanı bildirir və həmin Konvensiyanın 90-cı maddəsinə əsasən qəbul edilmiş hər hansı Əlavəni və onun 90 və 94-cü maddələrinə əsasən Əlavələrə və ya Konvensiya ya hər hansı dəyişikliyi, həmin əlavələr və dəyişikliklərin Razılığa gələn hər iki Tərəf üçün qüvvədə olduğu qədər əhatə edir.

b. "Aviasiya hakimiyyəti orqanları " termini Azərbaycan Respublikasına münasibətdə Dövlət Mülki Aviasiya Administrasiyasını və İsveçrəyə münasibətdə Mülki Aviasiya Federal İdarəsini və ya hər iki halda adıçəkilən hakimiyyət orqanlarına həvalə edilən funksiyaları icra etmək səlahiyyətinə malik olan hər hansı şəxs və ya orqanı bildirir.

c. "təyin edilmiş aviasiya şirkətləri" termini bu Sazişin 5-ci maddəsinə uyğun olaraq razılaşdırılmış xidmətləri həyata keçirmək üçün Razılığa gələn bir Tərəfin təyin etdiyi aviasiya şirkətini və ya aviasiya şirkətlərini bildirir.

d. "Razılaşdırılmış xidmətlər" termini sərnişinlərin, yükün və poçtun, birlikdə və ya ayrılıqda, müəyyən edilən marşrutlar üzrə daşınması üçün hava xidmətlərini bildirir.

e. "Hava əlaqəsi", "beynəlxalq hava əlaqəsi", "aviasiya şirkəti" və "qeyri-kommersiya məqsədləri ilə dayanacaq" terminlərinin Konvensiyanın 96-cı maddəsində onlara dair müvafiq olaraq müəyyən edilmiş mənaları vardır.

f. Razılığa gələn Tərəflər üçün "ərazi" termini Çikaqo Konvensiyasının 2-ci maddəsi ilə müəyyən edilmiş mənaya uyğundur.

g. "Tarif" termini poçt daşımaları üçün ödəmələr və şərtlər istisna olmaqla, agentlik və ya daşıma sənədlərinin satışı üçün komisyon haqları və əlavə ödəmələr daxil olmaqla, sərnişin, baqaj və yük daşımaları üçün ödənilən qiymətləri və əsasında həmin qiymətlərin tətbiq edildiyi şərtləri bildirir.

2. Əlavə bu Sazişin ayrılmaz hissəsini təşkil edir. Birmənalı şəkildə başqa cür razılaşdırılmamışdırsa, Sazişə edilən bütün istinadlar Əlavəni də əhatə edəcəkdir.

Maddə 2

Hüquqların verilməsi

1. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfə Əlavənin qrafiklərində müəyyən edilən marşrutlarda beynəlxalq hava xidmətlərinin həyata keçirilməsi məqsədilə bu Sazişdə müəyyən edilən hüquqları verir. Həmin xidmətlər və marşrutlar bundan sonra müvafiq olaraq "razılaşdırılmış xidmətlər" və "müəyyən edilmiş marşrutlar" adlandırılır.

2. Bu Sazişin müddəalarına uyğun olaraq Razılığa gələn hər bir Tərəfin təyin edilmiş aviasiya şirkətləri beynəlxalq hava xidmətlərini həyata keçirərkən istifadə edəcəkdir:

a. Razılığa gələn digər Tərəfin ərazisi üzərindən yerə enmədən uçub keçmək hüququndan;

b. qeyri-kommersiya məqsədləri ilə qeyd edilən əraziyə enmək hüququndan;

c. Razılığa gələn digər Tərəfin ərazisindəki məntəqələrə daşınan və ya məntəqələrdən gətirilən sərnişinləri, baqajı, yükü və poçtu qeyd edilən ərazinin bu Sazişin Əlavəsində müəyyən edilən məntəqələrində götürmək və ya boşaltmaq hüququndan.

3. Bu maddədə heç bir-müddəa Razılığa gələn bir Tərəfin təyin edilmiş aviasiya şirkətlərinə Razılığa gələn digər Tərəfin ərazisində Razılığa gələn həmin Tərəfin ərazisindəki digər məntəqə üçün nəzərdə tutulan sərnişinləri, baqajı, yükü və poçtu icarə və ya haqqı ödənilməklə götürmək hüququnun verilməsi kimi izah olunmayacaqdır.

4. Bu Sazişin 5-ci maddəsinə əsasən təyin edilən aviasiya şirkətlərindən başqa, Razılığa gələn hər bir Tərəfin digər aviasiya şirkətləri də bu maddənin 1 a) və b) bəndlərində müəyyən edilən hüquqlardan istifadə edəcəklər.

5. Əgər hərbi münaqişələr, siyasi iğtişaşlar və ya hadisələr zamanı, yaxud xüsusi və qeyri-adi hallarda Razılığa gələn bir Tərəfin təyin edilmiş aviasiya şirkəti daimi marşrut üzrə xidmətləri yerinə yetirmək imkanına malik deyildirsə, Razılığa gələn digər Tərəf həmin vaxt üçün həyat qabiliyyətli xidmətləri asanlaşdırmaq məqsədilə, zəruri ola bilən hüquqların verilməsi də daxil olmaqla, bu xidmətin həyata keçirilməsinin müvəqqəti olaraq dəyişdirilmiş müvafiq marşrut üzrə davam etdirilməsini asanlaşdırmaq üçün səy göstərəcəkdir.

Maddə 3

Hüquqların həyata keçirilməsi

1. Razılığa gələn hər iki Tərəfin təyin edilmiş aviasiya şirkətləri üçün bu Sazişin Əlavəsində göstərilən müəyyən edilmiş marşrutlarda razılaşdırılmış xidmətləri həyata keçirmək məqsədilə ədalətli və bərabər imkanlar yaradılacaqdır.

2. Razılığa gələn hər bir Tərəfin təyin edilmiş aviasiya şirkəti razılaşdırılmış xidmətləri yerinə yetirərkən müəyyən edilmiş marşrutlarda daşımalar üçün əhalinin tələbatına yaxın münasibət göstərəcək və aviasiya şirkətini təyin etmiş Razılığa gələn Tərəfin ərazisindən gələn və ya ərazisinə göndərilən poçt da daxil olmaqla sərnişinlər və yükün daşınması üçün hazırkı və məntiqi şəkildə gözlənilən tələbatı ödəmək məqsədilə münasib

olan tutumun məntiqi yükləmə əmsalında təmin edilməsi onların əsas məqsədi olacaqdır.

Aviasiya şirkətini təyin edənlərdən başqa, digər Dövlətlərin ərazisində müəyyən edilmiş marşrutlardakı məntəqələrdə götürülən və boşaldılan poçt da daxil olmaqla, sərnişinlər və yükün daşınmasının təmini aşağıdakıların aid ediləcəyi tutumun ümumi prinsiplərinə uyğun olacaqdır:

a) aviasiya şirkətini təyin etmiş Razılığa gələn Tərəfin ərazisinə və ərazisindən daşımalara olan tələbat;

b) razılaşdırılmış xidmətlərin keçdiyi ərazinin məxsus olduğu Dövlətin aviasiya şirkətləri tərəfindən müəyyən edilən digər nəqliyyat xidmətlərini nəzərə aldıqdan sonra həmin ərazinin daşımalara olan tələbatı;

c) tranzit daşımalara olan tələbat.

3. Razılığa gələn Tərəflərdən heç biri digər Tərəfin təyin edilmiş aviaşirkətinin uçuşlarını birtərəfli qaydada məhdudlaşdırmayacaq. Bu zaman Sazişin müddəalarına uyğun olaraq nəzərdə tutulan və ya gömrük, texniki, istismar və ətraf mühit məsələləri ilə əlaqədar Konvensiyanın 15-ci maddəsinə əsasən eyni qaydada tələb edildiyi hallar istisna olunur.

Maddə 4

Qanun və qaydaların tətbiqi

1. Beynəlxalq hava daşımalarına cəlb edilmiş hava gəmisinin Razılığa gələn bir Tərəfin ərazisinə daxil olmasının və ya onun ərazisini tərk etməsinin və ya həmin hava gəmisinin göstərilən ərazi üzərindən uçuşlarının tənzimlənməsinə dair həmin Tərəfin qanun və qaydaları Razılığa gələn digər Tərəfin təyin edilmiş aviasiya şirkətlərinə tətbiq ediləcəkdir. Razılığa gələn bir Tərəfin sərnişinlər, ekipaj, baqaj, yük və ya poçtun onun ərazisinə daxil olmasını, ərazisində müvəqqəti qalmasını və ərazisini tərk etməsini tənzimləyən qanun və qaydaları, həmçinin əraziyə daxilolma, ərazisini tərk etmə, emiqrasiya və immiqrasiyaya dair prosedurlar, habelə gömrük tədbirləri və tibbi tədbirlər Razılığa gələn digər Tərəfin təyin edilmiş aviasiya şirkətlərinin hava gəmiləri tərəfindən daşınan sərnişinlərə, ekipaja, baqaja, yükə və ya poçta göstərilən ərazidə olarkən tətbiq ediləcəkdir.

2. Bu maddədə nəzərdə tutulan qanun və qaydalar tətbiq edilərkən Razılığa gələn heç bir Tərəf Razılığa gələn digər Tərəfin təyin edilmiş aviasiya şirkətlərinə münasibətdə özünün aviasiya şirkətlərinə hər hansı üstünlük verə bilməz.

Maddə 5

Təyin edilmə və istismar səlahiyyəti

1. Razılığa gələn hər bir Tərəf razılaşdırılmış xidmətləri yerinə yetirmək məqsədilə istədiyi sayda aviasiya şirkətini təyin etmək hüququna malik olacaqdır. Bu cür təyinat Razılığa gələn hər iki Tərəfin aviasiya hakimiyyəti orqanları arasında yazılı bildiriş əsasında həyata keçiriləcəkdir.

2. Təyinat haqqında bildirişi alan aviasiya hakimiyyəti orqanları bu maddənin 3-cü və

4-cü bəndlərinin müddəalarına uyğun olaraq Razılığa gələn digər Tərəfin təyin edilmiş aviasiya şirkətlərinə zəruri istismar səlahiyyətlərini dərhal verəcəkdir.

3. Razılığa gələn bir Tərəfin aviasiya hakimiyyəti orqanları Razılığa gələn digər Tərəfin təyin etdiyi aviasiya şirkətlərindən həmin aviasiya hakimiyyəti orqanlarının Konvensiyanın müddəalarına uyğun olaraq beynəlxalq hava daşımalarının yerinə yetirilməsi üçün adətən tətbiq etdiyi qanun və qaydalarla nəzərdə tutulan şərtləri yerinə yetirməyə qadir olduğunu sübut etməyi tələb edə bilər.

4. Razılığa gələn hər bir Tərəf aviasiya şirkətlərinin əsas fəaliyyət yerinin onları təyin edən Razılığa gələn Tərəfin ərazisində olduğu və Razılığa gələn bu Tərəfin verdiyi, qüvvədə olan İstismarçı Şəhadətnamələrinə sahib olduqları barədə sübuta malik olmazsa, Razılığa gələn həmin Tərəf bu maddənin 2-ci bəndində istinad edilən istismar səlahiyyətlərinin verilməsindən imtina etmək və ya təyin edilmiş aviasiya şirkəti tərəfindən bu Sazişin 2-ci maddəsində müəyyən edilən hüquqlardan istifadə edərkən zəruri sayacağı şərtlərin yerinə yetirilməsini tələb etmək hüququna malik olacaqdır.

5. Təyin edilmiş aviasiya şirkətləri bu maddənin 2-ci bəndində nəzərdə tutulan istismar səlahiyyətini alan kimi, razılaşdırılmış xidmətləri istənilən vaxt həyata keçirməyə başlaya bilər.

Maddə 6

İstismar səlahiyyətlərinin ləğv edilməsi və dayandırılması

1. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin təyin etdiyi aviasiya şirkətlərinin bu Sazişin 2-ci maddəsində müəyyən edilmiş hüquqları həyata keçirmək üçün istismar səlahiyyətlərini ləğv etmək və ya dayandırmaq, yaxud həmin hüquqların həyata keçirilməsi zamanı zəruri sayacağı şərtlərin yerinə yetirilməsini tələb etmək hüququna malik olacaqdır:

a) aviasiya şirkətlərinin əsas fəaliyyət yerinin onları təyin edən Razılığa gələn Tərəfin ərazisində olduğu və Razılığa gələn bu Tərəfin verdiyi, qüvvədə olan İstismarçı Şəhadətnamələrinə sahib olduqları barədə sübuta malik olmadıqda; və ya

b) bu hüquqları vermiş Razılığa gələn Tərəfin qanunları və ya qaydalarına həmin aviasiya şirkətləri riayət etmədikdə və ya onları ciddi şəkildə pozduqda; və ya

c) bu Saziş əsasında nəzərdə tutulmuş şərtlərə uyğun olaraq razılaşdırılmış xidmətləri həyata keçirməkdə aviasiya şirkətləri uğursuzluğa düçar olduqda.

2. Əgər bu maddənin 1-ci bəndində göstərilmiş dərhal ləğv etmə, hüquqların dayandırılması və ya şərtlərin yerinə yetirilməsinin tələb edilməsi qanun və ya qaydaların sonrakı pozuntularının qarşısını almaq üçün zəruri deyildirsə, onda bu hüquq yalnız Razılığa gələn digər Tərəflə məsləhətləşmələrdən sonra həyata keçiriləcəkdir.

Maddə 7

Aviasiya təhlükəsizliyi

1. Beynəlxalq hüquqdan irəli gələn hüquq və öhdəliklərinə uyğun olaraq Razılığa gələn Tərəflər mülki aviasiyanı qanunsuz müdaxilə aktlarından müdafiə etmək üçün bir-birinə münasibətdə öhdəliklərinin bu Sazişin ayrılmaz hissəsini təşkil etdiyini yenidən təs-

diq edirlər. Beynəlxalq hüquqdan irəli gələn hüquq və öhdəliklərinin ümumiliyini məhdudlaşdırmayaraq, Razılığa gələn Tərəflər xüsusilə 1963-cü il sentyabrın 14-də Tokioda imzalanmış "Hava gəmilərində törədilən cinayətlər və bəzi başqa hərəkətlər haqqında Konvensiya"nın, 1970-ci il dekabrın 16-da Haaqada imzalanmış "Hava gəmilərinin qanunsuz ələ keçirilməsinə qarşı mübarizə haqqında Konvensiya"nın, 1971-ci il sentyabrın 23-də Monrealda imzalanmış "Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəldilən qanunsuz hərəkətlərlə mübarizə haqqında Konvensiya"nın və onun 1988-ci il fevralın 24-də Monrealda imzalanmış "Beynəlxalq mülki aviasiyaya xidmət edən hava limanlarında qanunsuz zorakılıq hərəkətlərinə qarşı mübarizə haqqında Əlavə Protokol"un və həmçinin mülki aviasiyanın təhlükəsizliyinə dair Razılığa gələn hər iki Tərəfin qəbul etdiyi hər hansı digər konvensiya və protokolun müddəalarına əsasən fəaliyyət göstərəcəklər.

2. Razılığa gələn Tərəflər mülki hava gəmilərinin qanunsuz ələ keçirilməsinin və belə hava gəmilərinin, onların sərnişinlərinin və ekipajının, hava limanlarının və aeronaviqasiya vasitələrinin təhlükəsizliyinə qarşı yönəldilən digər qanunsuz hərəkətlərin, habelə mülki aviasiyanın təhlükəsizliyinə yönəldilən hər hansı digər hədənin qarşısının alınması üçün bir-birinə xahiş əsasında bütün lazımi yardımı göstərəcəklər.

3. Razılığa gələn Tərəflər qarşılıqlı münasibətlərində Beynəlxalq Mülki Aviasiya Təşkilatı tərəfindən müəyyən edilən və Konvensiyaya Əlavələr kimi tərtib edilən aviasiya təhlükəsizliyi müddəalarına, onların Razılığa gələn Tərəflərə tətbiq edildiyi həddə uyğun olaraq fəaliyyət göstərəcəklər; onlar reyestrində olan hava gəmisinin istismarçılarının və ya əsas fəaliyyət yeri və ya daimi iqamətgahı onların ərazisində olan istismarçıların, habelə onların ərazisindəki hava limanlarının istismarçılarının həmin aviasiya təhlükəsizliyi müddəalarına uyğun olaraq fəaliyyət göstərmələrini tələb edəcəklər.

4. Razılığa gələn hər bir Tərəf razılaşır ki, Razılığa gələn digər Tərəfin tələb etdiyi bu maddənin 3-cü bəndində istinad edilən aviasiya təhlükəsizliyi müddəalarına hava gəmisinin göstərilən istismarçılarından Razılığa gələn həmin digər Tərəfin ərazisinə daxil olmaq, ərazisini tərk etmək və ərazisində qalmaq üçün riayət olunması tələb edilə bilər. Razılığa gələn hər bir Tərəf öz ərazisi daxilində hava gəmisini müdafiə etmək və sərnişinləri, ekipajı, əl yüklərini, baqajı, yükü və hava gəmisinin ehtiyatlarını yoxlamaq məqsədilə minikdən və ya yükləmədən əvvəl və minik və ya yükləmə zamanı müvafiq tədbirlərin görülməsini təmin edəcəkdir. Razılığa gələn hər bir Tərəf həmçinin müəyyən təhlükənin qarşısının alınması məqsədilə məntiqə uyğun xüsusi təhlükəsizlik tədbirləri ilə əlaqədar Razılığa gələn digər Tərəfin hər hansı xahişinə rəğbətlə yanaşacaqdır.

5. Mülki hava gəmilərinin qanunsuz ələ keçirilməsi və ya bu cür hava gəmilərinin, onların sərnişinlərinin və ekipajın, hava limanlarının və aeronaviqasiya vasitələrinin təhlükəsizliyinə qarşı başqa qanunsuz hərəkətlərlə bağlı insident və ya insident təhlükəsi yarandıqda, Razılığa gələn Tərəflər bu cür insidenti və ya təhlükəni cəld və təhlükəsiz şəkildə aradan qaldırmaq məqsədilə kommunikasiyanı asanlaşdırmaq və digər müvafiq tədbirləri görməklə bir-birinə kömək göstərəcəklər.

6. Razılığa gələn Tərəflərdən biri, Razılığa gələn digər Tərəfin bu maddənin aviasiya təhlükəsizliyi müddəalarından kənara çıxdığına inanmaq üçün məntiqi əsası vardırsa,

Razılığa gələn həmin Tərəfin aviasiya hakimiyyəti orqanları Razılığa gələn digər Tərəfin aviasiya hakimiyyəti orqanları ilə təcili məsləhətləşmələrin keçirilməsini xahiş edə bilər. Bu cür xahişin göndərildiyi tarixdən on beş (15) gün ərzində təminedici razılığın əldə olunmaması Razılığa gələn həmin Tərəfin aviasiya şirkətlərinin istismar səlahiyyətləri və texniki icazəsindən imtina, onların ləğvi, məhdudlaşdırılması və ya onlara şərtlərin tətbiq edilməsi üçün əsas olacaqdır. Fövqəladə hal tələb edərsə, Razılığa gələn Tərəf on beş (15) günlük müddət başa çatmazdan əvvəl müvəqqəti tədbirlər görə bilər.

Maddə 8

Uçuşların təhlükəsizliyi

1. Razılığa gələn hər bir Tərəf bu Sazişlə nəzərdə tutulan razılaşdırılmış əlaqələri yerinə yetirmək məqsədilə Razılığa gələn digər Tərəfin verdiyi və ya etibarlı hesab etdiyi və qüvvədə olan uçuş yararlılığı şəhadətnamələrini, səlahiyyət şəhadətnamələrini və lisenziyaları tanıyacaqdır, bu şərtlə ki, həmin sertifikatlara və ya lisenziyalara dair tələblər Konvensiyaya uyğun müəyyən edilə bilən minimal standartlara ən azı bərabər olmalıdır.

2. Bu baxmayaraq, Razılığa gələn hər bir Tərəf öz ərazisi üzərində uçuşlar həyata keçirmək məqsədilə onun öz vətəndaşlarına Razılığa gələn digər Tərəfin və ya hər hansı digər Dövlətin verdiyi və ya etibarlı hesab etdiyi səlahiyyət şəhadətnamələri və lisenziyalarının etibarlılığını tanımaqdan imtina etmək hüququna malikdir.

3. Razılığa gələn bər bir Tərəf Razılığa gələn digər Tərəfin uçuş ekipajına, hava gəmisinə və ya onların idarə edilməsinə dair qəbul etdiyi təhlükəsizlik standartları ilə əlaqədar istənilən vaxt məsləhətləşmələr keçirilməsini tələb edə bilər. Bu cür məsləhətləşmələr sorğu alındığı andan etibarən 30 gün ərzində keçiriləcəkdir.

4. Əgər bu cür məsləhətləşmələrdən sonra Razılığa gələn bir Tərəf Razılığa gələn digər Tərəfin həmin an Konvensiyaya uyğun olaraq müəyyən edilmiş minimum standartlara ən azı bərabər olan hər hansı bu cür sahədə təhlükəsizlik standartlarına səmərəli şəkildə riayət və onları tətbiq etmədiyini aşkar edərsə, Razılığa gələn birinci Tərəf müəyyən edilən faktlar və həmin minimum standartlara riayət etmək üçün zəruri hesab edilən tədbirlər barədə Razılığa gələn digər Tərəfi xəbərdar edəcək və Razılığa gələn həmin digər Tərəf müvafiq təshihedici tədbirlər görəcəkdir. Razılığa gələn digər Tərəfin 15 gün və ya razılaşdırıla bilən bu cür uzun müddət ərzində müvafiq tədbirlər görə bilməməsi bu Sazişin 6-cı maddəsinin tətbiqi üçün əsas olacaqdır.

5. Konvensiyanın 33-cü maddəsində qeyd edilən öhdəliklərə baxmayaraq razılaşdırılmışdır ki, Razılığa gələn digər Tərəfin ərazisində və ya ərazisindən xidmətləri yerinə yetirən Razılığa gələn bir Tərəfin təyin edilmiş aviasiya şirkətinin və ya şirkətlərinin adından lizinq müqaviləsinə əsasən istismar edilən hər hansı hava gəmisi Razılığa gələn digər Tərəfin ərazisində olarkən Razılığa gələn digər Tərəfin səlahiyyətli nümayəndələri tərəfindən, əsassız ləngidilməyə yol verilməməsi şərtilə, hava gəmisinin içində və ətrafında həm hava gəmisinin sənədlərinin, həm də onun ekipajının sənədlərinin etibarlılığı və hava gəmisinin və onun avadanlığının həqiqi vəziyyəti (bu maddədə "perron yoxlanışı" adlandırılan) yoxlanıla bilər.

6. Əgər hər hansı bu cür perron yoxlanışı və ya ardıcıl perron yoxlanışları:

a) hava gəmisinin və ya hava gəmisinin istismar edilməsinin həmin vaxt Konvensiyaya müvafiq olaraq müəyyən edilən minimum standartlara uyğun olmaması barədə ciddi narahatlığa və ya

b) həmin vaxt Konvensiyaya müvafiq olaraq müəyyən edilən təhlükəsizlik standartlarına səmərəli şəkildə riayət edilmədə və texniki xidmətdə çatışmazlıqlar barədə ciddi narahatlığa gətirib çıxararsa,

yoxlanışı həyata keçirən Razılığa gələn Tərəf Konvensiyanın 33-cü maddəsinin məqsədləri üçün həmin hava gəmisinə münasibətdə və ya həmin hava gəmisinin ekipajına münasibətdə sertifikat və lisenziyaların verilməsi və ya etibarlı hesab edilməsi şərtlərinin və ya hava gəmisinin istismar edilməsi şərtlərinin Konvensiyaya uyğun olaraq müəyyən edilmiş minimum standartlara uyğun və ya ondan artıq olmadığı qərarına gəlməkdə sərbəst olacaqdır.

7. Razılığa gələn bir Tərəfin aviasiya şirkəti və ya aviasiya şirkətləri adından istismar edilən hava gəmisinin yuxarıdakı 5-ci bəndə uyğun olaraq perron yoxlanışının həyata keçirilməsi məqsədilə həmin aviasiya şirkəti və ya aviasiya şirkətlərinin nümayəndələri tərəfindən buraxılışdan imtina edildiyi halda Razılığa gələn digər Tərəf yuxarıdakı 6-cı bənddə istinad edilən növlərdə ciddi narahatlığa əmin ola bilər və həmin bənddə istinad olunan qərar qəbul edə bilər.

8. Perron yoxlanışı, ardıcıl perron yoxlanışı, perron yoxlanışına buraxılışdan imtina, məsləhətləşmə və ya digər şəkildə aviasiya şirkətinin fəaliyyətinin təhlükəsizliyi üçün təcili tədbirlərin zəruriliyi nəticəsində Razılığa gələn birinci Tərəf qərara gəldiyi halda Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin aviasiya şirkətinin və ya aviasiya şirkətlərinin istismar səlahiyyətlərini dərhal dayandırmaq və ya dəyişmək hüququnu özündə saxlayır.

9. Yuxarıda qeyd edilən 4 və ya 8-ci bəndə uyğun olaraq Razılığa gələn bir Tərəfin hər hansı hərəkəti artıq bu tədbirin görülməsi üçün əsas olmadığı halda dayandırılacaqdır.

Maddə 9

Lizinq

1. Razılığa gələn hər bir Tərəf icarəyə götürülən, 7-ci (Aviasiya təhlükəsizliyi) və 8-ci maddələrin (Uçuşların təhlükəsizliyi) tələblərinə müvafiq olmayan hava gəmisinin bu Sazişə əsasən uçuşlar üçün istifadəsinin qarşısını ala bilər.

2. Yuxarıda qeyd edilən 1-ci bəndin müddəalarından asılı olaraq, Razılığa gələn hər bir Tərəfin təyin edilmiş aviasiya şirkətləri digər şirkətdən, o cümlədən digər aviaşirkətlərdən icarəyə götürdüyü hava gəmisindən (və ya hava gəmisindən və ekipajdan) istifadə edə bilər, bir şərtlə ki, bu, icarəyə verən aviaşirkətin malik olmadığı kommersiya hüquqlarından istifadəyə səbəb olmayacaqdır.

Maddə 10

Rüsum və vergilərdən azad edilmə

1. Razılığa gələn bir Tərəfin təyin edilmiş aviasiya şirkətləri tərəfindən beynəlxalq hava daşımalarında istifadə edilən hava gəmisi, habelə həmin hava gəmisində olan adi avadanlıq, yanacaq və sürtkü materialları ehtiyatı, hava gəmisində daşınan ərzaq məh-

sulları, içkilər və tütün məmulatları da daxil olmaqla, gəmi ehtiyatları Razılığa gələn digər Tərəfin ərazisinə daxil olarkən, həmin avadanlıq, ehtiyatlar, təkrar ixrac ediləcəyi ana qədər hava gəmisində qalması şərtilə, bütün rüsumlardan və ya vergilərdən azad ediləcəkdir.

2. Təqdim edilən xidmətlərin müqabilində yığımlar istisna olmaqla, eyni rüsum və vergilərdən azad ediləcəkdir:

a) Razılığa gələn bir Tərəfin ərazisində Razılığa gələn həmin Tərəfin aviasiya hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş həddə və Razılığa gələn digər Tərəfin təyin etdiyi aviasiya şirkətlərinin beynəlxalq hava daşımalarında istismar edilən hava gəmisində istifadə üçün götürülən gəmi ehtiyatları;

b) beynəlxalq hava daşımalarında istismar edilən hava gəmisinə texniki xidmət göstərmək və ya təmir etmək üçün Razılığa gələn bir Tərəfin ərazisinə gətirilən ehtiyat hissələri və adi gəmi avadanlığı;

c) Razılığa gələn Tərəflərdən birinin ərazisində hava gəmisinə götürülərək, hətta bu materiallardan Razılığa gələn həmin Tərəfin ərazisi üzərindən keçən marşrutun hər hansı bir hissəsində istifadə ediləcəyi təqdirdə də Razılığa gələn digər Tərəfin təyin edilmiş aviasiya şirkətlərinin beynəlxalq hava daşımalarında istifadə üçün götürülən yanacaq və sürtkü materialları;

d) Razılığa gələn bir Tərəfin təyin etdiyi aviasiya şirkətləri tərəfindən istifadə edilən zəruri sənədlər, o cümlədən daşıma sənədləri, hava yüklərinin qaimələri və reklam materialları.

3. Razılığa gələn Tərəflərdən birinin təyin etdiyi aviasiya şirkətlərinin istismar etdiyi hava gəmisinin bortunda saxlanılan adi hava gəmisi avadanlığı, habelə materiallar və ehtiyat hissələri Razılığa gələn digər Tərəfin ərazisində yalnız həmin ərazinin gömrük orqanlarının icazəsi ilə boşaldıla bilər. Bu halda həmin əşyalar gömrük qaydalarına müvafiq olaraq təkrar ixrac olunanadək və ya digər gömrük rejimi altında yerləşdirilənədək gömrük orqanlarının müşahidəsi altında saxlanıla bilər.

Maddə 11

Birbaşa tranzit

Zorakılıq hallarına, sərhəd pozuntusuna, hava piratlığına qarşı təhlükəsizlik tədbirləri və immiqrasiya nəzarəti tədbirləri məqsədilə digər şəkildə tələb olunmazsa, Razılığa gələn Tərəflərdən birinin ərazisindən birbaşa tranzitlə keçən və hava limanında bu məqsədlə ayrılmış sahəni tərk etməyən sərnişinlər, baqaj və yük yalnız çox sadələşdirilmiş nəzarətdən keçəcəkdir. Bir-başa tranzitlə daşınan baqaj və yüklər gömrük rüsumlarından və digər oxşar vergilərdən azad olunacaqdır.

Maddə 12

İstehlak yığımları

1. Razılığa gələn Tərəflərin hər biri özlərinin səlahiyyətli hakimiyyət orqanları tərəfindən Razılığa gələn digər Tərəfin təyin edilmiş aviasiya şirkətlərinə tətbiq edilən və ya tətbiq edilməsinə icazə verilən istehlak yığımlarının ədalətli və məntiqli olmasını təmin etmək üçün hər cür səy göstərəcəklər. Onlar qanuni iqtisadi prinsiplərə əsaslanmalıdır.

2. Razılığa gələn bir Tərəfin hava limanı , aeronaviqasiya vasitələri və xidmətlərindən istifadə üçün Razılığa gələn digər Tərəfin təyin edilmiş aviasiya şirkətlərinə təklif etdiyi qiymətlər müntəzəm beynəlxalq hava daşımalarında fəaliyyət göstərən öz milli hava gəmisi tərəfindən ödənilməli olandan artıq olmayacaqdır.

3. Razılığa gələn hər bir Tərəf özünün səlahiyyətli istehlak yığımı orqanları və həmin istehlak yığımı orqanları tərəfindən təmin edilən xidmət və avadanlıqlardan istifadə edən aviasiya şirkətlərini praktiki cəhətdən mümkün olarsa, həmin aviasiya şirkətlərinin nümayəndələri olan təşkilatlar arasında istehlak yığımları barəsində məsləhətləşmələrin keçirilməsinə, bu maddənin 1 və 2-ci bəndlərinin prinsiplərinə uyğun olaraq, yığımların məntiqəuyğun müəyyən edildiyini dəqiq öyrənmək məqsədilə tələb olunan informasiyam mübadilə etməyə təşviq edəcəkdir. Razılığa gələn hər bir Tərəf bundan sonra səlahiyyətli istehlak yığımı orqanlarını istehlak yığımlarında dəyişikliklər edilməsi üçün hər hansı təkliflərə dair əsaslandırılmış bildiriş, dəyişiklik edilməmişdən əvvəl öz fikirlərini bildirmək üçün həmin istehlakçılara verilməsinə təşviq edəcəkdir.

Maddə 13

Kommersiya fəaliyyəti

1. Razılığa gələn bir Tərəfin təyin edilmiş aviasiya şirkətlərinə Razılığa gələn digər Tərəfin ərazisində müvafiq nümayəndəliklər saxlamağa icazə veriləcəkdir. Bu nümayəndəliklərə digər yerdən göndərilmiş və ya yerli əhalidən cəlb edilən personaldan ibarət ola bilən kommersiya, idarəedici və texniki heyət daxil ola bilər.

2. Kommersiya fəaliyyəti üçün qarşılılıq prinsipi tətbiq ediləcəkdir. Razılığa gələn hər bir Tərəfin səlahiyyətli orqanları Razılığa gələn digər Tərəfin təyin edilmiş aviasiya şirkətlərinin nümayəndəliklərinin fəaliyyətini lazımi qaydada həyata keçirə bilməsini təmin etmək üçün bütün zəruri tədbirləri görəcəklər.

3. Razılığa gələn hər bir Tərəf öz ərazisində Razılığa gələn digər Tərəfin təyin edilmiş aviasiya şirkətinə birbaşa və ya agentləri vasitəsilə özlərinin daşıma sənədlərində hava nəqliyyatı xidmətlərini ərazisində satış həyata keçirilən Razılığa gələn Tərəfin milli valyutasında və göstərilən Razılığa gələn Tərəfin qanunvericiliyi ilə icazə verildiyi halda, həmçinin hər hansı sərbəst dönərli valyutada satmaq hüququnu verir. Razılığa gələn hər bir Tərəf Razılığa gələn digər Tərəfin təyin edilmiş aviasiya şirkətinin bu cür daşımaları satmaq və hər hansı şəxsin onu almaq hüququnu məhdudlaşdırmaqdan çəkinəcəkdir.

4. Razılığa gələn hər bir Tərəfin təyin edilmiş aviaşirkətləri Razılığa gələn digər Tərəfin aviaşirkətləri ilə marketinq sazişləri bağlaya bilər, məsələn, yerlər bloku, kodlardan birgə istifadə və ya digər kommersiya sazişləri, bir şərtlə ki, belə aviaşirkətlər müvafiq istismar icazələrinə malik olsunlar.

Maddə 14

Vergitutma və gəlirlərin köçürülməsi

1. Razılığa gələn Tərəfin təyin edilmiş aviasiya şirkətlərinin beynəlxalq daşımalardan əldə etdiyi gəlirlərdən yalnız Razılığa gələn həmin Tərəfin ərazisində vergi tutulacaqdır.

2. Razılığa gələn hər bir Tərəf qarşılıqlı əsasda Razılığa gələn digər Tərəfin təyin edilmiş aviaşirkətlərinə Razılığa gələn müvafiq Tərəfin ərazisində əldə edilən əlavə mənfəəti, məsrəflərdən əlavə gəliri köçürmək hüququ verəcəkdir. Belə pul köçürmələri ərazisində gəlir əldə edilən Razılığa gələn Tərəfin vergi qanunvericiliyinə və xarici valyuta mübadiləsi qaydalarına uyğun həyata keçirilməlidir. Belə pul köçürmələri rəsmi mübadilə məzənnəsi ilə, rəsmi mübadilə məzənnəsi olmadıqda isə belə ödənişlər üçün üstünlük təşkil edən bazar məzənnəsi ilə həyata keçirilməlidir.

3. Razılığa gələn Tərəflər arasında gəlir və əmlak vergilərinə münasibətdə ikiqat vergitutmanın qarşısının alınması haqqında xüsusi saziş qüvvədə olarsa, onun müddəaları əsas götürüləcəkdir.

Maddə 15

Tariflər

1. Razılığa gələn hər bir Tərəf bu Sazişə müvafiq olaraq həyata keçirilən beynəlxalq hava daşımaları tarifləri haqqında bildirişin özünün aviasiya hakimiyyəti orqanlarına göndərilməsini və ya onların qeydiyyatdan keçirilməsini tələb edə bilər.

2. Razılığa gələn hər bir Tərəfdə qüvvədə olan müvafiq rəqabət və istehlakçıların müdafiəsi haqqında qanunlara xələl gətirmədən, Razılığa gələn Tərəflərin müdaxiləsi aşağıdakılarla məhdudlaşacaqdır:

a) məntiqəuyğun olmayan ədalətsiz qiymətlərin və ya praktikanın qarşısının alınması;

b) əlverişli mövqedən və ya daşıyıcılar arasında müvafiq təcrübədən sui-istifadə edərək ədalətsiz yüksək və ya ədalətsiz məhdudlaşdırıcı qiymətlərdən istehlakçıların müdafiə edilməsi;

c) birbaşa və ya vasitəli hökumət subsidiyası və ya maliyyə yardımı nəticəsində süni yolla endirilən qiymətlərdən aviasiya şirkətinin müdafiə edilməsi.

3. Razılığa gələn Tərəflərdən heç biri Razılığa gələn iki Tərəfin əraziləri arasında beynəlxalq hava əlaqəsinin yerinə yetirilməsi üçün Razılığa gələn Tərəflərdən hər hansı birinin təyin edilmiş aviaşirkətləri tərəfindən dəyişdirilən və ya dəyişdirilmək üçün təklif edilən tariflərin tətbiq edilməsinin və ya tətbiqinin davam etdirilməsinin qarşısını almaq üçün birtərəfli tədbirlər görməyəcəklər. Razılığa gələn Tərəflərdən hər hansı biri hər hansı belə tarifin bu maddədə qeyd edilən müddəalara müvafiq olmadığına inanarsa, tarif haqqında məlumat alındığı tarixdən 14 gün müddətində Razılığa gələn digər Tərəfə bəyənilməmə barədə bildiriş göndərəcəkdir. Belə məsləhətləşmələr tələb alındıqdan sonra 14 gündən gec olmamaqla keçiriləcəkdir. Qarşılıqlı razılıq əldə edilməzsə, tariflər qüvvəyə minəcək və ya qüvvədə qalmaqda davam edəcəkdir.

Maddə 16

Vaxt cədvəlinin təqdimi

1. Razılığa gələn bir Tərəfin təyin etdiyi aviasiya şirkətləri uçuşlara başlamazdan ən azı otuz (30) gün əvvəl Razılığa gələn digər Tərəfin aviasiya hakimiyyəti orqanlarına daşıma proqramlarını (yay və qış dövrləri üçün) təsdiq olunmaq üçün təqdim edəcəkdir. Proqrama, əsasən, cədvəllər, uçuşların tezliyi və istismar ediləcək hava gəmilərinin

növləri daxil edilməlidir. Aviasiya hakimiyyəti orqanları müvafiq aviasiya şirkətinin öz proqramını təsdiq etmək üçün təqdim etdiyi tarixdən iyirmi (20) gün ərzində bu cür daşıma proqramları haqqında öz qərarını verəcəkdir.

2. Daşıma proqramlarındakı hər bir dəyişiklik, habelə əlavə uçuşların həyata keçirilməsi məqsədilə icazələr üçün müraciətlər, habelə Razılığa gələn bir Tərəfin təyin etdiyi aviasiya şirkətləri tərəfindən Razılığa gələn digər Tərəfin aviasiya hakimiyyəti orqanlarına təsdiq edilməsi üçün təqdim edilməlidir. Dəyişikliklər və ya əlavə uçuşlar üçün müraciətlər bu cür uçuşlar yerinə yetirilməzdən ən azı üç (3) iş günü əvvəl təqdim edilməli və aviasiya hakimiyyəti orqanları tərəfindən gecikdirilmədən baxılmalıdır.

Maddə 17

Statistikanın təmini

Razılığa gələn hər iki Tərəfin aviasiya hakimiyyəti orqanları razılaşdırılmış xidmətlərdə həyata keçirilən daşımalara dair dövri statistika və ya digər oxşar məlumatlarla xahiş əsasında bir-birini təmin edəcəklər.

Maddə 18

Məsləhətləşmələr

Razılığa gələn Tərəflərdən biri bu Sazişin yerinə yetirilməsi, təfsiri, tətbiq edilməsi və ya ona düzəlişlər edilməsinə dair məsləhətləşmələrin keçirilməsini istənilən vaxt tələb edə bilər. Aviasiya hakimiyyəti orqanları arasında keçirilə bilən həmin məsləhətləşmələr Razılığa gələn Tərəflər digər şəkildə razılığa gəlməmişlərsə, mümkün qədər qısa müddət ərzində, Razılığa gələn digər Tərəfin yazılı tələbi aldığı tarixdən altmış gündən gec olmayaraq başlayacaqdır. Bu cür məsləhətləşmələr zamanı Razılığa gələn hər bir Tərəf məlumatlı, səmərəli və iqtisadi qərarların çıxarılması üçün öz mövqeyini müdafiə edərək, müvafiq sübut hazırlayaraq təqdim edəcəkdir.

Maddə 19

Mübahisələrin həlli

1. Əgər Razılığa gələn Tərəflər arasında bu Saziş əsasındakı hər hansı mübahisə birbaşa danışıqlar və ya diplomatik kanallar vasitəsilə həll oluna bilməzsə, Razılığa gələn Tərəflərdən birinin tələbi ilə Arbitraj Məhkəməsinə təqdim ediləcəkdir.

2. Bu halda Razılığa gələn hər bir Tərəf bir münsif və iki münsif isə üçüncü Dövlətin vətəndaşı olan Prezidenti təyin edəcəkdir. Əgər Razılığa gələn Tərəflərdən biri öz münsifini təyin etdikdən sonra iki ay müddətində Razılığa gələn digər Tərəf özünün namizədini təyin etməzsə və ya ikinci münsifin təyin edilməsindən sonra bir ay müddətində hər iki münsif Prezidentin təyin edilməsi barədə razılığa gələ bilməzlərsə, Razılığa gələn hər bir Tərəf Beynəlxalq Mülki Aviasiya Təşkilatı Şurasının Prezidentindən lazımi namizədlərin irəli sürülməsinə başlamağı xahiş edə bilər.

3. Arbitraj Məhkəməsi özünün qaydalarını müəyyən edəcək və məhkəmə prosesi ilə əlaqədar xərclərin bölünməsi barədə qərar qəbul edəcəkdir.

4. Razılığa gələn Tərəflər bu maddənin tətbiq edilməsindən irəli gələn hər hansı qərara riayət edəcəklər.

Maddə 20

Dəyişikliklər

1. Razılığa gələn Tərəflərdən hər hansı birinin bu Sazişin müddəalarında etdiyi istənilən dəyişiklik bu Sazişin 18-ci maddəsinə uyğun olaraq məsləhətləşmələrdən sonra həyata keçiriləcəkdir.

2. Bu Sazişə Razılığa gələn hər iki Tərəfin qarşılıqlı razılığı ilə dəyişiklik və əlavələr edilə bilər. Bu cür dəyişiklik və əlavələr bu Sazişin ayrılmaz hissəsi olan ayrıca protokollarla tərtib ediləcək və bu Sazişin 23-cü maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minəcəkdir.

3. Əgər dəyişikliklər yalnız Əlavəyə aiddirsə, bu dəyişikliklər Razılığa gələn hər iki Tərəfin aviasiya hakimiyyəti orqanları arasında birbaşa razılaşdırılacaq və aviasiya hakimiyyəti orqanları tərəfindən razılaşdırıldığı tarixdən qüvvədə olacaqdır.

4. Razılığa gələn hər iki Tərəfə münasibətdə ümumi çoxtərəfli konvensiya qüvvəyə minərsə, həmin konvensiyanın müddəaları üstünlük təşkil edəcəkdir. Göstərilən çoxtərəfli konvensiyanın müddəalarının bu Sazişə təsir göstərəcəyi həddi müəyyənləşdirmək məqsədilə bu Sazişin 18-ci maddəsinə uyğun olaraq məsləhətləşmələr keçirilə bilər.

Maddə 21

Ləğv edilmə

1. Razılığa gələn hər bir Tərəf bu Sazişi ləğv etmək qərarı barədə istənilən vaxt Razılığa gələn digər Tərəfə yazılı bildiriş göndərə bilər. Həmin bildiriş eyni zamanda Beynəlxalq Mülki Aviasiya Təşkilatına da təqdim ediləcəkdir.

2. Bu Saziş, bildirişin Razılığa gələn digər Tərəfdən alındığı tarixdən sonra 12 ay müddətində vaxt cədvəli dövrünün sonunda, bu müddət başa çatmazdan əvvəl qarşılıqlı razılıqla bildiriş geri götürülməzsə, ləğv ediləcəkdir.

3. Razılığa gələn digər Tərəfin bildirişi aldığı təsdiq olunmadıqda, bildiriş Beynəlxalq Mülki Aviasiya Təşkilatı tərəfindən alındıqdan 14 gün sonra alınmış hesab ediləcəkdir.

Maddə 22

Qeydiyyat

Bu Saziş və ona dair bütün düzəlişlər Beynəlxalq Mülki Aviasiya Təşkilatında qeydiyyata alınacaqdır.

Maddə 23

Qüvvəyə minmə

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan bütün dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Razılığa gələn Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bunun təsdiqi olaraq, öz Hökumətləri tərəfindən lazımi qaydada səlahiyyətləndirilmiş aşağıda imza edənlər bu Sazişi imzaladılar.

Bu Saziş Bakı şəhərində 2007-ci il 9 oktyabr tarixində iki əsl nüsxədə Azərbaycan, alman və ingilis dillərində imzalanmışdır. Bütün mətnlər bərabər autentikdir. Sazişin təfsirində, həyata keçirilməsində və ya tətbiqində hər hansı fikir ayrılığı olduğu halda, ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	İSVEÇRƏ FEDERAL ŞURASI ADINDAN
ELMAR MƏMMƏDYAROV *Xarici işlər naziri*	*MORİTZ LEUNBERQER* *Ətraf Mühit, Nəqliyyat, Energetika və Rabitə üzrə Federal Departamentinin rəhbəri*

ƏLAVƏ

MARŞRUTLARIN QRAFİKİ

1. Azərbaycan Respublikasının təyin edilmiş aviasiya şirkətləri tərəfindən hər iki istiqamətdə istismar olunacaq marşrutlar:

Çıxış məntəqəsi	Aralıq məntəqələr	Təyinat məntəqələri	İsveçrənin ərazisindən kənarda olan məntəqələr
Azərbaycan Respublikasındakı istənilən məntəqələr	üçüncü ölkələrdəki istənilən məntəqələr	İsveçrədəki istənilən məntəqələr	üçüncü ölkələrdəki istənilən məntəqələr

2. İsveçrənin təyin edilmiş aviasiya şirkətləri tərəfindən hər iki istiqamətdə istismar olunacaq marşrutlar:

Çıxış məntəqəsi	Aralıq məntəqələr	Təyinat məntəqələri	Azərbaycan Respublikasından kənarda olan məntəqələr
İsveçrədəki istənilən məntəqələr	üçüncü ölkələrdəki istənilən məntəqələr	Azərbaycan Respublikasındakı istənilən məntəqələr	üçüncü ölkələrdəki istənilən məntəqələr

Qeydlər:

1. Aralıq məntəqələr və Razılığa gələn Tərəflərin ərazilərindən kənarda olan məntəqələr istənilən sahədə buraxıla bilər.

2. Razılığa gələn hər iki Tərəfin təyin edilmiş aviasiya şirkətləri aralıq məntəqələrə və kənarda olan məntəqələrə kommersiya hüquqlarından istifadə etmədən xidmət göstərəcəklər.

3. Aralıq məntəqələrə və kənarda olan məntəqələrə daşımaları həyata keçirmək hüququ (5-ci hava sərbəstliyi hüququnun istifadəsi) Razılığa gələn Tərəflərin aviasiya hakimiyyəti orqanları arasında ayrıca razılaşma mövzusu olacaqdır.

"Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında maliyyə əməkdaşlığı haqqında" Sazişin (AzDRES-İmişli elektrik veriliş xəttinin tikintisi, 2005-ci il üzrə xüsusi öhdəlik) təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. 2007-ci il iyunun 27-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında maliyyə əməkdaşlığı haqqında" Saziş (AzDRES - İmişli elektrik veriliş xəttinin tikintisi, 2005-ci il üzrə xüsusi öhdəlik) təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 dekabr 2007-ci il

№499-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında maliyyə əməkdaşlığı haqqında Saziş

(AzDRES-İmişli elektrik veriliş xəttinin tikintisi, 2005-ci il üzrə xüsusi öhdəlik)

Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti,

Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasında mövcud dostluq əlaqələri ruhunda,

bu dostluq əlaqələrinin tərəfdaşlığa əsaslanan maliyyə əməkdaşlığı vasitəsilə daha da möhkəmləndirilməsini və dərinləşdirilməsini arzulayaraq,

bu əlaqələrin dəstəklənməsi bu Sazişin əsasını təşkil etdiyini dərk edərək,

Azərbaycan Respublikasının sosial və iqtisadi inkişafına kömək məqsədilə,

15 dekabr 2005-ci il tarixli notaya istinadən və 2004-cü ilin 24-26 aprel tarixlərində Bakı şəhərində Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında keçirilmiş 2004-2005-ci illər üzrə inkişaf naminə əməkdaşlığa dair hökumətlərarası danışıqlara istinad edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

1. Yoxlamadan sonra "AzDRES-İmişli elektrik veriliş xəttinin tikintisi" layihəsinin dəstəklənməsinin zəruriliyi müəyyən edilərsə və Azərbaycan Respublikasının bundan sonra da kredit almağa qabilliyi mövcud olarsa, Almaniya Federativ Respublikası Hökuməti Azərbaycan Respublikası Hökumətinə bu layihə üçün Kreditanştalt für Widerаubau (KfW) Bankından 30.000.000 avroya qədər (otuz milyon avro) sərfəli şərtlə kredit almaq imkanını yaradır.

2. Almaniya Federativ Respublikası Hökuməti Azərbaycan Respublikası Hökumətinə gələcəkdə KfW Bankından 1-ci bənddə göstərilmiş layihələri hazırlamaq məqsədilə digər ssuda və ya maliyyə qrantları və ya 1-ci bənddə göstərilmiş layihələrin həyata keçirilməsi və dəstəklənməsi üçün zəruri olan müşayiətedici tədbirləri görmək məqsədilə digər maliyyə qrantlarını almaq imkanını yaradarsa, bu Saziş tətbiq edilir.

Maddə 2

1. Bu Sazişin 1-ci maddəsində göstərilən məbləğlərin istifadəsi, onların verilmə şərtləri, habelə sifarişlərin yerləşdirilməsi prosedurları Almaniya Federativ Respublikasında qüvvədə olan qanunvericiliyə müvafiq olaraq KfW Bankı və borcalan arasında imzalanacaq müqavilələrlə müəyyən edilir.

2. Azərbaycan Respublikası Hökuməti, əgər özü bilavasitə maliyyə qrantı alan tərəf deyilsə, müvafiq qaydada imzalanacaq 1-ci bənddə göstərilən maliyyələşdirmə müqavilələri ilə əlaqədar yarana biləcək məbləğlərin geriyə qaytarılması üzrə mümkün iddialar üçün KfW Bankına zəmanət verir.

Maddə 3

1. Azərbaycan Respublikası Hökuməti KfW Bankını bu Sazişin 2-ci maddəsində göstərilən müqavilələrin bağlanması və həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasında tutulan bütün vergi və digər dövlət yığımlarından azad edir.

2. Azərbaycan Respublikası Hökuməti ssudanın və maliyyə qrantının verilməsi ilə əlaqədar şəxslərin və yüklərin dəniz, quru və hava nəqliyyatı ilə daşınmasında nəqliyyat şirkətlərinin sərbəst seçimini sərnişinlərin və malgöndərənlərin ixtiyarına buraxır, Almaniya Federativ Respublikasında qeydiyyatda olan nəqliyyat müəssisələrinin bərabərhüquqlu iştirakını istisna edən və ya mürəkkəbləşdirən heç bir tədbir görmür, lazım olduğu təqdirdə bu nəqliyyat müəssisələrinin iştirakı üçün tələb olunan icazələri verir.

Maddə 4

Bu Saziş Azərbaycan Respublikası Hökuməti Almaniya Federativ Respublikasının Hökumətini Sazişin qüvvəyə minməsi üçün lazımi dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə bildirdiyi tarixdən qüvvəyə minir. Bildirişin alındığı vaxt müvafiq tarixdir.

Bakı şəhərində 2007-ci il iyunun 27-də hər biri Azərbaycan və alman dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, hər iki mətn eyni hüquqi qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

SAMİR ŞƏRİFOV
Maliyyə naziri

ETİBAR PİRVERDİYEV
"Azərenerji" ASC-nin prezidenti

ALMANİYA FEDERATİV RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

HANS JOZEF OVER
Almaniyanın Azərbaycandakı səfirliyinin iqtisadi məsələlər üzrə nümayəndəsi

"Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və İtaliya Respublikasının İqtisadi İnkişaf Nazirliyi arasında təbii qaz sektorunda əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və İtaliya Respublikasının İqtisadi İnkişaf Nazirliyi arasında təbii qaz sektorunda əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə İtaliya Respublikasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 dekabr 2007-ci il

№2530

Azərbaycan Respublikası və Fransa Respublikası arasında 2007-ci il yanvarın 30-da Paris şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Fransa Respublikası arasında 2007-ci il yanvarın 30-da Paris şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Fransa Respublikası Mədəniyyət və Kommunikasiya Nazirliyi arasında Əməkdaşlıq Memorandumu;

1.3. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Fransa Respublikası Mədəniyyət və Kommunikasiya Nazirliyi arasında muzey işi sahəsində əməkdaşlığa dair Protokol;

1.4. Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Fransa Respublikası Əmək, Sosial Bərabərlik və Yaşayış Nazirliyi arasında qarşılıqlı əməkdaşlıq haqqında İnzibati Razılaşma;

1.5. Milli Elmi Araşdırmalar Mərkəzi (Fransa) və Azərbaycan Milli Elmlər Akademiyası (Azərbaycan) arasında elmi əməkdaşlıq Sazişi.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1.1-ci-1.4-cü bəndlərində göstərilən sazişlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Milli Elmlər Akademiyası bu Sərəncamın 1.5-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-ci və 1.2-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Fransa Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 mart 2007-ci il

№2043

Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Fran Respublikası Hökuməti, iki dövlət arasında turizm sahəsində əməkdaşlığı inkişaf etdirmək qayğısı ilə, bu sahədə səmərəli əməkdaşlıq yaratmağın qarşılıqlı və uzunmüddətli marağı ilə, turizmin inkişafı sayəsində, hər iki ölkənin xalqları arasında dostluq münasibətləri yaratmaq və yaxınlaşdırmaq fikri ilə, turizm və beynəlxalq səyahət sahəsində BMT Konfransının, eyni zamanda ATƏT-in Helsinki Yekun Aktının prinsiplərini və Ümumdünya Turizm Təşkilatının tövsiyələrini nəzərə alaraq, birgə razılıq əsasında aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər hər iki dövlətin xalqına öz mədəni irsləri və dövlətlərində mövcud olan tarixi abidələr və turizm zənginliklərinə aid informasiya əldə olunmasına imkan yaratmaq məqsədilə turizm sahəsində əməkdaşlığın inkişafına səy göstərəcəklər.

Maddə 2

Tərəflər, mövcud qanunvericiliklərinə uyğun olaraq, hər iki dövlətin vətəndaşlarının hər iki istiqamətə olan turist səyahətlərini dəstəkləyirlər.

Tərəflər, özlərinin qarşılıqlı maraqlarına əsasən, hər iki dövlətin turizm yerlərini daha yaxşı tanıtmaq məqsədi daşıyan turizm ekspertlərinin, jurnalistlərin və televiziya qruplarının səyahətlərini təşviq edirlər.

Maddə 3

Tərəflər, qanunvericiliklərinə uyğun olaraq, hər iki dövlət arasında turizm mübadilələrinə aid olan prosedurları sadələşdirməyə və öz ölkələrinin ərazilərində vacib təhlükəsizlik şərtlərinə zəmanət verməyə səy göstərəcəklər.

Maddə 4

Tərəflər təşviqat və statistika sənədləri və festivallara və turizmə aid olan məlumat mübadiləsi aparacaqlar.

Maddə 5

Tərəflər turizm fəaliyyətlərinin inkişafını, hər iki istiqamətdə turizm agentlikləri ara-

sında əməkdaşlığın möhkəmləndirilməsini, fərdi və kollektiv səyahətləri dəstəkləyəcəklər.

Maddə 6

Tərəflər yeni turizm turları təşkil etmək məqsədilə turizm ofisləri arasında əməkdaşlığı dəstəkləyəcəklər.

Maddə 7

Tərəflər turizm sahəsində çalışan personalların təkmilləşməsini, turizm sahəsində mütəxəssislərin mübadiləsini və turizm sektorunda investisiya layihələrini dəstəkləyəcəklər.

Maddə 8

Fransa Tərəfi Azərbaycan Tərəfinin müəyyən etdiyi bir turizm məkanının turistik dəyərləndirilmə sxemini tərtib edəcəkdir.

Fransa Tərəfi Azərbaycan Tərəfinə Avropa Şurasının "Mədəniyyət Marşrutu" adlı proqramının "Aleksandr Düma Qafqazda" adlı layihəsi çərçivəsində yeni turizm məhsulunun yaradılmasında kömək edəcəkdir.

Maddə 9

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Fransa Respublikasının Turizm Nazirliyi bu Sazişin icrasına zəmanət verirlər.

Maddə 10

Hər iki Tərəfin səlahiyyətli nümayəndələri birgə komissiyalar çərçivəsində bu Sazişin müddəalarının həyata keçirilməsini müzakirə edəcəklər. Bu Sazişə əsaslanaraq keçiriləcək fəaliyyətlər, həmçinin ekspertiza missiyaları, xahiş edən Tərəfin hesabına aparılacaqdır.

Maddə 11

Bu Sazişə, Tərəflərin razılığı ilə, əlavələr, qoşmalar və düzəlişlər edilə bilər.

Bu əlavə və düzəlişlər, bu Sazişin ayrılmaz hissəsi olan protokolla təsdiq olunacaqdır. Bu protokolun qüvvəyə minməsi Sazişin qüvvəyə minməsi prosedurları ilə eyni olacaqdır.

Maddə 12

Saziş, Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında sonuncu yazılı bildirişi alması anından etibarən qüvvəyə minir. Saziş 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən birinin bu Sazişin bitməsindən 6 (altı) ay əvvəl onun ləğvi haqqında yazılı bildirişi olmadığı təqdirdə, yenidən həmin müddətə uzadılacaqdır.

Bu Saziş Parisdə 2007-ci il 30 yanvar tarixində hər biri Azərbaycan və fransız dillərində olmaqla iki nüsxədə imzalanmışdır. Hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

ELMAR MƏMMƏDYAROV
Xarici işlər naziri

FRANSA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN

İV BERTRAN
Turizm naziri

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Fransa Respublikası Mədəniyyət və Kommunikasiya Nazirliyi arasında Əməkdaşlıq Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Fransa Respublikası Mədəniyyət və Kommunikasiya Nazirliyi, Azərbaycanın və Fransanın tarixi və mədəni dəyərlərinin zənginliyini nəzərə alaraq, müasir yaradıcılığı dəstəkləməyi arzulayaraq və öz mədəniyyətlərinin qarşılıqlı öyrənilməsini vacib hesab edərək, Hal-hazırda YUNESKO-nun mədəni müxtəlifliyinin qorunması və inkişafı konvensiyası sayəsində beynəlxalq hüquqa uyğun olaraq, ikitərəfli münasibətlərdə mədəniyyətlərarası dialoqun rolunun vacibliyindən əmin olaraq, milli mədəniyyətlərinin müxtəlifliyini qorumağa cəhd edərək və onların qorunması və inkişafı üçün Dövlətlərin xüsusi məsuliyyətini etiraf edərək, mədəniyyət sahəsində əməkdaşlığı inkişaf etdirməyi arzulayaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər mədəniyyət siyasətləri sahəsində informasiya mübadiləsi və dialoq qurmağa səy göstərirlər.

Maddə 2

Tərəflər hər iki dövlətin musiqi, teatr, ənənəvi incəsənət sahələrində təşkil etdiyi mədəni tədbirlərdə iştirak edən bədii ansambl və fərdi artist mübadilələrini dəstəkləyirlər. Onlar hər iki dövlət tərəfindən təşkil olunmuş böyük beynəlxalq musiqi, vizual incəsənət və teatr festivallarına xüsusi diqqət yetirirlər.

Maddə 3

Tərəflər aşağıdakı sahələrdə mütəxəssis mübadilələrinə nail olurlar: musiqi, teatr, təsviri sənət, kino, abidələrin qorunması və bərpası, kitabxanalar, muzeylər və mədəni tədbirlər.

Maddə 4

Tərəflər konfrans və simpoziumlarda hər iki dövlət arasında mədəniyyət və incəsənət sahələrinin mütəxəssisləri arasındakı mübadilələri dəstəkləyirlər.

Maddə 5

Tərəflər mədəniyyətin idarə edilməsi və maliyyələşdirilməsi sahəsində mütəxəssislər arasında təcrübə mübadilələrini dəstəkləyirlər.

Maddə 6

Tərəflər hər iki dövlətdə keçirilən mədəni tədbirlərin təşkili üçün digər tərəfə kömək edəcəklər.

Maddə 7

Tərəflər abidələrin və mədəni məkanların qorunma, bərpa, konservasiya və regenerasiyası sahələrində, xüsusilə Avropa Şurasının Fransanın donor olduğu "Kiyev təşəbbüsü" proqramı çərçivəsində təhsil və ekspertiza yolu ilə əməkdaşlıq edəcəklər.

Maddə 8

Tərəflər kitabxana və nəşriyyat sahələrində əməkdaşlıq edirlər.

Maddə 9

Tərəflər sərgilər və sənətkar mübadiləsi yolu ilə incəsənət sahəsində əməkdaşlığın inkişafına yardım edirlər.

Maddə 10

Tərəflər bu Sazişin əsasında hər iki dövlət arasında mədəni əməkdaşlığın genişləndirilməsi məqsədilə konkret tədbirləri nəzərdən keçirmək üçün fəaliyyətlərinin proqramını tərtib edəcəklər.

Maddə 11

Tərəflər digər tərəfin yazılı razılığı əsasında bu Anlaşma Memorandumuna düzəlişlər və ya əlavələr edə bilərlər. Bu düzəliş və əlavələr bu Sazişin ayrılmaz hissəsi olan əlavə protokolla təsdiq olunacaq və bu Sazişin 12-ci maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minəcəkdir.

Maddə 12

Bu Saziş beş (5) il müddətinə bağlanılır və Tərəflərin hər birinin zəruri dövlətdaxili prosedurları yerinə yetirmələrindən sonra, diplomatik yolla göndərilən sonuncu yazılı bildirişin alınma tarixindən etibarən qüvvəyə minir.

Sazişin bitməsinə altı (6) ay qalmış Tərəflərdən birinin bu Sazişin ləğvi haqqında yazılı bildirişi olmazsa, bu Saziş yenidən beş (5) il müddətinə uzadılacaqdır.

Bu Saziş 2007-ci il 30 yanvar tarixində Paris şəhərində hər biri Azərbaycan və fransız dillərində imzalanmışdır. Hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ ADINDAN	FRANSA RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ KOMMUNİKASİYA NAZİRLİYİ ADINDAN
ELMAR MƏMMƏDYAROV *Xarici işlər naziri*	*FİLİP DÜ BLAZİ* *Xarici işlər naziri*

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Fransa Respublikası Mədəniyyət və Kommunikasiya Nazirliyi arasında muzey işi sahəsində əməkdaşlığa dair Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Fransa Respublikası Mədəniyyət və Kommunikasiya Nazirliyi, hər iki Dövlət arasında tarixi və mədəni əməkdaşlıq ənənələrini nəzərə alaraq, daşınar mədəni

mülkiyyətlərin qorunması məqsədilə hər iki dövlət arasında muzey işi sahəsində əməkdaşlığı gücləndirməyi və inkişaf etdirməyi arzulayaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər muzey işi sahəsində aparılan mədəniyyət siyasəti üzrə məlumat və təcrübə mübadiləsi aparacaqlar.

Maddə 2

Tərəflər hər iki dövlətin muzeyləri arasında əməkdaşlığı bərpa etməyə və gücləndirməyə səy göstərəcəklər.

Maddə 3

Tərəflər muzey işi sahəsində, təlimi dəstəkləmək məqsədilə mübadilələr təşkil edəcəklər (azərbaycanlı muzey işi mütəxəssisləri Fransa Respublikası Mədəniyyət və Kommunikasiyalar Nazirliyinin xarici mədəniyyət mütəxəssislərinin qəbulu siyasəti çərçivəsində təşkil olunan tədris kurslarında iştirak edə bilərlər).

Maddə 4

Tərəflər muzey işi sahəsində, xüsusilə muzey kolleksiyalarının konservasiyası metodları, mədəni daşınar dəyərlərin bərpası və qorunması, mesenatların idarəetmə metodları və axtarışı üzrə seminarlar təşkil edəcəklər.

Maddə 5

Tərəflər sərgilərin təşkilini asanlaşdırmağa səy göstərəcəklər.

Qarşılıqlı sərgilərin təşkili (müddət, sərgi eksponatlarının daşınma xərcləri, müşayiətçilərin xərcləri, gömrük və anbar xərcləri, təhlükəsizlik və sığorta) hər iki Tərəfin müvafiq orqanları arasında razılaşdırılacaq və xüsusi protokolla təsdiq olunacaqdır.

Maddə 6

Tərəflər digər tərəfin yazılı bildirişi əsasında bu Protokola əlavə və ya düzəlişlər edə bilərlər. Bu dəyişikliklər bu Protokolun ayrılmaz hissəsi olan əlavə protokolla təsdiq olunacaq və Protokolun 7-ci maddəsinə əsasən qüvvəyə minəcəkdir.

Maddə 7

Bu Protokol imzalandığı andan qüvvəyə minir, üç (3) il müddətinə bağlanılır və digər Tərəfin bu Protokolun müddətinin bitməsindən altı (6) ay əvvəl onun ləğvi haqqında yazılı bildirişi olmadığı təqdirdə, yenidən həmin müddətə uzadılacaqdır.

Bu Protokol 2007-ci il 30 yanvar tarixində Paris şəhərində hər biri Azərbaycan və fransız dillərində imzalanmışdır. Hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ ADINDAN	FRANSA RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ KOMMUNİKASİYA NAZİRLİYİ ADINDAN
ELMAR MƏMMƏDYAROV *Xarici işlər naziri*	*FİLİP DÜ BLAZİ* *Xarici işlər naziri*

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Fransa Respublikası Əmək, Sosial Bərabərlik və Yaşayış Nazirliyi arasında qarşılıqlı əməkdaşlıq haqqında İnzibati Razılaşma

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Fransa Respublikası Əmək, Sosial Bərabərlik və Yaşayış Nazirliyi (bundan sonra "Tərəflər" adlandırılacaq) hər iki Dövlət arasında dostluq və əməkdaşlıq əlaqələrini inkişaf etdirməyi arzulayaraq, ailə, qadınların vəziyyəti, kişi və qadın bərabərliyi sahəsində aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Sahələr

Əməkdaşlıq və mübadilənin əsas sahələri aşağıdakılara aid olacaq:

ailə planlaması;

Qadın və kişilər arasında bərabərlik üçün fəaliyyət və siyasət büdcəsi;

məcburi nikaha qarşı mübarizə və onun qarşısının alınması.

Maddə 2

Vasitələr

Bu əməkdaşlıq əsasən aşağıdakılardan ibarət ola bilər:

Ailə planlaması, qadın və kişilər arasında bərabərlik üçün fəaliyyət və siyasət büdcəsinin tərtibi və icrası, məcburi nikaha qarşı mübarizə və onun qarşısının alınması siyasəti sahələrində hər iki dövlət tərəfindən aparılan milli siyasət üzrə aidiyyəti inzibati qurumların ekspert və məmurları arasında məlumat, təcrübə və bilik mübadiləsi;

zəruri olduqda, başqa birgə maraq mövzularına dair məlumat mübadiləsi.

Maddə 3

Tətbiq

İki illik müddətə imzalanan bu Razılaşma hər iki Tərəfin yazılı razılıq mübadiləsi əsasında yenidən uzadıla bilər.

Fəaliyyətlərin hazırlığı, nəzarəti və qiymətləndirilməsi Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Beynəlxalq Əlaqələr şöbəsinə və Fransa Respublikası Əmək, Sosial Bərabərlik və Yaşayış Nazirliyinin Avropa və beynəlxalq işlər üzrə nümayəndəliyinə həvalə olunacaqdır.

Hər iki Tərəf bu proqramların icrasını yaxşılaşdırılması məqsədilə maddi, humanitar və texniki, o cümlədən Avropa miqyasında vəsaitlərin və yolların axtarılması üzrə razılığa gəlirlər.

Maddə 4

Yekun müddəalar

Bu İnzibati Razılaşma imzalandığı gündən etibarən qüvvəyə minir.

Bu Razılaşmaya dəyişikliklər və əlavələr hər iki Tərəfin razılığı ilə edilə bilər.

Parisdə, hər biri Azərbaycan və fransız dillərində olmaqla, iki nüsxədə tərtib olunmuşdur və hər iki mətn eyni qüvvəyə malikdir.

İki nüsxədə 2007-ci il 30 yanvar tarixində Paris şəhərində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ ADINDAN	FRANSA RESPUBLİKASININ ƏMƏK, SOSİAL BƏRABƏRLİK VƏ YAŞAYIŞ NAZİRLİYİ ADINDAN
HİCRAN HÜSEYNOVA	*KATRİN DOTRİN*
Komitəsinin sədri	*Əmək, sosial bərabərlik və yaşayış naziri*

Milli Elmi Araşdırmalar Mərkəzi (Fransa) və Azərbaycan Milli Elmlər Akademiyası (Azərbaycan) arasında elmi əməkdaşlıq Sazişi

Bundan sonra "Tərəflər" adlandırılacaq bir tərəfdən, Michel Ange küçəsi 3, Paris - 75016 ünvanında yerləşən, Prezidenti Akademik Xanım Katerin Breşiynak və Baş direktoru Cənab Arnold Migü tərəfindən təmsil olunan ictimai elmi və texniki mərkəz, Milli Elmi Araşdırmalar Mərkəzi (MEAM), digər tərəfdən, İstiqlaliyyət küçəsi 10, Bakı şəhəri Az 1001 ünvanında yerləşən, bundan sonra AMEA adlandırılacaq Prezidenti Akademik Cənab Mahmud Kərim oğlu Kərimov tərəfindən təmsil olunan Azərbaycan Milli Elmlər Akademiyası, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə I

Ümumi müddəalar

1. Bu Müqavilənin məqsədi Tərəflərə bağlı olan elmi heyət və tədqiqatçılar arasında elmi əməkdaşlığı inkişaf etdirmək, dərinləşdirmək və onların təchizatlarından birlikdə istifadə etməyə imkan yaratmaqdır.

Beləliklə, Tərəflər informasiya və elmi məlumatların mübadiləsini və hər iki dövlətin araşdırmaçıları arasında birgə elmi görüşlərin və dərnəklərin təşkilini dəstəkləməyi arzu edirlər.

I.2. Tərəflər onların tədqiqat qurumları arasında hər iki ildə bir dəfə edilən təkliflər çərçivəsində, yeni tədqiqatçıların cəlb edilməsini üstün tutaraq, araşdırmaçılar mübadiləsini dəstəkləmək barədə razılığa gəlirlər.

I.3. I.2 maddəsində göstərilən təkliflərdən başqa, Tərəflər MEAM və AMEA qurumları tərəfindən təklif edilən və hər iki Tərəfin qiymətləndirilməsini və dəstəyini qazanan Beynəlxalq Elmi Əməkdaşlıq Layihələrini (BEƏL), Beynəlxalq Laboratoriyalar Şəbəkəsini (BLŞ) və Beynəlxalq Araşdırma Qrupunun (BAQ) yaradılması ilə öz əməkdaşlıq fəaliyyətlərinin qurulması barədə razılığa gəlirlər.

Maddə II

Prosedurlar

1. Tərəflər, I.2 maddəsində göstərildiyi kimi, tədqiqatçı mübadilələrinin, hər iki ildən bir edilən təklifə çağırışın köməyilə həyata keçirilməsi barədə razılığa gəlirlər. Layihələrin iki illik müddəti vardır; onlar yalnız bir dəfə yenilənə bilər.

Partnyor tədqiqat qrupları, mütəmadi olaraq, hər iki ildən bir, 1 iyun və 30 sentyabr tarixləri arasında MEAM və AMEA-ya müştərək tədqiqat layihələrini təqdim etməlidirlər.

Hər bir Tərəfin nümayəndələrindən ibarət olan birgə seçki komitəsi, növbə ilə MEAM-da və AMEA-da toplaşır. Birgə seçki komitəsi layihələrə öz münasibətini bildirir və onların elmi keyfiyyətinə və hər il müəyyən edilən büdcə əsasında birgə layihələri seçir.

Seçilmiş hər br layihə çərçivəsində araşdırmaçıların missiyası 1 və 4 həftə müddətində ola bilər.

Hər il mərhələnin qısa hesabatı tərtib olunmalıdır. Qruplar hər iki ildən bir tam hesabat vermək barədə öhdəlik götürürlər.

Büdcə tapşırığının icrası zamanı istifadə olunmayan illik məbləğin qalıqları növbəti ilin büdcə tapşırığının üzərinə əlavə edilmir.

Bu Sazişdən faydalanan araşdırmaçılar, onların qəbul laboratoriya(lar)ından başlayaraq inzibati binaya qədər aid olduqları təşkilat tərəfindən təmin olunurlar.

Onların ezamiyyətdə olduqları ölkədə xərclərini ödəmək üçün partnyor təşkilat tərəfindən ezamiyyə haqqı alırlar. Bu kompensasiyanın məbləği iki Tərəf arasında müəyyən edilir və Birgə Komitədə ya da poçtla yazışma vasitəsilə dəyişdirilə bilər.

Bu mübadilələr çərçivəsində Tərəflərdən birinin araşdırmaçılarının qarşılanması və qəbulu üçün digər Tərəfin ilkin razılığı olmalıdır. Əsas təşkilat, əgər mümkündürsə, ezamiyyətin başlanmasından iki və ya ən geci bir ay qabaq aşağıdakı məlumatları verir: soyadı, adı, cinsi, doğum tarixi və yeri, vəzifəsi, təklif edilən gəlmə tarixi və ezamiyyətin nəzərdə tutulmuş müddəti.

Qəbul edən təşkilat öz cavabını ezamiyyətin başlanmasına bir ay qalmış müddətdə bildirir.

II.2. I.3 maddəsində göstərildiyi kimi, BEƏL, BLŞ, BAQ çərçivəsində nəzərdə tutulmuş birgə araşdırmalar, aidiyyəti araşdırma qurumlarının malik olduğu vəsaitlərə əlavə tamamlayıcı vəsaitlərin ayrılmasını əsaslandırır. Bu əməkdaşlıqların tam müddəti üçün hər bir tərəfin ayırdığı maliyyə yardımı qarşılıqlı razılaşma yolu ilə müəyyən olunur.

BEƏL-lər üçün xüsusi konvensiyanın imzalanması lazım deyil, amma əqli mülkiyyət sahəsində onlar bu Sazişin III bəndinə uyğun olaraq nizamlanır.

BLŞ və BAQ-lar haqqında xüsusi konvensiyanın imzalanması mütləqdir.

II.3. Əsas təşkilat, qəzaları və tibbi xərcləri nəzərdə tutan sığorta vasitəsilə öz araşdırmaçılarını ezamiyyət ölkəsində qoruyur. Qəbul edən ölkə vacib olan hər bir kömək üçün xüsusi diqqət ayırır.

II.4. Bu Saziş çərçivəsində qarşılanan şəxslər ümumiyyətlə dərslər, konfrans və hesabatlar, nə də bu qəbildən olan başqa elmi işlər üçün qonorar almırlar. Digər tərəfdən onlar MEAM və AMEA-nın icazəsi olmadan, öz iş proqramlarında nəzərdə tutulan araşdırmalardan kənar ödənişli fəaliyyətlə məşğul ola bilməzlər.

II.5. Araşdırma proqramlarının icrası zamanı təchizatların, material və ya maşınların idxalına zərurət yaranarsa, qəbul edən Tərəf öz Dövlətinin aidiyyəti hökumət qurumlarından qüvvədə olan qanuna əsasən onların vergi və digər hüquqlardan azad olunmasına çalışır.

Maddə III

Nəşrlər, əqli və sənaye mülkiyyəti

Əqli mülkiyyət hüquqlarının qorunması bu Sazişin I əlavəsində qeyd olunan qaydalara əsasən tənzimlənir.

Maddə IV

Yekun müddəalar

Bu Saziş imzalandığı gündən etibarən dörd illik müddət üçün nəzərdə tutulubdur.

Tərəflərdən biri ya da digəri saziş müddəti bitməmişdən altı ay əvvəl Sazişin bitməsi ilə bağlı xəbərdarlıq məktubu və bu məktubun çatması haqqında bildirişlə bərabər qarşı tərəfi məlumatlandırmazsa, Saziş avtomatik olaraq yenidən həmin müddətə bir dəfə uzadılır.

Bu Sazişin müddəaları hər iki Tərəfin razılığı ilə dəyişdirilə və ya tamamlana bilər.

Bu Sazişin şərhində və ya icrasında çətinliklər yaranarsa, Tərəflər çətinliyi dostluq şəraitində aradan qaldırmağa çalışırlar.

Ciddi anlaşılmazlıq zamanı MEAM və AMEA mübahisəni aşağıdakı qaydalara uyğun olaraq arbitraj məhkəməsinə müraciət edirlər: MEAM və AMEA həmin məhkəmənin bir üzvünü seçirlər. Beləliklə, seçilmiş iki şəxs, Fransa və Azərbaycandan başqa, üçüncü bir ölkədən olan şəxsi arbitraj məhkəməsinin sədri kimi seçirlər. Məhkəmə prosedur qaydalarını müəyyən edir və beynəlxalq hüquq qaydalarına uyğun olan qərar qəbul edir. Məhkəmənin qərarlarına heç bir apelyasiya şikayəti mümkün deyildir.

Saziş bitəndən və ya onun ləğvindən sonra, o, onun qüvvədə olduğu zaman imzalanmış olan xüsusi konvensiyaları nizamlamaqda davam edir.

Yuxar.da sadalanan müddəalardan birinin izahatında çətinlik yaranarsa və ya əgər Tərəflər Sazişdə nəzərə tutulmayan yeni problemlərlə üzləşərlərsə, onlar dostluq danışıqları çərçivəsində bu problemləri ən qısa zamanda həll etməyə çalışırlar.

Bu danışıqların nəticəsi olaraq, qəbul edilən qərar bu Sazişə əlavə kimi qəbul edilir.

Bu Saziş imzalandığı gündən qüvvəyə minir.

Bu Saziş dörd nüsxədə, ikisi fransız və ikisi Azərbaycan dilində olmaqla, imzalanır və hər iki dildə eyni hüquqi qüvvəyə malikdir.

Paris şəhəri, 30 yanvar 2007-ci il.

FRANSA MİLLİ ELMİ ARAŞDIRMALAR MƏRKƏZİ ÜÇÜN

KATERİN BREŞİNYAK
Prezident

ARNOLD MİGÜ
Baş direktor

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI ÜÇÜN

MAHMUD KƏRİMOV
Prezident

ƏLAVƏ 1

Milli Elmi Araşdırmalar Mərkəzi (MEAM) və Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) arasında Elmi Əməkdaşlıq Sazişi çərçivəsində həyata keçirilən Birgə araşdırma layihələri və Beynəlxalq Elmi Əməkdaşlıq Layihələri (BEƏL) ilə bağlı əqli mülkiyyət hüquqlarının qorunması və istifadəsi

Preambula - Əlavənin məqsədi

Bu Əlavənin məqsədi Milli Elmi Araşdırmalar Mərkəzi (MEAM) və Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) arasında imzalanmış Elmi Əməkdaşlıq Sazişi çərçivəsində və onun qüvvədə olduğu müddətdə Birgə araşdırma layihələri və Beynəlxalq Elmi Əməkdaşlıq Layihələrinə (BEƏL) tətbiq olunan əqli mülkiyyət hüquqlarının qorunması və istifadəsi müddəalarını dəqiqləşdirməkdir.

Maddə 1

Kommunikasiya

MEAM və AMEA görülən işlər, birgə layihələrin və BEƏL-lərin icrasından alınan nəticələr barədə bir-birinə qarşılıqlı məlumat verirlər ki, bu nəticələrin müdafiəsini təmin etmək üçün birgə qərar qəbul edə bilsinlər.

Maddə 2

Mülkiyyət və nəticələrin müdafiəsi

2.1. Tərəflərdən hər biri bu Saziş imzalanandan sonra əldə etdiyi sertifikatlaşdırılmış və ya sertifikat almamış nəticələrin, həmçinin bu Sazişdən kənar işlərdən alınan nəticələrin mülkiyyətçisi sayılır.

2.2. Sertifikatlaşdırılan və ya sertifikatlaşdırılmayan nəticələr, həmçinin əməkdaşlıq fəaliyyətlərinin nəticəsi olan proqramlar və informasiya bazaları, bunun əksini iddia edən saziş olmazsa, MEAM və AMEA-nın birgə iştirakına görə onların birgə mülkiyyəti sayılır.

2.3. Tərəflər bu nəticələri qorumaq üçün görüləcək bütün tədbir və addımlar barədə razılığa gəlir, həmçinin mümkün olan nəticələri qorumaq üçün sənaye mülkiyyəti hüququna sahib olmaq üçün müraciət edirlər.

2.4. Tərəflərin ölkələrindəki qanunlara zidd olmayaraq, əqli mülkiyyət hüququnu qorumaq üçün edilən müraciət ilk növbədə Fransada fransız tərəfi vasitəsilə, Azərbaycanda isə Azərbaycan tərəfi vasitəsilə hər iki Tərəfin adından edilir.

2.5. Tərəflər bu nəticələri qorumaq üçün Azərbaycan və Fransadan başqa, üçüncü ölkələrdə də əqli mülkiyyət hüququnu qorumağı lazım bilirlərsə, onda onlar birgə razılıq əsasında bunun üçün zəruri olan tədbirləri görürlər.

2.6. Əqli mülkiyyət hüququnu qorumaq üçün müraciət edilən tarixdən sonrakı birinci ay ərzində Tərəflər sənədlərin və əlavələrin surətlərini bir-birilərinə təqdim edirlər.

2.7. Əqli mülkiyyət hüququnu qorumaq üçün edilən istənilən müraciətdə, bu Saziş çərçivəsində həmin nəticələri almaq üçün hər iki Tərəfdən əməyi olan tədqiqatçıların adları, əsas əməliyyatçılara müraciət edəndən sonra ixtiraçı kimi göstərilməlidir.

2.8. Hər iki Tərəfin, özünün elmi axtarış məqsədləri üçün xüsusi müqavilələr çərçivəsində sertifikatlaşdırılmış ya da sertifikat almamış bu nəticələrdən pulsuz istifadə etmək hüququ vardır.

Maddə 3

Nəticələrdən istifadə

3.1. Tərəflər vaxt itirmədən alınan nəticələrin dəyərləndirilməsi üçün bütün lazımi tədbirləri görürlər. Onlar hər iki ölkədə müdafiə olunan əqli mülkiyyət hüququndan istifadə etmənin qaydalarını birgə müəyyən edirlər. Tərəflərdən biri bu dəyərləndirmə missiyasını razılıq əsasında özü, ya da üçüncü tərəfə etibar etməklə yerinə yetirə bilərlər.

3.2. Tərəflər əldə olunan əqli mülkiyyət hüququnun, mümkün olan qədər, kommersiya bazası əsasında və məqsədəuyğun bir müddətdə istifadə olunmasına nəzarət edirlər.

3.3. Nəticələrin istifadəsindən əldə olunan kommersiya gəlirləri, xüsusi bir başqa saziş olmazsa, Tərəflərin qoyduğu maliyyəyə uyğun olaraq bərabər nisbətdə onlar arasında bölünür.

3.4. Saxta sertifikat və birgə mülkiyyət olan proqramın saxta surəti müəyyən edilərsə, Tərəflər saxtalaşdıranı və ya saxtalaşdıranları birgə təqib edəcəklər.

Razılıq əsasında Tərəflərdən biri, xərclər bərabər bölünməklə, təqiblərə başlaya bilər. Əgər Tərəflərdən biri təqiblərdən imtina edirsə, digər Tərəf öz hesabına riski və mənfəəti öz üzərinə götürməklə təqibləri apara bilər.

3.5. Hər bir Tərəf nəticələri almaqda əməyi olan öz əməkdaşlarına, yerli partnyorlarına və işçilərinə əməkhaqqı və kompensasiya verməkdə sərbəstdir.

Maddə 4

Xərclər

4.1. Əqli mülkiyyət hüququnu əldə etmək və onu saxlamaq üçün çəkilən xərclər Fransada fransız tərəfi, Azərbaycanda isə Azərbaycan tərəfi vasitəsilə çəkilir.

4.2. Azərbaycan və Fransadan başqa, üçüncü ölkələrdə bu hüquqların əldə olunmasına və saxlanmasına çəkilən xərclər isə Tərəflərin iştirak payına müvafiq şəkildə bölünərək çəkilir.

Maddə 5

Mühasibat

5.1. Fransa tərəfi və Azərbaycan tərəfi Fransada, Azərbaycanda, ya da üçüncü bir ölkədə əqli mülkiyyət hüququnu əldə etmək və onu saxlamaq üçün çəkilən xərclər barədə hər biri ayrılıqda detallı mühasibat uçotu aparmalıdır.

5.2. Fransa Tərəfi və Azərbaycan tərəfi bu hüquqların istifadəsindən əldə olunan gəlirlər barədə də detallı mühasibat uçotu aparmalıdır.

5.3. Bu hesabların illik vəziyyəti ilə bağlı təsdiq olunmuş sənədləri Tərəflər bir-birilərinə təqdim edirlər.

Maddə 6

İmtina

6.1. Əgər Tərəflərdən biri hər hansı bir xərcdən imtina edirsə, ya da maliyyələşdirməyə qoşulmaq istəmirsə, o, bu barədə dərhal qarşı Tərəfi məlumatlandırır.

Sonuncu, 2.3-cü bəndin şərtlərinə zidd olmadan, təkbaşına və öz hesabına xərcləri ödəyir və proseduru davam etdirir. İmtina edən Tərəf isə bu zaman razılaşmanın icra olunmasına öz dəstəyini verir.

6.2. 6.3-cü bəndə və 6.1-ci bəndin şərtlərinə uyğun olaraq, öz hesabına xərcləri ödəyən və proseduru davam etdirən Tərəf mülkiyyət hüququnun istifadəsindən gələn gəlirləri özündə saxlayır.

6.3. Hər hansı bir əməkdaşlıq fəaliyyətinin başlanmasından qabaq, Tərəflər əqli mülkiyyət hüququnun alınması üçün müraciət edəcəkləri ölkələrin siyahısını birgə tərtib edə bilərlər. Tərəflər belə xüsusi bir razılığa gələ bilərlər ki, əgər onlardan biri bu siyahıdan kənar olan ölkələrdən hər hansı birində əqli mülkiyyət hüququnun alınması üçün müraciətə qoşulmaq istəmirsə, digər Tərəf həmin ölkələrdə əqli mülkiyyət hüququnu ancaq öz adına almağı tələb edə bilər. Bu xüsusi razılaşma ilə, 2-ci maddədə deyilənlərdən başqa, gəlirlərin bölünməsinin xüsusi rejimi təyin oluna bilər.

Maddə 7

Məxfilik - Nəşrlər

7.1. Hər bir Tərəf əməkdaşlıq fəaliyyəti çərçivəsində əldə olunan nəticələri dərc etmək hüququna malikdir. Bununla belə, hər nəşrdən qabaq, Tərəflər bu nəşrin üçüncü tərəfin hüquqlarına zidd olmadığına əmin olmalıdırlar.

7.2. Hər bir Tərəf, mümkün qədər qısa bir zamanda, bir əməkdaşlıq fəaliyyətindən nəticələnən, dərc olunmasını istəmədiyi məlumatları dəqiqləşdirir:

fənn mütəxəssislərinə naməlum olan və ya qanuni yollarla əldə olunması çətin olan məlumatları;

onların məxfiliyi ilə bağlı olan potensial və ya effektiv kommersial dəyər təşkil edən məlumatları;

aidiyyəti olan Dövlətlərin hökumətinin məxfi qalması üçün lazımi tədbir gördükləri məlumatları.

7.3. Hər hansı bir əməkdaşlıq fəaliyyəti çərçivəsində, məxfi xarakterə malik olan məlumatdan faydalanan Tərəf bu məlumatın gizli qalmasına hörmətlə yanaşmalıdır.

7.4. Belə xarakterli hər hansı bir məlumatın Tərəflərdən biri tərəfindən dərci və ya yayılması üçün həmin Tərəf yazılı formada digər Tərəfə icazə almaq üçün müraciət etməlidir.

Həmin məlumatların yayımının tədqiqat işlərində çalışan əməkdaşların və ya dövlət agentlərinin xeyrinə edildiyi zaman bu qayda tətbiq edilmir.

İcazə alınmaq üçün müraciət edilən Tərəf müraciət edən Tərəfə müraciəti aldığı gündən bir aydan gec olmayaraq cavab verməlidir. Bu müddət keçəndən sonra heç bir cavab alınmayıbsa, cavab müsbət sayılır. Bu qayda Sazişin müddətinin bitməsindən sonra 6 aya qədər tətbiq oluna bilər. Bununla belə, bu qayda əqli mülkiyyət sahəsində qanunvericiliyə uyğun olaraq yayılmayan məruzə hazırlayarkən, ya da əməkdaşlıq çərçivəsində görülən işlərlə bağlı elmi iş və ya dissertasiya yazarkən, əməkdaşlıq fəaliyyətlərində iştirak edən MEAM-ın araşdırmaçılarının üzərinə düşən öhdəliklərə mane olmur.

Ehtiyac olarsa, bu işlərin müdafiəsi qapalı keçirilə bilər.

7.5. Dərc olunmasına icazə verilən məlumat yalnız aidiyyəti əməkdaşlıq fəaliyyətləri çərçivəsində istifadə oluna bilər.

ƏLAVƏ 2

Fransa Milli Elmi Araşdırmalar Mərkəzi (MEAM) ilə Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) arasında elmi əməkdaşlıq Sazişinin I bəndinin tətbiqi üçün əlavə qaydalar

Maddə 1

Tematik prioritetlər

1. Bu Sazişin I bəndində nəzərdə tutulan gənc tədqiqatçıların araşdırma fəaliyyəti və təhsilinin həyata keçirilməsi üçün Tərəflər aşağıdakı sahələri əhatə edən layihələrə üstünlük verəcəkləri barədə razılığa gəlirlər:

Arxeologiya Biokimya Etnologiya Coğrafiya Geologiya Tarix Linqvistika Fizika Ətraf mühit elmləri Rabitə və informasiya texnologiyaları elmləri

Maddə 2

Birgə layihələrin icrasının asanlaşdırılmasına yönəlmiş qaydalar

2.1. Bu Sazişin I bəndində müəyyən edilmiş birgə elmi layihələrin məqsədlərini həyata keçirmək üçün Tərəflərdən birinin tədqiqatçılarının, birgə layihəni icra etmək məqsədilə və bütün layihə müddəti ərzində, digər Tərəfin tədqiqat yerlərinə, infrastrukturuna və avadanlıqlarına çıxışı vardır.

2.2. Yuxarıda sadalanan tədqiqat yerləri, infrastrukturlar və avadanlıqlardan istifadə mülkiyyətçi Tərəfin müəyyən etdiyi istifadə və təhlükəsizlik qaydaları ilə tənzimlənir.

2.3. Hər bir Tərəf bu Sazişin I bəndində müəyyən edilmiş birgə tədqiqat layihələrinin icrası üçün zəruri olan məlumatlara sərbəst və pulsuz çıxışı təmin etmək üçün lazımi tədbirləri görür.

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Koreya Sənaye Kompleksi Korporasiyası arasında sənaye əməkdaşlığı sahəsində Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi (İİN) və Koreya Sənaye Kompleksi Korporasiyası (KSKK) arasında sənaye əməkdaşlığı sahəsində Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Koreya Respublikasına müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 dekabr 2007-ci il

№2534

"Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi ilə Rumıniyanın İqtisadiyyat və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi ilə Rumıniyanın İqtisadiyyat və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının sənaye və energetika naziri Natiq Ağaəmi oğlu Əliyevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının sənaye və energetika naziri Natiq Ağaəmi oğlu Əliyevə verilməsi barədə Rumıniya tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 dekabr 2007-ci il

№2541

Bank nəzarəti sahəsində Azərbaycan Respublikasının Milli Bankı ilə Gürcüstan Milli Bankı arasında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2007-ci il avqustun 20-də imzalanmış "Bank nəzarəti sahəsində Azərbaycan Respublikasının Milli Bankı ilə Gürcüstan Milli Bankı arasında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın

1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Gürcüstan tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 dekabr 2007-ci il

№2545

Bank nəzarəti sahəsində Azərbaycan Respublikasının Milli Bankı ilə Gürcüstan Milli Bankı arasında Saziş

Azərbaycan Respublikasının Milli Bankı və Gürcüstan Milli Bankı (bundan sonra "Tərəflər" və ya "nəzarət orqanları") funksiyalarını səmərəli yerinə yetirmək, öz ölkələrində maliyyə təsisatlarının etibarlı və sabit fəaliyyətinə kömək göstərmək üçün informasiya mübadiləsinin zəruriliyini nəzərə alaraq qarşılıqlı anlaşma əldə etmişlər. Tərəflər bu qarşılıqlı anlaşmanı bank nəzarəti orqanları arasında birgə və hərtərəfli nəzarətin və əməkdaşlığın həyata keçirilməsi prinsipləri barədə bank nəzarəti üzrə Bazel Komitəsinin tövsiyələrini rəhbər tutaraq əldə etmişlər. Tərəflər aşağıdakılar barədə razılığa gəlmişlər:

1. Nəzarət orqanlarının səlahiyyətləri

1.1. Azərbaycan Respublikası:

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Bankı bank tənzimlənməsi və nəzarəti orqanıdır. Azərbaycan Respublikasının Milli Bankı kredit təşkilatlan tərəfindən bank qanunvericiliyinə, Milli Bankın normativ xarakterli aktlarına, eləcə də müəyyən etdiyi məcburi normativlərə əməl olunmasına daim nəzarət edir. Bank tənzimlənməsi və nəzarəti funksiyalarını həyata keçirmək üçün Milli Bank kredit təşkilatlarında (onların bölmələrində, habelə törəmə təsərrüfat cəmiyyətlərində) yoxlamalar aparır, onların fəaliyyətində aşkara çıxarılmış pozuntuların aradan qaldırılması barədə onlara icra üçün məcburi göstərişlər göndərir və kredit təşkilatlarına qarşı "Azərbaycan Respublikasının Milli Bankı haqqında" və "Banklar haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş tədbirlər görür.

Bank - fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsini, öz adından və öz hesabına kreditlərin verilməsini, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirən hüquqi şəxsdir.

Bank olmayan kredit təşkilatı - öz vəsaiti və/və ya cəlb edilmiş vəsait hesabına (depozitlər istisna olmaqla) yalnız pul formasında kreditlərin verilməsi ilə məşğul olan hüquqi şəxsdir.

Bank holdinq şirkəti - bank lisenziyalarına malik olan və fəaliyyətləri baş ofisin yerləşdiyi ölkənin bank tənzimləməsi və nəzarət orqanları tərəfindən tənzimlənən bir və ya bir neçə törəmə bankı olan şirkətdir.

1.2. Gürcüstan:

"Gürcüstan Milli Bankı haqqında" Gürcüstanın orqanik Qanununa görə Gürcüstan Milli Bankı bankların, bank olmayan depozit təşkilatlarının və valyuta məntəqələrinin fəaliyyətinə nəzarət orqanıdır. Gürcüstan Milli Bankının səlahiyyətlərinə lisenziyaların verilməsi və geri alınması, yoxlama və tənzimləmə, məhdudiyyətlər qoyulması və sanksiyalar verilməsi, bankların və bank olmayan depozit təşkilatlarının müvəqqəti idarə olunması və ləğv edilməsi daxildir. Kommersiya banklarının fəaliyyəti "Kommersiya banklarının fəaliyyəti haqqında" Gürcüstan qanunu ilə tənzimlənir.

Bank - Gürcüstan Milli Bankı tərəfindən lisenziyalaşdırılan, öz adından depozitlər qəbul edən və onlardan istifadə edərək qanunvericiliklə müəyyən olunmuş bank fəaliyyəti göstərən hüquqi şəxsdir.

2. Anlayışlar

Bu Sazişin məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə olunur:

2.1. əsas kredit təşkilatı (bank) transsərhəd təşkilatı olan hüquqi şəxsdir;

2.2. transsərhəd təşkilat - Tərəflərin birinin ərazisində bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyası (icazəsi) olan və digər Tərəfin ərazisində törəmə kredit təşkilatı, filialı və ya nümayəndəliyi olan kredit təşkilatıdır;

2.3. törəmə bank - nizamnamə kapitalında səsvermə hüququ verən səhmlərin əllidən çox faizi təsisçi banka və ya bank holdinq şirkətinə məxsus olan bankdır, yaxud elə bankdır ki, onunla təsisçi bank və ya bank holdinq təşkilatı arasında bağlanmış müqaviləyə əsasən banka və ya bank holdinq şirkətinə onun qərarlarının qəbul edilməsinə mühüm təsir göstərmək imkanı verilir;

2.4. bank filialı - hüquqi şəxs olmayan, bankın olduğu yerdən kənarda yerləşən, öhdəlikləri üçün bankın özünün məsuliyyət daşıdığı, banka icazə verilmiş bank fəaliyyətinin hamısını və ya bir hissəsini həyata keçirə bilən bankın ayrıca bölməsidir;

2.5. nümayəndəlik - hüquqi şəxs olmayan, bankın olduğu yerdən kənarda yerləşən, bank fəaliyyəti ilə məşğul olmağa hüququ olmayan, yalnız onun mənafeyini təmsil və müdafiə edən bankın ayrıca bölməsidir;

2.6. mənşə ölkə - başqa ölkənin ərazisində onun transsərhəd təşkilatı olan kredit təşkilatının qeydə alındığı ölkədir;

2.7. yerləşmə ölkəsi - ərazisində transsərhəd təşkilatı qeydə alınmış ölkədir.

3. İnformasiya mübadiləsi

3.1. Kredit təşkilatlarına və onların transsərhəd təşkilatlarına nəzarətin səmərəliliyini və faydalılığını təmin etmək və yüksəltmək məqsədilə nəzarət orqanları aşağıdakı sahələrdə əməkdaşlıq etmək, o cümlədən informasiyanı mübadilə etmək niyyətində olduqlarını bildirirlər:

transsərhəd təşkilatlarına lisenziyaların və icazələrin verilməsi;

onların cari fəaliyyətinə nəzarət;

yoxlamaların aparılması.

Nəzarət orqanları bank sektorunun vəziyyəti və inkişafı barədə, bank nəzarəti sahəsində əsas normalar və tələblər, habelə onlardakı dəyişikliklər barədə informasiya mübadiləsi edirlər.

3.2. Azərbaycan Respublikasında xarici dövlətlərin bank nəzarəti orqanları ilə informasiya mübadiləsi "Azərbaycan Respublikasının Milli Bankı haqqında" və "Banklar haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir. Bu qanunlara uyğun olaraq Milli Bank qarşılıqlı əməkdaşlıq əsasında xarici dövlətin bank nəzarəti orqanına nəzarət sahəsində informasiyanı təqdim edə bilər, bu şərtlə ki, xarici dövlətin bank nəzarəti orqanı bu informasiyanı üçüncü şəxslərə verə bilməz və yalnız bank nəzarəti məqsədləri üçün istifadə etməlidir.

3.3. Gürcüstanda xarici dövlətlərin bank nəzarəti orqanları ilə informasiya mübadiləsi "Gürcüstan Milli Bankı haqqında" Gürcüstanın orqanik qanunu ilə tənzimlənir. Bu Qanuna uyğun olaraq Gürcüstan Milli Bankı bank nəzarəti sahəsində xarici dövlətlərin bank nəzarəti orqanları ilə sıx əməkdaşlıq edir. Belə əməkdaşlığa xarici dövlətin bank nəzarəti orqanı tərəfindən məxfilik rejiminin təmin olunması şərtilə hər iki ölkənin yurisdiksiyasında fəaliyyət göstərən istənilən bank barəsində Gürcüstan Milli Bankı ilə xarici dövlətlərin bank nəzarəti orqanların arasında informasiya mübadiləsi daxildir.

3.4. Bu Saziş çərçivəsində əməkdaşlıq bank nəzarətinin həyata keçirilməsinə yardım göstərilməsi barədə sorğu əsasında Tərəflərdən hər hansı birinin nəzarət orqanının təşəbbüsü ilə həyata keçirilir.

3.5. Sorğu yazılı şəkildə göndərilir. Sorğunu ötürmək üçün telekommunikasiya vasitələrindən istifadə edilə bilər.

3.6. Əgər nəzarət orqanı belə hesab edərsə ki, sorğunun yerinə yetirilməsi onun dövlətinin qanunvericiliyinə və ya dövlətin mənafeyinə ziddir, bu Saziş çərçivəsində kömək göstərilməsindən tam və ya qismən imtina edilə bilər. Bu zaman sorğu verən nəzarət orqanı imtinanın səbəblərini göstərməklə yazılı surətdə xəbərdar edilir.

3.7. Hər bir nəzarət orqanı digər nəzarət orqanının sorğusuna tez və mümkün qədər tam cavab verilməsini təmin etmək üçün hər cür lazımi tədbirlər görür və ya sorğunun icrasına mane olan, yaxud onun icrasını gecikdirən səbəblər barədə sonuncunu xəbərdar edir.

3.8. Başqa qayda razılaşdırılmadıqda, hər bir nəzarət orqanı bu Sazişin həyata keçirilməsi gedişində meydana çıxacaq xərcləri müstəqil surətdə ödəyir.

4. İnformasiyanın məxfiliyinin təmin edilməsi

4.1. Tərəflər informasiyanın və ya sənədlərin saxlanması, onlardan istifadə edilməsi və bu informasiyanın və ya sənədlərin telekommunikasiya vasitələri ilə bir-birinə ötürülməsi zamanı məxfiliyi təmin etmək üçün müvafiq tədbirlər görürlər.

4.2. Bu Saziş çərçivəsində təqdim olunmuş məxfi informasiyadan onu təqdim etmiş Tərəfin razılığı olmadan tələb olunduğu və təqdim edildiyi məqsədlərdən başqa digər məqsədlər üçün istifadə edilə bilməz.

4.3. İnformasiya vermək vəzifəsinin qanunda nəzərdə tutulması halları istisna olmaq-

la, məxfi informasiyanın və ya sənədlərin dərc edilməsinə və üçüncü tərəfə ötürülməsinə hər bir konkret halda məxfi informasiyanı vermiş nəzarət orqanının yazılı razılığı əsasında yol verilir.

4.4. Nəzarət orqanlarının əməkdaşları bu Saziş çərçivəsində əldə edilən məxfi informasiyanın qorunmasını təmin etməlidirlər.

5. Lisenziyalaşdırma

Bank fəaliyyətinin lisenziyalaşdırılması prosesində

5.1. Ölkələrdən birinin ərazisində (mənşə ölkədə) qeydə alınmış kredit təşkilatının transsərhəd təşkilatlarının açılması üçün lisenziyalar (icazələr) verilməsi barədə digər ölkənin (yerləşmə ölkəsinin) nəzarət orqanına müraciətlərinə milli qanunvericiliyinin tələblərinə müvafiq qaydada və müəyyən olunmuş müddətlərdə baxılır.

5.2. 5.1-ci bənddə göstərilmiş müraciəti alan nəzarət orqanı digər nəzarət orqanına onun məzmunu barədə məlumat verir. Nəzarət orqanları 5.1-ci bənddə göstərilmiş müraciətə baxılmasının nəticələri barədə bir-birini yazılı surətdə məlumatlandırırlar.

5.3. Xarici banklara və xarici bank holdinq şirkətlərinin törəmə banklarına və xarici bankın yerli filiallarına bank lisenziyaları və xarici bankların yerli nümayəndəliklərinin açılması üçün icazələr yalnız bankın fiziki və hüquqi şəxslərdən depozitlər və digər geri qaytanlan vəsait cəlb edilməsi üzrə bu ölkədə fəaliyyət göstərməyə icazəsi olduğu barədə və banka mənşə ölkənin tənzimləmə orqanı tərəfindən konsolidə nəzarət edildiyi barədə mənşə ölkənin bank tənzimi və nəzarəti orqanının yazılı bildirişi göndərildikdən sonra verilə bilər.

5.4. Yerləşmə ölkəsinin nəzarət orqanının sorğusuna əsasən mənşə ölkənin nəzarət orqanı 5.1-ci bənddə göstərilmiş müraciət üzrə qərar qəbul edilməsi üçün əsas kredit təşkilatı barədə aşağıdakı məlumatı verir:

dövlət qeydiyyatının tarixi;

bank əməliyyatlarının aparılması üçün lisenziyada nəzərdə tutulmuş əməliyyatlar;

mənşə ölkənin bank nəzarətinin tələbləri barədə;

əsas kredit təşkilatının mənşə ölkənin bank qanunvericiliyinə əməl etməsi barədə;

cinayətkar yolla əldə edilmiş gəlirlərin leqallaşdırılmasına (yuyulmasına) və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında mənşə ölkənin qanunvericiliyinə əməl edilməsi barədə;

əsas kredit təşkilatının idarəetmə strukturunun və daxili nəzarət sisteminin qiymətləndirilməsi əsasında bu təşkilat tərəfindən transsərhəd təşkilatlarının lazımi səviyyədə idarə olunmasının mümkünlüyü barədə;

əsas kredit təşkilatının idarəetmə orqanlarının tərkibi, səhmdarlar (iştirakçılar), filiallar, nümayəndəliklər və affilə edilmiş (aidiyyəti olan) şəxslər barədə;

törəmə kredit təşkilatının idarəetmə orqanlarında iştirak etmək üçün namizədlər

barədə, o cümlədən direktorlar şurasının (müşahidə şurasının), audit komitəsinin, icra orqanlarının üzvü, direktor (baş direktor), onun müavinləri, baş mühasib, baş mühasibin müavinləri vəzifələrinə namizədlər barədə məlumat;

filialın rəhbəri, onun müavinləri, baş mühasibi, onun müavinləri, mühasibat xidmətinin rəhbəri, nümayəndəliyin rəhbəri vəzifələrinə namizədlər barədə.

5.5. Nəzarət orqanları transsərhəd təşkilatlarının yaradılmasına dair qəbul olunmuş qərar barədə bir-birinə yazılı məlumat verirlər.

6. Kredit təşkilatının səhmlərinin (paylarının) alınması zamanı əməkdaşlıq

6.1. Nəzarət orqanları başqa ölkədə qeydə alınmış kredit təşkilatının səhmlərinin (paylarının) hüquqi və ya fiziki şəxs, yaxud bir qrup hüquqi və (yaxud) fiziki şəxs tərəfindən alınmasının razılaşdırılması barədə qərar qəbul edərkən əməkdaşlıq edirlər.

6.2. Bu Sazişin məqsədləri üçün əldə etmə Azərbaycan Respublikasının ərazisində və ya Gürcüstan ərazisində qeydə alınmış kredit təşkilatının nizamnamə kapitalında müvafiq ölkənin milli qanunvericiliyinə uyğun olaraq müvafiq nəzarət orqanı ilə qabaqcadan razılaşdırılmış məbləğdə iştirak payının alınması barədə bağlanmış əqddir.

7. Kredit təşkilatlarının transsərhəd təşkilatlarının cari fəaliyyətinə nəzarət sahəsində əməkdaşlıq

7.1. Yerləşmə ölkəsinin nəzarət orqanı öz milli qanunvericiliyinə uyğun olaraq transsərhəd təşkilatlarının fəaliyyətinə nəzarət edir.

7.2. Yerləşmə ölkəsinin nəzarət orqanı transsərhəd təşkilatlarının əsas kredit təşkilatına (banka) mənşə ölkədə müəyyən olunmuş formalar üzrə birgə hesabatın tərtib edilməsi və birgə nəzarət üçün lazımi informasiya və hesabat verilməsinə mane olmayacaqdır.

7.3. Mənşə ölkənin nəzarət orqanı yerləşmə ölkəsinin nəzarət orqanını konsolidə hesabatın tərtib edilməsi üçün zəruri olan və əsas kredit təşkilatının transsərhəd təşkilatı tərəfindən təqdim olunan hesabat formaları və digər informasiya barədə məlumatlandırır. Yerləşmə ölkəsinin nəzarət orqanı transsərhəd təşkilatları tərəfindən göstərilən informasiya və hesabatı təqdim etməsinə kömək göstərəcəkdir.

7.4. Əsas kredit təşkilatları barəsində mənşə ölkənin nəzarət orqanları və transsərhəd təşkilatları barəsində yerləşmə ölkəsinin nəzarət orqanı müvafiq sorğular əsasında aşağıdakı informasiyanı mübadilə edirlər:

bank qanunvericiliyinin və cinayətkar yolla əldə edilmiş gəlirlərin leqallaşdırılmasına (yuyulmasma) və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin göstərilən kredit təşkilatları və onların transsərhəd təşkilatları tərəfindən yol verilmiş pozuntuları barədə;

mənşə ölkənin bank nəzarəti orqanı tərəfindən əsas kredit təşkilatı barəsində və yerləşmə ölkəsinin bank nəzarəti orqanı tərəfindən - transsərhəd təşkilatı barəsində tətbiq edilmiş cərimələr və digər cəza tədbirləri barədə.

8. Yoxlamalar aparılarkən əməkdaşlıq

8.1. Nəzarət orqanları transsərhəd təşkilatlarında yoxlamaların təşkilində bir-birinə kömək göstərilməsini xüsusilə faydalı hesab edirlər.

8.2. Transsərhəd təşkilatının mənşə ölkənin nəzarət orqanının nümayəndələri tərəfindən yoxlanılması yerləşmə ölkəsinin nəzarət orqanının yazılı razılığını tələb edir. Yerləşmə ölkəsində mənşə ölkənin nəzarət orqanı tərəfindən yoxlamalar yerləşmə ölkəsinin nəzarət orqanı nümayəndələrinin iştirakı ilə aparıla bilər.

8.3. Mənşə ölkənin nəzarət orqanı yerləşmə ölkəsinin nəzarət orqanına yoxlama məsələlərini, yoxlamanın müddətini, inspektorların adlarını və soyadlarını göstərməklə transsərhəd təşkilatında planlaşdırılan yoxlama barədə məlumat verir.

8.4. Yerləşmə ölkəsinin nəzarət orqanı əsas kredit təşkilatında mənşə ölkənin nəzarət orqanı tərəfindən aparılmış yoxlamanın nəticələrinə maraq göstərdikdə mənşə ölkənin nəzarət orqanı bu barədə ona məlumat verir.

9. Digər müddəalar

9.1. Lazım gələrsə, nəzarət orqanları transsərhəd təşkilatları və əsas kredit təşkilatları barədə nəzarət məsələlərini müzakirə və həll etmək məqsədilə görüşlər keçirəcəklər. Belə görüşlər zamanı bu Sazişin həyata keçirilməsi ilə əlaqədar məsələlər müzakirə ediləcəkdir.

9.2. Bu Saziş qüvvəyə mindikdən sonra əməli əməkdaşlığın təmin edilməsi üçün nəzarət orqanları əlaqədar şəxslərin adları və soyadları, vəzifələri, telefon və faks nömrələri, habelə elektron poçt ünvanları göstərilmiş siyahıları yazlı şəkildə mübadilə edəcəklər.

9.3. Azərbaycan Respublikasının bank sistemi barədə məlumat, habelə bank sistemini tənzimləyən normativ hüquqi baza Azərbaycan Respublikası Milli Bankının İnternet səhifəsində yerləşdirilir: www.nba.az

Gürcüstanın bank sistemi haqqında məlumat, habelə bank sistemini tənzimləyən normativ hüquqi baza Gürcüstan Milli Bankının İnternet səhifəsində yerləşdirilir: www.nbg.gov.ge

Azərbaycan Respublikasının Milli Bankı və Gürcüstan Milli Bankı bu Sazişin öz İnternet saytlarında yerləşdirilməsinə etiraz etmirlər.

9.4. Bu Saziş tərəflərin lazımi ölkədaxili prosedurlarının başa çatması barədə xəbərdar edilməsi ilə qüvvəyə minir və bank nəzarəti orqanlarından biri Sazişdə iştirak etməkdən imtina etmək istədiyini qabaqcadan yazılı şəkildə bildirənədək qüvvədədir. Bu halda Saziş bildirişin alındığı tarixdən başlayaraq 30 gün ərzində öz qüvvəsində qalır. Kömək göstərilməsi barədə həmin bildirişin tarixinədək göndərilmiş sorğulara bu Sazişin şərtlərinə uyğun olaraq bank nəzarəti orqanları tərəfindən baxılmalıdır.

9.5. Bu Saziş qüvvədən düşdükdə, Saziş çərçivəsində əldə olunmuş nəzarət məlumatı məxfi qalmalıdır.

9.6. Bu Saziş Azərbaycan, gürcü və rus dillərində iki əsl nüsxədə imzalanmışdır və

bütün mətnlər autentikdir. Bu Sazişin təfsiri zamanı fikir ayrılığı yarandıqda, rus dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ BANKI ADINDAN	GÜRCÜSTAN MİLLİ BANKI ADINDAN
ELMAN RÜSTƏMOV	*ROMAN QOTSİRİDZE*
Milli Bankı İdarə Heyətinin sədri	*Gürcüstan Milli Bankının prezidenti*
20 avqust 2007-ci il	*17 iyul 2007-ci il*

Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" 2007-ci il oktyabrın 30-da Bakı şəhərində imzalanmış Konvensiya təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 dekabr 2007-ci il

№517-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya

Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya bağlamaq məqsədilə aşağıdakılar barədə razılığa gəlmişlər:

Fəsil I

KONVENSİYANIN ƏHATƏ DAİRƏSİ

Maddə 1

Əhatə olunan şəxslər

Bu Konvensiya Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olan şəxslərə tətbiq edilir.

Maddə 2

Əhatə olunan vergilər

1. Bu Konvensiya, vergitutma üsulundan asılı olmayaraq, Razılığa gələn Dövlət və ya onun inzibati ərazi bölmələri və ya yerli hakimiyyət orqanları tərəfindən gəlirlərə və əmlaka görə tutulan vergilərə tətbiq edilir.

2. Gəlirlərə və əmlaka görə vergilərə-gəlirin ümumi məbləğindən, əmlakın ümumi dəyərindən və ya gəlirin və ya əmlakın elementlərindən tutulan bütün vergilər, o cümlədən, daşınar və ya daşınmaz əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlərdən vergilər, müəssisələr tərəfindən ödənilən əməkhaqqı və ya maaşların ümumi məbləğlərindən vergilər, həmçinin əmlakın dəyərinin artımından vergilər aiddir.

3. Konvensiyanın tətbiq edildiyi mövcud vergilər xüsusilə aşağıdakılardır:

(a) Azərbaycanda:

(i) hüquqi şəxslərin mənfəət vergisi;

(ii) fiziki şəxslərin gəlir vergisi;

(iii) əmlak vergisi və

(iv) torpaq vergisi (bundan sonra "Azərbaycan vergisi" adlanır);

(b) Estoniyada:

gəlir vergisi (tulumaks)

(bundan sonra "Estoniya vergisi" adlanır).

4. Bu Konvensiya onun imzalandığı tarixdən sonra mövcud vergilərə əlavə olaraq və ya onların əvəzinə tətbiq edilən istənilən eyni və ya mahiyyətcə oxşar vergilərə də tətbiq edilir. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları özlərinin müvafiq vergi qanunvericiliklərində baş verən hər bir əhəmiyyətli dəyişiklik barədə bir-birini xəbərdar edirlər.

Fəsil II

ANLAYIŞLAR

Maddə 3

Ümumi anlayışlar

1. Kontekst başqa cür tələb etmirsə, bu Konvensiyanın məqsədləri üçün:

(a) "Azərbaycan" termini - daxili sular, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektoru və Azərbaycan Respublikasının üzərindəki hava məkanı da daxil olmaqla, yerin təki, dənizin dibi və təbii sərvətlərə münasibətdə Azərbaycan Respublikasının suveren hüquqlarının və yurisdiksiyasının tətbiq edilə bildiyi Azərbaycan Respublikası ərazisini, habelə beynəlxalq hüquqa və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq müəyyən edilmiş və gələcəkdə müəyyən edilə bilən istənilən digər ərazini bildirir;

(b) "Estoniya" termini - Estoniya Respublikasını ifadə edir və coğrafi mənada istifadə edildikdə Estoniya Respublikasının ərazisini və Estoniyanın qanunlarına və

beynəlxalq hüquqa müvafiq olaraq dənizin dibi, yerin təki və onların təbii sərvətlərinə münasibətdə Estoniya Respublikasının hüquqlarının tətbiq edilə bildiyi Estoniya Respublikasının daxili suları ilə əlaqəli istənilən digər ərazini bildirir.

(c) "Razılığa gələn Dövlət" və "Razılığa gələn digər Dövlət" terminləri - kontekstdən asılı olaraq Azərbaycanı və ya Estoniyam bildirir;

(d) "şəxs" termini - fiziki şəxsi, şirkəti və şəxslərin hər hansı digər birliklərini bildirir;

(e) "şirkət" termini - hər hansı korporativ qurumu və ya vergi məqsədləri üçün korporativ qurum kimi baxılan hər hansı təşkilatı bildirir;

(f) "Razılığa gələn Dövlətin müəssisəsi" və "Razılığa gələn digər Dövlətin müəssisəsi" terminləri - müvafiq olaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən idarə edilən müəssisəni və Razılığa gələn digər Dövlətin rezidenti tərəfindən idarə edilən müəssisəni bildirir;

(g) "beynəlxalq daşıma" termini - Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən istismar edilən dəniz və ya hava gəmiləri vasitəsilə yerinə yetirilən istənilən daşımaları (dəniz və ya hava gəmisinin müstəsna olaraq Razılığa gələn digər Dövlətin məntəqələri arasında istismar edilməsi halları istisna olmaqla) bildirir;

(h) "səlahiyyətli orqan" termini:

(i) Azərbaycanda - Maliyyə Nazirliyi və Vergilər Nazirliyini;

(ii) Estoniyada - maliyyə naziri və ya onun səlahiyyətli nümayəndəsini bildirir;

(i) "milli şəxs" termini:

(i) Razılığa gələn Dövlətin vətəndaşı olan istənilən fiziki şəxsi;

(ii) özünün müvafiq statusunu Razılığa gələn Dövlətdə qüvvədə olan qanunvericiliyə müvafiq olaraq almış istənilən hüquqi şəxsi, tərəfdaşlığı və ya assosiasiyanı bildirir.

2. Razılığa gələn Dövlət tərəfindən bu Konvensiyanın istənilən vaxt tətbiqinə münasibətdə, burada müəyyən edilməmiş hər hansı termin, kontekst başqa cür tələb etmirsə, Konvensiyanın tətbiq edildiyi vergilərin məqsədləri üçün həmin vaxt həmin Dövlətin qanunvericiliyində nəzərdə tutulmuş mənanı daşıyır, həmin Dövlətin tətbiq edilən vergi qanunvericiliyində nəzərdə tutulmuş hər hansı bir məna, həmin terminə həmin Dövlətin digər qanunlarına müvafiq olaraq verilən mənadan üstün tutulur.

Maddə 4

Rezident

1. Bu Konvensiyanın məqsədləri üçün "Razılığa gələn Dövlətin rezidenti" termini həmin Dövlətin qanunvericiliyinə müvafiq olaraq yaşayış yerinə, daimi olduğu yerə, qeydiyyat (yaradılma) yerinə, inkorporasiya yerinə, idarəetmə yerinə və ya oxşar xarakterli digər meyara əsasən orada vergiyə cəlb edilə bilən hər hansı şəxsi bildirir, həmçinin, həmin Dövləti və onun hər hansı inzibati ərazi bölməsi və ya yerli hakimiyyət orqanını da əhatə edir. Bununla belə, bu termin yalnız həmin Dövlətdəki mənbələrdən gəlirlərə

və ya orada yerləşən əmlaka münasibətdə orada vergiyə cəlb edilə bilən hər hansı şəxsi əhatə etmir.

2. Əgər 1-ci bəndin müddəalarına müvafiq olaraq, fiziki şəxs Razılığa gələn Dövlətlərdən hər ikisinin rezidentidirsə, bu halda onun statusu aşağıdakı kimi müəyyən edilir:

(a) o, yalnız daimi yaşayış yerinə malik olduğu Dövlətin rezidenti hesab edilir; əgər onun hər iki Dövlətdə daimi yaşayış yeri vardırsa, o, yalnız şəxsi və iqtisadi əlaqələrinin daha sıx olduğu (həyati mənafelərin mərkəzi) Dövlətin rezidenti hesab edilir;

(b) əgər onun həyati mənafelərinin mərkəzinin yerləşdiyi Dövləti müəyyən etmək mümkün deyildirsə və ya o, bu Dövlətlərdən heç birində daimi yaşayış yerinə malik deyildirsə, bu halda o, yalnız adətən yaşadığı Dövlətin rezidenti hesab edilir;

(c) əgər o, adətən hər iki Dövlətdə yaşayırsa və ya onlardan heç birində yaşamırsa, o, yalnız milli şəxsi olduğu Dövlətin rezidenti hesab edilir;

(d) əgər o, hər iki Dövlətin milli şəxsidirsə və ya onlardan heç birinin milli şəxsi deyildirsə, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları məsələni qarşılıqlı razılaşma yolu ilə həll edirlər.

3. Əgər 1-ci bəndin müddəalarına müvafiq olaraq, fiziki şəxs olmayan şəxs Razılığa gələn Dövlətlərdən hər ikisinin rezidentidirsə, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları məsələni qarşılıqlı razılaşma yolu ilə həll etməyə və Konvensiyanın bu cür şəxsə tətbiqi formasını müəyyənləşdirməyə çalışacaqlar. Bu cür razılaşma olmadığı təqdirdə, həmin şəxs Konvensiyanın üstünlüklərindən istifadə məqsədləri üçün Razılığa gələn Dövlətlərdən heç birinin rezidenti hesab edilməyəcəkdir.

Maddə 5

Daimi nümayəndəlik

1. Bu Konvensiyanın məqsədləri üçün "daimi nümayəndəlik" termini

müəssisənin sahibkarlıq fəaliyyətinin tamamilə və ya qismən həyata keçirildiyi daimi fəaliyyət yerini bildirir.

2. "Daimi nümayəndəlik" termini xüsusilə aşağıdakıları əhatə edir:

(a) idarəetmə yeri;

(b) bölmə;

(c) ofis;

(d) fabrik;

(e) emalatxana;

(f) yataq, neft və ya qaz quyusu, karxana, qurğu, tikili, gəmi və ya təbii ehtiyatların kəşfiyyatı və ya işlənməsi və hasilatı üzrə hər hansı digər yer.

3. "Daimi nümayəndəlik" terminə həmçinin aşağıdakılar aid edilir:

(a) tikinti meydançası və ya quraşdırma, yığma, yaxud montaj layihəsi və ya bunlarla bağlı nəzarət fəaliyyəti - yalnız doqquz aydan artıq davam etdikdə;

(b) məsləhət xidmətləri də daxil olmaqla, müəssisə tərəfindən öz işçiləri və ya bu cür məqsədlər üçün cəlb edilmiş digər heyət vasitəsilə xidmətlərin göstərilməsi - yalnız bu fəaliyyət (eyni və ya əlaqəli layihə üçün) Razılığa gələn digər Dövlətdə istənilən on iki aylıq dövr ərzində ümumilikdə altı aydan artıq bir dövr və ya dövrlər ərzində davam etdikdə.

4. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, "daimi nümayəndəlik" terminə aşağıdakılar aid edilmir:

(a) qurğulardan müəssisəyə məxsus olan malların və ya məmulatların müstəsna olaraq saxlanılması, nümayiş etdirilməsi və ya çatdırılması məqsədi üçün istifadə edilməsi;

(b) müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarının müstəsna olaraq saxlanılma, nümayiş etdirilmə və ya çatdırılma məqsədi üçün saxlanılması;

(c) müəssisəyə məxsus olan mal və ya məmulat ehtiyatlarının müstəsna olaraq başqa müəssisə tərəfindən emal edilmək məqsədi üçün saxlanılması;

(d) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq müəssisə üçün mal və ya məmulatların satın alınması və ya informasiya toplanılması məqsədi üçün saxlanılması;

(e) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq müəssisə üçün hazırlıq və ya yardımçı xarakterli istənilən digər fəaliyyətin göstərilməsi məqsədi üçün saxlanılması;

(f) daimi sahibkarlıq fəaliyyəti yerinin müstəsna olaraq (a) - (c) yarımbəndlərində sadalanmış fəaliyyət növlərinin istənilən kombinasiyası üçün saxlanılması - bir şərtlə ki, daimi sahibkarlıq fəaliyyəti yerinin bu kombinasiyanın nəticəsi olan məcmu fəaliyyəti hazırlıq və ya yardımçı xarakter daşısın.

5. 1-ci və 2-ci bəndlərin müddəalarından asılı olmayaraq, 7-ci bəndin tətbiq edildiyi müstəqil statuslu agentdən fərqli şəxs müəssisənin adından fəaliyyət göstərirsə və müəssisənin adından müqavilələr bağlamaq səlahiyyətlərinə malikdirsə, Razılığa gələn Dövlətdə adətən bu səlahiyyətlərdən istifadə edirsə, həmin müəssisə, həmin şəxsin onun üçün həyata keçirdiyi hər hansı fəaliyyətə münasibətdə həmin Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilir, bir şərtlə ki, həmin şəxsin fəaliyyəti 4-cü bənddə göstərilmiş fəaliyyətlə məhdudlaşmasın, belə ki, həmin fəaliyyət, hətta daimi sahibkarlıq fəaliyyəti yeri vasitəsilə həyata keçirilirsə belə, həmin bəndin müddəalarına əsasən bu cür daimi sahibkarlıq fəaliyyəti yerini daimi nümayəndəliyə çevirmir.

6. Müəssisə Razılığa gələn Dövlətdə sadəcə olaraq broker, baş komisyon agenti və ya müstəqil statuslu hər hansı digər agent vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirdiyinə görə həmin Dövlətdə daimi nümayəndəliyə malik olan müəssisə hesab edilmir, bir şərtlə ki, bu cür şəxslər adi fəaliyyətləri çərçivəsində fəaliyyət göstərsinlər. Bununla belə, bu cür agentin fəaliyyəti tamamilə və ya demək olar ki, tamamilə həmin müəssisə üçün həyata keçirildiyi və həmin müəssisə ilə həmin agent arasındakı şərtlər müstəqil müəssisələr arasında ola biləcək şərtlərdən fərqli olduğu halda, həmin agent bu bəndin

məqsədləri üçün müstəqil statuslu agent hesab edilmir. Bu halda 5-ci bəndin müddəaları tətbiq edilir.

7. Razılığa gələn Dövlətin rezidenti olan şirkətin Razılığa gələn digər Dövlətin rezidenti olan və ya həmin digər Dövlətdə sahibkarlıq fəaliyyətini həyata keçirən (daimi nümayəndəlik vasitəsilə və ya başqa tərzdə) şirkətə nəzarət etməsi və ya onun nəzarətində olması faktı özlüyündə bu şirkətlərdən heç birini digərinin daimi nümayəndəliyinə çevirmir.

Fəsil III

GƏLİRİN VERGİYƏ CƏLB EDİLMƏSİ

Maddə 6

Daşınmaz əmlakdan gəlir

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan əldə edilən gəlirlər (kənd və ya meşə təsərrüfatından gəlirlər də daxil olmaqla) həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. "Daşınmaz əmlak" termini həmin əmlakın yerləşdiyi Razılığa gələn Dövlətin qanunvericiliyinə əsasən malik olduğu mənanı daşıyır. Bu termin istənilən halda, daşınmaz əmlaka münasibətdə yardımçı əmlakı, kənd və meşə təsərrüfatında istifadə edilən mal-qara və avadanlığı, torpaq mülkiyyəti barədə ümumi qanunvericiliyin müddəalarının tətbiq edildiyi hüquqları, opsion və ya daşınmaz əmlak əldə etmək üzrə oxşar hüquqları, daşınmaz əmlakın uzufruktunu və mineral ehtiyatların, mənbələrin və digər təbii resursların işlənməsi və ya işlənmə hüququ əvəzində ödənilən dəyişkən və ya təsbit olunmuş ödənişlərə olan hüquqları əhatə edir. Dəniz və hava gəmiləri daşınmaz əmlak hesab edilmir.

3. 1-ci bəndin müddəaları daşınmaz əmlakın birbaşa istifadəsindən, icarəyə verilməsindən və ya hər hansı digər formada istifadəsindən əldə edilən gəlirlərə, həmçinin daşınmaz əmlakın özgəninkiləşdirilməsindən gəlirlərə tətbiq edilir.

4. Əgər şirkətin səhmlərinə və ya digər korpotariv hüquqlarına sahiblik bu cür səhmlərin və ya korporativ hüquqların sahibinə şirkətə məxsus daşınmaz əmlakdan yararlanmaq hüququ verirsə, bu cür yararlanma hüququnun birbaşa istifadəsi, icarəyə verilməsi və ya hər hansı digər formada istifadəsindən gəlirlər daşınmaz əmlakın yerləşdiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb edilə bilər.

5. 1-ci, 3-cü və 4-cü bəndlərin müddəaları həmçinin müəssisənin daşınmaz əmlakından gəlirlərə və müstəqil fərdi xidmətlərin göstərilməsi üçün istifadə edilən daşınmaz əmlakdan gəlirlərə də tətbiq edilir.

Maddə 7

Sahibkarlıq fəaliyyətindən mənfəət

1. Razılığa gələn Dövlətin müəssisəsinin mənfəəti yalnız həmin Dövlətdə vergiyə cəlb edilir, bir şərtlə ki, həmin müəssisə sahibkarlıq fəaliyyətini Razılığa gələn digər Dövlətdə, orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirməsin. Əgər müəssisə sahibkarlıq fəaliyyətini yuxanda göstərilən tərzdə həyata keçirirsə, bu halda onun mən-

fəətinin yalnız həmin daimi nümayəndəliyə aid edilə bilən hissəsi həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. 3-cü bəndin müddəaları nəzərə alınmaqla, əgər Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirirsə, Razılığa gələn Dövlətlərin hər birində bu daimi nümayəndəliyin mənfəətinə, onun eyni və ya oxşar şəraitdə, eyni və ya oxşar fəaliyyətlə məşğul olan müstəqil və ayrıca müəssisə olduğu və daimi nümayəndəliyi olduğu müəssisədən tamamilə asılı olmadan fəaliyyət göstərdiyi halda əldə edə biləcəyi mənfəət aid edilir.

3. Daimi nümayəndəliyin mənfəəti müəyyən edilərkən, daimi nümayəndəliyin yerləşdiyi Razılığa gələn Dövlətdə və ya hər hansı digər yerdə çəkilməsindən asılı olmayaraq, daimi nümayəndəliyin məqsədləri üçün çəkilmiş xərclərin (həmin daimi nümayəndəlik həmin Razılığa gələn Dövlətin ayrıca müəssisəsi olduğu halda çıxılmasına yol verilməyəcək xərclər istisna olmaqla), o cümlədən idarəetmə və ümumi inzibati xərclərin çıxılmasına yol verilir.

4. Əgər Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə aid olan mənfəət adətən müəssisənin ümumi mənfəətinin onun ayrı-ayrı hissələri arasında bölüşdürülməsi əsasında müəyyən edilirsə, 2-ci bəndin müddəaları, vergiyə cəlb edilməli olan mənfəətin bu cür bölgü vasitəsilə müəyyənləşdirilməsində Razılığa gələn Dövlətə heç bir maneə yaratmır; bununla belə, tətbiq edilən bölgü metodu elə olmalıdır ki, nəticə bu maddədə nəzərdə tutulan prinsiplərə müvafiq olsun.

5. Daimi nümayəndəlik tərəfindən sadəcə olaraq öz müəssisəsi üçün mal və ya məmulat alınmasına görə həmin daimi nümayəndəliyə heç bir mənfəət aid edilmir.

6. Əvvəlki bəndlərin məqsədləri üçün, daimi nümayəndəliyə aid edilə bilən mənfəət hər il eyni metodla müəyyən edilir, bir şərtlə ki, bunun əksi üçün tutarlı və kifayət qədər əsaslı səbəb olmasın.

7. Əgər mənfəətə barəsində bu Konvensiyanın digər maddələrində ayrıca söhbət açılan gəlir növləri daxildirsə, bu halda bu maddənin müddəaları həmin maddələrin müddəalarına təsir göstərmir.

Maddə 8

Dəniz və hava nəqliyyatı

1. Razılığa gələn Dövlətin müəssisəsinin dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarından mənfəəti yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2. Bu maddənin məqsədləri üçün, dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda istismarından əldə olunan mənfəətə:

(a) dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda heyətsiz əsasda icarəyə verilməsindən mənfəət; və ya

(b) mal və ya məmulatların daşınması üçün istifadə edilən konteynerlərin (konteynerlərin daşınması üçün treylerlər və əlaqədar avadanlıq da daxil olmaqla) istifadəsi, saxlanılması və ya icarəyə verilməsindən mənfəət də aiddir, bir şərtlə ki, bu fəaliyyət növləri dəniz və ya hava gəmilərinin beynəlxalq daşımalarda is-

tismarına münasibətdə tamamlayıcı və ya qeyri-müntəzəm xarakter daşısın.

3. 1-ci və 2-ci bəndlərin müddəaları həmçinin pulda ("pool"), birgə sahibkarlıq fəaliyyəti və ya beynəlxalq əməliyyat təşkilatlarında iştirakdan mənfəətə də tətbiq edilir.

Maddə 9

Qarşılıqlı əlaqəli müəssisələr

1. Əgər:

(a) Razılığa gələn Dövlətin müəssisəsi Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, ona nəzarətdə və ya onun kapitalında birbaşa və ya dolayısı ilə iştirak edirsə və ya

(b) eyni şəxslər Razılığa gələn Dövlətin müəssisəsinin və Razılığa gələn digər Dövlətin müəssisəsinin idarə edilməsində, onlara nəzarətdə və ya onların kapitalında birbaşa və ya dolayısı ilə iştirak edirlərsə və hər bir halda bu iki müəssisənin qarşılıqlı kommersiya və ya maliyyə münasibətlərində onlar arasında yaradılmış və ya müəyyən edilmiş şərtlər müstəqil müəssisələr arasında mövcud ola biləcək şərtlərdən fərqlidirsə, bu halda, onlardan birinə hesablana biləcək, lakin bu şərtlər səbəbindən hesablanmamış hər hansı mənfəət, həmin müəssisənin mənfəətinə daxil edilə və müvafiq qaydada vergiyə cəlb edilə bilər.

2. Əgər Razılığa gələn Dövlət həmin Dövlətin müəssisəsinin mənfəətinə Razılığa gələn digər Dövlətin müəssisəsinin həmin digər Dövlətdə vergiyə cəlb edilmiş mənfəəti daxil edir və müvafiq qaydada vergiyə cəlb edirsə və bu tərzdə daxil edilmiş mənfəət, bu müəssisələr arasındakı şərtlər müstəqil müəssisələr arasında ola biləcək şərtlər olduğu halda adı birinci çəkilən Dövlətin müəssisəsinə hesablana biləcək mənfəətdirsə, bu halda, həmin digər Dövlət orada bu mənfəətdən hesablanan verginin məbləğinə müvafiq düzəliş edir. Bu cür düzəlişin müəyyən edilməsində bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınır və Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları zəruri olduqda bir-biri ilə məsləhətləşmələr aparırlar.

Maddə 10

Dividendlər

1. Razılığa gələn Dövlətin rezidenti olan şirkət tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən dividendlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür dividendlər həmçinin həmin dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn Dövlətdə və həmin Dövlətin qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin dividendlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi aşağıdakılardan artıq olmamalıdır:

(a) dividendlərin ümumi məbləğinin 5 faizindən - əgər faktiki sahib dividendləri ödəyən şirkətin kapitalının ən azı 25 faizinə sahib olan şirkətdirsə (tərəfdaşlıq istisna olmaqla);

(b) dividendlərin ümumi məbləğinin 10 faizindən - bütün digər hallarda.

Bu bənd, dividendlər ödənilən mənfəətə münasibətdə şirkətin vergiyə cəlb edilməsinə təsir etmir.

3. Bu maddədə istifadə edilən "dividendlər" termini səhmlərdən, təsisçilərin səhmlərindən və ya borc tələbləri olmayan, mənfəətdə iştirak hüququ verən digər hüquqlardan gəlirləri, o cümlədən gəlirləri bölüşdürən şirkətin rezident olduğu Dövlətin qanunvericiliyinə müvafiq olaraq, səhmlərdən gəlirlərin cəlb edildiyi eyni cür vergitutmaya cəlb edilən digər korporativ hüquqlardan əldə edilən gəlirləri bildirir.

4. 1-ci və 2-ci bəndlərin müddəaları, dividendlərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, dividendləri ödəyən şirkətin rezident olduğu Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və dividendlərin ödənilməsi ilə bağlı olan holdinqin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Əgər Razılığa gələn Dövlətin rezidenti olan şirkət Razılığa gələn digər Dövlətdən mənfəət və ya gəlir əldə edirsə, həmin digər Dövlət, hətta şirkət tərəfindən ödənilən dividendlər və ya onun bölüşdürülməmiş mənfəəti tamamilə və ya qismən həmin digər Dövlətdə yaranan mənfəət və ya gəlirdən ibarət olduğu halda belə, dividendlərin həmin digər Dövlətin rezidentinə ödənildiyi və ya dividendlərin ödənilməsi ilə bağlı olan holdinqin həmin digər Dövlətdə yerləşən daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu hallar istisna edilməklə, nə şirkət tərəfindən ödənilən dividendlərə hər hansı vergi tətbiq edə, nə də şirkətin bölüşdürülməmiş mənfəətini şirkətin bölüşdürülməmiş mənfəəti üzrə vergiyə cəlb edə bilər.

Maddə 11

Faizlər

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür faizlər həmçinin onların yarandığı Razılığa gələn Dövlətdə və həmin Dövlətin qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin faizlərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi faizlərin ümumi məbləğinin 10 faizindən artıq olmamalıdır.

3. 2-ci bəndin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətdə yaranan, Razılığa gələn digər Dövlətin inzibati ərazi bölmələri, yerli hakimiyyət orqanları və ya Mərkəzi Bank, yaxud tamamilə Razılığa gələn həmin digər Dövlətin Hökumətinə məxsus olan hər hansı maliyyə qurumu da daxil ol-maqla, Razılığa gələn digər Dövlətin Hökuməti tərəfindən əldə edilən və onun faktiki sahibliyində olan faizlər və ya həmin Hökumət tərəfindən zəmanət verilmiş borclara münasibətdə əldə edilən faizlər adı birinci çəkilən Dövlətdə vergidən azad edilir.

4. Bu maddədə istifadə edilən "faizlər" termini ipoteka təminatının olub-olmamasından və borcluları mənfəətində iştirak hüququ verib-verməməsindən asılı olmayaraq, istənilən növ borc tələblərindən gəlirləri və xüsusilə, hökumətin qiymətli kağızlarından gəlirləri və istiqrazlardan və ya borc öhdəliklərindən gəlirləri, o cümlədən bu cür qiymətli kağızlar, istiqrazlar və ya borc öhdəlikləri üzrə mükafatlar və uduşları bildirir.

"Faizlər" terminində 10-cu maddənin müddəalarına müvafiq olaraq dividend hesab edilən hər hansı gəlir daxil deyildir. Gecikdirilmiş ödənişlərə görə cərimələr bu maddənin məqsədi üçün faizlər hesab edilmir.

5. 1-ci, 2-ci və 3-cü bəndlərin müddəaları, faizləri faktiki sahibinin Razılığa gələn Dövlətin prezidenti olmaqla, faizlərin yarandığı Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və faizlərin ödənilməsi ilə bağlı olan borc öhdəliyinin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

6. Faizlərin ödəyicisi Razılığa gələn Dövlətin rezidenti olduğu halda, faizlər həmin Dövlətdə yaranmış hesab edilir. Bununla belə, faizləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə və ya daimi bazaya sahib olduğu və faizlər ödənilən borcun bu cür daimi nümayəndəlik və ya daimi baza ilə bağlı yarandığı və bu faizlərin ödənilməsi üzrə xərclər bu cür daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkildiyi halda, bu cür faizlər daimi nümayəndəliyin və ya daimi bazanın yerləşdiyi Dövlətdə yaranmış hesab edilir.

7. Əgər ödəyici və faktiki sahib arasında və ya onların hər ikisi ilə hər hansı digər şəxs arasındakı xüsusi münasibətlər səbəbindən, borc tələbi ilə əlaqədar ödənilən faizlərin məbləği, bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla biləcək məbləğdən artıqdırsa, bu maddənin müddəaları yalnız adı sonuncu çəkilən məbləğə tətbiq edilir. Bu halda, ödənişlərin artıq hissəsi, bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilir.

Maddə 12

Royaltilər

1. Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən royaltilər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Bununla belə, bu cür royaltilər həmçinin onların yarandığı Razılığa gələn Dövlətdə və həmin Dövlətin qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin royaltilərin faktiki sahibi Razılığa gələn digər Dövlətin rezidentidirsə, tutulan vergi royaltilərin ümumi məbləğinin 10 faizindən artıq olmamalıdır.

3. Bu maddədə istifadə olunan "royaltilər" termini hər hansı ədəbiyyat, incəsənət və ya elm əsərləri, o cümlədən kinematoqrafiya filmləri üzrə müəlliflik hüquqlarının, hər hansı patent, ticarət markası, dizayn və ya model, plan, məxfi formul və ya prosesin istifadəsi və ya istifadə hüququ əvəzində və ya sənaye, kommersiya və ya elmi avadanlığın istifadəsi və ya istifadə hüququ əvəzində, yaxud sənaye, kommersiya və ya elmi təcrübəyə dair informasiya əvəzində alınan istənilən növ ödənişləri bildirir.

4. 1-ci və 2-ci bəndlərin müddəaları, royaltilərin faktiki sahibinin Razılığa gələn Dövlətin rezidenti olmaqla, royaltilərin yarandığı Razılığa gələn digər Dövlətdə sahibkarlıq fəaliyyətini orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin

digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xidmətlər göstərdiyi və royaltilərin ödənilməsi ilə bağlı olan hüquq və ya əmlakın bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

5. Royaltilərin ödəyicisi Razılığa gələn Dövlətin rezidenti olduğu halda, royaltilər həmin Dövlətdə yaranmış hesab edilir. Bununla belə, royaltiləri ödəyən şəxs Razılığa gələn Dövlətin rezidenti olub-olmamasından asılı olmayaraq, Razılığa gələn Dövlətdə daimi nümayəndəliyə və ya daimi bazaya sahib olduğu və royaltiləri ödəmək öhdəliyinin bu cür daimi nümayəndəlik və ya daimi baza ilə bağlı yarandığı və bu royaltilərin ödənilməsi üzrə xərclərin bu cür daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkildiyi halda, bu cür royaltilər daimi nümayəndəliyin və ya daimi bazanın yerləşdiyi Dövlətdə yaranmış hesab edilir.

6. Əgər ödəyici və faktiki sahibi arasında və ya onların hər ikisi ilə hər hansı digər şəxs arasındakı xüsusi münasibətlər səbəbindən istifadə, hüquq və ya informasiya ilə əlaqədar ödənilən royaltilərin məbləği, bu münasibətlər olmadığı halda ödəyici və faktiki sahib arasında razılaşdırıla biləcək məbləğdən artıqdırsa, bu maddənin müddəaları yalnız adı sonuncu çəkilən məbləğə tətbiq edilir. Bu halda, ödənişlərin artıq hissəsi, bu Konvensiyanın digər müddəaları müvafiq qaydada nəzərə alınmaqla, Razılığa gələn Dövlətlərdən hər birinin qanunvericiliyinə müvafiq qaydada vergiyə cəlb edilir.

Maddə 13

Əmlakın dəyərinin artımı

1. Razılığa gələn Dövlətin rezidenti tərəfindən, 6-cı maddədə qeyd edilmiş və Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Razılığa gələn Dövlətin rezidenti tərəfindən, aktivlərinin əsas hissəsi Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakdan bilavasitə və ya dolayısı ilə ibarət olan şirkətdəki səhmlərin, yaxud digər hüquqların özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyin kommersiya əmlakının bir hissəsini təşkil edən daşınar əmlakın və ya Razılığa gələn Dövlətin rezidentinin müstəqil fərdi xidmətlər göstərmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə sərəncamında olan daimi bazaya aid daşınan əmlakın özgəninkiləşdirilməsindən gəlirlər, bu cür daimi nümayəndəliyin (ayrılıqda və ya bütün müəssisə ilə birlikdə) və ya bu cür daimi bazanın özgəninkiləşdirilməsindən gəlirlər də daxil olmaqla, həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

4. Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmilərinin və ya bu cür dəniz və ya hava gəmilərinin istismarı ilə bağlı olan daşınar əmlakın özgəninkiləşdirilməsindən əldə edilən gəlirlər yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

5. 1-ci, 2-ci, 3-cü və 4-cü bəndlərdə qeyd edilənlər istisna edilməklə, hər hansı əmlakın özgəninkiləşdirilməsindən gəlirlər, yalnız əmlakı özgəninkiləşdirən şəxsin rezidenti olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb edilir.

Maddə 14

Müstəqil fərdi xidmətlər

1. Razılığa gələn Dövlətin rezidenti olan fiziki şəxsin peşəkar xidmətlər göstərməsindən, yaxud müstəqil xarakterli digər fəaliyyətindən əldə etdiyi gəlirlər, yalnız həmin Dövlətdə vergiyə cəlb edilir. Lakin belə gəlir aşağıdakı hallarda Razılığa gələn Dövlətdə də vergiyə cəlb edilə bilər:

(a) fiziki şəxs öz fəaliyyətini həyata keçirmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə müntəzəm istifadə etdiyi daimi bazaya sahibdirsə; bu halda, gəlirin yalnız həmin daimi bazaya aid edilə bilən hissəsi Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilə bilər; və ya

(b) fiziki şəxs cari vergi ilində başlayan və ya başa çatan istənilən on iki aylıq dövr ərzində ümumilikdə 183 günə bərabər və ya ondan artıq bir dövr və ya dövrlər ərzində Razılığa gələn digər Dövlətdə qalırsa; bu halda gəlirin yalnız həmin digər Dövlətdə həyata keçirilən fəaliyyətdən əldə edilən hissəsi həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. "Peşəkar xidmətlər" terminində xüsusilə müstəqil elmi, ədəbi, artistlik, təhsil və ya tədris fəaliyyəti, o cümlədən həkimlərin, hüquqşünasların, mühəndislərin, memarların, stomatoloqların, mühasiblərin və auditorların müstəqil fəaliyyəti daxildir.

Maddə 15

Qeyri-müstəqil fərdi xidmətlər

1. 16-cı, 18-ci və 19-cu maddələrin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidenti tərəfindən muzdlu işlə bağlı əldə edilən maaş, əməkhaqqı və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir, bir şərtlə ki, muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilməsin. Əgər muzdlu iş Razılığa gələn digər Dövlətdə həyata keçirilirsə, onunla bağlı orada əldə edilən bu cür mükafatlar həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. 1-ci bəndin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətdə həyata keçirilən muzdlu işlə bağlı əldə edilən mükafat yalnız adı birinci çəkilən Dövlətdə vergiyə cəlb edilir, əgər:

(a) resipiyent cari vergi ilində başlayan və ya başa çatan istənilən on iki aylıq dövr ərzində ümumilikdə 183 gündən artıq olmayan bir dövr və ya dövrlər ərzində digər Dövlətdə qalırsa və

(b) mükafat digər Dövlətin rezidenti olmayan işəgötürən tərəfindən və ya onun adından ödənilirsə və

(c) mükafatların ödənilməsi üzrə xərclər işəgötürənin digər Dövlətdə sahib olduğu daimi nümayəndəlik və ya daimi baza tərəfindən çəkilmirsə.

3. Bu maddənin əvvəlki müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmisinin göyərtəsində həyata keçirilən muzdlu işlə bağlı əldə edilən mükafatlar həmin Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 16

Direktorların qonorarları

Razılığa gələn Dövlətin rezidenti tərəfindən Razılığa gələn digər Dövlətin rezidenti olan şirkətin direktorlar şurasının və ya nəzarət şurasının, yaxud digər oxşar orqanının üzvü qismində əldə edilən qonorarlar və digər oxşar ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

Maddə 17

İncəsənət işçiləri və idmançılar

1. 14-cü və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidenti tərəfindən teatr, kino, estrada, radio və ya televiziya artisti və ya musiqiçi qismində Razılığa gələn digər Dövlətdə həyata keçirilən, incəsənət işçisi kimi və ya idmançı kimi fərdi fəaliyyətdən əldə edilən gəlir həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Əgər incəsənət işçisi və ya idmançının bu cür şəxs kimi fərdi fəaliyyəti ilə bağlı gəlir incəsənət işçisi və ya idmançının özünə deyil, digər şəxsə hesablanırsa, həmin gəlir, 7-ci, 14-cü və 15-ci maddələrin müddəalarından asılı olmayaraq, incəsənət işçisi və ya idmançının fəaliyyətinin həyata keçirildiyi Razılığa gələn Dövlətdə vergiyə cəlb edilə bilər.

3. 1-ci və 2-ci bəndlərin müddəaları incəsənət işçisi və ya idmançı tərəfindən Razılığa gələn digər Dövlətdə həyata keçirilən fəaliyyətdən əldə edilən gəlirlərə, həmin digər Dövlətə səfər tamamilə və ya əsasən Dövlətlərdən birinin və ya hər ikisinin dövlət vəsaitlərindən, yaxud onların inzibati-ərazi bölmələri və ya yerli hakimiyyət orqanları tərəfindən maliyyələşdirildiyi halda tətbiq edilmir. Bu halda, gəlir yalnız incəsənət işçisi və ya idmançının rezident olduğu Razılığa gələn Dövlətdə vergiyə cəlb edilir.

Maddə 18

Təqaüdlər

19-cu maddənin 2-ci bəndinin müddəaları nəzərə alınmaqla, Razılığa gələn Dövlətin rezidentinə keçmişdəki muzdlu işlə bağlı ödənilən təqaüdlər və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

Maddə 19

Dövlət qulluğu

1. (a) Razılığa gələn Dövlət və ya onun inzibati ərazi bölməsi və ya yerli hakimiyyət orqanı tərəfindən fiziki şəxsə, həmin Dövlətə və ya bölməyə, yaxud hakimiyyət orqanına göstərilən xidmətlərlə bağlı ödənilən təqaüd olmayan maaş, əməkhaqqı və digər oxşar mükafatlar yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

(b) Bununla belə, əgər xidmətlər Razılığa gələn digər Dövlətdə göstərilirsə və fiziki şəxs həmin Dövlətin rezidentidirsə və o:

(i) həmin Dövlətin milli şəxsidirsə; və ya

(ii) yalnız qulluq göstərmək məqsədi üçün həmin Dövlətin rezidenti olmamış-

dırsa,bu cür maaş, əməkhaqqı və digər oxşar mükafatlar yalnız Razılığa gələn digər Dövlətdə vergiyə cəlb edilir.

2. (a) Razılığa gələn Dövlət və ya onun inzibati ərazi bölməsi və ya yerli hakimiyyət orqanı tərəfindən və ya onlar tərəfindən yaradılmış fondlardan fiziki şəxsə, həmin Dövlətə və ya bölməyə, yaxud hakimiyyət orqanına göstərilən xidmətlərlə bağlı ödənilən təqaüdlər yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

(b) Bununla belə, əgər fiziki şəxs Razılığa gələn digər Dövlətin rezidenti və milli şəxsidirsə, bu cür təqaüdlər yalnız həmin digər Dövlətdə vergiyə cəlb edilir.

3. 15-ci, 16-cı, 17-ci və 18-ci maddələrin müddəaları Razılığa gələn Dövlətin və ya onun inzibati ərazi bölməsinin və ya yerli hakimiyyət orqanının sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı göstərilən xidmətlərlə əlaqədar ödənilən maaş, əməkhaqqı və digər oxşar mükafatlara və təqaüdlərə tətbiq edilir.

Maddə 20

Tələbələr

Razılığa gələn Dövlətin rezidenti olan və ya Razılığa gələn digər Dövlətə gəlməzdən bilavasitə əvvəl adı birinci çəkilən Dövlətin rezidenti olmuş və həmin digər Dövlətdə yalnız təhsil və ya təlim almaq məqsədilə olan tələbələrin və ya təcrübə keçən şəxslərin yaşamaq, təhsil və ya təlim almaq məqsədilə aldıqları ödənişlər həmin digər Dövlətdə vergiyə cəlb edilmir, bir şərtlə ki, bu cür ödənişlərin mənbəyi həmin digər Dövlətdən kənarda olsun.

Maddə 21

Digər gəlirlər

1. Razılığa gələn Dövlətin rezidentinin, barəsində bu Konvensiyanın əvvəlki maddələrində söhbət açılmayan gəlir növləri, yaranma mənbəyindən asılı olmayaraq yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

2. 6-cı maddənin 2-ci bəndinə əsasən müəyyən edilmiş daşınmaz əmlakdan əldə olunan gəlirlərdən fərqli olan digər gəlirlərin resipienti Razılığa gələn Dövlətin rezidenti olmaqla sahibkarlıq fəaliyyətini Razılığa gələn digər Dövlətdə orada yerləşən daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi və ya həmin digər Dövlətdə orada yerləşən daimi baza vasitəsilə müstəqil fərdi xitdmətlər göstərdiyi və gəlirin ödənilməsi ilə bağlı olan hüquq və ya əmlakın bu cür daimi nümayəndəlik və ya daimi baza ilə faktiki olaraq əlaqəli olduğu halda, 1-ci bəndin müddəaları bu cür gəlirlərə tətbiq edilmir. Bu halda, şəraitdən asılı olaraq, 7-ci və ya 14-cü maddələrin müddəaları tətbiq edilir.

3. 1-ci və 2-ci bəndlərin müddəalarından asılı olmayaraq, Razılığa gələn Dövlətin rezidentinin, barəsində bu Konvensiyanın əvvəlki maddələrində söhbət açılmayan və Razılığa gələn digər Dövlətdə yaranan gəlir növləri həm-çinin həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

Fəsil IV

ƏMLAKIN VERGİYƏ CƏLB EDİLMƏSİ

Maddə 22

Əmlak

1. 6-cı maddədə qeyd edilmiş, Razılığa gələn Dövlətin rezidentinə məxsus olan və Razılığa gələn digər Dövlətdə yerləşən daşınmaz əmlakla ifadə olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

2. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyin kommersiya əmlakının bir hissəsini təşkil edən daşınar əmlakla və ya Razılığa gələn Dövlətin rezidentinin müstəqil fərdi xidmətlər göstərmək məqsədi üçün Razılığa gələn digər Dövlətdə sərəncamında olan daimi bazaya aid daşınar əmlakla ifadə olunmuş əmlak həmin digər Dövlətdə vergiyə cəlb edilə bilər.

3. Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən beynəlxalq daşımalarda istismar edilən dəniz və ya hava gəmiləri və ya bu cür dəniz və ya hava gəmilərinin istismarı ilə bağlı olan daşınar əmlakla təmsil olunmuş əmlak yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

4. Razılığa gələn Dövlətin rezidentinin bütün digər əmlak elementləri yalnız həmin Dövlətdə vergiyə cəlb edilir.

Fəsil V

İKİQAT VERGİTUTMANIN ARADAN QALDIRILMASI METODU

Maddə 23

İkiqat vergitutmanın aradan qaldırılması

1. Azərbaycanın rezidentinə münasibətdə ikiqat vergitutmanın qarşısı aşağıdakı kimi alınır:

əgər Azərbaycanın rezidenti, bu Konvensiyanın müddəalarına müvafiq olaraq Estoniyada vergiyə cəlb edilə bilən gəlir əldə edirsə və ya əmlaka sahibdirsə, bu cür gəlirə və ya əmlaka görə Estoniyada ödənilmiş vergi, həmin şəxsdən həmİn gəlir və ya əmlaka münasibətdə Azərbaycanda alınan verginin məbləğindən çıxılmalıdır.

Bununla belə, bu cür çıxılma Azərbaycanın qanunvericiliyinə və vergitutma qaydalarına müvafiq olaraq bu cür gəlirə və ya əmlaka hesablanmış verginin məbləğindən artıq olmamalıdır.

2. Estoniyanın rezidentinə münasibətdə ikiqat vergitutmanın qarşısı aşağıdakı kimi alınır:

(a) əgər Estoniyanın rezidenti bu Konvensiyanın müddəalarına müvafiq olaraq Azərbaycanda vergiyə cəlb edilə bilən gəlir əldə edirsə və ya əmlaka sahibdirsə və daxili qanunvericilikdə daha əlverişli şərtlər nəzərdə tutulmayıbsa, Estoniya:

(i) həmin rezidentin gəlir vergisindən Azərbaycanda ödənilmiş gəlir vergisinə bərabər məbləğin;

(ii) həmin rezidentin əmlak vergisindən Azərbaycanda ödənilmiş əmlak vergisinə bərabər məbləğin çıxılmasına icazə verəcəkdir.

Bununla belə, bu cür çıxılma heç bir halda həmin çıxılma verilməzdən əvvəl hesablanmış və şəraitdən asılı olaraq Azərbaycanda vergiyə cəlb edilə bilən gəlirə və ya əmlaka aid edilə bilən gəlir və ya əmlak vergisi hissəsindən artıq olmamalıdır.

(b) (a) altbəndinin məqsədləri üçün, əgər Estoniyanın rezidenti olan şirkət, Azərbaycanın rezidenti olan şirkətin tam səs hüququ verən səhmlərinin ən azı 10%-nə sahibdirsə və həmin şirkətdən dividendlər alırsa, bu halda Azərbaycanda ödənilmiş vergilərə yalnız dividendlərə görə ödənilmiş vergilər deyil, həm də dividendləri ödəyən şirkətin dividendlər ödənilən əsas mənfəətinə görə ödənilmiş vergilərin müvafiq proporsiyası da aid edilir.

Fəsil VI

XÜSUSİ MÜDDƏALAR

Maddə 24

Ayrı-seçkiliyə yol verilməməsi

1. Razılığa gələn Dövlətin milli şəxsləri Razılığa gələn digər Dövlətdə həmin digər Dövlətin milli şəxslərinin eyni şəraitdə, xüsusilə rezidentliyə münasibətdə cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdəliklərə cəlb edilməməlidir. Bu müddəa, 1-ci maddənin müddəalarından asılı olmayaraq, həmçinin Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olmayan şəxslərə də tətbiq edilir.

2. Razılığa gələn Dövlətin rezidenti olan vətəndaşlığı olmayan şəxslər, Razılığa gələn Dövlətlərdən heç birində həmin Dövlətin milli şəxslərinin eyni şəraitdə, xüsusilə rezidentliyə münasibətdə cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdəliklərə cəlb edilməməlidir.

3. Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətdə sahib olduğu daimi nümayəndəliyin vergiyə cəlb edilməsi həmin digər Dövlətdə həmin digər Dövlətin eyni fəaliyyətlə məşğul olan müəssisələrinin vergiyə cəlb edilməsindən az əlverişli olmamalıdır. Bu müddəa Razılığa gələn Dövlətin üzərinə onun, mülki status və ya ailə Öhdəlikləri nəzərə alınmaqla öz rezidentlərinə verdiyi vergitutma məqsədləri üçün hər hansı şəxsi imtiyazların, güzəştlərin və çıxılmaların Razılığa gələn digər Dövlətin rezidentlərinə də verilməsi öhdəliyinin qoyulması kimi təfsir edilməməlidir.

4. 9-cu maddənin 1-ci bəndinin, 11-ci maddənin 7-ci bəndinin və ya 12-ci maddənin 6-cı bəndinin müddəalarının tətbiq edildiyi hallar istisna edilməklə, Razılığa gələn Dövlətin müəssisəsi tərəfindən Razılığa gələn digər Dövlətin rezidentinə ödənilən faizlər, royaltilər və digər ödənişlər, bu cür müəssisənin vergiyə cəlb edilməli olan mənfəətinin müəyyən edilməsi məqsədilə, adı birinci çəkilən Dövlətin rezidentinə ödənildiyi halda tətbiq olunan eyni şərtlər əsasında çıxılmalıdır. Eynilə, Razılığa gələn Dövlətin müəssisəsinin Razılığa gələn digər Dövlətin rezidentinə olan hər hansı bir borcu həmin müəssisənin vergiyə cəlb edilməli olan kapitalının müəyyən edilməsi məqsədilə adı birinci çə-

kilən Dövlətin rezidentinə olan borc kimi eyni şərtlər əsasında çıxılmalıdır.

5. Razılığa gələn Dövlətin, əmlakı tamamilə və ya qismən Razılığa gələn digər Dövlətin rezidentinə və ya rezidentlərinə məxsus olan və ya onların bir-başa və ya dolayı nəzarəti altında olan müəssisəsi adı birinci çəkilən Dövlət-də həmin Dövlətin digər oxşar müəssisələrinin cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdəliklərə cəlb edilə bilməz.

6. Bu maddənin müddəaları, 2-ci maddənin müddəalarından asılı olmayaraq, istənilən növlü və xarakterli vergilərə tətbiq edilir.

Maddə 25

Qarşılıqlı razılaşma proseduru

1. Əgər hər hansı şəxs Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin hərəkətlərinin onun bu Konvensiyanın müddəalarına uyğun olmayan tərzdə vergiyə cəlb edilməsinə gətirib çıxardığını və ya çıxara biləcəyini zənn edirsə, həmin şəxs, həmin Dövlətlərin daxili qanunvericiliklərində nəzərdə tutulmuş müdafiə vasitələrindən asılı olmayaraq, bu işlə bağlı rezident olduğu Dövlətin və ya bu hal 24-cü maddənin 1-ci bəndinin əhatə dairəsinə aiddirsə, milli şəxsi olduğu Razılığa gələn Dövlətin səlahiyyətli orqanlarına müraciət edə bilər. Müraciət, bu Konvensiyanın müddəalarına uyğun olmayan vergitutmaya gətirib çıxaran hərəkətlər haqqında ilk məlumat tarixindən etibarən 3 il ərzində təqdim edilməlidir.

2. Əgər səlahiyyətli orqan etirazı əsaslandırılmış hesab edərək, eyni zamanda, qənaətbəxş qərara gələ bilmirsə, bu Konvensiyanın müddəalarına uyğun olmayan vergitutmanın qarşısının alınması məqsədilə məsələni Razılığa gələn digər Dövlətin səlahiyyətli orqanı ilə qarşılıqlı razılıq yolu ilə həll etməyə səy göstərir. Əldə edilmiş hər hansı bir razılıq, Razılığa gələn Dövlətin daxili qanunvericiliyində nəzərdə tutulmuş hər hansı zaman məhdudiyyətlərindən asılı olmayaraq həyata keçirilməlidir.

3. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Konvensiyanın təfsiri və ya tətbiqi ilə bağlı meydana çıxan bütün çətinlikləri və ya şübhələri qarşılıqlı razılıq yolu ilə həll etməyə səy göstərməlidirlər. Onlar həmçinin bu Konvensiyada nəzərdə tutulmamış hallarda ikiqat vergitutmanın aradan qaldırması üçün bir-biri ilə məsləhətləşmələr apara bilərlər.

4. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları, əvvəlki bəndlərin anlaşılmasında razılığın əldə edilməsi məqsədilə birbaşa olaraq, o cümlədən onların özləri və ya nümayəndələrindən ibarət olan birgə komissiya vasitəsilə bir-biri ilə birbaşa əlaqələr yarada bilərlər.

Maddə 26

İnformasiya mübadiləsi

1. Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Konvensiyanın və ya Razılığa gələn Dövlətlərin Razılığa gələn Dövlətlər və ya onların inzibati ərazi bölmələri və ya yerli hakimiyyət orqanları tərəfindən tutulan istənilən növlü və xarakterli vergilərlə bağlı daxili qanunvericiliklərinin müddəalarının yerinə yetirilməsi üçün zəruri olan in-

formasiya mübadiləsi həyata keçirirlər, bir şərtlə ki, həmin qanunvericilikdə nəzərdə tutulmuş vergitutma bu Konvensiyaya zidd olmasın. İnformasiya mübadiləsi 1-ci və 2-ci maddələrlə məhdudlaşmır. Razılığa gələn Dövlət tərəfindən əldə edilmiş hər hansı informasiya, həmin Dövlətin daxili qanunvericiliyi əsasında əldə edilmiş informasiyaya tətbiq edilən eyni qayda əsasında məxfi hesab edilir və yalnız birinci cümlədə göstərilən vergilərin hesablanması və ya toplanması, məcburi alınması və ya prosessual qaydada təqib edilməsi, yaxud həmin vergilərlə bağlı şikayətlərə baxılması ilə məşğul olan şəxslərə və ya orqanlara (o cümlədən məhkəmələrə və inzibati orqanlara) açıqlanır. Bu şəxslər və ya orqanlar həmin informasiyadan yalnız bu cür məqsədlər üçün istifadə edirlər. Onlar bu informasiyam açıq məhkəmə istintaqı və ya məhkəmə qərarlarında açıqlaya bilərlər.

2. Heç bir halda, 1-ci bəndin müddəaları Razılığa gələn Dövlətlərin üzərinə aşağıdakı öhdəliklərin qoyulması kimi şərh edilməməlidir:

(a) Razılığa gələn bu və ya digər DÖvlətin qanunvericiliyində və inzibati təcrübəsində nəzərdə tutulmuş tədbirlərdən fərqli olan inzibati tədbirlər həyata keçirmək;

(b) Razılığa gələn bu və ya digər Dövlətin qanunvericiliyi və ya adi inzibatçılığı əsasında əldə edilməsi mümkün olmayan informasiya vermək;

(c) hər hansı ticarət, sahibkarlıq, sənaye, kommersiya və ya peşə sirrini, yaxud ticarət prosesini açа biləcək informasiya və ya açılması dövlət siyasətinə (ordre public) zidd olan informasiya vermək.

Maddə 27

Diplomatik nümayəndəliklərin və konsulluq idarələrinin üzvləri

Bu Konvensiyanın heç bir müddəası diplomatik nümayəndəliklərin və ya konsulluq idarələrinin üzvlərinin beynəlxalq hüququn ümumi normalarına və ya xüsusi müqavilələrə əsasən müəyyən edilmiş vergi imtiyazlarına toxunmur.

Fəsil VII

YEKUN MÜDDƏALAR

Maddə 28

Qüvvəyə minmə

1. Razılığa gələn Dövlətlərin Hökumətləri bir-birini, bu Konvensiyanın qüvvəyə minməsi üçün zəruri olan tələblərin yerinə yetirdiyi zaman bu barədə diplomatik kanallarla yazılı xəbərdar edirlər.

2. Konvensiya bildirişlərdən sonuncusunun alındığı tarixindən qüvvəyə minir və onun müddəaları Razılığa gələn hər iki Dövlətdə tətbiq edilir:

(a) mənbədə tutulan vergilərə münasibətdə - Konvensiyanın qüvvəyə mindiyi tarixdən sonrakı təqvim ilinin yanvar ayının ilk günündə və ya ondan sonra ödənilən gəlirlərə;

(b) digər vergilərə münasibətdə - Konvensiyanın qüvvəyə mindiyi tarixdən sonrakı təqvim ilinin yanvar ayının ilk günündə və ya ondan sonra başlanan hər hansı vergi ili dövrü üzrə tutulan vergilərə.

Maddə 29

Qüvvədən düşmə

Bu Konvensiya Razılığa gələn Dövlətlərdən hər hansı biri tərəfindən onun qüvvəsi ləğv edilənədək qüvvədə olacaqdır. Razılığa gələn Dövlətlərdən hər biri bu Konvensiyanın qüvvəyə mindiyi tarixdən sonrakı üç illik dövr bitdikdən sonra hər hansı təqvim ilinin başa çatmasına ən azı altı ay qalmış, diplomatik kanallarla qüvvədən düşmə haqqında yazılı bildiriş təqdim etməklə, Konvensiyanın qüvvəsini ləğv edə bilər. Bu halda, bu Konvensiyanın qüvvəsi ləğv edilir:

(a) mənbədə tutulan vergilərə münasibətdə - bildirişin təqdim edildiyi tarixdən sonrakı təqvim ilinin yanvar ayının ilk günündə və ya ondan sonra ödənilən gəlirlərə;

(b) digər vergilərə münasibətdə - bildirişin təqdim edildiyi tarixdən sonrakı təqvim ilinin yanvar ayının ilk günündə və ya ondan sonra başlanan hər hansı vergi ili dövrü üzrə tutulan vergilərə.

Bunun təsdiqi olaraq, müvafiq qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Konvensiyanı imzaladılar.

Bakı şəhərində 2007-ci il 30 oktyabr tarixində Azərbaycan, eston və ingilis dillərində iki nüsxədə imzalanmışdır, hər üç mətn bərabər autentikdir. Konvensiyanın təfsiri zamanı fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	ESTONİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
FAZİL MƏMMƏDOV	*URMAS PAET*
Vergilər naziri	*Xarici işlər naziri*

"Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Konvensiyanın Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. "Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Konvensiyanın 2007-ci il oktyabrın 30-da Bakı şəhərində imzalanmış Protokolu təsdiq edilsin.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 dekabr 2007-ci il

№518-IIIQ

Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiyanın Protokolu

Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya imzalanan zaman, aşağıda imza edənlər aşağıdakı müddəaların Konvensiyanın tərkib hissəsi sayılması barədə razılığa gəldilər:

3-cü maddənin 1-ci bəndinin (e) altbəndinə əlavə

Azərbaycana münasibətdə, özünün müvafiq statusunu Azərbaycanda qüvvədə olan qanunlara əsasən almış və Azərbaycan qanunlarına əsasən vergiyə cəlb edilən subyekt hesab edilən tərəfdaşlıq və ya birgə müəssisə bu Konvensiyanın məqsədləri üçün şəxs hesab edilir.

Bunun təsdiqi olaraq, müvafiq qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Protokolu imzaladılar.

Bakı şəhərində 2007-ci il 30 oktyabr tarixində Azərbaycan, eston və ingilis dillərində iki nüsxədə imzalanmışdır, hər üç mətn bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	ESTONİYA RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
FAZİL MƏMMƏDOV	*URMAS PAET*
Vergilər naziri	*Xarici işlər naziri*

Azərbaycan Respublikası Prezidentinin bəzi sərəncamlarına dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası Prezidentinin aşağıdakı sərəncamlarına dəyişikliklər edilsin:

1.1. "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 10 oktyabr tarixli 1059 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 10, maddə 617) 1-ci bəndində "Akif Musayev" sözləri "Mirdaməd Sadıqov" sözləri ilə əvəz edilsin;

1.2. "Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 14 aprel tarixli 1203 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 4, maddə 193) 1-ci bəndində "Akif Musayev" sözləri "Mirdaməd Sadıqov" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 dekabr 2007-ci il

№2565

"Azərbaycan Respublikasını təmsil edən Maliyyə Nazirliyi ("Azərbaycan tərəfi"), Almaniya İnkişaf Bankı, KfW ("KfW") və Beynəlxalq Əməkdaşlıq üzrə Əmanət Kassaları Fondu ("BƏƏKF") arasında Alman-Azərbaycan Fonduna (AAF-a) menecment xidmətləri haqqında Müqavilə"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasını təmsil edən Maliyyə Nazirliyi ("Azərbaycan tərəfi "), Almaniya İnkişaf Bankı, KfW ("KfW") və Beynəlxalq Əməkdaşlıq üzrə Əmanət Kassaları Fondu ("BƏƏKF") arasında Alman-Azərbaycan Fonduna (AAF-a) menecment xidmətləri haqqında Müqavilə"ni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Müqaviləni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının maliyyə naziri Samir Rauf oğlu Şərifova verilməsi barədə Almaniya Federativ Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 dekabr 2007-ci il

№2566

Azərbaycan Respublikası və Xorvatiya Respublikası arasında 2007-ci il oktyabrın 2-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Xorvatiya Respublikası arasında 2007-ci il oktyabrın 2-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası ilə Xorvatiya Respublikası Xarici İşlər və Avropaya İnteqrasiya Nazirliyinin Diplomatik Akademiyası arasında əməkdaşlıq haqqında Protokol;

1.2. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Xorvatiya Respublikasının İqtisadiyyat, Əmək və Sahibkarlıq Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum;

1.3. Azərbaycan Respublikası Ticarət və Sənaye Palatası və Xorvatiya İqtisadi Palatası arasında Saziş.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.3-cü bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.3-cü bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Xorvatiya Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 dekabr 2007-ci il

№2587

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası ilə Xorvatiya Respublikası Xarici İşlər və Avropaya İnteqrasiya Nazirliyinin Diplomatik Akademiyası arasında əməkdaşlıq haqqında Protokol

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası ilə Xorvatiya Respublikası Xarici İşlər və Avropaya İnteqrasiya Nazirliyinin Diplomatik Akademiyası,

diplomatik kadrların hazırlığı və onların ixtisas keyfiyyətinin yüksəldilməsi sahəsində əməkdaşlığın yaradılması və inkişaf etdirilməsi niyyətində olaraq, Azərbaycan Respublikasının və Xorvatiya Respublikasının diplomatik xidmətləri arasında münasibətlərin möhkəmləndirilməsi üçün,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Protokolun məqsədi Tərəflərin fəaliyyəti və proqramları çərçivəsində elm və tədris sahələrində əməkdaşlıq və müntəzəm əlaqələr üçün hüquqi baza və şərtlərin yaradılmasıdır.

Maddə 2

Bu əməkdaşlığın prioritet sahələri aşağıdakılardır:

1. Gənc diplomatların:

xarici siyasət;

beynəlxalq münasibətlər;

beynəlxalq hüquq;

beynəlxalq iqtisadi münasibətlər;

politologiya

və digər tədris sahələrində ixtisas hazırlığı və keyfiyyət səviyyəsinin yüksəldilməsi.

2. Tədris, metodologiya və elmi məsələlər üzrə məlumatların qarşılıqlı mübadiləsi.

Maddə 3

Tərəflər bu əməkdaşlığı aşağıdakılar vasitəsilə həyata keçirəcəklər:

1. əsas və xüsusi kurslar proqramı;

2. diplomatların, müəllimlərin, tədqiqatçıların və tələbələrin mübadiləsi;

3. birgə elmi tədqiqat və nəşrlər;

4. sahəvi, elmi və dissertasiya işlərinin hazırlanması sahəsində əməkdaşlıq;

5. diplomatik kadrların dil hazırlığı sahəsində əməkdaşlıq;

6. elmi işlər və tədris metodologiyası məsələləri üzrə təcrübə mübadiləsi;

7. tədris materiallarının, ədəbiyyatların və nəşrlərin mübadiləsi.

Maddə 4

Tərəflərin nümayəndələrinin mübadiləsi və hazırlığının formaları, müddəti və maliyyə şərtləri qarşılıqlı əsasda həyata keçiriləcək və Tərəflər arasında xüsusi razılaşmaların mövzusu olacaqdır.

Maddə 5

Bir Tərəfin mütəxəssisləri digər Tərəfin təşkil etdiyi konfranslarda, simpoziumlarda, elmi seminarlarda və dəyirmi masalarda iştirak edə bilər. Tərəflər belə tədbirlər barədə bir-birlərini məlumatlandıracaqlar.

Tərəflər birgə simpozium və konfransların təşkilini, birgə elmi tədqiqatların inkişafını və qarşılıqlı maraq doğuran layihələrin həyata keçirilməsini təşviq edəcəklər.

Tərəflər təmsil olunduqları beynəlxalq forum və təşkilatlar çərçivəsində əməkdaşlıq edəcəklər.

Maddə 6

Tərəflər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin, Xorvatiya Respublikası Xarici İşlər və Avropaya İnteqrasiya Nazirliyinin ekspertlərinin, eləcə də üçüncü tərəfi təmsil edən şəxslərin akademiyaların dinləyiciləri qarşısında qarşılıqlı maraqları əks etdirən məsələlər üzrə çıxışlarının və mühazirələrinin təşkilinə dəstək verəcəklər.

Maddə 7

Bu Protokolun təfsiri və tətbiqi ilə bağlı fikir ayrılıqları və mübahisələr Tərəflər arasında məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

Maddə 8

Tərəflərin təyin etdikləri nümayəndələrin həmsədrlik edəcəyi əməkdaşlıq üzrə birgə qrup bu Protokolun həyata keçirilməsinə və Tərəflər arasında əməkdaşlığın inkişaf etdirilməsi üzrə layihələrin hazırlanmasına görə məsul olacaqdır.

Maddə 9

Tərəflərin qarşılıqlı yazılı razılığı ilə bu Protokol müddəalarına düzəlişlər oluna bilər.

Maddə 10

Bu Protokol imzalandığı tarixdən qüvvəyə minir və Tərəflərdən biri bu Protokola xitam vermək niyyətində olduğu barədə üç ay əvvəldən yazılı formada digər Tərəfə bildiriş göndərənə qədər qüvvədə qalır.

Bu Protokol Bakı şəhərində 2007-ci il 2 oktyabr tarixində Azərbaycan, xorvat və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Protokolun təfsiri zamanı fikir ayrılığı yarandıqda ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN DİPLOMATİK AKADEMİYASI TƏRƏFİNDƏN	XORVATİYA RESPUBLİKASI XARİCİ İŞLƏR VƏ AVROPAYA İNTEQRASİYA NAZİRLİYİNİN DİPLOMATİK AKADEMİYASI TƏRƏFİNDƏN
HAFİZ PAŞAYEV	*ZELİJKO KUPERŞAK*
Diplomatik Akademiyanın rektoru	*Xarici İşlər və Avropa İnteqrasiyası Nazirliyinin dövlət katibi*

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Xorvatiya Respublikasının İqtisadiyyat, Əmək və Sahibkarlıq Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Xorvatiya Respublikasının İqtisadiyyat, Əmək və Sahibkarlıq Nazirliyi (bundan sonra "Tərəflər" adlandırılacaq),

Tərəflər arasında qarşılıqlı iqtisadi əməkdaşlığı dəstəkləmək və gücləndirmək arzusunda olaraq, iqtisadi, sənaye, texniki və texnoloji sferalarda qarşılıqlı marağa əsaslanan əməkdaşlığı inkişaf etdirmək və intensivləşdirmək niyyətində olaraq,

belə bir əməkdaşlığın gücləndirilməsinin onların gələcək inkişafı üçün əlverişli şərait və müvafiq əsas yaradacağına inanaraq,

bu Memorandumun (bundan sonra "Memorandum" adlandırılacaq) Tərəflər arasında yaxşı münasibətləri təşviq edəcəyinə və Azərbaycan Respublikası ilə Xorvatiya Respublikası arasında əməkdaşlığın müxtəlif formaları üçün əlverişli şərait yaradacağına əmin olaraq,

hər iki ölkənin qüvvədə olan qanunvericiliyinə uyğun olaraq onların qarşılıqlı münasibətləri üçün müvafiq hüquqi baza yaradılmasının zəruriliyini dərk edərək;

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər, Azərbaycan Respublikası ilə Xorvatiya Respublikası arasında iqtisadi əlaqələrin inkişafında maraqlı olduqlarını təsdiq edirlər. Bu məqsədlə, onlar dövlətlərinin qanunvericiliyində təsbit olunmuş səlahiyyətləri çərçivəsində hər iki dövlətin iqtisadi qurumları arasında daha intensiv və əlverişli əməkdaşlığın davam etdirilməsini qarşılıqlı şəkildə dəstəkləyəcəklər.

Maddə 2

Hər bir Tərəf öz səlahiyyəti çərçivəsində xüsusilə aşağıdakı sahələrdə sənaycnin və qarşılıqlı iqtisadi münasibətlərin inkişafı ilə bağlı mümkün əməkdaşlığa dair digər Tərəfi məlumatlandıracaq:

a) gəmiqayırma;

b) maşınqayırma sənayesi;

c) enerji və elektrik maşınqayırması sənayeləri;

d) infrastruktur;

e) kənd təsərrüfatı;

f) turizm;

g) kiçik və orta müəssisələr arasında əməkdaşlıq;

h) bu Memorandum əsasında qarşılıqlı olaraq razılaşdırıla bilən iqtisadi və sənaye əməkdaşlığının digər sahələri.

Maddə 3

1. Bu Memorandumun 2-ci maddəsində göstərilən sahələr çərçivəsində Tərəflər aşağıdakı fəaliyyətlərdə qarşılıqlı iqtisadi əlaqələri inkişaf etdirəcək və onlar haqqında bir-birini məlumatlandıracaqlar:

a) öz səlahiyyətləri çərçivəsində beynəlxalq təşkilatlarda əməkdaşlıq imkanları;

b) Tərəflərin fəaliyyət sahəsinə dair hazırlanmış qanunvericilik;

c) öz ölkələri daxilində investisiya mühitinin, iqtisadi və investisiya imkanlarının inkişafı;

d) məhsullar üçün texniki tələblər.

2. Özlərinin iqtisadi və inkişaf siyasəti və prioritetlərinə uyğun olaraq, Tərəflər dövlət sektorunun sənaye, texniki və texnoloji əməkdaşlığını inkişaf etdirəcək və beləliklə, özəl sektorun hər iki dövlətin sənaye və texnoloji inkişafına daha çox cəlb edilməsinə yardım edəcəklər.

3. Tərəflər yuxarıda göstərilən fəaliyyətləri müvafiq məlumatların mübadiləsi və bu Memorandumun 4-cü maddəsinə müvafiq olaraq yaradılan "Birgə İşçi Qrup"un müntəzəm iclasları vasitəsilə həyata keçirəcəklər.

Maddə 4

1. Bu Memorandumun həyata keçirilməsi məqsədilə, Tərəflər, hər iki Tərəfin nümayəndələrindən ibarət olan "Birgə İşçi Qrup" (bundan sonra "İşçi Qrup" adlanacaq) yaradacaqlar. Ehtiyac olduğu təqdirdə, İşçi Qrupa bu Memorandumun məqsədlərinin həyata keçirilməsinə yardım etmək məqsədilə digər təşkilatların və institutların nümayəndələri də daxil edilə bilər.

2. İşçi Qrup, zərurət olduqda və ya Tərəflərdən biri tələb etdikdə, yəni, "ad hoc" qaydada, tələb edən dövlətin ərazisində iclas keçirəcəkdir.

3. Tərəflər İşçi Qrupun həmsədrlərinin təyin edilməsi barədə bir-birini diplomatik kanallar vasitəsilə məlumatlandıracaqlar.

4. Həmsədrlər İşçi Qrupun digər üzvlərini təyin edirlər.

Maddə 5

Bu Memorandumun müddəalarının təfsiri və ya tətbiqindən irəli gələn bütün mümkün mübahisələr Tərəflər arasında qarşılıqlı danışıqlarla həll olunacaqdır.

Maddə 6

1. Bu Memorandum qeyri-müəyyən müddətə bağlanılır və hər iki Tərəfin imzaladığı gündən etibarən qüvvəyə minəcəkdir.

2. Bu Memoranduma hər iki Tərəfin qarşılıqlı razılığı əsasında ayrıca protokollarla rəsmiləşdirilən dəyişiklik və ya düzəliş edilə bilər.

3. Nəzərdə tutulan, lakin bu Memorandumun müddətinin bitdiyi vaxt hələ tam həyata keçirilməyən öhdəliklər tam həyata keçirilənədək bu Memorandumun müddəaları ilə tənzimlənəcəkdir.

4. Hər bir Tərəf digər Tərəfə yazılı bildiriş verməklə bu Memorandumu ləğv edə bilər. Belə ləğvetmə müvafiq bildirişin alındığı tarixdən sonrakı dördüncü ayın ilk günündən etibarən qüvvəyə minəcəkdir.

5. Bu Memorandumun müddəaları Azərbaycan Respublikasının beynəlxalq təşkilatlara və Xorvatiya Respublikasının Avropa İttifaqına gələcək üzvlüyündən irəli gələn öhdəliklərinə zərər yetirəcək və ya digər formada təsir edəcək şəkildə tətbiq və təfsir edilməyəcəkdir.

Bakı şəhərində 2007-ci il 2 oktyabr tarixində Azərbaycan, xorvat və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Memorandumun müddəalarının təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF NAZİRLİYİ ADINDAN	XORVATİYA RESPUBLİKASININ İQTİSADİYYAT, ƏMƏK VƏ SAHİBKARLIQ NAZİRLİYİ ADINDAN
HEYDƏR BABAYEV	*ZELİJKO KUPERŞAK*
İqtisadi inkişaf naziri	*Xarici İşlər və Avropa İnteqrasiyası Nazirliyinin dövlət katibi*

Azərbaycan Respublikası Ticarət və Sənaye Palatası və Xorvatiya İqtisadi Palatası arasında Saziş

Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası və Xorvatiya İqtisadi Palatası (bundan sonra "Tərəflər" adlandırılır), öz üzvlərinin - Azərbaycan və Xorvatiya müəssisələri, şirkətləri, təşkilatları, həmçinin onların birlikləri və ittifaqlarının maraqlarından çıxış edərək, Azərbaycan Respublikası və Xorvatiya Respublikasının xarici iqtisadi fəaliyyətinin iştirakçılarının qarşılıqlı fayda kəsb edən ticarət, iqtisadi və elmi-texniki

əlaqələrinin inkişafı və təkmilləşdirilməsinin əhəmiyyətini dərk edərək, iqtisadi dəyişikliklərin hazırkı şəraitində sahibkarlıq fəaliyyəti üçün hüquqi və iqtisadi şəraiti və iki ölkənin iqtisadi fəaliyyət subyektlərinin iqtisadi əlaqələri üçün zəruri infrastrukturun inkişafını dəstəkləmək arzusunda olaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər, Azərbaycan və Xorvatiya müəssisələri, şirkətləri, sahibkarları və onların ittifaqları arasında birbaşa əlaqələrin inkişafına yardım edəcək, habelə bərqərar olmuş iqtisadi əməkdaşlığı və elmi, texniki əlaqələri dəstəkləyəcəklər.

Tərəflər ikitərəfli qarşılıqlı iqtisadi əməkdaşlığın inkişafı və ona geniş miqyasda iştirakçıların, o cümlədən sahibkarların, kiçik və orta şirkət və müəssisələrin cəlb edilməsi üçün bütün mümkün tədbirləri həyata keçirəcəklər.

Maddə 2

Tərəflər öz səlahiyyətləri çərçivəsində kommersiya və sahibkarlıq fəaliyyəti, o cümlədən hər iki ölkənin milli bazarlarında vəziyyət və ixrac imkanları, müəssisələr, birliklər, təşkilatlar və şirkətlərin idxal tələbatları haqqında iqtisadi və hüquqi informasiyaların, habelə xarici-iqtisadi fəaliyyəti tənzimləyən müvafiq normativ aktların və digər məlumatların mübadiləsi üçün tədbirlər görəcəklər.

Maddə 3

Tərəflər seminarlar, sahibkarların görüşləri, simpoziumlar, texniki konfranslar və oxşar tədbirlər təşkil etmək, işgüzar dairələrin, Azərbaycan və Xorvatiya müəssisələrinin mütəxəssislərindən ibarət nümayəndə heyətlərinin mübadiləsinin həyata keçirilməsi barədə razılaşdılar.

Maddə 4

Tərəflər, öz üzvlərinin-müəssisələrin və təşkilatların Azərbaycanda və Xorvatiyada keçirilən beynəlxalq xarici və ixtisaslaşdırılmış sərgilərdə, yarmarkalarda və başqa reklam-informasiya xarakteri daşıyan tədbirlərdə fəal iştirakını təşviq edəcək və zəruri şərait yaradacaqlar.

Maddə 5

Tərəflər Azərbaycan və Xorvatiya müəssisələrinə, şirkətlərinə, təşkilatlarına və onların birliklərinə arbitraj sahəsində yardımın göstərilməsi, ixtiralar üçün patentin verilməsi, sənaye mülkiyyətinin müdafiəsi, əmtəə nişanlarının qeydiyyatı, keyfiyyət və komplektliliyin, ixrac və idxal olunan məhsulların yoxlanılması sahələrində qarşılıqlı əməkdaşlığa xüsusi diqqət yetirəcəklər.

Tərəflər, Azərbaycan və Xorvatiya subyektləri arasında ticarət sahəsində rəqabətdə və səmərəli tərəfdaşlıqda pozuntuların qarşısının alınması məqsədilə əməkdaşlıq və məlumat mübadiləsi edəcəklər.

Maddə 6

Tərəflər hər iki ölkənin qanunvericilik və icra orqanlarındakı nüfuzundan istifadə edərək, kommersiya fəaliyyətinin milli və beynəlxalq hüquq şərtlərinin və qanunvericilik

bazasının və ticarət və iqtisadi əməkdaşlıq üçün zəruri olan infrastrukturun təkmilləşdirilməsini dəstəkləyəcəklər.

Maddə 7

Tərəflər öz üzvlərini bu Sazişlə tanış etməyi öz öhdələrinə götürürlər.

Maddə 8

Saziş imzalandığı gündən qüvvəyə minir.

Saziş qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərdən hər biri istənilən zaman yazılı bildiriş yolu ilə onu ləğv edə bilər. Bu halda Saziş ləğvetmə haqqında yazılı bildiriş alındığı tarixdən 6 ay keçdikdən sonra qüvvədən düşür.

Bakı şəhərində 2007-ci il 2 oktyabr tarixində ingilis dilində iki əsl nüsxədə imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ TİCARƏT VƏ SƏNAYE PALATASI ADINDAN	XORVATİYA RESPUBLİKASININ İQTİSADİYYAT PALATASI ADINDAN
SÜLEYMAN TATLIYEV	*NADAT VİDOŞEVİÇ*
Ticarət və Sənaye Palatasının prezidenti	*İqtisadiyyat Palatasının prezidenti*

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında 2007-ci il noyabrın 6-da Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında 2007-ci il noyabrın 6-da Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında gənclərlə iş və idman sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Türkiyə Respublikasının Qadın və Ailə Məsələləri üzrə Dövlət Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.2-ci bəndlərində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Türkiyə Respublikası tərəfini xəbərdar etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 dekabr 2007-ci il

№2588

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında gənclərlə iş və idman sahəsində əməkdaşlıq haqqında Saziş

Bundan sonra "Tərəflər" adlanan Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti,

gənclər və idman sahələrində sıx əməkdaşlığın gənc nəsillər arasında qardaşlıq əlaqələrinin və qarşılıqlı anlaşmanın güclənməsinə xidmət edəcəyinə əmin olaraq,

iki qardaş dövlətin gənclərlə iş və idman strukturları arasında əlaqələrin daha da genişləndirilməsi və gücləndirilməsi məqsədilə

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər ölkələrinin gəncləri arasında əlaqələrin dövlət orqanları, öz ölkələrində tanınan ictimai gənclər təşkilatları vasitəsilə möhkəmləndirilməsi və inkişafına hərtərəfli yardım edəcəklər.

Maddə 2

Tərəflər idman təşkilatları arasında əməkdaşlığa və onların hər iki dövlətin ərazisində keçirilən idman tədbirlərində iştirakına kömək edəcəklər.

Maddə 3

Tərəflər gənclər və idman, o cümlədən gənc əlillər və əlil idmançıların problemləri ilə məşğul olan tədqiqat müəssisələri və mərkəzləri, yüksəkixtisaslı peşəkar məşqçilərin hazırlanması və təkmilləşdirilməsi məqsədilə hər iki ölkənin ali idman məktəbləri arasında birbaşa əlaqələrin inkişaf etdirilməsinə kömək edəcəklər.

Maddə 4

Tərəflər gənclərin yay istirahətinin təşkilinə, tətil dövründə məktəbli və tələbə qruplarının mübadiləsinə əlverişli şərait yaradacaqlar.

Maddə 5

Tərəflər idman avadanlığı, ləvazimatı və geyimi istehsalı, idman qurğularının layihələşdirilməsi, tikintisi, yenidən qurulması və istismarı sahəsində əməkdaşlığı təşviq edəcəklər.

Maddə 6

Tərəflər öz ölkələrində yarışların və təlim-məşq toplanışlarının keçirilməsinə, idmançı və məşqçi mübadilələrinə müvafiq şərait yaradacaqlar.

Maddə 7

Tərəflər bu Sazişin əhatə etdiyi sahələrdə keçirilən festival, konfrans, simpozium, seminar, müsabiqə, sərgi, görüş, forum və turnirlərdə, həmçinin gənclər və idman sahələrinə aid digər tədbirlərdə iştirak edəcəklər, idman mütəxəssisləri, məşqçi-müəllimlər və müvafiq sahələrdə digər mütəxəssislər arasında təcrübə mübadiləsi aparılmasına yardım göstərəcəklər.

Maddə 8

Tərəflər qabaqcadan alınmış məlumata uyğun olaraq, digər Tərəfin ərazisində olan mütəşəkkil gənclər və idmançı qruplarına, ayrı-ayrı rəsmi nümayəndələrə hərtərəfli yardım edəcəklər.

Maddə 9

Bu Sazişin maddələrinin həyata keçirilməsini müzakirə etmək və qarşıdakı il üçün birgə tədbirlər planı işləyib hazırlamaq məqsədilə Tərəflərin nümayəndələri hər il növbə ilə Bakı və Ankara şəhərlərində görüşəcəklər.

Maddə 10

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və 11-ci maddəsinə uyğun olaraq qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 11

Bu Saziş 1 (bir) il müddətinə bağlanılır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirdikləri barədə bir-birinə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən biri bu müddətin başa çatmasına ən azı 6 (altı) ay qalmış onun qüvvəsini ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə bildirməzsə, bu Sazişin müddəti növbəti birillik müddətlərə uzadılır.

Bu Saziş Bakı şəhərində 2007-ci il 6 noyabr tarixində, Azərbaycan, türk və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər autentikdir. Bu Sazişin təfsiri zamanı fikir ayrılığı yarandıqda ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN	TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN
ELMAR MƏMMƏDYAROV	*NİMET ÇUBUKÇU*
Xarici işlər naziri	*Dövlət naziri*

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Türkiyə Respublikasının Qadın və Ailə Məsələləri üzrə Dövlət Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Türkiyə Respublikasının Qadın və Ailə Məsələləri üzrə Dövlət Nazirliyi (bundan sonra "Tərəflər" adlandırılacaq) öz səlahiyyətləri daxilində qarşılıqlı faydalı əlaqələr yaradılması və əməkdaşlıq etmək niyyətilə;

ailə, qadın və uşaq problemləri sahəsində məsələlərin birgə həll edilməsində maraqlı olduqlarını təsdiq edərək;

insan hüquqlarının təmin edilməsi zərurətindən çıxış edərək;

Tərəflərin təmsil etdikləri dövlətlərin qanunvericiliyi, habelə beynəlxalq hüququn

ümumtanınmış prinsiplərini və normalarını rəhbər tutaraq;

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1. Tərəflərin fəaliyyətinin hüquqi əsasları

Tərəflər öz dövlətlərinin qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində ailə, qadın və uşaq problemləri sahəsində əməkdaşlıq edirlər.

Maddə 2. Tərəflərin əməkdaşlıq etdikləri istiqamətlər

Tərəflər aşağıdakı istiqamətlər üzrə əməkdaşlıq edəcəklər:

ölkədəki ailə, qadın və uşaqlara dövlətin sosial dəstəyinin genişləndirilməsi istiqamətində birgə araşdırmaların aparılması;

Tərəflərin təmsil etdikləri ölkələrdə mövcud hüquqi, iqtisadi və sosial müdafiə mexanizmlərinin gücləndirilməsi və təkmilləşdirilməsi məqsədilə birgə araşdırmaların aparılması;

ailə, qadın və uşaq problemləri sahəsində görülən işlər, tətbiq edilən yeniliklər, əldə edilmiş nailiyyətlər, mövcud olan çətinliklər barədə informasiya və təcrübə mübadiləsinin aparılması;

ailə, qadın və uşaq problemlərinə həsr edilmiş beynəlxalq tədbirlərin keçirilməsi;

ailə, qadın və uşaq problemləri sahəsində birgə nəşrlərin buraxılması;

institusional inkişaf, peşəkar kadrların hazırlanması, təcrübə mübadiləsinin aparılması məqsədilə birgə təlim proqramı və peşəkarların mübadiləsi proqramının təşkili;

bir Tərəfin ərazisində yaşayan qarşı Tərəfin vətəndaşlarının ailə, qadın və uşaq problemləri sahəsində qarşılaşdıqları problemlərin həllində əməkdaşlıq edilməsi;

hökumətlərarası strategiyaların müəyyənləşdirilməsinə imkan verən institusional layihələrin hazırlanması və həyata keçirilməsi, zərurət olduqda, ailə, qadın və uşaq problemləri sahəsində məsləhətləşmələrin aparılması.

Maddə 3. Memorandum üzrə fəaliyyətin təşkili

Memorandumda müəyyən edilmiş razılaşmaların həyata keçirilməsi üzrə birgə komissiya yaradılır. Komissiyaya sədrlik Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri və Türkiyə Respublikasının Qadın və Ailə Məsələləri üzrə Dövlət naziri tərəfindən həyata keçirilir. Komissiya ildə bir dəfə növbə ilə Tərəflərin ərazisində illik iclasını keçirir. İllik iclasın keçirilməsi ilə bağlı xərclər iclasın keçirildiyi ölkə tərəfindən ödənilir. Memorandumda nəzərdə tutulmuş razılaşmaların icrası üzrə Tərəflərin müəyyən etdiyi ekspertlərdən ibarət işçi qrupu yaradılır. İşçi qrupunun fəaliyyətinin əsasları və üsulları hazırlanaraq birgə komissiyada müəyyən ediləcəkdir.

Maddə 4. Əlavə və dəyişikliklər edilməsi qaydası

Tərəflərin qarşılıqlı razılığı ilə bu Memoranduma əlavə və dəyişikliklər edilə bilər. Belə əlavə və dəyişikliklər bu Memorandumun ayrılmaz tərkib hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilir. Qeyd edilən protokolların qüvvəyə minməsi bu Memorandumun 5-ci maddəsində müəyyən edilmiş qaydada həyata keçirilir.

Maddə 5. Yekun müddəalar

Bu Memorandum onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Memorandum 5 (beş) il müddətinə bağlanılır. Tərəflərdən biri bu Memorandumun qüvvədə olma müddətinin başa çatmasına ən azı 6 (altı) ay qalmış digər Tərəfə onun qüvvəsini ləğv etmək niyyəti barədə yazılı bildiriş təqdim etməzsə, Memorandum avtomatik olaraq növbəti beşillik müddətə uzadılacaqdır.

Bu Memorandum Bakı şəhərində 2007-ci il 6 noyabr tarixində Azərbaycan və türk dillərində iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ ADINDAN	TÜRKİYƏ RESPUBLİKASININ AİLƏ VƏ QADIN MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRLİYİ ADINDAN
HİCRAN HÜSEYNOVA	*NİMET ÇUBUKÇU*
Komitəsinin sədri	*Dövlət naziri*

"Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında gömrük məsələlərində və gömrük hüquqpozmaları ilə mübarizə sahəsində qarşılıqlı əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında gömrük məsələlərində və gömrük hüquqpozmaları ilə mübarizə sahəsində qarşılıqlı əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Misir Ərəb Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 dekabr 2007-ci il

№2609

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Misir Televiziya və Radiosu arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Misir Televiziya və Radiosu arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Misir Ərəb Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 dekabr 2007-ci il

№2610

"Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu və Misir Ərəb Respublikasının Milli Kitabxanası və Arxivləri arasında əməkdaşlığa dair Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu və Misir Ərəb Respublikasının Milli Kitabxanası və Arxivləri arasında əməkdaşlığa dair Protokol"u imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Misir Ərəb Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 dekabr 2007-ci il

№2611

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Misir Ərəb Respublikasının Kənd Təsərrüfatı və Torpaqların Meliorasiyası Nazirliyi arasında "Misir - Azərbaycan Elmi Tədqiqat Mərkəzi"nin təsis edilməsi haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Misir Ərəb Respublikasının Kənd Təsərrüfatı və Torpaqların Meliorasiyası Nazirliyi arasında "Misir-Azərbaycan Elmi Tədqiqat Mərkəzi"nin təsis edilməsi haqqında Protokol'u imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolu imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Aydın oğlu Babayevə verilməsi barədə Misir Ərəb Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 dekabr 2007-ci il

№2612

MÜNDƏRİCAT

MÜQƏDDİMƏ 3

Birləşmiş Millətlər Təşkilatının Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması üzrə Komitəsinin 37-ci sessiyasında Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 6

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin və Almaniya Federativ Respublikasının Qida, Kənd Təsərrüfatı və İstehlakçıların Hüquqlarının Qorunması Nazirliyinin Almaniya Federativ Respublikasının Qida, Kənd Təsərrüfatı və İstehlakçıların Hüquqlarının Qorunması Federal Nazirliyi tərəfindən Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinə Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olması prosesinin bir hissəsi kimi Azərbaycan Respublikasının Sanitar və Fitosanitar Tədbirlər Sisteminin Sanitar və Fitosanitar Tədbirlərinin tətbiqi üzrə 15 aprel 1994-cü il tarixli ÜTT Sazişinin tələblərinə cavab verməsinə nail olmaq məqsədilə onun təkmilləşdirilməsinə yönəldilmiş dəstəyə dair Birgə Bəyanatı" imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 7

"Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında mülki müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq və yardım haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 7

"Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Fransa Respublikası Mədəniyyət və Kommunikasiya Nazirliyi arasında muzey işi sahəsində əməkdaşlığa dair Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 8

"Azərbaycan Milli Elmlər Akademiyası (Azərbaycan) və Milli Elmi Araşdırmalar Mərkəzi (Fransa) arasında elmi əməkdaşlıq Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 8

"Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Fransa Respublikası Əmək, Sosial Bərabərlik və Yaşayış Nazirliyi arasında əməkdaşlıq haqqında İnzibati Razılaşma"nı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 9

Jak Şirakın "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 9

"Türkdilli Ölkələrin Dövlət Başçılarının VIII Zirvə Toplantısının Antalya Bəyannaməsi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 9

Türkdilli Ölkələrin Dövlət Başçılarının VIII Zirvə Toplantısının Antalya Bəyannaməsi ... 10

"Bitki Karantini və Mühafizəsi üzrə Avropa və Aralıq Dənizi Təşkilatının yaradılması haqqında" Konvensiyaya qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu 14

"Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasportlara malik olan vətəndaşların vizasız gediş gəlişi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 14

Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasportlara malik olan vətəndaşların vizasız gediş-gəlişi haqqında Saziş . 14

Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində çalışan işçilərin aylıq əməkhaqlarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 17

Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlardakı diplomatik nümayəndəliklərinin rəhbərlərinin aylıq əməkhaqları 18

Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarında Fövqəladə və Səlahiyyətli Səfiri Y. T. Əliyevin Azərbaycan Respublikasının Amerika Dövlətləri Təşkilatı yanında daimi müşahidəçisi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 19

Azərbaycan Respublikasının Avropa İttifaqı yanında daimi nümayəndəsi E.Y.Eyyubovun eyni zamanda Azərbaycan Respublikasının Belçika Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 19

Azərbaycan Respublikasının Mərakeş Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri S.M.Ağabəyovun iqamətgahı Rabat şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Tunis Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 19

"Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 20

2006-cı il avqustun 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası və İordaniya Haşimiyyə Krallığı hökumətləri arasında ikitərəfli əməkdaşlığa dair Çərçivə Sazişi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 20

Azərbaycan Respublikası və İordaniya Haşimiyyə Krallığı Hökumətləri arasında ikitərəfli əməkdaşlığa dair Çərçivə Sazişi 20

Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında 2006-cı il oktyabrın 4-də Riqa şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 22

Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında rabitə sahəsində əməkdaşlıq haqqında Saziş 23

Azərbaycan Respublikası Hökuməti və Latviya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş 25

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Latviya Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş 28

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Latviya Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş 30

Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Latviya Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş 32

Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında 2006-cı il oktyabrın 17-də Minsk şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 33

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Belarus Respublikasının İqtisadiyyat Nazirliyi arasında kiçik sahibkarlıq sahəsində əməkdaşlıq haqqında Saziş ... 34

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Belarus Respublikasının İdman və Turizm Nazirliyi arasında bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq haqqında Saziş 36

Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Belarus Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş 38

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Belarus Respublikasının Fövqəladə Hallar Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş 41

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında aqrar-sənaye kompleksi sahəsində iqtisadi və elmi-texniki əməkdaşlıq barədə Saziş 42

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Belarus Respublikasının Nəqliyyat və Kommunikasiya Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Memorandum 44

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Belarus Respublikasının Milli Dövlət Teleradio Şirkəti arasında Əməkdaşlıq Sazişi 46

"Bütün şəxslərin zorakı itkin düşmələrdən müdafiəsi üzrə Beynəlxalq Konvensiya"nı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 48

"Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti layihəsinin Marabda-Türkiyə Respublikası sərhədinə qədər dəmir yolu sahəsinin maliyyələşdirilməsinin şərtləri haqqında Kredit Müqaviləsi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 49

"Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda-Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiya-rekonstruksiyası və istismarının prinsip və şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 49

"Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 50

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 50

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında Saziş 51

Azərbaycan Respublikası Prezidentinin və Latviya Respublikası Prezidentinin Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 56

Azərbaycan Respublikası Prezidentinin və Latviya Respublikası Prezidentinin Birgə Bəyannaməsi 57

"Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu .. 60

Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş 60

Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Sazişə Əlavə 73

"Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 74

2006-cı il avqustun 17-də Batumi şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Gürcüstanın Azərbaycan Respublikası qarşısında olan borc öhdəliyinin restrukturizasiyası haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 75

Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Gürcüstanın Azərbaycan Respublikası qarşısında olan borc öhdəliyinin restrukturizasiyası haqqında Saziş 75

"Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişə 2 saylı Düzəliş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 81

"Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının ayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 4 saylı Düzəliş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 82

2006-cı il dekabrın 5-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi Protokolu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 82

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təminatın tətbiqi Protokolu 83

"Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 84

"Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında Ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 85

"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Moldova Respublikasının Səhiyyə Nazirliyi arasında Səhiyyə və Tibb Elmi Sahəsində Əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 85

"Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Moldova Respublikasının Maliyyə Nazirliyi arasında Dövlət Maliyyələşdirilməsi sahəsində Əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 86

"Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Moldova Respublikasının Milli Statistika Bürosu arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 86

"Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 86

Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamə 87

2005-ci il noyabrın 25-də Moskva şəhərində imzalanmış "Məhsul və xidmətlərin keyfiyyəti sahəsində nailiyyətlərə görə Müstəqil Dövlətlər Birliyinin Mükafatına təqdimat müsabiqəsi barədə Qərar"ın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 94

"GUAM-ın iştirakçısı olan dövlətlərin Xarici İşlər Nazirlikləri arasında diplomatik nümayəndələrin hazırlanması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 94

GUAM-ın iştirakçısı olan dövlətlərin Xarici İşlər Nazirlikləri arasında diplomatik nümayəndələrin hazırlanması haqqında Saziş 95

"Demokratiya və İqtisadi İnkişaf Təşkilatı - GUAMın Prosedur Qaydalarının, Katibliyinin Əsasnaməsinin və Maliyyə Əsasnaməsinin təsdiq olunması haqqında" Qərarın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 99

Demokratiya və İqtisadi İnkişaf Təşkilatı - GUAM-ın Prosedur Qaydalarının, Katibliyinin Əsasnaməsinin və Maliyyə Əsasnaməsinin təsdiq olunması haqqında Qərar.. 99

Demokratiya və İqtisadi İnkişaf Təşkilatı - GUAM-ın Maliyyə Əsasnaməsi 100

Demokratiya və İqtisadi İnkişaf Təşkilatı - GUAM-ın Prosedur Qaydaları 103

Demokratiya və İqtisadi İnkişaf Təşkilatı – GUAM-ın katibliyinin Əsasnaməsi 106

Azərbaycan Respublikası Hökuməti ilə Yunanıstan Respublikası Hökuməti arasında iqtisadi, sənaye və texnoloji sahələrdə əməkdaşlıq üzrə birgə komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 109

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 111

2006-cı il fevralın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İsveçrə Federal Şurası adından çıxış edən Federal Xarici İşlər Departamenti arasında miqrasiya üzrə Birgə Bəyanat"ın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 112

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İsveçrənin Federal Şurası adından çıxış edən Federal Xarici İşlər Departamenti arasında miqrasiya üzrə Birgə Bəyanat 113

2006-cı il martın 27-də Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Rusiya Federasiyasının Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması üzrə Nazirliyi arasında əməkdaşlığın fəallaşdırılması haqqında Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 114

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Rusiya Federasiyasının Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması üzrə Nazirliyi arasında əməkdaşlığın fəallaşdırılması haqqında Protokol 114

2006-cı il aprelin 3-də Buenos Ayres şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Argentina Respublikasının Xarici İşlər, Beynəlxalq Ticarət və Etiqad Nazirliyi arasında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 115

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Argentina Respublikasının Xarici İşlər, Beynəlxalq Ticarət və Etiqad Nazirliyi arasında Anlaşma Memorandumu 116

2006-cı il aprelin 4-də Braziliya şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Braziliya Federativ Respublikasının Xarici Əlaqələr Nazirliyi arasında ikitərəfli siyasi məsləhətləşmələrə dair Protokol"un nəzərə alınması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 117

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Braziliya Federativ Respublikasının Xarici Əlaqələr Nazirliyi arasında ikitərəfli siyasi məsləhətləşmələrə dair Protokol..... 118

2005-ci il aprelin 22-də Kişinyov şəhərində GUÖAM-ın Zirvə Toplantısı çərçivəsində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı..... 119

GUÖAM-ın iştirakçı dövlətlərinin səhiyyə nazirlikləri arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında Saziş..... 119

GUÖAM-ın iştirakçı dövlətlərinin ticarət-sənaye palataları arasında sərgi-yarmarka fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş..... 122

Azərbaycan Respublikası ilə Ukrayna arasında 2006-cı il sentyabrın 7-də Bakı şəhərində imzalanmış sənədlər barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 124

Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Hökuməti arasında ətraf təbii mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş..... 124

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Ukraynanın Nüvə Tənzimlənməsi üzrə Dövlət Komitəsi arasında radiasiya təhlükəsizliyi sahəsində əməkdaşlığa dair Saziş 126

Əməkdaşlıq prinsipləri haqqında Saziş 129

Azərbaycan Respublikası və Rumıniya arasında 2006-cı il oktyabrın 11-də Bakı şəhərində imzalanmış sənədlər barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı..... 131

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Rumıniyanın Mədəniyyət və Dini İşlər Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş 132

Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və Rumıniya Kiçik və Orta Müəssisələr və Kooperativlər Milli Agentliyi arasında əməkdaşlıq Memorandumu 133

2006-cı il noyabrın 20-də Abu-Dabi şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 136

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu 136

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2006-cı il dekabrın 4-də Bakı şəhərində imzalanmış sənədlər barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı..... 138

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında fiziki şəxslərin poçt pul baratlarının mübadiləsi sahəsində əməkdaşlıq haqqında Saziş 138

Azərbaycan Respublikasının Milli Bankı və Rusiya Federasiyasının Mərkəzi Bankı (Rusiya Bankı) arasında Kredit təşkilatlarının fəaliyyətinə bank nəzarəti sahəsində əməkdaşlıq haqqında Saziş..... 140

2007-ci il yanvarın 21-də Əl-Küveyt şəhərində imzalanmış "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Küveyt Dövləti Xarici İşlər Nazirliyi arasında ikitərəfli məsləhətləşmələrə dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 147

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Küveyt Dövləti Xarici İşlər Nazirliyi arasında ikitərəfli məsləhətləşmələrə dair Anlaşma Memorandumu..... 148

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında mədəniyyət və incəsənət sahələrində əməkdaşlığa dair Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı..... 149

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı..... 149

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında dəmir yolu nəqliyyatı sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 150

"Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 150

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 151

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 151

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və akkreditasiya sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 152

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 152

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 153

"Toxuculuq sahəsində ikitərəfli Sazişin qüvvədən düşməsini nəzərə alaraq "Bir tərəfdən Avropa Birliyi və onun üzvü olan Dövlətlər və digər tərəfdən Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi"nin müddəalarının toxuculuq üzrə ikitərəfli ticarətə tətbiq olunması ilə bağlı Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinə Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 153

"Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Macarıstan Respublikasının Maliyyə Nazirliyi arasında Əməkdaşlığa dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 154

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin və Almaniya Federativ Respublikasının Qida, Kənd Təsərrüfatı və İstehlakçıların Hüquqlarının Qorunması Federal Nazirliyinin Almaniya Federativ Respublikasının Qida, Kənd Təsərrüfatı və İstehlakçıların Hüquqlarının Qorunması Federal Nazirliyi tərəfindən Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinə Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olması prosesinin bir hissəsi kimi Azərbaycan Respublikasının Sanitar və Fitosanitar Tədbirlər sisteminin Sanitar və Fitosanitar Tədbirlərinin tətbiqi üzrə 1994- cü il 15 aprel

tarixli ÜTT Sazişinin tələblərinə cavab verməsinə nail olmaq məqsədilə onun təkmilləşdirilməsinə yönəldilmiş dəstəyə dair Birgə Bəyanatı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 154

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin və Almaniya Federativ Respublikasının Qida, Kənd Təsərrüfatı və İstehlakçıların Hüquqlarının Qorunması Federal Nazirliyinin Almaniya Federativ Respublikasının Qida, Kənd Təsərrüfatı və İstehlakçıların Hüquqlarının Qorunması Federal Nazirliyi tərəfindən Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinə Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olması prosesinin bir hissəsi kimi Azərbaycan Respublikasının Sanitar və Fitosanitar Tədbirlər sisteminin Sanitar və Fitosanitar Tədbirlərinin tətbiqi üzrə 1994-cü il 15 aprel tarixli ÜTT Sazişinin tələblərinə cavab verməsinə nail olmaq məqsədilə onun təkmilləşdirilməsinə yönəldilmiş dəstəyə dair Birgə Bəyanatı 155

"Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakta uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsi ilə bağlı üçüncü dövri hesabatın hazırlanması və təqdim olunması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 158

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası üzrə yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 159

"Azərbaycan Respublikası Hökuməti ilə Yaponiyanın Mitsubişi Korporasiyası arasında "Bakı şəhərində tullantılardan alınan metan qazının yığılması üzrə Təmiz İnkişaf Mexanizmi layihəsi" haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 161

"Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının imtiyaz və immunitetləri haqqında" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 161

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının imtiyaz və immunitetləri haqqında Protokol 162

"Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Ali Təhsil Nazirliyi arasında elm və təhsil sahəsində əməkdaşlıq haqqında" Memorandumun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 166

Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının Ali Təhsil Nazirliyi arasında elm və təhsil sahəsində əməkdaşlıq haqqında Memorandum ... 167

E. N. Səlimovun Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 169

E. N. Səlimovun Azərbaycan Respublikasının Qətər Dövlətində Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 169

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Mərakeş Krallığının Kənd Təsərrüfatı, Kəndin İnkişafı və Dəniz Balıqçılığı Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 170

Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 170

Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamə 170

"Regional əməkdaşlığa ümumi baxış haqqında" Tbilisi Bəyannaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 173

Regional əməkdaşlığa ümumi baxış haqqında Tbilisi Bəyannaməsi 173

"Bakı - Tbilisi - Qars yeni dəmir yolu xətti haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 176

"Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti haqqında Saziş 176

"Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin hökumətləri arasında cinayətkarlığa, xüsusən onun mütəşəkkil formalarına qarşı mübarizədə əməkdaşlıq haqqında" Sazişə "Terrorçuluğa qarşı mübarizə haqqında" Əlavə Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 181

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin hökumətləri arasında cinayətkarlığa, xüsusən onun mütəşəkkil formalarına qarşı mübarizədə əməkdaşlıq haqqında Sazişə terrorçuluğa qarşı mübarizə haqqında Əlavə Protokol 182

"Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin hökumətləri arasında cinayətkarlığa, xüsusən onun mütəşəkkil formalarına qarşı mübarizədə əməkdaşlıq haqqında Sazişə terrorçuluğa qarşı mübarizə haqqında Əlavə Protokol"a dair Azərbaycan Respublikasının qeyd-şərti 187

"Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında mülki müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq və yardım haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 187

Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında Mülki Müdafiə və Təhlükəsizlik sahəsində əməkdaşlıq və yardım haqqında Saziş 188

Azərbaycan Respublikası Hökuməti və Braziliya Federativ Respublikası Hökuməti arasında viza tələblərinin qismən aradan qaldırılması haqqında Sazişə dair Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Braziliya Federativ Respublikasının Xarici Əlaqələr Nazirliyi arasında notalar mübadiləsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 195

"Azərbaycan Respublikası Hökuməti və Argentina Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 198

Azərbaycan Respublikası Hökuməti və Argentina Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında Saziş 199

"2007-2009-cu illər üzrə humanitar sahədə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında əməkdaşlıq Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 201

2007-2009-cu illər üzrə humanitar sahədə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında əməkdaşlıq Proqramı 201

Azərbaycan Respublikası Prezidentinin və Litva Respublikası Prezidentinin Birgə Bəyanatının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 210

Azərbaycan Respublikası Prezidentinin və Litva Respublikası Prezidentinin Birgə Bəyanatı 211

"Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 213

Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qorunması haqqında Saziş 213

"Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında iqtisadi və texniki əməkdaşlıq üzrə" Sazişin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 220

Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında iqtisadi və texniki əməkdaşlıq üzrə Saziş 220

Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında Ticarət Sazişinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 222

Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında Ticarət Sazişi 223

"Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 225

Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş 225

Azərbaycan Respublikası Prezidentinin və Rumıniya Prezidentinin Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 227

Azərbaycan Respublikası Prezidentinin və Rumıniya Prezidentinin Birgə Bəyannaməsi 227

"Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq haqqında" 1995-ci il iyulun 2-də Buxarest şəhərində imzalanmış Sazişə dəyişikliklər edilməsi barədə" Əlavə Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 230

1995-ci il iyulun 2-də Buxarest şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələri və elmi-texniki əməkdaşlıq haqqında Saziş"ə dəyişikliklər edilməsi barədə Əlavə Protokol 231

"Azərbaycan Respublikası Hökuməti ilə Rumıniya Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında" 2002-ci il oktyabrın 29-da Bakı şəhərində imzalanmış Sazişə dəyişikliklər edilməsi barədə" Əlavə Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 232

2002-ci il oktyabrın 29-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"ə dəyişikliklər edilməsi barədə Əlavə Protokol 232

"Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 234

Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya 235

Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 252

Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında Protokol 252

"Azərbaycan Respublikası Hökuməti və İsveçrə Konfederasiyası Hökuməti arasında texniki, maliyyə və humanitar əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 253

Azərbaycan Respublikası Hökuməti və İsveçrə Konfederasiyası Hökuməti arasında texniki, maliyyə və humanitar əməkdaşlıq haqqında Saziş 254

"Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 259

Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş 260

Azərbaycan Respublikası və Ukrayna arasında Birgə Bəyannamənin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 265

Azərbaycan Respublikası və Ukrayna arasında Birgə Bəyannamə 266

"Azərbaycan Respublikasının Hökuməti və Ukraynanın Nazirlər Kabineti arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 268

Azərbaycan Respublikasının Hökuməti və Ukraynanın Nazirlər Kabineti arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında Saziş 268

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Ukrayna Xarici İşlər Nazirliyi arasında diplomatik əməkdaşların hazırlanması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 273

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Ukrayna Xarici İşlər Nazirliyi arasında diplomatik əməkdaşların hazırlanması haqqında Saziş 274

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Ukraynanın Aqrar Siyasəti Nazirliyi arasında bitki sortlarının dövlət sınağı və mühafizəsi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 278

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Ukraynanın Aqrar Siyasəti Nazirliyi arasında bitki sortlarının dövlət sınağı və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş 278

"Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında ekstradisiya haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ... 280

Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında ekstradisiya haqqında Müqavilə 281

"Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan Respublikası arasında mülki və ticarət işləri üzrə hüquqi və məhkəmə yardımı haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 288

Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında mülki və ticarət işləri üzrə hüquqi və məhkəmə yardımı haqqında Müqavilə 288

"Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 295

Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında Müqavilə 296

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu . 303

Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya 303

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında" Konvensiyanın Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 322

Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiyanın Protokolu 322

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 323

Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş 324

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında ali təhsil sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 331

Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında ali təhsil sahəsində əməkdaşlıq haqqında Saziş 332

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 334

Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq haqqında Saziş 334

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında hərbi əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 337

Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında hərbi əməkdaşlıq haqqında Saziş 337

"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 340

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş .. 340

Azərbaycan Respublikasının Latviya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri T.N. Zülfüqarovun iqamətgahı Riqa şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Estoniya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 343

"Azərbaycan Respublikasının Hökuməti və Rusiya Federasiyası Kurqan Vilayətinin Administrasiyası (Hökuməti) arasında ticarət-iqtisadi, elmi və mədəni əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 343

2007-ci il fevralın 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı arasında Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasının keçirilməsinə dair Vəzifə Təlimatı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 344

Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı arasında Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasının keçirilməsinə dair Vəzifə Təlimatı 344

"Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisindən tranzit keçidi qaydaları haqqında Əsasnamə"yə əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 348

2007-ci il fevralın 7-də Tbilisi şəhərində imzalanmış "Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda-Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiya-rekonstruksiyası və istismarının prinsip və şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 349

"Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda -Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiya-rekonstruksiyası və istismarının prinsip və şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Saziş 349

"Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi və Koreya Nəqliyyat İnstitutu arasında elmi-texniki əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 353

"Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi və Koreya Respublikası Nəqliyyat və Tikinti Nazirliyi arasında dəmir yolu sahəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 353

"Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi və Koreya Respublikası Nəqliyyat və Tikinti Nazirliyi arasında şəhər nəqliyyatı əməliyyatlarının intellektual idarəetmə sisteminin yaradılması sahəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 354

"Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi və Koreya Respublikası Tikinti və Nəqliyyat Nazirliyi arasında Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaradılması haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 354

"Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Koreya Respublikası Milli Fövqəladə Halların İdarə Olunması Agentliyi arasında fövqəladə halların idarə olunması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 355

"Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Koreya Respublikası İnformasiya və Rabitə Nazirliyi arasında Elektron Hökumətin formalaşdırılması üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 355

"Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və Koreya Respublikası Elektrik Enerjisi Korporasiyası (KEPSO) arasında Azərbaycanda müstəqil elektrik stansiyasının tikintisi üzrə əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 356

"Azərbaycan Respublikası Hökuməti ilə Koreya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 356

"Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Koreya Respublikası STX şirkəti arasında külək enerji stansiyasının tikintisi üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 357

"Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında Hava əlaqələri haqqında Sazişə dair Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 357

2007-ci il martın 22-də Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Xəzər Regionunda Enerji Təhlükəsizliyi üzrə Dialoqa dair Anlaşma Memorandumu" nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 357

Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Xəzər Regionunda Enerji Təhlükəsizliyi üzrə Dialoqa dair Anlaşma Memorandumu 358

"Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 360

"Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Gürcüstanın Baş Prokurorluğu arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 361

"Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin hökumətləri arasında cinayətkarlığa, xüsusən onun mütəşəkkil formalarına qarşı mübarizədə əməkdaşlıq haqqında" Sazişə "Terrorçuluğa qarşı mübarizə haqqında" Əlavə Protokolun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 361

"Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 29 noyabr tarixli 928 nömrəli qərarı ilə təsdiq edilmiş "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"yə dəyişikliklər və əlavə edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 362

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının ərazisində müvəqqəti işləyən Belarus Respublikası vətəndaşlarının və Belarus Respublikasının ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 363

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 363

"Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi və Belarus Respublikasının Standartlaşdırma üzrə Dövlət Komitəsi arasında standartlaşdırma, metrologiya, uyğunluq qiymətləndirilməsi və akkreditasiya sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 364

"Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi və Belarus Respublikasının Dövlət Əmlak Komitəsi arasında dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi sahəsində əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 364

"Azərbaycan Respublikasının Milli Bankı və Belarus Respublikasının Milli Bankı arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 365

"Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Belarus Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 365

"Azərbaycan Milli Elmlər Akademiyası və Belarus Milli Elmlər Akademiyası arasında 2007-2010-cu illər üzrə elmi əməkdaşlıq Proqramı"nı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 366

2007-ci il martın 6-da Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişə 2 saylı Düzəliş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 366

Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişə 2 saylı Düzəliş 367

"Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 367

"Diplomatik poçtun və konsul valizinin, həmçinin xarici şəxslərin ayrı-ayrı kateqoriyaları tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən güzəştli qaydada keçirilən mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti" Qaydaları . 368

Diplomatik poçtun və konsul valizinin, həmçinin xarici şəxslərin ayrı-ayrı kateqoriyaları tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən güzəştli qaydada keçirilən mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti Qaydalarının 377

2007-ci il fevralın 7-də Bakı şəhərində Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında imzalanmış sənədlərin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 377

Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Azərbaycan - Birləşmiş Ştatlar İqtisadi Əməkdaşlıq Komissiyasının yaradılması haqqında Əməkdaşlıq Memorandumu 378

Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Dövlət İnvestisiya Siyasəti barədə Anlaşma Memorandumu 379

Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında İlkin Səhiyyə Xidmətlərinin Səviyyəsinin Yüksəldilməsinə dair Anlaşma Memorandumu 384

Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Xəzinədarlıq üzrə İnformasiyanı İdarəetmə Sistemi Layihəsi üzrə Anlaşma Memorandumu 388

Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Təxirəsalınmaz Tibbi Yardım barədə Anlaşma Memorandumu 393

"Azərpoçt" Dövlət Müəssisəsi (Milli Operator) və Misir Milli Poçt Təşkilatı arasında Beynəlxalq Pul Baratlarının Mübadilə Olunması üzrə Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 398

"Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Misir Ərəb Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumuna Əlavə Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 398

"Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Misir Ərəb Respublikası Kənd Təsərrüfatı və Meliorasiya Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 399

"Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında hava nəqliyyatı haqqında Sazişə Əlavə Protokol"u Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 399

"Azərbaycan Respublikasının Abşeron Rayon İcra Hakimiyyəti və Misir Ərəb Respublikasının Kalyubeya İcra Hakimiyyəti arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 400

"Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Misirin Yaxın Şərq Agentliyi (MENA) arasında əməkdaşlıq Sazişi"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 400

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Misir Ərəb Respublikası Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 400

"Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Misir Ərəb Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 401

"Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında idman sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 401

"Macarıstan Respublikası və Azərbaycan Respublikası arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 402

"Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Bolqarıstan Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 402

Azərbaycan Respublikasının Qırğız Respublikasında (Bişkek şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 403

A. A. Ağayevə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 403

A. A. Ağayevin Azərbaycan Respublikasının Qırğız Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 403

K. T. Xasiyevin Azərbaycan Respublikasının Kimyəvi Silahların Qadağan Olunması üzrə Təşkilatda daimi nümayəndəsi vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 404

Azərbaycan Respublikasının Niderland Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri F. E. İsgəndərovun iqamətgahı Haaqa şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Kimyəvi Silahların Qadağan Olunması üzrə Təşkilatda daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 404

Azərbaycan Respublikasının Belçika Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri E. Y. Eyyubovun iqamətgahı Brüssel şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Lüksemburq Böyük Hersoqluğunda Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 404

Azərbaycan Respublikasının Hindistan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri T. Y. Qarayevin iqamətgahı Nyu Dehli şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Maldiv Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 405

Azərbaycan Respublikası və Moldova Respublikası arasında 2007-ci il fevralın 22-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 405

Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş 406

Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş 409

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Moldova Respublikasının Maliyyə Nazirliyi arasında dövlət maliyyələşməsi sahəsində əməkdaşlığa dair Saziş 411

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Moldova Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş 414

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Moldova Respublikasının Milli Statistika Bürosu arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş 416

2007-ci il aprelin 9-da Əmman şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İordaniya Haşimiyyə Krallığının Xarici İşlər Nazirliyi arasında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 417

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İordaniya Haşimiyyə Krallığının Xarici İşlər Nazirliyi arasında Anlaşma Memorandumu 418

"Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Macarıstan Respublikasının İqtisadiyyat və Nəqliyyat Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 419

2007-ci il aprelin 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Hökuməti və Rusiya Federasiyası Kurqan vilayətinin Administrasiyası (Hökuməti) arasında ticarət-iqtisadi, elmi və mədəni əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 419

Azərbaycan Respublikasının Hökuməti və Rusiya Federasiyası Kurqan vilayətinin Administrasiyası (Hökuməti) arasında ticarət-iqtisadi, elmi və mədəni əməkdaşlıq haqqında Saziş 420

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının vətəndaşlarının qarşılıqlı vizasız gediş-gəlişi haqqında" 1997-ci il 10 iyun tarixli Sazişə Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 422

Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının vətəndaşlarının qarşılıqlı vizasız gediş-gəlişi haqqında 1997-ci il 10 iyun tarixli Sazişə Protokol 423

"Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında gömrük məsələləri üzrə qarşılıqlı yardım və əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 424

Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında gömrük məsələləri üzrə qarşılıqlı yardım və əməkdaşlıq haqqında Saziş 425

Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Kredit Sazişinin (Yevlax-Gəncə avtomobil yolunun yenidən qurulması layihəsinin) təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 431

Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında Kredit Sazişi 432

Kredit vəsaitlərinin çıxarılması 437

"Ev heyvanlarının mühafizəsi haqqında" Avropa Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 448

Ev heyvanlarının mühafizəsi haqqında Avropa Konvensiyası 449

"Ev heyvanlarının mühafizəsi haqqında Avropa Konvensiyasına dair Azərbaycan Respublikasının qeyd-şərti 457

"Azərbaycan Respublikası Hökuməti ilə Koreya Respublikasının Şinhan Bankı arasında Yevlax-Gəncə Magistral Avtomobil Yolu Layihəsi üzrə" Kredit Sazişinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 457

Azərbaycan Respublikasının Türkiyə Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Z.A. Həşimovun, iqamətgahı Ankara şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Makedoniya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 457

Azərbaycan Respublikasının Mərakeş Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri S.M. Ağabəyovun, iqamətgahı Rabat şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Seneqal Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 458

"Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında geodeziya, kartoqrafiya, kadastr, yerquruluşu, geoinformasiya sistemləri və Yerin məsafədən tədqiq edilməsi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 458

Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında geodeziya, kartoqrafiya, kadastr, yerquruluşu, geoinformasiya sistemləri və Yerin məsafədən tədqiq edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş 458

Azərbaycan Respublikası Prezidentinin və Polşa Respublikası Prezidentinin Birgə Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 461

Azərbaycan Respublikası Prezidentinin və Polşa Respublikası Prezidentinin Birgə Bəyannaməsi 461

Ümumdünya Səhiyyə Təşkilatının Nizamnaməsinin 24-cü və 25-ci maddələrində edilmiş dəyişikliklərin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu ... 463

Nizamnamənin 24 və 25-ci maddələrinə düzəlişlər 463

Ümumdünya Səhiyyə Təşkilatının Nizamnaməsi (Konstitusiyası) [1] 464

"Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında maliyyə əməkdaşlığı haqqında (Kreditlərin zəmanəti fondunun yaradılması)" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 479

Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında maliyyə əməkdaşlığı haqqında Saziş 479

"Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ... 481

Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilə 481

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 486

Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında Saziş 486

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 489

Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş 490

"Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 496

Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş 496

2007-ci il aprelin 11-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Hindistan Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 503

Azərbaycan Respublikası Hökuməti və Hindistan Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq üzrə Hökumətlərarası komissiya haqqında Saziş 503

"Azərbaycan Respublikası Hökuməti ilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı arasında Əməkdaşlıq Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 506

D. M. Məmmədovun Amerika Birləşmiş Ştatlarında Azərbaycan Respublikasının səfirliyi nəzdində hərbi attaşe vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 506

B. B. Ələkbərovun Türkiyə Respublikasında Azərbaycan Respublikasının hərbi attaşesi vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 507

R.R.Axundovun NATO-nun Brüsseldəki Qərargah - mənzilinin Hərbi Komitəsi yanında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndəsi - Azərbaycan Respublikasının NATO-dakı missiyasının hərbi məsələlər üzrə müşaviri vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 507

"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına daxil olması haqqında İkitərəfli Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 507

2007-ci il fevralın 7-də Tbilisi şəhərində imzalanmış "Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda - Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiya-rekonstruksiyası və istismarının prinsip və şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Saziş" üzrə Azərbaycan Respublikası Hökuməti tərəfindən səlahiyyətli orqanın müəyyən edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 508

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təmənnasız hərbi yardım haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 508

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı arasında maliyyə yardımının tətbiqi haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 509

"GUAM üzvü olan dövlətlərin hökumətlərinin nüvə və radiasiya təhlükəsizliyi məsələləri üzrə əməkdaşlığı və qarşılıqlı yardımı haqqında Memorandum"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 509

"Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın iştirakçısı olan dövlətlərin 2007-2010-cu illər üçün mədəniyyət sahəsində əməkdaşlığı haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 510

"Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın üzvü olan dövlətlərin hökumətləri arasında beynəlxalq multimodal yük daşımaları haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 510

Azərbaycan Respublikası ilə Türkmənistan Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 511

Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı üzrə Komissiyanın tərkibinə dair bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 512

Azərbaycan Respublikası və Koreya Respublikası arasında 2007-ci il aprelin 23-ü və 24-də Seul şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 513

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyi arasında Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaradılması sahəsində Anlaşma Memorandumu 514

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyi arasında şəhər nəqliyyatı əməliyyatlarının intellektual idarəetmə sisteminin yaradılması sahəsində Anlaşma Memorandumu 516

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyi arasında dəmir yolu sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu 517

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Koreya Nəqliyyat İnstitutu arasında elmi-texniki əməkdaşlıq haqqında Anlaşma Memorandumu 519

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Koreya Respublikasının Fövqəladə Halların İdarə Olunması Milli Agentliyi arasında Fövqəladə Halların İdarə Olunması Sahəsində Əməkdaşlıq haqqında Anlaşma Memorandumu 520

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Koreya Respublikasının Ehtiyatlar Korporasiyası və Koreya Mineral Ehtiyatlar Geoelmlər İnstitutu arasında mineral ehtiyatların işlənməsi sahəsində qarşılıqlı əməkdaşlığa dair Anlaşma Memorandumu 522

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Koreya Respublikasının Milli Gənclər Komissiyası arasında gənclər sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu 523

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Koreya Respublikasının İnformasiya və Rabitə Nazirliyi arasında elektron hökumətin formalaşdırılması sahəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumu 525

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə Koreya Respublikasının Koreya Elektrik Enerjisi Korporasiyası arasında Anlaşma Memorandumu 528

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və Koreya Milli Neft Korporasiyası arasında Anlaşma Memorandumu 531

Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Koreya Respublikasının "STX ENERGY CO., LTD" Şirkəti arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu 532

"Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik, konsulluq və başqa diplomatik nümayəndəlikləri tərəfindən ölkədən getmək və ölkəyə gəlmək üçün əcnəbi vətəndaşlara verilən viza blankının təsviri və spesifikasiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 1 dekabr tarixli 153 nömrəli qərarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı 536

Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik, konsulluq və başqa diplomatik nümayəndəlikləri tərəfindən ölkədən getmək və ölkəyə gəlmək üçün əcnəbi vətəndaşlara verilən viza blankının təsviri 537

Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik, konsulluq və başqa diplomatik nümayəndəlikləri tərəfindən ölkədən getmək və ölkəyə gəlmək üçün əcnəbi vətəndaşlara verilən viza blankının spesifikasiyası 538

Azərbaycan Respublikasının Litva Respublikasında (Vilnüs şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 539

N. Ə. Şahtaxtinskayaya Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 539

N. Ə. Şahtaxtinskayanın Azərbaycan Respublikasının Litva Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 540

Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarında Fövqəladə və Səlahiyyətli Səfiri Y. T. Əliyevin, iqamətgahı Vaşinqton şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 540

2007-ci il mayın 3-də Rabat şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın təsis edilməsi haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 540

Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın təsis edilməsi haqqında Anlaşma Memorandumu .. 541

Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında 2000-ci il 1 iyun tarixli Sazişin qüvvədə olma müddətinin uzadılması haqqında Protokolu imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 543

BMT-nin Baş Məclisinin 1965-ci il 21 dekabr tarixli Qətnaməsi ilə qəbul edilmiş İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya üzrə Azərbaycan Respublikası Hökumətinin beşinci və altıncı dövri məruzələrinin hazırlanması və təqdim olunması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 543

Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 545

"Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Böyük Əmman Bələdiyyəsi (İordaniya Haşimilər Krallığı) arasında dostluq və əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 546

"İordaniya-Azərbaycan İşgüzar Şurasının təsis olunmasına dair Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 547

"Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya haqqında Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 547

"Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə İNTEL Technologies, İnc şirkəti arasında təhsil sahəsində informasiya-kommunikasiya texnologiyalarından istifadəyə dair qarşılıqlı anlaşma və niyyətlər barədə Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 547

Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasına uyğun olaraq Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsi ilə bağlı dördüncü dövri hesabatın hazırlanması və təqdim olunması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 548

"Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında müdafiə sənayesi müəssisələrinin istehsalat və elmi-texniki sahələrdə kooperasiyası haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 549

"Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Qazaxıstan Respublikası maliyyə bazarının və maliyyə təşkilatlarının tənzimlənməsi və onlara nəzarət Agentliyi arasında qiymətli kağızlar bazarlarında nəzarət məsələləri üzrə Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 550

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və "Qazaxıstan" Respublika Teleradio Korporasiyası Səhmdar Cəmiyyəti arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 550

"Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında təbii qaz və neft sahəsində əməkdaşlıq haqqında Memorandum"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 551

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında azad ticarət haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 551

"Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"i Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 552

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında rabitə və informasiyalaşdırma sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 552

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 553

"Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Tacikistan Respublikasının Dövlət Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 553

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında elm, texnika və texnologiya sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 554

Azərbaycan Respublikasının beynəlxalq dövlətlərarası və hökumətlərarası müqavilələrinin bağlanması qaydası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 554

Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında 2007-ci il mayın 7-də Qahirə şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 555

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Misir Ərəb Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş 556

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Misir Ərəb Respublikasının Kənd Təsərrüfatı və Meliorasiya Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş 557

Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və Misirin Yaxın Şərq Xəbər Agentliyi (MENA) arasında əməkdaşlıq Sazişi 559

"Azərpoçt" Dövlət Müəssisəsi (Milli Operator) və Misir Milli Poçt Təşkilatı arasında beynəlxalq pul baratlarının mübadilə olunması üzrə İkitərəfli Saziş 560

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Misir Ərəb Respublikasının Daxili İşlər Nazirliyi arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu 565

M. F. Axundov adına Azərbaycan Milli Kitabxanası və Misir Ərəb Respublikasının İskəndəriyyə Kitabxanası arasında Anlaşma Memorandumu 568

Azərbaycan Respublikasının Abşeron Rayonu və Misir Ərəb Respublikasının Kalyubeya Əyaləti arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu 569

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Misir Ərəb Respublikasının Neft Nazirliyi arasında Texniki Əməkdaşlığa dair Protokol 571

2006-cı il mayın 25-də Düşənbə şəhərində imzalanmış "Rusiya dövlət kitabxanası" Federal Dövlət İdarəsinə Kitabxana işi sahəsində əməkdaşlıq üzrə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin baza təşkilatı statusunun verilməsi haqqında Qərar"ın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 572

"Rusiya dövlət kitabxanası" Federal Dövlət İdarəsinə Kitabxana işi sahəsində ətnəkdaşlıq üzrə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin baza təşkilatı statusunun verilməsi haqqında Qərar 572

Kitabxana işi sahəsində əməkdaşlıq üzrə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin baza təşkilatı haqqında Əsasnamə 574

2007-ci il iyunun 19-da Bakı şəhərində GUAM - Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilatın 2-ci Zirvə Toplantısı zamanı imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 578

GUAM - Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilatın üzv olan dövlətlər arasında 2007-2010-cu illər üçün mədəniyyət sahəsində əməkdaşlıq haqqında Protokol 579

GUAM - Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilatın üzvü olan dövlətlərin Hökumətləri arasında nüvə və radiasiya təhlükəsizliyi məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Memorandum 581

"Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişə 3 saylı Düzəliş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 584

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Çin Xalq Respublikası Müdafiə Nazirliyi arasında Çin tərəfindən Azərbaycana təmənnasız hərbi yardım göstərilməsi haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 585

2007-ci il aprelin 24-də Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 4 saylı Düzəliş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ... 585

Azərbaycan Respublikasının Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasında əməkdaşlığa dair Sazişə 4 saylı Düzəliş 586

2007-ci il iyunun 20-də Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Qəbələ radiolokasiya stansiyasının (RLS "Daryal") statusu, istifadəsinin prinsipləri və şərtləri haqqında 25 yanvar 2002-ci il tarixli Sazişin yerinə yetirilməsi üçün təyin olunmuş səlahiyyətli nümayəndələrin statusu haqqında Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında "Protokol'un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 586

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Qəbələ radiolokasiya stansiyasının (RLS "Daryal") statusu, istifadəsinin prinsipləri və şərtləri haqqında 25 yanvar 2002-ci il tarixli Sazişin yerinə yetirilməsi üçün təyin olunmuş səlahiyyətli nümayəndələrin statusu haqqında Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Protokol 587

2007-ci il iyulun 13-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təmənnasız hərbi yardım haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 589

Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təmənnasız hərbi yardım haqqında Saziş 589

"Azərbaycan Respublikası Vergilər Nazirliyi və Çexiya Respublikası Maliyyə Nazirliyi arasında Vergi Administrasiyasının fəaliyyəti sahəsində əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyətinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 590

M. A. Əliyevə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 591

M. A. Əliyevin Azərbaycan Respublikasının Tacikistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 591

R. T. İbrahimovun Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında və eyni zamanda İrlandiya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 591

F. İ. Qurbanovun Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 592

Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı Fövqəladə və Səlahiyyətli Səfiri F. İ. Qurbanovun iqamətgahı London şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının İrlandiya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 592

Azərbaycan Respublikasının Tacikistan Respublikasında (Düşənbə şəhərində) səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 593

Azərbaycan Respublikasının Mərakeş Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri S. M. Ağabəyovun iqamətgahı Rabat şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Mali Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 593

"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Almaniya Federativ Respublikası Gömrük İdarəsi arasında əməkdaşlıq haqqında Birgə Bəyanatı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 593

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və ABŞ-ın Sülh Korpusu arasında Gənclərin İnkişafı Layihəsinin həyata keçirilməsi üzrə əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 594

2007-ci il iyulun 9-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatlarının "Uşaqların Xilası" ("Save the Children") Təşkilatı arasında Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin təhvili haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 594

Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatlarının "Uşaqların Xilası" ("Save the Children") Təşkilatı arasında Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin təhvili haqqında Saziş 595

"Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və İran İslam Respublikasının Yol və Nəqliyyat Nazirliyi arasında "Bakı-Naxçıvan-Bakı" müntəzəm avtobus marşrutunun açılması haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 601

"Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Culfa (Azərbaycan Respublikası) - Culfa (İran İslam Respublikası) yeni avtomobil yolu körpüsünün inşa edilməsi haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 602

"Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Ordubad və Marazad Su Elektrik Stansiyalarının Tikintisi barədə Protokol"u Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 602

"Azərbaycan Respublikası Hökuməti və Sloveniya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 603

2007-ci il aprelin 6-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Cəmiyyəti arasında Qafqaz təşəbbüsü çərçivəsində Azərbaycanda İctimai Yönümlü Erkən Xəbərdarlıq və Fəlakətlərin Qarşısının Alınmasına dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 603

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Almaniya Federativ Respublikasının Texniki Əməkdaşlıq Cəmiyyəti arasında Qafqaz təşəbbüsü çərçivəsində Azərbaycanda İctimai Yönümlü Erkən Xəbərdarlıq və Fəlakətlərin Qarşısının Alınmasına dair Anlaşma Memorandumu 604

2007-ci il mayın 18-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Macarıstan Respublikasının İqtisadiyyat və Nəqliyyat Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 609

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Macarıstan Respublikasının İqtisadiyyat və Nəqliyyat Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş 610

"Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 612

"Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 612

"Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında hava daşımalarına dair Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 613

"Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası və Qətərin Ticarət və Sənaye Palatası arasında Müştərək Biznes Şurasının (MBŞ) təsis edilməsi barədə Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 613

"Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası ilə Qətərin Ticarət və Sənaye Palatası arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 613

"Koreya Respublikası Tikinti və Nəqliyyat Nazirliyi ilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında Yeni inzibati şəhərin salınması sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 614

"Avropa İttifaqı Komissiyasının Texniki Yardım Proqramı üzrə Azərbaycan Respublikasının Milli Koordinatoru haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 10 iyun tarixli 940 nömrəli Sərəncamına dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 614

"Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Litva Respublikasının Maliyyə Nazirliyi yanında Vergi Müfəttişliyi arasında vergi məsələləri üzrə informasiya mübadiləsi haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 615

"Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 615

"Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 616

Tarixi İpək Yolunun bərpası üzrə beynəlxalq konfransın 10 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 616

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Macarıstan Respublikasının Sosial İşlər və Əmək Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 617

2007-ci il iyunun 12-də Yerusəlim şəhərində imzalanmış "Azərbaycan Respublikasının nəqliyyat naziri və İsrail Dövlətinin nəqliyyat və yol təhlükəsizliyi naziri arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Birgə Bəyannamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 618

Azərbaycan Respublikasının nəqliyyat naziri və İsrail Dövlətinin nəqliyyat və yol təhlükəsizliyi naziri arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Birgə Bəyannamə 618

2007-ci il avqustun 2-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında təbii qaz və neft sahəsində əməkdaşlıq haqqında Memorandum"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 619

Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında təbii qaz və neft sahəsində əməkdaşlıq haqqında Memorandum 620

Azərbaycan Respublikasının Ukraynada Fövqəladə və Səlahiyyətli Səfiri T.M. Əliyevin eyni zamanda Azərbaycan Respublikasının Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat - GUAM yanında daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 622

"Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Litva Respublikasının Sərhəd Mühafizəsi Xidməti arasında əməkdaşlığa dair Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 622

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin təyin edilməsi və onların fəaliyyətinin təmin olunması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 12 iyun tarixli 419 nömrəli Fərmanına əlavə və dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 622

"Rumıniya və Bolqarıstan Respublikasının Avropa İttifaqına qəbul olunması ilə əlaqədar, bir tərəfdən Azərbaycan Respublikası, digər tərəfdən Avropa İttifaqı və onun üzvü olan dövlətlər arasında bağlanmış Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Sazişə Protokol"u Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 623

2007-ci il iyulun 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında 1 iyun 2000-ci il tarixli Sazişin qüvvədə olma müddətinin uzadılması haqqında Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 624

Azərbaycan Respublikası Hökuməti və Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında 1 iyun 2000-ci il tarixli Sazişin qüvvədə olma müddətinin uzadılması haqqında Protokol . 624

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında 2007-ci il avqustun 7-də Astana şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 625

Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Qazaxıstan Respublikası Maliyyə Bazarının və Maliyyə Təşkilatlarının Tənzimlənməsi və Onlara Nəzarət Agentliyi arasında qiymətli kağızlar bazarlarında nəzarət məsələləri üzrə Anlaşma Memorandumu 625

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və "Qazaxıstan" Respublika Teleradio Korporasiyası Səhmdar Cəmiyyəti arasında əməkdaşlıq haqqında Saziş 637

Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişikliklər edilməsi və "Avropa İttifaqı ilə tərəfdaşlıq və əməkdaşlıq üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 23 noyabr tarixli 272 nömrəli Sərəncamına dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 10 iyun tarixli 941 nömrəli Sərəncamının qüvvədən düşmüş hesab edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 640

Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında 2007-ci il avqustun 13-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 642

Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında rabitə və informasiyalaşdırma sahəsində əməkdaşlıq haqqında Saziş 643

Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında elm, texnika və texnologiya sahəsində əməkdaşlıq haqqında Saziş 646

Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş 648

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Tacikistan Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş 651

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Tacikistan Respublikasının Dövlət Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş 653

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında 2007-ci il avqustun 21-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 655

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Ordubad və Marazad Su-Elektrik Stansiyalarının Tikintisi barədə Protokol 655

Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi və İran İslam Respublikasının Yol və Nəqliyyat Nazirliyi arasında "Bakı-Naxçıvan-Bakı" müntəzəm avtobus marşrutunun açılması haqqında Anlaşma Memorandumu 657

Azərbaycan Respublikası və Qətər Dövləti arasında 2007-ci il avqustun 28-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 658

Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası və Qətərin Ticarət və Sənaye Palatası arasında Müştərək Biznes Şurasının (MBŞ) təsis edilməsi barədə Saziş 659

Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası ilə Qətərin Ticarət və Sənaye Palatası arasında Anlaşma Memorandumu 661

Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 662

"Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılması barədə" 1992-ci il 13 mart tarixli Sazişə əlavə və dəyişikliklərin edilməsi haqqında" Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 663

Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılması barədə 1992-ci il 13 mart tarixli Sazişə əlavə və dəyişikliklərin edilməsi haqqında Protokol 664

Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə Dövlətlərarası Şura haqqında Əsasnamə 665

Standartlaşdırma, metrologiya, sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılması barədə Sazişə əlavə və dəyişikliklərin edilməsi haqqında 2000-ci il 20 iyun tarixli Protokola Azərbaycan Respublikasının xüsusi rəyi 669

"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin açıq elmi-texniki informasiyaya sərbəst çıxışı və həmin informasiyanı mübadilə etməsi qaydası haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 669

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin açıq elmi-texniki informasiyaya sərbəst çıxışı və həmin informasiyanı mübadilə etməsi qaydası haqqında Saziş 669

"GUAM: Qitələri birləşdirərək" Bakı Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 675

"GUAM: Qitələri birləşdirərək" Bakı Bəyannaməsi 676

"GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın imtiyazları və immunitetləri haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 678

GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın imtiyazları və immunitetləri haqqında Saziş 678

"GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın üzvü olan dövlətlərin hökumətləri arasında beynəlxalq multimodal yük daşımaları haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 684

GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın üzvü olan dövlətlərin hökumətləri arasında beynəlxalq multimodal yük daşımaları haqqında Saziş 685

Azərbaycan Respublikası və Belarus Respublikası arasında dostluq və əməkdaşlıq haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ... 690

Azərbaycan Respublikası və Belarus Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilə 690

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Belarus Respublikası vətəndaşlarının və Belarus Respublikası ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 695

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Belarus Respublikası vətəndaşlarının və Belarus Respublikası ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və sosial müdafiəsi haqqında Saziş 695

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 700

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında Saziş 701

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 707

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş 707

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 711

Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş 711

Azərbaycan Respublikası və Koreya Respublikası arasında Birgə Bəyanatın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 715

Azərbaycan Respublikası və Koreya Respublikası arasında Birgə Bəyanat 715

"Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 717

Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qorunması haqqında Saziş 718

"Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında hava əlaqələri haqqında" Sazişə Əlavə Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 724

Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında Hava əlaqələri haqqında Sazişə Əlavə Protokol 725

"Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında idman sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 727

Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında idman sahəsində əməkdaşlıq haqqında Saziş 727

"Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında hava nəqliyyatı haqqında" Sazişə Əlavə Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 729

Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında Hava nəqliyyatı haqqında Sazişə Əlavə Protokol 729

"Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında turizm əməkdaşlığı sahəsində Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 731

Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında turizm əməkdaşlığı sahəsində Anlaşma Memorandumu 731

"Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında diplomatik, rəsmi, xidməti və xüsusi pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ... 732

Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında diplomatik, rəsmi, xidməti və xüsusi pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında Saziş 733

"Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 735

Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında Saziş 735

"Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 744

Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş 744

"Azərbaycan Respublikası və Macarıstan Respublikası arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 751

Azərbaycan Respublikası və Macarıstan Respublikası arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş 751

"Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası və Xorvatiyanın İqtisadiyyat Palatası arasında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 760

"Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 760

"Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Xorvatiya Respublikasının İqtisadiyyat, Əmək və Sahibkarlıq Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 761

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası ilə Xorvatiya Respublikası Xarici İşlər və Avropaya İnteqrasiya Nazirliyinin Diplomatik Akademiyası arasında əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 761

"Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında beynəlxalq avtomobil sərnişin və yük daşımaları haqqında Saziş"i və onun Protokolunu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 762

"Almaniya Federativ Respublikasının Ətraf Mühit, Təbiətin Mühafizəsi və Nüvə Təhlükəsizliyi üzrə Federal Nazirliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında təmiz inkişaf mexanizmi layihələrinin həyata keçirilməsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 762

Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında Fövqəladə və Səlahiyyətli Səfiri E. H. Araslının iqamətgahı Amman şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının İraq Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 763

"Azərbaycan Respublikası Hökuməti və Bəhreyn Krallığı Hökuməti arasında hərbi əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 763

"Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Ukraynanın Qiymətli Kağızlar və Fond Bazarı üzrə Dövlət Komissiyası arasında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 763

2007-ci il sentyabrın 11-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Vergilər Nazirliyi və Çexiya Respublikası Maliyyə Nazirliyi arasında Vergi Administrasiyasının fəaliyyəti sahəsində əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 764

Azərbaycan Respublikası Vergilər Nazirliyi və Çexiya Respublikası Maliyyə Nazirliyi arasında Vergi Administrasiyasının fəaliyyəti sahəsində əməkdaşlığa dair Saziş 764

Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti arasında əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 766

Azərbaycan Respublikası Hökuməti və Hindistan Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texnoloji əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 767

Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının tərkibində dəyişikliklər haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı 769

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında Birgə Bəyannamənin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 769

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında Birgə Bəyannamə 770

"Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi haqqında" 1997-ci il 10 iyun tarixli Müqavilədə dəyişiklik edilməsi barədə" Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 772

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi haqqında 10 iyun 1997-ci il tarixli Müqaviləyə dəyişiklik edilməsi barədə Protokol 772

"Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında müdafiə sənayesi müəssisələrinin istehsalat və elmi-texniki sahələrdə kooperasiyası haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 773

Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında müdafiə sənayesi müəssisələrinin istehsalat və elmi-texniki sahələrdə kooperasiyası haqqında Saziş 773

Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında Birgə Bəyannamənin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 775

Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında Birgə Bəyannamə 775

"Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 778

Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş 778

"Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında azad ticarət haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 795

Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında azad ticarət haqqında Saziş 796

"Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 801

Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş 802

"Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı arasında ekstradisiya haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ... 809

Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı arasında ekstradisiya haqqında Müqavilə 810

"Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında diplomatik və xidməti pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 817

Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında diplomatik və xidməti pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında Saziş 817

"Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 819

Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş 820

"Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 825

Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş 825

Azərbaycan Respublikası Prezidentinin və İran İslam Respublikası Prezidentinin Birgə Bəyanatının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 833

Azərbaycan Respublikası Prezidentinin və İran İslam Respublikası Prezidentinin Birgə Bəyanatı 833

"Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Culfa (Azərbaycan Respublikası) - Culfa (İran İslam Respublikası) yeni avtomobil yolu körpüsünün inşa edilməsi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 836

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Culfa (Azərbaycan Respublikası) - Culfa (İran İslam Respublikası) yeni avtomobil yolu körpüsünün inşa edilməsi haqqında Anlaşma Memorandumu 836

"Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Şahtaxtı və Polдəşt sərhəd-keçid məntəqələrinə beynəlxalq statusun verilməsi haqqında" Memorandumun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 838

Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Şahtaxtı və Polдəşt sərhəd-keçid məntəqələrinə beynəlxalq statusun verilməsi haqqında Memorandum 838

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Amerika Birləşmiş Ştatlarının Ticarət və İnkişaf Agentliyi vasitəsilə çıxış edən Amerika Birləşmiş Ştatları Hökuməti arasında Qrant Müqaviləsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 840

Qrant Müqaviləsi 840

"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Litva Respublikasının Sosial Təhlükəsizlik və Əmək Nazirliyi arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 846

"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Bolqarıstan Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 847

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Bolqarıstan Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş 847

"Bakı-Tbilisi-Ceyhan Boru Kəməri layihəsi, Cənubi Qafqaz Boru Kəməri layihəsi, Qərb İxrac Boru Kəməri, Şimal İxrac Boru Kəməri və hamısı Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Azəri, Çıraq yataqları, Günəşli yatağının dərinlikdə yerləşən hissəsi, Şahdəniz yatağı ilə əlaqədar qurğular və Səngəçal terminalında yerləşən müvafiq sahil qurğuları ilə əlaqədar təhlükəsizliyin təmin edilməsi zamanı təhlükəsizlik və insan hüquqları prinsiplərinin tətbiqi ilə bağlı Azərbaycan Respublikasının Hökuməti və BP Eksplorcyşn (Kaspian Si) Limited Şirkəti arasında Protokol"u Azərbaycan Respublikasının Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 849

"Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya"nı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 849

"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Uzunmüddətli İqtisadi Əməkdaşlıq Proqramı və İcra Planı"nı imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 850

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında tərəfdaşlıq və əməkdaşlıq Sazişi"ni Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 850

"Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Türkiyə Respublikasının Qadın və Ailə Məsələləri üzrə Dövlət Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 851

"Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişə 3 saylı Düzəliş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 851

Azərbaycan Respublikası Nazirlər Kabineti və Amerika Birləşmiş Ştatları Müdafiə Departamenti arasında bioloji silahların inkişaf etdirilməsində istifadə edilə bilən texnologiya, patogenlər və təcrübənin yayılmasının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişə 3 saylı Düzəliş 852

"Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 dekabr tarixli 1852 nömrəli Sərəncamına əlavə edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 852

"Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Tatarıstan Respublikası arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 25 avqust tarixli 977 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 853

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 854

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında antiinhisar siyasəti və rəqabətin müdafiəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 854

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya"nı Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 855

"Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə Birləşmiş Krallığın İdman Şurası arasında idman sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 855

2007-ci il avqustun 28-də Lyublyana şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Sloveniya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 856

Azərbaycan Respublikası Hökuməti və Sloveniya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş ... 856

2007-ci il oktyabrın 4-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Federativ Respublikasının Ətraf Mühit, Təbiətin Mühafizəsi və Nüvə Təhlükəsizliyi üzrə Federal Nazirliyi arasında Təmiz İnkişaf Mexanizmi layihələrinin həyata keçirilməsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 859

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Almaniya Federativ Respublikasının Ətraf Mühit, Təbiətin Mühafizəsi və Nüvə Təhlükəsizliyi üzrə Federal Nazirliyi arasında Təmiz İnkişaf Mexanizmi layihələrinin həyata keçirilməsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu 859

Azərbaycan Respublikası Hökuməti ilə Fransa Respublikası Hökuməti arasında Maliyyə Protokolu"nu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 862

"Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 862

Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .. 863

Birləşmiş Millətlər Təşkilatının "Əlillərin hüquqları haqqında" Konvensiyasını və onun Fakultativ Protokolunu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 864

Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı arasında 2007-ci il iyulun 29-u və 30-da Əmman şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 864

Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında fövqəladə halların idarə edilməsi sahəsində əməkdaşlıq haqqında Saziş 866

Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında ticarət, iqtisadi və texniki əməkdaşlıq üzrə hökumətlərarası komissiya haqqında Protokol 867

2007-2009-cu illər üçün Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında Təhsil, Elm, Mədəniyyət və İncəsənət, Gənclər və İdman, Səhiyyə və Media sahələrində əməkdaşlıq üzrə İcraedici Proqram 870

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və İordaniya Haşimilər Krallığı Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş 874

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə İordaniya Haşimilər Krallığının Statistika Departamenti arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş 876

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi və İordaniya Standartlar və Metrologiya Orqanı (JİSM) arasında standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya və digər əlaqəli sahələr üzrə əməkdaşlıq Saziş 878

Azərbaycan-İordaniya İşgüzar Şurasının təsis olunmasına dair Saziş 880

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və İordaniya Haşimilər Krallığının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu 881

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və İordaniya Televiziya və Radio Şirkəti arasında əməkdaşlıq haqqında Saziş 882

Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) və İordaniya Xəbər Agentliyi (Petra) arasında Əməkdaşlıq haqqında Saziş 884

Bakı Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Böyük Əmman Bələdiyyəsi (İordaniya Haşimilər Krallığı) arasında dostluq və əməkdaşlıq haqqında Protokol 885

Azərbaycan Respublikası və Litva Respublikası arasında 2007-ci il sentyabrın 13-də Vilnüs şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 886

Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş 887

Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş 889

Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş ... 891

Azərbaycan Respublikası Vergilər Nazirliyi və Litva Respublikası Maliyyə Nazirliyi yanında Dövlət Vergi Müfəttişliyi arasında vergitutma məsələləri üzrə məlumat mübadiləsi haqqında Saziş 894

2007-ci il sentyabrın 25-də Budapeşt şəhərində imzalanmış "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Macarıstan Respublikasının Sosial İşlər və Əmək Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 897

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Macarıstan Respublikasının Sosial İşlər və Əmək Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş 898

2007-ci il sentyabrın 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Litva Respublikası Daxili İşlər Nazirliyinin Sərhəd Mühafizəsi Xidməti arasında əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 899

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Litva Respublikası Daxili İşlər Nazirliyinin Sərhəd Mühafizəsi Xidməti arasında əməkdaşlığa dair Saziş 900

2007-ci il oktyabrın 1-də Nyu-york şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Uruqvay Şərq Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 903

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Uruqvay Şərq Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu 903

2007-ci il oktyabrın 16-da Bişkek şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Qırğız Respublikası Müdafiə Nazirliyi arasında Qırğız Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş"ə Əlavə Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 905

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Qırğız Respublikası Müdafiə Nazirliyi arasında Qırğız Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş"ə Əlavə Protokol 905

"Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 907

Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının tərkibində dəyişikliklər haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı 907

Azərbaycan Respublikası, İran İslam Respublikası, Qazaxıstan Respublikası, Rusiya Federasiyası və Türkmənistanın Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 908

Azərbaycan Respublikası, İran İslam Respublikası, Qazaxıstan Respublikası, Rusiya Federasiyası və Türkmənistanın Bəyannaməsi 908

Azərbaycan Respublikası Prezidentinin və Litva Respublikası Prezidentinin Tərəfdaşlıq münasibətlərinin inkişafı haqqında Birgə Bəyannaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 912

Azərbaycan Respublikası Prezidentinin və Litva Respublikası Prezidentinin Tərəfdaşlıq münasibətlərinin inkişafı haqqında Birgə Bəyannaməsi 913

"Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında beynəlxalq avtomobil sərnişin və yük daşımaları haqqında" Sazişin və onun Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 915

Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında beynəlxalq avtomobil sərnişin və yük daşımaları haqqında Saziş 915

Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında beynəlxalq avtomobil sərnişin və yük daşımaları haqqında Sazişin Protokolu 919

"Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında müntəzəm hava əlaqəsinə dair" Sazişin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu .. 922

Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında müntəzəm hava əlaqəsinə dair Saziş 922

Marşrutların qrafiki 935

"Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında maliyyə əməkdaşlığı haqqında" Sazişin (AzDRES-İmişli elektrik veriliş xəttinin tikintisi, 2005-ci il üzrə xüsusi öhdəlik) təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 936

Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında maliyyə əməkdaşlığı haqqında Saziş 936

"Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və İtaliya Respublikasının İqtisadi İnkişaf Nazirliyi arasında təbii qaz sektorunda əməkdaşlıq haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 938

Azərbaycan Respublikası və Fransa Respublikası arasında 2007-ci il yanvarın 30-da Paris şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 938

Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş 939

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Fransa Respublikası Mədəniyyət və Kommunikasiya Nazirliyi arasında Əməkdaşlıq Memorandumu 941

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Fransa Respublikası Mədəniyyət və Kommunikasiya Nazirliyi arasında muzey işi sahəsində əməkdaşlığa dair Protokol 942

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Fransa Respublikası Əmək, Sosial Bərabərlik və Yaşayış Nazirliyi arasında qarşılıqlı əməkdaşlıq haqqında İnzibati Razılaşma 944

Milli Elmi Araşdırmalar Mərkəzi (Fransa) və Azərbaycan Milli Elmlər Akademiyası (Azərbaycan) arasında elmi əməkdaşlıq Sazişi 945

Milli Elmi Araşdırmalar Mərkəzi (MEAM) və Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) arasında Elmi Əməkdaşlıq Sazişi çərçivəsində həyata keçirilən Birgə araşdırma layihələri və Beynəlxalq Elmi Əməkdaşlıq Layihələri (BEƏL) ilə bağlı əqli mülkiyyət hüquqlarının qorunması və istifadəsi 948

Fransa Milli Elmi Araşdırmalar Mərkəzi (MEAM) ilə Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) arasında elmi əməkdaşlıq Sazişinin I bəndinin tətbiqi üçün əlavə qaydalar 951

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Koreya Sənaye Kompleksi Korporasiyası arasında sənaye əməkdaşlığı sahəsində Anlaşma Memorandumunu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 952

"Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi ilə Rumıniyanın İqtisadiyyat və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 952

Bank nəzarəti sahəsində Azərbaycan Respublikasının Milli Bankı ilə Gürcüstan Milli Bankı arasında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 952

Bank nəzarəti sahəsində Azərbaycan Respublikasının Milli Bankı ilə Gürcüstan Milli Bankı arasında Saziş 953

Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 959

Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya 959

"Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında" Konvensiyanın Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 977

Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiyanın Protokolu 978

Azərbaycan Respublikası Prezidentinin bəzi sərəncamlarına dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 978

"Azərbaycan Respublikasını təmsil edən Maliyyə Nazirliyi ("Azərbaycan tərəfi"), Almaniya İnkişaf Bankı, KfW ("KfW") və Beynəlxalq Əməkdaşlıq üzrə Əmanət Kassaları Fondu ("BƏƏKF") arasında Alman-Azərbaycan Fonduna (AAF-a) menecment xidmətləri haqqında Müqavilə"ni imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 979

Azərbaycan Respublikası və Xorvatiya Respublikası arasında 2007-ci il oktyabrın 2-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 979

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası ilə Xorvatiya Respublikası Xarici İşlər və Avropaya İnteqrasiya Nazirliyinin Diplomatik Akademiyası arasında əməkdaşlıq haqqında Protokol 980

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Xorvatiya Respublikasının İqtisadiyyat, Əmək və Sahibkarlıq Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum 982

Azərbaycan Respublikası Ticarət və Sənaye Palatası və Xorvatiya İqtisadi Palatası arasında Saziş 984

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında 2007-ci il noyabrın 6-da Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 986

Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında gənclərlə iş və idman sahəsində əməkdaşlıq haqqında Saziş 987

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Türkiyə Respublikasının Qadın və Ailə Məsələləri üzrə Dövlət Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum 988

"Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında gömrük məsələlərində və gömrük hüquqpozmaları ilə mübarizə sahəsində qarşılıqlı əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 990

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və Misir Televiziya və Radiosu arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 991

"Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu və Misir Ərəb Respublikasının Milli Kitabxanası və Arxivləri arasında əməkdaşlığa dair Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 991

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Misir Ərəb Respublikasının Kənd Təsərrüfatı və Torpaqların Meliorasiyası Nazirliyi arasında "Misir - Azərbaycan Elmi Tədqiqat Mərkəzi"nin təsis edilməsi haqqında Protokol"u imzalamaq səlahiyyətinin verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 992

MÜNDƏRİCAT 993

T.: 994 12 - 510 24 65
F.: 994 12 - 510 24 87
M.: 994 50 - 213 44 33
e/p.:garisma@mail.ru

Yığılmağa verilmişdir : 15.06.2009
Çapa imzalanmışdır : 20.06.2009
Format : 70x100 1/16
Fiziki ç.v. : 65
Tirajı : 500